QƏZƏNFƏR PAŞAYEV

# NOSTRADAMUSUN



# MÖCÜZƏLİ ALƏMİ

«TƏHSİL» NƏŞRİYYATI
BAKI—2007

R e d a k t o r : *akademik* **Bəkir Nəbiyev**

R ə y ç i : **Ayaz Vəfalı**
***filologiya elmləri namizədi***

P 26 **Paşayev Qəzənfər.** Nostradamusun möcüzəli aləmi. Bakı, «Təhsil», 2007, 760 səh.

***Professor Qəzənfər Paşayevin üzərində yeddi ildən artıq işlədiyi və mühakimənizə təqdim etdiyi kitabında şüurlu həyatınız boyu cavabını tapmaqda aciz olduğunuz, ürəyinizdə şübhə və tərəddüdlərlə götür-qoy etdiyiniz "tale", "qismət", "qəzavü-qədər", "alın yazısı", "yazıya pozu yoxdur" kimi bəşəriyyəti dünya bina olandan bəri düşündürən, əzəli və əbədi problemlər barədə maraqlı məsələlərlə tanış olduqca bənzərsiz şəxsiyyət***

**Mişel Nostradamusu**

***minnətdarlıqla yad edəcəksiniz. Görücünün əsrlərlə öncə yazdıqlarının möcüzəli şəkildə yerinə yetməsi, özündən çox-çox sonra dünyaya gələn bir çox tarixi şəxsiyyətlərin nəinki adlarını, talelərini, hətta hakimiyyət müddətlərini dəqiq göstərməsi, bizim hələlik dərk edə bilmədiyimiz çox mətləblərdən söz açır.***

***"Nostradamusun möcüzəli aləmi" elə bir bilik və həzz mənbəyidir ki, onu oxuduqca qayğı və iztirablarınızı belə unudacaq, yeni bəşəri hisslər və düşüncələrlə yaşayacaqsınız.***

**Kitabın bütün hüquqları müəllifə məxsusdur.**

**P** $\frac{\mathbf{4702060204}}{\mathbf{053}}$ **2007**

**Q.Paşayev**, 2007

*Ağır və gərgin əməyin nəticəsi olan bu əsəri ərsəyə gətirmək üçün ruhi rahatlığımı təmin edən, fikir və qəlbimi lüzumsuz qayğı və həyəcanlardan qoruyan həyat yoldaşım Arəstə Mikayıl qızına ithaf edirəm.*



# ÖMÜR KİTABI

Yaradanın iradəsi və ilahi vergi sayəsində özündən çox-çox sonralar yer üzündə baş verəcək əlamətdar hadisələri tarixi mərhələlər üzrə görmüş Mişel Nostradamusun möcüzəyə bənzər həqiqətlərdən, labüd olaraq baş verəcək hadisələrdən bəhs edən katrenlərini tədqiqat süzgəcindən keçirtdikcə şüurlu həyatım boyu cavabını tapmağa aciz olduğum, ürəyimdə tərəddüd və şübhələrlə götür-qoy etdiyim, "alın yazısı", "tale", "qismət", "qəzavü-qədər", "yazıya pozu yoxdur" kimi bəşəri problemlərə bu ahıl çağımda cavab tapdım. Əslində bu cavabı Yaradanın kəraməti ilə hələ 1999-cu ilin noyabr ayının 26-da taparaq bu kitab üzərində işə başlamışdım. Adlı-sanlı kimyaçı dostum, prof. Dəmir Qəmbərovun 60 illik yubileyi idi. Ziyafətə mən də dəvət olunmuşdum. Lakin bir gün əvvəl anadan olduğum "Qız bürcü" ilə bağlı oxumuşdum: "Hətta kollektiv dəvətlərdən də imtina etməlisiniz. Nəticəsini özünüz görəcəksiniz" (bax: "Yeni Müsavat", 25.XI.1999, №270, s.16).

Necə oldusa ziyafətə gedə bilmədim. Bəlkə bu da tale ilə bağlı idi, bilmirəm. Bir onu bilirəm ki, səhərisi gün xəbər yayıldı ki, "Çeyrançöl restoranı"nda həmin ziyafətin iştirakçıları arasında balıqdan zəhərlənərək ölən və ağır vəziyyətdə xəstəxanaya düşənlər vardır.

Ömrü boyu nücum elminə maraq göstərən, inanan, az-çox tədqiqat aparan bir adam kimi (bax: "Altı il Dəclə-Fərat sahillərində", Yazıçı, Bakı, 1985, s. 130-142) bunu mən Yaradanın sadiq bəndəsinə mərhəməti kimi qiymətləndirdim. Nostradamusun yazdıqları da məni qeyd-şərtsiz bu qənaətə gəlməyə sövq etdi. Onun əsrlərlə öncə yazdıqlarının zəmanəmizdə möcüzəli şəkildə yerinə yetməsi, özündən əsrlərlə sonra dünyaya gələcək bir çox tarixi şəx-

siyyətlərin nəinki adlarını, talelərini, hətta hakimiyyət müddətlərini dəqiq göstərməsi çox mətləblərdən söz açır. Sübuta ehtiyac olmayan aksiomaya çevrilir. Qəti qənaətə gəlməyə imkan verir. Deməli, insan dünyaya gəlməmişdən çox-çox əvvəl onun həyatı proqramlaşdırılırmış. Daha qabağa gedərək deyə bilərik ki, təkcə insanlar deyil, bütün Kainat sistemli şəkildə proqramlaşdırılır, kompyuterləşdirilir və əgər belə demək mümkünsə kodlaşdırılırmış.

Bu baxımdan Qafqaz Müsəlmanları İdarəsinin sədri, tarix elmləri doktoru, professor Şeyxülislam Hacı Allahşükür Paşazadənin fikri də diqqəti çəkir: "Böyük Rəbbimiz hər bir insanın taleyini doğuluşundan **müəyyənləşdirir**"[1].

Maraqlıdır ki, Nostradamusu oxuyarkən insan heç nə ilə müqayisə olunmaz hisslər keçirir, möcüzəli bir aləmlə üzləşir. Sanki tarixin böyük bir dövründə bəşər övladının keşməkeşli həyatında gərdişin hökmü ilə baş verən hadisələrlə yenidən tanış olur, tarixə ekskurs edir.

Bəlkə elə buna görədir ki, yeddi ilə yaxın üzərində işlədiyim, "Ömür kitabı" hesab etdiyim bu əsərin müəyyən hissələri "Ədəbiyyat qəzeti"ndə çap olunanda (08.XII.2000, 29.XII.2000. 02.II.2001, 02.III.2001, 20.IV.2001, 21.IX.2001) adi oxuculardan başlamış tanınmış ziyalılara qədər bir çoxlarının böyük marağına səbəb olmuşdu. "Dirçəliş. XXI əsr" jurnalının qəzetdən götürərək əsərin müəyyən parçalarını çap etməsi (№44, 2001, №46, 2001, №50, 2002, № 54, 2002) də deyilənlərə dayaq olur.

Azərbaycanlı oxucuların bu müstəsna şəxsiyyətin görücülüyü barədə təsəvvürü, demək olar ki, üç-dörd xırda məqalə, İmir Məmmədlinin 1995-ci ildə çap etdirdiyi "Allahın bəlası Nostradamus" kitabçası və Valeh Məhərrəmlinin nəzmə çəkərək yeddi senturiyadan verdiyi nümunələrdən ibarət "Nostradamus. Peyğəmbərlik" kitabı (Bakı, 1995) əsasında bir qədər səthi formalaşmışdır.

---

[1] Bax: Vasim Məmmədəliyev zirvəsi. Bakı, 2002, səh.15.

Biz adı çəkilən məqalə və kitabçalarda nöqsan axtarmaq fikrindən uzağıq. Əksinə, minnətdarlıqla demək istərdik ki, Nostradamusun gələcəyi göstərən katrenləri elə bir abidədir ki, onun daha möhkəm, daha davamlı, daha möhtəşəm olmasında bir kərpic qoyanın da, min kərpic qoyanın da zəhməti təqdirlə yad edilməlidir.

O ki qaldı bizim əsərimizə, onu deyə bilərik ki, müxtəlif ölkələrdən, müxtəlif dillərdə əldə etdiyimiz onlarca sanballı əsər fikir süzgəcindən keçirildikdən sonra Nostradamusun külliyyatı ilk dəfə olaraq bütövlükdə Azərbaycan dilində oxuculara təqdim olunur. Onu da deyim ki, Nostradamusun görücülüyü ilə bağlı gerçəkləşən lap son hadisələri də içinə alan bu əsərdə imkanımız olub ki, bizə qədər aparılmış başlıca tədqiqat əsərləri ilə müqayisələr aparıb düzgün nəticəyə gələk. Görücünün katrenlərini, bir çox tədqiqatçılar kimi, tarixilik və maraqlı olmağı baxımından seçərək ölkələr, mövzular üzrə qruplaşdırıb təqdim edə bilərdik. Kitab maraqla da oxunardı. Lakin belə olan halda, bir tərəfdən Nostradamus yarımçıq öyrənilərdi, digər tərəfdən də istədiyin katreni tapmaq böyük problemə çevrilərdi. Məhz bunları nəzərə alaraq bütün senturiya və katrenləri elə ardıcıllıqla vermişik ki, oxucu istədiyi katreni çətinlik çəkmədən, vaxt itirmədən tapa bilsin. Oxucuları əsas məqsəddən yayındırmamaq naminə, şərhlərdə keçmişlə bağlı olan, o qədər də maraq doğurmayan katrenlərdən geniş söz açmağa lüzum görmədik. Bununla belə, tarixdə xüsusi əhəmiyyət kəsb edən hadisə və şəxsiyyətlərlə bağlı katrenləri isə şərh edəndə "xəsislik" etmədik. Nəzərə aldıq ki, tarix ibrət məktəbidir. İnsanlar ondan faydalana bilərlər.

Şübhə yoxdur ki, oxucuları böyük görücünün Azərbaycanla bağlı katrenlərinin olub-olmaması da çox maraqlandırır.

Qürur hissi ilə bəyan edirəm ki, görücünün Azərbaycanla bağlı bir neçə katreni vardır. Bu katrenlərdə Nostradamusun dövründən tutmuş zəmanəmizə qədər baş verən hadisələrdən və tarixi şəxsiyyətlərdən söz açılır. (Kitabın sonunda "Ölkələr, ibrətamiz hadisələr və şəxsiyyətlər" bölməsində "Azərbaycan" hissəsinə bax.)

Əsəri yazarkən ingilis, rus, türk, ərəb, fars dillərində olan və ya fransız dilindən bu dillərə tərcümə edilmiş bir çox kitablardan bəhrələnmişik. Onu da deyək ki, Nostradamusla bağlı tədqiqatların əksəriyyəti ingiliscədir və bu mənbələrdən bol-bol istifadə etmişik. Bir çox ifadə və sözlərin dəqiqləşdirilməsində pof. Oruc Musayevin rəhbərliyi ilə yazılmış, dünya lüğətçiliyi tələblərinə tam cavab verən, fəxr etməyə layiq, sanballı və böyük həcmli "İngiliscə-Azərbaycanca lüğət" (Bakı, 2003, 1674 səhifə) köməyimizə gəldi.

Kitabın üzərində işləyərkən müəllifə dəyərli məsləhətlər verən, əsərin əlyazmasını Böyük Ziyalı səliqə-sahmanı ilə redaktə edən, inam və iman sahibi, akademik Bəkir Nəbiyevə, dostum Ayaz Vəfalıya və eləcə də katrenlərin Azərbaycan dilinə hərfi tərcüməsi kimi ağır işin öhdəsindən gəlmiş tələbə yoldaşım Şamil Zamana minnətdarlığımı bildirirəm.

Deməliyəm ki, görücü hər yüz katreni bir yerə yığaraq "Senturiya" adı altında kodlaşdırdığı, məhz buna görə də çətin anlaşılan, oxucuları və hətta tədqiqatçıları belə çaşbaş salan, poetik cəhətdən zəif olsa da, bu katrenlər özü bir aləmdir. Onlar bizə bilmək istədiyimiz gələcək aləmdən söhbət açır. Məna və dəyərinə görə Nostradamusun katrenləri heç şeydən, heç kimdən asılı olmayan, bütöv və tamamilə sərbəst bir aləmdir. Bu aləmin daxilinə vardıqca insan riqqətə gəlir. Bu aləm insanın istəyindən asılı olmayaraq gerçəkləşir. Budur Nostradamusun möcüzəli aləminin sirri, sehri və gücü.

Əziz oxucu, Allahın iradəsi ilə bizə iki əsrin və iki minilliyin qovuşduğu zaman kəsiyi qismət olmuşdur. Elə bunun özü böyük möcüzə, alın yazısıdır. Mühakimənizə təqdim olunan bu kitabın özü də taledən gələn qismətdir. Şübhə etmirik ki, əsər boyu "alın yazısı", "tale", "qismət", "qəzavü-qədər", "yazıya pozu yoxdur" kimi bəşəriyyəti dünya bina olandan bəri düşündürən, reallığa söykənən, əzəli və əbədi problemlər barədə maraqlı məsələlərlə tanış olduqca bənzərsiz şəxsiyyət Mişel Nostradamusu minnətdarlıqla yad edəcəksiniz.

***Ulduzlar göstərirlər ki, Mişelin taleyi günəş şüasına bənzəyir. Elə bir şüa ki, zülmətləri yarıb keçəcək, yer üzərində yaşayanların hamısının yoluna işıq saçacaqdır.***

**Mişel Nostradamus dünyaya gələndə ana babası Jan de Sen-Reminin öz kürəkəninə yazdığı məktubdan**

# İLAHİ VERGİ

Adı tarixdə əbədi qalan, sönməz ulduza çevrilən astroloqlar çox olmuşlar. Lakin bu möcüzəli aləmin ən parlaq ulduzu, bütün dövrlərin ən qudrətli görücüsü birmənalı şəkildə Mişel Nostradamus olmuşdur. Neçə əsrlərdir tədqiqatçılar onu "görücülər görücüsü" adına layiq görürlər. Maraqlıdır ki, uzaq gələcəkdə baş verəcək bir çox səadətli və faciəli hadisələri gördüyü kimi, gələcəkdə onu "peyğəmbər" adlandıracaqlarını da görmüş və buna öz etiraz səsini ucaltmışdı. 1555-ci ildə çap etdirdiyi "Mişel Nostradamusun görücülüyü" adlı ilk kitabında o vaxt 2 yaşı olan oğlu Sezara ünvanladığı vəsiyyətnamədə bu məsələyə toxunmuşdur: "Oğlum, ola bilsin ki, insanlar sənə deyəcəklər ki, mən peyğəmbər olmuşam. Lakin belə yüksək ad həqiqətə uyğun deyil. İndi Peyğəmbər adlandırılanlar əvvəllər "görücü", "münəccim", "bilici" kimi tanınırdılar. Oğul balam, o şəxs Peyğəmbər adlanır ki, adi insan gözü görməyən məsələləri görür. Peyğəmbərə, şübhəsiz, Yaradanın iradəsi və vəhyin nuru ilə ilahi və dünyəvi həqiqətlər məlum olur. Lakin bu, Peyğəmbərin yalnız öz zəmanəsinə aid olduğuna görə onun nitqi bağlanır".

Maraqlıdır ki, Nostradamus həm zəmanəsində, həm də çox-çox sonralar labüd olaraq dünyada baş verə biləcək əlamətdar hadisələri qabaqcadan görmüş və gördüyünü bəyan edərək gələcək nəsillərə əmanət qoymuşdur. Biz "labüd olaraq" ifadəsini təsadüfi işlətmədik. Nostradamusun dahiyanəliklə bəyan etdikləri vaxtı çatdıqca möcüzəli şəkildə yerinə yetmiş və gerçəkləşməkdə da-

vam edir. O, digər görücülərdən fərqli olaraq, nəinki baş verəcək əlamətdar hadisələri, onların vaxtını, hətta özündən əsrlərlə sonra dünyaya gələcək bəzi tarixi simaların adlarını və onların hakimiyyət müddətini də tam dəqiqliklə göstərmişdir.

Nostradamus 450 il öncə nəzmə çəkdiyi katrenlərdə (dördlük – dörd sətirdən ibarət şeir parçası) Napoleonun düz 14 il hakimiyyətdə olacağını **(bax:7 k13)**[1], Pasterin edəcəyi böyük kəşfi bəyan edir. Göstərir ki, əsrlərlə insanlardan gizlənən üzə çıxarılacaqdır. Hamı Pasterə yarımallah kimi təzim edəcəkdir (1 k25).

Pasterin bu kəşfi ilə bağlı sonralar Britaniya Ensiklopediyasında yazacaqlar: "Yarımallah Paster indi öz sahəsində zamanın ən böyük alimi kimi qəbul olunub".

Fransada De Qoll adlı birisi üç dəfə rəhbər seçiləcək (9 k33). Almaniyada Hisler (Hitler) adlı birisi 11 il hakimiyyətdə olacaq. Çox qanlar tökəcək. Axırda ordusu da, özü də məhv olacaq (5 k29). Onun başına nə gələcəyini heç kim bilməyəcək (3 k58). Nostradamus Hitler barəsində fikirlərini Fransa kralı II Henriyə göndərdiyi Açıqlamada davam etdirir: "Bu, iradəcə güclü adamın dili əlində cida olan dəlidən daha qorxulu olacaq. Zəmanəsinin yetişdirməsi olan bu antixristin hakimiyyəti çox sürməyəcəkdir" (Açıqlamanı kitabda verdiyimizdən məxəz kimi göstərməyəcəyik – Q.P.). Görücü Frankodan da danışır: "İspaniyada Riveradan sonra hakimiyyətə Franko gələcəkdir (9 k16)" və s.

Nostradamus Neptun planetindən söz açır (4 k33). Halbuki, bu planet onun ölümündən 280 il sonra, 1864-cü ildə fransız və alman astroloqları Jan Jozef Leverye və İohann Qotfred Alle tərəfindən kəşf edilmişdir. Görücü Böyük Britaniyadan bəhs edir. Hərçənd Böyük

---

[1] Biz qısaldılmaları ümumi qəbul olunmuş formada aparmışıq. Məsələn, Napoleonla bağlı senturiya 9, katren 13 belə verilib: 9 k13. Pasterlə bağlı senturiya və katren 1 k25 kimi verilib və s.

Britaniya onun ölümündən 152 il sonra yaranmışdı (3 k70). Görücü Anqlikan sözündən bəhs etmişdir (8 k5). Halbuki, ingilislər bu sözü yalnız 1635-ci ildən işlətməyə başlamışdılar. O, eləcə də özündən 210 il sonra yaranmış ABŞ dövlətindən (1 k50), ölümündən 250 il sonra yaranmış ABŞ Demokratlar Partiyası (1828-ci il) və onun rəmzindən – uzunqulaq və qatırdan söz açmışdır (2 k61).

Kitabın sonunda verdiyimiz "Katrenlərdə adı çəkilən tarixi şəxsiyyətlərin göstəricisi" çox mətləblərdən xəbər verir.

Şübhəsiz ki, bu möcüzə adamın Sovet İttifaqı ilə bağlı dedikləri azərbaycanlı oxucular üçün də maraqlı olacaqdır. Nostradamus 27 iyun 1557-ci ildə Fransa kralı II Henriyə, əslində gələcək nəsillərə ünvanladığı Açıqlamada yazmışdı: "Oktyabr ayında böyük inqilab olacaq. Çoxları deyəcəklər ki, bu indiyə qədər baş vermiş inqilabların ən dəhşətlisidir. Sanki həyat məhvərindən çıxacaq. Yer üzünü zülmət bürüyəcək. Yazda və bundan sonra böyük dəyişikliklər baş verəcəkdir. Krallıqlar məhv olacaq, bütün bunlar Yeni Babilistanın meydana gəlməsinə, iyrənc əxlaqsızlığa, çox pis mənəvi düşkünlüyə gətirib çıxaracaqdır…. Sanki bu şərq səltənətində insanların əxlaqının pozulması ucbatından Ulu Tanrı Şeytanı zülmətdən azad etmiş və bunun nəticəsində Qüdrətli köpək (Stalin – Q.P.) və Doxan-Qoq-Maqoq (qorxulu və dəhşətli adam) dünyaya gələ bilmişlər. Kilsələrdə, məscidlərdə, ibadətgahlarda elə oyunlar çıxaracaqlar ki, gözdən və əldən məhrum olmuş qırmızılar da, ağlar da bunun dəhşətli nəticələrini görə bilməyəcəklər… Onlar ölkənin üçdə iki hissəsini məhv edəcəklər. Üçdə biri qalacaq. Lakin artıq heç kim tarla və evlərin həqiqi sahiblərindən neçə nəfərin sağ qalacağını müəyyən edə bilməyəcəkdir. Onlar törətdikləri cinayətlərə görə cəzadan yaxa qurtara bilməyəcəklər. 73 il 7 ay davam edən hakimiyyət əllərindən alınacaqdır".

Burada bizim üçün anlaşılmayan bir şey yoxdur. "Krallıqlar dağılacaq" məfhumu altında "ölkələr müstəqilliyini itirəcək və SSRİ



***Kiçik Mişel və babası Jan de Sen-Remi***

yaranacaq", "Yeni Babilistan" – "Çoxmillətli materialist Sovet dövləti", "Şərq səltənəti" – "Sovetlər ölkəsi" mənasında işlənmişdir.

Adamı heyrətə gətirən odur ki, sanki Nostradamus müasirimiz olub. Bizimlə bərabər bu ağrılı-acılı olayları yaşayıb, müşahidə edib. Göründüyü kimi, Nostradamus Sovet hakimiyyətinin 73 il 7 ay çəkəcəyini də peyğəmbərcəsinə, tam dəqiqliyi ilə göstərmişdir. 26 oktyabr 1917-ci il (köhnə təqvimlə) tarixdən 1991-ci ilin avqustuna qədər olan vaxtı nəzərə alsaq düz 73 il 7 ay edər.

Əsrlərlə adı əfsanəyə çevrilən, dünyanın ən möcüzəli şəxsiyyətlərindən biri olan Mişel Nostradamus intibah dövründə, 1503-cü ildə Fransada katolik dinini qəbul etmiş yəhudi ailəsində anadan olmuş, dünyasını dəyişdiyi 1566-cı ilə qədər qeyri-adi sevinc-

li və məşəqqətli həyat yolu keçmişdir. Mişelin hər iki babası Pyer Nostradam və Jan de Sen-Remi həkim, astroloq və əlkimyagər idilər. Onlar saray əyanlarını müalicə edir, nücum elmi ilə məşğul olur, şahzadə qızlar və xanımlar üçün ulduz cədvəli hazırlayırdılar. Bir sözlə, onun babaları zəmanəsinin savadlı adamlarından olmuşlar. Mişel anadan olanda babası Jan de Sen-Remi kürəkəninə yazmışdı: "Ulduzlar göstərirlər ki, onun taleyi günəş şüasına bənzəyir. Elə bir şüa ki, zülmətləri yarıb keçəcək, yer üzündə yaşayanların hamısının yoluna işıq salacaqdır".




***Monpelye Universitetinin Tibb fakültəsi***

Mişel ilk təhsilini babalarından almışdı. Balaca Mişelin riyaziyyat, dillər, astrologiya və astronomiya üzrə qabiliyyəti hamını mat qoymuşdu. O, 1519-cu ildə ümumi təhsilini başa vurmaq üçün Avinion şəhərinə gedir. 1522-ci ildə isə məşhur Monpelye Universitetinin Tibb fakültəsinin tələbəsi olur. Bütün vaxtını kitablarla keçirən

Nostradamus o vaxt tüğyan edən tauna qarşı mübarizəyə girişir və tələbələr arasında seçilir. Düşmənə qalib gəlmək üçün onu gərək hərtərəfli öyrənəsən – deyirlər. Bu məqsədlə Mişel taun xəstəliyinə dair neçə-neçə kitab və hesabatları nəzərdən keçirir. 1525-ci ildə tauna qarşı ən yaxşı həkim kimi məşhurlaşır. Hətta ona Monpelye Universitetində elmi ad verib orada müəllim kimi saxlayırlar. Üç ildən sonra Nostradamus ölkənin cənubunda baş alıb gedən tauna qarşı mübarizə dəstəsinə qoşulur. Burada ən hörmətli həkim kimi tanınır. 1534-cü ildə məşhur şair, həkim və alim Jül Sezar Skaliqer onu Ajen şəhərinə işə dəvət edir. Mişel bu dəvəti məmnuniyyətlə qəbul edir. Ona görə ki, yuxusunda tez-tez özünü Ajendə Nikol adlı gözəl, sarışın qızın yanında görürdü. Ajen şəhərində keçirdiyi üçüncü gün Mişel 20 yaşlı gözəl Nikolla tanış olur və dərk edir ki, bu taledən gələn qismətdir (bəzi məxəzlərdə onun adının Anna və ya Adrieta olduğu göstərilir – Q.P.). Üç aydan sonra evlənirlər. Dalbadal iki oğlanları olur. Xoşbəxt günlərini yaşadıqları bir vaxtda taun onu cilovlayan Nostradamusdan intiqam alır. Nikol və hər iki oğlu taundan məhv olurlar. Çoxlarını ölümün pəncəsindən qurtaran Nostradamus bir daha dərk edir ki, olacağa çarə yoxdur. Baş götürüb Ajendən gedir. 1538-1545-ci illər arası Fransanı və qonşu ölkələri gəzir. Onun ölkəni tərk etməsinə iki səbəb vardı. Birinci səbəb o idi ki, bir çoxlarını ölümdən qurtaran Nostradamusun arvadını və oğullarını xilas edə bilməməsi guya şeytanla dostluq etməsinin nəticəsidir. Elə bu kifayət idi ki, din xadimləri onun tonqalda yandırılmasına hökm versinlər. İkinci səbəb isə o idi ki, bir dəfə naşı heykəltəraşın müqəddəs Mariyaya düzəltdiyi heykələ baxanda ehtiyatsızlıq edərək istehza ilə "bu adam şeytan düzəldir" – demişdi. Buna görə də onu inkvizasiya məhkəməsinə çağırmışdılar. Ajeni tərk etməsinin ikinci səbəbi bu idi. Lakin sonralar ölkəyə qayıdır və 1546-cı ildə Eks şəhəri və Provans vilayətində onu tauna qarşı mübarizə qrupuna rəhbər təyin edirlər. Burada Nostradamus böyük uğur və şöhrət



***Salon şəhərində. Nostradamusun ev muzeyi***

qazanır. Epidemiyanın qarşısını aldığına və profilaktikanın yollarını dəqiq göstərdiyinə görə Eksin bələdiyyəsi onu şəhərin fəxri vətəndaşı adına layiq görür və ona ömürlük pensiya kəsir.

Nostradamus 1547-ci ildən vəfat etdiyi 1566-cı ilə qədər Provans vilayətinin Salon şəhərində yaşayıb və böyük hörmət qazanıb. İndi Salon şəhərinin girəcəyində, ən görkəmli yerdə diqqəti çəkən lövhə üzərində yazılıb:

"Dahi Nostradamusun şəhəri Salonu ziyarət edin!", "Peyğəmbərin muzeyinə baş çəkməyi unutmayın".

Nostradamus ruhi rahatlığını və xoşbəxtliyini bu şəhərdə tapıb. Belə ki, 1547-ci il noyabr ayının 26-da dul qadın Anna Ponsar Jemelye ilə evlənib. Bu nikahdan üç oğlu: Sezar (1553), Şarl (1556), Andre (1557) və üç qızı: Madlen (1551), Anna (1558), Diana (1561) olub.

Nostradamus təbabət üzrə bir neçə kitabın müəllifidir. Dezinfeksiyaedici toz dərmanlarının, dişlərin təmizlənməsi üçün diş tozunun, müxtəlif pomadaların (kosmetik yağ), mürəbbələrin, ətirlərin, sabunların, distillə olunmaq üçün suların, arıqlamağın reseptlərini Nostradamus hazırlamış və kitab halında buraxmışdır.

Yoluxmuş yerlərin dezinfeksiyası və bakteriyaların mövcudluğu barədə təbabətdə bəlkə də ilk dəfə söz açan da Nostradamus olmuşdur. Hərtərəfli savada malik olan Nostradamusun təkcə təbabətə aid yazdıqları onun tarixdə qalması üçün kifayət edərdi. Lakin onun bütün zamanların adamına çevrilməsində görücülüyünün rolu ölçüyəgəlməzdir. Danılmaz faktdır ki, təbabətdəki uğurları onun görücülük qabiliyyəti ilə də bağlı olmuşdur.

Məlumdur ki, bir çox görücülər, məsələn Edqar Keys, Vanqa və başqa insanların müalicəsi yollarını göstərmiş, onlar şəfa tapmışlar. Əslində, bakteriyaların varlığı barədə məlumatı da Nostradamus əvvəlcə trans vəziyyətində olanda (bax: 1 k25), sonra isə yuxuda özündən üç yüz il sonra dünyaya gələcək Lui Pasterlə söhbəti zamanı əldə **etmişdi[1].**

Həqiqət naminə deməliyik ki, bir çox kəşflər yuxuda edilmişdir. Böyük fransız alimi, misirşünaslıq elminin banisi Şampolyon Jan Fransua (1790-1832) qədim misirlilərin heroqliflərinin oxunması (deşifrələnməsi) üzərində gecə-gündüz işləmiş, yorulub əldən düşərək iki gün aramsız yuxuya getmiş və heroqliflərin kəşfi yuxuda ilahi nurla ona çatdırılmışdı. Böyük rus alimi D.İ.Mendeleyev də kimyəvi elementlərin dövri qanununu yuxuda kəşf etmişdi.

Maraqlı budur ki, alimlərin ixtira və kəşfləri təbiətdə mövcud olan qanunlardır. Bəs qanunların yaradıcısı kim olmuşdur? – sualını ortaya qoyanda isə böyük Füzulinin məşhur misraları keçilməz sədd kimi qarşıda durur:

---

[1] Bax: Г.Крылов. Так предсказал Нострадамус. Санкт-Петербург, 2000, стр. 51-52.

**Əndişeyi zat qılmaq olmaz.**
**Bilmək, bu yetər ki, bilmək olmaz.**

Bu o deməkdir ki, heç nəyin kökünə insan ağlı, insan idrakı gedib çıxa bilməz. Bu, Yaradanla bağlı məsələdir.

Nostradamus görücülüyünü 47 yaşında olanda açıqlayıb. "Misir müəmmaları" adlı kitabla bağlı görücülüyünün bəzi məqamlarından söz açan astroloq, sonralar gələcəklə bağlı görücülüyünü poeziya dili ilə müəmmalı şəkildə izhar etməyə başlayıb. Katrenləri yazarkən əsasən dörd dildən: klassik fransız, latın (o, latın dilinin başqa dillərlə qarışacağını və ölü dillər sırasına keçəcəyini də əvvəlcədən görmüşdü – Q.P.), yunan, italyan və az da olsa qədim yəhudi və ərəb dillərindən istifadə etmişdir. Katrenləri yazarkən onları xronoloji ardıcıllıqla düzməmişdir.

Görücünün oğlu Sezara ünvanladığı məktubundan göründüyü kimi, O, hər yüz katreni bir yerə yığaraq "Senturiya" adı altında kodlaşdırmışdır. Nostradamus katrenlərin sayının 1000-ə qədər olacağını göstərmişdir. Maraqlıdır ki, müxtəlif məxəzlərdə katrenlərin sayının 942, 965, 970 olduğu iddia olunur. O da diqqəti çəkir ki, VII Senturiyada cəmi 48, XI Senturiyada 2, XII Senturiyada isə 11 katren vardır. Onu da deyək ki, 1550-ci ildən başlayaraq görücü aylıq və illik almanaxlar da buraxmışdır.

Almanaxlarda yer alan katrenlərin sayının 141 olduğu göstərilir.

Təəssüflə qeyd etməliyik ki, görücünün əsas katrenləri bəzən onun aylıq və illik almanaxlarında gedən katrenlərə qarışdırılmışdır. Məhz buna görədir ki, katrenlərin sayı gah 942, gah 965, gah da 970 göstərilir. Nostradamusşünaslar bu bağışlanılmaz səhvi görücünün şagirdi Jan Savinyenin günahı hesab edirlər. Məsələn, onun Ermənistan – Azərbaycan münaqişəsinə – Qarabağ müharibəsinə həsr edilən katreni 1560-cı ilin sentyabr ayı üçün almanaxına daxil edilərək 54 saylı katren adı altında verilmişdir. O dövrə heç dəxli olmayan katren belədir:

**Saçları qısa qırxılmışları (yumrubaşları) silahdan**
**məhrum edəcəklər.**
**Bu, münaqişənin müddətini xeyli uzadacaq.**
**İçki Atası (İçki düşkünü) ildırım sürətli**
**albanlara qarşı kələk işlədəcək.**
**Özününkülərdən ayrı düşənlər məhv olacaq.**

Əcnəbi tədqiqatçılar "Albaniya" deyəndə müasir Azərbaycan və azərbaycanlıların nəzərdə tutulduğunu etiraf edirlər. Nostradamusşünas Bardo Kidoqo yazır: "Albaniya deyəndə nədənsə insanlar Balkanları göz önünə gətirirlər. Bu təsəvvür düz deyildir. Əslində, qədim tarix də və Nostradamus da buna işarə edir ki, (mütləq bax: 5 k91), Albaniya Qafqaz və İran arasında indi Azərbaycan kimi tanınan ərazidir".[1]

Tədqiqatçı Con Houq və başqaları da eyni fikirdədirlər. Con Houq yazır: "Qədim Albaniya Zaqafqaziya regionudur. Katren XX əsrin 90-cı illərində baş verən Ermənistan – Azərbaycan münaqişəsindən bəhs edir. 1993-cü ilin aprel-iyun aylarında erməni ordu hissələri özünün həlledici qələbəsini əldə edərək Dağlıq Qarabağı Azərbaycandan ayırdı. 90-cı illərin ortalarında Azərbaycan – Ermənistan münaqişəsi səngidi.[2]

Yeri gəlmişkən qeyd edək ki, Pompeyin Qafqaza yürüşünün iştirakçısı Feofan Mitilinskidən üzü bu yana Ptolemey, Strabon, Plutarx başda olmaqla bütün səyyahlar və tədqiqatçılar Qafqaz Albaniyası deyəndə indiki Azərbaycan ərazisini nəzərdə tutmuş və albanların azərbaycanlıların əcdadları olduqlarını göstərmişlər.

Qarabağ münaqişəsi hamıya tanışdır. Məlumdur ki, münaqişə ərəfəsində ruslar azərbaycanlıların əlindən ov tüfəngini də alırdılar. Lazımi hərbi sursat və müasir silahların olmaması ucbatından, katrendə göstərildiyi kimi, münaqişəyə son qoyulmadı. Lakin sonralar başqa ölkələrdən silah əldə edən Azərbaycan ordusu ildırım

[1] Bardo Kidoqo. Nostradamus. London, 1994, səh. 32.
[2] Con Houq. Nostradamusun külliyyatı. Britaniya, 2001, səh. 399.

sürəti ilə Füzuli – Cəbrayıl istiqamətində hücuma keçib çox yerləri azad edəndə, ermənilər vahimə içində qaçmağa başladılar. Rusiyanın prezidenti Boris Yeltsin (İçki düşkünü) Azərbaycan rəhbərliyinə müraciət etdi və məsələni qan tökmədən həll etməyə söz verdi. Sözarası Rusiyanın Ermənistanla hərbi sazişinin olduğunu da yada saldı. Atəşkəs əldə edilsə də, münaqişə həll olunmadı.

Katrenin 4-cü sətrində söhbət Qarabağda tutularaq Ermənistana aparılan azərbaycanlılardan gedir. Katrenin 2-ci sətrindən göründüyü kimi, münaqişə bizim xeyrimizə həll olunacaq.



***Nostradamus iş otağında***

Nostradamusun iş üsulu belə olmuşdur. Axşamlar köməkçisi Jan de Şavinye ilə evin damındakı xəlvəti otağa çəkilərdilər. Mişel su ilə dolu tunc ləyəni otağın ortasında səma görünən yerdə qoyar, üstünə içində ətirli maddələr olan boşqab yerləşdirərdi. Bu

maddələrə qurudulmuş çətənə və dəfnə yarpaqları qarışdırardı. Sonra onu alışdırar və oturanda çox çökən, yumşaq qoltuqlu kürsüsünə əyləşərdi. Çubuqla suyun üzünü dalğalandırardı. Tezliklə vəcdə gələrək tanınmaz hala düşər, real aləmdən uzaqlaşar, fövqəlbəşəri xüsusiyyətlər kəsb edər, özünün dediyi kimi "indiki zamandan keçmişə və gələcəyə baş **vurar**"[1], əsrlərlə sonralar baş verəcək hadisələrdən danışardı.

Jan isə onun dediklərini stenoqram şəklində yazardı. Səhərisi gün Nostradamus həmin hadisələrin vaxtını hesablayar və onları nəzmə çəkərdi. Onun nəsillərə əmanət qoyub getdiyi, hər biri böyük mətləblərdən söz açan, tarixin müəyyən zaman kəsiyini əhatə edən, birgə götürüldükdə tarixi salnamə təsiri bağışlayan əvəzsiz katrenləri beləcə yaranmışdır.

Burada maraq və tərəddüd doğuran bir məsələdən söz açmaq yerinə düşərdi. İnsan indiki zamandan keçmişə və gələcəyə baş vura bilərmi?

İnsan yatarkən bunun baş verdiyi "Qurani-Kərim"in Əz-Zumər ("Zümrələr") surəsində bəyan edilmişdir. Səkkizinci ayədə göstərilir ki, yuxu zamanı ruhun bədənlə əlaqəsi kəsilir. Deməli, insanın ruhu keçmişə və gələcəyə səyahət edir. Gələcəklə bağlı yuxuda görünənlərin çin olması bununla bağlıdır.

Alimlər də şüurun keçmişə və gələcəyə səyahətini istisna etmir, əksinə, təsdiqləyirlər. Təbabət üzrə Nobel mükafatı laureatı (1912) Aleksis Karrel yazırdı ki, bəzi adamlar zaman çərçivəsində səyahət etmək qabiliyyətinə malik olurlar. Onların şüuru keçmiş və gələcək hadisələri görmək üçün bədənlərindən ayrılır. Onlar incəliklərinə varmadan ümumi mənzərəni görürlər. Aleksis Karrelə görə Nostradamus "zamanda hərəkət etmək" qabiliyyətinə malik **olub**[2].

Doğrudan da, Nostradamusun zamanda hərəkət edərək gələcəkdə labüd olaraq baş verəcək hadisələrin vaxtını, yerini, böyük

---

[1] Maksim Qenin. Nostradamus. Avropa tarixinin Peyğəmbəri (rusca). Xarkov, 1991, səh. 151.

[2] Maksim Qenin. Göstərilən əsəri, səh. 99-100.

kəşfləri, hətta tarixi şəxsiyyətlərin adlarını dəqiq göstərməsi adamı heyrətə salır.

Mişelin görücülük qabiliyyəti lap uşaqlıqdan özünü göstərmiş, yaşadolduqca daha da güclənmişdi. O, qeyri-adi uşaq imiş. Saatlarla tənha oturub gözünü bir nöqtəyə zilləyərmiş. Bir də görərlərmiş ki, gözündən yaş tökülür. Anası soruşanda ki, niyə ağlayırsan? Səbəbini aydınlaşdıra bilməzmiş. Bir gün stolun altına girib zar-zar ağlayırmış. Anasının sualına cavab olaraq, “Mənim Butona yazığım gəlir” – demişdi. Anası pəncərədən həyətdə gəzən iti göstərərək Mişeli sakitləşdirməyə çalışmışdı. Lakin gecə Buton bərk zingildəyərək ölmüşdü. Bir dəfə də anası Mişeli babasıgildən gətirəndə evdən aralanmamış o, geri qaçaraq babasını qucaqlamış və göz yaşı tökmüşdü. Həmin gecə babası Jan Sen-Remi yıxılmış və dünyasını dəyişmişdi.

Bir dəfə tələbə yoldaşlarından birinə demişdi ki, diqqətli olsun, onu şallaqlayacaqlar. İki gün sonra həmin tələbəni oğurluğa görə ictimai yerdə şallaqlayaraq Universitetdən qovmuşdular.

Bir gün isə yolda gənc keşişlə rastlaşır. Gözlənilmədən diz çökərək onun paltarının ətəyini öpür. Sən nə edirsən? – deyə soruşanda Nostradamus ikinci dəfə hamını təəccübləndirir: “Gələcək Papanın paltarını öpürəm” – deyir.

Həmin gənc – Feliçe Peretti həqiqətən də Nostradamusun ölümündən on doqquz il sonra Roma Papası seçilir.

Nostradamus ölüm gününü də dəqiq bilib. 1566-cı il iyun ayının axırlarında təqvimdə yazmışdı: “Burada ölüm yaxınlaşır”.

Nostradamusun köməkçisi və tərcümeyi-halını yazan Jan Şavini bir axşam “Sabaha qədər!” – deyib onunla salamatlaşanda: – “Sabah sübhçağı mən dünyamı dəyişəcəyəm. Məni bir daha sağ görməyəcəksiniz” – sözlərini eşidir və doğrudan da səhərisi gün onun öldüyünü qeyd edir.

Nostradamusun peyğəmbərcəsinə gələcəyi görməsi 1556-cı ildə çıxan kiçik həcmli almanaxına yazdığı ön sözdən də məlum

olur: **“Mən indi sağam. Dünyamı dəyişəndən sonra da məni əbədi ölümsüzlük gözləyir. Mənim adım fiziki ölümdən çox-çox sonralar da dünyada yaşayacaqdır”.** Oğlu Sezara yazdığı məktubda isə çəkinmədən qeyd edirdi: **“Mən bilirəm ki, yazdıqlarımı labüd olaraq şan və şöhrət gözləyir”.**



***Nostradamusun əbədi uyuduğu Sent-Laurent kilsəsi***

Ölümünə az qalmış kilsədə dəfn olunmaq üçün yer alır, özü barəsində bir neçə katren yazır və göstərir ki, ölüm onu çarpayı ilə kürsü arasında haqlayacaqdır. Doğrudan da, 17 iyul 1566-cı ildə onu çarpayı ilə kürsü arasında dünyasını dəyişmiş tapırlar.

Hələ bu harasıdır. Görünür ölümündən əvvəl Nostradamus bəzi məsələləri həyat yoldaşı ilə məsləhətləşibmiş. Onun baş daşında latınca yazılmışdır: “Burada ilahi vergi sayəsində ulduzların təsiri altında gələcəkdə baş verəcək hadisələri insanlara açıqlayan Mişel Nostradamus uyuyur. O, bərəkətli 1566-cı ilin iyul ayının 17-

də 63 il, üç ay 17 gün ömür sürdükdən sonra Provans vilayətinin Salon şəhərində dünyasını dəyişmişdir. Ey gələcək nəsillər, nə bu nəşə toxunun, nə də ona həsəd aparın”.

Lakin 1791-ci ildə inqilab vaxtı üç əsgər başdaşı yazısına əhəmiyyət verməyərək qəbri açıblar. Toplaşanlar skeletin boynuna asılmış lövhəni və lövhədə 1791 rəqəmini gördükdə mat qalıblar. Deməli, Nostradamus qəbrinin təhqir ediləcəyi ili də dəqiq görmüşdü. Xalq arasında şayiə gəzirmiş ki, kim Nostradamusun kəlləsindən şərab içsə görücü olacaqdır. Odur ki, əsgərlərdən biri onun kəlləsinə şərab tökərək içib. Lakin tezliklə əcəl gülləsinə tuş olub. Bələdiyyə başçısı isə Nostradamusun qəbrinin toxunulmazlığını təmin edib.

Nostradamusun ilk kitabı 1555-ci ilin may ayında işıq üzü görüb. “Mişel Nostradamusun görücülüyü” adlanan bu kitab cəmisi 86 səhifədən ibarət olsa da, kitabda 353 katren və Nostradamusun oğlu Sezara yazdığı məktub verilmişdir. Bu kitabın iki orijinal nüsxəsi mövcuddur. Onlardan biri Vyanada Əsaslı kitabxanada, ikincisi isə Fransada – Albi şəhər kitabxanasındadır.

Nostradamusun bu kitabı ilk vaxtlar, kral sarayı da daxil olmaqla, heç kim tərəfindən ciddi qəbul olunmamışdı. Ömrünü astrologiya elminə həsr edən görkəmli Amerika alimi D.Fişer “Görücülük” adlı sanballı monoqrafiyasında doğru olaraq qeyd edir ki, Nostradamusun gələcək haqqında yazdıqlarını yalnız hadisə baş verdikdən sonra anlamaq olur. Həyatda yerini alana qədər isə anlaşılmaz, mənasız misralar təsiri bağışlayır. Əslində buna görədir ki, Nostradamusun birinci kitabı laqeydliklə qarşılanıb. Onun “Görücülük” adlanan ikinci kitabı 1557-ci ildə çap olunub. Bu kitabda 286 yeni katren yer almışdı. Kitab böyük marağa səbəb olmuşdu. Bu kitabın surətinin bir nüsxəsi Budapeştdə – Milli kitabxanada, bir nüsxəsi isə Moskvada Lenin adına kitabxanada yer alır.

Nostradamusşünasların ümumi rəyinə görə görücünün katrenlərini əhatə edən kamil nüsxə 1568-ci ildə çap olunmuş kitabdır.


LES
PROPHETIES
DE M. MICHEL
NOSTRADAMVS.
Dont il en y à trois cents qui
n'ont encores iamais
esté imprimées.

A LYON,
Chez Antoine du Rosne.
1557

**"Nostradamusun görücülüyü" kitabının 1557-ci il çapı**


LES
PROPHETIES
DE M. MICHEL
NOSTRADAMVS.
Dont il y en a trois cens qui
n'ont encores iamais esté
imprimées.
Adioustées de nouueau par
ledict Autheur.

A LYON,
PAR BENOIST RIGAVD
1568.
Avec permission.

**Görücünün 1568-ci ildə çap olunan kitabının üz qabığı**

1568-ci il nəşrinin əslinin bir nüsxəsi Fransada, bir nüsxəsi isə Drezdendə – İctimai kitabxanada saxlanılır.

Bundan əlavə, artıq qeyd etdiyimiz kimi, görücü 1550-ci ildən başlayaraq ömrünün sonuna qədər aylıq və illik təqvim – almanaxlar buraxmışdır. Almanaxlarda yer alan katrenlərdən 141-i zəmanəmizə qədər gəlib çatmışdır. "Görücülük" adlanan almanaxlarda Nostradamus öz zamanında, əsasən Fransada baş verəcək hadisələrdən söz açırdı. Hadisələr gerçəkləşdikcə Nostradamusa inam get-gedə artır və ona görünməmiş şöhrət gətirirdi. Nostradamusun şöhrəti tez bir zamanda ölkəyə yayılmışdı. Hamı ona möcüzə kimi baxırdı. Gələcəyi, hələ uzaq gələcəyi demirik, belə dəqiqliklə görmək hər astroloqa qismət olan şey deyildi. Bəlkə də bu onun

ulu babalarının fironlar dövründə Misirdən çıxardıqları sehr və gizli elmlərə dair kitabları, qədim əlyazmaları, “Misir müəmmaları” kitabını, fars və yunan müdriklik kitablarını, eləcə də qədim Roma astroloqu Klodios Ptolemeyin indinin özündə belə astroloqların stolüstü kitabı hesab olunan “Tetrabiblos”, Sibillanın **“Görücülük”**[1] kitabını, ərəb astroloqlarının əsərlərini, ulduzların yerdəyişməsini və s. dərindən öyrənməsi ilə bağlı idi. Bununla belə, o da var ki, II Henriyə ünvanladığı Açıqlamasında görücü yazmışdı: “Bu bir həqiqətdir ki, mənim fitri istedadım ulu babalarımdan irsi keçmədir… Səma cisimlərindən göründüyü kimi, heç nə nəhayətsiz və sonsuz gücə malik İlahinin qüdrətindən kənar deyildir. Peyğəmbərlik onun kəlamından baş verir. Görücülük də ilahi vergidir. **Mən “Hər şey tale ilə bağlıdır. Lakin bunun özü də Yaradan və Təbiət vasitəsilə olur” – deyilən ilahi həqiqəti qəbul edir və bunu heç nə ilə qarışdırmıram”.**

Nostradamusun bu fikirləri müqəddəs kitablardan gəlmədir. “Qurani-Kərim”də hətta qiyamətlə bağlı Əl-Əraf (“Sədd”) surəsində buna işarə ilə göstərilir ki, Göylərdə və Yerlərdə (Allahdan qeyri) bir kimsənin onu bilməsi çətindir. O ancaq Allah dərgahın-
-
da məlumdur, lakin insanların əksəriyyəti bunu bilməz.

Deməli, qədim Roma astroloqu Klodios Ptolemeyin fikirlərində böyük həqiqət vardır:

“Gələcəyi İlahi vergisi olanlardan başqa heç kim görə bilməz”.

Qəribədir ki, sağlığında Nostradamusun həyatı, əgər belə demək mümkünsə, qabarma və çəkilmələrə bənzəyib. Bir yandan şan-şöhrət, bir yandan da cadugərlikdə təqsirləndirilərək həyatının ölüm təhlükəsi altında olması. David Monteiq haqlı olaraq qeyd edir ki, gələcəyi göstərdiyinə görə onu hər an tonqalda yan-

[1] İan Vilson. Nostradamus. Dəlil-Sübut (ingiliscə). London, 2002, səh.118, 234.

dıra bilərdilər. Hətta bəzi məxəzlərdə göstərilir ki, 1781-ci ildə Roma Papası Nostradamusun yazdıqlarını lənətləmiş, yayılmasını qadağan edərək, cəfəngiyat adlandırmışdı.

Başqa məxəzlərdə isə göstərilir ki, görücünün kitabları Vatikanda deyil, 1570-1790-cı illər arası İspaniyada qadağan olunmuşdu. Bununla belə, deməliyik ki, hələ sağlığında Nostradamusun şöhrəti o yerə çatmışdı ki, Fransanın kralı II Henri və kraliça Yekaterina Mediçi onu Parisə dəvət etmişdilər. Bəzi tədqiqatçılar onun Parisdə soyuq qarşılandığını və yalnız yolpulunu ödəyəcək ənama layiq görüldüyünü qeyd edirlər. Başqaları isə göstərirlər ki, o, sarayda böyük hörmət və ehtiramla qarşılanıb. Şahzadə ilə yaxşı münasibətinə, onunla sirdaş olduğuna, hətta kraliça ilə məhrəm münasibətdə olmağına işarə edənlər də vardır. Necə olsa da kral ailəsi ilə belə yaxın münasibətinə baxmayaraq, o, zor işlətməyə alüdə olanlardan, saray çəkişmələrindən, fitnə-fəsadlardan kənar gəzmiş, buna görə də başı salamat olmuş və dünyasını təbii ölümlə dəyişmişdir. Nostradamus deyərdi: “Xoşbəxt o adamdır ki, yaramazlıqdan kənardır”.

Başqa bir tərəfdən də kral tərəfindən yaxşı qarşılanmasa, nə cürət edib 1558-ci ildə çıxan və üç yüz katreni içinə alan kitabını ona həsr edər, nə də yaxın və uzaq gələcəkdə baş verəcək hadisələr barədə krala məktub yazardı.

Doğrudur, Nostradamus lap yaxın və uzaq gələcəkdə baş verəcək hadisələr barədə yazırdı: “Mənim mərhəmətli hökmdarım, ərz eləmək istəyirəm ki, mənə əyan olan və uzaq gələcəkdə baş verəcək əksər hadisələr hazırkı dövrdə insanın dərk edə bilməyəcəyi, insan idrakına sığmayan məsələlərdir. Onları hal-hazırda aydınlaşdırmaq və şərh etmək üçün bir yol (vasitə) yoxdur… Lakin görücülər heç vaxt aldatmayan duyğularına arxalanaraq indi və lap yaxında baş verəcək hadisələri dəqiq görməklə, baş verəcək hadisələrin ən dəhşətlisini qabaqcadan hiss edirlər. Elə dəhşətli

[1] Nostradamus üstüörtülü şəkildə II Henrinin faciəli ölümünə işarə edir.

faciə ki, onun haqqında burada danışmamaq daha **münasibdir"**[1]. Bəziləri belə güman edirlər ki, 27 iyun 1557-ci ildə II Henriyə göndərilmiş Açıqlamanın bu yerinə fikir verilsəydi, hadisələr başqa məcrada davam edərdi. Lakin belələri unudurlar ki, Nostradamus öz katrenlərində labüd baş verəcək hadisələrdən söz açır. Məsələ burasındadır ki, 1556-cı il fevral ayının 5-də italiyalı astroloq Luça Çauriço kral II Henrinin latınca horoskopunu tərtib edərək krala göndərmişdi. Fransanın Dövlət katibi Klaude de L'Aubespin horoskopu fransız dilinə çevirərək krala təqdim etmişdi: "Kral 41 yaşında olanda örtülü yerlərdə cəngavərlərin təkbətək döyüşlərindən imtina etməlidir. Bu yaşda kralı başdan yara alaraq kor olmaq və ya ölüm təhlükəsi gözləyir".

Kral horoskopla tanış olduqdan sonra mühafizə rəisinə demişdi: "Dostum, gör tale mənə necə ölüm bəxş edib". Kral bu sözləri deyərək horoskopu Klaude de L'Aubespinə vermiş və tələb olunana qədər saxlamasını **buyurmuşdu**[1]. Buna baxmayaraq hökmdar göstəriş vermişdi ki, bütün parislilərə elan olunsun ki, 1 iyun 1559-cu il tarixdə kralın qızı Yelizaveta və İspaniya kralı II Filippin, eləcə də kralın bacısı Marqarita və hersoq Savoyskinin birgə toyları münasibəti ilə Bastiliya yaxınlığında cəngavərlərin döyüşü (yarışı) olacaq və döyüşdə kral II Henri şəxsən özü də iştirak edəcəkdir. Belə də olur. Kral rəqibini özü seçir və gənc qraf Montqomerini təkbətək döyüşə dəvət edir. Kral və qraf şirə bənzər paltarda atların üstündə, əllərində nizə mübarizə aparırlar. Atları çaparaq bir-birinə zərbə endirirlər. Birdən qrafın nizəsi sınır, nizənin sapı dəbilqədən keçərək kralın sağ gözünə batır. Kralın beyninə qan sızır. On gündən sonra o, dünyasını dəyişir.

Nostradamus iki il öncə bu barədə yazmışdı:

**Döyüş meydanında əcaib döyüş baş verəcək.**

---

[1] İan Vilson. Nostradamus. Dəlil-Sübut (ingiliscə). London, 2002, səh.126.

**Cavan şir yaşlı şiri yenəcək.**
**Gənc şirin nizəsi yaşlı şirin gözünə girəcək.**
**Amansız ölüm öz işini görəcək (1 k35).**

Troyanın Yepiskopu döyüş vaxtı Parisdə olub. Onun yazdığına görə kral da, qraf da şirəbənzər paltar geymişdilər. Kralın gözünün vena damarı partlamış və beyninə qan sızmışdı.

Bu hadisə bütün Fransada çox güclü bomba təsiri bağışlamışdı. Heyrətə gələn fransızlar ilk dəfə olaraq bu möcüzə adamın qüdrətini dərk etdilər. Bununla belə, çoxları Nostradamusu cadugər və sehrbaz adlandırmağa başladılar. Qaragüruh qızışaraq hətta Nostradamusun müqəvvasını yandırmışdı.

Bəzi tədqiqatçılar göstərirlər ki, üz verəcək faciə barədə Nostradamus Parisdə kraliça Yekaterina Mediçi ilə görüşərkən ona xəbər vermişdi. Başqaları isə xüsusi vurğulayırlar ki, Nostradamus alın yazısından qaçmağı mümkünsüz hesab etdiyindən bu barədə danışmayıb. Burada bir məsələni də unutmaq olmaz. Nostradamusun özü qeyd etdiyi kimi, özündən əvvəl yazılmış kitabları oxumuş, münəccim və astroloqların həyat və yaradıcılıqlarını dərindən öyrənmişdi. Bir çox hökmdarların qəddarlığından və laqeydliyindən xəbəri vardı. Yaxşı bilirdi ki, kiçik bir diqqətsizliyə görə daşqalaq edilə bilər. Doğma yurdundan didərgin salınar, çarmıxa çəkilər, zindana atılar və s. Qriqori Peçerskinin başına gələn, onun da başına gələ bilər. Peçerski knyaza qıpçaqlara qarşı mübarizəyə girişməməyi tövsiyə edir. Deyir ki, qıpçaqlara qarşı mübarizə etsə məğlub olacaq. Hiddətlənən knyaz Peçerskini çayda batırmağı əmr edir. Lakin Peçerskinin dediyi yerini tutur. Nostradamus onu da yaxşı bilirdi ki, XIII Lüdovikin astroloqu kralın tezliklə öləcəyini bildirdiyinə görə çoxavarlı gəmidə qul kimi avar çəkməyə göndərilmişdi.

Çox vaxt, ümumiyyətlə, hökmdarlar görücülərin sözlərinə məhəl qoymurlar. Antik dövrdə qeyri-adi bilici, romalı Spurinna Vestritsa Yuli Sezarı xəbərdar edir ki, Mart bayramı günü (yeni eradan

əvvəl 15 mart 44-cü il) həyatı çox böyük təhlükədə olacaq. Roma tarixçisi Svetonnanın yazdığına görə tale elə gətirir ki, həmin gün Sezar bilicini görür və onu lağa qoyur. Təkəbbürlə deyir: "Bayram başlayıb. Görürsən ki, mənə heç nə olmayıb. Özümü də əla hiss edirəm". Spurinna cavab verir ki, bayram hələ qurtarmayıb. Az sonra özünə çox güvənən Sezar keçmiş dostları Kassiye və Brut tərəfindən pilləkəndə öldürülür.

Sezara qədər belə bir hadisə Makedoniyalı İsgəndərin də başına gəlmişdi. İsgəndər İranda Kirin qəbirüstü yazılarını: "Ey insan, sən kim olsan da, hardan gəlsən də, bilirəm ki, bura gələcəksən. Mən Pars dövlətinin yaradıcısı Kirəm. Gəl məni nəşimi örtən bir ovuc torpaqdan da məhrum etmə" – oxuyaraq insan taleyinin qəribəliyi, həyatın faniliyi barədə acı düşüncələrə qərq **olmuşdu"**[1]. Ruh düşkünlüyünə mübtəla olan İsgəndəri bu vəziyyətdən çıxarmaq naminə öz ölkəsinin müdriklərinin adətincə hindli filosof və bilici özünü allahlara qurban verməyə hazırlaşdı. İsgəndərdən icazə alıb tonqal qalatdı. Tonqala girməmişdən əvvəl şah və ordu başçılarından xahiş etdi ki, həmin günü şənlikdə və yeyib-içməkdə keçirsinlər. İsgəndərlə vidalaşanda isə – Babildə görüşənədək – dedi. İsgəndər bu sözə məhəl qoymadı. Düşünmədi ki, dünyasını dəyişmiş adam Babildə onunla necə görüşə bilər. Babilistanda səfərdə ikən donanma rəisi Nearx Fərat çayında ona qoşuldu və Xaldey görücüsünün xəbərdarlığını hökmdara çatdırdı. İsgəndər Babilə qədəm basmasın, həyatını böyük təhlükə gözləyir. İsgəndər buna da əhəmiyyət vermədi. Babilin 10 km-də zəhərli həşəratın sancması nəticəsində dünyasını dəyişdi.

Yeri gəlmişkən qeyd edək ki, İsaiah və Ceremiah peyğəmbərlər yeni eradan çox-çox əvvəl Babilin dağılacağı barədə Açıqlama vermişdilər: "Krallıqların ən gözəli, Xaldeylərin fəxri və şöhrət yeri Babilin sakinləri əxlaqsızlığa uğradığına görə Yaradanın qəzə-

[1] Plutarx. İsgəndər Zülqərneyn. Azərnəşr, 1993, səh.60.

binə gələcək. Nəsillər dəyişəcək, illər ötəcək, heç vaxt, heç kim orada yaşamayacaq. Bir nəfər də ərəb orada çadır qurmayacaq. Naxırçı və çobanların sürüləri orada otlamayacaq. Orada səhra canlıları toplaşacaq. Ora bayquşlar məskəninə çevriləcək. Bir zaman cah-calalı ilə gəl-gəl deyən saraylarda goreşən və çaqqallar yuva quracaqlar. Bu, tezliklə baş verəcək. Babilin günləri **sayılıb"**[1].

Tədqiqatçılar qeyd edirlər ki, bəlkə də Nostradamusun yazdığı məktubda göstərdiyi "baş verəcək dəhşətli faciə"nin kimin başına gələcəyinə II Henri münasibətini bildirsəydi, görücü çarəsiz qalıb kralı məsələdən hali edərdi. Lakin bunun da köməyi olmazdı. Çünki Nostradamus II Henriyə göndərdiyi məktubda qeyd edirdi ki, onun dumanlı şəkildə söhbət açdığı hadisələr labüd olaraq baş verəcəkdir. Hecə ki, hələ 1558-ci ildə kral II Henrinin sağ olduğu vaxt Nostradamus onun oğlu Fransiskin kral olacağını, lakin tezliklə atasının taleyini bölüşəcəyini göstərmişdi, elə belə də olmuşdu. Atasından təqribən bir il sonra gənc kral Fransisk dünyasını dəyişmişdi.

Nostradamus kral II Henrinin ölümünə səbəb olan qraf Montqomerinin öldürüləcəyini də əvvəlcədən görmüşdü (3 k30). Lakin bütün bu hadisələri müəmmalı, üstüörtülü şəkildə vermişdi. Səbəbini isə kral II Henriyə ünvanladığı Açıqlamada belə aydınlaşdırırdı: "Əgər mən onların başına nə gələcəyini açıb göstərsəydim, böyük və qüdrətli hökmdarlar, məzhəb və din rəhbərləri gələcəyin onlara çox cüzi oxşarlığını, davranış, əxlaq və sairdə tam dəyişikliklər baş verəcəyini görərək gələcəkdə labüd olaraq baş verəcək, gələcək nəsillərin görə və anlaya biləcəyi hadisələri əsrlərlə öncə lənətləyərdilər… Bu isə gələcəyə zərbə **olardı"**[2].

---

[1] Cek Manuelian. Nostradamus. III Dünya müharibəsi barədə qabaqcadan xəbər vermə (ingiliscə). ABŞ, 1996, səh. 111.

[2] Великие пророчества Мишеля Нострадамуса. М. 1999, с.135-136, Максим Генин. Нострадамус. Харьков, 1991, стр.124.

Deməli, insanın öz gələcəyini bilməsi arzuolunmazdır. Rus çarı II Nikolay öz taleyini dəqiq bildiyindən iztirablı anlar keçirib. Elə iztirablı anlar ki, bunu yalnız ölümünə fitva verilmiş şəxsin cəlladın gələcəyi ana qədər keçirdiyi iztirablarla müqayisə etmək olar. Bütün bunları yaxşı bilən Nostradamus yuxarıda göstərdiyimiz kimi, gördüklərini dumanlı və müəmmalı şəkildə, poeziya dili ilə tapmacavari izhar etmişdir. Təsadüfi deyildir ki, görücü yazmışdır: **"Mən buna qadir olduğum halda, hər katrendə verilənlərin dəqiq vaxtını göstərsəydim, labüd baş verəcək hadisələrə aydınlıq gətirsəydim, bu hər adamın ürəyincə olmazdı"[1].**

Maraqlıdır ki, Napoleon, II Nikolay və bir çox başqa tarixi şəxsiyyətlər taleyə, alın yazısına inanmışlar.

Onu da deyək ki, kral II Henrinin vaxtında və kralın ölümündən beş il keçənə qədər insanlar Nostradamusa şübhəli nəzərlə baxır, bir çoxları onu cadugər adlandırır, hörmətini özünə layiq saxlamır, onunla kobud rəftar edirdilər. Görücünün şöhrəti bədxahları haldan-hala salırdı. Odur ki, ona qarşı neçə-neçə tənqidi məqalə, həcv və böhtan dolu kitabçalar çap olunmuşdu.

Doğrudur, görücüyə yüksək qiymət verən müasirləri də vardı:

"Fransız şairlərinin şahzadəsi" adlandırılan Pyer Ronsar (1524-1584) hələ Nostradamusun sağlığında ona sataşanlara, görücünü tənqid atəşinə tutanlara (1560) layiqli cavab vermişdi:

Sən məhəl qoymursan peyğəmbərlərə,
Onları bətnində əkdirən Tanrı,
Dünyaya gətirib, rəsul edib ki,
Bəlanı öncədən görə bilsinlər.
Hədəf olsalar da məsxərələrə.
Nostradamusun fitri vergisi,

---

[1] Görücünün oğlu Sezara məktubunu və kral II Henriyə ünvanladığı Açıqlamanı kitabımızda verdiyimizə görə hər dəfə məxəz göstərməyi lazım bilmədik.

Allah töhfəsimi, ya dəli şeytan
Fəhminə, felinə olub pasiban?
Yox, yox, o necə var, elə də vardır.


*Salon şəhəri. Chatean de L'Emperi. Kral IX Karl və anası kraliça Katerina Mediçi Nostradamusla bu sarayda görüşmüşdülər*

Bir kəs ki, mələk tək sayır düzünə,
Necə inanmayım onun **sözünə[1].**

Lakin böyük görücünün ölümünə iki il qalmış hər şey dəyişdi. 1564-cü ildə kral IX Karl Provans vilayətini və Salonu ziyarətə gəldi. Salon şəhərində kralı böyük təntənə ilə qarşıladılar. **Kral qısamüddətli gəlişinin məqsədini açıqladı: "Mən Provans vilayətinə yalnız Nostradamusu görməyə gəlmişəm"[2].** Kral IX Karl Nostradamusu leybomedik – saray həkimi adına layiq gördü.

Təbii ki, bundan sonra insanlar Nostra-

[1] Tərcümə şair Səyavuş Məmmədzadənindir.
[2] Максим Генин. Нострадамус. Харьков, 1991, стр.29.

damusa münasibətini dəyişdilər. Bəzən onunla danışanda önündə baş əyir, diz çökürdülər. Dua vaxtı onun adını yada salırdılar. Nostradamus kilsəyə girəndə ayağa qalxırdılar. Beləcə, Nostradamus ürək rahatlığı tapır və gecə-gündüz çalışırdı.

Heç şübhəsiz, buna görədir ki, Nostradamusdan sonra yalançı görücülər meydana gəlmişdi. Filippe Nostradamus, Antuan Nostradamus, gənc Mişel Nostradamus və başqaları. Onlar özlərini böyük görücünün yaxın qohumları elan edərək almanaxlar – horoskoplar buraxırdılar. Nostradamusun oğlu Sezar və qardaşı Cehan belə qohumlarının olmadığını elan etsələr də fırıldaqçılar öz çirkin əməllərindən əl **çəkmirdilər[1].**

Qeyd etməyə dəyər ki, kral IX Karldan sonra, 1622-ci ildə kral XIII Lüdovik və 1660-cı ildə kral XIV Lüdovik Nostradamusun qəbrini ziyarət etdilər və bununla da onu milli fransız "Peyğəmbəri" rütbəsinə layiq **bildilər[2]** (Peyğəmbər sözü burada "gələcəkdən xəbər verən" mənasında işlənib. Lüğətlərdə bu sözün birinci mənası belədir[3]).

XIV Lüdovik Nostradamusun qəbrini ingilis kralının edamının on birinci ildönümü günü ziyarət etmişdi. Təəccüblü odur ki, hələ 90 il əvvəl Nostradamus peyğəmbərcəsinə göstərmişdi:

**London senatı öz kralını edam edəcəkdir (9 k49).**

Doğrudan da 1649-cu ilin fevralında kral Çarlz edam edilmişdi. Senturiya 9, katren 49, 1649 çoxlarının diqqətini cəlb etmişdi. Deyirlər ki, Nyuton Nostradamusun işlətdiyi kodlar üzərində çox baş sındırıb, lakin onun sirrinin açarını tapa bilməyib.

Bununla belə, Nostradamus İngiltərədə o qədər məşhurlaşıb ki, 1672-ci ildə onun senturiyalarını ingilis dilinə tərcümə edərək

---

[1] İan Vilson. Nostradamus. Dəlil-Sübut (ingiliscə). London, 2002, səh. 235-236.

[2] Максим Генин. Нострадамус. Харьков, 1991, с.33; Великие пророчества Мишеля Нострадамуса. М.1999, стр.69.

[3] İngiliscə – Azərbaycanca lüğət. Bakı, 2003, səh.1141.

"Görücülük" adı altında buraxıblar. Bu, təsadüfi deyildi. Tədqiqatçıların göstərdiyi kimi, Nostradamusun İngiltərə ilə bağlı dedikləri bütövlükdə yerinə yetib. Odur ki, ingilislər onun görücülüyünə biganə qalmamışlar. Kim bilir, bəlkə də böyük ingilis alimi İsaak Nyuton ömrünün sonuna yaxın Peyğəmbərliyin şərhinə və eləcə də Daniel Peyğəmbərə həsr etdiyi kitabları Nostradamusun təsiri altında yazmışdır. Ümumiyyətlə, Nyutonun təbiətşünaslığa dair görüşləri çox vaxt ilahiyyatla qovuşur. Maraqlıdır ki, Fales, Demokrit, hətta İbn-Sina və başqaları Kainatın Yaradanla bağlı olduğunu inkar etdikləri halda, Rene Dekart və "dahilər dahisi" adına layiq görülən Nyuton bunu təsdiq edirdi. O, "Təbii fəlsəfənin riyazi əsasları" kitabında (1687) göstərirdi ki, səma cisimlərinin düzülüşü və hərəkəti ciddi surətdə ümumi xarakter daşıyan Ümumdünya cazibə qanununa əsasən baş verir. O, Kainatı böyük "saat mexanizmi"nə bənzədərək belə qənaətə gəlir ki, həmin mexanizm Yaradan tərəfindən nə vaxtsa hərəkətə gətirilmiş və o vaxtdan səma cisimləri əbədi **hərəkətdədirlər**[1]**.**

Şübhəsiz, Nyutonun bu inam və etiqadına görədir ki, Londonda – Milli Panteonda (Fəxri xiyaban) dəfn onunan alimin başdaşında yazılmışdır: **"Burada kəşflərini, demək olar ki, ağlının ilahi gücü hesabına edən ser Nyuton uyuyur. Qoy insanlar sevinsinlər ki, onların arasında bəşər övladına zinət verən belə bir insan yaşamışdır".** Alimin anadan olduğu otağın divarında isə mərmər lövhə üzərində həkk olunmuşdur: "Təbiət və onun qanunları qaranlıq pərdə ilə örtülmüşdü. Yaradan dedi: "Nyuton olsun! Nyuton oldu və aləm nura boyandı". Bu məqamda alimin fundamental kəşfləri, xüsusən də işıq və optika sahəsindəki kəşfləri nəzərdə tutulur.

Burada diqqəti çəkən bir məsələ də vardır. Tədqiqatlardan görünür ki, Nyuton 45 yaşdan sonra, demək olar ki, ciddi axtarışlarla məşğul olmayıb. Bizə qalırsa, bu da Yaradanla bağlı məsələdir.

---

[1] Б.Д.Чистяков. Рассказы о математиках. Минск, 1966, стр.115-116.

Məşhur fransız riyaziyyatçısı Blez Paskalın (1623-1662) həyatı bu baxımdan maraq doğurur. Bir gün o, faytonla gedərkən körpüdən aşır və ölümdən təsadüf nəticəsində xilas olur. Ondan sonra elmdən əl çəkir və ömrünü ibadətlə keçirir. **"Dünya fani və mənasız bir şey imiş. Sabah nə baş verəcəyini bilmədiyim halda, əbədi qanunlar kəşf etmək xülyası ilə yaşayırdım" – deyir[1].** Mətləbə qayıdaraq deməliyik ki, Nostradamusa qədər də diqqəti çəkən görücülər olmuş və nücum elmi (astrologiya) inkişaf etmişdi. Lap qədim zamanlardan məlumdur ki, yerlə göy bir-biri ilə sıx əlaqədardır. Yerdə baş verənləri dərk edən, səmada olanları anlayar, səmanı müşahidə etməklə planetimizi özü üçün kəşf edər. İnsan səmaya səpələnmiş ulduzlar və bürclər altında yaranır, ömrü boyu planetlərin və bürclərin qarşısıalınmaz təsiri altında olur. Taleyi bu ulduzlar və bürclərlə müəyyən olunur. O da inkar olunmur ki, yer kürəsindəki ən kiçik zərrəciklər və canlılar da Kainatla həmahəngdir. Elə bu zərurətdən də nücum elmi çox qədim zamanlardan, demək olar ki, dörd min il öncə Şumerlər tərəfindən yaranmışdır. Sonradan Mesopotamiyadan baş alaraq Yunanıstan, İtaliya, Misir və başqa ölkələrə də yayılmışdır. Nücum elmi Mesopotamiya və yunan mədəniyyətlərinin qovuşması sayəsində sürətlə inkişaf etmişdir. Bu baxımdan, bilmək maraqlı olar ki, Makedoniyalı İsgəndər zəfərli yürüşləri zamanı böyük alimləri Yunanıstana gətirərmiş. Astroloq Berosun da taleyi belə olmuşdur. Xaldeylərin bu qüdrətli alimi Yunanıstanın Kos adasında astrologiya məktəbi yaratmışdı. Yunanlar artıq o dövrdə Günəş və Ayın hərəkətini və planetlərin yerlərini dəqiq müəyyən etmişdilər. Yerin Günəş ətrafında fırlanmasını guya Kopernik kəşf etmişdir. Əslində bunu Mesopotamiya və Misir alimlərinin tədqiqatları əsasında yunan alimi Aristax Samoskiy (yeni eradan əvvəl 310-230-cu illərdə yaşamışdır) üzə çıxarmışdır. Kopernik isə onun nəzəri

---

[1] Б.Д.Чистяков. Рассказы о математиках. Минск, 1966, стр.104.

əsaslarını hazırlamışdır. O da maraqlıdır ki, Amerika qitəsində məskunlaşan qədim hindu tayfalarından Mayya, Keçya, Quarati, Astek, İnk, xüsusən də Xopi tayfalarında Kainatın və eləcə də dünyanın əmələ gəlməsi, baş verəcək dəyişikliklər və s. barədə maraqlı fikirlər vardır. Əsrlərlə öncə Xopi bilicilərinin göstərdiyi və əfsanəyə dönmüş bir hadisə 1969-cu ildə baş verdi. Xopilərə görə "Qartal Aya enəndə" dünyada böyük dəyişikliklər olacaq. Belə ki, 1969-cu ildə Amerikanın "Apollon" kosmik gəmisi Ayın səthinə enəndə heç kəsin gözləmədiyi halda astronavt Nil Armstronq sevinclə qışqırdı: "Qartal endi!". Bu bir təsadüf də ola bilər. Lakin biz buna hər necə yanaşsaq da, bu hadisəyə heyranlığımız azalmayacaq, əksinə, vaxt keçdikcə artacaqdır. Dərindən dərk edəcəyik ki, bəşəriyyətin ən böyük kəşfləri fəza ilə bağlıdır. Radio, telefon, televizor, kompyuter, internet, kosmik gəmilər və s. və i.a.

Möcüzəli açıqlamalar çox olmuşdur. Biz çox qədimlərə getmədən yeni eranın X əsrindən sonra meydana gələn görücülərin ən görkəmlilərinin həyatına qısaca nəzər salacaq, XX əsrin görücülərindən isə bir az müfəssəl danışacaq və yenidən bütün dövrlərin ən görkəmli görücüsü və bilicisi, "görücülər görücüsü" adını almış Mişel Nostradamusa dönəcəyik.

**Müqəddəs Malaxiya (1095 - 1148)**

Müqəddəs irland bilicisi Müqəddəs Malaxiya 1595-ci ildə işıq üzü görmüş "Vatikan barədə görücülük" adlı kitabında gələcəkdə Vatikanın katolik kilsəsinə kimlərin rəhbərlik edəcəyini rəmzlərlə göstərib: Məs:

"Umbriyanın gülü": XIII Kliment (1758-1769) Papa seçilənə qədər Umbriyada xidmət edib. Umbriyanın emblemi qızılgül olub.

"Cəld ayı": XIV Kliment (1769-1774). Onun ailə gerbində ayı həkk olunmuşdu.

"Çiçəklərin çiçəyi": IV Pavel (1963-1978). Gerbinin üstündə zambaq şəkli vardı.

"Çalışqan günəş": Vatikanın Papası İohann II Pavel (1978-2005). Yorulmaq bilməyən, çox çalışqan Papanın Gün tutulanda anadan olduğu da diqqəti çəkir. Hesabla İohann II Pavel Vatikanda 261-ci Papadır. Müqəddəs Malaxiya gələcəkdə seçiləcək daha iki Papadan söz açıb: "Zeytunlara eşq olsun!"– daha doğrusu: Yaşasın sülh! və "Romalı Pyotr". "Yaşasın sülh!" Papa XVI Benediktə aiddir.

Nostradamus da daxil olmaqla bir çox görücülər "Romalı Pyotr"dan sonra papaları kardinalların əvəz edəcəyindən söz açırlar. Bəziləri isə göstərirlər ki, ümumiyyətlə Roma su altında qalacaq və Vatikan iqamətgahını başqa yerə köçürəcək.

**Ranio Nero**

Təqribən XIII-XIV əsrlərdə Florensiyada yaşamış fransız monaxı Ranio Neronun Açıqlamaları adamı heyrətə gətirir. Onun 1972-ci ildə Boloniya monastırlarından birində tapılmış əlyazması şəklində olan "Əbədi kitab"ında Nero kilsədə parçalanma baş verəcəyini və səbəbkarlardan birinin Martin adlı şəxs olacağını göstərmişdir. (Həqiqətən də 1519-cu ildə Martin Lüter Papanın fərmanını nümayişkaranə oda atıb). Ranio XX əsrdə nələr olacağından da danışır. O, göstərir ki, XX əsrdə Avropada qanlı vuruşmalar olacaq. Adı eşidiləndə insanlar dəhşətə gələn, "ağzından tüstü püskürən" zalım hökmdar meydana gələcək.

Yeri gəlmişkən qeyd edək ki, tədqiqatçılar söhbətin Stalindən getdiyini söyləyirlər. Maraqlı odur ki, Neronun vaxtında Avropada hələ papiros çəkmirdilər. Tənbəki Avropaya sonralar, 1497-ci ildə Kolumb tərəfindən gətirilmişdi.

Neronun "Əbədi kitab"ında göstərilir ki, bəşəriyyətin üçdə birini öz təsiri altında saxlayan bu qəddar hökmdarın vaxtında bir çoxları peysərinin ardından vurulmaqla (güllə ilə) qətlə yetiriləcək. Nero göstərmişdir ki, iki apostolun adını daşıyan Roma Papasına sui-qəsd ediləcək (Söhbət Papa İohann II Paveldən gedir). Bu, meydanda baş verəcək. Papaya iki güllə atılacaq. Lakin Papa

sağ qalacaq. Görücünün dedikləri doğrudan da baş vermişdi. Tədqiqatçı Peter Lorie bu münasibətlə yazır: “13 may 1981-ci ildə Papa İohann II Pavel izdihamın içindən atəş açan **erməni terrorçu** Mehmet Əli Ağca tərəfindən vuruldu. Papa bu işdə rusların əli olduğuna inanırdı”[1].

Onu da deyək ki, Papa II Pavel sonralar Əli Ağcanı bağışlamışdı. 2006-cı il yanvarın 12-də, 26 il zindan həyatından sonra Türkiyəyə qayıdan Əli Ağca, əvvəllər Türkiyədə adam öldürüb qaçdığına görə yenidən zindana atılıb.

Nero XX əsrdə baş verəcək xəstəliklərdən də danışır və göstərir ki, bunlardan ən ağırı “əxlaqsızlığa görə cəza” olacaq. Söhbət 1981-ci ildə baş verən SPİD xəstəliyindən gedir.

Fransalı Monax eləcə də iki şəhərin üzərində “İki zəhərli göbələk” peyda olacaq – deyir və gələcəkdə onların yeddiyə çatacağını göstərir (hələlik onlardan üçü həyata keçib: Naqasaki, Xirosima və Çernobıl – Q.P.).

**Filip Parasels**

İntibah dövründə Fransada daha bir görkəmli bilici, isveçrəli Parasels (1493-1541) meydana gəldi. Parasels “Kahinlər” adlı kitabında XXII əsrə qədər baş verəcək hadisələrdən bəhs edir. “Okeanın o tərəfində dövlət yaranacaq” – deyir (ABŞ nəzərdə tutulur – Q.P.). Fransada Valua sülaləsinin süqutunu, Burbonların hakimiyyətə gələcəyini və düz iki yüz ildən sonra devriləcəyini (1589-1789) göstərir. Doğrudan da 1789-cu ildə baş verən inqilab Burbonların hakimiyyətinə son qoydu. Paraselsin ruslar haqqında yazdıqları da maraq doğurur: “Herodotun Qiperborey – şimallılar adlandırdığı bir xalq vardır. O xalqın indiki adı Moskoviyadır. Onların uzun sürən dəhşətli tənəzzülünə uymaq olmaz. Onlara güclü tənəzzül də, böyük çiçəklənmə də qismət olacaq. Heç kəsi dərindən düşündürməyən, heç kəsin və heç vaxt əməlli-başlı bir ölkə

[1] Peter Lorie. Nostradamus. 1992-dən 2001-ə kehanetleri (Fransızcadan tərcümə). İstanbul, 1999, səh.21.

hesab etmədiyi bu şimal məmləkətində böyük dəyişikliklər gözlənilir. Alçaldılmış, səfil halına salınmış bu xalqın bəxti açılacaq. Bu mənim ölümümdən 500 il sonra baş verəcək. Bundan sonra bu ölkədə əlli il sürəcək “qızıl əsr” olacaq”.

Nəzərə alsaq ki, Parasels 1541-ci ildə dünyasını dəyişib, deməli, onun bəyan etdiyi bu hadisə 2041-ci ildə baş verəcəkdir.

**Matar Tarabiç**

XIX əsr görücülərindən serbiyalı Matar Tarabiç xüsusilə fərqlənir. O, demişdir:

“İnsanlar daha çox bildikcə, bacarıqları artdıqca bir-birinə qarşı daha çox laqeyd olacaqlar. Bir-birinin qədrini bilməyəcəklər. Maşınlara, alətlərə öz yaxın adamlarından daha çox meyil göstərəcəklər. Riyazi rəqəmlərlə işləyərək müxtəlif kitablar yazanlar dahi hesab olunacaq. Bunların arasında xeyrə və şərə qulluq edənlər olacaq. Şərə qulluq edənlər havanı, torpağı və suyu zəhərləyəcəklər. İnsanlar müxtəlif xəstəliklərə tutularaq məhv olacaqlar. Xeyrə qulluq edən müdriklər isə dərk edəcəklər ki, görəcəkləri işlər fəlakətə doğru aparır, əlləri işdən soyuyacaq, fikrə dalacaqlar. Lakin artıq gec olacaq. Şər qüvvələr yer üzünü bürüyəcək. İnsanlar şəhərlərdən kəndistana, dağlara, meşələrə üz tutacaqlar ki, təmiz hava ilə nəfəs alsınlar, təmiz su içsinlər…

Hərbçilər elə silahlar icad edəcəklər ki, partlayanda adamlar ölmək əvəzinə huşlarını itirəcəklər. Döyüşə bilməyəcəklər. Sonra huşları özlərinə qayıdacaq…

Bir xəstəlik peyda olacaq. Bütün dünyanı bürüyəcək. Heç kim onun əlacını tapa bilməyəcək. Bəziləri sinələrinə döyərək qürrələnəcəklər ki, bütün elmlərə vaqif olublar, alimdirlər. Lakin bir şey edə bilməyəcəklər. İnsanlar çırpınaraq axtaracaq. Əlac isə Allahın iradəsi ilə onların özlərində olacaqdır”.

**Morqan Robertson (1861-1915)**

Nyu-Yorklu Morqan Robertson iki roman və 200-dən artıq hekayənin müəllifidir. Özünün etirafına görə o trans vəziyyətində

olanda ona kimsə diqtə etmiş, o isə yazmışdır. Morqan həmişə hiss edirmiş ki, kiminsə ruhu onu aramsız olaraq izləyir və ona rahatlıq vermir. Yalnız içkili olarkən rahatlıq tapır.

Morqan bəyan etməkdən çəkinmirdi ki, o, "həqiqi" yazıçının əlində bir alətdir. Qeyd edirdi ki, o, "səmavi yazıçının şəklidir". Yazıçının "Mənasızlıq" adlı hekayələr məcmuəsi 1898-ci ildə işıq üzü görəndə çoxları onu içkinin təsiri ilə meydana gələn bədbinlik məhsulu adlandıraraq müəllifi qınadılar ki, texnikanın inkişaf etdiyi bir dövrdə insanı bədbinliyə sürükləyən gəmi qəzalarından, dəniz faciələrindən yazmağın nə mənası var. Lakin bu əsərlər içində "Titanın qəzaya uğraması" adlı hekayə 14 il sonra, 1912-ci ildə ona böyük şöhrət gətirdi. Bir dəfə Robertson trans vəziyyətində olarkən görmüşdü ki, Atlantik okeanında həyatında rast gəlmədiyi, gözəlliyi və möhtəşəmliyi ilə seçilən nəhəng bir gəmi üzür. Gəmini üç propeller hərəkətə gətirirdi. Gəminin saatda 22 mildən artıq (40 km) məsafə qət etməsi onu təəccübləndirmişdi. Atlantik okeanının ortalarında bu sürət çox qorxulu idi. Birdən o, gəmidə 2000 adam olduğunu da gördü. Yenidən gəminin nəhəngliyi onu mat qoydu. Birdən onun gözləri xilasedici qayıqlara sataşdı. Onlar cəmisi 24 ədəd idi. Morqan təəccübləndi. Bu qayıqlar gəmidə olanların yalnız dörddə birinə kifayət edərdi. O, bu barədə fikirləşərkən qulağına səslər gəldi. "Batmayan". Sonra gəminin önündə dağ boyda buz peyda oldu. Onlar toqquşdular. Görüntülər yoxa çıxanda gəminin adının "Titan" olduğunu gördü.

Robertson trans vəziyyətindən çıxan kimi qələmə sarıldı: "Bu gəmi insan zehninin ən qüdrətli məhsuludur".

Yazıçı bu gəmini üzən saray adlandırdı. Zəngin kabinələr şəhər evlərinin apartamentlərini, göyərtələr gəzinti yerlərini andırırdı. Sərnişinlər özlərini quruda olduğu kimi hiss edirdilər. Gəmidə 19 sukeçirməz şöbə vardı. Bir şey olsa onlar avtomatik olaraq bağlanaraq suyun qarşısını alacaqdı. Hətta bəzi şöbələr su ilə dolsa belə, gəmi üzə bilərdi. Özündən razı layihəçilər qürurla deyirdilər

ki, “Titan”ı heç nə batıra bilməz. Lakin Nyu-Yorkdan İngiltərəyə üçüncü səfəri zamanı, aprel ayında bu nəhəng gəmi bir aysberqlə toqquşaraq batmışdı.

Qəribədir ki, Robertsonun neçə il öncə trans vəziyyətində görüb qələmə aldığı “Titanın qəzaya uğraması” hekayəsindəki hadisələr eynilə 1912-ci il aprel ayının 14-də real həyatda baş verdi. Dünyada tayı-bərabəri olmayan “Titanik” gəmisi Nyu-Yorkdan İngiltərəyə üzürdü. Bu, onun birinci səfəri idi. Atlantik okeanında – Nyufoundland yaxınlığında “Titanik” gəmisi aysberqlə toqquşaraq batmışdı. Gəmidə yalnız 20 ədəd xilasedici qayıq varmış. Məhz buna görə də 2224 sərnişindən cəmisi 711 adamı xilas etmək mümkün olmuşdu. 1513 adam isə həlak olmuşdu. Ətraflı məlumat üçün bax: 10 k80.

Lakin qeyd etməmək olmur ki, görücülük fenomendir və dünyada insanın dərk edə bilmədiyi şeylər çoxdur.

Burada onu da deyək ki, “Titanik” qəzaya uğrayanda gəmidə olan 3 yaşlı Mişel və 2 yaşlı qardaşı atalarının köməyi ilə xilas edilsələr də, ataları həlak olmuşdu. Mişel sonralar görkəmli alim kimi şöhrət qazanmışdı. 2001-ci ilin əvvəlində professor Mişel Navratil Fransanın cənubunda 92 yaşında dünyasını dəyişdi. O, “Titanik”in son kişi yadigarı idi.

**Edqar Keys (1878-1945)**

İyirminci əsrdə də görkəmli görücülər, qeyri-adi adamlar olmuşlar. Onlardan biri Edqar Keysdir. O, “Yatan görücü” kimi tanınmışdır.

Edqar Keys amerikalı fermer ailəsində anadan olub. İyirmi bir yaşında olanda qəflətən səsi tutulub. Hipnoz üzrə müalicə apararkən səsi özünə qayıtmaq bir yana, görücülük qabiliyyəti də meydana gəlib. O, gələcəyi görməklə bərabər, xəstəliklərə diaqnoz qoymaqda və müalicənin yollarını göstərməkdə ən məşhur həkimləri belə mat qoyurdu. Hətta öz xəstəliyinin diaqnozunu da özü qoymuş və həkimlər müalicəni uğurla aparmışlar. 1909-cu ildən



***Edqar Keys***

başlayaraq 1945-ci ilin yanvarında dünyasını dəyişənə qədər 14 256 dəfə Nostradamus kimi özü-özünü cuşa gətirmiş, huşdan gedərək gələcəkdən danışmışdır. Ona altı mindən artıq adam qulaq asmış, dedikləri sistemləşdirilərək kompyuterə köçürülmüşdür. On min səhifədən ibarət olan bu söhbətlər həyatın hər sahəsini əhatə edir. Qəribədir ki, Keys ayılandan sonra dediklərinin heç biri yaddaşında qalmırdı. 1929-cu ilin aprelində o demişdi ki, altı aydan sonra dünyanı iqtisadi böhran sarsıdacaqdır. Az sonra isə II Dünya müharibəsinin başlanğıcını və sonunu dəqiq göstərmişdi. Maraqlısı odur ki, Keys II Dünya müharibəsinin labüdlüyünü I Dünya müharibəsinin qaliblərinin Almaniya və Avstriyaya qarşı dözülməz (ağır) sanksiyalarında və Millətlər Təşkilatının laqeydliyində görürdü. Edqar Keys Amerika Birləşmiş Ştatlarında iki prezidentin vəzifə başında öləcəyini də əvvəlcədən xəbər vermişdi. (1945-ci ilin aprelində Ruzvelt öz əcəli ilə dünyasını dəyişdi. 1963-cü ilin noyabrında isə Con Kennedi öldürüldü – Q.P.).

Edqar Keys XX əsrin sonuna yaxın baş verəcək dəhşətli fəlakətlər, partlayışlar, müharibələr (Çernobıl faciəsi, Türkiyə və Ermənistanda zəlzələ, Sovetlərin dağılması, müxtəlif regionlarda müharibələr) və s. barədə də xəbər vermişdi.

Edqar Keysin dedikləri arasında xüsusi yeri onun bəşəriyyətin inkişafı tarixində 1958-1998-ci illərin ikinci böyük inkişaf mərhələsi olacağını göstərməsi tutur.

Doğrudan da, bu qırx il ərzində bəşəriyyət irəliyə doğru böyük addım atmış, indiyə qədər görünməmiş inkişaf mərhələsi yaşamışdır.

Təəssüflə demək lazımdır ki, Keys göstərir ki, bu mərhələdən sonra Yer kürəsi və onun ətrafında ağır geofiziki pozuntular və dəyişikliklər əmələ gələcək ki, bu da qütblərin və iqlimin dəyişməsinə səbəb olacaq. Yer kürəsində baş verənlər böyük iqtisadi, siyasi və ruhi dəyişikliyə gətirib çıxaracaq. Ona görə ki, bəşəriyyət dərk edilməyən Yeni dövrə qədəm qoyacaq.

Keys 1934-cü il yanvarın 19-da demişdi ki, Amerikanın qərb hissəsində yer yarılacaq. Yaponiyanın çox hissəsi suyun altında qalacaq. Avropanın yuxarı hissəsi bir anda torpaqla bərabər olacaq. Yer kürəsinin quraqlıq regionlarında vulkanlar püskürəcək. Qütblər dəyişəcək. Soyuq olan yerlər subtropik zonaya çevriləcək. İndi subtropik olan yerlərdə qıjı və mamır bitəcək. Bu tədricən baş verəcəkdir. Yeni era başlayacaqdır.

Maraqlıdır ki, Fransanın adlı-sanlı Coğrafiya İnstitutunun alimləri bəyan edirlər ki, Yeni eraya keçid dövrü 2012-ci ildə **başlayacaqdır**[1]. Bu, Amerikada yaşayan Xopi hindu tayfasının fikirləri ilə səsləşir. Xopilər deyirlər ki, yerin təkinin insafsızcasına istismarının, müharibələrin və kosmosa təcavüzün qarşısı alınaraq minimuma endirilsə qütblərin dəyişməsi ləngiyə bilər.

[1] Сноу Чет. Будущее. Ваша жизнь после 2000 года. Москва, 1998, стр.91-92.



*Cin Dikson*

İqlimin və qütblərin dəyişməsi və bu dəyişmənin vaxtı barəsində Keysin fikirləri Mişel Nostradamusun əsrlərlə öncə söylədikləri ilə üst-üstə düşür.

**Cin Dikson**

Görkəmli bilicilərdən biri də Cin Diksondur. 1918-ci ildə anadan olan amerikalı bilici Cin 8 yaşında olanda təsadüfən qaraçı falçı onun əlinin cizgilərinə baxaraq: "Əldə belə cizgilərə yüz ildə bir dəfə rast gəlmək olar" deyir və əlavə edir ki, bu qız gələcəyin böyük bilicisi olacaq. Cinə büllur şar bağışlayır və xüsusi vurğulayır ki, Cin gələcəyi bu şarda görəcək. Cin Dikson sonralar gələcəyi doğrudan da bu şara baxaraq görüb. Tez bir zamanda şöhrət qazanıb. Hətta prezident Ruzvelt onunla məsləhətləşməkdən çəkinməyib. 1945-ci ildə Ruzveltin ölümündən öncə Cin ona deyib ki, Çin kommunist dövləti olacaq. 1949-cu ildə onun dediyi gerçəkləşdi. O, Ruzveltin ölümünü və onun yerinə Harri Trumenin prezident seçiləcəyini də söyləmişdi. Maraqlıdır ki, Vinston Çerçilin vaxtından əvvəl seçki tələb edəcəyi təqdirdə məğlub olacağını, lakin sonralar hakimiyyətə gələcəyini də o, əvvəlcədən söyləmişdi. Bu da onun dediyi kimi olmuşdu. O da fakt olaraq qalır ki, Cin Qandiyə sui-qəsd ediləcəyini və hətta hadisənin hansı ildə və ayda olacağını belə tam dəqiqliklə göstərmişdi. Stalinin xələfi Malenkovun iki ildən sonra keçisaqqallı birisi ilə (Bulqanin), onun da ağıllı bir nəfərlə əvəz olunacağını söyləmişdi. Malenkovdan sonra doğrudan da Bulqanin və Xruşşov göstərilən vaxtda hakimiyyətə gəldilər. Cin Dikson Xruşşovun hakimiyyəti zamanı rusların raket buraxacağını da

söyləmişdi. 1961-ci ildə isə BMT-nin baş katibi Daq Hammarşeldin təyyarə qəzasında, Merlin Monronun intiharla dünyalarını dəyişəcəklərini göstərmişdi. Diksonun böyük görücülüklərindən biri də prezident Con Kennedi, qardaşı Robert Kennedi və Martin Lüter Kinqin öldürüləcəyi barədə açıqlaması idi. Prezident Kennediyə xəbərdarlıq məktubu da göndərmişdi. Ya məktubu bilərəkdən gizlətmişdilər, ya da prezidentə çatmamışdı. Onun hamını təəccüb qoyan Açıqlamalarından biri də soyuq müharibə dövründən miras qalan və Berlin şəhərini ikiyə bölən divarın sökülməsi barədə idi. Bunu sonralar, 1988-ci ildə Berlin divarının söküləcəyinə bir il qalmış Oşo təxəllüslü hind görücüsü Bhaqvan Şri Racreş də xəbər vermişdi. O, eyni zamanda Qorbaçovun reformaları ilə Avropada kommunizmin sona yetəcəyini də göstərmişdi.

Cin Diksonun biliciliyi Nostradamusun görücülüyünə yaxın olmuşdur. Bu məqamda qeyd etmək yerinə düşərdi ki, **görücülük iki yerə bölünür: İlahi vergi nəticəsində baş verən görücülük və insani görüntülər. Bunlardan birincisi dəqiq və dəyişməzdir. Yəni labüd olaraq gerçəkləşən görücülükdür. Böyük əksəriyyət təşkil edən ikincilər isə insanları çəkindirmək, lazımi tədbirlər görərək artıq hərəkətlərə yol verməmək naminə nələr ola biləcəyini əvvəlcədən göstərən əlamətlərdir (şəkillərdir). Bu halda görücülük xəbərdaredici xüsusiyyət daşıyır və əhəmiyyəti böyük olur.**

Cin Dikson əlamətlərə əsasən ikinci halda insanın başına gələcək bəlalardan qaçmağın mümkünlüyündən danışır. Göstərir ki, əgər insanlar öz hərəkətləri nəticəsində nələr baş verə biləcəyini əvvəlcədən anlasaydılar, ən azı bəzi tədbirlərə əl atardılar. Öz əməllərinə fikir verər, nəfslərini qoruyar, acgözlükdən əl çəkər, ədavət hissini boğar, nöqsanlarını islah edərdilər.

Nostradamusu düşündürən məqamlar da bu qəbildəndir. Lakin Nostradamus daha dərindən düşünərək bu qənaətə gəlir ki, nikbin insanlar həyatda hər şeyi dəyişdirməyə qadir olduqları halda, özlərinin islahına inadkarlıqla müqavimət göstərirlər. Xəbərdarlıqlara əhəmiyyət verməyərək çıxılmaz vəziyyətə düşürlər. Səhvlərini dərk edərək

peşmançılıq keçirsələr də, çarə tapmırlar. Bununla belə, gec də olsa unudulmaz bir dərs alırlar.

Müdriklərin göstərdiyi kimi, odun-alovun nə olduğunu əvvəllər barmağı yanmış bilər.

**Vanqa Dimitr Quşterova (1911-1996)**

XX əsrin tanınmış görücülərindən biri də bolqar bilicisi Vanqadır. Vanqa yunan sözü olub, "xoş xəbərlər carçısı" mənasını verir. Vanqa 12 yaşında olanda bibisi qızları ilə kəndin kənarındakı **Xan bulağından** su gətirməyə gediblər. Gözlənilmədən tufan (fırtına) qopur. Ağacları kökündən qoparır. Dəhşətli burulğan Vanqanı götürüb xeyli (bəzi mənbələrdə 2 km) uzağa atır. Onu ağac budaqlarının, toz-torpağın, ot-ələfin içindən zorla tapıb çıxarırlar. Vanqa gözlərini aça bilmir. Həkimlər ona çarə tapa bilmirlər. Hətta cərrahiyyə əməliyyatı da edirlər. O vaxtdan Vanqa kor olur.

1925-ci ildə korlar evinə qəbul olunur. 1929-cu ildə atası öləndən sonra yetim qalan bacı-qardaşlarına böyüklük etmək üçün evə dönür. Həyatları çox məşəqqətli keçir. 1923-cü ildən dünya işığına həsrət qalan Vanqa, 1940-cı ildə yuxusunda görür ki, gözəl bir gənc atlı onlara gəldi. Paltarı bərq vuran bu atlı işıq saçırdı. Evin astanasından içəri girər-girməz qərib dedi: Yaxınlarda bütün dünya təlatümə gələcək. Saysız-hesabsız insanlar qırılacaq. Sən insanların taleyi və ölümünü biləcəksən. Qorxma, hər vaxt sənin yanında olacam. Sən insanlara mənim sözlərimi çatdıracaqsan.

Doğrudan da sonralar Vanqa dünyanın ən məşhur bilicilərindən biri oldu. 1941-ci ildən, Vanqanın dünyasını dəyişdiyi 1996-cı ilə qədər yarım milyondan artıq adam Vanqaya müraciət edərək dərdini bildirib. Vanqa onların xəstəliyinin əlacını göstərib, itən şeylərin tapılmasına yardım edib. İnsanların talelərini deməkdən çəkinməyib. Dünya miqyaslı problemlərdən danışıb. İnsanların QİÇS (SPİD) haqqında təsəvvürü olmadığı bir zamanda dəhşətli epidemiyadan söz açıb: "İndiyə qədər məlum olmayan bir çox xəstəliklər meydana

çıxacaq. İnsanlar hətta əvvəllər heç nədən şikayət etmədikləri halda, bir də gördün küçədə yıxılıb öləcəklər".

Aşağıdakılar da Vanqaya məxsusdur: "Ali İdrakla müqayisədə planetimizdəki sivilizasiyanın düşüncəsi uşaqlıq dərrakəsinə bənzəyir. Adi adamlar başqa planetlərə uçacaqlar. İki yüz ildən sonra insanlar başqa planetlərdə yaşayanlarla əlaqəyə girəcəklər. Kosmosdan gələn siqnalları ilk dəfə macar cihazları qeydə alacaqlar".

Vanqadan soruşanda ki, bütün bunları necə görür? Cavab verib: "Görmürəm, eşidirəm. Elə bil uzaq **qərib səs** bunları telefonla deyir".

Nostradamus bu münasibətlə oğlu Sezara ünvanladığı məktubda yazmışdır: "Yalnız yuxarıdan (səmadan) göndərilən daxili səs görücünün ürəyinə nur saçaraq zamanın sirlərini açır".

**Yeri gəlmişkən az adam bilir ki, qərib və ya daxili səs İlahi vergisi olan dahi Səməd Vurğuna da vaxtsız öləcəyini xəbər vermişdi. Şair "Bir səs" şeirində bunu belə təsvir edir:**

**Qərib bir səs gəldi bu gün qəlbimdən:**
**Ömrün baharında öləcəyəm mən…**
**Didib parçaladı bağrımı bu qəm,**
**Üzümə boylandı əlimdə qələm…**

M. Lermontov da öz kəm taleyini əvvəlcədən görmüş və "Vəsiyyət" adlı şeirində (1840) ölüm səhnəsini olduğu kimi təsvir etmişdir.

**...Səninlə, qardaşım, mən bir arada,**
**Üzbəüz oturub söhbətləşərdim.**
**Mənə deyirlər ki, bu gen dünyada,**
**Az qalıb verilən ömür möhlətim.**
**Əgər soran olsa, kim olur-olsun,**
**Mənim taleyimi söylərsən ona:**
**Bağrını yararaq keçən qurğuşun,**
**Bir şair ömrünü yetirdi sona.**[1]

[1] Tərcümə Səyavuş Məmmədzadənindir.

Müasirimiz olan şair Nəriman Həsənzadənin gənclikdə ilahi nurla qəlbinə yol tapan:

**Məhəbbət ... nə deyim o ülvi ada,**
**Hamıya bir gözlə baxmayır o da.**
**Birinə ömür-gün yoldaşı verir,**
**Başqa birisinə göz yaşı verir!**

– misraları şairin öz taleyindən bəhs etmirmi?! Bu, bir daha şairlərin yer üzündə peyğəmbərlərin nümayəndəsi olması fikrini təsdiqləmirmi? Qəm yükünü daşımaq ilahi vergili şairlərin alın yazısı, qismət payıdır – fikrini təsdiqləmirmi?!

Bununla belə, deməliyik ki, dünyanın müəmmalı, sirli keşmə-keşlərini İlahi vergisi olmayanlar dərk edə bilmir, ona pəncərədən baxan kimi baxıb keçirlər. Allah-təalanın seçilmişlərindən etdiyi, ilahi vergisi ilə şərəfləndirdiyi Nostradamus, Edqar, Vanqa və başqa görücülər isə Yaradanın bəxş etdiyi təxəyyüllə gələcəyi görə bilir, onun bəzi sirlərini açmağa qadir olurlar. Və o da maraqlıdır ki, hər görücünün İlahidən gələn özünəməxsus vergi dairəsi vardır. Vanqanın görücülüyü həm keçmişə, həm də gələcəyə aid olduğundan o çox məşhur olmuşdur.

Zəmanəmizdə seçilən görücülərdən biri də Jerar Kruaze olmuşdur.

Hollandiyalı görücü Jerar Kruaze axtarılan adamın sağ və ya ölü olduğunu, yerini dəqiq görür və polislərə köməklik edirdi. Jerarda görücülük oğlu ilə bağlı şəxsi faciəsindən sonra baş vermişdi. Gecə-gündüz oğlu barədə düşünən Jerar gözlənilmədən trans vəziyyətinə düşmüş və yoxa çıxmış oğlunun meyitinin harada olduğunu dəqiq görmüşdü. Bu hadisədən sonra polislər həmişə onun xidmətindən istifadə edirdilər. O, polislərdən bu və ya digər başqa hadisə barədə məlumat alandan sonra trans vəziyyətinə düşür və dəqiq məlumat verirdi. Kruaze o qədər məşhurlaşmışdı ki, düyünə düşmüş cinayət işlərinin açılmasında onun xidmətindən Çin və ABŞ kimi ölkələrdə də istifadə ediblər. Məsələn, 22 fevral 1961-ci ildə Nyu-Yorkda 4 yaşlı Edin adlı qız yoxa çıxandan sonra, ABŞ polisləri 25 fevralda

KLM hava yolları şirkətinin nümayəndəsi vasitəsilə Kruazeni Nyu-Yorka dəvət ediblər. J.Kruaze deyib ki, heç vaxt Nyu-Yorkda olmadığından təəssürat bolluğu işi açmağa ona mane ola bilər. Odur ki, Edin haqqında aldığı məlumat əsasında onun öldürüldüyünü, harada saxlandığını və qatilinin kim olduğunu təsvir edib. Hətta qız uşağını qətlə yetirənin yaşını da göstərib.

Jerar Kruazenin şöhrəti o qədər artmışdı ki, İtaliyada terroristlər Aldo Moronu oğurlayanda interpol onu İtaliyaya köməyə çağırmışdı.

Fağır Jerarın görücülüyü ona baha başa gəldi. İtaliyaya qədəm qoyan kimi, Aldo Moronu oğurlayanlar qorxuya düşərək Jerarı güllə ilə vurdular.

**Allah adamı Dumitru Duduman**

Dumitru Duduman 25 ildən artıq sədaqətlə doğma Rumıniyada pastorluq etmişdi. 1980-ci ildə olimpiada vaxtı Moskvada xeyli yeni əhdi-cədid məsləhəti verdiyinə görə zindana salınmış, işgəncələrə məruz qalmışdı. Onun əzab-əziyyəti 1984-cü ildə ölkədən qovulduqdan, ailəsi ilə birgə ABŞ-a getdikdən sonra bitmişdi.

Dumitrunun Açıqlamaları çoxdur. O, 1984-cü ildə Kaliforniyada məskunlaşan kimi, mələklər ona bir çox məlumatlar vermişdi. Onların arasında aşağıdakılar da vardı:

"Gün gələcək, Los Anjelos, Las Veqas, Nyu-York və başqa şəhərlərin sakinləri günahlarına görə Yaradan tərəfindən cəzalandırılacaqlar. Onların günahları göylərə çatıb. Onları Babildəkilər kimi cəza gözləyir. Mələk onu da əlavə etdi ki, gün gələcək ABŞ əmin-amanlığa inanacaq. Bu vaxt ruslar onların nüvə silahları saxladıqları yerə nüvə silahı ilə hücum edərək ABŞ-ı yandıracaq, ABŞ-da dövlətə qarşı çıxacaqlar. ABŞ-ın başı öz daxili problemlərinə qarışacaq. Bu vaxt Çin, Yaponiya və başqa dövlətlər ruslara qarşı çıxacaqlar. Sonra rusları başçı seçəcəklər. Bundan sonra onlar İsrailə qarşı çıxacaqlar".

1991-ci ildə Dumitru yazırdı: "Çoxları soruşurlar, bu nə vaxt baş verəcək? Amerika nə vaxt od tutub yanacaq? Mən Allaha yalvardım ki, mənə yardım et, məni insanların sorğularından azad et. Həmin gecə mələk gəldi və məni yuxudan oyatdı. "Bibliyanı oxu: Hosea 4:6-

9 və 6:1-3… Amerikalılara de ki, Yaradanın bir günü min ilə, min ili isə bir günə bərabərdir. Əgər onlar peşman olaraq tövbə etsələr, Allaha pənah gətirsələr, 2-ci gündən (yeni eranın 2-ci minilliyi) 3-cü günə (eramızın III minilliyi) keçiriləcək".

Bir çox görücülərin biliciliyi müəyyən hadisə ilə bağlı yaranıb. Biz onlardan Keys, Vanqa, Jerar kimi görkəmliləri haqqında qısaca da olsa məlumat verdik. Müasirimiz olan fransalı görücü Mario de Sabato da görkəmli görücülər sırasındadır.

**Mario de Sabato** 1933-cü ildə Bordoda dünyaya gəlmişdir. Gerçəkləşən Açıqlamaları çoxdur. Onlardan aşağıdakıları göstərmək olar: Kuba böhranı (1962), Ərəb-İsrail müharibəsi (1967), Yunanıstan krallığının dağılması (1967), Niksonun prezident seçilməsi, Jaklin Kennedinin ikinci dəfə ərə gedəcəyi, prezident de Qollun 1969-cu ildə istefaya çıxacağı, C.Pombidunun onun yerinə prezident seçiləcəyi, 1970-ci ildə de Qoll və Ə.Naserin dünyalarını dəyişəcəkləri, "Apollon-XIII" kosmik gəmisinin ölümlə nəticələnəcək uçuşu, Britaniyanın Avropa Birliyinə daxil olacağı (1974), Ərəb-İsrail çəkişmələrinin davam edəcəyi (1973), Vyetnam müharibəsinin sona yetəcəyi (1973), İspaniyada monarxiyanın bərpası (1975), Vyetnamda kommunistlərin hakimiyyətə gələcəyi (1976), İranda şahlıq rejiminin devrilməsi (1979), Rusiyanın kapitalizmə dönüşü (1991), İ.B.Titodan sonra rusların müdaxiləsi ilə Yuqoslaviyada baş verəcək sarsıntılar və müharibə, SPİD xəstəliyinin meydana gələcəyi, Körfəz savaşı və s. Maraqlıdır ki, Körfəz müharibəsini Sabato çox doğru olaraq "Petrol savaşı" adlandırmışdır. Şərq hadisələrini izləyənlər yaxşı bilirlər ki, bütün bu müsibətlər İraqın başına nefti milliləşdirdiyinə görə gəldi.

Burada istər-istəməz bir məsələni qeyd etməmək olmur. Tədqiqatlar göstərir ki, görücülərin böyük əksəriyyəti Fransadan çıxmışdır. O da maraqlıdır ki, bir çox elmi-fantastik əsərlərin müəllifi Jül Vern də görücülər sırasına daxil edilə bilər. Onun bir çox fikirləri gerçəkləşərək həyatda öz yerini almışdır. "Yerdən Aya"

[1] Жюль Верн. С земли на луну. М., 1954, стр. 25, 61, 70, 325.

(1865) əsərində üç nəfər qəhrəmanın "Kolumbiad" adlı silindrik hava gəmisində Aya uçmasını və uçuşun 97 saat 20 dəqiqə davam etdiyini, uğurla nəticələndiyini, Ayın səthinə endiyi yeri, sağ-salamat qayıdıb Sakit okeana endiyini **göstərmişdir**[1].



***Jül Vern (1828-1905)***

Jül Vern astronavtların iki nəfərinin amerikalı, bir nəfərinin isə fransız olduğunu və "Kolumbiad"ın Amerikada hazırlandığını və Aya oradan uçduğunu da göstərmişdir.

Məlumdur ki, ilk dəfə Aya uçan üç nəfər astronavtın hamısı (N.Armstronq, E.Oldrin və M.Kollinz) Amerika vətəndaşı olmuşdur. Yazıçının bir nəfəri fransız göstərməsi ya onun vətənpərvərliyindən, ya da onlardan birinin damarlarında fransız qanının axmasından xəbər verir. Maraqlı cəhətlərdən biri də yazıçının gəminin yerdən qalxmasını təsvir etməsidir. Jül Vern sanki XX əsrin ikinci yarısında havaya qalxan gəmiləri bizimlə bərabər müşahidə etmişdir. Bu hələ harasıdır?

1969-cu ildə ABŞ-ın Apollon-XI "Kolumbiya" kosmik gəmisi (fikir verin: Kolumbiad – Kolumbiya!) üç nəfər astronavtla Aya 97 saat 39 dəqiqə 17 saniyəyə uçmuşdu. Silindrik kosmik gəmi astronavtlarla qayıdıb Sakit okeana enmişdi (Məlumat üçün deyək ki, Ayın səthinə N.Armstronq və E.Oldrin enmişdilər. M.Kollinz isə gəmidə qalmışdı – Q.P.). Jül Vern hesablamalarında cəmisi 20 dəqiqə yanılmışdı. İnsanı heyrətə gətirən hadisədir, deyilmi?

1865-ci ildə Jül Vernin "Yerdən Aya" fantastik əsərində təsvir etdikləri 1969-cu ildə büsbütün yerinə yetib. Şübhəsiz, buna görədir ki, Ayın arxa hissəsindəki kraterlərdən birinə Jül Vernin adı verilmişdir.

Bütün yuxarıda deyilənləri nəzərə almaqla bərabər, çəkinmədən qeyd edə bilərik ki, təkcə fransız yox, eləcə də dünya görücüləri səf-səf düzülsələr, yenə də onların başında Mişel Nostradamus gələcəkdir. Nostradamusu başqa görücülərdən fərqləndirən, onu "görücülər görücüsü" mərtəbəsinə yüksəldən onun gələcəyi, hətta uzaq gələcəyi dəqiq görməsi olmuşdur. Doğrudur dini mənbələrdə uzaq gələcəyi bəşər övladının görməsi istisna olunur. Onun qeyri-mümkünlüyündən danışılır. Qeyd edilir ki, bu, Tanrı ilə bağlıdır. Əslində Nostradamus Yaradanın iradəsi və İlahi vergi sayəsində gələcəkdə Yer üzündə baş verəcək əlamətdar hadisələri tarixi mərhələlər üzrə görmüşdür ki, bu da dünya tarixində analoqu olmayan, anlaşılması çətin olan müstəsna haldır. İstər-istəməz araya düşündürücü suallar çıxır. Nəyə görə dünya tarixində bənzəri olmayan bu müstəsna hal özünü yalnız bir şəxsiyyətdə təcəssüm etdirmişdir? Niyə bu İlahi vergi başqalarına da verilməyib? Gələcəkdə baş verəcək bədbəxt hadisələri, faciələri, hökmdarların ədalətsizliyini və s. bilmək insana nə verir?

Hər şeydən əvvəl onu deyək ki, bu, nəhayətsiz və sonsuz gücə malik Allahın qüdrəti sayəsindədir. Heç nə onun qüdrətindən kənarda deyildir. Buna görə də çəkinmədən deyə bilərik ki, Nostradamus İlahi möcüzə olmuş və möcüzə olaraq qalır. Məsələyə reallıqla yanaşsaq, baş sındırsaq görərik ki, Yaradan Nostradamus vasitəsilə öz möcüzəsini, qüdrət və əzəmətini göstərir ki, dərs alaq, nəticə çıxaraq, Yaradanın varlığını bütün vücudumuzla dərk edək, bizə ayrılmış ömrü vicdanla, halallıqla, inam və imanla başa vuraq. Nostradamusun görücülüyü bu inamı artırır. Onun xəbər verdiyi hadisələrin böyük əksəriyyətində Allahın qəzəbi açıq-aydın özünü büruzə verir. İstər ayrı-ayrı xalqlar, dövlətlər, hökmdar-

lar, tarixi şəxsiyyətlər, istərsə də adi insanlar olsun, fərq qoyulmadan yolunu azmışlardan intiqam alınır. Təkcə Napoleonu, Hitleri, Mussolinini, Lenini yada salmaq kifayətdir.

Nostradamus oğlu Sezara və oxucularına müraciətində bu ciddi məsələyə aydınlıq gətirir: "Mən əvvəlcə qardaş qırğınına səbəb olan müharibələr, dövlətlərin və partiyaların məhvi, xalqların tərkivətən olması, zalım hökmdarların vəhşilikləri barədə yazılı iz qoymaq istəmirdim. Axı, baş verəcək hadisələr barədə xəbər onların özlərindən daha qorxulu görünə bilər. Bu yandan da fikirləşdim ki, təhlükə barədə gələcək nəsillərə məlumat verilməsə, nəticə daha ağır olar. Uzun sürən şübhə və tərəddüddən sonra görücülüyümü, oğlum, sənin və gələcək oxucularımın bu kitabda rast gələcəyi tərzdə bəyan etməyə qərar verdim. Qədim romalılar deyiblər: "Anlayana işarə kifayət edər". Elə mən də bu fikirdəyəm. Əsrlərin arxasından anlaqlı və savadlı adamlara müraciət edirəm. Onların ağlı-zəkası imkan verəcək ki, eyham və axıra qədər deyilməmiş fikirlərimi duysunlar və həqiqəti dərk edə-edə oxusunlar".

Yaradanın iradəsi ilə Nostradamusa iki "Böyük zaman sikli" müddətində baş verəcək əlamətdar hadisələri görmək qismət olmuşdur. Bununla əlaqədar qeyd etmək yerinə düşərdi ki, astroloqlar böyük zaman kəsiklərini hər biri 354 il 4 aydan ibarət olan və müəyyən planetin təsirinə məruz qalan "Böyük zaman sikllәri"nə bölmüşlər. Məsələn, Ay zaman sikli 1534-cü ildə başlamış və 354 il 4 ay sonra, yəni 1889-cu ildə onu Günəş zaman sikli əvəz etmişdir. 354 il 4 ay sonra, yəni 2243-cü ildə isə onu Saturn zaman sikli əvəz edəcəkdir. Astronomik rəqəmlərdə Saturn "böyük bədbəxtliklər mənbəyi" hesab olunduğuna görə çoxları bunu qiyamətin başlanğıcı kimi qəbul edirlər. Doğrudur, Nostradamus 1554-cü ildə yazdığı katrendə "Böyük zaman siklləri"nə və eləcə də görücülüyünün mühüm məqamlarına toxunur:

**Ayın hökmranlığından iyirmi il keçir.**

**Bir vaxt gələcək, Ay yorulub əldən düşəcək.**
**7-ci minilliyin əvvəlində onu Günəş əvəz edəcək.**
**Vaxt gələcək Günəşin enerjisi tükənəcək.**
**O, yorğun və üzgün günlərini başa vuranda,**
**Mənim də görücülüyüm yerinə yetərək**
**başa çatacaq (1 k48).**

Nostradamus oğlu Sezara yadigar qoyub getdiyi məktubda da bu məsələyə toxunurdu: "Biz qadir Allahın kəraməti sayəsində Ayın təsiri altındayıq. Ayın gücü sona yetəndə onu Günəş əvəz edəcək. Sonra isə Saturn gələcək".

Peter Lemesurier "Nostradamusun görücülüyü" adlı kitabında haqlı olaraq qeyd edir ki, görücü dünyanın sonu barədə heç nə **deməyib**[1].

Deyilənlərdən də göründüyü kimi, görücü Yer üzündə həyatın sona yetəcəyindən deyil, görücülüyünün başa çatacağından söz açır. O, kral II Henriyə yazdığı Açıqlamada bu məsələyə tam aydınlıq gətirir: "Sonralar isə işgüzarlıq, din-bərəkət dövrü, Saturnun hökmranlığı və "qızıl əsr" dövrü başlayacaq. Bir gün Yeri-Göyü yaradan deyəcək: "Xəlq etdiyim bəndələrə üz verən müsibətlər, əzab-əziyyət bəsdir". Beləliklə, Yer üzündə Yaradanla bəndələri arasında iltifatlı, bəxtiyar bir dövr başlayacaq".

Nostradamus, kral II Henriyə ünvanladığı Açıqlamada yeddinci minilliyin başlanğıcını da göstərmişdir. Bunun üçün o, peyğəmbərlərin doğum və ölüm illərini hesablayaraq dünyada bizim sivilizasiyanın yarandığı gündən yeni eraya qədər olan vaxt kəsiyinin 4173 ilə bərabər olduğunu göstərmişdir (bəzi məxəzlərdə bu rəqəm 4137 göstərilir – Q.P.).

[1] Peter Lemesurier. Nostradamusun görücülüyü (ingiliscə). London, 1999, səh.58.

Beləliklə, 4137-nin üstünə 1889 gələndə 6026, 4173-ün üstünə 1889 gələndə 6052 edir və hər iki halda görücünün gəldiyi nəticə özünü doğruldur.

Deyilənlərdən nəticəyə gəlmək olur ki, Nostradamus 2242-ci ilə qədər baş verəcək əlamətdar hadisələri görə bilmişdir. Və əgər nəzərə alsaq ki, o, görücülüyə fəal surətdə 1550-ci ildən başlayıb, çəkinmədən deyə bilərik ki, onun görücülüyü ancaq iki “Böyük zaman sikli”ni, təqribən 700 ili əhatə etmişdir. Bunu Nostradamus məşhur katrenində (1 k48) açıqca yazmışdır.

Belə olan halda onun öz dəst-xətti ilə yazdığı: “Bu aramsız görücülüyüm 3797-ci ilə qədər davam edir” qənaəti necə başa düşülməlidir? Bunları Nostradamus 1555-ci ilin mart ayında oğlu Sezara yazdığı məktubda açıqlamışdı.

Beləliklə, 3797-dən 1555 çıxanda 2242 edir. Nostradamus bu addımı din xadimlərini çaşbaş salmaq, fikirlərini pərdələmək naminə bilərəkdən atmışdı. Çünki dini nöqteyi-nəzərdən adları və müddəti bilmək yalnız Yaradanın əlindədir. Lakin yuxarıda deyilənlərdən heç də belə nəticə çıxarmaq olmaz ki, 2242-ci ildə Yer kürəsi və bəşəriyyət məhv olacaqdır, dünyanın sonu gələcəkdir. Əksinə, Nostradamus göstərir ki, bundan sonra min illik “qızıl dövr” başlayacaqdır. Odur ki, bəzi tədqiqatçıların irəli sürdüyü 2242-ci ildə Günəş öz hökmranlığını Saturna verəndə guya “Günəş partlayacaq və Yer üzündə həyat məhv olacaqdır” fikri yuxarıda göstərdiyimiz kimi, cəfəngiyatdan başqa bir şey deyildir. Həqiqət odur ki, Yer üzündə həyat məlum olandan, “Böyük zaman sikllləri” bir-birini əvəz etmiş, planetlər də öz funksiyalarını başqalarına vermişlər. Bu, təbii bir proses kimi gedir və davam edir.

Böyük türk mütəfəkkiri Qazi Bürhanəddin bu münasibətlə gözəl demişdir:

**Söyləyirlər, bir əvvəl var, bir axır.**
**Yalan sözdür, nə əvvəl var, nə axır.**

Deyilənlərdən belə nəticə hasil etmək olar ki, Kainat da Ali idrak kimi əbədidir.

Bəzi tədqiqatçılar Nostradamusun:

**1999-cu ilin yeddinci ayında**
**Səmadan böyük vahimə hökmdarı enəcəkdir** – misraları ilə başlayan katrenini (10 k72) əsas götürərək dünyanın sona yetəcəyini, Yer üzündə həyatın məhv olacağını vurğulayaraq insanları vahiməyə salmışdılar. Belə məsuliyyətsiz çıxışlar təəssüf ki, tez-tez olur. Sensasiya xatirinə insanların əsəbləri ilə oynayanlar indi də az deyildir. Əslində, Nostradamus 1999-cu ilin iyul (yeni təqvimlə avqust) ayında Günəşin tutulacağından (həqiqətən də həmin tarixdə Günəş 2 dəqiqə 23 saniyə tutulmuşdu – Q.P.) söhbət açmışdır. Tədqiqatlardan çıxış edərək demək olar ki, ta qədim zamanlardan insanlar Günəşi "Vahimə hökmdarı", "Dəhşət hökmdarı" kimi tanımışlar.

O da var ki, indi bütün dünyanı lərzəyə salan ABŞ Prezidenti C.Buş 1999-cu ilin həmin vaxtında öz namizədliyini irəli sürmüş və 1999-cu ilin noyabr ayında ABŞ Prezidenti seçilmişdi. Bəlkə məsələnin məğzi buradadır?

Başqa bir tərəfdən də İan Vilson göstərir ki, katrenin 2-ci sətri görücünün 1555-ci ildə çap etdirdiyi kitabında belədir:

**"Səmadan böyük sülhpərvər kral gələcəkdir"**[1]

Peter Lemesurier isə bu sözün bolluq gətirən hökmdar mənasında işləndiyini **göstərmişdir**[2].

Nostradamusşünas Henri Roberts isə katreni belə şərh etmişdir: "Dünyada böyük dəyişiklik olacaqdır. Mövcud ictimai quruluşlar dünyanı bürüyən müharibələrdən sonra tamamilə **dəyişəcəkdir"**[3].

---

[1] İan Vilson. Dəlil-Sübut (ingiliscə). London, 2002, səh. 282 .

[2] Peter Lemesurier. Son hesablaşma (türkcə). İstanbul, 1997, səh. 68.

[3] Henri C.Roberts. Nostradamusun görücülüyünün külliyyatı. Nyu-York, 1947, səh. 336.

Əslində Nostradamusun ən yaxşı tədqiqatçılarından biri kimi tanınan, görücünün 1672-ci ildə ingiliscə çıxan kitabını 1947-ci ildə Nyu Yorkda əldə edən və onun əsərlərini 1947-ci ildən başlamış ölənədək tədqiq edərək ABŞ-da dalbadal nəşr etdirən (1947, 1949, 1962, 1964, 1966, 1968, 1969, 1982) Henri Robertsin dedikləri yerini almaqdadır.

Həqiqətən də Nostradamus XX əsrin sonunda fəlakətlərin, zəl-zələlərin, dağıdıcı müharibələrin, faciələrin baş verəcəyindən çox danışmış və dedikləri gerçəkləşmişdir. Çernobl atom reaktorunun partlaması, İtaliya, İndoneziya, Əfqanıstan, İran, Ermənistan, Türkiyə, Azərbaycan, Türkmənistan və s. ölkələrdə zəlzələlər, Sovet-Əfqanıstan müharibəsi, ABŞ-ın Əfqanıstanı tutması, İsrail- Ərəb, İran-İraq, İraq-Küveyt, Qarabağ, Balkan, Körfəz və Çeçenistan müharibələri, XX əsrin sonunda NATO ölkələrinin, XXI əsrin əvvəlində ABŞ-ın İraqı tutması, Tacikistan, Gürcüstan, Özbəkistan, Qırğızıstan hadisələri, saysız-hesabsız qəzalar, xərçəng, SPİD, Quş qripi və s. ekologiya ilə bağlı xəstəliklər, ozon dəliyinin genişlənməsi, nüvə silahları, kosmik gəmilərin uçuşu, İraq və Küveytdə neft qurğularının yandırılması nəticəsində ekoloji fəlakətlər bu qəbildəndir. Bəzi tədqiqatçıların fikrincə, ümumiyyətlə, iki əsrin qovşağında insanlar həmişə iztirablı, narahat, həyəcanlı anlar yaşayırlar. Hələ biz iki minilliyin qovşağını demirik.

Nostradamusun fövqəlbəşər görücülüyü, demək olar ki, bütün Avropanı, qismən Asiya və Afrikanı, az da olsa başqa qitələri və həyatın bütün sahələrini əhatə etmişdir. Lakin babasının dediyi kimi, "Taleyi günəş şüasına bənzəyən, zülmətləri yarıb keçən, yer üzündə yaşayanların yoluna işıq saçan", onları son mənzilədək izləyən, aqibətini açıqlayan bu qeyri-adi insanın görücülüyü yalnız bizim yaşadığımız, "bir yandan boşalıb, bir yandan dolan" fani dünya ilə bağlıdır. Və bu fani dünyada əsrlərlə özündən sonra baş verəcək hadisələri açıqlamaqla Nostradamus öz dövründə nə

qazanırdı ki, bütün gücünü, ağlını-zəkasını, gözünün nurunu sərf edərək gecələr səhərədək yuxusuz qalıb bu işlə məşğul olurdu? Məgər onun müasirləri bununla maraqlanırdılar? Maraqlansaydılar nə anlaya bilərdilər? Məgər Nostradamus kral II Henriyə məktubda açıqca yazmırdımı: "Mənə əyan olan və uzaq gələcəkdə baş verəcək əksər hadisələr hazırkı dövrdə insanın dərk edə bilməyəcəyi, insan idrakına sığmayan məsələlərdir. Onları hal-hazırda aydınlaşdırmaq, şərh etmək üçün bir yol, vasitə yoxdur".

Yuxarıda deyildiyi kimi, bu da Yaradanın iradəsi ilə olmuş və Nostradamus gördüyü işin böyüklüyünü özü dərk etmişdi. Əks tədqirdə yazmazdı: "Mən indi sağam. Dünyamı dəyişəndən sonra da məni əbədi ölümsüzlük gözləyir".

Kim bilir, bəlkə də Nostradamus Yaradanın iradəsi, ilahi vergi və fitri istedadı sayəsində insanlığın gələcək tarixini yazmağa qərar veribmiş. Çünki bu böyük istedadın katrenlərini nəzərdən keçirdikcə sanki bəşəriyyətin gələcək tarix salnaməsini oxuyursan. Adətən tarixçilər bəşəriyyətin tarixini yazanda bəzən qərəzli, bəzən zorən, bəzən də başqa səbəblər üzündən təhriflərə yol verdikləri halda, Nostradamusda buna rast gəlmirik. Doğrudan da, onun peyğəmbərcəsinə söylədikləri bir-bir gerçəkləşdikcə neçə əsrlərdir insanlar heyrətə gəlir, heyranlıqla bu "qərəzsiz tarixçi"yə min rəhmət oxuyurlar.

Başqa bir tərəfdən də çəkinmədən deyə bilərik ki, onun şan və şöhrətinin birmənalı şəkildə təsdiqi üçün XIX əsrin sonu və XX əsrin sərasər elmi -texniki tərəqqisi, kosmik era gərəkmiş. Bəzən yazırlar ki, Nostradamus öz zamanını qabaqlamış və tədqiqatçılar onun səviyyəsinə yalnız XIX əsrin sonunda yaxınlaşa bilmişlər.

Bizcə, bu fikri məqbul saymaq doğru olardı. Ona görə ki, bu dövr elm və texnikanın tərəqqisi dövrü olduğundan görücünün bu zaman kəsiyindən bəhs edən katrenləri təbii olaraq daha çoxdur. Bunlar bir-bir yerini aldıqca, onun da şöhrəti artır. Doğrudur, Nostradamusun şöhrətinin artmasında müasir informasiya vasitələrinin də

rolu inkarolunmazdır. Radio, televiziya, kino-filmlər, qəzet, jurnal, təqvim, kitablar, internet və s. deyilənlərə əyani sübutdur.

Nostradamusun katrenlərində elm və texnikanın inkişafına və kəşflərə dair çox maraqlı faktlar vardır. Buraya tarixi hadisələr də daxildir. Məsələn, ilk dəmir yolunun, teleqrafın, telefonun kəşfi, ilk hava şarının düzəldilməsi, təyyarələr, sualtı qayıqlar, kosmik gəmilər, kosmosun fəthi və bir çox başqa kəşflər.

Telefon və televiziya ilə bağlı Nostradamus göstərirdi ki, insanlar uzaq məsafədən bir-birini görəcək və danışacaqlar. Eləcə də dəmir yolu və şose yollarının bütün dünyanı bürüyəcəyini qeyd edirdi. Onu da xüsusi göstərirdi ki, insan fəzada hərəkət edəcəkdir. (Bax: 1 k 64, 2 k 2, 3 k 13, 3 k 44, 4 k 15, 4 k 43, 5 k 85 və s.).

Bütün bunlar Nostradamusun dövründə dərk edilməyən, şərhə gəlməyən məsələlər idi. Nostradamus ballıstik raketləri "Uçarkən adamı heyran edən, həm gözəl, həm də heybətli görünüşü olan, bir anda düşməni yaxalayan (1 k 29) kimi təsvir etmişdir. Kosmik gəmiləri "quyruğu alovdan olan quş" (2 k 46) adlandırmışdır".

Görücünün hərbi təyyarələr və atom bombası barədə dedikləri də maraq doğurur:

"Mən heç vaxt belə dəmir quşlar görməmişəm. Onlar şeytandan törəyən əfsanəvi divlərə bənzəyirlər. Yalnız şeytan düşünüb belə bir şey yarada bilər. Çünki şeytanın yaratdığı hər şey kimi, bu da ölüm yayır. Lakin belə bir ölümü zülmətin hökmdarı Şeytan özü də ixtira edə bilməzdi. Bu quşlar yumurtlayanda ümman boyda alov hər yanı bürüyür. Bu alov içində bütün canlılar məhv olur. Bu quş ququ quşu kimi yad yuvada yumurtlayır. Məhvedici yumurta qarnında havada uzun yol qət edərək nəhayət ki, düşmən yuvasına çatır. Yumurtlayan kimi dünyanı alov bürüyür. O özü isə zorla canını qurtararaq uçub gedir. Alov şəhərləri, minlərlə, on minlərlə adamı məhv edir. Yüzillik müharibə məhv edə bilmədiyini bu

[1] Г.Крылов. Так предсказал Нострадамус. Санкт-Петербург, 2000, стр.165-167.

öldürücü yumurta bir anda yox edir. Alov səngiyəndən sonra da insanlar "gözəgörünməz ölüm"ün pəncəsindən yaxa qurtara bilmirlər. Bədbəxt ada, bədbəxt insanlar…"[1].

Nostradamus göstərir ki, bu fəlakət sarıdərililər ölkəsində baş verəcəkdir. O, "gözəgörünməz" ölüm dedikdə isə radiasiya ilə şüalanmanı nəzərdə tuturdu.

Nostradamus II Dünya müharibəsinin səbəbkarı Hitlerin 11 il hakimiyyətdə olduqdan sonra məhv olacağını dəqiq göstərmişdir.

Adamı heyrətə gətirən bir məsələdən də yan keçmək olmur. Körfəz müharibəsindən söz açan Nostradamus ABŞ-ı "qanlı sülh keşikçisi" adlandırır. Yeri gəlmişkən, Nostradamus ABŞ dövlətinin meydana gəlməsini də dəqiq göstərmişdir (4 k96). O, qeyd edirdi ki, İngiltərənin bacısı olacaq, (İngiltərə həmişə ölkə kimi qadın cinsində götürülür. Deməli, görücü İngiltərənin bacısı deyəndə ABŞ-ı, qardaşı deyəndə Fransanı nəzərdə tutur), 15 il sonra isə qardaşı olacaq. Maraqlıdır ki, ABŞ 1776-cı ildə istiqlaliyyət qazanmışdır. 15 il sonra, 1791-ci ilin sonunda isə Fransada inqilab nəticəsində monarxiyaya son qoyulub və Respublika elan edilib.

Nostradamus III Dünya müharibəsinin baş verəcəyindən də söz açır. Göstərir ki, bu müharibəni şərqli hökmdar başlayacaq. O, böyük ordu toplayaraq "Yeni Dünya"ya – ABŞ-a qarşı müharibəyə girişəcək (Amerika və onunla bağlı "Yeni dünya" ifadəsini ilk olaraq Nostradamus işlətmişdir – Q.P.). Yeddi il 20 gün davam edəcək müharibə bütün dünyanı bürüyəcək. Sonda şərqli hökmdar məğlub olacaq. Lakin xristian mədəniyyətinə güclü zərbə endiriləcək.

Maraqlı və eyni zamanda təəssüf doğuran məsələlərdən biri də görücünün kosmik gəmilərdən danışmasıdır. Nostradamus göstərir ki, insanı fəzaya aparan böyük gəmilərin alovdan uzun və böyük quyruğu olacaq. Bu zaman anomal hava dəyişiklikləri və 7 cür xəstəlik baş verəcəkdir. "Yaradanın yeddi qəzəbi" adlanan bu xəstəliklər bəşəriyyətin üçdə birini süpürüb aparacaqdır. O, QİÇS (SPİD) xəstəliyini (1981) "əxlaqsızlıq və pozğunluğa görə cəza"

adlandırıb. Nostradamus daha sonra yazırdı: **“Böyük xəyallar insanları aldadacaq. Və onlar şər qüvvələrə xidmət göstərərək kütləvi qırğın silahları icad edəcək, ağlasığmaz bədbəxtliklərin törədilməsinə rəvac verəcəklər”.**

Nostradamusun əsrlərlə öncə XX əsrdə icad ediləcək məhvedici silahlar barədə dediklərinin tamamilə doğruluğu adamı heyrətə gətirir. Bəşəriyyətin xoşbəxtliyinin ilkin şərti xeyrə xidmət edən elmi idrakın aramsız inkişafı olduğu halda, insanların xəyallara dalaraq dağıdıcı texnologiyaya nail olması, onun xudbinliyi və zorakılığa meyilliliyi, yeraltı və yerüstü nüvə silahlarının sınaqları, raketlərin və kosmik gəmilərin uçuşu və s. atmosferin çirklənməsinə, ozon dəliyinin böyüməsinə, maqnit sahəsinin pozulmasına gətirib çıxarmışdır. Dövlətlər onsuz da tükənməkdə olan yeraltı sərvətləri ələ keçirmək üçün müharibələrə əl atırlar. Bütün bunlar öz növbəsində bəşəriyyətin daimi zəlzələlər, vulkan püskürməsi, iqlim və hava şəraitinin dəyişməsi ilə bağlı daşqınlar, quraqlıq, aclıq, xəstəlik və s. kimi bir çox bəlalarla əlbəyaxa olacağından xəbər verir. Nostradamus göstərir ki, insanlar ağılla, tədbirlə hərəkət etməsələr bəşəriyyəti təhlükəli sarsıntılar gözləyir.

Təkcə sadalananlar kifayətdir ki, bu möcüzə adamın şəxsiyyətinə qibtə edəsən. Əsrlər keçir, onun şan və şöhrəti daha da artır. Özünün dediyi: “Dünyamı dəyişəndən sonra da məni əbədi ölümsüzlük gözləyir” yerini alır. Axı, Nostradamusa qədər də, ondan sonra da görkəmli astroloqlar, görücülər olmuşlar. Lakin birmənalı şəkildə deyə bilərik ki, heç kəs Nostradamusun yüksəldiyi ali mərtəbəyə qalxa bilməmişdir. Bunu aşağıdakılarla izah etmək olar. Bu möcüzə görücülük davamlı olaraq tarixin çox böyük zaman kəsiyini, daha doğrusu, 2242-ci ilə qədər baş verəcək əlamətdar hadisələri əhatə edir. Gələcək dünya tarixinə heç kəs onun qədər dərin nüfuz edə bilməmişdir. Katrenlərdə saysız-hesabsız hadisələrdən söhbət gedir və bu hadisələr labüd olaraq yer aldıqca istər-istəməz insanlarda Nostradamusun görücülüyü ilə daha dərindən tanış olmaq arzusu baş




***Azadlıq carçısı Xoruz yeni eranın gəldiyini bildirir***

qaldırır ki, bu da bu nadir insanın bütün zamanlarda məşhur olmasına, şan və şöhrətinin get-gedə artmasına təminat verir.

Yuxarıda deyildiyi kimi, Nostradamusun əsrlərlə öncə söylədiklərini yalnız hadisə baş verdikdən sonra anlamaq olur. Məlumdur ki, 1999-cu ildə Rusiyanın prezidenti Boris Yeltsin prezidentlik müddətinin bitməyinə altı ay qalmış müəmmalı şəkildə, sanki könüllü olaraq hakimiyyətdən əl çəkdi. Biz B.Yeltsinin müasirləri olsaq da, bunun səbəbini, daha doğrusu, sirrini bilmədik.

Lakin 450 il bundan öncə Nostradamus köməkçisi Jan Şavinye ilə söhbətində bu nöqtəyə və ümumiyyətlə, hakimiyyətlə bağlı məsələyə toxunur: "Dostum, mən tez-tez hakimiyyət barədə düşünürəm. Ona görə yox ki, hökmran olmaq istəyirəm. Lakin hər şeyi bilmək istəyən bir adam olduğumdan özüm-özümdən soruşuram ki, nəyə görə bəzi adamlar hakimiyyətə gəlmək naminə cinayətə belə əl atmağa hazır olurlar. Hakimiyyətə gəldikdə isə ondan əl çəkmək istəmirlər. Kral hətta ölüm ayağında olanda belə taxt-tacı oğluna verməyə tələsmir. Oğul isə taxt-taca sahib olmaq üçün atasının ölümünü tezləşdirir. Ata da, oğlu da bir Allaha qulluq edərək müqəddəs ehkamları bildikləri halda niyə belə hərəkət edirlər?

Doğrudanmı hökmranlıq şövqü o qədər güclüdür ki, qalan hər şey bu ehtiras qarşısında sönük görünür?! Başqalarını özünə tabe etmək onlardan daha ağıllı, daha xoşbəxt olmaq demək deyildir. Sadəcə olaraq onlara hökmranlıq etmək imkanı əldə etməkdir. Bu nə qədər də əhəmiyyətsiz bir şeydir. Lakin bunun həsrətində olan bir çoxları son məqsədlərinə çatmaq üçün heç nədən çəkinmir.

Dostum, bundan 250 il sonra "Xoruzlar ölkəsi"ndə (Gerbində xoruz həkk olunduğuna görə Fransa belə adlanmışdır. Maraqlıdır ki, bu hadisə Nostradamusdan sonra, 1789-cu il inqilabı zamanı baş verib. Rəmzi mənası – oyanmış xoruz Fransanı azadlığa səsləyir – Q.P.), 450 il sonra isə "Ayılar ölkəsi"ndə (Rusiya – Q.P.) hakimiyyətdəki boşluq, heysiyyətlərinin sonu görünməyənlərin başını gicəlləndirəcəkdir. Odur bax, görürsən, onlardan biri sağ-salamat qalmaq üçün hakimiyyətdən əl çəkərək onu başqasına verir. Necə olsa da, dostum, onu bilirəm ki, **əsrlər bir-birini əvəz edir, lakin bu dünyada heç nə dəyişmir. İnsan həmişə eyni hərislik və nöqsanlara mübtəla olur"**[1].

Doğrudan da, Fransa və Rusiyada Nostradamusun dedikləri baş vermişdir. 1793-cü ildə Fransanın kralı XVI Lüdovik inqilabın qurbanı oldu. Onu edam etdilər. 1802-ci ildə isə Napoleon XVIII Lüdovikə məktub göndərdi ki, gələcək imperatorun xeyrinə ata-baba krallıq imtiyazlarından əl çəksin. Əvəzində ona İtaliyada knyazlıq və çoxlu gəlir vəd olundu. XVIII Lüdovik təklifi rədd etmişdi: "Şərəfdən başqa hər şey itirilib. Mən buna razı ola bilmərəm". Beləliklə, XVIII Lüdovik öldürülür və Burbonlar hakimiyyətinə – monarxiyaya birdəfəlik son qoyulur. O ki qaldı "Ayılar ölkəsi"nə, burada hər şey aydındır. Söhbətin Boris Yeltsindən getdiyi şübhə doğurmur. Doğrudan da onun prezidentlik dövrünün sonuna yaxın hakimiyyətdə bir boşluq hiss olunurdu. Prezidentlik müddətinin bitməsinə az qalmış B.Yeltsinin hakimiyyətdən "könüllü" əl çək-

[1] Г.Крылов. Так предсказал Нострадамус. Санкт-Петербург, 2000, стр.179-180.

məsi də bizim zəmanəmizdə baş verdiyinə görə bizlərə yaxşı məlumdur. Onun yerinə o vaxtadək siyasət aləmində tanınmayan V.Putin gəldi (31.XII.1999).

Hökmranlıq şövqü və ehtirası barədə Nostradamusun bir neçə katreni vardır. Onların arasında 6 k54 örnək olmaq baxımından xüsusi əhəmiyyət kəsb edir.



***Görücünün söz açdığı şəxsiyyətlər və Nostradamus. Şəkli Torne-Şavinye çəkmiş və 1878-ci ildə çap etdirdiyi "Nostradamusun təsiri" kitabında vermişdir. Ön planda Torne-Şavinye özüdür***

Deyilənlər Nostradamus yaradıcılığına inamı birə on artırır. Görücü özünə arxayın idi. Özünə arxayın adama isə, I.Hötenin dediyi kimi, hamı inanır.

XVI əsrin 2-ci yarısından başlamış bütün dövrlərdə nostradamusşünaslar olmuşlar. Onun ilk tədqiqatçısı tələbəsi Şavinye olub. O, 1556-1589-cu illər arası görücünün artıq həyatda baş verən hadisələrdən bəhs edən katrenlərini toplamış, şərhini verərək çap etdirmişdir (1594). Bundan sonra keçən bütün zamanlarda Nostra-

damusun katrenlərinin şərhçiləri onları hərə öz dövrü ilə əlaqələndirməyə çalışmışdır. Bu ümumi xəstəlikdən yan keçən, demək olar ki, olmamışdır. Qoyya Nostradamusun 2-ci tədqiqatçısı olmuşdur (1693). Barest (1840), Le Pelletye (1867), keşiş Torne-Şavinye də (1878) onun ilk tədqiqatçılarından hesab olunur (Mötərizədə onların Nostradamusa həsr etdiyi kitabların çap tarixi verilib – Q.P.). 1938-ci ildə məşhur fransız tarixçisi, Nostradamusun ən yaxşı tədqiqatçılarından biri hesab olunan Dr. Maks Fonbryun böyük görücünün 1568-ci ildə çıxmış külliyatını əldə edir və iki hissədən ibarət kitab yazır. Kitabın 1-ci hissəsində Fonbryun almanların Fransanı tutacağını, həm də fransızların böyük xərcə tikdirdikləri Manejo beton divarlarından yan keçərək, Belçikadan hücuma keçəcəklərini göstərmişdi. Tədqiqatçı bu böyük müharibədə Hitlerin məğlub olacağını da açıqlamışdı. Kitab bomba kimi partladı. Gestapo Fonbryunu tutub ona ağır işgəncələr verdi. Kitabın 2-ci hissəsi çapxanadan yığıldı. Nostradamus yenidən məşhurlaşdı.

Jan Şarl de Fonbryunun 1980-ci ildə Parisdə fransızca çıxan kitabı həm həcminə görə (600 s.), həm də sanbalına görə yaxşı mənada yalnız Con Houqun "Nostradamusun tam külliyyatı", Böyük Britaniya, 2001, 962 s. (ingiliscə) və Peter Lemesurierin "Nostradamusun görücülüyünün izahı", Böyük Britaniya, 2003, 422 s. (ingiliscə) ilə müqayisə oluna bilər. İngiliscə olan kitablarda mətn həm orijinalda olduğu kimi, həm də ingiliscə verilmişdir. Peter Lemesurierin kitabında isə fransızca mətn həm orijinalda, həm də müasir fransız dilində olduğu kimi verilmişdir. Bu, katrenlərin tərcüməsində böyük fayda verir. Nostradamusun mətləbini anlamağa çox kömək edir. Məsələ burasındadır ki, görücünün vaxtında dialektlərdən istifadə olunurdu. Fransız ədəbi dili Nostradamusdan çox sonra, XVII əsrdə təşəkkül tapmışdı.

Bütün əsrlərdə nostradamusşünaslar olmuşlar. Lakin XX və XXI əsrin qovşağında onların sayı daha da çoxalmışdır. Bu təsa-

düfi deyildir. Nostradamusun **“Əsrlərin böyük təkanverici qüvvəsi təzələnəcəkdir”** kimi qiymətləndirdiyi, elm və texnikanın ağlasığmaz dərəcədə inkişaf etdiyi XX əsrə aid görücünün katrenləri daha çoxdur. Yaradıcılığına həsr olunmuş tədqiqatlara görə Nostradamus dünyada ön yerlərdən birini tutur. Təkcə onu demək kifayətdir ki, onun yaradıcılığından amerikalı tarixçi Edqar Leoni doktorluq, rus alimi və nostradamusşünası A.Penzenski və b. namizədlik dissertasiyası müdafiə etmişlər.

Nostradamus ona görə bütün dövrlərdə məşhur olaraq qalır ki, zaman keçdikcə onun sözləri yerinə yetir, insanlar istər-istəməz böyük görücünün dedikləri ilə maraqlanır, yeni tədqiqatçılar meydana gəlir. Tədqiqat əsərləri oxucuların mühakiməsinə verilir.

Diqqəti çəkən bir cəhət də ondan ibarətdir ki, müəyyən qüvvələr zaman-zaman Nostradamusun görücülüyündən məqsədyönlü şəkildə öz xeyirlərinə istifadə etmişlər. Məsələn, II Dünya müharibəsi zamanı Almaniya, İngiltərə və ABŞ-da buna xüsusilə ciddi yanaşırdılar. Almaniyada 1940-cı ilin mart ayında Təbliğat nazirliyində Hebbelsin rəhbərliyi ilə qərar qəbul olunmuşdu ki, Nostradamusdan təbliğat vasitəsi kimi istifadə edilsin. Beləliklə, 1940-cı ilin ortalarına yaxın almanlar, fransız, ingilis, holland, italyan, serb, xorvat, rumın, isveç dillərində 83 min nüsxə kitab buraxmışdılar. Uydurma kitablarda guya Nostradamusun almanların qalib gələcəyi barədə fikirləri **verilmişdi**[1]. ABŞ-da isə ekranlara bu deyilənlərin tam əksinə yönəlmiş “Nostradamus belə demişdir” adlı film çıxmışdı. Filmdə Hitlerin məğlub olacağından, müttəfiqlərin mütləq qalib gələcəyindən danışılırdı. Onu hətta cəbhədə göstərirdilər ki, əsgərlərin əhvali-ruhiyyəsi yüksəlsin. Əmin olsunlar ki, çəkdikləri zəhmət, əzab-əziyyət, veriləcək qurbanlar əbəs getməyəcəkdir. Müharibədən sonra Nostradamus ABŞ-da görkəmli

[1] İan Vilson. Dəlil-Sübut (ingiliscə). London, 2000, səh. 275-276.

şəxsiyyətlərdən biri kimi qəbul olundu. Təsadüfi deyildir ki, indi ABŞ-da "Amerika Nostradamus cəmiyyəti" vardır.

Onu da xüsusi qeyd etmək lazımdır ki, zəmanəmizdə Nostradamusdan müsəlman aləminə qarşı istifadə edirlər. Insanları müsəlman xofu ilə vahiməyə salırlar. Biz əsər boyu sübut-dəlillərlə bu təbliğatın əsassız olduğunu göstərmişik.

Burada ciddi bir məsələni də qeyd etməliyik. Azərbaycanlı oxucular indiyə qədər Nostradamusun yaradıcılığı ilə əsasən rus dilində çıxan kitablar vasitəsi ilə tanış olublar. Təəssüflə deməliyəm ki, Sovet imperiyası çökdükdən sonra, Nostradamusa olan hədsiz marağa şirnikən, görücünün yaradıcılığından biznes məqsədilə istifadə edən rus tədqiqatçıları tələm-tələsik yazılmış çoxlu sayda kitablar buraxmışlar. Görücünün katrenlərinin şərhi ağır və çox vaxt aparan, dərin tədqiqat tələb edən bir iş olduğundan, əksər rus tədqiqatçıları asan yolla gedərək məsələyə səthi yanaşmış, katrenləri istədikləri kimi yozmuşlar. Odur ki, biz katrenlərin şərhində Rusiyada çıxan ayrı-ayrı müəlliflərin, xüsusən də A.Morok və K.Razumovskayanın, Dmitri və Nadejda Zimaların, N.Belovun, E.Berzinin, A.Penzenski, T.Ukrainskaya və başqalarının kitablarında gedən, insanları vahiməyə salan, cəfəngiyat xarakterli bir çox fikir və mühakimələrə hərtərəfli münasibət bildirməkdən vaz keçdik. Lakin onu deməyi vacib bildik ki, zaman-zaman sensasiya xatirinə Nostradamusun adından istifadə edərək insanları vahiməyə salanları görücü özü lənətləmişdir:

**6 k100**

**Bu bəndi oxuyan, qoy dərindən düşünsün.**
**Rədd olsun qanmazlar və nadan insan yığını.**
**Bütün astroloqlar, kütlər, varvarlar kənara dursun.**
**Dediyimi tərsinə yozanlar müqəddəs ayinə tapşırılsın.**

Bu katrendə Nostradamus öz görücülüyü ilə bağlı əsas məqamı açıb ortaya qoyur. Görücü duymuşdu ki, gələcəkdə onun dediklə-

rini necə gəldi yozacaq, pul və sensasiya xatirinə tələm-tələsik yazılmış, "tematik" kitablar buraxacaqlar.

O da var ki, Rusiyada çıxan kitablara bənzər əsərlərə başqa dillərdə çap olunan tədqiqatlar arasında da qədərincə rast gəlinir. Görücüyə müraciət edən tədqiqatçılar katrenləri öz dövrlərinə, bilik səviyyələrinə, bir çox hallarda öz xalqlarına və yaşadıqları mühitə münasib şəkildə yozmaqla, böyük görücünü təhrif etmiş və nəticədə onların kobud səhvləri Nostradamusun ayağına yazılmışdır. Nostradamusla bağlı söz-söhbətin, müxtəlif fikirlərin ayaq alıb yeriməsi bu acı həqiqətlə bağlıdır.

Futbol üzrə Dünya çempionatında (2006-cı il) guya Nostradamus İspaniyanın yığma komandasının qalib gələcəyini göstəribmiş. Ağ yalandır. Nostradamus yalnız və yalnız 2004-cü ildə Yunanıstanda keçirilmiş Olimpiya oyunlarından söz açıb. İki əsrin və iki minilliyin kəsiyində, həm də Olimpiadaların vətəni Yunanıstanda olduğuna və bu zaman müəyyən möcüzəli hadisələr baş verdiyinə görə bu məsələyə toxunub (bax:10 k 74).

David Ovason yazmışdır: "Nostradamusun tədqiqatçılarının ən zəif cəhəti onların böyük canfəşanlıqla öz nəzəriyyələrinin doğruluğunu sübuta yetirməyə can **atmalarıdır"[1].**

Həqiqət naminə xüsusi vurğulamalıyıq ki, Nostradamusun katrenlərini şərh etmək müqəddəs kitabları təfsir etmək qədər çətindir.

Təsadüfi deyildir ki, professor Vasim Məmmədəliyev yazmışdır: "Quran təfsiri İslam aləmində ən çətin elm hesab olunur. Təfsirə yalnız elmdə müctəhidlik mərtəbəsinə yetişən alim cürət edə bilər. Qurani-Kərimi təfsir etməyə girişən müctəhid iyirmi ana (əsas) elmi və ondan ayrılan altmış qolu mükəmməl bilməlidir ki, bunların da məcmuu səksən elm təşkil edir. Həmin elmlərə dərindən yiyələnməyən şəxsin etdiyi Quran təfsiri yarımçıq, naqisdir

[1] David Ovason. Nostradamusun kodu (ingiliscə). London, 1998, səh.546.

ki, bu da böyük günah sayılır" (bax "Qurani-Kərim". Azərnəşr, 1992, s. XXI).

Təsəvvür edin, "Qurani-Kərim"i Azərbaycan dilinə uğurla tərcümə edən görkəmli şərqşünas və ilahiyyatçı alim, müsəlman dünyasında böyük nüfuz qazanmış, bir çox müsəlman ölkələrində istər ilahiyyat, istərsə də dünyəvi elmlər üzrə akademiyaların üzvü V.Məmmədəliyev Quranı təfsir etməyə özünü yalnız ahıl çağında – 2006-cı ildə hazır saydı.

Müqəddəs kitabları təfsir etmək üçün iyirmidən artıq elm sahəsini mükəmməl bilmək tələb olunduğu kimi, Nostradamusun katrenlərini də düzgün anlamaq və şərh etmək üçün dünya tarixini, coğrafiya, astrologiya, astronomiya, dəqiq elmlər, ilahiyyat, ədəbiyyat, mifologiya, xüsusən də qədim Roma, yunan və şərq mifologiyasını və dilləri bilmək vacibdir. Fransa, İtaliya, İspaniya, Britaniya tarixini və coğrafiyasını ciddi bilmək də zəruridir.

Müqəddəs kitablar, Allah kəlamı kimi dövrə, zamana görə açıqlandığı, həmin dövrdə yaşayan insanların əqli, elmi səviyyəsinə müvafiq şəkildə təfsir edildiyi kimi, Nostradamusun katrenləri də beləcə şərh edilir. Lakin böyük görücünün heyrətamiz şəkildə bəyan etdiyi bir çox hadisələr, elmi kəşflər barədə doğru-düzgün məlumat vermək o qədər də asan məsələ deyildir. Nostradamusşünas Bardo Kidoqo katrenlərin şərhini obrazlı şəkildə ayaqqabıya bağlanmış qaytana bənzədir. Açmaq istəyəndə qaytanı tərsinə çəksən düyün düşəcək, açılması müşkül olacaq. Beləcə də katrenlər. Maraqlıdır ki, nostradamusşünasların hər biri öz əsərinin ən layiqli tədqiqat işi olduğunu israrla vurğulayır. Buna hardasa haqq qazandırmaq olar. Bu, yaradıcı adama xas olan xüsusiyyətdir. Yaradıcılıq əzəmətli aldanışdır. Əzəmətli aldanışa düçar olmadan yazıb-yaratmaq olmur.

Lakin astrologiyadan dərs deyən və özünü qırx ildən artıq Nostradamusun tələbəsi sayan David Ovason bu baxımdan çoxlarını kölgədə qoymuşdur. Onun 1998-ci ildə İngiltərədə ingiliscə

çap etdirdiyi "Nostradamusun kodları" adlı böyük həcmli kitabının üz qabığında oxuyuruq: "Nostradamusun görücülüyü ilə maraqlananlar indiyə qədər oxuduqlarını bir yana qoyaraq onları yaddan çıxarmalı və hər şeyə yenidən bu kitabdan başlamalıdırlar".

Güman etmək olar ki, bu, naşirin əsərin satılması naminə atdığı addımdır. Hər halda fakt fakt olaraq qalır.

XX əsrin sonuna yaxın bu bənzərsiz görücünün əsərlərinə hədsiz maraq dünya nostradamusşünaslıq məktəbinin yaranmasına gətirib çıxarıb. İki əsrin və iki minilliyin qovşağında bu istiqamətdə bir çox kitablar və sanballı tədqiqatlar meydana gəlib.

Ümumiyyətlə desək, Mişel Nostradamusun katrenləri İ.Nyuton, B.Paskal, İ.Kepler, D.Mendeleyev, K.Siolkovski, N.Jukovski kimi dünya şöhrətli alimlərin, İ.Höte, V.Hüqo, Jül Vern, L.Tolstoy, N.Ostrovski, Pasternak və digər bir çox yazıçıların diqqətini cəlb etmişdir. Bundan belə nəticəyə gəlmək olur ki, Nostradamusun əsərləri bədii düşüncəyə təsiri baxımından da əhəmiyyət kəsb edir. Görkəmli fransız şairi Pyer Jan Beranje (1780-1857) Nostradamusun ölümündən təqribən 300 il sonra onun ölməz irsinə müraciət etmiş, Fransada gələcəkdə baş verəcək bəzi hadisələri şair fəhmi ilə doğru təsvir etmişdi.

## Nostradamusun 2000-ci ilə görücülüyü

Dördüncü Henrinin doğum şahidi
Mövlana münəccim Nostradamus demiş:
Elə ki, iki min il saya gəldi,
Böyük çevrilişlər qılacaq gərdiş.

Parisdə Luvr batar insan selinə,
Bir bəndə dilənər görkəmi miskin:
"Siz ey fransızlar, Tanrı xətrinə,
Kral nəvəsinə sədəqə verin!"

Biri çımxıracaq: "A heybəli kəs!
Yolçuluq yasaqdır məmləkətimdə!"
"Rəhm elə cənabım! – deyəcək o kəs.
Mən ölsəm, öləcək kral nəslim də!".

Atam borc içində, zindanda öldü.
Bir iş bacarmırdım, düşdüm bu kökə.
Acın məşəqqəti mənə yar oldu.
Varlının zopası, zoruyla birgə.

Qayıtdım yenə də sənin qoynuna,
Ey ata-babamı məhv edən ölkəm.
Rəhm edin səfilə, allah adına
Kral nəvəsiyəm, pay diləyirəm!

Soydaşı yumşalıb: "Gedək" - deyəcək.
Gedək ocağıma, biçarə fəqir.
Krallara qarşı kin bəsləməyək
Onların soyu ki, ayaq altıdır.

"Sənin qərarını senat verəsi –
…Beləcə vətəndaş danışdı, dindi –
Kral qatilinin nəvəsi indi
Qoy sənə pay versin, kral varisi!"

Sonra da söyləmiş ulu görücü:
"Respublika krala yüz altun para
Təqaüd kəsəcək və daha sonra
Parlaman olmağa verəcək gücü".

Kral tifaqının son varisinə
Parisin sədəqə, pay verməsindən

---

[1] Azərbaycan dilinə tərcümə şair Səyavuş Məmmədzadənindir.

İkiminincidə elm aləminə
Qədəm qoyan dünya biləcək **həmən[1].**

Məşhur fransız yazıçısı Mişel Zevako (1860-1918) isə “Nostradamusun həyatı və sevgisi” adlı təkrar-təkrar çap olunan və başqa dillərə tərcümə edilən böyük həcmli roman yazmışdır. Eləcə də astroloq və yazıçı Liz Qrin Nostradamusla bağlı “Əli çubuqlu xəyalpərəst”, alman yazıçısı Manfred Byörn isə “Nostradamus. Həyatı və görücülüyü” adlı romanlar yazmışlar.

“Heç kəs taleyini dəyişdirə və taleyindən qaça bilməz” – deyən Höte də məşhur “Faust” əsərini Nostradamusa müraciətlə başlayır, onun görücülüyünə yüksək qiymət verirdi:

Qaç! Qaç təbiətin azad qoynuna!
Mişel Nostradamın yazdığı əsər,
Qoy olsun bu yolda sənə ilk **rəhbər[1].**

Şübhə etmirik ki, Nostradamusdan əmanət qalan və bəşər övladını neçə əsrdən bəri düşündürən bu qiymətli əsər, bəşər mədəniyyətinin ayrılmaz hissəsi kimi bu gəlimli-gedimli dünya durduqca duracaqdır.

Onu da deyək ki, Nostradamusdan oğlu Sezara vəsiyyətnaməyə bənzər məktubu, Fransa kralı II Henriyə ünvanladığı Açıqlaması, Oranja şəhər müqəddəslərinin oğruların tapılmasına kömək etmək barədə sorğularına cavab məktubu və 1000 bəndə yaxın katrenləri qalmışdır. Böyük görücünün oğlu Sezara məktubu və kral II Henriyə ünvanladığı Açıqlaması xüsusi maraq doğurur. Çünki burada Nostradamus həm bəşəriyyətin böyük bir zaman kəsiyində

---

[1] İ.V.Höte. Faust. Bakı, 1986, səh. 29 (Tərcümə Əhməd Cəmilindir).

keçəcəyi tarixə nəzər salır, həm görücülüyünün yollarını təsvir edir, həm də ümumiyyətlə, görücülük, bəşəriyyət və həyat barədə düşündürücü fikirlərini şərh edir. Onları dönə-dönə oxumadan Nostradamusun bu möcüzəli aləmini dərk etmək çətindir.

Hörmətli oxucular, güman edirik ki, onlar nəinki marağınıza səbəb olacaq, eyni zamanda sizi dərindən düşündürəcəkdir. Buna əmin olduğumuzdan, kitabın sonunda, "Əlavələr" bölməsində onları da nəzərinizə çatdırmağı lazım bildik.

Nostradamusu daha yaxşı anlamaqda yardımçı olacağını nəzərə alaraq "Görücünün görücü barədə düşüncələri", "Vanqa ilə müsahibə" və "Dövlət başçıları və astroloqlar" adlı çox maraqlı yazıları da bu bölmədə verdik.

Kitabın sonunda, eləcə də katrenlərdə adı çəkilən tarixi şəxsiyyətlər, dəqiq tarix və müddət, ölkələr, ibrətamiz hadisələr və şəxsiyyətlərlə bağlı katrenlərin göstəricisi, müqayisələr aparılan kitabların siyahısı və mündəricat da verilmişdir.

Əziz oxucular, qədim Çin mütəfəkkiri Konfusinin maraqlı kəlamı vardır: "Elm, bilik elə bir həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilir". Böyük Yaradandan təmənna edirəm ki, qəm, qüssə, kədərdən uzaq olasınız. Bu kitab isə elm, bilik, həzz mənbəyi kimi Sizə yardımçı olsun!

# I SENTURİYA (I YÜZLÜK)



***Yaxın və uzaq gələcəkdə baş verəcək hadisələri anlaşılmaz və müəmmalı ifadələrlə verməli oldum. İnsan qəlbi zəif və köməksiz olduğundan deyilənlər yerini aldıqda böyük sarsıntı keçirir...***

## 1 k1

**Axşamdan bəri xəlvəti iş otağıma çəkilib**
**İçərisi su ilə dolu üçayaq üstündə mis camın**
**qarşısında tək-tənha fikrə dalmışam.**
**Birdən gözümün önündə alovun nazik**
**haləsi canlanır.**
**Zəhmətimin hədər getmədiyinə sevinirəm.**

Nostradamusun 1-ci və 2-ci katrenləri görücülükdən deyil, ona hazırlıqdan bəhs edir.

Nostradamus adətən gecələr xəlvəti iş otağına çəkilib işlərmiş. Bu katren böyük görücünü ekstaza gətirən fövqəltəbii mərasimdən söz açır. Nostradamus ağzına qədər isti su ilə doldurulmuş və üçayaq üstündə yerləşdirilmiş ləyənin yanında əyləşər, suya adamı bihuş edən ətirli maddələr, çiçəklər, otlar tökərmiş. Dərindən nəfəs alaraq buğu sinəsinə çəkər, sehrli dualar oxuyarmış. Çubuğu və dəfnə budağını suya salar, ayağını və paltarının ətəyini su ilə bolluca isladarmış. Birdən qəlbinə ilahi nurun və istiliyin dolduğunu və qeyri-adi enerjinin onu çulğadığını hiss edərmiş. Əvvəlcə diksinərək qorxsa da, az sonra vəcdə gələr və huşsuz halda gələcəyə səyahət edərmiş. İlahi vergi sayəsində gördüklərini, kosmosdan gələn və gələcəyə aid olan məlumatı ya özü, ya da köməkçisi Şavinye kağıza köçürərmiş. Beləliklə, Nostradamusun 16 illik görücülüyü dövründə miras qoyub getdiyi **minə yaxın** katren meydana gəlmişdir. Onun ruhu bədənindən ayrılıb hər dəfə gələcəyə səyahət etdiyi vaxt neçə hadisə ilə üzləşdiyini və nəticədə neçə katrenin meydana gəldiyini deyə bilmərik.

Lakin bizə gəlib çatan, məlum olan katrenləri 16 ilə böləndə hər ilə orta hesabla 62-63 katren düşür.

**1 k2**

**Sehrli dəmir çubuğu cama salıb fırlayıram.**
**Su ətrafa sıçradıqca əbamın ətəyi və ayağı islanır.**
**Qorxudan çıxardığım səsdən əbamın enli qolları titrəyir.**
**İlahi əzəməti canıma vəlvələ salır.**
**Deməli, İlahi yaxındadır, dayağımdır.**

Bu katrendə Nostradamusun vəcdə gələrək, həyəcanın şiddətindən özünü itirənə kimi keçirdiyi sarsıntıdan söz açılır.

**1 k3**

**Həyatın fırtınalı, qasırğalı hadisələri taxt-tacı çevirəndə,**
**Çoxları bu mənzərəni görməmək üçün üz-gözlərini paltarları ilə örtəcəklər.**
**Yeni fikirli adamlar Respublikanın dayaqlarını silkələyib laxladanda ağlar da, qırmızılar da düzgün qərara gələ bilməyəcəklər.**

Nostradamusun katrenlərindən bir xeylisi Fransa inqilabı dövrünə aiddir. İnqilab qasırğası bütün ölkəni bürüyəndə (1789) aristokratlar üz-gözlərini gizlədərək, özlərini tanınmaz hala salır və ölkəni tərk edirdilər. Vaxtında qaçıb canını qurtara bilməyənləri isə məhv edirdilər. Nostradamus "ağlar" deyəndə ölkəni əsrlər boyu dilənçi kökünə salmış Burbonları, "qırmızılar" deyəndə isə inqilabçıları nəzərdə tutmuşdur.

Bu katreni çəkinmədən 1917-ci il Böyük Oktyabr sosialist inqilabına da aid etmək olar. Ağlarla qırmızıların qarşıdurmasını Nostradamusun dəqiq görməsi adamı heyrətə gətirir.

**1 k4**

**Bütün aləmdə təkcə bir hökmdar (hakimi-mütləq) olacaq.**
**Onun həyatı və rahatlığı çox sürməyəcək.**
**Sonra müqəddəs Pyotrun balıqçı qayığı yoxa çıxacaq.**
**İdarə üsuluna çarəsi olmayan ziyan vurulacaq.**

"Hakimi-mütləq" – dedikdə Roma Papası nəzərdə tutulur. Ona görə ki, bizim zəmanəmizdə hökmdarlar olub və olacaqlar. Lakin Roma Papası sonuncu ola bilər. Balıqçı qayığı Papanın və Vatikanın rəmzidir. Birinci Papa, qalileyalı balıqçı – müqəddəs Pyotr olub.

Maraqlıdır ki, hələ 1139-cu ildə Romaya gələn irlandiyalı müqəddəs Malaxiya da Roma papalarından danışıb və göstərib ki, 111 Roma Papası olacaq. Müqəddəs Malaxiya hər Papanın rəmzini də göstərib. Məsələn, Vatikanın papası II İohann Paveli "yorulmaq bilməyən bal arısı" adlandırmış və II İohann Paveldən sonra cəmisi iki Papa olacağını və sonuncu Papa – romalı Pyotrun vaxtında Papalığa son qoyulacağını göstərmişdir.

Maraqlıdır ki, müqəddəs Malaxiyadan 415 il sonra Mişel Nostradamus da eyni vəziyyəti görmüşdür. Demək olmaz ki, Nostradamus müqəddəs Malaxiyanın əlyazması ilə tanış imiş. Belə ki, bəzi tədqiqatçılara görə müqəddəs Malaxiyanın əlyazması Vatikanın kitabxanasında Nostradamusun ölümündən 24 il sonra, 1590-cı ildə, başqalarına görə isə 40 il sonra, 1606-cı ildə üzə çıxarılıb.

Bəzi tədqiqatçılar bu katreni Napoleon və Roma Papası VII Piylə bağlayırlar. VII Piy Fransaya iki dəfə gəlib. Birinci dəfə 18 may 1804-cü ildə Napoleon özünü kral və imperator elan edəndə tacqoyma mərasimində iştirak edib. İkinci dəfə isə 1809-cu ildə fransız ordusu Romanı tutanda əsir edilib və 1814-cü ilə qədər həbsdə olub.

### 1 k5

**Onlar uzunmüddətli döyüşə tab gətirməyərək dağılacaq.**
**Kəndlərdə onlara üstün gələcəklər.**
**Ağır döyüşlər kəndlərdə də, şəhərlərdə də olacaq.**
**Əsas ağırlıq Karkason və Narbon şəhərlərinin üzərinə düşəcək.**

Nostradamus hələ özünün sağlığında başlayan səkkiz vətəndaş müharibəsindən (1562-1598) birincisi barədə söz açır. "Din uğrunda" adı ilə məşhur olan bu müharibələr katoliklər və protestantlar (hugenotlar) arasında gedib və əhalinin çox böyük bir hissəsi bu müharibələr zamanı tələf olub. Bu müharibələrə IV Henri son qoyub və tarixçilər bunu, onun ən böyük xidməti kimi qiymətləndirirlər.

### 1 k6

**Ayaqları zəifləyib sözə baxmayanda,**
**Ravennanın gözləri işıqdan qalacaq.**
**İki Bressəli Turin və Dersel (Verçeli) naminə qanun hazırlayacaq.**
**Lakin fransızlar onları tapdalayacaqlar.**

Maraqlıdır, sanki Nostradamus gələcək nəsillərə tarix dərsi deyir. Doğrudur, Ravenna Roma papasının tabeliyində şəhər olub. Lakin tədqiqatçı Edqar Leoni "Ravennanın gözləri" dedikdə Roma Papasının nəzərdə tutulduğunu qeyd edir. Bressə şəhərini fransızlar 1535-ci ildə zəbt etsələr də, 1559-cu ildə əldən vermiş, 1595-ci ildə yenidən tutmuşlar və 1601-ci ildə şəhər birdəfəlik Fransanın tabeliyinə keçib. Turin 1505-1562, 1640-cı illərdə və sonralar 1798-1814-cü illər arası, Dersel (Verçeli) 1553-1556-cı, 1704-cü və 1798-1814-cü illərdə Fransanın işğalı altında olub.

Nostradamusun göstərdiklərinin dəqiq yerinə yetdiyi adamı heyrətləndirir.

### 1 k7

**Çox gec çatıb. Əməl yerinə yetib.**
**Qarşıdan külək əsəndə məktublar yolda ələ keçəcək.**
**Cinayət işində on dörd nəfər dilbir olacaq.**
**Russo bəd niyyətli iş quracaq.**

1890-cı ildə Fransa ordusunun zabiti Alfred Dreyfus Almaniyaya casusluqda təqsirli bilinərək dövlətə qarşı cinayətdə ittiham olunmuşdu. İttihamın heç bir əsası yox idi. Nostradamus bunu 340

il əvvəl aydınca görmüşdür. O, Dreyfusun təqsirsiz olduğunu göstərmişdir. Lakin yəhudiləri sevmədiyinə görə ad çıxaran Voldek Russo adlı hakim qərəzkarlıqla Dreyfusa iş kəsir. Məşhur yazıçı Emil Zolya və başqaları faktlar toplayaraq məhkəməyə təqdim edirlər. Ancaq Nostradamusun katrenin birinci sətrində göstərdiyi "Çox gec çatıb. Əməl yerinə yetib" qənaəti məhkəmədə öz əksini tapır. İşə yenidən baxılsa da, məhkəmə Russonun təqsiri olduğu barədə qərarını dəyişmir. Əgər Emil Zolya da Viktor Hüqo kimi Nostradamusun pərəstişkarı olsaydı və yuxarıdakı katreni oxusaydı, məsələdən vaxtında hali olardı. Ancaq Emil Zolya və başqaları Dreyfusun müdafiəsindən çəkinmədilər. Təkrar tədqiqat və istintaq göstərdi ki, cinayətkar başqasıdır. Dreyfusun adından yazılan məktublar isə saxtadır.

### 1 k8

**Ey Günəş şəhəri, sən tez-tez əldən-ələ keçəcəksən.**
**Lovğalıq və amansızcasına qəbul olunmuş qanunlar bir-birini əvəz edəcək.**
**Ağrılı-acılı günlərin başlayacaq.**
**Böyük Henri nəhayət ki, səni yenidən dirçəldəcək.**

Bu katrendə söhbət açılan qanlı hadisələrdən düz yüz il sonra Paris "Günəş şəhəri" adlandırılmış və Nostradamus bunu görmüşdür. "Günəş şəhəri" Tommazo Kampanellanın utopiyaya həsr olunmuş əsərinə verdiyi addır. O, İtaliyadan qaçaraq Parisdə yaşayırdı. Şəhər dəfələrlə əldən-ələ keçmiş, aclıqdan minlərlə adam ölmüşdü. 1580-ci ildə amansız qanunlar qəbul olunmuş, Fransa Respublika – Kommuna elan edilmişdi. Ölkə ağır vəziyyətdə idi. 1590-cı ildə may ayından avqusta qədər IV Henrinin başçılığı ilə monarxiya tərəfdarları Parisi mühasirəyə alanda, tarixçilərin yazdığına görə, bir həftə ərzində şəhərdə ərzaq ehtiyatı qurtarmışdı. İnsanlar aclıqdan əllərinə nə keçirdi yeyirdilər. Yırtıcı kimi insanlara hücum etmək hallarına (kannibalizm) da təsadüf edilirdi. Bü-

tün bunları Nostradamus illərcə öncə görmüşdü. IV Henri şəhər əhalisini ərzaqla təmin etdi. Və beləliklə, hamı tərəfindən qəbul edilən kral IV Henri Parisi və bütün Fransanı dirçəltdi.

Rus tədqiqatçılarının bəziləri heç bir əsas olmadan söhbətin Moskvadan getdiyini qeyd edirlər. Qəribədir ki, onlar yeri gəldi-gəlmədi, bir çox katrenləri Rusiya ilə bağlamağa çalışırlar.

### 1 k9

**Şərqdə dönüklük baş verəcək.**
**Hadri və Romulun davamçıları təşvişə düşəcək.**
**Liviya donanmasının köməyi ilə Maltanın məbədləri**
**əsim-əsim əsəcək, adaları xarabazara çevriləcək.**

Bu katrendə Osmanlı İmperiyasının zərbələri altında Kiprin o vaxtki paytaxtı Famaqustanın bəd əlamət kimi süqutundan söhbət gedir. Bu hadisə 1573-cü ildə baş verib. Həmin vaxt Adriatik dənizində (Hadri – burada Adriatik dənizinin şərti işarəsidir) İtaliyanın bütün krallıqlarının gəmiləri türklər tərəfindən batırılmışdı.

Katrenin son misrası isə bizi 1565-ci ilə aparır. Həmin ildə Osmanlı İmperiyası Maltanı zəbt edəndə Osmanlı donanmasının böyük bir hissəsini müttəfiqi Liviyanın çoxyaruslu avarları olan hərb gəmiləri təşkil edib.

### 1 k10

**İlan dəmir qəfəsə salınıb.**
**Orada Kral nəslinin yeddi uşağı saxlanılır.**
**Onların əcdadları cəhənnəmin dibindən qalxacaq,**
**Nəsillərinin başına gələnləri seyr edərək qəmgin olacaqlar.**

Bu katrendə "ilan" – "sarpos" latın dilindən yaranma söz olub "qəbir", "gor" mənasını verir. İlan kral II Henrinin arvadı kraliça Yekaterina Mediçinin rəmzidir. 1559-cu ildə kral II Henri öldük - dən sonra Yekaterina Mediçi gerbini dəyişdi. Gerbin üstündə öz

quyruğunu dişləyən ilan həkk olundu. Okkultizmdən başı pis çıxmayan Yekaterina Mediçi yaxşı bilirdi ki, halqavari ilan hökmranlıq rəmzidir. Və əgər bir əldə toplanmış hökmranlıq ehtiyatlılıq və müdrikliklə birləşirsə, ilan quyruğu dik qalxmış şəkildə həkk olunmalıdır. Əgər bu müvazinət pozularsa ilan özünü məhv edər. Yuxarıda göstərilən gerbi seçməklə 7 övladın anası kimi, Mediçi onu nələr gözlədiyini ola bilsin ki, dərk edirdi. Bəlkə də buna hazır idi. Çünki hələ kral II Henrinin sağlığında Nostradamus kralın dəvəti ilə Parisə gələndə kraliça Yekaterina Mediçiyə övladlarının taleyi barədə danışmışdı.

İndi isə gəlin görək Nostradamusun dedikləri (bax: 1 k78, 1 k85, 4 k47) real həyatda yerini necə almışdır. Böyük görücünün söz açdığı yeddi övladın taleyi necə olmuşdur:

**II Fransisk (1543-1560).** 18 yaşı tamam olmamış dünyasını dəyişib.

**Yelizaveta (1545-1568).** İspan kralı II Filippə ərə getmiş, doğuş vaxtı 22 yaşında dünyasını dəyişmişdir.

**Klavdiya (1547-1575).** Bu şahzadə xanım da 28 yaşında doğuş vaxtı dünyasını dəyişib.

**IX Karl (1550-1574).** Mahir ovçu kimi tanınan IX Karl bir zərbə ilə vəhşi donuzun və ya qatırın başını bədənindən ayırarmış. Ölümünə iki il qalmış qəddarcasına protestantların kütləvi qırğınına fitva veribmiş. Zökəmdən ölüb.

**III Henri (1551-1589).** Fransanın və Polşanın kralı, biseksual III Henri hamının nifrətinə səbəb olub. Xəncərlə öldürülüb.

Yeri gəlmişkən, görücü 1561-ci il almanaxında kral III Henrinin Jak Kleman tərəfindən qəmə ilə öldürüləcəyini bəyan etmişdi. Həqiqətən də kralı Navarralı Henrinin göstərişi ilə Kleman öldürmüşdü. Bundan sonra Navarralı Henri IV Henri adı ilə Fransanın kralı olmuşdu (Bax: 1 k97, 2 k55, 2 k88, 3 k50, 10 k44 və s.).

**Marqarita (1553-1615).** Məşhur Navarralı Henrinin arvadı olub. Nimfomaniyaya (qadınlarda xəstəlik dərəcəsinə çatan eh-

tiras) görə əri boşayıb. Uşağı olmayıb. Bu səbəbdən də Marqarita öz əcəli ilə dünyasını dəyişdikdən sonra Valua kral nəslinə son qoyulub.

**Herkules (1554-1584).** Alansonlu qanlı hersoq hətta öz qardaşı Henrini öldürmək üçün sui-qəsd hazırlayıbmış. Qəfil xəstəlikdən ölüb.

## 1 k11

**Hisslərin, ürəklərin, ayaqların və əllərin törətdikləri əməl**
**Neapolda, Leonda və Siciliyadakı ilə tən gələcəkdir.**
**Qılınclar çarpışacaq, yanğınlar baş verəcək, suya qərq olacaqlar.**
**Daha sonra ağılsızlıqları ucbatından, xeyirxah romalılar məhv olacaq, əzab-əziyyət çəkəcəklər.**

Məlumdur ki, vaxtilə Neapol, Leon və Siciliya İspan İmperiyasının tərkibində olub.

İspaniya və Siciliya qoşunları Roma Papasının zəifliyindən istifadə edərək Romaya hücum ediblər. Nostradamus özündən sonra baş vermiş hadisələri tam dəqiqliyi ilə göstərmişdir.

## 1 k12

**Və tezliklə aşağıdan yuxarıya qalxan**
**Yalançı, xəstə və qəddar bir adam hökmranlıq edəcək.**
**Veronada hakimiyyətdə olan adamın**
**Xainliyi və satqınlığı bir andaca nəzərə çarpacaq.**

Tədqiqatçılar bu katrenin hansı vaxta aid olduğu və kimlərdən bəhs etdiyi barədə qəti söz deyə bilmirlər. Məlum olan bircə şey var. Hələ Nostradamusun vaxtında Veronada Cakapo San-Sebastyan adlı birisi hakimiyyətdə (1539-1562) olub. O da var ki, kiminsə hakimiyyətdə olması hələ onun xainliyini sübut edən amil deyil.

## 1 k13

**Ədavət, qərəz və daxili düşmənçiliyə görə**
**Krala qarşı böyük sui-qəsd hazırlayacaqlar.**
**Xəbər tutub təhlükəli düşmənləri gizli olaraq**
**müəyyən edəcəklər.**
**Güc strukturları kralın düşmənlərinə qarşı duracaqlar.**

Nostradamusun bəzi katrenlərində, o cümlədən də bu katrendə göstərilənlər görücünün sağlığında yerinə yetmişdir. Katrendə 1560-cı ildə Ambuaz şəhərində hazırlanmış sui-qəsddən bəhs olunur. Məsələ burasındadır ki, Fransada Burbonlar, Monmoransi və Giz sülalələri arasında hakimiyyət uğrunda, taxt-taca daha yaxın olmaq uğrunda daimi mübarizə getmişdir. O da həqiqətdir ki, onlar ad-sanına və sülaləsinin qədimliyinə görə heç də Valualardan geri qalmırdılar. Onlar da taxt-taca sahib olmağa layiq idilər.

Kral II Henrinin gözlənilməz ölümü və hələ 16 yaşı tamam olmamış zəif və xəstəhal II Fransiskonun taxta əyləşdirilməsi Burbonlara hakimiyyətə gəlmək üçün əlverişli şərait yaratmışdı. Az məşhur olan Monmoransi sülaləsi isə Burbonlarla birləşib taxt-taca yaxın olan Gizlər sülaləsinə və krallığa qarşı fəaliyyət göstərirdilər. Onlar tədbirli olan Gizləri fiziki cəhətdən məhv etmək üçün sui-qəsd hazırlamışdılar. Monmoransi və Burbonlar Ambuaz qalasına bir neçə yüz seçmə əsgər göndərib kral Fransiskonu oğurlamaq və “Fransanın qurtuluşu naminə” adı altında Gizləri məhv etmək planı hazırlamışdılar. Lakin Gizlər sui-qəsddən xəbər tutmuşdular. Fransanın general-leytenantı Fransua de Giz ciddi hazırlıq gördü. Sui-qəsdçilərin bir çoxu ələ keçirilərək qətlə yetirildi və qala divarlarından asıldı.

Lakin Yekaterina Mediçi Gizlərin get-gedə artan təsirindən qorxaraq sui-qəsdçilərdən Antuan de Burbon, Navarralı Henri, şahzadə Konde və bir çox başqalarını bağışlayaraq onları özünə müttəfiq etdi. Beləliklə, hakimiyyətə can atan Gizlərin arzusunu ürəyində qoydu.

## 1 k14

**Kölə halına salınmış xalqdan mahnılar, mədhlər
tələb edirlər.
Şahzadələr və zadəganlar zindana atılıblar.
Gələcəkdə başsız başlar bütün bunları –
Bu tələbləri ilahi səda kimi qəbul edəcəklər.**

Əksər tədqiqatçılar bu katrendə Böyük Fransa (1789) və Böyük Oktyabr inqilablarından (1917) bəhs edildiyini qeyd edirlər. Məlumdur ki, Fransada küçələrdə "Marselyeza", Rusiyada "İnternasional" oxunmuş, "başsız başlar" zadəganları və ziyalıları məhv etmiş, zindanlarda çürütmüşdülər. Monarxiyaya son qoyulmuşdu. Fransada və Rusiyada kralın və çarın ailələri və özləri məhv edilmişdi. Napoleon, Robespyer, Lenin, Stalin kimi qaniçən liderlər meydana gəlmişdi. Onlar hər iki ölkədə terror hökmranlığını bərqərar etmişdilər.

Maraqlıdır ki, 1792-ci ildə Fransa inqilabı zamanı Ruje de Lil tərəfindən yazılmış "Marselyeza" dövlət himninə çevrilmiş və bu gün də Fransanın dövlət himni olaraq qalır.

## 1 k15

**Mars, sən müharibə ilə hədələyirsən.
Sən yetmiş dəfə qan tökəcəksən.
Ruhaniliyin yüksəlişi və süqutu.
Onu eşitmək belə istəməyənlər tərəfindən törədiləcək.**

1995-ci ilin əvvəlində Dünya Problemləri İnstitutu xəbər vermişdi ki, II Dünya müharibəsindən sonra Yer kürəsində 148 hərbi münaqişə baş verib. Nostradamus göstərir ki, dünyada 70 müharibə eyni vaxtda aparılanda, daha doğrusu, 70 dövlət müharibəyə girişəndə III Dünya müharibəsi başlaya bilər.

Mars Qoç və Şir bürclərinə yaxın olanda (iyun-iyul 2006, 2020-2030, avqust 2034 – oktyabr 2036) III Dünya müharibəsinin başlanma ehtimalı olacaqdır. Təbii ki, bütün bunlar ehtimaldır.

Ancaq unutmaq olmaz ki, 2001-ci ilin oktyabrında başlayan ABŞ–Əfqanıstan hadisələri və eləcə də 2003-cü ilin martında ABŞ-ın İraqa müdaxiləsi III Dünya müharibəsi üçün təhlükəli zəmin yaratmışdır. ABŞ – Əfqanıstan münaqişəsi ilə bağlı 1 k87, 5 k96, 6 k97, 9 k48, 10 k49 və s. katrenlərə baxdıqda maraqlı məsələlər meydana çıxır.

3-cü və 4-cü sətirlərdə dinə qarşı mübarizə və eləcə də onun dirçəlişindən söhbət gedir.

## 1 k16

**Saturn Oxatan bürcünə tərəf istiqamət götürəcək.**
**Ən yüksək həddə (zirvəyə) çatanda Xərçəng bürcü ilə birləşəcək.**
**Hərbçilərin əlilə qırğın, vəba, aclıq baş verəcəkdir.**
**Əsr, eləcə də zaman (dövr) yeniləşməyə yaxınlaşacaq.**

Demək lazımdır ki, Saturn hər hansı bir bürcdən 29,5 ildə bir dəfə keçir. Mars isə iki ildə bir dəfə keçir. Beləliklə, son vaxtı götürsək görərik ki, Saturn Oxatan bürcündən 1985-ci ilin noyabr ayının 17-də keçib. Mars isə Saturn və Oxatan bürcü ilə 2 fevral - 29 mart 1986-cı ildə birləşib. Bu vaxt Qaliley kometası da tam parlaqlığı ilə görünüb. Saturn Xərçəng bürcü ilə yenidən 24 dekabr 2014-cü ildə, sonra 22 fevral 2044-cü ildə birləşəcəkdir. Nələr baş verəcəyini zaman göstərəcəkdir. 1985-ci ilin sonlarından 1986-cı ilin baharına qədər, tarix üçün bir an olan bu zaman kəsiyi ilə bağlı onu demək olar ki, Afrikada və Asiyada quraqlıq və aclıq tüğyan edirdi. Dünyanın 50 nöqtəsində yerli müharibələr gedirdi. Onlardan ən ağırı İran-İraq müharibəsi idi. Elə həmin il bəşəriyyət üçün çox qorxulu bəla olan QİÇS–SPİD xəstəliyi barədə rəsmi məlumat verildi. Bu illərdə terrorizm geniş yayılmağa başladı. ABŞ Liviyaya qarşı tədbirə əl atdı. İki dəfə ölkənin hərbi əhəmiyyətli ərazilərinə raket zərbələri endirildi. 30 aprel 1986-cı ildə isə Çernobl fəlakəti baş verib.

4-cü sətirdə əsrin və dövrün yeniləşməyindən söz açılır və bununla da böyük görücü hadisələrin XX əsrin sonlarına yaxın baş verəcəyini təsdiqləyir. Mayya hindu qəbiləsinin çox qədim təqvimi vardır. 2012-ci ildə bitəcək təqvimdə göstərilir ki, həmin ildə dünyada görünməmiş dəyişikliklər baş verəcəkdir.

### 1 k17

**Qırx il müddətində göy qurşağı görünməyəcək.**
**Sonrakı qırx il müddətində hər gün görünəcək.**
**Ölmüş torpaq susuzluqdan cadar-cadar olacaq.**
**Bundan sonra dəhşətli daşqınlar baş verəcək.**

Tədqiqatçılar belə qənaətə gəlirlər ki, bu katrendə bəhs olunanlar XXI əsrdə bütün dünyada kəskin istilərin düşməsi nəticəsində iqlim şəraitinin dəyişməsi ilə bağlı ola bilər.

### 1 k18

**Fransızların aralarındakı ziddiyyət və ehtiyatsızlıq ucbatından**
**Bu ölkədə Məhəmmədə (İslam aləminə) yol açılacaq.**
**Torpağa tökülən qan Syen dənizinə axacaq.**
**Marsel limanı gəmilərin yelkənləri arxasında görünməz olacaq.**

Şübhə yoxdur ki, hadisə keçmişdə baş verib. Son sətir bir daha bunu sübut edir: "Marsel limanı gəmilərin yelkənləri arxasında görünməz olacaqdır". Ned Halley göstərir ki, bu hadisə Nostradamusun vaxtında baş vermişdir. Daha doğrusu, 1555-1556-cı illər İtaliya-Fransa müharibələri zamanı kral II Henri əvvəllər müttəfiqi olmuş Sultan Süleymanı təhrik edir ki, Elbanı tutsun. Fateh bunun əvəzinə Syena yaxınlığındakı Piombinoya hücum edir və oranı zəbt edir. Süleyman Qanuninin bu hərəkəti II Henridə qəzəb və nifrət oyadır. Çünki bu yerlər Fransa ilə müttəfiq idi.

## 1 k19

**İlanlar mehrabı dövrəyə almaq üçün yuvalarından çıxanda**
**İspanlar troyalıların qanını qaraldacaq (onları təşvişə salacaq).**
**Onların ucbatından çoxları əzab-əziyyət çəkməyə məcbur olacaq.**
**Başçı qaçacaq, bataqlıqda kolluqlar arasında gizlənəcək.**

Hadisə Nostradamusun sağlığında baş verdiyindən görücü hadisələri çox üstüörtülü şəkildə vermişdir. Əfsanəyə görə, guya fransız kralları Troya hökmdarlarının nəsillərindən imişlər. Nostradamus bunu nəzərdə tutur. 1-ci sətirdə Nostradamus kraliça Mediçinin krallığın rəmzini dəyişərək, qıvrılıb quyruğunu yeyən ilan götürməsinə işarə edir.

Katrendə söhbət gedən hadisələr 27 avqust 1557-ci ildə Sen-Kanten (Saint–Quentin) şəhəri yaxınlığında baş verib. İspanlar 64 min nəfərlik ordu ilə fransızlara hücum edərək onları darmadağın ediblər. Azsaylı fransız qarnizonunun başçısı admiral Kolini və ətrafındakılar bataqlıqlarda gizlənib və sonra Sen-Kanten şəhərinə çəkilərək müdafiəyə hazırlaşıblar. Belə olan halda ispanlar şəhərə hücum ediblər. Çoxlu insan tələfatı olub. Nostradamusun göstərdiyi: "Onların ucbatından çoxları əzab-əziyyət çəkməyə məcbur olacaq" bununla bağlıdır. Lakin bu dəfə Kolini əsir düşür, köməkçisi olan qardaşı Andelot və başqaları ölümdən və əsirlikdən canlarını qurtarmaq üçün qaçıb bataqlıqda gizlənirlər.

## 1 k20

**Tur, Orlean, Blua, Anjua, Reyms və Nant şəhərləri**
**Qəflətən baş verən dəyişikliklərdən sarsılacaq.**
**Başqa xalqlara məxsus düşərgələr salınacaq.**
**Çaylar, Renin nizələri, torpaq və dəniz titrəyəcək.**

Bu katrendə Fransanın Luar vilayətində olan şəhərlərin düşmən tapdağı altında olacağından danışılır. İlk dəfə 1815-ci ildə Napoleonun süqutundan sonra və ikinci dəfə 1871-ci ildə Prussiya ordusu bu şəhərləri tutdu. 1917-ci ildə bu yerlərə Fransanı xilas etmək üçün Amerika ordusu gəlir. Lakin Luare və Reyms 1940-1944-cü illər arası yenidən prussiyalıların və almanların əlində olur. Taleyə bax ki, 1944-cü ildə bu yerləri yenidən Amerika ordusu azad edir. Katrendə bütün bu hadisələrə işarə olunub.

## 1 k21

**Ağ rəngli gil dərin qatlı qayanı qidalandırır.**
**Hansı ki, yerin təkindən ağappaq süd rəngində çıxır.**
**Çətin vəziyyətdə qalaraq ona toxunmağa cürət etməyəcəklər.**
**Yerin təkindəkinin yalnız gil olduğunu anlamayacaqlar.**

Bu katrendə söhbət Andre Lamontun doğru olaraq göstərdiyi kimi, farforun Avropada kəşfindən gedir. 1704-cü ildə saksoniyalı kimyagər Bettiqer farforun alınma üsulunu tapıb və o vaxtdan Avropa Çində istehsal olunan çini qabların (farfor ilk dəfə Çində kəşf olunduğuna görə, saxsı qablar bütün dünyada Çinin adı ilə "çini qab" adlanır) idxalı asılılığından azad oldu. Bettiqerin kəşfi ilə hazırlanan çini qablara isə "Saksoniya farforu" adı verildi.

Tədqiqatçılar arasında bu katren barədə fikir ayrılığı son vaxtlara qədər davam etmişdir. Bəziləri deyirlər ki, katrendə söhbət uranın kəşfindən gedir. Başqaları isə haqlı olaraq söhbətin saxsının (farforun) kəşfindən getdiyini vurğulayırlar.

Halbuki, böyük görücü son sətirdə hər şeyi açıq-aşkar göstərib: "Yerin təkindəkinin yalnız gil olduğunu anlamayacaqlar".

## 1 k22

**Yer üzündə yaşayacaq, lakin heç bir hissiyyatı olmayacaq.**
**Gələcək və bir bicliklə özü-özünü məhv edəcək.**
**Oton, Şalon, Lanqr və iki Senaya.**
**Dolu və buz böyük bədbəxtlik gətirəcək.**

"Hissiyyatı olmayan" qitələrarası ballistik raket, maşın, başqa kütləvi qırğın silahları ola bilər. Onlarda yerləşdirilmiş mexanizmlərə əsasən raketlər və s. istənilən yerə uçaraq müəyyən nöqtədə partlaya bilərlər.

Ned Halley qeyd edir ki, 1944-cü ildə almanlar özü idarə olunan bombaları İngiltərəyə istiqamətləndirirdi. Deməli, indiki raketlər Hitler Almaniyasının kəşf etdiyi özü idarə olunan raketlərin "nəvə-nəticələri!"dir.

Bəzi tədqiqatçılar belə hesab edirlər ki, bu katrendə söhbət Kürilərin kəşf etdikləri radium elementindən gedir. Nəhayətsiz gücə malik radium, əgər insan qurğuşunla qorunmasa, ona yaxınlaşarkən bədənində sağalmaz yaralar əmələ gətirir.

## 1 k23

**Üçüncü ayda Günəş doğur.**
**Qaban və Bəbir döyüş meydanında qarşılaşırlar.**
**Taqətdən düşmüş Bəbir səmaya baxır və**
**Qartalın Günəşin ətrafında fırlandığını (oynadığını) görür.**

Katren Fransa-İngiltərə müharibələrinin birindən bəhs edir. İngilisləri "Bəbir" adlandıran Napoleon 1815-ci ilin 18 iyununda, hakimiyyətə qayıtdığı qısa müddətin 3-cü ayında, o zaman Napoleonun özü kimi məşhur olan İngilis generalı hersoq Vellinqtona qarşı döyüşə hazırlaşırdı. İkicə gün öncə Napoleon feldmarşal Blyuxerin komandanlığı altında vuruşan Prussiya ordusunu məğlub etmişdi. Napoleon öz ordusunun üçdə birini – 30 min əsgəri markiz de-Qroçinin komandanlığı ilə prussiyalıların dalınca göndərərək onları izləməyi və gözlənilməz zərbələrlə gücdən salmağı əmr etmişdi.

İngilis ordusunun komandanı, general Vellinqton Napoleon ordusuna tab gətirə bilməyəcəyindən qorxaraq Blyuxerdən kömək istəmişdi. Blyuxer Napoleon ordusunun onu izləməsindən yayınaraq Vellinqtona köməyə tələsmişdi. Bu, feldmarşal Blyuxer üçün

taledən gələn bir şans idi. İngilislərlə birləşib Napoleon ordusunu məğlub etsə, imici bərpa olunacaqdı. Döyüş gündüz saat 12 radələrində başladı. Hər iki tərəfdən böyük itkilər oldu. Napoleonun ordusu üstün gəlməyə başlamışdı. Elə bu vaxt Prussiya ordusunun yaxınlaşdığını gördülər. Bu hadisənin davamı Senturiya 1 k38-də görücü tərəfindən gözəl təsvir edilmişdir.

### 1 k24

**Hökm vermək niyyətində olan yeni şəhər,**
**Yırtıcı üzünü göylərə tutaraq deyir:**
**Qələbədən sonra əsirləri bağışlamalı.**
**Kremona və Mantua böyük bəlaya düçar olacaqlar.**

"Yırtıcı" deyəndə Napoleon Bonapartın imperator rəmzi – "qartal" nəzərdə tutulur. İmperator tacını əldə etmək Napoleonun ən böyük arzusu idi. Bu yolda uğurlu addımlardan biri 1797-ci ildə atıldı. Bir dəfə zəfərli yürüşləri zamanı Napoleonun ordusu Kremonada dayandı. Mantuada yerləşən 16 min nəfərdən ibarət Avstriya qarnizonunu mühasirəyə aldı. 14 yanvar 1797-ci ildə general Vyurmster başda olmaqla Avstriya ordusu təslim oldu. Nostradamusun təqribən 250 il öncə dedikləri yerini aldı. Napoleon əsirləri bağışladı. Nostradamus Kremona və Mantuanın böyük bəlaya düçar olacağından da söz açır. Tədqiqatçıların yazdığına görə indi Kremonada nüvə materialları istehsal edən zavod vardır. Ola bilsin ki, qəza və ya təxribat nəticəsində burada böyük fəlakət olacaq. Bunu bir Yaradan bilir və bir də onun sadiq bəndəsi Nostradamus bilirdi.

### 1 k25

**Uzun əsrlərdən bəri gizlədilmiş şey tapıldı.**
**Pasterə hamı yarımallah kimi təzim edəcək.**
**Bu, Ay böyük zaman siklini başa vuranda olacaq.**
**Şayiələr yayılacaq, o, əxlaqsız, fırıldaqçı kimi bədnam ediləcək.**



***Lui Paster (1822 - 1895)***

Müasir immunologiya və mikrobiologiya elmlərinin əsasını qoyan Lui Paster tibb elminin inkişafına böyük təkan vermişdir. Təkcə onu demək kifayətdir ki, bir çox qoruyucu peyvəndləri, əsasən də qarayara (1881) və quduzluq xəstəliyinə qarşı qoruyucu peyvəndi (1885) Paster kəşf etmişdir. Nostradamusun yazdığı yerini tutmuşdur: "Pasterə hamı yarımallah kimi təzim edəcəkdir". Britaniya Ensiklopediyasında yazılmışdır: "Yarımallah Paster" indi öz sahəsində zamanının ən böyük alimi kimi qəbul olunub". Lakin Pasterin nəzəriyyələri təcrübədə təsdiq olunana qədər, onu kəskin tənqid edir, lağa qoyur, ələ salırdılar. Hətta böyük alimin ölümündən təqribən yüz il sonra 1985-ci ildə Cerald Qeyson adlı pristonlu tarixçi alim "Lui Pasterin fərdi elmi" adlı əsər yazaraq alimə qara yaxmağa səy göstərmişdir. Katrendən göründüyü kimi, Nostradamus hətta Pasterin müasirlərinin dərk edə bilmədiklərini əsrlərlə öncə bəyan etmişdir. O, nəinki böyük alimin adını, elm sahəsini, hətta astronomik hesablamalara əsaslanaraq Paster adına İnstitutun açılma vaxtını da katrenin üçüncü sətrində dəqiq göstərmişdir: "Bu, Ay böyük zaman siklini başa vuranda olacaqdır".

Məlumdur ki, planetlərin böyük zaman sikli 354 il 4 aya bərabərdir. Nostradamusun göstərdiyi kimi (1 k48) Ay hökmranlığa 1534-cü ildə başlamış və böyük zaman siklini 1889-cu ildə başa vurmuşdur. Paster adına İnstitut da 1889-cu il noyabr ayının 14-də açılmışdır.

### 1 k26

**Məşhur adamı gündüz ildırım vuracaq.**
**Təəssüf keçirən, cinayəti əvvəlcədən xəbər verən olacaq.**
**Bununla əlaqədar olaraq başqa bir qətl gecə baş verəcək.**
**Reymsdə (Fransa) və Londonda iğtişaşlar, Toskanada**
**bədbəxtliklər olacaq.**

Böyük dahiyanəliklə gələcəkdən xəbər verən Nostradamus ola bilməzdi ki, Con və Robert Kennedi qardaşlarının ölümündən xəbər verməsin. Prezident Kennedi, Nostradamusun göstərdiyi kimi, günorta vaxtı, 1963-cü il noyabr ayının 22-də, qardaşı senator Robert Kennedi isə 1968-ci il iyun ayının 5-də Los-Anceles şəhərində, Kaliforniya ştatında prezidentliyə namizədliyi ilə bağlı alovlu nitqindən 5 dəqiqə sonra – gecəyarısı, əslən iranlı olan muzdlu qatil Şirxan Şirxan tərəfindən qətlə yetirilmişdir. Nostradamus, hətta bu cinayət haqqında əvvəlcədən xəbər verən görücüdən də söz açır: "Təəssüf keçirən, cinayəti əvvəlcədən xəbər verən olacaqdır". Məsələ burasındadır ki, girişdə söz açdığımız, zəmanəmizin məşhur öngörücüsü Cin Dikson hələ 1956-cı ildə "Pereyd" jurnalında xəbər vermişdi ki, Con Kennedi 1960-cı ildə prezident seçiləcək və prezidentlik müddəti bitməmiş muzdlu qatil tərəfindən öldürüləcəkdir. Hətta Con Kennedinin ölümündən az əvvəl o, prezidentə məktub da göndəribmiş. Tədqiqatçıların fikrincə, ya məktub prezidentə çatmayıb, ya da məkrli niyyətlə onu Kennediyə çatdırmayıblar. Onu da yazırlar ki, prezidentin qətli günü Cin Dikson Vaşinqtonda "Meyflauer" mehmanxanasında saçını yolur, dırnaqlarını dişləyirmiş. Bir ay ərzində, rəfiqələrinin

dediyinə görə o, çox fikirli olub. Prezident vurulan anda qışqıraraq: “Onu öldürdülər” deyərək özündən gedibmiş. Həmin anda mehmanxanada orkestr çalmağını dayandırır və dirijor elan edir ki, kimsə prezidentə güllə atıb.

Nostradamusun göstərdiyi kimi, Fransada və Londonda 1968-1969-cu illərdə tələbə iğtişaşları, 1966-cı ildə isə Florensiyada baş verən güclü daşqınlar Toskanaya tərəf üz tutmuşdu. Dövlət çox böyük çətinliklərlə şəhəri su altda qalmaqdan xilas edə bilmişdi. C.Kennediyə başqa katrenlər də həsr olunmuşdur (2 k57, 6 k37 və s.).

Təəssüf ki, tədqiqatçılardan bu gün kimi aydın həqiqətləri görə bilməyən, cəfəngiyatla məşğul olanlar da vardır[1].

### 1 k27

**Qyen dağ silsiləsinin altında səmadan zərblə düşənin izi var.**
**Onun yaxınlığında xəzinə gizlədilmişdir.**
**Uzun əsrlər boyu yığılıb qalan nə varsa**
**Tapılanda yoxa çıxacaq, ört-basdır ediləcəkdir.**

Bu katrendə aydın olan Fransanın cənub-qərbində yerləşən Qyen rayonu barədə məlumatdır. Qalanları bir müəmma olaraq qalır. Tədqiqatçılar bu katren barədə ağlabatan bir söz deyə bilməyiblər. Deməli, Nostradamusun bu görücülüyü hələ yer almayıb.

### 1 k28

**Uzun müddət, Qərb donanmasından xeyli əvvəl**
**Barbarlara məxsus dərinə enə bilən sualtı qayıqlar Tobruku təşvişə salacaq.**
**Mal-qara, insanlar, hər iki donanma (Qərb və düşmən donanması) böyük itkiyə məruz qalacaq.**
**Günəş zahirən Buğa və Tərəzi bürclərinə keçəndə ölüm-dirim müharibəsi olacaq.**

[1] А.Морок, К.Разумовская. Новая расшифровка предсказаний Нострадамуса. Москва, 2000, стр. 57.

Liviyanın Tobruk limanı, demək olar ki, Şimali Afrikanın ən gözəl limanıdır. II Dünya müharibəsi zamanı Tobruk limanı strateji cəhətdən ən mühüm nöqtələrdən biri idi. Qərb müttəfiqləri də, Almaniya və İtaliya da, ərzaq, silah və ordusunu buradan keçirirdi. 1941-ci ilin yanvar ayında Şimali Afrika uğrunda mübarizədə Britaniya ordusu havadan, dənizdən və qurudan öldürücü zərbələrlə italyan ordusunu Tobruk limanından çıxarsalar da, Tobruk limanında olan Britaniya nəqliyyat gəmiləri Almaniyanın dərinə enə bilən sualtı "Submarin" deyilən qayıqlarından qorxurdular. Demək olar ki, bütün müharibə ərzində bu qayıqlar Tobruk limanı ətrafında fırlanır və müttəfiqlərin limana gələn və limandan çıxan gəmilərini batırırdılar.

Katrenin son sətrində isə Tobruk ətrafında baş verən iki ölüm-dirim döyüşündən söhbət gedir. Birinci döyüş 1942-ci il aprelin 30-da baş verib. Tobrukda yerləşən və general Morşedin komandanlığı altında olan Avstriya qarnizonu feldmarşal Ervin Rommelin zərbə qüvvələri ilə birləşdi. Rommel ingilislərin Liviyada olan bütün ordusuna qarşı hücuma keçdi. Bir ay davam edən döyüş ingilislərin məğlubiyyəti ilə nəticələndi. Bu vaxt, Nostradamusun göstərdiyi kimi, Günəş Buğa bürcündə idi. Rommel 33 min əsir, çoxlu qənimət və silah əldə etdi.

Lakin sonralar Rommelin gücü tükənməyə başladı. Artıq müttəfiqlər almanların sualtı qayıqlarını və Tobruk limanına yan almağa çalışan sursat gəmilərini batırırdılar. Rommel ərzaq və hərbi sursat sarıdan çətinlik çəkirdi. Və nəhayət 1942-ci il oktyabr ayının 23-də Günəş Tərəzi bürcündə olanda ingilislər hücuma keçdilər. Bu həlledici döyüşdə onlar qalib gəldilər. Tobruk birdəfəlik müttəfiqlərin əlinə keçdi.

Göründüyü kimi, Nostradamus gələcəkdə baş verəcək mühüm tarixi hadisələrin vaxtını dəqiq hesablaya bilirmiş. Lakin oğlu Sezara və Fransa kralı II Henriyə yazdığı məktubda göstərdiyi kimi, faktı dəqiq ona görə verməyib ki, bununla bəşəriyyətə zərbə vur-

muş olardı. Böyük görücü bu məqamla əlaqədar xüsusi qeyd edir ki, insanlar başlarına nələr gələcəyini və onun vaxtını bilsələr, onların həyatı bir məşəqqətə bənzəyər.

**1 k29**
**Quruda və dənizdə hərəkət edə bilən balıq,**
**Çox güclü dalğa nəticəsində sahilə atılanda.**
**Qəribə forması, həm gözəl, həm də heybətli görünüşü ilə**
**Dənizdən çıxaraq bir anda düşməni yaxalayır.**

Heç şübhəsiz, böyük görücü kütləvi qırğın silahlarından söhbət açır. Bu kütləvi qırğın silahı, nə suda və quruda hərəkət edən amfibiyadır, nə də buna bənzər silah. Bizə qalırsa, Nostradamus, uçarkən adamı heyrətdə qoyan, heybətli ballistik raketlərdən söz açır. Bunu biz İraq, Yuqoslaviya və Əfqanıstana qarşı ABŞ-ın apardığı müharibələr vaxtı dönə-dönə müşahidə etmişik.

**1 k30**
**Qəribə bir gəmi qasırğalı dənizlərdən min bir əzabla**
**Naməlum bir sahilə yan alacaq.**
**Əllə (radar), palma budağı ilə verilən işarələrə məhəl qoymayacaq.**
**Sonra ölüm və talan olacaq. Xeyirxah məsləhətlər gec gəlib çatacaq.**

Əksər tədqiqatçılar bu katrenin gələcəkdə baş verəcəyini qeyd edirlər. Ola bilsin ki, Nostradamus gələcək nəsillərin planetlərarası gəmilərlə Dolça və Xərçəng bürclərinə uçacaqlarına işarə edir. Görücü II Henriyə yazdığı məktubda insanların gələcəkdə başqa planetlərə uçacağından və orada məskən salacağından bəhs edir.

## 1 k31

**Uzun illər Qalliyada (Fransa) müharibələr davam edəcək.**
**Bu, Kastulon hökmdarının gücü kənarında olacaq.**
**Günəş zahirən Şir bürcündə olanda üç böyük dövlət –**
**Qartal, Xoruz, Ay müvəqqəti qələbəni qeyd edəcək.**

1596-cı ildə İspaniya iqtisadi çətinliklərə görə Fransa ilə müharibəni dayandırmaq qərarına gəldi. İki il ərzində iki ölkə arasında sülh bağlandı.

Qartal – II Filipp və İspan habsburqlarının rəmzidir. Onların gerbində qartal həkk olunub.

Xoruz – fransızların rəmzidir.

Ay – Osmanlı İmperiyasının rəmzidir.

Nostradamus "Günəş zahirən Şir bürcündə olanda" deməklə, eyni zamanda II Filippin ölüm tarixini (1598) göstərmişdir.

## 1 k32

**Tezliklə böyük İmperiya çox kiçik bir yerə dönəcək.**
**Lakin tezliklə də tanınacaq.**
**Son dərəcə kasıb olan bu yerin mərkəzində**
**O, gəlib öz hakimiyyətini quracaq.**

Napoleon 18 iyun 1815-ci ildə Vaterloo yaxınlığında ingilis generalı Vellinqtonla döyüşdə məğlubiyyətdən sonra Atlantik okeanında çox kiçik bir yerə – Müqəddəs Yelena adasına sürgün edildi. Bütün Qərbi Avropanın imperatoru burada qalmalı oldu. Onun indiki "dövlət"inin sahəsi bir neçə kvadrat mildən, daha doğrusu, 16 kvadrat kilometrdən artıq deyildi. Onun da çox hissəsini qayalıqlar təşkil edirdi. Tropik iqlim və bekarçılıq tezliklə öz işini gördü. Napoleon ölümün yaxınlaşdığını duymuşdu. Dərman qəbul etmirdi. Təbibi Omira təəccüblə ondan soruşmuşdu: "Siz qəzavü-qədərə inanırsınız? – Əlbəttə. Lap türklər kimi.

Mən həmişə inanmışam ki, olacağa çarə yoxdur. Taleyə inanmaq lazımdır. Mən alın yazısına inanıram. Mənim vaxtım bitib" – demişdi. 1821-ci ildə Napoleon dünyasını dəyişmişdi.

Əvvəllər tədqiqatçılar bu katreni kral V Karlla bağlayırdılar. Məsələ burasındadır ki, kral V Karl 55 yaşında olanda məlum olmayan səbəbə görə hakimiyyəti qardaşı Ferdinanda verərək İspaniyada Yust deyilən yerdə monastıra gedib. Üç ildən sonra, elə orada da vəfat edib.

## 1 k33

**Böyük körpünün yaxınlığında ucsuz-bucaqsız düzənlikdə,**
**Hökmdar ordusunun qüdrətli şiri,**
**Kin-küdurətli şəhərin divarları yanında qurğular qurduracaq.**
**Qorxu şəhər darvazalarını açmağa gətirib çıxaracaq.**

Bu katren barədə ağlabatan bir söz deyilməmişdir. Ola bilsin ki, bu, Şərqlə və ya keçmişlə bağlıdır. O da bir həqiqətdir ki, hansısa bir şəhəri düşmənlər mühasirəyə alıbmış. Aclıq-susuzluq və Nostradamusun dördüncü sətirdə göstərdiyi kimi, qorxu hissi şəhər darvazalarının açılmasına gətirib çıxarır.

## 1 k34

**Yırtıcı quş altı ay müddətinə sola uçacaq.**
**Fransızlar əvvəlcədən döyüşə hazırlaşacaqlar.**
**Kimisi bunu yaxşı iş kimi, kimisi isə uğursuz bir şey kimi qəbul edəcək.**
**Zəif ölkə bunu yaxşı əlamət kimi qəbul edəcək.**

Bu katrendə "yırtıcı quş" – deyəndə Alman İmperiyasının rəmzi – qartal nəzərdə tutulur.

Müharibədən əvvəl Hitlerin "Dornyer" adlı kəşfiyyat təyyarələri altı ay müddətində Parisin üzərində çox yüksəkdən uçaraq

məlumat toplayırdı. "Sol" isə məcazi mənada işlənib. Paris Almaniyanın sol tərəfindədir. Bundan başqa, əslində Almaniya fransızlara qarşı müharibəyə 1940-cı ilin may ayında sol cinahdan – Hollandiya və Belçika tərəfdən başladı. Fransızlar müharibəyə doğrudan da əvvəlcədən hazırlaşırdılar. Bunun üçün qeyri-adi beton divarlar tikilmişdi ki, buna "Majino xətti" deyirdilər. Bu hasar tikiləndən sonra fransızlar lovğalanırdılar ki, almanlar bu hasarı yara bilməzlər. Yüz kilometrlərlə uzanıb gedən bu beton hasarın arxasında çoxsaylı ordu yerləşdirilmişdi. Bəziləri isə beton hasarın mənasızlığından danışırdılar. Hətta tədqiqatçı Maks de Fonbryun Nostradamusun yazdığı "uğursuz bir şey" ifadəsinə əsaslanaraq Majino xəttinin heç bir xeyri olmayacağını, mənasız yerə külli miqdarda xərc çəkildiyini bəyan edəndə ölkədə çaxnaşma düşdü. Fonbryunu axmaq adlandırırdılar. Lakin alman ordu hissələrinin Parisi fəth etməsi, Hitlerin Parisə gəlişi ilə Nostradamusun göstərdikləri və Fonbryunun gəldiyi nəticə yerini aldı.

Yeri gəlmişkən, onu da deyək ki, Fonbryun Nostradamusun katrenlərindən çıxış edərək Hitlerin aqibətini də dəqiq göstərmişdi.

## 1 k35

**Döyüş meydanında əcaib döyüş baş verəcək.**
**Cavan şir qoca şiri yenəcək.**
**Gənc şirin nizəsi qoca şirin qızıl dəbilqəsini dəlib keçərək onun gözünə girəcək.**
**Qansızma nəticəsində amansız ölüm öz işini görəcək.**

Bu katrendə söhbət Fransa kralı II Henrinin Cəngavərlərin döyüşü (yarışı) zamanı faciəli ölümündən gedir. Bu katren uzaqgörənlik tarixində ən uğurlusu hesab olunur. Bunu yalnız XX əsrin 50-60-cı illərində Cin Diksonun, Con Kennedinin hakimiyyətə gələcəyi və prezidentlik müddəti bitməmiş muzdlu

qatil tərəfindən öldürüləcəyi barədə öngörücülüyü ilə müqayisə etmək olar. Hər iki öngörücülük kahinlərin sağlığında baş verib.

Nostradamusun sağlığında baş verən faciə belə olub. Bütün parislilərə elan olunmuşdu ki, 1 iyun 1559-cu il tarixdə kral II Henrinin qızı Yelizaveta və İspaniya kralı II Filippin və eləcə də kralın bacısı Marqarita ilə Savoyanın hersoqu Emanuel Flibertin qoşa toyu münasibəti ilə Bastiliya yaxınlığında Cəngavərlərin döyüşü (yarışı) olacaq və döyüşdə kral özü də şəxsən iştirak edəcəkdir. Belə də olur. Kral rəqibini özü seçir və kralın şotlandiyalı mühafizə dəstəsinin kapitanı gənc qraf Qabriyel Montqomerini təkbətək döyüşə dəvət edir.

Kral və qraf şirəbənzər paltarlarda atların üstündə, əllərində nizə çarpışırlar. Atları çaparaq qarşılaşanda bir-birinə zərbələr endirirlər. Birdən qrafın nizəsi sınır, nizənin qırıq hissəsi dəbilqədən keçərək kralın sağ gözünə batır. Kralın beyninə qan sızır. On gündən sonra kral dünyasını dəyişir.

Bu hadisə Fransada çox güclü partlayış təsiri bağışlamışdı. Heyrətə gələn fransızlar ilk dəfə olaraq bu möcüzə adamın qüdrətini dərk etdilər. Bununla belə, çoxları Nostradamusu cadugər və sehrbaz adlandırmağa başladı. Qaragüruhçular hətta qızışaraq Nostradamusun müqəvvasını yandırmışdılar.

Bəzi tədqiqatçılar göstərirlər ki, kral II Henrinin dəvəti ilə Parisə gələrkən Nostradamus baş verəcək faciə barədə kraliça Yekaterina Mediçiyə xəbər veribmiş. Başqaları isə xüsusi vurğulayırlar ki, Nostradamus alın yazısından qaçmağı mümkünsüz hesab etmişdir.

Sonralar qraf Montqomeri demişdi: "Hər şeyi belə dəqiqliklə və amansızcasına xəbər verən görücü, səni lənətə gələsən!"

Onu da qeyd edək ki, Nostradamus kral II Henrinin ölümünə səbəb olan qraf Montqomerinin öldürüləcəyini də əvvəlcədən görmüşdü (bax: 3 k30). Həqiqət naminə onu da deyək ki, saray astro-

loqu Lyuk Qorik də kral 41 yaşında olanda onu böyük təhlükə gözlədiyini xəbər vermişdi.

## 1 k36

**Hökmdar hadisələrin gedişini gec başa düşəcək.**
**Rəqibini öldürmədiyinə görə peşman olacaq.**
**Lakin əldə olunan böyük razılıq,**
**Onun qanı tökülərək ölməyindən daha üstün olacaq.**

Fransız kralı III Henrinin yalnız bircə güclü rəqibi qalmışdı. O, çox güclü nəsildən olan Henri de Giz idi. 1588-ci il 25 dekabrda Giz kralın göstərişi ilə qətlə yetirilir. Kral III Henri Henri de Gizi və onun qardaşı kardinal de Gizi öldürsə də, onların qardaşı hersoq de Mayennanı sağ buraxmaqla, Mayennanın tərəfdarları olan katoliklər arasında çoxlu düşmən qazandı. Nəticədə III Henri katolik monax tərəfindən qətlə yetirildi. Hersoq de Mayenna katoliklərdən böyük ordu toplayıb din pərdəsi altında Fransanın yeni seçilmiş kralı IV Henriyə qarşı müharibəyə girişdi.

Lakin IV Henri protestantlıqdan katolik məzhəbinə keçdiyinə görə hersoq de Mayennanın kələyi baş tutmur. Beləliklə, Fransada hərc-mərcliyə, qarşıdurmaya son qoyulur. Əlli ilə yaxın davam edən dini müharibələr dayandırılır. Nostradamusun söz açdığı: "Lakin əldə olunan böyük razılıq, onun qanı tökülərək ölməyindən daha üstün olacaqdır" – yerinə yetir.

## 1 k37

**Günəş batmamışdan bir az əvvəl**
**Döyüş başlayacaq, böyük xalq çaxnaşmaya düşəcək.**
**Sıxışdırılmış dəniz limanı cavab verməyəcək.**
**Məqbərə və körpü iki qəribə yerə xidmət edəcək.**



***Napoleonun İmperatorluğunun sonu yaxınlaşır***

Bəzi tədqiqatçıların fikrincə bu katren 18 iyun 1815-ci ildə Günəş batmazdan bir az əvvəl fransız və ingilis orduları arasında Vaterlooda baş verən son döyüşdən bəhs edir. Napoleon son hücuma keçir. Lakin ingilis artilleriyasının gülləbaranı altında yerə sinərək geri çəkilir. Az sonra Napoleon Cənubi Atlantikada, demək olar ki, həyat olmayan, qayalıq və soyuq Müqəddəs Yelena adasına sürgün edilir. Fəaliyyətsizlik və xərçəng xəstəliyi get-gedə onu üzür. Napoleon ölümün yaxınlaşdığını duyur və 1821-ci il aprelin 13-də öz diktəsi ilə qraf Montolona vəsiyyətnamə yazdırır. Aprelin 15-də vəsiyyətnaməsinin üzünü köçürüb imzalayır. Orada, yeri gəlmişkən, hazırda imperatorun cənazəsinin qalıqlarının basdırıldığı, 1840-cı ildən sərdabənin yerləşdiyi Parisdəki Əlillər sarayı kilsəsinin mərmər lövhəsində həkk olunmuş bu sətirlər

gözə çarpır: "Arzum budur ki, mənim cənazəm Sena sahillərində, son dərəcə sevdiyim fransız xalqının arasında basdırılsın" (bax: Y.V.Tarle. Napoleon. 1993, s.461). Napoleon 1821-ci ildə dünyasını dəyişir və 1840-cı ildə Parisə gətirilərək ekzotik Əlillər saray kilsəsində möhtəşəm məqbərədə qoyulanadək Müqəddəs Yelena adasında uyuyurdu (bax: 5 k7).

4-cü sətirdən göründüyü kimi, Nostradamus Napoleonun ölümündən sonra onunla bağlı baş verəcək hadisələri də əsrlərlə öncə görüb.



*Sena çayı Parisi iki yerə bölür*

## 1 k38

**Günəş və Qartal qalib olacaqlar.**
**Məğlub boş xəbərlə ruhlandırılacaq.**
**Nə şeypur səsləri, nə də qışqırıq, qaçan döyüşçüləri dayandıra biləcək.**
**Vaxt gələndə ölüm hesabına sülh bərqərar olacaq.**

Bu katren də 1815-ci ildə Napoleonun taleyi həll olunan Vaterloo döyüşündən bəhs edir. İngilislərin komandanı hersoq Vellinqton günəş batan vaxt Napoleonun qızılı qartallı bayraqları ilə yaxınlaşan

qvardiyasını yaxına buraxır və artilleriya atəşinə tutur. Lakin bundan bir az əvvəl Napoleon döyüşçüləri ruhlandırmaq üçün sol tərəfdən yaxınlaşan ordunun iki gün əvvəl prussiyalıları təqib edən 30 min nəfərlik fransız ordusu olduğunu xəbər vermişdi.

Əslində onlar ingilislərə köməyə gələn Prussiya ordusu idi. Az sonra fransızlar aldandıqlarını anlayaraq qaçmağa üz qoydular. Napoleonu əsir düşməkdən xilas etsələr də, bu döyüşlər zamanı 47 min ölən və yaralanan oldu. Napoleonun ölümündən sonra (1821) Avropada sülh bərqərar oldu.

## 1 k39

**Gecə vaxtı hökmdarı yatağında boğub öldürəcəklər.**
**Sarışın saçlı işi yubandıraraq məqam gözləyirdi.**
**Üç nəfər varisin əli ilə İmperiya kölə halına salındı.**
**O, məhvə məhkum edildi və sənədlər oxunmamış qaldı.**

Bu katrendə Nostradamus özündən çox-çox sonralar baş verəcək faciədən söhbət açır. Belə ki, 1830-cu ildə Burbonlar sülaləsinin sonuncusu, monarxiya tərəfdarlarının ümidgahı kral Konde yatağında boğulub öldürülür. İzi itirmək üçün onu sonradan asırlar.

Üç nəfər varis dalbadal hakimiyyətə gəlirlər: kralın oğlu Lui Filipp (1830-1848), İkinci Respublikaçılar (1848-1851), Lui Bonapart (III Napoleon). 1851-ci ildə Napoleon dövlət çevrilişi edərək monarxiya yaratdı və ölkədə monarxiya üsuli-idarəsinə keçildi (1852-1870). Ölkə kölə vəziyyətinə düşdü. Kral Kondeyə qarşı sui-qəsdi araşdıran, nostradamusşünas Le Pelletye yuxarıdakı katrenin Konde ilə bağlı olduğunu belə əsaslandırır: Konde sarışınsaç olub. Vəsiyyətnamə yazıb qoyub ki, özündən sonra hakimiyyətə eyş-işrət düşkünü olan oğlu Lui Filipp deyil, hersoq de Bordo gəlsin. Lakin Konde yatağında boğulub öldürülən kimi, saxta vəsiyyətnamə düzəldirlər ki, guya kral öz oğlunu varis təyin edib. Nostradamusun 4-cü sətirdə yazdığı kimi də olur: “Sənədlər

oxunmamış qaldı", yəni kralın əsl vəsiyyətnaməsi üzə çıxarılmadı.

### 1 k40

**Gizli qasırğa (inqilab) ağılsız hərəkətini gizlədərək.**
**Bizansı qanununda dəyişiklik etməyə məcbur edəcək.**
**Misirdən bir şəxs çıxacaq və qızılın dəyəri barədə**
**Fərmanı ləğv edərək pulu və əlvan metalları məzənnədən salacaq.**

Tədqiqatçıların gəldiyi qənaət belədir ki, bu katrendə XX əsrin əvvəllərində baş verən hadisələrdən bəhs edilir. Osmanlı İmperiyasının dağılması nəticəsində Türkiyə Misiri itirir və 1920-ci il İnqilabından sonra Respublikaya çevrilir.

Güman ki, son sətirlərdə Misir Osmanlı İmperiyasından çıxdıqdan sonra ölkədə baş verən çaxnaşmalardan, əhalinin düçar olduğu ağır vəziyyətdən bəhs edilir.

Bəziləri isə bu katreni Misirin sabiq prezidenti Ənvər Sadat, başqaları isə Ayətulla Xomeyni ilə bağlayırlar.

### 1 k41

**Şəhər gecə vaxtı mühasirəyə məruz qalacaq.**
**Az adam qaçıb qurtaracaq. Döyüş dənizin yaxınlığında olacaq.**
**Oğlunun qayıtdığını görən pozğun qadın sevincdən qəşş edəcək.**
**Zəhər və məktublar büküklərdə gizlədiləcək.**

Tədqiqatçılar bu katren haqqında ağlabatan bir söz deyə bilməyiblər. Bəzi tədqiqatçıların fikrincə katrendə Fransanın Dyunker şəhərinin (1940) almanlar tərəfindən tutulmasına işarə edilir. "Pozğun qadın" deyəndə – Fransada Üçüncü Respublika nəzərdə tutulur. Guya "zəhər və məktublar" faşistlərin fransız əsirlərinin fikirlərini ideoloji cəhətdən başqa səmtə yönəltmələri deməkdir.

Təbii ki, bütün bunlar o qədər də inandırıcı görünmür.

## 1 k42

**Qotik hesablamalara görə aprelin onuncu günü**
**Bədəməllər tərəfindən yenidən bərpa olundu.**
**Şeytan Psellanın sümüklərini tapmağa həsr olunmuş.**
**Şeytan yığıncağında işıq (daxildə) söndürüldü.**

Nostradamus ölümündən 26 il sonra, 1592-ci ildə baş verəcək hadisələri tam dəqiqliyi ilə görmüşdü. Həmin vaxt katoliklər, başda Papa Qriqori olmaqla Yulian təqvimindən imtina edərək dəyişiklik edilmiş Qriqori təqvimini qəbul etdilər.

Yulian təqvimi ilə bir il 365 gün, 6 saatdan ibarət idi. 1582-ci ildə **ilk bahar tarazlığı** 21 martdan 11 marta keçirilmişdi. Papa Qriqori "səhvi" sadəcə olaraq 10 günü atmaqla düzəltdi. Öz iradəsi ilə Papa 1582-ci ilin 5 oktyabrını 15 oktyabra keçirdi. Bu dəyişiklik heç kimin ürəyindən olmadı. Avropa ölkələrinin çoxu itirilmiş on günü geri tələb etdi.

Məsələ burasındadır ki, Kalenda Roma təqvimində aprel ayının 1-ci günü deməkdir. Kalendarın (təqvim) onuncu günü – "Aprelin onu" deməkdir. Yeni Qriqori təqvimində qotik hesablamalarından on gün çıxılır və nəticədə 10 aprel 1 aprel hesab olunur. Bu günə "Ehtiraslı Cümə" – deyirdilər. Magiya ilə məşğul olmaq üçün ən uğurlu gün hesab olunurdu.

Katrenin son iki sətrində tədqiqatçıların fikrincə, Nostradamusun ilk dəfə görücülüyə başladığı seansın son anı təsvir olunur. Guya görücülük istedadını ona şər qüvvələr gətiriblər. Lakin vəcdə gələrkən nazik halə görünür, şeytan yığıncağı yoxa çıxır. İlk aydınlıq gətirən şüaların yaxınlaşması ilə qaranlıq (zülmət) düşgünləri Demon Psellin nəşi saxlanan yeri axtarmağa gedirlər. Demon Psell dedikdə Nostradamus XI əsrdə yaşamış Mixail Pselli (1018-1078) nəzərdə tutur. Həmin Psell ki, məşhur neoplatonik (neoplatonizm – eramızdan əvvəl III əsrdə meydana gəlmiş mistik

fəlsəfi cərəyan) olmuş, cinlər və ellin (qədim yunanların adı) sehri barədə kitab yazmışdır.

Fransa inqilabından sonra köhnə Yuli təqviminə keçildi (22 sentyabr 1792-ci il). Burada hər ay 30 gündən hesab olundu. Yerdə qalan beş günü isə işçi və fəhlələrə istirahət günü elan etdilər. İnqilabi təqvimə görə 21 mart baharın ilk günü hesab olundu. Bu, "oyanış günü" adlanırdı. Lakin Napoleon hakimiyyətə gəldikdən sonra, 1805-ci il dekabrın 31-də inqilabi təqvimi ləğv etdi və Qriqori təqviminə keçildi.

### 1 k43

**İmperiya dəyişməmişdən əvvəl**
**Tarixi hadisə baş verdi.**
**Tarlalar, çəmənlər dəyişildi, porfir sütunlar**
**Əlçatmaz, qayalı dağların başında qoyuldu.**

Giriş məqaləsində göstərdiyimiz kimi, Nostradamus özünütəsdiq üçün sağlığında baş verəcək hadisələrə də az da olsa yer ayırırdı. O, aylıq və illik horoskoplar tərtib etməklə bərabər, tarixi hadisələri də katrenlərinə daxil edirdi. Bu katrendə təsvir edilənlər yazıldığı tarixdən cəmi altı ay sonra baş vermişdi. "Müqəddəs Roma İmperiyası"nda baş verənlər Nostradamusa inamı birəon artırdı. Məsələ burasındadır ki, imperator V Karl gözlənilmədən imperatorluqdan əl çəkdi və hakimiyyəti qardaşı Ferdinanda verdi. Lakin buna qədər Hollandiya və İspaniyanı oğlu II Filippə vermişdi.

Hakimiyyətin Ferdinanda verilməsi mərasimi təmtəraqlı şəkildə Brüsseldə keçirildi. O birisi il kral Hollandiyanın tarla və çəmənlərini tərk edərək İspaniyaya gəldi. Orada monastırlardan birinin qonağı kimi ömrünü başa vurdu. "Porfir sütunlar" ifadəsi kralın məqbərəsinə işarədir. O ki qaldı "əlçatmaz, qayalı dağlar" ifadəsinə, demək lazımdır ki, xristian aləmində monastırları dağlarda, uca yerlərdə tikmək dəbdə olub.

Bu katrendə verdiyimiz şərhlə uzlaşmayan bir məsələ vardır. O da ondan ibarətdir ki, imperiya Fransada 1789-cu ildən sonra meydana gəlibdir.

**1 k44**

**Tezliklə yenidən qurbanlar veriləcək.**
**İtaətsizlik göstərənlərə zülm ediləcək.**
**Qayda-qanunu pozanlar cəzaya məruz qalacaqlar.**
**Daha nə abbatlar olacaq, nə kahinlər, nə də kahinliyə hazırlaşanlar.**
**Bal yenidən mumdan daha baha olacaq.**

Bu katrendə Böyük Fransız və Böyük Oktyabr inqilablarından sonra Fransada və keçmiş Sovetlər məkanında monastır, kilsə və məscidlərin bağlanmasından, din xadimlərinin başına gələcək bəlalardan, etiraz səsini ucaldanların məhv ediləcəyindən danışılır. Kilsələrdə, ibadətgahlarda və s. şam yandırmaq qadağan olunduğundan mumun qiymətdən düşəcəyindən söz açılır.

İkinci sətirdəki "İtaətsizlik göstərənlərə zülm ediləcəkdir" qənaəti isə 1793-cü ildə baş verən hadisədən bəhs edir. İnqilabdan sonra bütün din xadimlərinə əmr olunmuşdu ki, Parisin Müqəddəs Məryəm katolik kilsəsində Respublikaya sədaqətə dair and içsin - lər. İtaətsizlik göstərənləri edam edirdilər.

**1 k45**

**Məzhəbləri boğan – çuğul üçün böyük cəzadır.**
**Tamaşa salonunda vəhşi heyvan səhnəni qızışdıracaq.**
**Qədim fakt (sübut) zirək adamın tərifini göylərə qaldıracaq.**
**Məzhəblərə görə aləm bir-birinə dəyəcək, təfriqələr başlayacaq.**

Katren Nostradamusun zamanından bəhs edir.

Bu katrendə söhbət Jan Kalvinin (protestant məzhəbinin ideoloqu) sağ əli Teodor de Bezadan gedir. 1561-ci ildə onun üçün teatra bənzər bir bina tikilmişdi. Orada Beza Fransanın Milli Məclisinə

kalvinizmin mahiyyətini açıqlayırdı. Yekaterina Mediçi Bezanı köməyə çağırmışdı ki, katoliklərlə hugenotları (protestantlar) ba - rışdırmaq mümkün olmasa da, ölkədə əmin-amanlıq yaransın. Bezanın iştirakı ilə katoliklərlə protestantların arasında dialoq başladı və uğurla davam etdi. Lakin söhbət qədim fakt – müqəddəs yevxaristiyaya gələndə ara qarışdı. Məsələ burasındadır ki, xristian təliminə görə onların əsas ibadət ayini müqəddəs liturgiya vaxtı İsa peyğəmbərin bədəni və qanının rəmzi olan çörək və şərab dadmaq peyğəmbərlə təmasda olmaq deməkdir. Beast (Besze) – vəhşi heyvan (Beza) elan etdi ki, bu aktın müqəddəsliyə dəxli yoxdur. Qızğın mübahisələr başladı. Vəziyyətin ağırlığını görüb islahatçı Teodor de Beza aradan çıxdı.

Az sonra Avropada, xüsusən də Fransada dini müharibələr baş alıb getdi. Bütün bunları Nostradamus qabaqcadan xəbər vermişdi.

## 1 k46

**Eks, Lestor və Mirand şəhərlərinin yaxınlığında.**
**Üç gün ərzində göydən od yağacaq.**
**Həddən artıq böyük hadisələr baş verəcək.**
**Və az sonra yer titrəyəcək.**

Tədqiqatçılar bu katrenin də hansı hadisədən bəhs etdiyini, nə vaxt baş verdiyini ayırd edə bilmirlər. Dəqiq məlum olan odur ki, katren Fransa ilə bağlıdır.

Bəziləri isə deyirlər ki, bəlkə də bu 1843-cü ildə adi gözlə müşahidə edilə bilən Böyük quyruqlu ulduzun şütüyüb keçməsi ilə bağlıdır.

## 1 k47

**Leman gölünün yanında içilən andlar, verilən vədlər unudulacaq.**
**Günlər həftələrə, həftələr aylara, aylar ilə çevriləcək.**
**Sonra hər şey pozulacaq.**
**Vəzifə sahiblərinin mənasız cəhdlərinə lənət oxuyacaqlar.**

Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, Leman gölü Cenevrə ətrafındadır. I Dünya müharibəsindən sonra yaranan Millətlər cəmiyyəti (1919-1946) burada yerləşirdi. O da məlumdur ki, on illər boyu Cenevrə keçmiş Sovet və ABŞ diplomatlarının danışıq apardığı bitərəf ölkə – İsveçrədə şəhərdir. Burada diplomatlar təkcə tərk-silah barədə deyil, dünyanı narahat edən bütün məsələlər haqqında danışıqlar aparırdılar. Lakin ən çox mübahisəyə səbəb olan və 1988-ci ildən gündəlikdə olan strateji silahların azaldılması və məhv edilməsi məsələsi idi. Ümumi razılığa əsasən ABŞ və Rusiya nüvə silahının 75%-i məhv edilməli idi. Dünya Problemləri İnstitutunun verdiyi məlumata görə 1996-cı ilin əvvəlində məhv olunması nəzərdə tutulan 40600 ədəd nüvə (boyeqolovok) bombasından biri də məhv olunmayıb. SNV-1 və SNV-2 üzrə, yəni kütləvi qırğın silahlarının ixtisarı üzrə heç bir öhdəlik yerinə yetirilməyib. Əksinə, 14 dekabr 2001-ci ildə ABŞ bütün öhdəliklərdən imtina etdiyini bəyan etdi. Kim bilir, bəlkə də ABŞ ixtisarı nəzərdə tutulan köhnə silahları Balkanlara, İraqa, Əfqanıstana və s. tökməklə öhdəlikdən canını beləcə qurtarır.

Nüvə silahının yayılmaması barədə öhdəliklər də yerinə yetirilmir. Həm ABŞ, həm də Rusiya əlaltından nüvə və başqa strateji hücum silahını digər ölkələrə verir.

Rusiya İrana iki raketatan sualtı qayıq satmışdır. Bəzi digər ölkələr də atom bombaları istehsal etməyə başlamışdı.

Nostradamus bütün bunları dahiyanəliklə görmüşdü.

**1 k48**

**Ayın hökmranlığından iyirmi il keçir.**
**Bir vaxt gələcək, Ay yorulub əldən düşəcək.**
**7-ci minilliyin əvvəlində onu Günəş əvəz edəcək.**
**Vaxt gələcək, Günəşin enerjisi tükənəcək.**
**O, yorğun və üzgün günlərini başa vuranda**
**Mənim də peyğəmbərliyim (görücülüyüm) yerinə yetərək başa çatacaq.**

Mişel Nostradamusun 1554-cü ildə yazdığı bu katrendə "Böyük zaman sikllәri"nə və eləcə də görücülüyün mühüm məqamına toxunulur.

Qeyd etmək lazımdır ki, astroloqlar Böyük zaman kəsiklərini hər biri 354 il 4 aydan ibarət olan və müəyyən bir planetin təsirinə məruz qalan "Böyük zaman sikllәri"nə bölmüşlər. Məsələn, Ay zaman sikli 1534-cü ildə başlamış və 354 il 4 ay sonra, yəni 1888-ci ildə onu Günəş zaman sikli əvəz etmişdir. 354 il 4 ay sonra, yəni 2242-ci ildə isə onu Saturn "Böyük zaman sikli" əvəz edəcəkdir. Günəş hökmranlığını Saturna verən il, yəni 2242-ci ildə Nostradamusun görücülüyü başa çatacaqdır. Beləliklə, deyə bilərik ki, bu qeyri-adi, möcüzə adam bəşər tarixinin 700 illik gedişatını əvvəlcədən görmüş, labüd olaraq baş verəcək hadisələri qələmə alaraq özündən sonrakı nəsillərə töhfə etmişdir.

Nostradamusun zamanında mövcud olan planetlərin düzülüşü belə imiş: Saturn, Venera, Yupiter, Merkuri, Mars, Ay, Günəş. Göründüyü kimi, hər 354 il 4 aydan sonra hakim planet hökmranlığını özündən sonrakına verir. Həyat beləcə davam edir.

Maraqlı məsələlərdən biri də 3-cü sətirdə yer alan "7-ci minilliyin əvvəlində onu Günəş əvəz edəcəkdir" fikridir. Nostradamus planetimizdə həyatın yarandığı gündən yeni eraya qədər olan vaxtı 4137 (və ya 4173) il hesablamışdır. Bunun üstünə Ayın hökmranlığının başa çatdığı 1888-ci "ili" gələndə 6025 (6051) il edir ki, bu da 7-ci minilliyin başlanğıcıdır.

Girişdə qeyd etdiyimiz kimi, bəzi tədqiqatçılar səhvən bu vaxt dünyanın axırı olacağı qənaətinə gəliblər. Əslində, Nostradamus kral II Henriyə yazdığı məktubda göstərir ki, Saturn böyük zaman sikli dövrü və sonralar minillik qızıl dövr – əmin-amanlıq dövrü olacaq.

Yeri gəlmişkən, xüsusi vurğulamaq istərdik ki, Nostradamus yaradıcılığına 640 səhifədən ibarət çox sanballı əsər həsr edən David Ovason bu məsələyə xüsusi diqqət yetirmişdir: "Nəzərə al-

maq lazımdır ki, Nostradamus bu katrendə yalnız görücülüyündən bəhs edir. Burada o, dünyanın sonu məsələsinə toxunmur. Bəzi şərhçilərin məsələnin məğzini dərk etmədiklərindən səhvə yol verdiklərini göstərməyi borc bildik" (David Ovason. Nostradamusun kodu (ingiliscə), London, Arrow Books Ltd., 1998, səh. 177).

**1 k49**

**Belə fitnə-fəsad törədiləndən çox-çox əvvəl,**
**Ayparanın (Osmanlı İmperiyası) gücünə arxalanacaqlar.**
**Bu, 1700-cü ildə Böyüyün hərəkətinə səbəb olacaq.**
**Zorla Şimal torpaqlarının böyük bir hissəsini özünə tabe edəcək.**

Nostradamusun bu katrenində Şimal dövlətlərindən danışılır. 1697-ci ildə kral XII Karl İsveçdə hakimiyyətə başlayanda üç böyük dövlətdən: Danimarka, Polşa və Rusiyadan təhlükə gözlənilirdi. O vaxt Rusiyanın çarı Böyük Pyotr idi. Böyük Pyotr 8 avqust 1700-cü ildə Osmanlı İmperiyası ilə sülh müqaviləsi bağladığından əl-qolu açılmışdı. Diplomatik fitnə-fəsadlar tezliklə silahlı qarşıdurmaya gətirib çıxardı. Böyük Şimal müharibəsi 1700-cü ildə başladı və 21 il davam etdi. XII Karl tez bir zamanda ruslara qarşı Osmanlı İmperiyası ilə müttəfiqlik barədə sazişə gəldi. Lakin 1718-ci ildə Norveç şəhəri Fredriksxalı mühasirəyə alan zaman kral XII Karl gözünə dəyən güllədən öldü və hərbi əməliyyatlar səngiməyə başladı. 1719-1720-ci illərdə Stokholm sülh müqaviləsi imzalandı. Bu müharibədə ən çox qazanan Rusiya oldu. Rusiya Livoniyanı, İnqermanlandiyanı (bugünkü Leninqrad vilayətinin bir hissəsi), Kareliyanın bir hissəsini, Baltikada bir neçə adanı, Finlandiyanı öz torpaqlarına qatdı. Nostradamusun əsrlərlə öncə dediyi: "Zorla Şimal torpaqlarının böyük bir hissəsini özünə tabe edəcək" kəlamı yerini aldı.

## 1 k50

**Su ilə bağlı üçlüyün vəhdətindən**
**Cümə axşamını özünə bayram edən meydana gələcək.**
**Onun şöhrəti, ad-sanı, qüdrəti günbəgün artacaq.**
**Qurudan və dənizdən Şərqi vəlvələyə (çaxnaşmaya) salacaq.**

Nostradamus bu katrendə ABŞ-dan söhbət açır. Maraqlıdır ki, böyük görücünün zamanında nəinki ABŞ dövləti, heç "amerika" sözü də yox idi. O vaxt bu yerlərə "Vest İndiya" deyirdilər. "Amerika" və "Yeni dünya" ifadələrini Amerika ilə bağlı ilk işlədən də güman ki, Nostradamus olub.

"Su ilə bağlı üçlüyün vəhdətindən" deyəndə göz önünə İngiltərə, Şotlandiya, İrlandiya gəlir. Onların vəhdətindən ABŞ meydana gəlmişdir. Başqa bir tərəfdən, ABŞ iki okean və bir körfəzlə əhatə olunduğuna görə "su ilə bağlı üçlüyün vəhdəti" də bu mənada işlənib. Necə olsa da Nostradamusun göstərdiyi: "Cümə axşamını özünə bayram edən meydana gələcəkdir" də amerikalılara aiddir. Onlar hər il noyabr ayının 4-cü cümə axşamını, "Thanksgiving" ("Minnətdarlıq") müqəddəs milli bayram gününü bütün ölkədə qeyd edirlər. Mən, 1983-cü ilin iyun-avqust aylarında ABŞ-ın Arizona Universitetində ingilis dili üzrə ixtisa - sartırma kurslarında olsam da, bu bayram haqqında məlumatım az idi. Lakin uzun müddət ABŞ-da tədqiqat aparan tələbəm, həmkarım və dostum, professor Zeydulla Ağayev köməyimə çatdı. ABŞ-ın "Minnətdarlıq günü" milli bayramı barədə Zeydulla müəllimin məlumatını burada minnətdarlıq duyğusu ilə verirəm: "Bu dini bayram ABŞ-ın ən əsas milli bayramı hesab olunur. Bizim Qurban bayramını andırır. Səbirsizliklə gözlənilən bu bayrama xüsusi hazırlıq görülür. Bayram günü bütün evlərdə hind toyuğu kəsilir. O gün hamı öz evində olur. Süfrə başına yığışıb Yaradana dua oxuyur, minnətdarlıqlarını bildirir, sonra isə bayram yeməyinə başlayırlar".

Nostradamusun son iki sətirdə göstərdikləri də yerini almışdır. İlk atom bombası, Aya uçan ilk adam, qitələrarası raketlər, XX əsrin ən böyük möcüzəsi kompyuterlər və s. ABŞ-ın adı ilə bağlıdır. Onun şan-şöhrətindən, qüdrətindən xəbər verir. ABŞ-ın gücü-qüdrəti artdıqca o, dünyanın hegemon dövlətinə çevrilir. Buna görə də bütün dünyada qayda-qanun yaratmaq missiyasını öz üzərinə götürür. Dünya xalqlarına necə yaşamağı, necə hərəkət etməyi zor gücünə qəbul etdirmək meyli güclənir.

İraqa, Yuqoslaviyaya, Əfqanıstana qarşı dənizdən, havadan və qurudan vurulan raket və bomba zərbələri, saysız-hesabsız insan tələfatı nəinki Şərqi, hətta Qərbi də qorxuya salıb. Bütün bunları Nostradamus 450 il bundan əvvəl görüb və bizə çatdırıb.

Təəssüf ki, bəzi Qərb tədqiqatçıları bu həqiqətləri görməməzliyə vuraraq katreni Ayətulla Xomeyni və b. ilə əlaqələndirməyə çalışırlar. Lakin onların dəlil və sübutları sabun köpüyünə bənzəyir.

## 1 k51

**Yupiter və Saturn zahirən Qoç bürcündə olanda**
**Ulu Tanrı, necə dəyişikliklər olacaq!**
**Şöhrətli və gözəl günlərdən bir əsr sonra yaman günlər gələcək.**
**Fransada və İtaliyada çaxnaşma olacaq.**

Astroloqlar göstərmişlər ki, Yupiter və Saturn Qoç bürcündə 13 dekabr 1702-ci ildə, 19 oktyabr 1883-cü ildə, 2 sentyabr 1995-ci ildə olmuşdur. Tədqiqatçı Leoni və başqalarına görə bu katren 1702-ci ilə aiddir. Çünki həmin vaxt İtaliya və Fransa İspaniyada hakimiyyəti ələ almaq üçün müharibəyə girişmişdi.

## 1 k52

**İki uğursuz (nəhs), Əqrəb bürcü ilə birləşəcək.**
**Böyük hökmdar zalda öldürüləcək.**
**Kilsəyə bəla yeni hökmdardan gələcək.**
**Avropa, eləcə də Şimal böyük zərbə alacaq.**

Tədqiqatçıların fikrincə, uğursuz (nəhs) adı altında görücü Saturn və Mars planetlərini nəzərdə tutur. Tədqiqatçılar göstərirlər ki, bir çox bəlalar, çaxnaşmalar, müharibələr və müharibə ilə bağlı zillətlər bu planetlərlə bağlıdır. Beləliklə, Saturn və Mars Əqrəb bürcü ilə 1807-ci ildə birləşib. Həmin il Osmanlı imperatoru sultan III Səlim hakimiyyətdən salınıb və az sonra zalda boğularaq öldürülüb: "Böyük hökmdar zalda öldürüləcək"" yerini alıb.

Elə həmin ildə Roma Papası VII Piy Napoleona əsir düşüb. ("Kilsəyə bəla yeni hökmdardan gələcək".) Avropanın çox böyük bir hissəsi Fransadan asılı vəziyyətə düşüb. Rus çarı I Aleksandr Napoleonun qorxusundan tələsik Britaniya ilə müqavilə bağlayıb. Görünür, Napoleon bu müqaviləyə əhəmiyyət verməyib. Əks təqdirdə 1812-ci ildə Rusiyaya qarşı müharibəyə girişərək, Moskvanı yandırmazdı.

Göründüyü kimi, Nostradamusun söylədikləri özündən, demək olar ki, 250 il sonra sözbəsöz yerinə yetib.

Demək lazımdır ki, Amerikanın prezidenti Linkoln da zalda (tamaşa zalında), teatrda tamaşaçıların gözü önündə öldürülüb (1863). Onun vaxtında ölkənin cənub əraziləri şimalla birləşdirilib. Lakin Linkolnu güllə ilə vurub öldürdüklərindən bu katreni ona aid etmək olmaz.

### 1 k53

**Təəssüf! Böyük xalq uzun müddət əzab-əziyyət görəcək.**
**Və müqəddəs qanunlar alt-üst olacaq.**
**Qızıl və gümüş başqa yolla əldə ediləndə (çıxarılanda)**
**Bütün xristian aləmi başqa qanunlarla yaşayacaq.**

Nostradamus vətənpərvərlik naminə fransız xalqını "Böyük xalq" adlandırır. O, qızıl və gümüşün yerinə adicə kağız işləndiyini və qızıl və gümüşün əldə olunmasının yeni mənbəyini – qara

nefti görür. İnsanların dünyagörüşünün dəyişdiyini, xristian aləminin başqa qanunlarla yaşayacağını göstərir.

Bütün bunlar zəmanəmizdə həqiqətən də baş verib. Xristian aləminin neftə görə Şərqdə çıxardığı oyunlar bəşəri qanunlardan çox uzaqdır. Nostradamus buna işarə edir. Bununla belə, bu katreni şərh etmək asan, həqiqəti tapıb ortaya qoymaq çətindir. Rus tədqiqatçılarından bu katrenin Rusiya ilə bağlı olduğunu, guya Mərkəzi Rusiyada qızıl və almaz yataqlarının tapıldığını, lakin dövlətin bunu xalqdan gizlətdiyini göstərənlər də vardır. Bəzi tədqiqatçılar isə bu katreni 1789-cu il Fransa inqilabı ilə bağlamağa cəhd göstəriblər.

### 1 k54

**Kinli biçinçinin sayəsində iki inqilab olacaq.**
**Hökmranlıq və əsr tamam dəyişəcək.**
**Dəyişkən zodiak Tərəzi bürcü öz yerində ürəklə**
**Hər iki tərəfə bərabər tərzdə meyil göstərəcək.**

Ümumi qəbul olunmuş fikrə görə, "kinli biçinçi" – kəsib tökən, məhv edən – Saturn planetidir. Dünyada ən çox qırğına səbəb olan Böyük Fransa və Böyük Oktyabr sosialist inqilabları Saturnun hökmranlığı – mənfi təsiri zamanı baş vermişdir. Maraqlı odur ki, 1917-ci il Böyük Oktyabr sosialist inqilabı da, 1991-ci ilin avqustunda onun nəticəsinin, yəni SSRİ-nin məhvi də Saturnun Yer kürəsinə təsiri zamanı olmuşdur. Qərb tədqiqatçıları hər vaxt Saturnu bədbəxtliklər mənbəyi adlandırdıqları halda, bu dəfə onun xeyir gətirən, əsaslı dəyişikliklərə gətirib çıxara bilən gücündən də söhbət açırlar.

Katrenin nömrəsi (54) Stalinin ölümündən sonra (1953) yeni eranın başlandığını göstərir.

Maraqlı cəhətlər çoxdur. Dəyişkən Tərəzi bürcü Nostradamusun başqa katrenlərində ədalət və tarazlıq əlaməti olaraq demokratiyanın rəmzi kimi qəbul olunur.

Başqa bir tərəfdən də oraq və katrenin birinci sətrindəki "biçinçi" sözünə fikir verin. Nostradamusun vaxtında tarla oraqla, çinlə biçilərdi. Görücü rus və çin kommunist inqilablarının taleyinin XX əsrin sonunda başa çatdığından, yeni əsrin başlandığından xəbər verir.

Tədqiqatçılar göstərirlər ki, "dəyişkən zodiak" dedikdə Amerika və ya demokratiya nəzərdə tutulur. Böhrana gətirib çıxarmamaq üçün yeganə yol dövlətlərə tarazlı münasibət bəsləməkdir. Əks təqdirdə çaxnaşmaların, müharibələrin olacağı ehtimalı çoxalır. Təəssüf ki, böyük dövlətlərin ikili münasibətinin nəticəsində tarazlıq pozulur və hər yanda çaxnaşmalar, müharibələr baş verir.

## 1 k55

**Babilistana müxalif iqlimdə**
**Böyük qırğın olacaq, qan su yerinə axacaq.**
**Göylər torpağa və dənizə qənim kəsiləcək.**
**Məzhəblər, aclıq, cəhalət, vəba biri-birinə qarışacaq.**

Nostradamus katrenlərində tez-tez Fransanı, daha çox da onun paytaxtı Parisi "Avropanın Babili" adlandırmışdır. Lakin bu katrendə böyük görücü, Con Houqun da xüsusi vurğuladığı kimi, əsl Babildən, Mesopotamiyadan danışır. Paris iki çay arasında, Sena və Marna çaylarının arasında olduğu kimi, Babil də Dəclə və Fəratın əhatəsindədir. Doğrudur, hər iki ölkə və şəhərdə fəlakətli, faciəli anlar çox olmuşdur və bu baxımdan, hər iki ölkənin taleyində bir oxşarlıq vardır. Bununla belə, bu katreni XX əsrin sonuna yaxın İraq-Küveyt münaqişəsinə və Qərb dövlətlərinin "Səhrada tufan" adlandırdıqları 34 NATO ölkəsinin, o cümlədən də Fransanın İraqa qarşı apardığı "Körfəz müharibəsi"nə aid etmək

(1990-1991) daha doğru olardı. "Səhrada tufan" Nostradamusun dediklərini təsdiq etdi: "Göylər torpağa və dənizə qənim kəsiləcəkdir". Belə ki, İraqın körfəzdə olan bütün gəmiləri məhv edildi. Müttəfiqlərin havadan, dənizdən və qurudan endirdikləri aramsız bomba və raket zərbələri nəinki saysız-hesabsız insan tələfatına, eləcə də Küveyt və İraq ərazisində neft quyuları və neft anbarlarının yanması nəticəsində Yaxın Şərqdə ətraf mühitin korlanmasına, İraqda süni yaradılan sünni-şiə qarşıdurmasına, aclıq, cəhalət və hərc-mərcliyə gətirib çıxardı.

Rus tədqiqatçılarından bəziləri bu katrendə II Dünya müharibəsi zamanı Sovetlər ərazisində gedən qanlı döyüşlərdən bəhs olunduğunu iddia edirlər. Bəziləri isə katrenin Böyük oktyabr sosialist inqilabından söz açdığını vurğulayırlar.

### 1 k56

**Gec-tez böyük dəyişikliklərin şahidi olacaqsınız.**
**Adamın tükünü ürpəşdirən vahimə və qisas!**
**Əgər Ayparanı (İslamı) onun mələyi Cəbrayıl idarə edirsə,**
**Deməli, göylər ona baş əyəcək.**

İslam aləmində də, Xristian aləmində də Yaradandan gələni vəhy şəklində peyğəmbərlərə çatdıran mələk Cəbrayıldır. Böyük dəyişikliklər Şərqdə – müsəlman aləmində baş verdi. 1956-cı ildə Misirin prezidenti Camal Əbdül Nasir Süveyş kanalını milliləşdirərək Qərb aləminə böyük zərbə vurdu. Münaqişə baş verdi. Böhran onunla nəticələndi ki, fransız və ingilis ordu birləşmələri Misiri tərk etdilər. Katrenin nömrəsi (1 k56) hadisələrin 1956-cı ildə olacağına işarədir. Qərb aləmi Camal Əbdül Nasirin bu hərəkətini ona bağışlamadı. Tezliklə İsrail ordusunu Misirə salışdırdılar. Camal Əbdül Nasirin guya ürəyi partlayıb öldü. Lakin çoxları onun zəhərlənib öldürüldüyünü deyirdilər.

1973-cü ildə İraqın prezidenti Səddam Hüseyn Camal Əbdül Nasirin yolu ilə gedərək nefti milliləşdirdi. Başda ABŞ olmaqla Qərb ölkələrinin XX əsrin sonundan İraqın başına gətirdikləri müsibətlər bütün aləmə məlumdur. Ölkə tar-mar edilərək dilənçi kökünə salınıb. Təsəlli bir ona qalıb ki, qara günlər keçib gedər, belə qalmaz. Dünya çox mənəm-mənəm deyən imperiyalar görüb. Onlardan biri də qoy olsun ABŞ imperiyası. Ned Halley isə bu katreni Sarayevoda hersoq Ferdinandın öldürülməsi və nəticədə I Dünya müharibəsinin başlanması ilə bağlayır.

### 1 k57

**Böyük çəkişmədən qan coşdu, qasırğa qopdu.**
**Saziş pozulduğundan baş göyə qaldırılıb,**
**Qanlı ağız qan içində üzəcək.**
**Vaxtilə süd və bal sürtülmüş sifət torpağa düşəcək.**



***Kral XVI Lüdovikin edam səhnəsi (yanvar 1793),***
***Sanson adlı cəllad kralın başını izdihama göstərir***

Bu məşhur katreni Nostradamus hadisə baş verəndən 240 il əvvəl yazıb. Katrendə Fransa inqilabı zamanı 1793-cü ildə kral XVI Lü -

dovikin faciəli və işgəncəli ölümü təsvir olunur. Məsələ burasındadır ki, kral söz vermişdi ki, Parisdən kənara çıxmayacaq. Lakin inqilabın qalib gəlmək üzrə olduğunu görəndə xəlvəti qaçmaq qərarına gəlir. Gecə vaxtı şəhəri tərk edən kralı tutub Parisə gətirirlər. Kralın başını vururlar (saziş pozulduğundan). Sanson adlı cəllad kralın başını yuxarı qaldırıb camaata göstərir. Styuard Robb "Nostradamusun dünya hadisələrinə dair görücülüyü" kitabında katrenin axırıncı sətri – "Vaxtilə süd və bal sürtülmüş sifət palçığa düşüb" – barədə yazır ki, Lüdovikin tacqoyma mərasimi Müqəddəs Aqnessanın xatirə bayramı günü – 21 yanvarda olmuşdu. Bayram münasibəti ilə kralın üzünə süd və bal sürtmüşdülər. Taleyə bax ki, kral XVI Lüdovik 21 yanvar 1793-cü ildə Müqəddəs Aqnessanın xatirə bayramı günü edam olunub (bax: 4 k85).

## 1 k58

**Yarılmış qarından ikibaşlı məxluq dünyaya gələcək.**
**Onun dörd əli olacaq. Bir neçə il bölünməz (bütöv) yaşayacaq.**
**Alkvilya öz bayramını təntənə ilə qeyd etdiyi gün,**
**Fossano, Turin və Ferrarın başçıları da onun (Alkvilya) kimi hərəkət edəcəklər.**

Tədqiqatçılar üçün bu katren çox çətin təsvirə gələn məsələlərdən söhbət açır. Hər halda ümumi qənaət belədir ki, burada hər şeydən əvvəl söhbət imperiyanı iki yerə bölən kral V Karldan gedir. Əvvəllər söz açdığımız kimi, V Karl imperiyanı qardaşı Ferdinand və oğlu Filippin arasında bölərək hakimiyyətdən uzaqlaşmışdı (bax: 1 k43). Alkvilya qədim Roma imperiyasında əhəmiyyətli şəhərlərdən biri olub.

Katrenin son sətrində sadalanan şəhər və ölkələr Aralıq dənizi sahilində olublar. V Karl hakimiyyətdən gedəndən sonra adı çəkilən şəhər və ölkələr yeni idarə üsuluna keçmişdilər.

## 1 k59

**Sürgünə göndərilənlər adalara yatab olunublar.**
**Daha qəddar hökmdarın gəlişilə onlar məhv ediləcəklər.**
**Dilini saxlaya bilməyən**
**İki nəfər isə gülləyə qurban gedəcək.**

Katrendə söhbət, bizcə, keçmiş Sovet məkanında Lenin və xüsusən də Stalinin törətdikləri ağlasığmaz qəddarlıqlardan, qanlı hadisələrdən gedir. O dövrdə milyonlarla adamın, bütöv kəndlərin, obaların, kiçik xalqların, bütövlükdə ziyalıların həbs düşərgələrinə göndərilməsi, sürgün edilməsi və orada məhv edilməsi yazılmamış qanun halını almışdı. Bəs dilini saxlaya bilməyən o iki nəfər kimdir ki, onlardan Nostradamus söz açır? Bizcə, bu iki nəfər bolşevik rəhbərləri arasında öz natiqliyi ilə ad çıxarmış S.M.Kirov və L.D.Trotskidir. S.Kirov Leninqradda, L.Trotski uzaq Meksikada güllə ilə qətlə yetiriliblər. Görün vəziyyət nə yerə çatmışdı ki, Stalinin vaxtında, hətta SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.İ.Kalinin (1938-1946), 1941-1949, 1953-1957-ci illər arası SSRİ Xarici İşlər naziri kimi çox yüksək vəzifə tutan V.M.Molotov (əsl familiyası Skryabin) kimi dövlət xadimlərinin arvadları belə, hər hansı adi bir sözə görəsə həbsxanalarda çürüyürdülər.

## 1 k60

**İmperator İmperiyanın yaxınlığında doğulacaq.**
**O, öz İmperiyasına baha başa gələcək.**
**Onu əhatə edənlər, onun dediyini deyəcəklər.**
**O, şahzadədən daha çox qəssaba oxşayacaq.**

Bu katrendə Nostradamus İtaliya yaxınlığında, Korsika adalarında dünyaya gələn (1769-ci ildə) Napoleondan danışır. O, doğrudan da öz imperiyasına baha başa gəldi. Kim bilir, bəlkə də 1768-ci ildə Fransa bu adaları İtaliya krallığı Genuyadan satın almasaydı, bu bəlalar onun başına gəlməzdi. Napoleonun hakimiyyətdə olduğu 14 il ərzində onun təqsiri üzündən iki milyondan çox

adam tələf olmuşdu. Əgər nəzərə alsaq ki, o dövrdə dünya əhalisi cəmisi 500 milyona yaxın olub, o vaxt üçün bu çox böyük rəqəm idi (bax: Ned Halley. Nostradamusun görücülüyünün külliyyatı (ingiliscə). Böyük Britaniya, 1999, səh. 209). 1812-ci il Fransa-Rusiya müharibəsində məğlub olub, böyük itkilərlə qayıdarkən Orqonda qadınlar Napoleonun qabağını kəsib Rusiya torpaqlarında əbədi uyuyan oğlanlarını tələb edirdilər. Göz yaşı içində: "Sən cəlladsan, sən qəssabsan" – deyə ona qarğıyırdılar (bax: Максим Генин. Нострадамус. Центурии. Харьков, 1991, səh. 59). O dövrdə ingilis qəzetləri də onu "Fransız qəssabı" adlandırırdılar (bax: Ned Halley, səh.77).

Bu münasibət təsadüfi deyildi. Napoleonun apardığı müharibələr nəticəsində təkcə Fransa 1,5 milyon əsgər itirmişdi.

Nostradamusun bəlkə də acı istehza ilə dediyi: "Onu əhatə edənlər, onun dediyini deyəcəklər" – qənaəti Napoleonun general, admiral rütbəsinə çatdırdığı keçmiş mehtərlər (atabaxanlar), meyxana, aşxana sahibləri idilər.

Napoleonla bağlı bir məsələni də açıqlamaq yerinə düşərdi. Nostradamus kral II Henriyə və oğlu Sezara yazdığı Açıqlamalarda dünyaya üç qaniçən hökmdarın – antixristin gələcəyini göstərmişdir. Maraqlıdır ki, onlardan ikisinin Napoleon Bonapart və Adolf Hitler olacağını o, öz katrenlərində göstərmişdir. Mənə belə gəlir ki, Stalinin gördüyü bəzi yaxşı işləri nəzərə alaraq böyük görücü ondan vaz keçmişdir. Üçüncü Antixristin kim olacağını zaman göstərəcək. Hər halda onun böyük səlahiyyətlərə malik, qüdrətli bir dövlətdən olacağı gözlənilir.

### 1 k61

**Miskin, talesiz Respublika**
**Yeni başçının ucbatından dağılacaq.**
**Sürgün olunanların çox böyük hissəsi (amaslar)**
**İsveçrənin böyük əhəmiyyət kəsb edən müqavilələri**
**Yerinə yetirməsində əngəl olacaq.**

Katrendə işlənən “amas” sözü ilk olaraq göz önünə “Həmas” təşkilatını gətirir. Deməli, bu katrendə söhbət Fələstin dövlətindən gedir. Dövlətin başçısı Yasir Ərəfatın bir siyasətçi kimi cılızlığı da neçə illərdir diqqəti çəkmişdir. “Həmas” təşkilatı isə doğrudan da, İsrail-Fələstin sülh münasibətlərinə həmişə əngəl törədib və indi də törətməkdədir. İsveçrədə başlayan sülh danışıqları reallaşmağa doğru gedəndə 2001-ci ilin oktyabr ayında həmasçılar İsrail nazirini qətlə yetirdilər.

İki ölkə arasında ABŞ-ın köməyi ilə münasibətlər düzəlmək üzrə olanda həmasçılar İsraildə 2001-ci ilin dekabrında dalbadal terror aktları həyata keçirdilər. İsrail təpədən-dırnağa silahlanmış ordusunu Fələstinə yeridərək, demək olar ki, ölkəni zəbt etdi. Eyni hadisə 2006-cı ildə təkrar olundu. Bu dəfə Livan da darmadağın olundu.

Burada insanı təəccübləndirən bir cəhət də diqqəti cəlb edir. Dünyanın böyük dövlətləri bu hadisəni sükutla qarşıladılar. Belə olan halda, istər-istəməz düşünməli olursan ki, bəlkə də həmin terror aktlarını İsrailin niyyətini yerinə yetirmək üçün həyata keçirən başqa qüvvələrdir.

### 1 k62

**Təəssüf, itkilər böyükdür, bu bir dərs olacaq,**
**Ay böyük zaman siklini hələ başa vurmamış.**
**Nadan hökmdarlar dünyanı oda yaxacaqlar, daşqınlar olacaq.**
**Ay uzun müddət öz əvvəlki vəziyyətini bərpa edə bilməyəcək.**

Tədqiqatçılar bu katren haqqında tutarlı, ağlabatan bir söz deməyiblər. Halbuki, burada hər şey gün kimi aydındır. Əvvəlki katrenlərin təhlilindən göründüyü kimi (1 k25, 1 k48), Böyük Ay zaman sikli 354 il 4 aydan ibarətdir. Böyük Ay zaman sikli 1534-cü ildə başlayıb və 1889-cu ildə sona yetib. Böyük Ay zaman sikli ərzində viranedici müharibələr çox olmuşdur. Təkcə Napoleon Bonapartın dünyanı oda yaxdığını, onun apardığı qanlı müharibələr vaxtı iki milyondan çox adamın öldüyünü yada salmaq kifayətdir. Bir çox

dövlətlər arasında müharibələr ara vermədən gedirdi. Bunların arasında İngiltərə, İtaliya, İspaniya, Rusiya, Fransa, Almaniya, Türkiyə xüsusilə fərqlənirdi. Katrenin 4-cü sətrində Osmanlı İmperiyasından, onun zəifləyəcəyindən bəhs olunur. Əslində Nostradamusun dediyi kimi də olub, XIX əsrdə zəifləməyə başlayan bu qüdrətli imperiya XX əsrin əvvəlində süquta uğrayıb. Maraqlıdır ki, bu katrendə Nostradamus Ayla bağlı söz oynadaraq, iki böyük məsələdən bəhs edib. 4-cü sətirdən göründüyü kimi, söhbət Türkiyədən gedir.

### 1 k63

**Yolxucu xəstəliklər keçib getdi. Dünya insana dar gəlir.**
**Uzun müddət insan yaşayan torpaqlarda sülh olacaq.**
**Havada, quruda, dənizdə dalğalar qoynunda qorxusuz dolaşmaq mümkün olacaq.**
**Daha sonra isə müharibələr yenidən qızışacaq.**

II Dünya müharibəsindən sonra tibbin və texnikanın sıçrayışlı inkişafı nəticəsində bir çox xəstəliklər yoxa çıxdı ("Yoluxucu xəstəliklər keçib getdi"). Yeni dövr başladı. Zaman dəyişdi. Səsdən iti sürət erası başladı. Dünya insana dar gəldi. İnsanın nəzərləri səmaya dikildi. Qitələrarası raketlər meydana gəldi. İnsan Aya uçdu. Nostradamusun göstərdiyi kimi, havada, quruda, dənizdə dalğalar qoynunda qorxusuz dolaşmaq mümkün oldu. Təkcə onu demək kifayətdir ki, 1995-ci ildə təyyarələrlə 1 milyard 300 milyon sərnişin dünyanın müxtəlif guşələrinə uçmuşdur.

Dünyanın ən böyük möcüzələrindən biri – kompyuter ildırım sürəti ilə xalqların məişətinə daxil olmuş, texnikanın inkişafına ağlasığmaz təkan vermişdir. Nüvə silahı meydana gəldikdən sonra qüdrətli dövlətlər biri-birindən çəkinməyə başlamışlar. Bu, III Dünya müharibəsi təhlükəsini xeyli azaltmışdır. Lakin Nostradamusun göstərdiyi: "Daha sonra isə müharibələr yenidən qızışacaq" fikri yerini almağa başlayıb. Son vaxtlar qüdrətli dövlətlər arasındakı çəkişmələr döyüş meydanından onların əli ilə "Dünyanın 3-cü

ölkələri" adlandırılan dövlətlərin ərazilərinə keçirilmişdir. Vyetnam müharibəsi, İsrail-Ərəb, İran-İraq, İraq-Küveyt müharibələri, ABŞ başda olmaqla, Qərb ölkələrinin "Səhrada tufan" adı altında İraqa qarşı apardığı müharibə. ABŞ və İngiltərənin İraqa qarşı 2003-cü ilin mart ayında yenidən müharibəyə başlaması və oranı zəbt etməsi, Çeçenistan, Abxaziya, Qarabağ, Balkan müharibələri. 2001-ci ilin oktyabr ayında ABŞ və müttəfiqlərinin Əfqanıstanda başladığı müharibə mülki insanların qırğınına gətirib çıxardı. Müharibə davam edir və onun başqa ölkələrə keçmək təhlükəsi böyükdür. Bütün bunları 450 il bundan öncə Nostradamus tam dəqiqliyi ilə bəyan etmişdi.

**1 k64**

**Camaat yarı insan, yarı donuza bənzər məxluqu görəndə,**
**Düşünəcəklər ki, gecə vaxtı Günəşi görüblər.**
**Səs-küy, mahnı sədaları, səmada döyüş.**
**Qana həris heyvanların da səsi eşidiləcək.**

Bu katrendə də bizim zəmanəmizdən bəhs edilir. Şübhə yoxdur ki, Nostradamus oksigen maskası geymiş təyyarəçilərin döyüşünü öncədən görmüş, danışıqlarını, mahnı sədalarını eşitmişdir. Kim bilir, bəlkə böyük görücü bunu II Dünya müharibəsində, Vyetnam və ya Koreya səmalarında, qədim İraq torpağında, Sinay yarımadasında, Balkan göylərində, Əfqanıstanda, Çeçenistanda, Qarabağda, Abxaziyada və s. yerlərdə görmüşdür. Həqiqət odur ki, bu katrenlə bağlı XVI əsr insanlarının təsəvvürü belə olmadığı hadisələr zəmanəmizdə baş verir.

**1 k65**

**Əlində hakimiyyət olmayan uşaqlar belə güclü qəzəbi heç vaxt görməmişlər.**
**Kralın oğlu (vəliəhd) intiqam oyununda yaralandı.**
**Çat-çat olmuş zirvədə ildırımın çaxması zərbəyə çevrildi.**
**Zəncirlənmiş üç nəfər ortadadır (göz qabağındadır).**

Con Houq göstərir ki, bu katrendə Fransa burjua inqilabı zamanı (1789) Burbonlar hakimiyyətinə son qoymaq üçün törədilən cinayətdən söhbət açılır. Kral XVI Lüdovik və kraliça Mariya Antuanetta vəliəhd XVII Lüdoviklə Parisdən qaçarkən tutulurlar. Tampl həbsxanasında vəliəhd XVII Lüdoviki valideynlərindən ayırır, qəyyumluğunu əzazil və alçaq adam kimi tanınan Simon "Başmaqçıya" (pinəçi) həvalə edirlər. Kral XVI Lüdovik və kraliça edam edildikdən sonra Simona göstəriş verirlər ki, vəliəhdə işgəncə verərək axırına çıxsın. Uzun çəkən işgəncələrdən sonra günahsız uşaq 1795-ci ildə ölür.

Katrenin son misrası kral, kraliça və vəliəhdin tutulmasından bəhs edir.

Bu, Con Houqun fikridir. Başqa tədqiqatçılar Nostradamusa arxalanaraq qeyd edirlər ki, parlamentin üzvü olsa da, pinəçi olan Simon çox rəhmli adam olub və arvadı vasitəsilə vəliəhdin qaçırılmasına şərait yaradıb (bax: 2 k52, 2 k58, 6 k52, 9 k24). Bu katrenlərdən görünür ki, şahzadə öldürülməyib. Həmin katrenlərə verdiyimiz şərhlərdə tarixçi, astroloq və tədqiqatçıların dedikləri də bizim dediklərimizi təsdiqləyir.

Mişel Cordan isə katreni zəmanəmizlə bağlayır. "Zəncirlənmiş üç nəfər ortadadır" qənaəti tədqiqatçının fikrincə Kennedi qardaşlarına aiddir. Məlumdur ki, Cozef II Dünya müharibəsində, Con və Robert Kennedi isə vəzifə başında öldürülüblər. Bu, ildırım çaxmağı ilə müqayisə edilən odlu silahla yerinə yetirilib. 4-cü sətir deyilənləri təsdiq edir. Kiçik qardaş Edvard Kennedi prezident olmaq fikrindən daşındığına görə salamat qaldı. Əgər Edvard prezident olsaydı, səlahiyyətlərindən istifadə edib qardaşlarının qatillərini üzə çıxaracaqdı. Tədqiqatçının Kennedi qardaşları ilə bağlı dedikləri ilə mübahisə etmək olardı. Lakin başqa sətirlərdə deyilənlər vaxt etibarı ilə uyğun gəldiyinə görə ağlabatandır. Məsələ burasındadır ki, 1960-cı ildə "William S.Merrel" əczaçılıq şirkəti – Kavadon əmtəə nişanı ilə buraxdığı dərmanı qeydiyyat-

dan keçirmək üçün Amerikanın "Ərzaq və dərman" idarəsinə müraciət etmişdi. Bu dərman 1959-cu ildən Avropanın 48 ölkəsində artıq satışda idi. Lakin elə həmin il (1960) Qərbi Almaniyada hamiləlik dövründə dərman qəbul etmiş 12 ananın əlsiz və ya başqa bədən üzvü olmayan uşaqları doğuldu. "Thalidomide" adını alan bu dərman satışdan götürüldüyü 1962-ci ilə qədər 10-12 min əlsiz-ayaqsız uşaq doğulmuşdu.

Cordan adının çəkilməsi münasib bilinməyən çox nüfuzlu bir ailədə də belə bir uşağın doğulduğunu qeyd edir. Bəlkə elə 2-ci sətirdə bu məsələdən bəhs edilir. XVI əsrdə yaşayan bir ziyalının belə bir dəhşəti görməsi ildırım zərbəsinə bənzər bir şeydir.

## 1 k66

**Bu xəbəri sonralar gətirən adamın**
**Tezliklə nəfəsi kəsiləcəkdir.**
**Vivye, Turnon, Monferan və Pradelini**
**Dolu və tufan yaman günə qoyacaq.**

Adı çəkilən şəhərlərin hamısı Fransadadır. Odur ki, katrendə söhbət açılan hadisələrin Fransada cərəyan etdiyi şübhə doğurmur. İndiyə kimi tədqiqatçılar bu katreni aça bilməyiblər. Doğrudur, bəziləri bu katrenin Fransa inqilabından (1789) bəhs etdiyini qeyd edirlər.

## 1 k67

**Böyük aclığın yaxınlaşdığını mən hiss edirəm.**
**Əvvəlcə orda-burda baş verəcək, sonra bütün dünyanı bürüyəcək.**
**Bu aclıq böyük ərazilərdə olacaq və çox uzun sürəcək.**
**Nəticədə insanlar ağacların kökünü yeyəcək, körpələri ana südündən (döşdən) ayıracaqlar.**

Nostradamusun ürək ağrısı ilə söz açdığı "bütün dünyanı bürüyəcək" aclıq yəqin ki, XXI əsrdə olacaqdır. Hesablamaya görə 2020-ci ildə Yer kürəsinin əhalisi 8, 2050-ci ildə isə 14 milyardı keçəcəkdir. İndi hər gün 250-300 min uşaq doğulur. Lakin əkin üçün yararlı torpaqlar məhv olur. Ardı-arası kəsilməyən müharibələr nəticəsində ekologiya pozulur. Bütün bunlar Nostradamusun dediklərinin həqiqətə çevriləcəyindən xəbər verir. İndinin özündə Afrikada aclıq tüğyan edir. Əgər artım belə getsə, 2020-2030-cu illərdən sonra dünyanın taxıl istehsalı təkcə Çinin əhalisinə bəs edəcək miqdarda olacaqdır.

### 1 k68

**Oh, necə dəhşətli əzab-əziyyət!**
**Üç nəfər günahsızı azad etməyə (qurtarmağa) gələcəklər.**
**Zəhər verilməsi şübhə doğurur, iyrənc xəyanət qüvvədə qalır.**
**Sərxoş cəlladları dəhşət çulğalayıb.**



*Qış sarayının alınması (1917)*

Katrendə söhbət 1918-ci ilin 17 iyulunda, gecədən xeyli keçmiş Sibirin Yekaterinburq şəhərində Qırmızı qvardiyaçıların çar Nikolay Romanovun və ailəsinin başına gətirdikləri müsibətdən gedir. 1-ci və 2-ci sətirlərdə göstərilən dəhşətli hadisə çarın üç qızının başına gəlib (bax: 4 k71). Gecəyarısı çarı və ailəsini zirzəmidə güllələ-

yəndə hamı ölsə də, çarın üç qızı ölümcül olsalar da, sağ qalmışdılar. Qırmızı qvardiyaçılar onları cidalamaya başlayanda cidalar onların bədəninə yaxşı girmirmiş. Məlum olur ki, onların alt paltarı boyu brilyant, inci və eləcə də çar Nikolayın təsviri həkk olunmuş, indi də bütün dünyada məşhur olan qızıl pullar tikilibmiş və bu, zirehli jilet rolunu oynayıb. Görücünün işarə etdiyi əzab-əziyyətli, dəhşətli ölüm bununla bağlı imiş. Bu bir faktdır ki, çar və ailəsi qətlə yetirilən ana qədər güllələnəcəklərindən xəbərləri olmayıb. Çarı və ailəsini qətlə yetirəcək əsgərlər isə qorxmamaq və cəsarətə gəlmək üçün içki içib sərxoş olublarmış.

Onu da qeyd edək ki, ağlar böyük qüvvə ilə Yekaterinburqa, çar ailəsini xilas etməyə gəlirlərmiş. Qırmızılar bundan xəbər tutaraq öz çirkin əməllərini xəlvəti və tələsik yerinə yetiriblər.

## 1 k69

**Yeddi stadi dairəsi olan böyük dağ**
**Sülh, müharibə, aclıq və daşqından sonra uçacaq.**
**Zərbə uzaqlara da təsir edəcək. Böyük əraziləri dağıdacaq.**
**Möhkəm əsas üzərində qurulmuş qədim abidələri belə.**

Birinci sətirdə yer alan “stadi” ölçü vahididir.

Bir stadi 150-190 metrə bərabər uzunluq ölçüsü vahididir. Deməli, bu sətirdə söhbət təqribən 1050-1190 metr dairəsi olan böyük bir kütlədən gedir. Tədqiqatçılar bunun Günəş ətrafında Marsla Yupiter orbitləri arasında dövr edən asteroid olduğunu göstərirlər. İldən-ilə asteroidin orbiti Yer kürəsinə yaxınlaşır və 30 il ərzində hər 13 aydan bir yerə düşmə ehtimalı vardır. Əgər həmin asteroid planetimizə düşsə, güclü zərbə və partlayışdan sonra 75 km dairədə alov hər yanı bürüyəcək və əhatəsində nə varsa hər şeyi bir anda məhv edəcəkdir. Bu sətirlərin müəllifinin 1983-cü ildə iki ay müddətində dilçilik və ədəbiyyatla məşğul olduğu Arizona ştatının Tyuson şəhərində yerləşən “Planetlər Elmi-Tədqiqat İnstitutu”nun nümayəndəsi Klark Çepmən müşahidələr nə-

ticəsində bu qənaətə gəlmişdir ki, heç vaxt, heç bir kometa və ya asteroid Yer kürəsinə belə yaxın məsafədən uçmamışdır. Onu da deyək ki, asteroid planetimizdən 450.000 mil (575.000 km) aralı uçmuşdur ki, bu da kosmik ölçü baxımından son dərəcə kiçik (mikroskopik) bir məsafə hesab olunur. Ned Halley qeyd edir ki, riyazi hesablamalar göstərir ki, Yer kürəsinin belə bir asteroidlə toqquşması ehtimalı vardır. Bu nə vaxtsa baş verə bilər.

**1 k70**

**İranda yağış, aclıq, müharibə ara verməyəcək.**
**Hökmdarın böyük inamı ona qarşı xəyanətlə nəticələnəcək.**
**Şahın taleyi Fransada cızılan planla həll olunub.**
**Gizli bir işarə hər şeyi yumşaqlıqla həll edəcək.**



***İran şahı Məhəmməd Rza Pəhləvi (1979)***



***Ayətulla Xomeyni (1979)***

Nostradamusun bir neçə əsr öncə gördüyü və İranla bağlı olan hadisələr də yüzdə yüz yerinə yetib.

Birinci sətirdə deyilənlər aydındır. İkinci sətirdə göstərilən və şahın həddən artıq böyük inam göstərdiyi ölkə ABŞ idi. Məsələnin məğzini dərk etmək üçün tarixə ekskurs etmək lazımdır. 1963-cü il hadisələrini göz qabağına gətirək. Həmin il Ayətulla Xomeyni şaha qarşı güclü iğtişaşlar təşkil etdi. Buna görə də ölkədən qovuldu. 15 il İraqda qalan Xomeyni 1978-ci ildə İraqdan çıxarıldıqdan sonra Parisə getdi. Qərb ölkələrinin, əsasən də Fransanın xüsusi xidmət orqanlarının köməyi ilə İranda baş verən inqilab xarakterli iğtişaşlara rəhbərlik etdi[1]. İran şahı Rza Pəhləvi özündən də çox inandığı ABŞ-a müraciət etdi. Lakin prezident C.Karter və

[1] Maykl Cordan. Nostradamus və yeni minillik (ingiliscə). Dubay, 1988, səh. 85.

Milli Təhlükəsizlik orqanları şahın xahişinə məhəl qoymadılar. Şah qan tökmək istəməyərək 16 yanvar 1979-cu ildə könüllü olaraq İranı tərk etdi və Misirə getdi. 27 iyun 1980-ci ildə orada dünyasını dəyişdi. İranda dini dövlət quruldu. Qərb tədqiqatçıları yazırlar ki, 1979-cu ildən bu yana İranda texniki tərəqqi və əhalinin mədəni səviyyəsi get-gedə aşağı düşür. Kim bilir, bəlkə də bu, Qərb dövlətlərinin çoxdankı arzusu imiş. Qəribədir ki, bəzi Qərb tədqiqatçıları bəzən gün kimi aydın həqiqətləri də görmürlər. Söhbətin İrandan getdiyi, birinci sətirdə "Persiya" (İran) sözü yazıldığı halda, Ned Halley bu katreni 1789-cu ildə baş vermiş Fransa inqilabına aid edir (ətraflı məlumat üçün bax: 10 k21).

## 1 k71

**Dəniz qalası (bürc) üç dəfə ispanlar, barbarlar və liqürlər**
**tərəfindən tutulacaq və üç dəfə də geri alınacaq.**
**Marsel, Eks və Arl-Pizdən olanlar, Avinon isə**
**Turinlilər tərəfindən gülləbaran, darmadağın və talan ediləcək.**

Katrenin ilk iki sətrində ispanların hansısa dəniz qalasını almasından söhbət gedir. Lakin sonrakı sətirlərdə Fransanın adı çəkilən şəhərlərinin II Dünya müharibəsi zamanı italyanlar tərəfindən tutulmasından danışılır.

1942-ci ilin noyabrında Avinon, Eks və Arl şəhərləri tutulmuşdu. 1944-cü ilin avqustunda Eks, Arl, xüsusən də Marsel küçə döyüşləri nəticəsində yenidən darmadağın edildi, lakin almanlar bu yerlərdən birdəfəlik çıxarıldılar.

## 1 k72

**Marselin sakinləri tamamilə dəyişilmişlər.**
**Qaçanlar Lionun lap kənarına qədər təqibə məruz qalacaqlar.**
**Narbon və Tuluza Bordo tərəfindən təhqir olunacaq.**
**Bir milyona qədər ölən və əsir düşən olacaq.**

Tədqiqatçılar göstərirlər ki, 1940-cı ildə Fransa hökuməti ölkənin paytaxtı Parisi alman tanklarının tapdağı altında qoyaraq Bordo şəhərinə qaçmışdı.

"Təhqir olunmuş şəhərlər" sonralar xalqın nifrət etdiyi oyuncaq "Vişi" hökumətinə tabe edildi. Nostradamus doğma Provans şəhərlərinin (o, Provans vilayətinin Sen-Remi şəhərində doğulub) düşmən tapdağında olacağından ürək ağrısı ilə yazır. Lakin göstərir ki, ağır günün ömrü az olar. 1944-cü ildə Provansda "Azad Fransa" dəstələri "Draqun" əməliyyatına başladılar və almanları 1-ci və 2-ci sətirlərdə göstərildiyi kimi, nəinki Marseldən çıxartdılar, hətta onları Lion şəhərinə qədər təqib etdilər. Son sətrə diqqət yetirin: "Bir milyona qədər ölən və əsir düşən olacaq". Rəsmi statistikaya görə II Dünya müharibəsində Fransanın itkisi 863 min nəfərdən çox olmuşdur.

## 1 k73

**Etinasızlığına görə Fransaya beş tərəfdən həmlə ediləcək.**
**Farslar Tunis və Əlcəzairi qiyama, fitnəyə təhrik edəcək.**
**Leon, Sevilya, Barselona təslim olacaqlar.**
**Venesiyalılar onlara hərbi-dəniz qüvvələri göndərməyəcəklər.**

Tədqiqatçılar bu katreni şərh etməkdə çətinlik çəkirlər. Doğrudur, 1557-ci ildə II Henri Sen-Kanten yaxınlığında ağır məğlubiyyətə düçar olandan sonra Fransaya beş tərəfdən həmlə olub. Bir tərəfdən Savoya, İspaniya Niderlandiyası və Pireney dağları istiqamətindən, başqa bir tərəfdən də İspaniya dəniz donanması Fransanı qərb sahillərindən sıxışdırmışdı. Onları Kale yaxınlığında İspaniyanın müttəfiqi ingilislər gözləyirdilər. Başqa bir tərəfdən də italyanlar hücuma keçmişdilər.

## 1 k74

**Onlar Epirə doğru irəliləyəcəklər.**
**Antioxaya kömək üçün böyük qüvvə göndəriləcək.**
**Qara, qıvrımsaç İmperiya (əslində Avropa) üçün əngəl olacaq.**
**Həyasız kosasaqqal Barb manqalda bişiriləcək.**

Katren II Dünya müharibəsi dövründə baş verən hadisələrdən bəhs edir. 1940-1941-ci illərdə İtaliya ordu hissələri Adriatik dənizini keçərək Albaniyanı tutmaq qərarına gəldilər. Sonra isə Qərbi Yunanıstana – Epirə zərbə endirdilər.

"Azad Fransa" ordu hissələri Britaniya silahlı qüvvələri ilə birgə uğurlu hücum əməliyyatı keçirərək o vaxt "Vişi" hökumətinə tabe olan Suriyanı tutdular.

Antioxaya Suriyanın şimal-qərbində, Türkiyə sərhədinə yaxın bir yerdədir.

Katrenin 3-cü sətri, bizim fikrimizcə, Stalinə aiddir. Stalin doğrudan da, Avropa üçün ağır yükə – əngələ çevrilmişdi.

Dördüncü sətirdə söhbət Hitlerdən gedir. Məsələ burasındadır ki, Hitlerin pərəstiş etdiyi adam orta əsr hökmdarı I Fridrix Barbarossa olub. Nostradamus "Həyasız kosasaqqal Barb" ifadəsini bu münasibətlə işlətmişdir. O ki qaldı "Həyasız kosasaqqal Barb manqalda bişiriləcəkdir" sətrinə, demək lazımdır ki, bəzi tədqiqatçıların fikrincə Hitler özünü öldürdükdən sonra onun meyitini bunkerin yanında – çalada yandırıblar. Əgər bu doğrudan da belədirsə, Nostradamusa "afərin!" deməkdən başqa bir söz qalmır.

Başqa bir tərəfdən də KQB-nin məxfi arxivində saxlanan I-G-23 saylı qovluqdakı materiallara əsasən demək olar ki, Hitlerin meyiti krematoridə yandırılaraq 1970-ci ilə qədər gizli qəbiristan - da saxlanılırmış. Bu halda da Nostradamusun bəyan etdikləri yeri - ni almışdır (bax: 3 k58).

## 1 k75

**Siyena Tiranı Savonu tutacaq.**
**Tutulmuş qala dəniz qüvvələrinin qarşısını alacaq.**
**Hər iki ordu Ankonun bayrağı altında olacaq.**
**Qorxudan başçı özünü itirəcək.**

Yuxarıda dediyimiz kimi, Nostradamus özünün sağlığında baş verəcək hadisələrdən də söz açmışdır. Katrendə 1550-ci ildə Fransa-İtaliya qarşıdurmasından danışılır. O vaxt Siyena şəhəri sərbəst idi. Əlaltından florensiyalılara qarşı Fransa ilə müttəfiqlik edirdi. II Henri bundan istifadə edib Siyena müstəbidi ilə birgə Savonu tutmuşdu. Lakin Ankonlu florensiyalılar Roma Papasının bayrağı altında, Papanın qoşun hissələri ilə birgə Siyenanı mühasirə etdilər (1555).

Fransa qarnizonunun komandanı qorxudan özünü itirdi və təslim oldu.

## 1 k76

**Kimsə, çox qorxunc bir adla elan olunacaq.**
**Və hər üç bacısı taledən gələn qismət kimi onun adını daşıyacaq.**
**Sonra o, böyük xalqla dil tapacaq.**
**Onun qədər heç kimin ad-sanı, şan-şöhrəti olmayacaq.**

Bu katren Napoleon Bonapartdan bəhs edir.

Nostradamusun katrenlərinin məhşur şərhçilərindən biri Le Pelletye 1860-cı ildə Vandom Sarayında gəzərkən birdən gözü Napoleonun şərəfinə ucaldılmış sütunun üstündəki yazıya sataşır: "Neapolio i mp. Ang." Evrika! Nostradamusun söz açdığı adamın şəxsiyyətini ilk olaraq Le Pelletye təyin etdi. Bu Napoleon idi. "Napoleon" yunan dilində "neapolleun" – "dağıdıcı", "məhvedici kimsə" mənasını verir.

Napoleonun hər üç bacısı – Karolina, Paulina və Eliza bəxt, qismət kimi həqiqətən də onun adını daşıyıblar.

## 1 k77

**İki dəniz arasında hündür bir burun (çıxıntı) var.**
**Bir nəfər at yüyəni ilə boğulub öldürüləcək.**
**Öz adamı xatirinə Neptun (dəniz Allahı) qara yelkəni qaldıracaq.**
**Cəbəlüttariqdən keçərək Roşvalın yaxınlığında lövbər salacaq.**

Bu katrendə 1-ci sətirdən başqa yerdə qalan bütün sətirlərin yeri qarışıq düşüb. Ardıcıllıq pozulub. 1-ci sətirdə söhbət Atlantik okeanı və Aralıq dənizi arasında yerləşən Cəbəlüttariq dağından gedir. Başqa sətirlərdə yer alan hadisələri ardıcıllıqla danışanda hər şey məlum olur. Özündən 250 il sonra baş verəcək hadisələri, hətta öldürüləcək şəxsin at yüyəni ilə boğulacağını Nostradamusun dəqiq görməsi adamı sözün yaxşı mənasında dəhşətə gətirir. Hadisələr 1805-ci ildə cərəyan etmişdir.

Britaniya donanması əfsanəvi lord Nelsonun komandanlığı altında Roşval burnu ilə Cəbəlüttariq arasında yerləşən Trafalqar burnu yanında qanlı döyüşdə Fransa və İspaniyanın birləşmiş hərbi-dəniz donanmasını darmadağın etdi. Fransız admiralı Villenev əsir edildi. Bu məğlubiyyətdən sonra Napoleon dənizdə bütün gücünü itirdi. Əslində bu döyüş Napoleonun gələcək taleyini həll etdi. Lakin qələbə ingilislərə də asan başa gəlmədi. Bu qələbə uğrunda döyüşlərdə Nelson həlak oldu. Neptunun (vaxtilə İngiltərə və Osmanlı İmperiyaları qüdrətli dəniz donanmalarına görə "dəniz Allahı" adını almışdılar) "Qələbə" – "Vistory" flaqman gəmisi ölkəyə qara yelkənlə döndü.

Fransa bəxti gətirməyən admiral Villenevi başqa bir əsirlə dəyişdi. Napoleon uğursuzluğun günahını onda görüb və cangüdənlərindən birinə xəlvəti göstəriş verib ki, admiralı aradan götürsün. Bəxtsiz Villenev at yüyəni (qantarğa) ilə boğulub öldürülüb.

Ned Halley belə bir fikir irəli sürür ki, o, Napoleonla qarşılaşmaqdan çəkinərək atının yüyəni ilə özünü asıb (bax: Ned Halley. səh.105). Qəribədir ki, hər iki halda Nostradamusun dediyi təsdiqlənir. Ölüm at yüyəni vasitəsilə yerinə yetirilib.

## 1 k78

**Qoca başçının küt, korazehin, lakin qoluzorlu,**
**Elmdən və hərbi məsələlərdən başı çıxmayan uşağı doğulacaq.**
**Fransanın hökmdarı öz bacısından qorxacaq,**
**Çöllər atlı əsgərlərin ixtiyarına veriləcək.**

Katrendə XVII əsrin sonlarına yaxın Fransada katoliklərlə hugenotlar (pravoslavlar) arasında gedən mübarizədən bəhs olunur. 1-ci, 2-ci və 3-cü sətirlər kral II Henrinin oğlu IX Karldan bəhs edir. IX Karl kral olandan sonra belə, bacısı Marqaritadan qorxurdu.

Marqarita fizioloji cəhətlərinə görə rus çariçası II Yekaterinaya bənzəyirdi (bax: 1 k10).

Kral IX Karl 1572-ci ilin avqustunda Marqarita ilə hugenot Navarralı Henrinin toyuna bütün ölkədən hugenotların başçılarını dəvət edilərək qətlə yetirilmələrinə icazə verməklə ölkədaxili çəkişmələrin daha da artmasına zəmin yaratdı. Sonuncu sətir sayı doqquza çatan dini müharibələri təsvir edir. Ərazilər gah katoliklərin, gah da pravoslavların əlinə keçirdi. Bu müharibələrdə atlı süvarilər əsas rol oynayırdılar.

## 1 k79

**Bazaz, Lestor, Kondon, Oş, Ajin**
**Qanun və monopoliya ucbatından hüquqdan məhrum edilmişlər.**
**Cöngəni qurban kəsmək adətini bərpa etmək arzusu ilə**
**Bordo, Tuluza və Bayı bərbad edəcək.**

Bütün adı çəkilən şəhərlər, Bay istisna olmaqla Fransanın cənub-qərbində Qarona çayı üzərindədir.

Tədqiqatçılar bu katren haqda da qəti söz deyə bilmirlər. Lakin axırıncı sətirlə bağlı belə bir fikir söyləmək olar ki, XX əsrin 90-cı illərində Avropa Birliyinə daxil olan ölkələrdə kənd təsərrüfatı məhsulları ilə bağlı qəribə hallar baş verirdi. Bu sətirlərin müəllifi dəfələrlə müşahidə edib ki, yüzlərlə ton mandarin, portağal və başqa kənd təsərrüfatı məhsulları xüsusi hazırlanmış xəndəklərə tökülür və buldozerlərlə məhv edilirdi. Bu səbəbdən Fransada Avropa ölkələri birliyindən çıxmaq və köhnə qayda-qanuna qayıtmaq məqsədi güdən ciddi iğtişaşlar olurdu. Günlərlə fermerlər magistral yolları kəsirdilər. Ola bilsin ki, üçüncü sətir: “Cöngəni

qurban kəsmək adətini bərpa etmək arzusu ilə" – bu məsələdən bəhs edir. Mənə qalırsa, elə 2-ci sətir də bununla bağlıdır. Qanun və monopoliya məsələsi fermerləri istədikləri kimi hərəkət etməkdən və malı istədikləri şirkətlərə, istədikləri qiymətə satmaqdan məhrum etmişdi.

### 1 k80

**Altı səma parıltısından sonra**
**Burqundiyada güclü ildırım çaxacaq.**
**Sonra heybətli bir heyvanın törəyəcəyinin əlaməti görünəcək.**
**Mart, aprel, may, iyun aylarında böyük yaralar sarınacaq, başlar kəsiləcək.**

Katrendə II Dünya müharibəsi zamanı Burqundiyada gedən qanlı döyüşlərdən bəhs olunur. "Güclü ildırım çaxacaq" ifadəsi mütəxəssislərin fikrincə "güclü top atışması olacaq" deməkdir. 1944-cü ilin sentyabrında 19-cu alman ordusu geri çəkilərkən döyüş vaxtı Burqundiya böyük miqyaslı top atəşlərindən xarabazara çevrilmişdi. Son sətir çox güman ki, II Dünya müharibəsinin sona yetməsindən bəhs edir.

3-cü sətirdə isə söhbət, şübhə yoxdur ki, atom bombasından gedir.

### 1 k81

**Doqquz nəfərdən ibarət dəstə insanlardan ayrı düşəcək.**
**Mühakimə və məsləhətlər qulaqardına vurulduğundan**
**Onların taleyi irəlicədən, yola salınandan öncə həll olunub.**
**Karra, Thita, Lambda kənarlaşdırılacaq. Onlar qovulacaq, pərən-pərən salınacaqlar.**

1961-ci ildə Amerika alimi, Nostradamusun görkəmli tədqiqatçılarından biri – Edqar Leoni bu katrenin kosmosla bağlı olduğu

fikrini irəli sürdü. Sonralar Sovet kosmonavtları Dobrovolski, Patsayev və Volkov "Soyuz" kosmik gəmisində həlak olanda başqa bir tədqiqatçı, əslən polşalı olan Erika Çitəm latın hərfləri Karra, Thita və Lambdanın kosmonavtların adı, familyası və atasının adının baş hərflərinə uyğun gəldiyini ehtimal edərək katrenin Sovet kosmonavtları ilə bağlı olduğunu söylədi. Vaxt keçdi. 1986-cı ilin 28 yanvarında ABŞ-da "Çelincer" kosmik gəmisi havaya qalxandan bir dəqiqə 11 saniyə sonra partladı. Yeddi kosmonavtın hamısı məhv oldu. Yenidən Nostradamusun bu katreni yada düşdü.

Qeyd etməyə dəyər ki, keçmiş Sovet məkanından başqa, dünyanın hər hansı bir yerində əlamətdar, diqqət çəkən bir hadisə baş verən kimi, tədqiqatçılar Nostradamusun həmin hadisə barədə nə dediyini araşdırırlar. NASA-nın işi uzun müddət yoxlanıldıqdan sonra məlum oldu ki, irəlicədən düzgün qərar qəbul olunmayıbmış. Mühakimə və məsləhətlər qulaqardına vurulubmuş. Nə NASA, nə də raketin bərk yanacağının sürətləndiricisini hazırlayan və istehsal edən



***"Çelincer"in havaya qalxması (1986)***



*"Çelincer"in partlaması*

"Thiokol" şirkətinin nümayəndələri firmanın kiçik mühəndislərinin şübhələrinə məhəl qoymayıblar. Raketin sol bərk yanacaq sürətləndiricisində qazın sızması nəticəsində kosmik gəmi partlamışdır.

Con Houq belə bir ideya irəli sürür ki, Karra, Thita və Lambda raketin bərk yanacaq sürətləndiricisini hazırlayan və istehsal edən "Thiokol" firmasının – anaqrammasıdır (K., Th., L).



***"Çelincer"də həlak olan astronavtlar***

Katrenin son sətrində göstərildiyi kimi, “Thiokol” kosmik proqramların həyata keçirilməsindən kənarlaşdırıldı. Çoxları işdən qovuldu, pərən-pərən salındı. Nostradamus “Çelincer”də doqquz nəfərin olduğunu göstərmişdir. Ola bilsin ki, NASA əvvəlcə doqquz nəfərin uçacağını planlaşdırıbmış. Ola da bilsin ki, böyük görücü səhvə yol verib.

Onu da deyək ki, 2003-cü il fevralın 1-də yeni faciə baş vermişdi. İçində 7 kosmonavt olan “Kolumbia” kosmik gəmisi də partlamış və kosmonavtlar məhv olmuşdular (bax: 9 k65).

## 1 k82

**Ağac sütunlar möhkəm titrəyəndə**
**Cənub küləyi onları qırmızı rəngə boyayacaq.**
**Çoxları qaçıb canını qurtaracaq.**
**Vyana və Avstriya tir-tir əsəcək.**

Bu katren də tədqiqatçılar üçün bir müəmma olaraq qalır. Əksər tədqiqatçılar bu katrenin gələcəkdə baş verəcəyini söyləyirlər.

Lakin inanmaq olmur ki, qırmızı rəngə boyanan ağac sütunlara XXI əsrdə – özü də Vyanada rast gəlmək mümkün olacaq.

Çox güman ki, söhbət Avstriyanın cənub-şərqində olan Türkiyədən gedir. Osmanlı İmperiyası iki dəfə Avstriyanı almağa cəhd etmişdir. İkinci dəfə bu, 1683-cü ildə olmuşdur. Katrenin 1-ci və 2-ci sətirlərində söhbət çoxyaruslu türk hərbi gəmilərinin səs salan, ətrafdakıları lərzəyə gətirən avarlarından gedə bilər.

Nostradamusun yaradıcılığına qırx ildən artıq ömür həsr edən, milliyətcə italiyalı olub fransız təbəəliyini qəbul etmiş, ingilis qadını ilə ailə həyatı quran David Ovason isə heç bir əsas olmadan katrenin Fransa inqilabı zamanı Dr.Gilyotinin (Guillotin) 1789-cu ildə icad etdiyi və Fransa məclisinə (Assambleyasına) təqdim etdiyi və 15 aprel 1792-ci ildə bir cinayətkar üzərində təcrübədən keçirilən başkəsən maşından bəhs etdiyini qeyd edir. Tədqiqatçı

göstərir ki, 1792-ci ilin avqustundan 1793-cu ilin mayına qədər saysız-hesabsız insanların başını bədənindən ayıran gilyotin maşını böyük vahiməyə səbəb olmuşdu. Nəinki fransızlar, hətta 1792-ci ildə Fransanı işğal etmiş prussiyalılar və avstriyalılar da "gilyotin" sözünü eşidəndə qorxuya, vahiməyə düşürlərmiş.

Erika Çitəm isə göstərir ki, katren Avstriya və orada 1918-ci ilin payızında baş verən inqilabi hərəkatla bağlıdır. İnqilabi dəyişikliklər nəticəsində istibdad üsuli-idarəsinə son qoyuldu. Tədqiqatçı göstərir ki, Türkiyə və Balkan dövlətləri bu vaxt Avstriyanı çox narahat edirdi.

## 1 k83

**Yabançılar ələ keçən qəniməti öz aralarında böləcəklər.**
**Saturn Marsda qəzəbli görünəcək.**
**Toskanlarda və Latınlarda dəhşətli qırğın baş verəcək.**
**Yunanlar ehtiyatlı zərbələrlə bu işə qarışacaqlar.**

Katren II Dünya müharibəsindən bəhs edir. 1942-ci il dekabrın 16-da üç Sovet ordu birləşməsi Don çayını keçərək cəbhə xətti boyunca 60 km uzunluğunda bir sahəni tutmuş və səkkizinci italyan ordusuna sarsıdıcı zərbə endirmişdi. 225 min nəfərlik Toskan və Roma ordusundan çoxu öldürülmüş, qalan 60.000 nəfər isə əsir düşmüşdü.

Katrenin son sətrində yunan kommunist partizanlarının əlaqələndirilmiş hərbi əməliyyatlarından söhbət gedir. Yunanların gördüyü faydalı iş nəticəsində 1942-ci il noyabrın 25-də çox vacib Qorqopotamos dəmiryol körpüsü məhv edilmişdi.

## 1 k84

**Kölgəliklərin fonunda Ay zəif işıq saçacaq.**
**Onun qardaşının sifəti paslanmış dəmir rənginə çalacaq.**
**Uzun müddət üzə çıxmayan başçı**
**Tiyəni qanlı yarada saxlayacaq.**

Tədqiqatçılar bu qənaətə gəliblər ki, Nostradamus Fransa krallarının və onların qohumlarının qətlini yüzdə yüz düz göstərmişdir. Həmin sui-qəsdə üç katren həsr olunmuşdur. Bu katrendə görücü hersoq de Berrinin Parisin Opera Teatrı binasının yanında öldürülməsindən bəhs edir. Təəccüb doğuran odur ki, Nostradamus hətta onun ölüm tarixini də dəqiq göstərmişdir – 13 fevral 1820-ci il (bax: 3 k96).

İkinci sətirdə hersoq de Berrinin qardaşı kral XVI Lüdovikdən danışılır. Bilindiyi kimi, Kral XVI Lüdovik 1793-cü ildə edam edilib ("Onun qardaşının sifəti paslanmış dəmir rənginə çalacaq").

Hersoq de Berri Sardiniyanın Fosano şəhərinin başçısı (bələdiyyə başqanı) idi. O, vaxtının çoxunu Fosanoda nənəsinə məxsus sarayda keçirərdi, qardaşı kral XVI Lüdovik edam ediləndən sonra ehtiyat etdiyindən Parisə az gələrdi. Üçüncü sətirdə buna işarə olunur ("Uzun müddət üzə çıxmayan başçı").

Kölgədə pusquda duran Luvel "şikarına" hücum etmək üçün münasib vaxt gözləyirdi. Hersoq arvadına kömək edərək onu faytona mindirəndə Luvel qəflətən cumaraq xəncəri de Berrinin qarnına soxur. Hersoqun xidmətçiləri Luveli tutub kənara çəkərkən de Berri zəif səslə: "Mən ölürəm. Xəncərin tiyəsi əlimdədir" – deyir.

Qəribədir ki, Nostradamus təsvir etdiyi hadisələri xırda detallara qədər görüb: "Tiyəni qanlı yarada saxlayacaqdır" və s.

### 1 k85

**Kral kraliçanın cavabından narahatdır.**
**Elçilər (nümayəndələr) onların həyatına məhəl qoymayacaqlar.**
**Qardaşlardan yaşca böyüyü iki rütbə yüksələcək.**
**Ədavət, kin-küdurət, paxıllıq ucbatından onlardan ikisi öləcək.**

Nostradamus özündən az sonra Fransa kral sarayında baş verəcək çəkişmələrdən, ədavət, həsəd, sui-qəsd, tökülən qanlar və s.

söz açır. Belə ki, 22 dekabr 1588-ci ildə kral III Henrinin əmri ilə cangüdənləri general-leytenant Henri de Gizi öldürürlər. Kral III Henri bu hərəkətinin nə ilə nəticələnəcəyini görə bilmir. Bu barədə anası Yekaterina Mediçiyə xəbər verəndə, kraliça çox pərişan olur. Oğlunun hakimiyyət hərisliyi onu hiddətləndirir: "Oğlum, hər şeyi ölçüb-biçibsənmi? De Gizlər güclü nəsildir. Tərəfdarları və dostları çoxdur" – deyə müəmmalı şəkildə ondan sual edir. III Henri cavab verir ki, lazım olan tədbirlər görülüb. Kraliça Allaha dua oxuyur ki, hər şey yaxşı nəticələnsin. Kral anasının yanından çıxdıqdan sonra fikir dəryasına qərq olur. Kraliçanın müəmmalı sualı onu həqiqətən də narahat edir. Və elə həmin gün əmr edir ki, Henri de Gizin qardaşı kardinal Lui de Giz də öldürülsün. Kardinal Lui de Gizin öldürülməsi ölkədə katolikləri başsız qoymaq, pravoslavlara meydan vermək, Roma katolik kilsəsinə meydan oxumaq demək idi. Oğlunun ağılsız hərəkətinə dözməyən kraliça Yekaterina Mediçi qəzəbdən ağır sarsıntı keçirir və dünyasını dəyişir.

Kral III Henrinin bu açıq-aşkar alçaq hərəkəti ona gətirib çıxardı ki, bütün ölkədə katoliklər də pravoslavlar kimi krala düşmən kəsildilər. Ölkədə iğtişaşlar baş alıb gedirdi. Roma katolik kilsəsi də öz narazılığını gizlətmirdi.

Katrenin son üç sətri kral III Henrinin buraxdığı məşum səhvinin faciəli nəticələrindən bəhs edir. Belə ki, ölkənin inzibati-ərazi bölgüsü üzrə baş nümayəndələri kral III Henrinin pis əməlinə görə onu suçladılar və sağ qalan Şarl de Gizə – hersoq de Mayenə tərəf çıxdılar. Hersoq de Mayenə qardaşlarının malik olduğu hər iki rütbə verildi. Beləliklə, Fransanın general-leytenantı və katolik cəmiyyətinin başçısı kardinal Şarl de Giz oldu. Kral III Henri isə o biri ildə (1589) öldürüldü. Ədavət, kin-küdurət, paxıllıq, həsəd beləcə nəticələndi. Nostradamusun göstərdikləri tamamilə yerinə yetdi.

### 1 k86

**Böyük kraliça özünün məğlub edildiyini görəndə**
**Cəsarətdə kişiləri ötüb-keçəcək.**
**Lüt-üryan at belində çayı keçəcək.**
**Silahlılar tərəfindən təqib olunanda məzhəbinə asi olacaq.**

Bu katren Nostradamusun zamanından, Şotlandiyada Stüartlar sülaləsinə mənsub kraliça Mariya Stüartdan bəhs edir. Mariya 1558-ci ildə kral II Henrinin oğlu II Fransiskə ərə gedir. 1559-cu ilin iyul ayında kral II Henri faciəli şəkildə öləndən sonra (1 k35) II Fransisk Fransanın kralı elan olunur. Lakin zəif və xəstəhal Fransisk 5 dekabr 1560-cı ildə vəfat edir. Dəfn mərasimindən sonra övladı olmadığına görə Mariya Stüart kraliça kimi Edinburqa yola salınır. O, anadan olduğu 1542-ci ildən kraliça elan olunmuşdu. Ancaq Şotlandiyada onu bədbəxtliklər gözləyirdi. 1560-1567-ci illər arası kraliça kimi ölkəyə başçılıq edən Mariya Stüart Şotlandiyada katolik məzhəbini yaymaqda suçlandırılır. Ölkəni üsyan bürüyür. Müharibədə məğlub olan Mariya Stüartı taxt-tacdan kənarlaşdırırlar. Taxta isə onun bir yaşlı oğlunu əyləşdirirlər. VI Ceyms sonralar I Ceyms adı ilə İngiltərənin kralı olur. Hələ bu az imiş kimi, Mariyanı ikinci ərini öldürməkdə təqsirli bilirlər. Mariya Stüart ölümdən canını qurtararaq lüt-üryan at belində Solvey Firt çayını keçərək yaxın qohumu – İngiltərənin kraliçası Yelizavetaya pənah aparır. Güman ki, Nostradamus "lüt-üryan" ifadəsi ilə Mariyanın hər şeyi itirdiyinə işarə edir. Stüart ingilis kraliçasının məhbusu kimi sarayda qalır.

Katolik məzhəbindən olan Mariya Stüartın pravoslav məzhəbinə xidmət edən kraliça Yelizavetaya pənah gətirməsi əslində təriqətinə təhqir hesab olunurdu.

Yazılanlara görə Mariya Stüart hələ kraliça olanda ərinə xəyanət edərək bir çoxları ilə intim əlaqələrdə olub və bu əlaqələrdən öz xeyrinə bacarıqla istifadə edib. O, İngiltərədə kraliça Yelizave-

tanın məhbusu ola-ola da öz bədnam əməllərindən əl çəkməyib. Yaxın əlaqədə olduğu qraf Persi vasitəsi ilə kraliça Yelizavetaya qarşı sui-qəsd hazırlayıb. Sui-qəsdin üstü açılıb və Stüart 1587-ci ildə Foterinqey qəsrinin böyük zalında edam edilib. Kraliçanın edamı Avropada böyük narazılığa səbəb olub. Kraliça Yelizaveta bu hərəkəti ilə böyük mənsəb sahibini – böyük sülalənin nümayəndəsini adi adamlar səviyyəsinə endirməsi ilə çoxlarını hiddətləndirmişdi. Buna əsas vardı. Həqiqətən də kraliça Yelizaveta bununla gələcəkdə kral və kraliçaların ictimaiyyət qarşısında edam edilməsinin əsasını qoymuş oldu.

### 1 k87

**Yerin mərkəzindən od püskürəcək.**
**Yeni şəhərin qalalarını silkələyəcək.**
**İki böyük qaya uzunmüddətli müharibəyə girişəcək.**
**Sonra Aretuza axar çayı qırmızı rəngə boyayacaq.**

Tədqiqatçılar bu başsındırıcı katren haqda çox yazmış, onu XX əsrin sonlarına yaxın baş verən dəhşətli zəlzələlərlə bağlamağa cəhd etmişlər.

Bəzi tədqiqatçılar isə bu katreni İran-İraq müharibəsi ilə bağlayırlar. Ola bilsin ki, Nostradamusun doğrudan da İran və İraqı iki böyük dövlət adlandırması XVII əsr ilə müqayisədə məqbul sayıla bilər. İran-İraq müharibəsində 1,5 milyondan artıq adam iştirak edib. Məlum olduğu kimi, həmin müharibə 1979-cu ildə başlayıb, 1989-cu ildə qurtarıb. Nə İraq, nə də İran bu mənasız müharibədən heç bir şey qazanmayıb. İtkilər isə böyük olub. İqtisadi itkiləri və s. nəzərə almasaq, təkcə ölənlərin və şikəst olanların sayı bir milyondan artıqdır.

Yunan əfsanəsinə görə Arteuza – Nimfadır. Nimfa isə təbiətin müxtəlif qüvvələrindən birini təmsil edən ilahədir. Əsatirə görə o,

axına, selə çevrilmişdir. Nostradamus Arteuzaya uyarlı olaraq müharibə vaxtı qanın sel kimi axdığına işarə etmişdir.

Nədənsə tədqiqatçılar katrendə yer alan "Yeni şəhər" barədə söz deməyi unudurlar. Həqiqət naminə deyək ki, onlar Nyu-Yorkun adını çəkiblər. Lakin nə olacağını bilməyiblər. Bizə elə gəlir ki, bu katren 2001-ci il sentyabrın 11-də Nyu-Yorkda – "Dünya Ticarət Mərkəzi"ndə baş vermiş və dünyanı lərzəyə salan partlayışla əlaqədardır. ABŞ həmin partlayışı Üsamə Bin Ladenin rəhbərliyi ilə terrorçuların həyata keçirdiyini və əslən Səudiyyə Ərəbistanından olan, ərəb mənşəli Bin Ladenin Əfqanıstanda gizləndiyini bəhanə edərək bu ölkəyə müharibə elan edib. Tədqiqatçılar "qaya" sözünün həm güclü dövlət, həm də dağlarla, qayalarla örtülmüş ölkə rəmzi olduğunu qeyd ediblər.

Deməli, katrenin 3-cü sətrində yer alan "İki böyük qaya uzun müddətli müharibəyə girişəcək" – ABŞ və Əfqanıstana aid edilə bilər. Bunu ABŞ-ın prezidenti Corc Buşun müharibə başlayanda verdiyi rəsmi bəyanatından da görmək olur. Corc Buş bəyan etdi ki, bu müharibə uzun sürəcək. Maraqlı məlumat üçün bax: 10 k49.

### 1 k88

**Böyük şahzadə İlahinin qəzəbinə düçar olacaq.**
**Bundan bir az əvvəl o, bir qadınla evlənəcəkdir.**
**Müdafiə və maliyyə cəhətdən qüdrəti bir anda sarsılacaq.**
**Qırxıqbaşların təkidi ilə öldürüləcək.**

Bəzi tədqiqatçıların fikrincə bu katren ingilis kralı I Çarlzdan bəhs edir. Kral I Çarlz katolik şahzadə ilə evləndiyi gün elan etmişdi ki, katolikləri məzhəbinə görə təqib etməyə son qoymaq lazımdır. Bundan sonra puritanlar gizli və açıq şəkildə krala qarşı çıxmağa başlamışdılar. Beləliklə, Saray Şurası İspaniya ilə müharibələri davam etdirməyə yardımdan imtina etdi. Daxili çəkişmələr artdı. 1649-cu ildə qırxıqbaşların (İngiltərədə burjua inqilabı-

nın təşkilatçıları) təkidi ilə kral ölümə məhkum edildi. İğtişaşların əsas səbəblərindən biri də vergilərin, xüsusən duz və şəraba qoyulan vergilərin (bax: 9 k49) dözülməz olması idi.

Bəzi tədqiqatçılar isə bu katreni Napoleonla əlaqələndirirlər. Deyirlər ki, imperatorun sevimli arvadı Jozefinadan övladı olmadığına görə onunla 14 il xoşbəxt həyat sürdükdən sonra onu boşamaq (1809) qərarına gəlir. Taleyə bax ki, Jozefinadan sonra hər addımda uğursuzluqlarla qarşılaşan imperatorun hakimiyyəti də 14 il çəkib. Həyatı qədər istədiyi Jozefinadan ayrılandan 4 ay sonra, 1810-cu ildə 47 yaşı tamam olanda o, Lüdoviklər nəslindən olan 19 yaşlı Mariya Luiza ilə evlənir. Doğrudan da, Nostradamusun təqribən 260 il öncə dedikləri yerini tutmağa başladı. 1812-ci il Fransa–Rusiya müharibəsində məğlubiyyət, Elba adasına sürgün olunması, üç ay sonra adadan qaçması, 1815-ci ildə ingilislərlə müharibədə məğlub olması, Müqəddəs Yelena adasına sürgün edilməsi və s. taleyin ondan üz çevirməsindən xəbər verirdi (bax: 1 k32).

Lakin son sətirdə deyilənlər Napoleonun taleyi ilə səsləşmir. Çünki Napoleon 1821-ci ildə Müqəddəs Yelena adasında öz əcəli ilə dünyasını dəyişib. Məhz buna görə də bu katreni kral I Çarlzla bağlayanların fikri daha etibarlıdır.

## 1 k89

**İlleriyalıların (Lerida – İspaniyada şəhər) hamısı Mozeldə olacaq.**
**Luaradan və Senadan olanları məhv edəcəklər.**
**Dəniz suyunun səviyyəsi divarların yuxarısına qədər qalxacaq.**
**Onda ispanlar tam qeyrətə gələcəklər.**

Tədqiqatçılar indiyə qədər bu katren barədə tutarlı bir söz deməyiblər. Odur ki, azərbaycanlı oxucular üçün bu katrenin böyük məna kəsb etmədiyini nəzərə alıb tədqiqatçıların ağlabatmayan şərhləri ilə onları yormaqdan vaz keçdik. Bir onu demək olar ki,

katrendə avstriyalıların, prussiyalıların, ispanların, ingilislərin arasında gedən münaqişə və müharibədən bəhs edilir.

### 1 k90

**Bordo, Puatye atışma səsi eşidən kimi**
**Böyük donanma və qüvvə ilə Lanjona qədər gedəcək.**
**Orjo yaxınlığında ilahi əlamət özünü göstərəndə (və ya qorxunc bir şey peyda olanda)**
**Şimal küləyi qalliyalılara (fransızlara) qarşı əsəcək.**

Tədqiqatçılar göstərirlər ki, bu katrendə Nostradamus Napoleonun vaxtında fransızlarla ingilislərin hərbi-dəniz donanmaları arasında gedən döyüşdən söhbət açır.

Ned Halley tədqiqatçıların diqqətini başqa, daha qorxulu bir məsələyə cəlb edir. O, göstərir ki, indiyə qədər tədqiqatçılar nədənsə Bordonun 20 mil yuxarısında Qironda çayının ağzında və Bordodan 30 mil aşağıda, Lanjonda nüvə zavodlarının olduğunu, Bordodan 100 mil şimal-qərbdə, Puatyedə isə Nüvə Mərkəzinin olduğunu unudublar. Beləliklə, baş verəcək bədbəxtliklərin zavodlarla bağlı olacağı gözlənilir.

### 1 k91

**Allahlar gerçəkliyi açıb insanlara göstərəcəklər.**
**Qoy böyük münaqişələrin səbəbkarı özləri olduqlarını başa düşsünlər.**
**Buludlar çəkilənə qədər qılınclar və cidalar işə düşəcək.**
**Belə ki, böyük bəla sol tərəfdən gələcək.**

Bu katrendə də Nostradamus tədqiqatçılar qarşısında açıqlanması müşkül olan müəmmalı bir məsələ qoymuşdur.

Məntiqə görə əgər Nostradamusun tədqiqatçıları bu katrendə nədən bəhs olunduğu barədə bir söz deyə bilmirsə, deməli, katren

gələcəkdə baş verəcək hadisələrdən söz açır. Doğrudur, bəzi tədqiqatçılar Çinlə Qərb ölkələri, xüsusən də ABŞ arasında müharibə olacağını göstərirlər. Fikirlərini belə izah edirlər ki, ABŞ Çinin sol tərəfindədir. ABŞ ümumiyyətlə, dünya xəritəsində sol tərəfdədir. Bir vaxtlar açıq olan səma indi qorxulu silahlarla doludur. Bədbəxtliklərə bu silahlar gətirib çıxaracaq.

### 1 k92

**Bir nəfərin hökmü ilə hər yanda sülh elan olunacaq.**
**Az sonra soyğunçuluq və qiyam başlayacaq.**
**Boyun qaçırıldığına görə şəhərlər, torpaq və dəniz lərzəyə gələcək.**
**Milyonun üçdə biri qədər ölənlər və əsir düşənlər olacaq.**

Maraqlıdır ki, hər dövrün tədqiqatçıları katrenləri öz zamanı ilə bağlı şərh etməyə çalışırlar. Çox vaxt da əldə heç bir əsas olmadan, fərziyyə və gümanlarla fikir söyləyirlər. Bu katren barədə də müxtəlif fikirlər vardır. Təbii ki, biz oxuculara cəfəngiyat xarakterli fərziyyələri deyil, indiyə qədər deyilmiş fikirlərin ən uğurlusunu, faktlarla təsdiqlənənini çatdıracağıq. Bu katrendə söhbət III Napoleonun vaxtında baş verən hadisələrdən gedir. III Napoleon İkinci İmperiyanı "əmin-amanlıq, sülh imperiyası" adlandırırdı. Hər yanda sülh elan olundu. İkinci sətirdə 1871-ci ildə Paris Kommunası dövründə baş verən qiyam və soyğunçuluqdan danışılır.

Üçüncü sətirdə Nostradamusun göstərdiyi "boyun qaçırıldığına görə" ifadəsi Lui Bonapartın Prussiyanın kayzeri I Vilhelmə etdiyi alçaldıcı təkliflə bağlıdır. III Napoleon təkidlə təklif edirdi ki, İspan taxtına Hohenzollern əyləşdirilsin. Rədd cavabı alan Fransa istər-istəməz müharibəyə cəlb olundu. Lakin müharibə aparmaq iqtidarında deyildi. Prussiyalılar müttəfiqləri almanlarla bir neçə dəfə Fransa şəhərlərinə qurudan və dənizdən hücum etdilər. Hesablamalara görə bu döyüşdə 300 mindən artıq təkcə hərbçi öldü və ya əsir düşdü. Hələ biz mülki vətəndaşları nəzərə almırıq.

## 1 k93

**Dağların yaxınlığında İtaliya torpaqları titrəyəcək.**
**Şir və Xoruzun ittifaqı davamsız olacaq.**
**Təhlükə yaxınlaşanda biri o birinə kömək edəcək.**
**Yalnız Kastulon (azadlıq ilahəsi) və keltlər (fransızlar)**
**ram edilməyəcəklər.**

Katrendə Napoleonun 1797-ci ildə Alp dağları yanında üçgünlük döyüşdə və sonralar, 1800-cü ildə İtalyan ordusunu darmadağın etməsindən danışılır. Yazılanlara görə İngiltərə (Şir) ilə Fransanın (Xoruz) münasibətləri o vaxt çox soyuq imiş. Demək olar ki, müharibə vəziyyətində idilər. “Kastulon” – deyəndə Fransa Respublika inqilabının rəmzi Marianna nəzərdə tutulur. O vaxtlar Mariannanı ağ alt paltarda, sinəsi qabarmış şəkildə hərbi bayraqların üzərində çəkərlərmiş.

## 1 k94

**Port Selində (İstanbul) müstəbid (tiran) ölümə məhkum edilib.**
**Bununla belə, azadlıq hələ hər yerdə bərqərar olmayıb.**
**Yeni Mars (Müharibə Allahı) intiqam alacaq, hamı əsəcək.**
**Qorxu hissini dəf edərək Xanıma təzim etməyəcəklər.**

Qərb tədqiqatçılarının bəziləri hesab edirlər ki, bu katrendə söhbət 4 iyun 1876-cı ildə türk sultanı Əbdül Əzizin qətlə yetirilməsindən gedir.

Bəziləri isə Genuyanın da dövlət rəmzinin aypara olduğunu əl - də əsas tutaraq deyirlər ki, söhbət Genuyanın müstəbidi admiral Andrea Dornaya qarşı baş tutmayan sui-qəsddən gedir. Az bir qi - sim tədqiqatçılar isə qeyd edirlər ki, bu katren Mustafa Kamal Atatürklə bağlıdır. Və söhbət Atatürkün sultan II Əbdül Həmidi devirməsindən gedir. Doğrudur, Atatürk müsəlman ruhani rəhbər -

lərinin də razılığı ilə sultan II Əbdül Həmidi devirsə də, onu öldürməyib.

Bizə qalırsa, söhbət təkcə II Əbdül Həmidlə bağlı deyildir. Qərb tədqiqatçılarının bəlkə də demək istəmədiyi və katrendə bariz şəkildə özünü göstərən bir məsələ ilə bağlıdır. Məlumdur ki, 1920-ci ildə Port Selini (yunanca “Selene” – Aypara, hilal– Türkiyənin bayrağı deməkdir) – İstanbul Antanta orduları tərəfindən işğal olunub. Böyük Britaniya, Fransa və Rusiya “Məclisi məbusan”ı (Deputatlar palatası) dağıdandan sonra Mustafa Kamal Atatürk Ankarada Türkiyə Böyük Millət Məclisini yaradıb (maraqlıdır ki, Mustafa Kamala “Atatürk” adını sonralar, 1934-cü ildə həmin məclis verib) və bütün gücünü səfərbər edərək müdaxiləçilərə qarşı ölüm-dirim mübarizəsinə başlayıb. 1922-ci ildə müdaxiləçiləri darmadağın edib. Sonra isə Yunanıstana ağır zərbələr endirib. “Port Selində müstəbid ölümə məhkum edildi”. Nostradamusun dediyi yerini aldı. Lakin azadlıq hələ hər yerdə bərqərar olmadı. Yeni Mars (yəni müharibə Allahı) qanlı döyüşləri davam etdirdi. İntiqam aldı. Düşmənlər qorxudan əsməyə başladılar. Türkiyə qorxu hissini dəf edərək Xanıma (Nostradamus Fransanın kralı II Henriyə yazdığı Açıqlamada İngiltərəni “Xanım” adlandırmışdır. İngilis dilində indinin özündə belə ölkə qadın cinsində götürülür) təzim etmədi. Qərb tədqiqatçılarının da göstərdiyi kimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923-1938) Atatürk türk dünyası qarşısında ölçüyəgəlməz xidmətləri olan bir şəxsiyyət olmuşdur ki, bütün böyük şəxsiyyətlərdən söz açan Mişel Nostradamus bunu görməyə bilməzdi.

### 1 k95

**Monastırın qarşısında tapılan oğlan uşağı**
**Azad fikirli və qədim rahib qanındandır.**
**Onun şöhrəti, dilinin gücü, ilhamlı nitqi**
**Hamıda belə fikir yaradır ki, o, vaxtından əvvəl doğulmuş**
**əkizlərdən sağ qalanıdır.**

Tədqiqatçıların rəyincə bu katren iki eyni adı daşıyan Roma Papasına həsr olunub. Bu, Roma katolik kilsəsinin tarixində yeganə haldır. Söhbət Papa I İohann Pavel (1912-1978) və II İohann Paveldən gedir. I İohann Pavel Vatikanda etdiyi çox güclü və əsaslı islahatları ilə kilsəni silkələdi və gözlənilmədən, Papa seçkilərindən cəmisi bir ay sonra müəmmalı ölümə düçar oldu. Adaşlardan – (əkizlərdən) ikincisi isə Polşadan olan II İohann Paveldir ki, 1978-ci ildən 2005-ci ilə kimi Roma katolik kilsəsinə rəhbərlik edib. II İohann Pavel doğrudan da Nostradamusun əsrlərlə öncə göstərdiyi kimi, bəlağətli danışığı, məntiqli və ilhamlı çıxışları ilə seçilib. İlk vaxtlar sözdə islahatları davam etdirəcəyini ərz etsə də, sonralar həm sözdə, həm də əməldə mühafizəkar görüşləri və düşüncə tərzi ilə katolik kilsənin sevimlisinə çevrilmişdi. Katrenin son sətrində deyildiyi kimi, katolik kilsədə hamı I İohann Pavellə müqayisədə II İohann Pavelə üstünlük verərək onun tərəfini saxladı. Bəzi tədqiqatçılar əsas olmadan katreni XIV Lüdovikə aid edirlər.

**1 k96**

**Məbədləri və təriqətləri dağıtmaqda təqsirli bilinən şəxs**
**Onları xəyalən dağıdacaq.**
**O, insanlardan çox, daşlara-qayalara xətər gətirəcək.**
**Yağlı dil ilə qulaqlar döyənək olacaq.**

Bu katrenin yeni təlim və təriqətdən bəhs etdiyi şübhə doğurmur. Lakin bu təriqət və onun yaradıcısı barədə qəti söz deyən tədqiqatçı yoxdur.

Kim bilir, bəlkə də bu katrendə söhbət yeni təlimlərə can atan Abdul Baxa (1844-1921), C.Krişnamurti (1891-1986), Shami Satya San Baba (1925), Sun Myun Mun (1920), Oşo (1931-1990), Adi Da Saitan (1932) və s. kimi yeni dini təlimləri yayan xadimlərdən gedir.

Ola da bilsin ki, katrendə göstərilənlər gələcəkdə baş verəcəkdir.

## 1 k97

**Nə qılınc, nə də qalxanla yerinə yetirilməyən**
**Şurada bəlağətli dillə yerinə yetəcək.**
**Kralı görülmüş yuxu barədə düşünməyə məcbur edəcəklər.**
**Hətta düşmən onun öz torpağında qan tökəcəkdir.**



*Jak Kleman kral III Henrini qətlə yetirir. 1 avqust 1589-cu il*

III Henri ciddi səhvə yol verərək general-leytenant Henri de Gizi və qardaşı kardinal Lui de Gizi öldürtdükdən (bax: 1 k85) sonra anası kraliça Yekaterina Mediçi hiddət və qəzəbindən sarsıntı keçirir və ölür. Bundan sonra bütün ölkədə və Parisdə krala qarşı çox ciddi iğtişaşlar başlayır (bax: 1 k85). Kral III Henri qorxaraq Parisi tərk edir və krallara məxsus saraya çəkilir.

O, Burbonlar sülaləsindən olan Navarralı Henriyə pənah aparır. Təqdim olunan bu katrendə Nostradamusun görüntüləri yerinə yetir. Henri silah gücünə əvvəllər krala bir şey edə bilmirdi. O, bir əyalətin, III Henri isə bütün Fransanın başçısı idi. 1-ci sətir həmin məsələdən bəhs edir. Navarralı Henri öz Sovetindən kral III Henrinin öldürülməsinə icazə alır. Ölümünə üç gün qalmış kral yuxuda görür ki, onu öldürürlər. Fransanın bayrağını və tacını bir rahibin rəhbərlik etdiyi izdiham ayaqlayır.

Navarralı Henri Fransanın kralı olmaq üçün münasib anın yetişdiyini görür və vaxt itirmədən bütün Fransa xalqının narazı olduğu kralı aradan götürmək üçün tədbir qılır. Bu işə Dominikan Cə -

miyyətinin (təriqət) rahibi Kleman seçilir. Kleman bir məktubla kralın Sen-Kluda rəsmi qəbuluna gedir. Klemanın şirin dili, nəzakətli hərəkəti və s. kralın saqqızını oğurlayır. Kral məktubu oxuyub cavabını Klemanın qulağına demək üçün yanına çağıranda rahib gözlənilmədən xəncəri çıxarıb kralın qarnına soxur. 38 yaşlı kral III Henri 1589-cu il 2 avqustda ölür. Navarralı Henri kral olur. O, da maraqlıdır ki, IV Henrini bütün Fransa kral kimi 1593-cü ildə katolik məzhəbinə keçdikdən sonra qəbul etmişdi. IV Henrinin "Paris ibadətə dəyər" kəlamı bununla əlaqədar yaranmışdır. Buna qədər Navarralı Henri hugenotların (pravoslavlar) başçısı idi. Kral IV Henrinin ən böyük xidməti onillərlə davam edən (1559-1598) dini müharibələrə son qoyması olub.

**1 k98**

**Ölməz xalqa (fransızlar) başçılıq edən rəhbər**
**Xalqın bir hissəsini yad adət-ənənəsi və dilləri olan**
**uzaq yerlərə aparacaq.**
**Beş min Krit və Tessaliyada məhv olacaq.**
**Başçı isə qaçıb dəniz sarayında canını qurtaracaq.**

Bəzi tədqiqatçılar bu katrendəki hadisələrin gələcəkdə baş verəcəyini qeyd edirlər. Ola bilsin ki, bu, Şərqi yaxşı bilməməkdən irəli gəlir. Ned Hallenin göstərdiyi kimi, əslində, bu katren Napoleonun böyük ordu ilə Misirə səfərindən (1798) söz açır. İki illik Misir səfəri də Napoleon üçün uğursuz olub. O, ingilislərdən canını ağac gəmidə qaçıb qurtarıb. O vaxt Krit və Tessaliya türklərin əlində imiş. Napoleon ordusundan bu yerlərdə qalan 5.000 nəfəri isə türklər qırıblar.

**1 k99**

**Böyük hökmdar həmrəylik və dostluq əlaqələrində olan**
**İki kralla ünsiyyətdə (yaxşı münasibətdə) olacaq.**
**Oh, böyük ailə necə heyifsilənəcək.**
**Təəssüf ki, uşaqlar Narbonnanın ətrafında olacaqlar.**

Tədqiqatçılar bu katrendə Rusiya-Amerika dostluğundan söhbət açırlar. Bizə qalırsa, burada söhbət ABŞ-İngiltərə müttəfiqliyindən və xüsusi dostluq əlaqələrindən gedir. Fransa isə onlarla yaxşı münasibətdə olub. “Böyük ailə” – Avropa Birliyi (Европейский дом) deməkdir. Əslində 3-cü sətirdə işlənən qədim fransız sözü “mesnie”– “ailə”, “ev” mənasını verir. 3-cü sətirdə “Oh, böyük ailə necə heyif - silənəcək” qənaətində böyük mətləblərdən, Avropa Birliyinə vurulan zərbədən, Fransanın Narbonna əyalətində baş verəcək dəhşətli hadisədən danışılır. Ola bilsin ki, nüvə silahının və ya materialının saxlandığı obyektdə (belə bir hadisə 2001-ci ilin son rübündə baş verdi. Ölənlər və xəsarət alanlar çox idi) və ya da Ronanın aşağı hissəsində nüvə silahı istehsal eyləyən reaktor zavodunda terror nəticəsində baş verə biləcək müdhiş hadisəyə işarə olunur. Ned Halley isə göstərir ki, Avropa Birliyi Lüksemburq və Monako krallıqlarını yaxınlaşdırır. Hər iki ölkəyə Fransa öz atom elektrik stansiyalarından elektrik cərəyanı verir. Həmin nüvə reaktoru Aralıq dənizi sahilində yerləşən Narbonnaya yaxın, Rona çayının ağzındadır.

**1 k100**

**Dolya və Toskana torpağı yaxınlığında**
**Səmada uzun müddət boz quş görünəcək.**
**Quş dimdiyində yaşıl budaq tutacaq.**
**Tezliklə qüdrətli (böyük) adam öləcək, müharibə bitəcək.**

Nostradamusun şərhçilərinin əksəriyyəti hesab edir ki, “boz quş” burada “sülh göyərçini” mənasında işlənir. Yəni Nostradamus bununla göstərir ki, tezliklə dava bitəcək, sülh bərqərar olacaq. Söhbət Fransa torpaqlarındakı müharibədən gedir. Bəs müharibə vaxtı ölən böyük şəxs kim idi? Tədqiqatlar göstərirlər ki, katrendə II Dünya müharibəsindən və müharibənin qurtarmasına az qalmış dünyasını dəyişmiş ABŞ prezidenti Ruzveltdən bəhs olunur.

Bu katreni alman təyyarələri, Hitler və onun ölümü ilə bağlayan tədqiqatçılar da vardır.

# II SENTURİYA (II YÜZLÜK)



***Uzun illər boyu məni mənəviyyatca əzmək istəyənlərin arzusuna xilaf çıxaraq işimi davam etdirmişəm. Əminəm ki, sağlığımdan fərqli olaraq dünyamı dəyişəndən sonra əsərlərimə daha çox ehtiram və inamla yanaşacaqlar.***

## 2 k1

**Britaniyalılar və akvitaniyalılar (Fransa)**
**hədə-qorxu gələcəklər.**
**Eyni zamanda onlar güclü hücuma keçəcəklər.**
**Yağış və şaxta torpağı pis kökə salacaq.**
**Selin limanına güclü həmlələr olacaq.**

Göründüyü kimi, bu katrendə göstərilənlər məlum dövlətlər və onların arasında gedən çəkişmə və müharibələrə aiddir. Port Selin İstanbul limanıdır. “Selin” yunanca “ay”, “hilal”, “aypara” deməkdir. O da məlumdur ki, aypara Türkiyənin dövlət rəmzidir.

Katrenlə bağlı Qərb tədqiqatçıları ötəri fikirlər söyləmişlər. Həqiqəti isə Erika Çitəm açıqlamışdır. Tədqiqatçı göstərir ki, 1915-ci ildə Fransa və Britaniya ordusu Qərb cəbhəsində cəmləşib durduğu vaxt Vinston Çörçil müttəfiqləri inandırdı ki, yeni cəbhə açaraq Port Selini və ümumiyyətlə, Türkiyəni tutmaq lazımdır. Bunun üçün Antanta ölkələri planlaşdırdılar ki, əvvəlcə Dardanel boğazını tutsunlar, sonra isə Konstantinopola (İstanbul) hücum etsinlər. Lakin hava şəraitinin pisləşməsi və türklərin ciddi müqaviməti buna imkan vermədi. Bununla belə, əvvəllər göstərdiyimiz kimi (1 k94), 1920-ci ildə İngiltərə başda olmaqla Antanta ölkələri Port Selini tutmuşdular. Lakin 1922-ci ildə türk ordusu Mustafa Kamalın (sonralar Atatürk) komandanlığı ilə işğalçıları nəinki İstanbuldan, hətta bütün Türkiyədən qovub çıxartmışdı.

Basmaqəlib kitab yazan bəzi rus müəllifləri bu hadisənin gələcəkdə baş verəcəyi barədə cəfəngiyat açırlar[1].

**2 k2**

**Yaşıl çalmalı, ağ çalmalıya pislik edəcək.**
**Bu böyük pislik (bəla) Fransanın ona etdiyi yaxşılıq müqabilində olacaq.**
**Budaqdan asılmış böyük antena ölüm hökmünü yayanda**
**Hökmdar öz adamlarından neçə nəfərin əsir düşdüyünü soruşacaq.**

Qərb nostradamusşünasları bu katren barədə ağlabatan bir mühakimə yürüdə bilməyiblər. Bəziləri bu katreni heç bir əsas olmadan 1789-1793-cü illər Fransa vətəndaş müharibəsi ilə bağlayırlar. Əslində katrenin 1-ci sətrində şiə və sünni məzhəblərindən söhbət gedir. Bir qayda olaraq şiələr başlarına yaşıl çalma, sünnilər isə ağ çalma bağlayırlar (qara çalma qoyanlar isə Seyidlər Nəslinə mənsub olanlardır). Məncə, burada söhbət İran-İraq müharibəsindən gedir. İraqın prezidenti Səddam Hüseyn sünni, Xomeyni isə şiə idi. Ayətolla Xomeyni 1963-cü ildə İrandan qovulandan sonra 15 il İraqda yaşamışdı. 1978-ci ildə İraqdan çıxarıldıqdan sonra Parisə gedərək (bax: 1 k70) oradan şaha qarşı İranda baş verən iğtişaşlara rəhbərlik etmişdi. Fransada ona hər cür şərait yaradılmış və şaha qarşı mübarizədə lazım olan köməkliklər göstərilmişdi. Xomeyni hakimiyyətə gələndən sonra İraqla münasibətlər pisləşdi və iki ölkə arasında 10 ilə qədər davam edən qanlı müharibə başladı. Ölənlərin və əsir düşənlərin sayı-hesabı yox idi. Son iki sətir də real həyati faktlardan xəbər verir. Maraqlıdır ki, bu günün özündə belə, televiziya stansiyalarının bir çoxu Fransa və eləcə də Yunanıstanda “Antena” adlanır. Deməli, Nostradamusun televiziyanı “antena” adlandırması təsadüfi deyildir. Televiziya ilə cəbhədə

[1] А.Морок, К.Разумовская. Новая расшифровка предсказаний Нострадамуса. Москва, 2000, стр. 212-213.

ölənlər və yaralananlar barədə xəbərlər verəndə, dövlət başçısının əsir düşənlər barədə məlumat istəməsi də təbiidir.

**2 k3**

**Günəşin qaynar istisinə bənzər istidən**
**Neqrepont ətrafında balıqlar yarıbişmiş hala düşəcəklər.**
**Rodos və Jendə ərzaq tükənəndə**
**Əhali gəlib onları yığacaq.**

Katrendə söhbət gedən “Neqrepont” – Yunanıstanın Evbey adasıdır. Rodos və Jen də Aralıq dənizi ərazisindədir. O ki qaldı katrendə Nostradamusun nəyə eyham vurması məsələsi, çəkinmədən deyə bilərik ki, indiyə qədər bu katren barədə ağıl kəsən fikir söyləyən şərhçi olmamışdır. Yeganə fərziyyə ondan ibarətdir ki, söhbət nüvə partlayışından və ya səmadan düşəcəyi güman edilən çox böyük və qaynar asteroiddən gedə bilər. 2-ci sətirlə bağlı Erika Çitəm belə bir fikir irəli sürür ki, atom bombasının partlaması nəticəsində balıqlar yarı bişəcək və insanlar onları yığıb yeyəcəklər. Təbii ki, tədqiqatçının bu fikri ilə razılaşmaq olmaz. Məlum məsələdir ki, atom bombası partlayanda bütün canlılar şüalanmadan məhv olur.

**2 k4**

**Monakodan Siciliyanın yaxınlığına qədər**
**Bütün sahillər kimsəsiz qalacaq.**
**Elə bir qəsəbə, kənd, şəhər qalmayacaq ki,**
**Barbarlar – yadellilər tərəfindən talan edilməsin.**

Katrendə göstərilənlər II Dünya müharibəsi zamanı Fransanın cənubunda və İtaliya sahillərində cərəyan edən hadisələrdən bəhs edir.

Bəzi tədqiqatçılar ağa qara deməkdən yorulmurlar. Yazırlar ki, bəlkə də bu katren gələcəkdə əlcəzairlilərin və ya liviyalıların nüvə silahı ilə törədəcəkləri terror hadisəsi ilə bağlıdır. Bununla ürəyi soyumayan şərhçilər daha qabağa gedərək katrendə işlənən “Barbares” – bərbər “vəhşi” sözündən ilk hərfi götürərək, bu sözün “Arabe” – “ərəb” mənasını verdiyini və burada söhbətin Li - viyanın rəhbəri Muammar Kaddafi və ya başqa bir ərəb liderindən

getdiyini göstərirlər. Erika Çitəm, hətta bu sıraya rusları, zənciləri və çinliləri əlavə etməkdən də çəkinmir.

**2 k5**

**Balığa bənzər gəmidə silah və planlar (gələcək planlar)**
**haqqında saziş imzalananda**
**Bir nəfər üzə çıxacaq və müharibəni başlayacaq.**
**Onun hərbi – dəniz qüvvələri uzun müddət dənizdə üzəcək.**
**Nəhayət Latın torpaqlarının (İtaliya) yaxınlığında görünəcək.**

Nostradamusun sualtı hərbi qayıqları tam dəqiqliklə görməsi və təsvir etməsi adamı heyrətləndirir.

Bundan əvvəlki katrendə (2 k4) olduğu kimi, Qərb tədqiqatçılarının bəziləri burada göstərilənləri də Muammar Kaddafi, Abu Nidal və başqaları ilə bağlayır və guya gələcəkdə baş verəcək terror əməllərində, hətta Muammar Kaddafinin keçmiş Sovet məkanında istehsal olunmuş 5 “Fokstrot” tipli sualtı qayığının iştirak edəcəyindən söhbət açırlar. Heç olmasa katrenin 3-cü sətrinə fikir versəydilər, ağıllarına gələni yox, həqiqəti yazardılar. “Onun hərbi-dəniz qüvvələri uzun müddət dənizdə üzəcəkdir”.

Bizə qalırsa, bu katrendə söhbət ilk və son Sovet prezidenti Mixail Qorbaçovla Amerikanın prezidenti Ronald Reyqanın Afrika və Avropanın sərhədi Malta yaxınlığında, Aralıq dənizində, sualtı qayıqda təkbətək görüşündən və həmin həlledici görüşdən sonra Sovetlərin dağılması nəticəsində Rusiyanın Şimal Buzlu okeanına çıxan dənizlərdən başqa bütün dünyada su hövzələrini əldən verməsi, həmin su hövzələrində ABŞ-ın hərbi dəniz qüvvələrinin hegemonluğu, bundan sonra ABŞ-ın İraqa, Yuqoslaviyaya, Əfqanıstana və s. qarşı müharibələrindən gedir. Balkan hadisələrində ABŞ gəmiləri İtaliya sahillərinə, Aralıq dənizi və Adriatik dənizi sularına gəlib çıxdılar.



***M.Qorbaçov və R.Reyqanın Aralıq dənizində sualtı qayıqda təkbətək görüşü və Sovet İttifaqının dağılmasına gətirib çıxaran müqavilənin imzalanması***

Maraqlıdır ki, Erika Çitəm 1973-cü ildə çap etdirdiyi kitabının düzəldilmiş 1991-ci il çapında bu katrenin III Dünya müharibəsinə gətirib çıxaracaq hadisələrdən bəhs etdiyini göstərir. Xanım Erika yazır ki, bu adı çəkilməyən adamın gəmiləri uzaq bir məsafə keçərək Aralıq və Adriatik dənizlərinə çıxacaqdır. Tədqiqatçının gəldiyi nəticə budur ki, Nostradamus III Antixrist adı altında bu adamı nəzərdə tutur və həmin adam III Dünya müharibəsinə başlayacaqdır.[1]

Demək lazımdır ki, xanım Erika söhbətin hansı dövlətdən getdiyi barədə o vaxt söz aça bilməzdi. Və onu da deyə bilməzdi ki, indi Adriatik və Aralıq dənizlərində ABŞ-ın sualtı qayıqları keşik çəkirlər. Onda bu hadisələr baş verməmişdi. Bu baxımdan da onu qınamaq olmaz.

[1] Erika Çitəm. Nostradamusun görücülüyü (ingiliscə). London, 1991, səh. 80.

Rus tədqiqatçılarından bəziləri isə başqa bir müsəlman ölkəsinin – Albaniyanın adını hallandırırlar. Göstərirlər ki, albanlar Adriatik dənizindən İtaliyaya hücum edəcəklər. Maraqlıdır ki, özləri də öz yalanlarına cavab verirlər: "Beləliklə, niyə Albaniya? – Ona görə ki, onlar İtaliya torpaqları hesabına öz ərazilərini genişləndirmək fikrinə düşəcəklər".[1] Əlbəttə, bu üzdəniraq tədqiqatçılar yaxşı bilirlər ki, əhalisinin dörddə üçü müsəlman və cəmi nüfusu 3 milyon nəfər olan Albaniya İtaliyaya heç nə edə bilməz. Bununla belə, aşağı səviyyəli xristian oxucuları arasında müsəlman aləmi barədə mənfi fikir yaratmağa çalışırlar.

**2 k6**

**Limanların yanında, iki şəhərdə**
**Heç kimin əvvəllər görmədiyi bəla baş verəcək.**
**Aclıq, vəba və silahdan insanlar məhv olacaqlar.**
**Hamı qışqıraraq böyük və ölümsüz tanrıdan kömək istəyəcək.**

Bu katrendə Nostradamus, şübhə yoxdur ki, 1945-ci il avqust ayının 6-da (katrenin nömrəsi də 6-dır) Xirosimaya və avqustun 9-da Naqasakiyə ABŞ-ın atdığı atom bombalarından və onun dəhşətli nəticələrindən söhbət açır. Böyük görücü qeyd edir ki, bəşəriyyət hələ belə bir bəla görməyib.

Bəzi Qərb tədqiqatçıları bu katrendə də gün kimi aydın həqiqətin üstündən keçməyə çalışırlar. Bu görünməmiş bəlanın ABŞ-ın əməli olduğunun üstündən sükutla keçmək bir yana, çalışırlar ki, oxucuları çaşbaş salsınlar. Con Houq yazır ki, bunu yalnız Naqasaki və Xirosima şəhərləri ilə bağlamaq düz olmazdı. Bəlkə də bu, terror aktı ilə bağlı olan bir məsələdir: "Terrorçular, Nostradamusun göstərdiyi kimi, sualtı qayıqlarla, Şimali Afrikadan üzüb gələcəklər". Katrenin nə orijinalında, nə də tərcümələrində, Con

[1] А.Морок. К.Разумовская. Новая расшифровка предсказаний Нострадамуса. Москва, 2000, стр. 208-209.

Houqun tərcüməsi də daxil olmaqla, belə bir şey yoxdur. Beləliklə, tədqiqatçının səhvə yol verdiyi göz qabağındadır.

Peter Lori isə bu katrenin guya SPİD-lə bağlı olduğunu göstərir.

**2 k7**

**Adalara sürgün edilənlərin arasında**
**Ağzında iki dişlə doğulmuş bir nəfər olacaq.**
**Acından ölən bu adamlar, ağacların qabığını və kökünü yeyəcəklər.**
**Yeni hökmdar onlar üçün yeni fərman hazırlayır.**

Katrendə Fransadan bəhs edilir. Əsrlər boyu cinayətkarlar, siyasi məhbuslar və s. ölkənin cənubundakı adalarda – həbsxanalarda saxlanırdılar. Tarixçilərin yazdıqlarına görə XIV Lüdovik anadan olanda ağzında iki dişi varmış. Eləcə də onun əkiz doğulduğu məlumdur. Deyirlər ki, onun əkiz qardaşının da anadan olanda ağzında iki dişi olub. Nostradamus bu qardaşa işarə edir. Volter XIV Lüdovikə həsr etdiyi əsərində göstərir ki, Lüdovik 1661-ci ildə hakimi-mütləq olanda ortaboylu, sifətindən gözəllik və kübarlıq yağan bir nəfəri Müqəddəs Marqarita adasına aparıb, orada qəsrdə saxlamağı əmr edir. Həmin adamı o vaxtdan dəmir maskada saxlayırlar. O, Müqəddəs Marqarita adasında 29 il ömür sürür. 1690-cı ildə onu Parisə – Bastiliya həbsxanasına gətirirlər. Deyilənə görə bu müəmmalı məhbus 1703-cü ildə ölüb. Aleksandr Dümanın "Vikont de Brajelon" romanında bəhs etdiyi "Dəmir maskalı adam" da XIV Lüdovikin qardaşı kimi təsvir olunur. Nostradamusla A.Dümanın fikirlərinin üst-üstə düşməsi də "Dəmir maskalı adam"ın XIV Lüdovikin əkiz qardaşı olduğu ehtimalını artırır.

Son iki sətirdə 1685-ci ildə XIV Lüdovikin Nant fərmanını ləğv etdiyindən danışılır. Nant fərmanını 1598-ci ildə IV Henri imzalamışdı. Bu fərmana görə katolik dini Fransada hakim din olaraq qalmışdı. Lakin hugenotlara etiqad azadlığı vermişdilər.

**2 k8**

**Məbədlər qədim Roma ənənələrinə uyğun olaraq əziz tutulacaq.**
**Nadanlığın kökünü kəsəcəklər.**
**İlk və bəşəri qanunları qəbul edəcəklər.**
**Bütün müqəddəs ayinləri, adətləri gözləyəcəklər.**

Əksər tədqiqatçılar bu katreni Fransada dini müharibələrin tüğyan etdiyi dövrə aid edirlər. Onlardan birincisi Nostradamusun sağlığında baş vermişdi. Hugenotlar (protestantlar) hərəkatı kilsəni siyasi təsir və zənginlikdən məhrum etmək, müqəddəslərə pərəstiş kimi hallara qarşı yönəltmişdi. Onlar kilsəni qədim Roma kilsələrində hökm sürən sadəliyə, xeyirxahlığa qaytarmağa cəhd edirdilər. İkinci müharibə 1790-cı ildə Fransa inqilabı zamanı baş vermişdi. Robespyerin rəhbərliyi ilə katolik kilsəsinə hücum başlanmışdı. Kilsəni torpaq mülkiyyətindən məhrum etmişdilər. İbadətgahları, monastırları dağıtmışdılar. Kilsə xadimləri ibadətgahlardan qovulmuşdular. Ali İdraka inam tövsiyə olunurdu. Müqəddəslərə ibadət və dini bayramları qeyd etmək qadağan olunmuşdu. Boşluğu doldurmaq üçün Ali Varlıq bayramı təsis olunmuşdu. Üçüncü sətirdə bəyan olunan "İlk və bəşəri qanunları qəbul edəcəklər" – İtaliyada yaşamış qədim etruskların dininə işarədir. Etrusklar həyatın təntənəsinə sitayiş edirdilər. Onları öləndən sonra kimlərin sorğu-suala tutması, hansı günahlarına görəsə cəza gözləməsi az maraqlandırırmış.

Bu katreni rus inqilabına aid edən rus tədqiqatçıları da vardır.

**2 k9**

**Arıq hökmdarın hakimiyyəti doqquz il əmin-amanlıqla keçəcək.**
**Sonra onda qan tökməyə şiddətli hərislik baş qaldıracaq.**
**Qanunsuzluq və inamsızlıq ucbatından böyük xalq məhv olacaq.**
**O, özündən daha çox tanınmış şəxs tərəfindən öldürüləcək.**

Bu katren Nostradamusun görücülüyü ilə bağlı böyük bir həqiqəti bir daha təsdiq edir. Biz girişdə demişdik ki, Nostradamus katrenləri elə müəmmalı yazmışdır ki, hadisə baş verənə qədər nədən bəhs olunduğunu bilmək olmur. Qərb tədqiqatçılarından bəziləri bu katreni Hitlerlə bağlayırlar. Faktlar bunu təsdiq etmir.

Bizə qalırsa, bu katren bizim zəmanəmizdən bəhs edir. Katreni eynilə Rusiyanın prezidenti V.Putinə və eləcə də ABŞ-ın prezidenti C.Buşa aid etmək olar. Onların hər ikisi arıqdır. Hər ikisi də qüdrətli dövlətin, böyük xalqın başçısıdır. Buna baxmayaraq, bu katreni V.Putinə aid etmək olar. Bu baxımdan XV əsr rus görücüsü Nemçinin fikirləri maraq doğurur. Nemçin göstərir ki, Rusiyada iğtişaş dövrü olacaq. Bu vaxt ölkəyə Titan (nəhəng) və ya Ayı rəhbərlik edəcəkdir. Huşsuzluq (unutqanlıq, yaddaşsızlıq) onun yol yoldaşı olacaq. Elə hey səhvlər buraxacaq. Titandan sonra hakimiyyətə bəstəboylu, cılız və "qara üzlü" adam gələcəkdir.

"Nəhəng" və ya "Ayı" deyəndə Boris Yeltsin göz önünə gəlir. Bəstəboylu cılız və "qara üzlü" adam B.Yeltsinin prezidentlik dövrünün sona yetməsinə 6 ay qalmış müəmmalı şəkildə hakimiyyətdən gedəndən sonra onu əvəz edən və prezident seçilən V.Putindir. Putinin bəstəboylu, arıq olması göz qabağındadır. O ki qaldı "qara üzlü" məsələsinə, bu, keçmişdə kəşfiyyatçı və casusların "qara üzlü adam" adlandırılmaları ilə bağlıdır. Məlumdur ki, V.Putin xeyli müddət Almaniyada Sovet səfirliyinin işçisi adı altında kəşfiyyatçı kimi fəaliyyət göstərmişdir.

O da maraqlıdır ki, tədqiqatçılar Nostradamusun görücülüyünə arxalanaraq (10 k72) qeyd edirlər ki, 1933-cü ildə Hitler demokratik seçki yolu ilə hakimiyyətə gəldiyi kimi, 1999-cu ildə yeni bir qüdrətli hökmdar Antixrist hakimiyyətə gələcək[1]. Bizə qalırsa, 1999-cu ildə hakimiyyətə gələn və haqqında söhbət açdı - ğımız adam Vladimir Putindir. Təbii ki, bu bizim azad və şəxsi qə-

[1] Дмитрий и Надежда Зима. Расшифрованный Нострадамус. М., 1998, стр. 185.

naətimizdir. Bəlkə də yanılırıq. Hər şeyi zaman öz yerinə qoyacaqdır.

**2 k10**

**Dünyada hər şey qaydaya düşənə qədər**
**Biz çox nəhs bir əsri gözləyirik.**
**Maskalananlar (iç üzünü gizlədənlər) və qınına çəkilənlər daxilən çox dəyişəcəklər.**
**Özlərinin onların yerində olmasına razı olanlar barmaqla sayılacaq.**

Nostradamusun özünü görücüdən çox filosof kimi göstərdiyi bu katrendə, tədqiqatçıların fikrincə bizim zəmanəmizdən söhbət gedir. Tarixçilərin gəldiyi qənaətə görə XX əsrdə mədəniyyət o qədər dəyişib ki, bəlkə də keçən on doqquz əsr ərzində insanlar mədəniyyətin bu qədər dəyişməsinə nail ola bilməmişlər. İnsana dar gələn planetimizdə (1 k63) tarixin istər yaxşılığa, istərsə də pisliyə tərəf atdığı hər addım bizim hər birimizə keçmişdən fərqli olaraq daha çox təsir göstərir və bu təsir get-gedə artır. Biz ruhsuz, cansız texnologiyanın əsiri olmuşuq. Bizim həyatımız da, xoşbəxtliyimiz də "daş ürəkli" texnika ilə bağlıdır.

**2 k11**

**Hakimiyyəti böyük oğuldan sonrakı oğul qəbul edəcək.**
**O, kral səviyyəsinə qədər yüksələcək.**
**Onun amansızlıqla qazanılmış şöhrəti hamını qorxuya salacaq.**
**Lakin övladları hakimiyyətdən kənarlaşdırılacaqlar.**

Tədqiqatçılar bu katrenin Fransa ilə bağlı olduğunu vurğulasalar da, tutarlı faktlarla fikirlərini təsdiqləyə bilmirlər. Kim bilir, bəlkə də bu katren bizim zəmanəmizlə bağlıdır. Monarxiyanın hökm sürdüyü zəmanəmizdə Şərq ölkələrinin hər birində bu baş verə bilər. Məsələn, indi İordaniyada 1-ci oğul, Suriyada hakimiy -

yətə hazırlaşan 1-ci oğul avtomobil qəzasına uğradığından 2-ci oğul hakimiyyətdədir. Bəlkə də söhbət ABŞ-dan gedir. C.Buşun yerinə qardaşı ABŞ prezidenti olmağa hazırlaşır.

## 2 k12

**Qədim xülyalara gözlər açılacaq, həqiqətə qapanacaq.**
**Tənhaların (monax) adətləri heçə endiriləcək.**
**Böyük hökmdar onları ağılsızlıqlarına görə cəzalandıracaq.**
**Məbədlərin qarşısında xəzinələr oğurlanacaq.**

Tədqiqatçılar göstərirlər ki, bu katren birbaşa dinlərlə və dini cərəyanlarla bağlıdır. Yeni dini cərəyanların nümayəndələri qədim dini ənənələrdən əl çəkməyə çağırırlar. Oşo, Krişnamurti, Qurciyev kimi mübariz mistiklər göstərmişlər ki, XX əsrin son rübündən başlayaraq 100 il ərzində dinlər köklü şəkildə dəyişəcək. Guya insan daha islam, xristian, buddizm və s. dinlərin ehkamlarının ağırlığı altında baş əyən fərd yox, sadəcə insan olacaqdır. Mayya hindularının təqviminə görə 2012-ci ildə vaxt ölçüsü yoxa çıxacaq. Yeni dini inqilabın prinsiplərindən biri həyatın indiki zamanda nəhayətsizliyidir. Guya belə olan halda insan keçmiş barədə təəssüf, gələcək barədə arzular kimi əsarət zəncirindən xilas olacaq, bir dəfə verilmiş həyatını keçmiş və gələcək barədə düşünmədən qayğısız yaşayacaqdır.

Qərb tədqiqatçıları üçüncü sətirdə işlənən "böyük hökmdar" sözünün Şərq aləmində "mənəvi rəhbər", "müəllim" mənasında işləndiyini və 4-cü sətirdəkilərin gənclərə aid olduğunu və gənclərin həmin mənəvi rəhbərlərə, müəllimlərə üz çevirəcəklərindən söz açdığını qeyd edirlər. Erika Çitəm bu katreni 1789-cu il Fransa inqilabına aid edir. Göstərir ki, insanların gözləri xristianlığa qapanmış, Ali İdrak deyilən təlimə yönəldilmişdir.

Katrenin 3-cü sətrində Nostradamusun bəyan etdikləri də yerini almışdır. 1789-cu il Fransa inqilabından sonra kral XVI Lüdoviki məcbur ediblər ki, kilsə barədə qanun (konstitusiya) imzalasın.

22 iyul 1790-cı ildə kilsə haqqında mülki qanun imzalanır. Həmin qanuna görə kilsənin bütün varidatı, o cümlədən də torpaqları dövlətin ixtiyarına keçdi. Keşişlər isə dövlət qulluqçuları hesab olundu. İyerarxiyaların (dini-inzibati vahid) sayı da 139-dan azaldılaraq 83-ə endirildi. Fransa katolik kilsəsinin Roma katolik kilsəsi qarşısında cavabdehliyi də minimuma endirildi.

## 2 k13

**Ruhsuz can bir daha qurban verilməyəcək.**
**Ölüm günü, doğum gününə çevriləcək.**
**Ölənin əbədiliyinə dair qiymətli sözlərlə**
**İlahi ruh onun ruhunu məsud edəcək.**

Bəzi tədqiqatçılar katrenin Nostradamusun özünə və ölümündən sonrakı görüntülərinə aid olduğunu qeyd edirlər. Nostradamus ölümünün son illərini xəstəliklə və ona qara yaxanlarla mübarizədə keçirib. Səbri tükənmişdi. Nücum təqvimində göstərdiyi kimi, ölümünün yaxınlaşdığını bilirdi. İlahidən ona heç kimə qismət olmayan, necə böyük pay verildiyini də yaxşı bilirdi. Bundan ilhama gələrək bu katreni yazmışdır.

Bu katrendə anlaşılması müşkül olan 2-ci sətirdir: "Ölüm günü, doğum gününə çevriləcəkdir". Görücü burada ruhunun canlanmağından, dirçəlişindən söz açır. Özünün cismani cəhətdən öləcəyini göstərməklə, əsərləri ilə əbədi yaşayacağına işarə edir.

Bəzi tədqiqatçılar bu katreni ölümsüzlüklə əlaqələndirirlər. Guya katrendə gələcəkdə ölümsüzlük probleminin həll olunacağından danışılır.

## 2 k14

**Tur və Jyeni iti gözlə qoruyacaqlar.**
**Onlar böyük və sakit (təmkinli) xanımı uzaqdan görəcəklər.**
**Xanım və müşayiət edənlər limana gələcəklər.**
**Döyüş, həmlə, öz təsirini göstərəcək.**

Bu katren kraliça Yekaterina Mediçidən bəhs edir. Katren hadisə baş verəndən on il əvvəl yazılıb. Tur və Jyen Provans vilayətindədir. Bir gün Salon şəhərinin gözətçi divarlarından gözətçilər böyük bir dəstənin şəhərə yaxınlaşdığını görürlər. Bu, kraliça Yekaterina Mediçi və onu müşayiət edən 800 nəfərdən ibarət dəstə idi. Kraliçanın səfərdən məqsədi katoliklər və hugenotlar (protestantlar) arasında baş verən iğtişaşları yatırtmaq idi. Katrendən də göründüyü kimi, kraliça buna nail ola bilməyib. Dini müharibələrə Yekaterina Mediçinin ölümündən (1589) sonra, 1598-ci ildə kral IV Henrinin hakimiyyəti dövründə son qoyulub. Heç bir əsas olmadan, Ned Halley bu katreni 1982-ci ildə İngiltərə və Argentina arasında Folkland adaları uğrunda baş verən münaqişə ilə bağlamağa cəhd edir. Katrenin 1-ci sətrindən göründüyü kimi, söhbət Fransadan gedir.

## 2 k15

**Monarx (başçı) öldürüləndən bir az əvvəl,**
**Kastor və Polluks papalıqda (Vatikan) ulduz görəcəklər.**
**Xalqın var-dövləti quru və dənizlə daşınıb talan olunacaq.**
**Piza, Asti, Ferrara və Turində torpaqlar şəxsi mülkiyyətdən çıxarılacaq.**

İkinci sətirdən görünür ki, bu katrendə Vatikanda baş vermiş görünməmiş biabırçı hadisələrdən bəhs edilir. Məsələnin məğzini dərk etmək üçün qədim yunan əsatirində yer alan və dəniz hamisi olan əkizlər – Kastor və Polluks qardaşlarının katrendə hansı məqsədlə işlədildiyini bilmək lazımdır. Bunun üçün XX əsrin son rübündə Roma katolik kilsəsində baş verən hadisələri nəzərdən keçirmək kifayətdir. Belə ki, 1978-ci ildə I İohann Pavel Roma katolik kilsəsinə papa seçilən kimi reformalar aparmağa başlayır. Və eləcə də Vatikan baş bankında böyük fırıldaqların baş alıb getdiyini və bu işdə kardinalların əli olduğunu dəqiq öyrənir. O da məlum olur ki, Vatikan bankı mafiya ilə, ən pisi isə narkobizneslə (5 k49) sıx əlaqədədir. Papa I İohann Pavel qərara gəlir ki, bankın

fəaliyyətini ciddi şəkildə yoxlatdırsın və günahkarları cəzalandırsın. Papa mafiozları ayıq salmışdı. I İohann Pavelin Papa seçildiyi gündən düz bir ay keçmiş Papanı yatağında ölmüş tapmışdılar. Nostradamus onu zəhərlədiklərini qeyd edir (3 k65). Onun yerinə polşalı II İohann Pavel seçilib (1978) və 2005-ci ilə kimi Roma katolik kilsəsinə rəhbərlik edib. Nostradamusun "əkiz qardaşlar" adlandırdığı bu eyni adlı iki papa haqqında bir neçə katreni vardır (1 k95, 3 k17, 3 k65, 4 k11, 5 k49, 6 k9 və s.). I İohann Pavel və II İohann Pavel ilə bağlı Nostradamus Kastor və Polluks əkiz qardaşlarına katrendə çox məharətlə işarə edəcək hər iki Papanın səciyyəvi xüsusiyyətlərini açıb göstərmişdir. Məsələ burasındadır ki, bu qardaşlardan biri, yüksək ilahi keyfiyyətlərə malik olub. Digəri isə həddən artıq dünyəvi olub və hətta saflıqdan, təmizlikdən nisbətən kənar olub. Katrenlərdən I İohann Pavelin ölümündə II İohann Pavelin günahı olduğu aydınca görünür. I İohann Pavelin ölümündən sonra Vatikan bankında yoxlamalar başlansa da, bir neçə ikinci dərəcəli cinayətkar və cinayətin izinə düşən müstəntiq aradan götürüldükdən (öldürüldükdən) sonra cinayətin izini itirməyə nail oldular. Nostradamusun ən görkəmli tədqiqatçılarından biri Con Houq II İohann Pavelin fitnə-fəsadla, siyasi intriqa ilə, narkobizneslə bağlı olduğunu, mafiyanın çirkli pullarının üzə çıxarılmasında, indinin özündə belə Vatikan bankının əli olduğunu göstərir.[1]

Ola bilsin ki, Con Houq əsrlər boyu Roma katolik kilsəsi ilə mübarizə aparan ingilis protestantlarından olduğundan bu qədər tənqidə yol verir. Bilmirəm. Lakin fakt fakt olaraq qalır.

Katrenin 2-ci sətrində söhbət gedən ulduz da Roma katolik kilsəsi və onun bankı ilə əlaqədardır. Katrendə I İohann Pavelin ölümündən az sonra Vatikan bankındakı fırıldaqlarla bağlı rüsvayçılıqların qızğın çağında (1986-cı il) Halley kometasının (quyruqlu

[1] Con Houq. Nostradamus. Əsərlərinin külliyyatı (rusca), Moskva, 1999, səh. 158, 288, 372, 389, 411.

ulduz) İtaliya səmasından keçməsi və əhalinin təşvişə düşməsinə işarə edilir. Əslində Roma Papasının öldürülməsi də Vatikanda və eləcə də, bütün xristian aləmində təşviş doğurmuşdu. Hamı mat qalmışdı. Necə ola bilər ki, Allahın evi sayılan müqəddəs yerdə sayılıb-seçilən, ən yüksək ruhani rütbəni tutan, Roma katolik kilsəsinin başçısına – Papaya əl qaldırmağa cəsarət etsinlər? Bütün bunlar dindarları çaşbaş salır, onların inamlarını alt-üst edirdi.

**2 k16**

**Neapol, Palerma, Siciliya və Sirakuzad,**
**Yeni zülmkarlar və havada od-alov görünəcək.**
**London, Qent, Brüssel və Suzdan gələn ordular,**
**Böyük qırğın törədəcək, qələbə bayram şənliyi düzəldiləcək.**

Katrendə II Dünya müharibəsi zamanı baş vermiş hadisələrə işarə olunur. "Yeni zülmkarlar" (tiranlar) Hitler və Mussolinidir. Almanların 88 mm-lik toplardan atdığı mərmilər və eləcə də, rusların "katyuşa"ları havanı yararaq vıyıltı ilə alov saça-saça uçarmış. Müttəfiq orduları, eləcə də, "Azad Fransa" ordu hissələri, İtaliya antifaşistləri (Suzlar) tərəfindən 1-ci sətirdə adı çəkilən və bəzi digər yerlərdə faşist ordularının darmadağın edilməsindən danışılır. Maraqlıdır ki, Nostradamus qələbə bayramı şənliklərinin olacağını da əsrlərlə öncə görmüşdür. İndinin özündə belə, hər il Avropada qələbə günü qeyd olunur və müharibədə həyatlarını qurban vermiş 50 milyon adam yad edilir.

Qələbə günü – 9 may keçmiş Sovetlər Birliyində də böyük təntənə ilə qeyd edilirdi. O gün rəsmi bayram elan olunmuşdu. İş günü deyildi. Görkəmli Azərbaycan şairi Səməd Vurğun bu münasibətlə yazmışdır:

*Yazılsın tarixə bir qızıl xətlə*
*Qırx beşinci ilin doqquz may günü.*

## 2 k17

**“Bakirə kahinə məbədi”nin ərazisində,**
**Pireney dağları və Etenin yaxınlığında,**
**Böyük keçid təhlükəyə görə bağlanıb.**
**Şimal küləyi çayyuxarı əsir, üzümlüklər qan ağlayır.**

Tədqiqatçılar bu katreni şərh etməkdə çətinlik çəkiblər. Ned Halleyin yazdığına görə hadisə 1826-cı ildə baş verib. Guya Arno çayının daşması nəticəsində ucsuz-bucaqsız üzüm sahələri məhv olmuş, binalar uçmuş, hətta XVI əsrdə (1549) memar Pirronun kardinal İppolitin xatirəsinə ucaltdığı, dünyanın ən gözəl tarixi abidələrindən biri hesab edilən Tivoli kilsəsi məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Nostradamusşünas alim Ned Halley göstərir ki, görücünün bu katreni həmin hadisədən bəhs edir.

## 2 k18

**Yeni, gözlənilməz, şiddətli yağış kimi səpələnən,**
**Hər iki ordunu birdən dayandırdı.**
**Səmadan sel kimi tökülən mərmilər, alov dənizdən tüğyan edəcək.**
**Quruda və dənizdə Yeddilərin məhvi qəfildən olacaq.**

Bəzi tədqiqatçıların fikrincə, bu katrendə II Dünya müharibəsi zamanı Sovet İttifaqının çox məxfi saxladığı və ilk dəfə 1941-ci ildə almanların hücum etdiyi və Sovet ordusunun pərən-pərən olub geri çəkildiyi vaxt işlətdiyi “katyuşa”dan bəhs olunur. Hər iki ordu arası kəsilməyən, yağış kimi yağan mərmilərin alov saçan uçuşunu görəndə qorxudan donub qalıblarmış. 4-cü sətirdə söhbət gedən “Yeddilər” – Hitler Almaniyası, İtaliya, Yaponiya, Finlandiya, Macarıstan, Rumıniya və Slovakiyaya aid olub, onların gözlənilmədən məğlub olacağına işarədir.

Erika Çitəm bu katreni II Henrinin övladlarına aid edir. Katrendə bəhs olunanlar, xüsusən də 2-ci və 4-cü sətirlərdə göstərilənlər tədqiqatçının səhvə yol verdiyini isbat edir.

## 2 k19

**Yeni gələnlər müdafiəsiz yerdə məskunlaşacaqlar.**
**Onlar əvvəllər yaşanmış yerlərdə olacaqlar.**
**Çəmənliklər, evlər, tarlalar, şəhərlər onların xoşuna gələcək.**
**Aclıq, vəba, müharibə qorxusu uzun müddət onların canlarından çıxmayacaq.**

Şərhçilər bu katreni kütləvi qırğından can qurtarıb Fələstin torpaqlarında məskunlaşmış və sonralar öz dövlətini yaratmış yəhudilərə aid edirlər. Yəhudilər Fələstin torpaqlarını tutur, icmalar yaradırdılar. Lakin fələstinlilərin hər an hücum edə biləcəyindən çəkinir və qorxu içərisində yaşayırdılar. 1-ci sətir bu məsələdən bəhs edir. 3-cü və 4-cü sətirdə Nostradamusun bəyan etdikləri də yerini almışdır. Məsələ burasındadır ki, 1948-ci ildə Sovet İttifaqının köməyi ilə İsrail dövləti yaradıldıqdan sonra yəhudilər işğalçılıq siyasəti yeritdiklərindən, İordan çayının fələstinlilərə aid Qərb sahilini, Qəza bölməsini, Cənubi Livanı, Suriyanın Holan yüksəkliklərini və bir çox başqa yerləri tutduqlarından, İsrail-Ərəb müharibələri (1948, 1956, 1967, 1973, 1982) və arası kəsilməyən iğtişaşlar baş verir. Bizim bu sətirləri yazdığımız XXI əsrin əvvəllərində bu iğtişaşlar daha da artmışdır. Katrenin sonuncu sətrində bir vaxtlar təqibə məruz qalan yəhudilərin işğalçılıq siyasətinə işarə ilə Nostradamus xəbərdarlıq edir. Elə bil deyir: "Döymə qonşu qapısını, bir gün sənin də qapını döyərlər". Onda son peşmançılıq fayda verməz.

Maraqlıdır ki, polşalı tədqiqatçı, çox güman ki, milliyyətcə yəhudi olan Erika Çitəm, bilərəkdən bu katreni şərh etməmiş, onun üzərindən sükutla keçmişdir.[1] Lakin milliyyətcə yəhudi olan Dmitri və Nadejda Zimalar İsrail dövlətinin bugünkü siyasətini pisləyir və Nostradamusun ürək ağrısı ilə yazdıqlarına rəğmən yəhudiləri qonşu

[1] Erika Çitəm. Nostradamusun görücülüyü (ingiliscə). London, 1991.

dövlətlərlə yaxşı münasibətə çağırırlar. Bir daha Yaradanın qəzəbinə gələ biləcəklərini onların yadına salırlar.[1]

## 2 k20

**Müxtəlif yerlərdə əsir saxlanılan qardaş və bacılar,**
**Hökmdarın qarşısından keçiriləcəklər.**
**Hökmdarın vərəsələri onlara diqqətlə tamaşa edəcəklər.**
**Onların burun, çənə və alınlarındakı işgəncə izlərinə narazılıqla baxacaqlar.**

Katren Nostradamusun sağlığında baş vermiş hadisədən bəhs edir. 1557-ci ilin sentyabrında Parisdə hugenotlardan böyük bir dəstə tutulubmuş. Kral II Henri əmr edir ki, hugenotların uşaqlarını onun övladlarına göstərsinlər. Kralın övladları bu gənc oğlan və qızlara verilən işgəncədən narazı qalıblar.

Oxucular fikirləşə bilərlər ki, bu nə böyük tarixi hadisədir ki, Nostradamusun diqqətini çəkə? Burada diqqəti çəkən iki məsələ vardır. Birincisi, Nostradamus yeri gəldikcə öz zamanında baş verəcək hadisələrdən də söz açıb ki, ona inansınlar. İkincisi isə katren Fransanın qüdrətli krallarından biri II Henri ilə bağlıdır. Təkcə onu demək kifayətdir ki, kral II Henri və kraliça Yekaterina Mediçinin görücünün məşhurlaşmasında, bəlkə də ölümdən xilas olmasında böyük xidmətləri olub. Yəqin buna görədir ki, Nostradamus kral II Henri, kraliça Yekaterina Mediçi və övladlarının həyat yolunu sona qədər izləmiş və katrenlərində göstərmişdir.

## 2 k21

**İkiyaruslu avarları olan hərb gəmisilə göndərilən səfir,**
**Naməlum adamlar tərəfindən yarı yoldan geri qaytarılacaq.**
**Müdafiəni gücləndirmək üçün dörd üçyaruslu avarları olan hərb gəmisi göndəriləcək.**
**Kəndirlər və zəncirlər Qara dənizə atılacaq (lövbər salınacaq).**

[1] D. və N. Zima. "Şifrələnmiş Nostradamus" (rusca). M., 1998, səh.124.

Tədqiqatçılar bu katrendə yer alan hadisələrin Egey dənizində, Evbey adası yaxınlığında (1480-ci ildə osmanlılar bu adanı Venesiyadan qopardıqdan sonra "Neqropont" adlandırdılar. Lakin 1831-ci ildən ada Yunanıstanın tərkibindədir), ya da vaxtilə "Neqroponte" adlandırılan Qara dənizdə baş verdiyini qeyd etsələr də, hadisənin məğzini açıb göstərə bilməmişlər. Güman edilir ki, bu katrendə söhbət ya türklərin Bosfor boğazını xristian dənizçilərinin keçməsi üçün açmasından, ya da Qara dəniz hərbi dəniz donanmasının kimə məxsus olacağı barədə Rusiya ilə Ukrayna arasındakı mübahisədən gedir.

### 2 k22

**Avropanın əhəmiyyətsiz ordusu yox olacaq.**
**Batırılmış adanın yaxınlığında toplaşacaqlar.**
**Arton donanmasının sıraları sıxlaşacaq.**
**Dünyanın mərkəzi daha böyüyü ilə əvəz olunacaq.**

Şərhçilərin fikrincə, 1-ci sətirdə söhbət Varşava müqaviləsi ölkələrinin birləşmiş ordusunun soyuq müharibə sona yetdikdən sonra əhəmiyyətini itirərək ləğv edilməsindən gedir. "Çökmüş ada" – Nyu-Yorkda, Mənhəttən adasıdır ki, burada BMT yerləşir. Bir çoxları bu adanın 2020-ci ildə batacağından danışırlar. Bizə qalırsa, bəlkə də 2020-ci ildə BMT fəaliyyətini dayandıracaqdır. 3-cü sətirdəki Arton anoqrammadır. Çox güman ki, burada söhbət NATO ordusundan gedir. Dünyanın mərkəzi son vaxtlara qədər Avropa hesab olunurdu. İndi isə ABŞ-ın Yuqoslaviyada, İraqda, Əfqanıstanda və bir çox başqa yerlərdə törətdikləri açıqca göstərir ki, hegemonluğu ABŞ ələ alıb. Dünyanın ən mötəbər təşkilatı BMT də ABŞ-da yerləşir və bir çox hallarda onun məsləhəti ilə oturub-durur. Bizə qalırsa, Sovet sisteminin və Varşava müqaviləsi təşkilatının dağılması tarixdə izsiz keçməyəcək, bəşəriyyəti sarsıda biləcək bir çox hadisələr baş verəcəkdir. Yuxarıda saydıqlarımız deyilənlərin başlanğıcı olacaqdır.

## 2 k23

**Hakimiyyətə gələn bambılı şahzadədən az sonra,**
**Saray və quşlar qovulmuş quş tərəfindən mühasirəyə alınacaq.**
**Düşmən çayın o biri tayına oturdulsa da,**
**Kənarda quşun havadarları tutulacaqlar.**

Nostradamusun bu katreni lap son vaxtlara qədər tədqiqatçılar üçün bir müəmma olaraq qalırdı. Ned Halley neçə əsrdən bəri tədqiqatçıları düşündürən bu katrenin dəlil-sübutla İngiltərədən bəhs etdiyini göstərmişdir: İngiltərənin kralı I Çarlz (1600-1649) başda olmaqla monarxiya tərəfdarları (onlar papaqlarına quş lələyi taxardılar) puritanlara qarşı ağrılı-acılı vətəndaş müharibəsində məğlub olurlar. Puritanların başında Oliver Kromvel (1599-1658) dururdu. Kromvelin familiyası tanınmayan Vilyams idi. Oliver Kromvel familiyasını əslində onu saray əyanı edən, saray naziri Tomas Kromvelin şərəfinə götürmüşdü. Təbii ki, bütün saray əyanları kimi, Oliver də papağına quş lələyi taxardı. Məhz buna görə də saray əyanları "quşlar" adlanırdılar. Gənc Oliverin dünyagörüşünün formalaşmasında böyük rol oynayan müəllimi Tomas Böödün də familiyası "quş" mənasını verirdi.

Kromvel vətəndaş müharibəsində qalib gəldikdən sonra, 1649-cu ildə kral I Çarlz edam edildi. Bundan sonra 19 aprel 1653-cü ildə Kromvel parlamenti buraxanda kimsə dedi: "Quşlar uçub getdilər". Bu o demək idi ki, papaqlarına quş lələyi qoyanlar hakimiyyətdən qovuldular. Çoxu qaçıb Fransaya getdi. O cümlədən də I Çarlzın oğlu gənc Prins Çarlz. Lakin 1660-cı ildə, Kromvelin ölümündən iki il sonra Prins Çarlz (1630-1685) kral II Çarlz adı ilə İngiltərəyə qayıtdı və monarxiya üsuli-idarəsini bərpa etdi. "Quş" – Oliver Kromvel vaxtilə saraya dönük çıxdığına və xəyanətə görə qəbirdən çıxarıldı və edam edildi. Onun bədəni dar ağacının dibində basdırıldı. Başı isə Vestminster abbatlığında rüsvayçılıq sütununun üstünə qoyularaq nümayiş etdirildi. Bütün bunları

hadisələrdən bir əsr öncə Nostradamus ürək ağrısı ilə müşahidə etmiş, kral I Çarlza rəğbətlə yazıb bizə miras qoymuşdur.

**2 k24**

**Aclıqdan vəhşiləşmiş heyvanlar kimi çayları keçəcəklər.**
**Döyüş meydanında böyük əksəriyyət Histerə qarşı olacaq.**
**Hökmdar dəmir qəfəsdə nümayiş etdiriləcək.**
**Bu vaxt alman övladlarını heç nə ilə xilas edə bilməyəcəklər.**

Bu katrendə nostradamusşünasları ilk növbədə maraqlandıran "Hister" sözüdür. Çünki bu söz həm Hitleri, həm də onun uşaqlığını sahillərində keçirdiyi Dunay (latınca – "Hister") çayını göstərir. Lakin katrendə söhbətin Hitlerdən getdiyi heç bir tədqiqatçıda şübhə doğurmamışdır. Tədqiqatçılar qeyd edirlər ki, "Les Propheties"in orijinal əlyazmasında "Hister" sözündə "S" hərfinin qotik şriftlə yazılması da deyilənləri təsdiq edir.

1-ci sətirdə görücü döyüşçülərin çayları keçərək gözlənilməz həmlələr endirəcəklərini dəqiq görüb. II Dünya müharibəsi zamanı bu taktika böyük rol oynayıb.

2-ci sətirdə göstərilənlər də yüz faiz yerini alıb.

Almaniya, İtaliya, Yaponiya üçlüyünə qarşı 100 milyondan artıq adam döyüşürdü.

3-cü sətirdə göstərilənləri bəzən Mussoliniyə aid edirlər. O, məğlub olduğunu görüb məşuqəsi Klara Pettaçi ilə ölkədən qaçarkən Milan şəhəri yaxınlığında ələ keçir. Onları orda-burda dəmir armaturları, şvellerləri görünən və dəmir qəfəsə bənzəyən bombalanmış benzinxana binasında ayaqlarından asır, ələ salırlar. Sonra isə dəmir qəfəsə bənzəyən örtülü maşında Milana gətirir və nümayiş etdirirlər.

Doğrudur, belə şayiə gəzir ki, Hitler bu katreni oxumuş, əsir kimi vəhşi heyvanlarsayağı, onu ölkə-ölkə gəzdirib nümayiş etdirəcəklərindən çox qorxurmuş. Odur ki, intihar etmişdir. Əslində Hitlerin gizləndiyi bunker dəmir qəfəsdən heç nə ilə fərqlənmirdi.

Taleyə bax, oxşar təbiətli, oxşar taleli, eyni əqidəli Hitler və Mussolininin ölüm anı da oxşar olub. Hər ikisi son anda – ölümlə üz-üzə dayananda, məşuqələri ilə birgə olub və bir yerdə məhv olublar. Ned Halley qanın yerdə qalmayacağı, qisas alınacağı barədə qəribə mülahizə irəli sürür. Tədqiqatçı göstərir ki, Stalinqradın mühasirəsi zamanı 500.000 şəhər əhalisindən yalnız 1515 nəfər sağ qalmışdı. Qalanları xəstəlik, aclıq və atışma zamanı məhv olmuşdu. Tədqiqatçı qeyd edir ki, katrenin 1-ci sətri rus əsgərlərinə aiddir. Onlar Elba çayını keçəndən sonra 50.000 alman qadınını zorlayaraq qisas almışdılar.[1]

**2 k25**

**Özgə zümrədən olan mühafizə dəstəsi qalanı təslim edəcək.**
**Himayə və ümid ali izdivacdan olana.**
**Gözətçini aldadacaqlar (doğrayacaqlar), qala dərhal tutulacaq.**
**Luara, Sena, Rona, Qar çayları kükrəyib sahillərini aşacaq.**

Tədqiqatçılar bu katrendə Nostradamusun nədən söz açdığı barədə inandırıcı fikir söyləyə biliblər. Con Houq bu katrendə general Bazendən söhbət getdiyini xüsusi vurğulayır və göstərir ki, Bazen 1870-ci ildə prussiyalılara qarşı hücuma keçmək əvəzinə Metsdə, qala divarları arxasında 170 minlik ordunu gözləmə mövqeyində saxlayıb. General Bazenin qətiyyətsizliyi ucbatından almanlar və müttəfiqlərinin ordusu Fransanın içərilərinə girərək Fransa–Prussiya müharibəsini qələbə ilə başa vurdu. Katrenin 1-ci sətrində yer alan "Özgə zümrədən olan" ifadəsi Aşil Fransua Bazenin kiçik alverçi ailəsindən olduğuna işarədir.

2-ci sətirdə söhbət III Napoleondan gedir. Lakin Bazenin acizliyi Fransaya baha başa gəldi. Xalq Napoleona ümid bəsləsə də, Sedan yaxınlığında mühasirəyə alınan III Napoleonun ordusu təslim oldu.

---

[1] Ned Halley. Nostradamusun katrenlərinin külliyyatı (ingiliscə). Britaniya, 1999, səh.175.

1872-ci ildə general Bazen hərbi-səhra məhkəməsi qarşısında cavab verməli olub. General Bazeni düşmənlərdən rüşvət almaqda, ölkəyə xəyanət etməkdə günahlandırdılar. Lakin onun rüşvət alması sübuta yetmədi. Bununla belə, onu Fransaya xəyanətdə təqsirli bilərək ömürlük həbs cəzasına məhkum etdilər.

**2 k26**

**Döyüş meydanında tez bir zamanda məğlub olacaq böyük kimsəni,**
**Şəhər xeyirxahlıq göstərərək qəbul edəcək.**
**O, Po və Tiçino çayları sahillərində döyüş mövqelərini qoyub qaçacaq.**
**Ölənlərin cəsədləri odun-alovun, qanın içində itib-batacaq.**

Ümumi fikir belədir ki, böyük görücü bu katrendə II Dünya müharibəsinin sonuna yaxın baş vermiş hadisələrdən bəhs edir. Katrenin ilk iki sətrində Nostradamus sanki hadisələrin iştirakçısı kimi, Benito Mussolininin başına gələnləri nəql edir. Göstərdiyimiz kimi, Mussolini və məşuqəsi Klara Pettaçi ölkənin şimalında, Milan yaxınlığında tutularaq (bax: 2 k24) şəhərə gətirilirlər. Milanda hər ikisi ayağından asılır və nümayiş etdirilirlər.[1]

Burada Nostradamusun obrazlı şəkildə işlətdiyi söz və ifadələr bir yandan adamı heyran edir, digər tərəfdən də mat qoyur: "Döyüş meydanında tez bir zamanda məğlub olacaq böyük kimsəni, ("böyük şəxsi" deyil, "kimsəni"!) Şəhər xeyirxahlıq göstərərək qəbul edəcəkdir"!

İnanmıram ki, Yaradanın qəzəbinə tuş olmağa layiq Mussolinin aqibətini bundan yaxşı kimsə təsvir edə biləydi.

---

[1] Ned Halley. Nostradamusun görücülüyünün külliyyatı (ingiliscə). Britaniya, 1999, səh.173; D.M.Smit. Mussolini (rusca). Moskva, 1995, səh. 372.

Son iki sətirdə Po və Tiçino sahillərində gedən qanlı döyüşlərdən, müttəfiq ordularının öldürücü həmlələrindən və düşmənin öz mövqelərini qoyub böyük itkilərlə qaçmasından danışılır.

## 2 k27

**O şəxs işini artıq davam etdirə bilməyəcək,**
**İlahi kəlam göydən ildırım kimi çaxacaq.**
**Gizli saxlanılanlar faş ediləcək.**
**Onlar yuxarıda və öndə gəzəcəklər.**

Tədqiqatçıların fikrincə bu və daha iki katrendə (2 k28, 2 k29) söhbət XX əsrin ən böyük dini rəhbəri, hindistanlı professor Oşodan (Radjniş Çandra Moxan) gedir. Ali idrakı ön plana çəkən Oşonun tərəfdarları get-gedə artırdı. Hindistanda və ABŞ-da kommunalar yaratmışdı. Oşonun şöhrəti artdıqca bədxahlarının da sayı get-gedə artırdı. Din və dövlət rəhbərləri ona qarşı çıxırdılar. Oşonu heç yerə uçmağa qoymurdular. 1985-ci ilin noyabrında onu ABŞ-ın Oklaxoma ştatında zindana atırlar. Katrenin son iki sətrində əslində bu məsələyə işarə olunur. Oşonun açıqlamaları və özü gizlədilir. Zirzəminin üstündə mühafizəçilərin, önündə isə Oşonun şagirdlərinin var-gəl etdiklərindən bəhs olunur.

## 2 k28

**Adı Peyğəmbərlərin adlarından axırıncıdan əvvəlinci olan adam,**
**Diana gününü özünə istirahət günü kimi qəbul edəcək.**
**O, böyük xalqı əsarətdən qurtaracaq.**
**Uzaqlarda gəzib-dolaşacaq, coşğunluğu ilə qəzəbli başların qeyzinə səbəb olacaq.**

Tədqiqatçılar bu katrenin də Oşo ləqəbli Radjniş Çandra Moxa - na (1931-1990) aid olduğunu qeyd edirlər. “Radjniş” – mahtabın, 14 gecəlik ayın – “bədrin hökmdarı” deməkdir. Oşonun adında sondan ikinci gələn “Çandra”da “hilal”, “aypara” mənasında işlənir.

Diana da Ay ilahəsidir.

Buddaçıların inamına görə hər 25 əsrdən bir dünyanın müəllimi Dxarma təkərini (insanın mənəvi təkamülünü hərəkətə gətirən qüvvəni) fırlayaraq bəşəriyyətin idrakını (şüurunu) yeni pilləyə istiqamətləndirir. Bunun XX əsrin sonu, XXI əsrin əvvəlində baş verdiyi güman edilir. Bu baxımdan, bütün dünyanı gəzən və Ali idrakdan söz açan, saysız-hesabsız tərəfdarlar toplayan Oşonun xidməti xüsusi qeyd edilir. Təkcə 1985-ci ilin mayından 1986-cı ilin noyabrına qədər Oşo aşağıdakı ölkələrdə olmuş və tərəfdarlar toplamışdır: ABŞ, Kipr, Hindistan, Nepal, Yunanıstan, Fransa, İsveçrə, İngiltərə, İrlandiya, Kanada, Seneqal, Uruqvay, Yamayka və Portuqaliya.

Oşo cəmiyyət və dinlər barədə, dövlətlər barədə təkrarsız mühazirələr oxuyur, unudulmaz çıxışlar edirdi.

Oşonun şəxsiyyətini dərk etmək üçün maraqlı olacağını nəzərə alıb, onun 1990-cı ildə etdiyi bir çıxışından aşağıdakı sətirləri oxuculara təqdim etməyi münasib bildik: "Yaradan sehrdir. Həqiqət də, gözəllik də, məhəbbət də eləcə. Lakin "qorxaq ağıl" hər vaxt qorxu axtarır, onu tapır və ondan əl çəkmir. O, əldə olunmuşdan yüksəyə – ali mərtəbəyə qalxa bilmir. O çoxdan məlum olan asan və adi yolla gedir. Həmişə nədənsə çəkinən, qorxan insan alətə çevrilir. O, qara fəhlə və kölədən heç nə ilə fərqlənmir. Dinlər bizi xofa, qorxuya təhrik edir. Cəhənnəmdən, günahdan, cəzadan qorxuya öyrədir. Cəmiyyət də eləcə. Cəmiyyət də bizi qorxuya öyrədir. Rüsvayçılıqdan, biabırçılıqdan, şərəfsizlikdən, həqarətdən qorxmağı təlqin edir. Təhsil də onlardan geri qalmır. O bizi uğursuzluq və məğlubiyyətlə qorxudur. Qorxu ilə eyni vaxtda insanda həsəd və ehtiras meydana gəlir: cənnət ehtirası, müvəffəqiyyət ehtirası, tanınmaq, məşhurlaşmaq ehtirası, ehtiram, hörmət görmək arzusu, cəmiyyətdə yüksək mövqe tutmaq arzusu, mükafat arzusu və s. Həsəd nəyisə daha çox əldə etmək üçün sonu görünməyən arzudur. Bu, qorxunun əks tərəfidir. Beləliklə, insanın şüurunu ehtiras, hərislik və həsəd

çulğalayır. Həsəd də özlüyündə tamahkarlıq (acgözlük) və hədsiz lovğalıq, xudpəsəndlik törədir. Və insanın həyatı bu qüsurlu və yanlış çərçivədə, çıxılmaz vəziyyətdə keçir.

Belə təhsil qorxuludur. Belə dinlər qorxuludur. Təhsil insana qorxmamağı təlqin etməlidir. Onu hərislik və həsəddən çəkindirməlidir. Müqavimət göstərməyi təlqin etməlidir. Mərd, cəsarətli və qeyrətli olmağı öyrətməlidir ki, müəmmalı, sirli, gizli məsələlərə cəsarətlə sinə gərsin.

Təhsil insana həsəd və başqaları ilə bəhs etməyi deyil, məhəbbət təlqin etməlidir. Təhsil insanda şöhrətpərəstlik hissini coşdurmamalıdır. Əksinə ona imkan verməlidir ki, təbii yolla aləmi dərk etsin. Lakin bu o vaxt baş verəcək ki, biz hər bir şəxsin bənzərsiz fərd olduğunu etiraf edək".

## 2 k29

**Şərqli adam taxt-tacından qalxaraq**
**Qalliyanı (Fransa) görmək üçün Apennin dağlarını aşacaq.**
**O, qarlı dağları, sulu çayları, səmanı yarıb keçəcək.**
**Müdriklik əsası ilə hər kəsi yerində otuzduracaq.**

Yuxarıda deyildiyi kimi, bu katrendə də Şərq filosofu Oşodan danışılır. 1986-cı ildə Oşo Yunanıstanda olarkən ortodoksal kilsə və Amerika səfirliyinin təzyiqi ilə ölkədən çıxarılıb. Maraqlıdır ki, Oşonun yolu dörd əsr əvvəl Nostradamusun göstərdiyi marşrutla tam uyğun gəlib. Oşo təyyarə ilə Apennin dağlarından keçərək Fransanı görüb. Nits şəhərinə enərək benzin götürən kimi, onu məcbur edirlər ki, qarlı-dumanlı Alp dağlarının zirvəsindən keçərək İsveçrəyə uçsun.

Bəzi rus tədqiqatçıları bu katreni İranla bağlayırlar. Yazırlar ki, iranlılar hava ilə uçub Fransaya böyük zərbə endirəcəklər. Bundan fransız xalqı məşəqqət çəkəcəkdir.[1] Rus tədqiqatçılarının

[1] А.Морок, К.Разумовская. Новая расшифровка предсказаний Нострадамуса. Москва, 2000, стр. 82.

əsərlərində buna bənzər ağlasığmaz fikirlər çoxdur. Hamısını da Şərqlə–İslam aləmi ilə bağlayırlar.

### 2 k30

**Hannibalın cəhənnəm allahlarından birini oyanmağa məcbur edən kəs,**
**İnsanları vahiməyə salan terrorun canlı mücəssəməsi olacaq.**
**Belə dəhşət bir daha olmayacaq və buna bənzər bir şey olmayıb. Salnamələrə düşməyib.**
**Sonra Babildən keçib italyanlara üz tutacaq.**

Bu katren barədə tədqiqatçılar bir onu deyə biliblər ki, katren terrorla bağlıdır. Şərhçilər bu katrendən yan keçiblər. Bu təbiidir. Hadisə baş verməmiş şərhçilər nə deyə bilərdilər. Lakin 2001-ci ilin sentyabr ayının 11-də Nyu-Yorkda "Dünya Ticarət Mərkəzində" və eləcə də Vaşinqtonda Pentaqonun (ABŞ Müdafiə nazirliyi) binasında baş verən dəhşətli partlayışlar, tarixdə görünməmiş terror aktları bizə imkan verir ki, çəkinmədən deyək ki, böyük görücü katrendə bu müdhiş hadisəni işıqlandırıb. Bu terror aktı Nostradamusun görüntülərində geniş işıqlandırılıb (bax: 1 k87, 5 k96, 6 k97, 9 k48, 10 k49). Görünür görücü bu terror aktı ilə bağlı dünyada böyük hadisələrin baş verəcəyini qabaqcadan görüb və bu hadisə onun diqqətini güclü şəkildə çəkib. 4-cü sətirdə göstərilən güman ki, adi bir şey deyil. ABŞ İraqa qarşı yenə də zor işlətdi (2003, mart). Gələcəkdə İtaliyada böyük terror aktlarının və ya dövlət çevrilişinin olacağı gözlənilə bilər. Lakin 3-cü sətir bu ehtimalı şübhə altına alır.

### 2 k31

**Kompani əyalətində Volturnoçay o qədər daşacaq ki,**
**Çöllərdə sudan başqa heç nə görünməyəcək.**
**Uzun müddət yağan yağışdan əvvəl və sonra,**
**Ağaclardan başqa heç bir yaşıllıq gözə dəyməyəcək.**

Bu katrendə quraqlıqdan sonra baş verəcək davamlı yağışlardan və təhlükəli daşqınlardan söhbət gedir. Bu katrenlə Nostradamus özündən sonrakı nəsillərin diqqətini ekologiya barədə düşünməyə çəkir. Əks təqdirdə, iqlim şəraitinin dəyişməsi və XXI əsrdə Yer üzünü Nuh Peyğəmbərin vaxtında olduğu kimi, daşqınların basması ehtimalı artır.

**2 k32**

**Süd və Dalmasiyada hazırlanan qurbağa qanı**
**Toqquşmaya səbəb olacaq, Trebula yaxınlığında vəba baş verəcək.**
**Bütün Sloveniyanı ah-nalə bürüyəcək.**
**Ravenna və yaxınlığında əcaib (qəddar) adam peyda olacaq.**

Tədqiqatçılar bu hadisələrin Dalmasiyada (Balkanlar) baş verəcəyini göstərərək qeyd ediblər ki, burada ya kimyəvi və ya bioloji qırğın silahı hazırlanacaq, ya da müharibə olacaq. Bütün bunlar fərziyyə idi. Yuqoslaviya hadisələri (XX əsrin sonu) Nostradamusun uzaqgörənliklə dediklərini təsdiqlədi. Balkanlarda müharibə baş verməsi 3-cü sətirdə öz əksini tapıb. "Bütün Sloveniyanı ah-nalə bürüyəcəkdir" deməklə bəlkə də Nostradamus 1986-cı ildə Çernobıl Atom Elektrik Stansiyasında baş verən dəhşətli partlayışdan söz açır.

4-cü sətirdə İtaliyanın Ravenna şəhəri yaxınlığında anadan olan Papa XIV Klement və ya Mussolinidən söhbət gedə bilər.

O ki qaldı "süd", "qan", "qurbağa" sözlərinə, Nostradamusun şərhçiləri bu sözləri bioloji və kimyəvi qırğın silahları ilə bağlayırlar. Bizə qalırsa, bu başqa bir məsələ ilə bağlıdır. Biz ona arxalanırıq ki, vaxtilə həkimlər və eləcə də ara həkimləri limfa mayesi və spermanı süd və qan adlandırırdılar. Bu maddələr, məlumdur ki, immun sistemini yaşadır. Bəs Nostradamus "qurbağa" sözünü nəyə görə işlədir? Nostradamusun zamanında kəmsavad kənd həkimləri qurbağanı hər cür yoluxucu xəstəliyin mənbəyi sayırdılar. Bunu nəzərə alsaq "süd", "qan" və "qurbağa"nın sirrini açmış

oluruq. Bu müasir SPİD xəstəliyinin mənbəyidir. Məlumdur ki, bu yoluxucu xəstəlik yalnız cinsi əlaqə və qan vasitəsi ilə keçir.

Nostradamus bu xəstəliyin əlacının çox uzaqda olduğunu göstərmişdir (bax: 3 k75). Deməli, SPİD-in əlacı fəza ilə bağlıdır.

## 2 k33

**Veronadan enib gələn daşqın, axıb Po çayına töküləndə**
**İtaliyada dəhşətli gəmi qəzası baş verəcək.**
**Belə bir qəza Qaronna çayında da olacaq.**
**Bu vaxt genuyalılar onların ölkəsinə qarşı yürüş edəcəklər.**

Katrendə Fransa və İtaliyada Po çayının daşması nəticəsində böyük bədbəxtliklərin olmasından danışılır. Şərhçilər bu katrenlə bağlı qəti söz deməkdən çəkiniblər. Belə güman edilir ki, iqlimin dəyişməsi nəticəsində katrendə göstərilənlər XXI əsrdə baş verəcəkdir.

## 2 k34

**Amansız döyüşdə çox güclü qəzəb,**
**Qardaşları qılıncları stolun üstünə qoymağa məcbur edəcək.**
**Onlar yaralanıblar, ayrılıblar, hər şeyi bilmək istəyirlər.**
**Onların məğrurluqla döyüşmələri Fransaya mənfi təsir göstərəcək.**

Tədqiqatçılar göstərirlər ki, son dörd-beş əsrdə fransız şahzadələri arasında baş verən fitnə-fəsadlar saymaqla qurtaran deyil.

Bir şey var ki, saray əyanlarından danışanda Nostradamus bir işarə və ya sözlə hadisənin hansı hökmdarın vaxtında və ya kimlər arasında baş verdiyini göstərir. Bizə qalırsa, bu katrendə böyük görücü Fransa və müttəfiqləri (məs., ABŞ, İngiltərə və başqaları) arasında gedən çəkişmələrdən bəhs edir. XX əsrin 2-ci yarısında, De Qoll və F.Mitteranın hakimiyyəti dövründə biz bunun şahidi olmuşuq.

Ned Halley isə bu katreni Avropa Birliyi ilə bağlayır. Türkiyə - nin Avropa Birliyinə tamhüquqlu üzv olmasına Yunanıstan İtaliyanın müdafiəsi ilə Avropa Şurasından çıxmaqla hədələyərək mane olur. Bu, təbii ki, iqtisadi müharibədir. 2003-cü ilin əvvəlində Avropa Birliyinin 22 tamhüquqlu üzvü vardı. 17 dövlət, o cümlədən də Türkiyə bu Birliyə üzv olmağa cəhd edir.

**2 k35**

**İki binada gecə vaxtı alov qalxacaq**
**İçəridəkilərin bir çoxu boğulacaq və yanacaq**
**Bu, iki böyük çayın arasında mütləq baş verəcək.**
**Günəş Oxatan və Oğlaq bürcündə olanda onlar hamısı məhv olacaqlar.**

Bəzi tədqiqatçılar Parisin Marna və Sena çayları arasında olduğunu nəzərə alaraq hadisənin hansı ildəsə dekabr ayının sonunda Günəş Oxatan və Oğlaq bürclərini keçəndə Parisdə baş verəcəyini göstərirlər.

Bəziləri isə qeyd edirlər ki, Nostradamus 1994-cü ilin oktyabr ayında xristian dininin sektasının İsveçrə və Kanadada baş verən qırğınından (53 nəfər) bəhs edir.

Bizcə, bu katrendə böyük görücü, başda ABŞ olmaqla 34 ölkənin hərbi qüvvələrinin İraqa qarşı apardığı ədalətsiz müharibədən söz açır (15 yanvar 1991-ci il). Məlumdur ki, ABŞ hərbi obyektləri gecə vaxtı raket atəşinə tutmaq təcrübəsinə ilk olaraq İraqdan başlayıb. "Körfəz müharibəsi" (və ya Amerika hərbçilərinin dediyi "Səhrada tufan") gedişində Bəsrə yaxınlığında İraqın yerin altında düzəldilmiş kazarmaları və Bağdadda "Ambasador" mehmanxanasının zirzəmisində yerləşən Baş hərbi qərargahı, Rəşid küçəsində yerləşən və kompyuterlərlə idarə olunan hərbi rabitə sistemi qurulmuş binanı sərrast raket atəşinə tutaraq çoxlu miqdarda hərbçinin ölümünə və binaların dağılmasına səbəb olmuşdur. Böyük görücü, demək olar ki, hadisənin baş verəcəyi vaxtı da düz göstərmişdir.

Olsa-olsa iki həftə fərq vardır ki, bu da hesablamaların müxtəlif təqvimlərlə aparılması ilə bağlı ola bilər (bax: 6 k33, 10 k68,10 k86).

### 2 k36

**Böyük Peyğəmbərin yazılarını qapıb götürəcəklər.**
**Və onlar Tiranın əlinə düşəcək.**
**Onun işi hökmdarı aldatmaq olacaq.**
**Lakin oğurluğu tezliklə ona bədbəxtlik gətirəcək.**

Bəzi tədqiqatçılar (məs., Ceyms Rendi, 1990-cı ildə) göstərirlər ki, guya bu katren böyük görücünün oğlu Sezarla bağlıdır. Sezar qoca vaxtında, 1629-cu ildə Nostradamusun protestantlara rəğbətlə latınca yazdığı məktublarını yığmış, fransız dilinə tərcümə etmiş, Jan Düpeb tərəfindən "Nostradamusun çap olunmamış məktubları" adı ilə nəşr olunmuşdur. Guya 4-cü sətirdə Sezarın qardaşı oğlu Visenta Sevanın 58 bənd 6 sətirlik katren uydurmasından, bunu Nostradamusun yazdığını bəyan edərək 1605-ci ildə kral IV Henriyə verdiyindən danışılır.

Demək lazımdır ki, Sezar adlı-sanlı tarixçi kimi böyük hörmət və ehtirama malik olmuş, başına heç bir bədbəxtlik gəlməmişdir.

Sezar Salon şəhərinin 1-ci konsulu (ən yüksək vəzifə sahibi) olub. Tanınmış ədəbiyyatçı və tarixçi kimi, zamanında məşhur olan "Provansın tarix və salnaməsi", "Müqəddəs Maqdalinanın izləri" və şeirlər topluları: "Kraliça Yekaterina Mediçinin öz şəhərinə gəlişi", "Narsisin təsviri" (Narsis özü-özünə vurulmuş adam) və s. əsərləri yazmışdır. Bədii və ictimai fəaliyyətinə görə kral XIII Karl Sezarı "zadəgan rütbəsi"nə layiq görüb. Çox uzun həyat sürən bu müdrik (Nostradamus bütün bunları görmüş və miras qoyub getdiyi iki Açıqlamadan – məktubdan birini kral II Henriyə, birini isə oğlu Sezara ünvanlamışdır) 1630-cu ildə dünyasını dəyişib.

Əgər tədqiqatçılar bu katreni Nostradamusun oğlu Mişellə bağlasaydılar, yenə dərd yarı idi. Bir dəfə kral ordusu Ruzen adlı kiçik bir şəhəri mühasirəyə alıbmış. Mişel bəyan edir ki, əsgərlər

şəhəri yandıracaqlar. Sözünün düz çıxması üçün özü bir neçə evi yandırır. Lakin cinayət başında tutulur və qəzəblənmiş ev sahibləri tərəfindən öldürülür. Mişelin onda cəmi 24 yaşı vardı. Onun "Astrologiyadan traktat" adlı böyük həcmli əsəri qalıb. Ancaq katren Mişeldən də bəhs etmir.

Eləcə də Visenta Sevayladan.

Nostradamus mütləq baş verəcək hadisələrdən söz açdığına görə biz bu katrenlə bağlı hadisələri başqa zamanla bağlamağı üstün tuturuq.

Yəqinliklə demək olar ki, böyük görücünün bu katrendə bəyan etdikləri II Dünya müharibəsi zamanı baş verib. Almaniyanın təbliğat naziri Qebbels Nostradamusun katrenlərini astroloq Karl Ernest Kraft vasitəsilə əldə edir. Kraft Qebbelsin təsiri ilə Nostradamusun katrenlərini bilərəkdən faşist Almaniyasının xeyrinə şərh edir. Guya Nostradamus Almaniyanın qələbəsini göstərmişdir. Qebbels katrenləri milyon tirajla çap etdirmişdi. Həqiqət naminə qeyd edək ki, Kraft Almaniyanın Fransa üzərində qələbəsini düz şərh etmişdi. Almanlar Fransanın paytaxtı Parisi də tutmuşdular. Qebbels Nostradamusun katrenləri və Kraftın şərhləri barədə Hitlerə təfsilatı ilə məlumat vermişdi. Vaxt keçdikcə "işi-gücü hökmdarı aldatmaq olan" Kraftın yalanının (oğurluq) üstü açılıb və Kraft həbs edilib. O, 1945-ci ilin yanvarında Buxenvald düşərgəsinə aparılarkən yolda ölüb.

### 2 k37

**Göndərilən çoxsaylı dəstədən,**
**Mühasirədə olanlara kömək gələcək.**
**Xəstəlik və aclıq onların hamısının axırına çıxacaq.**
**Dəstədən ayrılmış yetmiş nəfər də məhv olacaq.**

Nostradamusun tədqiqatçıları bu katren barədə bir söz deyə bilməyiblər. Ola bilsin ki, katrendə göstərilənlər Nostradamusun zamanında Fransada baş verib. Məlumdur ki, o, bəzən gücünü gös -

tərmək üçün yaşadığı dövrdə baş verəcək hadisələrdən də söz açırdı ki, ona bir görücü kimi inansınlar, ona fırıldaqçı, yalançı gözü ilə baxmasınlar.

Lakin onu da demək lazımdır ki, bəzi tədqiqatçılar məsələnin məğzini aça bilməyəndə bənzər hadisələri tapıb üzə çıxarır və Nostradamusun həmin məsələdən söz açdığını təsdiqə çalışırlar. Məsələn, Ned Halley bu katreni 1836-cı ildə Texas yaxınlığında Alamo hərbi istehkamı uğrunda gedən vuruşla əlaqələndirir. Alamo qarnizonu 183 nəfərdən ibarət olub. Hərbi istehkamı ələ keçirmək istəyən meksikalıların sayı isə 5.000 nəfərdən artıq imiş. Döyüş vaxtı meksikalılar 1000-dən artıq döyüşçü itirsələr də, mühafizəçiləri qıraraq istehkamı ələ keçirirlər. Lakin tezliklə Texasdan gələn hərbi hissələr meksikalıları məhv edirlər. Ölümdən canını qurtaranların isə xəstəlik və səhrada aclığın ucbatından məhv olacaqları ehtimal edilirdi. Bəlkə də tədqiqatçının yazdıqlarında bir həqiqət vardır.

**2 k38**

**Dövlət başçıları barışan vaxt**
**Saysız-hesabsız insan ölümə məhkum olacaq.**
**Onlardan biri mat qalaraq çox sıxıntı keçirəcək.**
**Onlar çətin ki, müttəfiq olaraq qalsınlar.**

XX əsrin ortalarında yaşayanlar, xüsusən də keçmiş Sovetlər məkanının sakinləri çəkinmədən deyə bilərlər ki, katrendə söhbət 24 avqust 1939-cu ildə Almaniya ilə Sovet İttifaqının bir-birinə hücum etməmək haqqında bağladıqları müqavilədən (Molotov və Ribbentrop imzalayıblar) və bundan sonra baş verən hadisələrdən gedir. Həmin müqavilə katrendə göstərildiyi kimi, milyonlarla insanın ölümünə səbəb oldu. Müqavilə Polşanın parçalanmasına gətirib çıxardı. Ölkənin qərb hissəsini Almaniya, şərq hissəsini Sovet İttifaqı işğal etdi. Bu müqavilə, eyni zamanda Hitlerin planlarını həyata keçirməyə əlverişli şərait yaratdı. Hitler Fransanı zəbt

edərək Britaniyanı təklədi. Müqavilə bağlanandan iki il sonra Hitler 3800 tank və üç milyonluq ordu ilə Sovet sərhədlərinə yaxınlaşdı. Deyirlər ki, öz səhvini məyusluqla dərk edən Stalin bu işə mat qalaraq çox sıxıntı keçirib.

Nostradamus kral II Henriyə ünvanladığı Açıqlamada da bu müqavilədən bəhs etmişdir.

Müharibənin ilk ili Sovetlər 20.000 tank, 15.000 təyyarə və 6 milyon hərbçi itirdi. Müharibənin üç ili ərzində Şərq cəbhəsində 2,5 milyon alman, 21-27 milyon arasında Sovet əsgəri məhv edilib.

Nostradamusun dörd əsr əvvəl göstərdikləri dörd əsr sonra tamamilə yerini alıb.

Rus tədqiqatçısı N.V.Belov bu katreni Nostradamusun zamanına, ölkə daxilində dini müharibələrin başlandığı 1556-cı ilə aid edir. O, göstərir ki, Fransa ilə İspaniya arasında sülh bağlandığına görə Fransada dini müharibələr başlandı. Burada məntiqsizlik göz qabağındadır. İkinci sətirdən göründüyü kimi, "Saysız-hesabsız insan ölümə məhkum olacaq" sətri bizim müddəamızın doğruluğuna şübhə yeri qoymur.

## 2 k39

**İtaliya münaqişəsindən bir il əvvəl,**
**Almanlar, fransızlar və ispanlar qala uğrunda mübarizə aparacaqlar.**
**Respublikanın eyni doktrina tərəfdarlarının birliyi süqut edəcək.**
**Onlardan az bir qismi asılmaqdan xilas olacaq.**

Katrendə göstərilənlər yüzdə yüz yerinə yetmişdir. "İtaliya münaqişəsi" – İtaliyanın 1940-cı ildə II Dünya müharibəsinə qoşulmasıdır.

Bir il əvvəl, 26 yanvar 1939-cu ildə Frankonun rəhbərliyi və İtaliya ordusunun köməyi ilə falangistlər (İspaniya faşist partiyasının üzvləri) hərbi istehkama çevrilmiş Barselona şəhərini tut-

muşdular. İspaniya respublikaçılarının və beynəlmiləl qüvvələrin tərəfində minlərlə fransız əsgərləri də döyüşürdü. Buna baxmayaraq, katrenin 3-cü sətrində şairanə şəkildə deyildiyi kimi, 28 mart 1939-cu ildə Respublikaçılar hökuməti çökdü. Britaniya və Fransanın müraciətinə məhəl qoymayan Franko və tərəfdarları bir çox respublikaçıların güllələnməsinə və ya asılmasına rəvac verdilər.

**Katrenin nömrəsi:** k39–1939 – İspaniyada vətəndaş müharibəsinin sona yetdiyi və II Dünya müharibəsinin başlandığı tarix ilə uyğun gəlir.

### 2 k40

**Barışıq çox çəkməyəcək, bir az sonra**
**Dənizdə və quruda döyüşlər başlayacaq.**
**Dənizdə indiyə qədər görünməmiş döyüşlər olacaq.**
**Od-alov, yanğın, müdhiş silahlar daha böyük çaşqınlıq yaradacaq.**

Katrenin 1-ci sətrində I Dünya müharibəsindən az sonra dəhşətli hadisələrin olacağından xəbər verilir. Bəlkə də Fransanın görkəmli hərbi xadimlərindən olan marşal Foşun özündən dörd əsr öncə yaşamış həmvətəni Nostradamusun yazdığı bu katrendən xəbəri olub. Çünki 1919-cu ildə I Dünya müharibəsinin yekunu ilə bağlı Versal sülh müqaviləsinə dair fikrini soruşanda marşal Foş deyib: “Bu sülh deyil, bu iyirmi illik müvəqqəti barışıqdır”.

Bir çox analitiklər, tarixçilər, adlı-sanlı siyasətçilər bu fikirdə olublar ki, II Dünya müharibəsinə hazırlıq ədalətsiz, alçaldıcı Versal sülh müqaviləsinin zəminində gedib. Hitler xalqın intiqam hissi ilə oynayaraq hakimiyyətə gəlib və sürətlə müharibəyə hazırlaşıb. İkinci Dünya müharibəsi Versal sülh müqaviləsindən düz 20 il sonra başlayıb. Müvəqqəti barışıq (1919-1939) nəticə verməyib. Katrenin yerdə qalan üç sətrində qanlı döyüşlər, tankların, təyyarələrin, hərbi gəmilərin uğultusu, partlayışlar və s. təsvir olunur.

## 2 k41

**Böyük ulduz yeddi gün parıldayacaq.**
**Bulud iki günəşin görünməyinə səbəb olacaq.**
**Pontif məkanını dəyişəndə**
**Bütün gecəni göy guruldayacaq.**

Tədqiqatçılar bu katren barədə az yazıblar.

Belə bir hadisə 1812-ci ildə Napoleonun Rusiyaya qarşı hərbi əməliyyatı zamanı baş verib. Lakin son zamanlar şərhçilər katreni 1994-cü ildə Şumaxer–Levi kometasından qoparaq Yupiterə düşən 21 ədəd qəlpə (parça) ilə bağlayırlar. Bu hadisə düz yeddi gün davam edib. 2-ci sətirdə güman edilir ki, nüvə partlayışından söhbət gedir. Mişel Nostradamus 3-cü sətirdə və hətta ondan çox-çox əvvəl müqəddəs Malaxiya göstərmişlər ki, Vatikanın son Papası Romalı Pyotr olacaqdır. Müqəddəs Malaxiyanın 1595-ci ildə Vatikanın kitabxanasında üzə çıxarılan əlyazmasında göstərilib ki, Vatikanda 1-ci Papadan başlamış cəmi 111 Papa olacaq. II İohann Paveldən sonra (1978-2005) isə Vatikanda yalnız iki Papa olacaqdır (bax:1 k4).

Bu əlyazma Nostradamusun ölümündən təqribən 40 il sonra üzə çıxarıldığından qəti şəkildə demək olar ki, Nostradamusun ondan xəbəri yox idi. Belə olan halda, müqəddəs Malaxiya və Nostradamusun hər ikisinin Romalı Pyotrun Vatikanda son Papa olacağı fikirləri maraq doğurur. Katrenin son iki sətrindən də göründüyü kimi, Vatikanda elə hadisələr baş verəcək ki, Papa Romalı Pyotr ölkəni tərk etməli olacaqdır.

Bu katreni baş verəcəyi ehtimal olunan III Dünya müharibəsi ilə (Erika Çitəm), İngiltərənin baş naziri işləmiş Vinston Çörçillə (Dr.Fonbryun) də bağlayanlar olmuşdur.

David Ovason isə bu katreni 1572-ci ilin avqust ayında səmada görünən və “Nova” adını alan ulduzla bağlayır. Bu ulduz hamının diqqətini o qədər çəkmişdi ki, tədqiqatçıların kosmos barədə dünyagörüşünün dəyişməsinə gətirib çıxardı. Bu ulduzla bərabər səmada Sirius ulduzunun da göründüyünü qeyd edirlər. Qədim eranın sonuna

yaxın Roma şair və astroloqu Manilius “Astranomica” adlı poema - sında yazmışdı ki, Sirius başqa ulduzlar aləminin günəşidir. Sirius ulduzunun 1572-ci ildə görünməsi vaxtı katrenin 3-cü sətrindəki “Pontif (Papa – nüfuzlu şəxs) məkanını dəyişəndə” sözləri həmin il Papa V Piyin ölməsinə işarədir. Onun ölümündən sonra İdo Voinsan XIII Qriqori adı ilə Papa seçildi. XIII Qriqori Papa seçiləndən sonra bir çox islahatlar həyata keçirdi. Onlardan biri də təqvimin dəyişdirilməsi idi. Həmin təqvim “Qriqori təqvimi” adı altında, demək olar ki, bütün dünyada qəbul olunub və indi də işlənir.

Bir çox katrenlərdə olduğu kimi, bu katrendə də Nostradamusun bəyan etdikləri o qədər dərinliklərə gedib çıxır ki, insan onları dərk eləyəndə görücünün dahiliyinə mat və heyran qalır. Maykl Cordan bu katrenin 4-cü sətrində Papa VII Piy və Napoleondan bəhs olunduğunu göstərir. O, qeyd edir ki, 1804-cü ildə imperator VII Piyi özünün tacqoyma mərasiminə dəvət edir. Papa Parisə gəlir. Tacqoyma mərasimində Napoleon özünü imperator elan edir və tacı Papanın əvəzinə özü öz başına qoyur. Sən demə, Napoleon Papanı aldadaraq Parisə gətiribmiş ki, dünya ictimaiyyəti görsün ki, o, papa VII Piyin xeyir-duası ilə imperator olub və tacqoyma mərasimində Papa şəxsən iştirak edib.

Bundan sonra Napoleonla Papa VII Piyin arası dəyir və Napoleon 1809-cu ildə Romanı tutanda Papa VII Piyi həbs etdirir. O, beş ilə qədər həbsdə olur. 1814-cü ildə Napoleon 1-ci dəfə hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra Papa həbsdən azad olunub.

### 2 k42

**Xoruz, it və pişiklər qanla yemləndiriləcəklər.**
**Zülmkar aldığı yaradan ölümcül vəziyyətdə tapılacaq.**
**Başqa birisinin çarpayısında əlləri və ayaqları sınmış halda olacaq.**
**Ömründə ölümdən qorxmayana amansız ölüm qismət olacaq.**

Fransalı tədqiqatçı Leoni bu katrenin 1792-ci il Fransa Burjua inqilabı zamanı baş verən hadisələrdən bəhs etdiyini göstərir. Xoruz



***29 iyun 1794-cü ildə edam edilən Robespyerin son anları***

Fransanın rəmzidir. "İt və pişiklər" isə "qaragüruh" mənasında işlənmişdir. İnqilab vaxtı Robespyerin rəhbərliyi ilə dəhşətli terror aktları olub. 1794-cü il iyulun 12-dən 28-ə qədər iki il öncə doktor Gilyotin tərəfindən ixtira edilmiş başkəsən maşında – gilyotində 1285 nəfərin başı bədənindən ayrılıb. Bütün bunlar tiran Robespyerin ucbatından baş verib. Az sonra milli qvardiyaçılar Robespyeri ələ keçirirlər. Atışma zamanı o, çənəsindən ağır yaralanır. Bütün gecəni qızdırma içində sayıqlayaraq can verən Robespyer səhərisi gün, 29 iyun 1794-cü ildə məhkəməsiz-filansız Parisin indiki Həmrəylik meydanında (o vaxtkı İnqilab meydanı) edam edilib.

## 2 k43

**Quyruqlu ulduz görünən vaxt,**
**Üç böyük şahzadə bir-birinə düşmən kəsiləcək.**
**Səbatsız sülh səmadan (fəzadan) zərbə alacaq.**
**Po və qıvrılıb axan Tibr ilanı sahilə atacaq.**

Nostradamusun ən müəmmalı, dərk olunması müşkül olan katrenlərində belə, bir çox hallarda tədqiqatçılar müəyyən işarələrə arxalanaraq məsələnin kökünə gedib çıxa bilirlər. Eləcə də bu katrendə. Katrendə göstərilənlər Nostradamusun vaxtında baş verib.

Quyruqlu ulduz (kometa) Fransa səmalarında 1 mart 1556-cı ildə 3 ay müddətində görünüb. İyul ayında isə İspaniya kralı bir yandan, Papa IV Pavel (İtaliya) və II Henri (Fransa) ikinci tərəfdən müharibəyə başlayıblar. 14 sentyabr 1557-ci ildə Papa IV Pavel və II Filipp sülh bağlayıblar. Mütəxəssislərin yazdıqlarına görə, səhərisi gün Tibr çayında böyük daşqınlar baş verib. Çitəm isə başqa fərziyyə irəli sürür. O,1881-ci ildə Almaniya, Avstriya və İtaliya üçlüyünün Fransaya qarşı olmasından danışır. Nədənsə 2-ci sətirdə Nostradamusun göstərdiklərini tərsinə yozur.

**2 k44**

**Çadırdan kənara qovulmuş qartalı**
**Başqa quşlar təqib etməyə başlayacaqlar.**
**Simbal, şeypur və qoşqu zınqırovlarının səsləri**
**Duyğusuz xanımın hissiyyatını bərpa edəcək.**

Nostradamus dəfələrlə Napoleonun hərbi bayraqlarında qızılı qartalın həkk olunduğunu göstərmişdir. Bu katrendə də görücü quşlardan məharətlə istifadə edərək, poetik bir mənzərə yaratmışdır. Məlumdur ki, Avstriya və Rusiya, eləcə də Prussiya dövlətlərinin gerbində ikibaşlı qartal həkk olunmuşdu. Napoleon Alman və Prussiya ordularına qarşı döyüşdə məğlub olduqdan sonra 1814-cü ilin aprelində hakimiyyətdən kənarlaşmağa məcbur olmuşdu. Bütün Avropa fransızların məğlubiyyətini, əslində isə qələbəni bayram edirdi. 3-cü sətir qaliblər üçün əlamətdar olan bu hadisədən bəhs edir.

"Duyğusuz xanım" Fransa Respublikasının rəmzi Mariannadır. Onun hissiyyata gətirilməsi isə Burbonlar hakimiyyətinin bərpasına işarədir.

## 2 k45

**Göylər Androginə görə nə qədər ağlayacaq.**
**Göylərdə insan qanı axıdılmış.**
**Verdiyi itkilərə görə böyük xalq çox gec özünə gələcək.**
**Gözlənilən kömək gec-tez gəlib çatacaq.**

Birinci sətirdə Nostradamus əfsanəvi Androgindən söhbət açır. Androgin Krit adasından olan Minosun oğludur. Androgin Afinada yarış vaxtı Panteonun (bütün Allahların) mükafatını qazanan qəhrəmandır. Mübarizədə və gücdə heç kim onu yenə bilmirmiş. Buna görə də afinalı gənclər ona paxıllıq edir və onu hiylə ilə öldürürlər.

Tədqiqatçılar bu katren barədə bir söz deyə bilməyiblər.

Hadisələrin gələcəkdə baş verəcəyi və planetlərarası müharibələrdən bəhs olunduğu ehtimal olunur. Tədqiqat nəticəsində Nostradamusun görücülüyünün üçdə ikisinin artıq yerinə yetdiyinin və üçdə birinin 2242-ci ilə qədər baş verəcəyini nəzərə alsaq, bu inandırıcıdır.

Doğrudur, Androgin Aristotel fəlsəfəsində hər iki cinsi eyni dərəcədə təmsil edə biləcək ən ideal adam mənasını da verir. Belə olduğu halda, deyə bilərik ki, katrendə söhbət süni surətdə, laboratoriya şəraitində insanın yaradılmasından gedir. Sirr deyildir ki, bə - zi ölkələrdə alimlər bu problem üzərində işləyirlər. Güman ki, "Gözlənilən kömək gec-tez gəlib çatacaqdır" – deməklə Nostradamus alimlərin gələcəkdə süni yolla uşaq yaradacaqlarına işarə edir.

## 2 k46

**Böyük əzab-əziyyətdən sonra, bəşəriyyət daha ağır**
**iztirablara düçar olacaq.**
**Əsrlərin böyük təkanverici qüvvəsi təzələnəcək.**
**O, özü ilə qanlı yağış, süd, aclıq, odlu silahlar gətirəcək.**
**Səmada quyruğu uzun alovdan olan (quşlar) görünəcək.**

Tədqiqatçılar doğru olaraq belə hesab edirlər ki, bəşəriyyətə ən böyük miqyaslı ilk bədbəxtliyi, əzab-əziyyəti II Dünya müharibəsi gətirmişdir. Lakin elə buradaca katrenin qalan sətirlərində göstərilənlərin gələcəkdə labüd olaraq baş verəcəyini vurğuladıqları III Dünya müharibəsi ilə bağlayırlar. Katrenin 4-cü sətrini isə hansısa kometa ilə və ya guya III Dünya müharibəsinin başlanğıcında atılacaq raket ilə əlaqələndirirlər. Əslində, katrendə söhbət II Dünya müharibəsi nəticəsində böyük texniki proqresin baş verdiyindən, Nostradamusun göstərdiyi kimi, əsrlərin böyük təkanverici qüvvə - sinin təzələnməsindən, 2-ci minilliyin 3-cü minilliklə əvəz olunmasından gedir. Bəs bu təzəlik nədir? Tarixin təkəri fırlananda, insanın mənəvi təkamülünü hərəkətə gətirən qüvvə bəşəriyyəti yeni pilləyə istiqamətləndirəndə nələr baş verir? 3-cü sətirdə göstərilən "qanlı yağış" (yəni qantökən, məhv edən yağış) heç şübhəsiz ki, radioaktiv çöküntülərə işarədir. Nüvə partlayışları, kimyəvi və bakterioloji silahların sınağı zamanı baş verənlər isə, deyildiyinə görə, qanlı südə bənzəyir. "Qanlı süd" qanın xərçəngi deməkdir. Bütün bunları Nostradamus dəqiqliklə görmüşdür. Lakin insanı təəccübləndirən, mat qoyan 4-cü sətirlə bağlı məsələlərdir. XVI əsrdə yaşamış Nostradamusun XX əsrin 2-ci yarısında kəşf olunan planetlərarası raketləri söz tapıb məharətlə təsvir etməsi adamı heyrətə gətirir. Bu möcüzə adama İlahinin verdiyi qüdrət qarşısında baş əyməli olursan.

## 2 k47

**Qəm, qüssə, kədərdən üzülən qarı düşmən, zəhərdən öləcək,**
**Hökmdarlar əbədi məğlub olmuşlar.**
**Buludlar arxasından görünməyən daşlar yağış kimi yağanda**
**Ölüm ayağında heç nə yüngüllük gətirmir.**

Tədqiqatçılar bu katren haqqında da qəti bir söz deyə bilməmişlər. Onlar hadisələrin gələcəkdə baş verəcəyini vurğulayırlar.

Katrenin hansı dövrdən, kimdən bəhs etdiyini dəqiq bilməsək də, gün kimi aydın bir həqiqətin – Nostradamusun dərin fəlsəfi

fikirlərinin bu katrendə qırmızı xətt kimi keçdiyini görməmək mümkün deyil.

Qiyamət günü buludlar arxasından görünməyən qızmar metal və daş kütləsinin yağacağı və bu zaman var-dövlətin heç kimin vəziyyətini yüngülləşdirə bilməyəcəyi də Quran və başqa müqəddəs kitablardan məlum olsa da, böyük görücü bu həqiqəti, yaddaşı da ömrü kimi gödək olan biz insanların yadına salmağı özünə borc bilir.

**2 k48**

**Böyük ordu (qüvvə) dağları aşanda,**
**Saturn Oxatan bürcündən Mars və Balıqlar bürcünə tərəf dönəcək.**
**Zəhər qızılbalığın başının altında gizlədilmişdir.**
**Onların başçısı ikiqat iplə asılacaq.**

Katrendə təsvir olunanlar XX əsrin sonuna yaxın baş vermişdir. Sovet ordusu böyük biabırçılıqla dağlıq Əfqanıstanı itki verə-verə tərk edir. 2-ci sətirdə göstərilən astronomik vaxt bir daha Nostradamusun böyük görücü olduğuna dəlalət edir. Bu hadisələr 1988-ci ilin may-iyul və oktyabr aylarında baş verib. 3-cü sətirdə Sovet ordusunun bioloji silahdan istifadə etdiyindən xəbər verir. 4-cü sətirdə isə Əfqanıstanın keçmiş lideri Nəcibullanın XX əsrin 90-cı illərinin sonuna yaxın talibançılar tərəfindən asıldığından bəhs edilir.

Buraya onu da əlavə edə bilərik ki, 2001-ci ilin oktyabr ayının 7-dən – ABŞ Əfqanıstanı bombardman etməyə başlayandan sonra Şimal alyansının başçısı general Əhməd şah Məsudun rəhbərlik etdiyi ordu Taliban hökumətinə qarşı müharibəyə başladı. Bu vaxt Əfqanıstanın görkəmli liderlərindən olan Əhməd şah Məsud öldürüldü. Onun ölümü qəribə olub. Videokamera ilə müsahibə götürəndə kamera partlayıb. Deməli, partlayıcı cihaz kameranın içində yerləşdirilibmiş.

3-cü sətirdə göstərilənlər və Əhməd şahın taleyi üst-üstə düşsə də, ölümü 4-cü sətirdə bəyan olunanlarla uyğun gəlmir.

Doğrudur, general Əbdülhaq Kabildə Zahir şahın ölkəyə qaytarılması barədə danışıqlar apararkən taliblər tərəfindən, guya Amerikaya casusluqda təqsirli bilinərək 2001-ci ilin oktyabr ayında asılıb və bu, taliblərin Üləmalar şurasının əcaib-qəraib qərarına əsasən edilib. Həmin qərara görə, Amerikaya casusluqda ittiham olunan hər bir şəxs qeyd-şərtsiz edam olunmalıdır. Beləliklə, taliblərin xoşuna gəlməyən və ya onları dəstəkləməyənlər bu damğa ilə məhkəməsiz-filansız aradan götürülürdülər. Xalq arasında böyük hörməti olan və talibləri dəstəkləməyən general Əbdülhaqın edamına da beləcə fitva verilmişdi. General Əbdülhaq heç bir vəzifədə olmadığından, onun asılmasını da bu katrenlə əlaqələndirmək doğru olmazdı. Katrendə başçıdan danışılır: "Onların başçısı ikiqat iplə asılacaqdır". Deməli, söhbət Nəcibullanın edamından gedir.

Bununla belə, Maykl Cordan bu katreni 1839-cu ildə ingilislərin Əfqanıstanı tutması ilə bağlamağa cəhd edir.

Onu da deyək ki, əksər tədqiqatçılar bu katreni, ümumiyyətlə şərh edə bilməmişlər.

## 2 k49

**İlk monopoliyanın (inhisarın) müşavirləri,**
**Malta əhalisinin şirnikləndirdiyi istilaçılar.**
**Rodos, Bizans onların təsirinə düşüb təhlükəyə məruz qalacaq.**
**Onların varisləri torpağa möhtac olacaqlar.**

Güman etmək olar ki, bu katrendə Rodos adasının itirilməsindən, bir az da dəqiq desək, Osmanlı İmperiyası tərəfindən tutulmasından və Osmanlı türkləri ilə xristianlar arasında nüfuz dairəsi uğrunda gedən müharibədən bəhs olunur.

## 2 k50

**Henodan, Qanddan və Brüsseldən olanlar**
**Lanqrada istehkamın mühasirəyə alındığını görəcəklər.**
**Onların cinahının arxasında dəhşətli döyüşlər gedəcək.**

**Köhnə yara düşməndən betər olacaq.**

Katrendə İspaniyanın tərkibində olan yuxarıdakı şəhərlərin ordu hissələrinin Fransanın sərhəd şəhəri Lanqranı mühasirəyə almasından bəhs edilir. Nostradamusun ölümündən cəmisi iki il sonra (1568) həmin ordu hissələri ispanlara qarşı mübarizəyə qalxdılar və İspaniyanın himayəsində olan həmin torpaqların azad olunması uğrunda müharibə 80 il çəkdi. "Köhnə yara düşməndən betər olacaqdır" bununla bağlıdır.

## 2 k51

**Londonda tökülən nahaq qana görə cəza veriləcək.**
**Alov ildırım kimi bir anda hər yanı, üç iyirmi, altıda (666) bürüyəcək.**
**Ulu xanım yüksək yerdən uçub yerə düşəcək.**
**Eyni təriqətdən olan çoxlu adam məhv olacaq.**

Hər şeydən əvvəl onu demək lazımdır ki, Nostradamusun İngiltərə ilə bağlı görücülüyü dəqiqliyi ilə tədqiqatçıları mat qoyub. Elə bu katrenin özü də o qəbildəndir. Birinci sətirdə Nostradamus Londonda tökülən nahaq qana və ədalətsizliyə görə ilahi cəza veriləcəyindən danışır. Bu, 1649-cu il yanvarın 30-da kral I Çarlzın edam edilməsi, dövlətin saldığı nifaq nəticəsində katoliklərə tutulan divan və tökülən nahaq qanla bağlıdır. Nostradamus bu hadisələrə görə Britaniyanı 7 bəla gözlədiyini göstərib (bax: 3 k57). "Böyük London yanğını" onlardan ikincisidir. Birincisi isə başqa katrendə görəcəyimiz kimi (2 k53), Londonda 1665-ci ildə baş verən vəba ilə bağlıdır.

İkinci sətirdə böyük görücü poetik dillə Böyük London yanğınının baş vermə tarixini – 1666-cı ili göstərmişdir. Nostradamusun xəbər verdiyi kimi, 1666-cı ilin sentyabr ayının 1-də çörəkxanada başlayan yanğın, o vaxt bütün evlər ağacdan olduğundan tez bir zamanda bütün Londonu bürüyür.

Üçüncü sətirdə, indinin özündə belə çox məşhur olan müqəddəs Pyotr Baş kilsəsindən bəhs edilir. Burada "Ulu xanım" ifadəsi maraq doğurur. Məsələ burasındadır ki, İngiltərədə "Qoca qarı" ləqəbi 1734-cü ildə tikilmiş "İngilis Bankı"na verilib. Məhz buna görə də biz müqəddəs Pyotr kilsəsi ilə bağlı "Ulu xanım" ifadəsini işlətdik. Tədqiqatçılar, Fransada xalq arasında bütün katolik baş kilsələrinin "Ulu xanım" adlandırıldığını əsas tutaraq, bu katrendə söhbətin Pyotr kilsəsindən getdiyini qeyd edirlər. Buna etiraz edən yoxdur. Lakin katrenin 3-cü sətrinə nəzər saldıqda "Ulu xanım yüksək yerdən uçub Yerə düşəcək" fikri bizi bu məqamda başqa qənaətdə olmağa təhrik edir. Həqiqət belədir ki, yanğın zamanı kilsənin damı uçmuş, Məryəm ananın müqəddəs Pyotr kilsəsində ali mərtəbədə ucaldılmış heykəli pyedestaldan yerə düşmüşdü. Bundan əlavə, kilsədə ucaldılmış altı müqəddəsin də heykəllərinin hamısı məhv olmuşdu. Odur ki, "Ulu xanım" deyəndə, bu məqamda görücünün Məryəm ananı nəzərdə tutduğu şübhə doğurmur.

4-cü sətirdə kilsənin damı uçarkən orada sığınacaq tapmış bir çox adamın məhv olmasından bəhs edilir. Məsələ burasındadır ki, insanlar od tutmuş evlərindən qaçaraq, bu və ya başqa kilsələrə pənah aparmışdılar. Demək lazımdır ki, yanğın zamanı 13.000 ev, 44 böyük şirkət binası, Londonda olan 109 kilsədən 97-si yanıb.

"Böyük London yanğını" bir tərəfdən böyük maddi ziyan vursa da, başqa bir tərəfdən də memar Kristofor Renin rəhbərliyi ilə şəhər yenidən tikildi. Qarışıq və köhnə ağac evlərin yerinə səliqə-sahmanla yeni daş binalar tikilməyə başladı. Nədənsə Kristofor Rendən danışanda göz önünə görkəmli Azərbaycan memarı Mikayıl Hüseynov gəlir. Onlardan birinin Londonun tikilməsində, o birinin isə Bakının tikilməsində böyük xidmətləri olub.

## 2 k52

**Bir neçə gün gecə vaxtı yer titrəyəcək.**
**Baharda iki böyük qüvvə bir-birini hədələyəcək.**
**Korinf və Efes məsələsi hər iki dənizdə baş qaldıracaq.**

**Müharibəyə davada ad qazanmış iki tərəf başlayacaq.**

İldən-ilə Egey dənizi sahilində zəlzələlərin sayı artır. Təkcə 1998-ci ildə burada gücü 6,5 bal və daha artıq olan 15 yeraltı təkan qeydə alınmışdır. Zəlzələ müharibə əlamətidir. 1995-ci ildə az qalmışdı Yunanıstan (Korinf) və Türkiyə (Efes) arasında müharibə başlaya. Egey dənizində, Efes yaxınlığındakı adalara görə bu gün də, bu iki dövlət arasında münaqişə davam edir. 3-cü sətirdə məcazi mənada verilən "Korinf və Efes məsələsi hər iki dənizdə baş qaldıracaqdır" ifadəsində ola bilsin ki, Efesdə müsəlman və xristian dinlərinin eyni dərəcədə hökm sürəcəyindən bəhs edilir.

Bəzi tədqiqatçılar heç bir əsas olmadan bu katreni 1665-1667-ci illərdə İngiltərə və Hollandiya arasında baş verən münaqişəyə aid edirlər.

## 2 k53

**Böyük vəba dəniz sahilindəki şəhəri bürüyəcək.**
**İntiqam alınmayınca ölümün ardı-arası kəsilməyəcək.**
**Cinayət törətmədiyi halda təmiz qanlı mühakimə olunacaq.**
**Təhqir olunduğuna görə "Ulu xanım" qəzəblənəcək.**

Katrendə 1665-ci ildə Londonda baş verən və bütün şəhəri bürüyən vəba xəstəliyindən söhbət gedir. Bu xəstəlik 68.596 nəfər adamın (Ned Halley bu rəqəmin 100.000 olduğunu göstərir) ölümü ilə nəticələnmişdi. Xalq bu hadisəni 1649-cu ildə kral I Çarlzın edamı, katolik məzhəbinə xidmət edən bir çox insanın tonqalda yandırılması və edamı ilə bağlayır və inanırdı ki, onlar Allahın qəzəbinə düçar olublar. Bunu biz Nostradamusun bu katrenləri ilə bərabər, başqa katrenlərində də görürük (bax: 2 k51, 9 k49).

Maraqlı cəhət odur ki, I Çarlz edam ediləndən sonra xalq protestant məzhəbindən üz döndərərək katolik təriqətinə üz çevirmişdi. 4-cü sətirdə bu məsələdən bəhs olunur. Xalq arasında "Ulu xanım" kimi tanınan baş kilsə – Müqəddəs Pyotr kilsəsi bunu riyakarlıq adlandırır və qəzəbdən özünə yer tapmırdı.

## 2 k54

**Romalıların uzaqda olmağından və əcnəbilərin ucbatından,**
**Onların əzəmətli şəhəri su çatışmazlığından çox bədbəxtliklərə düçar olacaq.**
**Qızın əlindən bütün var-dövlət çıxacaq.**
**Başçı tutulacaq, qəsr isə talan olunacaq.**

Tədqiqatçılar Nostradamusun bu katrendə bəyan etdiklərinin gələcəkdə baş verəcəyini qeyd edirlər. Xüsusi vurğulanır ki, gələcək əsrlərdə müharibələr su və ərzaq çatışmazlığı ucbatından baş verəcək. Manilada yerləşən "Asiyanın İnkişaf Bankı"nın hesablamalarına görə, gələcəkdə dünya əhalisinin ən azı üçdə iki hissəsi Asiya şəhərlərində cəmləşəcəkdir. Təkcə Çin və Hindistanda yaxın 25 il ərzində 800 milyondan çox əhali şəhərlərə axışacaqdır. Şəhərlərdə əhalinin həddən artıq cəmləşməsi təbii olaraq su və ərzaq çatışmazlığına gətirib çıxaracaq.

Katrendə kimdən, nədən, hansı dövlətdən bəhs olunduğunu demək çətindir. Nostradamusun sirri də elə bundadır. Hadisə baş verənə qədər böyük görücünün kodlaşdırılmış katrenlərini açmaq, həqiqəti üzə çıxarmaq qaranlıqda iynə axtarmaq kimi bir şeydir.

## 2 k55

**Münaqişədə vecsiz böyük adam,**
**Ömrünün sonunda heyrətləndirici işlər görəcəkdir.**
**Hadri nəyin lazım olduğunu görəndə,**
**Ziyafətdə özünü məğrur aparana zərbə endirəcəkdir.**

1888-ci ildə kral III Henri Fransa taxtına göz dikən ordunun baş komandanı Henri de Gizi və səhərisi gün onun qardaşı, katolik kilsənin başçısı, kardinal Lui de Gizi öldürdükdən sonra Parisdə və başqa yerlərdə xalq ayağa qalxdı (bax: 1 k85; 3 k51). Parisin 16 rayonunun dini rəhbərləri III Henriyə qarşı çıxdılar. Parisdə xalq hərəkatına başçılıq etdilər. III Henri Parisdən qaçaraq, hersoq Navarralı Henriyə pənah apardı. Lakin Hadri – Navarralı hersoq Hen-

ri "nəyin lazım olduğunu gördü" və xəyanətlərə əl qatmış III Henrinin ölümünə fitva verdi. III Henri 22 yaşlı Kleman adlı bir katolik tərəfindən öldürüldü (1889-cu ildə). Fransa tacının qanuni vəliəhdinə yol açıldı (bax: 2 k88). Lakin qardaşları öldürüləndən sonra general-leytenant və katolik kilsəsinin başçısı rütbələrinə layiq görülən hersoq de Mayenn Şarl de Giz Fransanın kralı olmaq arzusuna düşdü. Bəzi tədqiqatçılar bu katrenin elə bu məsələ ilə bağlı olduğunu göstərirlər. Şarl de Giz Navarralı Henrinin protestant məzhəbindən olduğunu bəhanə edərək müharibəyə başladı. Lakin parlamentarilər, xüsusən də Parisin 16 rayonunun dini rəhbərləri (16-lar) Şarl de Gizin tərəfini saxlamadılar. Onaltılar hətta mütləqiyyət üsul-idarəsinin devrilməsi tərəfdarı idilər. Şarl de Giz parlament üzvlərini sakitləşdirmək üçün ziyafət təşkil etdi. Səhərisi gün gecə onların hamısını öldürtdü. Parisdə yeni çaxnaşmalar başladı. Hersoq Navarralı Henri taxt-taca sahib olmaq üçün əlverişli vaxtın çatdığını hiss edərək Parisi mühasirəyə aldı. "Paris ibadətə dəyər" – deyərək, katolik məzhəbini qəbul etdi və tez bir zamanda Fransanın kralı oldu. Kral IV Henrinin ən böyük xidməti dini müharibələrə son qoymaq oldu.

### 2 k56

**Nə vəba, nə də qılınc işin axırına çıxa bilmədi.**
**Ölüm Some yüksəkliyində göydən zərbə endirdi.**
**Abbat (rahib) bu mənzərəni görəndə ürəyi partlayacaq.**
**Fəlakətə düçar olanlar saman çöpündən yapışacaqlar.**

Katren I Dünya müharibəsi zamanı baş vermiş hadisələri əks etdirir. 1918-ci il iyul ayının 1-də ingilis və fransız hərbi birləşmələri böyük strateji əhəmiyyət kəsb edən Tyepval dağ silsiləsini tutmaq üçün güclü top zərbələrindən sonra hücuma keçdilər. Yüz min nəfərlik ordu yüksəkliyə yaxınlaşanda almanlar onları arasıkəsilməz pulemyot atəşinə tutdular. Birinci gün ingilislər 19 min əsgər itirdilər. Ümumiyyətlə, "Böyük zərbə" adı altında keçirilən

bu döyüşdə ingilislər 60 min nəfər itiriblər. Yalnız dekabr ayında almanları bu dağ silsiləsindən qova bildilər. Bu döyüşdə britaniyalılar 420 min, fransızlar 195 min, almanlar isə 650 min itki verdilər.

Bütün bu hadisələri Nostradamus əsrlərlə öncə görmüşdü.

## 2 k57

**Münaqişədən əvvəl böyük adam yıxılacaq.**
**Böyük adamın ölümünə qərar verilib. Ölüm qəfil və acınacaqlı olacaq.**
**Anadan qüsurlu doğulan o şəxs yolun çox hissəsini üzüb keçəcək.**
**Qan çayının (Qırmızı çay) yanında torpaq ləkələnib.**



*Con Kennedinin həyatının son anları. Dallas, 22.XI.1963*

Katren 1963-cü il noyabrın 22-də ABŞ prezidenti Con Kennedinin öldürülməsini əks etdirir. Katrenin 2-ci sətrinə fikir verin. Nostradamus hadisələri tam dəqiqliyi ilə görüb. Tədqiqatçılar göstərirlər ki, Con Kennedi fiziki cəhətdən həqiqətən də qüsurlu olub. Hələ uşaqlıqdan böyrəkləri onu narahat edirdi. 4-cü sətirdə "Qan çayı" məcazi mənada verilmişdir. Bu, Qırmızı çaya işarədir. Qırmızı çay - (Red River) Dallasın yaxınlığından axıb keçir (bax: 1 k26, 8 k77).

Prezident Con Kennedi Dallasda öldürüldüyündən Nostradamus torpağın burada – Qan çayının yanında ləkələnəcəyini göstərmişdir.

Rus tədqiqatçıları D.Zima və N.Zima əsası olan bir fikir irəli sürürlər. Deyirlər ki, hər bir tədqiqatçı Nostradamusun katrenlərini öz xalqına aid etməyə çalışır. Lakin bu yalançı vətənpərvərliyə yol verən ən çox elə rus tədqiqatçılarıdır. Bir çox katrenlər kimi, onlar bu katreni də Rusiya ilə, daha doğrusu, II Aleksandrla bağlayırlar.

Bəzi Qərb tədqiqatçıları isə katreni Berlin divarının aradan götürülməsi və Sovet İttifaqının dağılması ilə əlaqələndirirlər.

### 2 k58

**Əlsiz-ayaqsız, iti dişsiz və gücsüz bir şey hasil olmayacaq.**
**Kütlə Limandakı qalaya gələcək və böyük tapılacaq.**
**Onu, hiylə işlədərək, darvazanın yanına gətirəcəklər.**
**Ay işıq saçanda böyüklü-kiçikli aparacaqlar.**

Bu katren Fransa Burjua inqilabı zamanı baş vermiş hadisələrdən bəhs edir. Kral XVI Lüdovik və ailəsi 13 avqust 1792-ci ildə Tampl həbsxanasına salınmışdılar. 21 yanvar 1793-cü ildə kral XVI Lüdovik edam edildi və bu vaxt vəliəhd Lui Şarlın 8 yaşı vardı. Parlamentin üzvü, çəkməçi Simon ona qəyyum təyin olunur. Sadə insan olan Simonun uşağa rəhmi gəlir. Arvadının köməyi ilə o, 19 yanvar 1794-cü ildə onun qaçmasına şərait yaradır. Şahzadənin qaçdığını təkcə bibisi Elizabet bilirdi. Uşağın qaçdığını biləndə, sirr açılmasın deyə, onu edam edir və elan edirlər ki, 8 iyul 1795-ci ildə Lui Şarl xəstəlikdən ölüb.

Bunun bizim zəmanəmizə qədər bir müəmma olaraq qalmasına baxmayaraq, Mişel Nostradamus katrenlərində (bax: 1 k65, 6 k52, 9 k24) hadisə baş verməmişdən 240 il əvvəl gələcək nəsillərə bəyan etmişdi. Doğrudur, Con Houq XVII Lüdovikin qəyyumu Simonun Senturiya 1, katren 65-ə əsasən, çox qəddar və rəhmsiz adam olduğunu, şahzadəyə işgəncə verdiyini və nəticədə onun öldüyünü göstərir. Lakin tarixçi Mişel Vartelin "XVII Lüdovik və ya kralın sirri" adlı kitabından bəhrələnərək, nostradamusşünas Mişel Moren böyük görücünün katrenlərini yenidən nəzərdən keçirərək, Tampl məhbəsinin sirlərinin açarını tapıb. Məlum olub ki, çəkməçi Simonun qəyyumluq etdiyi kral XVI Lüdovikin kiçik oğlu imiş.

Bu katrendə kralın böyük oğlu şahzadə Lui Jozefdən söhbət gedir. Onu gecə vaxtı Tampldan kralın tərəfdarları oğurlayırlar: "Ay işıq saçanda böyüklü-kiçikli aparacaqlar". Onu şala bükərək tabuta qoyurlar. Kiçik şahzadə Lui Şarlın əvəzinə səhvən böyük qardaş Lui Jozefi qaçırırlar. İrəlidə görəcəyimiz kimi, kiçik qardaşı da qaçırırlar (bax: 9 k24). Deyilənləri o da təsdiq edir ki, Simonun qəyyumluq etdiyi Lui Şarlın 8, böyük qardaşı Lui Jozefin 11 yaşı vardı.

## 2 k59

**Böyük dəstəyə kömək etmək naminə**
**Fransa hərbi-dəniz donanması, böyük keşikçinin sualtı qayıqları ilə**
**Böyük Neptun cəmləşmiş, Böyük ölkəyə kömək məqsədilə**
**Provansı dağıdacaq.**
**Narbonda nizələr və oxlarla müharibə daha da qızışacaq.**

Katrendə II Dünya müharibəsi zamanı Fransa ərazisində gedən döyüşlərdən bəhs edilir. İkinci sətirdə işlənən "böyük keşikçi" ifadəsi ABŞ dövlətinə aiddir. Başqa katrenlərdə görəcəyik ki, Nostradamus ABŞ-ı "qanlı sülh keşikçisi" də adlandırıb. Katrendə yer alan "Böyük Neptun" da ABŞ-a aiddir. Əvvəllər Neptun ingi - lis və Osmanlı İmperiyasının qüdrətli hərbi-dəniz donanması mə -

nasında işlənirdi. Burada, "Böyük Neptun" müharibədə iştirak edən 1000-dən artıq amerikan və fransız nəqliyyat və hərbi gəmiləri mənasında da işlənir. 1944-cü ildə almanlara qarşı bir milyondan artıq hərbçinin iştirak etdiyi döyüşlərdə qələbənin təmin olunmasında Böyük Neptunun rolu böyük olub.

4-cü sətirdə ox və nizələrdən söhbət gedir. Burada Nostradamus, heç şübhəsiz ki, "Fau" tipli alman, "katyuşa" tipli rus və s. raketlərə işarə edir.

**2 k60**

**Punik (Liviya) inamı Şərqdə qırıldı.**
**Böyük İordan çayı və Rona, Luara, Taq dəyişiləcək.**
**Qatır doyanda dəniz donanması səpələnəcək.**
**Suyun üzündə qan axacaq. İnsan cəsədləri suyun üzərində üzəcək.**

Nostradamusun bu katrendə izhar etdikləri yerini almışdır. Lakin burada aydınlaşdırılması lazım olan məsələlər vardır. Qədim fransız dilində "Punik inamı" dedikdə – Şimali Afrika xəyanəti anlamını verirmiş. 2-ci sətirdəki çay adları İordaniya, İsrail, Fransa və İspaniya ölkələrinin rəmzidir. Qatır və ya uzunqulaq ABŞ-ın Demokrat Partiyasının rəmzidir. Burada prezident Klinton nəzərdə tutulur. 1995-ci ildə prezident Klinton, Yasir Ərəfat, İshaq Rabin və kral Hüseyn İordan çayı sahillərində sülh müqaviləsi imzalamışdılar. 3-cü sətirdə bəyan olunur ki, Qatır – Demokrat partiyasından olan prezident Klinton doyan zaman, yəni güvəndiyi qədər güc toplayandan sonra, ABŞ-ın hərbi-dəniz donanması dünyanın bütün su hövzələrinə səpələnərək qan tökəcək. Hələlik Nostradamusun dedikləri yerini tutur (bax: 6 k44). İraqa qarşı Körfəz müharibəsində və sonradan ABŞ hərbi gəmiləri Ərəbistan dənizi və İran körfəzinə (1991-ci və 2003-cü il), Yuqoslaviyaya qarşı müharibədə Aralıq dənizinə, 2001-ci ilin oktyabr ayının 7-dən Əfqanıstana qarşı müharibədə iştirak etmək üçün Hind okeanı və

Ərəbistan dənizinə gəlib çıxıb. Bir sözlə, indi ABŞ hərbi-dəniz donanması dünyanın bütün su hövzələrində hegemonluq edir.

Bu katrendə maraq doğuran bir cəhət də vardır. ABŞ-ın Demokratlar partiyasının görücünün ölümündən təqribən 300 il sonra, 1828-ci ildə yaranmasına baxmayaraq, Nostradamus həmin partiyanın rəmzinin qatır – uzunqulaq olacağını da görmüşdü.

**2 k61**

**Temza, Jironda və Lə-Roşeldən olanlara əhsən!**
**Ey Troya qanından olan, limanda oxa tuş gələcəksən.**
**Çayın o biri tayındakı qalaya nərdivan qoyulmuşdur.**
**Güclü atəşin zərbəsindən böyük itkilər olacaq.**

Nostradamus özündən dörd əsr sonra baş verəcək II Dünya müharibəsinə bir neçə katren həsr etmişdir. Onlardan biri də oxucuların mühakiməsinə verilən bu katrendir. 1-ci sətirdə Temza dedikdə ingilislər nəzərdə tutulur. Bu çay İngiltərənin paytaxtı Londonu iki yerə bölüb keçir. Troya qanından olanlar – dedikdə isə görücü fransızları nəzərdə tutur. Məsələ burasındadır ki, XVI əsrdə belə bir əfsanə gəzirdi ki, guya fransız krallarının damarlarında Troya hökmdarlarının qanı axır. Bu sətirdə, eləcə də oxdan söhbət gedir. Şübhə yoxdur ki, bununla böyük görücü Fau-1 və Fau-2 tipli alman raketlərini nəzərdə tutur. 3-cü sətirdə göstərilənlər xüsusi bir detal kimi, sözün həqiqi mənasında tədqiqatçıları mat qoymuşdur. Hərbi istehkamlara nərdivan qoyaraq düşmənə qəfil zərbə endirmək II Dünya müharibəsinə xas olan xüsusiyyətdir. Bizi mat qoyan isə bu mənzərəni 400 il öncə Nostradamusun görməsi və təsvir etməsidir. Məsələ burasındadır ki, 1944-cü ilin yazında ABŞ ordu hissələri Orn çayını ponton körpülər vasitəsi ilə keçərək ingilislərlə birləşib və Fransanın Arjaitan vilayəti yaxınlığında 60 minlik alman ordu hissələrini mühasirəyə alıbmış. Bu döyüş zamanı 220 alman tankı, 860 ədəd top, 130 ədəd zenit qurğusu,

7130 ədəd nəqliyyat vasitəsi, 2000 at, 10 min alman əsgəri məhv edilib, çoxlu əsir götürülübmüş.

**2 k62**

**Mabus tezliklə öləcək, sonra isə insanlar və**
**Heyvanlar arasında dəhşətli qırğın baş verəcək.**
**Birdən intiqam alındığını hamı görəcək.**
**Kometa (quyruqlu ulduz) görünəndə zor, ehtiras, aclıq baş verəcək.**

Bu katrendə Nostradamusun hansı dövrdən, kimdən, nədən bəhs etdiyi tədqiqatçılar üçün bir müəmma olaraq qalır. Bəzi tədqiqatçılar, xüsusən də Bardo Kidoqo (1994) bu hadisələrin Yaxın Şərqdə, İraqda və ya İranda baş verəcəyini göstərirlər. Con Houq isə Mabus sözünün Səddam Hüseynlə bağlı olduğunu qeyd edir. Fikrini onunla əsaslandırır ki, Səddam sözünü güzgüyə tutub oxusaq, bəzi hərifləri dəyişsək Mabus oxunur. Göründüyü kimi, bu mülahizə ağlabatan deyildir.

Bardo Kidoqonun qənaətinə görə Nostradamus qədim yunan filosofu Herodotun söhbət açdığı Megbyzus adlı terrorçuya aid edərək Mabus sözünü işlətmişdir. Mabus – Megbyzus adının kriptoqrammasıdır (şərti gizli yazı). Daranı hakimiyyətə gətirən də o olmuşdur. Onun sevimli metodu – modus operandi – İranın düşməni olan ölkələri daxildən zəiflətmək – məhv etmək olub. Burada bircə misalla kifayətlənəcəyik.

Megbyzus Babilin Daranın əlinə keçməsində böyük rol oynayan Zofirosun müəllimi olub. Zofiros babillilərin etimadını qazanmaq üçün qulağının və burnunun kəsilməsinə razı olur. Babilə gəlir, özü ilə çoxlu var-dövlət gətirir. Onu İranın düşməni kimi qəbul edirlər. Bir çox nüfuzlu adamlarla dostluq əlaqəsinə girir və Babilin Daranın əlinə keçməsinə hər cür şərait yaradır (bax: 9 k44).

Megbyzusun Şərqdən olduğunu nəzərə alan Bardo Kidoqo Mabusun da şərqli olduğunu ehtimal edir. Nostradamusun bizə

əmanət qoyub getdiyi katrenlərini tədqiq eləyən, demək olar ki, əksər müəlliflərin əsərlərini müxtəlif dillərdə saf-çürük etdikdən sonra bu qənaətə gəldik ki, böyük görücünün müəmmalı katrenləri barədə fərziyyələrlə söz deyənlər 90-95% səhvə yol verir, pis vəziyyətə düşürlər, daha doğrusu, başqalarının lağ yerinə çevrilirlər. Lakin bu sirli aləm o qədər cəzbedicidir ki, bundan soyuq başla, şirnikmədən yan keçən tədqiqatçı, demək olar ki, olmayıb. Biz də istisna təşkil etmirik. Bizə qalırsa, bu katrendə söhbət milliyyətcə ərəb, Səudiyyə Ərəbistanından olan və Əfqanıstanda gizlənən məşhur terrorçu Üsamə Bin Ladendən gedir. Məşhur Amerika görücüsü Cin Dikson vaxtilə göstərib ki, Şərqdə 1962-ci ildə dünyanı lərzəyə salan bir insan – antixrist doğulacaqdır. Üsamə Bin Laden 1957-ci ildə anadan olub. Atası yəmənli, anası suriyalıdır. Ola bilsin ki, Cin Dikson 5 il səhvə yol verib. Hər halda, 11 sentyabr 2001-ci ildə Nyu-York və Vaşinqtonda baş verən dəhşətli terror aktları və bununla bağlı Nostradamusun katrenləri də (bax: 1 k87, 5 k96, 6 k97, 9 k48, 10 k49) bizim bu qənaətə gəlməyimizə əsas verir. Bəlkə də III Antixrist intiqam hissi ilə coşan, məqsədinə çatmaq üçün ölümə belə hazır olan terrorçunun ümumiləşdirilmiş obrazıdır. Bundan əlavə, başqa bir yerdə oxuyuruq ki, əsrlərlə yığılmış intiqam hissi coşacaq, kiçik III Dünya müharibəsi başlayacaq və bu regionda bütün canlılar məhv olacaqlar.[1] Bütün canlılar yalnız radiasiyadan zəhərlənmə nəticəsində qarışıq ölə bilərlər. Katrenə nəzər saldıqda görücünün əsrlərlə öncə bəyan etdiklərinin Əfqanıstan hadisələri ilə oxşarlığını görürük. İndi Əfqanıstanda müharibə bitib. Hər halda lap yaxın gələcəkdə bunun nə ilə nəticələnəcəyini görəcəyik. İkinci fikrimiz isə İraqla bağlıdır. ABŞ-ın prezidenti Corc Buş dəfələrlə qeyd edib ki, Əfqanıstandan sonra Səddam Hüseynlə – İraqla haqq-hesab aparacaq. İndi İraq ABŞ tərəfindən zəbt edilib. Bəzi astroloqlar ABŞ-ın

[1] Con Houq. Nostradamus. Görücülüyünün külliyyatı. Moskva, 1999, səh. 193.

nəinki İraqla, İran və Pakistanla da münaqişələrinin gözlənildiyini əvvəllər söyləmişlər. Bəlkə də kiçik Dünya müharibəsi burada davam etdiriləcək.

Burada bir şeyi də qeyd etmək lazımdır ki, "dünya müharibəsi" deyəndə dünya dövlətlərinin müharibədə kəmiyyətcə iştirakı nəzərdə tutulur. Körfəz müharibəsində İraqa qarşı 34 dövlətin yarım milyondan artıq əsgər və zabiti əhatə edən hərbi hissələri iştirak edirdi. Əfqanıstana qarşı müharibədə də çox dövlətlər ABŞ-a yardım etdilər. Bunlar kiçik Dünya müharibəsi deyilsə bəs nədir? Qəribədir ki, adı çəkiləndə tük ürpəşən Mabus keltlərin (fransızların) sevimli allahlarından biri imiş. O, müdrikliyi və həqiqət tərəfdarı olması ilə fərqlənirmiş. Maykl Cordan bu katrenlə bağlı tədqiqatında maraqlı bir nəticəyə gəlib. O, göstərir ki, 1-ci sətirdə işlənən "Mabus" sözündə hərf səhvi var. Bu söz "Malus" kimi oxunmalıdır. Belə olanda onun mənası da aydınlaşır.

Malus – fəlakətli, fəlakət gətirən mənasını verir. Tədqiqatçı qəti əmindir ki, bu katren II Dünya müharibəsinin son günlərindən və Hitlerdən bəhs edir. O göstərir ki, Hitler öləndən sonra, 1948-ci ildə həqiqətən də "Eklips" kometası səmada görünməyə başladı.[1] Həqiqət naminə demək lazımdır ki, bu vaxt bir çox ölkələrdə, xüsusən də Sovet İttifaqında aclıq tüğyan edirdi. Soyuq müharibə, hədə-qorxu, zorakılıq da elə bu vaxt başlamışdı.

### 2 k63

**Qalliya (Fransa) və Oson (Siciliya) bir müddət fəth olunacaq.**
**Po, Marna və Sena çayları Parm monastırını batıracaq.**
**Böyük divarı onlara qarşı ucaldanın özü,**
**Divarların yanında həyatını itirəcək.**

Katren II Dünya müharibəsi zamanı Fransada baş verən hadisələrdən bəhs edir. Katrendə alman hücumlarının qarşısını almaq

[1] Maykl Cordan. Nostradamus və yeni minillik (ingiliscə). Dubay, 1998, səh.70-71.

üçün betondan tikilmiş Majino səddindən, onun kara gəlmədiyindən, fransızların ruhdan düşməyindən və 1940-cı ildə almanların Fransanı tutduğu zaman Üçüncü Fransa Respublikasının çökməsindən danışılır. Onu da bilmək maraqlıdır ki, Majino səddi 1929-1934-cü illər arası almanların hücumunun qarşısını almaq məqsə - di ilə tikilmişdi. Başqa katrendən də göründüyü kimi, almanlar şimaldan – Belçika tərəfdən hücuma keçərək, Fransanı zəbt etmişdilər.

### 2 k64

**Cenevrənin əhalisi aclıqdan və susuzluqdan əziyyət çəkəcək.**
**Arzuolunan kömək yaxında olsa da yubanacaq.**
**Seven qanunu çətinliklə saxlanacaq.**
**Donanma böyük limanda qəbul oluna bilməyəcək.**

Katrendə o vaxt İsveçrənin paytaxtı olan Cenevrədən, Sevennada doğulmuş Jan Kalvinin onu bir növ protestantların Vatikanına çevirmək cəhdindən (Romada Vatikan kilsəsi katoliklərə məxsusdur – Q.P.) və kalvinizmin vətəni Sevennada (XIV Lüdovik Nant fərmanını ləğv etdiyinə görə) 1685-ci ildə baş verən kütləvi iğtişaşlardan söhbət gedir.

### 2 k65

**Park çökəcək, Hesperidə böyük fəlakət olacaq.**
**Bu bəla Qərbi Lombardiyadan da yan keçməyəcək.**
**Əsirlərin olduğu gəmidə vəba və yanğın baş verəcək.**
**Merkuri Oxatan bürcündə olanda Saturn kəsib keçəcək.**

Katrendə “Hesperi” Amerika – Qərb mənasında işlənib (bax: 1 k28). ABŞ-ın Los-Anceles şəhərində güclü zəlzələ baş verdikdən sonra seysmoloqlar ayırd ediblər ki, Los-Ancelesin altında bir neçə çat əmələ gəlib. Onlardan biri Yelisey parkından başlayaraq beysbol stadionunun altından keçir. Bu katreni tədqiq edəndə göz önünə ilk olaraq senturiya 6, katren 88 gəlir. Orada deyilir ki, Yeni şəhər -

də zəlzələ olacaq. Tamaşaçılarla dolu teatr və ya stadion çökəcəkdir. 2-ci sətir isə Avropada, daha doğrusu, İtaliyada baş verəcək zəlzələdən bəhs edir. Buna biz başqa bir katrendə də (bax: 9 k31) təsadüf edirik. 3-cü sətirdə nəzərdə tutulur ki, Vatikanın sonuncu Papası Romalı Pyotrun vaxtında (biz artıq yuxarıda məlumat vermişik ki, hazırkı Roma Papası XVI Benediktdən sonra yalnız bir Papa olacaq) Vatikan od tutub yanacaq və su altında qalacaqdır.

4-cü sətir bu hadisənin təqribən nə vaxt olacağını da göstərir. Merkuri Oxatan bürcündə son dəfə 1987-ci ildə olub.Onu da deyək ki, "Merkuri Oxatan bürcündə olanda Saturn kəsib keçəcək" hökmü o mənada işlənir ki, Saturn bunlara yaxın bir məsafədən əyri xətlə keçəcəkdir. Astronomlar hesablayıblar ki, Merkuri Oxatan bürcündə Saturn onlara çox yaxın məsafədə 2015-ci və 2017-ci ilin noyabr ayının sonu və ya dekabr ayının əvvəlində, 2044-cü ilin noyabr ayının əvvəlində olacaqdır. Son birləşmənin xüsusilə güclü olacağı gözlənilir. Ona görə ki, Saturn və Merkuri Oxatan bürcünə eyni vaxtda girəcəklər.

**2 k66**

**Böyük təhlükəyə baxmayaraq, əsir qaçacaq.**
**Az bir vaxtda tale böyük adamın üzünə güləcək.**
**Sarayda olanlar tutulacaq.**
**Xoş əlamət kimi, şəhər mühasirəyə alınacaq.**

Bu katrenlə Nostradamus Napoleonun 1815-ci ildə Elba adasından qaçmasını tamamlayır (eləcə də bax: 10 k24). Napoleonun rəhbərliyi ilə bir neçə yüz dənizçi və 1000 nəfər qrenader (seçmə əsgər) Genua boğazından keçərək Kanna gəldilər və oradan da Qrenobla üz tutdular. Yolda onların qarşısını Fransanın 5-ci piyada polku kəsdi. Napoleon qabağa çıxaraq dedi: "Beşinci polkun əsgərləri! Əgər siz bura öz imperatorunuzu güllələmək əmri ilə gəlibsinizsə, buyurun, bu mənəm". İki dəfə zabitlər əmr etsə də, heç bir əsgər atəş açmadı. Əksinə, hamısı qaçıb Napoleonun

dəstəsinə qoşuldular. Nostradamusun böyük uzaqgörənliklə bəyan etdiyi yerini aldı: “Böyük təhlükəyə baxmayaraq, əsir qaçacaq”. Napoleon böyük bir ordu ilə Parisə girəndə kral XVII Lüdovik və tərəfdarları qaçıb canlarını qurtarmışdılar. Napoleonu əl üstündə Tyuleri sarayına gətirdilər. Sarayın həyətində adam əlindən iynə atsan, yerə düşməzdi. Jandarmlar onları böyük çətinliklə həyətdən çıxara bildilər. 3-cü sətirdə buna işarə olunur.

Lakin tezliklə tale Böyük imperatordan üz döndərdi: 4-cü sətirdə bundan söhbət gedir. Məsələ burasındadır ki, hakimiyyəti yenidən ələ keçirdikdən düz yüz gün sonra Vaterloo yaxınlığında Napoleon ingilislərə məğlub oldu. Bu, Napoleonun ən böyük məğlubiyyəti və hakimiyyətinin sonu idi. Bir il ərzində Paris iki dəfə əcnəbilərin tapdağına çevrilmişdi. “Xoş əlamət kimi, şəhər (Paris) mühasirəyə alınacaq” deməklə Nostradamus Napoleon hakimiyyətinə son qoyulacağına, bununla da qan tökülməsinin qarşısının alınacağına işarə edir. Görücü ona əsaslanır ki, Napoleonun vaxtında bir milyon yarımdan çox fransız əsgəri öldürülmüşdü.

## 2 k67

**Sarışın adam haçaburuna qarşı olacaq.**
**Mübarizə və təqiblə onu qovacaq.**
**Sürgün olunanlar öz yerlərinə və tutduqları mövqeyə qayıdacaqlar.**
**Dəniz mövqelərini ən güclüyə etibar edəcəklər.**

Əksər tədqiqatçılar bu qənaətdədirlər ki, katrendə XVII əsrin sonuna yaxın baş vermiş hadisələrdən bəhs olunur. 1-ci və 2-ci sətirdə söhbət haçaburun II Yakovla sarışın hollandiyalı şahzadə Oranjlı Vilhelm arasında Britaniya tacına sahib olmaq uğrunda mübarizədən gedir. Aristokratlardan böyük bir qrup katolik təriqətinə mənsub II Yakovun hakimiyyətinə narazılıq əlaməti olaraq Vilhelmə məktub yazır və ona ingilis tacına sahib olmağı təklif edirlər. Onu əmin edirlər ki, ölkədə II Yakovun tərəfini saxlayan olmayacaqdır. 1688-ci ilin noyabrında Vilhelm doğrudan da heç

bir müqavimət görmədən ordusunu İngiltərənin cənub-qərbinə çıxarır. II Yakov onu döyüşlə hədələyir. Lakin II Yakova inam o qədər zəifləmişdi ki, onun tərəfini heç kim saxlamadı. Vilhelm onu sıxışdıra-sıxışdıra ölkədən çıxardı. II Yakov Fransaya pənah apardı. Vilhelm arvadı Mariya ilə birgə ingilis taxt-tacına sahib oldu.

Maykl Cordan heç bir əsas olmadan bu katreni 1967-ci il Misir-İsrail müharibəsinə aid edir.

**2 k68**

**Şimalda cəhdlər daha böyük olacaq.**
**Okeana qapılar açılacaq.**
**Adalarda hakimiyyət yenidən bərpa olunacaq.**
**London qaldırılmış yelkəndən qorxuya düşəcək.**

Katrenin 1-ci, 2-ci, 3-cü sətirlərində I Pyotrun İsveç kralı XII Karlla apardığı uzunmüddətli müharibədə (1700-1721) qalib gəlməsindən, Baltik dənizi sahilində Sankt-Peterburq şəhəri və limanın salınmasından, bu hadisənin İngiltərəni qorxuya salmasından danışılır. 3-cü sətirdə isə İngiltərədə Vilhelmin kral tacına əyləşdirilməsindən (bax: 2 k67) söhbət gedir. Bu qələbədən sonra Moskva dövləti Rusiya İmperiyasına çevrildi. I Pyotr isə Böyük Pyotr adına layiq görüldü. Maraqlıdır ki, Nostradamus Pyotrun bu ada layiq görüləcəyini də görüb və bəyan edib (bax: 1 k49).

**2 k69**

**Qalliyalıların kralı keltlərin əlilə,**
**Böyük monarxiyada ixtilaf görəndə,**
**Öz hakimiyyətini üçtərəfli gücləndirəcək.**
**Böyük ierarxiyada Kapa qarşı gizli qüvvələr baş qaldıracaq.**

Katrendə söhbət Fransa, İsveç və Hollandiyanın əlbir olaraq İspaniya və "Müqəddəs Roma imperiyası"na qarşı apardığı müharibədən gedir. Fransanın müharibədəki uğurları ona Elzas və Lotaringiyanın əsas hissəsini əldə etmək imkanı verdi.

## 2 k70

**Ox göydən gəlib öz işini görəcək.**
**Söhbət icra və ölümdən gedəcək.**
**Dəmir ağaca yeridiləcək, qeyrətli xalq basılacaq.**
**İnsan qışqırıqları böyük mənəvi təmizlik, günahların bağışlanması ilə nəticələnəcək.**

Tədqiqatçılar anlaşılması çətin, tərcüməsi qəliz olan bu katren barədə çox az, həm də ehtiyatla danışıblar. Bu katren barədə bizcə, ən ağlabatan fikri Ned Halley söyləmişdir. Onun qənaətinə görə bu katrendə söhbət ABŞ-ın 1945-ci il avqust ayının 6-da Xirosimaya və avqustun 9-da Naqasakiyə atdığı atom bombalarından gedir. Təkcə onu demək kifayətdir ki, Xirosimaya atılan atom bombası 129.558 adamın ölümünə, 68% binaların dağılmasına və 24% binaların isə zədələnməsinə səbəb olub. Hələ biz Naqasakini demirik.

Katrenin son sətri sanki "Qurani-Kərim"dən götürülüb. Günahsız ölüm mənəvi təmizlənmə və günahların bağışlanmasına gətirib çıxarır. Çox güman ki, bununla Nostradamus müharibə vaxtı yaponların özlərinin çox qan tökdüklərinə işarə edir.

Maykl Cordan heç bir əsas olmadan bu katreni Ruminiyanın sabiq prezidenti Nikolaye Çauşesku və arvadı Elenanın öldürülməsi ilə bağlayır.

## 2 k71

**Sürgün edilənlər Siciliyaya gətiriləcəklər.**
**Bu, onları yad adamın ehtirasından azad etmək naminə ediləcək.**
**Sübh çağı keltlər ona (yad adama) lazım olacaqlar.**
**Həyat ağılla yaşanılır. Kral hər şeyi yoluna qoyur.**

Bu katren barədə də tədqiqatçılar qəti söz deyə bilməyiblər. Güman edirlər ki, söhbət ABŞ-dan çıxarılmış İtaliya mafioz qrupundan və onların Fransa mafiyası ilə əlaqə yaratmaq cəhdindən gedir.

Tədqiqatçıların bu qənaətə gəlməkdə bəlkə də haqqı vardır. Bunu onunla əsaslandırırlar ki, İtaliya mafiozlarının ən güclülərindən biri Laki Luçiano ABŞ-a casusluq edirmiş. 1946-cı ildə onu Amerikadan İtaliyaya göndəribləmiş ki, kommunistlərə qarşı mübarizəyə qoşulsun. Ola bilsin ki, elə bu vaxt İtaliya mafioz qrupu Fransa mafiyası ilə əlaqə yaratmaq istəyib.

**2 k72**

**Kelt (Fransa) ordusu İtaliyada sıxışdırılacaq.**
**Hər yanda münaqişə və böyük itki olacaq.**
**Romalılar qaçacaqlar. Oh, Qalliya geri otuzdurulacaq.**
**Tiçino və Rubiko yaxınlığında müəmmalı döyüş keçəcək.**

Katrendə İtaliya və Fransa arasında gedən müharibədən bəhs olunur. Bütün sətirlərdə nədən söhbət getdiyi aydın olduğuna görə, biz 4-cü sətirdə gedən "müəmmalı döyüş" ifadəsini açmaqla kifayətlənəcəyik. Məsələ burasındadır ki, bu çayların yaxınlığında hər hansı bir döyüşün baş verdiyi barədə yazılı məlumat qalmayıb. Belə çıxır ki, Nostradamus tarixçilərin bu hadisəyə laqeyd olacaqlarını da görüb.

**2 k73**

**Qarda gölünün sahilindən Fuçino gölünə,**
**Cenevrə gölündən tutulub Orqion limanına aparılacaq.**
**Üçəlli doğulan adam qabaqcadan xəbər verilən döyüşkənlik əlamətidir.**
**Üç tac isə böyük Endimonda işarədir.**

Tədqiqatçılar bu katreni 1559-cu ildə cəngavərlərin təkbətək yarışında faciəli şəkildə dünyasını dəyişən kral II Henriyə aid edirlər. Azərbaycan oxucuları üçün böyük əhəmiyyət kəsb etmədiyindən bu və buna bənzər katrenlərin üzərində geniş dayanmağa lüzum görmədik.

## 2 k74

**Pireney dağlarının o biri tərəfinə keçmək üçün**
**Sensdən, Otəndən keçib Romaya qədər gələcəklər.**
**Camaat Ankon bataqlığından yola düşəcək.**
**Quru və dənizlə çox böyük məsafəni qət edəcəklər.**

Nostradamus bu katreni yazandan neçə əsr sonra yazdıqları çin oldu. Parovozlar və dəmir yolu icad olundu. Dəmir yolları Parisdən başlayıb ölkənin hər tərəfinə, o cümlədən də cənub-şərqə – Sensə, Otənə, Ronaya qədər uzanıb getdi. Son sətirdə həm dəmir yollarından, həm də dəniz yollarından söhbət gedir.

## 2 k75

**Buxarının tüstüçəkənində**
**Əcaib bir quşun səsi eşidilir.**
**Bir buaso taxılın qiyməti o qədər baha olacaq ki,**
**Adam adam əti yeyəcək.**

Buaso – İngiltərədə 36,3, ABŞ-da 35,2 litrə bərabər ölçü vahididir.

Tədqiqatçılar, elm və texnikanın sürətlə inkişaf etməsinə baxmayaraq, yer üzündə əhalinin hədsiz artması nəticəsində ərzaq qıtlığının baş verəcəyini, aclığın kütləvi hal alacağını bəyan etməkdən çəkinmirlər.

1994-cü ildə Worldwatch elmi tədqiqat institutunda işləyən Lester E.Braun belə nəticəyə gəlib ki, əhalinin artımı indiki kimi getsə, 2030-cu ildə bütün dünyanın buğda istehsalı təkcə Çinin əhalisinə bəs edəcəkdir. Aclıq, adətən, müharibələrə gətirib çıxarır. Bəzi tədqiqatçılar Nostradamusun astronomik hesablamalarına söykənərək, 2020-2030-cu illər arasında III Dünya müharibəsinin başlanacağını söyləyirlər. 2-ci sətir böyük hind filosofu, professor Oşoya işarədir. Onun mühazirələri həmişə çox qəribə, əcaib-qəraib səslənib. Oşo deyirdi ki, 20 il müddətinə doğuşun qarşısını tam almaq lazımdır (1980-1990-cı illərdə). Yoxsa bir gün gələcək insanlar acından qırılacaq. Əslində bu qırğın bəzi Afrika

ölkələrində artıq başlayıb. Bəzi rus tədqiqatçıları 1929-1930-cu illərdə Ukraynada baş verən görünməmiş aclıqla bu katren arasında böyük oxşarlıq görürlər. O vaxt adamın insan əti yediyi qeydə alınmışdı.[1]

**2 k76**
**Burqundiyada ildırım elə vəziyyət yaradacaq ki,**
**Bunu nə ağıl, nə də kələklə etmək olardı.**
**Onların gizli şurasında (senatda) axsaq kişi danışacaq.**
**Bu, düşmənə işin nə yerdə olduğunu anlatmaq üçün ediləcək.**

Bu katrendə Fransanın görkəmli dövlət xadimi Taleyrandan (1754-1838) bəhs edilir. Ayağının üstünə paltar şkafı düşməsi nəticəsində uşaqlıqdan topal olan Şarl Taleyran dinlə məşğul olaraq, 1788-ci ildə yepiskop rütbəsinə qədər yüksəlib. Lakin bir il sonra, Fransa inqilabı zamanı Taleyran bu yüksək dini rütbədən imtina edərək, sonralar bütün dünyada tanınan müasir ruhlu, müasir fikirli dövlət xadiminə çevrilir. 1807-ci ildə o, Napoleonun ölkəni idarə etməsi ilə razılaşmayaraq siyasətlə gizli şəkildə məşğul olur, Burbonların hakimiyyətə qaytarılması yolunda çalışırdı. Rus çarı I Aleksandra məsləhət görürdü ki, Avstriyanı sıxışdırmasın. 1814-cü ildə Napoleonun məğlubiyyətindən sonra, Taleyran Parisə gələn rus çarı I Aleksandra israrla başa salırdı ki, ölkədə sabitliyə nail olmaq üçün yeganə çıxış yolu Burbonların hakimiyyətini bərpa etməkdir. Belə də oldu. 1814-cü il aprelin 1-də Senatın yığıncağını keçirən Taleyran Napoleonun taxt-tacdan məhrum edildiyini bəyan etdi.

**2 k77**
**Arkda qaynar qatranın, atəşin köməyi ilə bəla dəf ediləcəkdir.**
**Gecə qışqırıq, inilti səsləri eşidiləcəkdir.**
**İçəridə olanlar sınıq taxtaların üstünə qoyulacaqlar.**
**Satqınlar yeraltı yolla, iti sürətlə çıxıb gedəcəklər.**

---
[1] Великие пророчества Мишеля Нострадамуса. Москва, 1999, стр. 207.

Con Houq göstərir ki, katrendə bəhs olunan hadisə II Dünya müharibəsi zamanı Nostradamusun anadan olduğu Salona yaxın Ark şəhərində baş verib. Ark şəhərini almanlardan azad etmək üçün göndərilən ABŞ-ın 517-ci paraşütçü desant dəstəsi 15 avqust 1944-cü ildə almanların mühasirəsinə düşüb. Səhərə yaxın almanlar paraşütçüləri hər tərəfdən pulemyot atəşinə tutublar. Amerikalılar döyüşə-döyüşə yaralı yoldaşlarını da götürərək, yeraltı yolla təhlükəsiz yerə çəkilə biliblər. Yeraltı yol dar və alçaq olduğundan, onlar yaralıları sınıq taxtaların üstünə qoyaraq güman ki, əyilə-əyilə gediblər.

Heç şübhəsiz böyük görücü 3-cü sətirdə buna işarə edir: "İçəridə olanlar sınıq taxtaların üstünə qoyulacaqlar".

Nostradamus 1-ci sətirdə qaynar qatrandan söhbət açır. Görücü Fransa kralı II Henriyə yazdığı məktubunda etiraf edir ki, əsrlərlə sonra icad olunacaq silahları indiki dövrdə dərk etmək, izah etmək imkan xaricindədir. Doğrudan da, XVI əsrdə yaşamış görücü XX əsrin ikinci yarısında meydana gələn planetlərarası raketləri "Uzun quyruğu alovdan olan quş" – adlandırmaqdan başqa nə deyə bilərdi?!

Bu katrendə yer alan fosfor bombasını Nostradamus "qızmar qatran" adlandırmışdır. Məsələ burasındadır ki, fosfor bombası partlayarkən fosfor hissəcikləri qatrana oxşayır. Fosforlu şarlar (kürəciklər) havada oksigenlə kimyəvi reaksiyaya girir və uçan alova çevrilir. Nəyin üstünə, o cümlədən də insanın paltarına və bədəninə düşsə yandırır. Onu su ilə söndürmək mümkün deyil. Alov daha da güclənir. Onu yalnız duru palçıqla söndürmək mümkündür.

O ki qaldı Ark şəhərində baş verənlərə, o barədə qeyd etmək olar ki, amerikalılar 700 fosforlu mərmi ilə almanların bütün canlı hərbi qüvvəsini məhv etmişdilər. Sağ qalanlar isə iki gün ərzində Ark ətrafına enən yüzlərcə amerikalı paraşütçü tərəfindən məhv edilmişdi.

**2 k78**

**Dərin dənizlərin böyük Neptunu,**
**Punik (Karfagen) irqindən və fransız qanının qarışığından.**
**Köməyin gecikməsi ucbatından adalarda qan töküləcək.**
**Sirr pis saxlanıldığından daha artıq ziyan dəyəcək.**

Bəzi tədqiqatçılar hesab edirlər ki, bu katren XVII əsrin ikinci yarısında Osmanlı İmperiyası ilə olan münaqişələrdən bəhs edir. Guya türklər Fransa kralı II Henriyə vəd ediblərmiş ki, İtaliyaya qarşı münaqişədə onlara kömək edəcəklər. Türklər vədlərinə xilaf çıxaraq, hətta İspaniya sahillərində Minorkaya hücum ediblər. Onlar Siudadelanı tutaraq qırdıqlarını qırmış, qalanları isə əsir götürmüşdülər. Joberə görə, gəmilərin gecikməsi pulla, rüşvətlə rəqib nümayəndələrini öz tərəfinə çəkməyin nəticəsində baş vermişdi. İtalyanlar çoxlu qızıl verərək, gəmilərin ləngiməsini təşkil etmiş, bununla da fransızlar arasında mənəvi pozğunluğa nail olmuşdular.

Başqa tədqiqatçılar isə türklərin gecikməyinin səbəbini yalnız dənizdə fırtınanın olması ilə bağlayırlar.

“Böyük Neptun” o vaxt, demək olar ki, ən güclü donanma kimi qəbul olunan Türkiyə hərbi-dəniz donanmasını əks etdirirdi.

**2 k79**

**Sıx, qarasaqqallı adam bicliklə,**
**Qəddar və məğrur xalqı ram edəcək.**
**Böyük Xiren uzaqdan iş görərək,**
**Türklər tərəfindən əsir edilmişləri alacaq.**

Nostradamus ən azı doqquz katrendə xristianların Lepanto yaxınlığındakı dəniz döyüşlərində osmanlı türklərinə məğlub olacağını göstərmişdir. Bu katrendə isə əksini görürük. 1571-ci ildə Xristian armadasının komandanı avstriyalı don Xuan, Lepanto yaxınlığında Osmanlı donanmasına üstün gəldi. 15.000 xristian kölə-

sini əsirlikdən azad etdi (Con Houq). Erika Çitəm, Ned Halley və başqaları qulların 1500 olduğunu göstərirlər. Bizcə bu rəqəm daha ağlabatandır. Onların türk avarlı gəmilərində yalnız avar çəkməklə məşğul olmaları da məntiqi cəhətdən qulların sayının 1500 olmasını daha inandırıcı edir.

## 2 k80

**Bəlağətli nitqi ilə seçilənlə toqquşma və o, yaralanandan sonra,**
**Azacıq fasilə nəfəs dərməyə imkan verəcək.**
**Böyüklərdən heç birini azad etməyəcəklər.**
**Vaxt çatanda onları düşmənə təhvil verəcəklər.**

Bu katren İspaniyanın kralı II Filippin Fransaya hücumundan bəhs edir. Katrendə böyük görücünün zamanında baş verən hadisələrdən danışılır. II Filippin çoxsaylı və güclü ordusu Sen-Kanten qalasını mühasirəyə alır. Fransızlar admiral Kolininin rəhbərliyi ilə müqavimət göstərirlər. Lakin qüvvələr nisbəti müqayisəedilməz dərəcədə ispanların tərəfində idi. Odur ki, konnetabl Anna de Monmoransinin başçılığı ilə kömək göndərilir. 10 avqust 1557-ci ildə həlledici döyüş olur. Fransızlar 9 minə qədər itki ve - rirlər. 7 min nəfərdən çox əsgər isə əsir düşür (bax: 4 k8). Əsirlər arasında marşal Sen-Ande, hersoq Monpansye, hersoq de Lonqvil, markiz Qonzaqa və bir çox başqa adlı-sanlı adamlar vardı. Admiral Kolini 27 avqusta qədər müqavimət göstərsə də, cəmisi 800 nəfər döyüşçüsü qaldığına görə, qalanı təhvil verir.

Sen-Kantendə budundan yaralanaraq əsir düşənlər arasında admiral Kolini ilə bərabər Anna de Monmoransi də vardı. Monmoransinin danışığı, özünü aparması II Filippin o qədər xoşuna gəlir ki, sülh danışıqlarında vasitəçi olmaq şərti ilə onu azad edir. Yer - də qalan bütün əsirləri 1559-cu ilin 2-3 aprelində sülh müqaviləsi bağlandıqdan sonra Fransaya təhvil veriblər.

## 2 k81

**Göydən gələn odla şəhər, demək olar ki, külə dönmüş.**
**Dünya su basmaqla yenidən hədələnir.**
**Puniyanın (Liviya) sualtı qayığı Sardiniyanı hiddətləndirəcək.**
**Bundan sonra Faeton (Günəş) Tərəzi bürcünü tərk edəcək.**

Tədqiqatçılar qeyd edirlər ki, bu katrendə Nyu-Yorkda, Vatikanda və ya başqa bir şəhərdə terrorçu tərəfindən oğurlanıb təyyarədə gizlədilən atom bombasının və ya nüvə başlıqlı raketin partladılmasından bəhs edilir. 2-ci sətirdə dünyanı su basmaq təhlükəsindən danışılır. Belə deyirlər ki, guya 2050-ci ilə yaxın dünyada qlobal istiləşmə nəticəsində suların səviyyəsi qalxacaq, dəniz və okean sahillərindəki ərazilər su altında qalacaqdır. (Bu barədə Nostradamus oğlu Sezara yazdığı məktubda ətraflı söhbət açmışdır). 3-cü sətirdə deyilənlər aydındır. Nostradamusun bəzi katrenlərindən görünür ki, Liviya və ya başqa Şimali Afrika ölkəsinin ərazisindən terrorçular sualtı qayıqlardan Cənubi Afrika sahillərinə zərbələr endirəcəklər. Bu katrendə də görücü bu məsələyə işarə edir. Belə olan halda, 4-cü sətirdə göstərildiyi kimi, Tərəzi bürcü tarazlıq yaradacaqdır, daha doğrusu, Qərb atom və ya hidrogen bombası ilə cavab zərbəsi endirəcəkdir. Bu, Günəş Tərəzi bürcünə keçəndə baş verə bilər. Hadisə qarşıdan gələn 800 ilin hər hansı birinin 22 oktyabrında ola bilər. Çünki Günəş Tərəzi bürcünə 22 oktyabrda keçir.

Demək lazımdır ki, Nostradamus görücülüyündə qədim yunan mifologiyasından bol-bol bəhrələnmişdir. 4-cü sətirdə işlənən Faeton da qədim yunan mifologiyasından götürülmüşdür. Bir gün gənc Faeton çox rəhmdilli olan atası Geliosdan xahiş edir ki, onun Günəş arabasını sürməyə bircə dəfə icazə versin. Çox tərəddüd - dən sonra atası oğlunun xahişini yerinə yetirir. Faeton naşılıqdan Günəş arabasını cilovlaya bilmir və odlu kürə Yer kürəsinə düşür. Hər yan yanıb külə dönür.

Nostradamusun müqayisəsi bununla əlaqədardır.

## 2 k82

**Canavar aclığın qurbanı olur.**
**Rəqib dəhşətli bədbəxtliyə düçar olacaq.**
**Ən cavanları Ney qabağa düzdüyündən**
**Böyük, dəstənin ortasında tez nəzərə çarpacaq.**

Katren Napoleonun ingilislərə qarşı Vaterloo döyüşündən bəhs edir. Napoleon xəstə olduğundan, döyüşə rəhbərliyi marşal Mişel Neyə etibar edir. Ney cəsarətli, lakin ağılsız addım ataraq, öz süvari polkunu əsas ordunun önündə düzüb. Buna görə də döyüşün düzgün mənzərəsini görə bilməyib. Bütün günü fransız ordusu biri-birinin ardınca Mont-Sen-Jan dağında istehkamlar qurmuş ingilis ordusuna hücum edib. Ac canavar kimi, Ney ordu hissələrini hücuma vadar edib və çoxlu itki verib. Napoleon təşəbbüsü ələ alıb və öz ordusunun seçmə imperator qvardiyasını hücuma atıb. Lakin gec idi. Çox itki verən ordu, elə bu vaxt prussiyalıların ingilislərəköməyə gəldiyini görüb (bax: 1 k23, 1 k38), təlaşa düşüb və geri çəkilməyə, qaçmağa başlayıb. Tarixçilər yazırlar ki, döyüş zamanı yeddi at itirən, yorğunluqdan səndələyən marşal Ney əlindəki qırıq qılıncla döyüşçülərin qabağını kəsməyə çalışsa da, söyüş söyə-söyə onları özlərini ələ almağa səsləsə də, katrenin 2-ci sətrində Nostradamusun 260 il əvvəl göstərdikləri yüzdə yüz yerini alıb. İmperator özü də geri çəkilməli olub. Yoxsa təlaşla qaçan döyüşçülərin ayağı altında qalardı. Bu, Napoleonun son döyüşü (1815-ci il) və imperatorluğunun sonu idi.

## 2 k83

**Böyük Lionun geniş ticarəti dəyişilib.**
**Sanki xarabazarlığa çevrilən şəhərin əksər hissəsində**
**qırğın olacaq.**
**Əsgərlərə dua oxunur, talançılıq çiçəklənir.**
**Jura dağının və İsveçrənin dumanlı-çiskinli, yağışlı vaxtı.**

Fransa inqilabı vaxtı (1789-1793) inqilaba qarşı çıxışlara görə cənubi Fransanın böyük ticarət mərkəzi Lion şəhərinin qədim hissəsi yerlə yeksan edilmişdi. Nostradamus 4-cü sətirdə "bruine" – dumanlı, yağışlı, çiskinli vaxt sözünü işlədir. Göstərilən yerlərdə həqiqətən də oktyabr ayının ortalarından noyabr ayının ortalarına qədər havalar dumanlı, yağışlı-çiskinli olur. Lion şəhərində qırğın 1793-cü ilin oktyabrında olmuşdur. Göründüyü kimi, Nostradamus həmin hadisənin vaxtını, əgər belə demək mümkünsə, zərgər dəqiqliyi ilə göstərmişdir.

Yeri gəlmişkən qeyd edim ki, bəzi Qərb tədqiqatçıları Nostradamusun kral II Henriyə yazdığı Açıqlamada göstərdiyi: "Oktyabr ayında böyük inqilab olacaq. Çoxları deyəcəklər ki, bu, indiyə qədər baş vermiş inqilabların ən dəhşətlisidir. Sanki həyat məhvərindən çıxacaq... Onlar törətdikləri cinayətlərə görə cəzadan yaxa qurtara bilməyəcəklər. 73 il 7 ay davam edən hakimiyyət əllərindən alınacaqdır" kimi fikirləri səhvən bu katrenlə bağlayıblar. Lakin onlar fərziyyələrini ömrü düz 73 il 7 ay çəkən Sovet sisteminin dağılmasından çox-çox əvvəl irəli sürdüklərindən, onları qınamırıq.

Doğrudur, bu katrenin Lion tikiş fabrikinin fəhlələrinin qaldırdığı iğtişaşlardan (1831-1834) bəhs etdiyini göstərənlər də vardır. Lakin ağlabatan olmadığından ondan danışmağa lüzum görmədik.

**2 k84**

**Kampan, Syen, Florensiya, Tüsti (Toskano) arasında**
**Altı ay, doqquz gün bir damcı da yağış düşməyəcək.**
**Dalmasiya torpağında əcnəbi dil peyda olacaq.**
**O, dünyanın böyük bir hissəsini xarabazarlığa çevirəcək.**

Qərb tədqiqatçıları bu katreni doğru olaraq Balkanlarla bağlayırlar. Yuqoslaviya hadisələrindən sonra, bombardmanların təsiri ilə iqlim şəraitinin dəyişəcəyini, güclü quraqlıq baş verəcəyini göstərirlər. İtaliyadan başlayan quraqlığın Dalmasiya – Bosniya

və Xorvatiyaya qədər gedib çıxacağını qeyd edirlər. 3-cü sətirdə verilənlər, keçmiş Yuqoslaviya torpağında əcnəbi dildə danışanların – amerikalıların və xoşməramlı sülh qüvvələrinin yerləşdiyinə işarədir. 4-cü sətirdə göstərilənlər də yerini tutur. ABŞ-ın İraq və Əfqanıstanda törətdikləri (hələ biz növbədə hansı ölkələrin olduğunu bilmirik) deyilənlərə sübutdur.

## 2 k85

**Lionda kelt qartalının üstündə ucaldılmış**
**Qəzəbli heykəlin ayağında topsaqqal qoca dayanmış.**
**Böyük (vəzifəcə) və qısaboy adam çoxdandır ki, təkid edir.**
**Havada güllə səsləri eşidilir: Liquriya (Genuya) körfəzi qan içində.**

Katrendə söhbət gedən "topsaqqal qoca" tədqiqatçıların fikrincə "Vişi" hökumətinin başçısı marşal Petendir. 1940-cı ildə Almaniya Fransanı zəbt etdikdən sonra bağlanan sazişə görə, Peten Hitlerin əmrini yerinə yetirən səlahiyyətsiz bir adama çevrilir.

Nostradamus fransız qartalını "kelt qartalı" adlandırmaqda Petenin gizli arzusundan xəbər verir. Peten Fransanı inqilabdan əvvəlki dövrə qaytarmaq istəyirdi. O, hesab edirdi ki, inqilab Fransaya çox böyük ziyan vurub. Odur ki, I Dünya müharibəsinin qəhrəmanı, indi isə qocalıb əldən düşmüş Peten xalqı öz ardınca keçmişə – mütləqiyyət adət-ənənəsinə, dəyərlərinə doğru sürükləməyə səy göstərirdi. 4-cü sətirdə müttəfiq ordularının 1944-1945-ci illərdə Genuya və Cənubi Fransanı bombardman etmələrindən bəhs olunur.

## 2 k86

**Hərb gəmisinin qırıqları Adriatik dənizinin sularında üzür.**
**Torpaq titrəyir, gəmi qalıqları havaya qalxır və quruya düşür.**
**Misir titrəyir, Məhəmmədin dini güclənir.**
**Carçı qışqıraraq imana qayıtmağa səsləyir.**

Tədqiqatçılar bu katrenlə bağlı ağlabatan bir söz deyə bilməyiblər. Lakin Adriatik dənizi Balkanların sahillərində olduğuna görə, Balkanlarda baş verən son hadisələr – ABŞ-ın Yuqoslaviyaya təcavüzü göstərir ki, burada qorxulu hadisələr baş verə bilər. Bu barədə Nostradamus kral II Henriyə yazdığı məktubda geniş danışmışdır. Odur ki, biz burada bircə onu nəzərə çatdırmaq istəyirik ki, bu katreni Napoleonun Misirə yürüşləri (1799-cu il) ilə bağlayan tədqiqatçılar da vardır.

**2 k87**

**Daha sonralar alman şahzadəsi uzaq ölkələrdən gəlib**
**Qızıl taxt-taca sahib olacaqdır.**
**İtaət (əsarət) və sular görüşür.**
**Xanım köləlikdədir. Zaman daha ona təzim etmir.**

Bu katren 1714-cü ildə ingilislərin arzusu və itaətkarlığı ilə Britaniya taxtına əyləşdirilən və I Georq adını alan Hannoverli Georqdan bəhs edir (1714-1729). I Georq Britaniyada Hannoverlər sülaləsinin əsasını qoydu. O, kraliça Annanın yaxın qohumu idi. Nostradamusun poetik bir tərzdə yazdığı "Xanım köləlikdədir. Zaman daha ona təzim etmir" sətri Britaniyada Stüartlar sülaləsinə son qoyulduğuna işarədir. Bu, Anna dünyasını dəyişdikdən sonra baş vermişdir. O vaxtdan bu günə kimi İngiltərədə Hannoverlər hakim sülalə olaraq qalır.

Maraqlıdır ki, 3-cü sətir ingilislərdə idiomatik ifadə kimi, "Su gələn arxdan bir də gələr" mənasını da verir. Peter Lori bu katrenin 1980-1990-cı illər Almaniyasından, bədnam Berlin divarının sökülməsindən və s. bəhs etdiyini göstərmişdir.

**2 k88**

**Böyük və məhvə doğru aparan əməl sona yetir.**
**Üçlərin adı yeddilərin beşincisi kimi olacaq.**
**Üçlərdən ən qüdrətlisi yadellidir, müharibə qızışdıran.**
**Paris və Eks Qoç bürcünün təsirinə çox məruz qalmayacaq.**

Bu katrendə Fransanı bürümüş dini müharibələrin sonuncusundan və üç Henri (kral III Henri, Fransanın baş komandanı Henri de Giz və Navarralı Henri) arasında gedən mübarizədən bəhs olunur. Məlumdur ki, kral II Henri və kraliça Ekaterina Mediçinin 7 uşağı olub (bax: 1 k10, 1 k27). Kral III Henri onların 5-ci uşağı idi. 2-ci sətirdə Nostradamus buna işarə edir. 3-cü sətirdə üçlərdən ən qüdrətlisinin yadelli olduğu göstərilir. Bu onunla bağlıdır ki, Nostradamusun vaxtında Henrinin şahzadə olduğu Navarra hələ Fransaya daxil deyildi.

Kral III Henri böyük mənsəb sahibləri olan Giz qardaşlarını öl - dürtdükdən sonra ölkədə iğtişaşlar baş verir. Kral III Henri qaçıb Navarralı Henriyə pənah aparır və burada sui-qəsd nəticəsində 22 yaşlı Kleman tərəfindən öldürülür (bax: 10 k27). Navarralı Henri əlverişli şəraitdən istifadə edərək, Parisi mühasirəyə alır. Bu, Günəşin Qoç bürcünə keçdiyi vaxta (mart-aprel 1590-cı il) təsadüf edir. Lakin pravoslav məzhəbinə mənsub olduğuna görə ona böyük müqavimət göstərirdilər. Navarralı Henri ağıllı bir tədbir görür. Xalq arasında məşhur kəlama çevrilən "Paris ibadətə dəyər" kəlamını deyir və katolik təriqətini qəbul edir. Bundan sonra Nostradamusun göstərdiyi kimi, tezliklə Parisi alır və IV Henri adı ilə Fransanın kralı elan olunur. Sonralar qüdrətli ordu yaradan IV Henri dini müharibələrə son qoyur. Çox müdrikliklə yaradılmış tapmacaya bənzər bu katreni oxuduqca, Nostradamusun katrenləri necə məharətlə kodlaşdırdığına heyrət etməmək olmur.

## 2 k89

**Bir vaxt gələcək iki böyük hökmdar dost olacaq.**
**Onlar görəcəklər ki, qüdrətləri necə də artır.**
**Yeni dünya (Amerika) hakimiyyətin zirvəsində duracaq.**
**Qanlıya (qan xalı olana) onların sayı barədə xəbər verilib.**

Bu katren bizim zəmanəmizdə, XX əsrin sonu – XXI əsrin əvvəlində baş verən hadisələrdən bəhs edir. Rusiyanın ABŞ ilə dost -

luq münasibəti bütün aləmdə tarazlığı pozmuşdur. Ümumiyyətlə, Sovet İttifaqının birinci və sonuncu prezidenti Mixail Qorbaçovun Qərb dövlətlərinin rəhbərləri Ronald Reyqan, Marqaret Tetçer, Fransua Mitteran və s. ilə görüşlərindən sonra Sovet İttifaqı dağılmağa, Qərbə meyil qalxan xətlə inkişaf etməyə başladı. M.Qorbaçovun Malta yaxınlığında (Avropa ilə Afrikanı ayıran bu nöqtədə görüşməyin özü də çox mətləblərdən söhbət açırdı) və başqa yerlərdə təkbətək görüşlərindən sonra bir çox məsələlər aydın oldu. Sovet İttifaqının İraqla qarşılıqlı müdafiəyə dair sazişi olmasına baxmayaraq, ABŞ İraqa qarşı müharibəyə başlayanda Sovet rəhbərliyi səsini çıxarmadı.

Sovet İttifaqı dağıldıqdan sonra ABŞ Yuqoslaviyanı darmadağın edəndə də, Rusiya susdu. 7 oktyabr 2001-ci ildə ABŞ Əfqanıstana və 20 mart 2003-cü ildə İraqa qarşı müharibəyə başlayanda Rusiya özünü ABŞ-ın müttəfiqi kimi apardı. Bütün bunlar bir yana, ən təəccüblüsü odur ki, Varşava hərbi blokunu dağıdan Rusiya indi NATO-ya üzv olmaq istəyir.

Nostradamus 450 il bundan öncə bunları görübmüş. Bu katrenin əvvəlinci üç sətri barədə bir söz deməyə, şərhə lüzum yoxdur. Bunlar artıq hamının dərk edə biləcəyi, gün kimi aydın həqiqətə çevrilmişdir. 4-cü sətirdə söhbət Mixail Qorbaçovdan gedir. Qorbaçovun alnında qan xalı vardır (bax: 2 k98). Fransız dilində bu söz həm "qan xalı" (родимое пятно), həm də "qanlı" mənalarında işlənir. İkinci mənada da bu söz Qorbaçova uyğun gəlir. 20 yanvar 1990-cı ildə onun əmri ilə Sovet qoşunlarının Bakıya daxil olaraq tökdüyü qan, Qarabağda, Tiflisdə, Çeçenistanda, Moldovada, Pribaltikada, Orta Asiyada tökülən qanlar hamısı o qanlının – Qorbaçovun adı ilə bağlıdır.

Burada bir məsələni də qeyd etmək lazımdır ki, 1-ci sətirdə işlənən "demis" sözü "d`amis" – "dostlar" mənasında işləndiyi kimi, "demis" – "təfriqə salmaq", "ikitirəlik salmaq" mənasında da işlənir. Hadisələr göstərir ki, bu "dostluq" xalqlar arasına təfriqə salmaq niyyətini də güdür.

Bu iki ölkənin dostluq münasibətlərinin möhkəmlənməsi, dünyada sülh işinə, xalqlar dostluğuna, əmin-amanlığa, firavanlığa xidmət etsəydi, bütün xalqlar rahat nəfəs alardı. Görünür, bu "dostluq"da başqa niyyətlər vardır. Rus tədqiqatçıları A.Morok və K.Razumovskaya sevinc hisslərini cilovlaya bilməyərək, yazırlar: "Katrendə söhbət gedən iki böyük hökmdar Rusiya və Amerikanın prezidentləridir. Bu ölkələrin dünya siyasətində yerini nəzərə alsaq, yalnız bu iki dövləti "Böyük" adlandırmaq olar. Çox mümkündür ki, XXI əsrin ortalarına yaxın onlar bütün güclərini birləşdirəcəklər ki, daha güclü olsunlar. Bütün dünyanı özlərinə tabe etsinlər".[1]

Bu tədqiqatçılar sonra ürəkağrısı ilə yazırlar ki, bu dostluq uzun sürməyəcək. ABŞ və Rusiya arasında dünyanı bölmək ucbatından nifaq düşəcək (bax: Göstərilən əsər, səh. 61). ABŞ və Rusiyanın dostluğu 13 il çəkəcəkdir.

Doğrudur, ABŞ-ın yerli münaqişələri yatırmaq bəhanəsi ilə dünya xalqlarının işinə qarışması müəllifləri çox narahat edir. Haqlı olaraq Əfqanıstan, İraq və Yuqoslaviya xalqlarına amansız divan tutulmasından bəhs edirlər. Onlar kitabı yazanda nə biləydilər ki, Əfqanıstanın başına nə oyun açılacaq, Əfqan və İraq xalqı necə böyük bəlaya düçar olacaq. Bütün bunlardan əlavə, Erika Çitəm göstərir ki, Amerika həmin güclü dövlətlə dilbir olduqdan sonra Nostradamusun göstərdiyi qanlı Antixrist öz vəziyyətini qiymətləndirməyə başlayacaq. Tədqiqatçı bu məsələni elə ehtiyatla, elə müəmmalı yazıb ki, Antixristin bu iki qüdrətli dövlətin başçılarından biri və ya başqa bir hökmdarın olduğunu bilmək olmur. Lakin Peter Lorinin sözlərindən nəticə çıxarmaq olar ki, söhbət ABŞ dövlətinin başçısından gedir. Tədqiqatçı yazır ki, bu "missiya"nı yerinə yetirməyə ABŞ ən əsas namizəddir. Çünki araqarışdırmaqda ABŞ-a çatan olmaz. Bir tərəfdən ona görə ki, güc-

[1] А.Морок, К.Разумовская. Новая расшифровка предсказаний Нострадамуса. Москва, 2000, стр. 58-59.

lüdür, istədiyini edə bilir, başqa bir tərəfdən də sirr saxlamağı və həqiqətin üstünü pərdələməyi bacarır. Lakin həqiqət gec-tez məlum olur.[1]

Katrendə söhbət gedən "Qanlıya və ya alnında qan xalı olana onların sayı barədə məlumat verilib" sətri isə Peter Lorinin göstərdiyi kimi, Amerika kəşfiyyatının Kremlin partiya fəallarının ona qarşı qiyam qaldıracaq və hətta onu oğurlamağa cəhd göstərəcək QKÇP üzvləri və onların sayı barədə M.Qorbaçova verilən məlumatdan bəhs edir.[1] M.Moren isə göstərir ki, bundan sonra "Qanlı"nın hakimiyyətinin sonuna az qalacaqdır. Bu da öz yerini tutdu. 1991-ci il dekabr ayının 25-də Mixail Qorbaçov televiziya ilə çıxış edərək, istefaya çıxdığını elan etdi. Ancaq o, görəcəyi işi görmüşdü. Sovet İttifaqını dağıtmışdı.

Bununla belə, Sovet İttifaqının məhvini təkcə "Əli qanlı" Qorbaçovun ayağına yazmaq insafdan kənar olardı. Bu sistemin axırına "Rusiyanın özünü özündən müstəqil" elan edən, M.Qorbaçovun hakimiyyətdən uzaqlaşdığının 10 illiyi ilə bağlı BBC agentliyinə verdiyi müsahibədə "Ağlasığmaz, inanmaq mümkün olmayan yalançı" adlandırdığı[2] Boris Yeltsin çıxdı.

### 2 k90

**Həyat və ölümlə Macarıstanda idarə üsulu dəyişəcək.**
**Qanunlar köləlik qanunlarından da amansız olacaq.**
**Onların böyük şəhərini inilti, yalvarış səsləri bürücəyək.**
**Kastor və Polluks meydanda düşmən kimi üz-üzə dayanacaqlar.**

Katrendə 1956-cı il noyabr ayının 1-də Macarıstanda baş vermiş hadisələrdən bəhs olunur. Baş nazir İmre Nad və tərəfdarları Varşava müqaviləsindən çıxmaq barədə bəyanat verirlər. Küçə-

[1] Peter Lorie. Göstərilən əsəri, səh. 83 və əsərin türkcə çapı, İstanbul, 1999, səh. 84.
[2] """"Yeni Müsavat"""" qəz., 26 dekabr 2001, səh. 16"".

lərdə bütün xalq bayram edirdi. O vaxt Sovet İttifaqının Macarıstandakı səfiri Y.Andropov Budapeştə ordu yeritməyi təkidlə təklif edir. Rus tankları Budapeştə girəndə, qan su yerinə axırdı. Küçələrdə əsl müharibə gedirdi. Əhalinin bir hissəsi tankların şəhərə girməsini alqışlayır, bir hissəsi isə ona qarşı çıxırdı. Nostradamusun "Kastor və Polluks meydanda düşmən kimi üz-üzə dayanacaqlar" sözləri bununla bağlıdır. Kastor və Polluks qədim yunan əsatirinə görə əkiz qardaş olublar (bax: 2 k15). Burada bir onu demək yerində olardı ki, Budapeştdə qardaş qardaşa qarşı çıxmışdı. Qardaş qanı tökülürdü. Nostradamusun qədim Yunan əsatirindən obrazlı şəkildə, məharətlə istifadə etməsi adamı, sözün həqiqi mənasında, mat qoyur. İstər-istəməz bu nadir şəxsiyyətin hərtərəfli biliyinə insan heyranlıqla həsəd aparır.

Rus tədqiqatçılarının əksəriyyətinin katren barədə bilərəkdən heç bir söz demədən, "gələcəkdə Macarıstanda nəsə baş verəcək" deməklə katrenin mahiyyətindən yan keçməsi də adamı mat qoyur. Bu, bəzi tədqiqatçıların vicdanı barədə qənaətə gəlməyə imkan verir.

### 2 k91

**Şərqdə böyük alov görəcəklər.**
**Səs-küy və işıq Akvilona yayılacaq.**
**Alovun qalxdığı radiusda qırğın olacaq, qışqırıq səsləri eşidiləcək.**
**Onlar alov, aclıq və silahın qurbanı olacaqlar.**

Tədqiqatçılar bu katreni şərh etməkdə çətinlik çəkiblər. Ehtimal və fərziyyələrlə gələcəkdə baş verə biləcək III Dünya müharibəsindən danışıblar. A.Morok, K.Razumovskaya kimi rus tədqiqatçıları yaponların Kuril adalarına atom bombası atacaqlarından dəm vururlar (Əksinə desəydilər, bəlkə də onların bu uydurmalarına inanan olardı – Q.P.). Bəzi rus tədqiqatçıları isə 1571-ci ildə Moskvanı yandırmış Krım xanı Meni-Gəraydan söz açırlar.

Əslində, söhbət Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş partlayışdan və böyük faciədən gedir. Bəllidir ki, o zaman radiasiyanın əhatə dairəsində hamı məhv olmuş, yaxud çox böyük xəsarət almışdı.

Son sətirdə göstərilənlər də yerini alıb. Alovun yayıldığı radiusda qırğın olub. "Silah" deyəndə radiasiya nəzərdə tutulmalıdır. "Aclıq" sözü də katrendə təsadüfi yer almayıbmış. Faciədən sonra ciddi xəsarət alsalar da, sağ qalanlara Sovet dövləti uzun müddət maddi yardım etməkdən imtina etmişdi.

**2 k92**

**Yaylım atəşinin qızılı rəngi yerdən görünür.**
**Yuxarıdan gələn zərbə insanı mat qoyacaq.**
**Böyük insan qırğını başlayacaq, Böyük adamın qardaşı oğlu tutulacaq.**
**Hamını biçib-tökən ölüm təkəbbürlüdən yan keçəcək.**

Bu katrendə III Napoleonun hakimiyyəti zamanı Fransa üçün ağır nəticələr verən hadisələrdən danışılır. Nəticəsini düşünmədən III Napoleon Prussiyanın başçısı Kayzer Vilhelmdən təhqiranə tərzdə tələb edir ki, İspan taxtına Qoqentsoller əyləşdirilsin. Vilhelmdən rədd cavabı alan III Napoleon istər-istəməz müharibəyə cəlb olundu. 1870-ci il sentyabrın ilk günlərində Sedan yaxınlığında döyüş başladı. Prussiyalıların müttəfiqləri almanların toplarının mərmiləri od saça-saça fransız ordusunun başına yağır və əsgərləri göz açmağa qoymurdu. Tez bir zamanda 300 mindən artıq fransız döyüşçüsü öldürüldü (bax: 1 k92).

4-cü sətirdə atın üstündə cinahdan-cinaha çapan, ölümdən qorxmayan III Napoleondan söhbət gedir. 3-cü sətirdə isə "Böyük adam" deyəndə Napoleon Bonaparta işarə edilir. Nostradamusun göstərdiyi kimi, Prussiya-alman qoşun hissələri bir ay müddətinə fransızlardan qırdıqlarını qırıb, qalanlarını isə III Napoleon başda olmaqla əsir götürüblərmiş.

## 2 k93

**Tibrin yaxınlığında ölüm ilahəsi hədələyəcək.**
**Bir az sonra hamı böyük daşqınla üzləşəcək.**
**Kilsənin başçısı (papa) tutulacaq və kanalizasiyada yerləşdiriləcək.**
**Sant-Anjelo sarayı və papanın iqamətgahı yandırılacaq.**

Nostradamusun bu katrendə bəhs etdikləri 1138-ci ildə Romaya gələn irlandiyalı din xadimi müqəddəs Malaxiyanın dedikləri ilə üst-üstə düşür. Müqəddəs Malaxiya 111 Roma Papasından söhbət açır. Malaxiyanın göstərdiyinə görə, II İohann Paveldən sonra (Malaxiya II İohann Paveli "Günəş kimi işləyən" adlandırmışdır. Maraqlıdır ki, II İohann Pavel Günəş tutulan gün anadan olub) cəmi ikicə Roma Papası olacaq. O da maraq doğurur ki, Malaxiya Romaya gələndə Papa Romalı Tselestrin idi. Malaxiyada da, Nostradamusda da göstərilir ki, Vatikanın sonuncu Papası da Romalı olacaq – Romalı Papa Pyotr.

Qeyd etmək lazımdır ki, müqəddəs Malaxiyanın əlyazması Vatikanın arxivində Nostradamusun ölümündən 24 il sonra, 1590-cı ildə üzə çıxarılıb. Bəzi tədqiqatçılar isə əlyazmanın 1525-ci ildə tapıldığını göstərirlər. Bu əlyazmasından Nostradamusun xəbəri olması qeyri-realdır. Lakin hər iki görücünün fikirlərinin üst-üstə düşməsi, bu katrendə göstərildiyi kimi, bu hadisənin labüd olaraq baş verəcəyindən xəbər verir. Vatikanın yanması, yanğının törəmə səbəbi, şəhərin su altında qalması və Papanın tutularaq kanalizasiyaya salınması bizə məlum deyil. Bəlkə də bu, Nostradamusun başqa katrenlərdə söhbət açdığı və Egey dənizinə düşəcək çox böyük meteoritin suyun səviyyəsini 6-7 metr qaldırması nəticəsində baş verəcəkdir.

## 2 k94

**Böyük Po qalliyalılara böyük bədbəxtlik gətirəcək.**
**Dəniz Şirinə hədə-qorxu gəlmək əbəsdir.**
**Saysız-hesabsız insan axını dəniz vasitəsilə gedəcək.**
**Milyonun dörddə biri qədər itkiyə məruz qalacaq.**

Katrendə "Böyük Po" "Napoleon" mənasında işlənir. Doğrudan da, Napoleon milyonlarla fransız və başqa xalqların əsgərlərinin məhvinə bais olmuşdur. 3-cü sətirdə 1799-cu ildə Napoleonun Misirə təcavüzündən bəhs edilir. Napoleon hərbi dəniz donanmasına saysız-hesabsız ordu toplayıb, anadan olduğu Korsika adalarından keçərək Aralıq dənizi vasitəsilə Misiri zəbt etmək üçün bu qədim ölkəyə yola düşür. Onun bu səfəri düz iki il çəkir. Nil çayı üzərində ingilis və ispan hərbi–dəniz donanmaları ilə qarşılaşır. Fransızlar məğlub olurlar. Katrenin 2-ci sətrində göstərilən "Dəniz Şirinə hədə-qorxu gəlmək əbəsdir" fikri İngiltərə ilə bağlıdır. İngiltərə 300 ildən artıq dənizdə hökmran olduğuna görə, ona bəzən "Dəniz Şiri" də deyirdilər. Nostradamus nəinki poetik dillə "Dəniz Şiri"ndən, hətta ona hədə-qorxu gəlməyin əbəs olduğundan da çox yığcam şəkildə söz açır. Bu nə ilə bağlı ola bilərdi? Maraqlı burasıdır ki, Napoleon bütün Avropa ölkələri qarşısında tələb qoymuşdu ki, dəniz limanlarını İngiltərənin üzünə bağlasınlar. Əks təqdirdə, həmin ölkələrə qurudan və dənizdən həmlə endirəcəyi ilə hədələyirdi. Lakin İngiltərənin dənizdəki qüdrətindən çəkinən həmin ölkələr açıq və gizli şəkildə Napoleonun hədəsinə məhəl qoymadılar. Doğrudan da, ingilislərin hərbi dəniz donanması çox güclü idi.[1]

Onu da bilmək maraqlı olar ki, Napoleon yunan sözü "neapolluon"a uyğun gəlir. Yunanca bu söz "qıran", "dağıdan" mənalarında işlənir və əgər belə demək mümkünsə, Napoleon adını doğruldur. 14 illik hakimiyyəti dövründə Napoleon dayanmadan qırıb-dağıtmaqla məşğul olmuşdu.

**2 k95**

**Əhalinin məskunlaşdığı yerlər yaşayış üçün yararsız olacaq.**
**Torpaqdan ötrü böyük fikir ayrılığı, ixtilaflar baş verəcək.**
**Dövlətlər ağılla hərəkət etməyə qadir olmayanlara tapşırılacaq.**
**Ona görə də böyük qardaşlar arasında kin-küdurət və**
**ölüm olacaq.**

---

[1] David Ovason, Nostradamusun kodu (ingiliscə). London, səh. 372.

Katrendə İsrail–ərəb münaqişəsindən, eləcə də dünyanın iki qüdrətli ölkəsindən – Rusiya və ABŞ-dan bəhs olunur. Ərəb–İsrail münasibətləri barədə yuxarıda geniş söhbət açdığımıza görə (bax: 2 k60) burada müfəssəl danışmağa lüzum görmədik. Sonuncu sətirdə isə Rusiya və Amerikadan söhbət getdiyi şübhə doğurmur. Dostlaşmış bu iki nəhəng dövlət arasında (bax: 2 k89) gələcəkdə münasibətlər pozula da bilər. Katrenin özündən də bunu görmək olur. Dünyanı bölüşdürmək sahəsində bu iki dövlət arasında ixtilaflar münaqişəyə – müharibəyə gətirib çıxara bilər.

Doğrudur, bəzi tədqiqatçılar iki böyük qardaş deyəndə Con və Robert Kennedi qardaşlarının nəzərdə tutulduğunu qeyd edirlər. Hətta bəzi şərhçilər yazırlar ki, söhbət 1588-ci ildə kral III Henri tərəfindən qətlinə fitva verilən Henri və Şarl de Giz qardaşlarından gedir. Hətta katreni İngiltərədə inqilabla və 1649-cu ildə kral I Çarlzın edam olunması ilə bağlayanlar da vardır. Bu fikirlər tamamilə əsassızdır. Nostradamus “Böyük” kəlməsini katrenlərində “dövlət başçıları”, “şahzadə”, “kraliça”, “kral”, “hökmdar”, “şah sözləri” mənasında işlətmişdir.

Rus tədqiqatçılarından bəziləri üç qardaşdan söhbət açır və yazırlar ki, katrendə İran–İraq–Əfqanıstandan bəhs olunur. Bu, təbii ki, doğru deyildir.

### 2 k96

**Parlaq məşəl gecə vaxtı göydə görünəcək.**
**Rona çayının mənsəbinə (ağzına) və mənbəyinə yaxın yerdə.**
**Aclıq, silah öz hökmünü göstərəcək, göndərilmiş kömək yubanacaq.**
**İran Makedoniyanı zəbt etmək məqsədilə geri dönəcək.**

Bu katren haqqında tədqiqatçılar ağlabatan bir söz deyə bilməyiblər. İranın Makedoniyanı zəbt etmək cəhdi qədimdə olub. Lakin Nostradamusun zamanından sonrakı tarixdən belə bir şey mə -

lum deyil. Bəlkə də görücünün bu katreni gələcəkdə baş verəcək hadisələrdən bəhs edir.

## 2 k97

**Roma Papası, sənə yaxınlaşanlardan özünü gözlə.**
**İki çayın əhatə etdiyi şəhərdən uzaqlaş.**
**Tüpürəndə bəlğəmlə qarışıq qan gələcək.**
**Qızılgüllər açanda sənin və dostlarının qanı töküləcək.**

Katrendə Roma Papası VI Piyin ölümündən bəhs olunur. Papa VI Piy Fransa direktoriyasının (Fransa hökuməti 1795-1799-cu illərdə direktoriya adlanıb) əsiri olub. Oxuculara təəccüblü gələ bilər ki, Fransa dövləti Roma Papasını nə üçün əsir etmişdi? Məsələ burasındadır ki, o vaxtlar İtaliyada dövlətin işini Papa aparırdı. Əsirliyə də Fransa ilə müharibə vaxtı düşmüşdü (bax: 2 k99). Papa VI Piy və dostları – 32 nəfərdən ibarət keşişlər dəstəsi Rona və İzer çaylarını əhatə edən Valans şəhərinin qəsrində ev dustağı idilər. 1799-cu ilin yayında qastroenteritdən əziyyət çəkən (mədə və nazik bağırsaqların selikli qişasının iltihabı) Papa VI Piy kəskin ağrılar və qanaxma nəticəsində ölüb.

## 2 k98

**Üzünə (alnına) qan çilənən (qan xalı olan) adam,**
**Az qalacaqdı ki, qurban getsin.**
**İldırım saçan Yupiter Şir bürcündə olanda,**
**Peyğəmbərlik əlaməti görünəcək.**
**O, hər şeyi məhv edəcək, sonra məhəbbətdən dəm vuracaq.**

Sovet dövlətinin son illərinin şahidi olan hər kəs bu katreni oxuyan kimi, söhbətin Sovetlər İttifaqının ilk və son prezidenti Mixail Qorbaçovdan getdiyini yəqin edəcəkdir. Üzünə qan çilə - nən, alnında qan xalı olan M.Qorbaçov (bax: 2 k89) 2-ci sətirdə göstərildiyi kimi, Yupiter Şir bürcündə olanda (19 avqust 1991, 11 sentyabr 1991) az qalmışdı ki, qurban getsin. Moskvada QKÇP ad -



*Sovet İttifaqını dağıdan Mixail Qorbaçov sevinc və həyəcan içində*

lanan qrup dövlət çevrilişi edir (12-19 avqust 1991). Krımda istirahətdə olan M.Qorbaçov Boris Yeltsinin səyi nəticəsində ailəsi ilə Moskvaya qayıda bilir. Qiyamçıları həbs edirlər. 1991-ci il sentyabrın 5-də Qorbaçov Xalq Deputatları Sovetinin Qurultayının işinə xitam verir. Buna qədər artıq B.Yeltsin Kommunist Partiyasının fəaliyyətini qadağan etmişdi (24 avqust). Əvvəllər Qərbi və Şərqi Almaniyanın birləşməsinə xeyir-dua verən M.Qorbaçov Yupiterin Şir bürcünə keçməsinə beş gün qalmış (11 sentyabr 1991-ci ilə qədər) Pribaltika Respublikalarının müstəqilliyini elan edib. O, 1991-ci il dekabrın 5-də özü istefaya getdi. Lakin buna qədər Sovet İttifaqını dağıtmaq üçün əlindən gələni etdi və bunu xalqa məhəbbətdən etdiyini xüsusi vurğuladı. Maraqlıdır ki, 2001-ci ilin dekabrında istefasının 10 illiyi münasibətilə BBC agentliyinə verdiyi müsahibəsində o, bu məsələdən qürur hissi ilə danışırdı. Qorbaçov danışdıqca tarixdən məlum olan bir məsələ mənim gözlərim önündən keçirdi. Tarixdə qalmaq naminə bəzi adi adamlar böyük adamları qətlə yetirirlər. Qorbaçov mənə nəsə belə bir adam təsiri bağışladı. O, BBC agentliyinə verdiyi müsahibəsində B.Yeltsindən danışarkən onu "ağlasığmaz, inanmaq mümkün olmayan yalançı" adlandırdı (bax: Yeni Müsavat, 26 dekabr, 2001, səh.16). B.Yeltsin haqqında Qorbaçovun dediklərini tərəddüd etmədən onun özünə də aid etmək olar. Bunu böyük görücü Nostradamus 450 il öncə görmüş və poetik dillə bəyan

etmişdir: “O, hər şeyi məhv edəcək, sonra məhəbbətdən dəm vuracaq”.

Maraqlıdır ki, Nostradamus katrenlərində bu və ya digər tarixi şəxsiyyətlərə rəğbət və ya nifrətini bildirir. Böyük görücünün Qorbaçova rəğbəti hiss olunmur.

**2 k99**
**Peyğəmbərin dediyi kimi, Roma torpağı**
**Qalliyalılar (fransızlar) tərəfindən bərk sıxışdırılacaq.**
**Ordularını çox uzağa, Borey diyarına aparanda,**
**Qalliyalılar çox qorxuya düşəcəklər.**

Bu katrenin ilk iki sətrində Napoleonun İtaliyaya hücumları, son iki sətrində isə Rusiyaya uğursuz yürüşü təsvir edilir. 1794-1798-ci illərdə Napoleon İtaliyaya hərbi yürüşlər edərək, ölkəni talan etmiş, əli silah tutanların hamısını qırmışdı. 1796-cı ildə Napoleon Roma Papası VI Piyi Tolentiya müqaviləsini bağlamağa məcbur edir. Müqaviləyə əsasən Boloniya, Ferrara və Romaniya torpaqları Fransaya verildi. Bundan əlavə, 30 milyon frank məbləğində təzminat da nəzərdə tutulmuşdu. Bu, çox böyük məbləğ idi. Bu, İtaliyanı kölə halına salmaq demək idi. İki il sonra, 1798-ci ildə fransızlar Papalığa aid torpaqları da tutaraq, Roma Respublikası elan etdilər. Papa VI Piy həbs edildi və əsir olaraq Valans şəhərində qəsrdə saxlanıldı. Papa elə buradaca qanaxmadan vəfat etdi (bax:2 k97).

Napoleon Papa VII Piyi də əsir etmişdi. 1800-cü ildə o, Sen-Bernar aşırımını keçərək Marenqo yaxınlığında prussiyalıları məğlub etdi.

Qan tökməyi özünə peşə etmiş Napoleonu ilahi cəza gözləyirdi. O, 1812-ci il iyunun axırında 450 minlik ordu ilə Neman çayını keçərək Moskva üzərinə yeridi. 6 ay sonra Rusiyanı tərk etməyə məcbur oldu. 250 min nəfərdən çox itki verdi. Yüz mindən artıq fransız əsir düşdü. Sağ qalan əsgərlərin çoxu Fransaya dönərkən

Rusiya çöllərində şaxtadan həlak oldu. Rusiyaya şan-şöhrət, qənimət dalınca gedən Napoleon hər şeyi itirdi. Bu məğlubiyyət onun tənəzzülünün başlanğıcı idi.

Son sətirdə Boreya diyarından söhbət gedir.

"Boreya" həm Rusiya, həm də "şimal küləyi ölkəsi" mənalarını verir və hər iki halda Nostardamusun fikrini düzgün ifadə edir.

## 2 k100

**Adalarda dəhşətli çaxnaşma baş verəcək.**
**Həqiqəti yalnız hərbçilər biləcəklər (eşidəcəklər).**
**Qarətçilərin hücumu və həqarəti çox böyük olacaq.**
**Onların hamısı böyük ittifaqda birləşəcək.**

Bəzi tədqiqatçılar bu katreni "Les Propheties"in çapından cəmi on il sonra Maltanın türk hərbi dəniz qüvvələri tərəfindən mühasirəyə alınması ilə əlaqələndirirlər. Fransızlar beş ay çəkən mühasirədə 40 minlik türk hərbi dəniz qüvvələrinə müqavimət göstərərək ispanların köməyi ilə mühasirədən azad olublar. Burada kimlərin ittifaq yaratdığı məlum deyil. O vaxtlar Fransa hətta İspaniya ilə, demək olar ki, müharibə vəziyyətində idi. Buna görə də başqa qisim tədqiqatçıların fikri daha ağlabatandır. Onlar bu katreni İngiltərə ilə əlaqələndirirlər. Hitler Almaniyası II Dünya müharibəsinin başlanğıcında Fransanı ildırım sürəti ilə fəth edərək İngiltərəni təklədi. Ölkənin demək olar ki, bütün böyük şəhərlərini bombardman etdi. Alman təyyarələri günün günorta çağı İngiltərə səmalarında uçur, xalqı təşvişə salırdı. Almanlara qarşı yeganə çıxış yolu, Nostradamusun göstərdiyi kimi, birləşərək böyük ittifaq yaratmaq idi.

Müttəfiqlər Amerika, İngiltərə və Fransa idi. Onlar hər vasitə ilə çalışırdılar ki, Almaniya və Rusiya müharibənin gedişində zəifləsin, qalib tərəf olmasın.

# III SENTURİYA (III YÜZLÜK)



***Mən "Hər şey tale ilə bağlıdır. Lakin bunun özü də Yaradan və Təbiət vasitəsilə olur" deyilən ilahi həqiqəti qəbul edir və bunu heç nə ilə qarışdırmıram.***

## 3 k1

**Davadan və dəniz döyüşündən sonra,**
**Böyük Neptun zirvədə duracaq.**
**Nəhəng okeanı dəhşətə gətirəcək.**
**Qırmızı rəqib qorxudan saralacaq.**

Katrendə böyük görücü özündən 250 il sonra baş verəcək hadisələrdən söz açır. 1805-ci ildə Trafalqar burnu yaxınlığında ingilis hərbi dəniz donanması admiral Nelsonun komandanlığı ilə birləşmiş fransız-ispan donanmasını darmadağın etdi. Katrendə söhbət gedən qanlı döyüş barədə ətraflı danışdığımızdan (1 k77) burada təkrara yol verməyə lüzum yoxdur. Bir onu demək lazımdır ki, 4-cü sətirdə "Qırmızı rəqib qorxudan saralacaq" ifadəsini Nostradamus fransız inqilabçılarının rəmzi olan qırmızı rənglə bağlı işlətmişdir. Burada İspaniyanın rolu o qədər də qabardılmır. Çünki müharibəni, əsasən, Napoleon aparırdı. Təsadüfi deyildir ki, bu döyüşdə fransız-ispan hərbi-dəniz donanmasına fransız admiralı Villenev komandanlıq edirdi. Dənizdə hökmranlıq baxımından böyük əhəmiyyət kəsb edən bu həlledici döyüşdə tale hər iki admiraldan üz döndərmişdi. Admiral Villenev əsir düşmüşdü. Admiral Nelson isə qələbəni həyatı bahasına əldə etmişdi.

Katrenin 1-ci və 2-ci sətirləri admiral Nelsonla bağlıdır. "Böyük Neptun" – Dəniz Şiri onunla bağlı işlənmişdir. 1849-cu ildə Nelsonun xatirəsini əbədiləşdirmək üçün Londonun mərkəzində, Trafalqar meydanında (fikir verin, Trafalqar döyüşü də əbədiləşdirilib) 51 metr hündürlüyündə onun möhtəşəm abidəsi ucaldıl-

mışdır. Nostradamus "Böyük Neptun zirvədə duracaq" deməklə ingilislər üçün əlamətdar olan bu hadisəyə işarə edir.

**3 k2**

**İlahi söz öz ifadəsini maddi varlıqda tapacaq.**
**Yeri və göyü ehtiva edəcək. Gizlədilmiş qızıl sirli əməldir.**
**Bütün gücə malik bədən, qəlb və ruh**
**Hamısı göydə olduğu kimi, onun ayaqları altındadır.**

Bu katrendə Nostradamus kral II Henriyə göndərdiyi Açıqlamada göstərdiyi bəzi məqamlara toxunur. Görücü "ilahi söz" deyəndə vəcdə gəlmək üçün pıçıltı ilə oxuduğu gizli və sehrli duaları nəzərdə tutur. O, göstərir ki, insan vəcdə gələrkən onun qəlbi ilahi nurla dolur. İlahi nur onu şəxsi mülahizə və əqli məhdudluqdan məhrum edir. Bu vaxt insan gələcəyə səyahət edə bilir. Bu, dünyəvi və ilahi birliyin həddidir. Mistiklər siklon mahiyyətində olan bu həddi arası kəsilməyən fikir, hiss və həyəcanın mərkəzi adlandırırlar. Bu isə insan varlığının üç əsas mərkəzinin harmoniyasına gətirib çıxarır: bədən, şüur (idrak) və qəlb. Bu üç mərkəz birgə döyünəndə mistiklərin təsvir etdikləri ağılsızlıq dərəcəsinə çata bilər. Mütəxəssislərin fikrincə görücülüyün mənbəyi göylərlə əlaqə zamanı əldə edilir ki, bu da əslində ilahi varlığa inamla bağlıdır.

Tədqiqatçılar göstərirlər ki, bu katren də 1 k1 və 1 k2 kimi Nostradamusun özü və görücülüyü zamanı düşdüyü halla bağlıdır.[1]

**3 k3**

**Mars, Merkuri və gümüşü Ay birləşəcək.**
**Cənuba tərəf son dərəcə quraqlıq olacaqdır.**
**Asiyanın mərkəzində yer titrəyəcək.**
**Bu vaxt Korinfdə (Yunanıstan) və Efesdə (Kiçik Asiya)**
**çaxnaşma baş verəcəkdir.**

Göstərilən planetlərin zahiri birləşməsi tez-tez olmuş və bu vaxt müharibələr, zəlzələlər, tarixi hadisələr baş vermişdir. Məsələn,

[1] Erika Çitəm. Nostradamusun görücülüyü (ingiliscə). Britaniya, 1991, səh.134-135.

Nostradamusun dövründə, 24 yanvar 1556-cı ildə Çinin şimalından Egey dənizinə qədər ərazini əhatə edən dəhşətli zəlzələ nəticəsində 830 min adam həlak olmuşdu. İnsanı heyrətə gətirən odur ki, texnikanın ağlasığmaz dərəcədə inkişaf etdiyi zəmanəmizdə zəlzələnin başverəcəyi vaxtı heç kim dəqiq göstərə bilmədiyi halda, 450 il bundan əvvəl, 1-ci sətirdə göstərildiyi kimi, Nostradamus onun başvermə vaxtını dəqiq görmüşdü. Və bu, yeganə hal deyildir. Nostradamus zəlzələlərin vaxtını dəfələrlə göstərmişdi.[1]

XX əsrin son rübünü götürsək, deyə bilərik ki, 1-ci sətirdə göstərilən bürclərin birləşdiyi 1977-ci ildə Korinfdə (Yunanıstan) kral Konstantin devrilib. Bu vaxt Korinf və Efesdə inqilabi hərəkat baş alıb gedirdi. Lap son dövrlərdə bu hadisə 1993-cü ilin payızında, 1998-ci ilin martında, 2000-ci ilin iyul-avqust aylarında yer almışdı. Bu vaxt Yunanıstanda və xüsusən də Türkiyədə dəhşətli zəlzələlərin baş verdiyi məlumdur. 1993-cü ildə Hindistan, İran və başqa yerlərdəki zəlzələlər 10 minlərlə adamın məhvinə səbəb oldu. Afrika ölkələrində və Kiçik Asiyada quraqlıq və aclıq tüğyan etməyə başladı.

**3 k4**

**Ay və Günəş tutulmaları baş verəndə**
**Onlar biri-birlərindən çox da uzaq olmayacaqlar.**
**Hətta görücü fəaliyyətə başladığı yerlərdə**
**Soyuq, quraqlıq və təhlükə sərhədlərə yaxınlaşacaqdır**

Tədqiqatçılar göstərirlər ki, 1556-cı ildə, Nostradamusun dövründə Günəş və Ayın tutulması çox yaxın vaxta düşüb. Günəş həmin il noyabr ayının 1-də, Ay isə noyabrın 16-da tutulub. Tarixçilər qeyd edirlər ki, həmin ilin aprelindən avqustun axırına qədər yağış yağmayıb. Dekabr ayında isə Fransada sərt soyuqlar olub. 4-cü sətirdə görücü təhlükəli anlar yaşayacaqlarını bəyan edib.

---

[1] Maykl Cordan. Nostradamus və yeni minillik (ingiliscə). Dubay, 1998, səh. 55.

Həmin ildə İspaniya Fransanın şimal-şərq sərhədlərini keçərək ölkənin müstəqilliyinə böyük təhlükə yaradıb. Göründüyü kimi, Nostradamus öz zamanında baş verəcək hadisələrdən də dəqiqliklə bəhs edib və böyük şöhrət qazanıb. Təsadüfi deyildir ki, görücünün müasiri, zamanında "fransız şairlərinin şahzadəsi" hesab olunan Pyer Ronsar (1524-1584), Nostradamusu "Allahın seçilmiş peyğəmbəri" adlandırmış, ona neçə-neçə şeirlər həsr etmişdir. Sonralar isə Pyer Jan Beranje, İ.Höte, B.Pasternak və başqaları ölməz əsərləri ilə Nostradamusu göylərə qaldırmışlar.

### 3 k5

**Yaxında, uzaqda iki göy cisminin tutulması**
**Aprel və mart aylarına təsadüf edəcəkdir.**
**Oh! Nə qədər böyük itki! Ancaq hər iki böyük xeyirxah**
**Yerdən, dənizdən hər tərəfə kömək edəcəklər.**

Nostradamusşünaslar bu katrenin hansı vaxtdan və kimlərdən bəhs etdiyini ayırd edə bilməyiblər. Güman və fərziyyələrlə bəziləri katrendə İran-İraq müharibəsindən (1980-1988) danışıldığını qeyd edirlər.[1]

Rus tədqiqatçılarından özlərini gülməli vəziyyətə qoyaraq katrenin Rusiyadan bəhs etdiyini, aprel və mart aylarında ABŞ-dan kredit alacaqlarını iddia edənlər də vardır.

### 3 k6

**Bağlı məbədə ildırım düşəcək.**
**İçərisindəki sakinlər məhv olacaqlar.**
**Atları, insanları parçalanmış ət kimi**
**İldırımın dalğası divarlara çırpacaq.**
**Buna biganə baxanlar aclıq və quraqlıqla üzləşəcəklər.**

Bəzi tədqiqatçılar bu katreni sualtı qayıqlardan, qurudan və təyyarədən atılan və hədəfə dəqiq dəyən raketlərlə bağlayırlar. Ən çox

---

[1] Allan Hall. Nostradamus (türkcə). İstanbul, 1998, səh.125.

da onu Körfəz müharibəsi zamanı İraqda müəyyən obyektlərə atılan raketlərlə bağlayırlar. Bəsrə yaxınlığında bunkerlərdə yerləşdirilmiş İraq əsgərlərinin bombardman nəticəsində qırx gün ərzində çölə çıxa bilməməsi və çoxunun məhv olması misal kimi göstərilir. Burada onu da xüsusi qeyd etmək olar ki, Körfəz müharibəsi vaxtı İraq ordusunun baş qərargahı Bağdadda "Ambasodor" mehmanxanasının zirzəminsində yerləşdirilibmiş. ABŞ təyyarəsindən atılan raket onun möhkəmləndirilmiş qapısını yararaq, içəridə partlamış və orada olan onlarla yüksək vəzifəli hərbçini məhv etmişdi.

Lakin bizə belə gəlir ki, 2-ci qrup tədqiqatçıların fikri daha ağlabatandır. 1944-cü il iyun ayının 10-da, müttəfiq orduları müvəffəqiyyətlə Normandiyanı tutandan sonra Fransanın cənub-qərbində yerləşən kiçik Orador kəndində almanlar görünməmiş cinayət işlətmişlər. Onlar yerli sakinləri casusluqda suçlayaraq, bütün kənd camaatının gözü qarşısında 192 kişini güllələmiş, 450 nəfər qadın, qoca və uşaqları isə atlarla birgə kənd kilsəsinə yığaraq qapıları bağlamış və kilsəyə od vurmuşdular. Pəncərələrə əl qumbaraları ataraq partladırdılar. Çıxıb qaçmaq istəyəni isə pulemyot atəşinə tuturdular. Kilsədən cəmisi bir qadın qaça bilmişdi. Qırğından isə ələ keçməyən 4 kişi yaxa qurtarmışdı.

Bütün bu dəhşətli hadisələri Nostradamus əsrlərlə öncə görmüş və dəqiqliyi ilə təsvir etmişdir.

Onu da qeyd edim ki, Orador kəndi bu gün də qırğın baş verən gündəki kimi saxlanılır.[1]

Nostradamusun başqa bir katrendə göstərdiyi "Fransa, almanlara çox da bel bağlama" tövsiyəsi (bax: 3 k57) bu katrendə də yerini alıb.

Son vaxtlara qədər almanların törətdiyi hesab edilən, lakin Sovet İttifaqı dağıldıqdan sonra rusların özlərinin törətdikləri etiraf olunan Belorusiyanın Xatın kəndindəki genosid (kütləvi qırğın), deməli yeganə hadisə deyilmiş.

---

[1] Ned Halley. Nostradamusun külliyyatı (ingiliscə). Kent, 1999, səh. 168.

## 3 k7

**Dağların başında qaçqınlar və səmada atəş alovları görünəcək.**
**Bundan sonrakı münaqişə iki cəld qaratoyuğun öz aralarında didişməsinə bənzəyəcək.**
**Vuruşmalar sərhədlərin yaxınlığında olanda**
**Yerdən qışqıraraq kömək istəyəcəklər.**
**Ancaq kömək göydən gələcək.**

Katrendə söhbət Balkanlardan gedir. Əvvəllərdə də dediyimiz kimi, Nostradamus əksər katrenlərində müəyyən işarələrlə hadisənin bəzən harada, kimlər arasında, nə vaxt və s. olacağını göstərir. Bu katrenin 2-ci sətrində yer alan "qaratoyuq" (qarğa) Kosovodan bəhs edir. Məsələ burasındadır ki, 1389-cu ildə osmanlılar buranı tutandan sonra Kosovo "qaratoyuqlular" düzü adlanıb. Söhbət açdığımız sətirdə serblərlə albanlar arasında gedən mübarizə öz əksini tapıb. 1-ci sətirdə isə söhbət dağları aşan Bosniya qaçqınlarından və NATO aviasiyasının raket zərbələrindən gedir.

Son iki sətirdə Bosniyadakı ağır vəziyyətdən və Amerika təyyarələrindən atılan ərzaq və pal-paltardan bəhs olunur.

Bəzi tədqiqatçılar bu katreni II Dünya müharibəsinin lap əvvəlində Fransada cərəyan edən hadisələrlə bağlayırlar.

Bardo Kidoqo bu katreni "Körfəz müharibəsi" ilə bağlayır.

## 3 k8

**Kimvirlər öz qonşuları ilə sıx ittifaqda olacaqlar.**
**Onlar demək olar ki, bütün İspaniyanı alt-üst edəcəklər.**
**Şiyen və Limozinə cəmləşən xalq**
**Bir araya gələrək hərbi yürüşə başlayacaq.**

Kimvirlər qədim german tayfası (qəbiləsi) olub. Hitler və Mussolini hərbi ittifaqa girərək, ispan xalqının başına olmazın oyunlar açır, yeni yaratdıqları silahları İspaniyada sınaqdan keçirirdilər. 1936-1939-cu illər arası 600 mindən artıq ispan məhv edilmişdi. Fransanın cənub-qərbində beynəlmiləl briqadalar yaradılmışdı.

Onlar Frankonun komandanlığı altında respublikaçılara qarşı mübarizə apararaq qalib gəldilər.

**3 k9**

**Bordo, Ruan və Lə-Roşel birləşmişdir.**
**Onlar böyük dəryanın (okeanın) ətrafında vuruşacaqlar.**
**İngilislər, bretonlar və flamandlar bir ittifaqdır.**
**Onları (düşmənləri) Ruanadan o yana qədər qovacaqlar.**

Katrendə II Dünya müharibəsi zamanı baş verən hadisələrdən bəhs olunur. 1-ci sətirdə adı çəkilən əraziləri müharibənin əvvəlində Hitler Almaniyası tutmuşdu. 3-cü sətirdən göründüyü kimi, ingilislər, eləcə də bretonlar (britaniyalılar) müharibədə iştirak etmişlər. İngilislər müttəfiqlər sırasında, bretonlar isə Fransanın Müqavimət hərəkatı tərkibində döyüşürdülər. Müttəfiq orduları Normandiyanı tutduqdan sonra almanları dörd il əvvəl Flandriyadan keçib gəldiyi Ruanadan o yana geri otuzdurmuşdular. 4-cü sətirdə buna işarə edilir.

**3 k10**

**Qan töküləcək və aclıqdan betər bədbəxtlik baş verəcək.**
**Bu, dəniz sahilinə yeddinci dəfədir yaxınlaşır.**
**Münhen (Monako) aclıq içindədir, ərazisi tutulmuş, əhalisi əsir.**
**Ölkənin başçısı (böyüyü) dəmir qəfəsdə məhv ediləcək.**

Bu katrendən məlum olan odur ki, hadisələr Almaniya ərazisində cərəyan edir. Tədqiqatçılar katren barədə müxtəlif fikirlər, fərziyyələr irəli sürürlər. Kimisi böyük meteoritin düşməsindən, kimisi II Dünya müharibəsindən söz açır. Lakin, əgər belə demək mümkünsə, atdıqları güllə hədəfə o qədər də düzgün dəymir. Hər halda, katrendə II Dünya müharibəsindən və Hitlerin dəmir qəfəsdə (bunkerdə) ölməsindən bəhs olunması şübhə doğurmur.

## 3 k11

**Silahlar uzun müddət səmada çarpışacaq.**
**Ağac şəhərin ortasına düşüb.**
**Müqəddəs budaq Tison yaxınlığında qılınc kəsən kimi kəsiləcək,**
**Sonra hökmdar Hadri yıxılacaq.**

1598-ci ildə kral IV Henri on illərlə davam edən dini müharibələrə son qoyduqdan sonra Fransaya vurulan ağır yaraları sağaltmağa, daha doğrusu, ölkəni bərpa etməyə başladı. Lakin 14 may 1610-cu ildə kralın faytonu – dördtəkərli arabası Ferroneri yaxınlığında dayanan vaxt Raviyak adlı birisi kral faytonunun təkərinin üstünə atılaraq bıçaqla kralın sinəsinə üç dəfə zərbə endirdi.

Nostradamus böyük gücə, qüdrətə malik kral IV Henrinin qol-budaqlı ağac kimi şəhərin mərkəzində yıxılaraq məhv olmasını poetik tərzdə təsvir edir. Onu Burbonlar kral nəslinin müqəddəs bir budağı adlandırırdılar. Böyük görücünün onu müqəddəs adlandırması da təsadüfi deyil. Krallıq Nostradamusun vaxtında tale ilə bağlı, göylərlə əlaqəli, ilahidən gələn qismət hesab olunurdu. Ryu Tison çayı isə IV Henrinin öldürüldüyü yerin yaxınlığından axırdı.

## 3 k12

**Heb, Po, Taqus, Tibr və Rona çayları, eləcə də**
**Leman (Cenevrə) və Aretən gölləri daşanda,**
**Qaronna şəhərindən olan hər iki başçı (böyük)**
**Tutulacaq, öldürüləcək, suda batırılacaqlar.**
**Çoxlu insan qurban gedəcək.**

Tədqiqatçılar bu katrendəki hadisələrin gələcəkdə baş verəcəyini və görünməmiş istilərin, yağıntıların nəticəsində dünyanı su basacağını qeyd edirlər. Onlar belə hesab edirlər ki, İspaniya, İtaliya, Fransanın cənub-qərbi və Cenevrə su altında qalacaq.

Təbii ki, bütün bunlar mülahizələrdir. Hadisənin nə vaxt baş verəcəyini yalnız Ulu Tanrı bilir, bir də onun sadiq bəndəsi Nostradamus bilirdi.

### 3 k13

**Yeşikdə olan qızıl və gümüş işıqla əridiləcək.**
**İki məhbusdan biri o birini yeyəcək.**
**Dəniz qüvvələri suyun altı ilə üzəndə**
**Şəhərin ən böyüyü arxayınlaşacaq.**

Tədqiqatçılar belə hesab edirlər ki, bu katrendə söhbət nüvə reaktorlu sualtı qayıqdan gedir. İlk iki sətirdə nüvə mühərrikli qayığın nüvə reaktorunda partlayış nəticəsində baş verən nüvə reaksiyasından bəhs olunur. Lakin onlar katren haqqında dəqiq söz deməkdə çətinlik çəkmişlər. Belə güman etmək olar ki, bu katrendə göstərilənlər gələcəkdə baş verəcəkdir.

### 3 k14

**Cəsur (böyük) bir şəxsin nəslindən olan adam,**
**Bədnam Fransada talesiz atanın ucbatından,**
**Təcrübəsiz bir adama inandığından,**
**Yaşının qürub çağında hörmət-izzət, var-dövlətdən sonra əzab-əziyyətə mübtəla olacaq.**

1715-ci ildə 76 yaşlı kral XIV Lüdovikin ölümündən sonra, 5 yaşlı nəticəsi XV Lüdovik taxta otuzdurulub. Katrendə söhbət gedən təcrübəsiz adam XV Lüdovikin məsləhətçisi və müəllimi, kardinal Anri de Fleridir. XV Lüdovik taxta əyləşdiriləndə 62 yaşında olan Anri de Fleri dünyasını dəyişdiyi 1742-ci ilə qədər düz 27 il gənc krala böyük təsir göstərmişdi.

Nəticədə kral XV Lüdovikin daxili və xarici siyasəti düz istiqamətləndirilmədi və ölkə uçuruma yaxınlaşdı.

### 3 k15

**Hakimiyyətin şan-şöhrətli vaxtında**
**Ürək, ləyaqət dəyişəcək, hər tərəfdə**
**Düşmənlər ona qarşı duracaq.**
**Sonra ölümlə, körpə Fransanı ələ keçirəcək**
**Böyük səltənət sahibi daha çox ziddiyyətlərlə qarşılaşacaq.**

Bu katrendə də bundan əvvəlki katrendə (3 k14) yer alan hadisələrdən danışılır. Bizim üçün heç bir əhəmiyyət kəsb etmədiyindən, bu katren barədə danışmaqdan vaz keçdik.

### 3 k16

**İngilis şahzadəsi Mars açıq ürəyində**
**Özünün çiçəklənməkdə olan taleyini axtarmaq istəyəcək.**
**Özünün nifrət etdiyi, anası tərəfindən çox istənilən**
**İki dueldən biri onun öd kisəsini deşəcək.**

Bir çox başqa katrenlərdə olduğu kimi, bu katrendə də tədqiqatçıların fikirləri haçalanır. Katren üzərində əvvəllər tədqiqat aparanlar bu fikirdədirlər ki, katrendə söhbət kral II Çarlzın oğlu, Monmasın şahzadəsi Ceyms Skotdan (1649-1689) gedir. Atası öləndən sonra o, əmin idi ki, ölkənin kralı əmisi II Ceyms deyil, o, özü olmalıdır. Çox varlı, tanınmış ailədən evləndikdən sonra onun kral olmaq arzusu daha da artmışdı. Odur ki, ölkənin Qərb ərazilərində əmisi kral Ceymsə qarşı üsyan qaldırmışdı. Üsyan yatırılmış, Ceyms Skot tutularaq edam edilmişdi.

İkinci qrup tədqiqatçılar isə katrenin Uels şahzadəsi Çarlz, Kraliça II Yelizaveta və Çarlzın həyat yoldaşı şahzadə Dianadan bəhs etdiyini göstərirlər. Çarlzla Diananın uğursuz nikahı, bu nikahla bağlı qalmaqallar, onların nikahının pozulmasına gətirib çıxardı. Onlar 1981-ci ildə evlənmişdilər. Diana kral ailəsində baş verən hadisələri açıqlamışdı. Nikah Diananın təkidi ilə pozulmuşdu. Az sonra, 31 avqust 1997-ci ildə Diana Parisdə avtomobil qəzasına düşərək dünyasını dəyişmiş, Londonda dəfn olunmuşdu.

Lakin sonralar qardaşı Çarlz Spenser onun külünü nəslin malikanəsi yerləşən kiçik adaya aparmışdı. Ətraflı məlumat üçün bax: 5 k72, 7 k23.

### 3 k17

**Gecə vaxtı Aventin dağının yandığı görünəcək.**
**Flandriyada səma bir anda tutulacaq.**
**Monarx öz qardaşı oğlunu təqib edəndə**
**Kilsə adamları münaqişəyə cəlb olunacaqlar.**

Əvvəllər tədqiqatçılar bu katreni 1999-cu il avqust ayının 11-də Günəşin tutulması ilə əlaqələndirirdilər. Lakin 1999-cu il 11 avqustda Günəş bir çox ölkələrdə tutulduqdan sonra (bax: 10 k72) elə böyük hadisələrin baş vermədiyini görən tədqiqatçılar fərziyyə və gümanlarının düz çıxmadığına görə, bu katreni də gələcəklə bağlayıb Vatikanın sonuncu Papasının vaxtında onun dağılması (bax: 1 k4) ideyasını irəli sürüblər. Deməli, bu katrendə böyük görücünün bəyan etdikləri gələcəkdə baş verəcəkdir.

### 3 k18

**Uzunmüddətli süd yağışından sonra**
**Reynin bir neçə yerində hava açılacaq.**
**Oh, onların yaxınlığında necə qanlı münaqişə hazırlanıb.**
**Atalar və oğullar, hətta krallar belə yaxınlaşmağa cürət etməyəcəklər.**

Katrendə söhbət I Dünya müharibəsi zamanı Qərb cəbhəsində baş verən hadisələrdən gedir. Bütün dörd il ərzində Reyms ön cəbhə olaraq qalmış və almanlar burada iprit qazından istifadə etmişdilər. Bütün müharibə boyu Reyms ətrafında hər iki tərəfdən bir milyondan artıq adam tələf olmuş, bundan iki dəfə artıq adam isə əlil olmuş və ya zəhərli qazın təsirinə məruz qalmışdı. Reyms təkcə əsgərlər üçün deyil, hətta krallar üçün təhlükəli şəhərə çevrilmişdi.

Nostradamusun son sətirdə göstərdikləri də yerini alıb. Müharibə vaxtı ingilis kralı V Georq və Belçika kralı I Albert almanların top atəşlərinə və iprit qazı həmlələrinə baxmayaraq, həyatlarını

təhlükə altında qoyaraq, Reymsin strateji əhəmiyyətini nəzərə alaraq ön cəbhəyə gəliblərmiş.

**3 k19**

**Lükdə qan və süd yağışı yağacaq.**
**Bundan bir az əvvəl hakimlər dəyişəcək.**
**Onların başçısı şahzadənin öldüyü yerdən uzaq**
**Böyük vəba, müharibə, aclıq və susuzluq baş verəcək.**

Katrenin 1-ci sətrində söhbət kimyəvi və bioloji kütləvi qırğın silahlarından gedir. Qalan sətirlər barədə tədqiqatçılar ağlabatan bir şey deyə bilməyiblər. Ola bilsin ki, katrendə bəyan edilənlər gələcəkdə baş verəcəkdir. Məlum olan odur ki, Lük Toskanonun məşhur ipəkçilik şəhəri olub.

**3 k20**

**Böyük Qvadalkvivir çayının sahillərindən başlayaraq,**
**İberiyadan uzaqda, Qrenada padşahlığına tərəf**
**Müsəlmanlar xaçı rədd edəcəklər.**
**Kordovalılardan bir nəfər vətənə xəyanət edəcək.**

XVI əsrin əvvəllərində İspaniyanın bu vilayətlərində mavrlar yaşayırdılar. 1609-1610-cu illərdə kral III Filipp və katolik kilsəsi onları xristianlaşdırmağa cəhd göstərdilər. Mavrlar qəti şəkildə islam dinindən dönməyəcəklərini bildirdikdə, onların qarşısında şərt qoydular: “Ya xristianlığı qəbul edəcəksiniz, ya da İspaniyanı tərk edəcəksiniz”. Mavrlar rədd cavabı verdilər. İnkvizisiya amansız üsullarla onlarla mübarizəyə başladı. Mavrlar İspaniyanı tərk etmək məcburiyyətində qaldılar. Lakin bu İspaniyaya baha başa gəldi. Əvvəla, ölkə beynəlxalq ictimaiyyət qarşısında gözdən düşdü. İkincisi isə bir çox oxumuş, zəhmətkeş işçi qüvvəsini itirdiyinə görə, İspaniyanın iqtisadiyyatı və əkinçiliyi zəiflədi. Sonralar onları geri dəvət etdilər. Mavrlar xristianlığı qəbul etmədilər. Yenə də müsəlman dininə boyun əydilər.

## 3 k21

**Adriatik dənizinə tökülən Krustalitdə (indiki-Konka)**
**Qorxunc bir balıq peyda olacaq.**
**Sifətdən insana, quyruq tərəfdən dənizdə yaşayana oxşayacaq.**
**Onu qarmaqsız dartıb sudan çıxaracaqlar.**

Şübhə yoxdur ki, bu katrendə söhbət atom sualtı qayığından gedir. Onu da deyək ki, Konka çayı Rimininin 10 milliyində (təqribən 15 km) Adriatik dənizinə tökülür. Nostradamusun XVI əsrdə çox təəccüblə söhbət açdığı görkəmcə əcaib olan bu hərbi texnika indi Aralıq dənizində də, Adriatik dənizində də üzür.

## 3 k22

**Verilmiş şəhərin qarşısında, altı gündür ki, həmlə davam edir.**
**Azadlıq aramsız və qanlı döyüşdə əldə edilir.**
**Üçü şəhəri qaytaracaq və onları bağışlayacaqlar.**
**Qalanları atəşə tuş gələcək, qanlarına qəltan olacaqlar, qəmə batacaqlar.**

Katren 1967-ci il iyun ayının 5-də baş verən və sonralar "Altı günlük müharibə" adı alan Ərəb-İsrail müharibəsindən gedir. İsrail ona qarşı Misir, Suriya və İordaniyanın müharibəyə başlayacağını əvvəlcədən bildiyindən, ciddi hazırlıq görmüşdü. İldırım sürəti ilə başlayan müharibə tezliklə qurtardı. Qüdsdə şiddətli döyüşlər gedirdi. Lakin Qərbin böyük təzyiqi və İsrailə köməyi nəticəsində 3-cü sətirdən göründüyü kimi, Misir, Suriya və İordaniya geri çəkildilər və İsraili müstəqil dövlət kimi tanıdılar. Bundan sonra İsraillə bu dövlətlər arasında sülh şəraiti yarandı. Doğrudur, 1973-cü ildə Suriya-İsrail müharibəsi də olmuşdur. Bununla belə, İsrail hətta 1996-cı ildə Yasir Ərəfatı Fələstin dövlətinin prezidenti kimi tanıyıb.

Tədqiqatçılar Nostradamusun 4-cü sətirdə göstərdiklərini iki cür yozurlar. 1-ci yozum 4-cü sətirdə verilən kimidir. Bu ölkələr arasında tədqiqatçılar İraq, Liviya və İranın adını çəkirlər. İkinci

yozum isə şərhçilərin yazdığına görə, əgər onlar da daşı ətəklərindən töksələr, onları da əmin-amanlıq, xoş güzaran gözləyir.

Liviya artıq geri çəkilib. ABŞ İraqı zəbt edib (20.III.03). İrana qarşı isə təzyiqlər davam edir.

## 3 k23

**Fransa, əgər sən Liqur dənizini keçsən,**
**Özünü adalar və dənizin əhatəsində görəcəksən.**
**Müsəlmanlar, daha sonra Adriatika sənə qarşı duracaq,**
**Sən atların və eşşəklərin sümüyünü gəmirəcəksən.**

Katrendə söhbət gedən "Liquriya" latın sözü olub, Aralıq dənizinin şimal-şərq hissəsini əhatə edən ərazidir. Bu katrenlə əlaqədar hələ 1989-cu ildə Erika Çitəm yazmışdı: "Fransa Yuqoslaviyaya qarşı çıxanda (Liquriya dənizi ilə) onun ağır günləri başlayacaq".

Demək lazımdır ki, mavi beretli fransız əsgərləri BMT xətti ilə 1992-1995-ci illər arası Bosniyanı, 1996-cı ildən isə sülhməramlı qüvvələrin tərkibində Dalmasiya, Adriatika sahillərini və bəzi adaları mühafizə edirlər.

Başqa tədqiqatçılar katrendə Napoleonun Misirə hərbi yürüşü zamanı (1798-1799) adalarda müsəlmanların ciddi müqavimətinə rast gəlməsindən söz açırlar. Bu vaxt Nil çayının deltasında Abukir yaxınlığında (1 avqust 1798-ci il) ingilis hərbi-dəniz donanması kontr-admiral Nelsonun komandanlığı ilə fransızları məğlub etdi və fransız ordusunun Fransa ilə əlaqəsini kəsdi. 1799-cu ilin oktyabrında Napoleon ordu hissələrini Misirdə qoyaraq Fransaya qayıdır. Onun ordu hissələrində aclıq başlayır. Bir döyüşdə isə türklər Napoleon ordusundan beş min nəfərdən çoxunu məhv edir, çoxlu əsir götürürlər.

Katrendə göstərilənlər bununla bağlıdır.

### 3 k24

**Belə işə görə böyük çaxnaşma olacaq.**
**İnsan tələfatı olacaq, var-dövlət əldən gedəcək.**
**Sənə o yana – uzaqlara gedib, ərazilərini genişləndirmək cəhdin lazım deyil.**
**Fransa, nə deyirəmsə, gərək yadında qalsın!**

Bu katreni tədqiqatçıların haqlı olaraq göstərdikləri kimi, hər hansı bir vaxta aid etmək çətindir. Katreni Napoleonun Misirə, və ya Rusiyaya yürüşləri ilə də əlaqələndirmək olar. Çəkinmədən bu katreni XX əsrin ortaları və indiki zamanla da bağlamaq olar. Lakin katrendə diqqəti çəkən bir məsələ unudulmamalıdır ki, Nostradamus israrla Fransaya tövsiyə edir ki, ərazilərini genişləndirmək xəyalına düşməsin. Bu məqamla bağlı onu demək olar ki, Fransa Əlcəzairdə, Hind-Çində qanlı müharibələr aparıb və böyük itkilər verib. 1959-cu ildə Fransa Əlcəzair xalqının öz müqəddəratını təyin etmək hüququnu tanıdı. Hind-Çində isə 1954-cü ildə vyetnamlılar Dyenbyefdə Fransa ordu birləşmələrini darmadağın etdilər. Çoxlu ölən, yaralanan və 10 mindən artıq əsir düşən oldu.

Biz baş vermiş hadisələri saymaqla heç də o fikirdə deyilik ki, Nostradamusun bu katrendə göstərdikləri artıq baş verib. Əsla yox. Bəlkə də bu katren gələcək hadisələrdən bəhs edir.

### 3 k25

**Kim ki, Navar krallığını ələ alacaq,**
**O vaxt Siciliya və Nepal müttəfiq olacaqlar.**
**O, Fua və Olfon vasitəsilə Bioqrru və Landı əldə saxlayacaq.**
**O şəxs ki, İspaniya ilə sıx əlaqədə olacaq.**

Tədqiqatçıların rəyinə görə, Siciliya və Neapol tarixdə cəmisi üç dəfə müttəfiq olublar. Onlardan biri 1572-ci ildə IV Henri Na - varralı kral taxtına sahib olan vaxta təsadüf edib. O, 1594-cü ildən isə bütöv Fransanın taxtına əyləşib. 3-cü sətirdə sadalanan şəhər -

lər Navarra ərazisində olub. 4-cü sətirdə söhbət kral IX Karldan gedir. O, ölümünə iki il qalmış tarixdə məşhur olan “Müqəddəs Varfolomey” gecəsində protestantların başçılarını bütün ölkədən dəvət edərək qırdırmışdı. Məşum gecədə onun göstərişi ilə ələ keçən bütün protestantları da qırmışdılar. Mahir ovçu olan kral IX Karl qaçıb canını qurtarmağa çalışan protestantları eyvandan ox və muşketlə özü vururmuş (bax: 1 k10, 1 k78).

**3 k26**

**Onlar kralları və şahzadələri təqlid edəcəklər.**
**Kahinlərin və yalançı peyğəmbərlərin sayı artacaq.**
**Bolluq, qızıl və daş-qaşın qurban verilməyi gözqamaşdırıcıdır.**
**Falçılar meydan sulayacaqlar.**

Bəzi nostradamusşünaslar belə fərz edirlər ki, böyük görücü bu katrendə, gələcəkdə baş verəcək görünməmiş iqtisadi iflasdan bəhs edir. Nostradamus qızıl-gümüş və daş-qaşın yerinə dövriyyəyə buraxılmış kağız pula nifrətlə baxırdı. Nostradamusa görə məğzini tamahkarlıq (acgözlük) təşkil edən saxta və zərərli futurologiya, eləcə də insani keyfiyyətləri dəyərləndirməyən iqtisadiyyat ölümə məhkumdur. Nostradamus katrendə bu mətləbə toxunur.

Bəzi tədqiqatçılar isə bu katren barədə söz deməkdən çəkinmişlər.

**3 k27**

**Liviyalı şahzadə Qərbdə qüdrətlidir.**
**Fransızlar bu ərəbə son dərəcə heyran olacaqlar.**
**Ədəbiyyatı bilən, iltifatlı olan bu şahzadə**
**Ərəbcəni fransızcaya tərcümə edəcək.**

Təəssüf ki, bu katren barədə tədqiqatçılar bir söz deyə bilməyiblər.

Yeganə inandırıcı fakt odur ki, 14 iyun 1830-cu ildə Əlcəzairlə Fransa arasında anlaşmadan sonra Fransa Aralıq dənizində fransız

gəmilərini mühafizə etmək üçün ordu hissələri göndərmişdi. Münasibətlər çox yaxşı olduğundan fransızlar orada möhkəmləndilər. Tərcüməçi Vəlid Sidi-Şeyxin nəslindən olan Həmzə ola bilər. O, 1861-ci ildən ölümünə qədər fransızlarla müttəfiq olub. Hələ buna qədər də Fransa-Ərəb münasibətləri olub. 1505-ci ildə işıq üzü görən "Fransızca-ərəbcə lüğət" deyilənlərə sübutdur.

**3 k28**

**Zəif və kasıb nəsildən olanların torpaqları**
**Bu hökmranlıqdan çətinliklə əmin-amanlıq əldə edəcək.**
**Uzun müddət cavan qadın başçılıq edəcək bu səltənətdə.**
**İndiyə qədər bunun kimi hakimiyyətə pis gələn olmamışdır.**

Bu katren İngiltərənin kraliçası I Yelizavetadan bəhs edir. Onun anası Anna Boleyn həddən artıq az tanınan nəsildən idi. Onun babası vikont (zadəgan) Roşfor idi. 1-ci sətirdə Nostradamus buna işarə edir. Anna Boleyn kral VIII Henrinin 2-ci arvadı idi. Sübuta yetməyən faktlarla ərinə xəyanətdə günahlandırılaraq edam edilən Anna Boleyndən sonra qızı Yelizavetanın həyatı çox ağır keçmişdir. Anasından sonra analığı Katerina Qovard da ərinə vəfasızlıqda təqsirli bilinərək edam edilmişdi. Qısqanclıq ucbatından VIII Henri daha iki arvadını edam etdirmişdi. (Ümumiyyətlə, VIII Henri səkkiz dəfə evlənmişdi. Buna görə də "arvadbaz" ləqəbini almışdı). Yelizavetanın həyatı ögey bacısı Mariya tərəfindən təhlükə altına alınmış, o, dəfələrlə ölümlə üzüzə gəlmişdi. Lakin 1558-ci ildə "Qanlı Mariya" öləndən sonra 25 yaşlı Yelizaveta İngilis taxtına əyləşdirildi və 45 il ölkəni idarə etdi. 4-cü sətirdə buna işarə edilir. Anası Anna Boleyn və analığı Katerina Qovardın taleyi heç vaxt yadından çıxmayan Yelizaveta kral və şahzadələrin təkliflərini rədd edərək, heç vaxt ərə getməyib. Ərə getmədiyinə görə haqqında şayiələr yayır, onu gözdən salırdılar.

Bəzi tədqiqatçılar bu katreni uzun müddət Hindistanın baş naziri olan və cangüdəni tərəfindən qətlə yetirilən İndira Qandi ilə əlaqələndirirlər. Lakin onların mülahizələri katrendə öz əksini tapmır.

### 3 k29

**Müxtəlif yerlərdə böyümüş iki qardaşoğlu,**
**Dəniz döyüşündə atalar məhv oldular.**
**Müharibə törətdiklərinə görə, onların tərifini göylərə qaldıracaqlar.**
**Təhqirə görə intiqam alındıqda düşmənlər məhv oldular.**

Bu katren barədə tədqiqatçılar Nostradamusun zamanında məşhur olan qardaşoğlanları, Fransanın marşalı Monmoransi və admiral Kolininin və eləcə də kardinal Şatilyon və Andelotun adını çəkməklə kifayətləniblər. Katreni şərh etməkdən yan keçiblər. Oxucularımız üçün çox da mühüm olmadığını nəzərə alaraq, biz də onu şərh etməkdən vaz keçdik.

### 3 k30

**Döyüşdə nizə-qalxan oynadan möhkəm hərbçidir.**
**Özündən daha böyükdən (qüdrətlidən) qələbə mükafatını alacaq.**
**Gecədən xeyli keçmiş altı nəfər onu yaxalayacaq.**
**Çılpaq, silahsız halda o, gözlənilmədən təəccüblənəcək.**

Bu katrendə Nostradamus əvvəllər bəhs olunan hadisələrdən söz açır (bax: 1 k35). Kral II Henri ilə yarışda qraf Qabriel Montqomeri nəinki qalib gəldi, hətta nizəsi qırılıb kral II Henrinin gözünə girdi və kral on gündən sonra dünyasını dəyişdi. Hadisə cəngavərlərin cəngində təsadüfən baş verdiyinə görə (1559-cu il) kral onu bağışlamışdı. Qraf Montqomeriyə heç nə etməmişdilər. Lakin sonralar dini müharibələr vaxtı protestantlar (hugenotlar) hərəkatına başçılıq edən Montqomeri bayrağına sınmış nizə həkk etdirmişdi. Kraliça Yekaterina Mediçi hiddətindən özünə yer tapmırdı. O, katoliklərə qarşı mübarizə apardığına, 1569-cu ildə Orteza şəhərində əsir düşmüş katolikləri qırdığına və kraliçanın əri II Henrinin ruhunu

təhqir etdiyinə görə, Montqomeridən intiqam almaq qərarına gəldi. Əvvəlcə onun başına böyük mükafat qoydu. Sonra fikrini dəyişdi. Əmr etdi ki, diri-diri tutub Parisə gətirsinlər. 1574-cü ildə, Nostradamusun bəyan etdiklərindən düz 20 il sonra, Domfront şəhərində 10 min nəfərdən ibarət ordu Montqomerinin 150 nəfərdən ibarət dəstəsini öz qəsrində mühasirəyə aldı. Montqomeri böyük ordu dəstəsini gördükdə, təəccüblənmişdi. Montqomeri hərbi istehkama çevirdiyi qəsrində 16 gün mühasirəyə tab gətirir. Fransızlar onun toxunulmazlığı barədə yazılı sənəd imzalayandan sonra 25 may 1574-cü ildə Montqomeri təslim olur. Lakin Yekaterina Mediçi xəlvəti 6 nəfər göndərir. Qraf Montqomerini gecə vaxtı yatağında yaxalayır və gizlicə Parisə gətirirlər. Məhkəmədə ona ölüm hökmü oxunur və 27 iyun 1574-cü ildə qraf Montqomeri edam edilir.

**3 k31**

**Midiya, Ərəbistan və Ermənistan çöllərində**
**İki böyük hərbi qüvvə üç dəfə qarşılaşacaq.**
**Araz sahilinin yaxınlığında öz nəslindən olanlar**
**Böyük Süleymanın qorxusundan əsim-əsim əsəcəklər.**

Bəzi tədqiqatçılar Şərq tarixini yaxşı bilmədiklərindən, bu katrendə hər şeyi qarışıq salıblar. Bəziləri katreni 1514-cü ildə baş verən Çaldıran vuruşu ilə bağlayırlar. Bu doğru deyildir, əvvəla ona görə ki, Nostradamusun görücülüyü 11 yaşında deyil, 47 yaşında başlayıb. 1514-cü ildə onun cəmi 11 yaşı vardı. Və o, keçmişdə deyil, gələcəkdə baş verəcək hadisələrdən söz açırdı. İkincisi isə ona görə ki, Süleyman Qanuni hakimiyyətə 1520-ci ildə gəlib və Nostradamusun dünyasını dəyişdiyi 1566-cı ilə qədər hakimiyyətdə olub.

Bəzi Qərb tədqiqatçıları isə heç bir əsas olmadan bu katreni 1571-ci ildə osmanlıların Korinf boğazında avstriyalı Don Xuana məğlubiyyəti ilə əlaqələndirirlər (bax: 2 k79). Bu isə göründüyü kimi, katrenin heç bir sətri ilə uzlaşmır. Əslində, tədqiqatçıların bu

qədər tarixi faktlar əllərində ola-ola həqiqəti üzə çıxara bilmədiklərini Nostradamus dəqiq görmüş və bizə miras qoymuşdur. Məsələ burasındadır ki, Şah İsmayılın ölümündən sonra onun yerinə keçən oğlu I Təhmasibin hakimiyyəti dövründə (1524-1576) Osmanlı sultanı I Süleyman üç dəfə (1534-1535, 1548, 1554) Azərbaycana hücum edib. Sultan I Süleymanın 1-ci hücumu zamanı Təbriz şəhəri tutuldu. Lakin böyük təzyiqə məruz qalan Osmanlı ordusu Təbrizi tərk etsə də, İraqi-Əcəmi öz tabeliyinə keçirdi (İraqi-Əcəmdə – Kərkük vilayətində indi də azərbaycanlılar yaşayırlar. Q.P.). Sultan I Süleyman 2-ci dəfə Azərbaycana 1548-ci ildə ordu yeritdi. Bu dəfə osmanlılar Təbrizlə bərabər, İsfahanı da işğal etdilər. 1554-cü ildə osmanlılar 3-cü dəfə Azərbaycana hücum çəkib Ərzurum, Naxçıvan və s. yerləri tutdular. Lakin Azərbaycan ordusunun inadlı müqaviməti, Təbriz əhalisinin fəal çıxışları və s. osmanlılara Azərbaycanda möhkəmlənməyə yenə də imkan vermədi. 1555-ci il mayın 29-da Amasya müqaviləsi bağlandı. Müqaviləyə əsasən İraqi-Əcəm, Qərbi Ermənistan və Qərbi Gürcüstan Osmanlı İmperiyasının tabeliyinə keçdi.

Yeri gəlmişkən onu da deyək ki, bəzi rus tədqiqatçıları katreni yanlış şərh edərək onun Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ müharibəsindən bəhs etdiyini göstərirlər.[1]

### 3 k32

**Akvitan xalqının böyük qəbri**
**Toskaniya tərəfdən yaxınlaşanda,**
**Mars Almaniyanın küncünə yaxın olanda**
**Mantuan camaatının da ərazisinə qədəm basacaq.**

Bu katren barədə tədqiqatçılar müxtəlif fikirlər söyləyirlər. Bə - zilərinin fikri belədir ki, katrendə Nostradamusun vaxtında və XVIII əsrin sonunda Fransa, İspaniya və Almaniya arasında gedən müharibələrdən söhbət gedir. Başqa bir qrup tədqiqatçılar isə

[1] Великие пророчества Мишеля Нострадамуса. Москва, 2000, стр. 218.

qeyd edirlər ki, katren II Dünya müharibəsi zamanı bu ölkələrdə katrendə göstərilən hadisələrdən bəhs edir.

**3 k33**

**Şəhərdə canavarın girdiyi yerə**
**Düşmənlər daha yaxın olacaqlar.**
**Əcnəbi qüvvə şəhəri talan edəcək.**
**Sərhədləri və Alp dağlarını dostlar keçəcəklər.**

Tədqiqatçılar qeyd edirlər ki, 1940-cı ildə almanlar Parisi tutanda Hitleri canavar sifətində gördülər. Hitler özü Parisə gəlmişdi. Fransa almanlar tərəfindən talan edildi. Son sətirdə qələbəyə işarə olunur. "Dostlar" deyəndə amerikalılar, ingilislər və s. nəzərdə tutulur. 1944-cü ildə ABŞ-ın 3-cü ordusu və fransız ordu hissələri Fransada almanları məğlub etdi. 1945-ci ilin yazında isə müttəfiqlər Majino səddini keçərək, Almaniya torpaqlarına girdilər və tez bir zamanda faşist Almaniyasının sonu gəldi.

**3 k34**

**Günəş tutulması baş verəndə,**
**Günün günorta çağı ilahi əlamət görünəcək.**
**Hamı onu biri-birinə zidd fikirlə izah edəcək.**
**Başısoyuqluq baha başa gələcək.**

Günəşin tutulması 11 avqust 1999-cu ildə baş verdi. Bu vaxt İngiltərə, Fransa, Şərqi Avropa və Türkiyədə Günəş tamamilə tutuldu. Ola bilsin ki, Nostradamus yeni minilliyin yaxınlaşdığından bəhs edib. Doğrudan da dünyada böyük dəyişikliklər baş verdi. Günəşin tutulmasını hərə bir cür yozurdu. III Dünya müharibəsinin başlanacağından, ilahi qəzəbindən danışanlar çox idi.

Ola bilsin ki, böyük görücü 20 mart 2034-cü ildə baş verəcək Günəş tutulmasından bəhs edir. Günəşin Balıqlar və Qoç bürcündən zahiri keçməsinə az qalanda tutulması müharibə, quraqlıq, dözülməz istilər və fövqəladə dəyişikliklərdən xəbər verir.

### 3 k35

**Qərbi Avropanın lap ortasında,**
**Kasıb ailədə bir uşaq doğulacaq.**
**O, nitqi ilə böyük ordunu yoldan çıxaracaq.**
**Onun şan-şöhrəti Şərq dövlətində getdikcə artacaq.**

Katrendə söhbət Avstriyanın Braunau şəhərində kiçik gömrük işçisinin ailəsində dünyaya gələn Adolf Hitlerdən gedir. Hitler bəlağətli nitqi və yalanla nəinki ordunu, az qala bütün xalqı yoldan çıxarmışdı. "Şərq dövləti" Yaponiyadır. Məlum olduğu kimi, II Dünya müharibəsi zamanı Yaponiya Hitler Almaniyasının müttəfiqi idi. Hərtərəfli məlumat üçün baxın: 3 k58.

### 3 k36

**Ölməmiş, koma vəziyyətində olan adamı kəfənə bürüyəcəklər.**
**Sonra məlum olacaq ki, o, öz əllərini yeyib.**
**Şəhər bu dönük adamı lənətləyəndə**
**Çoxlarına belə gələcək ki, qanunları dəyişilib.**

Katrenin 1-ci sətrində böyük görücünün bəyan etdiklərini hərfi mənada qəbul etsək, səhvə yol vermiş olardıq. Əslində bu sətirdə söhbət I Dünya müharibəsi zamanı milli qəhrəmana çevrilmiş, II Dünya müharibəsi zamanı isə qocalıb əldən düşmüş marşal Peten - dən gedir. Peten qocalığına baxmayaraq "Vişi" hökumətinin Baş naziri olmuşdu. Əvvəllər Fransanın fəxri olan Peten, II Dünya mühari - bəsi zamanı ən böyük satqına çevrilmişdi. Katreni yozmaqda köməyə 2-ci sətirdə işlənən "öz əlləri" gəlir. Məsələ burasındadır ki, fransız sözü "main" təkcə "əl" deyil, eləcə də "hakimiyyət" mə - nasında işlənir. "Kəfən" burada məcazi mənada işlənilmişdir. Hitler Almaniyası dalbadal məğlubiyyətə uğradıqca "Vişi" hökumətinin və onun başçısı Petenin sağkən kəfəninin tikildiyinə işarə edilir. Müharibədən sonra Peteni siyasi və milli baxımdan dönük adlandırırdılar.

4-cü sətirdə 1940-cı ildə Fransanın almanlar tərəfindən zəbt olunmuş hissəsində Petenin ölkəyə Üçüncü Respublikadan daha çox xeyir verən reformalar etməsindən bəhs olunur.

## 3 k37

**Hücumdan əvvəl nitq söyləndi.**
**Milan Qartalın qurduğu tələ ilə alındı.**
**Qədim qala divarlarını toplar dəlib keçəcək.**
**Od yağacaq, qan töküləcək. Az adama aman veriləcək.**

İnsan fövqəladə şəxsiyyət Nostradamus qarşısında heyran olmaya bilmir. Elə bil ki, o, Napoleonun Milana hücum ərəfəsində əsgərlər qarşısında söylədiyi məşhur nitqi eşitmiş, onun qurduğu tələnin şahidi olmuşdur. İtalyan dilini fransız dilindən daha mükəmməl bilən Napoleon bu alovlu nitqi ilə İtalya ordusunu da ələ almışdı: "Ey yarıac, yarıçılpaq döyüşçülər! Hökumət sizə çox borcludur. Lakin sizin üçün heç nə edə bilmir. Sizin səbr və mətanətiniz ehtiramınıza dəlalət edir. Lakin onlar sizə nə hörmət, nə şöhrət gətirir. Mən sizi dünyanın ən məhsuldar yerlərinə aparacağam. Orada siz böyük şəhərlər, varlı kəndlər görəcək, var-dövlət və şan-şöhrət əldə edəcəksiniz. İtaliya əsgərləri, bunun üçün sizdə cəsarət yoxdurmu?"

Təbii ki, onlarda buna cəsarət çatırdı. Qeyrət çatmırdı ki, öz ölkələrini talan etməsinlər. İtaliyada qələbələr və vəhşiliklər əfsanəyə çevrilərək, o vaxtdan dillərə düşdü. Onu da deyək ki, Napoleon ordusu Milanı iki dəfə tutub və talan edib. İlk dəfə 15 may 1790-cı ildə, ikinci dəfə isə 2 iyun 1800-cü ildə.

## 3 k38

**Qalliya xalqı və əcnəbi millətdən olanlar,**
**Dağların ətəyində öləcəklər, əsir düşəcəklər.**
**Qarşıdan gələn aylarda**
**Üzümün yığımına az qalmış aya əks ayda**
**Dövlət başçıları sülh müqaviləsini imzalayacaqlar.**

Katrendə Fransa-İtaliya-İspaniya müharibəsinə son qoyulmasından bəhs olunur. 1559-cu ilin martında Roma Papası IV Pavel və İspaniya kralı II Filipp kral II Henrini məcbur edirlər ki, sülh müqaviləsinə qol çəksin. Sülh müqaviləsinin imzalanma mərasimi 3 aprel 1559-cu ildə baş verdi. Üzümün yığımı sentyabr, təzə şərabın hazırlanması oktyabr ayında olur. Onlara əks aylar isə mart-aprel aylarıdır. Nostradamus öz zamanında baş verəcək bu hadisəni də dəqiq görmüş və həmvətənlərini mat qoymuşdu.

**3 k39**

**Alp dağlarına yaxın Apennin silsilələrini zəbt etmək məqsədilə**
**Yeddillər üç ay ərzində razılığa gələcəklər.**
**Lakin tufan və Liquriya (Genuya) qorxağının ucbatından**
**Onları qəfildən darmadağın edəcəklər.**

Bu katren barədə tədqiqatçılar iki müxtəlif fikir söyləyirlər. Birincilərin yozumuna görə yeddi dövlət başçısı İtaliyanı bölüşdürmək barədə razılığa gəliblərmiş. Lakin elə bu vaxt Genuya qorxağı onların planlarını pozur. Müqəddəs Liquriya cəmiyyəti yaradılır. 1-ci cəmiyyət 1510-cu ildə yaradılmışdı.

Katrendə bəhs edilən 2-ci cəmiyyət isə katrenin çap olunduğu vaxtdan 21 il sonra yaranmışdı. “Liquriya qorxağı” deyəndə Pyemont krallığı nəzərdə tutulur. 1796-cı ilin aprelində bu krallıq müqavimətsiz Napoleona tabe oldu. Bundan düz üç ay, üç gün sonra Napoleon Avstriya ordusunu darmadağın etdi. Bununla da Yeddilərin arzusu gözündə qaldı.

İkinci fərziyyənin tərəfdarları isə bu katreni iqtisadi cəhətdən ən çox inkişaf etmiş Böyük Yeddilərə aid edirlər. Onların fikrincə guya XXI əsrdə İtaliyanın şimal–şərqində olan Liquriyanı su basacaq. Yeddilər yığışaraq İtaliyaya kömək planını müzakirə edəndə genuyalı terrorçu binaya bomba qoyacaq. Bomba partlayanda Yeddilərin rəhbərləri məhv olacaqlar.

**3 k40**

**Belə olacaq ki, böyük döyüş meydanı yenidən canlanacaq.**
**Zər atılıb, tor isə dartılıb (hazırdır).**
**İlk ölüm zəngini çalan adam çox yorğun olacaq.**
**Dağılmış tağların altında üzüstə qalacaq.**

Çox ümumi xarakter daşıyan bu katren barədə tədqiqatçılar bir söz deyə bilməyiblər. Ola bilsin ki, katren gələcəkdə baş verəcək hadisələrdən bəhs edir.

**3 k41**

**Qozbel adam Şura tərəfindən seçiləcək.**
**Belə qorxunc insan yer üzündə görünməmişdir.**
**Güllə (zərbə) onun gözünü deşəcək (çıxaracaq).**
**Satqın kral tərəfindən sadiq kimi qəbul ediləcək.**

Tədqiqatçılar bu katrenin protestant Lui Kontedən bəhs etdiyini qeyd edirlər. Nostradamus bir katolik kimi, hugenotlara (protestantlara) mənfi münasibət bəsləyirdi. Odur ki, görücü "qozbel" və s. kəlmələri Kondenin daxili aləmini göstərmək üçün işlətmişdir. Konde krala qarşı sui-qəsddə ittiham olunarkən dəfələrlə yaltaq nitqi ilə canını ölümdən qurtarmışdı. Kral II Fransisk 1560-cı ildə onu Ambuaz sui-qəsdindən sonra bağışlamışdı (bax: 1 k13). Sonralar Dini müharibələr zamanı hugenotların başqa rəhbərləri arasında kral IV Karl onu da bağışlamışdı (1562). Sonuncu sətirdə buna işarə olunur. 3-cü sətirdə bəhs olunanlar katrenin yazılmasından 14 il sonra 1569-cu ildə baş verdi. Jarnake döyüşü zamanı Monteskye adlı əsgər, qılçaları yıxılmış atının altında qalmış Kondeni tapança ilə gözündən vurmuşdu.

Bu hadisə Nostradamusun ölümündən cəmisi üç il sonra baş verdiyindən ölkədə böyük canlanmaya və görücünün yazdıqlarına dərin inama səbəb oldu.

## 3 k42

**Ağzında iki dişi olan uşaq doğulacaq.**
**Toskaniyada göydən yağışla bərabər daş yağacaq.**
**Aclıqdan taqətdən düşənləri xilas etmək üçün**
**Bir neçə ildən sonra nə buğda olacaq, nə də ki, arpa.**

Uşağın iki dişlə doğulduğuna dair yuxarıda danışmışdıq (bax: 2 k7). Lakin XIV Lüdovikin hakimiyyətdə olduğu 72 il ərzində Toskanada vulkan püskürməsi baş verməyib. Doğrudur, XIV Lüdovikin hakimiyyətinin 23-cü ilində Siciliyada dəhşətli vulkan püskürməsi nəticəsində 20 mindən artıq adam məhv olmuşdu. Bəzi tədqiqatçılar belə güman edirlər ki, Nostradamus Toskano ilə Siciliyanı qarışdırıb. Təki belə olaydı. Lakin tarixçilərin göstərdiyinə görə, XIV Lüdovikin hakimiyyəti zamanı dəhşətli aclıq nə Siciliyanı, nə də Toskanonu bürümüşdü. Deməli, Nostradamusun bu katrendə göstərdikləri Toskanoda labüd olaraq gələcəkdə baş verəcəkdir. Vulkandan sonra məhsuldar torpaqlar məhv olduğuna görə Toskanoda əkin-biçin olmayacaqdır.

## 3 k43

**Qarn, Loth və Qaronna sahillərində yaşayacaqlar.**
**Apennin dağlarını keçəndə özünüzü gözləyin.**
**Sizin qəbriniz Roma və Ankona yaxınlığında olacaq.**
**Sıx, qıvrımsaç adam qələbə abidəsini ucaldacaq.**

Bəzi tədqiqatçılar göstərirlər ki, Vatikan Papa polku üçün Fransanın cənub-qərbindən gəncləri əsgərliyə cəlb edirdi. Gənclərə əsgər paltarı və silah verib Romadan Apennin dağlarına yola salırdılar. Məqsəd Ankonada və İtaliyada özünü kral elan etmiş Viktor Emmanuilin özünü və ordu hissələrini məhv etmək idi. Döyüş Ankona yaxınlığında baş verdi. Əksəriyyətinin döyüş təcrübəsi olmadığından Papa ordu hissələri pərən-pərən düşdü. Viktor Emmanuilin dəstəsi tərəfindən darmadağın edilən Papa ordusunun itkiləri saysız-hesabsız idi. 3-cü sətirdə böyük görücü buna işarə etmişdi.

### 3 k44

**İnsan heyvanı əhliləşdirəndə**
**Böyük çətinliklərdən və səylərdən sonra insanla danışacaq.**
**İldırım Jezl üçün qorxulu olacaq.**
**Yerdən götürüləcək və havadan (göydən) asılacaq.**

Göründüyü kimi, Nostradamus XIX əsrin sonlarından başlamış bu günə kimi edilən kəşfləri açıqlamaqda çətinlik çəkir. Doğrudan da, XVI əsrdə yaşamış görücü indi bizim üçün adi görünən radio, televizor, mikrodalğalı ötürücülər, kompüterlər, telekommunikasiya sistemləri və s. barədə nə deyə bilərdi? Təsadüfi deyildir ki, Nostradamus kral II Henriyə göndərdiyi Açıqlamada yazırdı: "Mənim mərhəmətli hökmdarım, ərz eləmək istəyirəm ki, mənə əyan olan və uzaq gələcəkdə baş verəcək əksər hadisələr hazırkı dövrdə insanın dərk edə bilməyəcəyi, insan idrakına sığmayan məsələlərdir. Onları hal-hazırda aydınlaşdırmaq və şərh etmək üçün bir yol (vasitə) yoxdur".

Bununla belə, Franklin görücünün bu katrendə bəyan etdiklərini – cərəyanı və onun naqil vasitəsi ilə keçdiyini 1752-ci ildə kəşf edəndə, kim bilirdi ki, Nostradamus bu barədə əsrlərlə öncə dəqiqliklə danışıb.

### 3 k45

**Beş nəfər gəlmə məbədə daxil olacaq.**
**Onların qanı torpağı ləkələyəcək.**
**Onların qanunlarını məhv etməyə gələnlərdən biri**
**Tuluzalılar üçün ağır örnək olacaq.**

Katrendə söhbət 1814-cü ildə baş verən Tuluza döyüşündən gedir. 1-ci sətirdə göstərilən "beş nəfər" Napoleona qarşı birgə müharibəyə girişən İngiltərə, Avstriya, Rusiya, İspaniya və Prussiyadır. Onlar Fransanı tutmaqla ölkəni təhqir etdilər. Vellinqtonun başçılığı ilə aparılan Tuluza döyüşü amansızlığı ilə fərqlənirdi. Şiddətli döyüş vaxtı qan su yerinə axırdı. 3-cü sətirdə söhbət

ingilis generalı Vellinqtondan gedir. 4-cü sətirdə isə Napoleonun hakimiyyətinin sona yetdiyinə işarə edilir.

### 3 k46

**Aydın əlamətlər və daimi (dəyişməz) ulduzlarla**
**Lion səması xüsusunda qabaqcadan xəbər veririk.**
**Qəflətən dəyişikliklər əsri yaxınlaşır.**
**Bu nə xeyrədir, nə də zərərə (yamanlığa).**

Tədqiqatçılar qeyd edirlər ki, Nostradamus bu katrendə Dolça bürcü əsrinin başlanğıcından söz açır. Yupiter Dolça bürcündə olanda (yanvar 1997-ci il) bəzi dəyişikliklərin olacağına işarə edir. 1998-ci ilin yanvarında isə Yupiter, Uran və Neptun Dolça bürcündə olub ki, bu da artıq Dolça əsrinin başlanması demək idi. Bu dövrün həqiqi dini inqilablar dövrü olacağı təxmin edilir. Bu vaxt yeganə zərər (yamanlıq) insanların şüursuz (düşüncəsiz) rəftarı və yeganə xeyir – oyanış olacaq.

Göründüyü kimi, burada rifahdan, xoşbəxt həyatdan bəhs edilmir. Alimlər yazırlar ki, heç bir dövr, heç bir əsr insanı avtomatik olaraq xoşbəxt etmir. Axı xoşbəxtlik özü nisbidir, könül rahatlığı, xoş əhvaldır. Həyatın özü kimi keçicidir.

Kim ki, bu aləmi olduğu kimi qəbul edə bilir, onu sevməyi bacarır, onun sevinci də, xoşbəxtliyi də öz əlindədir.

Hələ Zərdüşt, Budda, İsa və Məhəmməd peyğəmbərlərin vaxtından məlum olan bu adi həqiqəti insanlar var-dövlət, rifah dalınca düşərək çox vaxt unudurlar. Anlamaq istəmirlər ki, insan öz qəlbini nurlandırmaqla məşğul olduqca, mənəvi cəhətdən təmizlənir və həyatın mənası daha yaxşı dərk olunur.

### 3 k47

**Hakimiyyətdən qovulan qoca monarx**
**Gedib şərqlilərdən kömək istəyəcək.**
**Xaçlardan qorxduğuna görə, öz bayrağını qaldıracaq.**
**Mitilen (Lesbos) adasına dənizlə və quru yolla gedəcək.**

Bu katren barədə tədqiqatçılar əsaslı bir fikir söyləyə bilməmişlər. Lesbos adası Türkiyənin yaxınlığındadır. Şübhəsiz ki, qocalıb əldən düşmüş və hakimiyyətdən qovulmuş hökmdar, 3-cü sətirdən göründüyü kimi, müsəlmandır.

Ned Halley bu katreni Yunanıstanın kralı Konstantinlə bağlayır. 1973-cü ildə hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra, guya o, Şərq ölkələrinə müraciət edib ki, onu kral taxt-tacına qaytarsınlar.

### 3 k48

**Yeddi yüz əsirin əl-qolu çox kobud şəkildə bağlanacaq.**
**Onların yarısı öldürülməli, çoxusu suda batırılmalıdır.**
**Ancaq on beş adam öləndən sonra,**
**Arzulanan kömək çox tez gəlib çıxacaq.**

Katren İsrail-Fələstin münasibətlərindən bəhs edir. Söhbət İsrail zindanlarında saxlanılan, 1985-ci ildə Romadan Afinaya uçan və "Amal" döyüşçüləri tərəfindən qaçırılaraq Beyrutda yerə endirilən təyyarədən və onun sərnişinlərinin – 700 nəfər fələstinli döyüşçünün azad olunması şərti ilə sağ-salamat buraxılmasından gedir. Böyük görücünün katrendə bəyan etdikləri yüzdə yüz yerini alıb.

### 3 k49

**Fransız krallığı, sən çox dəyişiləcəksən.**
**İmperiya əcnəbi yerə keçəcək.**
**Onda sən başqa adət-ənənə və qanunlarla idarə olunacaqsan.**
**Sənə ən çox pislik Ruan və Şartrda olacaq.**

Bu katren XIX əsrin sonu və XX əsrin ortalarında baş verən hadisələrdən bəhs edir. 1-ci və 2-ci sətirlər bizi 1870-ci və 1940-cı illərə aparır. Hər iki tarixdə Fransa İmperiyası almanların əlinə keçmişdi. 3-cü sətirdə almanların Fransaya öz adət-ənənələri və qanunları ilə gəldikləri təsvir edilir. 4-cü sətirdə Ruan və Şartrda 1940-cı ildə gedən qanlı döyüşlərdən və bu şəhərlərin xarabazara çevrilməsindən bəhs olunur.

Bu katreni Şarl de Qoll və Avropa Şurası ilə bağlayanlar da vardır. Lakin həmin tədqiqatçıların dəlil və sübutları katrenlə uzlaşmır.

## 3 k50

**Böyük şəhər Respublikası**
**Böyük amansızlıqla (qəddarlıqla) razılaşmayacaq.**
**Şəhər şeypurunun sədaları altında kral qabağa çıxacaq.**
**Divara nərdivan qoyulacaq, şəhər buna peşman olacaq.**

Katren Fransadan bəhs edir. Nostradamus göstərir ki, respublika xülyası ilə yaşayan Paris üç dəfə peşman olacaq. 1-ci peşmançılıq 1588-ci illə bağlıdır. Kral III Henri Lui de Giz və Henri de Giz qardaşlarını öldürdüyünə görə (bax: 1 k36, 1 k85 və s.), Parisin on altı rayonunun rəhbərlərinin başçılığı ilə xalq ona qarşı çıxdı. Şəhərin hər yanında kralın İsveçrə qvardiyasına və krala sadiq olan hərbi dəstələrə qarşı barrikadalar qurdular. Kral III Henri qorxusundan şəhəri tərk etdi. Sui-qəsd nəticəsində kral III Henri rahib Kleman tərəfindən öldürüldükdən sonra, 1589-cu ildə IV Henri Parisi mühasirə etdi. Şəhərdə aclıq tüğyan edirdi. İnsanın insan əti yediyi qeydə alınmışdı...

Respublika xülyası ilə yaşayan şəhər 2-ci dəfə Fransa inqilabı (1789) və Birinci Respublika (1799-1814) dövründə peşman oldu. Bu vaxt iki milyondan çox fransız məhv edildi. Napoleonun məğlubiyyətindən sonra şeypur sədaları altında Burbonlar hakimiyyətə qayıtdılar.

Paris 3-cü dəfə İkinci Respublika (1848-1870) və Üçüncü Respublika dövründə (1871-1940) peşman oldu. Hər iki dövrdə Almaniya Fransanı zəbt etmiş, alçaldıcı şərtlərlə onu saziş bağlamağa məcbur etmişdi.

## 3 k51

**Paris böyük qətli həyata keçirmək niyyətindədir.**
**Blua çalışacaq ki, bu tamamilə həyata keçsin.**
**Orleanlılar öz başçılarını dəyişmək istəyəcəklər.**
**Anjüs, Truda, Lanqr onlara pis xidmət göstərəcək.**

Bu katren də Nostradamusun vətəni Fransadan bəhs edir. 1-ci və 2-ci sətirlərdə kral III Henrinin ölkədə böyük hörməti olan Giz qardaşlarına qarşı hazırladığı sui-qəsddən söhbət gedir. Burada "Blua" həm kral III Henrini, həm də Henri de Gizin öldürüldüyü Şato-de Blua kral sarayını göstərir (bax: 6 k11). III Henri Orleanın valisi Henri de Gizi dostluğu möhkəmləndirmək pərdəsi altında Parisə dəvət edir və 23 dekabr 1588-ci ildə gecə vaxtı Şato-de-Blua kral sarayında onu öldürtdürür. 3-cü sətirdə göstərilənlər də yerini alır. Məsələ burasındadır ki, kral III Henri adaşı Henri de Gizi öldürtdürdükdən sonra Orleana yeni vali göndərir. Lakin Orlean əhalisi ayağa qalxaraq itaətsizlik göstərir. 4-cü sətirdə göstərilən şəhərlərdə isə əhali katoliklərə qarşı çıxır, hugenotların (pravoslavlar) tərəfini saxlayırdı. Nostradamus özündən az sonra baş verəcək bu hadisələri tam dəqiqliyi ilə görmüşdü.

**3 k52**

**Hərbi səfər zamanı uzun müddət yağış yağacaq.**
**Ancaq Puyda böyük quraqlıq olacaq.**
**Qanadları axıra qədər açılmamış Qartalı Xoruz görəcək.**
**Şir bunu axıra qədər açacaq.**

Tədqiqatçılar bu katreni Napoleonun hərbi səfərlərinə aid edirlər. Doğrudan da, 14 illik hakimiyyəti dövründə Napoleon hər cür hava şəraitində müharibələr aparmışdı. Onun İspaniya səfəri zamanı (1808-ci il) əsgərlərin dözülməz istidən əziyyət çəkdikləri tarixdən məlumdur. Elə bu hərbi səfər zamanı Napoleonun strateji səhvə yol verdiyi də tarixçilərin diqqətindən yayınmamışdır. O, İspaniyada ordu hissələrini qoyaraq, Avstriya üzərinə (Qartal) yerimiş, ingilislərin (Şir) hərbi ekspedisiyalarına məhəl qoymamış, nəticədə məğlub olmuşdu.

**3 k53**

**Nürnberqdən, Ayqsburqdan və Bazeldən**
**Ən böyük (şəxs) mükafatı aparanda,**
**Frankfurt Köln hökmdarı tərəfindən yenidən zəbt ediləcək.**
**O, Flandriyadan (Belçika) keçib, düz Fransaya gedəcək.**

Katrendə söhbət II Dünya müharibəsi ərəfəsində və müharibə vaxtı Hitlerin apardığı siyasətdən və qəsbkarlıq planlarından gedir. Məlumdur ki, Fransa Almaniya ilə sərhəd boyu keçilməz Majino səddi çəkmişdi. Bir neçə ilə və böyük xərcə başa gələn Majino səddi Fransanın köməyinə çatmadı. 10 may 1940-cı ildə Hitler orduları Belçika və Hollandiyanı tutaraq Fransaya Majino səddindən yan keçərək Belçikadan girdi.

4-cü sətirdə böyük görücü buna işarə edir.

### 3 k54

**Ən böyük şəxslərdən biri İspaniyaya qaçacaq.**
**Bundan sonra uzun müddət alınmış yaradan qan axacaq.**
**Ordu hissələri uca dağları keçəcək.**
**Hər şey dağılacaq. Sonra əmin-amanlıq bərpa olunacaq.**

Tədqiqatçılar bu fikirdədirlər ki, bu katrendə söhbət general Fransisko Frankonun hərbi qubernator olduğu Kanar adalarından İspaniyaya qayıtmasından gedir. Əslində, onun 1936-cı ildə Atlantik okeanındakı Kanar adalarına hərbi qubernator təyin olunması sürgündən başqa bir şey deyildi. Franko Kanar adalarından İspaniyaya qaçaraq, milli üsyançı dəstələrə rəhbərlik etdi. Uca Pireney dağlarını keçərək, Frankoya kömək üçün 50 min italyan və 10 min alman yaraqlısı gəlmişdi. 20 min rus əsgəri isə monarxist Respublika ordusu tərəfində döyüşürdü. Üç il davam edən vətəndaş müharibəsi zamanı 600 mindən artıq adam həlak oldu. Lakin general Franko xarabazara çevrilmiş ölkədə az sonra əmin-amanlıq yaratdı. Onun ən böyük xidmətlərindən biri də II Dünya müharibəsi zamanı heç bir hərbi bloka qoşulmayaraq ölkənin bitərəfliyini saxlaması olmuşdur. Bu gün də, baxmayaraq ki, vətəndaş müharibəsindən sonra ölkədə aclıq tüğyan edirdi və Hitler özü şəxsən İspaniya sərhədində Franko ilə görüşüb İspaniyanı ərzaqla təmin etməyi və əvəzində Almaniyanın tərəfini saxlamağı təklif etmişdi. İspaniya bitərəf ölkə olaraq qalmışdı. Bu və başqa çox ma-

raqlı faktlarla bağlı aşağıdakı katrenlərə nəzər salmağı məsləhət görürük: 3 k8, 3 k68, 5 k59, 6 k15, 6 k45, 9 k16, 10 k9.

Ned Halley bu katreni bir müddət Argentinanın prezidenti olmuş (1946-1955) Xuan Dominqo Peronla əlaqələndirir. 1955-ci ildə ordu hakimiyyəti ələ alanda, Peron İspaniyaya qaçmışdı. 1973-cü ildə İspaniyadan Argentinaya qayıtmış və o biri il dünyasını dəyişmişdi. Göründüyü kimi, 1-ci sətirdən başqa, katrendə bəyan edilənlər Peronun taleyi ilə uzlaşmır.

### 3 k55

**O il ki, Fransada təkgöz kral hakimiyyətdə olacaq,**
**Sarayda böyük çaxnaşma düşəcək.**
**Bluadan olan böyük adam öz dostunu öldürəcək.**
**Krallıq pis vəziyyətə düşəcək, ikiqat şübhə yaranacaq.**

Katrendə 1559-cü ildə kral II Henrinin qraf Montqomeri ilə keçirdiyi təkbətək cəngavər döyüşündə gözündən aldığı yaradan öldükdən (bax: 1 k35) sonra kral sarayında baş verən çaxnaşmadan bəhs olunur.

3-cü və 4-cü sətirlərdə isə II Henrinin oğlu kral III Henrinin vaxtında onun Giz qardaşlarını öldürməsindən, hamının krala şübhə ilə yanaşmasından, iğtişaşlardan və nəticədə kral III Henrinin özünün öldürülməsindən danışılır (bax: 1 k85).

### 3 k56

**Montaban, Nim, Avinon və Bezyedə**
**Martın axırında vəba, ildırım və dolu baş verəcək.**
**Paris körpüsü, Lion divarı, Monpelye**
**Çünki altı yüz və yeddi iyirmilik üç cütlük hesablanır.**

Göründüyü kimi, katren Fransada cərəyan edən hadisələrdən bəhs edir. Lakin tədqiqatçılar katrenin şərhi barədə ümumi fərziyyələrdən başqa, ağlabatan bir söz deyə bilməyiblər. Çox güman ki, Nostradamus bu katrendə gələcəkdə baş verəcək hadisələrdən söz açır.

**3 k57**

**Britaniya millətində Siz yeddi dəfə dəyişiklik görəcəksiniz.**
**İki yüz doxsan il müddətində ləkələnəcək (qana boyanacaq).**
**Fransa, almanlara çox da bel bağlama.**
**Qoç polşalıların havadarına şübhə ilə yanaşır.**

Katrendə söhbət İngiltərədə taxt-tacın yeddi dəfə əldən ələ keçəcəyindən, müxtəlif kral sülalələrinin hakimiyyət uğrunda mübarizəsindən, hətta Hannoverli I Georqun vaxtından (1714-1727) hakimiyyətin alman mənşəli kralların əlində olmasından və s. danışılır.

2-ci sətirdə göstərilənlər 1625-ci ildən İngiltərənin kralı olan I Çarlzın 1649-cu ildə edam edilməsi ilə bağlıdır. 1649-un üstünə 290 gələndə 1939 edir ki, bu da ingilislərin II Dünya müharibəsinə girdiyi ilə işarədir. Nostradamus I Çarlzı günahsız yerə edam etdiklərindən, ingilisləri bir neçə ilahi cəza gözlədiyini göstərmişdir (bax: David Ovason. Nostradamusun kodları (ingiliscə), London, 1998, səh.450). Bu ilahi cəzalar 290 il davam etdi və son ilahi cəza 1939-cu ildə baş verdi və Britaniya İmperiyasına baha başa gəldi. II Dünya müharibəsindən sonra ingilislər müstəmləkə və dominionlarını, dənizdə üstünlüyünü, beynəlxalq aləmdə nüfuzunu itirdi. İmperiya dağıldı. Təkcə onu demək kifayətdir ki, Hindistan və Pakistan müstəqil dövlətlər elan olundular. Bununla da Nostradamusun dəqiq göstərdiyi kimi, 300 illik İngilis imperiyasına son qoyuldu (bax: 10 k100). Nostradamusun böyük uzaqgörənliklə bəyan etdiyi və ingilislərin başına labüd olaraq gəlmiş başqa bəlalar barədə baxın: 2 k51, 2 k53, 9 k49 və s.

3-cü sətirdə Nostradamus fransızlara xəbərdarlıq edir ki, almanlara o qədər də bel bağlamasınlar. Məsələ burasındadır ki, 1587-ci ildə katolik məzhəbinin nümayəndəsi kraliça Mariya Stüartın İngiltərənin kraliçası protestant Yelizaveta tərəfindən edam edilməsindən sonra (1 k86) İngiltərə ilə Fransa arasında davamlı soyuqluq yarandı. Bütün Avropa ölkələri və Vatikan katolik

kilsəsi Yelizavetanın bu hərəkətini pislədi. Böyük mənsəb sahibini, böyük sülalənin nümayəndəsini adi adamlar səviyyəsinə endirmək məqbul sayılmadı. Əslində kraliça Yelizaveta bununla gələcəkdə kral və kraliçaların ictimaiyyət qarşısında edam edilməsinin əsasını qoydu. Bundan sonra fransızlar almanlarla əlaqələrə daha çox üstünlük verdilər və Nostradamusun katrendə göstərdiyi kimi də oldu. Almanlar dəfələrlə Fransanı tutdular (bax: 3 k6) və ölkəni xarabazara çevirdilər.

4-cü sətirdə Nostradamusun bəyan etdiyi Adolf Hitlerlə bağlıdır. Hitler Qoç bürcünün Buğa bürcü ilə zahiri kəsişdiyi vaxt anadan olub. Qoç (Oven) mifologiyada müharibə allahı kimi təsvir edilir. Nostradamus Hitlerin "müharibə törədən", "müharibə qızışdıran" olacağını görmüş və böyük görücünün bu sətirdə bəyan etdikləri yüzdə yüz yerini almışdır. Məsələ burasındadır ki, ingilislər Hitlerin Polşanı tutmaq planlarından xəbər tutan kimi, almanları ciddi şəkildə xəbərdar etmişdilər ki, əgər almanlar Polşaya girsələr, ingilislər onlara qarşı müharibəyə başlayacaqlar. Lakin "Qoç (Hitler) polşalıların havadarına şübhə ilə yanaşdı" və onların xəbərdarlığını qulaq ardına vurdu. Beləliklə də II Dünya müharibəsinə rəvac verdi və 50 milyon adamın ölümünə bais oldu.

Bəzi rus tədqiqatçıları bu katreni səhv tərcümə edərək, əbəs yerə Nostradamusda səhv axtarmağa cəhd göstərmişlər. Onlar "290 il ərzində" əvəzinə "290-cı ildə" kimi tərcümə edərək, cəfəngiyat açmış, oxuculara tamamilə səhv məlumat verərək, onlara hörmətsizlik etmişlər.

### 3 k58

**Reyn yaxınlığında, Norik dağlarının ətəyində,**
**Xalqın, çox gec də olsa, böyük oğlu dünyaya gələcək.**
**Həmin adam Rusiyanın Avropa hissəsini və Macarıstanı müdafiə edəcək.**
**Onun başına nə iş gələcəyini heç kim bilməyəcək.**



***Adolf Hitler və məşuqəsi Yeva Braun.***
***Onlar 30 aprel 1945-ci ildə bunkerdə nikaha girmiş və birgə intihar etmişdilər***

Katren Adolf Hitlerdən bəhs edir. O, bir vaxtlar Roma İmperiyasına daxil olan və Norik adlanan Avstriyanın Braunau şəhərində anadan olub. Hitler özünü "Almaniyanın xilaskarı" adlandıraraq, gec olsa da, almanları 1919-cu ildə bağlanmış alçaldıcı, təhqiredici Versal sülh müqaviləsinə qarşı qoya bildi. 1939-cu ildə Hitler İngiltərənin xəbərdarlığına baxmayaraq, Polşanı zəbt etdi (bax: 3 k57). Beləliklə, II Dünya müharibəsi başlandı.

4-cü sətirdə Nostradamusun göstərdikləri tamamilə yerini almışdır. Doğrudur, bəzi katrenlərə (2 k24, 4 k40) əsaslanaraq, tədqiqatçılar Hitlerin qəfəsə salınaraq gəzdirilmədiyinə görə, Nostradamusun bəyan etdiklərinin çin olmadığını qeyd edirlər. Əslində, Hitlerlə bağlı bu məsələ şayiədən başqa bir şey deyildir. Bizim

artıq qeyd etdiyimiz kimi, qəfəsə salınan Mussolini olmuşdur. Biz onu da əlavə etmişik ki, II Dünya müharibəsinin son illərini bunkerdə keçirən Hitlerin bu həyatı da "dəmir qəfəs həyatı"ndan fərqlənmirdi.

Bu katrenin 4-cü sətri isə "Onun başına nə iş gələcəyini heç kim bilməyəcək" tam aydın göstərir ki, böyük görücü Hitlerin taleyini dəqiq görmüşdür.

Hitlerin ölümü bu gün də bir müəmma olaraq qalır. Rusiya təhlükəsizlik orqanları Hitlerdən bəhs edən və "Mif əməliyyatı" adı altında I-G-23 saylı qovluğu məxfi saxlayır.

Doğrudur, ruslar Ada Petrova və Piter Vatsona "Hitlerin ölümü" adlı kitablarını başa çatdırmaq üçün məxfi qovluğun materiallarından istifadə etməyə icazə veriblərmiş. Əvvəllər belə bir şayiə gəzirdi ki, guya Hitler son anda Berlindən təyyarə ilə uçaraq ölümdən canını qurtarmış, sonra isə sualtı qayıqla naməlum tərəfə getmişdir. Hətta onun sonralar sağ olduğunu da deyən və mətbuatda onun Cənubi Amerikada gizləndiyini yazanlar da vardır.

Onu da deyək ki, görücü Vilhelm Vulf hələ 1923-cü ildə göstərmişdi ki, Hitlerə Münxendə sui-qəsd olacaq, lakin o, sağ qalacaq. Hitler və məşuqəsi Yevanın 1945-ci ilin baharında öləcəklərini isə dəfələrlə qeyd etmişdi (bax: Allan Hall. Milenyum 2000 kehanetleri (Türkcəyə çevirən: Eda Aksan), İstanbul, 2000, s.122).

Taleyə bax ki, Hitler anadan olduğu gün – 20 aprel 1945-ci ildə intihar etmişdi (bax: 10 k32).

Lakin jurnalistlər Petrova və Vatson faktlar əsasında sübut etdilər ki, Adolf Hitler, Yeva Braun, Yozef və Maqda Gebbelslər, hətta onların uşaqları Maqdeburq şəhərində yandırılaraq, 1970-ci ilə qədər gizli yerdə saxlanılırmış.

KQB-nin (DTK) məxfi arxivində Hitlerə aid edilən qovluqda bir neçə parça kəllə sümüyü saxlanılır. Onlardan birinin üstündə güllə deşiyi vardır.

**3 k59**
**Barbar imperiyanı üçüncü zəbt edəcək.**
**Öz qan qohumlarının çoxunu ölümə məhkum edəcək.**
**Qocalığa görə dördüncü özü yıxılacaq.**
**Qorxacaq ki, nəsildə qan tökmək davam edəcək.**

Katrendə XVI əsrin ikinci yarısında, Nostradamusun sağlığında, Sultan Süleymanın hakimiyyəti dövründə sultan sarayında baş verən hadisələrdən bəhs olunur. Müharibə və döyüşlərdə cəsarəti, yenilməzliyi ilə seçilən Süleyman Qanuni ailədə sözə baxan, deyilənə inanan, arvadlarının təsiri altına düşən bir adam olub. Ən çox da ona sevimli arvadı Rokselana təsir göstərirmiş. Rokselana ərinin qocaldığını görür, hər vasitə ilə hakimiyyətin oğlanları Səlim və Bayazidin əlinə keçməsi üçün çalışırdı ki, başqa qadından olan Mustafanı sultanın gözündən salsın. Mustafa çox ağıllı idi. Sultan onu çox istəyir və özündən sonra hakimiyyətin ona veriləcəyini gizlətmirdi. Lakin Rokselana da məkrli niyyətindən əl çəkmirdi. Nəhayət Sultanı inandıra bildi ki, Mustafa saray çevrilişi etməyə hazırlaşır. Bundan sonra Səlim və Bayazid arasında mübarizə başlayır. Sultan Süleyman Səlimin tərəfini saxlayır. Konya yaxınlığındakı döyüşdə Bayazid məğlub olur (1559). O, qaçıb Səfəvilərə pənah gətirir. Sultan Süleyman şah Təhmasibə çoxlu vədlər verərək oğlu Bayazidi edam etmək üçün geri tələb edir. Şah Təhmasib Çaldıran vuruşundan (1514) sonra Osmanlı İmperiyasının təbəəliyinə keçmiş Bağdad vilayətini Azərbaycana qaytarmaq şərtilə Bayazidi Sultan Süleymana qaytaracağını vəd edir. Sultan Süleyman bu şərti qəbul etmir. Lakin sonralar Bayazid qaytarılır və Sultan Süleyman oğlu Bayazidi edam etdirir.

Çox çəkmir ki, iki ağıllı oğlunu itirən və qocalıqdan əziyyət çəkən Sultan Süleyman dünyasını dəyişir və hakimiyyət vaxtını eyş-işrətlə keçirən Səlimin əlinə keçir. Sultan Səlim hakimiyyətə gələ biləcək bütün qohumlarını qırır.

Rus tədqiqatçıları bu katrenin İ.Stalindən bəhs etdiyini göstərirlər.

Ned Halley isə Fransa inqilabı zamanı Robespyerin terrorunu və bu zaman 25 min adamın gilyotinlə (başkəsən maşın) başının kəsildiyini göstərir.

Göründüyü kimi, bu tədqiqatçının da mülahizələri həqiqətdən uzaqdır.

### 3 k60

**Bütün Asiyada terrorun kökünü kəsəcəklər.**
**Hətta Mizidə, Lizidə və Pamfiliyada.**
**Bəraətə görə də qan axacaq.**
**Cavan, qaradərili adam öz çirkin əməlindən (terror) qalmayacaq.**

Əvvəllər tədqiqatçılar bu katreni 1985-ci ildə İtaliyanın səyahətçilərlə dolu sərnişin gəmisini tutan Abu Nidalla bağlayırdılar. O vaxt Abu Nidal özünü və başçılıq etdiyi təşkilatı “Şər atası”, “Vahimə atası” adlandırmışdı. Nostradamusda buna yaxın “Dəhşət knyazı”, “Vahimə knyazı” sözləri işlənmişdir (bax: 10 k71). Abu Nidalın yolunu tutan terrorçular Kiçik Asiyada təlim keçirdilər. Tədqiqatçıların yazdıqlarına görə, onların Liviya, Tunis, İran, İraq, Əlcəzair, Somali, son illərdə isə Əfqanıstan kimi 60-dan artıq ölkədə təlim-məşq bazaları olmuşdur. 2001-ci il sentyabr ayının 11-də Nyu-Yorkda “Dünya ticarət mərkəzi”nin qoşa göydələnlərinin və Vaşinqtonda Pentaqonun binasının partladılmasından sonra bütün dünya terrorizmin nə olduğunu dərindən dərk etdi və bu ümumi bəlaya qarşı səylərini birləşdirdi. Bu dəfə məlum oldu ki, dünyanın **Bir nömrəli** terrorçusu, əslən Səudiyyə Ərəbistanından olan, lakin Əfqanıstanda fəaliyyət göstərən, çox böyük gücə və var-dövlətə malik Üsamə Bin Laden imiş. ABŞ-da törədilən bu görünməmiş terror aktının onun rəhbərliyi ilə həyata keçirildiyi bəyan edildi. ABŞ dövləti Əfqanıstandan Bin Ladeni tələb etdi. Rədd cavabı aldıqdan sonra Əfqanıstana müharibə elan etdi (07.X.2001) və ölkəni tutdu. Hələlik Bin Ladenin yerini bilən yoxdur.

ABŞ bir çox əfqan gənclərini əsir edərək, Kuba ərazisində yerləşən Qvantanama həbs düşərgəsinə apardığını bildirdi. Əfqan döyüşçülərinin nə məqsədlə Amerika qitəsinə aparılması da müəmma olaraq qalır.

2-ci sətirdə adı çəkilən ölkələr Asiyada olub.

4-cü sətirdə söhbət güman ki, Bin Ladendən gedir.

### 3 k61

**Böyük hərbi qüvvə və xristian məzhəbindən olanlar**
**Mesopotamiyada yığışacaqlar.**
**Yaxınlıqdakı çayın sahilində yüngül dəstə toplaşacaq.**
**Qanunla bu, düşmənin qarşısını almaq üçündür.**

Katrendə söhbət 34 Avropa ölkəsinin İraqa qarşı başladığı müharibədən gedir (1991, yanvar-fevral). “Səhrada tufan” adı altında aparılan əməliyyat və döyüşlərdə, daha doğrusu Rik Atkinsonun “Səlib yürüşləri. Körfəz müharibəsinin danışılmamış tarixi”adlı əsərində göstərdiyi kimi, Səlib yürüşlərinə 4000 tank, 150 gəmi, 600 mindən çox xristian dininə mənsub əsgər cəlb olunmuşdu. Keçən XX əsr ərzində xristianların bu sayda ordusu Mesopotamiyaya qarşı ilk dəfə idi ki, müharibə aparırdı.

3-cü sətirdə barəsində bəhs olunan çay – Fəratdır. Qərb hava qüvvələrinin 101-ci diviziyası 8 saylı şosseni bombalayaraq, 4 gün ərzində İraqın Küveytdə olan ordusu ilə əlaqəsini kəsmiş və müharibənin müqəddəratını həll etmişdi. 4-cü sətirdə söhbət prezident Səddam Hüseynin Respublika qvardiyasından gedir. Bu qvardiya düşmənin qarşısını ala bilmədi. Lakin müharibədən sonra ölkə daxilində baş verən iğtişaşları yatıra bildi.

### 3 k62

**Biskay körfəzi yaxınlığında, Duero çayı sahilində**
**O, böyük Pireney dağlarını keçib gələcək.**
**Burada hakimiyyət qısamüddətlidir və o,**
**Qoşunu Karkasona göndərmək niyyətindədir.**

Katrendə söhbət Fransa-İngiltərə-İspaniya müharibələrindən gedir. Biskay körfəzi də, Duero çayı da İspaniyadadır. 1808-ci ildə Napoleon Ser Con Murun başçılıq etdiyi Britaniya ordu hissə - lərini İspaniyadan çıxarmağa nail olmuşdu. Lakin bir il sonra general Vellinqtonun komandanlığı altında Britaniya ordu hissələri Nostradamusun katrendə göstərdiyi marşrutla İspaniyaya yürüş etdi. Sonra isə Vellinqton Pireney dağlarını keçərək Fransa üzərinə yeridi. Karkason yaxınlığında döyüş baş verdi. Beləliklə, Nostradamusun 250 il öncə dedikləri, 4-cü sətirdən göründüyü kimi, çin oldu: "Qoşunu Karkasona göndərmək niyyətindədir".

**3 k63**

**Böyük, qonşunun yolu ilə getdiyinə görə**
**Roma dövləti tamamilə hörmətdən düşəcək.**
**Vətəndaşlar arasında düşmənçilik və didişmə**
**Hoqqabazların sarsaqlıqlarının vaxtını uzadacaq.**

Tədqiqatçılar bu katrendə söhbətin faşizmin əsasını qoyan Benito Mussolini və onu zirvəyə qaldıran Adolf Hitlerdən getdiyini qeyd edirlər. Onlar hər ikisi gəncləri ələ almaq üçün hər cür hoqqabazlığa əl atırdılar. Hitler, hətta gecə vaxtı məşəllərin işığında minlərlə adamın qarşısında nitq söyləyir, insanları ələ alır - dı. Təsadüfi deyildi ki, Nostradamus Hitlerlə bağlı yazmışdı: "Onun dili əlində cida olan dəlidən daha qorxuludur".

Katrenin 4-cü sətrindən göründüyü kimi, Nostradamus onları "hoqqabaz" adlandırmışdır.

Bəzi tədqiqatçılar isə bu katrenin Abu Nidal və Abu Abbas kimi terrorçulardan bəhs etdiyini göstərirlər. 1985-ci ildə Abu Nidal və Abu Abbasın planı əsasında İtaliyanın "Axille Laura" sərnişin gəmisi ələ keçirildikdən sonra, İtaliya dövləti Abu Abbasın şərtini qəbul etdi ki, gəmi partladılmasın, insan tələfatı olmasın. Terror - çuya imkan verildi ki, sağ-salamat İtaliyanı tərk etsin. Bu hadisə -

dən sonra beynəlxalq aləmdə İtaliya nüfuzdan düşdü. Elə buna əsasən bəzi tədqiqatçılar katreni bu hadisə ilə bağlayırlar.

**3 k64**

**İran hökmdarı böyük olkadların (mavrların) yerini dolduracaq.**
**Donanma üç yaruslu hərbi gəmilərdə müsəlmanlara qarşı duracaq.**
**Parfiya və Midiyadan gəlib Sikladanı talan edəcəklər.**
**Böyük İoniya limanında uzun müddət sakitlik olacaq.**

Tədqiqatçılar bu katren barədə bircə onu deyə biliblər ki, Nostradamus burada Ayətulla Xomeynidən (1900-1989) bəhs edir. Yazırlar ki, Xomeyni ABŞ və Qərbə qarşı müqəddəs dini müharibə elan edib, İraqla müharibəyə girişib və nəticədə bir milyondan artıq iranlı məhv olub. Ölkədə iqtisadi vəziyyət pis kökə düşüb. Demək lazımdır ki, katrenlə tədqiqatçıların şərhi arasında uyğunluq görünmür.

**3 k65**

**Papa seçilən günün səhərisi,**
**Böyük Romalının qəbri tapılanda,**
**Senat (konklav) bunu sübut üçün təsdiq etməyəcək.**
**Onun qanı müqəddəs camdan zəhərlənmişdir.**

Katren 1978-ci ildə Venesiyanın patriarxı Albino Luçianinin Vatikanda Roma katolik kilsəsinə Papa seçilməsi və I İohann Pavel adı ilə fəaliyyətə başlamasından bəhs edir. 2-ci sətirdə 1978-ci ildə birinci Roma Papası Pyotrun qəbrinin Vatikan ərazisində arxeoloqlar tərəfindən tapılmasından danışılır. Bu katrenlə bağlı məsələlərdən əvvəllər söhbət açdığımızdan (bax: 2 k15) burada oxucuları təkrarla yormaq istəmədik. Burada yalnız 4-cü sətirdə göstərilənin Papa I İohann Pavelin Papa seçiləndən düz bir ay sonra zəhərləndirilərək öldürülməsi ilə bağlı olduğunu oxucuların nəzərinə çatdırmağı lazım bildik.

## 3 k66

**Böyük Orlean hakimi ölümə məhkum olunub.**
**Ondan özünün qan qohumlarından biri intiqam alacaq.**
**Dünyasını öz əcəlilə, ləyaqətli ölümlə dəyişməyəcək.**
**Yara düşmüş əlləri və ayaqları onu əsir edəcək.**

Orleanlı Filip Fransa inqilabında görkəmli simalardan biri idi. Fəxri zadəgan adından imtina edərək inqilabçılara qoşulmuşdu. Milli Məclisə üzv seçiləndən sonra qan qohumu kral XVI Lüdovikin edam edilməsinə səs vermişdi. Allahın qəzəbinə tuş olub. Robespyerin göstərişi ilə gilyotində (baş kəsən maşın) edam edilib.

## 3 k67

**Filosofların yeni təlimi (sekta) yaranacaq.**
**Onlar ölümə, qızıla, şöhrətə, var-dövlətə nifrət edəcəklər.**
**Almaniya dağları sərhəd olmayacaq.**
**Daha sonra onların çoxlu tərəfdarları və himayədarları olacaq.**

Qəribə olsa da, bəzi tədqiqatçılar bu katrendə söhbət açılan gün kimi aydın həqiqətlərdən yan keçərək, onların gələcəkdə baş verəcəyi ehtimalını irəli sürmüşlər. Əslində, bu katrendə K.Marks və F.Engelsin Almaniyada yaratdığı yeni təlimdən bəhs olunur. Sonralar bu təlim Almaniya sərhədlərini aşaraq marksizm-leninizm adı altında bütün dünyaya yayılmışdı. Nostradamusun əsrlərlə öncə söhbət açdığı, XIX əsrin sonu və XX əsrdə baş verən hadisələr barədə danışmağa lüzum görmürük. Bircə onu demək istərdik ki, tərcümədə filosof “idrakı sevən adam” mənasını verir. İdrak, ağıl isə sadəlik və aydınlıqla bağlıdır. İlk vaxtlar sadəliyi, aydınlığı ilə seçilən və buna görə də hamını maqnit kimi cəzb edən marksizm-leninizm təlimi sonralar öz ideallarından uzaqlaşdı və həyatda qazandığı mövqeyini itirdi.

Bəzi tədqiqatçılar, məsələn Ned Halley bu katreni Fransa və onun Deni Didro, Russo, Volter kimi xadimləri ilə bağlayır.

Göstərilən alimlərin xidmətlərini yüksək qiymətləndirməklə bərabər, katrenin Almaniya ilə bağlı olduğunu inkar etmək olmaz. Nostradamus bunu katrenin 3-cü sətrində açıqca göstərmişdir.

Rus tədqiqatçıları D. və N.Zimalar heç bir əsas olmadan katreni Rusiya ilə bağlamağa cəhd ediblər.

**3 k68**

**İspaniya və İtaliyada xalq başsız (başçısız) qalacaq.**
**Məhv olanlar yarımadada məğlub edilənlərdir.**
**Onların diktatoruna düşünülmüş xəyanət ediləcək.**
**Hər yerdə ona qarşı çıxılacaq, qanlar töküləcək.**

İspaniya da, İtaliya da yarımadada yerləşir. Nostradamusun əsrlərlə öncə göstərdiyi kimi, XX əsrin ortalarına yaxın hər iki yarımadada qanlı döyüşlər getmiş, qan su yerinə axmışdır. İspaniyada vətəndaş müharibəsi ərəfəsində və vətəndaş müharibəsi zamanı (1936-1939) ölkə demək olar ki, başçısız qalmışdı.

Faşist İtaliyası isə II Dünya müharibəsini başçısız başa vurmuşdu. 1943-cü ildə Benito Mussolini hakimiyyətdən kənarlaşdırılsa da, almanlar yenidən onu hakimiyyətə gətirmişdilər. Müharibənin sonuna yaxın isə qaçaraq ölkəni tərk edərkən partizanlar tərəfindən tutulub edam edilmişdi.

Katreni diqqətlə izlədikdə, 1-ci və 2-ci sətir nəzərə alınmazsa, yerdə qalan iki sətirdə söhbət İtaliyadan gedir. 3-cü sətir bir daha bunu sübut edir.

Burada təkcə bir diktatordan danışılır. Fransisko Franko barədə isə onu demək olar ki, o, 1975-ci ildə öz əcəli ilə dünyasını dəyişənə qədər İspaniyaya rəhbərlik etmişdir. Diktator kimi tanınan Frankonun İspaniya qarşısında böyük xidmətləri olmuşdur. Onun ən böyük xidmətləindən biri II Dünya müharibəsində İspaniyanın bitərəfliyini saxlayaraq ölkəni viranedici müharibə bəlasından xilas etməsi olmuşdur.

## 3 k69

**Böyük əməliyyatı cavan adam aparacaq.**
**Düşmənin əlində əsir olacaq.**
**Ancaq yarıdonuzdan doğulan qoca adam**
**Şalon və Makonu dost olmağa təhrik edəcək.**

“Yarıadam”, – “yarıdonuz” ifadəsinə başqa katrenlərdə də (bax: 1 k64, 8 k44) təsadüf edilir. Bəzi katrenlərdə bu sözün pilot mənasında işləndiyi açıqca hiss olunur. Bu katrendə “yarıdonuz” sözü bəlkə də qədim əsatirlə əlaqəli işlənmişdir. Qədim əsatirə görə, Milan şəhəri salınanda onun yerində yarıdonuz–yarıqoyuna bənzər bir heykəl tapılıbmış. Şəhər buna görə Milan adlanıb. Napoleon çox gənc ikən, 1790-cı ildə Milanı tutubmuş. Lakin o, İtaliyada əsir düşməyib.

Şalon və Makon Fransanın Burqundiya bölgəsindədir. Tədqiqatçılar indiyə qədər bu katrenin məğzini açıb göstərməkdə çətinlik çəkiblər.

## 3 k70

**İngiltərəni özünə daxil edən Böyük Britaniya**
**Qabarmış daşqın sularının altında qalacaq.**
**Yeni Avsoniya liqası (cəmiyyəti) müharibəyə başlayacaq.**
**Avsoniya liqasına qarşı onlar daha möhkəm müqavimət göstərsin deyə.**

Bu katrendə Nostradamus özündən təqribən 50 il sonra leksikona girəcək Böyük Britaniyadan bəhs edir. Məlumdur ki, İngiltərə, Şotlandiya və Uels 24 oktyabr 1604-cü ildə birləşiblər və bundan sonra Böyük Britaniya “dövlətlər birliyi” mənasını kəsb edib. O da məlumdur ki, Britaniyada çoxlu adalar vardır. Adətən, onların ikisi barədə danışılır. Böyük Britaniya və İrlandiya. İngiltərə, Şotlandiya və Uels Böyük Britaniyanı təşkil edir. Bəzi alimlərin fikrincə, şiddətli istilər nəticəsində XXI əsrin ortalarında Arktika buzlarının əriməsi nəticəsində Nostradamusun bəyan etdikləri yerini alacaqdır.

Katrenin 3-cü və 4-cü sətirlərində bəşəriyyətin böyük bəlalarla qarşılaşacağından söhbət gedir. Onu da qeyd edək ki, Avsoniya İtaliyanın cənubunda ərazidir. Tədqiqatçılar bunu terrorizm və terrorçular olan ölkələrlə bağlayır və Qərb dövlətlərinin onlara qarşı müharibə aparacaqlarından söz açırlar. Nostradamusun ən yaxşı tədqiqatçılarından biri Con Houq daha irəli gedərək, 1996-cı ildə Böyük Britaniyada ingiliscə çıxan, 1999-cu ildə isə rus dilinə tərcümə olunaraq Moskvada çap olunan sanballı kitabında yazır: "Bu hadisələr Qərb ölkələrinin birliyinin yaradılmasına və terrorçuların bazaları olan ölkələrin məhv edilməsinə gətirib çıxaracaqdır".[1]

Ola bilsin ki, böyük görücünün söz açdığı "Yeni Avsoniya liqası" bununla bağlıdır. Buradan belə bir nəticəyə gəlmək olur ki, Con Houqun kitabı yazdığı XX əsrin 80-90-cı illərində Qərb ölkələri belə bir məsələ üzərində ciddi iş aparırlarmış.

### 3 k71

**Uzun müddət adalarda mühasirədə olanlar**
**Öz düşmənlərinə qarşı qəzəblə coşacaqlar.**
**İngiltərədən kənarda olanlar taqətdən düşəcək, acından öləcəklər.**
**Onlar belə aclığı heç vaxt görməmişdilər.**

Katren II Dünya müharibəsi zamanı ingilislərin almanlara qarşı apardığı müharibədən bəhs edir. 1940-cı ilin yayında Fransa məğlub olduqdan və almanlar Fransanı tutduqdan sonra İngiltərə təklənmişdi. Gecələr almanlar Britaniya şəhərlərini bombalayır, əhalini vahiməyə salırdılar. Cana yığılan xalq dövləti məcbur etdi ki, cavab tədbiri görsün. İngilislər Hamburq və Drezden şəhərlərini bombalamağa başladılar. Nəticədə on minlərlə alman öldü. Deyilənlərə görə, hava hücumları zamanı 650 mindən çox alman həlak olub.

Tədqiqatçılar yazırlar ki, aclıqla məhv etmək Hitlerin sevimli silahı olub. Müharibə vaxtı aclıqdan ölən rus, polyak, yəhudi və başqalarının sayı 13 milyonu keçibmiş.

---

[1] Con Houq. Nostradamus. Görücülüyünün külliyyatı. M., 1999, səh. 257.

**3 k72**

**Böyük çayın kənarında, şübhələnərək,**
**Xeyirxah qocanı diri-diri basdıracaqlar.**
**Var-dövlətin hesabına yeni qoca yolda tutulanda,**
**Bütün qızılını verərək, canını qurtaracaqdır.**

Bu katrendə də söhbət I Dünya müharibəsinin qəhrəmanı, II Dünya müharibəsi vaxtı "Vişi" dövlətinə başçılıq edən marşal Petedən gedir. Nostradamus bu katrendə çoxlu ibarələrdən istifadə etmişdir. Almanlar Fransanı tutandan sonra Peteni əsir götürmüşdülər. Müharibənin sonuna yaxın 80 yaşlı Peteni azad edirlər. İki gündən sonra sərhəddə isveçrəlilər Peteni fransızlara təhvil verirlər. Onu Parisdə mühakimə ediblər. Son sətirdə Petenin illər boyu xalqın sevimlisi və fəxri olduğunu, onun xalq qarşısında böyük xidmətlərini nəzərə alan hakimlərin yumşaq qərarına işarə olunur.

Bəzi tədqiqatçılar isə tutarlı fakt olmadan katreni uzun illər İngiltərənin baş naziri işləmiş V.Çörçilə aid edirlər.

**3 k73**

**Bu krallıqda axsaq adam hakimiyyətə gələndə,**
**Rəqib yaramaz adamla yaxın olacaq.**
**O özü və hakimiyyəti çox zəifləyəcək.**
**O sağalana qədər artıq gec olacaq.**

Tədqiqatçıların fikrincə ilk sətirdə söhbət Franklin Delano Ruzvelt və 1933-cü il prezident seçkilərində onun rəqibi olan Herbert Qayverdən gedir. Qalan sətirlərdə isə Ruzveltin rəqibi Adolf Hitlerdən danışılır. Burada Hitlerin özünü və dövləti çıxılmaz bəlaya düçar etdiyindən bəhs edilir.

**3 k74**

**Neapol, Florensiya, Faons və İmol,**
**Bir vaxt elə qeyzlənəcəklər:**
**Nolun bədbəxtlərinə xoş gəlmək xatirinə**
**Onun hakimini lağa qoymaqla mükafatlandıracaqlar.**

Bu katren barədə tədqiqatçılar ağlabatan bir fikir söyləyə bilməyiblər.

### 3 k75

**Po, Verona, Viçense, Saraqusun**
**Qılıncları uzaq torpaqlarda təzəcə qana bulanıb.**
**Çox böyük vəba ilə yanaşı, böyük qoturluq da başlayacaq.**
**Kömək yaxında, ancaq dərmanı uzaqda olacaq.**

Nostradamus bu katrendə SPİD xəstəliyinin Mərkəzi Afrikanın uzaq torpaqlarından gətirilərək Fransa, İtaliya və İspaniyada yayılmasından bəhs edir. 2-ci sətirdə görücü poetik tərzdə "qılınc" və "qan" sözlərini işlətmişdir. Demək lazımdır ki, magiya dilində "qılınc"–"fallos", "kişi tənasül orqanı" mənasında işlənir. O da məlumdur ki, SPİD kişi tənasül orqanı və qanla keçir.

ABŞ-da və Fransanın Paster İnstitutunda aparılan analizlər göstərir ki, Nostradamusun 3-cü sətirdə göstərdiyi "gousse" "qotur" mənasında işlənir. SPİD bəzən dərinin xərçənginə səbəb olur. Bu vaxt xəstənin dərisi açıq-qırmızı ləkələrlə örtülür ki, bu da qotura bənzəyir.

4-cü sətirdə Nostradamus SPİD-in dərmanının uzaqda olduğunu xüsusi vurğulayır. Böyük görücünün sözlərindən bu nəticəyə gəlmək olur ki, SPİD xəstəliyinin dərmanı kosmosla bağlıdır. XXI əsrin insanları üçün "uzaq" məsafə yalnız kosmos ola bilər. Ola da bilsin ki, Nostradamus uzaq deyəndə Amerika qitəsini nəzərdə tutub. Bəlkə də SPİD-in əlacı ABŞ-da tapılacaq.

Hələlik isə SPİD yayılmaqda davam edir. Uqandada əhalinin beşdə biri SPİD xəstəliyinə tutulub. Asiya və Afrika ölkələrini Uqandanın aqibəti gözləyir. Bombey və başqa şəhərlər böyük təhlükə altındadır. Belə getsə XXI əsrdə, Nostradamus açıqlamasında göstərdiyi kimi, dünya əhalisinin üçdə biri məhv olacaq.

Çex görücüsü Matar Tarabiç bu xəstəliklə bağlı fərqli fikir söyləmişdir: "Bir xəstəlik peyda olacaq. Bütün dünyanı bürüyəcək.

Heç kim onun əlacını tapa bilməyəcək... İnsanlar çırpınaraq axtaracaq, əlac isə Allahın iradəsi ilə onların özlərində olacaq".

**3 k76**

**Almaniyada müxtəlif təriqətlər (təlimlər) meydana çıxacaq.**
**Onlar bəxtiyar bütpərəstliyə çox yaxınlaşacaqlar.**
**Ürək əsirlikdə, fayda az, kar yox.**
**Onlar fayda vermək üçün qayıdacaqlar.**

Bu katrendə də, Almaniyada yeni təriqətlərin (sektaların) yaranmasını və məhvini Nostradamus görmüşdür. Biz, artıq, marksizm-leninizm təliminin yaranması (bax: 3 k67), dünyaya yayılması və Sovetlərin dağılması ilə süquta uğradığından danışmışıq.

Bu katrendə isə böyük görücü Hitler və onun yaratdığı faşist partiyasından söhbət açır. Hitlerin və onun tərəfdarlarının süqutu katrenin 3-cü və 4-cü sətirlərində poetik dillə təsvir olunub. Bütün bunlara və Üçüncü Reyxə Berlində, qaranlıq bunkerdə atılan bir tapança güllləsi son qoyub.

**3 k77**

**Qoç bürcünə daxil olmuş Üçüncü İqlimdə,**
**1727-ci ilin oktyabrında**
**İran şahı Misirdən olanlar tərəfindən tutulacaq.**
**Münaqişə, ölüm, itgi olacaq. Xaç biabırcasına ləkələnəcək.**

Bu katrendə Nostradamus ölümündən 161 il sonra baş verəcək tarixi hadisənin ilini və ayını dəqiq göstərmişdir.

1-ci sətirdə III İqlimdən söhbət gedir. Məlumdur ki, ərəb astroloqu Alfraganus dünyanı 7 iqlim zonasına bölmüşdür. Bu zonalar Ekvatora müvazi 13 dərəcə en dairəsindən başlayaraq, Şimal qütbünə tərəf götürülür. Beləliklə, 3-cü İqlim müasir hesablamalarla təqribən 28-34-cü dərəcə şimal en dairələrini əhatə edir. Bu isə o deməkdir ki, müasir İran, Əfqanıstan, İraq, Misir və başqa Ərəb dövlətlərinin şimal hissəsi bu en dairələri arasındadır. Kat -

rendə Misirdən bəhs olunması onunla bağlıdır ki, bu ölkə XVIII əsrdə Osmanlı İmperiyasının tərkibində idi.

Tədqiqatçıların göstərdiyi kimi, 1726-1727-ci illərdə Səfəvi hökmdarı II Təhmasib birləşmiş osmanlı-əfqan ordularına qarşı müharibə zamanı məğlub olur və təslim olmağa hazırlaşır. Lakin Nadir Xan Əfşar köməyə gəlir və II Təhmasib əsir düşmür. II Təhmasib bundan sonra Nadir Xan Əfşarı orduya komandan təyin edir. Nadir xanın başçılığı ilə Səfəvi orduları əfqanları ölkədən qovur, 1733-cü ildə isə Azərbaycanı yenidən tutan türkləri Kərkükdə məğlub edirlər. Lakin buna qədər, katrendə göstərildiyi kimi, 1727-ci ilin oktyabrında Səfəvi şahı II Təhmasib və osmanlılar arasında türklərin xeyrinə sülh müqaviləsi bağlanmışdı.

Qərb və rus tədqiqatçıları onlar üçün arzuolunmaz həmin sülh müqaviləsindən bu gün də ürəkağrısı ilə yazırlar. Şərqdə iki güclü islam dövlətinin yaranması xristian aləminə böyük zərbə hesab olunub. Osmanlı İmperiyası bütün gücünü xristianlarla mübarizəyə çevirib. XX əsrin son ilində rus tədqiqatçısı bu münasibətlə yazır: "Nəticədə, bu gün qüdrətli İran İslam dövləti mövcuddur. Özünüz fikirləşin, xristian aləminin maraqlarına necə böyük ziyan vurulmuşdur".[1]

Bəzi tədqiqatçılar isə Nostradamusu təftiş edir, öz savadsızlıqlarını görmürlər. Məsələn, T. Ukrainskaya yazır: "Senturiya III, katren 77-ni onun heç bir öngörücülüyü ilə müqayisə etmək olmaz. Bunu yalnız Mişel Nostradamusun səhvlərinə aid etmək olar. Göstərilən tarixdə bizə belə gəlir ki, heç bir mühüm hadisə baş verməyib... Bu katrendə tarix aydınca göstərilib. Skeptiklər çəkinmədən onu fırıldaqçı adlandıra bilərlər.[2]

Nə edəsən ki, belə üzdəniraq tədqiqatçılar çoxdur. Vay Nostradamusun görücülüyündən az xəbəri olan oxucuların halına!

---

[1] Великие пророчества Мишеля Нострадамуса. М., 2000, стр. 226.
[2] "Так говорил Нострадамус". М., 2000, стр. 406.

Rus tədqiqatçıları A.Morok və K.Razumovskaya isə nəinki təkcə bu katren, demək olar ki, əksər katrenlər barədə cəfəngiyyat və uydurmadan başqa ağılkəsən elə bir söz deməyiblər.[1]

Bardo Kidoqo isə heç bir əsas olmadan bu katreni İran-İraq müharibəsinə aid edir.[2]

**3 k78**

**Şotlandiyanın başçısı Almaniyadan gələn altı nəfərlə**
**Şərq dənizi xalqı tərəfindən əsir alınacaq.**
**Onlar Cəbəlüttariq və İspaniyanın yanından keçəcəklər.**
**İranda cəsarətsiz yeni hökmdarın hüzurunda dayanacaqlar.**

Bu katren barədə də tədqiqatçılar ağlabatan bir şey deyə bilməyiblər. Ola bilsin ki, bu dördlükdə Nostradamus gələcəkdə baş verəcək hadisələrdən söz açıb.

**3 k79**

**Qaçılmaz quruluş və əbədi ardıcıllıq,**
**Uyğun qayda-qanunla dəyişdiriləcək.**
**Fosen limanından zəncir qırılacaq.**
**Şəhər alınacaq və bu zaman düşmən də basılacaq.**

Bu katren II Dünya müharibəsi zamanı, daha doğrusu 1944-cü ilin avqust ayında general de Lətrin başçılığı ilə "Azad Fransa diviziyası"nın Marsel uğrunda apardığı qanlı küçə döyüşlərindən və limanda gedən hadisələrdən bəhs edir. 16 minlik alman ordu hissələri general-mayor Hans Şaferin başçılığı ilə ciddi müqavimət göstərirdilər. Lakin 9 min nəfər itki verdikdən sonra təslim oldular. Müttəfiq ordu hissələrinin gəmilərinin Marsel limanına girməsinin qarşısını almaq üçün çəkilmiş zəncir qırıldı. Görücü 3-cü sətirdə buna işarə edir.

---

[1] А.Морок, К.Разумовская. Новая расшифровка предсказаний Нострадамуса. Москва, 2000.

[2] Nostradamus öngörücülüyünün açarı (ingiliscə). London, 1994, səh.148.

3-cü sətirdə maraqlı bir fakt da diqqəti çəkir. Nostradamus zəncirlərin Fosen limanında qırılacağından söhbət açır. Marsel limanının əsasını fosenlilər (finikiyalılar-fokidlər) qoyduğuna görə, görücü "Fosen limanı" deməklə Marseli nəzərdə tutmuşdur.

Rus tədqiqatçıları D. və N. Zimalar heç bir əsas olmadan bu katrendə də ruslardan bəhs olunduğunu göstərmişlər.[1]

## 3 k80

**Ləyaqətli adam ingilis krallığından qovulacaq.**
**Kansler qəzəblə oda atılacaq.**
**Onun tərəfdarları özlərini doğrultmaqdan ötrü elə alçalacaqlar,**
**Hətta yaramaz özü də qismən bağışlanacaq.**

Katrendə İngiltərədən bəhs olunur. 1-ci sətirdə II Çarlzın ölkədən qovulmasından danışılır. Məsələ burasındadır ki, atası I Çarlzdan sonra qanuna görə taxta o əyləşməli idi. Lakin kral I Çarlz 1649-cu ildə edam edildikdən sonra II Çarlz Fransaya qaçmalı oldu. Hakimiyyətə Oliver Kromvel gəldi. 4-cü sətir onunla bağlıdır. 2-ci sətirdə bəzi tədqiqatçıların fikrincə, kral I Çarlzın baş məsləhətçisi lord Staffordun parlamentin qərarı ilə edam edilməsindən söhbət gedir. Ned Halley isə edam olunanın baş yepiskop Laud olduğunu göstərir.

3-cü sətirdə Şotlandiya ordusunun kral I Çarlza xəyanətindən söhbət gedir. Məsələ burasındadır ki, 1647-ci ildə şotland ordusu I Çarlzı 400 min funt sterlinqə ingilis parlamentinə satıb.

4-cü sətirdə yenidən Böyük ingilis inqilabının başçısı Oliver Kromveldən (1599-1658) danışılır. Onun göstərişi ilə kral I Çarlz 1649-cu ilin yanvarında edam edilib.

Tədqiqatçılar belə hesab edirlər ki, 4-cü sətirdə bəyan olunanlar onu göstərir ki, ingilis xalqı Kromveli kral kimi qəbul etməyib. O, yalnız İngiltərənin protektoru rütbəsinə layiq görülüb.

[1] Расшифрованный Нострадамус. Москва, 1998, стр. 231-232.

Nostradamus katrendə buna işarə edib. Başqa bir tərəfdən də, Oliver Kromvel vaxtilə kralın hesabına saray əyanları arasına çıxa bilib və göründüyü kimi, sonra ona xəyanət edib. Məhz buna görədir ki, Nostradamus onu "yaramaz" (əclaf) adlandırıb.

**3 k81**

**Böyük hay-küyçü, abırsız və ədəbsizi,**
**Cəsarət göstərib mübahisələrə girişdiyinə görə,**
**Ordunun başçısı seçəcəklər.**
**Şəhər körpüsü dağıdılacaq və o, qorxudan özündən gedəcək.**

Tədqiqatçılar bu katren barədə müxtəlif fikirlər söyləsələr də, həqiqətdən yan keçmiş, katrenin məğzinə uyğun gələn bir şey deyə bilməmişlər. Onları qınamaq da olmaz. Çünki katrendə bəyan olunanlar lap son vaxtlarda baş vermiş hadisələrdən bəhs edir. Katrenin bütün sətirlərində yer alan hadisələr İraqla, daha doğrusu onun prezidenti Səddam Hüseynlə bağlıdır. 4-cü sətirdə Körfəz müharibəsi zamanı (1991) Bağdadı iki yerə bölən Dəclə çayının üzərində XX əsrin 60-cı illərində almanlar tərəfindən tikilmiş, prezident sarayının yaxınlığında iki sahili birləşdirən, dünyanın ən gözəl abidələrindən biri olan "Asma körpü"nün (Cisr müəllaq") dağıdılmasına işarə olunur.

Onu da deyək ki, bəzi tədqiqatçılar bu katreni Adolf Hitlerlə bağlayırlar. Onlar göstərirlər ki, 25 aprel 1945-ci ildə Elba çayının üstündə salınmış körpünün üstündə Rusiya (fikir verin, Sovet ordusu yazmırlar!), Amerika və İngiltərə hərbi birləşmələrinin başçıları görüşərək, faşist Almaniyası üzərində qələbəni qeyd etmişlər. Bu hadisədən cəmi 5 gün sonra isə Adolf Hitler özünü öldürmüşdür.

Əslində isə nə körpü dağıdılmış, nə də Hitler özündən getmişdi. Lakin Bağdadda prezident sarayının lap yaxınlığında körpünün dağıdılmasının Səddam Hüseynə çox pis təsir göstərəcəyi şübhə doğurmur.

### 3 k82

**Nis yaxınlığında Frejüs, Antib şəhərləri**
**Dənizdən və havadan darmadağın ediləcək.**
**Dənizdən səmt küləyi, qurudan çəyirtkə. Əsir edilmə, ölüm,**
**Qolları çirmələnmiş, qanunsuzluqdan talan baş verəcək.**

Katren II Dünya müharibəsinin sonuna yaxın, 1944-cü ilin avqustunda Frejüs körfəzində, Nis yaxınlığında Frejüs və Antib şəhərlərində gedən qanlı döyüşlərdən bəhs edir. Amerikanın 7-ci ordu diviziyaları Frejüs körfəzinə çıxaraq, geri çəkilməyə məcbur olan iki alman diviziyası ilə döyüşə girib. Müttəfiq orduları da köməyə çatıblar. Müttəfiqlər almanların geri çəkildiyi yerləri havadan bombalayır, dənizdən top atəşinə tuturdular. Çox güman ki, saysız-hesabsız desantı körfəzə çıxaran, əcaib "burnu" olan təyyarələri Nostradamus poetik dillə çəyirtkəyə bənzədib. Böyük görücü "səmt küləyi"ni də təsadüfi işlətməyib. Səmt küləyinin paraşütçülərin sahilə enməsində rolu olmasa idi Nostradamus bu məsələyə diqqət yetirməzdi. 4-cü sətirdən göründüyü kimi, döyüş vaxtı əsir düşənlər, ölənlər təbii ki, olmuşdur. Bu aydın məsələdir. Müharibə vaxtı ölən də, əsir düşən də olur. Lakin desantın paraşütləri qatlamasını və qollarını çirməyərək döyüşə girişməsini Nostradamusun əsrlərlə öncə təfsilatı ilə görməsi insanı mat qoyur.

### 3 k83

**Əcnəbi xalqlarla birgə**
**Qalliyanın (Fransanın) uzunsaçlıları**
**Akvitan xalqını əsir edəcək.**
**Çünki onlar qərəzə uyacaqlar.**

Bu katrendə də Nostradamus Fransa ilə bağlı məsələlərdən söz açır. Burbon sülaləsindən olan bütün krallar başlarına uzunsaç parik qoyardılar. Buraya kral XIII Lüdovikdən XVIII Lüdovikə qədər bütün Lüdoviklər daxil idi. Tədqiqatçılar göstərirlər ki,

1968-ci ildə Paris, Mexiko və San-Fransisko şəhərlərində Vyetnam müharibəsinə qarşı nümayişlər başladı. Müharibədə iştirak edən 550 min amerikalı əsgərdən 30 mini məhv olmuşdu. Fransa Akvitaniyanın (İngiltərə) keçmiş koloniyası Amerikanın müharibəni dayandırmağını tələb edirdi. Katren bununla bağlıdır.

**3 k84**

**Böyük şəhər tamamilə xarabazara çevriləcək.**
**Sakinlərdən bir nəfər də olsun qalmayacaq.**
**Divarlar, məbədlər, kişilər, qadınlar və bakirə qızlar pis kökə salınacaqlar.**
**İnsanlar odlu silahlardan, yanğın, vəba və mərmilərdən öləcək.**

Bu katreni müxtəlif müharibələr vaxtı viran edilmiş Moskva, Paris, Stalinqrad, Leninqrad və başqa şəhərlərə aid etmək olar. Lakin əksər tədqiqatçılar bu fikirdədirlər ki, katrendə Nostradamus II Dünya müharibəsinin sonuna yaxın, 1945-ci ilin aprelində və may ayının əvvəlində Berlin şəhərində gedən qanlı döyüşlərdən bəhs edir. Şəhər 1000 dəfədən artıq bombardmana məruz qalmış, bir milyon iki yüz mindən artıq sovet əsgəri şəhərin küçələrində vuruşmuş, 12 min top, 21 min "katyuşa" qurğusundan istifadə olunmuşdu. Hesablamalara görə, Oder yaxınlığında və Berlində almanlar 400 min, ruslar 500 min döyüşçü itirmiş, mülki əhali arasında isə itki 200 mini keçmişdi. Əsgərlər tərəfindən qadınlar və qızlar arasında çoxlu zorlama hadisələri törədilmişdi. Katrendə bəyan olunanların hamısı Berlin şəhərində Nostradamusdan 400 il sonra baş verib.

**3 k85**

**Fırıldaq və yalanla şəhər alınacaq.**
**Cavan və gözəl oğlanın səyləri (cəhdləri) ilə sıxışdırılacaq.**
**Robin və Aude yaxınlığında döyüş olacaq.**
**Onların hamısı yalanın qurbanı olacaq.**

Tədqiqatçılar bu katren haqqında bir söz deyə bilməyiblər. Məlum olan odur ki, katrendə söhbət Fransa ərazisindən axan Aude çayından və onun Narboni yaxınlığında kanala çevrilən qolu Robindən gedir.

## 3 k86

**Avsonun başçısı İspaniyaya yola düşəcək.**
**Dəniz yolu ilə gedərək, Marseldə dayanacaq.**
**Ölümündən əvvəl uzun müddət saralıb-solacaq.**
**Onun ölümündən sonra hamı böyük möcüzə görəcək.**

Bu katren barədə də tədqiqatçılar bir söz deməyiblər. Qeyd etmək lazımdır ki, bəzi katrenlərdə olduğu kimi, bu katren barədə də fərziyyələr irəli sürən olmamışdır. Afsoniyadan (Cənubi İtaliya) İspaniyaya gedən, ağır sürən xəstəlikdən sonra ölən tarixi şəxsiyyət və onun ölümündən sonra baş verən möcüzə barədə məlumat yoxdur.

## 3 k87

**Qalliyanın dəniz qüvvələri, Korsikaya yaxınlaşmayın.**
**Sardiniyadan lap kənar durun. Peşman olacaqsınız.**
**Hər biriniz dənizdə burundan (çıxıntıdan) kömək gözləyərək, həyəcan içində öləcəksiniz.**
**Mənə inanmayacaqsınız, əsir düşmüşlər, siz qan içində üzəcəksiniz.**

Katrendə bəyan olunan hadisələr Nostradamusun dünyasını dəyişdiyi 1566-cı ildə baş vermişdi. Bir çox hallarda Nostradamus Fransa ilə bağlı aylıq və illik təqvim – horoskoplar hazırlayırdı. Güman ki, bu katren onlardan biridir. Həmin il de la Feryeranın komandanlığı ilə Fransa hərbi dəniz donanması Korsika və Sardiniya yaxınlığından keçərkən gəmilərin bir çoxu batmışdı. Qədim fransız dilində “grogne” sözü “Cape de Porceau” (“Donuz burnu”) mənasını verir. Tarixdən məlumdur ki, de la Feryeranın gəmilərinin əksəriyyəti Cape de Porceau yanında batıb. 3-cü sətirdə

böyük görücü buna işarə edir. 4-cü sətirdə işlənən “captif” – “əsir”, “əsir düşmüş” isə donanmanın losmanı (yolu yaxşı tanıyan dəniz bələdçisi) Jan de Ryanla bağlıdır. Məsələ burasındadır ki, Jan de Ryan keçmişdə Əlcəzair dəniz quldurlarına əsir düşmüşdü.

Göründüyü kimi, Nostradamusun bu katrendə də ürək ağrısı ilə söz açdığı hadisələr yüzdə yüz yerinə yetmişdir.

### 3 k88

**Barselonadan dəniz vasitəsilə güclü bir qüvvə gələcək.**
**Bütün Marsel qorxudan tir-tir əsəcək.**
**Adalar tutulacaq, dənizdən kömək yolları bağlanacaq.**
**Sənin satqının quruda üzəcək.**

Bəzi tədqiqatçılar bu katreni Nostradamusun zamanında başlayan və fasilələrlə 1598-ci ilə qədər davam edən dini müharibələrlə bağlayırlar. Doğrudan da İspaniyanın kralı II Filipp hugenotlarla (protestantlar) müharibə aparan fransız katoliklərinə kömək üçün böyük qüvvə göndərmişdi. İspan hərbi birləşmələri İf və Rotonno qala və hərbi istehkamını tutaraq (1596-cı il) Marseldən gələn köməyin qaşısını almışdı. Son sətirdə göstərilənlərlə bağlı isə onu yazırlar ki, Marselin konsulu Şarl de Kaso xəyanətlə şəhəri ispanlara təhvil vermək istəyirmiş. Onu öldürərək çirkab qanovuna salıblar. 4-cü sətirdə buna işarə olunur. Başqa tədqiqatçılar isə katrendə 1944-cü ildə Fransanın cənubunda müttəfiq ordularının saysız-hesabsız desant çıxarmalarından, bircə gecədə Rivera sahillərində bütün adaları və dəniz yollarını tutmalarından, Marseldə yerləşən alman ordu hissələrinin kömək yolunu kəsmələrindən və sonra Marselə hücumundan bəhs olunduğunu qeyd edirlər.

### 3 k89

**O vaxt Kiprdə iğtişaş baş verəcək.**
**Onu qurtarmaq üçün Egey dənizindən kömək gələcək.**
**Qocalar top mərmilərindən ah-nalə içində öləcəklər.**
**Kralı başdan çıxaracaqlar, kraliça qəzəblənəcək.**

Nostradamusun bu katrendə bəyan etdikləri, 1-ci sətirdən göründüyü kimi, Kiprlə bağlıdır. Kiprin başçısı Kiçik Mehmetin vaxtında yunanlar adada böyük iğtişaş salırlar. İğtişaşın genişlənməsindən qorxan Kiçik Mehmet İstanbuldan kömək istəyir. Tezliklə 2 min nəfərdən ibarət əlavə qüvvə gəlir. 1821-ci ilin iyulunda o, Kiprin mitropolitini və bütün keşişlərini dəvət edir ki, sultana sədaqətləri barədə and içsinlər. Lakin Kiçik Mehmetin fikri başqa idi. İğtişaşların baisi dindarlar idi. Odur ki, Kiçik Mehmet onların hamısını edam etdirir və kilsənin əmlakını müsadirə edir. Bundan sonra o, Osmanlı İmperiyasının hökmdarı Sultan II Mahmuda müraciət edir ki, 450 yunan fəalının edam olunmasına icazə versin. Əvvəlcə sultan Kiçik Mehmetin bu xahişini rədd edir. Lakin onun dalbadal təkidindən sonra, 4-cü sətirdən göründüyü kimi, razılıq verir. Sultanın arvadının narazılığı barədə heç bir tarixi sənəd qalmayıb. Bunu biz yalnız böyük görücünün katrenindən öyrənə bildik.

Bu katrenlə bağlı bəzi tədqiqatçılar başqa fikir irəli sürürlər. Göstərirlər ki, 1974-cü il iyul ayının 15-də Kiprin yunan ordu hissələri baş yepiskop Makariosun (1913-1977) rəhbərlik etdiyi dövləti devirdilər. Beş gün sonra türklər adanı tutdular və dedilər ki, Makarios hakimiyyəti bərpa olunmalıdır. O vaxtdan türklər Kiprdədirlər. Həmin il Yunanıstanda monarxiya ləğv olunsa da, Makarios bir daha hakimiyyətə qayıda bilmədi.

Tədqiqatçı Alan Hall isə 3-cü və 4-cü sətirləri Yunanıstanın kralı Konstantinlə bağlayır. O, yazır ki, kral Konstantin sürgünə göndərildikdən sonra anası kraliça Federika zəiflik göstərdiyinə və qəti mübarizə aparmadığına görə heç vaxt oğlunu bağışlamayıb.[1]

---

[1] Allan Hall. Nostradamus (türkcə). İstanbul, 1998, səh. 112.

**3 k90**

**Böyük Satir və Hirkaniya pələngi**
**Okeandan gələnlərə hədiyyə edilib.**
**Dəniz qüvvələrinin başçısı Karmaniyadan yola düşəcək.**
**O, fokidiyalıların Tirren torpaqlarını zəbt edəcək.**

Katrendə nədən bəhs edildiyi barədə fikir yürütməzdən əvvəl Nostradamusun söz açdığı coğrafi adlar barədə danışmaq lazımdır. 1-ci sətirdə yer alan Hirkaniya vaxtilə İranın Xəzər dənizi sahillərinə verilən addır. Daha doğrusu, müasir Azərbaycan Respublikasının ərazisidir. Karmaniya isə Ormuz boğazının İran tərəfinin qədim adıdır. Tirren İtaliyanın qərb sahillərinin torpaqları, bu torpaqları yuyan Tirren dənizidir. Fokiya isə Türkiyədə Anadolunun qərb hissəsində qədim yunan koloniyası olub. Coğrafiyaya bu ekskurs hadisələrin dünyanın hansı guşəsində baş verəcəyi barədə təsəvvür yaradır və katrenin məğzini açıb göstərmək mümkün olur.

"Okeandan gələnlərə hədiyyə edilib" deyəndə o başa düşülməlidir ki, 90-cı illərdən ABŞ və İngiltərə şirkətləri ara vermədən Azərbaycanın neft və qaz yataqlarında tədqiqat aparmış və bu ölkələrlə Azərbaycan arasında hər iki tərəfin mənafeyini əks etdirən uzunmüddətli müqavilələr imzalanmışdır. Təbiidir ki, hadisələr zəmanəmizdə baş verdiyindən, tədqiqatçılar bu katreni əvvəllər şərh edə bilməyiblər.

**3 k91**

**Uzun müddət quraqlıqdan quruyub qalan ağac**
**Bir gecədə yenidən göyərəcək (yaşıllaşacaq).**
**Qoca kral xəstədir, ağac ayaqlı şahzadə**
**Düşmənlərin qorxusundan hoppana-hoppana gedəcək.**

Tədqiqatçılar bu katrenin II Dünya müharibəsindən bəhs etdiyini qeyd edirlər. 1942-ci ildə Stalinqrad ətrafında qələbədən sonra cəbhədə vəziyyət dəyişdi. İki il müddətində böyük itkilər

verən Sovet ordusu sanki dirçəldi. 1-ci və 2-ci sətirlər buna işarədir. Əksinə, alman ordu hissələri ruhdan düşməyə və dal-badal məğlubiyyətə uğramağa başladı. Stalinqradda məğlubiyyətdən sonra Hitler ikicə dəfə kütlə qarşısına çıxmışdı. Qalan vaxtını soyuq bunkerdə keçirir, cəbhənin müxtəlif yerlərindən aldığı məğlubiyyət xəbərləri onu daha da ruhdan salırdı. Bir vaxtlar par-par parıldayan mavi gözləri artıq sönmüşdü. Onlarda həyat eşqi günbəgün azalırdı. 3-cü sətirdə Nostradamus buna işarə edir: "Qoca kral xəstədir". Hitler bundan sonra kütlə qarşısında çıxış etməyi uşaqlıqdan ayağı axsaq olan təbliğat naziri Gebbelsə tapşırmışdı. Gebbels kütlə qarşısına axsaya-axsaya çıxırdı. Böyük görücü 4-cü sətirdə buna işarə edir.

Ned Halley isə bu katreni hersoq de Berrinin (bax: 3 k96) öldürülməsindən 7 ay sonra, 29 sentyabr 1820-ci ildə həyat yoldaşının oğlan uşağı doğmasına və onun sonralar atdan yıxılaraq ömürlük topal olmasına, 1830-cu ildə babası X Karlla sürgün edilməsinə və heç vaxt taxt-taca sahib olmamasına aid edir (bax: Ned Halley. Göstərilən əsəri, səh.118).

### 3 k92

**Dünya sonuncu keçidini (dövrəsini) yaşayır.**
**Saturn hələ gec qayıdacaq.**
**İmperiya Brodde xalqına keçir.**
**Onun gözünü Narbonda qırğı töküb (çıxarıb).**

Əvvəllərdə barəsində müfəssəl şəkildə söhbət açdığımız hər 354 il 4 aydan bir planetlərin hökmranlığını biri-birinə verməsi və buna Böyük zaman sikli adı verilməsi (bax: 1 k48) ilə bağlı bu katrendə də danışmalı olacağıq. Nostradamusun vaxtından məlum olan yeddi planet aşağıdakı ardıcıllıqla düzülüb: Saturn, Venera, Yupiter, Merkuri, Mars, Ay, Günəş. Həm də hər 354 il 4 aydan sonra hakim planet hökmranlığını özündən sonrakı planetə verir. Həyat beləcə davam edir. İndi Günəş əsridir (bax: 3 k97). 1889-cu

ildə hökmranlığa başlayan Günəş 2242-ci ildə onu Saturna verəcəkdir. Deməli, 2242-ci ildə Yeddi planetin hökmranlığı başa çatacaq və Saturn yenidən hökmranlığa gələcək. Daha doğrusu, bəşəriyyət tarixində yenidən Saturn böyük zaman sikli başlayacaq. Nostradamus 1-ci və 2-ci sətirlərdə buna işarə edir. Bəzi adamlar bu zaman dünyanın sonunun gələcəyini düşünürlər. Bu, tamamilə səhv, əsası olmayan bir fikirdir. Biz bu barədə ətraflı danışdığımızdan (bax: 1 k48) təkrara lüzum görmürük. 3-cü və 4-cü sətirlərdə göstərilənlərin isə gələcəkdə baş verəcəyi güman edilir.

### 3 k93

**İmperiyanın başçısı Avinyonda.**
**Paris xarabazara çevrildiyinə görə orda dayanacaq.**
**Trikas Hannibal qəzəbinə gələcək.**
**Şir (İngiltərə) dəyişikliyə bahəm barmağını bala batıracaq.**

Bu katren barədə də tədqiqatçılar tutarlı bir fikir söyləyə bilməyiblər. Ümumi fikir belədir ki, bu katrendə bəyan olunanlar İtaliya (Vatikan), Fransa və İngiltərə münasibətlərinə aiddir. Katrendə katoliklərlə protestantların (İngiltərə) qarşıdurmasından danışılır. 4-cü sətirdə İngiltərənin müstəmləkələr və böyük ticarət hesabına varlanacağından söhbət gedir.

### 3 k94

**Öz zəmanəsinin bəzəyi olanı**
**Hələ beş yüz il əziz tutacaqlar.**
**Sonra birdən elə böyük kəşf (aşkarlıq) olacaq ki,**
**O əsrin adamlarını o, çox razı salacaq.**

Bəzi tədqiqatçılar katrenin Nostradamusun şəxsən özündən bəhs etdiyinin üstündən sükutla keçiblər. Nəzərə alsaq ki, Nostradamus yəhudi olub və Qəməri təqvimindən istifadə edib, onda deyə bilərik ki, hər ayı 29,3 gündən ibarət qəməri ili 354,3

gün olmaqla 500 qəməri ili 484,5 Şəmsi ilinə bərabər olur. Nostradamusun anadan olduğu 1503-cü ilin üstünə 484,5 il gəldikdə 1987-1988-ci ilə gəlib çıxır. Nostradamusla məşğul olan hər bir tədqiqatçı aydınca dərk edir ki, böyük görücünün bəyan etdikləri yerini alıb. 1987-ci ildən başlamış bu günə kimi Nostradamusa olan böyük maraq aşıb-daşır, saysız-hesabsız kitablar çap olunur. Bütün dünya onu tanıyır və bəyan etdikləri möcüzəli şəkildə yerini aldıqca şöhrəti artır. E.Brezin bu münasibətlə yazmışdır: "Nostradamusun XX əsrdə xüsusilə şöhrətlənməsi onunla əlaqədardır ki, bu əsr bir çox cəhətdən XVI əsri təkrarlayır. O vaxt da, indi də böyük dəyişikliklər baş vermişdir. Cəmiyyət bir formasiyadan başqa bir formasiyaya keçib. Köhnə dəyərlər yoxa çıxır, yeni dəyərlər isə hələ formalaşmayıb. Bütün bunlar müasirlərə ağır zəmanə təsiri bağışlayır. Onlarda qorxulu hisslər baş qaldırır. Sanki dünyanın sonu yaxınlaşır".[1] Doğrudan da, belə təlatümlü anlarda hamı Nostradamusa müraciət edir. Onlarda gələcək barədə daha çox məlumat əldə etmək arzusu baş qaldırır.

**3 k95**

**Mavritaniya (Mor) qanununun zəifləməsini hamı görəcək.**
**Sonra başqa birisi daha çox nəzərdən düşəcək.**
**Bacarıq və yağlı dillə daha çox xoşagələn olacaq.**
**Bu işdə Borisfen birinci gələcək.**

Bizə belə gəlir ki, 1-ci sətirdə müsəlman ölkəsi olan Türkiyədən, XX əsrin əvvəlində Osmanlı İmperiyası dağıldıqdan sonra müsəlman ölkələrində baş verən hadisələrdən danışılır.

2-ci sətirdə Sovet İttifaqının dağılmasından, kommunizmin bütün dünyada süqutundan, yağlı dilini işə salaraq Sovetlərin dağılmasını sürətləndirən M.Qorbaçovdan, Kommunist Partiyasını qadağan edən, Müstəqil Dövlətlər Birliyini yaratmaq pərdəsi

[1] Великие пророчества Мишеля Нострадамуса. Москва, 1999, стр. 17.

altında Sovet İttifaqının sonuna çıxan Boris Yeltsindən (Borisfen) bəhs olunur. Belə düşünməyə tarixi faktlar əsas verir. Borisfen, Dnepr çayının yunanca adı olmaqla bərabər, həm də qədim Rusun (Rusiyanın) rəmzidir. Məlumdur ki, Dnepr çayı Moskvanın qərbindən baş alıb Smolensk və Kiyevdən keçərək, Krımda Qara dənizə tökülür. Yəqin buna görədir ki, Ukraynanın da qədim adı Borisfen olub. 1-ci sətri Mavritaniya (müsəlman) qanunları ilə bərabər, Mor qanunları kimi şərh eləyən tədqiqatçılar da vardır. Belə olan halda söhbətin ingilis yazıçısı və dövlət xadimi Tomas Mor və onun 1516-cı ildə latınca çap etdirdiyi "Utopiya" əsərindən getdiyi göz önünə gəlir. Tomas Morun əsəri utopik sosializmdən, şəxsi mülkiyyətin olmadığı, hər şeyin hamıya aid olduğu bir cəmiyyətdən söz açır. Bu, keçmiş Sovet İttifaqında mövcud olan və dövlətin hər şeyi xalqın malı adı altında öz əlində cəmləşdirməsi ilə uzlaşırdı.

Deməli, 1-ci sətirdə deyilənlər keçmiş Sovet İttifaqı və onun süqutu ilə də bağlı ola bilər. Təsadüfi deyildir ki, tədqiqatçılardan bu qənaətdə olanlar vardır.

Lakin əldə olan bir çox mənbələri müqayisəli şəkildə tədqiq etdikdən sona belə qənaətə gəldik ki, 1-ci sətirdə söhbət 1923-cü ilin oktyabrında Osmanlı İmperiyasının süqutundan sonra, imperiyaya daxil olan müsəlman dövlətlərinin müxtəlif xristian dövlətlərinin təsiri altına düşməsindən və İslam aləmində birliyin pozulmasından gedir. (Doğrudur, Osmanlı İmperiyası bir il əvvəl süqut etmişdi. Ölkə 1923-cü ilin oktyabrında respublika elan olunduğuna görə bu tarix götürülür.) Lakin Nostradamusun görücülüyü bununla bitmir. 1928-ci ildə Türkiyə Respublikası dünyəvi dövlət elan edildi. Elə həmin ildə ölkədə ərəb əlifbasından latın qrafikasına keçildi ki, bu da müsəlman ölkələri arasındakı əlaqələrin zəifləməsinə gətirib çıxardı. Bütün bunları Nostradamus əsrlərlə öncə görmüşdü.

**3 k96**

**Fossan hökmdarının boğazını kəsəcəklər.**
**İtlərə təlim keçənin köməyi ilə**
**İşi Tarpey qayalarından olanlar gördürəcəklər.**
**Fevralın 13-də Saturn Şir bürcündə olanda.**

Bu katren labüd olaraq baş vermiş hadisədən bəhs edir. 1820-ci il fevralın 13-də Fossano hökmdarı hersoq de Berri həyat yoldaşı ilə Parisin opera teatrında olarkən gözlənilmədən arvadı özünü pis hiss etdiyindən, operadan yarımçıq çıxır və arvadına kömək edib faytona mindirərkən əvvəldə göstərdiyimiz kimi (bax: 1 k84), kral tövləsinin qaranlıqda gizlənmiş qulluqçusu Luvel qəflətən şahzadə de Berriyə yaxınlaşaraq xəncəri onun qarnına soxmuşdu.

Katrendə yalnız bir fərq var ki, Luvel hersoq de Berrinin boğazını kəsmir, xəncəri onun qarnına soxur. 4-cü sətirdə "İşi Tarpey qayalarından olanlar gördürəcəklər" ifadəsini işlətməklə Nostradamus respublikaçıların ideallarına işarə edir. Fransa inqilabı zamanı Marat adlı natiq taxt-tac tərəfdarlarını qədim Romada respublikaçıların etdiyi kimi, Tarpey qayalarından atmağı məsləhət görürdü. Nostradamus bütün bunları əsrlərlə öncə görmüş və poetik dillə təsvir etmişdir.

**3 k97**

**Yeni qanun, yeni torpağı zəbt edəcək.**
**Suriya, İudey və Fələstin ətrafında.**
**Günəş əsri ömrünü başa vurana qədər**
**Barbarların nəhəng imperiyası dağılacaq.**

Göründüyü kimi, katrendə Yaxın Şərqdən bəhs edilir. 1-ci sətirdə BMT-nin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən Fələstinin bölünməsi və onun torpaqları hesabına İsrail dövlətinin yaranmasından söhbət gedir. 14 may 1948-ci il tarixdə rəsmi şəkildə yaranan İsrail dövlətinin ərazisi 14,1 min km$^2$ olmuşdur. Sonralar Qərb dövlətlərinin köməyi ilə İsrail ərazilərini get-gedə

artırmış, ərəb dövlətlərinə məxsus 68,7 min km$^2$ ərazini tutmuş - dur. Katrenin 1-ci sətrində böyük görücü buna işarə edib. 2-ci sətirdə işlənən “iudey”–”yəhudi” deməkdir. 3-cü sətirdə işlənən “Günəş əsri” – Günəş böyük zaman siklinə işarədir. Məlumdur ki, Günəş böyük zaman sikli 1889-cu ildə başlayıb və 353 il 4 ay sonra, 2242-ci ildə başa çatacaqdır. Yeri gəlmişkən qeyd edək ki, bəzi tədqiqatçılar təkcə XX əsri Günəş əsri adlandırmaqla səhvə yol veriblər.

Çünki XXI əsr də Günəş əsridir.

4-cü sətirdə görücü barbarların – bərbərlərin – ərəblərin nəhəng imperiyasının dağılmasından söz açır. Burada iki məsələ diqqəti çəkir. Birincisi odur ki, Nostradamus ərəblərin birləşəcəyindən, nəhəng imperiya yaradacaqlarından bəhs edir. İkincisi isə görücü “Günəş əsri ömrünü başa vurana qədər” (2242) dünyanın sonu gələcəyindən danışmır, ərəb imperiyasının dağılacağından söz açır.

Rus tədqiqatçıları D. və N. Zimalar katrenin ilk iki sətrini ataraq yazırlar ki, Nostradamus guya şəxsən onlardan danışmış və göstərmişdir ki, D. və N. Zimalar onun sirlərini açana qədər Sovet İttifaqı dağılacaq və guya 1997-ci ildə onlar Nostradamusun kodunun açarını tapmışlar.

Qeyd edək ki, D. və N. Zimalar kimi “açar tapanlar” bütün əsrlərdə olmuş və olacaq.

### 3 k98

**İki hökmdar qardaş bir-biri ilə bərk vuruşacaq.**
**Onların davası ölüm-dirim davası olacaq.**
**Hər ikisi istehkamlarda yerləşəcək.**
**Onların böyük münaqişəsi taxt-tac və həyat uğrunda olacaq.**

Tədqiqatçılar bu katreni fransız kralları, onların övladları ilə bağlamağa çalışsalar da ağlabatan sübut – dəlil tapa bilməyiblər. Con Houq isə bircə cümlə yazır və göstərir ki, dördlük ən çox Sultan Süleymanın oğlanları arasında gedən münaqişəyə uyğun

gəlir. Bu, doğrudan da belədir. Katren Sultan Süleymanın oğlanları Səlim və Bayaziddən bəhs edir. Bu katrendə deyilənlərlə bağlı yuxarıda müfəssəl danışdığımıza görə (bax: 3 k59) burada bir daha bu məsələdən söhbət açmağa lüzum görmədik.

### 3 k99

**Dürans Löbran dağından başlayır.**
**Alən və Varnenin çəmənlərindən keçir.**
**Burada iki tərəfin döyüş səhnəsi çox qanlı olacaq.**
**Mesopotamiya Fransanın yanında yalan olacaq.**

Katrendə əsrlərlə öncə Nostradamusun yaşadığı Provans vilayətindən və Salon şəhəri yaxınlığında II Dünya müharibəsinin sonlarına yaxın müttəfiq orduları ilə faşistlər arasında gedən qanlı döyüşlərdən bəhs olunur.

### 3 k100

**Qalliyalılar arasında az sayılan,**
**Düşmən hesab edilən adam üzərində qələbə çalacaq.**
**Güc və ərazi bir anda öyrəniləcək.**
**Paxıl uçub gələn oxa tuş olacaq.**

Tədqiqatçılar bu katrendə general de Qoll və admiral Darlandan bəhs olunduğunu qeyd edirlər. Darlan 24 dekabr 1942-ci ildə öldürülüb.

# IV SENTURİYA (IV YÜZLÜK)



***Mən bilirəm ki, yazdıqlarımı labüd olaraq şan və şöhrət gözləyir.***

**4 k1**

**Qalan qan axmayacaq.**
**Venesiya gözləyir ki, kömək gəlsin.**
**Uzun müddət gözlədikdən sonra**
**Şəhər ilk şeypur sədaları altında**
**təhvil veriləcək.**

Bəzi tədqiqatçılar belə hesab edirlər ki, katrendə söhbət Osmanlı İmperiyası ilə Aralıq dənizi dövlətlərindən olan Venesiya arasında 1573-cü ildə Kipr uğrunda gedən müharibədən gedir. Osmanlı ordusu 11 ay Kiprin paytaxtı Famaqustanı mühasirədə saxladıqdan sonra şəhər təslim olmuşdu.

Yeri gəlmişkən, Venesiya ilə osmanlılar arasında Krit uğrunda 20 ilə qədər davam edən müharibə də (1645-1664) osmanlıların qələbəsi ilə nəticələnmişdi.

Onu da demək lazımdır ki, Nostradamus osmanlı türklərinə neçə-neçə katren həsr etsə də, türklər, demək olar ki, bu barədə araşdırma aparmamış, əcnəbi tədqiqatçıların Nostradamusla bağlı əsərlərini türk dilinə tərcümə edərək çap etməklə kifayətlənmişlər.

Başqaları isə israr edirlər ki, katrendə söhbət 1797-ci ildə Napoleonun Venesiya şəhərini tutmasından gedir. Tarixçilərin yazdıqlarına görə, şəhər döyüşsüz təhvil verilib. Nostradamus 4-cü sətirdə buna işarə edir.

## 4 k2

**Ölümə görə Fransa yürüş edəcək.**
**Dəniz qüvvələri dənizlə gələcək, piyadalar Pireney dağlarını keçəcək.**
**İspaniya bədbəxtliyə düçar olub. Hərbçilər yürüş edir.**
**Ən nüfuzlu qadınlar Fransaya aparılıb.**

Katren İspaniya və Fransanın Avstriya, İngiltərə, Hollandiya və Savoyun müttəfiq ordularına qarşı apardığı müharibədən bəhs edir. Fransanın bu müharibəyə qarışmasının bir neçə səbəbi vardı. Birincisi o idi ki, ispan kralı III Filippin qızı Anna Fransanın kralı XIII Lüdovikə, IV Filippin qızı Mariya Tereza isə XIII Lüdovikin oğlu kral XIV Lüdovikə ərə getmişdi.

İkinci səbəb isə o idi ki, ispan kralı II Karl bibisi oğlu XIV Lüdoviki özünün varisi (vəliəhdi) elan etmişdi.

Katrendə bütün bunlar yığcam şəkildə təsvir edilmiş və böyük görücünün bəyan etdikləri yerini almışdır.

## 4 k3

**Arasdan və Burjdan, böyük bayraqlar Brodesdən**
**Qaskonların böyük bir hissəsi piyada vuruşacaqlar.**
**Dağların yaxınlığında, Saqontun yerləşdiyi yerdə,**
**Rona çayının sahillərindən olanlar ispanları qanlarına boyayacaqlar.**

Bu katrendə Fransa ilə İspaniya arasında gedən müharibələrdən bəhs olunur. Hadisələr çox uzaq keçmişlərdə baş verdiyinə və oxucular üçün indiki dövrdə böyük əhəmiyyət kəsb etmədiyinə görə katreni şərh etməyə lüzum görmədik.

## 4 k4

**Nalələr və mübahisələr taqətsiz şahzadəni əsəbiləşdirib.**
**Xoruzlar və liviyalılar zor işlədəcəklər. Soyğunçuluq olacaq.**
**Quruda böyük qüvvə, dənizdə saysız-hesabsız yelkənlər (gəmilər) var.**
**Yalnız İtaliya keltlərin dalınca gedəcək.**

Katrendə II Dünya müharibəsi zamanı İtaliya ilə müttəfiq orduları və fransızlar arasında gedən döyüşlərdən bəhs olunur. 1-ci sətirdə “taqətsiz şahzadə” ifadəsi B.Mussoliniyə aiddir. 2-ci sətirdə “xoruzlar” Fransanın dövlət rəmzi olduğundan onunla bağlı işlənmişdir.

Almanlar Afrika korpusunu darmadağın etdikdən sonra müttəfiqlər İtaliya sahillərinə 1000-ə qədər hərbi gəmi gətirmişdilər. 3-cü sətirdə buna işarə edilir.

**4 k5**

**Xaç yürüşü və sülh, ilahi bir sözün qüvvəsi ilə baş verdi.**
**İspaniya və Qalliya birləşəcək.**
**Böyük bədbəxtliklər yaxındadır. Qanlı və acınacaqlı döyüşlər olacaq.**
**Elə cəsarətli ürək olmayacaq ki, titrəməsin.**

Katren Fransa ilə İspaniya arasında 1808-ci ildə gedən müharibədən bəhs edir. Napoleon İspaniyanı tutaraq taxta öz qardaşı Jozefi əyləşdirmişdi. Lakin ispanlar Jozefə tabe olmaqdan imtina edirdilər. Ölkəni iğtişaşlar bürümüşdü. 1808-1813-cü illər arasında Fransa hər il İspaniyada 100 mindən artıq itki verirdi. Tədqiqatçılar 4-cü sətrin şəxsən Napoleona aid olduğunu qeyd edirlər. Göstərirlər ki, Napoleon 1808-ci ildən sonra bir dəfə də olsun İspaniya torpağına ayaq basmadı.

**4 k6**

**Ədavətlə hazırlanmış sui-qəsd və fırıldaq,**
**Aşkar olunandan sonra yeni paltar tikiləcəkdir.**
**Bunun şahidi və sübut edəni birinci öləcəkdir.**
**Tələ Venesiyanın qırmızı-qonur rəngindədir.**

Nostradamusun ən yaxşı tədqiqatçılarından olan Con Houq bu katrenin 1963-cü ildə Dallasda qətlə yetirilən ABŞ prezidenti Con Kennedi ilə əlaqədar olduğunu göstərir. Con Kennedinin qətli ilə bağlı sonra geniş danışacağıq (bax: 6 k37). Odur ki, burada qısa

şəkildə deyək ki, 1-ci sətirdə Nostradamus ona işarə edir ki, hadisə məlum olanda, tədqiqatçılar onun üstünü örtəcəklər. Qoy oxucular təvazökarlıqdan kənar saymasınlar. Bu fərziyyəni ilk olaraq biz irəli sürmüşük. Başqa tədqiqatçılar 1-ci sətri şərh etməkdən çəkinmişlər. Bizim bu qənaətə gəlməyimizə əsas vardır. Hadisənin 17 nəfər şahidinin tez bir zamanda öldürülməsi buna sübutdur. 2-ci sətirdə sui-qəsdin ədavət üstündə qurulduğu və icraçıların natəmiz, fırıldaq işlərlə məşğul olduqları göstərilir. Con Kennedi soyuq müharibəyə son qoyaraq, xüsusi hərbi şirkətlərin böyük gəlir mənbələrinin qarşısını almaq planı hazırlamışdı.

Con Houq göstərir ki, çox güman ki, sui-qəsdin həyata keçirilməsi İtaliya mafiyasına həvalə olunubmuş. 4-cü sətirdə işlənən "Tələ Venesiyanın qırmızı-qonur rəngindədir" buna işarədir. Məsələ burasındadır ki, prezidentə ilk güllə qırmızı-qonur rəngli kərpic binanın kitab anbarından atılmışdı. Li Xarvi Osvald bunun ilk şahidi olmuşdu. 3-cü sətirdə göstərildiyi kimi, ilk şahid Osvald 17 şahiddən birinci olaraq mafiyanın agenti Cek Rubi tərəfindən qətlə yetirilmişdi.

## 4 k7

**Hamının nifrət etdiyi böyük şahzadənin kiçik oğlu**
**İyirmi yaşında cüzam xəstəliyinə tutulacaq.**
**Anası dərd-qəm içində üzüləcək və öləcək.**
**O da öləcək və aldadıcı məhəbbətdən kənar düşəcək.**

Tədqiqatçılar bu katren barədə sanballı bir söz deyə bilməyiblər. Məlum olan odur ki, orta əsrlərdə cüzam xəstəliyi Avropanı bürümüşdü.

## 4 k8

**Böyük şəhərə gözlənilməz və iti həmlə olacaq.**
**Şəhər və keşikçi dəstəsi mühasirəyə alınacaq.**
**Sen-Kanten mühafizəçiləri və gözətçiləri öldürüləcək.**
**Şəhərin giriş qapıları sındırılacaq.**

Bu katrendə Sen-Kanten şəhərində 1557-ci ildə general Kolininin başçılıq etdiyi fransız ordu hissələrinin ispanlar tərəfindən darmadağın edilməsindən bəhs edilir. Əvvələrdə göstərdiyimiz kimi, həmin döyüşdə Kolini əsir düşmüşdü.

**4 k9**

**Ordunun komandanı dəstənin içində olacaq.**
**Oxla ombasından yaralanacaq.**
**Cenevrə qəm-qüssə və göz yaşları içində olanda**
**Lozanna və İsveçrəyə xəyanət ediləcək.**

Tədqiqatçılar bu katren barədə ağlabatan bir söz deyə bilməyiblər. Ordunun komandanı oxdan yara alıbsa, deməli hadisə keçmişdə baş verib. Ola da bilər ki, Nostradamus bu sözü məcazi mənada işlədib və hadisə gələcəkdə baş verəcəkdir.

**4 k10**

**Gənc şahzadə nahaqdan mühakimə olunacaq.**
**Buna görə də cəbhə pis günə qalacaq, orduda nifaq düşəcək.**
**Başçı yalan ittihama görə öldürüləcək.**
**Hökmdar sakitləşəcək. Sonra xənazir (parotit) xəstəliyi müalicə olunacaq.**

Çox maraqlı bir katren olsa da, təəssüf ki, bir müəmma olaraq qalır. Daha doğrusu, şərhini gözləyir. Məlum olan odur ki, katrendə ya Fransadan, ya da İngiltərədən bəhs olunur. Bu iki ölkədə belə deyirlərmiş ki, hökmdar xənazir (qulaqdibi) xəstəliyi olan adama əlini vursa, həmin adam sağalarmış.

4-cü sətirdə Nostradamus buna işarə edir. Bəzi tədqiqatçılar qeyd edirlər ki, 4-cü sətirdə söhbət hökmdarlara məxsus "qəzəb" xəstəliyinin müalicəsindən gedir.

Bəzi tədqiqatçılar bu katreni Bill Klintonla əlaqələndirirlər.

### 4 k11

**Böyük əbada idarə edən şəxs,**
**Bir neçə işi yerinə yetirmək istəyəcək.**
**On iki nəfər qırmızı, aranı qatacaq.**
**Qətl qətl ardınca baş verəcək.**

Hələ 1961-ci ildə tədqiqatçı Leoni yazmışdı ki, katrendə göstərilənlər Vatikanla, Roma papası ilə bağlıdır. Tədqiqatçının uzaqgörənliklə yazdıqları 1978-ci ildə baş verdi. Yenicə Roma papası seçilən I İohann Pavel ciddi reformalar etməyə başlamış, Vatikan bankının korrupsiya ilə məşğul olduğunu bilərək, onu yoxlatdırmaq, Vatikanda dəyişikliklər etmək qərarına gəlmişdi.

Papa ehtiyatsızlıq edərək kardinallara – 12 nəfər nazirə bu barədə məlumat vermişdi. Papa seçildiyinin düz bir ayı tamam olanda, onu yatağında ölmüş tapmışdılar. Məlum olmuşdu ki, onu zəhərləyiblər. Bu məsələ ilə bağlı geniş söz açdığımıza görə (bax: 2 k15, 3 k65) burada bircə onu deyək ki, 3-cü sətirdə Nostradamus kardinalların həm sayını dəqiq göstərmiş, həm də qırmızı paltarda olduqlarına görə onları "qırmızı" adlandırmışdır. 4-cü sətirdə göstərilənlər də yer almışdır. Vatikan maxinasiyası üzrə iş aparan müstəntiqlər, bəzi şahidlər və izinə düşülmüş mafiyanın üzvləri açıq şəkildə qətlə yetirilmişdilər.

### 4 k12

**Daha böyük ordunu yolda qaçmağa məcbur edəcəklər.**
**Bundan sonra onları daha təqib etməyəcəklər.**
**Ordu yenidən yığılacaq, lakin qoşunun sayı azalacaq.**
**Sonra onları izləyəcək və qalliyalıların ölkəsindən qovub çıxaracaqlar.**

Bəzi tədqiqatçılar bu katreni I Dünya müharibəsi zamanı Fransa ilə Almaniya qoşun hissələrinin döyüşü zamanı baş verən, bəziləri isə II Dünya müharibəsi zamanı yer alan hadisələrə aid edirlər. Tarixi vərəqlədikdə, tədqiqatçıların fikirlərinə şübhə yeri qalmır.

Hər iki Dünya müharibəsində əvvəlcə almanlar Fransanı tutublar. Lakin sonda onları qovaraq ölkədən çıxarıblar.

**4 k13**

**Daha böyük itki barədə xəbər verilib.**
**Bu xəbər ordunu təəccübləndirəcək.**
**Birləşmiş ordu hissələri iğtişaşçılara qarşı olacaq.**
**Hər iki ikiqat cinah başçını tərk edəcək.**

Katrendə böyük görücü 1922-ci ildə Kiçik Asiya sahillərində – Smirnada Türkiyə ilə Yunanıstan arasında gedən müharibədən söz açır. Türklər gözlənilməz zərbə ilə yunan ordusunu darmadağın edəndən sonra, Afinada hökumət istefa verdi. Orduda çaxnaşma düşdü və bu da çevrilişə gətirib çıxardı. Kral Konstantin ölkədən qaçdı. Hərbi məhkəmə on bir naziri mühakimə etdi. Onlardan altısı güllələndi.

Katrenin 4-cü sətrində ikiqat cinahdan söhbət gedir. Bu kəlmə – "phalangos, phalanx" yunan sözü olub, hələ Makedoniyalı İsgəndərin atası II Filippin vaxtından məlum olan hərbi termindir.

Cinah - hər birində 50 piyada döyüşçü və ya süvari olan 16 cərgədən ibarətdir ki, bu da 800 döyüşçü və ya süvarini əhatə edir. İkiqat cinahda isə döyüşçülərin sayı həm iki dəfə artıq olur, həm də sağ və sol cinahlar elə düzülür ki, biri-birinə demək olar ki, birləşirlər.

**4 k14**

**Birinci şəxsin qəfil ölümü,**
**Vəziyyəti dəyişəcək və hakimiyyət başqa birisinə veriləcək.**
**Gec-tez cavan yaşında birisi yüksək rütbəyə yüksələcək.**
**Quruda və suda ondan qorxmalı olacaqlar.**

Katrenin XX əsrin 60-cı illərində ABŞ prezidenti seçilmiş Con Kennedidən bəhs etdiyini güman edən tədqiqatçılar yanılmırlar. Doğrudur, katrenin 2-ci sətrinə əhəmiyyət verilməyib. Məsələ burasındadır ki, C.Kennedi qətlə yetirildikdən sonra ABŞ senatı prezidentlik səlahiyyətini vitse-prezident R.Niksona həvalə

etmişdi. Daha doğrusu, hakimiyyət ona verilmişdi. Nostradamus buna işarə edir. C.Kennedinin hakimiyyəti dövründə ABŞ quruda və suda olduqca güclənmişdi.

3-cü və 4-cü sətirlərdə Klintona işarə edilir.

### 4 k15

**Aclığın gələcəyi gözlənən yerdən,**
**Doyunca yemək ehtiyatı gələcək.**
**Birinin o birinə buğda, yağ verməyinə**
**Dənizin gözü həris it kimi baxır.**

Əgər bu katrendə Nostradamus bircə detal verməsəydi, onun hansı zamandan və kimlərdən bəhs etdiyini ayırd etmək mümkün olmazdı. Böyük görücünün işlətdiyi "dənizin gözü" ifadəsi "periskop" – sualtı qayıqdan ətrafı müşahidə etmək üçün optik cihaz mənasında işlənmişdir. Beləliklə, çəkinmədən deyə bilərik ki, I və II Dünya müharibələri vaxtı alman sualtı qayıqlarının cəbhəyə hərbi sursat və ərzaq gətirən ingilis və müttəfiq gəmilərinin qarşısını alıb, onları batırdıqlarından söhbət gedir.

Katrendə bəhs olunanları II Dünya müharibəsi zamanı bütün Şimali Afrikanın hər cəhətdən ən yaxşı limanı, Liviyanın Tobruk limanında baş verənlərlə əlaqələndirmək də doğru olardı. Bu barədə artıq ətraflı danışmışıq (bax: 1 k28). Burada yalnız onu demək istərdik ki, 1942-ci ildən müharibənin qurtarmasına az qalana qədər feldmarşal Ervin Rommelin hərbi dəstələri quruda, alman sualtı qayıqları isə dənizdə hökmranlıq edirdilər. Tobruk limanına girən və çıxan müttəfiq gəmiləri alman sualtı qayıqları tərəfindən batırılırdı.

### 4 k16

**Hürriyyətin azad şəhəri itaətə məcbur edilib.**
**Qaçqınların və xəyalpərəstlərin sığınacağına çevrilib.**
**Kral əvəz olunub, daha onlar üçün bir o qədər də güclü deyil.**
**Yüz nəfər mindən də çox olacaq.**

Tarixə nəzər salsaq, görərik ki, XVI əsrdə Avropada feodal hakimiyyətindən çıxaraq müstəqil dövlət hüququ qazanmış çoxlu azad şəhər vardı. Belə şəhərlərdən biri də 1713-cü ildə Fransanın zor gücünə Hollandiyadan qopardığı Oranj şəhəri idi. 1-ci sətirdə buna işarə edilir. Dini müharibələr vaxtı hugenotlar və xəyalpərəstlər (azad fikirli adamlar) Fransadan qaçaraq, bu azad şəhərdə sığınacaq tapmışdılar. Nostradamus 2-ci sətirdə buna işarə edir. 3-cü sətirdə II Henridən sonra dalbadal taxta çıxan və tez də taxtdan düşən zəif krallardan bəhs olunur.

Fonbryun 4-cü sətri İtaliyanın birləşdirilməsi uğrunda aparılan 1860-cı il müharibəsi ilə bağlayır. Tədqiqatçı göstərir ki, Haribaldinin qırmızı köynəkli kiçik dəstəsi "min", "minlik" adlanırdı (bax: 1 k11, 7 k31). Əslində, Nostradamus Haribaldinin kiçik inqilabçı dəstəsinin get-gedə böyüyəcəyini, minlərlə adamı əhatə edəcəyini dəqiq görmüşdü.

Bu katreni 1980-1988-ci illər arasında ABŞ-ın prezidenti olmuş Ronald Reyqanla bağlamaq istəyənlər də vardır. Lakin katrendə, 1-ci sətirdən başqa, heç bir sətirdə ABŞ və Reyqanla uzlaşan bir şey yoxdur.

Tədqiqatçılar göstərirlər ki, Vaşinqton vaxtilə Kolumbiya rayonundan başlayıb və ərazisi düz 100 kvatdrat metr olub. Sonra artıb.

Araşdırıcıların fikirləri ilə razılaşmaq olmur. Ona görə ki, katrendə Nostradamusun sətirlər üzrə bəyan etdikləri onların fikirləri ilə heç cür uzlaşmır.

### 4 k17

**Bonn, Nüi, Şalon və Dijonda dəyişiklik olacaq.**
**Hersoq dilənçini cərimə etmək istəyəcək.**
**Tacir çayın yaxınlığındadır, balıq, ilahi quş məhv olub.**
**Növbədə isə giriş qapıları bağlanacaq.**

Bu katreni şərh etməkdə tədqiqatçılar çətinlik çəkmişlər.

## 4 k18

**Nücum elmləri sahəsində savadlıların bir neçəsinə**
**Savadsız hökmdarlar (şahzadələr) inanmayacaqlar,**
**nifrət edəcəklər.**
**Harada tutulsalar, fərmanla cəzalandırılacaqlar,**
**Oradaca ölümə məhkum ediləcəklər.**

Bəzi tədqiqatçılar bu katreni II Dünya müharibəsinin əvvəlində astroloqlara inanaraq Britaniyaya qaçan Rudolf Hesslə bağlayırlar. Göstərirlər ki, Hess qaçandan sonra Hitler onun hayıfını astroloq və görücülərdən alırdı.

Bizə qalırsa, katrendə söhbət Nostradamusun vaxtında və ondan az sonra astroloq və astronomlara qarşı din xadimlərinin apardığı mübarizədən gedir. N.Kopernikdən sonra Q.Qaliley (1564-1642), İ.Kepler (1571-1630) və C.Bruno (1548-1600) kimi görkəmli astronomlar din xadimləri tərəfindən daim təqibə məruz qalırdılar. C.Bruno və Q.Qaliley Yer kürəsinin Günəş ətrafında fırlandığını göstərdiklərinə görə həbs edilmişdilər. C.Bruno 1600-cü ildə Romada tonqalda yandırılmışdı. N.Kopernikin əsərləri qadağan olunmuşdu. Hələ biz Nostradamusun özünə qarşı təzyiq və hədələri demirik.

## 4 k19

**Ruan qarşısında lombardiyalılar mühasirəyə alınmışlar.**
**Dənizdən və qurudan keçidlər kəsilmişdir.**
**Niderland və Flandriya, Qand və Lyejdən olanlar tərəfindən.**
**Gizli hədiyyələr hesabına sahil xəttini tutacaq və viran**
**edəcəklər.**

Katrendə II Dünya müharibəsi zamanı Hollandiya, Belçika və Fransada gedən qanlı döyüşlərdən bəhs olunur. Ruan daxil olmaqla Sena çayı boyu bütün şəhər və yaşayış məntəqələrinin dağıdılaraq xarabazara çevriləcəyini Nostradamus əsrlərlə öncə görmüşdü.

## 4 k20

**Əmin-amanlıq və bolluq bu yerlərdə uzun müddət dilə gətirilməyəcək.**
**Onun krallığında heç yanda gül-çiçək açmayacaq.**
**Suda batırılanların cəsədləri sahilə atılacaq.**
**Onların dəfnini əbəs yerə gözləyəcəklər.**

Nostradamus bu katrendə Fransada XVIII əsrin ikinci yarısında inqilab vaxtı baş verən dəhşətli hadisələrdən bəhs edir. 1793-cü ildə qəddarlığı ilə seçilən general Karyerin komandanlığı ilə respublika ordusu Pantı tutur. Bütün varlı adamları və onların uşaqlarını Parisə aparmaq bəhanəsi ilə yığaraq gəmilərə doldururlar. Lakin Luara çayında uşaqları, qadınları və keşişləri də kişilərə qataraq, əllərini bağlayıb çayda batırırlar. Sonralar görəcəyimiz kimi (bax: 5 k33), general Karyer bu acınacaqlı səhnəni "Respublika toyu" adlandırıb.

## 4 k21

**Həmin dəyişiklik çox çətin baş verəcək.**
**Şəhər və Provans dəyişiklikdən qazanacaq.**
**Geniş qəlbli, tədbirli, ağıllı olan kənarlaşdırılacaq.**
**Dəniz, torpaq, xalq yaxşılığa doğru dəyişəcək.**

Katrendə II Dünya müharibəsi zamanı almanların Fransadan qovulmasından, oyuncaq "Vişi" hökumətinin başçısı general Petenin kənarlaşdırılmasından, ölkədə müharibədən sonra vəziyyətin yaxşılığa doğru dəyişməsindən, "Vişi" hökumətinin paytaxtı Provans vilayətinin turizm mərkəzinə çevrilməsindən bəhs edilir.

Bəzi tədqiqatçılar bu katreni Sovet İttifaqının dağılması və bu işdə Qorbaçovun əməlləri ilə bağlayırlar.

## 4 k22

**Qovulacaq böyük hərbi qüvvəyə,**
**Vaxt gələcək, kral möhtac olacaq.**
**Uzaqdan edilən vəd yalanla əvəz ediləcək.**
**Onu ehtiyac içində, acınacaqlı halda olanda görəcəklər.**

Tədqiqatçılar bu katrenin çox ümumi olduğunu göstərməkdən başqa, heç bir qənaətə gələ bilməyiblər.

R.V.Velş katrenin 1982-ci ildə Livanda baş verən hadisələrlə bağlı olduğunu göstərsə də, ağlabatan bir söz deyə bilməyib.

Bizə qalırsa, katren Sovet İttifaqı dağıldıqdan sonra Rusiyanın düşdüyü vəziyyətlə bağlıdır. ABŞ-ın Rusiyaya verdiyi vədlər yalanla əvəz edildikcə, Rusiya ordunu dağıtdığına və hərbi qüdrətini zəiflətdiyinə peşman olacaq.

### 4 k23

**Hərbi-dəniz donanmasında alay yaranacaqdır.**
**Əhəng, maqnezium, kükürd və qətran yanacaq.**
**Təhlükəsiz yerdə uzun müddət istirahət edəcəklər.**
**Genuya, Monako: sonra hər şeyi alov məhv edəcək.**

Tədqiqatçılar bu katreni II Dünya müharibəsinin sonuna yaxın baş verən döyüşlərlə əlaqələndirirlər. Hadisələrin baş verdiyi yerlər katrendə göstərildiyindən, burada artıq söz deməyə ehtiyac görmürük.

### 4 k24

**Müqəddəs torpağın üstündə, müqəddəs dostun həlim səsi eşidiləcək.**
**Bəşəri alov müqəddəs nura görə parıldayır.**
**Torpaq nikahsız rahiblərin qanı ilə qızaracaq.**
**Müqəddəs məbədlər murdarların əməlinə görə dağılacaq.**

Tədqiqatçıların fikrincə katren Budda Qautama, Maytreya kimi böyük din xadimlərinin təlimlərindən bəhs edir. “Maytreya” “dost” mənasını verir. Nostradamus buna işarə edir.

### 4 k25

**Əbədi, gözə görünən ali ruhlar**
**Özlərinə məlum olan səbəbdən, dərk eləyən ağılı dumanlandıracaq.**
**Müqəddəs dualar zəiflədikcə, bədən başla birlikdə,**
**Hisslər və sayıq düşüncə yox olacaq.**

Tədqiqatçılar belə qənaətə gəliblər ki, bu katren Nostradamusun özü və onun görücülüyü vaxtı keçirdiyi hisslərlə bağlıdır.

**4 k26**

**Böyük bal arısı dəstəsi peyda olacaq.**
**Onların haradan gəldiyini bilən olmayacaq.**
**Onlar gecə pusqudan hücum edəcəklər. Gözətçilər sərxoşdurlar.**
**Şəhərə, pula satılmış beş nəfər ifşa olunmamış xəyanət edəcək.**

Fransız nostradamusşünası Le Peletye və başqaları katreni 10 noyabr 1799-cu il hadisələri ilə əlaqələndirirlər. Həmin gün Fransa Respublikasının hər yerindən gəlmiş 500 nəfər nümayəndə bir nəfər kimi general Bonapartın həbs edilməsinə səs verdi. Elə bu vaxt Napoleonun gecədən pusquda duran qarnizonu yığıncaq keçirilən Mars zalına hücum etdi.

Məlumdur ki, Napoleonun gerbində arılar həkk olunmuşdu.

**4 k27**

**Piramidanın hələ də durduğu yerdə,**
**Salon, Mavzol, Taraskonda SEX tağı yanında,**
**Onlar şahzadə Annamarkı azad etməyə gələcəklər.**
**Artemida məbədində günahların bağışlanılması**
**mərasimi biabırçılıqla keçəcək.**

Bu katren barədə tədqiqatçılar çox yazsalar da, etiraf ediblər ki, şərhlərini məntiqi sonluqla bitirə bilməyiblər. Onlar sətirlər arasında məntiqi bağlılıq və uzlaşma tapmaqda çətinlik çəkiblər.

Burada onu deyə bilərik ki, Nostradamusun vaxtında **piramida** sözü qədim məbədlərin, qalaların, qəsr və sarayların xarabalıqları mənasında işlənmişdir. Salon Nostradamusun yaşadığı şəhər, Taraskon isə qədim qəsrin xarabalıqları olmuşdur. Mavzol isə Nostradamusun anadan olduğu Sen-Remidə qədim Roma monastırı olmuş, XIX əsrin sonuna yaxın ruhi xəstələrin müalicəxanasına çevrilmişdi.

Taleyə baxın ki, 1886-cı ildə Fransaya köçən görkəmli holland rəssamı Van Qoq qısa müddətdə burada tarixi əsərlər yaradıb, ruhi xəstəliyə tutularaq, Mavzol xəstəxanasına düşüb və 1890-cı ildə intihar edib.

**4 k28**

**Günəş Veneranın (Zöhrə ulduzu) qabağını alanda,**
**Yaranan əzəmətdən onun şəkli (konfiqurasiya) itəcək.**
**Merkuri alovla onları biri-birindən ayıracaq.**
**Müharibə Allahının gurultusu ilə o təhqir olunacaq.**

Katrendə planetlərin paradından – düzülüşündən və bu vaxt baş verə biləcək hadisələrdən bəhs olunur. Sonuncu dəfə planetlərin paradı (təntənəsi) 5 may 2000-ci ildə yer alıb. Ümumiyyətlə, Günəş Veneranın qabağını ildə iki dəfə tutur. Günəş Veneranı tam görünməz edəndə, Merkuri görünməyə başlayır. Bu, planetlərin paradından sonra özünü göstərəndə müharibə və dəhşətli terror aktları baş verə bilir.

Böyük görücünün bəyan etdikləri bizim zəmanəmizdən də yan keçməmişdir. 11 sentyabr 2001-ci ildə ABŞ-da baş verən terror aktlarını və 7 oktyabr 2001-ci ildə ABŞ-ın və müttəfiqlərinin Əfqanıstanda apardığı müharibəni yada salmaq kifayətdir.

**4 k29**

**Merkuri tərəfindən qabağı tutulmuş Günəş gizlindədir.**
**Səmada yalnız ikinci yerdə qoyulacaq.**
**Hermes vulkanı çəmənliyə çevriləcək.**
**Tezliklə Günəşin qabağı təmizlənəcək, qırmızı, qızılı şüaları bərq vuracaq.**

Tədqiqatçılar bu katreni şərh etməkdən çəkiniblər. Belə güman edirlər ki, bu katrenlər dünyəvi elmlərin inkişafı ilə bağlıdır. Bizə qalırsa, bu katren Oşo ləqəbli böyük hind filosofu, professor Bxaqvan Şri Racnişlə bağlıdır (bax: 2 k28).

**4 k30**

**Hələ on bir dəfə Ay Günəşin həsrətində olmayacaq.**
**Onların hər ikisi öz dərəcəsində qalxacaq və enəcək.**
**Sonra elə yaxın olacaqlar ki, sanki biri-birinə zərli sapla tikiliblər.**
**Aclıqdan və vəbadan sonra sirr açılacaq.**

Tədqiqatçılar bu katren barədə də söz deməkdən çəkiniblər. Güman ki, görücünün bu katrendə bəyan etdikləri gələcəkdə baş verəcəkdir.

Doğrudur, bəziləri güman edirlər ki, bu katren radioaktiv maddələrin kəşfi ilə bağlıdır. Bir qisim tədqiqatçılar isə katreni “Senturiyaların açarı”nın tapılacağı ilə əlaqələndirirlər.

**4 k31**

**Ay gecəyarısı uca dağın zirvəsində olanda**
**Gənc müdrik onu ağlı ilə görəcək.**
**Şagirdləri onu ölməzliyə dəvət edəcəklər.**
**Onun gözləri ortada, əlləri sinəsində, bədəni isə odda olacaq.**

Katrendə söhbət Oşo ləqəbli böyük hind filosofu, professor Bxaqavan Şri Racnişdən gedir. Oşo ilə bağlı Nostradamusun bir çox katreni vardır. Onlardan bir neçəsi barədə biz artıq danışmışıq (bax: 1 k96, 2 k12, 2 k27-29, 2 k58, 2 k75, 2 k98, 3 k16). Bu katrenin 1-ci və 2-ci sətirlərində bəhs olunanlar barədə, artıq, fikrimizi bildirmişik (bax: 2 k28). Bununla belə, Oşonun dəfn mərasimində şəxsən iştirak edən görkəmli nostradamusşünas alim Con Houqun fikirləri maraq doğurur. Oşo təkidlə qeyd edirdi ki, həqiqət ona 21 mart 1953-cü ildə Hindistanın Cavalnura şəhərinin parkında gecəyarısı əyan oldu. Tənha oturub səmanı seyr edərkən ilahi nur onu ziyalandırıb. Con Houq Oşonun şəxsi doktoru Amritonun sözlərinə əsasən yazır ki, Oşonun fiziki vəziyyəti qeyri-adi imiş. Elə bil ki, onun daxili ziyası onu yandırırdı. Oşonun olduğu otaqda həmişə hərarət aşağı olardı. Ancaq o bunu hiss etmirdi. Bəzi tədqiqatçıların fikrincə, Nostradamusun 4-cü sətirdə yazdığı “bədəni isə odda olacaq”

bununla əlaqədardır. Əslində isə son sətir bütövlükdə Oşonun ölümü ilə bağlıdır. Oşo vəcdə gələndə onun gözləri yuxarı zillənər, dünyaya "ağlın gözü ilə" baxarmış. "Əlləri sinəsində, bədənisə od-da olacaq" barədə isə Con Houq yazır ki, Oşonun cənazəsini yandır-mağa aparanda onun əlləri sinəsinin üstündə çarpaz qoyulmuşdu.

Katrendə maraq doğuran bir cəhət də vardır. Oşonun tərcü-meyi-halına fikir versək (1931-1990), Nostradamusun katreni 31-ci sayla verməsinin təsadüfi olmadığını da görərik.

R.V.Velş katreni Cordano Brunonun 1600-cü ildə tonqalda yandırılması ilə əlaqələndirir.

## 4 k32

**Müəyyən yerlərdə və vaxtı gələndə, bədən yerini balığa verəcək.**
**İctimai qanunlar müxalifətdə hazırlanacaq.**
**Köhnə qanun möhkəm dayansa da, yavaş-yavaş səhnədən düşəcək.**
**Sonra isə hamılıqla dostların birgə iştirakı unudulacaq.**

Bu katrendə də 3 k95-də olduğu kimi, Sovet İttifaqı və başqa sosialist ölkələrində kommunizmin süqutundan söhbət gedir. Tədqiqatçılar 1-ci sətrin təhlilini verə bilməmişlər. Bizə qalırsa, burada verilən "bədən", "cisim" quruda yerləşən Sovet İttifaqı mə-nasında işlənilmişdir. O ki qaldı balıq məsələsinə, bu, ABŞ-la bağ-lıdır. Nostradamus bəzi katrenlərində ABŞ-dan danışarkən bu öl-kəni "Üç suyun vəhdətindən yaranan", "Okeandan olan", "Okean-dan gələn" ifadələri ilə təsvir etmişdir. Burada isə onu balıq kimi göstərməsi təəccüb doğurmur. ABŞ-ın indiki mövqeyi bunu bir daha təsdiq edir. Nəhəng yırtıcı balıq okeanda ona müqavimət göstərmək istəyəni məhv etdiyi kimi, ABŞ da ona qarşı olan, onun arzusu ilə hərəkət etməyən dövlətləri diz çökdürməyə meyillidir.

## 4 k33

**Yupiter Aydan çox Veneraya yaxınlaşacaq.**
**Tamamilə ağ rəngdə görünəcək.**
**Venera Neptunun təmizliyi altında gizlənəcək.**
**Kəhkəşanda Venera Marsın zərbəsinə məruz qalacaq.**

Bu katrendə tədqiqatçıları ən çox maraqlandıran və mat qoyan "Neptun" sözüdür. Məsələ burasındadır ki, bütün başqa katrenlərdə bu söz "qüdrətli hərbi-dəniz dövləti" mənasında işlənmişdir. Məsələn, İngiltərə, Osmanlı İmperiyası və s. Bu katrendə isə ilk dəfə olaraq, Nostradamus "Neptun"u planet mənasında işlətmişdir. Tədqiqatçıları təəccübləndirən isə odur ki, Neptun planeti Nostradamusun vaxtında hələ kəşf olunmamışdı. Onu fransız astronomu Jan Leverye və alman astronomu İohann Qalle 1846-cı ildə, yəni Nostradamusun ölümündən 280 il sonra kəşf etmişdilər.

Tədqiqatçıların fikrincə, böyük görücü "Kəhkəşanda Venera Marsın zərbəsinə məruz qalacaqdır" ifadəsi ilə əmin-amanlığın pozulacağına, müharibə başlanacağına işarə etmişdir. Müharibənin baş verəcəyini görücünün üstüörtülü şəkildə söylədiyi 3-cü sətirdən bilmək olur. Müharibəni qüdrətli hərbi-dəniz dövləti başlayacaq. Katreni zəmanəmizlə əlaqələndirsək, çəkinmədən deyə bilərik ki, dünyanın qüdrətli hərbi-dəniz dövləti ABŞ-dır. ABŞ-ın Yuqoslaviyada, Əfqanıstanda, İraqda apardığı müharibələr böyük görücünün katrendə bəyan etdiklərini təsdiqləyir.

### 4 k34

**Əcnəbi ölkədən olan Böyük, əsir gətirilib.**
**Qızıl zəncirdə kral Şrenə (Hirenə) təqdim olunub.**
**Avsoniyada olan və Milan müharibəni uduzacaq.**
**Onun ordusu od-alov içində yanacaq, qılıncdan keçiriləcək.**

Bu katrendə Fransa və İtaliya arasında gedən müharibədən bəhs edilir.

### 4 k35

**Alov sönəcək, bakirə qızlar satılacaq.**
**Təzə Lentin ən böyük hissəsi.**
**Silahlar guruldayacaq, ancaq nizə tənha kralları qoruyacaq.**
**Toskana və Korsika, gecə vaxtı baş kəsiləcək.**

Katrendə II Dünya müharibəsi zamanı İtaliya və Fransa arasında gedən döyüşlərdən bəhs olunur. Nostradamus 1-ci sətirdə qədim Roma mifologiyasına müraciət edir. Qədim Roma əfsanələrinə görə evin ocağını təmin edən ilahənin əbədi alovunu bakirə qızlar (kahinələr) qoruyarmışlar. Nostradamus burada İtaliyada baş verəcək dəyişikliyə və müharibəyə son qoyulacağına işarə edir.

## 4 k36

**Qalliya qanunlarının reformasiyası naminə yeni oyunlar meydana gələcək.**
**Lombardiya hərbi əməliyyatında qələbədən sonra**
**Esperi dağları, Böyük (hökmdar) qolu bağlı aparılacaq.**
**Romaniya və İspaniya qorxudan əsəcək.**

Tədqiqatçılar göstərirlər ki, Fransa inqilabından sonra, qəzetlərin yazdığına görə, ölkədə üzgüçülük, yüngül atletika və s. üzrə çoxlu yarışlar keçirilərmiş. 1-ci sətirdə görücü buna işarə edir. 2-ci sətirdə 1798-ci ildə Napoleonun Lombardiyaya (İtaliya) zəfərli yürüşündən bəhs olunur. 3-cü sətirdə Napoleonun İspaniyaya səfəri və İspan kralının əsir edilməsindən (1808) danışılır. 4-cü sətirdə İtaliya (Romaniya) və İspaniyanın Napoleonun hərəkətlərindən qorxuya düşmələrindən söhbət gedir. Onu da deyək ki, Napoleonun hakimiyyəti dövründə İtaliyanın başçıları – Roma papaları VI Piy və VII Piy də əsir edilmişdilər.

## 4 k37

**Qalliya sıçrayışla dağları dəlib keçəcək.**
**İnsburun (Lombardiya) böyük bir hissəsini tutacaq.**
**Onun döyüşçüləri daha dərinliklərə girəcəklər.**
**Genuya və Monako qırmızı mundirli dəniz qüvvələrini dəf edəcək.**

Katrendə Napoleonun zəfərli yürüşlərindən, Avstriya və İngiltərənin hərbi əməliyyatlarından bəhs olunur. 2 iyun 1800-cü ildə Napoleon 40 minlik ordu ilə Lombardiyanın paytaxtı Milan

şəhərini tutmuşdu. 4 iyunda isə Avstriya ordusu Genuya limanını zəbt etmişdi.

İngilis admiralı Nelsonun qırmızı mundirli hərbi-dəniz qüvvələri Genuya və Monakoya həmlələr endirirdi. Lakin 4-cü sətirdə, Nostradamusun göstərdiyi kimi, onları bu liman şəhərlərinə yaxın buraxmırdılar.

**4 k38**

**Hansı hersoq, kral və ya kraliça olmasından asılı olmayaraq,**
**Bizans hökmdarı əsirlə Samotrasiyada.**
**Həmlədən qabaq biri o birini yeyəcək.**
**Rüsvay edilmiş tərəf qanlı izlə qayıdacaq.**

Tədqiqatçılara görə, bu katrendə Osmanlı İmperiyası süqut etdikdən sonra Yunanıstan və Türkiyə arasında baş verən müharibədən danışılır. "Bizans hökmdarı", sonralar Atatürk kimi tanınan Mustafa Kamaldır. Samotrasiya, Bosfor körfəzinin girişində, Egey dənizində strateji cəhətdən mühüm adadır. Osmanlı İmperiyasının süqutundan sonra bu və bir çox başqa adalar yunanlar tərəfindən tutulmuşdu. 1921-1922-ci illərdə Mustafa Kamal Ankarada ordu toplayaraq, yunanların tutduqları torpaqları azad etmək üçün yola düşdü. Yunanları adalardan dənizə tökdülər. Yunanlar qisas məq - sədi ilə Ankaranı tutmaq üçün yürüşə başladılar. Məsafə uzaq, azuqə az idi. Sakariya çayı sahilində aparılan üçhəftəlik vuruşdan sonra yunanlar geri çəkilməyə məcbur oldular. Onlar 250 mildən də uzaq olan Smirnaya yola düşdülər. Lakin 1922-ci ilin sentyabr ayında Mustafa Kamal üçgünlük qanlı döyüşdən sonra Smirnanı da azad etdi. Bir neçə min yunan əsgəri və mülki əhali əsir düşdü. Əsir düşən əsgərlərdən bəziləri edam edildilər.

**4 k39**

**Rodoslular rahatlıq tələb edəcəklər.**
**Varisləri tərəfindən etinasızlıq göstərilən**
**Ərəb imperiyası seçdiyi yolu yenidən götür-qoy edəcək.**
**Hesperilər (Amerika) bu işi yenidən dirçəldəcəklər.**

İlk iki sətirdə Rodos adası ətrafında cərəyan edən hadisələrdən bəhs edilir. Belə ki, 1522-ci ildə Osmanlı hərbi birləşmələri Rodosa hücum edən zaman, kral V Karl Rodosu tərk edərək tələsik ordusunu Maltaya apardı. Lakin 1912-ci ildə İtaliya rodosluların köməyi ilə adanı türklərin əlindən aldı. II Dünya müharibəsində İtaliya məğlub olduqdan sonra, Rodos yenidən Yunanıstana qatıldı.

Son iki sətirdə XX əsrdə baş verən hadisələrdən danışılır. Burada söhbət, bir vaxtlar Osmanlı İmperiyasına daxil olan ərəb ölkələrini və nəticədə ərəb neftini osmanlıların etinasızlıq göstərərək əldən vermələrindən və Qərb ölkələrinin bu işi ələ alaraq dirçəltməsindən gedir. Bunun nəticəsində OPEK yarandı.

Onu da demək lazımdır ki, 1970-ci ildə Suriyanın prezidenti Hafiz Əsəd və İraqın prezidenti Səddam Hüseyn Ərəb Dirçəliş Partiyasını (BAAS) yaradaraq, siyasi cəhətdən ərəb ölkələrinin birləşdirilməsi təşəbbüsünü də irəli sürmüşdülər.

**4 k40**

**Mühasirəyə alınan qalalar hər tərəfdən sıxışdırılıb,**
**Partladıcı maddələrlə daha dərinliklərə batırılmışdır.**
**Dönüklərin (xain) hamısı diri-diri basdırılmışdır.**
**Saksonlar ömürlərində belə acınacaqlı şəkildə parçalanmamışlar.**

Bu katrendə faşist Almaniyasından və onun başçısı Adolf Hitlerdən bəhs olunur.

Katrendə Nostradamus Hitlerin son saatlarını təsvir edir. Hitler Berlinin mərkəzində, torpağın dərin qatları altında, bunkerdədir. Yuxarıda qanlı döyüşlər gedir, bombalar partlayır. Hitlerin müttəfiqi Mussolini Milanda ayağından asıldıqdan iki gün sonra, 1945-ci ilin aprelində Hitler özünü güllə ilə vurub. Son sətirdə müharibədən sonra Almaniyanın parçalanmasından və Şərqi Almaniyanın (saksonların) ayrılmasından danışılır.

Məlumdur ki, parçalanma 1990-cı ilə qədər davam edib.

**4 k41**

**Qadın satqının əli ilə tutulacaq (əsir götürüləcək).**
**Gecə onun qarovulçusunu aldadacaqlar.**
**Ordunun başçısını o, dil ilə aldadacaq.**
**Camaat onu rədd edəcək. Baxanda hamının ona yazığı gələcək.**

Con Houqun fikrincə, bu katren II Dünya müharibəsi zamanı Fransa Müqavimət təşkilatının başçılarından biri, kəşfiyyat qrupunun rəhbəri Madam Forkad və onun almanlara qarşı apardığı mübarizədən bəhs edir.

**4 k42**

**Cenevrə və Lanq şəhərləri, Şartr, Dole və Qrenobldan olanlar.**
**Tərəfindən Montelimarda əsir götürüləcəklər.**
**Seyset və Lozanna fırıldağın qurbanı olacaq.**
**Altmış qızıl markaya görə onlar xəyanət edəcəklər.**

Bu katren barədə tədqiqatçılar ağlabatan bir söz deyə bilməyiblər. Yeganə məlum olan odur ki, katrendə adı çəkilən yerlər Fransa və İsveçrədədir. O vaxtlar bir qızıl marka 8-86 unsiya qızıla bərabər idi. Bir unsiya isə 28.35 qrama bərabərdir.

**4 k43**

**Silahların səsi göylərdə eşidiləcək.**
**Həmin ilin özündə din düşmənləri**
**Müqəddəs qanunlar haqda ədalətsiz mübahisələr aparmaq istəyəcəklər.**
**Raket zərbəsi və döyüşlər zamanı çoxlu etiqad edən öldürüləcək.**

Tədqiqatçılar bu katreni II Dünya müharibəsi ilə, xüsusən də 1943-cü illə əlaqələndirirlər. Katrenin nömrəsi də buna əsas verir. 1943-cü ildə müttəfiqlər 1-ci dəfə Berlini bombalamağa 1000

təyyarə göndərmişdilər. Bundan əlavə, 1943-cü ilin iyun ayında başlayan Kursk döyüşləri tarixdə görünməmiş amansızlığı və hərbi texnikanın çoxluğu ilə yadda qalıb. Döyüşdə Sovetlər tərəfindən 2500 təyyarə iştirak edirdi. İki gün ərzində onlardan 608-i düşmənlər tərəfindən vurulmuşdu.

Tankların sayı-hesabı yox idi. 1943-cü ilin 5-13 iyulunda 70.000 alman, 120.000 sovet əsgəri məhv edilmişdi. Kursk uğrunda döyüşlərdə almanlar 30-a qədər diviziya itirdilər. Təşəbbüs tamamilə Sovetlərin əlinə keçdi. Sonralar Sovet ordusu avqustun 5-də Oryol və Belqorodu, 23 avqustda isə Xarkovu azad etdi.

Bəzi tədqiqatçılar bu katreni İsrail–Ərəb münaqişəsinə aid edirlər.

### 4 k44

**Mandedən, Rodesdən, Milaidən, Kahirdən,**
**Limoj və Kastrdan iki böyük adamın görünməsi**
**Həftənin uğursuz olacağından xəbər verir.**
**Pernqordan zəng səsləri eşidilsə də**
**Gecə vaxtı Bordodan çıxmaq təhqirdir.**

Tədqiqatçılar bu katreni şərh etməkdə çətinlik çəkmişlər. Məlum olan odur ki, katren Fransadan bəhs edir. Katrendə adı çəkilən şəhərlər Fransanın cənub-qərbindədir.

### 4 k45

**Kralın münaqişəsi ucbatından krallıq tərk ediləcək.**
**Ən qüdrətli başçı, məqamında müvəffəqiyyətsizliyə uğrayacaq.**
**Tələf olacaqlar, puç olacaqlar. Az adam qaçıb canını qurtaracaq.**
**Hamını qıracaqlar. Bu səhnənin şahidi olan bir nəfərdən başqa.**



***III Napoleon və alın yazısı***

Katren III Napoleonun vaxtında, 1870-ci ildə baş verən Fransa–Avstriya müharibəsindən bəhs edir. Bu müharibənin III Napoleonun kobud səhvi ucbatından başlandığı barədə müfəssəl danışdığımızdan (bax: 1 k92) burada təkcə onu deməklə kifayətlənəcəyik ki, prussiyalılar 100 minlik fransız ordusunu mühasirəyə alıb qıranda, III Napoleon əsir düşməmək və qəhrəman kimi ölmək naminə atını ön cinahda ora-bura səyirdirmiş. Lakin ona güllə dəyməmiş, imperator əsir düşmüşdü.

## 4 k46

**İş əla qurulub, yaxşı müdafiə yaradılıb.**
**Tur, özünü yaxınlıqdakı xarabalıqdan qoru.**
**London və Nant Reyms tərəfindən müdafiə olunacaq.**
**Duman vaxtı daha qabağa getməyəcəklər.**

Katren I Dünya müharibəsindən bəhs edir. 1-ci sətirdə fransızlar və müttəfiqləri tərəfindən (ingilis və amerikalılar) möhkəm müdafiə xəttinin yaradılmasından söhbət gedir. London–İngiltərə, Nant–Fransa mənasında işlənib. Reyms Fransanın ön cəbhə xəttində ən böyük şəhər olub. 1914-1918-ci illər ərzində xarabazara çevrilmişdi. 1918-ci ildə almanların Qindenburq müdafiə xətti yaradıldıqdan sonra onlar sülh müqaviləsi bağlamağa razılıq verdilər. Bu, Fransada duman düşən noyabr ayında baş verdi. Müttəfiqlər daha hücuma keçib qabağa getməyiblər. 4-cü sətirdə buna işarə olunur.

## 4 k47

**Qəddar, qara (qorxunc) kral qanlı əlini**
**Od, dəmir, muşketlə gücə salacaq.**
**Bütün xalq o qədər qorxacaq ki,**
**Səbəb böyüklərin boynundan və ayağından asıldığını görmək olacaq.**

Katrendə söhbət Fransa kralı IX Karldan gedir. IX Karl o qədər güclü olub ki, ov zamanı bir zərbə ilə eşşəyin və ya donuzun başını bədənindən ayırarmış. Kral IX Karl güclü olduğu qədər də qəddar imiş. O, qəddarlığını 1572-ci ildə müqəddəs Varfolomey bayramı gecəsi göstərmişdi. Bütün ölkədən barışıq adı altında hugenotların başçılarını Parisə – Luvr sarayına dəvət edən IX Karl gecə onların ölümünə fitva vermişdi. Bundan sonra isə hugenotları (protestantlar) şəhərdə qırmağa başlamışdılar. Kral IX Karl şəxsən özü Luvr sarayının balkonundan qaçıb canını qurtarmağa çalışan hugenotları ox və muşketlə (iriçaplı, fitilli tüfəng) vururmuş (bax: 1 k10, 1 k78).

Dünyanı nizamlayan ilahi qüdrət tezliklə bu zalım kralın qəddarlığına son qoydu. O, gücünün aşıb-daşdığı bir dövrdə – 24 yaşında (1550-1574) adi qripdən dünyasını dəyişdi.

## 4 k48

**Məhsuldar və geniş Avson düzəngahında**
**O qədər mozalan və çəyirtkə peyda olacaq ki,**
**Bulud kimi Günəşin qabağını kəsəcək.**
**Hər şeyi yeyəcəklər, sonra vəba və qırğın başlayacaq.**

Avson düzənliyi İtaliyada, Neapol yaxınlığındadır. Hadisənin nə vaxt olduğunu demək çətindir. Çünki belə hadisələr çox olub. Bəzi tədqiqatçılar bu katreni gələcəklə bağlayırlar. Lakin təbabətin yüksək inkişaf etdiyi zəmanəmizdə və gələcəkdə vəba və qırğının olacağına inanmaq olmur.

## 4 k49

**Xalqın gözü qarşısında qan axıdılacaq.**
**Bu, bir o qədər də yüksək səmadan gəlməyəcək.**
**Bu hadisə haqqında uzun zaman danışılmayacaq.**
**Təkcə bir nəfərin ruhu bunun şahidi olacaq.**

Bu katren də bir neçə başqa katren kimi, XX əsrin böyük şəxsiyyətlərindən olan Con Kennediyə həsr olunmuşdur. Çox az adam inanır ki, Con Kennedinin qatili Li Xarvi Osvald olmuşdur.



***Sirli-soraqlı Dallas***

Nostradamus təsdiq edir ki, tək bir adam Con Kennedinin qətlinin şahidi olub. "Əsrin qətli" adlandırılan bu hadisə bir müəmma olaraq qalır. Hələ Kennedi torpağa tapşırılmamış onun ölümündə şübhəli bilinən Li Xarvi Osvald mafiyanın üzvü Cek Rubi tərəfindən öldürüldü. Bundan sonra Dallas polisinin nümayəndəsi tələsik Kennedinin ölümü ilə bağlı cinayət işinin bağlandığını elan etdi. Nostradamus 6 k37-də açıqca göstərir ki, cinayətin iştirakçıları başqaları idi. Bu hadisə ilə bağlı uzun müddət



***Cek Rubi Li Osvaldı güllələyir***

tədqiqat aparan Stiven Rivel, Korsika mafiyasının izinə düşür və C.Kennedini Lyusen Sartinin öldürdüyünü yəqin edir. Sarti polis paltarı geyib təpəlikdə, ağacların arasında gizlənərək prezident Kennediyə atəş açıb. Sonralar izi itirmək üçün Sartinin özünü də öldürüblər. Ümumiyyətlə, Con Kennedinin qətlində şahidlik edənlərin və mafiyanın izinə düşənlərin hamısı qətlə yetirilmişdi.

Con Houq maraqlı bir məsələdən də söz açır. Tədqiqatçı göstərir ki, xərçəng xəstəliyinə tutulan və ölümünün yaxınlaşdığını dərk edən Cek Rubi mafiyadan çəkinməyərək, Uorren komissiyasına şok açıqlama verib. Cek Rubi etiraf edib ki, o özü və artıq məlum olanlar aysberqin olsa-olsa görünən hissəsidir: “Bəşəriyyət (dünya, aləm) heç vaxt həqiqəti bilməyəcək. Bədbəxtlik ondadır ki, bu qətldən çoxları bəhrələndi. Onlar həqiqəti gizlətmək naminə nəyə desən hazırdırlar”.

Bizcə, burada mafiya deyəndə hakimiyyət iddiasında olanlar və kütləvi qırğın silahları istehsal edən şirkətlərin rəhbərləri nəzərdə tutulur.

### 4 k50

**Tərəzi bürcü Hesperilərin (Amerika) hökmranlığını**
**Fəzada və yerdə görəcək.**
**Yeddilər növbə ilə iyerarxiyaya başçılıq etməyənə qədər**
**Asiyanın gücdən düşdüyünü heç kəs görməyəcək.**

ABŞ-ın ən qüdrətli dövlət kimi meydana gəlməsi, Yeddilərin (iqtisadi cəhətdən inkişaf etmiş ölkələr) iyerarxiyaya (yuxarı rütbəlilərin aşağı rütbəliləri özünə tabe edərək idarə etməsi) başçılıq etməsi bizim zəmanəmizdə, XX əsrin sonu – XXI əsrin əvvəlində özünü göstərmişdir. Nostradamus göstərir ki, ABŞ və Yeddilər birləşdikdən sonra Asiyadan təhlükə yoxa çıxacaqdır. Nostradamusun göstərdiklərinin tamamilə yerinə yetdiyinin şahidi olan bizlər – XXI əsrin adamları bu qeyri-adi insanın qüdrətinə mat qalırıq.

### 4 k51

**Düşmənini izləməkdən ötrü dəridən-qabıqdan çıxan hersoq**
**Maneəni dəf edərək cinaha daxil olacaq.**
**Onu arxadan gələrək, çox yaxından izləyəcəklər.**
**Döyüş günü Qanja yaxın olacaq.**

Qanj Nostradamusun ali təhsil aldığı Monpelin təqribən 40 km-də kiçik bir şəhərdir. Dini müharibələr vaxtı hugenotlar burada yerləşiblərmiş. Çox güman ki, katren bu şəhərin yaxınlığında baş verən döyüşlərdən bəhs edir.

### 4 k52

**Mühasirəyə alınmış şəhərdə kişilər və qadınlar divarlara sıxışdırılmışlar.**
**Başçısız düşmənlər təslim olmağa hazırdırlar.**
**Külək komandirlərə qarşı amansız olacaq.**
**Onlar əhəng, uçan toz və küllə qovulacaqlar.**

Bəzi tədqiqatçıların fikrincə, katren II Dünya müharibəsi zamanı Leninqradın (Sankt-Peterburq) alman ordusu tərəfindən 900 gün çəkən mühasirəsindən bəhs edir. Tarixdə belə uzunmüddətli mühasirə və şəhərin mühasirədən qalib çıxması məlum deyil. Mühasirə vaxtı Leninqrad əhalisinin üçdə biri, daha doğrusu, bir milyondan artıq adam ölmüşdü. "Əhəng", "toz" və "kül" alman faşistlərinin Rusiyada məğlubiyyəti ilə bağlı işlənmişdir. Yayın istisindən, xüsusən də qışın şaxtasından və qılınc kimi kəsən küləyindən əziyyət çəkən alman əsgərləri məhv olur, əbədi olaraq buz və qarla örtülmüş, həyat əlaməti olmayan Rus çöllərində qalırdılar. Almanların əziyyət çəkmələrinin bir ciddi səbəbi də vardı. Stalinin əmri ilə doğma yurdlarını tərk edən Sovet adamları evlərini və bütün başqa tikililəri yandırırdılar. 4-cü sətirdə "kül" bu münasibətlə işlənmişdir. Nostradamus evlərin yandırılaraq külə döndüyündən, sığınacaq olmadağına görə almanların şaxtaya, qara tab gətirə bilməyəcəklərinə və qaçacaqlarına işarə edir.

### 4 k53

**Qaçqınlar və sürgün olunmuşlar qayıdacaqlar.**
**Atalar və oğullar dərin quyuların bəzəyi olacaqlar.**
**Qəddar ata və mənsub olduğu xalq boğulacaq.**
**Onun ən qəddar oğlu quyuda batırılacaq.**

Tədqiqatçılar bu katrenin əvvəllər "xalqın əziz atası", sonralar isə tökdürdüyü qana görə "Qaniçən" ləqəbini almış çar II Nikolaydan bəhs etdiyini qeyd edirlər. Bu barədə artıq geniş danışdığımıza görə (bax: 1 k68) burada təkrara lüzum görmədik.

### 4 k54

**Heç vaxt Qalliya krallarının adlandırılmadığı bir adla,**
**O, vahiməli ildırım kimi çaxacaq.**
**İtaliya, İspaniya və İngiltərə titrəyəcək.**
**O, əcnəbi qadınlara son dərəcə diqqətli olacaq.**



***Jozefina. Napoleonun 1-ci arvadı***



***Mariya-Luiza (Avstriya).Napoleonun 2-ci arvadı. Napoleona oğul bəxş etmişdi. Kral I Fransisin qızı idi***

Katren Napoleon Bonapartdan bəhs edir. 1-ci sətirdən göründüyü kimi, "Napoleon" fransız sözü deyildir. Görücü bu fakta bir neçə katrenində (bax: 1 k76, 8 k1, 9 k26) toxunmuşdur. Napoleon yunan dilində "dağıdıcı", "məhvedici" kimsə mənasını verir.

Napoleon Korsikada anadan olmuşdur. Korsika adalarını isə Fransa onun anadan olduğu 1768-ci ildən cəmi bir il əvvəl İtaliya krallığı Genuyadan satın almışdı.

3-cü sətirdə görücünün söz açdıqları yüzdə yüz yerini alıb.

Katrenin 4-cü sətrində göstərilənlər tamamilə yerini alıb. Napoleonun özündən 6 yaş böyük olan 1-ci arvadı Jozefina Haitidən idi. Məşuqələri opera müğənnisi Cuzepina Qrassini italiyalı, Mariya Valevska polşalı, özündən 23 yaş kiçik olan 2-ci arvadı Mariya Luiza avstriyalı idi. (Maraqlı məlumat üçün, bax: 6 k67).

İmperatorun özü kimi, taleyi də qeyri-adi olmuşdur. Hə-

yatındakı bir çox əlamətdar hadisələr mart ayında baş vermişdi. Jozefina ilə 9 mart 1796-cı ildə evlənmişdi. 5 mart 1798-ci ildə 30 yaşlı Napoleon Misirə yolu düşən orduya Baş komandan təyin olunmuşdu. 11 mart 1801-cu ildə Mari - ya-Luiza ilə Vyanada kilsədə kəbinkəsmə mərasimi olmuş və evlənmişdilər. 20 mart 1811-ci ildə oğlu olmuşdu. 1815-ci il mart ayının 1-də Elba adasından sürgündən qaçaraq 20 martda Parisə gəlmiş və hakimiyyəti yenidən ələ almışdı. Göründüyü kimi, mart ayı Napo - leona düşərli olub.



*Mariya Valevska, Napoleonun məşuqəsi. İmperatorun qeyri-qanuni arvadı olmuşdu. Napoleona çox sadiq olub. Napoleonun 1-ci sürgünü zamanı onu ziyarət edib*

### 4 k55

**Ala qarğa kərpicdən hörülmüş qüllənin başına qonaraq,**
**Yeddi saat qarıldayacaq.**
**Ölüm əvvəlcədən xəbər veriləcək. Heykəl qanla ləkələnəcək.**
**Tiran öldürüləcək və xalq Allaha dua edəcək.**

Faktlarla zəngin olan bu maraqlı katren haqqında tədqiqatçılar qəti söz deyə bilməyiblər. Katren barədə öz fərziyyələrini irəli sürmək arzusunda olanların nəzərinə çatdırım ki, 4-cü sətirdə işlənən "tiran" burada "hakimiyyətə zorla sahiblənən şəxs" məna - sında işlənmişdir.

### 4 k56

**Sərsəm dilin qələbəsindən sonra,**
**Ruh əmin-amanlıqda və sakitlikdə uyuyacaq.**
**Qanlı fateh münaqişədə boşboğazlıq edəcək.**
**Ağzında dili də, cismi də, sümükləri də yanacaq.**

Tədqiqatçılar bu katreni Adolf Hitlerə aid edirlər. Onlar yazır - lar ki, Hitler kütlə qarşısında çıxış edərkən insanları haldan çıxarmaq qabiliyyətinə malik imiş. O çıxışını bitirdikdən sonra çox ağır fiziki iş görmüş adam təsiri bağışlayırdı. Katrenin 3-cü sətri II Dünya müharibəsinin əvvəlində Hitlerin uğurlarından və lovğalanmasından bəhs edir. O, tez-tez radio ilə və eləcə də izdiham qarşısında boşboğazlıq edirdi. Lakin Stalinqradda ağır məğlubiyyətdən sonra yalnız ikicə dəfə, özü də müharibənin son ilində çıxış etmişdi. Son sətir bəzi tədqiqatçıların fikirlərini təsdiqləyir. Hitler intihar etdikdən sonra onun meyiti çalada yandırılıb. I Belorus cəbhəsinin baş məhkəmə tibbi eksperti, Hitlerin yanmış meyitini müayinədən keçirərək deyib: “Dil yanıb kömürə dönüb. Dilin ucu alt və üst dişlərin arasında sıxılıb”.

**4 k57**

**Böyük krala həsəd aparan cahilliklə güclənəcək.**
**O, yazının qadağan olunmasını istəyəcək.**
**Onun arvadı, əslində arvadı olmayan, başqaları**
**tərəfindən yoldan çıxarılmışdır.**
**Hər ikisi daha var güclə qışqırmayacaqlar.**

Tədqiqatçı Con Houq belə hesab edir ki, bu katren Fransa kralı II Henri, onun az qala qanuni arvadı səviyyəsinə qaldırdığı, məşu - qəsi Diana de Puatıye və şəxsən Nostradamusdan bəhs edir. Lakin katrendə deyilənlər bu fikirlə o qədər də uzlaşmır.

**4 k58**

**Qızmar günəşə tab gətirmək üçün**
**Etrüsk (Toskaniya) torpağı insan qanı ilə suvarılacaq.**
**Başlıcası bir vedrə su və igid oğlunu aradan çıxarmaq.**
**Arvadı isə əsir düşərək türk torpağına aparılıb.**

Con Houq bu katrenin gələcəkdə hava şəraitinin kəskin şəkildə dəyişəcəyindən və dözülməz istilərin düşəcəyindən bəhs etdiyini

göstərir. Bizcə, tədqiqatçı səhvə yol verir. Sonuncu sətir bunu təsdiqləyir. Burada söhbət müharibədən, qanlı döyüşlərdən və hansısa mənsəb sahibi olan bir qadının əsir düşərək Türkiyəyə aparılmasından gedir. Çox güman ki, XVI əsrdən XX əsrin əvvəlinə qədər Osmanlı İmperiyası ilə bağlı olan əlamətdar hadisədən söhbət gedir.

### 4 k59

**İki nəfər ehtiras alovu ilə yanır,**
**Yanğılarını iki dolu kasa ilə söndürürlər.**
**İstehkam yarılıb (cilalanıb) və qoca xəyalpərəst**
**Cenevrəlilərə Niranın izini göstərəcək.**

Tədqiqatçılar bu katrenin İran-İraq münasibətlərindən, Səddam Hüseyn və Ayətulla Xomeyninin on il çəkən müharibəyə başlamalarından (1980-1989) bəhs etdiyini qeyd edirlər. 3-cü və 4-cü sətirlər ABŞ-dan söz açır. Burada söhbət İran-İraq müharibəsi vaxtı Nyu-Yorkun Staten adasında, köhnə istehkamın üzərində yüksələn "Azadlıq" heykəlinin təmirdə olmasından, cilalanmasından və "Amerika xəyalpərəsti" ləqəbini almış Ronald Reyqandan gedir. 4-cü sətirdə "İran–kontras" məsələsində Reyqanın əli olduğundan danışılır. Reyqanın İranda girov saxlanılan amerikalıların azad olunması naminə böyük miqdarda hərbi texnika vermək niyyətində olduğundan nəinki Cenevrədə BMT-nin nümayəndələrinin, hətta dünya ictimaiyyətinin xəbəri vardı.

4-cü sətirdə Nostradamus anoqramdan istifadə edib. "Nira" İrandır.

### 4 k60

**Yeddi uşaq girov saxlanılmış.**
**Üçüncü öz uşağını öldürməyə gələcək.**
**Onun uşağına (oğluna) görə ikisinin qarnına qılınc soxacaqlar.**
**Onda o, gəlib Genuya və Florensiyaya zərbə endirəcək.**

Tədqiqatçı Le Pelletye bu katreni Valua kral nəslinə, daha doğrusu kral II Henrinin gənc ikən ölmüş yeddi övladına aid edilir. Con Houq Le Pelletyeni tənqid etsə də, katrenin kimdən bəhs etdiyini göstərə bilməmişdir.

**4 k61**

**Qoca ələ salınıb və öz yerindən məhrum edilib.**
**Onu cinayətə əcnəbi təhrik edəcək.**
**Oğlunun hakimiyyəti Şartrda, Orleanda və Ruanda**
**Qardaşına xəyanət edənin əlindən alınacaq.**

Tədqiqatçıların fikrincə bu katren II Dünya müharibəsi zamanı Fransanın almanlar tərəfindən zəbt olunmasından, oyuncaq “Vişi” hökuməti və onun başçısı marşal Petendən bəhs edir. Nostradamus özündən 400 il sonra baş verəcək hadisələri, hətta marşal Petenin “qoca” adlandırılacağını da dəqiq görmüşdü. 1944-cü ildə Hitler fransızları və onların başçısı qoca Peteni hakimiyyətdən kənarlaşdırdı. 19 avqust 1944-cü ildə müttəfiqlər Şartr, Orlean və Ruanı azad edəndə Hitler Peteni Ziqmaringen düşərgəsinə göndərmişdi.

**4 k62**

**Bir polkovnik hiyləgərliklə sui-qəsd hazırlayacaq.**
**O, ordunun ən böyük hissəsini ələ keçirəcək.**
**Öz şahzadəsinə qarşı yalan, iftira uyduracaq.**
**O, öz nəslinin nümayəndələri tərəfindən ifşa olunacaq.**

Əksər tədqiqatçılar bu qənaətdədirlər ki, Nostradamus bu katrendə polkovnik Kaddafidən söhbət açır. 1969-cu ildə Muamar Kaddafi kral İdrisə qarşı, yalan, iftira ilə sui-qəsd hazırladı və ordunun köməyi ilə hakimiyyətə gəldi. Bəzi hərəkətlərinə görə ağıldan kəm hesab olunan Kaddafi kəndli-çoban (beduin) ailəsindən çıxmışdır. 1963-cü ildə Benqazi şəhərində Hərbi Akademiyaya təlimatçı təyin olunmuşdu. Az sonra Akademiyanın rəisi öldürülmüşdü. Şayiələr gəzirdi ki, rəisi Kaddafi güllələyib. Lakin əldə

elə bir sübut yox idi. Sonralar "ərəblərin haqq işi uğrunda mübariz" və ya "terrorizmin atası" kimi müsbət və mənfi ləqəblərə layiq görülən polkovnik Kaddafinin terrorizmdə əli olduğu güman edildi. 1986-cı ildə Berlin disko-barlarının birində partlayış nəticəsində ölənlər arasında bir amerikalı da vardı. Amerikalılar məlumat toplayaraq qəti qərara gəldilər ki, partlayış birbaşa Kaddafinin göstərişi ilə olub. Odur ki, Liviyanı sudan və qurudan bombardman etməyə başladılar. Ölənlər arasında Kaddafinin qızlığı da vardı. 4-cü sətirdə amerikalıların məlumatı Kaddafinin yaxın adamlarından aldıqlarına işarə olunur.

## 4 k63

**Kelt (Fransa) ordusu dağlılara qarşı vuruşacaq.**
**Yüksəkdə olan (vəzifəcə) hiylənin qurbanı olacaq.**
**Tezliklə kəndlilər yeni qüvvələrlə üzüm topalarını**
**əzərək, şərab düzəldəcəklər.**
**Hamı özünü qılınca çırpacaq.**

Dəqiqliyi ilə hamını heyran edən bu katren XVIII əsrin sonunda Fransada baş verən hadisələrlə bağlıdır.

Bretan və Vanden rayonlarının əhalisi ordu toplayaraq, respublikaçılara qarşı monarxiya tərəfdarları sırasında vuruşurdular. Qiyamı yatırmaq üçün milli qəhrəman Henri de Lya Roşejaklenin başçılığı ilə bu yerlərə ordu hissələri göndərilmişdi. 28 yanvar 1794-cü ildə Henri ordu hissəsinin qabağında atını səyirdərək gedirdi. Birdən iki əksinqilabçı görür. Henri qışqırır: "Təslim olun. Sizi öldürməyəcəyik!" Onlar özlərini elə aparırlar ki, guya təslim olmağa hazırdırlar. Hətta onlardan biri muşketini Henriyə tərəf uzadır. Henri əyilib muşketi götürmək istəyəndə əks-inqilabçı atəş açır. Milli qəhrəman – generalissimus hiyləyə aldanır və ölür. Bundan sonra Montanyor Səkkizinci Respublika ordusunu qərbə – Bretan və Vandeyə qarşı yönəldir və göstəriş verir ki, o yerlərdə daş üstə daş qoymasınlar.

Montanyorun əmrində aşağıdakıları oxumaq olur: "Əliyaraqlı və silah gəzdirdiyi şübhə doğuran hər kəsi qılıncdan keçirin. Bu, qadınlara və uşaqlara da aiddir. Qiyamda şübhəli bilinən heç kəsə aman verməyin. Şəhərləri, kəndləri, yaşayış məntəqələrini, zəmiləri, fermaları, yanası nə varsa, yandırın".

Yanvarda başlayan bu hadisələr, üzümün yığıldığı, şərab hazırlandığı sentyabr ayına qədər davam etmişdir. Katrenin 3-cü və 4-cü sətirlərində böyük görücü bunlara işarə etmişdir.

**4 k64**

**Burjua geyimində müflis,**
**Umu-küsü ilə kralı sınamağa gələcək.**
**On beş nəfər əsgərin əksəriyyəti quldurlar.**
**Onun ömrünün qalanı, vəziyyəti və var-dövləti.**

Tədqiqatçı Fonbryun göstərir ki, bu katren 1848-ci il Fransa burjua inqilabı zamanı baş vermiş hadisələrdən bəhs edir. Bulvarda yığışan və quldurlardan heç nə ilə fərqlənməyən bir dəstə adam milli qvardiyaçılara atəş açmışdılar. Qvardiyaçılar cavab atəşi ilə 15 nəfəri öldürmüş, 50 nəfəri isə yaralamışdılar.

**4 k65**

**Böyük qaladan qaçan fərari**
**Öz yerini tərk edəndən sonra,**
**Onun düşməni böyük şücaət göstərəcək.**
**İmperator mühakimə olunacaq, tezliklə öləcək.**

Katren Lui Napoleondan bəhs edir. Onu əvvəllər ömürlük həbs cəzasına məhkum edərək, Xem qalasında saxlayırdılar. 1846-cı ildə qaçan Lui Napoleon 1848-ci il Fransa inqilabı zamanı İngiltərədən ölkəyə qayıdaraq, hakimiyyəti ələ keçirdi və özünü III Napoleon elan etdi. Lakin Fransa hazır olmadığı halda, alman və Prussiya ordularına qarşı müharibəyə başladı. Onun müharibəyə başlaması, verdiyi itkilər, döyüş zamanı özünü necə

aparması barədə artıq çox danışdığımızdan (bax: 1 k92, 2 k92, 3 k50, 4 k45), burada yalnız onun və böyük sayda ordusunun Sedan yaxınlığında təslim olmasını və əsir düşməsini qeyd etmək istərdik. Hakimiyyətdən uzaqlaşdırılan III Napoleon katrenin 4-cü sətrində böyük görücünün qeyd etdiyi kimi, tezliklə dünyasını dəyişmişdi.

**4 k66**

**Yeddi qırxıq, aldadıcı rəngli baş**
**Kəşfiyyat məqsədi ilə əcnəbi saraylara səpələnəcək.**
**Su quyuları və fəvvarələr zəhərlənəcək.**
**Genuya qalasına adamyeyənlər gələcək.**

Tədqiqatçılardan Leoni, Çitəm, Con Houq belə hesab edirlər ki, bu katrendə söhbət Oliver Kromvel, Napoleon Bonapart, Mussolini, Yaponiyanın imperatoru Xiroxito, Hitler, Franko və Stalindən gedir. Lakin Con Houq Stalinin saçının qısa olmadığına əsasən, qeyd edir ki, yedddinci qırxıq baş Atatürk, eləcə də Macarıstan və Rumıniyanın başçısı ola bilər. Ancaq nədənsə tədqiqatçılar Vinston Çörçili yaddan çıxarıblar. Birinci sətirdə göstərilənlərdən başqa, bu katren tədqiqatçıların qənaəti ilə uyğun gəlmir.

**4 k67**

**Saturn və Marsın eyni dərəcədə od saçdığı ildə,**
**Hava bərk quraqlıq olacaq. Quyruqlu ulduz görünəcək.**
**Gizli odlardan böyük ərazi yanacaq.**
**Yağış az olacaq, isti külək, müharibələr, həmlələr baş verəcək.**

Adətən, Saturn və Mars eyni dərəcədə od saçan vaxt ya Qoç (mart-aprel), ya da Şir bürcündə (iyul-avqust) olur. Elə XX əsri gö - türsək, bunun əyani şahidi olarıq. 1917-ci ildə Saturn və Mars Şir bürcündə olub. O vaxt I Dünya müharibəsinin qızğın çağı idi. Bundan başqa Rusiyada Böyük Oktyabr sosialist inqilabı başlamışdı.

II Dünya müharibəsi zamanı Saturn zahirən Qoç bürcündə olan - da, alman orduları Varşavaya daxil olmuşdular. Saturn və Mars eyni vaxtda Qoç bürcündə olanda (1939) Sovet İttifaqı ilə Finlandiya arasında müharibə başlamışdı.

1947-ci ildə Mars və Saturn Şir bürcündə olanda Hindistan və Pakistanın ayrılması gündəmə gəlmişdi. Ara elə qarışmışdı ki, dini müharibələr zəminində bir milyondan artıq adam məhv olmuşdu. Ərəb–İsrail, İran–İraq, Körfəz müharibəsi, Qarabağ, Yuqoslaviya, Çeçenistan və başqa müharibələr də Saturn və Mars planetlərinin Qoç və ya Şir bürcündə olduğu vaxta təsadüf edir. 2001-ci ildə (11 sentyabr) ABŞ-da görünməmiş terror hadisəsi də, onun Əfqanıstana müharibə elan etməsi də (10 oktyabr) deyilənlərdən uzaq deyildir.

2-ci sətirdə söhbət kometadan – quyruqlu ulduzdan gedir. Belə bir ulduz – Heyla Bonne kometası 1997-ci il boyu səmada müşahidə olunmuşdur.

"Gizli odlardan böyük ərazi yanacaq" sətri, ola bilsin ki, ABŞ-ın yeni tipli bioloji silahından bəhs edir. Ümumiyyətlə, katrendə zəmanəmizdən söhbət gedir. XX əsrin 90-cı illərindən başlamış ozon deşiklərinin get-gedə artdığından və bəşəriyyət üçün ağır nəticələr verəcəyindən danışılır.

**4 k68**

**Veneradan uzaq olmayan, lap yaxın ildə**
**Asiya və Afrikanın iki ən böyüyü:**
**Deyirlər onlar Rayn və Histerdən gəlmişlər.**
**Maltada, Liquriya sahillərində qışqırıq, göz yaşları**
**biri-birinə qarışacaq.**

Astrologiyaya əsasən, 1939-cu il Venera ili olub. 2-ci sətirdə II Dünya müharibəsində Hitler Almaniyasının iki böyük müttəfiqi – Afrikada saysız-hesabsız koloniyaları olan İtaliya və Yaponiyadan söhbət gedir. Katrendə Afrikada gedən qanlı döyüşlərdən danışılır.

Qərb tədqiqatçılarının bəziləri heç bir əsas olmadan göstərirlər ki, bu katren və 4 k43 Çin və Ərəb ölkələrinin Avropanı tutacaqlarından bəhs edir. Yeri gəlmişkən qeyd edim ki, rus və bir çox Qərb tədqiqatçıları yeri gəldi-gəlmədi Nostradamusdan istifadə edərək, İslam aləminə qara yaxmaqla məşğul olurlar.

## 4 k69

**Sürgün olunanlar şəhəri əldə saxlayacaqlar.**
**Şəhərlilər: əzilmişlər, məhv olmuşlar, qovulmuşlar.**
**Akvileydən olanlar Parmaya keçilməmiş yerlərdən**
**Girişi göstərməyi vəd edəcəklər.**

Tədqiqatçılar Akvileyin qədim Roma İmperiyasının tərkibində bir şəhər olduğunu, sonralar Parma ərazisində Fransanın dəniz istehkamı, liman şəhəri olduğunu qeyd etsələr də, katrendə söhbətin kimlərdən və nədən getdiyini göstərməkdə çətinlik çəkmişlər.

## 4 k70

**Böyük Pireney dağlarının lap yaxınlığında**
**Birisi Qartala qarşı böyük ordu göndərəcək.**
**Damarlar kəsiləcək, güc tükənəcək.**
**Başçı gələrək, onları Poya qədər qovacaqdır.**

Katrendə söhbət ingilislərlə fransızlar arasında XIX əsrin əvvəlində baş verən müharibədən gedir. “Başçı” deyəndə ser Artur Uelsli (hersoq Vellinqton) nəzərdə tutulur. Napoleonun Rusiyadakı ağır itki və məğlubiyyətindən sonra Fransa İspaniyada ordu hissələrini azaltmaq məcburiyyətində qalmışdı. İngilis generalı Vellinqton bundan məharətlə istifadə etdi və 1813-1814-cü illərdə fransızlara ağır zərbələr endirdi. O, əvvəlcə marşal Jan Jurdanın komandanlıq etdiyi ordunu məğlub etdi. Jurdanın ordusu Pireney dağlarının arxasına çəkilməli oldu. Vellinqton ara vermədən Pireney dağlarının lap yaxınlığında, San-Sebastyan və

Pamplonda fransızları mühasirəyə aldı. Sentyabr və oktyabr aylarında fransızların gücü tükəndi və müqaviməti dayandırdılar. Katrendə göstərildiyi kimi, bundan sonra Vellinqton 40 minlik ordu ilə Pireney dağlarını aşaraq Fransa ərazisinə soxuldu. 1814-cü ilin əvvəlində Bayon yaxınlığında fransızları məğlub edərək Po şəhərinə və Tuluzaya yaxınlaşdı ki, onların güclü istehkamlarını mühasirəyə alsın. Lakin bu vaxt Napoleonun taxt-tacdan uzaqlaşdırıldığı xəbəri hərbi əməliyyatlara son qoydu.

Göründüyü kimi, Nostradamusun katrendə bəyan etdikləri yüzdə yüz yerinə yetmişdir.

### 4 k71

**Gəlinin əvəzinə qızlar öldürülüblər.**
**Belə qəddar qətldən sonra heç kim sağ qalmayacaq.**
**Bakirə qızlar quyularda batırılıblar.**
**Gəlin isə akonitlə zəhərlənib.**



*Çar II Nikolay və ailəsi (1902)*

Bu katren 1918-ci ilin 17 iyulunda rus çarı II Nikolay və ailəsinin Sibirin Yekaterinburq şəhərində qırmızı qvardiyaçılar tərəfindən qəddarcasına qətlə yetirilməsindən bəhs edir.

Bolşeviklər əvvəlcə çarı və ailəsini Sibirdə Tobolsk şəhərinə gətirirlər, lakin 1918-ci ilin yazında Yekaterinburqa apa-

rırlar. İyul ayında əks-inqilabçı qüvvələrin şəhəri tutacaqlarını bilən kimi, Kral ailəsini məhv etmək qərara alınır. İyulun 17-nə keçən gecə çar, çariça, onların hələ məsum olan oğlu və dörd qızı, həkimləri, üç xidmətçisi evin zirzəmisinə aparılmış, çara və başqa məhbuslara əyləşmək üçün stul verilmişdi. Yurovski adlı bolşevik elan etmişdi: "Nikolay Aleksandroviç sizin davamçılarınız sizi azad etməyə can atsalar da, buna nail ola bilmədilər. İndi siz güllələnməlisiniz". Necə yəni güllələnməlisiniz? – çar etiraz səsini ucaltmışdı.

Bax belə – deyərək Yurovski çarı sinəsindən vurmuşdu. Sonra isə bütün məhbusları güllələmişdilər.

Burada təkcə onu demək olar ki, katrenin 2-ci sətri son vaxtlara qədər çar ailəsindən kiminsə sağ qalması barədə gəzən söz-söhbətin, şayiələrin əsassız olduğunu göstərir.

**4 k72**

**Artomiklər Ajan və Lestor vasitəsilə**
**Sən-Felksdə öz parlamentlərini təşkil edəcəklər.**
**Bazasdan olanlar münasib olmayan vaxtda gələcəklər.**
**Kondon və Marsanı tezliklə tutacaqlar.**

Katrendə adı çəkilən şəhərlərin hamısı Fransanın cənub və cənub-qərbində yerləşir. Bu yerlər vaxtilə katoliklərə qarşı dini müharibələr aparan hugenotlar hərəkatının mərkəzi olmuşdur.

Tədqiqatçılar bu katren barədə tutarlı bir fikir söyləyə bilməmişlər. Con Houq belə güman edir ki, katren gələcəkdə bu yerlərdə yeni dini təriqətin meydana gəlməsi ilə bağlı ola bilər.

**4 k73**

**Qorxaqlıqla edilmiş cinayəti**
**Böyük əmioğlu güc vasitəsi ilə sübut edəcək.**
**Tamaşa olan gecə**
**Ferar və Ast faciəsini hersoq görəcək.**

Bu katren hersoq de Berrinin öldürülməsindən (bax: 1 k84, 3 k96) və bundan istifadə edən Lui Napoleonun hakimiyyətə gəlmə şansının artmasından bəhs edir.

**4 k74**

**Makoi və Cenevrə gölü ətrafından olanlar**
**Hamı Akvitandan olanlara qarşı toplaşacaqlar.**
**Çoxlu alman, daha çox isə isveçrəli**
**Mendən olanlarla əlaqəyə girəcəklər.**

Katrendə dini müharibələr zamanı Fransada baş verən hadisələrdən bəhs olunur. III Dini müharibə zamanı (1568-1570) katoliklərin ordusu və isveçrəli müttəfiqləri hugenotları və onlara havadar olan muzdlu alman hərbi birləşmələrini Men yaxınlığında darmadağın etmişdilər. Sonra isə Makon yaxınlığında eyni hadisə baş verib. Nostradamus, təkcə bu katrendə deyil, bəzi başqa katrenlərdə də Fransa üçün ağır zərbə olan dini müharibələrdən ürək ağrısı ilə söz açır.

**4 k75**

**Döyüşə hazır olan qaçacaq.**
**Əsas düşmən qələbəni əldə edəcək.**
**Qoşunun arxa dəstəsi (hissəsi) müdafiədə dayanacaq.**
**Sarsılanlar, donanlar ağ ərazidə məhv olacaq.**

Böyük görücü bu katrendə 1812-ci ilin iyun ayında Napoleonun Rusiyaya yürüşündən və altı ay sonra ordunu ölkənin qar, şaxta və çovğundan göz açmaq mümkün olmayan çöllərində qoyaraq, paltarını dəyişməsindən, özünü tanınmaz hala salaraq Fransaya qaçmasından danışır. İyirmidən çox xalqın döyüşçülərindən ibarət olan beş yüz minlik Napoleon ordusundan cəmisi 20 min nəfər sağ qalmışdı. Onların da çoxunun ayaq, burun və ya qulaqlarını soyuq aparmış, yarımcan qalmışdılar.

R.V.Velş bu katrenin II Dünya müharibəsi zamanı Stalinqradda baş verən hadisələrlə əlaqədar olduğunu göstərir.

**4 k76**

**Ajendən (şəhər) olanlar, periqorlulular tərəfindən**
**Rona çayına qədər sıxışdırılacaqlar.**
**Qaskon və biqorralıların ittifaqı**
**Hugenotların məbədinə xəyanət edəcək, kahin öz moizəsinə (xütbə) sadiq qalacaq.**

Katrendə adı çəkilən bütün yerlər Fransadadır. Katren ölkədə uzun illər tüğyan edən dini müharibələrdən bəhs edir. Tarixçilərin göstərdiklərinə görə, burada Nostradamus 1576-cı ildə katoliklərlə protestantlar arasında başlayan altıncı dini müharibədən söz açır.

**4 k77**

**İtaliyanı sakitləşdirən Selin-kral,**
**Krallıqlar dünyanın Xristian kralı ilə birləşib,**
**Quldurları dənizdən qovandan sonra**
**Öləndə Blua (Fransa) torpağında qalmaq istəyəcək.**

Başda Con Houq olmaqla əksər tədqiqatçılar, bu katrenin Fransa kralı II Henridən bəhs etdiyini göstərirlər. Katrenin 1-ci sətrində işlənən "selin" yunan sözü olub, Ay və ya Diana mənasını verir. Kral II Henri vaxtının çoxunu açıq-aşkar məşuqəsi Diana de Puatiyerlə keçirərmiş. O da maraqlıdır ki, II Henri sağlığında, "Dünyanın Xristian kralı" adını qazanmışdı. Bunu Nostradamus kral II Henriyə ünvanladığı Açıqlamada xüsusi vurğulayır.

**4 k78**

**Vətəndaş müharibəsinin böyük ordusuna**
**Gecə Parma qəribə göründü.**
**Şəhər divarları arasında 79 ölən var.**
**Yadellilər yoxa çıxdılar, hamı qılıncdan keçirildi.**

Tədqiqatçılar bu katren haqqında qəti söz deməkdən çəkinmişlər. Lakin bir şey aydındır ki, katrendə söhbət Fransadan gedir.

### 4 k79

**Kral qanı axır, Monhür, Mas, Eqiyon, Bordonun**
**Geniş çölləri qan ilə dolmuşdur.**
**Navarra və Biqorra silahı tuşlayacaq və tələsəcək.**
**Bərk aclıq ucbatından palıd qozu və qabığı yeyəcəklər.**

Bu katrendə Fransada katoliklərlə protestantlar arasında gedən müharibələrdən – xüsusən də 1579-cu ildə baş verən Yeddinci dini müharibədən bəhs olunur.

### 4 k80

**Böyük çayın yaxınlığında yer qazılıb, böyük xəndəklər düzəldilib.**
**Xəndəkləri su on beş yerə böləcək.**
**Şəhər od tutub, od-alov, qan, qışqırıq aləmi başına alıb.**
**Döyüşə böyük ordu cəlb olunub.**

Bu katren də almanların hücumlarından qorunmaq üçün fransızların Majino müdafiə xətti adlanan görünməmiş beton divarlar tikməsindən və bunun mənasız bir iş olduğundan, almanların Fransanı, bircə ayın içində isə onun paytaxtı Parisi tutacaqlarından bəhs edir. Hələ XIX əsrdə Nostradamusun tədqiqatçılarından biri – Torne-Şavinyi böyük görücünün katrenlərinə əsasən göstərmişdi ki, Fransa almanlardan qorunmaq üçün müdafiə xətti yaradacaq. Doğrudan da, 20-ci illərdə Fransa hökuməti möhtəşəm Majino müdafiə xəttinin tikilməsi barədə qərar qəbul etdi. 1930-1934-cü illər arasında uzunluğu 310 km olan müdafiə istehkamları tikilib başa çatdırıldı. Hər mili (bir mil quruda 1609, dənizdə isə 1852 metrə bərabərdir) iki milyon dollara başa gələn Majino beton istehkamları yeddimərtəbə bina hündürlüyündə idi. Altından isə dəmiryol xətti çəkilmişdi. İstehkamlar böyük Reyn çayı ilə üzbəüz idi. Nostradamusun bu katrendə göstərdiyi kimi istehkamları 15

yerdən çaylar yarıb keçirdi. Maraqlıdır ki, Nostradamusun məşhur tədqiqatçılarından olan Maks de Fonbryun II Dünya müharibəsinin başlanmasına iki il qalmış bu katrenə arxalanaraq bəyan etmişdi ki, həmvətənləri əbəs yerə arxayınlaşaraq lovğalıq göstərirlər. Şiddətli tənqidə məruz qalan tədqiqatçı çəkinmədən almanların Parisi tutacaqlarını qeyd edirdi. Əsrlərlə öncə Nostradamusun, XX əsrdə isə onun tədqiqatçısı Maks de Fonbryunun dediyi kimi də oldu. 1940-cı ildə almanlar bütün gücünü Majino istehkamları ətrafında toplayan fransızları aldadaraq, Belçikadan Fransaya girdilər və bir çox şəhərlər kimi müdafiəsiz qalan Paris şəhərini tutdular. Katrenin 3-cü sətrində Nostradamus buna işarə edir. Majino müdafiə xətti ilə bağlı ətraflı məlumat almaq üçün baxın: 1 k34, 2 k63.

**4 k81**

**Böyük Belçika şahzadəsinin ordusunun keçməsi üçün**
**Tez bir vaxtda qayıqlardan körpü düzəldəcəklər.**
**Brüsselin yaxınlığında və ölkənin dərinliklərində**
**Yeddi nəfər silahla tikə-tikə doğranaraq, ömürlərini tapşıracaqlar.**

Tədqiqatçıların fikrincə Nostradamus bu katrendə öz müasiri olan Belçika kralı II Filippdən söhbət açır. Məlum olduğu kimi, imperator V Karl 1554-cü ildə "Müqəddəs Roma imperiyası"ndan imtina edərək Hollandiya, Belçika və İspaniyanı oğlu II Filippə, onun qalan hissəsini isə qardaşı Ferdinanda həvalə etmişdi (bax: 1 k32, 1 k43, 1 k58). Katren həmin hadisədən beş-altı ay əvvəl yazılmışdı. II Filipp dəfələrlə Fransaya hücum etmişdi.

Güman ki, II Filipp Fransaya şimaldan – Belçikadan hücum edəndə, çayı keçmək üçün qayıqlardan körpü kimi istifadə etmişdir. Nostradamus aylıq və illik almanaxlar düzəldərək, həmin vaxtda olacaq hadisələrə də diqqət yetirmişdi. Çəkinmədən bu katreni onun illik katrenləri sırasına daxil etmək olar. Bu

baxımdan, güman etmək olar ki, son sətirdə söhbət açılan yeddi nəfərin qılıncdan keçirilməsi bəlkə də o zaman üçün mühüm olub. Lakin böyük tarix müstəvisində diqqətdən kənarda qalıb və sonralar onu şərh etmək mümkün olmayıb.

**4 k82**

**Slavoniyaya çoxlu adam yaxınlaşır.**
**Dağıdıcı adam köhnə şəhəri xaraba qoyacaq.**
**Özünün Roma imperiyasını tamamilə məhv olmuş görəcək.**
**Sonra o, böyük yanğını necə söndürməyi bilməyəcək.**

Katren Napoleonun Slavoniyaya – Rusiyaya yürüşündən (1812), Moskvanın tamamilə şalban və taxtadan tikilmiş evlərinin 14 sentyabr 1812-ci il tarixdə yandırılmasından, sığınacaq tapmayan Napoleon ordusunun geri dönərkən qarlı-şaxtalı, boranlı Rus çöllərində donaraq məhv olmasından bəhs edir. 500 min nəfərlik ordudan cəmisi 20 min əsgər sağ qalmışdı. 2-ci sətirdə verilmiş "dağıdıcı adam" Napoleondur. "Napoleon" qədim yunan dilində "dağıdıcı", "məhvedici", "öldürücü" mənalarını verir.

Ruslar əvvəllər şayiə yayırdılar ki, Moskvanı Napoleon yandırıb. Maraqlıdır ki, fransız yazıçısı Aleksandr Düma 1858-ci ildə Rusiyaya, o cümlədən də Azərbaycana səyahətə gələndə bu barədə ruslarla mübahisə etmiş və "Qafqaz səfəri" kitabında yazmışdır: "Napoleon dahi şəxsiyyət olaraq böyük səhvlər edə bilərdi. Lakin ağılsız işlər görməzdi".

**4 k83**

**Gecə döyüşü, cəsur kapitan.**
**Məğlub qaçacaq, az adam xilas olacaq.**
**Onun adamları həyəcanlıdırlar, qiyam nahaqdan baş verməyib.**
**Öz oğlu onu mühasirədə saxlayacaq.**

Tədqiqatçılar bu katren barədə qəti söz deməkdən çəkinmişlər.

## 4 k84

**Okserdən olan böyük şəxs, böyük bədbəxtlikdən öləcək.**
**O, hakimiyyəti altında olanlar tərəfindən qovulmuşdur.**
**Mars, Venera və Günəş bir araya gələn ilin yayında,**
**Onun əl-qolunu, dərini kəsib keçən kəndirlə sarıyacaq,**
**sonra zəncirləyəcəklər.**

Tədqiqatçılar bu katrendə söhbət açılan hadisələrin gələcəkdə Fransanın Okser şəhərindən olan prezidentin başına gələcəyini qeyd edirlər. Göstərirlər ki, 2032-ci ilin avqust ayında Mars, Venera və Günəşin bir araya gəlməsi nadir hadisə kimi qeyd olunacaq.

## 4 k85

**Burbonlar və onların kralı qovulacaq.**
**Əsir alınacaq, peyin arabasında aparılacaq.**
**Onun ayaqları və əlləri qandallanacaq.**
**Sonra alçaldılacaq, məhv ediləcək.**

Bu katrendə söhbət 21 yanvar 1793- cü ildə kəndli arabasında edam yerinə aparılan və boynu vurulan kral XVI Lüdovikdən gedir. Bu barədə artıq lazımınca danışdığımızdan burada bir onu deyək ki, hadisələr Fransa inqilabı vaxtı baş vermişdi.

## 4 k86

**Saturnun Günəş və zodiak bürcləri ilə zahiri,**
**Birləşdiyi ildə, güclü və qüdrətli kral**
**Reymsdə və Eksdə qəbul ediləcək və ona xeyir-dua veriləcək.**
**Hakimiyyəti ələ aldıqdan sonra o, günahsız adamı öldürəcək.**

Hər şeydən əvvəl onu deyək ki, Günəş və Saturn zodiak bürc - lərindən biri ilə (Balıqlar, Xərçəng, Əqrəb) hər doqquz il altı ayda bir dəfə kəsişir. Tədqiqatçıların fikrincə bu katrendə Fransada baş vermiş hadisələrdən bəhs olunur. Söhbət 1610-cu ilin fevralında Fransanın kralı IV Henrinin Ravalak adlı fanatik tərəfindən öldürülməsindən gedir.

## 4 k87

**Çoxlu dil bilən kral oğlu,**
**Krallıqda öz sələfindən fərqlənəcək.**
**Onun gözəl atası oğlunun böyüklüyünü başa düşəcək.**
**Əsas rəqibini kənarlaşdıracaq.**

Tədqiqatçılar bu katrenin fransız kralı III Henridən bəhs etdiyini qeyd edirlər. Göstərirlər ki, III Henri sələfi olan qardaşı IX Karldan fərqlənirdi. O, bir neçə əcnəbi dildə danışır, ölkəni guya daha yaxşı idarə edirdi. Katrendən göründüyü kimi, söhbət ata və oğuldan gedir. Odur ki, katreni qardaşı Karldan sonra hakimiyyətə gələn III Henriyə aid etmək doğru deyildir.

Biseksual olan bu adama hamı nifrət edirdi. Çox nahaq qanlar tökən III Henrini axırda qanına qəltan edərək xəncərlə öldürmüşdülər.[1]

Bizə qalırsa, bu katrendə söhbət Azərbaycanın sabiq Prezidenti Heydər Əliyev və hazırkı Prezidenti İlham Əliyevdən gedir. Katrenin bütün sətirlərində bəyan olunanlar İlham Əliyevin həyatı və fəaliyyəti ilə birmənalı şəkildə səsləşir. İlham Əliyev həqiqətən də öz sələfindən fərqlənir. O, atasının əsasını qoyduğu böyük işləri ağıl və təmkinlə həyata keçirir. Möhtəşəm Bakı-Tbilisi-Ceyhan neft kəməri (artıq Qazaxıstan da bu kəmərə qoşulmaq barədə müqavilə imzalayıb), planlaşdırılan və tezliklə reallaşması gözlənilən qaz kəməri (Türkmənistan da bu müqaviləyə qoşulacaq), Azərbaycanı və hətta Orta Asiya dövlətlərini Avropa ilə birləşdirəcək Dəmiryol xətti, ölkə daxilində görülən vüsətli işlər Nostradamusun nəzərindən qaça bilməzdi.

Yeri gəlmişkən, böyük görücü Azərbaycana daha bir neçə katren həsr etmişdir (Kitabın sonunda verilən “Bələdçi”yə bax).

---

[1] Con Houq. Nostradamusun külliyyatı. Moskva, 1999, səh.75.

### 4 k88

**Böyük Antuan adı və əməli ilə iyrəncdir.**
**Bit basmış, əzablı ömründə qoturdan yaxa qurtara bilməyəcək.**
**Kim ki, güllə arzusundadır,**
**Limanda öz istədiyini alacaq.**

Bu katrendə söhbət Navarranın kralı Antuan de Burbondan (1555-1562) gedir. Təmizliyə fikir verilmədiyinə görə o vaxtlar bit-birə adi adamlar kimi böyük mənsəb sahiblərini də basarmış. Bunun nəticəsində çox adam qoturluq xəstəliyinə tutularmış. Nostradamusun illik horoskopları sırasına daxil olan bu katrendə görücünün müasiri olan, bitli kral ləqəbini alan kral Antuan de Burbondan danışılır. O, qardaşı Kondenin rəhbərlik etdiyi iğtişaşlar vaxtı, 1562-ci ildə Ruana şəhərini mühasirə edərkən gülləyə tuş gəlib.

### 4 k89

**Londondan otuz nəfər sui-qəsd təşkil edəcək.**
**Öz krallarına qarşı sui-qəsd dəniz yolu ilə olacaq.**
**Kral və adamları ölümdən qorxaraq qaçacaqlar.**
**Seçilmiş sarışın saçlı kral Frislandiyadan olacaq.**

Bu dördlük Nostradamusun zirvə katrenlərindən biridir. Böyük görücünün vaxtında və hətta bir əsr sonra heç kim ağlına belə gətirə bilməzdi ki, hollandiyalı (frislandiyalı) bir şahzadə İngiltərənin kralı ola bilər. Lakin öngörücünün böyük uzaqgörənliklə bəyan etdiyi hadisə 1689-cu ildə (fikir verin: katrenin nömrəsi də həmin ili göstərir) baş verdi. Məsələ burasındadır ki, İngiltərədə hamı protestant olduğu və katolik məzhəbinə qarşı çıxdığı halda, kral II Yakov katolik qadınla evlənmiş və ondan gələcəkdə taxt-taca sahib olmaq hüququ qazanmış övladı olmuşdu. Buna yol verməmək üçün parlament Frislandiya (Hollandiya) şahzadəsi III Vilhelmi xəlvəti ingilis taxtına sahib olmağa sövq edirdi. III Vilhelm sui-qəsdçilərdən rəsmi müraciət tələb etdi. Parlamentin 29

üzvü məktub imzalayaraq Vilhelmin tərəfində olacaqlarını təsdiq etdilər. Vilhelm, ikinci sətirdən də göründüyü kimi, dəniz donanmasını toplayaraq Britaniya adalarına yollandı və ölkənin cənubunda sahilə çıxdı. Bu vaxt kral II Yakovun yaxın adamlarından olan hersoq Marboro bütün ordunu Vilhelmin ordusu ilə birləşdirdi. II Yakov babası I Çarlz kimi edam ediləcəyindən qorxaraq Fransaya qaçdı. Şahzadə Vilhelm qan tökülmədən ingilis taxttacına sahib oldu. Vilhelmin asanlıqla ingilis kralı olmasına səbəb bir də onun arvadı, əslən ingilis olan Mariyanın, II Yakovun əvvəlki izdivacdan olan qızının qanuni kraliça olmaq hüququ idi.

**4 k90**

**İki ordu divarların önündə birləşə bilməyəcək.**
**Bu anda Milan və Tisən (Paviya) qorxuya düşəcək.**
**Aclıq, susuzluq, şübhə onları elə hala salacaq ki,**
**Nə ət, nə çörək, nə də ərzaq olacaq. Yeməyə bir şey tapılmayacaq.**

Milan və onun 35-40 km-də yerləşən Paviya iki dəfə mühasirə vaxtı katrendə göstərilənlərlə üzləşmişlər. 1790-cı ildə Napoleon, 1945-ci ildə II Dünya müharibəsi zamanı isə mütəffiq orduları Milanı və Paviyanı tutmuşdular.

**4 k91**

**Dueldə vuruşmağa təhrik edilən Qalliya (Fransa) hersoqu üçün**
**Molleldən gələn gəmi Monokaya yaxınlaşmayacaq.**
**O, nahaq mühakimə olunmuşdur, daimi həbsxana həyatı**
**Onun oğlu ölümünə qədər hökmranlıq etməyə cəhd edəcək.**

Tədqiqatçıların fikrincə, katrendə 1490-cı ildə İspaniya tərəfindən zəbt edilmiş Mərakeş dəniz limanı Memeliyada baş verən ha - disələrdən bəhs edilir. Lakin söhbətin kimdən getdiyini göstərən olmamışdır.

## 4 k92

**Cəsur kapitanın başını bədənindən ayırıblar.**
**Başını rəqibinin ayaqları altına atıblar.**
**Bədənini gəminin dor ağacından asıblar.**
**Gəmi isə avarların köməyi ilə küləyə qarşı üzüb.**

Bəzi tədqiqatçılar bu katrendəki hadisənin gələcəkdə baş verəcəyini qeyd edirlər. Bir qisim tədqiqatçılar isə göstərirlər ki, 1799-cu ildə amerikalılar ingilislərə qarşı müstəqillik uğrunda müharibə aparanda, admiral Fransisko Karassiolo Amerikanın hərbi-dəniz donanmasına rəhbərliyi ələ almışdı. Gəmilər bir-birinə yaxınlaşanda və əlbəyaxa döyüş başlayanda admiral Fransisko ağır yaralanmışdı. Onu əsir edərək, admiral Nelsonun flaqman gəmisi ilə Minervaya gətiriblər. Otuz iyun 1799-cu ildə onu edam edərək, bədənini gəminin dor ağacından asıblar. Başını isə admiral Nelsonun ayaqları altına atıblar.

Con Houq isə göstərir ki, katrendə söhbət 1571-ci ildə Lepanto yaxınlığında düşmən gəmilərinin hücumu zamanı öldürülən cəsur müsəlman admiralı Əli Paşadan gedir.

## 4 k93

**Kral yatağının yanında görünən ilan**
**Xanım olacaq. Buna görə gecə itlər hürməyəcək.**
**Sonra Fransada krala layiq şahzadə doğulacaq.**
**O, göydən gələcək, bütün şahzadələr onu görəcəklər.**

Katrenin 1-ci sətrində çox güman ki, Yekaterina Mediçidən söhbət gedir. Çünki əri II Henrinin ölümündən sonra o, öz gerbinə ilan əlavə etmişdi. İtlərin hürməməsi onunla əlaqədardır ki, kralın yataq otağına girən kraliça olub. 3-cü və 4-cü sətirdə söhbət kral ailəsində doğulan birinci uşaqdan – Fransiskdən gedir. Məsələ burasındadır ki, birinci hamiləlik vaxtı uşaq salan Yekaterina Mediçinin bir neçə il uşağı olmamışdı. 4-cü sətirdə Nostradamus anadan təzə doğulan şahzadəni Allahın payı hesab edir.

**4 k94**

**İki yüksək mənsəbli qardaş İspaniyadan qovulacaq.**
**Böyüyü Pireney dağlarının ətəyində məğlub ediləcək.**
**Dəniz, Roma, Cenevrə gölü Almaniya tərəfdən qan içindədir.**
**Horban, Bezye, Aqd xəstəliyə düçar olublar.**

Bu katren barədə tədqiqatçılar ağlabatan bir fikir söyləməmişlər. Onun oxucular üçün o qədər də maraqlı olmayacağını düşünərək, katrenin təfsilatına varmadıq.

**4 k95**

**İki nəfərin öhdəsinə buraxılmış hökmranlıq az müddət sürəcək.**
**Üç il yeddi ay keçəcək, onlar müharibə edəcəklər.**
**Onların iki vassalı özlərinə qarşı çıxacaq.**
**Qalib Amerikada doğulub.**

Tədqiqatçıların qeyd etdiyi kimi, katren XX əsrin 90-cı illərinin lap əvvəlində son günlərini yaşayan Sovet İttifaqından bəhs edir. 1-ci sətirdə söhbət Mixail Qorbaçov və Eduard Şevardnadzedən gedir. Üç il yeddi aydan sonra Rusiya və Ukrayna M.Qorbaçova qarşı çıxdılar. Boris Yeltsin hakimiyyəti ələ aldı. 4-cü sətirdə Nostradamus ABŞ prezidentindən söz açır. Doğrudan da, Sovetlər dağıldıqdan sonra ABŞ dünyada hegemon oldu.

**4 k96**

**Britaniya adalarının böyük bacısı,**
**Qardaşından 15 il əvvəl doğulacaq.**
**Qardaşının verdiyi vədlər yerinə yetirildiyinə görə**
**Bacısı bərabərliyə nail olacaq.**

Nostradamus 1-ci sətirdə çox obrazlı şəkildə Britaniyanın Şimali Amerikada olan 13 koloniyasından söz açır. 2-ci sətirdə söhbət Fransadan gedir. Amerika, Fransanın yardımı ilə Britaniya ilə müharibə apararaq, 1776-cı ildə müstəqillik əldə etmişdi.

1791-1792-ci illər inqilabından sonra isə, yəni düz 15 il sonra Fransa Respublika elan olundu. Monarxiyaya son qoyuldu. Maraqlıdır ki, ABŞ-ı ilk tanıyan dövlət Fransa olmuşdur.

## 4 k97

**Merkuri, Mars, Venera bir-birinə qarşı olan il**
**Böyük Monarxın tutduğu yol davam edəcək.**
**Portuqaliya xalqı tərəfindən kral seçilən,**
**Hakimiyyətdə və dünyada əmin-amanlıqla yaşayacaq.**

Tədqiqatçılar göstərirlər ki, Merkuri, Mars və Venera planetləri 1640-cı ildə qarşıdurma vəziyyətində olanda IV Juan Portuqaliyanın kralı seçilib və ölkə İspaniyanın tabeliyindən çıxaraq müstəqillik qazanıb. IV Juan Braqansa kral sülaləsinin əsasını qoyub. Cəmisi 16 il hakimiyyətdə olub və 51 yaşında dünyasını dəyişib. Buna baxmayaraq, onun ağıllı siyasəti nəticəsində Portuqaliya özünün Avropadakı keçmiş şan-şöhrətini qaytarıbmış.

## 4 k98

**Albanlar Roma şəhərinə girəcəklər.**
**Lanqrların köməyi ilə hamı gülməli bəzənəcək.**
**Markiz və hersoq heç kimi bağışlamayacaq.**
**Atəş, tökülən qan, çiçək xəstəliyi, susuzluq vəziyyəti ağırlaşdıracaq.**

Nostradamusun bu katreni tədqiqatçılar üçün bir müəmma olaraq qalır.

## 4 k99

**Kral qızının böyük cəsur oğlu,**
**Keltləri (fransızları) öz torpaqlarında geri otuzduracaq.**
**Yaxında, uzaqda, qərb torpaqlarının dərinliklərində**
**Atılan güllələr ildırım kimi çaxacaq.**

Katrendə söhbət "Dəmir şahzadə" ləqəbini qazanmış prussiyalı şahzadə Frederik Çarlzın Fransaya qarşı apardığı müharibədən, düşmənin ölkənin dərinliklərinə qədər gəlib çıxmasından, 1871-ci ildə Fransanı məğlub etməsindən gedir. Əksər tədqiqataçılar nədənsə bu katreni II Dünya müharibəsi və Almaniya ilə bağlayırlar. Lakin bu düz deyildir. 1-ci sətirdə Nostradamus, Frederixin Almaniya kralının qızının oğlu olduğuna işarə edir.

**4 k100**

**Müharibə alovu zəifləyəndə,**
**Kral sarayına göydən od töküləcək.**
**Yeddi ay davam edən müharibədə yazıq camaat məhv olacaq.**
**Ruan və Evre krala kömək etmək istəyəcək.**

Katrenin 1-ci sətrində Fransa-Prussiya müharibəsinin sona yetməsindən, 2-ci sətirdə Paris kommunarlarının ordu hissələrinin Tyuleri kral sarayına hücumundan, ölkədaxili müharibənin 7 ay davam etməsindən (iyul 1870 – fevral 1871), Ruan və Evre əhalisinin monarxiya tərəfdarı olmasından danışılır.

# V SENTURİYA (V YÜZLÜK)

***Baş verəcək hadisələri səma cisimlərinin düzülüş qanununa əsasən bilmək olur. Bunlar insanın cəhdi, vəcdə gəlməsi və ən başlıcası Yaradanın iradəsi ilə bağlı məsələlərdir. Əbədiliyə qarışan axın bu iradə ilə idarə olunur. Keçmiş də, indi də, gələcək də axıb bir araya gəlir, qovuşur və aşkar olur.***



## 5 k1

**Kelt (Fransa) xarabazara çevrilməmişdən əvvəl,**
**Məbədin içində iki nəfər söhbət edəcək.**
**Atın üstündə olanın ürəyinə xəncər və nizə saplanacaq.**
**Böyük, səssiz-səmirsiz dəfn olunacaq.**

Tədqiqatçılar, bu katren barədə əsasən iki fikir söyləyirlər. Moni göstərir ki, söhbət Kremldə 1939-cu ilin avqust ayında Molotov və Ribbentrop arasında gedən danışıqlardan və məlum sazişə əsasən, həmin ilin sentyabrında hər iki tərəfin Polşaya hücum planına uyğun, ölkənin iki yerə bölünməsindən gedir. Sovet – alman sazişi cibində hazır olan Hitler heç kimdən çəkinmədən 1940-cı ildə Fransaya ildırım sürətilə hücum edərək, ölkəni xarabazara çevirib.

Con Houq isə hesab edir ki, katrendə söhbət Fransa inqilabı zamanı (1789-1792) generalissimus Henri de Lya Roşejaklenin öldürülməsindən gedir. Msyö Henri tələb edirdi ki, respublikaçı döyüşçülər silahlarını şəxsən ona təhvil versinlər. Bir əsgər silahını təhvil verəndə atəş açıb və Msyö Henri yerindəcə ölüb. Əsgərlər onun qətlə yetirildiyini gizlətmək üçün sifətini tanınmaz hala salaraq, səssiz-səmirsiz dəfn ediblər. Bundan sonra respubli - kaçıların əl-qolu açılıb, “Cəhənnəm ordusu” adı alan respublika

hərbi hissələri tərəfindən minlərlə monarxiya tərəfdarı öldürülüb. Talan başlayıb və ölkə xarabazara çevrilib.

**5 k2**

**Yeddi nəfər sui-qəsdçi ziyafətdə üçlüyə qarşı,**
**Gəmidə qılınc çəkəcəklər. Onlardan biri,**
**Hər iki donanmanı böyüyə gətizdirəcək.**
**Zirehli geyimi görəndə, axırıncı qaşını çatacaq.**

Bu katren barədə tədqiqatçılar inandırıcı bir söz deyə bilməyiblər. Müxtəlif fərziyyələr irəli sürsələr də, katrenin məğzini açıb göstərməkdə çətinlik çəkiblər.

**5 k3**

**Toskaniya dənizindən çox-çox uzaqlara**
**Hersoqluğun varisi gələcək.**
**Qalliya (Fransa) budağı Florensiyanı əldə saxlayacaq.**
**Su qurbağası, razılığa görə, öz yerində qalacaq.**

Katrendə söhbət Fransada sülalələrin biri-birini əvəz etməsindən gedir. O ki, qaldı su qurbağası məsələsinə, əfsanəyə görə Toskaniyanın ilk sakinlərini Vakx guya qurbağaya döndəribmiş. Əfsanəvi kral Faramondanın bayrağını mavi fon üzərində təsvir edilən üç qızıl qurbağa bəzəyirmiş. Nostradamus buna işarə ilə göstərir ki, hakimiyyət 1859-cu ilə qədər Florensiyada da, Toskaniyada da Lotarinskilər sülaləsinin əlində olacaq.

**5 k4**

**Şəhərdən çıxarılan Böyük Mastifi**
**Müəmmalı sövdələşmə qəzəbləndirəcək.**
**Çöllərə çıxarılmış marala görə**
**Canavar və Ayı biri-birinə meydan oxuyacaq.**

Katren II Dünya müharibəsindən bəhs edir. "Böyük Mastif" de - yəndə Nostradamus Vinston Çörçili nəzərdə tutur. Əgər orta əsrlər ingilis mastifinin şəklinə nəzər salsanız, açıqca görəcəksiniz ki, o,

müasir ingilis buldoquna oxşayır. Con Houq Çörçilin çox kök olduğunu nəzərə alaraq, söhbətin ondan getdiyini qeyd edir. Almaniya ilə Fransa arasında sövdələşmələrin getdiyindən xəbər tutan Çörçil Parisə səfər etmiş, lakin fransızların ona rəğbət göstərmədiklərini və almanlara təslim olmaq barədə niyyətlərini açıqca hiss edərək, qəzəblənmişdi. Parisi tərk edən kimi, fransızların Oranda lövbər salmış hərbi-dəniz donanmasına hücum etmək barədə əmr vermişdi. 3-cü sətirdə söhbət Polşadan gedir. Keçmişdə Polşanın bayrağında maral həkk olunardı (bax: 10 k99), 4-cü sətirdə isə Hitlerlə rusların mübarizəsindən söhbət gedir. Məlumdur ki, Rusiya tarixən "Ayılar ölkəsi" adlanıb. O ki, qaldı "canavar" sözünə, demək lazımdır ki, qədim german dilində "Adolf" "canavar" mənasında işlənib. O da maraqlıdır ki, Fürerin ştabı Sovet İttifaqını tutmaq barədəki planı "Canavar yuvası" adlandırmışdı.

**5 k5**

**Asılılıqdan qurtarmaq pərdəsi altında,**
**Öz xeyrinə şəhəri və xalqı zəbt edəcək.**
**Gənc qızla bağlı peşmançılıqdan sonra, lap pis əməllərdən çıxacaq.**
**"Mənim düşərgəm"də (döyüş meydanı) yalan şeirlər oxuyacaq.**

Bu katren başdan-ayağa Adolf Hitlerdən bəhs edir. 1-ci sətirdə Nostradamus göstərir ki, Hitler aldadıcı və ehtiraslı çıxışları ilə Almaniyanı alçaldıcı Versal sazişindən xilas etdi. Xalqı beynəlxalq yəhudiçiliyə qarşı qaldırdı. 2-ci sətirdə göstərilir ki, o, Berlini və Almaniyanı tam öz təsiri altına aldı. Lakin yaxın qohumu gənc Heli Raubalı yoldan çıxardığına görə, qız özünü öldürdükdən sonra peşmançılıq çəksə də, ürəyi daşa dönmüşdü. Hitler etiraf etmişdi ki, Heli onun həqiqətən də sevdiyi yeganə qadın idi. Helinin ölümü onda insanlara qarşı bir rəhmsizlik oyatmışdı. Odur ki, bütün dünyadan intiqam almağa, necə deyərlər, bəşəriyyətin bir başı olsa idi, onu kəsməyə hazır idi. 4-cü sətirdə Nostradamus Hitlerin "Mein Kampf" kitabından söhbət açır. Məlumdur ki, bu kitabda Hitlerin almanlara minillik Reyx yaradacağı barədə vəd və xəyallarından bəhs edilir.

**5 k6**
**Kahin əlini krala toxunduraraq,**
**Gəlib İtaliyada sülh naminə ibadət edəcək.**
**Hökmranlıq əsası (skipetr) sol ələ keçəcək.**
**Bu kraldan dünyaya sülhsevər hökmdar gələcək.**



***Prezident Heydər Əliyev və Papa II Pavel***
***Bakı, 22.05.2002***

Tədqiqatçılar Nostradamusun bu katrenini açmaqda çətinliklə üzləşiblər. Doğru qənaətə gəliblər ki, böyük görücünün söhbət açdığı hadisələr gələcəkdə baş verəcəkdir. Bizə qalırsa, bu katren Roma Papası II İohann Pavelin Azərbaycana səfəri (22.05-23.05. 2002), Prezident Heydər Əliyev və oğlu İlham Əliyevlə bağlıdır.

Biz bu qənaətə ciddi tədqiqat apararaq gəlmişik. Məsələ burasındadır ki, Nosrtradamusun dövründən XX əsrin 2-ci yarısına qədər heç bir Roma Papası İtaliya sərhədlərindən kənara çıxmamışdı. Nosrtradamusun katrendə söhbət açdıqları Papa II Pavelin vaxtında baş verib. Azərbaycan və Mərakeşdən başqa, dövlətin başçısı sağ ikən Papanın ziyarət etdiyi 130-a qədər ölkənin heç birində atadan sonra hakimiyyətə oğul gəlməyib.

Doğrudur, İordaniyada kral Hüseyndən və Suriyada Hafiz Əsəddən sonra (ölüm tarixi: 10 iyun 2000-ci il) hakimiyyətə oğlanları Abdulla və Bəşər Əsəd gəliblər. Lakin Roma Papası – Suriyaya 2001-ci ilin may ayında ziyarətə gedib. Yeri gəlmişkən, Papa II Pavelin İordaniyaya səfəri onunla bağlı Web saytda yer almadığına görə 27-30 avqust 2006-cı ildə İordaniyaya gedərkən öyrəndik ki, Papa II Pavelin İordaniyaya səfəri 2000-ci ilin mart ayında olub. Kral Hüseyn isə 1999-cu ilin fevral ayının 7-də vəfat edib. Qənaətimizin doğruluğuna əmin olduq.



***Nebo dağında Papa II Pavelin ziyarətinə həsr olunan abidə önündə. Q. Paşayev, qızı Aygün, kürəkəni Teymur, həyat yoldaşı Arəstə xanım və oğlu Murad (28.08.2006)***

Onu da deyə ki, Roma Papasının bir xristian ölkəsinə səfəri böyük hadisə kimi Nostradamusun diqqətini cəlb etməyə bilərdi. Lakin qədim zamanlardan ərazisində yəhudilərin əmin-amanlıqla, toplum halda yaşadığı, dünyaya neçə-neçə görkəmli yəhudi musiqiçisi, alim, həkim və s. töhfə etmiş Azərbaycan, milliyyətcə yəhudi olan görücünün diqqətini çəkməyə bilməzdi. Burada onu da demək yerinə düşərdi ki, siyasi durum ucbatından nə Suriya, nə İordaniya, nə də Mərakeşdə yəhudi yaşamır.

Roma Papası II Pavelin müsəlman ölkəsi Azərbaycana gəlişi, Azərbaycanda katolik kilsəsinin tikilməsi üçün torpaq sahəsinin ayrılması da gənclikdən katolik dinini qəbul etmiş Nostradamusun nəzərindən yayına bilməzdi. Azərbaycanda yüksək səviyyədə qarşılanan Roma Papasının ölkəmizdən çox məmnun getməsi və İtaliyaya qayıdandan sonra göndərdiyi razılıq teleqramı və məktubu çox mətləblərdən söz açır. 2-ci sətirdən göründüyü kimi, İtaliyaya qayıtdıqdan sonra o, Azərbaycanda sülh, əmin-amanlıq naminə ibadət edib. Roma Papasının Azərbaycana ziyarətindən sonra Vatikanın nümayəndə heyətlərinin tez-tez ölkəmizə gəlməsi, dövlətimizin başçısı İlham Əliyevin II Pavelin dəfn mərasimində iştirak etməsi təməli Heydər Əliyev tərəfindən qoyulan xoşməramlı əlaqələrə xidmət edir. Nostradamusun katrendə işlətdiyi "kral" sözü "dövlət başçısı" mənasına gəlir. 4-cü sətirdən də göründüyü kimi, İlham Əliyev hakimiyyətə gəldi və xalqın mənafeyinə uyğun siyasət yeritməyə başladı. 4-cü sətirdə isə bizə qalırsa, söhbət nəvə Heydərdən gedir.

O ki, qaldı Mərakeşə, demək lazımdır ki, Papa II Pavel 1985-ci ilin avqust ayında Mərakeşdə 50 minlik izdiham qarşısında çıxış edib. 1999-cu ilin iyul ayında kral II Həsən öləndən sonra onun yerinə oğlu Məhəmməd keçib. Lakin Mərakeşin Vatikanla heç bir əlaqəsi olmadığına, ölkədə yəhudilər yaşamadığına görə bu katreni Məhəmmədlə əlaqələndirmək doğru olmazdı.

**5 k7**

**Sirli xəzinəni dərinliklərdə axtararkən,**
**Triumvirin sümükləri tapılacaq.**
**Ətrafdakılar dinclik tapa bilməyəcəklər.**
**Bu boşluqda isə qurğuşun və mərmərdən başqa heç nə olmayacaq.**

Katrendə söhbət Napoleondan gedir. 1799-cu ildə o, triumviratın üzvü idi. Yəni qədim Romadakı kimi, dövləti idarə edən üçlükdən biri – triumvir idi. Napoleon öləndən sonra ölkədə böyük ruh düşkünlüyü hökm sürürdü. Əhalidə əhvali-ruhiyyəni qaldırmaq məqsədi ilə kral Lui Filipp Napoleonun vəsiyyətini əsas tutaraq,

1840-cı ildə əmr verdi ki, Bonapartın nəşini Müqəddəs Yelena adasından Parisə gətirsinlər. Bu məqsədlə kral öz oğlunu və Napoleonun yaxın adamları olmuş Qurqo və Bertranı göndərdi ki, qəbri açanda onlar məzardakının həqiqətən də Napoleon olub-olmadığını təsdiqləsinlər. 19 il əvvəl, 1821-ci ildə dünyasını dəyişəndə Napoleonun cəsədi balzamlandığına görə çox yaxşı qalmışdı. İmperatorun



***Napoleonun Müqəddəs Yelena adasında türbəsi. 1821–1840-cı illər arası***



***Napoleon Parisdə bu möhtəşəm binada dəfn olunub***



***Napoleonun türbəsi***

cəsədini qurğuşun və mərmərdən düzəldilmiş tabuta qoyaraq, Parisə gətirdilər. Parisdə tabutu küçələrdən keçirərək, son mənzilə – Əlillər Sarayı kilsəsinə apardılar və burada dəfn etdilər.[1]

1-ci sətirdə işlənən "sirli xəzinə", tədqiqatçıların fikrincə, Fransanın itirilmiş şan-şöhrəti deməkdir. Lakin Lui Filippin fikri baş tutmadı. İnsanlar xülyalara dalmadılar. Ətraflı məlumat üçün bax: 1 k37.

**5 k8**

**Canlı alov buraxılacaq, gizli ölüm**
**Qorxulu şarların içindədir. Dəhşətdir.**
**Gecəyə yaxın hava qüvvələri şəhərin tozunu göyə sovuracaqlar.**
**Şəhər alov içindədir, düşmən üçün əlverişlidir.**

Söhbət II Dünya müharibəsi zamanı baş vermiş hadisələrdən gedir. 1-ci sətirdə bəhs olunan "canlı alov" hidrogen bombasının sintezidir. Bomba partlayarkən alov, hava və su ilə birləşir və canlı nə varsa yandırır. Bu sətirdə eləcə də gizli ölümdən danışılır. Gizli ölümə atom bombası gətirib çıxarır.

Göründüyü kimi, Nostradamus XX əsrin kütləvi qırğın silahı olan hidrogen və atom bombalarının dəhşətlərindən söz açır. II Dünya müharibəsi zamanı London, Drezden, Berlin və s. şəhərlər dağıdıcı bombardmana məruz qalmışdı. Xirosima və Naqasaki şəhərlərinə isə amerikalılar atom bombası atmışdılar.

**5 k9**

**Özülünə qədər dağıdılmış möhtəşəm tağın yanında**
**Başçının göstərişi ilə dostu əsir edilmişdi.**
**O, alnı və sifəti tüklü xanımdan doğulmuşdu.**
**Hersoq hiylə ilə ölümdən yaxa qurtarmışdı.**

Bu və sonrakı katrendə (5 k10) Nostradamus 14 fevral 1858-ci ildə III Napoleona qarşı edilən sui-qəsddən söz açır. 1-ci sətirdə

[1] Y.V.Tarle. Napoleon. Bakı, 1993, səh. 461.

III Napoleonu qətlə yetirmək üçün Opera teatrının bomba ilə partladılmasından bəhs olunur. 2-ci sətir III Napoleonun gəncliyi ilə bağlıdır. O, gəncliyində İtaliyada inqilabi hərəkatın fəal üzvlə - rindən olub. Lakin Fransada hakimiyyətə gəldikdən az sonra italiyalılar hiss etdilər ki, III Napoleon onların amallarına xəyanət edir. Odur ki, qraf Orsininin rəhbərliyi ilə onu aradan götürmək qərarına gəlirlər. Lakin sui-qəsdçilərdən Pyer adlı birisi tutulduğundan, sui-qəsdi yerinə yetirə bilməmişdilər.

### 5 k10

**Münaqişədə yaralanan Fransanın başçısı**
**Teatrın yanında məhv olanları görür.**
**Qan içindədir, yaralıdır, düşmən sıxışdırır.**
**Onu dörd əcnəbidən yerlilər xilas edəcək.**

Burada böyük görücü əvvəlki katrendə (5 k9) bəhs olunan hadisələrə tam aydınlıq gətirir. Yerli adamlar III Napoleonu elə əhatə ediblər ki, partlayış zamanı yaralansa da, sağ qalıb. Nostradamusun sonuncu sətirdə söhbət açdığı sui-qəsdçilər qraf Orsini, Pyer, Qomez və Rudio olub.

### 5 k11

**Günəşdən olanlar dənizləri təhlükəsiz keçməyəcəklər.**
**Veneradan olanlar bütün Afrikanı əldə saxlayırlar.**
**Hakimiyyət Günəş və Saturn tərəfindən daha tutulmayacaq.**
**Və dünyanın Asiya hissəsi dəyişəcək.**

Günəş – Yaponiya imperatorluğunun rəmzidir. Venera isə İtaliyanın simvolu hesab olunur. Doğrudan da, II Dünya müharibəsi ərəfəsində İtaliyanın Afrikada çoxlu koloniyaları vardı. Katrendə haqqında danışılan Saturnun bir neçə rəmzi mənası vardır. Onlar - dan biri faşizmdir. Saturnun rəngi qaradır. Onun rəngi alman eses - çilərinin və italyan qaraköynəklilərinin rənginə oxşayır. 3-cü sə - tirdə Nostradamus İtaliyada faşizmin Saturnun bir siklindən də az

müddətə (29.5 il) mövcud olacağını göstərmişdir. Mussolini tərəfindən əsası qoyulan faşist partiyası 1921-1945-ci illərdə, cəmi 25 il hakimiyyətdə olmuşdur.

4-cü sətirdə Uzaq Şərqdən – Yaponiyadan söhbət gedir.

**5 k12**

**Löman gölünün yanında onu izləyəcəklər.**
**Bir nəfər əcnəbi qadının əli ilə şəhərə xəyanət etmək istərkən,**
**Onu Ausburqda öldürənə qədər, böyük şəxsin müşayiətçiləri**
**Və Reyndən olanlar gəlib ora çatacaqlar.**

Tədqiqatçıların fikrincə, bu katren Nostradamusun zamanından sonra başlayan Otuzillik müharibədən bəhs edir. 1636-cı ildə "Müqəddəs Roma"nın imperatoru II Ferdinand Ausburq və başqa şəhərləri tutmuşdu. Nostradamus buna işarə edir.

**5 k13**

**Romalı Belçika kralı böyük qəzəblə**
**Öz cinahında barbarları sıxışdıracaq.**
**Liviyalıları qəzəblə Macarıstandan,**
**Sonra Cəbəlüttariqdən qovacaqlar.**

Bəzi tədqiqatçılar belə qənaətdədirlər ki, bu katrendə 1683-cü ildə türklərin və onların müttəfiqlərinin Vyananı mühasirəyə almasından, sonra isə katrendə adı çəkilən Macarıstan və Cəbəlüttariqdən birdəfəlik çıxarılmalarından danışılır.

**5 k14**

**Saturn və Mars Şir bürcündə olanda,**
**Münaqişə zamanı İspaniya Liviya tərəfindən zəbt olunacaq.**
**Maltanın yaxınlığında Hered (və ya varis) diri tutulacaq**
**Və Roma hakimiyyətinə Xoruz zərbə vuracaq.**

Katrendə Napoleonun 1798, 1808-1814-cü illərdə Misir, Malta, İspaniya və İtaliyaya zəfərli yürüşlərindən bəhs olunur. 4-cü sətir -

dən göründüyü kimi, Napoleon orduları İtaliyanı tutarkən, hətta Roma Papasını əsir etmişdilər.

Katrenin 4-cü sətrində yer alan "xoruz" 1792-ci ildən sonra Fransanın rəmzi kimi işlənmişdir.

Maraqlıdır ki, Nostradamus özündən iki əsr sonra belə, baş verəcək hadisənin detallarını da görüb.

**5 k15**

**Pontifik üzərkən əsir alındı,**
**Çaxnaşmada keşişi tərk edən anda.**
**İkinci seçilən yoxa çıxıb, onun rifah halı pisləşəcək.**
**Onun sevimli, qeyri-qanuni doğulan oğlu öləcək.**

Katrendə Nostradamus Roma papaları VI Piy və VII Piydən söz açır. VI Piy Napoleon tərəfindən əsir edilərək, Valensiyada zindanda saxlanılırdı. 1799-cu ildə oradaca ölüb. Ondan sonra seçilən Roma papası VII Piyi də Napoleon 1809-1814-cü illər arasında Fontenbloda ev dustağı edib. 3-cü sətirdə deyilən "İkinci seçilən yoxa çıxıb" da yerini alıb. Göstərilən illər arası VII Piy Vatikan - dan çox-çox uzaqlarda ev dustağı olub.

4-cü sətirdə Napoleonun öləcəyinə işarə edilir. Burada maraqlı cəhət odur ki, xristianların hamısının Roma papasının övladı hesab olunduğuna rəğmən Nostradamus "qeyri-qanuni" ifadəsini işlətmişdir. Ona görə ki, xristian dinində papaların evlənməsi qadağandır. Ətraflı məlumat üçün Senturiya 5, katren 57-yə bax - mağı məsləhət görürük.

**5 k16**

**Sabəsilərin göz yaşları daha çox axıdılacaq.**
**İnsanları yandırıb külə döndərəcəklər.**
**Faros adasında səlibçilər aranı qatacaqlar,**
**Rodosda dəhşətli kabus görünəcək.**

Birinci sətirdə yer alan "sabəsilər" – şənbə gününü bayram edənlər, yəni yəhudilərdir. Bu söz "sabinalılar" kimi də oxuna bi-



***Evensi həbs düşərgəsinin "tale üzünə gülən və sağ qalan qurbanlari"***

lir. Bu məqamda Roma yaxınlığında Sabinada yaşayanlar nəzərdə tutulur.

Ümumiyyətlə, katrendə II Dünya müharibəsi zamanı Hitler Almaniyası və italyan faşistlərinin törətdikləri dəhşətli hadisələrdən söz açılır. 2-ci sətirdə Nostradamus alman düşərgələrində əsirlərin, xüsusən də yəhudilərin qaz sobalarında yandırılaraq kü - lə döndərilməsini tam dəqiqliyi ilə görüb.

**5 k17**

**Gecə vaxtı kral xiyabanın yanından keçərkən**
**Kiprdən olan və əsas təhrikçi:**
**Kral yıxılır, əli Rona çayı boyu istiqamətində düşür.**
**Sui-qəsdçilər onun axırına çıxmağa gəlirlər.**

Tədqiqatçılar bu katren barədə qəti söz deməkdən çəkiniblər. Deməli, katrendə göstərilənlər gələcəkdə baş verəcəkdir.

## 5 k18

**Bədbəxt dərd içində öləcək.**
**Onu məftun edən qadın hekatombanı bayram edəcək.**
**Qədim qanun, frank fərmanı bəyan edilib.**
**Yeddinci gün şahzadə və divar yıxılacaq.**

Bu katrenin 4-cü sətrində II Dünya müharibəsi zamanı Almaniya ilə Fransa arasında baş verən hadisələrdən bəhs edilir. 1940-cı ilin iyununda almanlar fransızların "keçilməz sədd" adlandırdıqları Majino beton divarlarından yan keçərək, Belçika tərəfdən Fransaya hücuma keçdilər. Dünkerkdən yeddicə günə Parisə çatdılar. Prezident Lebryun məğlubiyyəti etiraf etdi. Nostradamusun 4-cü sətirdə obrazlı şəkildə bəyan etdikləri yerini tutdu. Fransada Üçüncü Respublika süqut etdi.

Dərin fəlsəfi məna daşıyan bu katrendə Nostradamus bir çox mətləblərdən söz açır. Birinci sətirdə Hitlerdən, ikinci sətirdə onun məşuqəsi Yevanın qədim yunanlarda təntənəli qurban mərasimi olan Nekatombanı bayram edəcəyindən, yəni kütləvi insan qırğınını görəcəyindən bəhs edilir. 3-cü sətirdə qədim Fransada dəbdə olan "ölümə ölüm" qanununa işarə edilir. Həmin qanuna görə kim adam öldürsə, onun özünü də öldürürdülər. Nostradamus, bu qanuna işarə etməklə, milyonların ölümünə bais olan Hitlerin dərd içində öləcəyini bəyan edir.

Maraqlıdır ki, Fransanın bu qədim qanunu Nostradamusun ölümündən 60 il sonra, 1624-cü ildə kardinal Rişelyenin Fərmanı ilə qüvvəyə minib. Kardinal bu fərmanla ölkədə baş alıb gedən duelin qarşısını almaq məqsədini güdürdü. O, "ölümə ölüm" qorxusu ilə istəyinə nail olmuşdu.

## 5 k19

**Böyük kralın qızılına mis qatılıb.**
**Saziş pozulub, müharibə cavan tərəfdən başlanıldı.**
**Xalq, məyus edilmiş rəhbərə görə əzab-əziyyət çəkir.**
**Torpaq barbarların qanı ilə suvarılacaq.**

Tədqiqatçılar bu katren barədə inandırıcı bir söz deyə bilməyiblər.

Bizə qalırsa, katrendə böyük görücü İran-İraq müharibəsindən (22.09.1980 – 08.08.1988) söz açır. Müharibəni Xomeyniyə nisbətən xeyli cavan olan Səddam Hüseyn başladı. Xalq bu mənasız müharibəyə görə əzab-əziyyət çəkdi. İraqda bir çox ailələr başsız qaldı. Ölənlərin və şikəst olanların sayı bir milyonu keçmişdi. 2-ci sətirdə 1975-ci ildə İran şahı ilə İraq prezidenti arasında bağlanmış sazişə işarə edilir.

1-ci sətirdə İran şahının ölkəni tərk etmək məcburiyyətində qalmasından, Qərb ölkələrinin, xüsusən də ABŞ və Fransanın ona xəyanətindən bəhs edilir.

**5 k20**

**Böyük ordu Alp dağlarını keçəcək.**
**Bundan bir az əvvəl əclaf, bədheybət doğulacaq:**
**O, qəribə və zirək adam olacaq.**
**Böyük toskaniyalı özünə münasib olan yerdədir.**

Katrenin 1-ci sətrində 1859-cu ildə III Napoleon ordusunun Alp dağlarını keçməsindən, 2-ci və 3-cü sətirlərdə inqilabçı Qaribaldidən, 4-cü sətirdə isə inqilabi hərəkatdan təşvişə düşərək Avstriyaya qaçan kral II Leopolddan bəhs edilir.

**5 k21**

**Latın (İtaliya) monarxının ölümü**
**Onları hakimiyyətdən kömək əldə etməyə gətirib çıxardı.**
**Od-alov parlayacaq, qənimət bölünüb.**
**Hərəkətlərinə görə qorxmazlar camaat qarşısında edam olunacaqlar.**

Tədqiqatçılar doğru olaraq bu katrenin Mussolininin, eləcə də alman və italyan faşistlərinin digər başçılarının camaat qarşısında edam edilməsindən bəhs etdiyini göstərirlər.

Maraqlıdır ki, 1942-ci ildə Hitler və Mussolininin dünyanı lərzəyə saldıqları bir dövrdə nostradamusşünas Lamont görücülüyə bərabər fikir irəli sürmüşdü. O, "Nostradamus hər şeyi görür" adlı kitabında yazırdı: "Bu katrendə İtaliyada Mussolininin faşist rejiminin süqutundan və onun müttəfiqlərinin darmadağın edilməsindən bəhs edilir. Nostradamus faşist təşkilatlarının buraxılacağını və onların başçılarının xalqın gözü qarşısında edam ediləcəyini də görüb".

**5 k22**

**Romada Böyük adam ölməndən qabaq**
**Əcnəbi ordu üçün böyük qorxu olacaq.**
**Parmanın önündə eskadronlar pusquda duracaq.**
**Sonra hər iki qırmızı birgə yaxşı gün görəcək.**

Bəzi tədqiqatçılar bu katrenin 1978-ci ildə Roma Papası I İohann Pavelin öldürülməsi ilə bağlı olduğunu güman edirlər. Çünki bundan öncə Kuba böhranı dünyanı lərzəyə salmışdı.

Başqa qrup tədqiqatçılar isə katrenin II Dünya müharibəsi zamanı İtaliyada baş verən hadisələrdən bəhs etdiyini qeyd edirlər.

**5 k23**

**Əksəriyyət Marsda birləşəndə,**
**Hər iki məmnun adam birgə olacaq.**
**Böyük afrikalı qorxudan tir-tir əsəcək**
**Duumviratı dəniz donanması ayıracaq.**

Latın sözü "duumvirat" həm ittifaq, həm də hər hansı bir cinayəti tədqiq edən yüksək vəzifəli iki nəfər mənasında işlənir. Yəqin buna görədir ki, tədqiqatçılar bu katreni terror aktı ilə bağlayıblar. Lakin bunun harada baş verdiyini deyə bilməyiblər. Bizə qalırsa, burada söhbət Nyu-Yorkda baş verən 11 sentyabr hadisələrindən sonra əksər dövlətlərin terrorizmə qarşı mübarizə əhvali-ruhiyyəsində olmasından, ABŞ ilə Rusiyanın birgə olacağından,

3-cü sətirdən göründüyü kimi, Bin Ladendən, dəniz donanmasının ruslarla amerikalılar arasında ziddiyyət salacağından gedir. R.V.Velş isə göstərir ki, katrendə söhbət Almaniya–İtaliya birliyindən gedir.

**5 k24**

**Krallıq və qanun Veneranın hakimiyyəti dövründə yüksəlib.**
**Saturn Yupiterə hökmranlıq edəcək.**
**Günəşin hakimiyyəti zamanı yüksələn qoşun və hökmranlığa**
**Saturnlular çox çətin dözəcəklər.**

Bəzi Qərb tədqiqatçıları bu katrenin guya islam fundamentalizmindən bəhs etdiyini qeyd edirlər. Luciano Iampretro isə katrendə İsrail – Fələstin müharibəsindən danışıldığını göstərir. Bir çox tədqiqatçılar isə katrenin kimlərdən bəhs etdiyini bilmədiklərini və onda təsvir olunan hadisələrin gələcəkdə baş verəcəyini etiraf ediblər.

**5 k25**

**Ərəb şahzadəsi, Mars, Günəş və Venera Şir bürcündə olanda**
**Kilsə hakimiyyəti dənizi təlatümə gətirəcək.**
**Bir milyona yaxın insan İranın tərəfində olacaq.**
**Bizans və Misir hiyləgərliklə müharibəyə qoşulacaq.**

Katrendə söhbət 1980-1988-ci illər İran–İraq müharibəsindən gedir. 1987-ci ildə İran demək olar ki, müharibəni udmaq üzrə idi. Bir milyon civarında olan İran ordusu Fao yarımadasını tutaraq artıq aprel ayında (1987) Bəsrənin həndəvərində idi.

İngilis tədqiqatçısı Con Houq və başqalarının fikrincə hadisələrin belə cərəyan etməsi ABŞ-ı qane etmirdi. Odur ki, ABŞ hər vasitə ilə İraqa kömək etməyə başladı və bu da öz bəhrəsini verdi. 1988-ci ilin iyulunda İraq əldən verilmiş bütün əraziləri geri qaytardı. Müharibədə qazanan tərəf olmadı. Lakin bu müharibədə marağı olan dövlətlərin arzusu yerinə yetdi. İslam aləminin iki

qüdrətli dövləti görünməmiş tələfat verdi. İraq ordusunda ölənlərin və şikəst olanların sayı milyonu keçdi. Hər iki dövlət iqtisadi cəhətdən diz çökdü. 1988-ci ildə Ayətulla Xomeyni öləndən sonra hakimiyyətə gələn Rəfsancani müharibəni dayandırmağa nail oldu.

4-cü sətirdə Nostradamus Bizans və Misirdən söz açır. Demək lazımdır ki, görücünün vaxtında Bizans və Misir müasir Türkiyəni, Livanı, İsraili, Fələstini, Suriyanı, İordaniyanı, İraqı və Şimali Afrikanın bir sıra ölkələrini əhatə edirdi.

Onu da bilmək maraqlı olardı ki, bəzi tədqiqatçıların göstərdiklərinə görə, 1-ci sətirdə söhbət gedən Mars, Günəş və Venera Şir bürcündə sonuncu dəfə 2000-ci ilin avqustunda olub. Bu hadisə 2019-cu və eləcə də 2032-ci ilin avqustunda təkrar olunacaq.

Bu illərdə də Şərqdə müharibələrin baş verəcəyi ehtimalı böyükdür.

### 5 k26

**Kölə xalq (Slavyan xalqı) igidlik göstərdiyi zaman,**
**Çox yuxarı dərəcəyə gəlib çatacaq.**
**Onlar əyalətdə doğulmuş krallarını dəyişəcəklər.**
**Ordu dənizi keçmək üçün dağa qaldırılacaq.**

Katrenin 1-ci və 2-ci sətirlərində Nostradamus Sovet xalqının II Dünya müharibəsində faşist Almaniyası üzərində qələbəsindən, 3-cü sətirdə isə Ukraynada doğulmuş N.S.Xruşşovun 1964-cü ildə hakimiyyətdən kənarlaşdırılmasından bəhs edir.

4-cü sətirdə Qafqaz dağlarından Sovet ordu hissələrinin təyyarə ilə Qara dənizi keçərək, mühasirədə olan Sevastopolu faşistlərdən azad etməyə getməsindən danışılır.

“Великие пророчества Мишеля Нострадамуса” adlı kitabda göstərilir ki, guya hadisələr XVIII əsr Rusiyasından bəhs edir (bax: Moskva, 1999, səh. 254).

Onlar fikirlərini bununla izah edirlər ki, 1730-cu ildə II Pyotrun ölümündən sonra "Gizli şura" taxt-taca Anna İohanovnanı dəvət edir. Elə həmin ildə A.V.Suvorov doğulub. Məlumdur ki, böyük sərkərdə kimi yetişəndən sonra, o, İtaliya və İsveçrəyə yürüşləri zamanı, ordunu dəniz kənarı ilə apararaq, Alp dağlarını aşmışdı.

**5 k27**

**Qara dənizin yaxınlığında o, odla, silahla,**
**Trabzonu ələ keçirmək üçün İrandan gələcək.**
**Faros, Mitilən tir-tir əsəcək. Günəş sevinir.**
**Adriatik dənizi ərəbin qanı ilə dolacaq.**

Katrendən göründüyü kimi, baş verən hadisələr Yaxın Şərqdən bəhs edir. Katrendə söhbət gedən "Trabzon" qədim Yunan imperiyası Trebizond (1204-1478) ilə bağlıdır. Məsələ burasındadır ki, Gürcüstan, Krım, Qara dənizin cənub sahilləri, Sakariya çayının şərqinə qədər bütün ərazilər Trebizond imperiyasına daxil idi. 1736-1739-cu illər arasında Nadir şah Əfşar bu yerləri tutmuşdu.

**5 k28**

**Onun qolları sallanmış, ayaqları sarınmış,**
**Rəngi ağarmış, sinəsində xəncər gizlədilmişdir.**
**Toqquşmada and içmiş üç nəfər**
**Böyük genuyalıya silah qaldıracaq.**

Tədqiqatçılar bu katreni şərh etməkdən yan keçiblər. Məlum olan odur ki, Fransa imperator donanmasının tanınmış admiralı Andrea Dorna "Böyük genuyalı" ləqəbi ilə məşhur olub. Andrea 1560-cı ildə öz əcəli ilə dünyasını dəyişib.

**5 k29**

**Azadlıq yenidən bərpa olunmayacaq,**
**Qara fikirli, məğrur cani, ədalətsiz işlərlə məşğul olacaq.**
**Roma Papasının məsələsi açılanda (ortaya çıxanda)**
**Hitler Venesiya Respublikasını qeyzləndirəcək.**

Katrendə söhbət II Dünya müharibəsi ərəfəsində faşist Almaniyası ilə İtaliya arasında yer alan danışıqlar və sazişlərdən gedir. 3-cü sətirdə Nostradamus diktator Mussolini və Hitlerin hərəkətlərinə Roma Papası XII Piyin susaraq rəvac verməsindən və 1928-ci ildə Mussolini ilə saziş (konkordat) bağlamasından bəhs edir. Katrenin 2-ci sətrində Mussolinidən danışılır.

## 5 k30

**Böyük şəhərin dörd bir yanında**
**Əsgərlər şəhərlərdə və çöllərdə yerləşdiriləcəklər.**
**Parisi həmlə etməyə Roma sövq edəcək.**
**Sonra Papa hakimiyyəti böyük talana məruz qalacaq.**

Katrendə 1797-ci il və sonralar 1808-ci ildə Napoleonun Romanı tutmasından və şəhəri talan etməsindən söhbət gedir. Soyğunçuların əlinə nə keçirdisə amansızlıqla qarət edir, mədəniyyət abidələrini Fransa muzeylərinə aparırdılar.

## 5 k31

**Hazırda dünyanın Gülü sayılan**
**Attika torpağından, müdrikliyin mənbəyindən.**
**Papa hakimiyyəti, onun böyük üstünlüyü**
**Dalğaların qoynunda qəzaya uğrayıb, məhv ediləcək.**

Bu katrendə məlum olan odur ki, Attika Yunanıstanın cənub-şərqindədir və bu torpaq həqiqətən də müdriklik mənbəyi olub. Sokrat (e.ə. 470-399), Platon (e.ə. 427-347), Aristotel (e.ə. 384-322) kimi dahilər Attikada dünyaya gəliblər. Yeni eradan əvvəl 387-ci ildə Platon burada Sokratın adına Akademiya yaratmışdı. Akademiyanın ən məşhur yetişdirməsi Aristotel olub. Nostradamus açıqca göstərir ki, vaxt gələcək, bu Akademiyanın təlimləri Roma katolik kilsəsinin məhvinə gətirib çıxaracaq.

Nostradamusşünaslar bu katrendə bəhs olunanların XXI əsrdə baş verəcəyini güman edirlər. İrlandiyalı görücü Müqəddəs Mala -

xiya və başqalarının fikirlərini nəzərə alsaq ki, Roma Papası II İohann Paveldən sonra cəmisi iki papa olacaq, sonra Vatikanda Roma katolik kilsəsi dağılacaq, deyilənlərin həqiqətdən uzaq olmadığını söyləyə bilərik.

**5 k32**

**Hər şey yaxşı olan yerdə Günəşə də, Aya da yaxşıdı.**
**Bolluq aşıb-daşır, ancaq onun məhvi yaxınlaşır.**
**Var-dövlətinizi məhv etmək üçün o, göydən gələcək.**
**O, həmin bu halda yeddinci qaya kimidir.**

Bəzi tədqiqatçılar katrenin nömrəsinə işarə ilə katrendə bəhs olunanların 2032-ci ildə baş verəcəyindən, yer üzündə iqlimin dəyişməsi, tufan və okean sularının qalxması nəticəsində dünya iqtisadiyyatının məhv olacağından xəbər verdiyini xüsusi vurğulayırlar. Nostradamus bəşəriyyətə yeddi bəla üz verəcəyindən dönə-dönə söhbət açıb. Biz artıq onlardan ikisini bilirik. Onlar xərçəng və SPİD xəstəlikləridir. Nostradamus bu katrendə yeddinci xəstəlikdən söz açır. Deməli, görücünün bu katrendə bəhs etdikləri 2032-ci ildə deyil, çox-çox sonralar baş verəcək.

**5 k33**

**Şəhərin üsyana qalxan əsas sakinləri**
**Azadlığı yenidən əldə etmək üçün səy göstərəcəklər.**
**İnsanlar doğranacaq, müsibət, bədbəxtlik bir-birinə qarışacaq.**
**Nantda haray-qışqırıq, ah-nalə, kədərli mənzərə...**

Katrendə söhbət 1793-cü ildə Fransa Burjua inqilabının ildönümü günü Nantın mərkəzi şəhəri Vandeydə əhalinin respublikaçılara qarşı üsyanından və onun amansızcasına yatırılmasından gedir. Qəddarlığı ilə ad çıxarmış general Karyer şəhərin imkanlı adamlarından min nəfəri tutaraq, Gilyotinin başkəsən maşınında edam olunmaq üçün Parisə göndərdi. Bu, başqalarına ibrət dərsi olmaq və onların gözünü qorxutmaq üçün edilirdi. Generalın ürəyi bununla

soyumayıb: o, əhalinin yerdə qalan hissəsini – qocalar, qadınlar və uşaqlar da daxil olmaqla – barjlara doldurtdurub, üst paltarlarını soyunduraraq bir kişi – bir qadın olmaq şərti ilə üz-üzə, cüt-cüt bağlatdırıb. Onları Luara çayının ortasında suya atdıraraq, əsgərlərə güllələtdirib. Çayda qan su yerinə axırmış. Əvvəlki katrenlərdən birinin şərhində göstərdiyimiz kimi, general bu mənzərəni "Respublikasayağı nikah", "Respublikasayağı toy" adlandırmışdı.

Nostradamus özündən çox-çox sonralar baş verəcək bu dəhşətli mənzərəni tam dəqiqliyi ilə görmüşdü.

### 5 k34

**Qərbi İngiltərənin lap dərinliklərindən**
**Britaniya adalarının başçısının olduğu yerdə:**
**Şərab, duz və çəlləklər arasında gizlədilmiş odlu silahla**
**Donanma Bluadan keçərək Jirondaya daxil olacaq.**

Göründüyü kimi, katren İngiltərə–Fransa müharibələrindən bəhs edir. Təkcə onu demək kifayətdir ki, 1689-1815-ci illər arasında bu iki ölkə arasında tarixdə "Yüzillik müharibə" adı ilə məşhur olan yeddi çox böyük müharibə olub. Bu müharibələr Avropada nüfuz dairəsi və dənizdə hökmranlıq üstündə baş verirdi.

### 5 k35

**Böyük Selin dənizinin azad şəhərindən olan,**
**Hələ də mədəsində daş gəzdirir.**
**İngilis donanması çiskin yağış altında gələcək.**
**Bir budağı tutacaq, müharibə Böyük tərəfindən törədiləcək.**

Nostradamusşünaslar bu katren barədə müxtəlif mülahizələr söyləsələr də, sətirlər arasında məntiqi bağlılıq tapa bilməmişlər. Lakin məlum olan odur ki, katren İngiltərə – Fransa münaqişəsindən bəhs edir. Edqar Leoni göstərir ki, katren Fransanın nüfuz dairəsində olan, ətrafı qayalı Roşe şəhərinə ingilis donanmasının hücumundan bəhs edir. "Roşe" sözü fransızca "daş", "qaya", "daşlı", "qayalı" deməkdir. Şəhərin adı bununla bağlı Roşe adlandırılıb.

## 5 k36

**Bacının qardaşı gizli düşmənçiliklə**
**Gələcək ki, zəhəri su ilə qarışdırsın.**
**Piroqun üstündə onu ağırtərpənən qarıya verir.**
**O, sadəlövh və avam olduğundan, onun dadına baxaraq ölür.**

Bu, ilk baxışda sadə görünən katrenin sirrini hələlik açan olmamışdır.

## 5 k37

**Öz məqsədlərinə nail olmaq üçün**
**Üç yüz nəfər bir istəyə və razılığa gələcək.**
**İyirmi aydan sonra hamı təsdiq edəcək ki,**
**Kralları öz nifrətini yalandan göstərərək, xəyanət edib.**

Bəzi tədqiqatçılar belə hesab edirlər ki, bu katren gələcəkdə baş verəcək hadisələrlə bağlıdır. Onlar qeyd edirlər ki, vaxt gələcək və məlum olacaq ki, başqa planetlərdə də insanlar yaşayırlar.

Bu fakt təsdiq olunandan iyirmi ay sonra yer üzündə məlum olan 300-ə qədər din birləşəcək. Bundan sonra planetimizdə olan xalqlar bir millət kimi təmsil olunacaqlar.

## 5 k38

**Böyük monarxın ölümündən sonra onun varisi**
**Pozğun və qanuna zidd həyat sürəcək.**
**Hər şeyə etinasız yanaşacaq**
**Belə ki, axırda salik qanunu iflasa uğrayacaq.**

Bu katren də Fransadan bəhs edir. Ölkədə "Böyük monarx" ləqəbini XIV Lüdovik almışdı. Onun ölümündən sonra hakimiyyətə gələn nəticəsi XV Lüdovik ömrünü eyş-işrətlə keçirərdi. Ölkəni iyirmi ildən artıq onun adından məşuqəsi Madam de Pompadur idarə edib. XV Lüdovik həyatının son on ilini isə yeni məşuqəsi madam de Barriyə həsr etmişdi. Maraqlı cəhət odur ki, Nostradamus bütün bunları tam dəqiqliyi ilə görmüşdü. Belə ki, 4-cü

sətirdə işlənən “Axırda salik qanunu iflasa uğrayacaqdır” kəlamı yerini alıb. Məsələ burasındadır ki, salik qanununa əsasən Fransada ölkəni qadının idarə etməsi qadağan imiş.

Ölkədə vəziyyətin get-gedə ağırlaşdığından, gələcəkdə vəziyyətin çıxılmaz olacağından söz salanda isə başı eyş-işrətdən ayılmayan XV Lüdovik qəribə cavab verərmiş. Onun hamını mat qoyan cavabı zəmanəmizə qədər gəlib çıxmışdır: “Bizdən sonra qoy lap yer üzünü su bassın!”

### 5 k39

**Əsl zanbaq gülünün budağından törəmiş,**
**Hetrurinin varisi kimi yerləşdirilmiş və qoyulmuş.**
**Uzun illər davam edən onun qədim nəsli**
**Florensiyanı gerbdə çiçəkləndirəcəkdir.**

Katrendə fransızların Hetruriya və Florensiyanı Napoleonun vaxtında öz sərhədlərinə daxil etməsindən (1809-cu il), Florensiyanın gerbində zanbaq gülünün rəmz kimi işlənməsindən bəhs edilir.

### 5 k40

**Monarxların qanı elə qarışacaq ki,**
**Qalliyalıların qarşısına qərblilər (ABŞ) çıxacaq.**
**Onun müddəti qurtarana və eləcə də,**
**Səsi yaddaşlardan silinənə qədər gözləyəcəklər.**

Nostradamusşünas Çitəmin fikrincə bu katrenin 1-ci və 2-ci sətirlərində Fransa krallarının qanlarının biri-birinə qarışaraq XX əsrdə unudulmasından, 3-cü və 4-cü sətirdə isə Fransanın lideri Şarl de Qolldan danışılır. Çitəmin qeyd etdiyinə görə yalnız o, Qərb siyasətinə ciddi qarışaraq Fransanın marağına uyğun hərəkət etmişdi. Onun dövründə Britaniya “Ümumi bazar”a daxil ola bilməmişdi. ABŞ-ın təzyiqinə baxmayaraq o, 1958-ci ilin yanvarında işə başlayan “Ümumi bazar”a münasibətdə İngiltərənin şərtlərini

qəbul etməmişdi. Odur ki, onun prezidentlik müddətinin qurtarmasını (1969) intizarla gözləmişlər. 1970-ci ildə Şarl de Qollun ölümü Avropada "Ümumi bazar" məsələsində dəyişikliyə gətirib çıxardı. Onun "yox" deməsi unuduldu. 1973-cü ildə Britaniya "Ümumi bazar"a üzv seçildi.

**5 k41**
**Kölgəliklərdə və gün tutulan gün dünyaya gələn,**
**Dövlətin idarəsində müstəqil və xeyirxah olacaq.**
**Məcbur edəcək ki, nəsli dirçəlib qədim yerini tutsun.**
**O, qızıl əsri mislə təzələyəcək.**

Tədqiqatçılar bu katreni şərh etməkdə çətinlik çəkmişlər. Yalnız aydın olan 4-cü sətirdir. Məlumdur ki, XX əsr "qızıl əsr" adlandırılmışdır. Deməli, katrendə söhbət gedən hadisələr XXI əsrdə baş verəcəkdir. Kim bilir, bəlkə də 1-ci sətirdə söhbət gedən və 11 avqust 1999-cu ildə Günün planetimizin bir çox yerlərində tutulduğu vaxt dünyaya gələn körpə, gələcəkdə dünya lideri olacaqdır.

R.V.Velş isə katrenin Amerika prezidenti olmuş Ronald Reyqandan bəhs etdiyini vurğulayır.

**5 k42**
**Özünün ən yüksək nöqtəsinə qalxmış Mars**
**Savoyalıların yenidən Fransanın olmasını təmin edəcək.**
**Tərəzi bürcünə daxil olan, Qartala aid olanlar**
**Lombardiya camaatını böyük vahimədə saxlayacaqlar.**

Katrendə söhbət III Napoleon ordusunun İtaliyaya daxil olmasından və 1535-ci ildə itirilmiş fransızdilli Savoya əyalətinin 1860-cı ildə yenidən Fransaya birləşdirilməsindən gedir.

**5 k43**
**Müqəddəslərin böyük fəlakəti çox da uzaqda deyil.**
**Bu, Provans, Neapol, Siciliya və Ponsdan yan keçməyəcək.**
**Almaniyanın Reyn və Köln şəhərləri**
**Maynsdan olanlar tərəfindən cana doyuzdurulacaqlar.**

Bu katrendə Fransa və Almaniyada din xadimlərinin sıxışdırılacağından, müqəddəs yerlərin pis kökə salınacağından bəhs olunur. Otuzillik müharibə dövründə, xüsusən də 1631-1635-ci illərdə nəinki din xadimləri, eləcə də əhalinin çoxu məhv edilmiş, müqəddəs yerlər viran qoyulmuşdu. Fransada isə Napoleonun hakimiyyəti dövründə, xüsusən də 1794-1814-cü illər arası iki Roma Papası əsir edilmiş, müqəddəs yerlər xarabazara çevrilmiş, orada olan var-dövlət talan olunmuşdu.

Stefan Paulus bu katrendə də heç bir əsası olmadan müsəlmanların Avropanı tutacaqlarından bəhs olunduğunu xüsusi vurğulayır. Görünür, adını Nostradamusun tədqiqatçısı qoyan Stefan Paulusun qarşısına qoyduğu məqsədlərdən ən başlıcası Qərb aləmində müsəlmanları gözdən salmaqdır.

**5 k44**

**Qırmızı geyimli şəxsi, dəniz quldurları tutacaqlar.**
**Onun yalvarışları aləmi narahat edəcək.**
**Aldadıcı əməl, qəzəb və xəsislik birləşəcək.**
**Böyük Pontifik ordunu ikiqat artıracaq.**

Nostradamusşünaslar bu katreni şərh etməkdə çətinlik çəkiblər.

**5 k45**

**Böyük imperiya tez bir zamanda məhv ediləcək.**
**Və ona Arden meşəsi yaxınlığında son qoyulacaq.**
**Hər iki yaramazın boynu Böyük tərəfindən vurulacaq.**
**Aepobart, qartalburunla idarə edəcək.**

Tədqiqatçıların ümumi rəyinə görə bu katren II Dünya müharibəsi zamanı Almaniya və Fransa arasında gedən döyüşlərdən bəhs edir. 1-ci sətirdə göstərilənlər təkcə Fransaya deyil, Almaniyaya da aiddir. Faşist Almaniyası, katrenin nömrəsindən də göründüyü kimi, 1945-ci ildə süqut etmişdir.

4-cü sətirdə söhbət Şarl de Qolldan gedir. O, yeganə komandir idi ki, tank birləşmələri ilə Rommelin korpusunun qabağını ala bilmişdi. Və sonralar uzun müddət Fransanın prezidenti kimi ölkəni idarə etmişdi.

**5 k46**

**Onlar sabinalını seçəndə,**
**Qırmızıpapaqlılardan savaşlar və yeni parçalanmalar gözləniləcək.**
**Böyük sofizmi ona qarşı yönəldəcəklər.**
**Və Roma albanlar tərəfindən aldadılacaq.**

Katrenin 1-ci və 2-ci sətrində milliyyətcə italiyalı, Roma yaxınlığında Sabinadan olan "Romalı Pyotr" adı alacaq şəxs Papa seçiləndə Vatikanın sonu yetəcəyindən bəhs edilir. 3-cü sətirdə isə ona qarşı yalan və böhtanlar atılacağından söhbət gedir. II İohann Paveldən sonra bir Papanın da seçiləcəyini əsrlərlə öncə irlandiyalı görücü müqəddəs Malaxiya və Nostradamus göstərmişlər. Ondan sonra isə Romalı Pyotrun Vatikanda son Papa olacağını qeyd etmişlər.

**5 k47**

**Böyük ərəb lap qabaqda addımlayacaq.**
**Bizanslılar ona xəyanət edəcəklər.**
**Qədim Rodos onun qarşısına çıxacaqdır.**
**Və böyük bəla avstriyalı macarlardan gələcək.**

Əgər 3-cü və 4-cü sətirlər olmasaydı, ilk iki sətri tərəddüd etmədən 1991-ci ildə İraq ilə Qərbin müttəfiq orduları arasında baş verən Körfəz müharibəsinə aid etmək olardı. Onda Türkiyə müttəfiqlərə qoşularaq Səddam Hüseynə qarşı çıxdı və İraq neftinin axdığı kəməri bağladı. Belə məqamları nəzərə alaraq bəzi tədqiqatçılar bu katreni keçmişdə Osmanlı İmperiyasının Avstriya və Macarıstanla apardığı müharibələrlə bağlayırlar. Başqaları isə katrendə təsvir olunanların gələcəkdə baş verəcəyini söyləyirlər.

## 5 k48

**Səltənətdə baş verən böyük bəladan sonra**
**Onlar iki düşməni məhv edəcəklər.**
**Afrikadan gələn dəniz qüvvələri macarların qarşısını alacaq.**
**Dəniz və quruda dəhşətli hadisələr baş verəcək.**

Tədqiqatçılar bu katreni şərh etməkdən çəkinmişlər. Bizə qalırsa, katrendə bəyan edilənlər Yuqoslaviya hadisələri ilə bağlıdır. Məsələ burasındadır ki, Nostradamusun zamanında Avstriya-Macarıstana daxil olan torpaqların çox hissəsi son vaxtlarda da indi süqut etmiş Yuqoslaviyaya aid idi. "Afrikadan gələn dəniz qüvvələri" dedikdə Nostradamus ABŞ və başqa müttəfiq ordulara məxsus sualtı və başqa hərbi gəmiləri nəzərdə tutmuşdur. Məlumdur ki, NATO orduları Yuqoslaviyanı parçaladı və indi ümumiyyətlə, bu ad altında dövlət yoxdur.

## 5 k49

**İspaniyadan yox, lakin qədim Fransadan**
**Titrəyən gəmiyə başçı seçiləcək.**
**O, düşmənə öz hakimiyyəti dövründə**
**Hər yanı dəhşətli taunun bürüyəcəyini vəd edəcək.**

Katrendə söhbət 1978-ci ildə Roma Papası I İohann Pavel sui-qəsd nəticəsində öldürüldükdən sonra Vatikanda baş verən hadisələrdən gedir. Yeni Papanın seçkisi zamanı hamı gözləyirdi ki, o italiyalı olacaq. Lakin hadisələr əsrlərlə öncə Nostradamus bəyan etdiyi kimi cərəyan etdi. Papalığa namizədlər arasında bir nəfər Latın Amerikasından, bir nəfər isə Polşadan idi. Maraqlıdır ki, Nostradamusun vaxtında Latın Amerikası İspan İmperiyasına, Polşa isə Fransa İmperiyasına daxil idi. Birinci sətirdə buna işarə edilir. 2-ci sətirdə polşalı II İohann Pavelin Papa seçilməsindən danışılır. Nostradamusun I İohann Pavel və II İohann Pavelə həsr etdiyi otuza qədər katrendən çıxış edən tədqiqatçılar I İohann Pa-

velin ölümündə II İohann Paveli günahlandırmaqla bərabər, onun narkobiznes baronları ilə əlaqəsindən və onların çirkin pullarının Vatikanın bankında yuyulmasından bəhs edən fikirlər irəli sürürlər. 4-cü sətirdə narkotik maddələrin, xərçəng və SPİD xəstəliyinin dünyaya yayılmasından bəhs edilir.

**5 k50**

**Zanbaq qardaşları yaşa dolanda**
**Onlardan biri, Böyük Rumıniyanı əldə saxlayacaq.**
**Dağlar titrəyəcək, "Latın keçidi" açıqdır.**
**Paşa Ermənistan qalasına yürüş edəcək.**

Bu katren barədə də tədqiqatçılar ağlabatan bir söz deyə bilməyiblər. Əslində 1-ci sətri nəzərə almasaq, katrendə bəyan edilənlər anlaşılır. 1-ci sətirdə isə mütləqiyyət Fransasının və Bosniyanın indinin özündə belə gerblərində zanbağın həkk olunmasından söhbət gedir.

4-cü sətirdə Ermənistana qarşı Osmanlı paşasının yürüşündən bəhs edilir. Demək lazımdır ki, Səfəvi-Osmanlı müharibələri zamanı Ermənistan dəfələrlə əldən-ələ keçib. Əgər söhbət müəyyən paşadan gedirsə, deyə bilərik ki, 1583-cü ildə Fərhad Paşa İrəvanı tutub. 1590-cı il martın 21-də İstanbulda bağlanmış Səfəvi-Osmanlı sülh müqaviləsinə əsasən İrəvan xanlığı Osmanlı İmperiyasına qatılıb. Lakin 1603-cü ildə I Şah Abbas Osmanlı ordusunu məğlub edərək Təbriz, Naxçıvan, İrəvan və Kərkükü geri qaytarmışdı.

**5 k51**

**Dakiya (Rumıniya), Polşa, İngiltərə**
**Və Bohemiya (Çexiya) yenidən ittifaq yaradacaq.**
**Herkules sütunlarından o tərəfə keçərək,**
**Barselonalılara və tirrenlilərə (italyanlar) qarşı amansız savaşa qalxacaqlar.**

İlk iki sətirdə I Dünya müharibəsindən sonra, 1921-ci ildə yaranan və "Kiçik Antanta" adlanan ittifaqdan bəhs olunur. 3-cü sətirdə Nostradamus II Dünya müharibəsi zamanı Cəbəlüttariq boğazından keçən və müttəfiqlərin İtaliyaya tərəf hərəkət edən hərbi-dəniz donanmasından söz açır. Katrendə İspaniyaya da işarə olunur. Lakin Hitlerin təzyiqlərinə və sövdələşmə cəhdlərinə baxmayaraq Franko müharibənin əvvəlində elan etdiyi bitərəfliyi sona qədər saxlaya bilmişdi.

**5 k52**

**Sürgündə olan adam kral olacaq**
**Sürgün olunanlar hakimiyyətə qarşı qaldırılacaqlar.**
**Sadə, yazıq xalqı qan içində üzdürməkdən ötrü**
**O, belə bir bayraq altında uzun müddət çiçəklənəcək.**

Tədqiqatçıların fikrincə bu katren Hindistandan bəhs edir. Sürgündə olanlar Hind Milli Konqres partiyasının rəhbərləri C.Nehru və İ.Qandi idi. Cavahirləl Nehru 1947-ci ildə Hindistanda Britaniya üsuli-idarəsini devirərək hakimiyyətə gəlmiş və dünyasını dəyişdiyi 1964-cü ilə qədər ölkəyə rəhbərlik etmişdi. Bizə qalırsa, bu katren Fransa və İspaniyada vətəndaş müharibəsindən (1936-1939) bəhs edir.

**5 k53**

**Peyğəmbərlik ruhuna uyğun olaraq**
**Günəş və Veneranın qanunu çəkişmədədir.**
**Nə o, nə də bu ümumi razılığa gəlməyəcək.**
**Böyük xilaskarın qanunu Günəş tərəfindən qorunacaq.**

Tədqiqatçılar haqlı olaraq bu katrendə İslam, Xristian və s. dinlərdən bəhs olunduğunu qeyd etməklə məqbul sayılması çətin olan mülahizələr də irəli sürmüşlər. Bəzi tədqiqatçılar göstərirlər ki, 2-ci sətirdə söhbət Xristian (Günəş) və İslam (Venera) dinlərinin mübarizəsindən gedir. Və guya axırda Xristian dini qalib

gələcək və dünya xalqlarının ümumi dininə çevriləcək. 4-cü sətirdə yer alan "Böyük xilaskar" İsa peyğəmbərə işarədir.

**5 k54**

**Qara dənizdən və Böyük Tartariyadan**
**Bir kral Fransanı görməyə gələcək.**
**O, Alaniyadan və Ermənistandan keçəcək.**
**Və qanlı hökmranlıq əsasını (skipetr) Bizansda vuracaqdır.**

Bu katrendə milliyyətcə yunan olan Georgi Qurciyevdən (1877-1947) bəhs olunur. Bu şərqli müdrik həyatın sirlərini öyrənmək üçün 20 ildən artıq Tibeti, Mərkəzi Asiyanı (Tartariya), Yaxın Şərqi qarış-qarış gəzib. I Dünya müharibəsi ərəfəsində Moskvada ətrafına çoxsaylı tələbələr toplamışdı. Lakin Böyük oktyabr sosialist inqilabı onun məktəb yaratmaq fikrini alt-üst etdi. Qurciyev və tələbələri Parisə getmək qərarına gəldilər. Onlar Qafqaz dağlarından, Alaniya (Osetiya) və s. keçərək Gürcüstana–Qara dəniz sahilinə, oradan gəmi ilə Bizansa (Türkiyə) çatıblar. İstanbuldan isə Fransaya yola düşüblər.

Bəzi Qərb tədqiqatçıları isə ağıllarına nə gəlir yazırlar. Nə oxucu məzəmmətindən, nə də vicdanlarından çəkinirlər. David S.Montaigne belələrindəndir. O, bu katreni Üsamə Bin Ladenlə bağlayır. Guya Üsamə Bin Laden İslam hərbi blokuna rəhbərlik edəcək və Fransanı tutacaq.

**5 k55**

**Xoşbəxt Ərəbistan ölkəsində**
**Məhəmmədin qanununa əməl edən qüdrətli bir şəxs doğulacaq.**
**O, İspaniyanı sıxışdıracaq, Mavr qalası Qrandanı fəth edəcək.**
**Sonra dəniz vasitəsilə genuya xalqını əsarət altına alacaq.**

Nostradamusşünaslar bu katren barədə qəti söz deyə bilməyiblər. Bəziləri katrenin məzmunu ilə uyğun gəlməyən fərziyyələr irəli sürüblər. Müqəddəs kitablardan məlum olan odur ki, İsrail və

Fələstin dövlətlərinin ərazisi və eləcə də Səudiyyə Ərəbistanı "xoşbəxt torpaq", "ərazi", "ölkə" adlanır. Hətta 1595-ci ildə Amsterdamda nəşr olunan xəritədə müasir Səudiyyə Ərəbistanının cənub əyalətləri "Arabia Felix" – xoşbəxt, müqəddəs ərəb torpağı adlandırılmışdı.

**5 k56**

**Çox qocalmış Roma Papasının ölümü ilə əlaqədar,**
**Yaşının ən yaxşı çağında olan katolik, papa seçiləcək.**
**Onu müqəddəs taxtın zəifləməsində günahlandıracaqlar.**
**Və onun ikimənalı işi uzun müddət davam edəcək.**

Katrendə Nostradamus Roma Papası VI Paveldən söhbət açır. Keçən əsrin burulğanlı 60-cı illərində o, abort məsələsini qəbul etmədiyinə görə katolik kilsəsində narazılıqlar baş alıb gedirdi. Bununla belə, demək lazımdır ki, xalqlar arasında münasibətlərin yaxşılaşmasında VI Pavelin xidmətləri böyük olub. O, bütün papalar içində ən çox səyahət edən və katolikliyi təbliğ edən olub. Həddən artıq sülhsevər və siyasəti dərindən anlayan din xadimi kimi tanınıb. Lakin bəzi maliyyə işçiləri ilə şübhə doğuran əlaqələri Papa taxtının laxlamasına (zəifləməsinə) gətirib çıxarıb. Onun Papalıq dövründə mafiya ilə sıx əlaqəsi olan siciliyalı bankir Mikels Sindona Vatikan bankının maliyyə müşaviri təyin edilmişdi. 1982-ci ildə aparılan istintaq nəticəsində məlum olub ki, Vatikanın pulu mafiyanın əlindəymiş. Qatillərin, rüşvətxorların və fırıldaqçıların başında isə Mikels Sindona özü dururmuş.

Bəzi tədqiqatçılar güman edirlər ki, bu katrendə 1939-1958-ci illər arası Roma Papası olmuş XII Piydən danışılır. Bir çoxları sonralar Hitlerin yəhudiləri qırmasında onun əli olduğunu göstərsələr də, milliyyətcə yəhudi olan və hər şeyi dəqiq görən Nostradamus bu barədə heç nə demir. Vatikanın 2003-cü ildə XII Piylə bağlı açdığı arxivdə də elə bir şey yoxdur.

## 5 k57

**Deşikdən qabaqcadan ordunu xəbərdar edəcək adam,**
**Qolfye Aventin dağından səslənəcək.**
**Qənimət iki qaya arasında ələ keçəcək.**
**Şöhrətli Sekstin daimi subaylığına son qoyulacaq.**

Nostradamus bu katrendə maraqlı bir məsələdən söz açır. Məlumdur ki, ilk hava şarını 1782-ci ildə Monqolfye qardaşları: Jozef və Etyen kəşf etmişdilər. 1783-cü ilin 21 noyabrında hava şarında insan ilk dəfə səmaya uçmuş, 300 fut yüksəklikdə on kilometrə yaxın məsafəni qət etmişdi. On bir il sonra (16 iyun 1794) hava şarından hərbi məqsədlərlə istifadə ediblər. Napoleon hava şarı vasitəsi ilə düşmən ordusunun cəmləşdiyi yeri öyrənər, düşmənə gözlənilməz zərbələr endirərmiş. 3-cü sətirdə Roma katolik kilsəsinin var-dövlətinin Napoleon tərəfindən hərbi qənimət kimi talan edilməsindən, 4-cü sətirdə isə Roma Papası VI Piyin (Sextus) əsir edilməsindən danışılır. 4-cü sətirdə nəzəri cəlb edən maraqlı bir cəhət vardır. Məlumdur ki, xristian aləmində, katolik ruhanilərdə yüksək rütbəli din xadimləri, xüsusən də papalarda ömürlük subaylıq şərtdir. Bunun biz E.L.Voyniçin "Ovod" romanı və eyni adlı filmdə bariz nümunəsini görmüşük. Nostradamus 4-cü sətirdə VI (Sextus) Piyin əsir edilməsi və sonra dünyasını dəyişməsinə uyğun olaraq deyir: "Şöhrətli Sekstin daimi subaylığına son qoyulacaq".

## 5 k58

**Uzda körpüşəkilli su kəməri ilə Qardan,**
**Meşədən və əlçatmaz dağdan keçəcək,**
**Körpünün ortasında onu yumruqla vurub aşıracaqlar.**
**Nimin başçısı və çox təhlükəli olanlar qaçacaqlar.**

Roma akvedukunun (çay, dərə və s. üzərində körpü şəklində çəkilən su kəməri) xarabalıqları Fransada Uzdan Nimə qədər uza -

nıb gedir. Yazılanlara görə 1627-ci ildə hersoq de Roanın qardaşları dini iğti - şaşlar zamanı Nimdə mühasirəyə alınıblarmış. Hersoq de Roanın topçu dəstəsi su kəməri ilə Nimə getmiş, üsyançıları və qar - daşlarını azad etmiş, onların başçısı seçilmişmiş.

3-cü sətirdə hersoqun dəstəsi tərəfindən bir çox yerlərdə su kəmərinin dayaqlarının sındırılmasına və onun genişləndirilməsinə işarə edilir.



***Nim şəhəri yaxınlığında (Fransa) Pon-dü-Qar akveduku. Yeni eranın əvvəli***

**5 k59**

**İngilislərin başçısı Nimdə çox ləngiyəcək.**
**Aenobarbis (Barbarossa) İspaniyadan kömək diləyəcək.**
**Həmin gün döyüşdə çoxlu adam öləcək.**
**Bu vaxt Artuada quyruqlu ulduz doğacaq.**

Tədqiqatçılar bu katreni II Dünya müharibəsi vaxtı baş verən hadisələrlə bağlayırlar. 2-ci sətirdə söhbət gedən "Aenobarbis" latınca "qırmızısaqqal" və eləcə də "Neron nəslindən olan Barba - rossa" deməkdir. Nostradamus Adolf Hitlerin 1941-ci ildə Sovet İttifaqına hücum planı "Barbarossa"ya uyğun olaraq onu "Barbarossa" adlandırır. Doğrudan da, Hitler Fransisko Franko ilə görüş - dən əvvəl İspaniya sərhəddinə gəlmişdi. O, Franko ilə görüşündə vətəndaş müharibəsi zamanı ac-yalavac hala salınmış İspaniyaya taxıl göndərməyi və hər cür kömək etməyi vəd etmişdi. Əvəzində

isə İspaniyadan müharibədə Almaniya və müttəfiqlərinin tərəfində olmağı tələb edirdi.

Artua hər iki dünya müharibəsi zamanı top atəşinə tutulub. Nostradamus top mərmilərinin havadan yağmasını obrazlı şəkildə quyruqlu ulduza (kometa) bənzədir.

**5 k60**

**Başıqırxıqların seçimi çox pis olacaq.**
**O, öz öhdəsinə düşən yükü apara bilməyəcək.**
**O, böyük qəzəb və qudurğanlıqla danışacaq.**
**Hər iki cinsdən olanları od və qan içində məhv edəcək.**

Katrenin Adolf Hitlerdən bəhs etdiyini sübuta yetirməyə ehtiyac yoxdur. Bununla belə, deməliyik ki, Hitler Almaniyanın kansleri seçilərkən onun tərəfdarlarının bir çoxunun saçları qısa qırxılmışdı. 1-ci sətirdə buna işarə olunur. Hitlerin qəzəb və qudurğanlıqla danışması da inkarolunmaz faktdır. Onun ayrı-ayrı irqlərə münasibəti də məlumdur. Hərbi düşərgələrdə məhv edilən hər iki cinsdən olan insanların sayı hesaba gəlmir. 2-ci sətirlə bağlı Con Houq maraqlı bir məsələdən söz açır. Müharibənin qurtarmasına az qalmış bir gün Hitler Berxtesqartendə dağdakı sığınacağında nahar edərkən məşuqəsi Yeva Braun müharibə üzüb əldən salmış Hitleri müşahidə edərək qayğıkeşliklə soruşur ki, son vaxtlar dostunun qamətinin və çiyinlərinin əyilməyinə səbəb nədir?

Fürer azca başını qaldırır və fikirli halda deyir: "Mənim cibimdə həddən artıq ağır açarlar vardır".

**5 k61**

**Böyüyün özünün olmayan oğlu – oğulluğu.**
**Böyük Apennin dağlarını fəth edəcək.**
**Tərəzi bürcü altında olanları vahiməyə salacaq.**
**Od püskürən dağdan Senis dağının özünə qədər.**

Katrendə söhbət Napoleonun oğulluğu, Jozefinanın oğlu Ejen de Boqarnedən gedir. Boqarne yaşa dolduqca ən gözəl hərbçi kimi ad-

san qazanırdı. Nəhayət o, Napoleonun layiqli generallarından birinə çevrilib. O, avstriyalılarla döyüşlərdə Avstriya ordusunu lərzəyə salaraq görünməmiş qələbələr qazanıb. 3-cü sətirdə buna işarə edilir.

**5 k62**

**Günəş Şərqdə, Saturn isə Qərbdə olanda**
**Qayaların üstünə qanlı yağış yağdığını görəcəklər.**
**Orqonda müharibə, Roma yaxınlığında fəlakət üz verəcək.**
**Traydentlər (Trident) gəmiləri parçalayaraq batıracaqlar.**

Tədqiqatçılar belə fikirləşirlər ki, katrendə göstərilənlər gələcəkdə baş verəcəkdir. Birinci sətirdəki hadisə ildə bir dəfə baş verir. İkinci sətirdə güman ki, söhbət radioaktiv, kimyəvi və bioloji silahlardan gedir. Dördüncü sətirdə Nostradamus ABŞ-ın sualtı qayığını və onun "Trident" adlanacağını belə görüb. Böyük görücü ABŞ-ın hərbi–dəniz donanmasının çox güclənəcəyini və düşmən qüvvələrini məhv etməyə qadir olacağını da bəyan edir. Onu da qeyd etməyə dəyər ki, mövcud qənaətlərə görə, II Dünya müharibəsində qələbəni aviasiya həll etmişdisə, III Dünya müharibəsi baş versə, üstünlüyü nüvə silahı yerləşdirilmiş sualtı qayıqlar qazandıracaqdır. Hazırda ABŞ sualtı qayıqlarında 7.000-dən artıq nüvə silahı quraşdırılıb. Məhz buna görədir ki, hətta su hövzəsindəki inkişaf etməkdə olan ölkələr belə – İran, Əlcəzair, Suriya, Liviya, Misir və başqaları sualtı qayıqlar alıblar. Lakin bir şey də var ki, ABŞ və Rusiya peyklərlə indi müəyyən dərinliyə qədər sualtı qayıqların yerini ayırd edə bilirlər. Deməli, qüdrətli ölkələrə qarşı çıxmaq gücsüz ölkələrin imkanları xaricində olacaq.

**5 k63**

**Heysiyyətlə bağlı nahaq təşəbbüs və haqsız şikayət**
**Latınların sularında kiçik qayıq dolaşır. Soyuq, aclıq, dalğalar.**
**Tibr çayı yaxınlığında torpaq qanla boyanıb.**
**Bəşəriyyət bir neçə ağır xəstəliyə mübtəla olacaq.**

Tədqiqatçılar bu katren barədə də ağlabatan bir söz deyə bilmə - yiblər. Məlum olan odur ki, hadisələr İtaliyada cərəyan edir. Latında, Tibr çayı yaxınlığında iki atom zavodu vardır. Bir atom reaktorunun tikintisi isə Roma yaxınlığında Tibr çayı üzərində planlaşdırılır. Ola bilsin ki, zavodlardan biri və ya atom reaktoru partladılacaq və amansız xəstəliklər baş verəcək. Onsuz da bəşəriyyətə artıq iki belə dəhşətli xəstəlik: xərçəng və SPİD divan tutur. Nostradamusun başqa katrenlərindən göründüyü kimi, onların sayı yeddi olacaqdır.

Demək olar ki, bütün başqa katrenlərdə olduğu kimi, Stefan Paulus bu katrendə də heç bir əsas göstərmədən, müsəlmanların İtaliyaya hücumundan bəhs edir.

**5 k64**

**Arxayınçılıqla bir yerə toplaşmış çoxluq:**
**Dəniz və qurunun təzyiqi ilə şura ləğv ediləcək.**
**Oton yaxınlığında Genuya və Nis kölgədədir.**
**Şəhərlərdən və çöllərdən başçı müqavimət göstərdi.**

Tədqiqatçılar göstərirlər ki, 1-ci sətirdə Nostradamus Avropa Şurasından bəhs edir. 2-ci sətirdə dəniz və quruda şuranın ləğv edilməsinin nə demək olduğunu göstərməyiblər. Bizcə, burada Avropa Şurası, Avropa İqtisadi Birliyi və Şimali Atlantika İttifa - qının dağılacağından söhbət gedir. Tədqiqatçılar 3-cü sətrin NATO-nun İtaliyada yerləşən cənub qərargahından bəhs etdiyini, 4-cü sətirdə isə Nostradamusun NATO-nun ordu hissələrinin ko - mandanı və ya Avropa Şurasının başçısından söz açdığını qeyd edirlər.

Bizə belə gəlir ki, 2-ci sətirdə ABŞ-ın quru və dənizdən təzyiqi ilə Avropa Şurasının ləğvinə çalışmasına və buna qarşı Avropa ölkələrinin və eləcə də Avropa Şurasının sədrinin ciddi müqavi - mətinə işarə edilir. Güman etmək olar ki, ABŞ Avropa ölkələrinin ümumi pul vahidi "Avro"nun da ləğvinə çalışacaqdır.

**5 k65**

**Qəfildən gəldi, dəhşət böyük olacaq.**
**İşin əsas təşkilatçıları gizlənmişlər.**
**Xanım da qarışıqlıqda bir daha görünməyəcək.**
**Beləliklə, böyüklər yavaş-yavaş əsəbiləşəcəklər.**

Hər bir sətri gün kimi aydın olan, lakin tədqiqatçılar üçün indiyə kimi bir müəmma olaraq qalan bu katren barədə söz demək müşkül məsələdir. Bununla belə, bizcə, bu katrenin 1-ci sətrində gözlənilmədən hakimiyyətə gələn, hakimiyyətə gəldiyi gündən dünyanı narahat edən Corc Buşdan (oğul) bəhs edilir. 2-ci sətirdə onu hakimiyyətə gətirən əsas təşkilatçıların pərdə arxasında olmalarından, 3-cü sətirdə kor-koranə ABŞ-a dəstək verən İngiltərədən, 4-cü sətirdə isə bir vaxt “Körfəz müharibəsi”nə, ABŞ-ın Əfqanıstana girməsinə rəvac verən, 2003-cü il martın 20-də ABŞ-ın İraqa qarşı müharibəyə girişməsində, onun neftlə bağlı niyyətini dərindən başa düşən Avropa dövlət başçılarının keçirdiyi narahatlıq və əsəbilikdən söz açılır. Yeri gəlmişkən, onu da deyək ki, bu narahatlığa əsas vardır. Bəzi tədqiqatçılar onu Napoleon və Hitlerdən sonra 3-cü Antixrist,[1] bəziləri isə düşüncəsiz, anlamaz adlandırırlar.[2]

**5 k66**

**Qədim, dağılmamış binaların altında,**
**Dağıdılmış su kəmərinin yaxınlığında,**
**Günəş və Ayın bərq vuran metalları,**
**Troyanın qızılla naxışlanmış qaynar lampası.**

Bəzi tədqiqatçılar bu katrenin itmiş xəzinədən bəhs etdiyini qeyd edirlər. Belə bir xəzinə 1947-1950-ci illər arası arxeoloji qazıntılar zamanı Ölü dəniz sahillərində Qumranda üzə çıxarılıb. Aşkar edilib ki, bunu əsrlərlə öncə müharibə vaxtı yəhudilər gizlədiblərmiş.

---

[1] Con Houq. Nostradamus. Yeni minillik, London, 2002, səh.175.
[2] Manfred Dimde. Nostradamus. Moskva, 1988, səh. 137.

## 5 k67

**Perucanın başçısı Mantiyaya cürət etməyəndə**
**Gizli hisslər tamamilə faş olacaqdır.**
**Aristokratların ucbatından 7 nəfər ələ keçəcək.**
**Ata və oğul iti silahla öldürüləcəklər.**

Birinci sətirdə söhbət Roma Papasından gedir. Məsələ burasındadır ki, Nostradamusun zamanında Peruca Roma Papalığına tabe idi. Fransada bitib-tükənməyən dini müharibələr Roma Papası V Piyi narahat etsə də, Papa bu müharibələrə rəvac verən III Henrini kilsədən ayırmağa cürət etmirdi. 2-ci sətirdə Roma papalığı ilə İngiltərə arasında artıq nifaq düşdüyündən danışılır. 3-cü sətirdə kral II Henrinin 7 övladının hamısının gənckən öləcəyindən söhbət açılır. Bu sətirdə həm saray çəkişmələrinə, həm də gənc yaşlarında kral seçilərək üzərlərinə ölkənin idarə olunması kimi çox ağır yükün düşməsi nəticəsində onların dünyalarını dəyişmələrinə işarə edilir (bax: 1 k10, 1 k68).

4-cü sətirdə kral II Henri və oğlu III Henrinin faciəli şəkildə öldürüləcəklərindən bəhs olunur. Bu barədə artıq təfsilatı ilə danışdığımızdan (bax: 1 k35, 1 k97), burada bir daha bu məsələyə toxunmadıq.

## 5 k68

**Böyük Dəvə Dunay və Reyndən su içməyə gələcək.**
**Və bu işindən peşmançılıq çəkməyəcək.**
**Luara camaatı ronalılardan daha çox titrəyəcək.**
**Və Alp dağları yanında Xoruz onu məhv edəcəkdir.**

Bəzi tədqiqatçıların fikrincə, 1-ci və 2-ci sətirdə Osmanlı İmperiyasının 1682-ci ildə Vyananı almasından və Reynə qədər gedib çıxmasından danışılır. Nostradamus 1-ci sətirdə "böyük dəvə" terminini işlətmişdir. Tarixçilər yazırlar ki, Osmanlı ordusunun bu yürüşü zamanı ərzağı dəvə karvanları ilə aparırlarmış.

1-ci sətirdə maraq doğuran bir məsələ də vardır. Nostradamus "Danube" – "Dunay" yazanda Dunay çayını, Dunay çayının qədim adı "Hister" terminini işlədəndə isə Adolf Hitleri nəzərdə tutur. Nostradamus bununla həm söz oynadır, həm də Hitlerin bu çayın sahilində doğulduğunu göstərir. Bir çox tədqiqatçılar məsələyə ciddi fikir vermədiklərindən şərhlərində təhrifə yol veriblər.

4-cü sətirdə Alp dağları yaxınlığında Fransa və başqa xristian ölkələrinin birləşmiş ordusunun 1683-cü ildə türkləri məğlubiyyətə uğratmasından və Vyananın azad edilməsindən danışılır. Burada "Xoruz" məfhumu Fransanı göstərir. 1789-1793-cü illər arası Fransa Burjua inqilabı zamanı xoruzun banlayaraq sabahın açıldığını xəbər verməsinə əsaslanaraq "Xoruz" Fransanın simvolu kimi qəbul edilərək ölkənin gerbində həkk olunub. Burada diqqəti çəkən maraqlı cəhət odur ki, bu hadisə Nostradamusdan çox-çox sonralar baş versə də, görücünü maraqlandırıb və o, bir çox katrenlərində dönə-dönə bu məsələdən söz açıb.

**5 k69**

**Böyük, bir daha boş xəyallara dalmayacaqdır.**
**Onun istirahətini dövlət narahatlığı əvəz edəcəkdir.**
**Qızıla bərabər ordu, tünd qırmızı və mavi rəngli bayraqla gələcək.**
**Afrikanı kölə halına salacaq, sümüyünə qədər gəmirəcəkdir.**

Bu katren barədə bəzi tədqiqatçılar fikir deməkdən çəkinərək yalnız "phalange" – sözünün yunan kəlməsi olub, "cinah"la bərabər "ştandart" – "bayraq" mənasında da işləndiyini göstərmişlər. R.V.Velş katrendə Fransanın Əlcəzairi tutmasından (1841) danışıldığını göstərir. Bizə qalırsa, katrendə böyük görücü ABŞ-dan danışır. Qərb tədqiqatçıları, bəzən gün kimi aydın həqiqətləri də görməməzliyə vururlar.

Biz güman edirik ki, bu katrendə ABŞ-ın XX əsrin sonlarına yaxın başladığı və intensiv şəkildə həyata keçirdiyi fəaliyyətindən bəhs olunur.

3-cü sətirdən bunu aydınca görmək olur. ABŞ ordusu indi ən müasir silahla təchiz olunmuşdur. ABŞ-ın bayrağı, əsasən tünd qırmızı, mavi rəngdədir. Bu sətirdə çox vacib olan "gələcək" kəlməsi işlənib. Deməli, Nostradamus ABŞ ordusunun uzaqdan – Amerika qitəsindən gələcəyini də görüb.

**5 k70**

**Tərəzidən asılı olan ölkələr,**
**Dağları Böyük müharibə ilə narahat edəcək.**
**Hər iki cinsdən əsirlər, xilaskarlara və bütün Bizansa minnətdardırlar.**
**Sübhçağı torpaqdan torpağa qışqıracaqlar.**

Katren Balkanlarda baş verən müharibə ilə bağlıdır. Birinci sətirdə siyasi, iqtisadi və hərbi cəhətdən tərəzidən – "Tarazlıq yaradan"dan (ABŞ) asılı olan Avropa Birliyi və NATO-ya daxil olan ölkələrə işarə olunur. İkinci sətirdə Balkanlarda gedən müharibədən bəhs edilir. Üçüncü sətirdə əsir düşən əsgərlərdən, Bosniya müsəlmanlarının serblərə qarşı mübarizəsində Türkiyənin hərbi, iqtisadi və siyasi köməyindən danışılır.

Qərb tədqiqatçılarından Stefan Paulus bu katrendə ABŞ və müttəfiqlərinin Türkiyəni tutacaqlarından söhbət getdiyini göstərir. O, qeyd edir ki, müharibə 27 il çəkəcək və müsəlmanlar məğlub olacaqlar.

Doğrudur, Nostradamusun 27 il davam edəcək müharibəyə dair başqa bir katreni də vardır. Ancaq onun söhbət açdığımız bu katrenlə heç bir əlaqəsi yoxdur. Bir də ki, müdriklər yaxşı deyiblər: "Ac toyuq yuxusunda darı görər".

**5 k71**

**Suyu gözləyən adamın hiddətilə,**
**Bütün ordu hədsiz qəzəb və həyəcana gəlib.**
**On yeddi gəmi adlı-sanlılar tərəfindən yüklənəcək.**
**Rona sahillərinə qasid gec gəlib çıxacaq.**

Katren 1944-cü ildə baş verən hadisələrdən bəhs edir. Məsələ burasındadır ki, müttəfiq orduları Fransanın cənubuna çıxarılanda, alman generalı Venda fon Vitersqeyn hiddətindən dodaqlarını gəmirə-gəmirə onları müşahidə etməkdən başqa bir şey edə bilmirdi. Almanların 11-ci tank diviziyası Rona sahillərinə gec gəldiyindən müttəfiq ordularının qabağını kəsə bilməyiblər. Tədqiqatçılar yazırlar ki, əgər Fürer yatmasaydı və Rommel ondan icazə alıb ordunu Rona sahillərinə vaxtında göndərə bilsəydi, müttəfiq ordularını dənizdə batırardılar.

### 5 k72

**Böyük şəhvətdən həzz almaq xatirinə**
**Zəhəri qanuna qarışdıracaqlar.**
**Venera bu "səxavətli" işin içində olacaq,**
**Nəticədə Günəşin qanununa mane olacaq.**

Bəzi nostradamusşünaslar bu katreni Fransada dini müharibələr tüğyan edən vaxtla əlaqələndirirlər. 1577-ci ildə Puatıye fərmanı çıxır. Fərmanda katolikləri hugenotlara qarşı dözümlü olmağa çağırışdan başqa bir şey yox idi. Əslində bu fərman ölkə qanununa zidd idi.

Bəziləri isə bu katrenin həyat və məhəbbət vurğunu, 1997-ci ildə faciəli şəkildə Paris yaxınlığında avtomobil qəzasında dünyasını dəyişən şahzadə Diananın ölümündən bəhs etdiyini qeyd edirlər. Hadisə sürücünün maşını bərk sürdüyü və içkisinə zəhər qatıldığına görə özünü itirməsi nəticəsində baş vermişdi (bax: 3 k16, 7 k23).

### 5 k73

**Allahın kilsəsi təqibə məruz qalacaq**
**Və müqəddəs məbədlər qarət ediləcək.**
**Uşaqlar öz analarını soyacaqlar.**
**Ərəblər polşalılarla ittifaqa girəcəklər.**

Tədqiqatçılar bu katreni XX əsrin 2-ci yarısı ilə əlaqələndirirlər. Bunu təsdiqləmək üçün 4-cü sətri əsas götürürlər. Varşava müqaviləsi ölkələrinin, o cümlədən Polşa ilə Liviya, İraq və s. ölkələrin möhkəm əlaqələri vardı. İlk sətirləri isə bəzi nostradamusşünaslar XX əsrin 80-ci illərində Vatikanda baş verən maliyyə fırıldaqları nəticəsində xəzinəsinin boşalması (bax: 5 k56), onun mafiya ilə əlaqəsi, çirkli pulların Vatikan bankında təmizlənməsi, Vatikanın ictimaiyyət arasında nüfuzunu itirməsi və s. kimi məsələlərlə bağlayırlar.

Yeri gəlmişkən, demək lazımdır ki, fransız dilini mükəmməl bilən və Parisdə Nostradamusun katrenlərinin orijinalı üzərində tədqiqat aparan Maksim Qenin bu katrenin son sətrini "Yəhudilər Ərəbistanı və Polşanı tərk edəcək" kimi tərcümə etmiş və bunun II Dünya müharibəsi zamanı baş verdiyini göstərmişdir.[1]

**5 k74**

**Troyalı qanından alman ürəkli biri doğulacaq.**
**Və o, elə bir hakimiyyət zirvəsinə yüksələcək ki,**
**Əcnəbiləri, ərəbləri ölkədən qovacaq.**
**Kilsəni əvvəlki vəziyyətinə qaytaracaq.**

Hər şeydən əvvəl onu deyək ki, Fransada xalq arasında belə fikir formalaşmışdı ki, kralların damarlarında Troya kralı Priyam və onun nəvə-nəticələrinin qanı axır, yəni onlar əsli-nəcabəti olan, hamıdan yüksək nəsildəndirlər. Və hakimiyyət onların əlində olmalıdır. 1-ci sətirdə Nostradamus buna işarə edir. Tədqiqatçıların rəyinə görə burada söhbət Jak Şirakın prezidentlik müddəti bitəndən sonra hakimiyyətə gələcək şəxsdən gedir. Onlar hətta Fransa Milli Cəbhəsinin başçısı Jan-Mark Le Penin adını çəkməkdən belə çəkinmirlər. Deyirlər ki, neonasist qəlbli bu şəxs milyonlarla əlcəzairli ərəbləri və Şimali Afrikadan olub Fransada məs-

[1] Нострадамус. Центурии. Избранные фрагменты. Харьков, 1991, стр.145.

kən salan yadelliləri ölkədən qovacaq, dünyəvi fransız mədəniyyətinə qarşı katolik səlib yürüşünə başlayacaq.

**5 k75**

**O, sağa meyllənməklə var-dövlətdə daha yüksək zirvəyə qalxacaq.**
**Dördbucaq daşın üstündə oturmuş vəziyyətdə qalacaq.**
**Əlində əyri əsa, ağzıyumulu.**
**Pəncərədən cənuba baxacaqdır.**

Bəzi tədqiqatçılar göstərirlər ki, bu katren sonuncu Roma Papası Romalı Pyotrdan bəhs edir. Əvvəllərdə yazdığımız kimi, irlandiyalı müqəddəs Malaxiya və çox sonralar Nostradamus göstərmişlər ki, II İohann Paveldən sonra cəmi ikicə Roma Papası olacaq. Sonuncu Papa Romalı Pyotrun vaxtında papalığa son qoyulacaqdır.

Bu katrendə Nostradamus sonuncu Roma Papasına Müqəddəs Pyotr meydanında qoyulacaq heykəldən söz açır. Nostradamusun kiçik detalına qədər təsvir etdiyi bu hadisənin şahidi olmaq gələcək nəsillərə qismət olacaq. Hadisə baş verəndən sonra şübhə yoxdur ki, onlar da Nostradamusun öngörücülüyünə heyranlıqla pərəstiş edəcəklər.

**5 k76**

**Açıqlıqda o, özünə bir alaçıq quracaq.**
**Şəhərlərdə məskən salmaq istəməyəcək.**
**Ensə, Kərpana, Adalara, Kavalyana –**
**Bütün bu yerlərə ayaq basmayacaq.**

Con Houq bu katrenin Nostradamusun özündən bəhs etdiyini qeyd etsə də, fikrini təsdiq edən heç bir dəlil-sübut göstərə bilmir. Bir şey aydındır ki, katrendə adı çəkilən yerlər Nostradamusun doğma yeri Salon şəhərinə yaxındır.

**5 k77**

**Ruhani ləyaqətinin bütün dərəcələri**
**Yupiterin kahini ilə əvəz olunacaq.**
**Marsa aid olan Kivirinin kahinini**
**Sonra Fransa kralı Vulkana çevirəcək.**

Bu katren uzun müddət tədqiqatçılar üçün bir müəmma olub. Onlar katrenin sirrinin mifologiya və klassik metafora, yəni məcazi mənada işlənən söz və ifadə ilə bağlı olduğunu görə bilməmişlər. Əslində, böyük görücünün katrendə nə demək istədiyini bilmək üçün 4-cü sətrə müraciət etmək, katrenin Fransa ilə bağlı olduğuna tam əmin olandan sonra ölkə tarixinə baş vurmaq lazım idi. Məsələ burasındadır ki, vaxtilə Napoleon VI Piyi həbs etdiyinə, 1799-cu ildə onun zindanda öldüyünə, imperatorun İtaliyanı tutduğuna, Papalığın var-dövlətini qarət etdiyinə görə Roma papası VII Piy onu kilsədən kənarlaşdırmışdı. Bundan sonra Napoleon onu əsir edərək Savona göndərmişdi. Napoleon bunu o məqsədlə etmişdi ki, kilsəni dövlətdən ayırsın, kilsənin dövlətin işlərinə qarışmasına son qoysun.

Napoleon xatirələrində bu münasibətlə yazırdı: “Mən ona elə hörmət göstərir, elə münasibət bəsləyirdim ki, o itirilmiş nüfuza görə təəssüflənməsin. Mən onu bütə çevirmək istəyirdim”. Bir sözlə, Napoleon VII Piyi klassik dövlətin canlı səcdəgahına (Tanrı) çevirmək istəyirdi. Katrendə işlənən metaforalara diqqət yetirdikdə onun mənası tam aydınlaşır. Qədim Roma mifologiyasında Mars od Allahıdır. Nostradamus “mars” deyəndə ömrünü müharibələrdə keçirən Napoleonu nəzərdə tutur. “Kivirinin kahinləri” dedikdə qədim Roma Allahı Kivirinin Mars tərəfindən sıxışdırılan kahinləri başa düşülür. 4-cü sətirdə işlənən “Vulkan” – qədim Romada od allahı olan Vulkanla bağlıdır. O, Yupiter və Yunonanın oğludur. Qədim romalılar hər il 23 avqustda “Vulcania” bayramını keçirərdilər. Vulkan dəmirçilik sənətinin hamisi olub. Yunan əsatirlərində Hefest adı ilə məşhurdur.

Nostradamus müdrikliklə klassik metafora və söz oynatmaqla Napoleonun fikrini özündən əsrlərlə öncə faş edib. İmperator VII Piyi bütə, öz əlində bir alətə çevirmək istəyirdi. 4-cü sətirdən göründüyü kimi, necə ki, Vulkan dəmirçilik sənətinin hamisi idi, Napoleon VII Piyi də beləcə bir vulkana çevirmək istəyirdi.

Lakin xalq arasında geniş yayılan ifadəni burada işlətmək yerinə düşərdi: “Sən saydığını say, gör fələk nə sayır”. 1809-cu ildən ev dustağı olan VII Piy, Napoleon taxt-tacdan kənarlaşdırıldıqdan sonra Vatikana qayıdaraq dünyasını dəyişdiyi 1823-cü ilə qədər vəzifəsini yerinə yetirib (bax: 5 k15).

**5 k78**
**İki nəfərin birləşməsi çox sürməyəcək.**
**On üç ildən sonra onlar Barbar Satrapa təslim olacaqlar.**
**Hər iki tərəfdən o qədər itki olacaq ki,**
**Papanın mantiya və mitrasına dua oxumağa razı olacaqlar.**

Nostradamusun şərhçilərinin çoxu bu katren barədə söz deməkdən çəkinmişlər. Bəziləri katrendə göstərilənlərin gələcəkdə baş verəcəyini qeyd edirlər.

Bizə belə gəlir ki, Con Houq və Çitəmin bu katreni ABŞ ilə keçmiş SSRİ-yə aid etməsində bir həqiqət vardır. Əgər Nostradamus katrendə bu məsələyə işarə edirsə, deməli, ABŞ-la Rusiya arasındakı münasibətlər bir gün pozulacaq. Münasibətlərin pozulmasına isə katrendə işarə olunduğu kimi, Şərq ölkəsi səbəb olacaq. Deyəsən hadisələrin gedişi buna gətirib çıxaracaq. ABŞ və İngiltərənin İraq neftini ələ keçirməsi indi nəinki Rusiyanı, Çini, hətta Fransa və Almaniya kimi ölkələri belə narahat edir. Onlar ABŞ və İngiltərənin bu məkrli niyyətinə qarşı çıxır, açıq-aşkar narazılıqlarını bildirirlər. Artıq NATO-nun, Avropa Şurasının, Avropa İqtisadi Birliyinin və eləcə də BMT-nin parçalanması təhlükəsi özünü göstərir. Manfred Dimde alman dilindən rus dilinə tərcümə olunmuş “Nostradamus” adlı əsərində (Moskva, 1998, səh.171-172) bəzi katrenlərə əsaslanaraq yazır ki, qarşıdurma yeni Dünya müharibəsinə gətirib çıxaracaq. Bir blokda ABŞ və Böyük Britaniya, o biri blokda isə Rusiya ilə İslam aləmi cəmləşəcək. Get-gedə dünya rəhbərləri bu hadisəyə fəallıqla qoşulacaqlar. Əvvəlcə savaş Balkanlarda və Körfəz müharibəsində olduğu kimi

adi silahlarla aparılacaq. Lakin 2010-cu ildən sonra atom müharibəsi başlayacaq ki, bu da bəşəriyyətin məhvinə səbəb olacaq. Və müharibəyə səbəb 2002-ci ildə ABŞ-ın prezidenti olan şəxsin sümüyünə qədər fanatikliyi və dövlətin 10 tezisdən ibarət eqoistik Doktrinası olacaqdır (bax: Manfred Dimde, səh. 137). David Montaigne də III Dünya müharibəsinin olacağını və onun 2002-ci ildə başlayacağını və səbəbkarın ABŞ olacağını göstərmişdir.[1]

### 5 k79

**Müqəddəs əzəmət qanadlarını salacaqdır.**
**Böyük qanunverici gələn kimi:**
**Məzlumları qaldıracaq, qiyamçıları sıxışdıracaq.**
**Bunun kimisi yer üzünə gəlməyəcəkdir.**

Nostradamusun bir çox şərhçiləri bu katrenin də gələcəkdə baş verəcəyini göstərmişlər.

Çitəm bu katreni Napoleonla bağlayır. Bizə belə gəlir ki, Çitəmin fikri məqbul sayılmalıdır. Katrenin bütün sətirlərində Napoleonla bağlı məsələlər vardır. 1-ci sətirdən də göründüyü kimi, Napoleon hakimiyyətə gələn kimi, Roma katolik kilsəsinin Papasına qarşı çıxdı. 2-ci sətirdə onun Fransada mütləqiyyəti devirib imperiya yaratmasına işarə edilir. 3-cü sətirdə onun hətta aşpazlara, mehtərlərə belə böyük rütbə verməsindən söz açılır. 4-cü sətirdə isə deyilənlər aydındır. Bir çox hallarda onu "qəssab" adlandırırdılar. Nostradamus onu 1-ci, Hitleri isə 2-ci Antixrist adlandırmışdır.

### 5 k80

**Oqmion böyük Bizansa yaxınlaşacaq.**
**Barbar qoşunu qovulub çıxarılacaq.**
**İki qanundan biri, etnik qanun yerini o birinə verəcək.**
**Barbar və Frank daima çəkişmədə olacaq.**

[1] David S. Montaigne. Nostradamus. World War III. 2002. Minnesota, USA, səh. 1.

Katrenin bütün sətirlərində fikir aydın olsa da, bu katreni də şərh etmək müşkül məsələyə çevrilib. 1-ci sətirdə yer alan Oqmion, fransız keltlərində poeziya və bəlağətli nitq allahı olub. "Bizans" – Türkiyə deməkdir. Nostradamusun zamanında "Barbar – bərbər", Şimali Afrika xalqları və ərəblər mənasında işlənirmiş.

Bizə qalırsa, katrendə I Dünya müharibəsi zamanı və ondan sonra fransızların Antanta orduları sırasında Türkiyəyə hücumundan, İstanbulu almalarından, sonra isə Atatürkün zərbələrinə tab gətirməyərək onu tərk etmələrindən danışılır. 3-cü sətirdə Avropa Şurası və "Ümumi bazar" ölkələrinin təzyiqi ilə Türkiyənin bəzi qanunlarından əl çəkməli olmasından bəhs edilir.

4-cü sətirdə göstərilənlər də yerini alıb. Napoleonun vaxtından bu günə kimi Fransa ilə Şimali Afrika ölkələri, xüsusən də ərəblər arasında çəkişmələr davam edir. Rus tədqiqatçıları D. və N.Zimalar Bizansı Rusiya hesab edərək, katrenin şərhi ilə məşğul olmaq əvəzinə Rusiyanı tərifləyirlər.

**5 k81**

**Kral quşu Günəş şəhəri üzərindədir.**
**Naməlum əlamətləri yeddi ay əvvəl xəbər verəcək.**
**Şərq divarı gurultu və ildırımdan yıxılacaq.**
**Düşmən yeddi günə şəhər qapılarına çatacaq.**

Katrendə Almaniyanın II Dünya müharibəsinin başlanğıcında Fransanı tutmasından bəhs olunur. Bir çox başqa katrenlərdə olduğu kimi, burada da Nostradamusun hadisələri tam dəqiqliyi ilə görməsi adamı heyrətə gətirir. 1-ci sətirdə söhbət Parisdən gedir. Orta əsrlərdə Paris "Günəş şəhəri" adlanırmış. Tarixçilər yazırlar ki, alman təyyarələri Majino beton istehkamları, hava limanları üzərində və ölkənin dərinliklərində uçur, Nostradamusun bu katrenini və əhalini təslim olmağa səsləyən vərəqələri yayırdılar. 1939-cu ilin 13 noyabrında, Almaniyanın Fransaya hücumuna düz yeddi ay qalmış Nostradamusun "Kral quşu" adlandırdığı alman

təyyarəsi Paris üzərində uçub. Məlumdur ki, qartal faşist Almaniyasının simvolu olub. Bundan əlavə, təyyarəçilərin geyimi və təyyarələrin qanadlarını qartal şəkli bəzəyirmiş. Nostradamus 1-ci sətirdə buna işarə edir. 2-ci sətir isə artıq dediyimiz kimi, müharibənin düz yeddi ay sonra başlandığından xəbər verir. 3-cü sətirdə fransızların ağlasığmaz xərc çəkib tikdirdiyi Majino beton divarlarının heç bir köməyi olmayacağından danışılır. Bu məsələ barədə əvvəllər geniş söhbət açdığımızdan (bax: 1 k34, 3 k33, 4 k80, 5 k18), burada artıq söz deməyə ehtiyac duymadıq. 4-cü sətirdə almanların düz yeddi gündə – 5-11 iyun 1940-cı ildə Parisə çatmalarından danışılır. Nostradamusun əksər katrenlərində olduğu kimi, bu katrendə də dedikləri yüzdə yüz yerini almışdır.

**5 k82**

**Qaladan kənarda saziş bağlanmışdır.**
**Ümidsizliyə qapılan isə bununla razılaşmayacaq.**
**Arbuadan, Lanqrdan olanlar Bressə qarşı çıxanda**
**Dol dağlarında düşmən tələsinə düşəcəklər.**

Nostradamusşünas Fonbryun göstərir ki, bu katrendə Fransa-Prussiya müharibəsindən (1870-1871) və fransızların məğlubiyyətindən bəhs edilir.

**5 k83**

**Tayı-bərabəri olmayan və ram edilməyən,**
**Qüdrətli dövləti devirmək istəyənlər.**
**Xəbərdarlıq bəhanəsilə üç gecə fırıldaqla məşğul olacaqlar.**
**Ən Böyük bu vaxt stol arxasında Bibliya oxuyacaq.**

Tədqiqatçılar bu katreni 23 avqust 1572-ci ildə Fransada hugenotların kütləvi qırğını və onların başçısı admiral Kolinonun öldürülməsi ilə bağlayırlar. Bəziləri isə göstərirlər ki, katrendə söhbət 1979-cu ildə İranda ABŞ səfirliyinin iranlılar tərəfindən tutulma-

sından gedir. 4-cü sətirdə ABŞ-ın prezidenti, dindarlığı ilə seçilən Cimmi Karterə işarə olunur.

### 5 k84

**O, müqayisə olunmaz, ölçüyə gəlməz şəhərin girdabında,**
**Cahil və müəmmalı valideynlərdən doğulacaq.**
**O şəxs ki, böyük kralın qüdrətli ölkəsini**
**Ruan (Fransa) və Evrödən (Avropa) dağıtmaq istəyəcək.**

Bu katren barədə tədqiqatçılar müxtəlif mülahizələr irəli sürüblər. Lakin biz katreni Ayətulla Xomeyni və 1979-cu ildə İranda şah rejiminin devrilməsi ilə bağlayanları dəstəkləyirik. Bu barədə artıq müfəssəl danışdığımızdan (bax: 1 k70) burada bir daha söz açmağa ehtiyac duymadıq. Ancaq heç bir tədqiqatçının diqqətini çəkməyən bir məsələ barədə fikrimizi bildirməyi zəruri saydıq. Birinci sətirdə Nostradamus Xomeyninin “müqayisə olunmaz, ölçüyə gəlməz şəhər”də dünyaya gələcəyini bəyan edir. Bibliyada müqəddəs Qüds şəhərindən danışarkən “müqayisə olunmaz, ölçüyə gəlməz şəhər” ifadəsi işlədilib. Deməli, Nostradamus Ayətulla Xomeyninin anadan olduğu Qum şəhərinin müqəddəs yerlərdən olacağını gördüyünə görə bu ifadəni işlətmişdir. Bu faktın özü də yuxarıda deyilənlərə dayaq olur.

### 5 k85

**İsveçrə və ətraf yerlərdə danışanlar**
**Kosmosa görə müharibəyə girişəcəklər.**
**Dəniz çəyirtkələrinin və ağcaqanadların dəstəsi.**
**Lemanın səhvləri tamamilə üzə çıxacaq.**

Katrendə strateji silahlar üzrə ABŞ, keçmiş Sovet İttifaqı və başqa dövlətlərin İsveçrədə aparılan danışıqlara barmaqarası baxmaları və Cenevrədə heç bir nəticənin əldə edilməməsindən danışılır. Cenevrə Leman gölü üstündə olduğuna görə, Nostradamus onu obrazlı şəkildə “Leman” adlandırıb.

4-cü sətirdə Nostradamus bəyan edir ki, dövlətlərin Cenevrə danışıqları zamanı buraxdığı səhvlər bəşəriyyətə baha başa gələcək. Raketlərin tez-tez kosmosa uçuşu ozon təbəqəsindəki deşiklərin daha da böyüməsinə gətirib çıxarır ki, bu da planetimizdə iqlimin dəyişməsinə, qlobal istiləşməyə, ətraf mühitin çirklənməsinə gətirib çıxaracaq. Ekologiyanın pozulmasının ilk əlaməti saysız-hesabsız çəyirtkə və başqa həşəratların meydana gəlməsi olacaq.

Yeri gəlmişkən deyim ki, 1938-ci ildə isveçrəli görücü Emma Kunts bununla bağlı demişdir: “Vaxt gələcək, qələmə bənzər təyyarələr kəşf edəcəklər. Onlar insanları kosmosa aparacaq ki, bu da atmosferdə deşiklərin əmələ gəlməsinə gətirib çıxaracaq. Günəşin şüaları bu deşiklərdən keçəcək və milyonlarla insanın məhvinə səbəb olacaq”.

### 5 k86

**İki baş və üç əllə ayrılmış**
**Böyük şəhər suya görə təşvişə düşəcək.**
**Onların arasında Böyüklər sürgündə yollarını azacaqlar.**
**Farsların hökmdarı Bizansı bərk sıxışdıracaq.**

Bu katrendə şərhə gələn son sətirdir. Burada İran hökmdarının Türkiyəni sıxışdıracağı bəyan edilir.

Katreni hələlik şərh etmək mümkün olmamışdır.

### 5 k87

**Saturn itaətdən çıxdığı ildə**
**Firəngdə (Fransa) ərazini su basacaq.**
**Troya qanı olanla izdivac baş tutacaq.**
**O, ispanların əhatəsində olacaq.**

Katrendə söhbət fransızlarla ispanlardan getsə də, onu şərh etmək müşkül olub.

1-ci sətirdə Saturn planetinin Xərçəng bürcündən çıxmasından danışılır. Bu, çox tez-tez baş verir. 2-ci sətir aydındır. 3-cü sətirdə

kral ailəsindən olanla izdivacdan bəhs olunur. Kimin ispanların əhatəsində və təsiri altında olması da müəmma olaraq qalır.

**5 k88**

**Münbit torpağı dəhşətli daşqın basacaq.**
**Başqa dənizlərdən dəniz nəhəngi peyda olacaq.**
**Bu yerin yaxınlığında özlərinə sığınacaq düzəldəcəklər.**
**O, Turinin köləsi Savonanı əlində saxlayacaq.**

Bu katren barədə də tədqiqatçılar bir söz deyə bilməyiblər. Katrendə bəyan olunanların gələcəkdə baş verəcəyi gözlənilir.

**5 k89**

**Macarıstanın daxilində Bohemiyadan, Navarradan**
**Və üsyançıların müqəddəs bayrağı altında**
**Zanbaq ölkəsinin zanbaq güllərini Barra apararaq**
**Orleanlılara qarşı çaxnaşmalar salacaqlar.**

Bu katrendə Nostradamus protestantların iğtişaşlarından söz açır. XVI-XVII əsrlərdə Navarra və Bohemiya münaqişə mərkəzinə çevrilmişdi. 1618-ci ildə Bohemiya və Macarıstanda başlayan üsyan Otuzillik müharibə ilə nəticələndi. 3-cü və 4-cü sətirlər bir az sonrakı hadisələrdən bəhs edir. Barr şəhəri Strasburqun bir neçə kilometrliyindədir. Barr və ətraf torpaqlar 1689-cu ildən Fransanın tabeliyindədir.

**5 k90**

**Sikladlarda, Korinf və Lafisdə,**
**Spartada, bütün Peloponnesdə.**
**Aldadıcı tozla dəhşətli aclıq, taun,**
**Yarımadanın hər yerində doqquz ay davam edəcək.**

Bu katren barədə tədqiqatçılar müəyyən fərziyyələr irəli sürsələr də, müsəlman aləminə qara yaxmağa çalışsalar da, deyilən - lər yerini tutmayıb. Deməli, katrendə göstərilənlər gələcəkdə baş

verəcəkdir. Təkcə onu deyə bilərik ki, katrendə adı çəkilən yerlər Yunanıstan və Balkan yarımadasındadır.

**5 k91**

**Riyakarlar yeri adlandırılan Böyük bazarda,**
**Bütün çaylardan və Afina çöllərindən.**
**Mars Şir bürcündə, Saturn isə Dolça bürcündə olanda**
**Yüngül silahlı Alban süvari dəstəsini görəndə təəccüblənəcəklər.**

Hər şeydən əvvəl onu deyək ki, Mars Şir bürcündə, Saturn isə Dolça bürcündə 1993-cü il aprelin 27-dən iyunun 23-nə qədər olub. 4-cü sətirdə qədim romalıların "Albanois" adlandırdıqları Azərbaycanla Ermənistan arasında 1993-cü ilin aprel-iyun aylarında baş verən müharibədən bəhs edilir. Nostradamus azərbaycanlıların yüngül silahla silahlanacaqlarını da əsrlərlə öncə görüb.

Yeri gəlmişkən, tədqiqatçı Bardo Kidoqo bu katrendə Azərbaycanla bağlı maraqlı fikir irəli sürüb: "Albaniya deyəndə nədənsə insanlar Balkanları göz önünə gətirirlər. Bu təsəvvür düz deyil. Əslində qədim tarixdə və Nostradamus da buna işarə edir, Albaniya Qafqaz və İran arasında indi Azərbaycan kimi tanınan ərazidir".[1]

Nostradamusşünas Con Houq da məsələyə öz münasibətini bildirir: "Qədim Albaniya Zaqafqaziya regionudur. Katren XX əsrin 90-cı illərində baş verən Azərbaycan-Ermənistan münaqişəsindən bəhs edir. 1993-cü ilin aprel-iyun aylarında erməni ordu hissələri özünün həlledici qələbəsini əldə edərək Dağlıq Qarabağı Azərbaycandan ayırdı. 90-cı illərin ortalarında Azərbaycan-Ermənistan münaqişəsi səngidi".[2]

1-ci sətirdə Nostradamus Avropa "Ümumi bazar" ölkələrinin Balkanlarda – Bosniya, Xorvatiya, Serbiyada da guya müharibəni dayandırmaq üçün yığışaraq riyakarcasına çıxışlar etməsinə işarə

[1] Bardo Kidoqo. Nostradamus. London, 1994, səh. 32.
[2] Con Houq. Nostradamusun külliyyatı. London, 2001, səh. 399.

ilə bu birliyi "Riyakarlar birliyi" adlandırır. 2-ci sətirdə Yunanıs - tanla Türkiyə arasında 1995-ci ildə baş verən kəskin toqquşmalardan bəhs edilir.

**5 k92**

**Taxt-tacı on yeddi il tutandan sonra,**
**Beş tam müddət dəyişib yenisilə əvəz ediləcək.**
**Bu vaxtdan sonra bir nəfər seçiləcək.**
**O, bir o qədər də romalıların ürəyincə olmayacaq.**

Axırıncı sətirdən göründüyü kimi katrendə söhbət Romada baş verən hadisələrlə, daha doğrusu Vatikanla bağlıdır. Roma Papalarının seçkisi tarixinə nəzər salanda məlum olur ki, katren bizim zəmanəmizdən bəhs edir. Roma Papası XI Piy 17 il Vatikana rəhbərlik etmişdir (1922-1939). Ondan sonra seçilən beş nəfər Papa aşağıdakılardır: XII Piy (1939-1958), XXIII İohann (1958-1963), VI Pavel (1963-1978), I İohann Pavel (1978) və II İohann Pavel (1978-2005-ci illər) Vatikana rəhbərlik edib. 4-cü sətirdə bəyan edilir ki, 17 il Vatikana rəhbərlik edən II Paveldən sonra seçiləcək Papa, romalıların o qədər də xoşuna gəlməyəcək. Bu, əslən alman olan XVI Benediktdir. O, 2005-ci ilin aprelin 19-da Roma Papası seçilib. İrlandiyalı görücü Müqəddəs Malaxiyanın əsrlərlə öncə söylədiyi kimi, Papa XVI Benediktdən sonra seçiləcək Romalı Pyotrun vaxtında Vatikan məhv olacaq. O, Vatikanın son Papası olacaq.

**5 k93**

**Bədirlənmiş ay kürəsi altında,**
**Merkuri hakim mövqe tutanda,**
**Elə bir sima (xadim) yetişdirəcək ki,**
**İngilisləri çaş-baş salacaq.**

Tədqiqatçılar bu katrendə Nostradamusun 1600-cü ildə Şotlandiyada anadan olan, İngiltərə kralı I Çarlzın ölkədə katolikliyi

bərpa etmək təşəbbüsündən bəhs etdiyini qeyd edirlər. I Çarlzın hərəkətləri ingilisləri nəinki çaş-baş salmışdı, eləcə də ölkədə hərc-mərclik, qarışıqlıq hökm sürürdü. Bu isə ölkədə Vətəndaş müharibəsinə (1642-1649) səbəb olmuşdu. Bu az imiş kimi, o, katolik qadınla evlənmişdi. I Çarlz bütövlükdə protestantlardan ibarət olan ingilis parlamentinə üstün gələ bilmədi. Əksinə, parlamentin saray əyanlarının qərarı ilə 1649-cu ildə edam edildi. Nostradamus başqa bir katrendə açıqca bəyan edib: "London senatı öz kralını ölümə məhkum edəcək" (bax: 9 k49). Güman ki, katrenin nömrəsi də Nostradamus tərəfindən təsadüfi seçilməyib: 1649-cu il I Çarlzın edam ili idi.

**5 k94**

**Braban, Flandriya, Qand, Brüqqe və Boloniyanı**
**O, Böyük Almaniyaya qatacaq.**
**Barışıq aldadıcıdır. Ermənistanın Böyük hersoqu**
**Köln və Vyanaya hücum edəcək.**

Katrendə söhbət II Dünya müharibəsindən gedir. Nostradamus əvvəlcə Hitlerin tutduğu əraziləri sadalayır. 3-cü sətirdə 1939-cu ildə faşist Almaniyası ilə Sovet İttifaqı arasında bir-birinə hücum etməmək barədə imzalanmış sazişin aldadıcı olduğu göstərilir. 4-cü sətirdə görücü, Stalinin rəhbərliyi ilə Qızıl Ordunun Almaniya və Avstriyaya hücumundan söz açır. 3-cü sətirdə Stalinin Ermənistandan olması məsələsi bəzi tədqiqatçıların göstərdiyinə görə onunla bağlıdır ki, qədim zamanlarda Zaqafqaziyanın xristianlar yaşayan hissəsi "Ermənistan" adlanırmış.

Özünü nostradamusşünas adlandıran, lakin əslində fikri-zikri müsəlman aləminə qara yaxmaq olan Stefan Paulus bu katrenin də müsəlmanların Avropanı tutmasına həsr olunduğunu göstərməklə özünü gülüş hədəfinə çevirir. Onun fikrincə, 3-cü sətirdə söhbət gedən "Böyük hersoq" müsəlmandır, Mehdidir. Onun Mehdi adını haradan ortaya atdığı da müəmma olaraq qalır. Cek Manuelian isə

"Nostradamus. III Dünya müharibəsi barədə görücülük" adlı ingiliscə kitabında[1] yalandan qeyd edir ki, Ermənistanın "Böyük Hersoq"u rus ordusunun erməni mənşəli komandiridir.

**5 k95**

**Dəniz avarı şübhə doğuracaq.**
**Böyük imperiyanı məcbur etməkdən ötrü gələcək.**
**Egey dənizində ağac maneələr**
**Tirren dalğalarından uzaqlaşmışa əngəl törədəcək.**

Bəzi tədqiqatçılar qeyd edirlər ki, bu katren 1571-ci ildə Fransız gəmilərinin Siciliya və Toskana arasında yerləşən Tirren dənizindən keçərək Mesin şəhəri yaxınlığında Osmanlı İmperiyasının hərbi-dəniz donanması ilə vuruşa getməsindən bəhs edir.

Hətta Nostradamusu günahlandırırlar ki, səhvən Egey dənizini göstərib. Çünki döyüş Aralıq dənizində olub.

Bizə qalırsa, bu katren Antantaya daxil olan Böyük Britaniya, İtaliya, Fransa və Yunanıstan qoşunlarının 1920-ci ildə İstanbulu tutmasından və sonralar Atatürk kimi tanınan Mustafa Kamalın rəhbərlik etdiyi türk qoşununun həmlələrinə dözməyərək ölkəni tərk etməsindən bəhs edir.

**5 k96**

**Böyük dünyanın mərkəzində qızılgül,**
**Yeni əməllər naminə hamının gözü qabağında qan axıdılacaq.**
**Həqiqəti demiş olsaq, onları susduracaqlar.**
**Hamının çoxdan gözlədiyi gec gəlib çıxacaq.**

Məlumdur ki, qızılgül sükut rəmzidir. Bundan istifadə edən Qərb tədqiqatçıları bu katreni Şərq sufizmi və onun nümayəndələri Mexer Baba, Svami Prabxupada və başqaları ilə bağlayırlar. Lakin 2-ci və 3-cü sətirlərdən göründüyü kimi, burada "qızılgül"

[1] Göstərilən kitab, New Brinswick, 1996, səh. 91.

məcazi mənadan daha çox, həqiqi məna ifadə edir və həm də bu məqamda bu sözü Nostradamus istehza ilə işlədir. 3-cü sətirdə göstərildiyi kimi, zor gücünə ağzını açmağa imkan verilməyən adam, təbii ki, danışa bilməz, susar. Bizcə, "Böyük dünyanın mərkəzi" dedikdə, Nostradamus onun materik hissəsini, Avropa, Asiya və Afrika qitələrini nəzərdə tutur. Doğrudur, qədim zamanlarda dünyanın mərkəzi Qüds hesab olunurdu. Bununla belə, bu katrendə təkcə Fələstindən deyil, eləcə də Balkanlar, İraq, Əfqanıstan və başqa gücsüz dövlətlərə qarşı ABŞ-ın açıq-aşkar zorakılığından danışılır. Bu barədə daha çox məlumat başqa katrenlərdə də vardır (bax: 8 k7). 2-ci sətirdə pis əməllər naminə axıdılan nahaq qandan, 1-ci sətirdə Avropa ölkələri və eləcə də Çin və Rusiyanın susaraq bu məkrli niyyətlərə rəvac verməsindən bəhs olunur. 4-cü sətirdə ABŞ-ın əsası olmayan bəhanə ilə 2003-cü ildə İraqı tutmaq cəhdinə qarşı nəhayət ki, gec də olsa Avropa ölkələrində Almaniya və Fransanın, eləcə də Rusiya və Çinin açıq müqavimətindən danışılır. Lakin zaman göstərəcək: onlar bu işə vaxtındamı, yoxsa Nostradamusun göstərdiyi kimi, gecmi başlayıblar. Axı, ABŞ İraq sərhədlərinə görünməmiş hərbi qüvvə toplayaraq 20 mart 2003-cü ildə müharibəyə başladı və ölkəni zəbt etdi.

### 5 k97

**Böyük kralın yaşamağa yararlı şəhərində**
**Boğulma təhlükəsindən eybəcər şəkildə doğulan.**
**Əsirlər barədə amansız fərman ləğv edildi.**
**Dolu və ildırım. Kondon nüfuzdan düşdü.**

1-ci sətirdə Parisdən bəhs edilir. 2-ci sətirdə tədqiqatçıların yazdıqlarına görə kral XIV Lüdovikin həmişə maskada gəzən və kralın hökmü ilə ömrünün çoxunu zindanlarda keçirən əkiz qardaşından danışılır.

3-cü sətirdə 1685-ci ildə hugenotların din (ibadət) azadlığından məhrum edilməsi barədə Nant Fərmanından bəhs olunur. 4-cü sətirdə Fransanın cənub-qərbində yerləşən, ticarət mərkəzi kimi tanınan Kondom şəhərinə işarə edilir. Deyilənə görə, dünyada məşhur olan "Kondon" rezin məmulatı – qoruyucu vasitə hər yana buradan yayılmışdır. Yəqin buna görədir ki, Nostradamus şəhərin adını bilərəkdən, olduğu kimi "Kondom" deyil, onu dünyada tanıdan rezin məmulatının adı ilə "Kondon" yazmışdır.

**5 k98**

**Qırx səkkiz dərəcə en dairəsində,**
**Günəş Xərçəng bürcünü keçəndə quraqlıq olacaq.**
**Balıqlar dəniz, çay və göldə bişəcək, vərəm üz verəcək.**
**Bearn və Buqorra göydən ələnən od qarşısında ümidini itirəcək.**

Katrendə təsvir olunanlar Fransanın cənub-qərb torpaqlarında, Şimali Amerika, Ukrayna, Britaniya, Nyufaunlenddə və s. ola bilərdi və gələcəkdə də baş verə bilər.

1939-cu ildə ABŞ-da dəhşətli quraqlıq olubmuş. Onu da deyək ki, Günəş Xərçəng bürcünü hər il iyul ayının 22-də keçir.

Bəzi qərb tədqiqatçıları sərsəm fikirlərindən əl çəkmir, yenə də müsəlman aləminə ləkə yaxmaqla məşğul olurlar. Bu katrendə də müsəlmanların xristianlara hücum edəcəkləri barədə fikir irəli sürərək, oxucularda onlara qarşı əsası olmayan təsəvvür yaratmağa çalışırlar.

**5 k99**

**Milan, Ferar, Turin və Akvileya,**
**Kanuya, Brindizini kelt xalqı hiddətləndirmişdir:**
**Şir və Qartal cinahı tərəfdən**
**Romada qoca Britaniya hökmdarı olanda.**

Bəzi tədqiqatçıların fikrincə katrendə söhbət Britaniyanın baş naziri Vinston Çörçilin əmrinə əsasən İtaliyanın adları çəkilən

yerlərinin II Dünya müharibəsinin sonuna yaxın fransız, ingilis (Şir) və Amerika (Qartal) ordu hissələri tərəfindən tutulmasından gedir.

Başqa qrup tədqiqatçılar isə daha doğru fikir irəli sürürlər. Görünür, burada Fransanın İtaliyanı tutmasından, Avstriya-Rusiya ordu hissələrinin feldmarşal Suvorovun komandanlığı ilə 1799-cu ildə fransız ordusunu darmadağın etməsindən, axırıncı sətirdə isə Stüartlar nəslinin son nümayəndəsi kardinal Yorkun 1807-ci ildə Romada dünyasını dəyişməsindən danışılır.

**5 k100**

**Təhrikçi öz odu ilə tutuldu**
**Karkas və Komənjə göydən od yağacaq.**
**Fua, Oş, Mazer təriflənən qocanı**
**Hassedən, Saksrniya və Turənjdən olanlar qovdular.**

Tədqiqatçıların fikrincə, 1-ci sətirdə böyük görücü nüvə partlayışının mexanizmini təsvir edir.

Katrenin digər sətirlərində isə II Dünya müharibəsi zamanı almanların Fransanı tutmasından, Fransanın milli qəhrəmanı, qoca marşal Petenin hakimiyyətdən uzaqlaşdırılmasından danışılır.

# VI SENTURİYA (VI YÜZLÜK)

*Böyük xəyallar insanları aldadacaq. Və onlar şər qüvvələrə xidmət göstərərək kütləvi qırğın silahları icad edəcək, ağlasığmaz bədbəxtliklərin törədilməsinə rəvac verəcəklər.*



## 6 k1

**Pireney dağlarının ətrafına çoxlu adam yığışmışdır.**
**Əcnəbi xalq yeni krala kömək edəcək.**
**Qaronna çayının yaxınlığında böyük Mas məbədindən**
**Romalı başçı onu suyun içində qorxudacaq.**

K katren barədə nostradamusşünaslar qəti fikir söyləməkdən çəkinmişlər. Məlum olan odur ki, hadisələr Fransada cərəyan edib və ya baş verəcəyi gözlənilir.

## 6 k2

**Min beş yüz səksəninci illərdən.**
**Çox qəribə bir əsri gözləyəcəklər.**
**Min yeddi yüz üçüncü ildə Göylər şahid olacaq.**
**Bir neçə krallıq birə beş dəyişdiriləcək.**

Katrendə dəqiq tarixlər göstərildiyinə görə onu təhlil etmək heç bir çətinlik törətmir. XVI əsrin 80-ci illərində Fransada baş vermiş dini müharibələrin sonuncusu – 7-ci baş verir və sona yetir. Fransa güclənməyə başlayır və 1703-cü ildə kral XIV Lüdovikin Avropa hökmdarlarına qarşı İspaniya uğrunda apardığı müharibələr zəfərlə başa çatır. İspaniya XIV Lüdovikin nəvəsi V Filippin vərəsəliyinə keçir. İspaniyanın sərhədləri xaricində olan bir neçə krallıq – Milan, Siciliya, Niderlandiya, Asiya və Latın Amerikasında bir çox müstəmləkələr ona tabe olur.

**6 k3**
**Yeni doğulan kelt varisini sınayan çay,**
**İmperiya ilə böyük fikir ayrılığında olacaq.**
**Gənc şahzadə kilsə camaatının köməyilə**
**Səltənəti yekdil tacdan məhrum edəcək.**

Katrendə söhbət Fransa kralları XIII Lüdovikin və oğlu XIV Lüdovikin hakimiyyəti zamanı baş vermiş daxili çəkişmə və müharibələrdən gedir. 1-ci və 2-ci sətirlərdə maraq doğuran odur ki, qədim zamanlardan kral sülaləsində dünyaya gələn uşağı yay və onun üstünə yığılmış otun üstünə qoyar və sahildən çaya itələyərlərmiş. Güman ki, bu müəyyən inamla bağlı olub. Qoy uşağın taleyi su kimi aydın olsun. Maraqlıdır ki, XIV Lüdovikin vaxtında Reyn çayı sahilində yaşayanlar hakimiyyətə qarşı olmuş, müharibələr ara verməmişdi.

**6 k4**
**Kelt çayı (Fransa) məcrasını dəyişəcək.**
**O, bir daha Aqrıpın (Köln) şəhəri boyu axmayacaq.**
**Qədim dildən başqa hər şey dəyişilmişdir.**
**Saturn, Şir, Mars Xərçəng bürcündə talana məruz qalacaqlar.**

Katrendə söhbət XIX əsr Fransa və Almaniya dövlətlərindən gedir. Böyük Karl və Napoleonun vaxtında Reyn torpaqları və Reyn çayı hövzəsi Fransanın idi. Fransa–Prussiya müharibəsindən sonra Reyn çayının qərb sahilləri, Elzas və Lotaringiya almanların təbəəliyinə keçdi. Hər şey, dövlət quruluşu da daxil olmaqla də - yişdi. Dəyişməyən, 3-cü sətirdən göründüyü kimi, təkcə qədim fransız dili oldu.

**6 k5**
**Ölüm dalğası böyük qıtlığa gətirib çıxaracaq.**
**O, uzun müddət yağış kimi Şimal qütbünədək yayılacaq.**
**Samarobrin yarımkürədən yüz lyö aralı olacaq.**
**Heç bir qanuna, siyasətə boyun əymədən yaşayacaqlar.**

Bütün tədqiqatçılar həmrəydirlər ki, bu katrendə hər şey 3-cü sətirlə bağlıdır. XVI əsrdə Fransada bir lyö 2.5 mildən 4.5. milə qədər idi. (Bir mil 1609 metrə bərabərdir). Deməli, Samarobrin nədirsə, yerin səthindən 250-280 milə qədər aralıdır. Maraqlıdır ki, sovet "Mir" və "Skylab" ABŞ kosmik gəmiləri təqribən bu məsafədə tədqiqatlar aparmışlar.

Bəzi tədqiqatçılar Samarobrinin kosmik gəmi olduğu fikrini irəli sürürlər. Bəziləri isə onun Spid xəstəliyinin dərmanı olacağı ehtimalındadırlar. Bu yaxınlarda Spid xəstəliyinə qarşı əldə olunmuş dərmanlar (suramin və ribavrin) bəlkə də gələcəkdə samarobrinin tərkib hissəsi olacaqlar. Onu da bilmək maraqlıdır ki, ABŞ və rus alimləri kosmosda – yerətrafı orbitdə tədqiqatlar apararaq Spid xəstəliyinin əlacını tapmağa can atırlar. Əslində, Nostradamus bu katrenlə bağlı hadisələrin yerin cazibə qüvvəsi sıfır olan məsafədə baş verəcəyini göstərmişdir.

Bəzi tədqiqatçılara görə katrendə söhbət gələcəkdə Arktika üzərində Ozon təbəqəsinin dağılması nəticəsində Yer kürəsində insanların dəri xərçəngi xəstəliyinə tutulacağından gedir.

**6 k6**

**Kiçik Ayı bürcünün yeddi ulduz topası qütb ulduzunun yanında görünəcək,**
**Quyruqlu ulduz, Xərçəng bürcü yaxınlığında:**
**Süz, Syen, Boes, Eritryon, möhtəşəm Roma,**
**Gecə ömrünü başa vuranda məhv olacaq.**

Tədqiqatçılar bu hadisələrin gələcəkdə baş verəcəyini, hətta hadisələrin 2006 və ya 2066-cı ildə yer alacağını qeyd edirlər. Burada maraqlı bir cəhət diqqəti çəkir. 1-ci sətirdə sözü gedən yeddi ulduz topası Şimal qonşuları ABŞ və Rusiya üzərində şəfəq saçır və buna şimal və ya qütb şəfəqi deyirlər.

## 6 k7

**Norvegiya, Dakiya (Rumıniya), eləcə də Britaniya adası,**
**Birləşmiş qardaşların qəzəbinə düçar olacaqlar.**
**Qalliya qanından törəyən Romalı başçı**
**Və qoşunları məcburən meşələrə çəkilmişlər.**

Katrendə II Dünya müharibəsi vaxtı Hitler və onun müttəfiqlərinin təcavüzkarlığı təsvir olunur. 1940-cı ildə Hitler artıq Norveç və Rumıniyanı tutmuşdu. İngiltərəyə qarşı müharibə aparırdı.

2-ci sətirdə Hitler və Mussolinidən söhbət gedir. Bir çox tədqiqatçılar göstərirlər ki, 3-cü sətirdə görücü Mussolininin fransız qanından törədiyini bəyan etməklə səhvə yol verir. Lakin nəzərə alsaq ki, Napoleonun vaxtında bütün İtaliya Fransa İmperiyasına daxil idi və bir çox ərazilər tarix boyu əldən-ələ keçərək, gah Fransanın, gah da İtaliyanın təbəəliyində olmuşdur, fərziyyə irəli sürmək olar ki, bəlkə də Mussolininin əcdadlarının damarlarında fransız qanı axmışdır.

Axı, böyük görücüyə hər şey məlum idi.

Bilmək maraqlıdır ki, Mussolini vaxtilə Fransa ərazisi olan və Fransa tərəfindən idarə olunan Şimali İtaliyada anadan olmuşdu. Nostradamusşünas Velş də Duçenin qanının fransız qanı ilə qarışdığını istisna etmir.[1]

Katrenin 4-cü sətrində göstərilənlər də yerini alıb. 1940-cı ildə Mussolini Yunanıstanı zəbt etmək istəyəndə, yunanlar onun ordusunu Albaniyanın çox sıx müşələrinə çəkilməyə məcbur etmişdilər.

## 6 k8

**Bilik naminə krallıqda olanlar,**
**Krallıq dəyişəndə dilənçi kökünə düşəcəklər.**
**Sərvətsiz, əmlaksız, dayağı olmayan qaçqın kimsələrə,**
**Alimlərin və biliyin əhəmiyyəti olmayacaq.**

[1] R.W.Welsh. Comet of Nostradamus. USA, Minnesota, 2000, səh.197.

Tədqiqatçı Con Houq katreni heç bir əsas olmadan ABŞ ilə bağlayır. Bizə qalırsa, bu katreni Sovet sistemi dağıldıqdan sonra, keçmiş Sovet məkanında, xüsusən də Azərbaycanda baş verən hadisələrlə əlaqələndirmək həqiqətdən kənar olmazdı.

Sovet dövründə alimlərin həyatı çox vaxt qorxu altında, acınacaqlı və təhlükəli idi. Hərbi əhəmiyyəti olan obyektlərdən başqa, digər elm ocaqlarında çalışan bir çox adlı-sanlı alimləri zindanlarda çürüdürdülər. Hətta bəzən hərbi obyektlərdə çalışan Korolyov kimi alimlərə də bu baxımdan fərq qoymurdular. Bununla belə, insanlar elmə, biliyə can atırdılar.

Sovet sistemi dağılandan sonra, keçid dövrü başladı, Azərbaycan kimi çoxlu qaçqını olan ölkədə də elmə, alimlərə o qədər qayğı göstərilmirdi.

Bəzi Qərb tədqiqatçıları isə bu katreni faşist Almaniyası ilə bağlayırlar.

**6 k9**

**Müqəddəs məbədlərə görünməmiş zərbə vurulacaq.**
**Bu işi şərəfli və tərifəlayiq (iş) kimi qiymətləndirəcəklər.**
**Onlardan profili qızıl və gümüş sikkələrdə həkk olunanın**
**Sonu görünməmiş əzab-əziyyət içində keçəcək.**

Nostradamusun ən yaxşı tədqiqatçılarından biri Fonbryun ilk olaraq göstərdiyi kimi, katrendə görücü Napoleondan və 1809-cu ildə İtaliyada kilsə xadimlərinin təqib olunmasından söz açır. Bu hələ az imiş kimi Napoleon 1806-cı il avqust ayının 6-da Müqəddəs Roma İmperiyasına son qoydu.

Napoleon həqiqətən də əmr etmişdi ki, onun profilini qızıl və gümüş sikkələrin üzərində həkk etsinlər. Son sətirdə göstərildiyi kimi, Napoleonun İngiltərənin Müqəddəs Yelena adasında sürgündə keçirdiyi son günlər məşəqqətli olmuşdur. Mədə xərçənginə tutulan Napoleon görünməmiş əzab-əziyyət içində ölümlə çarpışaraq 5 may 1821-ci ildə dünyasını dəyişmişdi.

Onu da deyək ki, bu katreni V.İ.Leninlə də əlaqələndirmək olar. Həqiqətən də katrendə təsvir olunanlar Leninin həyatı və fəaliyyəti ilə də səsləşir. Leninin də həyatının son ayları əzab-əziyyət içində keçib. İflic olub, dili tutulub. Lakin SSRİ-nin ən yüksək Dövlət mükafatı olan Lenin ordenində Leninin təsviri vardısa da (6.IV.1930), mütəxəssislərin dediyinə görə Leninin profilini heç vaxt qızıl və gümüş sikkələr üzərində həkk etməyiblər. Lakin gün kimi aydın həqiqətdir ki, Napoleon da, Lenin də milyonlarla adamın qanının tökülməsinə bais olduqlarına, müqəddəs yerlərə və müqəddəslərə (Napoleon iki Roma Papasının ölümünə bais olmuşdu) toxunduqlarına görə Yaradanın qəzəbinə gəlmişdilər.

**6 k10**

**Bir az sonra vaxt gələcək,**
**Məbədləri ağ və qaranın qarışığı ilə rəngləyəcəklər.**
**Qırmızılar və sarılar öz rənglərini itirəcəklər.**
**Qan, torpaq, taun, aclıq od, yanğı.**

Tədqiqatçılar bu fikirdədirlər ki, qırmızılar – ruslar, sarılar – çinlilərdir. Onlar kommunizm boyunduruğunu ataraq ordularını əlaltı dövlətdən çıxaracaqlar. Nostradamus bu katrendə də apokaliptik fəlakətlərdən söz açır: qan – müharibə və Spid; torpaq – ekoloji fəlakət; taun – ətraf mühitin çirklənməsi, Ozon deşiyi və Spid; aclıq-məhsulun qıtlığı və əhalinin artımının şiddəti; od – qlobal istiləşmə və su çatışmazlığı. Bəzi nostradamusşünaslar hesab edirlər ki, XXI əsrdə dövlətlər arasında müharibələr əsasən su üstündə olacaqdır. Efiopiya və Sudan Nil çayının qabağını kəsmək istəyəndə Misir bəyan etdi ki, əlacsız qalıb, o ölkələrə müharibə elan edəcək. Suriya və İraqın su sarıdan taleyi Türkiyədən asılıdır. Dünyada yüzdən artıq ölkə su çatışmazlığına görə qonşu ölkələrdən narazıdır.

**6 k11**

**Yeddi budaq azala-azala üçə enəcək.**
**Ölüm yaşlıları çox təəccübləndirəcək.**
**İkisi qardaş qırğınına cəlb olunacaq.**
**Sui-qəsdçilər yuxudaykən öldürüləcəklər.**

Katrendə söhbət XVI əsrin 70-ci illərində Fransada baş verən saray intriqalarından gedir. Kral II Henri və kraliça Yekaterina Mediçinin 7 övladından 4-ü ölür və yalnız üçü qalır. Həqiqətən də sağ qalan qardaşlardan III Henri və Fransisk 1575-1576-cı illərdə hakimiyyət uğrunda qanlı mübarizə aparırlar.

4-cü sətirdə Giz qardaşlarının öldürülməsinə işarə edilir. Bundan sonra kral III Henri özü də sui-qəsdin qurbanı olur.

**6 k12**
**İmperiya taxtına qalxmaq üçün ordular yaratdı.**
**Vatikandan kral qanını müdafiə edəcəklər.**
**Flamandlar, ingilislər, İspaniya Aspirlə birlikdə,**
**İtaliya və Fransaya qarşı çıxacaqlar.**

Katrenin 1-ci sətri göstərir ki, söhbət Napoleondan gedir. O, 24 yaşında kapitan ikən Tulon şəhərinin alınmasında göstərdiyi şücaətlərə görə briqada generalı rütbəsinə layiq görülmüşdü (14.01.1794). Briyenn və Parisin hərbi məktəblərində təhsil alan Napoleon hərbi strategiya və taktikanı yaxşı bilir və durmadan təkmilləşdirirdi. 1795-ci ildə diviziya generalı rütbəsinə layiq görülən Napoleon əla ordu yaradaraq İtaliyanı zəbt etmişdi. 1798-ci ildə 38 min nəfərlik ordu ilə Misirə yürüş edərək İsgəndəriyyə və Qahirəni tutmuşdu. Lakin Türkiyə Fransaya müharibə elan etdikdə o, Əbukir yaxınlığında məğlub olmuşdu. Həmin ilin noyabr ayında Napoleon Parisə qayıdaraq dövlət çevrilişi etdi. 1804-cü ilin may ayının 18-də özünü İmperator elan edərək qüdrətli ordu yaratdı və Qərbi Avropanın bir çox ölkələrini tutdu. 1806-cı ildə Müqəddəs Roma İmperiyasına son qoydu. Napoleon Avstriya imperatoru Fransdan təkidlə tələb etdi ki, təxminən min il mövcud olmuş "Müqəddəs Roma imperatoru" titulundan imtina etsin.

3-cü və 4-cü sətirlərdən göründüyü kimi, belçikalılar, ingilislər, ispanlar və kiçik alman dövlətləri (aspirlər) İtaliya–Fransa ittifaqına qarşı çıxaraq Avropa xalqlarının Fransa ağalığından xilas olmasına çalışıblar.

**6 k13**

**Şübhə edilən adam hakimiyyətdən uzaqlaşacaq.**
**Əksəriyyət onu müdafiə etmək istəsə də.**
**Kapitoliya onun hökmranlığını istəməyəcək.**
**O, ağır yükə (vəzifəyə) tab gətirə bilməyəcəkdir.**

Əksər tədqiqatçılar katrendə 1968-ci ildə ABŞ prezidenti seçilmiş Riçard Niksondan bəhs edildiyini qeyd edirlər. Məlum olduğu kimi "Votergeyt qalmaqalı"na görə ABŞ Konqresi onun 2-ci prezidentlik müddəti bitməmiş səsvermə yolu ilə etimad göstərməyərək, onu istefaya göndərmişdi (1974).

Beləliklə, Nikson prezidentlik səlahiyyətindən məhrum edilmişdi.

Doğrudur, belə bir hadisə az qalmışdı ki, Monika Levinski ilə bağlı qalmaqala görə prezident Klintonun da başına gəlsin.

Prezident Klintona etimad göstərməmək barədə Konqresdə məsələ qoyulsa da, səsvermə zamanı onun tərəfdarları çoxluq təşkil etmişdi.

Bəzi tədqiqatçılar isə bu katreni 2-ci müddətə (1980) prezident seçilə bilməyən Cimmi Karterlə bağlayırlar. Həmin vaxt İranda saxlanılan girovları azad etmək üçün həyata keçirilən müvəffəqiyyətsiz əməliyyat Karterin seçicilərin və Senatın nəzərindən düşməsinə gətirib çıxarmışdı.

**6 k14**

**Doğma torpağından uzaqda kral döyüşü uduzacaq.**
**O, gözlənilmədən qaçacaq, lakin izləyərək tutacaqlar.**
**Dünyanı dərk etməyən, qızılı zirehdə tutulacaq.**
**Başqa paltarda olduğundan düşmən təəccüblənəcək.**

Bu hadisə Nostradamusun ölümündən az sonra baş vermişdi. 1578-ci ildə 28 yaşlı Portuqaliya kralı Sebastyanın Mərakeşə hücumu zamanı onun ordusu məğlub olmuş, özü isə əsir götürülmüşdü. Tarixçilərin yazdığı ilə katrendə göstərilənlər üst-üstə düşür.

Onu da deyək ki, döyüş zamanı kral Sebastyanın 8 min əsgəri həlak olmuş, kral paltarını dəyişərək qaçmağa cəhd göstərmişdi. Lakin katrendə göstərildiyi kimi onu tutmuşdular.

Bəzi tədqiqatçılar isə bu katreni İsveçlə Rusiya arasında 1709-cu ildə baş verən müharibə ilə bağlayırlar. XII Karlın ordusu ehtiyatsızlıq edərək Poltava yaxınlığında Böyük Pyotrun hazırladığı tələyə düşmüş, tamamilə məğlub olmuşdu. XII Karl sağ qalanlarla türk ərazilərinə qaçaraq xilas olmuşdu. Üç il Türkiyədə qaldıqdan sonra türklər ona vətəninə qayıtmağa icazə vermişdilər. 1714-cü ildə XII Karl mühasirə zamanı öldürülmüşdü.

### 6 k15

**Şahzadəni tabutun altında tapacaqlar.**
**Onu Nyurnberqdən də yüksək tutacaqlar.**
**İspaniya kralı oğlaq bürcündə zəyifləyir.**
**Böyük Vittenberq tərəfindən aldadılıb və (ona) xəyanət edilib.**



***Adolf Hitler və Fransisko Franko danışıqlar zamanı (10 yanvar 1941-ci il)***

Katrenin 1-ci sətrində Adolf Hitlerdən danışılır. Nyurnberq orta əsrlərdə və İntibah dövründə Almaniyanın mədəniyyət mərkəzi olub. Hitler partiya yığıncaqlarını bu şəhərdə keçirməyi xoşlayarmış. Nyurnberq eyni zamanda alman faşistlərinin başçılarının II Dünya müharibəsindən sonra mühakimə olunduğu şəhərdir.

Katrenin 3-cü sətrində İspaniya kralı Fransisko Frankodan söhbət gedir. Məsələ onunla bağlıdır ki, 10 yanvar 1941-ci ildə Hitlerin israrla xahiş etməsinə baxmayaraq o, II Dünya müharibəsinə qarışmaqdan imtina etdi. Franko Hitlerə cavab verdi ki, uzun sürən vətəndaş müharibəsindən sonra ölkədə aclıq baş alıb getdiyi bir dövrdə Almaniya verdiyi sözün üstündə durmadı. İspaniyaya bir kisə un da göndərmədi. Maraqlı budur ki, 10 yanvar 1941-ci ildə Günəş oğlaq bürcündə olub.

Hitler İspaniyaya kömək etmədiyinə görə müharibə vaxtı çox peşman olmuşdu. Əgər İspaniya Almaniyaya qoşulsaydı, müttəfiq orduları Atlantik okeandan Cəbəlüttariq boğazına, oradan isə Aralıq dənizinə keçə bilməzdilər. Beləliklə, Hitlerin üstünlüyü təmin olunardı.

**6 k16**

**Gənc çalağan nə aparacaqsa**
**Fransanın Normanlarından və Pikardiyadan aparacaq.**
**Məbədin qara adamları, qara meşədən çıxıb gedəcəklər.**
**Lombardiyanı karvansaraya və yanğın yerinə döndərəcəklər.**

Katrendə 1562–1598-ci illər arası katoliklərlə hugenotlar arasında gedən dini müharibələrdən bəhs olunur.

R.V.Velş isə bu katreni II Dünya müharibəsi zamanı, 1944-cü ildə baş verən hadisələrlə bağlayır.

**6 k17**

**Uzun-uzadı dualardan sonra qatırçılar yandırıldı.**
**Onlar müxtəlif paltarlar geyməyə məcbur olacaqlar.**
**Saturnluları dəyirmançılar yandıracaqlar.**
**Əksəriyyəti kənarda toxunulmaz qalacaq.**

Bu katrenin də keçmişdən, dini müharibələr vaxtı baş verən qardaş gırğınından bəhs etdiyi təxmin edilir.

Ned Halley inanır ki, katrendə alman yəhudilərinin faşistlər tərəfindən təqibindən, quldurluqla gecə vaxtı onları qətlə yetirmələrindən, var-dövlətlərini talan edərək evlərini yandırmalarından danışılır.

### 6 k18

**Böyük krala həkimlər çarə tapa bilməyəcəklər.**
**Onun sağ qalması yəhudi möcüzəsi ilə deyil, tale ilə bağlıdır.**
**O özü və qohumları hakimiyyətdə yüksəyə qalxacaqlar.**
**İsanı inkar edən xalq əfv ediləcək.**

Tədqiqatçılar bu katreni şərh etməkdən vaz keçmişlər. Əslində, katrendə Nostradamus yəhudilərdən söhbət açır. Müqəddəs kitablarda yazılıb ki, Allahın yolundan çıxdıqlarına görə Böyük yaradan yəhudiləri tərki-vətən edəcək. Bu baş vermişdi. XX əsrin ortalarına qədər İsrail dövləti yox idi. 29 noyabr 1947-ci ildə Fələstini bölməklə BMT-nin qərarı ilə İsrail dövləti yarandı.

4-cü sətirdə görücü açıqca yazır ki, onlar əfv olunacaqlar. Belə də oldu. İndi yəhudilərin qüdrətli dövləti və vətəni vardır. Neçə-neçə basmaqəlib kitab müəllifləri D. və N.Zimalar həkimlə fizikanın yazılışının yaxın olduğuna görə, onları seçə bilməmiş, katrendə gedən həkim əvəzinə (1-ci sətir) fizika üzrə mütəxəssisdən dəm vurmuşlar.

### 6 k19

**Günahsızları oda atmaq istəyən**
**Xanımı əsl alov udacaq.**
**Hücum ərəfəsində ordu qırılacaq,**
**Sevilyada bədheybət öküzü görəndə.**

Bu katreni tədqiqatçılar 1562–1598-ci illər arası Fransada baş verən dini müharibələrlə bağlayırlar. Kraliça Yekaterina Mediçi hugenotların başçılarını öldürməyə göstəriş vermişdi. Bunun üçün bayram



***Varfolomey qırğını. Kraliça Yekaterina gördüyü mənzərədən dəhşətə gəlir***

vaxtı onların rəhbərlərini ziyafətə dəvət etmişdilər. Lakin kraliçanın oğlu, kral IX Karl hugenotları kütləvi şəkildə qırmağı əmr etdi. Tarixdə "Varfolomey gecəsi" kimi qalan 1572-ci il qırğınından sonra IX Karl, sonra isə Kraliça Yekaterina Mediçi dünyasını dəyişdi.

Onu da deyək ki, 1562-1598-ci illər arası alovlanan 7 dini müharibə 1598-ci ildə qəbul olunmuş Nant Fərmanı ilə başa çatdı. Bu fərmanla katolisizm ölkədə hakim din kimi qanunilәşdirildi.

### 6 k20

**Müqəddəs ittifaq çox sürməyəcək.**
**Bəziləri dəyişəcək, əksəriyyəti yeniləşəcək.**
**Romadan yeni bəbir görünəndə**
**Dözümlü xalq gəmilərdə olacaq.**

XXIII Roma Papası İohannın (1881-1963) ailə gerbində bəbir adlanan qanadlı heraldik şir təsvir olunmuşdu. Katrendə göstərilir ki, onun papalığı uzun sürməyəcək. Doğrudan da onun Papalıq müddəti yalnız dörd il oldu. Lakin bu az müddətdə papalıqda çoxlu sayda islahatlar apardı. Katrendə yer alan "gəmi" kəlməsi məcazi mənada işlənmişdir. Birinci mənası XXIII İohannın Venesiyadan olduğuna işarədir. İkinci mənası isə Papanın müqəddəs taxt-taca sahib olmasına işarədir.

### 6 k21

**Şimal qütbündən olanlar birləşəndə**
**Şərqi böyük dəhşət və qorxu bürüyəcək.**
**Yaxınlarda seçilmiş müdafiə ediləcək – böyük lərzəyə gələcək.**
**Rodos, Bizans barbar qanı ilə dolmuşdur.**



*Buş və Putin*
*Buş: Putin yaxşı dostdur*
*Putin: Buş düz adamdır*

Nostradamus bu katrendə sinekdoxadan istifadə edərək Yunanıstan əvəzinə Rodos, Türkiyə əvəzinə Bizans sözlərini işlətmişdir. Barbar – yadelli adam və ya mədəniyyətsiz adam mənalarında işlənə bilər.

Bəzi tədqiqatçılar bu katreni 1921-ci ildə Yunanıstan və Türkiyə arasında baş verən qanlı müharibəyə və sonralar Kipr adası uğrunda gedən münaqişələrə və silahlı toqquşmaya aid edirlər.

Bəziləri isə deyirlər ki, guya katren ABŞ prezidenti olmuş Klintonla bağlıdır. Guya Klinton 2-ci dəfə ABŞ prezidenti seçiləndə (1996) Çin və Şimali Koreya əsim-

əsim əsiblər. Qorxuya düşüblər. Əslində belə deyildir. Hər şey 1-ci sətirdən aydın olur. Şimal qütbündə ABŞ, Rusiya, Kanada, Norveç, İsveç və Finlandiya yerləşirlər. Lakin çəkinmədən deyə bilərik ki, burada söhbət ABŞ və Rusiyadan gedir. Çünki yerdə qalan dövlətlər böyük hərbi qüdrətə malik deyillər.

Məsələ burasındadır ki, Sovet İttifaqı dağılandan sonra ABŞ və Rusiya həqiqətən də birləşdilər. ABŞ Əfqanıstan və İraqı açıq-aşkar zəbt etdi. Şərq qorxuya düşdü. Həqiqəti deyənin ağzını yumdular. ABŞ güc işlətmək siyasəti ilə bütün dünyaya meydan oxudu. Hamıya göstərdi ki, güclü gücsüzün necə hərəkət etməli olduğunu tənzim etmək səlahiyyətini özündə saxlayır və nəyin yaxşı, nəyin pis olduğunu o müəyyən edir.

3-cü sətirdə söhbət ABŞ prezidenti C.Buşdan gedir. Prezidentliyinin 1-ci müddəti ərzində Avropa və bir çox dünya dövlətləri onu beynəlxalq münasibətlər və zor işlətmək iddiasına görə tənqid edirdilər. Lakin o, 2-ci müddətə ABŞ prezidenti seçildikdən sonra (noyabr, 2004) Avropa dövlət başçıları onu müdafiə etməyə başladılar. 3-cü sətirdən belə nəticəyə gəlmək olar ki, lərzəyə düşən böyük Çin dövləti və onun rəhbəridir. Bunu biz Tereza Mooreynin kiçik həcmli "Nostradamus" adlı bələdçi kitabçasında da görürük (London, 2000, səh. 65).

### 6 k22

**Böyük valehedici məbədin torpaqları hüdudunda.**
**Qardaşoğlu Londonda aldadıcı sülh şəraitində öldürüldü.**
**Papalıq ayrılıq siyasəti yeridəcək.**
**Şeypur və qışqırıqla yalançı azadlıq bərpa olunacaq.**

Katrenin 2-ci sətrindən göründüyü kimi hadisələr Londonda cərəyan edir. Londonda indiki Vestminster olan yerdə vaxtilə Günəş Allahı Apollona həsr olunmuş məşhur Roma məbədi yerləşirdi. II Çarlz hakimiyyətdə olarkən Ceymsin bacısı qızı Lisi Volterslə yaşayırdı. Onların övladı Monmons Ceymsin qardaşı oğlu idi. II Çarlzdan

sonra protestantlar onun kral olmasının tərəfdarı idilər. Lakin Ceyms aldadıcı siyasətlə protestantların tərəfinə keçdiyini elan edərək taxt-taca sahib oldu və 1685-ci ildə Monmonsu edam etdi. Lakin tezliklə məlum oldu ki, II Ceyms katoliklik siyasəti yeridir. Parlament katolikliyə qarşı qərar çıxardı və II Ceymsi hakimiyyətdən uzaqlaşdırdı.

## 6 k23

**Krallığın əhvali-ruhiyyəsi pulu qiymətdən salacaq.**
**Xalq öz kralına qarşı qiyama qalxacaq.**
**Sülh, yeni müqəddəslər, müqəddəs qanunlar pis günə qaldı.**
**Belə xarabazarlıq Parisdə heç vaxt olmamışdır.**

Katrendə 1789-cu ildə – Kral XVI Lüdovikin vaxtında Volter və Russonun rəhbərliyi ilə Bastiliyaya hücum zamanı baş verən hadisələrdən bəhs edirlir.

1789-1793-cü illər inqilabı zamanı Kral XVI Lüdovikin və kraliça Mariya Antuanettanın edamı və ölkədə baş verən özbaşınalıq vaxtı Parisin xarabazarlığa çevriləcəyini Nostradamus əsrlərlə öncə görmüşdü.

## 6 k24

**Mars və Yupiter hakimiyyəti bir-birinə qarşı dayanacaq.**
**Xərçəng bürcü altında müsibətli müharibələr gedəcək.**
**Bir az sonra yeni seçilən kralın üzünə yağ sürtüləcək.**
**O, yer üzünə uzunmüddətli əmin-amanlıq gətirəcək.**

Bu katreni tədqiqatçılar şərh etməkdən yayınmışlar. Bizcə, katrendə sözü gedən kral xristian aləmindən olacaq. Çünki 3-cü sətirdə Nostradamusun "Kralın üzünə yağ sürtüləcəkdir" deməsi bunu açıqca göstərir. Məsələ burasındadır ki, keçmişdə xristian aləmində taxta çıxan kralın üzünə və alnına "müqəddəs yağ" sürtməkdən ibarət mərasim dəbdə olub (bax: 1 k57).

Bu adət indinin özündə də dəbdədir. 1952-ci ildə atası VI Georqun ölümündən sonra II Yelizaveta taxt-taca sahib olanda taxt-rəvanda (bəzəkli talvar) yağsürtmə mərasimi olmuşdu.[1]

**6 k25**

**Marsın köməyi ilə monarxiyaya qarşı çıxacaq.**
**Böyük Balıqçı çətin vəziyyətdə qalacaq.**
**Cavan, qırmızı kral hakimiyyəti ələ alacaq.**
**Satqınlar dumanlı gündə hərəkətə başlayacaq.**

Katrendə Napoleonun hakimiyyətə gələrək Burbonlar hakimiyyətinə son qoymasından, çevrilişin inqilabi təqvimdə göstərildiyi kimi noyabrda, "dumanlı ayda" baş tutmasından, Napoleon İtaliyanı tutanda Roma Papası VI Piyin təşvişə düşməsindən, Napoleon tərəfindən zindana salınmasından (2 sətir) və zindanda ölməsindən (1799) bəhs edilir.

1-ci sətirdə sözü gedən Mars müharibə və inqilablar rəmzidir. Bu sətirdə Napoleonun hakimiyyətə inqilabla gələcəyinə işarə edilir.

"Cavan, qırmızı kral" deməklə Nostradamus Napoleonun ömrünün müharibələrdə keçəcəyindən xəbər verirdi.

**6 k26**

**Dörd il müddətinə taxt-tac bir az yaxşı saxlanacaq.**
**Sonra pozğun həyat sürən taxta əyləşəcək.**
**Papanın xaçını yüksəyə qaldırmaq üçün**
**Raven və Piz Veronu müdafiə edəcək.**

Katrendən göründüyü kimi, burada söhbət Roma papalığından gedir. 2-ci sətir katrenin şərhində köməyə gəlir. Dörd ildən bir az çox hakimiyyətdə Roma Papası XXIII İohann Pavel olmuşdur (28 oktyabr 1958 – 3 iyun 1963). Onun vaxtında Vatikanın nüfuzu xeyli artmışdı.

---

[1] "Soverşenno sekretno" qəzeti, №4, Moskva, 2005, səh. 33.

Ondan sonra hakimiyyətə Papa VI Pavel gəldi. Onun homoseksual olduğu barədə şayiələr gəzirmiş. VI Pavelin mürəkkəb xasiyyətli və hər şeydən təsirlənən bir şəxs olduğu göstərilir. Yəqin buna görədir ki, bir çox kardinallar onu "Vatikan Hamleti" adlandırarmış.

**6 k27**

**Beş çayın bir çaya yönəldiyi**
**Böyük Şiren-Selinin ayparası ilə**
**Qırov və şiddətli yağışdan qaçan**
**Altı nəfər kətan yükü altında gizləndi.**

Bu katren hələlik şərh edilməyib. Bəzi tədqiqatçılar, xüsusən də Luçino Sampietro 1-ci sətri Böyük Britaniya ilə əlaqələndirir. O, xüsusi qeyd edir ki, 1-ci sətir Böyük Britaniyanın şan-şöhrətli vaxtından, bir çox ölkələrdə hökmdarlıq etdiyindən: Nil, Qanci, Niger, Dəclə və Fərat çaylarının onun mənafeyinə işləməyindən, sonralar isə Temzadan başqa onların hamısını itirdiyindən söhbət gedir.

**6 k28**

**Böyük kelt Romaya daxil olacaq.**
**Sürgün olunanlar və qovulanlarla birgə.**
**Alplarda Xoruzun tərəfdarı olanları**
**Böyük pastor ölümə məhkum edəcək.**

Bu katrendə Nostradamus İtaliya ilə Fransa arasında gedən müharibələrdən söz açır. Hadisələr Roma Papası təkcə dini rəhbər deyil, həm də dövlətin rəhbəri olan vaxtda cərəyan edir. Şübhə yoxdur ki, bu eyni zamanda Napoleonun hakimiyyəti dövründə baş vermişdir. 3-cü sətirdə gedən "Xoruzun tərəfdarları olanlar" ifadəsi bunu bir daha təsdiqləyir. Xoruz rəmzi Fransa gerbində 1789-1793 illər Böyük Fransa inqilabı zamanı öz əksini tapıb. İndi Fransanın milli emblemi xoruz şəklindədir.

## 6 k29

**Günahsız dul qadın onun-bunun ağzından**
**Övladlarının çətin vəziyyətə düşdüyünü eşidəcək.**
**Dava-dalaşları yatırtmaq məcburiyyətində qalacaq.**
**Başıqırxıqların onu təqib etməsindən tığ vurulacaq.**

Hadisələr XVI əsrin 70-ci illərinə aiddir. Kral II Henri 1559-cu ildə faciəli şəkildə öləndən sonra (bax: 1 k35) uşaqları kiçik olduğundan krallığa əslində arvadı Yekaterina Mediçi başçılıq edirdi. Hakimiyyətə gələn uşaqlarının dalbadal ölməsi onu dərdə salmışdı. Ümidini fiziki cəhətdən möhkəm olan IX Kral və III Henriyə bağlamışdı.

Lakin 1572-ci ildə "Varfolomey qırğını"nı törədən kral IX Karl az sonra öldü. Yekaterina Mediçi Polşada kral seçilmiş oğlu III Henrini Polşadan geri çağırdı ki, ölkədə əmin-amanlıq yaratsın. Lakin əksinə oldu. III Henri Giz qardaşlarını öldürmək fikrinə düşdü. Ən güclü rəqiblərini aradan götürdükdən sonra (bax: 1 k36) kral III Henrini də öldürdülər. Yekaterina Mediçi oğlunun ölümünə və ölkədə yaranan vəziyyətə tab gətirə bilməyərək tezliklə dünyasını dəyişdi.

Katrenin 4-cü sətrində söhbət gedən Giz qardaşlarıdır. Onların ölümündən sonra ölkədə vətəndaş müharibəsi yenidən qızışdı və böyük qırğınlar oldu. Leş-leş üstə yığıldı. Obrazlı şəkildə desək, "Vurulan tığın" lap üstündə kral III Henrinin meyiti durdu".

## 6 k30

**Üzdən görünən saxta müqəddəsliklə,**
**İstehkamlar xəyanətlə düşmənə veriləcək.**
**Gecə onlar təhlükəsiz yatdıqlarına əmin olduqda**
**Lyejdən olanlar Brabantin yaxınlığından yürüşlə keçəcəklər.**

Katrendə söhbət XVI əsrdə Niderlandda ispan işğalçılarına qarşı aparılan 80 illik müharibədən gedir. Lyej şəhəri və hersoqluğu Brabantın şərqindədir.

## 6 k31

**Kral nəyi arzu edirsə tapacaq**
**Böyük prelat nahaqdan tutulanda,**
**Verilən cavabdan hersoq narazı qalacaq.**
**O, Milanda çoxlarını ölümə məhkum edəcək.**

Katrendə II Dünya müharibəsi zamanı İtaliyada baş verən hadisələrdən bəhs olunur. Kral Viktor III Emmaniulun Baş nazir Mussolinidən xoşu gəlmirdi. Onu aradan götürmək üçün fürsət axtarırdı. Belə bir fürsət 1943-cü ildə ABŞ və İngiltərə orduları İtaliyaya girəndə ələ düşmüşdü. Çevriliş baş vermişdi. Lakin 4-cü sətirdən göründüyü kimi, Hitlerin köməyi ilə Duçe (rəhbər) hakimiyyətə qayıtmışdı. Mussolini xarici işlər naziri Çiano daxil olmaqla çevrilişin əsas səbəbkarlarını ölümə məhkum etmişdi.

## 6 k32

**Dönüklüyünə görə ölənə qədər çubuqla döyüldü.**
**Tutulacaq və qarışıqlıqda dəf olunacaq.**
**Çətinliklə əsir götürülmüş böyüyə mənasız məsləhət.**
**Berix gəlib dişləyəndə burnu qəzəbdən titrəyəcək.**

Katrenin 1-ci sətrində Qədim Romada əmri yerinə yetirməyən əsgərə verilən cəza növündən danışılır. Çox güman ki, bu sətir bədii priyomdur. Məsələnin məğzi yerdə qalan sətirlərdədir. Məsələ burasındadır ki, Luteranlara – protestant məzhəbinə qulluq edənlərə qarşı otuz illik müharibə zamanı, Roma imperatorluğunun ən görkəmli sərkərdəsi Vallenşteyn İmperatorun göstərişlərini qulaq ardına vuraraq luteranlarla sülh yaratmaq üçün özünə məxsus diplomatik siyasət yeridirdi. Qeyzə gələn İmperator 1634-cü ildə xəlvəti əmr verir ki, Vallenşteyni tutub sorğu-sual üçün Romaya gətirsinlər. Lakin bu asan iş deyildi. İrlandiyalı muzdlu məqam gözləyib gecə vaxtı generalın otağına girərək yuxuda olan Vallenşteyni nizə ilə öldürür.

Katrenin 4-cü sətrində Nostradamus o dövrün ən iyrənc adətlərindən birini göstərir. Adətə görə əsgər əsir götürdüyü adamı öldürər, burnunu və qulaqlarını kəsər, onlarla papağını bəzəyərmiş.

Yazılanlara görə İmperator ən cəsur sərkərdəsinin öldürüldüyünü eşidəndə qəzəbdən öz burnunu cırıb.

## 6 k33

**Qanlı Alusun vasitəsilə onun hakimiyyətinə son qoyulacaq.**
**Dənizdən özünü qoruya bilməyəcəkdir.**
**İki çay arasında hərbi qüvvə onu qorxuya salacaq.**
**Qəzəbli qara onu peşman olmağa məcbur edəcək.**

Bu katreni oxuyanda Nostradamusun sanki müasirimiz olduğunu düşünürsən. İraqda baş verən hadisələri o necə də təfsilatı ilə görmüşdür. Təəccüblüdür ki, Qərb tədqiqatçıları bu, gün kimi aydın həqiqətləri başqa cür yozmağa təşəbbüs göstərirlər. Katrenin 1-ci sətrində söhbət C.Buşdan gedir. Fikir verin: Alus-Buş. Belə çıxır ki, nostradamusşünasların izinə düşə bilmədiyi III antixrist Buşdur. Son illər, daha doğrusu, C.Buş (oğul) hakimiyyətə gəldikdən sonra Yuqoslaviyada, Əfqanıstanda, İraqda və s. çox qanlar axmışdır. Nostradamusun ABŞ-ı "qanlı sülh keşikçisi" adlandırması da təsadüfi deyildir. 2-ci sətirdən göründüyü kimi, nə 1991-ci ildə İraq NATO ordularına, nə də 2003-cü ildə Birləşmiş ABŞ-İngiltərə ordularına müqavimət göstərə bildi. Özünü dənizdən qoruya bilmədi. Hər iki müharibə dövründə düşmən, Nostradamusun göstərdiyi kimi, dənizdən hücum etmişdi. İki çay arası və ya Yunan dilində eyni mənanı verən Mesopotamiya deyəndə İraq nəzərdə tutulur. Katrenin 4-cü sətrində göstərilənlər də hədəfə düz dəymişdir. 1991-ci ildə "Körfəz müharibəsi" zamanı müttəfiq orduların Baş komandanı ABŞ generalı, qara dərili Kolin Pauel idi. Doğrudan da "Körfəz müharibəsi"ndən sonra Səddam Hüseyn özünə gələ bilmədi. Sonrakı peşmançılıq isə fayda vermədi.

Maraqlıdır ki, 2003-cü ilin mart ayında ABŞ və İngiltərə qoşunları İraqa soxulanda da ABŞ-ın Dövlət katibi Kolin Pauel (Xarici işlər naziri) böyük rol oynamışdı.

III Antixrist barədə daha ətraflı məlumat üçün bax: 1 k50, 2 k89, 6 k34, 8 k77.

## 6 k34

**Göydə uçan oddan hiylə.**
**Mühasirəyə alınmış böyük başçıya bədbəxtlik üz verəcək.**
**Dövlətin daxilində elə qiyam baş verəcək ki,**
**Ən cəsarətlilər belə ümidsiz vəziyyətdə olacaq.**

Tədqiqatçılar bu katreni İraqla bağlamaqda haqlıdırlar. Lakin hadisələrin 1991-ci il "Körfəz müharibəsi" ilə bağlı olduğunu söyləməkdə həqiqətdən uzaqlaşırlar. Məsələ 3-cü sətirlə aydınlaşır. Məlumdur ki, 2003-cü ilin mart ayının 20-də Birləşmiş ABŞ və İngiltərə orduları Bəsrədən girib 500 km-dən artıq məsafə qət edərək maneəsiz Bağdada daxil oldular. Bu, dövlətin tarixində doğrudan da görünməmiş hadisə idi. Xalqın Səddam Hüseynə nifrəti o qədər böyük idi ki, hətta vətən torpağının əldən getməsinə belə razı oldular. Otuz ildən artıq müddətdə İraq xalqını dilənçi kökünə salan diktatorun aqibəti belə oldu. 2-ci sətirdə açıq şəkildə ona bədbəxtlik üz verəcəyi göstərilir. Oğlanları öldürüldü, özü gizləndiyi yerdən tapılıb tutuldu. Allah qarşısında, ədalət məhkəməsi və vicdan qarşısında cavab verməli olan bu qəddar və qaniçən diktatorun taleyi elə belə olmalı idi.

Bəzi tədqiqatçılar bu katreni Yuqoslaviyanın Prezidenti olmuş Slobodan Miloşoviçlə bağlamaq istəsələr də, onların bu səyi əbəsdir. Ona görə ki, 3-cü sətir tədqiqatçıların dəlil-sübutlarını alt-üst edir.

## 6 k35

**Kiçik və Böyük Ayı bürcü yaxınlığında – Kəhkəşanda,**
**Qoç, Buğa, Xərçəng, Şir, Qız və eləcə də**
**Mars, Yupiter, Günəş, böyük düzənliyi**
**Meşələri, şəhərləri, yazılı abidələri yandıracaq.**

Tədqiqatçılar bu katren barədə ağlabatan bir söz deyə bilməyiblər. Güman ki, katrendə göstərilənlər gələcəkdə – ümumdünya istiləşməsi zamanı baş verəcəkdir. Təkcə onu deyə bilərik ki, bizim zəmanəmizdə Mars, Yupiter və Günəşin bir araya gəlməsi 1987-ci ildə baş vermişdi. Bu hadisə yenidən 2011-ci ildə gözlənilir.

**6 k36**

**Nə yaxşı, nə pis əməl yer üzündə döyüşlə**
**Peruzun sərhədlərinə gəlib çıxa bilməyəcəkdir.**
**Piza üsyan edəcək, Florensiya qəzəbli varlıq görəcək.**
**Kral gecə vaxtı qara çullu qatırın üstündə yaralanacaq.**

Tədqiqatçılar bu katren barədə qəti fikir söyləməkdən vaz keçmişlər. Məlum olan odur ki, katrendə bəyan olunanlar keçmişdə yer almışdır. 4-cü sətirdən bu aydınca görünür.

**6 k37**

**Köhnə iş axıra çatacaqdır.**
**Evin damından hökmdarın üstünə pis yağış yağacaq.**
**Bu işdə günahsızı, ölünü mühakimə edəcəklər.**
**Günahkar isə dumanlı kolluqda (kiçik meşəlikdə) gizlədilmişdir.**

Dörd yüz il bundan əvvəl Nostradamus prezident Kennediyə suiqəsd ediləcəyini dəqiq görmüş və bizim üçün, yəni Kennedinin müasirləri üçün müəmmalı görünən məsələləri açıqlamışdır. Məlumdur ki, Kennedinin ölümündə təkcə Li Harvi Osvald adlı şəxsi günahkar gördülər. Doğrudur, 1963-cü il noyabr ayının 22-də Texas ştatının Dallas şəhərində Con Kennedi güllə ilə öldürülərkən Li Harvi Osvaldı kitab anbarının 6-cı mətrəbəsində tutmuşdular. 3-cü sətirdə Nostradamus qeyd edir ki, Kennedini öldürən Li Harvi Osvald deyil, başqasıdır və “Günahkar dumanlı kolluqda gizlədilmişdir” (4-cü sətir).

Osvald bəyan edəndə ki, başqasının yerinə güdaza gedir, güman ki, yalan demirmiş. Onlarca şahid ifadə vermişdi ki, güllə səsi bina tərəfdən deyil, təpənin üstündəki hasara alınmış kolluqdan –



Con Kennedini buradan nişan almışdılar

Qrassi Nol deyilən yerdən gəldi. Prezidentin karteji həmin təpəlikdən yaxşı görünürdü. Bill Kurtis "Prezidenti məhv edən adamlar" adlı kitabında (1988) Prezidentə açılan məşum atəşdən cəmi 6 saniyə sonra çəkilmiş şəkildə təpədə polis formasında olan bir nəfərin əlində Prezidentin maşınına tuşlanmış tüfəng və atəşdən sonra əmələ gələn tüstü görünür. Sol tərəfdə əlində tüfəng olan daha bir nəfər görünür. Atəş açanın sağ tərəfində azca öndə daha bir nəfər də görünür. Bu Qordon Arnold idi. O, FBR-də ifadə verərkən göstərmişdi ki, arxa tərəfdən atılan güllənin səsindən hələ heyrət içində olduğu an polis paltarında olan bir nəfər yanına qaçaraq dedi ki, sağ qalmaq istəyirsə, dilini qarnında bərk saxlasın. Lakin tədqiqat zamanı ortaya çıxan bir çox dəlillər kimi, FBR və "Uorren Komissiyası" Arnoldun da dəlillərinə məhəl qoymadı. Üç il müddətinə davam edən istintaq zamanı 17 şahid təsdiq etdi ki, məşum atəş təpəlik - dəki pöhrəlikdən açıldı. "Uorren Komissiyası"nın məruzəsinə şübhə ilə yanaşmağa cürət edənlərin hamısı həlak oldu. İki nəfər guya intihar etdi. Üç nəfər yol-qəza hadisəsində həlak oldu. Üç nəfər ürək çatışmazlığından öldü. Altı nəfər atəşə tutuldu. Bir nəfərin başını kəsdilər. 17 nəfərdən yalnız birinin öz əcəli ilə dünyasını dəyişdiyi təsdiq edildi.

1988-ci ildə "Prezidenti məhv edən adamlar" kitabının müəllifi Bill Kurtis Qordon Arnoldu tapdı və atəşdən sonra çəkilən böyüdülmüş şəkli ona göstərdi. Arnold özünü və onu hədələyən polis nəfərini tanıdı. Təəccüblüdür, Prezidentin öldürülməsinin şahidi

olan 17 nəfər məhv edildiyi halda, onu necə olub ki, öldürməyiblər? Bu xoşbəxt bir təsadüfün nəticəsində olmuşdu. Şahidlik etdiyi gündən az sonra onu Alyaskaya – hərbi hava qüvvələrinin bazasına xidmətə keçirmişdilər. Beləliklə də Kennedini məhv edənlər onun izini itirmişdilər (Bax: 1 k26; 2 k57).

Onu da xüsusi qeyd etmək lazımdır ki, Con Kennediyə, Nostradamusun göstərdiyi kimi, evin damından da güllə atmışdılar (bax: 4 k6). Li Osvald bunu görmüşdü.

Kennedi qardaşlarından Robert Kennedi Ədliyyə naziri idi. And içmişdi ki, Kennedi qardaşlarına müharibə elan etmiş mafiyanın başçısı Sem Cankana və onun "sağ əli" Cimmi Xoffanı tutacaq. Həqiqətən də Xoffanı tutmuşdu. Az sonra, 1968-ci ildə Prezident olmağa 1-ci namizəd Robert Kennedini seçicilər qarşısında çıxış edib qurtaranda öldürdülər (Bax: 1 k26).

Hər iki sui-qəsddə əli olan Cimmi Xoffa və Sem Cankana da tezliklə öldürüldü. Cimmi həbsxanadan çıxan kimi, Sem isə Nyu-Yorkda güllə-baran edilmişdi. 1993-cü ildə ABŞ dövləti prezident Kennedinin ölümü ilə bağlı arxiv sənədlərini ictimaiyyətin üzünə açdı. 800 min səhifədən ibarət sənədlər sən demə "məxfi iş"in hamısı deyilmiş. Mərkəzi Kəşfiyyat idarəsi təhlükəsizlik məqsədi ilə hələ də 160 min sənədi məxfi saxlayır. Bu sənədlər ictimaiyyətin üzünə açılandan sonra Nostradamusun Kennedi qardaşları ilə bağlı dedikləri bizə daha da aydın olacaq.

### 6 k38

**Sülhün israfçı düşmənləri,**
**İtaliyanın fəthindən sonra,**
**Qanlı qara, qırmızı elçi olacaqlar.**
**Od aləmi bürüyəcək, qan axacaq, su qan rəngində olacaq.**

R.V.Velşdən başqa qərb tədqiqatçıları bu katreni şərh edə bilməyiblər. Lakin hər dəfə çətinliyə düşəndə müsəlman aləmini hə-

dəfə aldıqları kimi, bu dəfə də vərdişlərinə sadiq qalaraq müsəlman aləmi ilə bağlı ağıl kəsməyən bəzi fərziyyələr uydurmuşlar.

Bu katrendə 1789-1793-cü illər inqilabından sonra Fransada 5 nəfərdən ibarət heyətin dövləti idarə edərək büdcəsini məhv etməsindən, Napoleonun hakimiyyətə gəlməsindən və bununla bağlı baş verəcək faciələrdən bəhs edilir.

**6 k39**

**Krallığın oğlan uşağı ata tərəfindən əsir alındı.**
**Trasiman (Peruca) gölünün yaxınlığında**
**Onu azad etmək üçün oğurlayacaqlar.**
**Girov saxlanan davakar həddən artıq sevinsin deyə.**

Bu katren də şərh olunmamış qalır.

**6 k40**

**Maynsdan olan böyük təşnəliyini yatırtmaq üçün**
**Öz böyük ləyaqətindən məhrum ediləcək.**
**Kölndən olanlar gəlib o qədər hiddətlənəcəklər ki,**
**Böyük omba Reynə atılacaq.**

Nostradamus bu katrendə müqəddəs Roma İmperiyasının bir dəfəlik süqutundan bəhs edir. 6 avqust 1806-cı ildə Napoleon müqəddəs Roma İmperiyasına son qoydu. Maynın yepiskopu vəzifəsindən kənarda qaldı. Nostradamus 4-cü sətri təşbihlərdən istifadə edərək yepiskopun işsiz qalmasına işarə ilə yazmışdır.

**6 k41**

**Annemark krallığının üçüncü başçısı**
**Friziyadan və Britaniya adasından olanlar vasitəsilə**
**İtaliyaya faydası olmayan səyahət üçün**
**Yüz min markadan çox xərcləyəcəklər.**

Keçmiş zamanlardan bəhs edən bu katren ətrafında tədqiqatçılar çox mübahisə edərək, fərziyyələr irəli sürsələr də, çaşıb qalmışlar.

**6 k42**

**Loqmion hakimiyyətdə qalacaq.**
**Böyük Selindən daha böyük işlər görən,**
**İtaliyanın köməyi ilə bayrağını dalğalandıracaq.**
**Şikəst ölkəni ağıl və ehtiyatla idarə edəcək.**

Bu katren barədə də hələlik ağlabatan bir fikir söylənilməyib.

**6 k43**

**Uzun müddət yer məskunlaşmamış qalacaq.**
**Sena və Marn onun ətrafında axacaq.**
**Temzadan və hərbçilər tərəfindən sınağa məruz qalacaq.**
**Aldadılmış gözətçilər həmlə ilə geri oturdulacaqlar.**

Katrendə söhbət II Dünya müharibəsindən gedir. 1-ci və 2-ci sətirlərdə Parisdən bəhs olunur. Hitler Parisi tutanda şəhəri gəzərək məyus olmuşdu. Şəhər əhalisinin 5-də 4 hissəsi paytaxtı tərk etmişdi. Sena və Marn çaylarının hövzəsini 200 min ingilis, 140 min fransız əsgəri tərk etmişdi. 30 min nəfər isə ya öldürülmüş, ya da əsir düşmüşdü.

3-cü sətirdə Nostradamus İngiltərədən söz açır. İngilislər Dyepa və Kale yaxınlığında – almanların Atlantik bənd və səngər - lərinə bir neçə dəfə qətiyyətli hücum təşkil etmişdilər. Almanlar elə bilmişdilər ki, müttəfiq orduları Kaledən hücuma keçəcəklər. Lakin müttəfiq orduları əsas zərbəni Normandiyadan endirdilər. Bu 6 iyun 1944-cü ildə baş vermişdi.

**6 k44**

**Nantda axşama yaxın göy qurşağı görünəcək.**
**Dəniz hərb sənəti yağış gətirəcək.**
**Ərəb körfəzində böyük donanma dənizin dibinə enəcək.**
**Donuzdan və ayıdan Saksoniyada bədheybət doğulacaq.**

Bütün sətirlər ayrı-ayrılıqda aydındır. Mənaları məlumdur. Bununla belə, sətirləri ardıcıllıqla düzərək müəyyən fikrə gəlmək

qəliz məsələyə çevrilir. Lakin 3-cü və 4-cü sətirlərdən belə nəticəyə gəlmək olur ki, hadisələr "Körfəz müharibəsi"ndən bəhs edir. Məsələ burasındadır ki, NATO qoşunları İraqa qarşı müharibəyə Almaniyadan gətirilmişdilər. İran körfəzi (Ərəb körfəzi də deyirlər) ətrafında 34 ölkənin qoşun hissələri cəmləşmişdi.

NATO ordusu İraq ordusunu əsasən hərbi gəmilərdən atılan raket və mərmilərlə məhv etmişdi. Məsələ burasındadır ki, İraq ordu hissələri çox qalın betonla örtülmüş istehkamlarda yerləşdirilmişdilər.

NATO orduları onlarla səhrada qarşılaşmaqdan çəkinirdilər. Çox qalın betonlu istehkamları dağıtmaq üçün ABŞ hətta Linkoln hərbi gəmisini də İran körfəzinə göndərmişdi.

### 6 k45

**Hökmdar hər şeyi yaxşı bildiyindən**
**Krallığın əməli ilə razılaşmaq istəmir.**
**Melilya hərbi-dəniz donanması küləyin əksinə hərəkət edəcək.**
**Onu ən məkrli bir yola sürükləyəcək.**

Qəribədir ki, tarixdə diqqətə şayan heç bir hadisə Nostradamusun gözündən qaçmamışdır. Melilya Mərakeş yaxınlığında Aralıq dənizi sahillərində İspaniyanın mülküdür. 18 iyul 1936-cı ildə Melilyada qoşun başçıları İspaniya Respublika hökumətinə qarşı qiyam qaldırdı. Tezliklə qiyam genişlənərək Cəbəllütariq boğazından keçərək bütün ölkəni bürüdü. Qiyamçılar o vaxt Kanar adalarında sürgündə olan Fransisko Frankonu qiyama rəhbərlik etmək üçün köməyə çağırdı. İspaniyada Vətəndaş müharibəsi beləcə başlandı.

Kral XIII Alfonso Vətəndaş müharibəsindən beş il əvvəl taxttacdan imtina edərək ölkəni tərk etmişdi. Franko hakimiyyətə gəldikdən sonra monarxiyanı bərpa etmək fikrinə düşdü və 1969-cu ildə Alfonsonun nəvəsi, şahzadə Xuan Karlosu onun vəliəhdi və İspaniyanın kralı elan etdi.

**6 k46**

**Ədalətlilərdən birisi yenidən sürgünə göndəriləcək.**
**Nonseqlin hüdudlarına qədər bədbəxtliklərlə üzləşəcək.**
**Qırmızıya cavab verməsi onu yolundan çıxaracaq.**
**Qurbağanın və Qartalın yanına çəkiləcək.**

Katrendə söhbət Napoleon Bonapartın hakimiyyəti zamanı kral XVIII Lüdovikin başına gələnlərdən gedir. Kral Lüdovik Belçikanın Mons şəhərində 1-ci sürgündə 1791-ci ildə, 2-ci dəfə isə 1815-ci ildə olub. Almaniyanın Riegel şəhərində sürgündə isə 1796-cı ildə olub. Nostradamus bir çox hallarda olduğu kimi, bu katrendə də kriptoqramdan istifadə etmişdir. Nonsegle – Mons və Rieqel şəhərlərini göstərir. Napoleon Vaterloo yaxınlığında məğlub olduqdan sonra Müqəddəs Yelena adasına sürgün edildi və kral XVIII Lüdovik Burbonlar hakimiyyətini bərpa etdi. 4-cü sətirdə bəhs olunan Qurbağa Nervinqlər sülaləsinin gerbində həkk olunan rəmz, Qartal isə Napoleonun rəmzidir. Kral hər iki tərəfi barışdırmağa nail olmuşdu.

**6 k47**

**İki dağ arasına yığışan hər iki hökmdar,**
**Gizli düşmənçiliyi atacaqlar.**
**Lanqrların köməyi ilə Brüssel və Dol əziləcək.**
**Taun Malində sona yetəcək.**

Katrendə XVIII əsrdə Fransa, Niderland və Flandriya arasında gedən otuz illik müharibələrdən bəhs edilir.

**6 k48**

**Bu qədər saxta və cəzbedici müqəddəslik**
**Bəlağətli bir nitq ilə müşayiət olundu.**
**Köhnə şəhər və Parma çox tələsirlər.**
**Florensiya və Syena boş səhraya çevriləcəklər.**

Katrendə XVI əsrin 2-ci yarısında Fransada baş verən hadisələrdən danışılır. Oxucular üçün elə bir əhəmiyyət kəsb etmədiyinə görə haqqında danışmağa lüzum görmədik.

### 6 k49

**Mammer hissəsindən böyük Pontifik**
**Dunayın hüdudlarını zəbt edəcək.**
**Dəmir qarmaqla xaçları qovmaq üçün**
**Çoxlu əsir, qızıl, yüz min rubindən çox daş-qaş götürəcək.**

Katrendə Nostradamus II Dünya müharibəsi zamanı Hitlerin işğalçılıqla bərabər, qarətçilik siyasətindən və Roma Papası XII Piyin faşistlərin tərəfini saxlamasından söz açır. 3-cü sətirdə Nostradamus faşist partiyasının embleminə – faşistlərin rəmzinə (svastika) işarə edir.

4-cü sətirdə yəhudilərin kütləvi şəkildə qırğınından (holokosta) və var-dövlətlərinin əllərindən alınmasından bəhs edilir.

### 6 k50

**Quyunun içindən sümüklər tapılacaqdır.**
**Qan qohumluğunu yad törətməyə çalışacaq.**
**Dövlət dəyişildi, şöhrət və təriflər eşidiləcək.**
**Mars da onların ulduzu və şöhrəti naminə onlara qoşulacaq.**

Katrenin 1-ci sətrində Yekaterinburq şəhəri yaxınlığında çar Nikolay Romanov və ailə üzvlərinin sümüklərinin tapılmasından, 2-ci sətirdə Anna Anderson adlı birisinin guya çarın sağ qalmış qızı olmasına çalışmasından, 3-cü sətirdə Sovet İttifaqının yaranmasından və 4-cü sətirdə müharibə tərəfdarı olan bu dövlətin rəmzinin qızıl ulduz olmasından danışılır.

### 6 k51

**Xalq yeni tamaşaya baxmaq üçün bir yerə yığışıb.**
**Kral və şahzadələr tamaşaçıların arasındadırlar.**
**Dirəklər, divarlar uçdu, sanki möcüzə baş verdi.**
**Kral və iştirakçılardan otuz nəfəri sağ qaldı.**

Bəzi tədqiqatçılar göstərirlər ki, katrendə söhbət Hitler başda olmaqla faşist partiyasının rəhbərliyindən gedir.

1939-cu il noyabr ayının əvvəlində məşhur isveçrəli astroloq Karl Kraft Gestapoda gizli xidmətdə olarkən yazılı şəkildə bəyan etmişdi ki, ulduzların düzülüşü göstərir ki, 7-10 noyabr arası Hitlerə sui-qəsd gözlənilir. Hitlerə dair horoskop tərtib etmək qadağan edildiyindən həmin kağızı arxivə vermişdilər.

Noyabrın 8-də bütün partiya rəhbərliyi Hitlerin xalqa illik müraciətini dinləmək üçün Münxendə möhtəşəm pivə zalında toplaşmışdılar. Hitler çıxışını tez başa vurub, zalı tərk etdi. Sonralar o, dostlarına demişdi ki, qəribə hisslər keçirirmiş ki, zalı tərk etsin. Hitler və rəhbərlik (30 nəfər) gedəndən 9 dəqiqə sonra binada gizlədilmiş bomba partlayıb. 7 nəfər ölmüş, 63 nəfər isə yaralanmışdı.

Güman edilir ki, Kraft Hitlerə sui-qəsd ediləcəyi tarixi bu katrenə əsasən hazırlamışdı.

Ned Halley isə göstərir ki, bu katren İmperator III Napoleonla bağlıdır. III Napoleon 1858-ci il yanvarın 18-də Parisin Opera teatrında olarkən Felis Orsini ona sui-qəsd etmək üçün əvvəlcədən hazırladığı bombanı teatr binasının qabağında III Napoleon teatrı tərk edərkən partlatmışdı. Lakin nə İmperator, nə İmperatriçə Yevgeniya zərər çəkmişdi. Teatrın qabağına toplaşanlardan 8 nəfər ölmüş, yüz nəfərdən artıq isə yaralanmışdı. Göründüyü kimi, partlayış binada olmamışdır. Deməli 1-ci şərh düzdür.

## 6 k52

**Mühakimə olunacaq böyüyün əvəzinə**
**Həbsxanadan kənarda öz dostu onun yerinə olacaqdır.**
**Troya ümidi altı aya yerinə yetəcək.**
**Günəş Dolça bürcündə olanda çaylar buz bağlayacaq.**

Tədqiqatçılar bu katren barədə müxtəlif mülahizələr irəli sürsələr də, qəti söz deməkdən çəkinmişlər. Daha ətraflı məlumat üçün bax: 2 k58.

## 6 k53

**Krala şübhəli görünən böyük kelt prelat**
**Gecə vaxtı, xəlvəti olaraq krallığı tərk edəcək:**
**Xeyir verən hersoqdan Britaniyaya, öz böyük kralına**
**Bizans, Kipr və Tunis şübhədən kənar olacaq.**

Bu katren 1641-ci ildən XIII Lüdovikin kardinalı (böyük Fransa prelatı) olan Culio Mazarinidən bəhs edir. Yazılanlara görə, Mazarini kraliça Anna ilə yaxın münasibətdə olub. Kral şübhələnəndə gecə vaxtı ölkəni tərk edib. 1643-cü ildə kral vəfat edəndən sonra kraliça ilə məxfi izdivacda olub. Kral XIV Lüdovikin birinci naziri olmuş Mazarini (1643-1661) xarici siyasətdə uğur qazanıb. 1648-ci ildə İspaniyaya qarşı İngiltərə ilə saziş bağlayıb. 4-cü sətirdə Aralıq dənizində ispanlara, Şimali afrikalılara və türklərə qarşı aparılan dəniz döyüşlərinə işarə edilir.

## 6 k54

**Dan yeri ağararkən xoruzun ikinci banında,**
**Tunisdən, Fesdən və Burjidən olanlar tərəfindən,**
**Ərəblərin köməyi ilə Mərakeş kralı əsir alınacaq.**
**Bu, 1607-ci ildə Liturgiya mərasimi zamanı baş verəcəkdir.**

Nostradamus bu katrendə insanı düşündürən əcaib-qəraib hadisələrdən söz açır. Katren 1557-ci ildə Mərakeş kralı IX Məhəmmədin qətlə yetirilməsi ilə bağlıdır. Guya övladı olmadığına görə öz arzusu ilə hakimiyyətin qardaşı oğlu IV Abdullaya keçməsini vəsiyyət etmişdi. Əvvəlcə əmisini öldürən IV Abdulla hakimiyyətə gələn kimi, hakimiyyət hərisliyi gözünü örtür və taxt-tacından qorxaraq 12 qardaşının hamısını öldürmək qərarına gəlir. Lakin qardaşlarından ikisi qaçıb canını qurtarır. Beləliklə, Abdullanın qatilliyi və 50 illik qanlı çəkişmələri başlayır. Nəhayət, katrenin 3-cü və 4-cü sətirlərində göstərildiyi kimi, əsir alınır və hakimiyyətə Zidan gəlir.

Oxucular təəccüblənə bilərlər ki, bu nə böyük tarixi hadisədir ki, görücünün diqqətini çəksin? Məsələ burasındadır ki, Nostrada -

mus hər şeyi bilmək istəyən qeyri-adi bir insan kimi hakimiyyətə can atanlara, bu mənasız işə hərislik göstərənlərə qəribə bir ikrah hissi ilə yanaşır, dünyada baş verən bir çox böyük və kiçik faciələrin məhz bu məsələ ilə bağlı olduğunu xüsusi vurğulayırdı.

4-cü sətirdə yer alan Liturgiya qədim zamanlarda dini mərasim olmuşdur. Yeni eradan əvvəl 392-ci il noyabr ayının 8-də Zəburun 150 surədən ibarət toplusu Liturgiya (ibadət) üçün qanun kimi qəbul olunmuşdu. Həmin gün, eyni zamanda xristianlığın Roma İmperiyasının rəsmi dini kimi qəbul olunduğu gündür.

**6 k55**

**Müqaviləni bağlayanda sakitləşmiş hersoqun gözünə,**
**Qəfildən ərəb üslubunda işlənmiş bəzəkli tül örtük göründü.**
**Tirebolu, Xios və Trabzon zəbt edildi.**
**Hersoq isə tutuldu. Qara dəniz və şəhər bomboş qaldı.**

Katrendə adı keçən yer adları hamısı müasir Türkiyədə yer alsa da, katreni şərh etmək müşkül məsələ olaraq qalır.

Bununla belə, Ned Halley qeyd edir ki, katrendə 1801-ci ildə liman şəhəri Trablis ətrafında ABŞ gəmilərinin toplanmasından və şəhərin 1805-ci il sülhü bağlanana qədər mühasirədə olmasından danışılır.

Tədqiqatçı göstərir ki, 4 iyun 1805-ci ildə Amerika ilə Yusif Qaramanlı Paşa saziş bağlayandan sonra vəziyyət dəyişib.

**6 k56**

**Narbona qənim kəsilmiş düşmən ordusunun qorxusu**
**Qərbdə yaşayanları bərk vahiməyə salacaqdır.**
**Parpinan darbonlu kor tərəfindən azad edildi.**
**Bu vaxt Barselona dənizlə silah göndərəcək.**

Katrendə XVI əsrin lap son illərində Fransada baş verən hadisələrdən söhbət açılır. Narbon Parpin şəhərinin təqribən 60 km-də, Barselona isə Pireney dağlarının İspaniya tərəfində, Parpinin

təqribən 150 km-dədir. Bəzi tədqiqatçılar qeyd edirlər ki, katren 1597-ci ildə İspaniya ilə Fransa arasında baş verən hərbi toqquşmadan bəhs edir.

### 6 k57

**Krallıqda böyük uğurlar qazanan,**
**İyerarxiya qanununa əsasən qırmızı başçı ilə yaxınlaşacaq.**
**Qəddar və amansız hamını qorxuya salacaq.**
**Müqəddəs hakimiyyətin davamçısı olacaq.**

Tədqiqatçılar göstərirlər ki, katren Roma papalığından bəhs edir. Onu da qeyd edirlər ki, böyük görücünün vaxtından 450 ildən artıq vaxt keçdiyinə, həmin müddətdə neçə-neçə Roma Papasının hakimiyyətdə olduğuna və eləcə də katrendə dəqiq vaxt göstərilmədiyinə görə, katren barədə qəti söz demək çətindir.

Bizə qalırsa, katrendə söhbət Napoleondan gedir. O, hakimiyyətdə olduğu dövrdə böyük və güclü ordular yaratdı. Fransanın hərbi qüdrətini artırdı (Bax: 6 k12). Böyük uğurlar qazandı. Fransa imperiyasını yaratdı. Başqa dövlətləri qorxuya saldı. Bütün bunlarla bərabər, dediklərimiz hələlik ümumi xarakter daşıyır. Söhbətin Napoleondan getdiyini 4-cü sətir təsdiqləyir. Məlumdur ki, Müqəddəs Roma İmperiyasının süqutuna Napoleon bais olmuşdur. O, 1806-cı il avqust ayının 8-də min illik tarixi olan bu İmperiyanı ləğv etdi. Özü İmperiya yaratdı və 4-cü sətirdə göstərildiyi kimi, Müqəddəs hakimiyyətin davamçısı oldu. Bütün İtaliya torpaqlarını Fransa İmperiyasına qatdı.

### 6 k58

**Bir-birindən uzaq iki hökmdar arasında,**
**Günəş Selin tərəfindən açıq-aşkar itiriləndə,**
**İki hirsli arasında böyük qarşıdurma yarandı.**
**Belə ki, adalara və Sienə azadlıq qaytarıldı.**

Nostradamus bu katrendə özünün müasirləri olan İspaniya kralı II Filipp və Fransa kralı II Henri arasında gedən mübarizədən bəhs edir.

## 6 k59

**Ailəyə xəyanət edən qudurğana xanım qəzəblənmişdir.
Şahzadəsinin abrını tökməyə yox, intiqam almağa gələcək.
Ancaq bu biabırçılığın üstü tezliklə açılacaq.
Nəticədə on yeddi nəfər asılacaq.**

Bu katren də hələlik şərh olunmayıb. Adətən, keçmişdə bir qayda olaraq ərinə xəyanət etdiyinə görə qadınlara qarşı ölüm hökmü oxunardı. Ərindən intiqam almaq üçün sui-qəsd hazırlayan bu xanımın kimliyi hələlik qaranlıq olaraq qalır.

## 6 k60

**Şahzadə özünün Kelt ərazisindən kənarda
Xəyanətin qurbanı olacaq, tərcüməçi tərəfindən aldadılacaq.
Ruan, Roşel, Bretandan olanlar
Blaye limanında hökmdar və kahin tərəfindən aldadıldı.**

Bu katrendə XVII əsrin ortalarında baş verən hadisələrdən danışılır. Nostradamus bir çox katrenlərini Fransa ətrafında cərəyan edən, indi biz oxuculara maraqsız görünən hadisələrə həsr etmişdir. Bu katren də istisna təşkil etmir.

## 6 k61

**Bükülmüş böyük xalçada bilinmir.
Lakin hadisələrin yarıdan çoxunun ucu görünür.
Krallıqdan qovulan adam yenidən peyda olacaq.
Hamı onun hərbi bacarığına inanacaq.**

Bu katrendə Nostradamus İrandan söhbət açır. 3-cü sətirdə Xomeynidən danışılır. Məlumdur ki, 1963-cü ildə A.Xomeyni İrandan İraqa getmiş, 1978-ci ildə isə Fransaya getməli olmuşdu. Lakin hər iki ölkədən İranda gedən inqilabi mübarizəyə rəhbərlik edirdi. Daha ətraflı məlumat üçün bax: 1 k70. Katrendə diqqəti çəkən bir məsələ də vardır. Məlumdur ki, İran xalçaları Nostradamusun vaxtında da dünyada məşhur idi. Görücü katrendə bu faktdan məharətlə istifadə edib.

## 6 k62

**Daha sonralar hər iki gül itiriləcək.**
**İlan qanuna qarşı heç nə etmək istəməyəcək.**
**Fransızlar katolik dəstələrinin əməllərini lənətləyəcək.**
**Savona və Albinik Monakoya görə iztirab çəkəcək.**

Katrenin 1-ci sətrində Fransanın kraliçası Yekaterina Mediçinin oğlanları II Fransisk və IX Karldan bəhs edilir. Onlar hər ikisi kral taxtına əyləşdikdən az sonra dünyalarını dəyişmişdilər. II Fransisk hələ 18 yaşı (1543-1560), IX Karl isə 24 yaşı tamam olmamış (1550-1574) ölmüşdülər (Bax: 1 k10; 1 k68). 2-ci sətirdə söhbət Yekaterina Mediçidən gedir. Kraliçanın heraldik gerbində quyruğunu çalan ilan həkk olunmuşdu. Bu sətirdə Nostradamus maraqlı bir məsələyə də toxunur. Fransada salik qanununa görə ölkəni qadın idarə edə bilməzdi. Yekaterina Mediçi bu qanuna qarşı çıxmadı. 3-cü sətirdə katoliklərin protestantlara qarşı törətdikləri vəhşiliklərə, onları qırmalarına işarə edilir. 4-cü sətirdə də maraqlı bir məsələyə toxunulur. Monako XVI-XVII əsrlərdə İspaniya ilə bağlanmış məcburi sazişə görə İspaniyanın tərəfində, hətta Fransaya qarşı müharibələrə girişirdi. Savona və Albinik kimi Liman şəhərlərinin çətinliklərlə üzləşməsi bununla bağlıdır.

## 6 k63

**Xanım krallıqda tək qalmışdır.**
**Onun qeyri-adi əri şöhrət kürsüsündə 1-ci olmuşdu.**
**O, yeddi il yas tutacaq, göz yaşı tökəcək.**
**Sonra krallığa uzun ömür, uğurlu tale qismət olacaq.**

Katrenin 1-ci sətri Fransa kraliçası Yekaterina Mediçiyə, 2-ci sətir Fransa kralı II Henriyə ünvanlanıb. 41 yaşlı kral II Henri faciəli şəkildə öldükdən sonra (bax: 1 k35), Yekaterina Mediçi yeddi il yas tutdu. Oğlanları II Fransisk və IX Karl kral kürsüsünə əyləşəndə çox gənc olduqlarına görə Yekaterina Mediçi kral naibi vəzifəsini yerinə yetirirdi. Sülh tərəfdarı olan bu xanım, oğlu III Henri

hakimiyyətə gələndən sonra da dövlət işlərinə müdaxilə edirdi. 1589-cu ildə 70 yaşında dünyasını dəyişən Mediçidən sonra da düz 200 il, 1789-cu ilə qədər krallığa Nostradamusun göstərdiyi kimi, uğurlu tale qismət oldu. Lakin böyük Fransa inqilabı (1789-1793) dinclik və xoşbəxtliyə son qoydu.

**6 k64**

**Sülh müqaviləsinin heç birini yerinə yetirməyəcəklər.**
**Vəzifədə olanlar yalan və hiylələrini davam etdirəcəklər.**
**Sülh və müqavilələrdən quruda və dənizdə etirazlar olacaq.**
**Barselonada donanma hiylə ilə alınacaq.**

Bəzi tədqiqatçılar bu katrendə bəyan olunanları XVI əsrin sonları ilə, bəziləri isə XX əsrin 1-ci yarısında İspaniyada vətəndaş müharibəsi zamanı baş verən hadisələrlə əlaqələndirirlər.

**6 k65**

**Bozlar və qəhvəyilərin yarıaçıq-yarıgizli müharibəsi.**
**Onlara gecə vaxtı hücum ediləcək, talan olunacaqlar.**
**İki nəfər barmaqlıqlar arxasındadır, kamera açıqdır.**
**Qəhvəyi paltarlı məhbus azad olunacaq.**

Nostradamus bəşəriyyətə böyük bəlalar gətirən Hitlerlə əlaqədar baş vermiş bütün hadisələrə diqqət yetirmişdir. Bu katren Hitlerin gəncliyindən bəhs edir. Katrendə söhbət gedən qəhvəyi paltarlılar millətçi sosialist inqilabçılardır. Onlar "Münhen pivə qiyamı" adlanan üsyan zamanı boz şinelli Veymar Respublika əsgərləri və alman hərbi polisi ilə şəhərin mərkəzində qarşı-qarşıya gəlmişdilər. Hitlerçi qəhvəyi paltarlılar gülləyə tutulmuşdular. Həmin gecə qəhvəyi qiyamın başçıları ələ keçirilmişdilər. Onların arasında Hitler də vardı. Hitler Landerburq həbsxanasında saxlanılırdı. 4-cü sətirdən göründüyü kimi, kamerada o, tək deyildi. Hitlerlə bir kamerada sonralar onun katibi olmuş R.Hess saxlanılırdı. 3-cü sətridən məlum olur ki, Hitler sonralar azad edilmiş-

di. Lakin həbsxanada olduğu 1923-1924-cü illərdə Hitler faşizmin "müqəddəs kitab"ı – "Mein Kamf" – "Mənim mübarizəm" kitabını yazmışdı. Həmin kitab 1925-ci ildə çap olunmuşdu. Nostradamusun boz, qəhvəyi, narıncı, məxməri və s. kimi inqilabları dəqiq görməsi də maraq doğurur.

**6 k66**
**Yeni təriqətin əsası qoyulanda**
**Böyük romalının sümükləri tapılacaq.**
**Mərmər örtüklü qəbir aşkar ediləcək.**
**Dərin basdırılmamışın (adamın) torpağı apreldə titrəyəcək.**

Bu katren barədə bəzi tədqiqatçılar müəyyən fərziyyələr irəli sürsələr də, hələlik ağlabatan bir qənaətə gəlinməyib. Məlum olan odur ki, senturiya və katreni göstərən 666 rəqəmi müqəddəs kitablarda məlun, şeytan, iblis, antixrist mənasında işlənir.

**6 k67**
**Böyük İmperiyaya tamamilə başqa adam gələcək.**
**Xeyirxahlıqdan və xoşbəxtlikdən xeyli uzaq olacaq.**
**Əvvəllər düz yola getməyən birisi tərəfindən idarə olunacaq.**
**Krallıq məhv olacaq, böyük bədbəxtlik baş verəcək.**

Katren Napoleon haqqındadır. Yazılanlara görə İmperator Napoleon tənhalığı sevərmiş: "Dostluq heç bir məna kəsb etməyən boş sözdür. Mənə heç kim lazım deyil" – deyərmiş. Altı yaş özündən böyük olan, həyatı boyu çoxlu eşq məcaraları görmüş Jozefina ilə evlənən Napoleon Bonapart yalnız İmperatriça Jozefinanı sevərmiş. Yalnız ona inanarmış. 1796-cı il martın 9-da Jozefina ilə nikaha girən Napoleon iki gün sonra, 11 martda müharibəyə getmişdi. Ömrü müharibələrdə keçən Napoleon, özünün olmadığı vaxtlarda Jozefinanın başqaları ilə eşqbazlıq etməsindən xəbər tutduqda belə, onu tərk etməmiş, əvvəlki kimi sevmişdi. Bədbəxtlikdən Jozefinanın Napoleondan uşağı olmayıb. Məhz buna görə

də Napoleon onu boşayıb (15 dekabr 1809) və 11 mart 1810-cu ildə özündən 23 yaş kiçik olan avstriyalı Mariya Luiza ilə evlənib Elə bu vaxtdan da tale ondan üz döndərib. Fransızlar Mariya Luizanın Mariya Antuanettanın bacısı nəvəsi olduğuna işarə ilə deyirdilər: “Biz fransızlara bir avstriyalı bəs deyildimi?”. Məsələ burasındadır ki, kral XVI Lüdovik və Avstriyadan olan kraliça Mariya Antuanetta inqilab vaxtı taxt-tacı buraxıb qaçdıqlarına görə tutularaq 1793-cü ildə edam edilmişdilər (Bax: 4 k85; 6 k92; 9k20). Qəribədir ki, Napoleon Mariya Luizaya evlənəndən sonra tez-tez bədbəxt hadisələrlə üzləşirdi. Jozefina Napoleonu Rusiyaya hücum etməkdən çəkindirirdi. 4-cü sətirdən göründüyü kimi, Jozefinadan ayrıldıqdan sonra – 1812-ci ildə o, Rusiyaya hərbi yürüş etdi. Beləliklə, Napoleon İmperiyasına son qoyuldu.

R.V.Velş nədənsə bu katrenin Fransa kralı XV Lüdovikdən və onun məşuqəsi Madam Pompadurdan bəhs etdiyini qeyd edir.

### 6 k68

**Əsgərlər qəzəblə yoldan çıxarılanda**
**Qılınclarını gecə vaxtı başçılarına qarşı parıldadacaqlar.**
**Albion düşmənə qəzəblə gücünü göstərəcək.**
**Roma sıxışdırılanda əsas adamlar şirniklənəcəklər.**

Bəzi tədqiqatçılara görə bu katren XVI əsrin 2-ci yarısında Fransa, İspaniya, İtaliya arasında baş verən münaqişə və mühari - bələrdən bəhs edir. Lakin bəziləri hesab edirlər ki, burada II Dünya müharibəsindən söz açılır. 1943-cü ildə Hitler Mussolinini həbs edəndə İtaliya ordusunun baş komandiri Piedro Badoqlio müttəfiqlərlə (Albion-İngiltərə) saziş bağlamışdı. Bu, hadisələrin gedişinə böyük təsir etmişdi.

### 6 k69

**Böyük kədər tezliklə özünü göstərəcək.**
**Verənlər verdiklərini geri almağa məcbur olacaqlar.**
**Çılpaqlar, aclar soyuğa, susuzluğa tab gətirəcəklər.**
**Dağları keçərkən böyük biabırçılıqlar olacaq.**

Bu katren böyük Fransa inqilabı zamanı (1789-1793) katolik din xadimlərinin başına açılan bəlalardan bəhs edir. Din xadimlərinin var-yoxunu, hətta geyim-keçimlərini belə əllərindən alaraq, onları məbəd və kilsələrdən qovub küçələrə tökmüşdülər. Onların çoxu 1792-ci ildə Alp dağlarına, oradan isə qonşu İtaliyaya pənah aparmışdılar.

**6 k70**

**Dünyanın hökmdarı böyük Şiren olacaq.**
**Bundan əlavə, seviləndən sonra qorxusu ikiqat artacaq.**
**Tərifi və şöhrəti göylərə yüksələcək.**
**O, yalnız qalib titulu ilə kifayətlənəcək.**

Bəzi tədqiqatçılar bu katreni Fransa kralı II Henriyə aid edilər. Lakin katrendə bəyan olunanlar heç cür II Henri ilə uzlaşmır. II Henrinin qalib titulu yox idi. Əksinə, cəngavərlərin yarışında faciəli şəkildə ölmüşdü (bax: 1 k35).

Bizə qalırsa, bu katren rus çarı I Aleksandrdan bəhs edir. Atasının ölümündə, daha doğrusu boğulub öldürülməsində əli olan I Aleksandr xalq tərəfindən sevilsə də, ömrü boyu vicdan əzabı çəkib. Özü etiraf edib: "Mən əzab-əziyyət çəkməliyəm. Mənim qəlbimi heç nə rahat edə bilməz".

I Aleksandr 1801-1825-ci illər arası hakimiyyətdə olub. Hakimiyyətlə insanlığın vəhdəti arzusunda olsa da, onların bir araya sığmadığını dərk edərək ruhdan düşmüşdü.

A.Gertsen onu "Taclı Hamlet" adlandırmışdı. Rus tarixində faciəli şəxsiyyət kimi qalan I Aleksandr güclü xarici siyasət yeridirdi. İsveç və Türkiyə ilə uğurlu müharibələr aparmışdı. Fransaya qarşı müharibə aparan müttəfiq Avropa dövlətlərinin ordusuna komandanlıq etmişdi. Napoleon məğlub olandan sonra 1814-cü ildə Parisə gəlmişdi. Nostradamusun 4-cü sətirdə göstərdiyi kimi, o, "qalib titulu" almışdı. 2005-ci ildə xatirəsini əbədiləşdirmək üçün Sankt-Peterburqda ona heykəl qoyulmuşdur.

## 6 k71

**Böyük Kral canını tapşırmamışdan əvvəl,**
**Onunla vidalaşmağa, təəssüf etməyə gələcəklər.**
**Onun yasını tutmağa gələn sonuncu adamın**
**Lionun əlilə qartalın xaçı, tacı satılacaqdır.**

Nostradamusşünaslar bu katreni fransız kralı II Henri ilə əlaqələndirirlər. 1559-cu ilin iyun ayında 42 yaşına təzəcə girmiş kral "Cəngavərlərin yarışı" zamanı ağır yaralanmış və 10 gündən sonra ölmüşdü.

Ətraflı məlumat üçün bax: 1 k35.

## 6 k72

**İlahi hiss-qəzəbdən qalxacaq.**
**Böyüyün arvadının namusuna toxunulacaq.**
**Hakimlər belə bir fikri mühakimə etmək istərkən**
**Cahil, avam xalqın qurbanı olacaqlar.**



*Qriqori Rasputin*

Bu katrendə son rus çarı II Nikolay, arvadı Aleksandra Feodorovna və çar hakimiyyətinin son illərindən söhbət gedir. Deyirlər ki, rahiblik həyatı sürən, vaizlik edən, 1869-cu ildə Sibirdə anadan olan Qriqori Rasputin 1905-ci ildə Sankt-Peterburqa gəlib çıxana qədər qeyri-adi fitri istedadına görə ad-san qazanmışdı. Onun görücülük və hipnoz etmə qabiliyyəti daha güclü imiş. Qara, cod saçı və saqqalı olan bu sağlam bədənli sibirli tezliklə kübar qadınların istəklisinə çevrilmişdi. Bir gün onu çarın sarayına gətirirlər. Təsadüfən taxt-tacın vəliəhdi prins Aleksey yüksək hərarət içində imiş. Rasputin



Qriqori Rasputin pərəstişkarları arasında

istedadını işə salır və az sonra üçyaşlı Aleksey tam yaxşılaşır. Bundan sonra Rasputin çarın sarayında tez-tez görünməyə və məsləhətlər verməyə başlayır. Tezliklə o, siyasətdə və vəzifəyə təyin etmə məsələlərində çarın məsləhətçisinə çevrilir. Rus aristokratları buna və çoxsaylı kübar qadınlarla əlaqəsinə görə ona nifrət edirdilər.

Şayiə yaymışdılar ki, guya o, çariçəni də yoldan çıxarıb. Məhz buna görə də 1916-cı il dekabrın 29-dan 30-na keçən gecə ərköyün böyüdülmüş Feliks Yusupovun başçılığı ilə bir qrup Rasputini bir evə qonaqlığa dəvət edir. Rasputinin şərab piyaləsinə bir fili öldürə biləcək miqdarda sianid qarışdırırlar. Lakin zəhər Rasputinə təsir etmir (ola bilsin ki, zəhərə qarşı nəsə içibmiş). Belə olan halda onu güllə ilə vururlar.

Rasputin qətlə yetirildikdən sonra onun kağızları arasında əcaib-qəraib bir sənəd tapırlar. O, belə adlanırdı: "Pokrovski kəndindən olan Qriqori Rasputinin Ruhu". Həmin sənəd belə başlayırdı ki, o, 1916-cı ilin Yanvar ayının 1-dən əvvəl öləcək. Sonra davam edirdi ki, o, çara və "Rusiyanın Anası"na (Çariçaya) məktub göndərib.

Məktubda göstərmişdi ki, 1917-ci il ərəfəsində onu öldürəcəklər. Əgər onu adi adamlar öldürsə, çar və ailəsi uğurlu günlər görəcəklər. Lakin onu aristokratlar öldürsə, heç iki il də keçməyəcək ki, kral ailəsini qara camaat məhv edəcək. Aristokratlar isə ya məhv ediləcək, ya da 25 il ərzində ölkədən didərgin düşəcəklər.

Nostradamusun katrenindən görürük ki, böyük görücü bütün bunları Rasputindən 350 il əvvəl bəyan etmişdi.

**6 k73**

**Böyük şəhərdə monax və sənətkar.**
**Divarların və qapının yanında məskən salacaqlar.**
**Hazırki vəziyyətə dair gizli danışıq aparacaqlar.**
**Evlənmək bəhanəsilə xəyanətə əl atacaqlar.**

Böyük görücünün bu katreni hələlik şərh olunmamış qalır. Daha doğrusu, tədqiqatçılar çox baş sındırsalar da, katrendə deyilənləri açmaq mümkün olmayıb.

**6 k74**

**Hakimiyyətdən devrilən qadın qayıdacaq.**
**Düşmənləri sui-qəsdçilər arasında tapılacaq.**
**Gec-tez qələbə onun olacaq.**
**Yetmiş üç il yaşayıb dünyasını dəyişəcək.**

Bəzi tədqiqatçılar bu katreni III Napoleonun arvadı imperatriçə Yevgeniya ilə əlaqələndirirlər. III Napoleon 1870-ci ilin sentyabrında Sedan yaxınlığındakı məğlubiyyət zamanı əsir düşmüşdü (bax: 2 k22). İmperatriçə ərinin dalınca İngiltərəyə sürgünə getmişdi. III Napoleon 1873-cü ildə vəfat etmişdi. Lakin Yevgeniya sonralar Fransaya gələrək orada hətta ev də almışdı. Ancaq o, uzun ömür sürərək 1920-ci ildə dünyasını dəyişmişdi.

Göründüyü kimi, katrendə bəhs edilən hadisələrlə söhbət açdığımız real həyat faktı arasında uyğunluq o qədər də çox deyildir.

Bəziləri isə katreni ingilis kraliçası I Yelizaveta (1533-1603) ilə bağlayırlar. Əslində, I Yelizaveta hakimiyyətdən salınmamışdı. O, 1558-1603-cü illərdə İngiltərənin kraliçası olmuş, 70 yaşında dünyasını dəyişmişdi.

Bu katrenin şərhini V.Zavalişin də vermişdir. O, hələ Sovet İttifaqının çox güclü olduğu 1970-ci ildə göstərmişdi ki, katren

Sovet İttifaqı ilə bağlıdır. Zavalişin heç kəsin ağlına belə gəlməyən fikir irəli sürmüşdü. Tədqiqatçı çəkinmədən qeyd etmişdi ki, 4-cü sətirə əsasən deyə bilərik ki, Sovet rejimi 73 il 7 aydan sonra dağılacaq. Katrendə verilmiş bu fikri Nostradamus Fransa kralı II Henriyə ünvanladığı açıqlamada da irəli sürmüşdü. Girişdə bu barədə geniş danışdığımıza görə, burada haqqında bir daha söhbət açmağa lüzum görmədik.

## 6 k75

**Böyük Losman kral tərəfindən irəli çəkiləcək.**
**Daha yüksək mənsəbə çatmaq üçün donanmanı buraxacaq.**
**Yeddi il keçəcək, qiyam qaldıracaq.**
**Varvar ordusu Venesiyanı vahiməyə salacaq.**

Katrenin əvvəlinci üç sətrində XVI əsrin 2-ci yarısında Fransada baş verən hadisələrdən, 1559-cu ildə Fransanın hərbi-dəniz donanmasının baş komandanı Admiral Qaspar Kolininin vəzifəsindən əl çəkərək kalvinist partiyasına rəhbər seçilməyindən və onun ucbatından ölkədə vətəndaş müharibəsinin başlanmasından, 4-cü sətirdə isə Möhtəşəm Süleyman (Süleyman I Qanuni) və II Səlimin zamanında Venesiya və onun Aralıq dənizindəki adalarındakı mülklərinin Osmanlı ordusunun təcavüzünə məruz qalmasından bəhs edilir. II Səlim 1570-ci ildə Venesiyanın Kipr adalarında olan müstəmləkələrini də zəbt etmişdi.

## 6 k76

**Antenorun aldatdığı qədim şəhər,**
**Tiranı daha müdafiə etmək iqtidarında olmayacaq.**
**Yalançı təkqollunu məbəddə boğazlayacaqlar.**
**Xalq onun davamçılarının da nəfəsini kəsəcəkdir.**

Bu katren də hələlik Nostradamusun şərhə gəlməyən katrenləri sırasındadır. Katrendə şərhə ehtiyac bilinən bir-iki məqamı göstərməyə ehtiyac vardır. Antenor Padui şəhərinin əsasını qoyan

əfsanəvi troyalı olub. Padui şəhəri İtaliyanın şimal-şərqində yerləşir. Vaxtilə Venesiya Respublikasına mənsub olub. Görücünün Anteron və Padui şəhərlərinin adını çəkməklə nəyə işarə etdiyini gələcək göstərəcəkdir.

**6 k77**

**Fırıldaqçılıqla əldə olunan qələbə.**
**İki donanma birləşdi və Almaniya qiyam qaldırdı.**
**Başçı və oğlu çadırda öldürüldü.**
**Florensiya, İmola, Rumıniya təqib olunurlar.**

Tədqiqatçıların fikrincə katrendə bəhs olunanlar XVII əsrdə otuzillik müharibə zamanı baş verib (1618-1648).

**6 k78**

**Ayparalı böyük Selinin qələbə hayqırtısı.**
**Romalılar qartala müraciət edəcəklər.**
**Tiksin (Paviya), Milan və Genuya bununla razılaşmayacaq.**
**Sonra onlar özləri təntənəli şəkildə kralı elan edəcəklər.**

Katrendə XVI əsrin 2-ci yarısında İtaliya, Fransa və İspaniya arasında gedən münaqişələrdən danışılır.

**6 k79**

**Teçino yaxınlığında Luara, Qaronna,**
**Saona, Sena, Ten və Jironda sakinləri,**
**Dağların arasında istehkam quracaqlar.**
**Münaqişə başlayacaq, Po suya əsir olacaq.**

Nostradamus hadisələri dəqiq görüb və təsvir edib. 10 may 1796-cı ildə gənc general Napoleon avstriyalılara qarşı döyüşə əsgərləri özü aparırdı. Adda körpüsünü və ətraf məntəqəni 10 minlik Avstriya qoşunu qoruyurdu. Napoleon həyatını təhlükə altına qoymaqla şəxsi şücaət göstərdi. Batalyonun önündə özü gedirdi. Adda çayı üzərindəki körpünü keçərkən əsgərlər N.Bonapartın

döyüşə öndə getməyindən o qədər ruhlanmışdılar ki, irəliyə can ataraq generalı təsadüfən çaya salmışdılar.

Əsgərlər suya tullanıb generalı xilas etməsələr, su onu apara bilərdi.

**6 k80**

**Fesdən başlanan bu krallıq Avropaya qədər uzanıb gedəcək.**
**Onların şəhərləri alovlanacaq, qılıncları parlayacaq.**
**Böyük Asiya torpağı və dənizi qoşunla dolacaq.**
**Tünd yaşıllar, farslar, xaçpərəstlər ölümə sürüklənəcəklər.**

Nostradamusun bu katreni bizim zəmanəmizdən bəhs edir. Biz girişdə göstərmişdik ki, hər bir nostradamusşünas böyük görücünün katrenlərini öz yaşadığı mühitə münasib şərh etməyə çalışır. Biz də istisna təşkil etmirik.

Tədqiqatçılar göstərirlər ki, ABŞ, Rusiya, Almaniya, Fransa və Britaniya ən böyük silah təchizatçıları olsalar da, Çin Asiyada ballistik raket sistemlərinin, reaktor və radiaktiv materialların ən böyük təchizatçısıdır. Çin Şimali Koreya, İran, Pakistan, Hindistan və Liviyanı lazımi nüvə texnikası ilə təmin etmişdir.

1993-cü ildə Çin İrana 2 nüvə reaktoru tikmək və silah istehsal etmək üçün 20 milyard dollarlıq vəsait ayırmışdı. Bu reaktorlarda nüvə başlıqları üçün zənginləşmiş uran istehsal etmək olar. Amerika kəşfiyyatı ayırd edib ki, Çin İranın gizli nüvə proqramının həyata keçirilməsində əsas rol oynayır. 4-cü sətirdə işlənən "tünd yaşıllar" dedikdə bir tərəfdən ərəblər, digər tərəfdən yaşıl beretlilər – BMT-nin əsgərləri nəzərdə tutulur.

Bundan çıxış edərək nostradamusşünaslar qeyd edirlər ki, əgər Birləşmiş Millətlər Təşkilatı işə qarışıb beynəlxalq qanunlar əsasında Yaxın Şərqdə sülh prosesini ədalətli və doğru yola yönəltməsə, Çin yaxın zamanlarda ərəb və islam aləminin müdafiəsinə qalxacaq, neftin ixracı ilə bağlı Qərb ölkələrinin siyasətinə hədsiz təsir göstərəcəkdir. Ən dəhşətlisi isə odur ki, bu böyük dövlət Çin-

Panərəb ittifaqını yaradaraq hamıya, o cümlədən də Rusiyaya, Avropaya və Amerikaya meydan oxuya bilər. Bu halda III Dünya müharibəsi qaçılmaz olacaqdır. David Geddes bu müharibənin hətta 2020-ci ilə qədər başlayacağını da göstərmişdir (səh. 144).

Nədənsə Qərb tədqiqatçıları Nostradamusun "qanlı sülh keşik - çisi" adlandırdığı ABŞ barədə söz deməkdən, vicdanlarının səsinə səs verməkdən çəkinirlər. Qəribə məntiqlə üzləşirik. Bir yandan ABŞ Çini hərbi silahlar istehsalına görə tənqid edir, başqa tərəfdən də Avropa ölkələrinə Çinə silah satmamağı tövsiyə edir. Əgər Çinin elə güclü silahı varsa, onda Avropa ölkələrinin silahına ehtiyac qalırmı? Çox güman ki, Napoleonun Çin haqqında dediyi sözlər onları təşvişə salır: "Çin uyuyan nəhəngdir. Onu oyatmayın. Ayılsa bütün dünyanı alt-üst edər".

### 6 k81

**Göz yaşları, haray, ah-nalə, yalvarış, dəhşətli inilti,**
**Qeyri-bəşəri hərəkət, qəddarlıq, qara vahimə və xəyanət.**
**Cenevrə, Qvineya adaları, ağsaqqallar.**
**Qan töküləcək, aclıq, ruzisizlik, heç kimə rəhm edilməyəcək.**

Bu katrendə aydın olmayan bir söz belə yoxsa da, katren barədə fikir söyləmək, onu şərh etmək çətindir. Nostradamus bir çox katrenlərində bu sülh şəhəri Cenevrənin adını çəkir. Lakin çax - naşma, müharibə, aclıq məqamında. Şübhə yoxdur ki, o, Cenevrə - nin sülh danışıqlarında, nüvə silahlarının azalmasına dair məsə - lələrdə böyük rol oynayacağını görmüş və başqa katrenlərində bu barədə bəyan etmişdir. Bununla belə, görücü bu danışıqların bir fayda verməyəcəyini, axırda zora əl atılacağını da görmüşdü.

### 6 k82

**Boş və adamsız səhralarda**
**Böyük Pontifikin qardaşı oğlu dolaşmağa gələcək.**
**O, yeddi ağır, dəmir çubuqla ölüncə döyüləcək.**
**Onu sonralar cama sahib olanlar döyəcəklər.**

Bu katren haqqında fərziyyələrdən başqa indiyə kimi inandırıcı bir söz deyilməyib. Katrenin 2-ci sətrində Roma Papasının (Pontifik) qardaşı – protestantlığı qəbul etmiş İngiltərə, qardaşı oğlu İngiltərədən gedərək ABŞ dövlətini yaradan, indi coğrafi ərazinin adı ilə bağlı amerikalı adı almış ingilislərdir. Katrendə söhbətin Şərqdən getdiyi şübhə doğurmur. Sonuncu 4-cü sətir də deyilənləri bir daha təsdiq edir. Məlumdur ki, katrenləri yazanda Nostradamus Qədim Yunan, Roma və Şərq mifologiyasından bol-bol istifadə etmişdir. Bu katrendə də bunun şahidi oluruq: "Onu sonralar cama sahib olanlar döyəcəklər" – göstərir ki, söhbət İrandan gedir. Qədim İran əfsanələrində padşah Keyxosrovun" Cahanı göstərən camı" olduğu nəql edilir. Keyxosrovu "Dünyanı camda görən" kimi də adlandırırlar. Camı Cəm və ya Camı Cəmşid də İran mifologiyasında geniş yer almışdır.

Prezident C.Karterin vaxtında İranda əsirlikdə olan amerikalıları azad etmək üçün ABŞ desant göndərmişdi. Lakin İran desantın üzvlərini tutmuşdu. Bu, ABŞ-a qulaqburması idi. Lakin inanmaq olmur ki, böyük görücü katrendə bu məsələdən bəhs edir. Hazırkı beynəlxalq vəziyyət göstərir ki, ABŞ-ın fikri Əfqanıstan və İraq kimi İrana da müdaxilə etməkdir. Nostradamusun yazdıqlarına arxalanaraq (o, heç vaxt xətaya yol verməyib. Dedikləri labüd olaraq baş verib) deyə bilərik ki, ABŞ-ı İranda İraqdakı kimi qarşılamayacaqlar. Böyük görücü 4-cü sətirdə bunu açıqca bəyan etmişdir.

### 6 k83

**Bu qədər şərəfə və iltifata çatan adam.**
**Belçika Qalliyasına (Fransa) özünün gəlişi ilə**
**Bir müddətdən sonra çox kobud hərəkət edəcək.**
**Bu qədər gözəl gülə qarşı amansız olacaq.**

Tədqiqatçılar bu qənaətdədirlər ki, katrendə bəyan olunanlar XVI əsrin sonlarına yaxın baş vermişdir. Müqəddəs Roma İmpe -

riyasının imperatoru və İspaniya kralı V Karl hakimiyyətdən könüllü şəkildə imtina etdikdən sonra (bax: 1 k32) qardaşı Ferdinand Müqəddəs Roma İmperiyasının imperatoru, V Karlın oğlu II Filipp İspaniya, Belçika və İspaniya Niderlandının kralı oldu. Protestant-təbəəli hollandlar və belçikalılar (Belçika əraziləri bu dövrdə, bir qayda olaraq Cənubi Niderland adlandırılırdı. Bax: ASE, II, səh. 95) II Filippi qanuni hökmran olaraq 1-ci və 2-ci sətirdən göründüyü kimi, sevinclə qarşıladılar. Lakin 1568-ci ildə Kral protestantlara qarşı barışmazlıq göstərəndə hollandlar və belçikalılar açıq müharibəyə girişdilər. Beləliklə, müstəqillik uğrunda 80 illik müharibələr başlandı. II Filipp fransalı Navarralı Henriyə də protestant olduğuna görə arzuolunmaz münasibət bəslədiyindən, 1589-1598-ci illər arasında İspaniya ilə "iki fransız zanbağı" adlanan müharibə baş verdi. 1598-ci ildə Fransa bu müharibədə qalib gəldi. Daha ətraflı məlumat üçün bax: 1 k31.

**6 k84**

**Spartada hökuməti idarə etməkdən məhrum Axsaq Klod,**
**Şirnikdirici yollarla o qədər çirkin işlər görəcək ki,**
**O, uzunboylu və qısa tərəfindən**
**Krala qarşıdurmada günahlandırılacaq.**

Bəzi tədqiqatçılar bu katrendə Nostradamusun bəyan etdiklərinin şikəst olduqlarına görə fransalı diplomat Taleyrana və Amerika prezidenti Franklın Delano Ruzveltə uyğun gəldiyini qeyd edirlər. Katrenə dərindən nəzər saldıqda müəmmalı qalan bir çox məsələlər ortaya çıxır. Deyilənlər yerini almır. Bizcə, katrendə söhbət Hitler Almaniyasının Təbliğat naziri Yozef Hebbelsdən gedir.

1-ci sətirlə əlaqədar onu deyə bilərik ki, Spartada uşaq şikəst doğulanda onu qayadan ataraq məhv edərdilər. Odur ki, onlar nəinki hakimiyyətdən, hətta həyatdan belə məhrum olardılar. Nostradamus buna işərə edir. Hebbelsin rəhbər vəzifə tutaraq şirnikləndirici yollarla nələr etdiyi məlumdur.

### 6 k85

**Böyük Tars şəhərini qalliyalılar dağıdacaqlar.**
**Başı çalmalıların hamısını əsir edəcəklər.**
**Böyük portuqaliyalı dəniz vasitəsilə kömək göstərəcək.**
**Yayın birinci günü, Müqəddəs Urban günündə.**

Müxtəlif fərziyyələr irəli sürülsə də, böyük görücünün bu katreni də şərh olunmamış qalır. Məlum olan odur ki, Tars şəhəri Türkiyədədir. Müqəddəs Urban günləri isə çoxdur. Birincisi 7 apreldə, ikincisi 5 sentyabrda bayram edilir. Yepiskop Lanqrinin şərəfinə Müqəddəs Urban isə 23 yanvara düşür. Ola bilsin ki, planetimizin 2-ci yarımkürəsində Müqəddəs Lanqrin Urban bayramı yayın 1-ci gününə düşür.

### 6 k86

**Günlərin birində böyük prelat yuxu görəcək.**
**Onun bu yuxusunu tərsinə yozacaqlar.**
**Qaskoniyadan gözlənilmədən monax gələcək.**
**Mənasına uyğun olaraq böyük prelat seçiləcək.**

Bəzi tədqiqatçılar göstərirlər ki, katren Nostradamusun sağlığında baş vermiş hadisədən bəhs edir.

### 6 k87

**Frankfurtda keçirilən seçki ləğv olunacaq.**
**Elə bir yer olmayacaq ki, Milana əks getməsin.**
**Ən yaxın ardıcılı elə güclü olacaq ki,**
**Onu Reyinin o tərəfindəki bataqlığa aparıb çıxaracaq.**

Katrenin 1-ci sətri Müqəddəm Roma İmperatoru Ferdinandın 24 mart 1558-ci ildə Frankfurtda tacqoyma mərasimi ilə bağlıdır. Papa IV Pavel onu rəsmi olaraq tanımaqdan imtina etmişdi. Lakin bir il keçməmiş, IV Pavel dünyasını dəyişdikdən sonra üzüyola olan Papa IV Piy onu İmperator kimi tanımışdı.

Sonrakı sətirlər İspaniya kralı II Filippin Ferdinandı sıxışdıraraq Almaniya və Niderlanddan çıxarmaq cəhdi ilə bağlıdır.

**6 k88**

**Böyük krallıq boş qalacaq.**
**Ebronun yaxınlığında onları bir yerə yığacaqlar.**
**Təsəllini Pireney dağlarında tapacaqlar.**
**May ayında – yazda zəlzələlər olacaq.**

Nostradamus 1939-1940-cı illərdə baş verən və bu katrendə təsvir olunan hadisələri tam dəqiqliyi ilə görmüşdür. 1939-cu ildə İspaniyada vətəndaş müharibəsi zamanı Franko tərəfdarları Ebro çayı yaxınlığında, vadidə cəmləşərək respublikaçıların Kataloniyadakı son istehkamlarına hücuma hazırlaşırdılar. 1936-cı ildə başlayan vətəndaş müharibəsi demək olar ki, ölkəni xarabazara çevirmişdi. Qırılan qırılmış, qalanlar isə Pireney dağlarından keçib Fransaya pənah aparmışdı. Lakin 1940-cı ilin may ayında, 4-cü sətirdən göründüyü kimi, Fransada “zəlzələ” baş verdi. Daha doğrusu, Hitler ordusu ölkəyə hücum etdi. Bombalar, tank mərmiləri zəlzələdən daha dəhşətli oldu. Ölkə lərzəyə gəldi.

**6 k89**

**İki qayıq arasında əlləri və ayaqları bağlanmışdır.**
**Üzünə bal yaxılmış, süd tökülmüşdür.**
**Arılar və milçəklər qurbanlıq yeməyi kimi əldən qoymayacaqlar.**
**Saqi ikiüzlülük etmiş, badənin sınaq müddəti keçmişdir.**

Katren Napoleon Bonapartdan bəhs edir. Napoleon iki dəfə qayıqla Elba və Müqəddəs Yelena adasına sürgün edilib. 2-ci sətirdə Nostradamus qədimdən qalma bir adəti yada salır. Krallar taxta çıxanda, yəni tacqoyma mərasimində onun üzünə süd və bal çəkmək adəti olmuşdur (1 k57). Napoleon isə imperator idi. Böyük görücü onun taxt-tacdan uzaqlaşdırılmasını göstərir. 4-cü sətirdə obrazlı şəkildə təsvir olunanlar da baş verib. 1814-cü ilin aprel ayının 11-dən



*Napoleon Elba adasında düşüncələrə qərq olub (1814-cü il)*

12-ə keçən gecə o, intihar etmək istəyib. Lakin cəhdi baş tutmayıb. Ona görə ki, iki ilə yaxın boynundakı medalyonda gəzdirdiyi zəhər öz təsirini itiribmiş.

Zəhər məsələsinin tarixi Rusiya ilə bağlıdır. Məsələ burasındadır ki, Napoleon Moskvanı tərk etdikdən sonra, Kaluqa yaxınlığında ilk dəfə (24.X.1812) rus və Fransız orduları qanlı döyüşə girmişdilər. Ertəsi gün səhər tezdən rusların mövqelərinə baxmaq üçün Napoleon Qorodna kəndindən çıxan kimi birdən nizəli kazaklar onun dəstəsinin üstünə şığımışdı. Napoleonla olan iki marşal (Mürat və Bessyer), general Rapp və bir neçə zabit Napoleonu dövrəyə alaraq müdafiə olunmağa başladılar. Polyak atlı qoşunu və fransız yegerləri İmperatoru və onu əhatə edən dəstəni xilas etdi.

Bir anda ölmək və ya əsir düşmək təhlükəsi böyük idi. Bütün günü Napoleon gülümsəmişdi. Axşam o, qvardiya həkimi Yuvana əsir düşmək təhlükəsi ehtimalına qarşı güclü zəhər hazırlayıb ona verməsini əmr etmişdi.[1]

1814-cü il aprel ayının 11-də, taxt-tacdan əl çəkməsindən beş gün sonra, onun Elba adasına yola düşməsi üçün yır-yığış edilərkən Napoleon həmişə özü ilə gəzdirdiyi qutusundan hələ 1812-ci ildə həkim Yuvanın hazırladığı məhlulu axıracan içdi. Dəhşətli əzablar başladı.

Napoleon zəhərin zəifliyindən, yaxud təsirini itirməsindən şikayətlənərək həkim Yuvadan təzə zəhər tələb etdi. Həkim bir

[1] Y.V.Tarle. Napoleon. Bakı, 1993, səh. 332-333.

daha belə bir cinayət etməyəcəyini bildirərək, qaçıb otaqdan çıxdı. Napoleonun əzabları bir neçə saat çəksə də, sağ qaldı. 4-cü sətirdə Nostradamus buna işarə edir.

3-cü sətirdə arılardan söhbət gedir. Bu da Napoleonla bağlıdır. Napoleonun gerbində arı pətəyi həkk olunmuşdu. Mundirində isə arı şəklində emblem vardı.

**6 k90**

**Üfunətli, iyrənc biabırçılıq baş verəcək.**
**Bu əməldən sonra onu təbrik edəcəklər.**
**Meyil göstərilmədiyinə görə böyük üzrxahlıq edildi.**
**Neptun sülhə sürüklənmədi.**

Tədqiqatçılar bu katreni şərh etməkdən, demək olar ki, vaz keçmişlər. Bizə qalırsa, bu katrendə Nostradamus ABŞ-ın İraqı zəbt etməsindən söz açır. ABŞ bütün dünyanın gözü qabağında İraqda qorxulu silah var – deyərək ölkənin sirlərini, hərbi gücünü öyrəndi, dünya dövlətlərinin rəyinə məhəl qoymadan İraqı zəbt etdi. Əvvəllər buna qarşı çıxanların çoxu sonralar könüllü-könülsüz Prezident Buşu təbrik etdi. Çoxları ABŞ-ın bu hərəkətinə vaxtında haqq qazandırmadığına görə 2005-ci ilin fevralında Brüssel görüşləri zamanı üzrxahlıq etdi. Tarixən Neptun adına qüdrətli hərbi-dəniz donanması olan Britaniya və ya Osmanlı İmperiyası layiq görülmüşdür.

Katrenin 4-cü sətrində söhbət İngiltərədən gedir. İngiltərə dünya dövlətlərinin sülh siyasətinə qoşulmayaraq ABŞ-la birgə İraqı zəbt etdi. Bu katren bir daha təsdiq edir ki, Nostradamusun müəmmalı şəkildə bəyan etdiklərini müəyyən hadisə baş verənə qədər şərh etmək çətin olur. Şübhəsiz, buna görədir ki, indiyə qədər nostradamusşünaslar katren barədə söz deməkdən çəkinmişlər.

### 6 k91

**Dəniz döyüşünün (müharibə) qoşun başçısından,**
**Azğın qaniçəndən, amansız, dəhşətli söyüşlər eşidiləcək.**
**Böyük Aqrippin oğlu doğulanda,**
**Əsir şarda başçıdan qaçacaq.**

Tədqiqatçıların fikrincə bu katren 1571-ci ildə Lepanto yaxınlığında, Korinf boğazında Osmanlı hərbi-dəniz donanması ilə Avstriyalı Don Xuanın başçılığı ilə xristian hərbi-dəniz donanması arasında gedən döyüşdən bəhs edir. Maraqlıdır ki, yeni eradan əvvəl 31-ci ildə romalı sərkərdə Marko Aqrippo dəniz döyüşünə rəhbərlik edərək qalib gəlmişdi. Nostradamus çox ustalıqla Don Xuanı Aqrippo ilə müqayisə edir. Don Xuan türk hərbi-dəniz donanmasına qalib gələrək türk gəmilərində qul kimi avar çəkən 1500 nəfər xristianı azad etmişdi. Türk komandanı, admiral Əli Paşa topdan atılan mərmi ilə öldürülmüşdü. Görücü 4-cü sətirdə buna işarə edir. (Daha ətraflı məlumat üçün bax: 7 k26)

### 6 k92

**Gözəllik şahzadəsi necə də qəşəngdir.**
**Başçının yanına gətirildi, 2-ci oldu, qılıncdan keçirilmək üçün.**
**Şəhər qılıncdan keçirildi, üzü barıtdan yandı.**
**Çoxlu ölüm kralın ölkəsini tanınmaz etdi.**

Katrendə söhbət Fransa kralı XVI Lüdovikdən gedir. 1774-cü ildə kilsədə tacqoyma mərasimində Papa tacı onun başına qoyub. Lakin sonralar 1789-cu ildə Böyük Fransa inqilabı başlayıb. İnqilab vaxtı kralın bütün səlahiyyətləri əlindən alınıb. Kral and içib ki, vətəndaşların azadlıqlarına toxunmayacaq. Eləcə də söz vermişdi ki, heç vaxt Fransanı tərk etməyəcək. Lakin inqilabın qızğın çağında – 1792-ci ilin sonlarında gecə vaxtı kral öz ailəsini götürüb və Parisi tərk edib. Kral yolda tutularaq geri qaytarılıb. Özü də, kraliça Mariya Antuanetta da 1793-cü ildə edam ediliblər. 4-cü sətirdən göründüyü kimi inqilab vaxtı ölkədə dəhşətli qırğınlar baş

verib. Kral XVI Lüdoviklə bağlı Nostradamusun bir neçə katreni vardır. Ən çox təəssüfləndirici katren (4 k85) kralın və kraliçanın edam səhnəsini dəqiq təsvir edən katrendir. Nostradamusun hadisədən təqribən 250 il əvvəl bəyan etdikləri, tarixçilərin kral və kraliçanın edamı zamanı qələmə aldıqları ilə üst-üstə düşür.

**6 k93**

**Xəsis prelat təkəbbürlülüyündən aldadıldı.**
**Heç bir şey daha ona kömək etməyəcəkdir.**
**Onun elçiləri və özü əməllicə ələ keçəcəklər.**
**Meşədə odun yaran hər şeyi tərsinə görəcək.**

Bu katren barədə tədqiqatçılar bir söz deməmişlər. Göründüyü kimi, katren böyük tarixi əhəmiyyəti olan bir hadisədən bəhs etmir. Katolik kilsəsində yüksək ruhani vəzifə tutan prelatın aldadılması, xristian aləminin hər yerində baş verə bilərdi. Bu tarix üçün, bəşəriyyət üçün heç də böyük faciə olmazdı. Güman ki, katren məhəlli xarakter daşıyan məsələdən bəhs edir.

**6 k94**

**Taxt-tacı dağıdanlara kral bərk qəzəblənəcək.**
**Müharibə günü silahlar qadağan ediləndə,**
**Zəhər çiyələk vasitəsilə qəndə qarışdırılmışdır.**
**Su içərək ölən adam, "torpaq, torpaq" – deyə canını tapşıracaq.**

Nostradamusun bu katreni də hələlik şərh olunmamışdır.

**6 k95**

**Böhtançı tərəfindən ovsunlanmış sonra doğulana qarşı,**
**Nəhəng və hərbi işlərin getdiyi bir vaxtda,**
**Böyüyə cüzi bir hissə şübhəli qalarsa.**
**Krallıqda dərhal partizanların hərəkatı başlayacaq.**

Böyük görücünün bu katreni də şərh olunmamışdır.

### 6 k96

**Əsgərlər böyük şəhəri tərk etdilər**
**Həyatda hələ belə qarşılıqlıq olmamış.**
**Ah, gör necə dəhşətli bədbəxtlik yaxınlaşır.**
**Yalnız təhqirdən başqa, heç nə bağışlanılmayacaq.**

Bəzi tədqiqatçılar bu katrenin II Dünya müharibəsi zamanı baş verən hadisələrdən bəhs etdiyini qeyd edirlər. Onlar göstərirlər ki, 1-ci sətirdə söhbət alman əsgərlərinin Berlini tərk etməsindən gedir. Lakin məlumdur ki, alman əsgərləri Berlini tərk etməmişdilər. Berlində iki sovet ordusu alman ordusuna qarşı qanlı müharibə aparırdı. Berlində gedən döyüşün son həftəsi ərzində alman və sovet əsgərlərinin, eləcə də mülki əhalinin itkisi dəqiqədə 2 min nəfərə bərabər olmuşdur.

Bizə qalırsa, bu katrendə Napoleonun 1812-ci ildə Moskvaya hücumundan bəhs edilir (bax: 3 k24). Həmin hücumdan sonra 600 min nəfərlik qüdrətli fransız ordusundan yalnız 30 min nəfər sağ qalmışdı.[1]

### 6 k97

**Qırx beş dərəcə en dairəsində hava alovlanacaq.**
**Od təzə, böyük şəhərə yaxınlaşacaq.**
**Böyük alov bir anda hər yanı ağzına alacaq.**
**Onlar normanlardan (NATO) sübut tələb edəndə.**

Bəzi tədqiqatçılar bu hadisələrin Nyu-Yorkda baş verdiyini qeyd etsələr də, bu şəhərin 41-ci en dairəsində yerləşmədiyini inkar etmirlər.

Lakin hadisələrin Serbiyanın paytaxtı Belqrada yaxın Novi Belqraddan bəhs etdiyini göstərənlər həqiqətdən uzaq deyillər. Bu şəhər 45-ci en dairəsində yerləşir. 1999-cu ilin mart ayında NATO qüvvələri bu şəhəri bombardman etməyə başlamışdılar.

---

[1] Damon Wilson. Görücülük (ingiliscə). London, 2003, səh. 271.

Keçmiş Yuqoslaviyanın Prezidenti Slobodan Miloşeviç (2005-2006-cı illərdə Haaqada beynəlxalq məhkəmə hərbi cani kimi onun işinə baxırdı. Bir gün onu kamerasında keçinmiş tapmışdılar. Əslində onun "günahı" ölkəsini parçalanmaqdan xilas etmək cəhdi idi – Q.P.). NATO-dan Kosovoda serblərin albanlara qarşı hansı cinayəti törətdikləri barədə sübut tələb edirdi. 4-cü sətirdə Nostradamus buna işarə edir. Görücü başqa katrenlərində də, məsələn 5 k96 qeyd edir ki, həqiqəti deyənlərin ağzını bağlayacaqlar. Rus tədqiqatçıları Dmitri və Nadejda Zimalar burada da ağa qara deməkdən yorulmurlar. Yalandan Bağdad şəhərinin 45-ci en dairəsində olduğunu iddia edərək, 2-ci sətirdə söhbətin yeni şəhərdən getdiyinə məhəl qoymayaraq (Bağdadın təməli eramızın 762-ci ilində qoyulub) katrenin Bağdaddan bəhs etdiyini göstərirlər.[1] Başabəla tədqiqatçılar həmin kitabda, s.181-də eyni katreni şərh edərkən söhbətin nədən və haradan getdiyini belə deyə bilmirlər.

Kitabın 103-cü səhifəsindəki ağ yalan isə tədqiqatçıların savad və vicdan səviyyəsindən xəbər verir: "Bilmək maraqlıdır ki, tarixin böyük bir zaman kəsiyində Gürcüstan Böyük Ermənistanın bir hissəsi olmuşdur".

Əslində bu belə deyildir. Orta əsrlərdə bəzi Avropa ölkələrində Qafqazın xristianlar yaşayan hissəsi səhvən Ermənistan adlandırılıb. (Bax: 5 k94)

### 6 k98

**Volskusda (Lanqedoka) dağıntı dəhşətli qorxu yaradacaq.**
**Onların böyük şəhəri (Tuluza) ləkələnəcək.**
**Günəş (qızıl), Ay (gümüş) talanacaq, məbədlər murdarlanacaq.**
**Və hər iki böyük çay, axan qanla qırmızı boyanacaq.**

[1] Расшифрованный Нострадамус (rusca). Москва, 2001, стр. 284.

Fransadan bəhs edən bu katren də əsrlər boyu tədqiqatçıları düşündürmüşdür. Yalnız son illərdə onun şərhinə nail olunmuşdur. Hadisələr 1789-1793-cü illər Böyük Fransa inqilabından az sonra baş vermişdi. Tuluza şəhərində yerləşən müqəddəs Sernin kilsəsini – antik dövrdən qalma bu abidəni iki böyük qızıl (Günəş) və gümüş (Ay) günbəz bəzəyirdi. İnqilab vaxtı günbəzləri talan etmişdilər. İnqilabi eranın sonunda (1814) Tuluza yaxınlığında Qaronna və Tuş çayları sahillərində, eləcə də Lanqedoka kanalı üstündə qanlı döyüş olmuşdu. Ölənlərin sayı altı min nəfəri keçmişdi. Katrendə Nostradamus bu məsələlərə işarə etmişdir.

### 6 k99

**Savadlı düşmən təşviş içində geri dönəcək.**
**Böyük ordu zəifləyib, pusquda duranlar onu pərən-pərən salıb.**
**Pireney və Penin dağları onu rədd edəcək.**
**Çayın yaxınlığında antik qablar tapılacaq.**

Tədqiqatçılar katrenin Napoleonla bağlı olduğunu qeyd edirlər. Göstərirlər ki, katrendə Napoleon ordusuna qarşı İspaniyada aparılan partizan müharibələri təsvir olunur.

Bizə qalırsa, katrendə Napoleonun 1812-ci ildə Rusiyaya hərbi yürüşü və məğlubiyyəti təsvir edilir.

### 6 k100

**Ağılsız tənqidçilərə əxlaq ovsunu**
**Bu bəndi oxuyan, qoy onun haqqında dərindən düşünsün.**
**Kənar dursun qanmazlar, nadan, kütbeyin insan yığını.**
**Bütün astroloqlar, kütlər və varvarlar.**
**Qoy dediklərimi tərsinə yozanlar müqəddəs ayinə tapşırılsın.**

Katrendə yer alan (3-cü sətir) astroloqlar barədə fikir bütün tədqiqatçıları çaşbaş salmışdır. Əslində bu sözün məna çalarına fikir verəndə böyük görücünü qınamağa bir əsas qalmır. O, bu

halda falçı və rəmmalları, eləcə də Karl Ernest Karaft kimi astroloqları nəzərdə tutmuşdur. (Bax: 8 k47)

Nostradamus bəşəriyyətin inkişafında astrologiya elminin və astroloqların böyük rol oynadıqlarını yaxşı bilirdi. Nostradamus oğlu Sezara ünvanladığı məktubda astrologiya elminə yüksək qiymət verir, görücülüyün bir başa astrologiya elmi ilə bağlı olduğunu xüsusi vurğulayırdı: "Yaradanın iradəsi və alın yazısı ilə bağlı hadisələri astrologiyanın və təbii nurun köməyilə təkcə İlahi vergisi olanlar qabaqcadan görə bilərlər".

Görücü eləcə də gözəl bilirdi ki, hələ XIV əsrin II yarısında kral V Karl Paris Universitetinin "Tibb məktəbi"ni yaradarkən onun girişində yazılmışdı: "Astrologiyanı bilməyən həkim kora bənzər".

Belə olan halda Nostradamusun astroloqlara mənfi münasibətdə olduğunu göstərmək doğru deyildir.

Nostradamus bu katrendə görücülüyü ilə bağlı əsas məqamı açıb ortaya qoyur. Görücü duymuşdu ki, gələcəkdə dediklərini necə gəldi yozacaq, pul qazanmaq xatirinə tələm-tələsik, basma qəlib "tematik" kitablar buraxacaqlar. Bəlkə də çoxlarını Nostradamusun görücülüyünə girişməkdən çəkindirən bu katrendir. Bəlkə elə bizi də bu kitabın üzərində yeddi ildən artıq məsuliyyətlə işləməyə, hər şeyi diqqətlə götür-qoy etməyə təhrik edən bu katren olmuşdur.

# VII SENTURİYA (VII YÜZLÜK)



***Səma cisimlərinin düzülüşü və hərəkətindən göründüyü kimi, heç nə nəhayətsiz və sonsuz gücə malik İlahinin qüdrətindən kənarda deyildir.***

## 7 k1

**Xəzinənin tagı Axill tərəfindən çapıldı.**
**Kvadrat adlanan meydan bunu sənədlərdə təsdiq edir.**
**Kralın hərəkətindən bunun necə olacağı gözlənilir.**
**Meyit xalqın gözü qarşısında asılacaq.**

K katreni ilk olaraq "Dünya hadisələri barədə Nostradamusun görücülüyü" kitabının müəllifi Rob şərh etmiş və bütün tədqiqatçılar şərhin doğru olduğunu təsdiqləmişlər. Katrendə söhbət Fransanın 1-ci naziri (Baş nazir) Florensiyalı Konçino Konçinidən gedir. Konçino və kral naibi Mariya Mediçi xəzinəni dağıtmışdılar. Konçini həm baş nazir, həm maliyyə naziri, həm də Fransa silahlı qüvvələrinin baş komandanı idi. 16 yaşlı kral XIII Lüdovik, nə yüngül həyat sürən anasına, nə də Konçiniyə qarşı bir şey edə bilirdi. Kralı bu vəziyyətdən yalnız Konçininin ölümü xilas edə bilərdi. Əlverişli şərait Parisdə Parlamentin sədri Axill de Harli Konçininin xəzinəni dağıtması barədə məsələ qaldırandan sonra yetişdi.

1-ci sətirdə Nostradamus həm Axillin adını çəkir, həm də Konçininin mövqeyinin laxlamasının başlanğıcını məhz onun qoyduğunu qeyd edir. Onu da qeyd edək ki, Axill de Harli Fransada çox məşhur və dövlətə vicdan və sədaqətlə, təmənnasız qulluq etmiş dövlət xadimi olub. Onun son dərəcə böyük ehtirama layiq görül -

məsi Türkiyədə səfir işləyərkən mindən artıq fransalı müharibə əsirlərini və qulları öz hesabına azad etdirməsi olmuşdu.

Kralın dostu və cangüdənlərinin başçısı Vitri Konçininin ünvanına söylənən ittihamlardan istifadə edərək onu aradan götürməyi krala məsləhət görür.

24 aprel 1617-ci ildə Konçini Kvadrat adlanan meydanda gəzərkən Kralın cangüdənləri Vitri, Halier və Perey onun yolunu kəsmiş, həbs edilməsi barədə kralın əmri ilə onu tanış etmişdilər. Qaçmağa üz qoyan Konçinini güllələmişdilər. Konçininin meyitini meydanda xalqın gözü qarşısında asmışdılar. Eləcə də onun arvadı Leonara Dorini cadugərlikdə təqsirli bilib edam etmiş, sonra isə meytini yandırmışdılar.

Kral eşidəndə ki, Konçinini öldürüblər, dərindən nəfəs almış və sonralar məşhur kəlama çevrilən "İndi mən kralam" sözlərini demişdi.

**7 k2**

**Mars açıq olanda Arl müharibədən imtina edəcək.**
**Gecə vaxtı bütün əsgərlər qəfildən tutulacaqlar.**
**Qara, ağ Hindistanda torpaqda gizlədilmişlər.**
**Satqını təmiz, pak adam qafiyəsində görəcəksiniz.**

Tədqiqatçılar bu katren barədə ağlabatan bir söz deməyiblər.

Görünür, tədqiqatçılar 3-cü sətirdə yer alan "a L'inde" sözünün "İndiqo – göy rəng" mənasından əlavə, "ağac, bitki" və Hindistan mənalarında da işləndiyinə məhəl qoymadıqlarına görə katrenin şərhini verə bilməmişlər. Lakin Y.Avdyayeva və L.Zdanoviçin klassik fransız dilində olan orijinaldan etdikləri tərcümə köməyə gəlir. Maraqlı burasındadır ki, Nostradamusun bir çox katrenlərinin şərhində bir ifadə, bir söz, bir hadisə kifayət etdiyi kimi, burada da belə bir söz 3-cü sətirdə gedən Hindistan sözüdür. Lakin bu katrenin şərhinin açarı 3-cü sətir olsa da, başqa sətirlər də qəti qənaətə gəlməyə imkan verir. Nostradamus bir neçə

katrenində Azərbaycandan söhbət açır. Bu katren onlardan biridir. Katren 26 Bakı Komissarlarından bəhs edir. XX əsrin sonlarına yaxın söz-söhbət gəzirdi ki, Hindistan Sovet dövlətinə müraciət edib ki, 26-lar Hindistanda – Parkda basdırılıblar. Onların qalıqlarını və muzeydə saxlanılan əşyalarını apara bilərlər. Lakin Stepan Şaumyanın oğlu Şaumyan və başqaları bu sirrin üstünün açılmasına mane oldular. Çünki bir çox xəyanətlər məlum olacaqdı. Deyilənə görə Şaumyan sağ imiş.

1-ci sətirdə göstərilən Mars müharibə allahıdır.

1-ci sətirdən göründüyü kimi, Arl-Fransa öz müttəfiqi İngiltərə ilə Azərbaycana gəlib müharibə etməkdən imtina etmişdi. İngiltərə ordusu isə 1918-ci ilin 14-15 sentyabrında güclü türk ordusuna müqavimət göstərə bilməmiş, həbs etdikləri 26 Bakı Komissarlarını götürüb (2 sətir) dəniz vasitəsi ilə Türkmənistanın Krasnovodsk limanına yollanmışdılar. 26-lar ona görə həbs olunmuşdular ki, həmin ilin avqust ayının 4-də Bakıya girən ingilislərlə heç bir sazişə girməmişdilər.

V.İ.Lenin bu münasibətlə yazırdı: "İngilis-fransız imperialistləri ilə hər cür sazişdən qəti surətdə imtina etmək – bakılı yoldaşların atdığı düzgün addımdır..." (Əsərləri, cild 28, səh.7). İngilislərin 26 Bakı Komissarlarını özləri ilə aparması, bizcə, o məqsədi güdürdü ki, onları saziş bağlamağa məcbur edib, əlverişli şərait yaranan kimi, 26-larla birgə Bakıya qayıtsınlar. Odur ki, ingilislərin 26-ları Türkmənistanın Ağcaqum səhrasında güllələmələri inandırıcı deyildir. Onlar elə bir məqsəd güdsələr, 26-ları elə Bakıda güllələyər və ya Xəzər dənizinə atardılar. 3-cü sətirdən göründüyü kimi, onları – qaraları (Azərbaycanlı, erməni, gürcü və b.) və ağları da İngiltərənin ən inanılmış müstəmləkəsi olan Hindistana aparmışlar. Onların orada talelərinin necə olması aydın deyil. Nostradamusun katrenindən məlum olur ki, onlar ağaclıqda dəfn olunmuşlar.

4-cü sətirdə söhbət A.Mikoyandan gedir. 26 Bakı Komissarlarını onun satdığı Sovet dövründə də sirr deyildi. İ.Stalin dəfələrlə

söhbətlərində buna işarə edərək A.Mikoyanı qorxutmuşdu. Maraqlı odur ki, ingilislərin saziş barədə təkliflərini rədd edən 26 Bakı Komissarları ingilislər Bakıya girəndən (4 avqust) az sonra həbs olunmuşdular. Siyahıda 25 nəfər vardı. Bakı Kommunasının fəal üzvü Anastas Mikoyanın adı siyahıda yox idi. A.Mikoyan öz yerinə A.M.Amiryanın qardaşı, 26-lara dəxli olmayan T.M.Amiryanı əlavə etmişdi. 1918-ci ildə "İzvestiya Bakinskoqo Soveta" qəzetinin faktiki redaktoru olan, Bakı Kommunasının müdafiəsində iştirak edən, 26-lardan biri olan Mikoyanın 26 Bakı Komissarlarının siyahısını ingilislərə verməsi şübhə doğurmur. Guya Bakı Komissarlarının həbs edilməsində Bayıl həbsxanasında olarkən onlara gətirilən azuqəni bölüşdürmək üçün tutulmuş siyahının Krasnovodskda axtarış zamanı tapılması rol oynayıb.

Nostradamusun 4-cü sətirdə göstərdiyi "Satqını təmiz, pak adam qafiyəsində görəcəksiniz" A.Mikoyana işarədir. O, dünyasını dəyişdiyi 1978-ci ilə qədər Sovet İttifaqında ən yüksək vəzifələr tutmuş, XX əsrin 60-cı illərində şəxsən Bakıya gələrək tutduğu vəzifədən istifadə etmiş və Azərbaycan Dövlət Arxivində ən mötəbər sənədləri, o cümlədən də 26 Bakı Komissarları ilə əlaqədar sənədləri aparmışdı. Elə bu faktın özü bir çox mətləblərdən xəbər verir.

**7 k3**

**Fransanın dənizdə qələbəsindən sonra**
**Barseloniyalılar, saillionlular, marsellilər,**
**Qızıl oğrusu, <u>Zindan</u> şarda çıxarılmış.**
**Ptolondan olanlar yalanla, saxtakarlıqla razılaşacaqlar.**

Bu katren 1944-cü ildə müttəfiq ordularının Fransanın cənubuna çıxarılmasından bəhs edir. "Zindan" əməliyyatı, başqa sözlə, məxfi parolu "Drakon" – (Əjdaha) olan əməliyyatı həyata keçirərək katrendə adı keçən yerlərdə müttəfiq orduları alman ordusuna sarsıdıcı zərbə endirmişdi.

### 7 k4

**Lionluların və Otonluların müşayiəti ilə**
**Lanqr hersoqunun qarşısı Dolda alındı.**
**Ankonlulara qarşı dağları aşıb-keçmək üçün**
**Cenevrə, Auqsburq Mirandoladan olanlarla birləşdilər.**

Bu katrendə Nostradamus Fransa, İtaliya, İsveçrə və Almaniyada keçmişdə baş vermiş, indiki dövr üçün o qədər də əhəmiyyət kəsb etməyən hadisələrdən söz açır.

### 7 k5

**Stolun üstünə azacıq şərab dağıldı.**
**Üçüncüyə tələb etdiyi çatmayacaq.**
**Parmanın qara kralının yanından iki dəfə enib gələn**
**Peruca və Pizdə nə etmişdisə, edəcək.**

Katrendə XVI əsrin 2-ci yarısında Parma şəhərinin iki dəfə əldən-ələ keçməsindən bəhs olunur. Eləcə də Peruca və Piz şəhərlərinin əldən-ələ keçəcəyindən danışılır.

### 7 k6

**Neapol, Palermo və bütün Siciliya,**
**Varvarların əlindən xarabazara çevriləcək.**
**Korsiko, Salerno və Sardiniya adası**
**Aclıq, taun, müharibə əzablarını axıracan görəcəklər.**

Tədqiqatçılar Nostradamusun bu katrendə bəyan etdiklərinin gələcəkdə baş verəcəyini qeyd edirlər. Tədqiqatçı David Montaiqne göstərir ki, bunu müsəlmanlar edəcəklər (M.David. Nostradamus. II Dünya müharibəsi, ABŞ, 2002, s.79).

### 7 k7

**Böyük süvari dəstələri ilə döyüşdən sonra**
**Elan edəcəklər ki, Böyük ayparanın müqaviməti qırıldı.**
**Çoban paltarında olanlar, onları gecə dağlarda qıracaqlar.**
**Acınacaqlı Qırmızılar dərin dərələrdə tökülüb qalacaqlar.**

Əvvəllər şərhə gəlməyən, lakin son dövrdə anlaşılan bu katreni tədqiqatçılar doğru olaraq, rusların Əfqanıstanda apardığı müharibə ilə bağlayırlar (1979-1988).

1-ci sətirdə əfqan mücahidləri ilə döyüş nəzərdə tutulur. 2-ci sətirdə müharibənin ilk günlərində lovğalanaraq müsəlman müqavimət hərəkatının yox dərəcəyə endirildiyindən söz açan ruslar göz önünə gətirilir.

3-cü sətirdə mücahidlər təsvir olunur.

4-cü sətirdə Əfqan müharibəsi zamanı rusların verdiyi itkilər, Əfqanıstanda onların vəziyyətinin acınacaqlı və çıxılmaz olduğu təsvir edilir.

### 7 k8

**Florensiya qaçır, ən yaxın Romalı qaçır.**
**Fyezoledə döyüş olacaq.**
**Qan axıdıldı, ən böyüklər əl ilə tutuldu.**
**Nə məbədə, nə qadına, nə kişiyə rəhm ediləcək.**

Nostradamusun ən yaxşı tədqiqatçılarından biri, görücünün katrenlərində təsvir etdiyi yerləri qarış-qarış gəzən Con Houq Fyezoledə olmuş, paytaxtımız Bakıda İçərişəhəri andıran şəhərdən Arno vadisini və Arno çayını müşahidə etmiş, tədqiqat aparmış, bu şəhərdə hələlik heç bir müharibənin olmadığı qənaətinə gəlmişdir. Deməli, Nostradamusun bu katrendə bəyan etdikləri gələcəklə bağlıdır.

### 7 k9

**Sahibi olmadığından, böyük xanım,**
**Vitse-kralın yanına eşq məcarasına dəvət olunacaq.**
**Yalan vəd və məhəbbətdə bəxtiqaralıq,**
**Bardan olan sahzadə ilə bağlıdır.**

Tədqiqatçıların yazdığına görə Nostradamus katrendə kral II Henrinin qızı Marqaritadan söz açır. Yazılanlara görə, nimfomaniyaya

mübtəla olan Marqonun çoxlu pərəstişkarları varmış. Onların arasında çox ehtiraslı və gözqamaşdırıcı gözəlliyə malik, Katolik liqasının vitse-kralı, general-leytenant Henri de Giz xüsusilə seçilirmiş. Lakin ölkənin hökmdarı olmaq niyyəti ona baha başa gəlmişdi. Marqaritanın qardaşı kral III Henri sui-qəsd düzəldib onu öldürtdürmüşdü.

Marqonun bəxtinin gətirməməsi Bar şəhərində doğulmuş Henri de Gizlə bağlı olmuşdur. 4-cü sətirdə görücü buna işarə edir.

### 7 k10

**Manla həmsərhəd olan ərazidəki şahzadə tərəfindən**
**Böyük ordunun cəsur başçısı ilə**
**Dənizdən və qurudan fransızca danışan bretonlar və normanlarla**
**Cəbəlüttariqi və Barselonanı keçərək adanı çapıb-talamışlar.**

Katrendə XVI əsrin 2-ci yarısında baş verən məhəlli xarakterli hadisələrdən bəhs edilir.

### 7 k11

**Kral oğlu doğma anasına nifrət edəcək.**
**Qanacaqsız, itaətsiz gözündən və ayağından yaralanıb.**
**Xanıma əcaib və çox ağır xəbər çatacaq.**
**Tərəfdarlarından beş yüzdən çoxu öldürüləcək.**

Kral oğlu 16 yaşlı kral XIII Lüdovikdir. Onun yaşı az olduğuna görə anası Mariya Mediçi kral naibi idi. Yüngül həyat sürən, vaxtını eyş-işrətdə keçirən Mariya Mediçi ölkənin Birinci naziri (Baş naziri) Konçino Konçini ilə xəzinəni talamışdılar. (Ətraflı məlumat üçün bax: 7 k1)

2-ci sətirdə kralın cangüdənləri Luvr qarşısındakı meydanda Konçiniyə həbsi barədə kralın əmrini oxuyanda o, əmrə tabe olmayaraq itaətsizlik göstərmiş və qaçaraq aradan çıxmaq istəmişdi. Kralın cangüdənləri ona davamlı atəş açmışdılar. Konçini ayağından və gözündən yaralanmış və ölmüşdü. Mariya Mediçiyə bu xə-

bər çatanda (3-cü sətir) sarsılmışdı. Yaxın rəfiqəsi, Konçininin arvadı Leonora Doranın cadugərlikdə təqsirli bilinərək edam olunması və sonra cəsədinin tonqalda yandırılması Mariya Mediçidə oğluna qarşı intiqam hissi oyatmışdı. İki dəfə qiyam qaldırmışdı. Lakin 2-ci qiyam vaxtı (1620-ci il) tərəfdarlarından 500 nəfərdən çox adam öldürülmüşdu. 3-cü sətirdə buna işarə edilir: "Xanıma əcaib (gözlənilməz) və çox ağır xəbər çatacaq".

Nostradamusşünas Ned Halli isə bu katrenin III Napoleonun oğlu ilə bağlı olduğunu qeyd edir. Tədqiqatçı göstərir ki, III Napoleon ingilislərə məğlub olduqdan sonra İngiltərədə (Kentdə) sürgün həyatı keçirirdi. Kraliça və oğlu da onun arxasınca İngiltərəyə gəlmişdilər. İngiltərədə təhsil alan gənc, atası III Napoleonun ölümündən sonra (1873) İngilis ekspedisiya korpusu ilə Cənubi Afrikaya gedərək zuluslara qarşı müharibəyə qoşulur. Lakin anası onun Afrikaya getməsinə razı deyildi. Hallinin sözlərinə görə o, anasının sözlərinə məhəl qoymamış, Cənubi Afrikaya getmiş, zuluslarla müharibədə beş yüz nəfərlə birgə öldürülmüşdü. Şahzadənin ölüm xəbəri anasını sarsıtmışdı.

Deməliyəm ki, Hallinin irəli sürdüyü fərziyyə ilə katrendə bəyan olunanlar arasında uyuşmayan, uyğun gəlməyən məqamlar çoxdur.

**7 k12**

**Böyük olan kiçik qardaş müharibəyə son qoyacaq.**
**Bağışlananlar allahların qarşısında toplaşırlar**
**Kahor və Muassak şəhərləri həbsxanadan uzaqda olacaq.**
**Lestor rədd edildi, ajenlilər qılıncdan keçirildilər.**

Nostradamusun söhbət açdığı hadisələr Fransada baş verən dini müharibələrdən bəhs edir. Məlumdur ki, ölkədə 7 dəfə dini zəmində müharibələr baş vermişdi. Katrendə adı çəkilən şəhərlərin hamısı, ölkənin dini müharibələrin qızışdırılmasında böyük rolu olan Giz qardaşlarının böyüyüb boya-başa çatdığı cənub-qərb əyalətlərindədir. Dini müharibələrdə Giz qardaşlarının rolu böyük olmuşdu.

## 7 k13

**Az əhəmiyyətli dəniz şəhərindən olan,**
**Saçını qısa qırxdıran, satrapı ələ alacaq.**
**Sonradan onun əleyhinə olanı izləyəcək.**
**On dörd il ərzində tiraniyanı (hakimiyyəti) əlində saxlayacaq.**

Nostradamus bu katrendə Napoleon Bonapartdan söhbət açır. O, doğrudan da Korsika adasında 1769-cu il avqustun 15-də 2-ci dərəcəli, az əhəmiyyətli kiçik Ayaççio şəhərində anadan olmuşdu. Özünü pərəstiş etdiyi qədim Roma diktatoru Yuli Sezara oxşatmaq üçün saçını çox qısa qırxdırarmış. 3-cü sətirdə general Morodan danışılır. Napoleon onu sürgünə göndərmişdi. Moro Fransa ordusunun ən istedadlı generallarından idi. Bir şey var ki, çox şöhrətpərəst idi. Lakin Napoleondan fərqli olaraq onun şöhrətpərəstliyində bir qətiyyətsizlik vardı. Özünün cürət eləmədiyinə Napoleonun cəsarəti çatdığına görə onu görən gözü yox idi. Moronun general Pişeqrü və Kadudalın Napoleona qarşı sui-qəsd hazırladığından xəbəri ola-ola məlumat verməməsi onu etibardan salmışdı. Pişeqrü, Kadudal və başqaları həbs edildikdən sonra, 1804-cü il fevralın 15-də Moro da həbs edilmişdi. Sui-qəsd iştirakçılarının hamısının boynu gilyotinlə vurulmuş, general Moro isə Fransadan Amerikaya sürgün edilmişdi. Onu da deyək ki, Napoleon Moronu hamıdan üstün sayırdı. Bununla belə, Moro Napoleonun barışmaz düşməninə çevrilmişdi. 1913-cü ildə rus carı I Aleksandrın dəvəti ilə Moro Amerikadan gələrək Rusiya, Prussiya, Avstriya və İsveçin müttəfiq ordularında Napoleona qarşı döyüşərkən həlak olmuşdu.

Katrenin 4-cü sətri böyük maraq doğurur. Əvvəla, Nostradamus özündən 250 il sonra Napoleonun 14 il hakimiyyətdə olacağını göstərmişdir (9.XI.1799-13.IV.1814). Onu da bilmək maraqlıdır ki, 1815-ci ilin martında Napoleon Elba adasından qaçaraq yenidən hakimiyyətə gəlmişdi. Onun bu hakimiyyət dövrü 100 gün adlanır. Lakin 1815-ci il iyunun 18-də Vaterloo kəndi yaxınlığında

ingilislərə məğlub oldu. Buna qədər Avropa dövlətləri Napoleonu "bəşəriyyətin düşməni" kimi qanundan kənar elan etmişdilər. Beləliklə, 22 iyun 1815-ci ildə bir milyondan artıq fransızın məhvinə səbəb olan Napoleon erasına son qoyuldu. Nostradamus katrendə onu tiran adlandırmaqla, bu sözün qədim Yunanıstanda olduğu kimi, hakimiyyətə zorla gələn, qəsb edən şəxsə şamil olduğunu da bəyan etmişdir. Həqiqətən də Napoleon hakimiyyətə zor gücünə gəlmişdi. 2-ci sətirdə işlənən "satrap" fars sözü olub – hakimiyyət, hökmranlıq mənasını verir.

**7 k14**

**Saxta topoqrafiyanı ləğv edəcəklər.**
**Ölü urnaları və qəbirüstü abidələr dağılacaq.**
**Müqəddəs (saxta) təriqətin dünyaya baxışı beləliklə artacaq.**
**Qaraya ağ, turş üzümə əntiq deyəcəklər.**

Tədqiqatçıların qənaətinə görə bu katren 1789-1793-cü illər arası Böyük Fransa inqilabı zamanı baş verən hadisələrdən bəhs edir. 1-ci sətirdə görücü Bastiliya ilə bağlı fikrini irəli sürür. Səkkizqülləli Bastiliya qalası həmin vaxta qədər Parisin xaricində idi. Şəhərin bir hissəsinin müdafiəsini təmin edirdi. 1789-cu ilin iyulunda onu həbsxanaya çevirmişdilər. Tezliklə bura xalqın nifrət etdiyi bir yer olmuşdu. Ona görə də inqilab zamanı xalq kütləsi Bastiliyanı dağıtdı, daşı-daş üstə qoymadı (1-ci və 2-ci sətirlər). Bu vaxt kralların türbələri də dağıdılmışdı. İnqilab vaxtı Robespyer və əlaltıları kilsəni qadağan etdilər. Onun əvəzinə xalqa İdraka pərəstiş etməyi təlqin etdilər (3-cü sətir). Xalqı qaraya ağ deməyə məcbur etdilər (4-cü sətir).

1794-cü il 12-27 iyul arası 1285 nəfərin gilyotindən keçirilməsinə bais olduğuna və başqa əməllərinə görə M.Robespyer, qardaşı Ogüsten və başqaları qanundan kənar elan edilərək, 27 iyul 1794-cü ildə edam edildilər (bax: 2 k42).

**7 k15**

**Ölkənin insubrlar yaşayan şəhəri (Milan).**
**Yeddi il blokada şəraitində olacaq.**
**Ən böyük hökmdar ora girəndən sonra,**
**Şəhər öz düşmənlərindən təmizlənəcək.**

Nostradamusun katrendə bəyan etdikləri doğrudan da yer alıbdır. Lombardiya və onun mərkəzi şəhəri, daha doğrusu, paytaxtı Milan 1793-1800-cü illər arası həm İspaniya, həm Fransa tərəfindən blokada şəraitində olub. Lakin 2 iyun 1800-cü ildə Napoleonun Milana təntənəli gəlişi əhalinin əzab-əziyyətinə son qoyub.

**7 k16**

**Böyük kraliçanın düzəltdirdiyi dərin keçid,**
**Bu yeri güclü, həm də keçilməz edəcək.**
**Üç şirin ordusunun iyrənc hərəkətləri ucbatından**
**Daxildə son dərəcə ağır hadisə baş verəcək.**

Nostradamusşünaslar bu katrenin Hindistanla, onun Baş naziri olmuş İndira Qandi ilə bağlı olduğunu göstərirlər. Üç şirin ordusu (3-cü sətir) Hindistanın ordusu deməkdir. Bu ölkənin gerbində üç şir həkk olunmuşdur. 1-ci sətirdə söhbət İndira Qandidən gedir. Onun vaxtında doğrudan da Hindistan qüdrətli dövlətlərdən birinə çevrilmişdi. 3-cü sətirdə hind ordusunun Xalistan üsyançılarına qarşı amansız hücumu, Amristarda sikxlərin müqəddəs məbədlərini bir müddət əldə saxlamalarından, 4-cü sətirdə isə bunun nəticəsində İndira Qandinin cangüdənləri arasına salınmış sikx separatçısı tərəfindən 1984-cü ildə öldürülməsindən bəhs edilir. 1-ci və 2-ci sətirlərdə deyilənlər də yerini alıb. 1966-cı ilin yanvarından Baş nazir olan İ.Qandi hərbi bloklara qoşulmamaq, Asiyada və Hind okeanı hövzəsində təhlükəsizliyin təmin olunması siyasətini aparırdı. Onu da deyək ki, İndira Qandi 1955-ci ildə atası C.Nehru ilə Bakını ziyarət etmişdir.

**7 k17**

**Nadir mərhəmət və rəhm sahibi olan şahzadə**
**Xalqına davamlı əmin-amanlıq bəxş edəcək.**
**Onun vaxtsız ölümü çoxlarına ibrətamiz olacaq.**
**Krallıqda asayiş pozulmayacaq.**

Qərb tədqiqatçıları bu katren barədə ağlasığmayan fərziyyələr irəli sürürlər. Yoxman katrendə bəyan olunanların doqquzuncu minillikdə olacağını, Con Houq isə bir az həmin tarixdən əvvəl baş verəcəyini təxmin edirlər. Onlar unudurlar ki, Nostradamusun özü yazmışdı ki, onun görücülüyü 2242-ci ildə sona yetəcəkdir.

Bizə qalırsa, bu katrendə də Nostradamus Hindistandan, onun baş naziri Raciv Qandidən söhbət açır. Katrenin bütün sətirlərində göstərilənlər onun həyatı və fəaliyyəti ilə uyğun gəlir. 3-cü sətirdə onun çox gənc ikən sui-qəsd nəticəsində öldürülməsindən (21.V/1991) bəhs edilir.

**7 k18**

**Mühasirəyə alınanlar öz niyyətlərini dəyişəcəklər.**
**Yeddi gündən sonra amansız hücuma keçəcəklər.**
**Odun, qanın içinə itələnmişlərdən yeddisi qılıncdan keçiriləcək.**
**Sülh yaratmış xanım əsir alındı.**

Bu katren barədə tədqiqatçılar nələr yazmayıblar! Onları qına - maq da düzgün olmazdı. Çünki Nostradamusun müəmmalı şəkildə yazdıqlarını əsasən hadisə baş verəndən sonra bilmək olar.

Bu katrendə söhbət "Körfəz müharibəsi"ndən və az sonra ABŞ və İngilis birgə qoşun hissələrinin İraqı zəbt etməsindən gedir. 3-cü sətirdə 7 nəfərin qılıncdan keçirilməsindən bəhs olunur. Onlar Səddam Hüseyn, 2 oğlu: Odey və Qusey, Səddamın əmisi oğlu Əli Həsən Məcid və üç qardaşıdır. İndi (2006-cı il) Səddam Hüseynin məhkəməsi gedir.

Müqəssirlər kürsüsündə onunla bərabər daha 6 nəfər əyləşib. Ola bilsin ki, Nostradamus bu yeddi nəfərdən söz açıb.

Katrenin 4-cü sətri böyük maraq doğurur. Nyu-Yorkda "Azadlıq heykəli", azadlıq carçısı abidəsini qoyan ABŞ, zor işlədərək İraqı zəbt etdi. Azadlıq yayan Xanım azadlıqdan məhrum olundu. Əsir alındı (Maraqlı məlumat üçün bax: 8 k14, 8 k70, 10 k98). Nostradamusun "qanlı sülh keşikçisi" adlandırdığı ABŞ sözdə azadlıqdan, demokratiyadan dəm vursa da, əməli işdə öz iç üzünü açıb göstərdi. Nostradamus 4-cü sətirdə obrazlı ifadə ilə buna işarə edir.

3-cü sətirdə bəyan olunanlar bəlkə də yeddi ölkəyə işarədir. ABŞ hələlik Əfqanıstan və İraqı zəbt edib. Görək o biri ölkələr hansılar olacaq. Bunu gələcək göstərəcəkdir.

### 7 k19

**Nis qalası yenidən ələ keçməyəcək.**
**O, parlayan metalla məğlub ediləcək.**
**Vəlvələyə düşmüş və qorxudulmuş şəhərlilərə,**
**Onun reallaşması uzun müddət şübhəli olacaq.**

Bu katren barədə müxtəlif fikirlər irəli sürülsə də, həqiqəti üzə çıxarmaq müşkül məsələ olaraq qalır. Tədqiqatçıların çoxu belə qənaətə gəliblər ki, 2-ci sətirdə söhbət ya qızıl puldan, ya da qitələrarası raketdən gedir. Onu da deyək ki, Nis qalası tarixdə iki dəfə alınıb. 1705 və 1891-ci illərdə. Hər iki dəfə qalanı fransızlar alıblar.

### 7 k20

**Toksan dili üzrə səfirlər,**
**Aprel və may aylarında Alpı və dənizi keçəcəklər.**
**Buğa şəhərindən olan uzun nitq söyləyəcək.**
**Qalliya həyat tərzini pozmaq istəməyəcəyini deyəcək.**

Tədqiqatçılar göstərirlər ki, bu katren II Dünya müharibəsi ərəfəsində İtaliyada baş verən hadisələrdən bəhs edir. 3-cü sətirdəki Buğa şəhəri Turindir. Qədim romalılar şəhərə buğa – Torino adı vermişdilər. Mussolini 1939-1940-cı illərdə dəfələrlə çıxış edərək fransızları inandırmağa çalışırdı ki, o, sülh tərəfdarıdır. 3-cü

sətirdə görücü Mussolininin Buğa şəhərindən olduğuna işarə edir. Lakin 1940-cı ilin aprel və may aylarında Mussolininin 32 diviziyadan ibarət ordusu II Dünya müharibəsinə girməyə hazır idi. 20 iyun 1940-cı ildə Mussolini Fransanın Alp dağlarının dəniz kə - narındakı şəhərlərinə hücuma keçmişdi.

**7 k21**

**Lanqedokun zərərli düşmənçiliyi ilə**
**İzlənən tiran gizlənmişdir.**
**Sorq körpüsündə sövdələşmə tamamlanacaq.**
**Onu və tərəfdarlarını ölümə məhkum edəcəklər.**

Bu katren barədə müxtəlif fərziyyələr irəli sürülsə də, hələlik Nostradamusun bu "tapmacası" şərhini tapmayıb.

**7 k22**

**Mesopotamiyanın vətəndaşları,**
**Tarraqonlu dostlarına qəzəblənmişlər.**
**Oyunlar, mərasimlər, təntənəli ziyafətlər, əhali yatmışdır.**
**Roma yaxınlığında Vikar şəhəri və Avson camaatı tutulmuşlar.**

Bu katreni lap yaxın illərdə şərh edə bilən tədqiqatçılar təəccüblərini gizlədə bilməmişlər. Onları mat qoyan tarraqon sözü olmuşdur. Səbəbini indi biləcəksiniz. Katrenin 1-ci sətrində İraq nəzərdə tutulur. Dəclə və Fərat çayları arasında yerləşən bu ərazi bir vaxtlar yunanca Mesopotamiya (iki çayarası) adlanmışdır. Söhbət 1991-ci il "Körfəz müharibəsi" zamanı aralarında saziş olmasına baxmayaraq Rusiyanın İraqın tərəfini saxlamamasından gedir. İraqlılar və nəinki iraqlılar, başqa xalqlar da bu ikiüzlülüyə hiddətlənmişdilər. Tədqiqatçıları mat qoyan isə 2-ci sətirdə tarra - qon sözünün işlədilməsi və həm də böyük hərflə yazılmasıdır. Tarraqon sözü acı yovşan (polın və çernobl), bir sözlə, alaq otu mənalarını verir. Bu acı alaq otu Şərqi Avropa və Cənubi Rusi - yada bitir. Katrendə böyük görücü həm Çernobl hadisələrinə (fə-

lakət 30 aprel 1986-cı ildə baş vermişdi), həm də Rusiyanın xəyanətinə işarə edir. Nostradamusun Tarraconne – Tarraqon sözünü işlətməsi bir daha göstərir ki, o, bəyan etdiklərini qeyri-şüuri, trans vəziyyətində olanda görmüşdür.

Katrenin 3-cü sətrində 1996-1999-cu illər arası və sonralar 1 may bayramının yenidən Qızıl Meydanda qeyd olunmasından, Rusiyada yer alan keşməkeşlərdən, əhalinin "başının altına yastıq qoyulmasından" danışılır. Təsəvvür edin, təkcə 2005-ci il may ayının 1-də Moskvada bir milyondan artıq adam küçələrə çıxaraq may bayramını qeyd etmişdi.

4-cü sətirdə bundan az sonra Roma Papalığında baş verəcək hadisələrdən bəhs olunur. Doğurdan da, İohann II Pavel 2005-ci ilin aprelində dünyasını dəyişdi. 20 aprel 2005-ci ildə Roma Papalığına alman kardinalı Yozef Ratzinger seçildi. 1927-ci ildə anadan olan yeni Papa bir neçə dil bilir. Onu həm də mühafizəkar bir din xadimi kimi tanıyırlar. Maraqlıdır ki, Yozef Ratzinger III Pavel ləqəbini deyil, I Dünya müharibəsi ərəfəsində Roma Papası olmuş XVI Benedikt ləqəbini götürdü. O, 265-ci Roma Papası oldu. Bu, şəxsən məni qorxuya salıb. Dünya müharibəsi ərəfəsində Roma Papası olmuş XVI Benediktin ləqəb kimi götürülməsi, bəlkə də Yozef Ratzingerin zamanında III Dünya müharibəsinin başlayacağına işarədir.

Bununla belə, deməliyəm ki, hələ XII əsrdə irlandiyalı kilsə xadimi, müqəddəs Malaxiya göstərib ki, 266 Roma Papası olacaq. Malaxiya 265-ci Papanı Qloria Olivarius! – Zeytun budağına eşq olsun! – deyə sülh rəmzi adlandırmışdır (bax: 5 k92). Müqəddəs Malaxiya bu Papadan sonra "Romalı Pyotrun" Papa seçiləcəyini və bundan sonra Papalığın dağılacağını da göstərmişdi.

## 7 k23

**O, özündən əvvəlkilərin miras qoyduqları**
**Kral hakimiyyətini saxlamağa məcbur olacaq.**
**Onlar sarayı çapıb-talamağa gələndə,**
**Üzük barədə özlərini bilməməzliyə qoyacaqlar.**



***Diana və Kamilla. Üzüntülü anlar***

Bu katren barədə müxtəlif fərziyyələr, fikirlər irəli sürülsə də, Peter Loridən başqa həqiqətə yaxınlaşan olmayıb. Tədqiqatçı doğru olaraq katrendə böyük görücünün Britaniya kral ailəsindən, daha doğrusu, prins Çarlz və şahzadə Dianadan söhbət açdığını göstərir. Prins Çarlz və şahzadə Diana Spenserin nikahından sonra, onların arasında yaranmış gərgin münasibətlər böyük qalmaqalla və kral ailəsinin nüfuzdan düşməsinə gətirib çıxarmışdı.

Nostradamusun əsrlərlə öncə bəyan etdikləri XX əsrin sonlarına yaxın baş vermişdi. Hələ 70-ci illərdə gənc prins Çarlz jurnalistlərin diqqət mərkəzində idi. 1977-ci ildə qəzetlər yazırdılar ki, gənc prins böyük Lüksemburq Hersoqu Janın böyük qızı Mari-Astrid ilə evlənir. Az sonra yazırdılar ki, Sabrina Qiness adlı gənc qızla evlənir. Lakin heç kim bilmirdi ki, prins Kamilla Şend ilə

çox yaxın münasibətdədir. Onların münasibəti üç il davam edir. Prins Çarlz Kamilla ilə evlənmək qərarına gəlsə də, valideynləri bu nikaha qarşı çıxırlar. 1772-ci ildən qüvvədə olan kral ailəsində nikaha dair qanuna əsasən vəliəhd kralın (hökmdarın) arzusuna zidd olaraq evlənsə, taxt-taca sahib olmaq hü-



**_Diana və Çarlz. Xoşbəxt günlər (1981)_**



**_Diana. Sevincli günlər (1994)_**

ququnu itirir. Məhz buna görə də Çarlz hərbi-dəniz donanmasında xidmətə getdi. Nostradamus 1-ci və 2-ci sətirlərdə buna işarə edir. Kamilla prins Çarlzla ailə həyatı quracağına ümidini itirdi və əvvəllər eşq macərasında bulunduğu Endru Parker-Boulza ərə getdi. Həmin nikahdan Kamillanın iki uşağı oldu. Lakin prins Çarlz hərbi xidmətdən qayıtdıqdan sonra Kamilla



*Diana və Çarlz. Həyat imtahana çəkir*

ilə eşq macəraları yenidən başladığına görə Endru ilə nikah pozuldu.

Elə bu vaxt prins Çarlz şahzadə Diana ilə nişanlanır. Diananın Çarlzın Kamilla ilə eşq macərasından xəbəri vardı. 19 yaşlı Diana güman edirdi ki, nikahdan sonra (1981) Çarlz Kamilla ilə köhnə əlaqələrini kəsəcəkdir. Lakin yanılmışdı. Çarlz heç vaxt Kamilla ilə əlaqələrini kəsmədi. 1984-cü ildə kiçik oğlanları Harri anadan olandan sonra ailə münasibətləri tamam soyuqlaşdı. 1992-ci ildə Diana kraliça Yelizavetaya müraciət edərək vəziyyəti ona tam açıqlığı ilə danışdı. Kraliça gəlininə diqqətlə qulaq asdı və dedi: "Mən bilmirəm sizə nə köməklik edə bilərəm. Çarlz islaholunmazdır".

Bundan sonra Diana və Çarlz elan etdilər ki, onların ər-arvad həyatına son qoyulur. O vaxtdan Çarlz və Diana bir-birinin qarşısında cavabdehlik daşımadan hərə istədiyi kimi yaşadı. Nikahda olduqları halda belə yaşayış tərzi yolverilməz idi. 3-cü və 4-cü sətirlərdə Nostradamus buna işarə edir. Kral ailəsi böyük biabırçılıqla üzləşmişdi. Ana və oğul Dianaya nifrət edirdilər. Kraliça Yelizaveta bilmirdi nə etsin. Nəhayət, 1996-cı ildə Çarlz və Diana rəsmi şəkildə ayrıldılar. 1997-ci il avqust ayının 31-də isə Diana Parisdə müəmmalı şəkil -

də qəzaya uğradı (maşında) və dünyasını dəyişdi. Bu işdə kral ailəsinin əli olduğunu söyləyənlər də vardır.

Onu da deyək ki, 2005-ci ilin aprel ayında kraliça və hökumətin razılığı ilə Çarlz Kamilla ilə rəsmi nikaha girdi. Bu o deməkdir ki, Çarlzın kral olmaq hüquqları saxlanılmışdır. Beləliklə, Çarlz və Kamillanın 35 illik aşiq-məşuqluğuna son qoyuldu.

Nostradamus Diananın faciəsi ilə bitən Çarlz-Diana nikahına daha iki katren həsr etmişdir (Bax: 3 k16, 5 k72).

### 7 k24

**Kəfənə bürünmüş adam qəbirdən çıxacaq.**
**O, körpü yaxınlığındakı qalanı zəncirlə bağlatdıracaq.**
**Lotaringiyanın böyüyü Markiz dü Ponun əli ilə**
**Balıq kürüsü ilə zəhərləndi.**

Ned Halli bu katrenin Napoleonun vaxtında baş verdiyini göstərir. Napoleon Vaterlooda məğlub edildikdən sonra Elba adasına sürgün edilmiş, kral XVIII Lüdovik hakimiyyətə qayıtmışdı (1-ci sətir). Lakin Napoleon Elbadan qaçıb Fransaya hakimiyyətə qayıdandan sonra (mart, 1815), kral XVIII Lüdovik siyasi meyitə çevrilmişdi. Tarixdən o da məlumdur ki, Lotarinqlər sülaləsinin ən kiçik övladı dü Pon Markiz tituluna layiq görülmüşdü.

3-cü və 4-cü sətirlər onunla bağlıdır. Böyük Lorrən nəslində güman ki, Nostradamusun son sətrdə göstərdiyi yer alıb.

### 7 k25

**Uzun sürən müharibədən bütün güclər tükəndi.**
**Belə ki, muzdlu əsgərlər üçün daha pul tapmayacaqlar.**
**Qızıl və gümüş əvəzinə dəridən pul hazırlayacaqlar.**
**Qalliya misi Ayın aypara əlamətidir.**

Tədqiqatçıların rəyinə görə katrendə I Dünya müharibəsindən sonra Avropa, xüsusən də Fransada tüğyan edən yoxsulluq və ağır vəziyyətdən bəhs olunur. Jorj Laşapelin "III Fransa Respublikası-

nın pul vəsaiti”ndə gedən şəkillərdə fransız sikkələri təsvir olunur (26.02.1997). 1914-cü ildə kəsilmiş sikkələr bədirlənmiş ay formasında olub. 1918-ci ildə kəsilən sikkələr yarımdairəvi şəkildə olub. 1936-cı ildə kəsilənlər isə dörddə birə qədər kiçildilmişdi. 1937-ci ildə kəsilmiş sikkələr isə Ay şəklində olmuşlar.

3-cü sətirdə gedən “Qızıl və gümüş əvəzinə dəridən pul hazırlayacaqlar” cümləsi tədqiqatçıları çaşbaş salmışdır. Onlar bu ifadəni Nostradamusun məcazi mənada işlətdiyini qeyd edirlər. Bizə qalırsa, görücü bu ifadəni bilərəkdən işlətmişdir. Məlumdur ki, Avropada, eləcə də başqa yerlərdə həmin vaxt dəri ayaqqabılar, xrom çəkmələr, xəz və aşılanmış dəridən hazırlanan paltarlar (gödəkçələr, paltolar, kürklər) və s. dəbdə idi. Bu isə çox pul gətirirdi. Deməli, Nostradamus dəri geyimlərinin dəbdə olacağını da görmüşdü. 4-cü sətirdə Nostradamus fransız pulunun dəyərinin olmamağından bəhs edir. Maraqlıdır ki, Y.Avadyayeva və L.Zdanoviç qədim fransız dilindən etdikləri tərcümədə 3-cü sətri belə vermişlər: “Nə qızıl, nə gümüş olacaq, dəri ödəyəcəklər”.[1] 4-cü sətirdə fransız toplarının Orta Şərqdə Osmalı ordusuna qarşı çevrilməsinə işarə edilir.

**7 k26**

**Qalerlər yeddi gəmi ətrafında tünlük yaradacaq.**
**Onlar məhvedici müharibə edəcəklər.**
**Madridin başçısı ox zərbəsi alacaq.**
**İkisi qaçdı, beşi tutulub sahilə gətizdirildi.**

Katren 1571-ci ildə don Xuan Avstriyalının başçılığı ilə xristian eskadrasının Aralıq dənizində Osmanlı hərbi dəniz donanmasına qarşı apardığı döyüşdən bəhs edir. 3-cü sətirdə Venesiya qalerlərinin komandanı Barbariqonun türklər tərəfindən öldürülməsinə işarə edilir. 1-ci və 2-ci sətirlərdə Osmanlı gəmilərinin müha-

[1] Mişel Nostradamusun böyük görücülüyü. M., 1999, səh. 288.

sirəyə alınmasından, 4-cü sətirdə isə onların məğlub olmasından bəhs edilir. Həmin döyüşdə çoxavarlı türk gəmilərində qul olaraq avarçəkən 1500-dən artıq xristian azad edilmişdi. Ətraflı məlumat üçün bax: 6 k91.

**7 k27**

**Vastın divarları önündə böyük süvari dəstəsi**
**Ferara yaxın yerdə yükün gətirilməsinə mane olacaq.**
**Qəfildən Turində onlar görünməmiş soyğunçuluq edəcəklər.**
**Qalada onlar öz girovlarını qarət edəcəklər.**

Katrendə Nostradamus II Dünya müharibəsi zamanı İtaliya və Fransada partizanların geri çəkilən alman silahlı qüvvələrinə qarşı apardıqları müharibədən söz açır.

**7 k28**

**Kapitan böyük bir dəstəni dağın üstünə,**
**Düşmənə daha yaxın olan yerə gətirəcək.**
**Mühasirəyə alınanlar keçidi atışma ilə keçəcəklər.**
**Hamı qaçdı, şişə taxılan otuz nəfərdən başqa.**

Çox ümumi olan bu katreni şərh etmək müşkül məsələyə çevrilib. Bircə o məlumdur ki, mühasirəyə düşənlər əlbəyaxa döyüş keçiriblər. Otuz nəfər ya qılınc, ya da cida ilə öldürülüb.

**7 k29**

**Hersoq Alba üsyan edəcək.**
**O, öz böyük əcdadlarını satacaq.**
**Gizlərin böyüyü onu təslim etməyə gələcək.**
**Əsir aparıldı və heykəl qoyuldu.**

Katrendə görücü XVI əsrin 2-ci yarısında baş verən hadisələr - dən bəhs edir. 1-ci sətirdə söhbət Albadan gedir. O, 30 yaşında müqəddəs Roma İmperiyasının baş komandanı olmuşdu. 1582-ci ildə dünyasını dəyişib. 3-cü sətirdə isə Fransa ordusunun baş komandanı Giz nəzərdə tutulur.

**7 k30**

**Qarət yaxınlaşır, çoxlu qan töküldü.**
**Po və başqa böyük çaylar, naxırçıların təşəbbüsü**
**Genuyada, Nisdə uzun müddət gözlədikdən sonra**
**Fossano, Turin, Savilyanodu tutacaq.**

Tədqiqatçılar bu katrenin II Dünya müharibəsinin lap sonlarında (aprel, 1945) İtaliyada baş verən hadisələrlə bağlı olduğunu qeyd edirlər.

**7 k31**

**Lanqedok və Qiyendən on nəfərdən çox.**
**Min nəfər Alpı yenə keçmək istəyəcək.**
**Böyük savoylular Bridiziyə yürüş edəcəklər.**
**Akino və Bress onları geri otuzduracaq.**

Katren Fransadan bəhs edir. Bəzi tədqiqatçılar hadisələrin 1610-cu ildə, bəziləri isə 1859-1860-cı illərdə baş verdiyini göstərirlər. Lakin 2-ci sətirdə göstərilən "Min" kəliməsi hadisələrin XX əsrdə, daha doğrusu, II Dünya müharibəsi zamanı baş verdiyini bəyan edir. Bu sətirdə görücü obrazlı şəkildə Qaribaldidən söz salır. Məsələ burasındadır ki, Cüzeppe Qaribaldi(1807-1888) uzun müddət İtaliyada azadlıq uğrunda mübarizə aparmış, hətta İtaliyanın xalq qəhrəmanı adına layiq görülmüşdü. Qaribaldinin tərəfində döyüşənlər "Min" və ya "minlər" adlanırdı. Maraqlı odur ki, 1943-1945-ci illər arası İtaliyada partizanların "Qaribaldi briqadaları – müqavimət hərəkatı" fəaliyyət göstərirdi. Qaribaldi müqavimət hərəkatı İtaliyanın faşizmdən azad olunmasında əsas zərbə qüvvəsi idi. Nostradamus katrendə bu dövrdə İtaliyada baş verən hadisələrdən danışır.

**7 k32**

**Kəndistanda doğulan birisi.**
**Krallıq zirvəsinədək yüksələcək.**
**Milan rayonunda ordunu dirçəltmək üçün**
**Farencdə, Florensiyada qızıl və adam qalmayacaq.**

Lamont və Robb göstərirlər ki, katren adi kəndli ailəsində doğulan Mussolinidən bəhs edir. 1922-ci ildə Mussolini çevriliş edib və kral Viktor II Emmanuil məcburən hökuməti təşkil etməyi ona həvalə edib. O, baş nazir (2-ci sətir) olub. Onun Romaya məşhur hücumu Milanda planlaşdırılmışdı.

II Dünya müharibəsinə qədər 17 il hakimiyyətdə olan Mussolininin Efiopiyaya (1935-1936) yürüşü, İspaniyada vətəndaş müharibəsinə müdaxiləsi (1936-1939), Rusiya və Şimali Afrikaya hərbi ekspedisiyaları (1941-1943) İtaliyanın xəzinəsini dağıtmış, yüz minlərlə oğullarının məhvinə səbəb olmuşdu.

**7 k33**

**Fırıldaqçılıqla hakim olan güclə götürüldü.**
**Donanma mühasirəyə alındı, keçidlər çəsuslar üçündür.**
**İki saxta dost yenidən birləşəcəklər.**
**Uzun müddət mürgüləyən nifrət oyanacaq.**

Con Houq qeyd edir ki, bu katren İngilis hərbi-dəniz qüvvələrinin ən rüsvayçı günlərini təsvir edir. 1940-cı ildə Fransa almanlar tərəfindən tutulduqdan sonra, Fransanın o vaxt gücünə və sayına görə dünyada 4-cü yeri tutan hərbi-dəniz donanması Əlcəzairin Mers-Əl-Kəbir limanında lövbər salmışdı. İngiltərənin baş naziri Vinston Çörçil donanmanın almanlar tərəfində müharibəyə girəcəyindən qorxaraq Britaniyanın hərbi-dəniz donanmasının komandiri ser Ceyms Sommervilə əmr etdi ki, Fransa donanmasını məhv etsin. Sommervil 18 hərbi gəmisini limandan bir az aralı düzərək radio ilə Fransa eskadrasının komandiri, admiral Marsel-Bruno Jensula ultimatum verdi: “Ya Britaniya hərbi-dəniz donanması ilə birləşib müharibəyə girəcəksiniz, ya da məhv ediləcəksiniz!”

Jensul hiss etdi ki, bir vaxt müttəfiq olan dövlətin nümayəndəsi fırıldaqla onu ələ salır, rədd cavabı verdi. Belə olan halda Sommervel hücum əmri verdi. Nəticədə 1297 fransız dənizçisi və mükəmməl silahlanmış iri hərb gəmisi “Strazburq”dan başqa bü-

tün gəmilər məhv edildi. “Strazburq” gəmisi heç bir zədə almadan limanı tərk edərək aradan çıxdı. Bu hadisə fransızlarla ingilislər arasında mövcud olan ədavəti daha da qızışdırdı. Bugünün özündə belə bu iki xalq arasında münasibətlər soyuq olaraq qalır.

**7 k34**

**Qalliya xalqı böyük peşmançılıq içində olacaq**
**İnamsız ürəklə ağılsız igidliyə inanacaqlar.**
**Çörək, duz, şərab, su bir yana, heç zəhər də yoxdur.**
**Möhtəşəm əsir alınmış, aclıq, soyuq və ehtiyac vardır.**

Katrendə Fransanın ağır günlərindən, faşist almaniyasının ölkəni işğal etdiyi 1944-1945-ci illərdən bəhs olunur. 2-ci sətirdə Nostradamusun Fransa rəhbərliyinə və bacarıqsız hərbçilərinə nifrəti ifadə olunmuşdur. Xüsusən də Majino istehkamları ilə qürrələnən fransızların ağılsız işinə görə görücü öz həmvətənlərini başqa katrenlərdə olduğu kimi, burada da qınamış, tənqid atəşinə tutmuşdur. Son sətirdə gedən “Möhtəşəm əsir alınmış” – Möhtəşəm şəhər Paris zəbt edilmişdir anlamında işlənmişdir. Daha geniş məlumat üçün bax: 1 k34; 2 k63; 3 k33; 4 k80; 5 k8; 5 k81.

**7 k35**

**Böyük balıq gəlib şikayət edəcək, ağlayacaq.**
**Seçildiyinə, yaşına görə onlar aldanacaqlar.**
**Heç vaxt onlarla bir yerdə qalmaq (yaşamaq) istəməyəcək.**
**Onun dilində danışanlar tərəfindən aldanıldı.**

İlk olaraq bu katreni Le Pelletye şərh etmişdir. Tədqiqatçının fikrincə katren Fransa kralı II Henrinin oğlu III Henridən bəhs edir. III Henri o vaxtlar Fransanın təbəəliyində olan Polşanın kralı seçilmişdi. Nostradamus 1-ci sətirdə o vaxtlar Polşada dəbdə olan kral seçmə ənənəsini açıq göstərmişdir. Məlum olur ki, kralı püşk - atma yolu ilə seçirlərmiş.

Böyük görücü bu ənənəni suda balıq tutmaq ilə müqayisə edir. Odur ki, Polşanın kralı seçilmiş III Henrini “böyük balıq” adlan-

dırır. Katrendən də göründüyü kimi, III Henrinin fikri-zikri Fransa kralı olmaq idi. Belə bir fürsət onun böyük qardaşı IX Karl 1574-cü ildə öldükdən sonra ələ düşdü. O, Fransaya qayıdaraq kral taxtını tutduqdan sonra saray intiriqalarına qoşulmuş, müdrik kəlamı unutmuşdu. Nəydi o müdrik kəlam? Kralın xəbisliyi, varlının xəsisliyi, alimin hərisliyi. Bu kəlamı qulaqardına vuran, başqalarının ölümünə bais olan III Henri intriqanın qurbanı olmuş, ömrünün ən yaxşı çağında qətlə yetirilmişdi. 4-cü sətirdə Nostradamus bu səhnəni təsvir edir. 3-cü sətirdə isə görücü bəyan edir ki, III Henrini polşalılar kral seçsələr də, o, heç vaxt onlarla bir yerdə qalmaq istəməyəcək, öz doğma vətəninə dönəcəkdir.

**7 k36**

**Pərvərdigarə! Gələcəkdən xəbər verən sözlər dalğalardadır.**
**Yeddi nəfər başıqırxıqlar tərəfindən (kardinal) Vizantiyaya aparılmışdır.**
**Yağlanmışlara qarşı Trabzondan üç yüz nəfər.**
**İki qanun qoyacaq: 1-ci faciə (ölüm), 2-ci din, məzhəb.**

Con Houq güman edir ki, Nostradamusa görə bu katrendə söhbət II Paveldən gedir və İohann II Pavelin ölümündən sonra hakimiyyətə gələn Papa sülhsevər bir şəxs olacaq. Bunu hələ XII əsrdə yaşamış İrlandiya görücüsü müqəddəs Malaxiya da bəyan etmişdi. O, qeyd etmişdi ki, II Paveldən sonra qiyamət gününədək daha iki Papa seçiləcək. II Paveldən sonra seçiləcək Papanı müqəddəs Malaxiya Qloria Olivarius – Zeytun budağına eşq olsun, daha doğrusu: Yaşasın sülh! – deyə qiymətləndirmişdir. Qeyd edək ki, 2005-ci ildə İohann II Pavel dünyasını dəyişdi və onun yerinə 20 aprel 2005-ci ildə alman kardinalı Yozef Ratzinger seçildi.

Bəzi tədqiqatçıların fikrincə İohann II Paveldən sonra seçiləcək Papa Yaxın Şərqdə sülhün bərqərar olmasına çalışacaq. Ola bilsin ki, bu sülhsevər Papa Türkiyəyə yeddi nəfər kardinaldan ibarət xoşməramlı nümayəndə heyəti göndərəcəkdir (2-ci sətir). Hərtərəfli məlumat üçün bax: 7 k22.

3-cü sətirdə göstərilənlər də baş vermişdir. 1996-cı il yanvarın 16-da Türkiyənin Trabzon limanında çeçenlər içərisində 300 sərnişin olan gəmini tutmuşdular. Onlar bunu Rusiyanın Çeçenistanda apardığı müharibəyə etiraz əlaməti olaraq etmişdilər. Lakin bütün sərnişinləri sağ-salamat buraxmışdılar. 4-cü sətirdə söhbət yenə də Çeçenistandan gedir. Ya dəhşətli, dağıdıcı müharibə, ya da inam-sülh. Göründüyü kimi, çeçenlər 2-ci yolu seçdilər.

### 7 k37

**On nəfər göndərildi ki, kapitanı ölümə məhkum etsin.**
**Xəbər yayıldı ki, donanmada çaxnaşma olacaq.**
**Biri təhqir olunacaq, başçı özünü itirəcək, bir-birini didəcəklər.**
**Lerin, Yer adaları, gəmilər gözdən itdilər.**

Katrendə göstərilənlər yerini almışdır. Yer adaları Fransanın cənubunda Kann və Marsel arasında yerləşir. 1944-cü ildə Amerika və Fransa hərbi birləşmələri gecə vaxtı Yer adalarına tərəf hərəkət edərək almanlara hücum etmişdilər. Səhərisi gün birləşmiş ordu hissələri Fransa Riverasına desant çıxarmalı idi. Ora artilleriya və təyyarələr tərəfindən güclü atəşə tutulduğundan 36-cı diviziyanın quruya çıxarılması üçün məsul olan admiral Spenser S.Lyis ordu hissələrini başqa yerdə quruya çıxartmalı olmuşdu. Bu barədə 36-cı diviziyanın komandiri, general Dalkvistə xəbər verməmişdi. Çünki Dalkvist artıq sahildə idi. Böyük qalmaqal düşmüşdü. Dalkvist və başqa yüksək rütbəli hərbiçilər hiddətlənmişdilər. Az qalmışdı Spenseri hərbi tribunala versinlər. Onun nəinki hərbi rütbəsi, hətta azadlığı belə təhlükə altında idi. Lakin sonrakı hadisələr Spenserin doğru qərar çıxardığını təsdiqləmişdi.

### 7 k38

**Yüyrək atın üstündə kral nəslinin nəvələrinin böyüyü,**
**Elə qamçılayacaq ki, at baş götürüb yel kimi uçacaq.**
**Ağız köpüklənəcək, ayaq büdrəyəcək, şikayət,**
**Sürüdü, ölənə qədər dəhşətli surətdə dartıb apardı.**

Katrendə bəyan olunanlar Fransada (əgər katren Fransada baş verən hadisələrdən gedirsə) üç dəfə baş vermişdir. 15 may 1555-ci ildə yarış zamanı II Henri Navarralı, 13 iyul 1842-ci ildə Lui Filippin böyük oğlu, vəliəhd Ferdinand, 1560-cı ildə şahzadə de Burbon–Roşe hürkmüş atdan (3-cü sətirdə göstərildiyi kimi) yıxılmış və faciəli şəkildə həlak olmuşdular. 1-ci hadisəni Şavinyı, 2-ni Jober, 3-cü hadisəni isə Le Pelletye şərh etmişlər.

**7 k39**

**Fransa ordusunun komandiri,**
**Ordunun əsas cinahının itəcəyini gözləyir.**
**Daş yolla yulaf və paxla gətizdiriləcək.**
**Əcnəbi camaat Genuyada məğlub ediləcək.**

Fonbryun bu katrenin 1800-cü ildə Napoleonun Genuyanı mühasirə etdiyi zaman Massenin 15.000 nəfərlik qarnizonunu qurban verməsindən bəhs etdiyini göstərir. Massen qarnizonunun baş cinahı Avstriya hərbi hissələrinin başını qatırdı ki, Napoleon Marenqo döyüşlərində Baron von Melasın zərbələrinə layiqincə cavab verə bilsin. Tarixdən məlumdur ki, mühasirədə olan fransız qarnizonu aclıq içində əzab-əziyyət çəkirdi. Vəziyyət o yerə çatmışdı ki, əsgərlər çürümüş (kiflənmiş) yulafdan və paxladan bişirilmiş çörək yeməyə məcbur olmuşdular.

**7 k40**

**Bayır tərəfinə yağ və piy sürtülmüş çəlləklərdən**
**İyirmi biri limanın qarşısında bağlı olacaq.**
**İkinci gözətçi öz vəzifəsini ölümlə yerinə yetirəcək:**
**Qapıları tutaraq qoruyacaq, onu başından vuracaqlar.**

Nostradamusun bu katreni qədim Troya və “Əlibaba və qırx quldur” nağıllarını göz önünə gətirir. Təəssüf ki, hələlik şərhini gözləyən katrenlər sırasındadır. Katrenin təsvirindən anlaşılır ki, 21 nəfər dəniz limanına daxil olsa da, duyuq düşmüş gözətçi həyatı bahasına onları faş edib.

**7 k41**

**Ayaq və əl sümükləri kündələnmişdir.**
**Səsə görə evdə uzun müddət yaşayış olmayacaq.**
**Xəyal etdikcə onlar qazılıb üzə çıxarılacaq və basdırılacaq.**
**Ev yararlıdır və səs-küysüz məskunlaşdı.**

Böyük görücünün bu müəmmalı katreni də şərhini gözləyir.

**7 k42**

**Böyük şahzadənin mətbəxində xörəyə tökmək üçün,**
**Təzəcə gəlmiş iki nəfərdə zəhər vardır.**
**Kiçik aşbaz onların hər ikisini cinayət başında yaxaladı.**
**Böyüyün ölümünə can atan tutuldu.**

Bu katrendə məlum olmayan təkcə şahzadənin adıdır. Bununla belə, katreni şərh etmək müşkül məsələ olaraq qalır.

**7 k43**

**Birisi əyilmiş, o birisi endirilmiş,**
**Hər iki taybuynuzlu görəndə,**
**Sülh məsələsi ortaya gələndə**
**Qardaşoğlu (bacıoğlu) gülümsəyərək aradan çıxacaq.**

Hər şeydən əvvəl onu deyək ki, keçmişdə geraldika gerbinin üzərində iki taybuynuz at şəkli təsvir olunan zadəgan ailələri çox olmuşdur. Kralların qardaş və bacı oğlanlarını da saymaqla qurtarmaz. Məhz buna görə də görücünün bu katrenini şərh etmək hələlik problem olaraq qalır. Doğrudur, bəzi tədqiqatçılar müəy - yən fərziyyələr irəli sürüblər. Başqaları isə onları tənqid ediblər. Məsələn, Le Pelletye bu katrendə söhbətin Lui Bonapartdan (III Napoleon) getdiyini qeyd etsə də, Leoni və Con Houq göstərirlər ki, heç vaxt Lui Bonapartın gerbində buynuzlu, qoşadırnaqlı heyvan təsvir edilməmişdir.

**7 k44**

**Özündə ədalət nişanələrini yaşadaraq,**
**Bur çox yaxşı olanda,**
**Öz kökünün qədim adını daşıyaraq,**
**Qaçdığına görə ədalətsiz cəza alacaq.**

Katren Fransa kralı XVI Lüdovikdən bəhs edir. Nostradamusun XVI Lüdoviklə bağlı 14 katreni vardır. XVI əsrdə yaşamış Nostradamus görmüşdü ki, XVIII əsrin sonlarına yaxın kral XVI Lüdovik yəhudilərə fransızlarla bərabər hüquqlar verəcək. Odur ki, ona bu qədər diqqət yetirib. Tarixçilərin yazdığına görə XVI Lüdovik çox ədalətli hökmdar olub. 1-ci və 2-ci sətirlər bundan bəhs edir. Bur–Burbonlar kral nəslinin nümayəndəsi deməkdir. XVI Lüdovik ölkədə Böyük Fransa inqilabı (1789-1793) zamanı inqilabçıların təzyiqi altında monarxiyanı konstitusiya hakimiyyəti elan etdi. Tezliklə Burbon kral nəslinin adından imtina edərək qədim Kapet adını aldı (3-cü sətir). Kral öz ailəsi ilə Tyuleri sarayında ev dustağı idi. Hazırlanmış plana əsasən 20 iyun 1791-ci il tarixdə gecə yarısı Parisi tərk edərək şimal-şərqə üz tutdular. Bütün gecəni və səhəri günü dayanmadan yol getdilər və gecə yarısına yaxın kiçik Varen şəhərinə çatdılar. Bir az dincəlmək və bir şey içmək üçün şəhərdə dayanmaq qərarına gəldilər. Təsadüfən şəhərin bələdiyyə rəisi onları gördü və özünün ərzaq malları mağazasına bir piyalə şərab içməyə dəvət etdi. Bələdiyyə rəisi və onun arvadı qonaqların səkkiz at qoşulmuş faytonunu, geyimlərini və ədəb-ərkanlarını görüb onlarla maraqlandı. Yolçular hamının diqqətini cəlb etdi. Bir nəfər kralı tanıdı və bələdiyyə rəisini xəbərdar etdi. Bələdiyyə rəisi göstəriş verdi ki, qarnizona xəbər versinlər.

Kraliça Mariya Antuanetta göz yaşları içində madam Solseyə yalvardı ki, onları buraxsınlar. Lakin kraliçanın göz yaşlarının faydası olmadı. Madam Solse dedi: "Mən kralımı çox sevirəm. Lakin ərimi də çox sevirəm. İstəmərəm ki, ərim edam olunsun".

Beləliklə, kral XVI Lüdovik və ailəsi Parisə qaytarıldı və Templ həbsxanasına salındı. Kral ölkəni qoyub qaçdığına görə onu 1793-cü ilin yanvar ayında edam etdilər (4-cü sətir). Az sonra isə kraliça Mariya Antuanetta edam edildi. Hərtərəfli məlumat üçün bax: 1 k65; 1 k84; 3 k14; 3 k66; 4 k85; 4 k100; 6 k23; 6 k92; 7 k12; 8 k75; 9 k17; 9 k20; 9 k34.

Onu da deyək ki, kral cəmisi 100-150 km qaçmışdısa, Nostradamusun kralın qaçmağına həsr etdiyi bu katren və adını çəkdiyimiz başqa katrenləri kral XVI Lüdovikin şöhrətini yüz və min illərlə yaşadacaq.

**7 k73**

**Mühasirələrin güclənməsi, talanlar və taqımlar,**
**Müqəddəs dəyişildi və moizə oxunmadı.**
**Qənimət və əsirlər, müqəddəsliyin qarşısını almayacaq.**
**Lap dərinə atılan qalxacaq və taxtda oturacaq.**

Bütün tədqiqatçılar bir ağızdan bəyan edirlər ki, bu katren Napoleon Bonapart və onun dövrü ilə bağlıdır. 1-ci sətirdə Napoleonun İtaliyanı tutmasından, 2-ci sətirdə müqəddəslərin təqibindən, katolik messanın buraxılmasından danışılır. Yəni kilsə qadağan edilmişdi, xalqa İdraka pərəstiş etməyi təlqin edirdilər.

3-cü sətirlə bağlı Y.V.Tarlenin "Napoleon" əsərindən verdiyimiz parça maraq doğurur: "Bonapart bu şəhərlərdə rast gəldiyi qiymətli nə varsa – pul, brilyant, rəssamlıq əsərləri, qiymətli müxəlləfat – hamısını ələ keçirirdi. Həm şəhərlər, həm monastırlar, həm qədim kilsələrin xəzinələri İtaliyanın şimalında olduğu kimi, burada da qalibə böyük qənimətlər verirdilər".[1]

Bununla belə, 3-cü sətirdən göründüyü kimi, birləşərək gizli iş şəraitinə keçən katoliklər məhv olmurlar. Napoleon kafedraları

[1] Y.V.Tarle. Napoleon. Bakı, 1993, səh. 40.

müqəddəslərə qaytarır və plan qurur ki, onlar onun əlaltısına çevrilsinlər.

4-cü sətirdə Napoleonun 1794-cü ildə yakobinlərə rəğbətdə şübhəli bilinərək həbsxanaya salınmasından (10 avqust, 1794), lakin sonralar diktator (1799) və imperator taxtına yüksəlməsindən (1800) bəhs olunur. Hələ buna qədər Tulon liman qalasını azad etdiyinə görə 24 yaşlı Napoleona briqada generalı rütbəsi verilmişdi (14.01.1794).

4-cü sətirlə bağlı onu deyə bilərik ki, M.Robespyer, qardaşı Ogüsten və başqaları həbsə alınaraq (1794-cü il 27 iyunda) məhkəməsiz, sadəcə, qanundan kənar elan edilməklə edam olundular. Ogüsten Robespyer Napoleonla yaxın münasibətdə olduğundan o da zindana atıldı (10 avqust, 1794). Onun kağızları arasında təqib üçün heç bir dəlil-sübut tapılmadığından general Bonapart iki həftədən sonra azad edildi.

Maraqlıdır ki, bu dövrdən Napoleon artıq tarixdə qalması barədə düşünürdü. Dəlləyinə əmr etmişdi ki, saçından bir çəngə saxlasın.

## 7 k80

**Qərb Britaniya adalarından azad olacaq.**
**Tanınmış adam əvvəlcə enəcək, sonra isə yüksələcək.**
**Qaşqabaqlı, qəmgin və üsyankar şotland dəniz quldurları**
**Həmin isti gecədə qiyamçılara qoşulacaqlar.**

Katrenin 1-ci sətrində söhbət ABŞ-dan gedir. Məlumdur ki, Avropa müstəmləkəçiləri, xüsusən də ingilislər Şimali Amerika qitəsinə gələnə qədər ABŞ-ın indiki ərazisində Amerikanın əzəli yerli əhalisi olan hindular və eskimoslar yaşayırdı. 1607-ci ildə ingilislər indiki Virciniya ştatının ərazisində ilk daimi məskən saldılar. Zaman keçdikcə ingilislər burada möhkəmləndilər və 13 koloniya yaratdılar. Vaxt gəldi, Amerika qitəsində möhkəmlənən ingilis koloniyaları İngiltərəyə vergi verməkdən imtina etdilər.

İngilislərlə müharibə etməkdən belə çəkinmədilər. 1776-cı ildə ABŞ dövləti yarandı. 1-ci sətirdə Nostradamus buna işarə edir. Maraqlıdır ki, ABŞ-ı 1-ci tanıyan, ona ingilislərə qarşı müharibədə kömək edən Fransa dövləti olmuşdur. Katrenin yerdə qalan sətirləri keşməkeşli ömür sürən Con Pol Consdan bəhs edir. Şotlandiyada anadan olan Con sonralar dənizçi olub. İki il qul daşıyan gəmidə kapitanın baş köməkçisi işləmiş, sonra ticarətlə məşğul olan dəniz donanmasına keçmişdi. Bir dəfə Şotlandiyaya üzən gəminin kapitanı və köməkçisi öldüyündən gəmiyə rəhbərliyi öz üzərinə götürmüş, yüklə birlikdə sağ-salamat doğma sahillərə gəlib çıxmışdılar. Bu şücaətinə görə ona gəmi kapitanı olmaq kimi şərəfli iş etibar edilmişdi. Lakin 1773-cü ildə o, Tovaqoda gəmidə qiyam qaldıranların başçısını öldürərək Amerikaya qaçmışdı. Bir müddət keçəndən sonra ingilislər onu dəniz qulduru və qanundan kənar adam elan etdilər.

Bu o demək idi ki, Cons ələ keçən kimi, məhkəməsiz-filansız edam ediləcəkdi. XVIII əsrdə Fransada da qanundan kənar elan olunan adam, heç bir məhkəmə olmadan edam edilirdi.[1] Buna baxmayaraq o, 1775-ci ildə İngiltərəyə qarşı Amerika inqilabı zamanı yenidən yüksəldi. Consa kontinental hərbi-dəniz donanmasına rəhbərlik həvalə olunmuşdu. Müharibədən sonra da Cons Amerika donanmasında xidmətini davam etdirmişdi. Az sonra rus imperatriçəsi Böyük Yekaterinanın hərbi işlər üzrə müşaviri təyin olunmuşdu.

3-cü sətirdə Nostradamus onu qaşqabaqlı və qəmgin kimi təsvir edir. Bizə belə gəlir ki, onun ömrü boyu qaşqabaqlı və qəmgin olmasına səbəb lap gənc yaşlarında qul daşıyan gəmidə kapitan köməkçisi olması ilə bağlıdır. Qullara verilən işgəncələr, əzab-əziyyət, onlara qeyri-insani münasibət güman ki, ömrü boyu Consun yadından çıxmayıb.

[1] Y.V.Tarle. Napoleon. Bakı, 1993, səh. 16.

## 7 k82

**Hiyləgərlik, düşmənçilik nadir hallarda olacaq.**
**Ölüm yaxındadır, üsyan ölkəni bürüyüb.**
**Varvar yürüşündən qayıtmaqla**
**Protestantların gəlişini alqışlayacaqlar.**

Nostradamusun vaxtında Fransada protestantlara qarşı açıq müharibə gedirdi. Con Houq güman edir ki, katrendə söhbət ya protestantların müsəlmanlara qarşı mübarizəsindən, ya da 1562-1589-cu illərdə Fransada katoliklərlə hugenotlar arasında yer alan dini müharibələrdən gedir.

## 7 k83

**İsti külək, məsləhətləşmələr, göz yaşları, cəsarətsizlik.**
**Gecədən keçmiş, yataqda silahsıza basqın edildi.**
**Sıxışdırma, böyük bədbəxtlik.**
**Epitalama, göz yaşları və hönkürtü ilə əvəz olundu.**

Bu katren barədə tədqiqatçılar qəti söz deməkdən çəkinmişlər. Son sətirdə işlənən epitalama – antik poeziyada toy mahnısı və ya evlənmə münasibəti ilə yazılmış şeirə deyilirdi.

# VIII SENTURİYA (VIII YÜZLÜK)



***Mən indi sağam. Dünyamı dəyişəndən sonra da məni əbədi ölümsüzlük gözləyir.***

## 8 k1

**Pay, Nay, Loron qandan çox od olacaqdır.**
**Tərif içində üzəcək, çayların qovuşduğu yerə can atacaq.**
**O, Piylərin gedişinə mane olacaq.**
**Nadanlar və Durans onları zindanda çürüdəcək.**

Tədqiqatçılar qeyd edirlər ki, 1-ci sətirdə sadalanan adlarla Qərbi Fransada kiçik şəhərlər olsa da, katrendə söhbət Napoleondan gedir. Napoleon Roy-Napoleon – kral deməkdir. Bu söz Napoleonun zamanında bəzən "Napaulon" kimi yazılarmış. Napoleonun anadan olduğu Korsikada bu söz Napouleone kimi yazılır və "dağıdıcı, məhvedici" kral mənasını verir ki, bu da qədim yunan mifologiyasında yer alan Apollonla səsləşir. Apollon incəsənət hamisi olmaqla bərabər, həm də məhvedici idi.

Katrenin 3-cü sətrində Nostradamus Roma Papaları VI və VII Piydən söz açır. Hər iki Papa İzer və Rona çaylarının qovşağında əsir edilərək zindana salınmışdı. Papa VI Piy 1799-cu ildə burada dünyasını dəyişmişdi. Napoleon Bonapartla bağlı ətraflı məlumat 1 k23, 1 k32, 1 k38-39, 1 k60, 1 k76, 4 k26, 4 54, 6 k67, 7 k13, və s. katrenlərdə verilmişdir.

## 8 k1[a]

**Bu qədər gözləmə çoxlarını çaşdıracaq.**
**Əhali bağışlanmayacaqdır.**
**Yaxşı fikirləşənlər inadla gözləyəcəklər,**
**Lakin onlara çox vaxt verilməyəcək.**

Əksər tədqiqatçılar bu katrenin II Dünya müharibəsi zamanı almanların Fransanın Majino istehkamlarından yan keçərək 1940-cı ilin may ayında Parisi tutmasından bəhs etdiyini qeyd edirlər. Onu da deyək ki, 1ª-6ª arası katrenlər bəzi tədqiqatçılar tərəfindən Nostradamusa aid olması şübhə doğuran katrenlər kimi tədqiq edilmişdir.

Nostradamusun katrenlərini ən mötəbər 1568-ci il çapı əsasında tədqiq edən Erika Çitəm 1ª-6ª arası katrenləri tədqiqatına cəlb etməyib. Bu baxımdan nostradamusşünas Peter Lemesurierin gəldiyi qənaət maraq doğurur. O, Erika Çitəmin əsərlərini ən etibarlı mənbə hesab edir və xüsusi vurğulayır ki, böyük görücünün Senturiyalarının sonralar nəşri zamanı ona aid olmayan katrenlər əlavə və ya təhrif olunmuşlar.[1]

### 8 k2

**Kondon, Oş və Mirandanın ətrafını,**
**Göydən od-alovun bürüdüyünü görürəm.**
**Günəş və Mars Şir bürcü ilə birləşərkən, Marmanda**
**İldırım, dəhşətli, dolu, divar Qaronna çayına yıxılır.**

Kondon, Oş və Miranda Fransanın cənub-qərbindədir. Marmand isə nisbətən yaxınlıqda – Bordodan təqribən 75 km yuxarıdadır. Bordo, Ajen və Tuluza şəhərləri də Qaronna çayı sahilindədir.

Bəzi tədqiqatçılar bu katrendə bəyan edilənlərin nüvə müharibəsi nəticəsində olacağını, başqa bir qism tədqiqatçılar isə onların qlobal istiləşmənin nəticəsində baş verəcəyini göstərirlər.

Maraqlıdır ki, 1994-cü ildə Qeomet (Dünya Meteroloji Xidmət bürosu) ABŞ-ın şərq sahillərində ildırım çaxmalarının 20% artdığını qeyd etmişdir.

Son illərdə dünyada baş verən qlobal istiləşmə və şimal qütbündə buzun tədricən əriməsi dünya dövlətlərini ciddi düşündürməyə başlamışdır.

---

[1] Peter Lemesurier. The Essential Nostradamus. London, 1999, səh.68-69, 71.

Q.Qustavson 1956-cı ildə hesablama aparıb Günəşin Marsla zahiri birləşəcəyinin 2113-cü ildə baş verəcəyini göstərmişdir. Bu vaxt planetimizdə fəlakətlər üz verə bilər.

Onu da deyək ki, Marsın zahirən Şir bürcünə keçdiyi vaxt adətən müharibələr baş verir. Belə bir keçid 2006-cı ilin iyun-iyul aylarında olub. Avqust 2034-cü – oktyabr 2036-cı illər arası isə Mars Şir bürcündən dəfələrlə keçəcəkdir.

Məlumdur ki, Qədim Roma əsatirində Mars müharibə Allahı olub. Onun təliminə və inamına görə yaranmışlar qurbanlar hesabına olublar və onlar yalnız və yalnız müharibələr və qurbanlar hesabına qorunub saxlana bilərlər.

**8 k2ª**

**Bəziləri gələcək sülh barədə monarxlar,**
**Eləcə də qüdrətli hökmdarlarla danışıq aparacaqlar.**
**Ancaq danışıqlar bir o qədər tez baş tutmayacaq.**
**Belə ki, onlar da, o birilər kimi sözə qulaq asmayacaqlar.**

Tədqiqatçılar bu katren barədə söz deməkdən çəkinmişlər. Bizə belə gəlir ki, katren XX əsrin sonu – XXI əsrin əvvəllərində baş verən hadisələrdən bəhs edir.

**8 k3**

**Vicilan və Resvyerin möhkəm qalasında**
**Nansdan olan kiçik qardaş zindanda saxlanacaq.**
**Turin ərazisində əvvəlkilər oda yaxılanda**
**Lion qəm-qüssə içində titrəyəcək.**

Bu katren Nostradamusun zamanından az sonra İtaliya və Fransada baş verən, lakin diqqəti çəkməyən hadisələrdən bəhs edir.

**8 k3ª**

**Təəssüf, necə təəssüf!**
**Orada çoxlu xalqlar arasında olacaq.**
**Heç kim, heç vaxt belə dostlar görməyib.**
**O canavarlar kimi ki, qaçmağa can atacaqlar.**

Bu katren II Dünya müharibəsindən, daha doğrusu, onun son günlərindən bəhs edir. Nostradamus 1-ci və 2-ci sətirlərdə müharibəyə cəlb olunmuş xalqların təəssüf və qəzəbindən söz açır. 3-cü və 4-cü sətirlərdə isə Hitler və Mussolinidən danışılır.

Qədim german dilində Hitler "adlı-sanlı canavar" mənasında işlənib. Mussolini isə İtaliyanın – Dirçələn Romanın diktatoru idi. Məlum olduğu kimi, Romanın rəmzi isə dişi canavar və onu əmən, qədim Romanın əsasını qoyan Romul və Rem adlı qardaşlar olub.

## 8 k4

**Monakonun ərazisində xoruz qəbul ediləcək.**
**Fransanın kardinalı gələcək.**
**Romanın diplomatik missiyası onu aldadacaq.**
**Qartalda zəiflik, xoruzda güc artacaq.**

Tədqiqatçılar bu katreni şərh etməkdə çətinlik çəkmişlər. Əslində katren II Dünya müharibəsi ərəfəsində və müharibənin sonuna yaxın Fransa və İtaliyada cərəyan edən hadisələrlə bağlıdır. Məlumdur ki, Mussolini Fransanı aldadırdı ki, o, müharibəyə hazırlaşmır və heç vaxt qonşu və dost ölkəyə qarşı müharibəyə girməyəcək. Sonuncu sətirdən göründüyü kimi, Nostradamus hadisələrin gedişini dəqiq görmüşdü. Müharibənin sonuna yaxın Qartal (İtaliya) zəiflədi, Xoruz (Fransa) isə gücləndi.

## 8 k4[a]

**Onlara müharibə gətirəcək dünyanın qüdrətli liderlərilə**
**Bir çox xalqlar danışıq aparmaq arzusunda olacaqlar.**
**Əfsus! Əgər Allah özü yer üzünə sülh göndərməsə,**
**Onlar danışıq barədə heç nə eşitmək istəməyəcəklər.**

Tədqiqatçılar bu katreni də açmaqda çətinlik çəkmişlər. Bizə qalırsa, bu katren XX əsrin 90-cı illərində Sovet İttifaqı süqut etdikdən sonra dünyada baş verən hadisələrdən, hegemon dövlətlə -

rin kiçik dövlətlərə qarşı həyata keçirdiyi haqsızlıqlardan, dövlətlərlə münasibətlərdə ikili standartlardan istifadə etmələrindən bəhs edilir.

**8 k5**

**Parlaq, zəngin bəzədilmiş məbəd görünəcək.**
**Born sahillərində və Breteydə lampa və şam yanacaq.**
**Böyük Xoruz tabutda görünəndə**
**Kanton taxtdan salınacaq.**

Bu katren Fransadan bəhs edir. Lakin hadisələrin nə vaxt baş verdiyini söyləmək çətindir. Xoruz Fransanın rəmzidir. 3-cü sətirdə yer alan "Böyük Xoruz" Fransa İmperiyası mənasında işlənmişdir.

**8 k5[a]**

**Hər tərəfdən bir qədər kömək gələcək.**
**Müqavimət göstərmək istəyən uzaqda yaşayan xalqdan.**
**Onları birdən bərk tələsdirəcəklər.**
**Ancaq onlar dərhal kömək edə bilməyəcəklər.**

Katren II Dünya müharibəsi vaxtı baş verən hadisələrdən bəhs edir. ABŞ Lend-Lease (Lend-Liz) proqramına (hər tərəfdən – hər sahildən kömək) əsasən Britaniya Ordusuna kömək edirdi. 1941-ci il dekabrın 7-də Yaponiya Sakit Okeanda ABŞ-ın Pirl-Harbor hərbi bazasına qəfil zərbə endirsə də, ABŞ müharibəyə girməyə çox da tələsmirdi. Müttəfiqlər isə onu bərk tələsdirirdilər.

Nostradamus bütün bunları tam dəqiqliyi ilə görmüşdü.

**8 k6**

**Lionda işıq birdən görünür.**
**Parlayaraq Maltanı zəbt edir, qəfildən sönür.**
**Sardon, Moris aldadıcı danışıq aparacaqlar.**
**Cenevrə Londonda Xoruza xəyanət etmək fikrinə düşəcək.**

Bu katrendə XVIII əsrdə Fransada və Fransa ilə bağlı yaxın ölkələrdə baş verən, zəmanəmizdə o qədər də əhəmiyyət kəsb etməyən hadisələrdən danışılır.

**8 k6[a]**

**Heyhat! Əcnəbilər gör nə xəyala düşüblər?**
**Özünüzü gözləyin ki, elə arzularla sizin ölkəyə gəlməsinlər.**
**Gəlsələr dəhşətli hadisələr olacaq.**
**Bir çox yerlərdə, hətta Vyanada da.**

Nostradamusun bu katreni II Dünya müharibəsi ərəfəsinə aiddir. Təəssüf ki, Nostradamusun bu çağırışı ölkə başçıları tərəfindən eşidilmədi. 1938-ci ilin mart ayının 11-də faşist orduları Avstriya sərhədlərini keçərək ölkəni və onun paytaxtı Vyananı tutdu. Az sonra, Çexoslovakiya və başqa ölkələr də katrendə göstərildiyi kimi zəbt edildi.

**8 k7**

**Versel, Milan razılıq verəcəklər.**
**Tisində (Pavia) yaralardan vəba peyda olacaq.**
**Senanın sularında qan axacaq, Florensiyada od yağacaq.**
**Bənzərsiz adam yuxarıdan düşəndə “kömək edin” –**
**deyə qışqıracaq.**

Bu katrendə Nostradamus II Dünya müharibəsi zamanı İtaliya və Fransada baş verən hadisələrdən söz açır. Əvvəlki üç sətirdə anlaşılmayan bir şey yoxdur. 4-cü sətirdə söhbət Benito Mussolinidən gedir.

**8 k8**

**Fakio yaxınlığında, bağlı çəlləklərdə**
**Çivasso Qartala sui-qəsd təşkil edəcək.**
**Seçilmiş adam qovuldu və adamları zindana salındı.**
**Turində oğurlanmış ərli qadın tapıldı.**

Katrendə XVI əsrin 2-ci yarısında İtaliya və Fransada baş verən məhəlli xarakterli hadisələrdən bəhs olunur.

**8 k9**

**Qartal ilə Xoruz Savonda olan vaxt,**
**Şərq dənizi və Macarıstan birləşəcək.**
**Neapolda, Palermoda ordu yürüşə Ankondan başlayacaq.**
**Roma, Venesiya Barbarosun səsindən dəhşətə gələcək.**

Tədqiqatçıların ümumi rəyinə görə bu katren II Dünya müharibəsinin son həftələrində İtaliyada baş verən hadisələrlə bağlıdır. 1-ci sətirdəki Qartal ABŞ-a, Xoruz isə Fransaya işarədir.

4-cü sətirdə söhbət qəzəbdən "zəncir gəmirən" Adolf Hitlerdən gedir.

**8 k10**

**Lozannadan böyük üfunət peyda olacaq,**
**Onun mənbəyini heç kim bilməyəcək.**
**Uzaq və fərqli xalqları kənarlaşdıracaqlar.**
**Göydə od görünəcək, əcnəbi xalq məğlub olacaq.**

Nostradamusşünaslardan David Ovasondan başqa bu katren barədə ağlabatan bir fikir söyləyən, demək olar ki, yoxdur.

David Ovason qeyd edir ki, böyük görücü katrenin 1-ci sətrində Lozannada 1923-cü ildə bağlanmış sülh sazişinə işarə edir. İtaliya Türkiyənin zəifləməsindən istifadə edərək Aralıq dənizinin şərqində hegemonluğu ələ almaqla məşğul idi. Onu Türkiyə və Yunanıstanın problemləri az maraqlandırırdı. Yunanlar Kiçik Asiyada əvvəlcə türklərin torpaqlarını tutmuşdular. Lakin biabırçı məğlubiyyətdən sonra türklərin şərtlərini qəbul etmək məcburiyyətində qalmışdılar. Onlar Kiçik Asiya torpaqlarına qarşı iddialarından əl çəkdilər. Türklər I Dünya müharibəsindən əvvəlki sərhədlərinə qədər ərazilərini əldə etdilər. Və bu 2-ci sətirdə bəyan olunanlara gətirib çıxardı. Xristian-İslam məsələsini yenidən ortaya qoydu. Millətlər Liqasının nəzarəti altında Yunanıstan əra-

zisində olan türklər Türk ərazisinə, yunanlar isə Yunan torpaqlarına köçürüldülər. Katrenin 3-cü sətri bundan bəhs edir. 4-cü sətirdə bəyan olunanlar da yerinə yetib. 1923-cü ildə Yunanıstanda bir italyan zabiti öldürülmüşdü. İtaliya heç bir xəbərdarlıq etmədən Korfu adasını bombardman etmişdi. Millətlər Liqası işə qarışmalı olmuşdu. Bundan əlavə, 1920-ci ildə müvəqqəti istifadə üçün Dodekanes adaları türklərdən alınıb italyanlara verilmişdi. Bu adalarda yalnız yunanlar yaşayırdılar. İtaliyanlar yunanlara qarşı çox pis rəftar edirdilər. Onları məcbur edirdilər ki, ya italyan vətəndaşlığını qəbul etsinlər, ya da adaları tərk etsinlər.

Nostradamus katrendə bütün bu hadisələrdən söz açmışdır.

### 8 k11

**Visansda saysız-hesabsız xalq görünəcək.**
**Güc tətbiq edilmədən Bazilika (kilsə) od alacaq.**
**Venesiya mavrların köməyi ilə mübahisəyə başlayanda**
**Lünajın yaxınlığında Valensiyanın böyüyü əziləcək.**

Katrendə söhbət Napoleonun vaxtında baş verən hadisələrdən gedir. Məsələn, 1797-ci ildə Napoleon güclü ordu ilə Visansdan keçərək Venesiyanı zəbt etməyə yollanmışdı.

### 8 k12

**O, Bufalorun yaxınlığında görünəcək.**
**Ucaboy və enlikürək Milana gəldi.**
**Fualı abbat müqəddəs Morrdan (Senor) olanlarla**
**Təhkimli kəndli qiyafəsində soyğunçuluq edəcəklər.**

Bu katren barədə də tədqiqatçılar inandırıcı bir fikir söyləməmişlər.

### 8 k13

**Səlib yürüşündə iştirak edən qardaş çılğın məhəbbətlə**
**Preytus vasitəsilə Bellerofonu məhv edəcək.**
**Min illik ordu və çılğın qadın**
**Hər ikisi dərman içəcək və dünyasını dəyişəcək.**

Nostradamus bir çox katrenlərində qədim Roma və Yunan mifologiyasından istifadə etmişdir. Əslində böyük görücünün fikrinə bu süjet, Napoleonun Britaniyanın “Bellerofont” gəmisinin göyərtəsinə qalxaraq Müqəddəs Yelena adasına sürgünə yola düşdüyünü irəlicədən görəndən sonra gəlmişdi. Nostradamus qədim yunan qəhrəmanı Bellerofontla Napoleonun taleyinin oxşar olduğunu görmüşdü. Onların hər ikisi hansı məqamda dayanmaq barədə düşünmürdülər. Bellerofont çox güclü və gözəl bir gənc idi. Bir gün Arqoy kralı Pretin arvadı Anteya onu görür və həddən artıq xoşuna gəlir. Onunla yaxınlıq etmək istəyir. Lakin rədd cavabı alır. Gəncdən intiqam məqsədilə ərindən xahiş edir ki, Bellerofontu başı şir, bədəni keçi, quyruğu əjdahadan ibarət olan nəhəng Ximeri öldürməyə göndərsin. Bu, asan iş deyildi. Ximer Bellerofontdan da güclü pəhləvanları məhv etmişdi. Hələ məsum olan gənc ilahə Afinaya yalvarır ki, ona məsləhət versin. Afina onun yuxusuna girir və məsləhət görür ki, qanadlı at Peqası tapsın. Onu haradan tapmağı da göstərir. Yuxudan ayılanda Bellerofont yatağının üstündə qızıl yüyən görür. O, ata minir və Afinanın məsləhət gördüyü kimi yuxarıdan hoppanaraq gün gözünü qamaşdıran Ximeri öldürür. Sonralar da Bellerofont bir çox döyüşlərdə qələbə çalır. Lakin eyş-işrətə qoşulandan sonra, şan-şöhrət əsiri olur. Heç kəsi də bəyənmir. Lovğalanmağa başlayır. Bir dəfə o, qərara gəlir ki, Peqas atı ilə Olimpin lap yüksəkliyinə, allahların yanına qalxsın, onların qarşısında qürurla öz qələbələrindən söz açsın. O, göylərə uçanda Zevs mozalanını göndərir ki, atı sancsın. At hürkərək Bellerofontu üstündən atır. Yüksəklikdən yıxılan gənc ölmür, ancaq ayaqları sınır. Topal Bellerofont həyatını yoxsulluq içində keçirir.

Məcazi mənada desək, Napoleon da yüksəklikdən yıxıldı. Avropa - nın hökmdarı daşlı-kəsəkli, cansıxıcı kiçik bir adada ömrünü çürütdü. Qaraciyər sirrozu və mədə xərçəngi onu yumağa döndərmişdi.

Bu katrendə Napoleonun son dərəcə güclü sevgi macəralarına da işarə olunur. Hətta adada xəstə olanda belə məşuqələri madam

Bertran və madam Montolonu yanına dəvət etmişdi. Onun Jozefina ilə məhəbbət macəraları sonralar da yazar və tədqiqatçıların əsas mövzularından olmuşdur.

4-cü sətirdən də göründüyü kimi, Napoleon da, Jozefina da dərman içərək özlərini məhv etməyə cəhd etmişdilər.

**8 k14**

**Qızıla böyük inam və gümüş bolluğu**
**Şöhrət hərisinin gözlərini bağlayacaq.**
**Zinakar qadının əməlləri aşkar olacaq.**
**Bu onun şərəfsizliyinə dəlalət edəcək.**

Nostradamusşünaslar katreni ABŞ-la bağlayırlar. Hər şeydən əvvəl, ona görə ki, katren ABŞ-ın zəmanəmizdə apardığı siyasətlə səsləşir.

Tədqiqatçılardan Con Houq, A.Morok, K.Razumovskaya üçüncü sətirdə yer alan "Zinakar qadın"ın Azadlıq heykəli olduğunu xüsusi vurğulayırlar. Con Houq yazır: "Azad qadın heykəli" "əxlaqsız qadın" timsalında ABŞ-a aid edilir.[1]

A.Morok və K.Razumovskaya öz fikirlərini daha kəskin ifadə edirlər. Nostradamus Senturiya 8, katren 70-də Mesopotamiya və "Zinakar qadın"dan bəhs etmişdir. Həmin katrenlə bağlı rus tədqiqatçıları yazmışlar: "Mesopotamiya müasir İraqın ərazisidir. Katrendən göründüyü kimi, İraqa qəddar və insafsız hökmdar hücum edəcək. O, kimdir və haradan gələcək? "Zinakar qadın" Nyu-Yorkdakı "Azadlıq heykəli"nin simvoludur. Beləliklə, ehtimal etmək olar ki, burada ABŞ nəzərdə tutulur. XX əsrin 90-cı illərində ABŞ İraqa hücum etmişdi ("Səhrada tufan" yaddaşlardan silinməyib). Bu, dəlil-sübutdur ki, katrendə söhbət ABŞ-dan gedir...".[2] (Ətraflı və maraqlı məlumat üçün bax: 4 k55 və 8 k70.)

[1] Con Houq. Yeni Minillik (ingiliscə). London, 2002, səh.196. Con Houq. Nostradamus, Yeni açıqlamalar (ruscaya tərcümə). Moskva, 1997, səh. 265-266.

[2] A.Morok, K.Razumovskaya. Nostradamus görücülüyünün yeni şərhi (rusca). Moskva, 2000, səh. 201-202.

## 8 k15

**Şimal torpağında kişi xasiyyətli qadın böyük səy göstərəcək.**
**Bütün Avropanı və dünyanı təşvişə salacaq.**
**İki Günəş tutulması onun yolunu müəyyən etdi.**
**Pannonluların həyat və ölümünü gücləndirdi.**

Bəzi tədqiqatçılar bu katreni Böyük Britaniyanın Baş naziri Marqaret Tetçer (əslində: Səçə) ilə bağlamağa çalışsalar da, bir şey alınmır. Katrenin hər bir sətri rus hökmdarı II Yekaterinadan (1729-1796) bəhs edir. Günəşin tam tutulması onun anadan olmasından bir qədər əvvəl (1724) və o, Rusiya taxt-tacına sahib olandan iki il sonra (1764) baş vermişdi.

Nostradamusşünas David Ovason iki dəfə Günəşin tutulmasının II Yekaterinanın iki dəfə türklərlə müharibə aparması ilə əlaqədar olduğunu təkidlə təsdiqə çalışır. Birinci müharibə 1768-1774-cü, ikinci müharibə isə 1787-1791-ci illər arasında baş vermişdi. David Ovason qeyd edir ki, hər iki müharibə rusların vəhşiliyi və qaniçənliyi ilə fərqləndi. Hər iki müharibədə ruslar qalib gəlmişdilər.

4-cü sətirdə böyük görücünün doğru olaraq göstərdikləri də yerini aldı. Pannonlular polyaklardır. 1772-ci ildə rus orduları Polşanın dörddə birini tutmuşdular. 1793-cü ildə ölkənin üçdə iki hissəsini, 1795-ci ildə isə bütün ölkəni zəbt etdilər. Polşa yüz ildən artıq bir zaman kəsiyində (125 il) dünya xəritəsindən silindi.

II Yekaterina ölümünə az qalmış 1796-cı ildə general V.Zubovun komandanlığı altında Azərbaycanı fəth etmək üçün otuz minlik ordu göndərmişdi. II Yekaterina Avropada başqa müharibələrin də iştirakçısı olmuşdu. Doğrudan da o, 2-ci sətirdə Nostradamusun göstərdiyi kimi, Avropanı və dünyanı təşvişə salmışdı. İradəli, istedadlı, geniş məlumatlı, şöhrətpərəst nimfoman olan II Yekaterina, David Ovasonun qənaətinə görə həm də hommasse – kişi xasiyyətli, kişiyə bənzər və homiçide – qatil olub.

**8 k16**
**Yason öz gəmisini qayırdığı yerdə**
**Qəfil və böyük daşqın olacaqdır.**
**Ayaq qoymağa quru yer tapılmayacaq.**
**Dalğa Fezulan Olimpindən yuxarı qalxacaq.**

Tədqiqatçılar güman edirlər ki, Egey dənizinə səmadan meteoritin düşməsi nəticəsində dalğalar çox yüksəyə qalxacaq və nəticədə Aralıq dənizində qabarma və çəkilmələr baş verəcək. Florensiya və Fezulan şəhərləri məhv olacaq. Katrenin nömrəsinə əsasən tədqiqatçılar bu hadisənin 2016, 2116-cı və s. illərdə baş verə biləcəyini söyləyirlər.

Onu da deyək ki, Fezulan dəniz səviyyəsindən cəmisi 970 fut yuxarıdır. (Bir fut 30.4779 sm-ə bərabər ingilis uzunluq ölçü vahididir.)

Bizə qalırsa, katrendə söhbət sunamilərdən gedir. 2005-ci ildə Asiya və Amerikada baş verən sunamilər deyilənlərə dayaq ola bilər. Okean və dənizlərin dibində baş verən təkanlar nəticəsində əmələ gələn qabarmaların ağlasığmaz dalğa və daşqınlara səbəb olduğunu gözlərimizlə gördüyümüzdən Nostradamusun katrendə bəyan etdiklərinə şübhə yeri qalmır.

**8 k17**
**Özünü sərbəst hiss edənlər qəfildən devriləcəklər.**
**Üç qardaşın ucbatından dünya bəlaya düşdü.**
**Düşmənlər dəniz şəhərini tutacaqlar.**
**Aclıq, od, qan, vəba, bütün bədbəxtliklər ikiqat artacaqdır.**

Nostradamusun qərb tədqiqatçıları bütün gücləri ilə təsdiq etməyə çalışırlar ki, Şərqdə üç terrorist dövlət birləşəcək və katrendə göstərilənlər baş verəcək.

Con Houq göstərir ki, bəlkə də bu katren II Dünya müharibəsi zamanı (avqust, 1944) üç qardaş – Hitler, Mussolini və Frankonun Marseldə Müttəfiq ordulara qarşı döyüşlərindən bəhs edir. Əlbəttə, bu fərziyyə əsassızdır, çünki İspaniya II Dünya müharibəsi zamanı bitərəfliyini saxlamışdı.

Əslində, bu katrendə söhbət ABŞ, İngiltərə və Rusiyadan gedir. Bizcə, 3-cü sətirdə göstərilən dəniz şəhəri Bəsrədir. ABŞ və ingilis qoşunları Bəsrəni, sonra isə bütün İraqı tutduqdan sonra Gürcüstan, Ukrayna və Qırğızıstanda hakimiyyət qəfildən devrildi. Gürcüstanda ABŞ-ın, Qırğızıstanda isə Rusiyanın əli ilə.

İndi bütün dünyaya bəllidir ki, ABŞ və əlaltılarının əməlləri ilə dünya ağır vəziyyətə düşüb. Hələ biz onu demirik ki, onların ucbatından dünyada qlobal istiləşmə başlayıb ki, bu da bəşəriyyət üçün ən böyük bəlaya çevriləcək.

**8 k18**

**Onun ölümünün səbəbi Florensiyadan olacaq.**
**Bu şərabı əvvəllər qoca da, cavan da içib.**
**Üç zanbağın əli ilə ona problem yaradacaqlar.**
**Onun övladları çiy ət kifləndiyi kimi çürüyəcəklər.**

Katren Fransa kraliçası Yekaterina Mediçi və övladlarından bəhs edir. Onun krallıq rütbəsinə yüksəlmiş oğlanları: II Fransisk, IX Karl və III Henri də daxil olmaqla yeddi övladından altısı ya öldürülmüş, ya da öz əcəli ilə ölmüşdü. Bu kral ailəsi haqqında geniş danışdığımızdan burada təfsilata varmağa ehtiyac görmədik (bax: 1 k10 və s.).

**8 k19**

**Çətin gündə Böyüyü müdafiə üçün**
**Qırmızıların əlinə fürsət düşəcək.**
**Lakin ailə, demək olar ki, məhv ediləcək.**
**Al-qırmızılar, qırmızılara divan tutacaqlar.**

Katren Böyük Fransa inqilabı zamanı (1789-1794) baş verən hadisələrdən bəhs edir. Nostradamusun bu katrendə bəyan etdikləri görücünün ölümündən 223 il sonra, demək olar ki, tam dəqiqliyi ilə yerinə yetmişdi. İnqilab vaxtı ölkəni tərk etməyə cəhd göstərən XVI Lüdovik və ailəsi tutulmuşdu. Qanuna görə kral ölkənin ağır

dövründə ölkəni başsız qoyub qaçsa edam olunmalı idi. Qanunverici məclis funksiyasını daşıyan Konventə əvvəlcə jirondistlər (qırmızılar) başçılıq edirdilər. Onlar kralın edam edilməsinə qarşı çıxdılar. Onların müqavimətinə baxmayaraq, yakobinlərin tələbi ilə 1793-cü il yanvarın 21-də XVI Lüdovik edam edildi. Az sonra kraliça Mariya Antuanetta və taxt-tacın varisi, vəliəhd Daufin də edam edildilər. Bundan sonra, 4-cü sətirdən də göründüyü kimi, yakobinlər əksər qırmızıların (jirondistlər) gilyotindən keçirilməsinə nail oldular. Artıq əvvəllərdə dediyimiz kimi, gilyotin inqilab zamanı doktor Gilyotin tərəfindən ixtira edilmiş başkəsən maşın idi.

### 8 k20

**Keçirilmiş seçki haqqında saxta məlumat**
**Şəhəri dolaşır, danışıqlar pozularaq dayandırılıb.**
**Səslər pul ilə alınıb, kiçik kilsə qanla ləkələnib.**
**İmperiya bir başqasına (təhvil) verilib.**

Tədqiqatçılar bu katrenin XVII əsrin 1-ci yarısında, daha doğrusu, 1618-ci ildə baş verən hadisələrlə bağlı olduğunu qeyd edirlər. Məsələ burasındadır ki, Müqəddəs Roma İmperiyasına İmperator seçkiləri ilə bağlı rüşvət yolu ilə Baş seçicinin səsini öz xeyirlərinə həll edərək taxta habsburqlu katolik II Ferdinandı əyləşdirməyə çalışmışdılar. Buna görə də Bohemiyada iğtişaşlar və inqilab baş vermiş, xalq özü seçdiyi protestant V Fridrix Palatinini taxta əyləşdirmişdi. Az sonra İmperator ordusu hücuma keçərək Bohem ordusunu darmadağın edib Praqaya girmiş, ölkədə katolikliyi bərpa etmiş, 4-cü sətirdən göründüyü kimi, taxt-tacı II Ferdinanda vermişdi.

### 8 k21

**Aqd limanına üçü daxil olacaq.**
**Onlar özləri ilə inam deyil, epidemiya gətirəcəklər.**
**Dənizi keçərkən onlar min mil qət edəcəklər.**

**Üçüncünün müqaviməti ilə körpü sındı.**

Aqd limanı Fransada Narbon və Marsel arasındadır. 3-cü sətirdə onların min mil yol keçəcəkləri göstərilir. Bir dəniz mili təqribən 1853 metrə bərabərdir. Katren barədə qəti söz deyən tədqiqatçı yoxdur. Katreni II Dünya müharibəsinə aid etmək olar.

## 8 k22

**Qorsan və Narbon duzla xəbərdar etdi.**
**Əhdini pozduğuna görə əfv həyəcan doğurur.**
**Qırmızı şəhər bununla razılaşmayacaq.**
**Qaçmaqla rahib qafiyəsində olan edam ediləcək.**

Bu katrendə Böyük Fransa inqilabı zamanı, 4-cü sətirdə göstərildiyi kimi, rahib paltarında ölkəni tərk etməyə çalışan, lakin ələ keçən kral XVI Lüdovikdən bəhs edilir. Deputat Antuan Jozef Qorsan (1752-1793) və nazir Qraf Lui Mari Jak de Narbonn (1755-1813) duz qabı içində krala Parisdə – inqilabı şəhərdə baş verən hadisələr barədə xəbər göndərmişdilər. Lakin bunun heç bir faydası olmamışdı. Kral XVI Lüdovik 21 yanvar 1793-cü ildə andını pozaraq ölkəni tərk etdiyinə görə edam olunmuşdu.

## 8 k23

**Kraliçanın şkafının siyirməsindən məktublar tapılacaq**
**Onların üstündə yazanın nə imzası, nə də adı olacaq.**
**Təkliflər polis tərəfindən məxfi saxlanılacaq.**
**Belə ki, təklifləri verənin kim olduğunu heç kim bilməyəcək.**

Bu katrendə ən çox diqqəti çəkən məsələ görücünün özündən yüz il sonra icad olunacaq şkafdan söz açmasıdır.

Görkəmli fransız nostradamusşünası Fonbryun bu katrenin də Kral XVI Lüdoviklə bağlı olduğunu qeyd edir. Tədqiqatçı kralın məhkəməsi ilə bağlı bütün sənədləri nəzərdən keçirmiş və üzə çıxarmışdır ki, istintaq zamanı kralı sorğu-suala tutanda deyib ki,

ən vacib sənədlər siyirməyə yığılaraq kraliçanın şkafında saxlamaq üçün onun katibəsi madam Kampana verilirdi.

Onu da deyək ki, Nostradamus Fransa vətəndaşı olduğundan bu ölkədə o qədər də əhəmiyyət kəsb etməyən hadisələrə də diqqət yetirib ki, biz bunu yaxşı hal kimi qiymətləndiririk. Bu, onun vətənpərvərliyindən irəli gəlir. Bununla belə, onu da qeyd edək ki, onun vətənpərvərliyi aludəçilikdən kənardır. O, Fransa ilə bağlı hər şeyi olduğu kimi bəyan etmişdir.

**8 k24**

**Leytenant kiçik qapının girişində**
**Perpinianın böyüyünü öldürəcək.**
**Monpertuidə özünü xilas edəcəyini düşünəcək.**
**Anadan bic doğulan luizinalı aldadılacaq.**

Katrendə XVI əsrin sonu, XVII əsrin 1-ci yarısında Fransa və İspaniyada baş verən döyüşlərdən bəhs olunur. Katrendə maraq doğuran odur ki, keçmişdə bir nəslin kökü kəsiləndə nəslin titulu şəcərənin uzaq qohumlarına verilə bilərmiş və buna anadan bic doğulan adı verilərmiş. Fransada sonralar ad-san qazanan Savoyskilər nəsli zadəgan titulunu belə qazanıb. 4-cü sətirdə buna işarə olunur.

**8 k25**

**Aşiqin qəlbi gizli məhəbbət üçün yanırdı.**
**O, məşuqəsini çay kənarına aparacaq.**
**Ehtiraslı qadın yarınarazı olduğundan aldadacaq.**
**Qızın atası hər ikisini öldürəcək.**

Çox ümumi olan bu katren də hələlik şərh olunmamışdır.

**8 k26**

**Katonun sümükləri Barselonada tapıldı.**
**Sümüklərin qoyulduğu yer açıldı və dağıldı.**
**Sahib olan və olmayan Böyük Pamplonu istəyəcək.**

**Moserat abbatlığında narın yağış yağır.**

Bu katren barədə də tədqiqatçılar ağlabatan bir söz deməyiblər.

### 8 k27

**İkinci dərəcəli yol, akveduk.**
**Doğulacaq cəsur üçün düşkünlük.**
**İmperatorun yazısı, Simurq quşu, möcüzə,**
**Tayı-bərabəri olmayan timsalında görünəcək.**

Dünyada ikinci dərəcəli yollar, akveduklar (çay, dərə və s. üzərində körpü şəklində salınan su kəmərləri) çoxdur. Bu katrendə məlum olan budur. Dünyada əfsanəyə bənzər möcüzələr də çoxdur. 3-cü və 4-cü sətirlər yaddaşa 1994-cü ildə "World Press Review"da gedən bir məlumatı gətirir. Məlumatda deyilirdi ki, norveçli gəmi sahibi Knut Kloster "Finiks" (Simurq quşu) adlı ən müasir və super gəmi-şəhər düzəltdirərək bizneslə mədəniyyətin qovuşduğu bir aləmə can atır. Bu okean gəmisinin uzunluğunun 1230 fut (bir fut 30.5 sm-ə bərabər ingilis uzunluq ölçüsüdür) olacağı gözlənilir. Gəmi birdəfəyə 5600 sərnişin götürə biləcəkdir. Dünyada tayı-bərabəri olmayacaq bu gəmidə üç super mehmanxana, ofislər binası, mağazalar, konsert zalı və hətta yüngül atletika üçün meydan nəzərdə tutulur.

Nostradamusun kimi və hansı möcüzəni nəzərdə tutduğu hələ - lik sirr olaraq qalır.

### 8 k28

**Qızıl və gümüş pulun əvəzedicisi daha da artmışdır.**
**Oğurlanandan sonra yanar gölə atılacaq.**
**Tapılanda hamısı borca verildi və qurtardı.**
**Bütün qəbzlər və qiymətli kağızlar silinəcək.**

Nostradamusun vaxtında kağız pul yox idi. Yalnız sikkələrdən istifadə edilirdi. Qızıl və gümüş pülün əvəzedicisi deyəndə

görücü kağız pulu nəzərdə tutmuşdur. Bu, Nostradamus görücülüyünün təntənəsidir.

Katrendə iqtisadi böhrandan söz açılır. Planetimizdə iqtisadi böhran qismən 1929-cu ildə baş vermişdi. İqtisadçılar belə hesab edirlər ki, prezident Klintonun vaxtından ABŞ büdcəsində defisit (kəsir, boşluq) əmələ gəlməyə başlamışdır.

Katrenin son iki sətrində göstərilir ki, ABŞ-ın saysız-hesabsız kredit verməsi, milli defisitə və nəticədə dünya maliyyə böhranına gətirib çıxaracaqdır.

Tədqiqatçılar onu da xüsusi qeyd edirlər ki, ABŞ dayanmadan dolları çap eləyərək bütün dünyaya böyük məbləğdə kreditlər versə, dünyada inflyasiya baş verəcək və dünya iqtisadi böhranı qaçılmaz olacaq. ABŞ dolları isə sobaları yandırıb evi istimək üçün istifadə ediləcək. Ona görə ki, prezident Buşun xarici siyasəti dünyanı qaçılmaz iqtisadi böhrana yaxınlaşdırır.

## 8 k29

**Saturn məbədinin dördüncü sütununun altından oğurlanan**
**Zəlzələ və daşqın nəticəsində məhv oldu.**
**Saturn binasının altında vaz tapıldı.**
**Kapyonun apardığı qızıl sonradan qaytarıldı.**

Tədqiqatçılar bu katreni şərh etməkdə çətinlik çəkmişlər. Doğrudan da, Tuluzada Saturn (Sernin) məbədi vardır. Tarixi faktlar göstərir ki, burada Kapio adlı Roma konsulu (e.ə.106) xəzinə əldə etmişdi. Lakin xəzinə Romaya çatmamışdı. Odur ki, onu ittiham edərək Senatdan çıxarmışdılar.

Müasir dövrdə katrenin kimə aid olduğunu aydınlaşdırmaq hələlik mümkün olmamışdır.

## 8 k30

**Tuluza ərazisində, Beluezerin yaxınlığında**
**Dərin mağara və tamaşa sarayı düzəldildi.**
**Hər iki yerdə və Bazalın yaxınlığında**

**Tapılan xəzinə, hər kəsi məyus edəcək.**

Bu katren sanki 29-cu katrenin davamıdır. Təəssüf ki, hələlik bu katreni də şərh etmək müşkül məsələyə çevrilib.

**8 k31**

**Peskyer şahzadəsinə mənsub ilk böyük bəhrə,**
**Sonra isə qəddar və hiyləgər adam gələcək.**
**O, Venesiyada ad-sanını itirəcəkdir.**
**Və bütün pis niyyətini gənc Selinin əlilə həyata keçirəcəkdir.**

Katrendə söhbət İtaliyadan gedir. Mussolini çevriliş edəndə Peskyerin şahzadəsi Viktor III Emmanuel ona qarşı çıxdı və təslim olmaq təklifini rədd etdi. Orduya o özü başçılıq edirdi. 2-ci sətirdə söhbət Mussolinidən gedir. O, qəddarlığı və hiyləgərliyi ilə seçilirdi. Onun bir nəfər də olsun dostu olmamışdı. Mussolini II Dünya müharibəsinin bitdiyi ərəfədə ölkədə baş nazir olmuş, müharibədə uduzduğunu görüb qaçarkən partizanlar tərəfindən tutulmuş və öldürülmüşdü. Sağlığında Duçe ölkədə ən çox nifrət edilən adama çevrilibmiş.

**8 k32**

**Ey Qalliya (Fransa) kralı, özünü qardaşoğlundan qoru.**
**Sənə o qədər eləyən, sənin yeganə oğlun**
**Veneraya and içdiyi yerdə**
**Üç, altı nəfərlə birlikdə olarkən öldürüləcək.**

Nostradamusun bu katreni də hələlik izah olunmamış, daha doğrusu, haqqında ağlabatan, mənalı bir söz deyilməmişdir. Bəlkə də katrendə təsvir edilən hadisə gələcəkdə baş verəcəkdir. Burada təkcə onu deyə bilərik ki, Nostradamus kral II Henriyə göndərdiyi Açıqlamada ABŞ-ı Fransanın qardaşı adlandırmışdır.

**8 k33**

**Böyük Verona və Viçensadan doğulacaq**

**Həmin adam çox ləyaqətsiz bir soy adı daşıyacaq.**
**O, Venesiyada intiqam almaq istəyəcək.**
**Özü isə (qolunda) işarəsi olan ayıq adam tərəfindən tutulacaq.**



***Bənzər taleli adamlar. Hitler və Mussolini***

Verona və Viçensa Nostradamusun vaxtında Venesiya Respublikasında şəhərlər idi. İtaliyanın şimalındadır. Benito Mussolini məlum olduğu kimi, Şimali İtaliyada doğulmuşdur. Onun soyadı italyan dilindən tərcümədə "toxucu, parça toxuyan" mənasını verir. Başqa katrenlərdən də göründüyü kimi, Nostradamus Mussolininin özünə və adına alçaq nəzərlə baxmışdır.

4-cü sətirdən məlum olur ki, katren Mussolini və Hitlerdən bəhs edir. Hitler və Mussolini ilk dəfə 1933-cü ildə Venesiyada görüşmüşdülər. Müharibə vaxtı Hitler (qolunda svastika işarəsi olan) Mussolinini zorən müttəfiqliyə çəkərək onu Almaniyanın əlaltısına çevirmişdi.

## 8 k34

**Lionda şirin qələbəsindən sonra**
**Yura dağlarında kütləvi qırğın baş verəcək.**
**Daşqınlar və yeddi milyon qaradərili.**
**Lion, Ulm mavzoleyində ölüm və məzar.**

Bu katren hələlik şərh olunmamış katrenlər sırasındadır.

## 8 k35

**Qaronna və Bezin çayının ağzında**
**Və Damazanın yaxınlığındakı meşə.**
**Gümüş dənizdən, kəşflər, sonra dolu, soyuq şimal küləyi.**
**Dordonlular şaxtadan donacaqlar.**

Katren Fransadan bəhs edir. Ola bilsin ki, katrendə bəyan olunanlar II Dünya müharibəsi zamanı baş verib. Bəlkə də katren gələcəkdən bəhs edir. Bəzi tədqiqatçılar gülünc fərziyyələr irəli sürürlər. Guya Nostradamus "yaxın gələcəkdə" baş verəcək ikinci buzlaşma dövründən bəhs edir. Onda sual ortaya çıxır: Bu necə buzlaşma dövrüdür ki, şaxtadan təkcə Fransanın Dordon çayı sahillərində yaşayanlar donacaqlar?!

## 8 k36

**Bu üzü yağlanmış və gətirilmiş adama qarşı**
**Soneydən və Obendən gözəl işdir.**
**Uzaq qalalardan döşəmə üçün gətirilmiş mərmərdir.**
**Bu, Bleterama və onun şah əsərinə "qarşı" çıxmaq**
**məqsədilə edilməyəcək.**

Bu katren məhəlli xarakter daşıyır. Hələlik şərh olunmayıb. 1-ci sətirdən məlum olur ki, söhbət hökmdardan gedir. Son dövrlərə qədər kralları seçəndə onun üzünü yağlama mərasimi keçirilərdi. Bu barədə yuxarıda müfəssəl danışmışıq.

## 8 k37

**Kral Temza çayı sahilindəki**
**Qalada olarkən, qala uçub töküləcək.**
**Körpünün yanında onu köynəkdə görəcəklər.**
**O, zindanda ölümlə üz-üzə dayanacaq.**

Bu katren ingilis Kralı I Çarlzın edam ərəfəsi həyatından bəhs edir. Kral I Çarlza bir neçə katren həsr edildiyindən (bax: 1 k88, 5 k93,

9 k49 və s.), burada onunla bağlı geniş söz açmaq fikrində deyilik. Bircə onu qeyd edək ki, kral Vindzor qalasında – London körpüsü yaxınlığında saxlanılırdı. 1649-cu il yanvarın 30-da kralı Vestminsterə apararaq eşafotda (edam kürsüsü) boynunu vurmaqla xalqın gözü qarşısında edam etmişdilər.

Edam vaxtı kralın yanında olan Yepiskop Cakson sonralar deyəcək:

"Soyuqdan titrəyən kral dedi ki, o güman edir ki, izdiham onun qorxudan deyil, soyuqdan titrədiyini başa düşür".

### 8 k38

**Blua kralı Avinyonda krallıq edəcək.**
**Yenə də qana həris xalq**
**Beşə qədər axırıncı Nollun yanında**
**Rona çayında, divarların yanında çiməcək.**

Məhəlli xarakter daşıyan, Fransadan bəhs edən bu katren barədə də hələlik qəti fikir söyləyən tədqiqatçı olmamışdır.

### 8 k39

**Vizantiyanın şahzadəsi kim olacaqdırsa,**
**Tuluz şahzadəsi tərəfindən aparılacaq.**
**Fuanın inamı, Tolentino hökmdar tərəfindən**
**Əsaslandırılacaq ki, gəlini rədd etməsin.**

Katrenin 1-ci sətrində söhbət Türk sultanından gedir. Yerdə qalan bütün sətirlər Fransadan bəhs edir. 1572-ci ildə Navarralı IV Henri hugenot olduğu halda, inamını qurban verərək katolik Marqarita de Valuaya (kral II Henrinin qızı) evlənməyə razılıq vermiş və demişdi ki, Fransanın hökmranı olmaq inamı dəyişməyə dəyər. Bundan sonra o, Fransanın kralı olmuşdu.

### 8 k40

**Tore və Lə-Dorad üçün ədalətli qan töküləcək ki,**
**Saturnlulara qarşı döyüşdə öz intiqamını alsın.**

**Onlar xidmətçiləri yeni gölə atacaqlar.**
**Sonra Albionlara qarşı yürüş edəcəklər.**

Bu katren də keçmişdən bəhs edir.

Onu deyək ki, Tor və Le-Dorad Tuluzada kilsədir. 2-ci sətirdəki Saturnlular hugenotlara aiddir. Çünki onlar qara paltar geyərdilər. İndiki zaman üçün çox az əhəmiyyətli olduğunu nəzərə alaraq bu katren barədə təfsilatı ilə danışmağa lüzum görmədik.

## 8 k41

**İctimaiyyət arasında özünü mələk kimi aparan,**
**arpa çörəyi ilə yaşayan**
**Tülkü söz-söhbətsiz seçiləcəkdir.**
**Sonra gözlənilmədən qəddar olacaq.**
**Ayaqlarını ən mötəbər adamların belə başına qoyacaq.**

Bəzi tədqiqatçılara görə Nostradamus Robespyerdən söz açır. Çox hiyləgər olan və buna görə də silahdaşları tərəfindən "Tülkü" ləqəbi verilən Robespyer Böyük Fransa inqilabı zamanı (1789-1794) Milli Məclisdəki, demək olar ki, bütün rəqiblərini məhv edərək Fransanın diktatoruna çevrilmişdi. Ən mötəbər adamları belə saymırdı. Hətta belə bir fərman da vermişdi ki, milli azadlığımıza qəsd edən hər kəs azad insanlar tərəfindən öldürüləcəkdir. Başkəsən gilyotin maşını da onun vaxtında icad edilmişdi. Robespyer saysız-hesabsız insanların gilyotindən keçirilməsinə səbəb olmuşdu. Haqsız qan yerdə qalmaz – deyərlər. 1794-cü ildə onu mühakimə edərək ölümünə hökm vermişdilər. Gilyotin maşını ilə boynu vurulmuşdu.

Erika Çitəm və Damon Vilson isə göstərirlər ki, katren III Napoleondan bəhs edir.

Məlumdur ki, Napoleonun qardaşı oğlu Lui Napoleon Napoleon Bonapart taxt-tacdan kənarlaşdırıldıqdan sonra sürgün edilmiş (1815), sonra isə ömürlük həbs cəzasına məhkum edilmişdi (1840). 1846-cı ildə həbsdən qaçmış, bir müddət Böyük Britani-

yada yaşamışdı. 1848-ci il fevral inqilabından sonra Fransaya qayıtmış, iri burjuaziyanın köməyi ilə Prezident seçilmişdi (10.XII.1848). Xalq arasında nəfsini qoruyan, mələk kimi davranan Napoleonu çox narahat edən bir məsələ vardı. Konstitusiyaya görə prezident yalnız dörd il müddətinə seçilə bilərdi. Odur ki, 1851-ci ilin dekabr ayının 2-də əks-inqilabi çevriliş edərək bütün hakimiyyəti ələ aldı və düz bir il sonra özünü III Napoleon adı ilə İmperator elan etdi. Bundan sonra diktator kimi hərəkət etdi. Düşmənlərini və ona qarşı çıxanları ya sürgünə göndərdi, ya da məhv etdi.

Bizə qalırsa, bu hərəkətlərinə görə onu bic adlandırmaq deyil, qatil, qaniçən adlandırmaq olardı. Əvvəllər ona yardım edən italiyalı dostlarına kömək əli uzatmamış və buna görə də 1858-ci il 14 yanvarda Parisdə Opera teatrından çıxanda ona sui-qəsd etmişdilər.

Tarixdə III Napoleonun Prussiyaya qarşı müharibəsi onun bicliyi yox, ağılsızlığı hesab olunur (1870-1871). Prussiyanın kansleri Bismark İspaniyada taxta oturmaq üçün Hotenzollerns sülaləsinin nümayəndələrindən birini göndərmişdi. III Napoleon heç bir haqqı olmadan buna qarşı çıxmış və əks təqdirdə müharibə edəcəyini elan etmişdi. Bismark zəif Fransa ordusunu məğlub etmək üçün bu şansdan istifadə etdi. Sedan yaxınlığında Prussiya ordusu Fransa ordusuna ağır zərbə vurdu. Ölənlərin və əsir düşənlərin sayı 299 minə yaxın olub. III Napoleon özü də əsir düşüb və Napoleonlar sülaləsinə birdəfəlik son qoyulub.

## 8 k42

**Tamahkarlıq, zor və kobudluqla**
**Orleanın başçısı özününküləri hirsləndirəcək.**
**Müqəddəs Memirri (Memire) hücum və müqavimət**
**Öz çadırında ölən haqda deyəcəklər: O, yatıb.**

Katrendə Nostradamus Lui Filippi olduğu kimi təsvir edib. 1848-ci ildə artıq hamı tamahkar Lui Filippə nifrət edirdi. Xalq bu

müstəbidə qarşı inqilaba qalxanda o bəzədilmiş çadırından çıxma - mışdı və elə oradaca taxt-tacdan əl çəkdiyi barədə sənədi imzalamışdı. Tədqiqatçıları bu katrendə yaxşı mənada təəccübləndirən odur ki, görücü özündən əsrlərlə sonra meydana gələcək Orleanlar sülaləsindən, Orleanlar titulundan söhbət açır.

**8 k43**
**İki alçağın süqutundan istifadə edərək**
**Qardaşoğlu, qanqohumu hakimiyyətə yiyələnəcək.**
**Lekturda ox zərbələri olacaqdır.**
**Qardaşoğlu bayrağını endirəcək.**

Bu katren nəinki yerinə yetmiş, hətta tarixi faktların dürüstləşdirilməsinə yardımçı olmuş, bir daha Nostradamusun görücülüyünün gücünə dəlalət etmişdir.

1-ci sətirdə söhbət 1830-1848-ci illərdə Fransa kralı olmuş Lui Filipp və II Fransa Respublikasından (1848-1852) gedir. İkinci sətirdə söhbət I Napoleonun qardaşı Lui Bonapartın oğlu Şarl Lui Napoleon Bonapartdan (1808-1873) gedir. O, 1815-ci ildə sürgünə göndərilmiş, 1840-cı ildə ömürlük həbs cəzasına məhkum edilmişdi. 1846-cı ildə həbsdən qaçmış, bir müddət Böyük Britaniyada yaşamışdı. Fevral inqilabından (1848) sonra Fransaya qayıtmış və iri burjuaziyanın köməyilə prezident seçilmişdi (10 dekabr 1848).

1851-ci il dekabrın 2-də əks-inqilabi çevriliş edərək bütün haki - miyyəti ələ almış, 1852-ci il dekabrın 2-də isə III Napoleon adı ilə özünü imperator elan etmişdi. Xarici siyasətdəki müvəffəqiyyət - sizlikləri onun mövqeyini zəiflətmişdi. Fransa-Prussiya (1870-1871) müharibəsi zamanı məğlub olmuş, 82 min ordu ilə təslim olmuşdu. 3-cü və 4-cü sətirlər bu hadisədən bəhs edir. 1870-ci ilin sentyabrında Sedan yaxınlığında əsir götürülmüş, hakimiyyətdən uzaqlaşdırılmış, əsirlikdən azad edilmiş, ömrünün axırına qədər (9.1.1873) İngiltərədə yaşamışdı.

**8 k44**

**Əslən Oqmiyadan olan övlad**
**Yeddidən doqquza qədər yoldan çıxacaqlar.**
**Uzaqdakı hökmdara güclü dosta çevrilib.**
**Po qalasını Navarranın ayaqları altına atmağa borcludur.**

Katrendə söhbət gedən Oqmiya, güclü, qüdrətli mənasında işlənmişdir. Qədim keltlərin əfsanəvi qəhrəmanı Oqmiya ilə müqayisədə verilib. 2-ci sətirdə II Henrinin dalbadal ölmüş övladlarına işarə var. Odur ki, hakimiyyətə əslində Po şəhərində anadan olan navarralı IV Henri gəlmişdi. Dini müharibələr (1559-1598) dövründə hugenotların başçısı idi. Lakin 1593-cü ildə Fransa kralı olmaq naminə katolikliyi qəbul etmiş və II Henrinin yeddi övladdan yeganə sağ qalan qızı Marqarita ilə evləndikdən sonra Fransa onu kral kimi tanımışdı (1594-1610). IV Henri Nant ediktini (fərman) 1598-ci ilin aprelində imzalayaraq dini müharibələrə son qoydu. Fərmana görə katolisizm Fransanın hakim dini olaraq təsdiq edilmişdi. Bununla belə, hugenotlar etiqad azadlığı əldə etmişdilər.

**8 k45**

**Əli və ayağı bint və sarğı içində idi.**
**Sonra doğulanı Kaledən aparacaqlar.**
**Gözətçinin sözünə görə ölümün vaxtı uzadılacaq.**
**Sonra o, pasxa vaxtı çoxlu qan itirəcək.**

Tədqiqatçıların ümumi rəyi belədir ki, bu katren XVI Lüdovikin oğlu, 11 yaşlı vəliəhd XVII Lüdovikdən bəhs edir. Böyük Fransa inqilabı zamanı (1789-1794), kral XVI Lüdovik və kraliça Mariya Antuanetta edam edildikdən sonra 11 yaşlı şahzadə Kommunanın nümayəndəsi Stenarın göstərişi ilə Pinəçi Simona verilmişdi ki, ona əzab-əziyyət versin. Katrendə Nostradamus gənc şahzadəyə verilən işkəncələrdən söhbət açır.

1794-cü ildə şahzadəni yoxlayan Arman adlı həkim yazmışdı ki, onun sol əlində qançır və göy (zərbə yeri), dirsək və dizlərində

dəhşətli şişlər vardır. 1795-ci ilin iyununda Axill Severstr İctimai Təhlükəsizlik Komitəsinin üzvlərinə bildirib ki, məlum olmayan səbəbdən gənc Lüdovik keçinib. Onu da əlavə edib ki, onun əlləri, ayaqları, dizləri bint və sarğı içindədir. Komitetin üzvləri həbsxanaya gəlsələr də, tanınmaz hala salınmış şahzadənin meyitini tanımayıblar. Şahzadənin ölümünün səbəbini hadisədən təqribən iki yüz əlli il əvvəl yazılmış bu katrenin 4-cü sətrindən bilmək olur.

**8 k46**

**Əbədi nikahsız Pavel Romadan üç liqa məsafədə öləcək.**
**O biri ikisi də Tarask bədheybətindən qaçmağa çalışacaqlar.**
**Xoruz və Qartal Fransaya, bu üç qardaşa**
**Mars olduqca dəhşətli taxt-tac quracaq.**

Katrenin 1-ci sətrində görücü Roma Papasından söz açır. Tarixə nəzər salsaq görərik ki, Nostradamus XX əsrdə Roma Papası seçilmiş üç Paveldən bəhs edir: VI Pavel (1963-1978), I Pavel (1978), II Pavel (1978-2005).

Hər şeydən əvvəl onu deyək ki, Roma Papaları ömürlük seçilirlər.

Mətləbə keçərək qeyd edim ki, VI Pavel həqiqətən də Romanın üç liqalığında (bir liqa 4.83 km bərabərdir), Papalığın iqamətgahında – Çandolfo qəsrində dünyasını dəyişmişdir.

Məlumdur ki, Papalar evlənə bilməzlər. Bir çoxları VI Pavelin homoseksual olduğunu deyirdilər. Güman ki, görücü elə buna görə də onu “nikahsız Pavel” adlandırmışdır.

Katrenin 2-ci sətrində 1978-ci ildə Roma Papası seçilən və Papalığının bir ayı tamam olanda zəhərlənib öldürülən I Paveldən və 13 may 1981-ci ildə türkiyəli erməni terrorçu Mehmet Əli Ağcanın Papa II Pavelə qarşı törətdiyi sui-qəsddən, sonuncunun dünyasını dəyişdiyi 2005-ci ilə qədər əzab-əziyyət içində, yarımcan yaşamasından danışılır.

Con Houq qeyd edir ki, VI Paveli də zəhərləyib öldürüblər.

Müqəddəs kilsədə baş verənlər adamı heyrətə salır. Bir dəfə söhbət əsnasında iraqlı xristian İbrahim Nizar adlı dostum dedi ki, İncildə yazılıb ki, kilsə xadimlərinin əksəriyyətinin yeri cəhənnəm olacaq. Bu barədə şərqşünas və ilahiyyatçı alim Nəriman Qasımoğlunun fikrini öyrəndim. O, deyilənləri nəinki təsdiq etdi, təkcə kilsə xadimlərinin deyil, pəriseylərin də buraya daxil olduğunu göstərdi və əlavə etdi ki, İncilin XXIII fəsli bütövlükdə bu məsələyə həsr olunub.

Katrenin 3-cü və 4-cü sətirlərində görücü ABŞ, İngiltərə və Fransaya işarə edir.

Məlumdur ki, Mars müharibə rəmzidir. Deməli, dünyada baş verən müharibə və münaqişələrdə bu üç dövlətin əli olduğu və bunun çox ağır nəticələr verəcəyi barədə xəbərdarlıq edilir.

**8 k47**

**Tresmanyən gölü Perucada qıfıl altında saxlanır.**
**Sui-qəsdçilərin şahidi olacaqdır.**
**Ağılsız adam, ağıllı adamı yamsılayacaqdır.**
**Almanların məhvinə səbəb olan özü də məhv oldu (tikə-tikə oldu).**

Katren II Dünya müharibəsi zamanı baş verən hadisələrdən bəhs edir. 1943-cü ildə fon Kessirinqin komandanlığı altında alman ordusu İtaliyanı tutmuşdu. 1944-cü ilin iyun ayında isə Tresman cəbhəsində onlar mühasirəyə alınaraq məhv edilmişdilər. Katrenin 3-cü sətrində böyük görücü onun katrenlərini bilə-bilə almanların xeyrinə yozan (guya Nostradamus göstərmişdir ki, almanlar müharibədə qalib gələcək) astroloq Karl Ernest Kraftı lağa qoyur və 4-cü sətirdə almanların məhvinə səbəb olan Adolf Hitlerin özünün məhv olacağını göstərir.

**8 k48**

**Saturn Xərçəng bürcündə, Yupiter Marsla olacaq.**
**Salvatyerdə Xaldey rəmmalı fevralda xəbər verəcək.**
**Syerra– Morenə üç tərəfdən hücum edilib.**

**Verbesk yaxınlığında münaqişə, ölüm-dirim müharibəsi olacaq.**

Bəzi görücülərin göstərdiyi kimi, hər dəfə Saturn zahirən Xərçəng bürcündə olanda dünya qlobal müharibə ilə üzləşir. Elə təkcə XX əsri götürsək deyilənlər yerini alır. 1917-ci ilin may-iyun aylarında Yupiter Marsla Buğa bürcündə olanda və Saturn Xərçəng bürcündən keçəndə birləşmiş ingilis-fransız qoşunları Messin yaxınlığında möhtəşəm əməliyyat keçirmişdilər. 2-ci sətirdə işlənən "Salvatyer" – *təhlükəsiz torpaq, ölkə* mənasındadır. Burada Nostradamusun Xaldey görücüsünün Makedoniyalı İskəndəri Babilə getməkdən çəkindirməsindən, lakin hökmdarın onun sözlərinə məhəl qoymamasından söz açması, İskəndərin vətənində baş verəcək dəhşətli hadisələrə işarədir. Belə ki, 1919-cu ildə Yunanıstan Türkiyəyə qarşı müharibəyə başladı və 1922-ci ildə ağır məğlubiyyətə uğradı. Bundan əlavə, 1941-ci ilin aprelində Hitler Almaniyası Yunanıstanı işğal etmişdi.

Katrenin 3-cü və 4-cü sətirlərində İspaniyanın başını qatan Vətəndaş müharibəsindən (1936-1939) bəhs edilir.

**8 k49**

**Saturn Buğa bürcündə, Yupiter Dolça, Mars isə Ox bürcündə olanda**
**Altı fevralda ölüm olacaq.**
**Sardiniyadan olanlar Brüqdə böyük keçid.**
**Ponterosoda Barderlər sülaləsinin başçısı öləcək.**

Keçmişdə baş verən və indi az əhəmiyyət kəsb edən hadisələrə həsr olunmuş bu katren barədə onu deyək ki, Barberlər İspaniyada böyük nəsil olub. Roma Papası VIII Urban da bu nəslin nümayəndəsi olub. Həqiqətən də bu nəslin başçısı 1738-ci ilin fevralında dünyasını dəyişib. Dəqiq tarix məlum deyildir. Dəqiq məlum olan odur ki, 1738-ci ilin fevral ayının 6-da Planetlərin düzülüşü Nostradamusun katrenin 1-ci sətrində göstərdiyi kimi olmuşdur.

**8 k50**

**Kapelladanın ətrafını epidemiya bürüyəcək.**

**Başqa tərəfdən Saquntanı aclıq başına alacaq.**
**Qoca, xeyirxah adamı qeyri-qanuni cəngavər oğlu**
**Tunisdən olan böyüyü məcbur edəcək ki, özünü məhv etsin.**

Tədqiqatçılar katrendə baş verənlərin yer aldığını göstərirlər. Müqəddəs Roma İmperiyasının İmperatoru V Karlın qeyri-qanuni oğlu Don Xuan Avstriyalı tarixdən göründüyü kimi, çox cəngavər və qaniçən idi. O, 1573-cü ildə Tunisi zəbt edərək əlcəzairlilərin təyin etdiyi başçını öldürmüşdü. Katrendə görücünün söhbət açdığı epidemiya 1570-1574-cü illər arası baş vermişdi.

## 8 k51

**Kardobanın ikinci dəfə alınmasından sonra,**
**Vizantiyalılar (türklər) qurbankəsmə mərasimi keçirirlər.**
**Onun keçdiyi yolda üzüm plantasiyaları məhv edildi.**
**Herkules sütunları yanında qənimət ələ keçirildi.**

Katrendə Nostradamus 1558-ci ildə baş verən hadisələrdən söz açır. Həmin ildə birləşmiş türk və Əlcəzair hərbi dəniz donanması İspan donanmasını darmadağın edərək Liviya sahillərinə yaxın Cerba adasına çıxdı, qurban bayramı vaxtına düşdüyünə görə qurbankəsmə mərasimi təşkil olundu. İkinci dəfə Kordovanı ələ keçirdikdən sonra yol boyu üzümlükləri məhv etdilər ki, heç kəs şərab hazırlaya bilməsin. Yoxsa müsəlman əsgər və dənizçiləri şərab içə bilərdilər. 4-cü sətirdə yer alan "Herkules sütunları" "Cəbəlüttariq boğazı" mənasında işlənmişdir.

## 8 k52

**Blua kralı Avinyonda hökmranlıq etmək üçün**
**Ambuaz və Senadan keçəcək.**
**İndira çayı boyunca hərəkət edərək Boniya çatmamış**
**Onql Puatyedə müqəddəs qanadlar məhv olacaq.**

Katrendə XVI əsrin ikinci yarısında Fransada tüğyan edən daxili çəkişmələrdən bəhs edilir.

## 8 k53

**Bolonda o səhvlərini düzəltmək istəyəcək.**
**Günəş məbədinə girə bilməyəcək.**
**O, çox böyük işlər görərək yerə-göyə sığmayacaq.**
**İyerarxiyada hələ bunun bənzəri heç vaxt olmayıb.**

Dünyada Günəş məbədi adlanan yeganə məbəd Yunan əsatiri Allahı Apollonun şərəfinə Londonda eramızdan əvvəl ucaldılmışdı. Lakin yeni eranın 154-cü ilində həmin məbəd zəlzələ nəticəsində yerlə yeksan olmuşdu. Onun xarabalığının yerində Vestminster abbatlığı tikilib. Katrendə söhbət Napoleon Bonapartdan gedir. 1804-cü ildə Napoleon 200 minlik ordu ilə Bulondan La-Manş boğazını keçərək Londonu tutmaq istəyib. Əgər o bunu etsəydi, sonralar Vaterloo yaxınlığında məğlub olmazdı. Lakin bu vaxt eşidib ki, rus-avstriya orduları Fransaya hücum ediblər. 2-ci sətirdən göründüyü kimi, o Londona girə bilmir. Ordunu ölkəyə soxulan düşməni əzməyə yönəldir. 1805-1807-ci illərdə və sonralar Napoleon böyük qələbələr qazanıb. 4-cü sətirdə buna işarə edilir. Napoleon ingilislərə alver adamı kimi baxıb və onları "alverçi millət" adlandırmışdı. İngiltərəni iqtisadi cəhətdən zəiflətmək üçün Britaniya adalarına blokada elan etmişdi. Bütün Avropa ölkələrində ingilislərin malını və əmlakını müsadirə etməyi əmr etmişdi. Göründüyü kimi, Napoleonun iqtisadi blokadası indi də dəbdədir. Gücsüz dövlətlərə qarşı belə blokadalar, "sanksiyalar" tez-tez tətbiq olunur.

Katrenin 3-cü sətrində Napoleonun həyata keçirdiyi qanunlardan söz açılır. Maraqlıdır ki, Napoleonun qəbul etdiyi bütün qanunlar hazırda Fransada qüvvədədir. Napoleonun dünyagörüşü və düşüncə tərzi tamamilə fərqli idi. Onunla bağlı bəzi məqamlar deyilənlərə aydınlıq gətirir. Bir dəfə kiçik qardaşı – Hollandiyanın kralı Lüdovik xalq tərəfindən sevilməsi barədə öyünmək istəyəndə, Napoleon onun sözünü kəsmişdi: "Qardaşım, hər hansı bir

kralın xeyirxah olduğunu söyləyirlərsə, deməli, onun hakimiyyəti baş tutmamışdır”.

Napoleon cinayətkarlara qarşı amansız idi. Bununla belə, təyin etdiyi hakimlərə demişdi: “Sizdən ədalət gözləyən adamın hansı partiyaya mənsub olmasını heç vaxt arayıb axtarmayın”.

İmperator özünə təlqin etdiyi bir fikri tez-tez təkrarlayırdı: “Adamları hərəkətə gətirmək üçün iki vasitə var – qorxu və şəxsi maraq”. “Maraq” sözünü o təkcə birbaşa pula hərislik kimi deyil, həm də şöhrətpərəstlik, mənsəbpərəstlik kimi başa düşürdü. 4-cü sətirdə İyerarxiyadan söhbət gedir. İyerarxiya deyəndə əvvəllər Roma papalığı nəzərdə tutulurdu. 1804-cü ildə Roma Papası VII Piy Napoleonun tacqoyma mərasimində iştirak etmişdi. Lakin Napoleon tacı Papanın əlindən alaraq özü öz başına qoymuşdu. Görücü buna işarə edir.

## 8 k54

**İzdivac əhvali-ruhiyyəsi altında,**
**Böyük Selin Şiren mərhəmət göstərir.**
**Kəntən, Arras səyahət üçün yenidən açıldı.**
**İspaniyada (qəssaba) ikinci kürsü hazırlandı.**

Katrendə XVI əsrin ikinci yarısında Fransanın Sən-Kəntən və Arras şəhərlərinin ispanlar tərəfindən tutulmasından, sonra münasibətləri yaxşılaşdırmaq üçün İspaniya kralı II Filippin Fransa kralı II Henrinin qızı Yelizaveta ilə evlənməsindən danışılır.

## 8 k55

**İkiçayarasında o, özünü sıxılmış görəcək.**
**Böyük və kiçik çəlləklər keçid üçün bir-birinə bağlanmışlar.**
**Böyüyün tez-tez keçib getdiyi səkkiz körpü dağıdılıb.**
**Yetkin övladları öldürüləcəklər.**

Nostradamusşünaslar bu katren üzərində çox baş sındırsalar da, müxtəlif fərziyyələr irəli sürsələr də, fikirləri katrenin sətirləri ilə uzlaşmamışdır. Haqq naminə onları qınamaq da olmaz. Nostradamusun katrenlərini hadisə baş verməmiş şərh etmək çətin olur.

2003-cü ildə ABŞ və İngiltərə İraqı tutduqdan sonra məlum oldu ki, söhbət Mesopotamiyadan (İkiçayarasından) – İraqdan gedir.

2-ci sətirdə görücü Bağdadı iki yerə bölən Dəclə çayı üzərində salınmış səkkiz körpüdən, 3-cü sətirdə Səddam Hüseynin iki oğlu Odey və Quseydən, onların öldürüləcəyindən bəhs edilir. Doğrudan da, 2003-cü ilin martında ABŞ və ingilis qoşunları İraqı tutduqdan sonra, onlar Mosul yaxınlığında amerikalılar tərəfindən öldürülmüşdülər.

Göründüyü kimi, Nostradamusun XVI əsrdə bəyan etdikləri XXI əsrin əvvəlində yerini almışdır.

### 8 k56

**Zəif dəstə torpağı zəbt edəcək.**
**Yuxarı torpaqdakılar tükürpədici səslə qışqıracaqlar.**
**Böyük dəstə kənardan (suyu) bulandıracaq.**
**D.nebronun yaxınlığında o, yıxılır, tələblər aydın olur.**

Bu katren barədə bir çox tədqiqatçılar müəyyən fərziyyələr söyləməklə, hadisələrin uzaq gələcəkdə baş verəcəyini göstərməklə kifayətlənmişlər. Yalnız Erika Çitəm göstərir ki, D.nebro – "Edinbro" – mənasında işlənib. Məlumdur ki, Edinburq Şotlandiyanın paytaxtıdır.

Tədqiqatçı qeyd edir ki, katrendə 1650-ci ildə İngilis-Şotland ordusunun Dunbar döyüşündən və şotlandların məğlub olmasından bəhs edilir.

1-ci sətirdə "zəif dəstə" ordunun sayının az olması məqamında işlənib. 2-ci sətirdə "yuxarı torpaqdakılar" – yüksəkliklərdə, dağlarda, yaylalarda yaşayanlar" mənasında işlənmişdir ki, bu da şotlandlara aiddir. 3-cü sətirdə güclü ingilis ordusu nəzərdə tutulur.

**8 k57**

**Adi əsgərdən imperatora qədər yüksələcək.**

**Qısa geyimini, uzun geyimlə əvəz edəcək.**

**Silah işlətməkdə mahir, kilsəyə qarşı amansız olacaq.**

**Su süngəri təngə gətirdiyi kimi, o da din xadimlərinə**

**zülm edəcək.**



*İmperator Napoleon Bonapart (1804-cü il)*

Katrendə söhbət Napoleon Bonapartdan gedir. Böyük görücünün bu katrendə bəyan etdikləri yüz faiz yerinə yetmişdir. Napoleon doğurdan da adi əsgərdən İmperatora qədər yüksəlmiş, 1804-cü il may ayının 18-də özünü imperator elan edərək qısa konsul geyimini uzun imperator geyimi ilə əvəz etmişdi.

Tacqoyma mərasimində Roma Papası VII Piy iştirak etmişdi. Kilsəyə qarşı amansız olan Napoleon Roma Papası VI Piyi və VII Piyi zindana saldırmışdı. Papa VI Piy zindanda olarkən dünyasını dəyişmişdi.

Napoleonla bağlı tarixi hadisələri izlədikcə XX əsr Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən biri Səməd Vurğunun tarixi sözləri göz önünə gəlir:

**Napoleon dedi ki, "Göy Allahındır.**
**Fəqət yer üzünün Tanrısı mənəm".**

Müəyyən zaman kəsiyində dünyanı lərzəyə salan, xalqın inamını qıran, din xadimlərinə zülm edən bu tarixi şəxsiyyətin tale - yinin necə faciə ilə başa çatdığı adamı heyrətə salır. "Allahlıq"

iddiasında olan başqa diktatorlar da, onların faciələri də yada düşür.

**8 k58**

**Britaniyalı adını daşımaq üçün silaha sarıldı.**
**Hakimiyyət çəkişmə yolu ilə qardaşlar arasında bölündü.**
**Anqlikan titulu çox gec məsləhət görüləcək.**
**Qalliya havasına qaçan gecə təəccüblənəcək.**

Katrenin ilk iki sətrində iki qardaş II Çarlz və I Ceymz arasında taxt-tac uğrunda gedən mübarizədən bəhs edilir. Onlar 1649-cu ildə edam olunan I Çarlzın oğlanları idi. I Ceymz katolikliyə meyil edirdi. O, hətta katolik Meriyə evlənməkdən belə çəkinməmişdi. Nəhayət o, sürgün edilmişdi. II Çarlz vəfat etdikdən sonra taxt-taca sahib olmaq üçün I Ceymz dəvət almışdı. I Ceymzdən sonra hakimiyyətə Yakov gəlmişdi (1685).

Taxt-taca sahib olan Yakov Parlamentə təzyiq göstərərək ölkədə katolikliyi bərqərar etməyə çalışdı. Bu məqsədlə o, 1687-ci ildə Kenterberinin Baş yepiskopunu və altı nəfər yüksək vəzifəli prelatı həbs etdirdi. Çünki onlar katolikliyi qəbul etməkdən imtina etmişdilər. Belə olan halda Parlament Yakovun protestant olan qızı Mariyaya evlənmiş Hollandiya şahzadəsi Vilhelm Oranskiyə ingilis taxt-tacına sahib olmaq üçün xəlvəti məktub göndərdi. 1888-ci ilin noyabr ayında Vilhelm ordusunu İngiltərə sahillərinə çıxartdı. Buna təəccüblənən Yakov başa düşdü ki, vəziyyəti ağır olacaq. Çünki ölkədə tərəfini saxlayan yox idi. I Çarlzın edamı gözünün qabağına gəldi. Qürbətdə yaşamaq ölümdən üstündür – deyərək Fransaya qaçdı. Qan tökülmədən baş verən hakimiyyət dəyişikliyinə ingilislər “Heyranedici inqilab” adı verdilər. Maraq doğuran məsələlərdən biri də 3-cü sətirdə işlənən “Anqlikan” sözü – protestant mənasında İngiltərədə yalnız 1635-ci ildə işlənməyə başlamışdı. Nostradamus isə hələ dildə işlənməyən bu sözü, demək olar ki, bir əsr əvvəl lüğət tərkibinə gətirmişdi.

## 8 k59

**İki dəfə yüksələn, iki dəfə enəcək.**
**Şərq, eləcə də Qərb zəifləyəcək.**
**Rəqibi ilə bir neçə döyüşdən sonra**
**Dənizlə aparıldı. Möhtac olanda uğursuzluğa uğrayacaq.**

Katrendə Nostradamus açıq-aydın Napoleondan bəhs etdiyi halda, tədqiqatçılar katren üzərində baş sındırıb, onun gələcəkdə baş verəcək hadisələrlə bağlı olduğu fikrinə gəliblər.

1-ci sətirdən göründüyü kimi, Napoleon iki dəfə hakimiyyətə gəlmiş, iki dəfə də hakimiyyətdən uzaqlaşdırılmışdı. Onun başladığı müharibələr, istər Şərqdə, istər Qərbdə dövlətləri zəiflətmişdi: Misir, Türkiyə, Rusiya, İtaliya, İngiltərə, Avstriya, İspaniya və başqa dövlətləri nəzərdə tuturuq. İş o yerə çatmışdı ki, Napoleon İngiltərə ilə ticarət əlaqəsinə girən dövlətlərə qarşı müharibəyə başlayacağını elan etmişdi. 4-cü sətirdə də söhbət Napoleondan gedir.

Napoleonu iki dəfə sürgünə dənizlə aparıblar. 1-ci dəfə 1814-cü il aprelin 20-də Aralıq dənizində Elba adasına aparılmışdı. Elba adası Napoleonun anadan olduğu Korsikadan təxminən 50 km aralıda yerləşir.

1815-ci il fevralın sonunda Napoleon Elbanı tərk edərək martın 20-də Parisə çatdı. Hər yerdə onu İmperator kimi qarşılayırdılar. Lakin müttəfiqlər böyük ordu ilə ona qarşı çıxdılar. Vaterloo kəndi yaxınlığında məğlub oldu. Parisə dönərək taxt-tacdan əl çəkdi. Atlantik okeanında materikdən 2000 km məsafədə olan Müqəddəs Yelena adasına sürgün edildi və həyatını orada 1821-ci ildə məşəqqətlər içində başa vurdu.

## 8 k60

**Qalliyada birinci, Rumıniyada birinci,**
**Dənizdən və qurudan ingilislərə və Parisə**
**Böyük ordu ilə böyük işlər görəcəkdir.**
**Qəzəbli qəddar Lotaringiyanı itirəcək.**

1870-1871-ci illərdə Fransa ilə Prussiya arasında baş verən müharibənin alçaldıcı şərtlərinə görə Fransa Lotaringiyanı itirmişdi.

Katrendə böyük görücü bununla bağlı sonrakı hadisələrdən söz açır.

I Dünya müharibəsi zamanı Fransa və Rumıniya almanlara və Avstriya-Macarıstan imperiyasına qarşı ingilislərlə müttəfiq olublar. Faktiki olaraq müharibəni udublar. 4-cü sətirdə almanların qəddarlığından və Versal sülh sazişinin şərtlərinə görə Elzas və Lotaringiyanı Fransaya qaytarmaq məcburiyyətində qalmalarından danışılır.

**8 k61**

**Gündüz işığında heç bir vaxt,**
**Hakimiyyət nişanını, hökmdar əsasını əldə edə bilməyəcək.**
**Onun bütün mühasirələri ləğv olunacaqdır.**
**Silahlı Taqin hədiyyəsini xoruza gətirəcəkdir.**

Xoruz Fransanın rəmzidir.

Bu katrendə Napoleon Bonapartdan bəhs edilir. Eyni zamanda burada bütün Napoleonlar nəslinə də bir işarə vardır. Bu baxımdan III Napoleonun bir fikri maraq doğurur: "Heç vaxt Napoleonlar nəslindən olan şəxs varisliklə imperator kimi taxt-taca sahib ola bilməz. O, həmişə Respublika bayrağı altında olacaq. Lakin heç vaxt niyyətini gizlətməyəcəkdir. O, bunu mübarizliyi, döyüşkənliyi ilə, fransız xalqını ruhlandırmağı ilə əldə edəcəkdir".

Napoleon Bonapartın keçdiyi yola nəzər salanda bu sözlərə inanmamaq olmur. Napoleon hətta özünü imperator elan edəndə, tacqoyma mərasimində tacı onun başına Roma Papası VII Piy qoymalı olduğu halda, tacı götürüb özü öz başına qoymuşdu.

Katrenin 4-cü sətrində 1809-cu ildə Napoleonun Portuqaliyanı tutmaq üçün Taqo çayı (zəmanəmizdə bu çay Taxo adlanır) vadisinə daxil olmasından, mühasirələrdən söhbət gedir. Lakin Portuqaliya və ingilis ordu hissələri möhkəmləndirilmiş istehkam-

lardan Napoleon ordusuna sarsıdıcı zərbələr endirərək onu Lissabonu tutmaq fikrindən çəkindirmişdilər.

**8 k62**

**Müqəddəs məbədin qarət edildiyini görəndə,**
**Romanın lap böyüyü onların müqəddəslərini təhqir edəcək.**
**Epidemiya onlardan elə geniş yayılacaq ki,**
**Ədalətsiz canını qurtaracaq, mühakimə olunmayacaq.**

Bu katrenin Vatikandan bəhs etdiyi şübhə doğurmur. Dünya katoliklərinin bu müqəddəs məbədində çirkin pulların təmizlənməsindən başlamış, mafiyalarla əlaqələrə dair bir çox arzuolunmaz hadisələr baş verib. Katren çox ümumi olduğundan haqqında qəti söz demək çətindir. Ola bilsin ki, katrendə söhbət 1978-ci ildə Roma Papası seçilmiş I Pavel və kardinallar arasında baş verən çox ciddi münaqişədən gedir. Məlumdur ki, I Pavel Vatikanda baş verən çirkin əməlləri açaraq bir çox kardinalları cəzalandırmaq və tutduqları vəzifədən kənarlaşdırmaq fikrində idi. Bunu bilən kardinallar I Pavelin Papa seçildiyindən düz bir ay keçmiş ona suiqəsd edərək zəhərləmişdilər.

Beləliklə, 4-cü sətirdən göründüyü kimi, mühakimə olunmamışdılar.

**8 k63**

**Ər-arvad sədaqəti pozulanda yara zərbəsiz alınacaq.**
**O, qəzəbindən arvadını və oğlunu öldürəcək.**
**Arvadını ölənə kimi döyəcək, oğlunusa boğacaq.**
**Əsir götürülən səkkiz nəfər bir anda boğulacaq.**

Keçmiş və zəmanəmiz üçün səciyyəvi olan (xüsusən də seriallar üçün) haldır. Katreni açmağa tutalğac yeri yoxdur. Həddən artıq ümumidir.

**8 k64**

**Uşaqlar adalara aparıldılar.**

**Yeddi nəfərdən ikisi ümidsiz olacaq.**
**Quruda olanlar buna tərəfdar olacaqlar.**
**Non polle alındı, Millətlər Birliyi ümidləri doğrultmadı.**

Katren II Dünya müharibəsinin əvvəllərində baş verən hadisələrdən bəhs edir. 1940-cı ildə Hitler Fransanı tutduqdan sonra, İngiltərəni tutmağa hazırlaşırdı. İngilislər La-Manş boğazına və Şimal dənizinə bitişik rayonlardan uşaqları uzaq adalara aparmaq qərarına gəlmişdilər. 2-ci sətirdən də göründüyü kimi, 7 milyon 14 yaşa qədər uşaqdan iki milyonu (7 nəfərdən ikisi olmaq hesabı ilə) köçürülürmüşdü və onlar valideynlərsiz ümidsiz vəziyyətdə idilər. Uşaqların bir çoxu hətta Kanada və Avstraliyaya aparılmışdı. Lakin bu iş quruda olanların – valideynlərin razılığı ilə edilmişdi. Bu, bir çox uşaqların həyatını xilas etmişdi. Ona görə ki, 1941-1942-ci illər və 1944-1945-ci illər arası Britaniya əvvəlcə güclü bombardmanlara məruz qalmış, sonra isə Fau-1 və Fau-2 raket atəşinə tutulmuşdu. Millətlər Birliyinin ümidləri doğrultmadığını da, 4-cü sətirdən göründüyü kimi, böyük görücü doğru olaraq bəyan etmişdir. İndinin özündə belə Millətlər Birliyi super dövlətlərin əlində oyuncağa çevrilib. Böyük dövlətlərin xeyrinə olan qətnamələr tezliklə yerinə yetirilir. Kiçik dövlətlərlə bağlı çıxarılan qərarlar isə kağız üzərində qalır. Məsələn, Azərbaycanın tələbi ilə Birləşmiş Millətlər Təşkilatının Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi üç qətnaməsindən heç biri yerinə yetirilməyib.



*Marşal Peten*

**8 k65**

**Qoca əsas ümidindən mütəəssir oldu.**
**O, öz imperiyasının zirvəsinə qalxacaqdır.**

**Var gücü ilə hakimiyyəti iyirmi ay saxlayacaqdır.**
**Hakimiyyəti tiran, qəddar olan daha pisinə qoyub gedəcəkdir.**

Katren Fransadan bəhs edir. 1940-cı il iyul ayının 10-da I Dünya müharibəsinin qəhrəmanı, Marşal Petenə ölkəni idarə etməyi, yeni konstitusiyalı dövlət yaratmağı həvalə edirlər. Petenin o vaxt 83 yaşı varmış. İyirmi aydan sonra lap qocalıb əldən düşmüş Peten hakimiyyəti vitse-prezident Pyer Lavala verərək hakimiyyətdən uzaqlaşmışdı. Ölkədə hərc-məclik baş alıb gedirdi. Partizan hərəkatı ölkəni bürümüşdü.

**8 k66**

**D.M.yazısı aşkar ediləndə**
**Qədim mağara lampa işığında tapılacaq.**
**Qanun, kral və şahzadə Ülpən sınaqdan keçiriləcəklər.**
**Kralın arvadı və hersoq alaçıqda yorğan altındadır.**

Bu katren üzərində nostradamusşünaslar çox baş sındırsalar da, inandırıcı bir fikir irəli sürə bilməyiblər. Amma katrenin 1-ci sətrindəki "D.M." qısaltması barədə deyilənlər həqiqətdir.

Tədqiqatçılar D.M. qısaltmasının Diis Manibus olmasını və qədim Romada ənənəvi olaraq başdaşı yazılarının bu hərflərlə başlamasını göstərmişlər. D.M. (Diis Manibus) latınca "Allahın əlindədir" – deməkdir ki, başqa dillərə tərcümədə "Burada uyuyur" mənasını verir.

İtaliyada qəbiristanlıqlarda itib-batmamış bütün başdaşlarında yazıların D.M. hərfləri ilə başlamasına indinin özündə də təsadüf edilir. Maraqlıdır ki, Nostradamusun qəbir daşında D.O.M. yazılmışdır ki, David Ovason bunun "Mərhəmətli və qadir Allah" mənasında işləndiyini göstərir.[1]

[1] David Ovason. Amerika ilə bağlı görücülük (ingiliscə). Nyu-York, 2001, səh.22.

Biz burada dərin bir fəlsəfi məna görürük. Dünyada hər şey qadir Allahın adı ilə başlayır: “Rəhmli, mərhəmətli Allahın adı ilə!” və Allahın adı ilə bitir: “Allah rəhmət eləsin”.

**8 k67**

**Paris, Karkason, Fransada böyük çəkişmə baş verəcək.**
**Nə o, nə də bu biri – heç biri seçilməyəcək.**
**Mersaf xalqın razılığını və məhəbbətini qazanacaq.**
**Ferar, Kolonn böyük himayəçi olacaqlar.**

Tədqiqatçılar göstərirlər ki, bu katren XVI əsrin 2-ci yarısında katoliklərlə hugenotlar arasında gedən dini müharibələrdən bəhs edir.

**8 k68**

**Qoca kardinal cavan tərəfindən aldadıldı.**
**Vəzifəsindən kənar və tərk-silah ediləcək.**
**Arl özünə bənzər adamın olduğunu bildirməyəcək.**
**O da, şahzadə də mumiyalanmışlar.**

Bu katren də Fransadan bəhs edir. 1642-ci ildə kardinal Rişelin 57 yaşı vardı. Lakin yaşından çox qoca və zəif görünürdü. O tez-tez dənizdə üzməli olurdu. Tələbəsi 22 yaşlı Henri kral XIII Lüdovikin qılığına girib onun bir çox vəzifələrini, demək olar ki, əlindən alaraq orduya komandanlığı da yerinə yetirirdi. Bu, qoca Rişelə ağır gəlirdi. Nostradamusşünas Le Pelletye 1867-ci ildə tarixi faktlarla bütün bunları üzə çıxarmışdı. Le Pelletye yazmışdır: “Henri de Kinğ Mars Senarinin səyi nəticəsində XIII Lüdovik Rişelə rəğbətini itirərək, onu istefaya göndərmişdi. Lakin az sonra Rişel Arldan Senarinin ispanlarla gizli sülh danışıqları apardığı barədə məktubun və sazişin surətlərini əldə edərək XIII Lüdovikə göndərmişdi.

Beləliklə o, kardinal vəzifəsinə bərpa olunmuş, Henri de Kinğ Mars Senarin isə həbs edilmişdi”.

1642-ci ilin dekabr ayının 4-də Rişel, beş ay sonra isə XIII Lüdovik vəfat etmiş, 4-cü sətirdə göstərildiyi kimi, qədim ənənəyə əsasən mumiyalanmışdılar.

Henri de Kinğ Mars Senarin isə edam olunmuşdu.

**8 k69**

**Cavanın yanında qoca mələk yıxılır.**
**Və axırda onu ötüb-keçmək üçün gələcək.**
**On il bərabər səviyyə saxlanacaq, qoca yenidən yıxılacaq.**
**Üçündən ikisi, səkkizindən biri Serafimdir.**

Bu katrendə XVIII əsrin ortalarında Fransada baş verən hadisələrdən söhbət gedir. Beş yaşlı kral XIV Lüdovik ölkəni idarə edə bilməzdi. Odur ki, əvvəllər ölkədən qovulmuş kardinal Mazarini geri qaytarılır və regent – padşah naibi (padşahı əvəz edən) təyin edilir. Kral XIV Lüdovik onu Fransız parlamentinə qarşı çıxdığına və şahzadə de Konde ilə intriqaya girdiyinə görə 1659-cu ildə ikinci dəfə ölkədən qovur. Axırıncı sətirdə söhbət Serafim ordeninin (təşkilat) monaxlarından gedir. Bu təşkilat daha çox Fransiskanz adı ilə məşhur olub.

**8 k70**

**O, ölkəyə təhlükəli, bədnam və cinayətkar kimi girəcək.**
**Mesopotamiya üzərində qəddarlıq edəcək.**
**Zinakar qadın dostluqdan dəm vurub saxtakarlıq edəcək.**
**Torpaq dəhşətli və qapqaradır.**

Katrendə İraqdan söz açılır. Lakin qərb nostradamusşünasları hər hansı bir səbəbdənsə 3-cü sətirdə yer alan "Zinakar qadın" ifadəsinin üstündən sükutla keçmişlər. Çoxları hətta onu tərcümədən belə çıxarmışlar. Buna görə də katrenin kimdən və nədən bəhs etdi-

[1] John Hogue. The new millennium. London, 2002, p.196; Джон Хоуг. Нострадамус. Новые откровения. İngiliscədən tərcümə. Moskva, 1997, səh. 265-266.

yini açıb göstərmək əvəzinə, hər şeyi Səddam Hüseynlə bağlamağa çalışmış və qərb oxucularında səhv təsəvvür yaratmışlar.

Həqiqət naminə deməliyik ki, yalnız Nostradamusun ən yaxşı tədqiqatçılarından biri Con Houq həqiqəti deməkdən çəkinməyib. O, göstərir ki, katrendə söhbət ABŞ və onun hazırkı prezidenti Corc Buşdan gedir. Nostradamusşünas alim göstərir ki, fransızların düzəldərək amerikanlara bağışladığı "Azadlıq heykəli" "əxlaq - sız qadın" timsalında ABŞ-a aid edilir. Corc Buş isə qəsbkar tirana çevrilmişdir.[1]

Rus tədqiqatçıları A.Morok və K.Razumovskaya da katrenin şərhini dəlil və sübutlarla inandırıcı vermişlər: "Mesopotamiya müasir İraqın ərazisidir. Katrendən göründüyü kimi, İraqa qəddar və insafsız hökmdar hücum edəcək. O, kimdir və haradan gələcək? "Zinakar qadın" Nyu-Yorkdakı "Azadlıq heykəli"nin simvoludur. Beləliklə, ehtmal etmək olar ki, burada ABŞ nəzərdə tutulur. XX əsrin 90-cı illərində ABŞ İraqa hücum etmişdi ("Səhrada tufan" əməliyyatı yaddaşlardan silinməyib). Bu, dəlil-sübutdur ki, katrendə söhbət ABŞ-dan gedir. Nəzərə alsaq ki, İraq və ABŞ arasında münaqişə həll olunmayıb, hərbi əməliyyatlar hər an gözlənilə bilər. Gələcək müharibə İraqa çox bədbəxtliklər, səfalət, aclıq gətirəcək, əhali dilənçi kökünə düşəcək. Bu ölkənin necə böyük tələfatlara məruz qalacağını sonuncu sətirdən görmək olar: "Torpaq dəhşətli və qapqaradır".[1]

Nostradamusşünas tədqiqatçılar gələcəkdə baş verəcək hadisələri də dəqiq proqnozlaşdırmışlar.

2003-cü ilin mart ayında bəzi tədqiqatçıların əkiz dövlətlər adlandırdığı (bunu ikili dövlət kimi də tərcümə etmək olar) ABŞ və İngiltərə "İraqda qorxulu silah var" – bəhanəsi ilə ölkəni zəbt etdilər. Hətta BMT və Maqateyə belə məhəl qoymadılar. Hərçənd

[1] A.Morok, K.Razumovskaya. Nostradamus görücülüyünün yeni şərhi (rusca), M., 2000, səh. 201-202.

Maqate rəsmi şəkildə İraqda kütləvi qırğın silahının olmaması barədə bəyanat vermişdi. İngiltərənin "Qardian" qəzeti İraqa hücumdan iki ay əvvəl 4 fevral 2003-cü il tarixdə Corc Buşun İngiltərənin baş naziri Toni Bleyerə göndərdiyi məxfi memorandumu əldə edərək çap etmişdi.

Corc Buş Bleyerə yazmışdı ki, BMT-nin Təhlükəsizlik Şurasının hər hansı bir qərar çıxarmasından asılı olmayaraq planlaşdırıldığı kimi İraqa hücum həyata keçiriləcəkdir. Göründüyü kimi, Buş hətta Təhlükəsizlik Şurasının qərarına belə məhəl qoymadı. Lakin məlumdur ki, Təhlükəsizlik Şurasının hər hansı bir üzvü bu və ya digər məsələ barədə qərarın əleyhinə səs versə, qərar qəbul olunmur. İraqa dağıdıcı hücum 20 mart 2003-cü il tarixdə başladı. Tarixi abidələr, muzeylər dağıdıldı. Ölkə viran edildi. Ölkədə görünməmiş qəddarlıqlar indi də davam etdirilir. Sünnilərlə şiələr arasında təfriqələr salınır, ölkə vətəndaş müharibəsi vəziyyətindədir. Hər gün yüzlərlə adam həlak olur. Amerika "demokratiyası" öz bəhrəsini verir.

Con Houq göstərir ki, "Səhrada tufan" əməliyyatı zamanı İraqda su təchizatı sistemi məhv edildi, sarılıq və başqa xəstəliklərdən 500 mindən çox uşaq öldü.

Maraqlıdır ki, Manfred Dimde Şərqdə müharibələrin bu iki əkiz dövlətin ucbatından baş verəcəyini hələ XX əsrin sonlarında göstərmişdi.[1]

## 8 k71

**Astronomların sayı həddindən çox artacaq.**
**Onlar təqib olunacaqlar, kitabları qadağan ediləcək.**
**Katolik kilsəsi 1607-ci ildə xəbərdarlıq edəcək.**
**Beləliklə, heç kim keşişlərin təhlükəsindən kənar olmayacaq.**

---

[1] Manfred Dimde, Nostradamus (alman dilindən ruscaya tərcümə). M., 1998, səh.129.

Katrendə hər şey aydındır. 1607-ci ildə Roma Papası VIII Urban Dekkerin Almanaxını qadağan etmişdi. Ümumiyyətlə, katolik kilsəsinin XIII əsrdə təşkil etdiyi məhkəmə-polis təşkilatı–inkvizisiya XVI əsrin sonu, XVII əsrin əvvəllərində öz düşmənləri ilə daha amansız üsullarla mübarizə aparmağa başlamışdı. Elm adamlarını, xüsusən də astrologiya və astronomiya elmi ilə məşğul olanları qəddarcasına məhv edirdilər. Böyük görücü katrendə bu məsələdən söz açır. Cordano Bruno səkkiz il zindanda saxlandıqdan sonra 1600-cü ildə diri-diri tonqalda yandırılmışdı. Kopernik və Qalileyin kitabları qadağan edilmişdi. 1608-ci ildə teleskop icad olunmuşdu. 1609-cu ildə üçqat böyüdən, daha sonra isə 32 qat böyüdən teleskop icad edən, dünya elminə böyük töhfələr verən Qaliley mühakimə edilmiş, edam olunmaqdan yaxasını zorla qurtarmışdı.

Onu da bilmək maraqlı olardı ki, Roma Katolik kilsəsi ölümündən 350 il sonra, 1992-ci ildə Qalileyə, 1993-cü ildə isə Kopernikə bəraət qazandırdı.

Qəribədir ki, açıq-aydın faktlara bilə-bilə göz yuman bəzi qərb tədqiqatçıları bu katrenin əsası olmadığını, Nostradamusun təxəyyülünün məhsulu olduğunu göstərmişlər. Ola bilsin ki, onlar xristian din xadimlərinin qəddarlığını, tökdüyü qanları qeyri-xristian xalqlardan gizləmək üçün bu qeyri-səmimi addımı atırlar.

Onu da deyək ki, Dekkerin Almanaxı İngiltərədə Astrologiya elminin inkişafına böyük təkan vermişdi.

**8 k72**

**Peruca gölündə necə dəhşətli məğlubiyyət!**
**Və münaqişə Ravenin lap yaxınlığındadır.**
**Müqəddəs keçid, sonra bayramı qeyd edəcəklər.**
**Qalib basılacaq, at əti yeməli olacaq.**

Peruca və Ravenna İtaliyadadır. Burada 1944-cü ildə müttəfiq orduları ilə almanlar arasında dəhşətli döyüş baş vermiş, qan su

yerinə axmış, bir çox ölkələri zəbt edən alman ordusu məğlub olmuş, qaçmağa üz tutmuşdu. Ərzaqdan məhrum olan, düşmən təqibinə məruz qalan əsgərlər əlacsızlıqdan atları kəsib yemək məcburiyyətində qalmışdılar. Nostradamus katrendə buna işarə edir.

**8 k73**
**Barbar əsgər böyük kralı vuracaq.**
**Ədalətsizlik ölümdən uzaqda deyil.**
**Bu işin səbəbkarı xəsis ana olacaq.**
**Sui-qəsdçi və krallıq böyük peşmançılıq içindədir.**

Bu katren barədə qəti söz demək çətindir. Çünki katrendə nə vaxt, nə ölkə, nə şəxs adı göstərilib. Bununla belə, tədqiqatçı Noxman 1983-cü ildə çap olunan "Nostradamus indilikdə" ("Nostradamus New") kitabının 193-cü səhifəsində yazmışdı: "Bu katren ya Səddam Hüseynin, ya da terror nəticəsində – Səddam Hüseynin əli ilə İsrailin Baş nazirinin ölümündən bəhs edir. Bu hadisə ya ciddi bir görüşdə, ya banketdə, ya da bayram şənliyində baş verəcək". Tədqiqatçının fərziyyəsi, demək olar ki, düz çıxmışdı.

1995-ci ilin sonunda İsrailin Baş naziri İsxak Rabin "Yaxın Şərqdə sülhü möhkəmləndirmək naminə" adlanan toplantıdan çıxanda ona sui-qəsd edilmişdi. 2-ci sətirdən göründüyü kimi, Baş nazir ədalətsizliyin qurbanı olmuşdu. Sui-qəsdçi Səddam Hüseynə dəxli olmayan yəhudi fundamentalisti idi.

Bizə qalırsa, 3-cü sətirdə söhbəti gedən "xəsis ana" Qoldo-Meyerdir. Məsələ burasındadır ki, bu "acgöz qadın" İsrailin Baş naziri olanda Fələstin torpaqlarının xeyli hissəsini zəbt etmiş, gənclərdə sionist əhvali-ruhiyyəsinin aşılanmasında, yəhudi fundamentalizminin yaranmasında xüsusi xidmətlər göstərmişdi.

**8 k74**
**Kral yeni torpaqda çox irəlilədi.**
**Bu vaxt onun təbəəliyində olanlar onu qarşıladılar.**
**Onun vəfasızlığı elə nəticə verəcək ki,**

**Sakinlər üçün şənlik və qəbul yeri olacaqdır.**

Katrenin 1-ci sətrində yer alan "Terre nnfue", yeni torpaq, yeni ərazi, və yeni dünyadan – Amerikadan söz açır.

Tədqiqatçılar bu katren barədə müxtəlif fikirlər söyləsələr də, katrendə söhbətin Amerikadan getdiyini inkar etmirlər. Bizə belə gəlir ki, Nostradamus 1607-ci ildən ingilislərin yeni torpağa – Amerikaya axınından bəhs edir. Bu axın 1776-cı ildə yeni dövlətin – ABŞ-ın yaranması ilə bitdi. İngiltərənin Amerikada hökmranlığına son qoyuldu. ABŞ İngiltərəyə vergi verməkdən imtina etdi. 1783-cü ildə İngiltərə ABŞ-ı tanıdı. Onu da deyək ki, ABŞ-ı ilk tanıyan dövlət Fransa olub.

Bəzi qərb tədqiqatçıları bu katrenin Kubanın rəhbəri Fidel Kastronun 1959-cu ilin yazında ABŞ-a səfərindən, prezident Eyzenhauerin onu qəbul etməməsindən, vitse-prezident Riçard Niksonun onu soyuq qarşılamasından bəhs etdiyini qeyd edirlər. Lakin katrendə söz açılanlarla Fidel Kastronun ABŞ-a səfəri bir-birini tamamlamır.

## 8 k75

**Ata və oğul birgə öldürüləcəklər.**
**Qraf öz çadırındadır.**
**Turda ana oğlan uşağına hamilədir.**
**Ot qutusunda kiçik kağız parçaları olacaq.**

Bu katren barədə qəti söz demək çətindir. Tədqiqatçıların bir qismi bu qənaətdədir ki, katrendə bəyan olunanlar bəlkə də gələcəkdə baş verəcəkdir. Lakin Erika Çitəm 1-ci sətirdə baş verənləri 1908-ci ildə Portuqaliya kralı I Karlos və Lui Filippin Lissabonda birgə öldürüldüyünü bəyan edir. Hamilə qadın barədə heç bir məlumat yoxdur.

## 8 k76

**İngiltərədə kraldan çox qəssaba oxşayan,**
**Müəmmalı titulla doğulan, imperiyanı zorla ələ alacaq.**

**Qorxaq, inamsız, qanunsuz, torpağa qan udduracaq.**
**Onun vaxtı o qədər yaxındır ki, rahat nəfəs alıram.**

Katrendə söhbətin 1653-cü ilin dekabrında İngiltərənin Lord-Protektoru (ölkənin mütləq hakimi) seçilən Oliver Kromveldən getdiyini ilk olaraq XIX əsrdə Le Pelletye göstərmişdir. Sonrakı tədqiqatçıların heç biri başqa fikir irəli sürməmişdir. Nostradamusun Kromvel haqqında bəyan etdikləri yerini almış və həqiqətdən uzaq deyildir. Vətəndaş müharibəsində çoxlarının ölümünə və kral I Çarlzın 1649-cu ildə edamına bais olduğuna görə görücü onu qəssab adlandırmışdır. Kromvel həddən artıq qorxaq olub. Zirehini yalnız yatağa uzananda çıxararmış.

4-cü sətirdə göstərilənlər də yerini alıb. Kromvel hakimiyyətə gəldiyi 1653-cü ildən sonra cəmi beş il yaşayaraq, 1658-ci ildə dünyasını dəyişmişdi.

Nostradamusun Kromvelə nifrəti kral I Çarlzın edamı ilə bağlıdır. Böyük görücü yerdə hökmdara, göydə Allaha itaət etməyənləri lənətləyirdi.

## 8 k77

**Antixrist üç qardaşı məhv etdi.**
**Onun başladığı qanlı müharibə 27 il davam edəcək.**
**Dönüklər ölüblər, əsirlər sürgün olundular.**
**İnsan qana qəltan olacaq, torpaq qırmızı dolu altında qalacaq.**

Katrenin 1-ci sətri iki cür oxunur. “Antixrist üç qardaşı tezliklə məhv etdi” və ya “Üçüncü Antixrist tezliklə məhv edildi.”

Hər şeydən əvvəl bu katrendə tədqiqatçıları düşündürən üçüncü Antixristdir. Məlumdur ki. 1-ci Antixrist –Napoleon, 2-ci Antixrist – Hitler olmuşdur. Nostradamusşünaslar 3-cü Antixristin kimliyi barədə baş sındırsalar da, inandırıcı nəticəyə gələ bilməyiblər.

---

[1] David S. Montaigne. Nostradamus III Dünya müharibəsi haqqında (ingiliscə). ABŞ, 2002, səh.1.

Bizə qalırsa, bu katrendə söhbət ABŞ prezidenti Corc Buşdan (oğul) gedir. Hakimiyyətə gəldiyi gündən müsəlman aləminə qarşı səlib müharibəsinə başlayan, 11 sentyabr 2001-ci il hadisələrindən sonra məkrli niyyətini bütün dünyaya bildirən Buş Əfqanıstan və İraqı katrendə göstərilənlərdən də pis günə qoyub. İndi isə İranın üstünə düşüb. 2005-ci ilin sonlarına yaxın ABŞ-ın müdafiə naziri D.Ramsfeld bəyan etdi ki, bu müharibə 20 ildən çox çəkəcək.

Maraqlıdır ki, qərb tədqiqatçıları göstərirlər ki, III Dünya müharibəsi 2002-ci ildə başlayıb və Müqəddəs müharibə Orta əsrlər səlib müharibələri ilə müqayisədə daha təhlükəlidir.[1]

Katrenin 1-ci sətri ilə bağlı Luciano Sampietro "Nostradamus" kitabında (London, 2002, s.250) yazır ki, Antixrist 2000-ci ildə hakimiyyətə gəlib. 16 və 17 aprel 2026-cı ildə öləcək.

Erika Çitəm III Antixrist barədə çox maraqlı fikir irəli sürmüşdür. Onun fikrinə görə, Antixrist dövlət başçısı deyil, ayrıca götürülmüş bir dövlət və ya sistem də ola bilər. Naqasaki və Xirosima şəhərlərinə atom bombası atan ABŞ bu baxımdan Antixrist adına layiq ilk ölkədir.

Məlumdur ki, Nostradamus III Antixristi Mabus adlandırmışdır. MABUS-ABŞ. ABŞ-ın son illərdə apardığı ədalətsiz müharibələr, kiçik və gücsüz xalqları məhv etmək cəhdi deyilənləri təsdiqləyir.

**8 k78**

**Qılınc əyri tiyə ilə**
**Allahların məbədinə gələcəkdir.**
**O, qapını dönüklərə açacaqdır.**
**Beləliklə, barışmaz kilsəni hərəkətə gətirəcəkdir.**

Katrendə görücü 1563-cü ildən başlamış Avropada katoliklərlə protestantlar arasında və 1559-1598-ci illərdə katoliklərlə hugenotlar arasında gedən müharibələrdən bəhs edir. 1-ci sətirdə əyri tiyədən söhbət gedir. Məlumat üçün deyək ki, qılıncda əyri tiyə XVI əsrdə alman krallıqlarında icad edilmişdir.

## 8 k79

**Qız bürcü altında doğulan, atasını dəmirlə itirən adam.**
**Qorqondan üstündə qan olacaq, ikinci hamiləlik başlayacaq.**
**Yad torpaqda susmaq xatirinə o, hər şey edəcək.**
**Həmin adam özünü və uşağını yandıracaqdır.**

Şərhi çox çətin olan bu katreni tədqiqatçılar gələcəklə bağlayırlar. 1-ci sətirdə "atasını dəmirlə itirən adam" – atasına iynə vurularkən mənasında işlənib. Qorqon qədim əfsanədə təsvir edilən bədheybət, saçının yerində ilanlar sallanan, insan ona baxarkən nitqi tutulan, daşa dönən qorxunc qadındır. Güman ki, 3-cü sətirdə yad planet nəzərdə tutulur. 4-cü sətirdən göründüyü kimi, bədheybət uşağı olan adam həm uşağını, həm də özünü yandıraraq məhv edir.

## 8 k80

**Günahsızların, dul qadınların, bakirə qızların qanı töküləcək.**
**Böyük Qırmızı o qədər müsibətlər törədəcək ki,**
**Müqəddəs ikonalar yanan şamların mumuna batacaq.**
**Qorxudan dəhşətə gələrək heç kim yerindən tərpənməyəcək.**

Katrendə görücü Sovet İttifaqından və onun rəhbəri Stalindən və Böyük Qırmızı bolşevikdən söhbət açır. Məhz onun göstərişi ilə saysız-hesabsız ikonalar tonqalda yandırılır, günahsız adamların qanı axıdılırdı. Sovet hakimiyyəti dövründə on milyondan artıq adam edam edilmiş, elə o qədər də Sibirdə, Uzaq Şərqdə – düşərgələrdə məhv olmuşdu.

Bəzi tədqiqatçılar katrenin son rus çarı II Nikolay və ailəsindən bəhs etdiyini də istisna etmirlər.

## 8 k81

**Yeni krallıq, bərbad vəziyyətdədir.**
**O, şimal qütbü ilə dəyişiləcəkdir.**
**Siciliyadan həyəcan səsləri gələcək.**

**Filipə borc verən əlindən alınacaq.**

Bu katren barədə tədqiqatçılar müxtəlif fərziyyələr irəli sürsələr də, qəti söz deməkdən çəkinmişlər.

Təkcə David Ovasonun katren barədə fikirləri inandırıcıdır. Tədqiqatçı göstərir ki, vaxtilə İspaniya mülkiyyətinə daxil olan Sardiniyada ispanları vergidən başqa heç nə maraqlandırmırdı. Ona görə də yeni dövlət bərbad vəziyyətdə idi. Londonun təkidi ilə Utrext müqaviləsinə əsasən Sardiniya adası Avstriyaya verilmişdi (1713). Lakin 1717-ci ildə Londonda bağlanan müqaviləyə görə Sardiniya Savoya sülaləsinə verildi və ilk dəfə olaraq orada krallıq yarandı. 1717-ci il London müqaviləsinə əsasən Sardiniyanın yerinə Siciliya Avstriyaya verilmişdi. Bu sazişi bağlayan üç müttəfiq dövlət: İngiltərə, Fransa və Hollandiya idi.

Sardiniya adasında savoyalıların hakimiyyəti və taleyi barədə bax: 8 k88.

## 8 k82

**Uzun müddət quruca nökərçilik edəcək.**
**Vəzifədən əl çəkməkdən başqa heç nəyə nail olmayacaq.**
**O, köynəyinin boynunda acı zəhər və məktub gəzdirəcək.**
**Qaçan adam tutulacaq və təhlükədə olacaq.**

Bəzi tədqiqatçılar bu katrenin XVIII əsr fransız filosofu Jan Jak Russodan bəhs etdiyini söyləyirlər. Russo bir neçə aristokrat ailədə qulluq etmişdi. Lakin onun fikirlərini qorxulu hesab edən aristokratlar ondan imtina etmişdilər. 1-ci və 2-ci sətirlərdə bu məsələyə işarə olunur. Sonralar o, Fransa inqilabının görkəmli nümayəndəsinə çevrildi. Onun elmi işlərini Nostradamus zəhərdən də qorxulu hesab etmişdir (bax: 3-cü sətir). Onun fəlsəfi əsərlərindən sonralar hökmdarlar, o cümlədən də fransız Robespyer bəhrələnmişdilər. Russo xristian dinini, onun təzahür formalarını pisləyirdi. Russo “Emil, yaxud tərbiyə haqqında” (1762) və “İctimai müqavilə haqqında” (1762) əsərlərinin nəşrindən sonra təqibə

məruz qalmış, həbs olunacağını duyaraq ölkədən qaçmış, 1770-ci ildə yenidən Parisə dönmüşdü.

Russo xalqın azadlıq uğrunda mübarizəsinə haqq qazandırırdı: “Müasir dövlət gücə arxalandığı üçün onu yalnız güc devirə bilər” – deyirdi.

3-cü sətirdə Nostradamus Russonun dövlət üçün çox qorxulu olan bu fikrindən söhbət açır. L.Feyxtvanger Jan Jak Russoya “Qəribə adamın müdrikliyi” adlı roman həsr etmişdir.

**8 k83**

**Ən böyük yelkən Zara limanından başlayacaq.**
**O, öz işini Bizansın yaxınlığında bərqərar edəcək.**
**Düşmənə və dosta parçalanma olmayacaq.**
**Üç nəfərdən ikisi böyük talançılıq edəcək və tutulacaq.**

Bu katrendə məlum olan odur ki, Zara liman şəhəri indi Dubrovnik adlanır. Adriatik dənizi sahilində, Xorvatiya ərazisindədir.

Bizans isə yeni eranın IV əsrində Roma imperiyasının parçalanması nəticəsində yaranmış, XV əsrin ortalarına qədər mövcud olmuşdu. Paytaxtı Konstantinopol idi (indiki İstanbul). İmperiyanın dövlət dili IV-VI əsrlərdə latın, VIII əsrdən isə yunan dili olmuşdu. Ola da bilsin ki, bu katrendə XX əsrin sonlarında NATO qüvvələrinin Yuqoslaviyaya hücumundan, xüsusən də bu zaman Adriatik dənizindən Dubrovnik limanına yaxın yerdən, Yuqoslaviyanın raket atəşinə tutulmasından bəhs edilir. Məlumdur ki, Yuqoslaviya altı respublikadan ibarət idi. Yuqoslaviyanı parçaladılar, lakin xalqlar arasında düşmənçilik toxumu səpə bilmədilər.

4-cü sətirdə isə Yuqoslaviyanın rəhbəri Miloşeviç və başqalarından söhbət gedə bilər.

**8 k84**

**Patern Siciliyadan qışqırıq eşidəcək.**
**Bütün hazırlıqlar Triest körfəzində**
**Siciliyadakı kimi uzaqdan da eşidiləcək.**

**Çoxlu yelkəndən, dəhşətli vəbadan qaç, qaç!**

Tədqiqatçıların fikrincə, katrendə İtaliya və İspaniyada baş vermiş hadisələrdən bəhs edilir.

**8 k85**
**Bayon və Sən-Jan de Lüks arasında**
**Mars təpəsinə qoyulacaq.**
**Çünki məğlubedilməz şimallı Nanar işığı götürəcək.**
**Sonra yatağında köməksiz boğulacaq.**

Nostradamusşünaslar bu katreni də Napoleon Bonapartla bağlayırlar. İlk iki sətirdə işarə olunduğu kimi, Napoleon 2-ci dəfə hakimiyyətə qayıtdıqdan sonra, 1814-cü ildə birləşmiş ingilis-ispan ordusu Pireney dağlarından keçərək Sən-Jan de Lüksdə düşərgə salıb qüvvələrini toplamış və Paris üzərinə yerimişdi. Paris uğrunda döyüşlər Monmartr təpəliyinin yaxınlığında baş vermişdi.

3-cü sətirdə işlədilən “nanar” sözü latınca olub əxlaqsız mənasını verir. Məlumdur ki, rus çarı I Aleksandrı (1801-1825) dünyada əxlaqsızlığı ilə ad-san çıxaran II Yekaterina tərbiyə etmişdi. II Yekaterina özündən sonra taxt-taca oğlu Pavelin deyil, nəvəsi Aleksandrın gəlməsini istəyirdi.

Atası Pavelin öldürülməsində I Aleksandrın əli vardı. Hər hal - da atasına qarşı sui-qəsddən xəbərdar idi. Bunu o dəfələrlə etiraf etmişdi (bax: 6 k70).

“Mən əzab çəkməliyəm. Çünki mənim məşəqqətlərimi bundan başqa heç nə yüngülləşdirə bilməz” – deyirdi.

1812-ci il müharibəsində Napoleonu məğlub edən I Aleksandr birincilik çələngini onun əlindən almışdı (3-cü sətir). Bundan sonra Napoleon özünə gələ bilməmişdi. Obrazlı dildə desək, onun yanar çırağı sönmüşdü.

4-cü sətirdə Napoleonun Müqəddəs Yelena adasında dəhşətli ağrılar içində dünyasını dəyişməsindən bəhs edilir (1821).

## 8 k86

**Aranıdən, Tolosdan və frank şəhərindən,**
**Adrian dağından sonu görünməyən zolaq,**
**Çayı körpüdən keçir, sığınacaqda döyüş**
**Bayona daxil olanda hamı "Biharo!" deyə qışqıracaq.**

İspaniya ilə Fransa arasında saysız-hesabsız irili-xırdalı müharibələr olub. Bu da onlardan biridir. Əsgərlər döyüşdə irəli atılanda "Biharo!" (Biqorron) – "İrəli" – deyə qışqırıblar.

Maraqlı katrendir. Hər şeydən əvvəl onu deyək ki, dini müharibələr vaxtı Navarralı Henri hugenotlara rəhbərlik edərmiş. Onlar katoliklərə qarşı hücuma keçəndə – Biqarre! – İrəli! – deyə qışqırarmışlar. Navarralı Henri – IV Henri adı ilə Fransanın kralı olan - da müharibə ilə katrendə göstərilən torpaqları İspaniyadan geri almışdı. Ordu hücuma keçəndə "Biharo!"– İrəli! – deyə qışqırarmış. Nostradamus buna işarə edir.

## 8 k87

**Gizli düşünülmüş tamamilə həyata keçiriləcək.**
**Güc işə düşüb və səyahət ölümə doğrudur.**
**Seçilib, bərqərar olub, özününkülər tərəfindən qəbul edilib, məhv olub.**
**Günahsızın qanı inama görə axdı. Peşmançılıq.**

Böyük görücünün özündən çox-çox sonralar Fransa kralı XVI Lüdovikin başına gələcək hadisələri dəqiq görməsi insanı bir yan - dan təəccübləndirir, başqa tərəfdən də heyran edir. 1-ci sətirdə Fransa Milli Məclisinin (Konvent) gizli olaraq kralın edam olun - ması barədə qərar çıxarmasından və elə həmin gün – 21 yanvar 1793-cü ildə qərarın həyata keçirilməsindən bəhs edilir. 2-ci sətir - də onun edamı üçün gilyotinin hazırlanmasından və kralı arabada ölüm kürsüsünə aparmalarından (səyahət ölümə doğrudur) söz açılır. 3-cü sətirdə isə onun xalq tərəfindən qəbul olunmasından, taxt-taca sahib olmasından və özününkülər tərəfindən (Milli

Məclisdə onun yaxın qohumları da vardı) ölümə məhkum edilməsindən danışılır. 4-cü sətirdən də göründüyü kimi, Nostradamus hadisələri dəqiq görmüşdü.

Ölüm kürsüsündə olarkən təbil çalınana qədər o, aşağıdakıları deyə bilmişdi: “Ey insanlar! Mən günahsız ölürəm. Məni ölümə məhkum edənləri bağışlayıram. Allaha dua edirəm ki, mənim qanım Fransanı qana salmasın!”

Kral XVI Lüdovik ölkənin ağır vaxtlarında Fransanı tərk etmək cəhdinə görə ölümə məhkum edilmiş və gilyotində başı kəsilmişdi.

## 8 k88

**Sardiniyaya alicənab kral gələcək.**
**Krallığı yalnız üç il əlində saxlayacaq.**
**O, bir çox insani keyfiyyətləri ilə seçiləcək.**
**Laqeydlik və ona qarşı etinasızlıq onu məhv edəcək.**

Nostradamusun bu katrendə bəyan etdikləri də yüzdə yüz yerinə yetmişdir. Nostradamusşünas Le Pelletye hələ 1867-ci ildə bu katrenlə bağlı yazmışdı: “Qədim və adlı-sanlı nəslin övladı, Fransa Respublikası tərəfindən bütün mülklərindən məhrum edilmiş kral IV Emmanuel 1798-ci ildə Sardiniya adasına gələrək düz üç il hökmranlıq etmişdi. Lakin bundan sonra qardaşı Viktor I Emmanuelin xeyrinə taxt-tacdan əl çəkərək Romaya gəlmişdi. Ömrünün qalan hissəsini Romada keçirən kral get-gedə unudulmuş, ona göstərilən etinasızlıq və tənhalıqdan üzülmüş, 1819-cu ildə dünyasını dəyişmişdi.

Mənə belə gəlir ki, tədqiqatçı Le Pelletyenin təqribən bir əsr yarım bundan əvvəl bəyan etdiklərinə nəsə əlavə etmək çətindir.

Sardiniya adasının İspaniyanın əlindən alınması, Savoya sülaləsinə verilməsi, krallığın yaranması və s. barədə ətraflı məlumat üçün baxmaq olar: 8 k81.

## 8 k89

**Öz dayısının əlinə düşməkdən qaçacaq.**
**Hökmranlıq etməkdən ötrü öz uşaqlarını məhv edəcək.**
**Ayağını Pelonkolun üstünə qoyub xalqla mübahisə edəcək.**
**Öldü və cəngavər atlarının arasında sürüdüldü.**

Bu katren barədə tədqiqatçılar qəti söz deməkdən çəkinmişlər.

## 8 k90

**Səlibçilərdən biri təlaş içində tapılanda.**
**Müqəddəsin yerində buynuzlu öküz görəcəklər.**
**O vaxt onun yerini donuz balası tutacaq.**
**Kralın əmrilə o, daha himayə olunmayacaq.**

Bu katren barədə tədqiqatçılar ağlabatan, ciddi bir söz deməkdən çəkinmişlər.

Bizə belə gəlir ki, 1-ci sətirdə söhbət çar Rusiyasından gedir. 1-ci sətirdən göründüyü kimi, Rusiyada çaxnaşmalar, təlaş baş verdi.

SSRİ yaradıldı və onun tərkibində çox sayda özünüidarə hüququna malik müsəlman dövlətləri meydana gəldi. 2-ci sətirdə Nostradamus buna işarə edir. Ona görə ki, Açıqlamada göstərilir ki, buynuzlu öküz müsəlman dövlətini təmsil edir.

SSRİ-də müsəlman dövlətlərinin müstəqilliyi xristian aləmini təşvişə salmışdı. Odur ki, milli birlik güclü olan bu ölkəyə müdaxilə etməyə başladılar və nəhayət istəklərinə çatdılar. Siyasət aləmində heç bir səriştəsi olmayan Qorbaçovu hakimiyyətə gətirdilər. O, sovet dövlətini dağıtdı və müsəlman dövlətləri himayəsiz qaldı.

3-cü sətirdə işlənən "donuz balası" termini barədə onu deyə bilərik ki, ərəblər bəzən amerikalıları ingilislərdən – xristian xalqından törədiyinə görə donuz balası adlandırmışlar. Lakin bizə belə gəlir ki, katrendə Nostradamus Sovet dövlətinin dayaqlarını laxladan Xruşşova (xalq arasında onu donuza bənzədirdilər) və

onun davamçısı, Sovet dövlətini dağıdan Qorbaçova (donuz balası) işarə edir.

**8 k91**

**Rodos camaatının yaşadığı yerə qədəm qoyanda,**
**Səlibçilər, demək olar ki, birləşəcəklər.**
**İki aparıcı qüvvə (Mars və Venera) Balıq bürcündə görüşdü.**
**Və çoxlu sayda adam daşqınla cəzalandı.**

Xristian koloniyası yaşayan Rodos adası 1523-cü ildə türklər tərəfindən tutulmuşdu. Lakin Osmanlı imperiyasının süqutuna yaxın, 1912-ci ildə İtaliya-Türkiyə müharibəsi zamanı Rodosu italyanlar ələ keçirmişdilər. 1945-ci ildə isə italyanlar Rodosu yunanlara vermişdilər. 2-ci sətirdə görücü buna işarə edir. Bir xristian dövləti Rodosu tutur və sonra onu başqa bir xristian dövlətinə verir.

Mars və Venera planetlərinin orbitləri tez-tez üst-üstə düşür. Odur ki, Rodosu sunami nəticəsində daşqının nə vaxt basacağını demək çətindir. Hörmətli oxucu, etiraf edim ki, XXI əsrin əvvəllərində Bakıda zəlzələ olana qədər Quranda göstərilən “Bir anda özünü də, var-dövlətini də məhv edərəm” kəlamını dərindən dərk etmədiyim kimi, 2005-ci ilin sonlarında Asiya və Amerika qitələrində sunami nəticəsində baş verən daşqınları görənə qədər Nostradamusun söz açdığı daşqınların miqyasını da dərk edə bilmirdim.

**8 k92**

**Krallıqdan uzaqda təhlükəli səyahətə göndərildi.**
**O, böyük ordu ilə gedərək, onu əlində saxlayacaq.**
**Kral öz xalqını girov kimi saxlayacaq.**
**Qayıdandan sonra o, bütün ölkəni çapıb-talayacaq.**

Bu katreni bir neçə hökmdara aid etmək olar. Tədqiqatçılardan bəziləri qeyd edirlər ki, Nostradamus katrendə isveç kralı XII

Karldan söz açır. Böyük Şimal müharibəsi zamanı (1700-1720) o, Poltava yaxınlığında I Pyotrun ordusuna məğlub olduqdan sonra Türkiyəyə qaçır. Əsir sifətilə sultanın qonağı olur. 1715-ci ildə qaçaraq vətənə gəlir və böyük ordu yaratmaq üçün pul yığır.

Lakin 1-ci sətir katrenin XII Karla aid olmadığını təsdiqləyir. Onu heç kim, heç yana göndərməmişdi. O, I Pyotra əsir düşməkdən qorxaraq qaçıb canını qurtarmışdı.

Katreni Mao Tzedunla bağlamaq istəyən tədqiqatçılar da vardır. Lakin katrendə bəyan olunanlarla Mao Tzedunun fəaliyyətində baş verənlər uyğun gəlmir.

Əslində bu katren Napoleon Bonapartla bağlıdır. Katrenin 1-ci sətrinin Napoleonla bağlı olduğunu Y.V.Tarlenin "Napoleon" əsərindən də görmək olur. Müəllifin göstərdiyinə görə Napoleon Fransa-İtaliya müharibəsinin qalibi kimi çox məşhurlaşmışdı. Bu, Direktoriyanı narahat edirdi. Odur ki, Napoleonun Misirə getmək arzusu onların ürəyindən oldu. "Qoy, Misirə getsin: qayıtsa–yaxşı, qayıtmasa, nə etmək olar. Barras və onun yoldaşları hələ qabaqcadan itkiyə səbirlə qatlaşmağa hazır idilər. Ekspedisiya qərara alındı".[1]

1798-ci il may ayının 17-də Napoleonun donanması Tulondan yola düşdü. Artilleriya ilə birlikdə onun 300 min nəfərlik ordusu, təqribən 350 gəmi və barkası vardı.

Həmin ilin iyun ayının 10-da Maltanı, iyul ayında isə İskəndəriyyə və Qahirəni tutan Napoleon Fransada böhran vəziyyəti yarandığından səfərini yarımçıq qoyub Parisə qayıdır. 1799-cu ilin noyabrında çevriliş edərək hakimiyyəti ələ alır. Ömrünü müharibələrdə keçirən Napoleonun hakimiyyəti zamanı iki milyondan çox fransız əsgər və zabiti məhv olmuşdu. Təkcə 1812-ci il Fransa-Rusiya müharibəsi zamanı yarım milyon fransız hərbçisi, yüz mindən çox at və hərbi ləvazimat itirən Napoleon

---

[1] Y.V.Tarle. Napoleon. Bakı, 1993, səh. 56.

Fransaya dönən kimi, hər evdən bir əsgər və bir at tələb edərək ordu yaratmış və yenidən müharibəyə atılmışdı.

4-cü sətirdə Nostradamus buna işarə edir.

**8 k93**

**O, prelat vəzifəsini əlində yeddi aydan çox saxlamayacaq.**
**Onun ölümü ilə böyük təfriqə başlayacaq.**
**Başqa birisi prelatlığı əlində yeddi ay saxlayacaq.**
**Venesiya yaxınlığında sülh, birlik bərpa olundu.**

Nostradamus katolik kilsəsinə, xüsusən də Roma Papalığına neçə-neçə katren həsr etmiş və demək olar ki, vaxt çatdıqca böyük görücünün əsrlərlə öncə göstərdiyi yerini almışdır. Bu katren də istisna təşkil etmir. Katrendə söhbət Roma Papalarından gedir. Məsələn, 1590-cı ildə Papa V Sikstin ölümündən sonra seçilən Papa II Urban cəmi iki həftə, ondan sonra XVI Qriqori cəmi on ay Papalıq kürsüsünə sahib olmuşdu. Lakin onların vaxtında Vatikanda heç bir təfriqə baş verməmişdi. Tədqiqatlar göstərir ki, Nostradamusun katrendə bəyan etdikləri 1978-ci ildə olub. Bir il ərzində Papa kürsüsündə üç nəfər əyləşib. Papa VI Pavel öldükdən sonra Papa seçilən İohann I Pavel Vatikanda baş verən eybəcərliklərə son qoymaq istəmiş, lakin Kuriya ilə Papa arasında təfriqə düşmüş, I Pavelin Papa seçilməsindən düz bir ay keçmiş onu zəhərləmişdilər.

Bundan sonra 4-cü sətirdən göründüyü kimi, Venesiyanın prelatı olan Albino Luçiano İohann II Pavel adı ilə Roma Papası seçilmişdi (1978-2005). Papalıqda əmin-amanlıq, birlik yaratmağa nail olmuşdu.

**8 k94**

**Gölün qarşısında, sərvətin çoxunun atıldığı yerdə,**
**Yeddi ay müddət, sərvət sahibi mütəəssir olacaq.**
**Vaxtı yubadaraq döyüşə girişmədiklərindən**

**İspanlar Albiondan olanlar tərəfindən qarət ediləcəklər.**




*İngilislər Kadis yaxınlığında ispanların qızıl aparan gəmilərinə hücum edərkən (1590)*

Diqqəti çəkən katrendir. Son sətirdə söhbət gedən "Albion" termini İngiltərəyə aiddir. Bu adı onlara qədim romalılar vermişdilər. Tarix kitablarında indi də tez-tez işlənən sözdür. Albionlar isə ingilislər deməkdir. Maraqlıdır ki, Nostradamusun zamanında ingilislərlə ispanlar müttəfiq idilər. Lakin vaxt dəyişib, dostluq pozulub. 1590-cı ildə 40 ispan gəmisi Cənubi Amerikada əldə olunmuş qızılla yüklənərək yeddi ay çəkən uzun, üzücü və qorxulu yoldan sonra Kadis boğazına çatmışdı.

Onları 13 hərbi gəmi müşayiət edirdi. Kadis sözü – örtülü, qapalı yer deməkdir. Güman edirdilər ki, burada heç bir təhlükə ola bilməz. Ona görə də Kadis körfəzi yanında sakit buxtada lövbər salmaq qərarına gəlmişdilər. Axşamüstü gözətçilər xəbər vermişdilər ki, üfüqdə ingilis gəmiləri görünür. İspanlar narahat olmadılar. Fikirləşdilər ki, dar buxtaya heç kim döyüş üçün girişməz. Müşayiətçi gəmilərin kapitanlarının dənizə çıxıb ingilislərlə döyüşə girmək belə ağıllarına gəlmədi. İngilislər buxtaya girərək

bir yerə toplanmış müşayiətçi gəmiləri top atəşinə tutaraq məhv etdilər və ticarət gəmilərini və qızılı ələ keçirdilər. İspanlar öz hərbi-dəniz donanmasını yandırdı ki, ingilislər ticarət gəmilərini və sərvəti dar buxtadan çıxarıb apara bilməsinlər.

### 8 k95

**Başqalarını şirnikləşdirən xəndəyə atılacaq.**
**Və əli-qolu bağlı bir müddət orada qalacaq.**
**Din xadimi xaçla birlikdə rəhbərə qoşulacaq.**
**Sərt qanun razı tərəfləri məmnun edəcək.**

Tədqiqatçılar bu katrenin ABŞ prezidenti Ronald Reyqandan bəhs etdiyini yazırlar. 1-ci sətirlə bağlı onu demək olar ki, Qorbaçovu şirnikləndirərək Sovet İttifaqının dağılmasına bais olan ilk dövlət başçısı Reyqan olub. Onun Aralıq dənizində Qorbaçovla görüşləri çox şeydən xəbər verir.

2-ci sətirdən də göründüyü kimi, Reyqan prezidentliyi dövründə çox qalmaqallarla üzləşmişdi. İran – kontras onlardan biri idi. Xristian aləminə xidmətləri, müsəlman aləminə təzyiqləri Reyqanı xristian din xadimlərinin sevimlisinə çevirmişdi.

Bizə qalırsa, katren B.Yeltsindən söz açır.

Katrenin nə 1-ci, nə də 2-ci sətirlərini Reyqana aid etmək olar. Hər iki sətirdə bəyan olunanlar Rusiyanın prezidenti Yeltsinin başına gəlib. Sovet İttifaqının dağıdılmasında onun xidmətləri böyük olub. Katrenin sonrakı sətirlərində göstərilənlər də yerini alıb.

### 8 k96

**Boş Sinaqoq heç bir bəhrə verməyəcək.**
**Kafirlərə veriləcəkdir.**
**Babilionlu qız təqib olunacaq.**
**Bədbəxt və qəmgindir, onun qanadlarını sındıracaqlar.**

Tədqiqatçıların göstərdiyinə görə, katrendə söhbət Yerusəlimdəki Solomon məbədindən gedir. İndi o, müsəlmanların Qızıl İbadətgahının səkisinə çevrilib. Babilionlu qız – İsrail dövlətidir. 4-cü sətirdə onu hər tərəfdən sıxacaqlarından bəhs olunur. Lakin Erika Çitəm katrendə göstərilənlərin Nostradamus dünyasını dəyişdiyi 1566-cı ildə baş verdiyini qeyd edir. Tədqiqatçı göstərir ki, Sultan Süleyman yəhudilərə sığınacaq vermiş, onların Konstantinopol və Salonikdə yerləşməsinə şərait yaratmışdı.

**8 k97**

**Var çayının sonunda bütün hakimiyyət dəyişəcək.**
**Sahilin yaxınlığında üç gözəl uşaq doğulacaq.**
**Onların ağlı kəsən vaxt xalq dilənçi halına salınacaq.**
**Krallıq və ölkə dəyişiləcək və genişlənəcəkdir.**

Var çayı Kann və Nitsadan axıb Aralıq dənizinə tökülür. Var çayı Nostradamusun vaxtında Fransa və Savoya dövlətlərinin sərhədini təşkil edirdi. Fransız ordusu dəfələrlə Savoyanı tutmuş, xalqı qarət etmişdi. 1860-cı ildən Savoya Fransaya qatılıb. 4-cü sətirdə görücü buna işarə edir.

**8 k98**

**Kilsə camaatının qanı axıdılacaq**
**Qan su yerinə axacaq**
**Və uzun müddət dayandırılmayacaq**
**Müsibət! Müsibət! Müqəddəslərə fəlakət üz verəcək.**

İlk baxışda şərhi asan görünən bu katren barədə tədqiqatçılar fərziyyələr irəli sürsələr də, qəti söz deməkdən çəkinmişlər.

Erika Çitəm güman edir ki, bu katrendə 1792-ci ildə Fransada din xadimlərinin başına gələn müsibətlərdən bəhs edilir. Lakin nələrin baş verdiyini açıb göstərmir.

**8 k99**

**Üç dünyəvi kralın qüvvəsi ilə**
**Müqəddəs taxt-tac başqa yerə köçürüləcək.**
**Orada ruhun və varlığın məğzi**
**Bərpa olunacaq və əsl taxt-tac kimi qəbul olunacaq.**

Bu katren də ümumi səciyyə daşıyır. Təbii ki, söhbət Vatikandan gedir. Heç kimə sirr deyil ki, Roma kilsəsi mafioz qruplarla əlaqədə olmuş, çirkli pulların təmizlənməsi, Papa İohann I Pavelin zəhərlənərək öldürülməsi burada baş vermişdi. Bir çoxlarında buna görə Vatikana qarşı inamsızlıq əmələ gəlib. Ola bilsin ki, 2-ci sətirdə buna işarə edilir. Ola da bilsin ki, Roma Papalığı başqa yerə köçürüləcək.

3-cü sətirdə söhbət ondan gedir ki, indi insanın mənəvi və fiziki cəhətləri arasında uyğunluq yoxdur. İnsanlar gələcəkdə o qədər yetişəcəklər ki, Yaradanla əlaqəni özləri quracaqlar. Kilsəyə və İncilə ehtiyac hiss olunmayacaq. Onda ruhun və varlığın məğzi bərpa olunacaq.

**8 k100**

**Bolluq naminə axıdılan göz yaşı,**
**Yuxarıdan aşağıya, aşağıdan lap yuxarıya qədər.**
**Çox böyük inam həyatla oyun arasında mənasını itirdi.**
**Su bol olsa da ölüm yanğısına azlıq etdi.**

Bu katren barədə də qəti söz demək olmur. Katreni şərh etmək üçün bir tutarlı tarixi faktın olmaması onun şərhini imkansız edir.

Bununla belə, Ned Hallinin çox ehtiyatla irəli sürdüyü bir fərziyyəni oxucuların nəzərinə çatdırmaq istərdik. Tədqiqatçı qeyd edir ki, bəlkə də katren Monakonun hakim Qrimaldilər sülaləsindən olan şahzadəsinin motorlu qayıqda qəzaya uğraması və sevimli ərini itirən şahzadə xanım Karolinanın göz yaşları axıtmasından bəhs edir.

# IX SENTURİYA (IX YÜZLÜK)

*Yaradanın sirləri dərkedilməzdir. İnsan zəkası onun mənasını zərrə qədər də dərk etmək iqtidarında deyildir.*



## 9 k1

**Burkdan olan tərcüməçinin evində,**
**Masanın üstündə məktublar tapılacaq.**
**Taygöz, sarışın, ağbəniz yaşlı işdən hali olacaq.**
**Yeni konnetabl ona qarşı çıxacaq.**

Ratren Nostradamusun ölümündən az sonra baş verən hadisələrdən bəhs edir. Fransanın Konnetablı (baş komandan və ya polisin rəhbəri) Monmoransini xəbərdar edirlər ki, məşhur fransız alimi Etiyen de la Boeti ölkədə baş alıb gedən özbaşınalıqla bağlı "La Servitude Volontaire" – "Könüllü əsarət" adlı əsər yazıb. Alimin böyük nüfuzuna baxmayaraq Monmoransi kitabın çapına qadağa qoya bilmişdi. Monmoransi 1567-ci ildə döyüş vaxtı həlak olmuşdu. Yeni Konnetablın vaxtında 1670-ci ildə həmin əsər çap olunmuşdu.

## 9 k2

**Aventin təpəliyinin başından səs eşidiləcək.**
**Qaçın, hər iki tərəfə qaçın!**
**Qırmızıların qanı ilə qəzəb yatacaq.**
**Riminidən, Pratodan, Kolonna qovulacaq.**

Katren İtaliyadan bəhs edir. Aventin üstündə Romanın bərqərar olduğu Yeddi təpədən biridir. Qədimdə Roma Senatı Patrisinin zülmünə qarşı etiraz əlaməti olaraq Aventin təpəliyinə çəkilibmiş. Bununla bağlı italyan dilində "Avenə çəkilmək" ifadəsi qalmışdır. Nostradamus bundan istifadə edərək Mussolininin hakimiyyəti dövründə faşistlərin törətdikləri cinayətləri, xüsusən də 1924-cü ildə deputat Matteoti oğurlanıb öldürüləndən sonra deputatların etiraz səsini ucaldaraq Parlamenti tərk etmələrini göstərir.

3-cü sətirdə qırmızı partizanların – kommunistlərin nifrətinə qan tökmə ilə son qoyulacağından danışılır. Həqiqətən də 1945-ci ilin aprelində partizanlar Mussolinini, onun məşuqəsini və ətrafında olanları öldürmüşdülər.

Sonuncu sətirdə göstərilənlər də doğrudur. Mussolini Rimini və Prato yaxınlığında anadan olmuşdu. Kolonna orada məşhur ailə olub. Lakin burada söhbət bir çox cəhətlərinə görə "məşhur-laşmış, rəhbər adını qazanmış Mussolinidən gedir.

**9 k3**

**Böyük inək Ravendə böyük fəlakət içindədir.**
**On beş tərəfindən gətirilənlərin Fornozda qabağı kəsilib.**
**Romada iki ikibaşlı bədheybət doğulacaqdır.**
**Qan, alov, daşqın, lap böyüklər xilas olacaqlar.**

Katren İtaliyanın xalq qəhrəmanı Cüzeppe Qaribaldi (1807-1882) ilə bağlıdır. Böyük inək (latınca) Ravena və Ferraro arasında limandır. Sonralar Qaribaldinin şərəfinə adı dəyiş-dirilərək Porto-Qaribaldi adlandırılmışdır. Avstriya və Papalığın Polisləri tərəfindən Kesenatiko şəhəri mühasirəyə alınanda Qari-baldi və tərəfdarları 13 qayıqda (katrendə 15 qayıq göstərilmişdir. Ya Nostradamus, ya da tarixçilər səhvə yol veriblər – Q.P.) cəsa-rətlə dənizə çıxmışlar. Avstriyanın mühafizə gəmisi dəniz yol-larını kəsərək onlara təslim olmaq əmri vermişdi. Lakin onlar atəş altında Böyük inək burnunu keçmişdilər.

4-cü sətirdə göstərilənlər doğru çıxmışdır. Yalnız üç qayıq və 30 nəfər inqilabçı xilas ola bilmişdi. 3-cü sətirdə söhbət Habsburqlardan (Avstriya və Prussiya) gedir. Onların Romanı tutması görücünü hiddətləndirmiş və buna görə də "ikibaşlı bədheybət" ifadəsini işlətmişdir.

### 9 k4

**Daşqından edilən kəşflərdən bir il sonra**
**İki böyük seçiləcəkdir. Birinci dayana bilməyəcək.**
**Kölgəyə qaçan ikincisi sığınacaq tapacaq.**
**Birincinin müdafiə etdiyi ev qarət olunacaq.**

Katrenin 1-ci sətrində deyilənləri şərh etmək çətindir. Ola bilsin ki, söhbət ABŞ və Sovetlər Birliyinin kosmosu fəthindən, kosmonavtların aya enmələrindən, nüvə raketlərindən, fəza gəmilərindən gedir. Hər halda bu kəşflər 1978-ci ilə qədər edilmiş olmalıdır. Çünki katrenin yerdə qalan hər üç sətri Roma Papaları İohann I Pavel və İohann II Paveldən bəhs edir. I Pavel 1978-ci ildə Roma Papası seçilən kimi, ciddi tədbirlər görməyə, kardinalları və başqalarını işdən çıxarmağa başlamışdı (bax: 1 k65, 2 k15, 3 k17, 3 k65, 4 k11, 5 k49, 5 k92, 6 k9, 8 k93, 10 k12). Odur ki, seçkidən düz bir ay keçəndə onu zəhərləyib öldürmüşdülər. II Pavel isə "pərdə arxasına" qaçmış, Vatikan bankında baş verən maliyyə fırıldaqlarını, mafiya ilə əlaqələri görməzliyə vurmuş, Vatikanda yer alan eybəcərliklər sirr olaraq qalmışdır.

4-cü sətirdən göründüyü kimi, I Pavelin Vatikanda bərqərar etmək istədiyi müqəddəslik heçə endirilmişdi.

### 9 k5

**Ayağın üçüncü barmağı birinciyə oxşayacaq.**
**Yeni monarxa aşağıdan yüksəkliyə.**
**Pizi və Luku tiran kimi tutan**
**Özünün sələflərinin səhvini düzəldəcək.**

Şərhi inanılmaz olan bu katrendə Nostradamusun nə demək istədiyini tədqiqatçı Le Pelletye aça bilmişdir. Katrendə söhbət III Napoleondan gedir. 1-ci sətirdə III Napoleonun da özü-özünü İmperator elan etməsindən, 2-ci sətirdə onun da I Napoleon kimi, lap aşağıdan İmperator tituluna qədər yüksəlməsindən, I Napoleonun oğlu II Napoleonun hakimiyyətə gəlmədən 22 iyun 1832-ci ildə Vyanada ölməsindən bəhs edilir. 4-cü sətirdə görücü buna işarə edir, yəni II Napoleonun hakimiyyətə gəlməməsi (Əslində II Napoleon atası sürgünə göndərilməmişdən əvvəl anası ilə birgə Avstriyada hökmdar olan babasının yanına getmişdi. Hakimiyyət barədə düşünmürdü) onun ayağına buraxılmış səhv kimi yazılıb.

**9 k6**

**Saysız-hesabsız ingilislər Qienidə,**
**Onu Anqlakvitani adı altında tutacaqlar:**
**Lanqedoku, İspalmı, Bordolu,**
**Sonradan oranı Barboksitan adlandıracaqlar.**

Katrendə adı çəkilən yer adları, demək olar ki, məlum deyildir. Görücü ingilislərin bir çox yerləri zəbt edəcəklərini bəyan edir. Doğrudan da, ingilislər dənizdə hökmranlığı ələ aldıqdan sonra düz 300 il müddətinə bir çox ölkələri tutmuşdular. Onların bu hökmranlığı 1947-ci ildə Hindistan, Pakistan və bir çox başqa dövlətlər müstəqillik əldə etdikdən sonra başa çatmışdı.

**9 k7**

**Tapılmış sərdabəni açan adama**
**Və onu həmin anda bağlamayan adama,**
**Bəla gələcək, nədən öldüyünü heç kim sübut edə bilməyəcək.**
**Fərq etməz Breton, yaxud Normand kralı olsun.**

Hər şeydən əvvəl qeyd edək ki, qədim zamanlardan Breton – britaniyalı, Normand–fransız mənasında işlənib. Katrendə söhbət dünyanın ən əzəmətli tikililərindən biri, tarixə möcüzə kimi qızıl

xətlə yazılan Misir ehramlarından və fironlardan biri Tutanxamon və onun sərdabəsindən gedir. 1908-ci ildən ingilis arxeoloqu Hovard Karter, onun hamisi, ingiltərəli Lord Georgi Herbertin rəhbərliyi altında Fironlar vadisində qazıntılar aparırdılar. 1922-ci ilin lap sonlarında onlar Misir fironlarının XVIII sülaləsinin nümayəndəsi Tutanxamonun sərdabəsini aşkar etmişdilər (Bu, incəsənət nümunələri ilə zəngin olan yeganə sərdabədir ki, talan edilməyib).

Qraf Georgi Herbert sərdabə aşkar ediləndən sonra heç vaxt ayrılmadığı sevimli itini Londona göndərməli olmuşdu. Sərdabəyə girib-çıxandan sonra it xəstəhal idi. İki ay sonra Lord Georgi Qahirədə, elə həmin anda iti Londonda ölmüşdü.

Arxeoloji qazıntılarda iştirak edən 30-dan artıq adam da az sonra məlum olmayan xəstəlikdən dünyasını dəyişmişdi.

Misir alimlərindən biri uzunmüddətli tədqiqatlardan sonra, 1962-ci ildə bəyan etmişdi ki, insanların ölümünə səbəb olan göbələk virusunu aşkar edib. Səhərisi gün o, avtomobil qəzasına düşmüş, heç bir xəsarət almadan dünyasını dəyişmişdi. Həkimlər onun məlum olmayan xəstəlikdən keçindiyini təsdiq etmişdilər.

**9 k8**

**Kral mərtəbəsinə yüksəlmiş kiçik oğul atasını ölümə məhkum edəcək.**
**Münaqişədən sonra çox şərəfsiz ölüm.**
**Yazı tapıldı, şübhə peşmançılıq doğuracaq.**
**Qovulmuş canavar yataqda uzananda.**

Katrendə sanki hər şey aydın bəyan edilib. Bununla belə, katren barədə qəti söz demək çətindir. Görücünün 4-cü sətirdə işarə etdiyi canavar barədə onu demək olar ki, Adolf qədim german dilində "qəşəng canavar" mənasında işlənib.

Roma şəhərinin simvolu da "dişi canavar" və onu əmən Romul və Rem qardaşlarıdır. O ki qaldı 1-ci sətirə, tarixdə hakimiyyətə gəlmək üçün atasını ölümə məhkum edən şöhrətpərəstlər çox olmuşdur.

**9 k9**

**Əbədi sönməyən oddan yanan lampa,**
**Vestallar məbədində tapılanda,**
**Uşaq xəlbirdən keçən od, su tapdı.**
**Nim, Tuluza suda məhv olacaq, bazar dağılacaq.**

Katrendə Fransadan bəhs edilir. Nim və Tuluza arasında məsafə 140 mildir. Katren barədə ağlabatan bir fikir söylənməyib. Ola bilsin ki, gələcəkdə sunami nəticəsində bu şəhərlər su altında qalacaq, ümumavropa bazarına böyük ziyan dəyəcək və ya bu vaxt ümumi bazar dağılacaqdır.

Onu da deyək ki, 1988-ci ildə Nim daşqına məruz qalmış, dağıntılar olmuş, lakin heç nə tapılmamışdı.

**9 k10**

**Rahib və rahibənin uşağı ölümə məruz qalacaq.**
**Onu ayı basıb öldürəcək, qaban aparacaq.**
**Fua və Pamu yaxınlığında ordu düşərgə salacaq.**
**Tuluza, Karkassona qarşı carçı çadırı qurulacaq.**

Bu katren hələlik şərh olunmayıb.

**9 k11**

**Ədalətli adamı nahaqdan ölümə məhkum etməyə gələcəklər.**
**Camaatın gözü önündə, onların arasında yox edildi.**
**Bu yerdə böyük epidemiya baş verəcək.**
**Hakimlərin özləri belə qaçmağa məcbur olacaqlar.**

Tədqiqatçıların əksəriyyətinin rəyinə görə bu katren ingilis kralı I Çarlzın edamı ilə bağlıdır. I Çarlzın edamından (1649) sonra, 1665-ci ildə Londonda baş verən taun əhalinin üçdə birini məhv etmişdi. 1966-cı ildə isə Böyük London yanğını, demək olar ki, o vaxt taxtadan olan evlərin hamısını məhv etmişdi.

## 9 k12

**Diana və Merkurinin hədsiz gümüşü**
**Əksləri göldə görünəcəkdir.**
**O heykəltəraş təzə gil axtaracaq.**
**O özü və adamları qızılla doydurulacaqlar.**

Tədqiqatçılar bu katreni mistik, fövqəltəbii hesab edirlər. İnsan ətraf mühitə daxili aləminin gözü ilə baxır. Xəyallara qərq olur. Diana Buddalarda təsəvvüf mənasında işlənib. 3-cü sətir xüsusi maraq doğurur. Maya hindilərinin təqvimində 2012-ci ildən sonra insan tamamilə dəyişəcəkdir. Mənəvi yüksəliş baş verəcəkdir. 3-cü sətirdə Nostradamus buna işarə edir. Əsatirə görə Yaradan insanı oddan, sudan, torpaqdan və havadan yaradıb. Bu katrendə oddan da (Merkuri), sudan da, torpaqdan da (gildən) söhbət gedir. Nostradamus 3-cü sətirdə bəyan edir ki, Allah yeni insanı yaratmaq üçün təzə gil axtaracaq.

## 9 k13

**Solonun ətrafındakı qaçqınlar,**
**Okusa girmək üçün gecə gətirildilər.**
**Modendən iki nəfər Bolonyaya qarşı qəddardır.**
**Gətirildilər və Buzansonun ocağında müəyyən olundular.**

Bu katren barədə qəti söz deyən olmamışdır.

## 9 k14

**Boyaqçı qabının üstünün hamar yerinə yığılmış**
**Şərab, bal və bitki yağı sobaların üstünə qoyuldu.**
**Onlar batacaqlar, cam kimi onlara yarlıq vurulacaq.**
**Bordodan, toplardan atılan yeddi atəş susdu.**

Bu katren şərhi çox müşkül olan katrenlərdən hesab olunur. Hər halda katrenin keçmişə aid olduğunu güman etmək olar.

## 9 k15

**Perpiniya yaxınlığında qırmızı məhbuslar,**
**Ortada olanlar darmadağın ediləcək, uzağa aparılacaqlar.**
**Üçü tikə-tikə olacaq, beşi isə dəhşətli əzab-əziyyət içində**
**Burqundiyanın prelatı və hökmdarı üçün saxlanacaq.**

Tədqiqatçıların fikrincə bu katren XVII əsrin ortalarında Fransa ilə İspaniya arasında gedən çəkişmələrdən bəhs edir.

Perpiniya 1659-cu ilə qədər İspaniyaya aid olub.

## 9 k16

**Kastiliyalı Franko yığıncaq keçirəcək.**
**Səfir razılaşmayacaq, bunu nifaq adlandıracaq.**
**Riveranın adamları bir yerə toplaşacaqlar.**
**Böyük körfəzə girməkdən imtina edəcəklər.**

Böyük görücünün yüz faiz yerini almış katrenlərindəndir. Hər şeydən əvvəl onu demək lazımdır ki, Nostradamus özündən təqribən 400 il sonra baş verəcək hadisələri dəqiq görmüş, hətta hadisələrin iştirakçılarının adlarını belə dəqiq göstərmişdir. Görücü diktator Fransisko Franko və ondan əvvəl hakimiyyətdə olmuş Primo de Riveradan söz açır. Kral Primo de Rivera qiyam nəticəsində hakimiyyətdən uzaqlaşdırılmışdı. O, Fransada yaşamış və 1930-cu ildə dünyasını dəyişmişdi. Onun oğlu Xose Antonio Primo de Rivera atasının qanını almaq üçün ətrafına ordu toplayıb mübarizəyə başlamışdı. 3-cü sətirdə buna işarə edilir. Lakin o, elə birinci döyüşdə həlak olur. Onun yerini Franko tutur və sonralar İspaniyada hakimiyyəti ələ alır. Bu diktatorla bağlı artıq ətraflı danışdığımızdan (bax: 3 k54, 3 k68, 5 k59, 6 k15, 6 k45) burada qısaca olaraq tədqiqatçı Robbun 1941-ci ildə katrenlə bağlı irəli sürdüyü və sonralar tarixin təsdiq etdiyi fikirlərini oxuculara çatdırmaqla kifayətlənəcəyik. Robb fikirlərini irəli sürəndə Hitler bütün Qərbi Avropanı, Sovet İttifaqının çox hissəsini tutmuşdu. Ona az-çox müqavimət göstərən İngiltərə idi. Sovet torpaqlarında

ölüm-dirim müharibəsi gedirdi. Robb həmin vaxt yazırdı ki, Hitler Almaniyasının nümayəndələri Franko ilə Fransa Riverasında danışıqlar aparacaqlar. Danışıqlar zamanı Franko nəinki müharibəyə girməyəcək, hətta Hitler ordularının ispan torpağından istifadə edərək ingilislərin hərbi bazaları yerləşən Cəbəllütariqə hücum etməyə belə icazə verməyəcək. 4-cü sətirdə görücü bundan bəhs edir.

Frankonun ölkəsinin bitərəfliyini saxlaya bilməsi Hitler Almaniyasına baha başa gəldi. Hitler Cəbəllütariqi ələ keçirə bilsəydi, Aralıq dənizinə girişi nəzarətdə saxlayardı.

Bu, Hitler Almaniyası və müttəfiqləri üçün ən böyük strateji itki idi.

**9 k17**
**Üçüncü silkin birincisi Nerondan da pis edəcək.**
**Boş şücaətli, nə qədər insan qanı axacaq.**
**O sobanı yenidən düzəltməyə məcbur edəcək.**
**Qızıl əsr qeyb oldu, yeni kral, böyük rüsvayçılıq.**

Katren Böyük Fransa inqilabı zamanı (1789-1793) baş verən hadisələrdən bəhs edir. Silki monarxiyanın 1-cisi 1789-cu ildə çağırılıb və Kral XVI Lüdovikin bütün səlahiyyətləri əlindən alınmış və tezliklə ölkədə terror başlanmışdı. Elə həmin ildə Dr.Çuillotin başkəsən maşın icad etmişdi. Qısa bir müddətdə ölkə Neronun döyüş meydanına çevirdiyi Kolizeyanı andırırdı. Neronun ürəyi bununla təskinlik tapmamış, şəhəri yandırmışdı. Böyük Səməd Vurğun bununla bağlı yazmışdı:

***Neron bir şəhəri oda yaxdı ki,***
***Sönük vicdanına bir ilham gülsün.***

Göründüyü kimi, Nostradamus Parisin ağır vəziyyətini görərək Neronu yada salmışdır. 1793-cü ildə 3-cü zümrə – "İctimai Xilas Komitəsi" ölkəni çıxılmaz vəziyyətə saldı. Hər gün yüzlərlə adam

gilyotindən keçirilirdi. 3-cü sətirdə sonralar Tüleri sarayı tikilən yerlərdə kərpic sobalarının olmasından söhbət gedir.

4-cü sətirdə XVI Lüdovikin cəsarətsizliyindən və ölkənin bu hala düşməsində onun günahı olduğundan danışılır.

Katrenin 1917-ci il Böyük Oktyabr Sosialist inqilabından bəhs etdiyini göstərənlər də vardır.

### 9 k18

**Dofin zanbağı Nansiyə gətiriləcəkdir.**
**İmperiyanın seçicisi Flandriyaya qədər.**
**Böyük Monmoransiyə yeni həbsxana**
**Adi yerdən o, cəza üçün təmtəraqlı yerə gətiriləcək.**

Bu katreni hələ 1635-ci ildə Etiyen Jober şərh etmişdir. Katrenin ilk iki sətrində söhbət XIII Lüdovikdən gedir. Tacqoyma mərasiminə qədər azyaşlı olduğuna görə o, dofin adlanırdı. Nansini 1633-cü ildə XIII Lüdovik azad etmişdi. 2-ci sətirdə Müqəddəs Roma İmperiyasının seçicisi Filip Kristofer fon Ştoferdən bəhs edilir. O, Flandriyanın yaxınlığında Brüssel həbsxanasında dustaq idi. Katrenin son sətri isə 1632-ci ildə Fransanın konnetablı Henri de Monmoransinin Kral XIII Lüdovikə qarşı qiyamda iştirakından və edamından söz açır. Monmoransinin bağışlanılması barədə İngiltərənin kraliçası, Roma papası və başqaları xahiş etsələr də, XIII Lüdovik onların müraciətini cavabsız qoymuşdu. Katrenin 4-cü sətri "Adi yerdən o, təmtəraqlı yerə (və ya Klerepeynenin yanına) cəza üçün gətiriləcək" maraq doğurur. Clere peyne (Klere peyne)nin lüğəti mənası təmtəraqlı deməkdir. Həqiqətən də kral əmr etmişdi ki, Monmoransini təzəcə tikilmiş "Hotel de Ville"də edam etsinlər. Lakin sonralar arxiv sənədləri araşdırılarkən məlum olub ki, Monmoransini edam edən cəlladın da adı Klerepeyne imiş. Göründüyü kimi, Nostradamus bu sözdən məharətlə istifadə etmiş və özündən 75 il sonra baş verəcək hadisələri tam dəqiqliyi ilə görmüş və bəyan etmişdir.

### 9 k19

**Mayen meşəsinin ortasında**
**Günəş Şir bürcündə olanda ildırım çaxacaq.**
**Menin böyüyündən əmələ gəlmiş böyük yaramaz**
**Həmin gün Fujer də soyuq silahla qanına qaltan ediləcək.**

Katrendə böyük görücü Fransada məşhur Gizlər sülaləsindən söhbət açır. Doğrudan da onların malikanələri Fransanın şimal-qərbində – Men vilayətində idi. Lakin 1589-cu ilin avqust ayında (Günəş Şir bürcündə olanda) ildırım sürəti ilə xəbər yayılmışdı ki, Kral III Henri sui-qəsd nəticəsində aldığı xəncər yarasından dünyasını dəyişib. Giz qardaşlarından isə həmin gün heç biri öldürülməmişdi. Onlardan ikisi əvvəllər öldürülmüş, lakin üçüncü qardaş öz əcəli ilə ölmüşdü.

### 9 k20

**O, gecə vaxtı Ren meşəsindən keçib gələcək.**
**İki cüt, dolama yol, kraliça, ağ daş.**
**Boz geyimdə monax (kral) Varendə,**
**Seçilmiş Kapın hərəkəti qasırğa, od və qan tökülməsi ilə nəticələnəcək.**

Bütün tədqiqatçılar bir nəfər kimi bəyan edirlər ki, katren kral XVI Lüdovik və ailəsindən bəhs edir. Böyük Fransa inqilabının (1789-1794) qızğın çağında kral XVI Lüdovik ölkəni tərk etməmək barədə andını unudaraq 20 iyun 1791-ci il tarixdə gecə paltarını dəyişərək ailəsini də götürüb ağır yüklü minik arabası ilə şimala tərəf üz tutdu ki, sərhədi keçib canlarını qurtarsınlar. Bütün gecəni və səhərisi gün yol gedərək gecə vaxtı Varen şəhərinə çatmışdılar. Aclıq və susuzluq onlara üstün gəldi və qərara gəldilər ki, şəhərə girsinlər. Təsadüfən şəhərin meri Solse onlara rast gəlmiş və özünə aid olan yeməkxanaya aparmışdı. Qonaqların hərəkət və danışıq tərzi onlarda şübhə doğurmuşdu. Elə bu vaxt yeməkxanaya girən poçt müdiri Druye kralı tanımışdı. Solse həmin dəqiqə

mühafizəçiləri çağırtdırmışdı. Kraliça Mariya Antuanetta göz yaşları tökərək Solsenin arvadına yalvardı ki, əri onları buraxsın. Madam Solse demişdi: “Mən kralı çox istəyirəm. Lakin ərimi ondan da çox istəyirəm. İstəməzdim ki, ərimi edam etsinlər”.

Beləliklə, onlar Parisə qaytarılmışdılar. 1792-ci il avqust ayının 10-da kral məhkəməyə verilmişdi. Hər yanda dar ağacı və gilyotin şəkli çəkərək altında yazmışdılar: “Lui təzə hava almağa çıxacaq”.

Nostradamus kral və ailəsinin başına gələcək faciəni tam dəqiqliyi ilə görmüşdü. Kral XVI Lüdovik 1793-cü il yanvar ayının 21-də, kraliça Mariya Antuanetta isə oktyabr ayının 16-da edam edilmişdi.

Nostradamus kraliçanın öldürülməsini başqa bir katrendə cinayət və haqqın məhvi adlandırmışdır. Hərtərəfli məlumat üçün bax: 4 k85, 4 k100, 6 k92, 7 k44 və s.

**9 k21**

**Buluada hündür və müqəddəs Solon məbədində**
**Gecə, Luara körpüsü, prelat, kral açıqca qətlə yetirir.**
**Qələbə əlaməti gölün yaxınlığında Bataqlıqda görünəcək.**
**Orada ağların prelatlığının dağılması başlayacaq.**

Katren haqqında qəti fikir söyləmək çətin olsa da, bəzi tədqiqatçılar onu Fransa kralı III Henrixlə bağlayırlar. O, Henri de Gizi, onun qardaşı kardinal Lui Gizi və eləcə də bir çox başqalarını öldürmüşdü. Qan yerdə qalmaz deyirlər. III Henri özü də 1589-cu ildə yataq otağında Kleman adlı monax tərəfindən xəncərlə öldürülmüşdü. Kral III Henri barədə əvvəldə ətraflı danışdığımıza görə burada təfsilata varmağa lüzum görmürük (bax: 1 k10, 1 k36, 1 k68, 1 k85, 2 k88 və s.).

**9 k22**

**Kral və onun sarayı bic dilin yerinə,**
**Sarayla üzbəüz məbədin içində,**
**Alb və Mantor hersoqunun bağında,**
**Alb və Mantor qılınc kimi kəsən dil və saray.**

Bəzi tədqiqatçılar katrendə bəyan olunanların İtaliyada baş verdiyini söyləsələr də, gəldikləri nəticə katrenin sətirləri ilə uyğun gəlmir.

## 9 k23

**Sonradan doğulan açıq havada, ağacın altında oynayarkən.**
**Evin damının yuxarısından onun başının lap üstünə,**
**Ata-kral yalançı Solon məbədində vüqarını**
**Qurban verərək özünü şənliklə aldadacaqdır.**

Nostradamusun bu katreni də kral XVI Lüdovikdən bəhs edir. Kral və ailəsi ölkədən qaçarkən tutularaq Parisə qaytarılmışdı. Onları Temple həbsxanasında saxlayırdılar. Temple eyni zamanda məbəd, ibadətxana mənasında işlənir. 3-cü sətirdə görücü yalançı məbəd ifadəsini ona görə işlədib ki, Parisdə Temple həbsxanası vardı. Kral həbsxanada olsa da, oğluna qalanın qülləsindən baxanda onda bir bayram əhvali-ruhiyyəsi əmələ gəlmişdi. Böyük görücünün 200 il əvvəl qələmə aldığı bu katrendə bəyan etdikləri yerinə yetmişdi.

## 9 k24

**Sarayda, daş balkonlarda olan pəncərələrdən**
**Hər iki kiçik monarx aparılacaq.**
**Orleanı, Parisi, müqəddəs Deni kilsəsini keçərək**
**Monarx arvadı almanın yaşıl çəyirdəklərini udacaq.**

Bəzi tədqiqatçılar bu katreni kral XVI Lüdovikin övladları Mariya Tereza və 11 yaşlı oğlu dofinə (vəliəhd) aid edirlər. Lakin onların fikirləri o qədər də inandırıcı deyil. Çünki inqilabçılar Mariya Terezanı avstriyalılara əsir düşmüş əsgərlərlə dəyişmişdilər. Odur ki, edamdan yaxa qurtarmışdı. Mariya sonralar öz qohumu hersoq Anqlomskiyə ərə getmişdi. XVI Lüdovikin oğlu isə, tarixi faktlar göstərir ki, 1795-ci ildə Temple həbsxanasında işgəncələrdən ölmüşdü.

Maraqlıdır ki, Nostradamus bunu özü də təsdiqləyir: "Kraliçanın oğlunun həyatını bağışlamayacaqlar" (bax: 9 k77). Onu da deyək ki, Müqəddəs Deni kilsəsi görücünün vaxtında Parisin 15 km-də olub.

### 9 k25

**Körpüləri keçərək qızılgül kollarına yaxınlaşmaq üçün**
**Gəliş nə qədər gec olsa da, onun fikirləşdiyindən tez olacaq.**
**Yeni ispanlar Bezyeyə gələcəklər.**
**Beləliklə bu təqib başlanmış işi pozacaq.**

Tədqiqatçılar bu katrenin XVII əsrin ortalarında Fransa ilə İspaniya arasında baş verən hadisələrdən bəhs etdiyini qeyd edirlər. Bezye vaxtilə bu iki ölkə arasında sərhəd şəhəri olub və 1659-cu ildə rəsmən Fransanın tərkib hissəsinə çevrilib.

### 9 k26

**Adı sərt hərflərlə yazılmış Nisi tərk edərkən**
**Böyük (Roma Papası) özünə məxsus olmayan hədiyyə təqdim edəcək.**
**Voltri yaxınlığında yaşıl kaperli divarın üstündə**
**Plombino arxada qalacaq, ümidverici külək əsəcək.**

Katren Napoleon Bonapartdan bəhs edir. Nostradamus onu fransız olmayan sərt adla da adlandırmışdır (bax: 1 k76). Voltri Aralıq dənizi sahillərində İtaliya krallığı olmuş Genuya və Savona arasındadır. Plombino Elba adası ilə üzbəüz İtaliya sahillərindədir. Napoleon 1814-cü ildə İtaliyanın Elba adasına sürgün edilmiş, lakin 1815-ci ilin fevralında adadan qaçaraq yenidən hakimiyyəti ələ almışdı. Yüz gün hakimiyyətdə olduqdan sonra ingilislərlə vuruşda – Vaterloo yaxınlığında ağır məğlubiyyətə uğramış, ingilislər onu materikdən 2000 km aralı Atlantik okeanındakı Müqəddəs Yelena adasına sürgün etmişdilər.

Baxmayaraq ki, Napoleon Roma Papası VII Piyi çox incitmiş, hətta Savonada həbsxanaya salmışdı, VII Piy 1817-ci ildə İngil-

tərəyə müraciət edərək eks-imperatorun cəzasını və əzablarını yüngülləşdirməyi xahiş etmişdi.

2-ci sətirdən göründüyü kimi, Nostradamus hadisədən 250 il əvvəl bunu bəyan etmişdi. Katrenin 3-cü sətri böyük maraq və təəccüb doğurur. Onun həqiqi mənasını heç bir tədqiqatçı açıb göstərə bilməmişdir. Əslində burada söhbət ingilislərdən gedir. Məlumdur ki, XVII əsrin ortalarından XX əsrin ortalarına qədər düz 300 il ingilislər dənizlərdə hökmranlıq etmişlər. Kaper isə dəniz quldurluğu ilə məşğul olan gəmi və onun sahibi deməkdir. Napoleonu Müqəddəs Yelena adasına ingilis gəmisində ingilislər aparmışdılar. Böyük görücü buna işarə edir.

**9 k27**

**Meşəbəyi, külək körpü həndəvərinə yaxınlaşır.**
**Yüksək ehtiram sahibi dofinə zərbə vuracaq.**
**Qoca usta yaxınları ilə meşədən adlayacaq.**
**Hersoqun qanuni sərhədlərini keçib gedəcək.**

Tədqiqatçılar bu katren barədə müəyyən fikirlər irəli sürsələr də, ağlabatan bir söz deyə bilməmişlər. Bizə qalırsa, görücü bu katrendə də kral XVI Lüdovikdən bəhs edir.

1-ci sətirdə Nostradamus krala üz tutaraq deyir ki, ey meşə sahibi, təhlükə yaxınlaşır.

2-ci sətirdə göstərilir ki, kral Parisi tərk etməklə dofini də zərbə altında qoyub. Əgər Kral ölkəni tərk etməyə cəhd etməsə idi, onu kral taxtından əl çəkməyə məcbur etməklə kifayətlənəcək - dilər. Lakin onun bu addımı bütün ailəni zərbə altında qoymuşdu.

3-cü və 4-cü sətirlərdə də kral XVI Lüdovikdən söz açılır. Onun öz torpaqlarını tərk edib getməsindən danışılır.

**9 k28**

**Müttəfiq yelkən (donanma), Marsel limanı,**
**Venesiya limanından Panonlulara tərəf üzəcək.**
**Körfəzdən və İlliria buxtasından (Adriatik dənizi) ayrılır,**
**Siciliya və Genuyada dağıntılar, top atəşləri.**

Katren II Dünya müharibəsindən bəhs edir. Çörçil müttəfiq orduların Balkanlara çıxarılmasına çalışırdı. O, güman edirdi ki, müttəfiq orduları almanları sıxışdırıb Yuqoslaviya, Macarıstan və Çexoslovakiyadan çıxaracağı təqdirdə Sovet ordusu Şərqi Avropanı işğal edə bilməyəcək.

4-cü sətirdə Genuyanın bombardman edilməsi və ingilis-amerikan hərbi birləşmələrinin Siciliyanı tutmasından danışılır.

**9 k29**

**Nə zaman ki, öz yerini kimsəyə verməyən adam,**
**Ələ keçirdiyi və hələ tutmadığı yeri tərk etmək istəyəcək.**
**Bataqlıqlardan yeni od, Şarlda isə qətran görünəcək.**
**Sən–Kənten və Kale yenidən qaytarılacaq.**

Katrendə görücü XVI əsrin 2-ci yarısında Fransanın general-leytenantı Fransua de Gizin 1558-ci il yanvarın 6-da Kale şəhərini ingilislərdən geri almasından söz açır.

**9 k30**

**Pola və Sən-Nikola limanında**
**Normandiya Qvarnera körfəzini tərk edəcək.**
**Roma Papası cübbədə Vizantiya küçələrində "Heyf" – deyə qışqıracaq.**
**Kadisdən və böyük Filipdən kömək gələcək.**

Tədqiqatçılar bu katreni şərh etməkdə çətinlik çəkmişlər. Tək - cə onu qeyd etmişlər ki, görücünün sadaladığı yerlər Kadisdən başqa, indi parçalanmış keçmiş Yuqoslaviyadadır.

**9 k31**

**Mortarda zəlzələ olacaq.**
**Müqəddəs Georgi adaları yarıya qədər suya batacaq.**
**Sülhün qəflətdə saxladıqlarını müharibə oyadacaq.**
**Pasxa zamanı məbəddə uçurum dərinləşəcək.**

Katrendə bəyan olunanların İngiltərəyə və Avropanın çox hissəsinə aid olduğunu güman etmək olar. Müqəddəs Georgi adaları – Qalay adaları da adlanır. Bura Kornvall və Şili adaları daxildir. Keçmişdə burada qalay çıxarılarmış. Məhz buna görə də onlara Qalay adaları da deyirlər.

Göstərilən adalar İngiltərəyə aid olub. Katrendən məlum olur ki, zəlzələ və sunami nəticəsində İngiltərənin cənub-qərb rayonları və Avropanın çox hissəsi, İtaliyada Mortara şəhərinə qədər suyun altında qalacaq. Onu da deyək ki, sunamilər adətən zəlzələdən sonra baş verir. 1755-ci ildə Lissabonda 60 mindən, Hindistanda (1950) isə 30 mindən çox adam sunami nəticəsində həlak olmuşdu.

Maraqlıdır ki, XX əsr Amerika görücüsü Edqar Keysi də göstərmişdir ki, Britaniya adaları və Avropanın şimal-qərbi güclü təkanlar (zəlzələ) və dəhşətli dalğalar (sunami) nəticəsində bir göz qırpımında məhv olacaqdır. Alimlər göstərmişlər ki, son vaxtlar Şimal maqnit qütbü şimal-qərbə doğru, Cənub maqnit qütbü isə Hind Okeanına tərəf istiqamətlənib. 2005-ci ildə Hind okeanında baş verən təkanlar və sunamilər deyilənləri təsdiqləyir. Sunamilər nəticəsində İndoneziya və başqa ölkələrdə 300 mindən çox adam bir anda su altında qalaraq öldü. Dalğaların hündürlüyü 8-10 metrə çatırdı. Böyük ərazilər, şəhər və kəndlər suyun altında qalmışdı.

3-cü və 4-cü sətirlərdə müharibədən və katolik kilsəsində baş verəcək çəkişmələrdən danışılır.

**9 k32**

**İncə Porfirdən düzəldilmiş uzun sütun tapıldı.**
**Özülün altında Kapitoliya yazıları üzə çıxacaq.**
**Sümüklər, qıvrım saçlar, Roma qüdrəti isbat olundu.**
**Donanma Mitilen limanına üz tutacaq.**

Mitilen–Egey dənizinin Lesbos adalarında qədim paytaxt olub. 2-ci sətirdə güman ki, söhbət müqəddəs Pyotrun qəbrindən gedir.

Larmor hələ 1925-ci ildə göstərmişdi ki, 1588-ci ildə Romada, müqəddəs Pyotrun Bazilikasında işləyən ustalar çəhrayı rəngli böyük obelisk (sütun şəklində daş abidə) üzə çıxarmışdılar. Elə bu vaxtlarda Venesiya eskadronu Lesbon adalarına çıxarılmış və onun paytaxtını tutmuşdu. Deməli, görücünün katrendə bəyan etdikləri yerini almışdır.

**9 k33**

**Herkules, Roma və Annamarkın kralı**
**Üç dəfə de-Qoll adlı birisi Fransaya rəhbərlik edəcək.**
**İtaliya və müqəddəs Markdan olan – qorxudan əsirlər.**
**Birinci monarx hamıdan qabaq təzələnəcək.**

Nostradamus katreni müqayisə ilə başlayır. Fransanın kralı II Henrinin oğlu Herkules (1554-1584) Romanın (Müqəddəs Roma İmperiyası) və eləcə də Annemarkın (Macarıstan və Boqemiyanın) kralı idi. 2-ci sətirdə isə görücü bizim müasirimizdən – Şarl de-Qolldan söhbət açır. Bizə belə gəlir ki, görücü bu müqayisəni İtaliya ilə əlaqədar aparır. Məsələ burasındadır ki, Müqəddəs Roma İmperiyası da, Mussolininin faşist İtaliyası da Fransaya müharibə elan etmiş və hər ikisində də son nəticədə məğlub olmuşdu. 3-cü sətirdə Nostradamus buna işarə edir.

2-ci sətirdə göstərilənlər də yerini almışdır. Şarl de-Qoll üç dəfə rəhbər olmuşdur: 1-ci dəfə "Azad Fransa" hərəkatının rəhbəri kimi, 2-ci dəfə hökumətin başçısı kimi, 3-cü dəfə isə Fransanın Prezidenti kimi (1958-1970).

Maraqlıdır ki, Nostradamusun vaxtında yalnız monarx kral olduğundan, görücü onu monarx kimi göstərib.

**9 k34**

**Dərd-qəm içində tək qalan ər mitra ilə mükafatlandırılacaq.**
**Qayıdanbaş Tüiliridə münaqişə başlayacaq.**
**Beş yüz nəfərdən bir satqın titul alacaq.**
**Narbon və Solse, bıçaqlarımız üçün yağımız var.**

Bu katren Nostradamusun ən dəqiq dördlüklərindən biridir. Katren kral XVI Lüdovikdən bəhs edir. Onu Templ həbsxanasında kraliça və övladlarından ayrıca kamerada saxlayırlar. O, dərd-qəm içindədir. Onu ən ağır cəza gözləyir. O, andını pozaraq Fransadan qaçmağa cəhd etmişdi.

1-ci sətirdə işlənən mitra keşişlərin dini ayin zamanı başlarına qoyduqları qızılı rəngli, bəzəkli papaqdır. Əfsanəyə görə qədim İranın Günəş allahının papağı olub. Qədim romalılar da mitranı xoşlayıblar. 1789-1794-cü illər Böyük Fransa burjua inqilabı zamanı inqilabçılar mitranı inqilabın simvolu kimi qəbul etmişdilər.

3-cü sətirlə bağlı onu deyə bilərik ki, 1792-ci ilin avqust ayında 513 nəfər, sonralar "Marselyoza" mahnısına görə Beş Yüz Marselli kimi məşhur olan qvardiyaçılar Tüiliri sarayına hücum edərək mühafizə dəstəsini qırmış, təhqir məqsədi ilə kralı məcbur etmişlər ki, başına tac əvəzinə mitra qoysun. Nostradamus 1-ci sətirdə buna işarə edir.

4-cü sətirdə adı çəkilən Narbon adlı şəxs krala kömək etməyə çalışırdı. Biz bu barədə artıq danışmışıq (bax: 8 k22). Solse isə Varenn şəhərinin bələdiyyə başçısı idi. XVI Lüdoviki o satmışdı (bax: 9 k20). Maraqlıdır ki, Solsenin baqqal mağazası da vardı. Burada yağ satılırdı. Sanki Nostradamus ona işarə edirdi. Yağ al. Gilyotin maşınının yağlanmasına lazım olar. Bir çox aristokratların, o cümlədən də kral XVI Lüdovikin və kraliçanın həyatına son qoyan bu ölüm maşını bir gün sənin də başını bədənindən ayırar. Kralın ölümünə səbəb olan Solsenin özü də sonralar terrorun qurbanı olmuş, gilyotin maşını onun da başını bədənindən ayırmışdı.

## 9 k35

**Ağbəniz Ferdinand da lütlənəcək.**
**Gülü ataraq Makedonun (Makedoniyalının) ardınca gedəcək.**
**Böyük ehtiyac üzündən uğur qazanmayacaq.**
**Və o, Mirmidona qarşı yürüş edəcək.**

Tədqiqatçıların qeyd etdiyi kimi, böyük görücü bu katrendə Bolqarıstanın kralı Ferdinanddan söz açır. Fransada tərbiyə alan Ferdinand qızğın fransızpərəst olsa da, I Dünya müharibəsi zamanı Almaniyanın tərəfinə keçmişdi. Ona görə ki, kayzer ona söz vermişdi ki, əhalisinin çoxunu bolqarlar təşkil edən Makedoniyanı Bolqarıstana verəcək. O, əvvəllər iki dəfə bu arzusuna çatmağa çalışmışdı. Birinci dəfə türklərə qarşı Birinci Balkan müharibəsində (1912-1913) və ikinci dəfə öz müttəfiqləri Serbiya, Yunanıstan və Rumıniyaya qarşı İkinci Balkan müharibəsində (1913). Onların heç birində uğur qazanmamışdı. Nəticədə Makedoniyada bolqarların vəziyyəti türklərin zamanından pis olmuşdu.

Mirmidan Frakiyadır. I Dünya müharibəsində Ferdinandın ordusu Serbiya və Frakiyaya qarşı müharibəyə girişmişdi. 1915-ci ildə fransız-ingilis ekspedisiya korpusu Yunanıstana çıxarılmışdı. 1918-ci ildə almanlar ordu hissələrini Bolqarıstandan çıxarıb Qərb cəbhəsinə göndərmişdi. Serblər fransızların köməyi ilə bolqar ordusunu Makedoniyada darmadağın etmişdi.

Müharibənin sonunda Bolqariya dilənçi kökünə düşmüşdü. Versal sülh müqaviləsinə görə Bolqarıstanın sərhədləri xeyli daralmışdı. Bundan başqa Bolqariya qızıl pulla 2.25 milyard təzminat verməli oldu. Xalqın öz kralına nifrəti yerə-göyə sığmırdı. Ferdinand qorxusundan qaçaraq ölkəni tərk etmişdi. Taxt-taca oğlu III Boris sahib olmuşdu.

**9 k36**

**Böyük kral cavan oğlanın əli ilə əsir ediləcək.**
**Pasxaya yaxın qarışıqlıq düşəcək, bıçaq zərbəsi.**
**Daimi əsirlər, vaxt, ildırım zirvədə olanda**
**Üç qardaş yaralananda və öləndə.**

Katrendə söhbət ABŞ prezidentindən gedir. 1981-ci ilin mart ayının 30-da, Pasxaya 20 gün qalmış Prezident Reyqana sui-qəsd edilmişdi. Reyqan Vaşinqtonun "Hilton" mehmanxanasından



***Con, Robert və Edvard Kennedi qardaşları (1960)***

çıxanda Vilyam Hinkli adlı bir gənc ona atəş açmışdı. Hinkli altı güllə atana qədər məxfi agent Cersi Parr Prezidenti itələyib maşına sala bilmişdi. Prezidentə yalnız bir güllə dəymişdi.

Prezidentin üzərində Corc Vaşinqton Universitetinin xəstəxanasında cərrahiyyə əməliyyatı apararaq gülləni çıxarmışdılar. 3-cü sətirdən göründüyü kimi hadisəni yalnız mehmanxananın yanındakılar deyil, televiziya ilə bütün ABŞ əhalisi müşahidə edərək dəhşətə gəlmişdilər. Burada daimi əsirlər deyəndə söhbət İranda 444 gün əsir saxlanılan 63 amerikalı girovdan gedir. 4-cü sətirdə Kennedi qardaşlarından söhbət gedir. Onlardan böyük qardaş Cek müharibədə ölmüşdü. Con və Robert Kennedilər barədə isə 1 k26, 2 k57, 4 k6, 4 k14, 4 k49, 6 k37, 10 k26 və s. katrenlərdə ətraflı danışmışıq. İnsanı heyrətə gətirən təkcə böyük adamlara sui-qəsd deyil, eyni zamanda onların səbəbidir. Kennedi qardaşlarının ölümünün səbəbi aydındır. Onlar dövlət daxilində olan mafiyaya və

hərbi sənaye maqnatlarına qarşı mübarizəyə girişmişdilər. Reyqan isə onlara qarşı mübarizə aparmırdı. Bəs Hinkli nəyə görə ona sui-qəsd etmişdi?

İstintaq zamanı o, çox soyuqqanlıqla demişdi ki, Prezidenti öldürməkdə məqsədi adının tarixdə qalmaq istəyi ilə bağlıdır.

Belə çıxır ki, məşhur olmaq üçün ən məşhur adamı öldürmək lazım imiş.

**9 k37**

**Körpülər və yel dəyirmanları dekabrda dağılacaqlar.**
**Qaronna çayı çox yüksək nöqtəyə qədər qalxacaq.**
**Divarlar, binalar, Tuluza uçulub-dağılacaq.**
**Heç kim öz mamaçasının qarşısında yerini bilməyəcək.**

Görünür, katrendə Nostradamusun bəyan etdikləri gələcəkdə baş verəcəkdir. Hələlik Tuluza şəhərinin daşqın altında qaldığını qeyd edən olmamışdır.

**9 k38**

**La Roşeli və ingilislər üçün Bleyə giriş,**
**Böyük makedoniyalının qarşısından keçəcək.**
**Ajenin yaxınlığında fransızları gözləyəcək.**
**Danışıqla Narbondan kömək alındı.**

Tədqiqatçıların göstərdiyinə görə katrendə söhbət 1689-1704-cü illər fransızlarla ingilislər arasındakı münasibətlərdən və Fransada daxili çəkişmələrdən gedir. Zəmanəmiz və oxucular üçün əhəmiyyət kəsb etmədiyini yəqin edərək katrenin təfsilatına varmadıq.

**9 k39**

**Albisolda, Verona və Karkariyə**
**Savonu tutmaq üçün gecə vaxtı qoşun yeridiləcək.**
**Cəld qaskonlu Türbi və Serri**
**Divarların arxasından köhnə və yeni saraya həmlə edəcəklər.**

Bu katren barədə tədqiqatçılar ağlabatan bir çöz deməkdən çəkinmişlər. Məlum olan odur ki, hadisələr Monako və Genuya Respublikası yaxınlığında baş verib.

### 9 k40

**Kanten yaxınlığında Burli meşəsində**
**Abbatlıqda fladenfiyalı tikə-tikə doğranacaq.**
**Onun hər iki kiçik oğlu zərbədən özlərini itirəcəklər.**
**Qalanları sarsılacaq, bütün gözətçilər qılıncdan keçirildilər.**

Bu katren barədə Leoni və Jober müəyyən fərziyyələr irəli sürsələr də, inandırıcı olmadığından, nostradamusşünasların tənqidinə məruz qalıblar. Məlum olan odur ki, katrendə məhəlli xarakter daşıyan hadisələr təsvir olunur.

### 9 k41

**Böyük Şiren Avinyonu tutacaq.**
**Romadan şirin sözlərlə (bal ilə) yazılmış məktublar tamamilə acıdırlar.**
**Şaniondan səfir məktubu yola düşəcək.**
**Karpentras qırmızı qələmli qara hersoq tərəfindən əsir alınacaq.**

Bu katrendə XVI əsrin 2-ci yarısından bəhs edilir. Elə bir tarixi əhəmiyyəti olmadığından təfsilatına varmağa lüzum görmədik.

### 9 k42

**Barselonadan, Genuyadan və Venesiyadan,**
**Siciliyadan vəba Monakoya keçəcək.**
**Onlar bərbər donanmasına qarşı yönəldiləcək.**
**Barbarlar uzaqlara – Tunisə qədər atılacaqlar.**

Katrendə Don Xuan Avstriyalının komandanlığı altında Papanın və Venesiyanın donanması Messində İspaniya donanması ilə (Monako və Genuya daxil olmaqla) birləşərək qüdrətli Xristian donanması (armada) yaradılmasından və Lepanto (indi Korinf) körfəzində türk-bərbər (ərəb) donanmasını üstələməsindən söh -

bət gedir (1571). Bu döyüşdən sonra ərəblər Aralıq dənizində hakim mövqelərini itirmişdilər. Bu döyüşün hərbi əhəmiyyəti bir də onda idi ki, Don Xuan Şimali Afrikaya keçərək Tunisi tuta bilmişdi (1573). Ətraflı məlumat üçün bax: 6 k91, 7 k26, 8 k50.

**9 k43**
**Səlib qoşunu düşərgə saldığı yerin yaxınlığında**
**İsmaililər tərəfindən tələyə salınacaqlar.**
**Rauiere gəmisindən hər tərəfə zərbə endiriləcək.**
**On ən seçmə qaler də dərhal zərbə endirəcək.**

Katren barədə qərb tədqiqatçıları müəyyən fərziyyələr irəli sürsələr də, qəti söz deyə bilməmişlər. Ona görə ki, katrenin şərhinin əsası olan "ismaililər" sözünə diqqət yetirməmişlər. Bu söz katrenin açarıdır.

Məlumdur ki, tarixdə "İsmaililər dövləti" olmuşdur. İsmaililər dövlətinin Mərkəzi Əlamut qalası (İran) idi. İsmaililər dövlətinin ərazisinə İran və Suriyadakı bir sıra torpaqlar, qala və qəsrlər daxil idi (bax: Azərb. Sovet Ensiklopediyası, IV, s.549).

Deməli, bu katrendə söhbət İran və Suriya ətrafında gedən münaqişələrdən gedə bilər. Zəmanəmizdə cərəyan edən hadisələrin gedişi göstərir ki, böyük görücünün bəyan etdikləri hələ yer almayıb. Doğrudur, XX əsrin sonlarına yaxın iranlılar 63 amerikalını tələyə salaraq tutmuş və 444 gün əsir saxlamışdılar (bax: 9 k36). Lakin bu kiçik bir münaqişə idi.

Bu katrendə isə Nostradamus müharibədən söz açır.

ABŞ prezidenti Corc Buş və müdafiə naziri D.Ramsfeld İrana qarşı zərbələr endiriləcəyi barədə 2006-cı ilin fevralında bəyanat verdilər. Nostradamus hücumun yalnız dənizdən ediləcəyini göstərir. Görünür, ABŞ İrana zərbələri Ərəbistan dənizi, İran körfəzi və Hind okeanından endirəcəkdir.

2-ci sətirdə İslam aləminə açıqca müharibə elan edən ABŞ qoşun hissələrinin tələyə düşəcəyindən (güdüləcəyindən) bəhs

edilir. Gözləyək, görək böyük görücünün sözləri necə yerinə yetəcək. Və nəhayət, görücünün 4-cü sətirdə söz açdığı gəmi barədə onu deyə bilərik ki, Con Houq ABŞ hərbi dəniz donanmasında ən güclü gəmilərin Paul Revere adı ilə tanındığını qeyd edir. Paul Revere Nostradamusun 3-cü sətirdə göstərdiyi Rauieredən o qədər də fərqlənmir. Deməli, İran körfəzində münaqişələr başlasa, Revere gəmiləri başlıca rol oynayacaqlar.

**9 k44**

**Qaçın, hamınız Cenevrədən qaçın!**
**Saturn var-dövlətdən silaha çevriləcək.**
**Raypoz bütün rəqibləri məhv edəcək.**
**Hücumdan əvvəl səma özü işarə verəcək.**

Katrendə göstərilir ki, Cenevrədə sülh danışıqları bir nəticə verməyəcək. Müharibə başlayacaqdır. Bütün rəqiblərini məhv edəcək Raypoz kimdir? İndiyə qədər tədqiqatçılar bu katreni zorla Səddam Hüseynlə bağlayırdılar. Lakin belə deyilmiş. Axı, Səddam Hüseyn hər cür qırğın silahı olan super dövlətlərə nə edə bilərdi?

Zəmanəmizdə baş verən hadisələr katrenin ABŞ-dan bəhs etdiyini söyləməyə əsas verir.

**9 k45**

**Tələb etməyə kimsə qalmayacaq.**
**Böyük Mendozus öz imperiyasını əldə edəcək.**
**Saraydan uzaqda o, əmrini geri götürmək niyyətində olacaq.**
**Timond, Pikar, Paris, Toskaniya pis vəziyyətdə olacaq.**

Tədqiqatçıların fikrincə, katrendə kral IV Henrinin hakimiyyəti dövründə baş verən hadisələrdən bəhs edilir. Bununla belə, onlar sətirlər arasında əlaqəni təyin edə bilməyiblər. Həqiqət naminə deməliyik ki, Mendozus Vendomlar sülaləsinə, xüsusən də Navarralı IV Henriyə bağlıdır. II Henrinin övladları dalbadal öldüyündən Valualar sülaləsində kral olmağa kimsə qalmamışdı (bax: 1-ci

sətir). Odur ki, II Henrinin qızı Marqaritanın əri adlı-sanlı Burbonlar sülaləsinin nümayəndəsi, Navarralı Henri uzun mübarizədən və katolikliyi qəbul edəndən sonra hakimiyyətə gələ bilmişdi.

**9 k46**

**Tərk edin, Tuluzadan qaçın, qırmızılar!**
**Bağışlanmaq üçün qurbanlıq mərasimi keçiriləcək.**
**Məkr hökmranı ağılsızların kölgəsinə sığınıb.**
**Ölüm qabaqcadan ürəyə damanı boğacaq.**

Tədqiqatçılar bu katren barədə ağlabatan bir söz deməkdən çəkinmişlər. Məlum olan odur ki, 1814-cü ildə Tuluzada qırmızı mundirli fransız ordusu Vellinqtonun başçılığı ilə döyüşə girən ingilis ordusu ilə vuruşmuş və məğlub olmuşdu. Fransızlardan ölən və əsir düşənlərin sayı-hesabı yox idi.

**9 k47**

**Biabırçı qurtuluş haqqında imza atanlar,**
**Və dəstədən xeyli adam buna qarşı çıxacaq.**
**Monarxın fikrini dəyişməsi onu təhlükəyə salacaq.**
**Bağlı qəfəsdə onlar bir-birini üzbəüz görəcəklər.**

Tədqiqatçılar bu katrenin Fransa kralı II Henridən bəhs etdiyini göstərirlər. Kral II Henri İtaliya və İspaniya yürüşlərində məğlub olduqdan sonra alçaldıcı sülh müqaviləsini imzalamış və üstəlik qızı Yelizavetanı İspaniyanın kralı II Filippə vermək barədə təklifə razılaşmışdı. 1559-cu ilin iyun ayında kralın bacısı Marqaritanın hersoq Savoyski ilə və eləcə də qızı Yelizavetanın II Filipp ilə evlənməsi ərəfəsində Parisdə elan etmişdilər ki, cəngavərlərin kralın özünün də şəxsən iştirak edəcəyi yarışı keçiriləcək.

Kral özünün seçdiyi Montqomeri ilə qarşılaşırdı. Təkbətək döyüş heç-heçə qurtardı. Döyüşə qədər şayiə yayılmışdı ki, kraliça Yekaterinanın astroloqu bu turnirin kralın həyatı üçün çox

təhlükəli olacağını bəyan etmişdi. Artıq Nostradamusun gəldiyi nəticə də məlum idi (bax: 1 k35).

Turnirin qurtardığını yenicə elan etmişdilər ki, adamlardan xahiş etdilər ki, dağılışmasınlar. Kral əlavə döyüş tələb edir. 2-ci və 3-cü sətirlərdə bundan bəhs edilir.

4-cü sətirdə dəbilqə geymiş, yalnız gözləri görünən kral və cəngavər Montqomeriyə işarə olunur.

Artıq əvvəldə danışdığımız kimi (bax: 1 k35), kralın gözünə nizə girmiş və o, tezliklə dünyasını dəyişmişdi.

## 9 k48

**Dənizlə bağlı okeanın böyük şəhəri,**
**Kristal bataqlıqlarla əhatə olunmuşdur.**
**Qış gündönümü və yazda,**
**Dəhşətli küləyə məruz qalacaq.**

Katrendə məlum olan yalnız gündönümüdür. Bu, ildə iki dəfə baş verir: yayda iyunun 22-də və qışda 22 dekabrda. Bu vaxt Günəş göy ekvatorunun ən uzaq ekliptika nöqtəsindən keçir. 1-ci sətirlə bağlı nə demək olar? Bütün okeanlar bu və ya digər dənizlə bağlıdır. Söhbətin hansı böyük şəhərdən getdiyini demək çətindir. Düzdür, Erika Çitəm Naqasaki və Xirosimanın adını çəkir. Görücü isə yalnız bir şəhərdən söz açır. Burada onu da qeyd etmək istərdik ki, 2005-ci ilin qış gündönümü zamanı şiddətli tufan və sunamilər baş vermişdi. Əgər 2006-cı ilin baharında da sunamilər baş versəydi, katrenin zəmanəmizdən bəhs etdiyini deyə bilərdik. Eyni zamanda Nostradamusun söhbət açdığı böyük şəhəri də ayırd edərdik.

Onu da xüsusi qeyd edək ki, Worldwatch İnstitutu tədqiqatlar nəticəsində XX əsrin 2-ci yarısında göstərib ki, XXI əsrin əvvəl - lərindən Dünya okeanında istiləşmə indi mövcud olan tufanlardan qat-qat üstün olacaq. Hətta zəlzələyə davamlı göydələnlər belə ona tab gətirə bilməyəcəklər.

## 9 k49

**Gent və Brüssel Antverpə qarşı yürüş edəcəklər.**
**London Senatı öz kralını ölümə məhkum edəcək.**
**Duz və şərab onu taxtdan salacaq.**
**Onlar hakimiyyət naminə hərc-mərclik salacaqlar.**



*Kral I Çarlzın edam səhnəsi (1649)*

Tədqiqatçılar göstərirlər ki, katrenin 1-ci sətrində İspaniya ilə Hollandiya arasında gedən müharibədən bəhs edilir. İxtişaşlar İspaniyaya aid Cənubi (Belçika) və Şimali (Hollandiya) ölkələrində görünməmiş qarşıdurma yaratmışdı. 1648-ci ildə İspaniya və Hollandiya Şeldt çayının qabağını kəsmək barədə saziş bağlamışdı. Məqsəd Antverpi iqtisadi cəhətdən çökdürmək idi (bax: 1-ci sətir).

Katrenin qalan sətirlərində İngiltərədən danışılır. Doğrudan da 1649-cu ildə London Senatı kral I Çarlzı ölümə məhkum etmişdi. Parlamentin razılığı olmadan kralın əmri ilə duz, şərab, sabun, pivə və başqa məhsullara vergilər artırılmış, hakimiyyətə can atan Oliver Kromvel və başqaları ölkədə hərc-mərclik salaraq vətəndaş müharibəsinə rəvac vermiş, istədiklərinə nail olmuşdular (bax: 1 k88, 2 k53, 8 k37 və s.).

Nostradamusun zamanında bu, tarixdə görünməmiş və ağlagəlməz hadisə idi. Kralı da edam etmək olar? Lakin görücünün vaxtında ona şübhə edənlər yanılırdılar. Nostradamus gördüyünü bəyan etmişdi. Həqiqətən də I Çarlz 1649-cu ilin yanvarında edam edilmişdi. Kralın edamına səbəb həm də onun açıqca katolikliyə rəğbət bəsləməsi idi.

**9 k50**

**Mondezus tezliklə özünün yüksək hakimiyyətinə qalxacaq.**
**Norlarisi bir az arxada qoyacaq.**
**Kürən kişi məmləkətin hökmransız qaldığı bir dövrdə**
**Gənclər üçün qorxu, varvar üçün dəhşət olmuşdu.**

Katren XVI əsrin sonunda, daha doğrusu, 1594-cü ildə Fransada baş verən hadisələrdən bəhs edir. IV Henri taxt-taca sahib olana qədər çoxları, xüsusən də kürən kardinal (3-cü sətir) de Burbon, Lotarinqlər sülaləsindən Pon-a-Musson və başqaları kral olmağa can atırdılar. Lakin Henri adlı-sanlı, əsilzadələr sülaləsi Burbonlardan idi.

Nostradamusun bu katrendə göstərdikləri yerini almışdır (bax: 9 k45).

**9 k51**

**Qırmızı təriqətlərə qarşı sui-qəsd düzəldəcəklər.**
**Od, su, dəmir, kəndir sülh yolu ilə zəifləyəcək.**
**Ölüm ayağında olanlar işi elə quracaqlar ki,**
**Bir nəfər hamıdan əvvəl dünyanı məhv edəcək.**

Tədqiqatçıların çoxu bu katrenin də hind filosofu Oşodan bəhs etdiyini göstərirlər. Hərtərəfli məlumat üçün bax: 1 k96, 2 k12, 2 k27-29, 2 k58, və b. Lakin Leoni və R.Velş hesab edirlər ki, katrendə söhbət Sovet İttifaqından, qırmızılardan, kommunistlərdən gedir. Faşizm, Əkskomintern və s. təriqətlər idi. Od və dəmir Sovetlərə müdaxilə zamanı istifadə edilən silahdır. Kəndir isə Sovetləri zəiflətmək üçün iqtisadi blokadanın nişanəsidir.



***Qocalar, ay qocalar! Qorbaçov sizi də aldatdı***

Maraqlıdır ki, Sovetlərə qarşı çıxa biləcək dövlətlərin başçıları hamısı yaşlı idi (3-cü sətir). Odur ki, 4-cü sətirdən göründüyü kimi, kommunizmi çökdürmək vəzifəsini nisbətən gənc olan Hitler öz üzərinə götürdü. Lakin o, dünyanın böyük bir hissəsini xaraba qoydu. Dövlətlərin iqtisadi cəhətdən iflası, şəhər və kəndlərin dağılması bir yana, II Dünya müharibəsində 50 milyondan artıq adam məhv edilmiş, milyonlarla adam şikəst olmuş, analar gözü yaşlı, uşaqlar yetim qalmışdılar. Rus tədqiqatçılarından Avdyayeva və Zdanoviç katrendə Sovet İttifaqının son illərindən və onun ilk və son prezidenti (1990-1991) Mixail Qorbaçovdan bəhs edildiyini göstərirlər. 3-cü sətirdə güman ki, söhbət Brejnev, Çernenko, Andropov, Suslov, Qromıko və başqalarından gedir. Xarici ölkələrin xüsusi xidmət orqanları Qorbaçovu ələ alandan sonra o, "yenidənqurma" pərdəsi altında Sovet İttifaqını dağıtmaqla dünyanı fəlakətə saldı. Nəticədə bəşəriyyət görünməmiş bəlalara düçar olmuş, III Dünya müharibəsi təhlükəsi ilə üzləşmişdir. Çox maraqlı məlumat üçün bax: 12 k55.

## 9 k52

**Bir yandan sülh və o biri yandan müharibə yaxınlaşır.**
**Heç vaxt ona belə böyük meyil olmamışdır.**
**Heyf kişi və qadınlara, torpağa tökülən günahsız qana**
**Və Fransanın hər yerində bu belə olacaq.**

Katrenin 1-ci sətrinin 1-ci hissəsində 2 aprel 1559-cu ildə Fransa ilə İngiltərə, 3 aprel 1559-cu ildə isə Fransa ilə İspaniya və Savoya arasında bağlanan sülh sazişlərinə, sətrin 2-ci hissəsində isə elə həmin ildə Fransada katoliklərlə hugenotlar arasında başlayan dini müharibələrə işarə edilir.

Fransız nostradamusşünasları Jober və Le Pelletye haqlı olaraq qeyd edirlər ki, katren ölkədə baş verən dini müharibələrdən (1559-1598) bəhs edir. Bu müharibələr katoliklərlə hugenotlar arasında gedirdi. 3-cü sətirdə günahı olmayan insanların ölümündən, xüsusən də 1572-ci il avqust ayının 24-ə keçən gecə müqəddəs Varfolomey bayramı günü Fransa kralı IX Karlın barışıq pərdəsi altında hugenotların bütün görkəmli şəxsiyyətlərini saray ziyafətinə dəvət etməsindən və gecə vaxtı qılıncdan keçirtdirməsindən danışılır. Bundan sonra dini müharibələr bütün Fransanı bürümüş və ölkədə qan su yerinə axmışdı. 4-cü sətirdə buna işarə edilir. Onu da demək lazımdır ki, Varfolomey gecəsində Parisdə 3000-dən çox hugenot öldürülmüşdü.

## 9 k53

**Gənc Neron bu üç sobaya**
**Xidmətçi oğlanları diri-diri atdıracaq.**
**Bu hadisələrdən kənar olanlar xoşbəxtdirlər.**
**Qan qohumlarından üçü onu ölənə qədər təqib edəcək.**

Bu katren barədə tədqiqatçılar elə bir fikir söyləyə bilməyiblər.

Neron və sobalar Hitleri göz önünə gətirir. Hitlerin yəhudi və slavyanları dəhşətli qaz sobalarında yandırtdığı yaddaşlardan silinməyib.

Nostradamus Neron sözünü burada obrazlı şəkildə işlətmişdir. Yeni eranın 54-68-ci illərində Roma imperatoru olmuş Neron qəddarlığı

ilə seçilirdi. Bir çoxları, yaxın qohumları, hətta anası belə onun qurbanı olmuşdu. O, Romanı yandırmaqdan belə çəkinməmişdi.

4-cü sətirdə üç qan qohumundan söhbət gedir. Hitlerin ingilislərlə qan qohumluğu vardır. Kral I Georqun və Honnoverlər sülaləsinin gəlişilə İngiltərədə taxt-tac almanların əlinə keçir. Adolf Hitler bu sülalədən olub.[1] Deməli, bu sətirdə ingilislər, amerikalılar və fransızlara işarə edilir.

**9 k54**

**Ravennanın yaxınlığında xanımı oğurlayan adam.**
**Korsino limanına gələcək.**
**Dərin dənizdə Lissabondan olan səfir**
**Qayanın altında gizlənənlər yetmiş nəfəri aparacaqlar.**

Nostradamusun bu katreni də şərh olunmamışdır. Ancaq məlumdur ki, o vaxtlar Ravenna və Korsino limanı İtaliyada idilər. Aralarındakı məsafə səkkiz mildir. 3-cü sətirdə Portuqaliyanın paytaxtı Lissabon yada salınır. Bununla belə, katren barədə qəti söz demək olmur.

**9 k55**

**Qərbdə hazırlanan dəhşətli müharibə.**
**Növbəti ildə qırğın (epidemiya) olacaq.**
**Elə dəhşətli ki, nə cavan, nə qoca, nə heyvan sağ qalacaq.**
**Qan, od, Merkuri, Mars, Yupiter Fransadadır.**

Tədqiqatçıların fikrincə, bu katren virus nəticəsində meydana gələn xəstəliklərdən bəhs edir. Göründüyü kimi, bu viruslar Qərb - də hazırlanır (1-ci sətir). Təbii ki, bu, bioloji silahlarla bağlıdır. Lakin son dövrlərdə bu silahlardan yalnız müharibədə deyil, sülh şəraitində belə iqtisadi təxribat kimi istifadə edilir. Azərbaycanda Kolarada böcəyi təsərrüfata, xüsusən də kartofa çox böyük ziyan vurmuşdur. Müharibə başlayır və bir vaxt qurtarır. Kolarada böcə -

[1] Con Houq. Nostradamusun külliyyatı. Moskva, 1999, səh. 248-249.

yi isə ildən-ilə artır. Həmin böcəyin Amerikadan hansı yolla gətirildiyi aydın olmasa da, son nəticə aydındır. Azərbaycanı iqtisadi cəhətdən sarsıtmaq.

Ağacların yarpaqlarını ya yeyərək, ya da ağ pərdəyə bürüyərək onların məhvinə gətirib çıxaran ağ qurdlar da bu qəbilədəndir. Bakterioloji silahların işlənməsi nəticəsində epidemiya yayılır, insanların məhvinə səbəb olur. I Dünya müharibəsindən sonra Avropada milyonlarla adam həlak olmuşdu.

İndi Asiya, Afrika və Avropa qitələrini bürüyən "quş qripi" bizə belə gəlir ki, Əfqanıstan və İraqda, xüsusən də Fəllucədə ABŞ-ın bioloji silahların istifadəsindən sonra meydana gəlmişdir. 4-cü sətirdə planetlərin zahiri yaxınlaşmasından danışılır. Sözü gedən planetlərin yaxınlaşması tez-tez olur. Nöbəti yaxınlaşmalar: 2009, 2010, 2011, 2012-ci illərdə olacaq. Gözləyək, görək tarix və Nostradamus bizə nələr hazırlayıb?!

### 9 k56

**Houdan yaxınlığında ordu Qusenvili keçəcək.**
**Döyüşə can atan əsgərlər orada bayraqlarını sancacaqlar.**
**Bir anda onlardan mindən artıq məhv olacaq.**
**Boyunlarına kündə vurmaq və qandallamaq üçün iki nəfəri axtaracaqlar.**

Bütün tədqiqatçılar bu katrendə Nostradamusun Fransada kato - liklərlə hugenotlar arasında gedən dini müharibələrdən bəhs etdiyini qeyd edirlər. Houdan və Qusenvil Parisin qərbindədir. Katoliklərlə hugenotlar arasında Birinci dini müharibə burada baş vermişdi. Fransada baş vermiş otuz illik dini müharibələrdən əvvəllərdə çox danışdığımızdan burada təfərrüata varmağa lüzum görmədik.

### 9 k57

**Drenin yaxınlığında Kral istirahət edəcək.**
**Və anafema haqqında qanun ətrafında düşünəcək.**
**Göy çox bərk guruldayanda**
**Təzə giriş olacaq, kral özünü öldürəcək.**

Bəzi tədqiqatçılar katrenin Adolf Hitlerdən bəhs etdiyini qeyd edirlər. Məsələ burasındadır ki, 1940-cı ildə almanlar Fransanı tutduqdan sonra Hitler ordusu xeyli müddət Parisin yaxınlığında Dre şəhərində istirahət etmişdi. Ola bilsin ki, Hitler burada 2-ci sətirdə göstərilənlər ətrafında düşünmüşdü.

3-cü və 4-cü sətirdə Sovet ordusu Berlinə girəndə tankların, topların, katyuşaların səsindən yaranan vahimədən qorxan və Sovet ordusunun Berlinə girdiyini bilən Hitlerin özünü öldürməsindən bəhs edilir.

**9 k58**

**Vitrinin olduğu yerin sol tərəfində**
**Fransanın üç qırmızısı yaxalanacaq.**
**Bütün qırmızılar qılıncdan keçiriləcək, qara öldürülməyəcək.**
**Bretonlar tərəfindən inam yenidən bərpa olunmuşdur.**

Katren Fransadan bəhs edir. Vitri ölkədə bir neçə yerdədir. Nostradamusşünas Fonbryun katrenin Yakobinçilərdən söz açdığını söyləyir.

**9 k59**

**Lə-Ferte-Vedamda o, tutacaq.**
**Nikolas tutuldu, qırmızı, həyat verən adamdır.**
**Gizlində iş görən böyük Luiza doğacaq.**
**Burqundiyanı paxıllıqdan bretonlara verəcəklər.**

Tədqiqatçıların göstərdiyinə görə hadisələr XVI əsrin 2-ci yarısında baş vermişdir. Lotaringiyalı Nikolasın Luiza adlı qızı həqiqətən də olub. 1553-cü ildə anadan olan Luiza kral III Henriyə ərə getmişdi. Tədqiqatçılar Luizanın uşağı olmadığını qeyd edirlər. Görünür tədqiqatçılar onun III Henridən uşağı olmadığını nəzərə alıblar. Lakin Nostradamusun gördüklərini görə bilməmişlər.

4-cü sətirdə Burqundiyanın xəyanət nəticəsində britaniyalılara verilməsinə işarə edilir.

## 9 k60

**Münaqişə, barbar qara baş geyimində**
**Qan axıdılır, Dalmasiya titrəyəcək.**
**Böyük İsmail öz burnunu möhkəmləndirəcək.**
**Qurbağalar titrəyəcək, Luzitaniyaya kömək gələcək.**

Bu katren barədə tədqiqatçılar onun məğzinə uyğun olmayan fərziyyələr söyləməkdən başqa bir iş görməmişlər. Əslində, katrenin ilk üç sətri müsəlman aləmi ilə bağlıdır. Yuqoslaviyanı parçalamaq üçün XX əsrin sonlarında dini zəmin üzərində Qərb dövlətləri münaqişə yaratdılar. Gah müsəlman olan Bosniya, Herse - qovina əhalisini, gah katolik olan xorvat və slovenləri, gah da pravoslav olan serbləri, makedoniyalıları, çernoqoriyalıları bir-birinin üstünə salışdırırdılar.

2-ci sətirdə Dalmasiyadan danışılır. Talesiz Dalmasiya tarixən gah Türkiyənin, gah Avstriyanın, gah Avstriya-Macarıstanın, gah İtaliyanın əlində olmuş, gah da serblərin, xorvatların və slovenlərin krallığı (1929-cu ildən Yuqoslaviya) tərkibində olmuşdur. 1941-ci ildə Yuqoslaviya parçalandıqdan sonra oyuncaq Xorvat dövlətinə daxil edilmiş, 1945-ci ildən Xorvatiya və Çernoqoriya tərkibində Yuqoslaviya Federativ Respublikasına qatılmışdır.

3-cü sətirdə söhbət İrandan gedir. Məlumdur ki, keçmişdə İran - da İsmaililər dövləti yaranmışdı. Artıq bu barədə geniş danışmışıq (bax: 9 k43).

Burada isə böyük görücü İran padşahı Şah İsmayıla işarə edir. Şah İsmayıl bütün İranı, Xorasanı, Ermənistanı və İraqı-Əcəmi Səfəvilər dövlətinə qatmışdı. 3-cü sətirdə bundan danışılır. Lakin Nostradamus öz müasirini yada salmaqla müasir İrandan söz açır. Burada İranın dənizdə öz mövqeyini möhkəmləndirməsindən da - nışılır. Həqiqətən də bu ölkənin İran körfəzində sualtı qayıqları vardır. İranın körfəzdə "burnunu bərkitməsi" də bu sətirdən görünür. 4-cü sətirdə söhbət Portuqaliyadan gedir. Onu da deyək ki, vaxtilə İran dünyanın ən qüdrətli dövlətlərindən biri olmuşdur.

Nostadamus katrendə həm buna, həm də müasir İrana işarə edir. Zəmanəmizdə hadisələrin gedişi göstərir ki, İran güclü dövlətə çevrilir. Özünün istehsal etdiyi raketlər 2000 km məsafədə olan hədəfi vura bilir. "Fəcr–3" raketlərini radar tuta bilmir. İranın sualtı torpedalarının sürəti isə saniyədə yüz metrə bərabərdir. Qərb dövlətlərinin bərk iğtişaşa düşməsi isə göstərir ki, İran ya artıq atom silahına malikdir, ya da bu silahı yaratmaq ərəfəsindədir.

**9 k61**

**Dəniz sahilində soyğunçuluq baş vermişdir.**
**Yeni şəhər və genişlənmiş əlaqələr.**
**Çoxları Maltadan Messinanın əməlilə,**
**Sıxı əlaqədə olacaq, məmnuniyyətlə mükafatlandırılacaqlar.**

Tədqiqatçıların göstərdiyinə görə, katrendə XVI əsrin 2-ci yarısında Osmanlıların Maltaya hücumundan bəhs edilir. Malta o vaxt Siciliyanın Habsburqlar krallığının protektoratı idi. Gittano və Messina şəhərləri də bura daxil idi. Lepanto yaxınlığında onlar xristian donanması ilə birlikdə türklərə qarşı döyüşə girərək onları məğlub etmişdilər. Nostradamus 4-cü sətirdə buna işarə edir.

**9 k62**

**Şeramon Aqorasının böyüyünə**
**Səlibçilərin hamısı rütbə üzrə sadiq qalacaqlar.**
**Uzun müddət saxlanılan Tiryək və Mandraqora.**
**Roqon oktyabrın 3-də azad olunacaq.**

Tədqiqatçılar bu katren barədə mülahizələr irəli sürsələr də, qəti söz deməkdən çəkinmişlər. Bütün nostradamusşünaslarda hiss olunan zəif nöqtə ondan ibarətdir ki, onlar hadisələrin mütləq onların zamanında baş verdiyini göstərməyə və fərziyyələrlə, mülahizələrlə katrenlərin kimlərdən və nədən bəhs etdiyini şərh etməyə çalışmalarıdır.

Katrendə məlum olan 1-ci sətirdə bəhs edilən Şeramon Aqoradır. İndi Türkiyədə Uşak adlanan şəhər qədim yunanlarda Şeramon Aqora adlanırmış. 3-cü sətirdə adı keçən Mandraqora – ba-

dımcan fəsiləsindən zəhərli bitkidir. 2-ci sətirdə söhbət səlibçilərdən gedir. Səlibçilər müsəlman aləminə qarşı müharibəyə girişən xristian əsgərləridir. 4-cü sətirdə də hər şey aydındır. Bununla belə, hələlik katrenin şərhini vermək mümkün olmamışdır.

**9 k63**

**Şikayət və göz yaşları, qışqırıq və dözülməz iniltilər,**
**Narbon yaxınlığında, Bayon və Fuada.**
**Ax, nə dəhşətli bədbəxtlik və dəyişikliklər!**
**Marsın bir neçə dövrə vurmasından əvvəl.**

Nostradamusşünaslar bu katrenin Böyük Fransa inqilabı zamanı (1789-1794) və 1799-cu ildə Napoleonun hakimiyyəti ələ aldığı vaxta qədər baş verən dəhşətli hadisələrdən bəhs etdiyini söyləyirlər. Onlar tam yəqinliklə bu katrenin açarının 4-cü sətirdə olduğunu qeyd edirlər. Məsələ burasındadır ki, Mars Günəş ətrafında bir dövrəni 687 günə vurur. Mars təkcə Böyük Fransa inqilabı zamanı Günəş ətrafında 3 dəfə dövrə vurmuşdu. İnqilabdan sonra da, dəhşətli hadisələr Fransanı sarsıtmışdı. Gilyotin maşını tam gücü ilə işləyirdi. 1799-cu ildə Napoleon hakimiyyə gəldikdən sonra ölkə daxilində vəziyyət düzəlməyə başlamışdı.

**9 k64**

**Emasion Pireney dağlarını keçəndə,**
**Narbonda ona müqavimət göstərməyəcəklər.**
**Dəniz və quru ilə o qədər fitnə-fəsad törədəcək ki,**
**Təhlükəsiz qalmaq üçün yer olmayacaq.**

Tədqiqatçı Ned Halli israrla qeyd edir ki, katrendə söhbət Fransanın kralı IV Henridən gedir. Onun fikrincə, Nostradamus IV Henrini qədim Roma mifologiyasında yer alan ilahə Avroranın oğlu Emasionla müqayisə edir. Həqiqətən də IV Henri İspaniyada Navarranın hakimi olmuş, Fransaya taxt-taca sahib olmağa gələndə Pireney dağlarından keçmiş, heç yerdə müqavimətə rast gəlməmişdi. Lakin katrenin 3-cü və 4-cü sətirləri IV Henrinin fəaliyyə -

tinə uyğun gəlmir. Məsələ burasındadır ki, IV Henri Nant Fərmanını imzalayaraq (1598) dini müharibələrə son qoymuş (1559-1598), hakimiyyəti dövründə (1589-1610) böyük şöhrət qazanmış, öz əcəli ilə dünyasını dəyişmişdi.

**9 k65**

**Ayın küncünə baş çəkməyə gələcəklər.**
**Qəbul olunacaq və yad torpaqda yerləşdiriləcəklər.**
**Kal meyvə böyük qalmaqalın mənbəyinə çevriləcək.**
**Birinə böyük töhmət, başqasına böyük tərif.**



*N. Armstronq, M. Kolinz və E. Oldrin (1969)*

Katren Nostradamusun dahiyanəliyindən xəbər verir. Hətta XX əsrin əvvəllərində insanın başqa planetə uça bilməsi fikri qeyri-real – xülya hesab olunardı. Bununla belə, hələ XVI əsrdə böyük görücü 1-ci sətirdən göründüyü kimi, insanın Aya uçacağını göstərmişdir. 2-ci sətirdə görücünün söz açdığı "qəbul olunacaq" yer alıb. ABŞ astronavtları N.Armstronq, E.Oldrin və M.Kolinz tarixdə ilk dəfə olaraq Aya uçmuş (10.07.1969), iyulun 21-də N.Armstronq və E.Oldrin Ay kabinəsində gəmidən ayrılıb Ay səthinə enmiş, 2 saat orada qalandan sonra Ay kabinəsinə qayıtmışdılar. Sonra kabinənin uçuş pilləsi Aydan start götürərək gəmi ilə birləşmiş, iyulun 24-də sağ-salamat qayıdaraq Sakit okeana enmişdilər.

2-ci sətrin 2-ci hissəsində görücü hələlik baş verməmiş, əlamətdar bir hadisədən, yaxın gələcəkdə insanın Ayda məskən salacağından bəhs edir.



***N. Armstronq Ayın səthinə ayaq basan ilk insan övladıdır***

Katrenin 3-cü sətrində 1986-cı ilin yanvar ayının 28-də ABŞ-ın kosmonavtika tarixində baş verən ən ağır faciədən bəhs edilir. Altı nəfər kosmonavt və gənc müəllimə Krista Mkauliffə ilə havaya qalxan "Çelincer" kosmik gəmisi 71 saniyədən sonra partlamışdı. Nasa rəhbərliyi təqsirli bilinmiş, çoxları işdən çıxarılmışdı (bax: 1 k81). Kosmik proqramlara maliyyə yardımı azaldılmışdı.

4-cü sətirdə söhbət gedən tərifəlayiq hadisə 20 iyul 1969-cu ildə Apollon – 11 kosmik gəmisində Neyl Armstronq, E.Oldrin və M.Kolinzin Ayın səthinə enməsi, biabırçılıq isə NASA tarixinə qara hərflərlə yazılan "Çelincer" kosmik gəmisinin partlaması və faciənin baş verməsidir.

Onu da deyək ki, 2003-cü il fevralın 1-də yeni faciə baş vermişdi. İçində 7 kosmonavt olan "Kolumbiya" kosmik gəmisi yerə enərkən partlamışdı. Altı nəfər amerikalı: Rik Harbend, Vilyam Makkoul, Maykl Anderson, Devid Braun, Horel Klark, Kalpana Kauladan və ilk İsrail kosmonavtı, polkovnik Elan Ramin həlak



***"Kolumbiya" kosmik gəmisi uçuşdan əvvəl***



***"Kolumbiya" partlayarkən həlak olan astronavtlar (1.II.2003-cü il)***

olmuşdular. Bu həmin Elan Ramindir ki, İraqın atom reaktorunu bombalayaraq sıradan çıxarmışdı. Kosmonavtlardan ikisi qadın idi.

"Kolumbia" kosmik gəmisi səfərə yanvarın 16-da çıxmışdı. Təsadüfə bax ki, 1986-cı il faciəsi zamanı da partlayan "Çelincer" kosmik gəmisində 7 astronavt olmuş, həlak olanların 2-si qadın olmuşdu.

**9 k66**

**Sülh, ittifaq və dəyişiklik olacaq.**
**Zümrələr, vəzifələr, aşağı olanlar yuxarı,**
**yuxarı olanlar lap aşağı enəcəklər.**
**Səyahətə hazırlıq birinci övladı narahat edir.**
**Müharibə səngiyəcək, mülki proses, müzakirələr.**

Tədqiqatçı Ned Halli bu katrenin II Dünya müharibəsindən sonra dünyada gedən proseslərdən və xüsusən də İngiltərədən bəhs etdiyini qeyd edir. 1952-ci ildə İngiltərənin kralı V Georq vəfat edəndən sonra (3-cü sətir) Yelizaveta ailənin böyük övladı və həmin andan kraliça kimi, narahatlıq və həyəcan keçirirdi. Britaniya İmperiyası artıq dağılmışdı. Qırxdan artıq müstəmləkə dövlətləri, xüsusən də Hindistan və Pakistan müstəqillik əldə etmişdi (1947). Bir çox ölkələrdə inzibati idarələr bağlanmışdı. Ətraflı məlumat üçün bax: 10 k100, 10 k100[a], 12 k36.

**9 k67**

**İzer ətrafındakı dağlardan**
**Vəlan qayasında yüzlərlə adam sığınacaq tapacaq.**
**Şatonöfdən, Pyerlatdan Donzerə,**
**Kresə, Romana qarşı inam birləşib.**

Katrendə göstərilən çay, dağ və şəhərlər Fransanın müxtəlif bölgələrindədir. Nostradamusun bu adları sadalaması XVI əsrin 2-ci yarısında dini müharibələrin yayılma dərəcəsini göstərmək istəyindən irəli gəlir. Məlumdur ki, 1559-cu ildə hugenotlarla katoliklər arasında baş verən yeddi dini müharibə bütün Fransanı bürümüş və 1598-ci ilə qədər davam etmişdi. Katrendə görücü bu məsələdən söz açır.

**9 k68**

**Montelmarlı Amar adlı-sanlı adamı ləkələyəcək.**
**Bəla Sona və Rona çaylarının qovuşağına gələcək.**
**Müqəddəs Lusi günü əsgərlər meşədə gizlənmişlər.**
**Heç vaxt belə dəhşətli hakimiyyət olmamışdır.**

Katren Böyük Fransa inqilabı zamanı (1789-1794) baş verən hadisələrdən bəhs edir. Kral XVI Lüdovikin edamına səbəb 1-ci sətirdə adı çəkilən Jan Batist Amar olmuşdur. Liona yaxın Montelmar şəhərindən olan Amar alovlu natiq idi. İctimai təhlükəsizlik Komissiyasının sədri olan Amarın çıxışından sonra Məclis üzvləri sayıqlığı itirərək kralın edam edilməsi təklifinə "hə" demişdilər. Bundan sonra ölkədə terror başlamışdı. Buna "Böyük Terror" adı vermişdilər. 1792-ci ilin avqustundan başlayan "Böyük Terror" 1793-cü ilin may ayına qədər davam etmişdi. Amarın başqa bir çıxışından sonra Sona və Rona çaylarının qovşağında yerləşən Lion şəhəri inqilabı dəstəkləmədiyinə görə yeddi həftə mühasirəyə alınmış, 1793-cü il oktyabr ayının 16-da şəhərə girən inqilabi ordu dəstələri şəhərdə daşı daş üstə qoymamış, 1600 ev dağıdılmış, minlərlə adam

qılıncdan keçirilmiş və ya gilyotinlə başı vurulmuşdu. 3-cü sətirdə 1793-cü ilin dekabr ayının 13-də (Müqəddəs Lusi günü) əks-inqilabi qüvvələrin Le-Mane şəhərinin həndəvərində, meşə kənarında ağır məğlubiyyətə uğramalarından danışılır. Döyüş zamanı və döyüşdən sonra Le-Mane şəhərində on beş mindən artıq adam qılıncdan keçirilmişdi. Nostradamus 4-cü sətirdə bu dəhşətli hadisəyə işarə edir.

**9 k69**

**Sən-Bel və Ləbrel dağlarında**
**Məğrur Qrenobl camaatı gizlənəcək.**
**Lion və Vyanadan o tərəfə güclü dolu yağacaq.**
**Omarların üçdə ikisi yer üzündən silinəcək.**

Katrendə 1944-cü ilin yayında adı çəkilən yerlərdə müttəfiq ordu hissələrinin almanları sıxışdıraraq tutduqları mövqelərindən çıxarmalarından və dolu kimi yağan top mərmilərindən bəhs edilir. Katrendə eləcə də 19-cu alman ordusunun 1944-cü ilin sentyabrında böyük itkilər verərək Liondan çəkilmələrindən danışılır.

4-cü sətirdə Nostradamus məhv edilmiş alman motorlu hərbi hissələrinə işarə edir. Maraqlıdır ki, böyük görücü özündən əsrlərlə sonra icad olunacaq tank və başqa hərbi texnikanı obrazlı şəkildə omara – onayaqlı dəniz xərçənginə bənzətmişdir.

**9 k70**

**Lionda Müqəddəs And günü**
**İti silahlar məşəllərdə gizlədilib.**
**Vyanadan olanların hamısı tikə-tikə doğrandılar.**
**Latın vilayətləri tərəfindən Makon aldadılmayacaq.**

Katrendə 1944-cü ilin sentyabrında Lionda müttəfiq orduları ilə alman ordu hissələrinin döyüşündən bəhs edilir. Alman ordu hissələri Lionu tərk edib Vyanaya çəkilmişdi. Burada Sovet qoşun hissələri almanları mühasirəyə alaraq qırmışdılar. 4-cü sətirdə söhbəti gedən Makon şəhəri Lionun 42 milliyindədir. Lionu tərk edən alman ordu hissələri əvvəlcə burada cəmləşsələr də, möh -

kəmlənə bilməmiş, tezliklə buranı da tərk etməli olmuşdular. Gö - rücü buna işarə edir.

**9 k71**

**Müqəddəs yerlərdə yunlu heyvanlar görünəcək.**
**Həmin gün onunla heç kim cürət edib qarşılaşmayacaq.**
**Karkasonda müvafiq bədnamçılıq üçün**
**O daha geniş yurd salacaqdır.**

Bu katren hələlik şərh olunmamışdır.

**9 k72**

**Müqəddəs məbədlər yenə murdarlandı.**
**Və Tuluza senatı tərəfindən talandı.**
**Saturn iki-üç dəfə dövrə vurdu.**
**Apreldə, mayda insanlar yenidən oyandı.**

Katrendə Fransada dini müharibələr dövrü (1559-1598) baş verən hadisələrdən danışılır. 13 aprel 1598-ci ildə kral IV Henri Nant Fərmanını imzalamışdı. Həmin fərmana görə hugenotlara etiqad azadlığı verilmişdi. Bu, Roma Papası və katoliklərin güclü müqavimətinə səbəb olmuşdu. 4-cü sətirdə görücü buna işarə edir. 3-cü sətiri isə yerdə qalan sətirlərin açarı hesab etmək olar. Məlumdur ki, Saturnun bir dövrəsi 29.5 ilə başa çatır. Saturnun üç dövrəsi 88.5 ilə bərabərdir. Kral XIV Lüdovik Nant Fərmanını 87 il sonra, 1685-ci ildə ləğv etmişdi. Nostradamusun hesablanması, demək olar ki, düz çıxmışdır.

**9 k73**

**Kral tünd-yaşıl əmmamədə Faoya daxil oldu.**
**Və hakimiyyətdə Saturnun bir dövrəsindən də az olacaq.**
**Ağ çalmalı Bizans kralının ürəyi narahatdır.**
**Bu vaxt Günəş, Mars, Merkuri Dolça bürcündə olacaq.**

Bu katren barədə qərb tədqiqatçıları fikir söyləməkdən çəkinmişlər. Tünd-yaşıl, qara, ağ əmmamə müsəlmanlara məxsusdur. Bəs katren hansı ölkədən və hansı dövlət başçısından bəhs edir? Fao

İraqın lap cənubunda, İrana və Küveytə yaxın ərazidə yerləşir. Deməli, ölkənin İraq olduğu aydınlaşdı. Hakimiyyətə gələn şəxsi də ayırd etmək asandır. Günəş, Mars, Merkuri Dolça bürcündə son dəfə 1979-cu ildə olmuşdur. Səddam Hüseyn elə həmin il İraqın Prezidenti seçilmişdi. 2-ci sətir onun hakimiyyət müddətini göstərir. Saturnun Günəş ətrafında bir dövrəsi 29.5 ilə bərabərdir. Nostradamus göstərir ki, onun hakimiyyət müddəti Saturnun bir dövrəsindən də az olacaq. Səddam Hüseynin 2003-cü ildə devrildiyini nəzərə alsaq görərik ki, o, 24 il müddətinə İraqın prezidenti olub.

Katrenin 3-cü sətrində söhbət Bizansdan, müasir Türkiyədən gedir. Nostradamusşünas Con Houq bu sətirlə bağlı yazır: "Osmanlı imperiyasının ağ çalmalı sultanının narahatlığının, sarsıntı keçirməsinin səbəbini Nostradamus açıb-göstərmir". Bizə qalırsa, bu onunla bağlı idi ki, İraq-İran, İraq-Küveyt və NATO ölkələrinin İraqa qarşı apardığı, "Səhrada tufan" adlanan müharibə zamanı və sonralar 2003-cü ilə qədər İraqa blokada elan edildiyindən İraq-Türkiyə neft kəmərinin fəaliyyəti dayandırılmış və Türkiyə milyardlarla maliyyə itkisi ilə üzləşmişdi. İkinci bir tərəfdən də ABŞ və İngiltərə 2003-cü ilin mart ayında İraqı tutanda Türkiyə onları dəstəkləmədiyinə və ABŞ-ın Türkiyədə yerləşən hərbi bazalarından istifadə etməsinə icazə vermədiyinə görə ABŞ-Türkiyə münasibətlərində yaranan soyuqluq və İraqın şimalında, əsasən Kərkük vilayətində yaşayan azəri türklərinin taleyi Türkiyəni çox narahat edir. Görücü buna işarə edir.

**9 k74**

**Fert şəhərində qətl,**
**Yığılmış çoxlu öküz qırbanlıq deyil, əkin üçündür.**
**Artemidin şərəfinə yenə qaytarılmışlar.**
**Və Vulkana – ölüləri basdırmağa.**

Bu katren barədə tədqiqatçılar ümumi fikir və mülahizələrini söyləyərək onun İraq və Səddam Hüseyndən bəhs etdiyini göstərmişlər. Bununla belə, nostradamusşünaslar Fert şəhəri barədə

bir söz deyə bilməmişlər. Tədqiqatçıların fikrincə, Fert Savoy sülaləsinin devizidir. Artemida qədim yunan mifologiyasında ilahə, Vulkan isə dəmirçilik sənəti allahı olmuşdur. Artemida ov işinə baxardı. Onun rəmzi ox idi və onun oxu heç vaxt hədəfdən yayınmazdı. Nostradamus Artemidanın hədəfdən yayınmayan oxunu obrazlı şəkildə işlədərək, indiki raketlərə işarə etmişdir.

Vulkan isə bütün dəmir alətləri və silahları düzəldərmiş. O, Yupiter Allahı üçün qızmış dəmiri döyərək ildırım hazırlayarmış. Nostradamus 4-cü sətirdə Vulkanı yada salaraq zəmanəmizdə düzəldilən dəhşətli silahlardan – raketlərdən söz açır.

### 9 k75

**Ambraksi və Trase ölkəsindən,**
**Xalqa dənizdən həmlə, Fransadan kömək və bəla.**
**Provansda onların izi daimidir.**
**Adət-ənənələrinin və qanunlarının qalıqları ilə.**

Katrenin 1-ci sətrində söhbət Yunanıstandan gedir. Qədimdə yunanlar Provansda məskən salmışdılar. 3-cü və 4-cü sətirlərdə sözü gedən Nostradamusun vətəni Provansda yunan adət-ənənələrinin və mədəniyyət abidələrinin izlərinə indi də təsadüf edilir.

2-ci sətirdə 1821-1822-ci illərdə Osmanlılarla Yunanlar müharibə aparanda Fransa və Rusiya yunanlara köməyə gəlmişdi.

Nostradamus Yunanıstana Fransadan pislik və bəla da gələcəyini söyləyir. Doğrudur, bu da olmuşdur. I Dünya müharibəsi zamanı Yunanıstan bitərəf ölkə olsa da, fransız-ingilis ordu hissələri Yunanıstanı tutmuşdular. Nostradamus 2-ci sətrin 2-ci hissəsində buna işarə edir.

### 9 k76

**Acgöz və qaniçən qara komandan Rapaksla birgə,**
**Qəddar Neronun fahişəxanasından çıxıb.**
**İki çay arasında hərbi qüvvə sol cinahda olacaq.**
**Cavan dazbaş tərəfindən öldürüləcək.**

Katrendə söhbət tam qətiyyətlə deyə bilərik ki, İraqdan gedir. İkiçayarası Mesopotamiyadır. 1991-ci ildə NATO ordu hissələri "Səhrada tufan" əməliyyatını həyata keçirərək İraqı tutanda Baş komandan Amerika generalı, qara dərili Kolin Pauel idi. Katrenin 1-ci sətrində buna işarə edilir. Nostradamus bu savaşı "Petrol savaşı" adlandırmışdı. Sonrakı hadisələr göstərir ki, ABŞ-ın məqsədi Küveyti müdafiə etmək deyil, dərin düşünülmüş başqa bir məsələdir.

ABŞ və İngiltərə 2003-cü ilin mart ayında "İraqda qorxulu silah var" bəhanəsi ilə İraqı zəbt etdi. Bunu hadisədən çox-çox əvvəl alman tədqiqatçısı Manfred Dimde bəyan etmişdi. Dimde yazırdı ki, İraqı ikili dövlət tutacaq. O, ikili dövlət deyəndə ABŞ və İngiltərəni nəzərdə tuturdu.[1] Dimdenin bir fikri də diqqəti çəkir. Tədqiqatçı göstərmişdir ki, 2006-cı ildə neft yataqları uğrunda mübarizə şiddətlənəcəkdir.[2]

Katrenin 4-cü sətrində Nostradamus Səddam Hüseynin özünün tutulması və iki oğlu Odey və Quseyin öldürülməsindən söz açır. Bu əməliyyat Amerika generalı, qısasaç Pol Braymer tərəfindən həyata keçirilmişdi. D. və N. Zimalar Rapaks sözünün qədim Romada "sülh keşikçisi" mənasında işləndiyini və "zor gücünə zəmanəmizdə sülhü təmin edən" ABŞ-dan bəhs etdiyini qeyd edirlər. Tədqiqatçılar göstərirlər ki, "Ara Paks", eyni zamanda, əlində sehrli çubuq olan və işıq saçan qadın simvolu kimi, Roma sikkə pullarının üzərində həkk olunarmış. ABŞ-ın da simvolu əlində məşəl olan "Azadlıq Heykəli"dir.

Zimalar yazırlar ki, 1996-cı ildə "müharibədə iştirak etməyən ABŞ gəmiləri" Serbiya şəhərlərini yerlə yeksan etmişdilər.

Sonralar isə ABŞ demokratiya pərdəsi altında zorla Əfqanıstan və İraqı tutdu. İndi isə İran və Suriyanı hədələyir.

---

[1] Manfred Dimde. Nostradamus. Moskva, 1998, p.129.
[2] Manfred Dimde. Göstərilən əsər, səh.144.

Nostradamusşünaslar tam ciddiyyətlə xüsusi vurğulayırlar ki, ABŞ-ın ərəblərə, ümumiyyətlə, müsəlman aləminə yerini göstərmək istəyi III Dünya müharibəsinin başlanmasına səbəb olacaqdır. Beləliklə, ABŞ-ın hərbi rəhbərləri və prezidenti "Antixristə" çevriləcəklər. "Öz gözündə çöpü görməyib, başqalarının gözündə tük axtaranlar" ayılmalıdırlar.[2]

R.Belousovun fikri də maraq doğurur. O, yazır ki, əvvəlcə heç bir münaqişədə iştirak etməyən bir çox ölkələr təzyiqə və əzab-əziyyətə məruz qalacaq. Dünyada gərginlik hökm sürəcək. Amerikada dövlət siyasətinə qarşı etiraz dalğaları baş alıb gedəcək. Belə olan halda Vyetnam məsələsində olduğu kimi, narazılıqları səngitmək üçün ABŞ yeni düşmənlər axtaracaq. Belə "düşmən"i asanlıqla ərəb ölkələrində və ya Rusiyada axtaracaqlar.[2]

**9 k77**

**Krallığı ələ alanlar kralı mühakimə edəcəklər.**
**Kraliça çoxluğun seçdiyi hakimlər tərəfindən**
**ölümə məhkum ediləcək.**
**Kraliçanın oğlunun həyatını bağışlamayacaqlar.**
**Məşuqə durub-oturduğunun taleyinə şərik oldu.**

Katrendə bəyan olunanlar Böyük Fransa inqilabı (1789-1794) zamanı baş verib. Həqiqətən də kral XVI Lüdovik mühakimə edilərək ölümə məhkum edilmişdi. Hökm 21 yanvar 1793-cü ildə yerinə yetirilmişdi. 2-ci sətirdən də göründüyü kimi, kraliça Mariya Antuanetta da ölümə məhkum olunmuş və hökm 16 oktyabr 1793-cü ildə yerinə yetirilmişdi.

2-ci sətir nostradamusşünasları mat qoyub. Məsələ burasındadır ki, görücünün zamanında hakimlərin çoxluq tərəfindən seçilməsi yox idi. Hakimlər kollegiyasının püşkatma yolu ilə çoxluq tərəfin -

---

[1] Dmitri və Nadejda Zimalar. "Şifrələnmiş Nostradamus" (rusca). Moskva, 1998, səh. 218-220; Təkrar nəşr (əlavələrlə), M., 2001, səh. 218-220.

[2] Великие пророчества. Москва, 2000, стр. 293-294.



***Kraliça Mariya Antuanettanın məhkəməsi (1793)***

dən seçilmə təcrübəsi Nostradamusun ölümündən təqribən 250 il sonra olub. Katrenin 3-cü sətrindən və tarixi sənədlərdən məlum olur ki, XVI Lüdovikin 11 yaşlı oğlunu da öldürmüşdülər. Bu, 1795-ci ildə baş vermişdi. Beləliklə, inqilab onu nəinki taxt-tacdan, hətta həyatdan belə məhrum etmişdi. Biz bu faktı ona görə xüsusi vurğulayırıq ki, kral XVI Lüdovik edam edilən kimi, oğlu Şarl kral hesab olunmağa başlamışdı.

Katrenin 4-cü sətrində kralın məşuqəsi madam Du Barrinin edam olunmasından bəhs edilir. Tarixi faktlar Nostradamusa haqq qazandırır.

Lakin Şarlın bacısı əsgərlərin yerinə Avstriyaya girov göndərildiyinə görə tale üzünə gülmüş, ölüm ondan yan keçmişdi.

Bəzi tədqiqatçılar yazırlar ki, guya Şarl öldürülməmiş, guya parlamentin üzvü çəkməçi Simon yaxşı adam olub və 19 yanvar 1794-cü ildə Şarla qaçmağa şərait yaradıb. Guya respublikaçılar onun yoxa çıxdığını görərək Şarlın bibisi madam Elizabeti öldürmüş və 8 iyun 1795-ci ildə dofinin öldüyünü elan edərək döv -

lət adamlarına tanınmaz hala salınmış uşaq meyiti göstərmişlər. Həmin tədqiqatçılar qeyd edirlər ki, madam Elizabet sağ olsaydı, meyitin Şarlın olmadığını deyərdi. Guya madam Elizabeti bu səbəbdən öldürüblər.

Doğrudur, Nostradamusun bəzi katrenlərində dofinin qaçmağına bənzər mətləblər vardır (bax: 9 k24). Bununla belə, bu katrendə (3-cü sətir) açıqca bəyan olunur ki, onu da məhv ediblər.

### 9 k78

**Gözəllikdə yunan kurtizankası Laisə bərabər qadın.**
**Saysız-hesabsız pərəstişkarları elə xoşbəxtdir.**
**İspaniya krallığından başqa yerə köçürülmüşdür.**
**Əsir edilmiş, həyatdan niskin ölümlə gedir.**

Nostradamusşünas Lamor 1925-ci ildə bu katreni tədqiq edərək Nostradamusun Mariya Mediçidən söhbət açdığını göstərmişdir. Tarixçilər qeyri-adi gözəlliyə malik Mariya Mediçinin əxlaqsızlığından da söz açmışlar. Deməli, katrendə görücünün bəyan etdikləri yerini almışdır.

Mariya Mediçi Hollandiyaya sürgün edilmişdi. Sonralar o, indiki Almaniya ərazisinə gəlmiş, səfalət içində yaşamış, orada da dünyasını dəyişmişdi (bax: 7 k1, 7 k11, 8 k18).

### 9 k79

**Donanmanın başçısı fırıldaq və hiylə ilə.**
**Cəsarətsizləri döyüş gəmilərindən çıxmağa vadar edəcəklər.**
**Müqəddəs yağlamadan imtina edən rəhbər öldürüldü.**
**Sonra isə onlar pusqudan çıxıb, onun haqqını verəcəklər.**

Katrendə dini müharibələr (1559-1598) vaxtı Fransada baş verən hadisələrdən, qırğınlardan bəhs olunur. Burada əsasən söhbət hugenotlara rəhbərlik edən admiral Kolinidən gedir. Kolini katolik etiqadını qəbul etmirdi. 1572-ci il avqustun 24-də Müqəddəs Varfolomey bayramı gecəsi Giz qardaşlarının təklifi və təkidi ilə kral IX Karl hugenotlarla barışıq adı altında rəhbərləri admiral Kolini

başda olmaqla kral sarayına ziyafətə dəvət etmişdi. Əvvəlcədən onların öldürüləcəkləri planlaşdırılmışdı. Elə də olmuşdu. Həmin gecə Kolini başda olmaqla 3000-dən çox hugenot öldürüldü və tezliklə "Varfolomey gecəsi" Fransa tarixinə qara hərflərlə yazıldı. Kral IX Karl öldü. Ondan sonra hakimiyyətə gələn qardaşı III Henri də, Giz qardaşları da sui-qəsd nəticəsində öldürülmüşdülər.

**9 k80**

**Hersoq (Duçe) özününkülərin axırına çıxmaq istəyəcək.**
**Ən güclüləri yad ölkələrə göndərəcək.**
**Piz və Luk vəhşicəsinə dağıdılacaq.**
**Şərabsız qalmış barbarlar üzüm məhsulu yığacaqlar.**

Tədqiqatçılar katrenin 1-ci sətrində Mussolinidən – Duçedən (rəhbər) bəhs olunduğunu qeyd edirlər. O da göstərilir ki, 1941-1942-ci illərdə Mussolini ən bacarıqlı generallarını və ən güclü ordularını Rusiya, Efiopiya və Şimali Afrikaya göndərmişdi. Onlar ölümlə üz-üzə dayanmışdılar. Hadisələrin gedişi Mussolinini hakimiyyətdən əl çəkməyə məcbur etmişdi. Lakin 1943-cü ildə almanlar İtaliyanı tutaraq Mussolinini yenidən hakimiyyətə gətirmişdilər. Mussolini Xarici İşlər Naziri Çiano və bir neçə görkəmli dövlət xadimlərini edam etdirmişdi.

Piz və Luk 1944-cü ildə müttəfiq orduları tərəfindən bombardman edilmişdi.

**9 k81**

**Hiyləgər kral onun tələsindən hali olacaq.**
**Düşmənlər üç cəbhədən həmlə edəcək.**
**Başı kaporlu kişilərin çoxlu göz yaşları,**
**Tərcüməçinin məharəti fayda verməyəcək.**

Bəzi tədqiqatçılar katrenin terrorçularla bağlı olduğunu və onlarla danışıqların heç vaxt fayda vermədiyini ön plana çəkirlər. Belə olan halda deyirlər: "Avazın yaxşı gəlir, oxuduğun quran olsa".

Nostradamusşünas Ned Halli isə güman edir ki, katren onun özünə həsr olunub. Guya Kilsə, Ordu və Dövlət ona hədə gəlir-

miş. Məlumdur ki, nə ordu, nə də dövlət Nostradamusa qarşı heç bir əks-fəaliyyətdə bulunmamışdı.

**9 k82**

**Daşqın və təhlükəli epidemiyaya görə,**
**Böyük şəhər uzun müddət mühasirədə qalacaq.**
**Növbətçi və keşikçi dəstəsi əllə öldürüləcək.**
**Qəfildən tutacaqlar, lakin heç kimə qarşı zorakılıq işlənməyəcək.**

Tədqiqatçıların fikrincə böyük şəhər Parisdir. Katrendə baş verənlərin gələcəkdə yer alacağı güman edilir. 1-ci sətirdən göründüyü kimi, şəhərdə daşqın və təhlükəli epidemiya gözlənilir.

**9 k83**

**Günəş Buğa bürcündə, 20-ci dərəcədə, güclü zəlzələ baş verəcək.**
**O, adamla dolu teatrı xaraba qoyacaq.**
**Qaranlıq çökəcək, havada və yerdə bəla baş verəcək.**
**Onda kafir belə, Allah və müqəddəslərdən kömək diləyəcək.**

Katrendə insanı mat qoyan bir məsələ vardır. İnsanın ağlagəlməz silahlar, cihazlar, hava gəmiləri, kompyuter yaratdığı, Aya səyahət etdiyi zəmanəmizdə bilmədiyi halda, XVI əsrdə Nostradamus zəlzələnin olduğu vaxtı göstərmişdir. XX əsrin axırına yaxın XXI əsrin əvvəllərində baş verən zəlzələlər bəşəriyyəti dəhşətə salmışdır.

Maraqlıdır ki, Günəş Buğa bürcünə yaxınlaşdığı 20-ci gün, May ayının 10-a təsadüf edir. Təəssüf ki, Nostradamus ili göstərməmişdir.

**9 k84**

**Devrilmiş kral qırğını tamamlayacaq.**
**Öz kökünü ayırd edəndən sonra:**
**Sel mərmər və qurğuşundan düzəldilmiş qəbri açacaq.**
**Böyük Romalının Meduza əlaməti ilə birgə olduğu məlum olacaq.**

Bu katren barədə tədqiqatçılar ağlabatan bir fikir söyləməmişlər.

### 9 k85

**Qyeni, Lanqedoku və Romanı keçib,**
**Ajendən başlayaraq Marmand və Reolu tutacaq.**
**Kralın inamını qazanaraq fokidanlı taxta sahib olacaq.**
**Sən Pol dö Mozelin yaxınlığında münaqişə baş verəcək.**

Katrendə görücünün söz açdığı bütün şəhərlər Fransadadır. Nostradamus hətta Ajen şəhərində işləmişdi. Marsel liman şəhərinin əsasını fokidanlılar qoymuşdular. Adı çəkilən şəhərlərin hamısı dini müharibələr vaxtı (1559-1598) zərər çəkmişdilər.

### 9 k86

**Onlar Laren şəhərindən birbaşa Şartra gələcəklər.**
**Və Antoni körpüsünün yanında ləngiyəcəklər.**
**Yeddi (dövlət) sülh naminə, tülkü kimi bicliklə,**
**Bağlı şəhər Parisə ordunun girişini təşkil edəcək.**

Napoleon Elba adasından sürgündən qaçaraq hakimiyyəti ələ aldıqdan sonra, yeddi müttəfiq Avropa ölkəsinə qarşı çıxmalı oldu. Onlar: İngiltərə, Avstriya, Prussiya, Rusiya, İsveç, İspaniya və Portuqaliya idi. Yeddi dövlətin ordu komandanları birləşərək sülhü bərpa etmək bəhanəsi ilə Napoleon ordusuna qarşı hücuma keçdilər. Napoleonun ikinci dəfə hakimiyyətə gəlməsi yüz gün çəkdi.

Nostradamusşünas Le Pelletye göstərir ki, onların məqsədi Fransanı zəiflətmək idi. Belə də olmuşdu. Müttəfiq orduları Parisə 1815-ci il iyul ayının 3-də girmişdilər.

Katrendən göründüyü kimi, Nostradamusun 250 il öncə söylədikləri yerini almışdı.

### 9 k87

**Tufon meşəsi təmizləndi.**
**Tənha evin yanında məbəd qurulacaq.**
**Estamp hersoqu özünün düşündüyü hiylə ilə**
**Monteri dağıdan prelat nümunəsi göstərəcək.**

Tədqiqatçıların göstərdiyinə görə, yaşayış yerindən uzaq olan bu məbəd kralların məşuqələri ilə görüş yeri olub. Bunu katrenin 3-cü sətrindən də duymaq olur. Monteri Parisin yaxınlığındadır. Etamp isə 10 mil ondan uzaqdadır. Kral II Henri Etampı ilahə Diananın məbədi adlandırırdı. Buradan iki məna çıxarmaq olur. Həqiqətən də mifologiyada ilahə Diana vardır. Başqa bir yandan da kral II Henrinin ən çox diqqət yetirdiyi, çox vaxt bir yerdə olduğu məşuqəsinin də adı Diana idi. Diana de Puatye.

**9 k88**

**Kale, Arras şəhərləri Teroana köməyə gələcəklər.**
**Sülh və buna bənzər vəziyyət casusu hərəkətə gətirəcək.**
**Savoyadan qayıqlarla Ruan çayı boyu aşağı enəcəkdir.**
**Dağılan (dağılışan) camaat yol verəcəkdir.**

Katrendə bəhs olunan hadisələr XVI əsrin sonlarına yaxın, 4-cü sətirdə göstərilənlər isə 1602-ci ildə baş vermişdi. Həmin il kral IV Henri ordusu ilə Savoyadan keçib gedərkən Savoya ona yol verməyə məcbur olmuşdu.

1-ci sətirdə göstərilən şəhərlər bir-birinə çox yaxındırlar.

**9 k89**

**Yeddi il tale Filippin üzünə güləcəkdir.**
**Ərəblərin həmləsini dəf edəcəkdir.**
**Hakimiyyətinin sonrakı dövründə sarsıdıcı və inanılmaz hadisələr,**
**Cavan Oqmiy onun dayaqlarını məhv edəcək.**

Nostradamusun görücülüyündə Lui Filip və ondan sonra hakimiyyətə gələn Lui Napoleon əhəmiyyətli yer tutur. Bu katren də o cümlədəndir. 1830-cu ildə Fransada iğtişaşlar nəticəsində kral X Karl devrilmiş və inqilabi hərəkata başçılıq edən Orleanlı Lui Filip hakimiyyətə gəlmişdi. Onun 14 illik hakimiyyətinin ilk yeddi ili ölkənin çiçəklənmə dövrü olmuşdu. Əlcəzairin fəthindən sonra Fransanın gücü və qüdrəti beynəlxalq aləmin gözündə artmışdı. Onu "Xalq kralı" deyə çağırırdılar. Lakin birdən-birə katre-

nin 3-cü sətrində göstərildiyi kimi, hər şey dəyişmiş, 1838-ci ildə Lion, Qrenobl və Parisdə çaxnaşmalar başlamış, xalq təlatümə gəlmişdi. Səbəb isə guya seçki hüquqlarının məhdudlaşdırılması idi. Nostradamusun 3-cü sətirdə bəyan etdiyi inanılmaz hadisə isə xalqın birdən-birə Napoleonun qardaşı oğlu Lui Bonapartı dəstəkləməsi idi. Məsələ burasındadır ki, Lui Bonapart əvvəllər mühakimə olunmuş və ona ömürlük həbs qətimkan tədbiri seçilmişdi. 1846-cı ildə o, həbsdən qaçaraq İngiltərəyə pənah aparmışdı. 1848-ci il inqilabı zamanı Fransaya dönərək hakimiyyəti ələ almışdı (bax: 4 k65, 8 k42). Lui Filip isə İngiltərəyə qaçaraq canını qurtarmış və iki il sonra dünyasını dəyişmişdi.

**9 k90**

**Daha böyük Almaniyanın başçısı,**
**Guya kömək göstərməyə gələcək.**
**Krallar kralı, Pannonidən kömək.**
**Belə ki, onun silahlı çıxışı ucbatından çoxlu qan axacaq.**

Nostradamus II Dünya müharibəsini və onu törədəni əvvəlcədən görmüş və bu barədə bir neçə katrendə söz açmışdır. Bu katrenin 1-ci sətrində yer alan “daha böyük Almaniya” ifadəsi təsadüfi işlədilməmişdir. Nostradamus bu ifadəni özündən neçə-neçə əsr sonra Hitlerin işlədəcəyini görmüşdü. Hitler faşist Almaniyasını Grossen Deutschland adlandırırdı. Özünə isə ari xilaskarı (krallar kralı) adı vermişdi. O, planlarını dünyanı kommunizm və allahsızlardan xilas etmək pərdəsi altında həyata keçirirdi. 2-ci sətirdə Hitlerin kömək bəhanəsi ilə Çexoslovakiya və Polşanı tutmasından söhbət gedir. Pannona Macarıstandır. Həqiqətən də macarlar şərq cəbhəsinə – Sovet İttifaqına qarşı müharibəyə 300 min nəfərdən ibarət ordu göndərmişdi. Hitler almanlara açıqca bəyan edirdi ki, ona kömək dünyanı fəth etməyə bərabər olacaq. Lakin onun məğlub olması uçuruma bərabər olacaq. Xülyalarla yaşayan, “Dili əlində cida olan dəlidən də qorxulu” (Nostradamus) II Antixristin bu sözləri həqiqətə çevrildi. Hitler Almaniyanı uçuruma apardı. Ölkə

xarabazara çevrildi, almanlar dilənçi kökünə düşdülər. Müharibədə 80 milyon adam həlak oldu. Onların 55 milyonu mülki insanlar, qocalar, uşaqlar və qadınlar idi.

**9 k91**

**Dəhşətli Vəba Perinf və Nikopolu bürüyəcək.**
**Şesone və Makedoniya da buna düçar olacaq.**
**Fessaliya və Amfipolisi bu bəla məhv edəcək.**
**Bu naməlum bəlanı Antoniyo da cilovlaya bilməyəcəkdir.**

Katrendə adı çəkilən yerlər: Perinf (Eski Ereqli), Nikopolis (Preveza), Şersone (Peloponnes–yarımada), Makedoniya, Fessaliya və Amfipolis (Salonik) Yunanıstan və Makedoniyadadır. Katrendən məlum olur ki, bu yerləri indiyə qədər bəşəriyyətə məlum olmayan bəla bürüyəcək və məhv edəcək. 4-cü sətirdə görücü Misirli müqəddəs Antoniyodan (251-356) söz açır. Bu dahi təbib insanlara və heyvanlara şəfaverci qabiliyyətə malik idi. Bütün dərdlərə əlac tapa bilirdi. Nostradamus obrazlı şəkildə buna işarə edir. Bu naməlum bəla qarşısında Antoniyo kimi bir dahinin də çarəsiz qalacağını bəyan edir.

Yeri gəlmişkən qeyd edək ki, Nostradamus katrenlərində bəşəriyyətə 7 bəla üz verəcəyini və bunun “Yaradanın Yeddi qəzəbi” olduğunu dönə-dönə bəyan etmişdir. Görücü bunların insanların ağlasığmaz günahları və qəddarlıqları ucbatından baş verəcəyini göstərmişdir.

**9 k92**

**Kral təzə şəhərə girmək istəyəcək.**
**Zəbt etmək üçün düşmənlərin arasından keçəcək.**
**Əsir azad olundu, yalan danışmaq və saxta hərəkət.**
**Kral kənarda, düşməndən uzaqda dayanacaq.**

Katrendə XVI əsrin 2-ci yarısında baş verən hadisələrdən bəhs edilir. Keçmişdə Neapolis (indiki Neapol) yeni şəhər adlanırdı: nea-new-yeni. (Bizdə neo qəbul olunub. Məsələn, neoklassik

poeziya – Q.P.) 1557-1559-cu illərdə Fransanın ekspedisiya ordusu Neapol yaxınlığında düşərgə salmışdı. Lakin mühasirədən çıxa bilmirdi. Kral II Henri Monmoransini Sen-Katenə general Kolininin köməyinə göndərir. Hər iki ordu ispanlar tərəfindən darmadağın edilir. Komandanlar əsir düşür. İspan kralı II Filip sülh danışıqlarına bir şərtlə razı olur ki, danışıqları Monmoransi və Kolini aparsın və II Filip belə olan halda onların azad olunacaqlarına təminat verir. 3-cü sətirdə görücü buna işarə edir. Fransa bu alçaldıcı şərtlərlə razılaşmaq məcburiyyətində qalır. Katrenin 4-cü sətrində isə kral II Henriyə işarə olunur. Həqiqətən də kral II Henri nə müharibədə, nə də sülh danışıqlarında iştirak etmişdi.

**9 k93**

**Düşmənlər qaladan çox uzaqdadırlar.**
**Cəng arabalarını istehkamlara yönəltmişlər.**
**Herkules makedoniyalıya zərbə endirəndə,**
**Burjuada daş-daş üstə qalmayacaq.**

Katren XVII əsrin ortalarında Fransa ilə İspaniya arasında gedən müharibələrdən bəhs edir. Burjua şəhəri mərkəzi Fransada yerləşir.

1651-ci ildə ispanlar bu şəhəri yerlə yeksan etmişdilər.

**9 k94**

**Zəif döyüş gəmiləri bir yerə yığışmışlar.**
**Yalançı düşmənlər alınmaz qaladır.**
**Zəif hücuma keçdi, Bratislava titrəyir.**
**Lübek və Meysen varvar tərəfi dəstəkləyəcək.**

Tədqiqatçılar qeyd edirlər ki, katren Çexoslovakiya və Almani - yadan bəhs edir. Münhen sazişinə görə Çexoslovakiya iki yerə bölünmüş və Hitler Almaniyasının əlaltısına çevrilmişdi. Lübek və Meysen Baltik dənizi sahillərində alman şəhərləridir.

## 9 k95

**Yeni gerçəklik (dəlil) orduya rəhbərlik edəcək.**
**Çayın sahilinin yaxınına qədər, demək olar ki, əlaqə kəsilmişdir.**
**Milan seçmələrinin köməyi təklif olunacaq.**
**Duçe Milanda – dəmir qəfəsdə gözlərindən məhrum olacaq.**

Katren bir daha Nostradamusun görücülüyünün möhtəşəmliyinə inandırır. Katrendə II Dünya müharibəsi zamanı İtaliya və onun rəhbəri Mussolininin düşdüyü çıxılmaz vəziyyətdən söz açılır. Katrenin 1-ci sətri bizi xəyalən 1942-ci ilin noyabr ayına – Şərq cəbhəsinə aparır. Yeni və dəhşətli həqiqət odur ki, Səkkizinci İtaliya ordusu mühasirəyə alınaraq Don çayı sahilində, 2-ci sətirdə görücünün bəyan etdiyi kimi, darmadağın edilmişdi. Milan seçmə qoşun hissəsinin köməyi artıq mənasız olmuşdu (3-cü sətir).

4-cü sətirdə görücü birbaşa Mussolinini göz önünə gətirir. Hətta "Duçe" – rəhbər sözünü işlədir.

1945-ci ilin aprel ayının 25-də İtaliya Azadlıq hərəkatı Komitəsi Mussolinini edam etmək barədə qərar çıxartdı. 28 aprel 1945-ci ildə partizanlar 61 yaşlı Mussolinini tutaraq güllələdilər. Onunla birgə məşuqəsi Klara Petaççini də edam etdilər. Sonra isə yük maşınında Milana gətirdilər. Milanın Pyatsa Lozetto meydanında ayaqlarından asdılar.[1]

## 9 k96

**Ordunun şəhərə girməsinə rədd cavabı veriləcək.**
**Hersoq əminliklə (şəhərə) daxil olacaq.**
**Zəif müdafiə olunan qapılardan ordu gizli olaraq yeridiləcək.**
**Onlar şəhəri yandıracaq, qan tökəcəklər.**

Katrendə çox ümumi və keçmiş üçün xas olan hadisələrdən bəhs edilir. Tarixdə belə hadisələr çox olub. Heç bir tutalğac yeri

[1] Denis Mek Smit. Mussolini. Moskva, 1995, p. 371-372.

olmadığından katren barədə söz demək çətindir. Məhz buna görə də tədqiqatçılar katrenlə bağlı qəti söz deməkdən çəkinmişlər.

**9 k97**

**Dəniz qüvvələri üç yerə bölünmüşlər.**
**İkincinin ehtiyatı tükənəcək.**
**Yelisey çöllərini axtararkən ümidsizliyə qapılacaqlar.**
**Keçidə kim tez girsə qələbə onun olacaq.**

Tədqiqatçılardan bəzisi bu katrenin 21 oktyabr 1805-ci ildə birləşmiş fransız-ispan hərbi dəniz donanmasının ingilislərlə döyüşündən bəhs etdiyini qeyd edirlər. Katrenin 1-ci sətri də bunu təsdiqləyir. Döyüşdə üç dövlətin donanmaları iştirak edirdi. Tarixçilərin yazdığına görə ispan donanması döyüşə çox pis hazırlaşmışdı. Onların kifayət qədər ehtiyatı belə yox idi (2-ci sətir).

3-cü sətirdə fransız admiralı Vilnevdən bəhs olunur.

4-cü sətirdə güman ki, söhbət Cəbəlüttariq boğazından gedir. Trafalqar burnu bu boğaza çox yaxındır.

Trafalqar vuruşunda müttəfiqlərin 17 gəmisi ələ keçirilmiş, bir gəmisi batırılmışdı. Fransızlar və ispanlar 5 saat yarım davam edən bu ölüm-dirim vuruşunda 7 min (ölənlər, yaralananlar və əsir düşənlərlə birgə), ingilislər isə 1700 nəfər itirmişdilər. Admiral Nelsonun həyatı bahasına başa gələn bu qələbə, fransızlara da baha başa gəldi. Bu qələbə nəticəsində İngiltərə dənizdə hökmranlığı ələ keçirdi. Fransanın öz müstəmləkələri ilə əlaqələri çətinləşdi.

**9 k98**

**Təkcə bir nəfərin günahı ucbatından dərdə-qəmə batanlar,**
**Qanunu pozan əks tərəfdədir.**
**Lionlulara o, mesaj göndərəcək, güc tətbiq olunacaq.**
**Onlar özlərini Molitin böyük başçısına təslim edəcəklər.**

Katrendə Böyük Fransa inqilabı zamanı, 1793-cü ilin oktyabr ayında Lionda baş verən qanlı hadisələrdən bəhs edilir. Lionlular royalistlərin qatı düşməni Nivyer Şolun Parisin meri seçilməsinə qarşı etiraz səslərini ucaltmışdılar.

1-ci və 2-ci sətirlərdə bu məsələdən danışılır. 3-cü sətirdə İctimai Təhlükəsizlik Komitəsinin sədri Barerdən söz açılır. O, Lionda baş verən ixtişaşları yatırtmaq üçün güc tətbiq etməyə əmr vermişdi. Nəticədə şəhərdə 16 min ev yandırılmış, qan su yerinə axıdılmışdı (4-cü sətir).

Ən təəccüblüsü odur ki, əsgərlər şəhərin xarabaları üzərində böyük taxta lövhə ucaldaraq yazmışdılar: "Lionlular azadlığa qarşı çıxdılar. Odur ki, daha Lion yoxdur".

### 9 k99

**Şimal küləyi mühasirəni götürməyə vadar edəcək.**
**Divarların üstündə kül, əhəng və toz qalxacaq.**
**Yağışla onlara çoxlu ziyan vuracaq.**
**Ən zəif kömək sərhədlərinin əks tərəfindən gələcək.**

Tədqiqatçılar bu katrenin də Leninqradın blokadasından bəhs etdiyini qeyd edirlər. Nostradamus Leninqradın blokadasına iki katren həsr etmişdir. Sanki bu iki katren biri-birini tamamlayır. Biz artıq kül, əhəng, toz və s. barədə təfsilatı ilə danışdığımıza görə (bax: 4 k52) burada təkcə onu vurlğulamaq istəyirik ki, 1-ci sətirdə Nostradamus sovet ordu hissələrinin həyata keçirdiyi uğurlu əməliyyatı "Şimal küləyi" adlandırmışdır. Doqquz yüz gün davam edən blokada "Şimal küləyi" əməliyyatından sonra götürülmüşdü.

Blokada 1941-ci ilin sentyabr ayının 8-də başlamış, 1943-cü ilin yanvarında yarılmış, 1944-cü ilin yanvarında qəti olaraq götürülmüşdü.

Leninqradın müdafiəsində bir çox azərbaycanlılar qəhrəmanlıq göstərmiş və Sovet İttifaqının orden və medallarına layiq görülmüşdülər.

4-cü sətirdə Almaniyadan kömək gələ bilməyəcəyinə işarə olunur.

**9 k100**
**Dəniz döyüşü gecə səngiyəcəkdir.**
**Gəmilər od tutub yanacaq. Qərbə fəlakət.**
**Yeni kodlar, böyük gəmi rənglənəcək.**
**Məğluba qəzəb, qalibə çiskin, yağış qismət olacaq.**

Bəzi tədqiqatçılara görə, katrendə ispan və ingilis hərbi gəmilərinin vuruşundan bəhs olunur. Bu, 1588-ci ilin 8 avqustunda olmuşdu. 130 gəmidən ibarət ispan hərbi-dəniz donanması Kale limanında lövbər salıbmış. Onlar La-Manşdan keçib İngiltərəyə hücum etmək niyyətində idilər. Gecə ingilis donanması onlara yaxınlaşmış və alaqaranlıqda gözlənilməz hücuma keçmişdilər. İspanlar donanmanın və şəxsi heyətin yarısını itirmişdilər.

Bəzi tədqiqatçılar isə qeyd edirlər ki, katren 1941-ci ildə dekabrın 7-də Sakit okeanda ABŞ-ın Pirl Harbor hərbi-dəniz bazasına Yaponiyanın endirdiyi qəfil zərbədən və ABŞ-a qarşı müharibəyə başlamasından bəhs edir. Doğrudan da, bombardman nəticəsində, demək olar ki, hərbi baza məhv edilmiş, ABŞ-a istər mənəvi, istərsə də maddi cəhətdən böyük ziyan dəymişdi. ABŞ-ın 8 döyüş gəmisi də daxil olmaqla 18 gəmisi batırılmış, 200 döyüş təyyarəsi və 3 minə yaxın döyüşçüsü məhv edilmişdi. Yazılanlara görə amerikanlar yaponların Pirl Harbor hərbi bazasına hücum barədə kodlu əmrini ələ keçirmişdilər. Lakin Franklin Ruzvelt Konqresin müharibəyə qarşı çıxdığını bildiyindən, “yeni kodu” (3-cü sətir) açıqlamağı məsləhət görməmişdi. Pirl Harborda baş verən fəlakətdən sonra xalq da, Konqres də qəzəblənmişdi. Ruzveltin müharibəyə başlamaq üçün əl-qolu açılmışdı. Səhərisi gün ABŞ Yaponiyaya müharibə elan etdi (8 dekabr 1941). ABŞ dənizçiləri hərbi-dəniz donanmasını yapon təyyarələrinin hücumundan qorumaq üçün gəmiləri rəngləyərək görünməz hala salırdılar. 3-cü sətirdə görücü buna işarə edir.

4-cü sətirdə isə Nostradamus obrazlı şəkildə ABŞ-ın Pirl Harborda verdiyi itkilərin əvəzinə Xirosima və Naqasaki şəhərlərinə atılan iki atom bombası ilə çıxdığına (6 və 9 avqust 1945-ci il)

işarə edir. Bu şəhərlərdə ölən, yaralanan, şüalanan və itkin düşənlərin ümumi sayı 468 min nəfərdən çox idi. Pirl Harborda qalib gələn və bununla ABŞ-ı müharibəyə cəlb edən Yaponiya bunun acı bəhrəsini daddı.



# X SENTURİYA (X YÜZLÜK)

***İnsanlar həyatda hər şeyi dəyişdirməyə qadir olduqları halda, özlərinin islahına inadkarlıqla müqavimət göstərirlər.***

## 10 k1

**Düşmənə düşmən inamı vəd edilib.**
**Tutulmuş əsirlər qorunacaqlar.**
**Biri ölümcül ələ keçib, o birilərsə köynəkdə.**
**Qalanları isə müdafiə etdiklərinə görə lənətləniblər.**

atren barədə müxtəlif fikirlər söylənsə də, bizə belə gəlir ki, onun ən doğru şərhini Con Houq vermişdir. Tədqiqatçının mülahizəsinə görə II Dünya müharibəsi zamanı Hitler Almaniyasına əsir düşən sovet əsgərlərinin qarşısında məsələ qoyulmuşdu; ya ölüm, ya da kommunizmə qarşı mübarizəyə qoşulub sağ qalmaq. General-leytenant Andrey Vlasov başda olmaqla bir çoxları "Azadlıq Ordusu"na qoşuldular. Əvvəlcə Vlasova söz vermişdilər ki, təşkil olunmuş "Sovet ordusu" bir cəbhədə vuruşacaq. Lakin son anda Hitlerin qəlbində onlara qarşı şübhə baş qaldırmış və onları batalyonlara bölərək Qərb cəbhəsinə göndərmişdilər. Onlar Fransada yollara nəzarət edirdilər. Müharibə bitən kimi amerikalılara və ingilislərə təslim olmuşdular. Lakin Sovet rəhbərliyinin tələbi ilə onları və başqa əsirləri Sovetlərə qaytarmışdılar. Səkkiz yüz min nəfər sovet əsgəri faşistlərin ətrafına tikanlı məftil çəkilmiş əsir düşərgələrindən can qurtarsalar da, Sovet hərbi düşərgələrinə düşmüşdülər. General-leytenant Andrey Vlasov və başqaları isə edam edilmişdilər.

## 10 k2

**Döyüş gəmisinin yelkəni, o biri gəminin yelkənini
görünməz edəcək.
Böyük donanma gələcək, kiçiyi qovacaq.
Yaxınlıqdakı on gəmi dönüb onları kənara atacaq.
Böyük, bir inamda birləşənlərə məğlub oldu.**

Katrendə İngiltərə ilə İspaniya arasında dənizdə hökmranlıq uğrunda gedən müharibələrdən bəhs edilir. Bu müharibələrdə İspaniya üstünlüyü əldən vermişdi.

II Filip müharibələri din pərdəsi altında aparsa da (guya məqsəd ingilisləri katolikliyə qaytarmaq idi), bir şey əldə edə bilməmişdi.

I Yelizavetanın vaxtında İngiltərədə müstəmləkəçilik siyasətinə və İspaniya ilə dənizdə hökmranlıq uğrunda mübarizəyə böyük fikir verilirdi. İngiltərənin dənizdə 300 illik hökmranlığının əsası, demək olar ki, I Yelizavetanın hakimiyyəti dövründə qoyulmuşdu.

## 10 k3

**Beş ildən sonra o, sürünü yemləyə bilməyəcək.
Penelona qaçan sərbəst olacaq.
Yalandan mızıldanacaq, elə bu vaxt kömək gələcək.
Belə olan halda, başçı mühasirəni götürəcək.**

Görücünün bu katreni hələ şərh olunmayıb.

## 10 k4

**Gecəyarısı ordunun komandanı
Xilas olacaq və yoxa çıxacaq.
Yeddi il keçəndən sonra da onun adı ləkələnməmişdi.
Geri dönməyə heç nə yox, məhz "hə" deyəcəklər.**

Katrendə söhbət ingilis kralı II Çarlzdan gedir. 1649-cu ildə Oliver Kromvelin əli ilə ingilis kralı I Çarlz edam edildikdən

sonra, oğlu II Çarlz taxta əyləşdirilmişdi. Lakin Kromvelin fikri başqa idi. Kromvel ölkədə iğtişaş salaraq əslində üsyanın başında durdu. 1651-ci ildə Vuster yaxınlığında döyüşdə kral ordusu darmadağın edildi və qılıncdan keçirildi. Kral xilas olmuş, paltarını dəyişərək özünü tanınmaz hala salmış, doqquz həftə ölkədə gizləndikdən sonra, Şotlandiyadan keçərək Fransaya getmişdi. Lakin 1658-ci ildə düz yeddi il çəkən vətən həsrətinə son qoyulmuşdu. Kromvel öldükdən sonra onu yenidən İngilis taxt-tacına sahib olmaq üçün ölkəyə dəvət etmişdilər.

Beləliklə, Nostradamusun yüz il əvvəl bəyan etdikləri yerini almışdı.

**10 k5**

**Albi və Kastr yeni cəmiyyət təşkil edəcəklər.**
**Yeni arilər, Lissabon və portuqaliyalılar.**
**Loranjlı başçı, yeni bədheybətin vaxtında,**
**Karkason və Tuluza fitnə-fəsada son qoyacaq.**

Tədqiqatçıların fikrincə katrendə II Dünya müharibəsi zamanı görücünün adını çəkdiyi yerlərdə baş verən hadisələrdən danışılır.

**10 k6**

**Qardon çayı Nimi elə hala salacaq ki,**
**Hamı Devkalionun dünyaya yenidən gəlməsinə inanacaq.**
**Əhalinin çoxu amfiteatra qaçacaq.**
**Vesta sərdabəsində od sönəcək.**

Katrendə Nim şəhərini daşqının basacağından bəhs edilir. Devkalion qədim yunan əsatirində Nuhun rəmzidir. Əfsanəyə görə Zevs insanları pis əməllərinə görə məhv etmək üçün yer üzünə daşqın göndərmişdi. Yalnız Prometeyin oğlu Devkalion və arvadı Pirraya nicat vermişdi.

Göründüyü kimi, Nostradamus bu katrendə bəyan etdiyi daşqını Nuhun dövründə baş verən dünya daşqını ilə müqayisə edir.

Tarixçilərin göstərdiyinə görə 9 sentyabr 1557-ci ildə Nim şəhərində daşqın baş verib (bax: 9 k9). Səhər saat 5-də başlayan tufan gecə yarısına qədər davam edib və Qardon çayı daşaraq şəhəri basıb. Lakin vurulan ziyan çox da böyük olmayıb. Odur ki, tədqiqatçıların rəyinə görə katrendə sözü gedən daşqın gələcəkdə olacaqdır.

## 10 k7

**Nansidə onların hazırladığı həmin böyük münaqişə,**
**Makedoniyalı deyəcək: "Fateh mənəm, mən!"**
**Britaniya adaları duz və şəraba görə vəlvələdədir.**
**Hem.mi, İki Fi Metz çox davam gətirməyəcək.**

1660-cı ildə Nans Fransanın tərkibinə qatılmış və Fransa kralı XIV Lüdovik yetkin yaşa çatdığına görə Mazarinini qəyyumluqdan azad edərək "Dövlət mənəm!" – demişdi.

2-ci sətirdə söhbət İspaniya kralı II Filipdən gedir. Makedoniyalı İskəndərin atası II Filiplə adaş olduğuna görə onu çox vaxt Makedoniyalı deyə qələmə verirdilər. Hər iki Filip ölkələri fəth etməklə məşğul idi.

3-cü sətirdə Britaniya adalarında duz, şərab və başqa məhsullara vergilər artırıldığına görə iğtişaşlar baş verməsi və nəhayət 1649-cu ildə kral I Çarlzın edam edilməsindən bəhs edilir.

4-cü sətirdə IV Filipin vaxtında – 1648-ci ildə bağlanmış Vest - fal sülh sazişinə əsasən, Metz şəhərinin Fransaya verilməsindən söhbət gedir.

## 10 k8

**O, baş və şəhadət barmağı ilə alnını isladacaq.**
**Seniqaliyanın qrafı öz oğluna:**
**Minarmianlar çoxluq tərəfindən tezliklə tutulacaq.**
**Yeddi gündən sonra üç nəfər ölümcül yaralanacaq.**

Katrendə göstərilənlər baş verib. Seniqaliya vaxtilə Adriatik dənizi sahillərində feodal mülkləri olub. 1624-cü ildə Seniqaliya və Urbino hersoqluğuna son qoyulub.

Bəzi tədqiqatçılar göstərirlər ki, 1856-cı ildə III Napoleonun oğlunu xaç suyuna salan Papa IX Piy Seniqaliyadan idi. Minarmin isə Venusun soyadı olub.

### 10 k9

**Dumanlı bir gündə Fiqueras qəsrində,**
**Şərəfsiz qadından doğulan şahzadə olacaq.**
**Bric soyadı onu "corab" ləqəbi ilə öləndən sonra da tanıdacaq.**
**Bu yerlərdə hələ belə bədnam kral olmamışdır.**

Fiqueras Pireney dağlarının İspaniya tərəfində, Aralıq dənizi sahillərində, loyalistlərin paytaxt şəhəridir. 1939-cu ildə loyalistlər burada cəmləşmişdilər.

Katrenin yerdə qalan sətilərini şərh etmək hələlik ağlabatan bir nəticə verməmişdir.

### 10 k10

**Əli qanlı, saysız-hesabsız zinalıqla ləkələnmiş,**
**Bütün bəşər övladının böyük düşməni.**
**Baba və əmilərindən, atasından daha pis olacaq.**
**Cəhənnəm, od, su, qaniçən və insanlıqdan kənar.**



*Papa I Pavel ölümündən az əvvəl (1978)*

Qərb və rus tədqiqatçıları bu katreni əvvəllər Napoleona, sonralar Hitlerə, XX əsrin I yarısında Stalinə, sonra Səddam Hüseynə, XXI əsrin əvvəlindən isə Corc Buşa (oğul) aid ediblər.

### 10 k11

**Xunkerdən aşağıda, təhlükəli keçidi,**
**Ölməzlik qazanmış elə edəcək ki,**
**dəstəsi adlaya bilsin.**

**Pireney dağlarını hərbi sursatsız keçəcək.**
**Duçe Perpinyadan bərk çaparaq Tendə gələcək.**

Katrendə söhbət İspaniyadan gedir. 1939-cu ildə Kataloniyada, Ebro çayı sahillərində Franko respublikaçıları məğlub etdikdən sonra, baş nazir doktor Xuan Neqrin nazirlərə və başqa rəhbər işçilərə məsləhət görür ki, Xunkerin aşağısında, təhlükəli keçidi adlayaraq Fransaya pənah aparsınlar. Belə də olur. Görücü buna işarə edir.

4-cü sətirdə Nostradamus Fransa Riverasında – Tende yaxınlığında Mussolini ilə Frankonun görüşündən söz açır. Mussolini acizanə şəkildə Frankodan onların tərəfində II Dünya müharibəsinə qoşulmağı xahiş edir. Lakin danışıqlar heç bir nəticə vermir. Franko sonralar bu görüşü yada salaraq deyirdi ki, Mussolininin məni dilə tutmasına rəğmən mən ondan soruşdum: “Duçe, müharibədən çıxmaq imkanınız olsaydı, siz bunu etməzdinizmi?”

Mussolini əlini-əlinə vuraraq, gözünü səmaya dikdi və dedi: “Eh, bircə onu edə bilsəydim!”

## 10 k12

**Seçilmiş Papanı ələ salacaqlar.**
**Bu ağıllı adam birdən-birə alçaldılacaq.**
**Çox sadəlövhlüyünə görə onu ölümə məhkum edəcəklər.**
**Gecə keçirilən iztirab onu ölümə aparacaq.**

1978-ci ildə Roma Papası VI Pavelin ölümündən sonra Albino Luçiani İohann I Pavel adı ilə 263-cü Roma Papası seçiləndə kardinallardan başqa hamı sevindi. Açıqürəkli, xeyirxah, haqq-ədalət carçısı I Pavel yaxşı təşkilatçı və islahatçı idi. Kardinallar qorxuya düşmüşdülər. Papa Vatikanda baş verən çirkin əməllər - dən, mafiya ilə əlaqələrdən xəbərdar idi. Odur ki, çikrli pulların yuyulmasında böyük rol oynayan Vatikan bankı daxil olmaqla, maliyyə sahəsində də əsaslı dəyişikliklər etməyə hazırlaşırdı. Həmin müdhiş sentyabr gecəsi o, Vatikanın dövlət katibi kardinal Vilioya işdən dərhal çıxarılacaq adamların əmrini hazırlamaq

barədə göstəriş vermişdi. Axşam saat $9^{30}$-da o, yatağına getmiş, səhərə yaxın saat 5 radələrində xidmətçilər onu ölmüş görmüşdülər.

Döşəməyə işdən çıxarılacaq adamların siyahısı və görüləcək işlərin planı olan kağızlar səpələnmişdi. Kardinal Vilio otağa girən kimi, ilk öncə kağızları yığaraq ciblərinə doldurmuşdu. Roma Papası I Pavelin Papalığının düz bir ayı tamam olanda zəhər verilərək öldürülməsi çox səs-küyə səbəb olsa da, sui-qəsdin üstü açılmamış qaldı. Özündən dörd əsrdən də çox sonra baş verən bu hadisəni Nostradamus tam dəqiqliyi ilə görmüşdü.

## 10 k13

**Gövşəyən heyvanların otlağından ot,**
**Ot alveri edən şəhərə yığılıb aparılır.**
**Əsgərlər otun arasında gizlənmişlər, silah səslənir.**
**Antib şəhərinin yaxınlığında sınaqdan keçirilir.**

Bu katren barədə tədqiqatçılar qəti söz deməkdən çəkinmişlər. Məlum olan odur ki, əsgərlər otun arasında gizlənib Antib şəhərinə giriblər.

## 10 k14

**Özünün heç bir planı olmayan məğrur Ürnel Vosil,**
**Qorxaqlığın əsiri oldu və məğlub edildi.**
**Son dərəcə pis fahişələrin müşayiəti ilə**
**Barselonaya, Kartezian monastırında günahını**
**etiraf etməyə gəlmişdi.**

Hadisələr İspaniyada baş vermişdir. Rahiblər yaşayan Kartezian monastırı (indi Mont Allerqo) Barselonanın cənubunda, bir neçə kilometrlikdədir. Ürnel Vosilin kimliyi məlum deyil. Məlum olan odur ki, Ürnel hazırda Kataloniyada şəhərdir.

## 10 k15

**Qoca hersoq əldən düşüb, susuzluqdan yanır.**

**Son gündə oğlu ona su verməkdən imtina etdi.**
**Quyuya düşdü və ölü çıxarıldı.**
**Senat oğula qorxulu ölüm hökmü kəsdi.**

Bu katren barədə də tədqiqatçılar qəti söz deməkdən çəkinmişlər.



***Templ Məbədi. 1789-cu il inqilabı zamanı Templ həbsxanaya çevrilmişdi. Kral XVI Lüdovik və kraliça Mariya Antuanetta edam olunana qədər burada saxlanılmışdılar***

## 10 k16

**Həm hakimiyyətdə, həm də şəxsi həyatında xoşbəxtdir.**
**Cahıl qanı, qəzəb, ölüm və çapqınçılıq.**
**Gözəl ləqəbə görə ona həsəd aparacaqlar.**
**Kral öz əmin-amanlığını ən çox mətbəxdə tapır.**

Nostradamusşünas Le Pelletye katrenin kral XVIII Lüdovikdən (1755-1824) bəhs etdiyini göstərmişdir. Tədqiqatçının bu fikrinə qarşı çıxan olmamışdır.

1-ci sətirdə bəyan olunduğu kimi, kral XVIII Lüdovikə başqalarından fərqli olaraq sui-qəsd təşkil edilməmiş, o, həyatını xoşbəxtliklə başa vurmuşdu. Həyatda onun ən çox zövq aldığı, xoşladığı dadlı yeməklər olmuşdu.

Kral XVIII Lüdovik "Le Desire" – "Arzuolunan" ləqəbinə layiq görülmüşdü. O, 1791-ci ildə, Böyük Fransa inqilabı zamanı ölkədən qaçmışdı. Böyük qardaşı kral XVI Lüdovikin 1793-cü ildə edamından sonra, oğlu Şarlz kral hesab olunsa da, 1795-ci ildə Şarlzın ölümündən sonra taxt-tacın qanuni varisi Lüdovik idi. Odur ki, Napoleon devrildikdən sonra Fransaya qayıdaraq XVIII Lüdovik adı ilə kral taxtına əyləşmişdi (1814-1815). Lakin Napoleon Elba adasından qaçaraq yenidən hakimiyyətə gələndə (mart, 1815) XVIII Lüdovik krallıqdan əl çəkmiş, Napoleonun "yüz gün" davam edən imperatorluğundan sonra, Fransa taxt-tacına yenidən sahib olmuşdu (1815-1824).

**10 k17**

**Həbsxanada kraliça qızının solmuş bənizini görəndə,**
**Daxilində gizli bir təəssüf keçirəcək.**
**Bu vaxt Anqulemadan məyusedici xəbərlər gələcək.**
**Bibioğlu ilə nikah ləngidiləcək.**

Tədqiqatçı Le Pelletye hələ 1867-ci ildə aşkar edib ki, katrendə söhbət kral XVI Lüdovikin ailəsindən gedir. Kral və ailəsi–kraliça Mariya Antuanetta, oğlu Şarlz və qızı Mariya Şarlotta Templ həbsxanasında olanda kraliça övladlarına görə çox həyəcan keçirirmiş. Ümumiyyətlə, katren demək olar ki, kralın qızı Mariya Şarlottaya həsr olunub. Məlumdur ki, kral XVI Lüdovik 1793-cü ilin yanvarında, kraliça isə 1793-cü ilin oktyabrında edam edilmişdi. Onların oğlu – Vəliəhd Şarlz 1795-ci ildə Templ həbsxanasında işkəncələr nəticəsində ölmüşdü. Lakin Mariya Şarlotta əsirlikdə olan fransalı əsgərlərə görə Avstriyaya girov verildiyindən sağ

qalmışdı. Bununla belə, həyatı boyu "Templ həbsxanasının yetimi" adını daşımışdı. Çünki yetimlik həyatı oradan başlamışdı.

Mariyanın yeddi yaşı olanda Anqulema hersoqu Lui Antuan de Burbonla nişanlanmışdı. Mariyanın valideynləri edam edildikdən sonra Lui Antuan siyasi qalmaqaldan çəkinərək nikahı ləngidirdi. Hadisələr onu məyus etmişdi.

4-cü sətirdən göründüyü kimi, nikah baş tutub. 1799-cu ildə Mariya 21 yaşında olanda onlar Litvanın Mitava şəhərində evlənmişdilər. Onlar nəsilliklə Fransadan Litvaya qaçmışdılar.

Mariya Şarlotta Tereza uzun ömür sürmüş, 1851-ci il oktyabr ayının 19-da, 73 yaşında dünyasını dəyişmişdi.

## 10 k18

**Lotaringiya sülaləsi Vendoma yol açacaqdır.**
**Yuxarıdakı aşağı salınacaq, aşağıdakı yüksələcəkdir.**
**Hamonun oğlu Romada seçiləcəkdir.**
**Və iki böyük çıxılmaz vəziyyətdə qalacaqdır.**

Katrendə Fransa kralı III Henrinin öldürülməsindən (1589) və IV Henrinin taxt-taca sahib olmasından bəhs edilir. Məsələ burasındadır ki, kral II Henrinin övladları dalbadal ölmüş və ya öldürülmüşdü. Onların heç birinin uşaqları olmamışdı. Kral III Henrinin ölümündən yeddi ay əvvəl isə anası Yekaterina Mediçi ölmüşdü. Taxt-taca sahib olmağa kimsə qalmamışdı. Tanınmış ailələrdən və ya qohumlardan hər kəs taxt-taca yiyələnməyə səy göstərə bilərdi. Belə də oldu. IV Henri kral II Henrinin bacısı Marqotla evlənmişdi. Maneə törədən yeganə məsələ onun hugenot məzhəbinə qulluq etməsi idi. Lakin o, Paris məzhəbdən üstündür – deyərək Roma Papasının xeyir-duası ilə katolikliyi qəbul etmiş və Fransanın kralı olmuşdu. Hugenotlara dönük çıxdığına görə onlar onu Hamonun oğlu– dönük oğul adlandırmışdılar. 3-cü sətirdə görücü buna işarə edir.

[1] T.Ukrainskaya. Nostradamus belə demişdir (rusca). Moskva, 2000, səh.145.



***Nostradamusdan sonra Kraliça I Yelizavetanın sağlığında onunla bağlı görücülük Parlament tərəfindən qadağan olunmuşdu***

4-cü sətirdə göstərilir ki, Lotaringiya sülaləsindən olan Henri de Giz və Şarl de Giz qardaşlarının hakimiyyətə gəlmək niyyətindən xəbər tutan kral III Henri onları öldürtsə də, onların sağ qalan kiçik qardaşı III Henriyə sui-qəsd düzəldib, onu aradan götürməyə nail olmuşdu. Beləliklə, Lotaringiya sülaləsinin nümayəndələri istəklərindən asılı olmayaraq IV Henrinin hakimiyyətə gəlməsinə şərait yaratmışdılar. Onu da deyək ki, Vendom hersoqluğu 1515-ci ildə IV Henrinin babası Karlın şərəfinə yaradılmışdı. Bir sözlə, IV Henri Vendomun hersoqu idi. Nostradamus 1-ci sətirdə buna işarə edir.

2-ci sətirdə kral III Henrinin öldürülməsindən, Navarralı Henrinin kral IV Henri adı ilə Fransanın kralı olmasından bəhs edilir.

Maraqlıdır ki, 1563-cü ildə kraliça Yekaterina Mediçi Nostradamusun doğma şəhəri Salonu ziyarət edəndə 10 yaşlı Henri də kraliçanın yanında imiş. Nostradamus Henrinin gələcəkdə Fransa kralı olacağını açıqlamışdı. Onu da deyək ki, görücünün bu katrendə bəyan etdikləri yerinə yetdikdən sonra, onu həqiqi görücü kimi qəbul etmişdilər.

## 10 k19

**Onun kraliça elan olunduğu gün,**
**Xeyir-dua veriləcək, dualar oxunacaq.**
**Hesab düzgün və məntiqə uyğun olacaq.**
**Əvvəllər miskin olan (o) ömründə özünü belə məğrur hiss etməmişdi.**

Tədqiqatçılar bu katreni tədqiq etməkdən çəkinərək göstərmişlər ki, həyatda onlarla kraliça olub. Lakin onlar 4-cü sətirdə yer alan humble (sadə, kasıb, miskin, adi, müti, itaətkar) sözünün məna çalarlarına fikir versəydilər, Nostradamusun İngiltərənin kraliçası I Yelizavetadan bəhs etdiyini görərdilər. Yelizavetanın anası Anna Boleyn kral şəcərəsinin kasıb nəslindən olmuşdu. Atası Vikont idi. Anna Boleyn kral III Henrinin 2-ci arvadı idi. O, ərinə sübut olunmamış xəyanətdə təqsirli bilinərək edam edilmişdi. Kral Yelizavetanı qeyri-qanuni doğulmuş hesab edirdi.[1]

Məhz buna görə də Yelizavetanın uşaqlığı məşəqqətli keçmişdir. Anası, sonra isə analığı Katerina Qovard ərinə vəfasızlıqda təqsirli bilinib edam edildikdən sonra, onun vəziyyəti ağır idi. Demək olar ki, tənha idi. Lakin atası ölməmişdən əvvəl Yelizavetanın həqiqətən də onun qızı olduğunu təsdiqləmiş və hətta IV Eduarddan və Mariyadan sonra onun taxt-taca sahib olmasını vəsiyyət etmişdi. Ögey bacısı, "Qanlı kraliça" ləqəbini almış Mariyanın sarayında o, dəfələrlə ölümlə üzləşmişdi. Onu böyük Yaradan və mütiliyi xilas etmişdi. Yelizaveta 25 yaşında olanda kraliça Mariya dünyasını dəyişmiş və Yelizaveta kraliça elan olunmuşdu.

Düz qırx beş il ölkəyə rəhbərlik edən kraliça I Yelizaveta İngiltərəni qüdrətli dövlətə çevirmişdi. Uşaqlıqda şahidi olduğu hadisələr onun gözünü o qədər qorxutmuşdu ki, heç vaxt ailə həyatı qurmamışdı.

Ətraflı məlumat üçün bax: 3 k28, 10 k84.

## 10 k20

**O partiyaya mənsub olan bütün dostlar,**
**Təlim və nəzəriyyədə kobud səhvlərə görə qovularaq ölümə məhkum olundular.**
**Sabit qiymətə olan ictimai mülkiyyət böyük tərəfindən məhv edildi.**
**Roma əhalisi heç vaxt belə cinayət və zorakılığa məruz qalmamışdı.**

Katren Mussolini və onun faşist partiyasından bəhs edir. Təlim və nəzəriyyədə yol verilən kobud səhvlərə görə onlar II Dünya müharibəsindən sonra ölümə məhkum edilmişdilər. Mussolini xalq mülkiyyətini talan etmiş, mənəvi dəyərləri heçə endirmişdi.

Nostradamusun katrendə bəyan etdikləri hamısı İtaliyada baş vermişdi.



*Eduard və Valisin nikah günü. Fransa, 3 iyun 1937-ci il*

**10 k21**

**Kralla ədavətə görə o, kraldan aşağı olana kömək edəcək.**

**Ona üzüklər (daş-qaş) veriləcək və öldürüləcək.**

**Ata öz oğluna nəciblik təlqin etmək naminə**

**Qədim İrandakı kahinlər kimi hərəkət edəcək.**

Nostradamusşünas Fonbryun katrenin İrandan bəhs etdiyini və 1979-cu il fevral ayının 12-də şahın devrilməsindən və Ayətullah Xomeyninin hakimiyyətə gəlməsindən söz açdığını göstərir. Şah Məhəmməd Rza Pəhləvi xəstə olduğuna görə 1979-cu il yanvarın 16-da Tehranı tərk edərək xaricə getmişdi. Elan olunmuşdu ki, şah səhhəti ilə bağlı uzunmüddətli məzuniyyətə gedir. 1953-cü ildə də şah İranı tərk etməli olmuşdu. Lakin Amerika və İngiltərənin köməyi ilə o,Tehrana qayıdaraq Monarxiyanı yenidən bərqərar

edə bilmişdi. Ancaq bu dəfə İranın sürətli inkişafından qorxan ABŞ, İngiltərə və Fransa hakimiyyətin ruhanilərin əlinə keçməsinə rəvac vermişdilər.

Məsələ burasındadır ki, İran təkcə ABŞ-dan doqquz milyard dollardan artıq məbləğə müasir texnika və avadanlıq almışdı. İranda 43 mindən çox amerikalı mütəxəssis çalışırdı. Bu bir həqiqətdir ki, şah Məhəmməd Rza Pəhləvi hakimiyyətdən qan tökmədən əl çəkmişdi. Xalqa öz müqəddəratını özü həll etməyə imkan yaratmışdı. Nostradamus şahın bu hərəkətini yüksək qiymətləndirir və onu qədim İranda kahinlərin "Azadlıq naminə quldarlığa son qoymaq" barədə qərarı ilə müqayisə edir. Ən başlıcası isə şahın öz oğlunun gələcəyi naminə bu addımı atdığını alqışlayır (bax: 1 k70).

### 10 k22

**Ayrılmağa razılıq verməк istəməyən,**
**Nəticədə ləyaqətsiz kimi tanınacaq.**
**Adaların kralı güc tətbiq edilməklə qovulacaq.**
**Onun yerinə kral əlaməti olmayan qoyulacaq.**

Nostradamus bu katrendə inanılması çətin olan, lakin həyatda baş verən bir hadisədən söz açır. XX əsrin 30-cu illərinin ortalarında Böyük Britaniyanın kralı VI Georq xərçəng xəstəliyindən xəstə yatırdı. Vəsiyyət etmişdi ki, ondan sonra taxt-taca böyük oğlu prins Eduard sahib olsun. Lakin prins Eduard 1930-cu ilin noyabr ayından ingilisə ərə gəlmiş amerikalı Valis Simpsonla görüşür, hətta onunla gecə klublarına gedirdi. Onun bu hərəkətinə Parlament, Kilsə, Nazirlər kabineti haqq qazandırmırdı. Gələcək kral əsli-nəsli olan, tanınmış bir ailədən qız almaq əvəzinə ikinci dəfə ərdə olan bir qadınla oturub-durmamalı, xalqın adət-ənənəsini, mənəvi dəyərlərini qorumalı idi. 1936-cı ildə kral VI Georq dünyasını dəyişəndən sonra Eduard kral elan edildi. Lakin o, Valis Simpsonla əlaqələri kəsmək əvəzinə, onu ərindən boşatdı və Simpsonla evlənəcəyini bəyan etdi.

İki dəfə ərdən boşanmış bir qadını Böyük Britaniyanın kraliçası etmək ağlasığan iş deyildi. Kral VIII Eduard Valis Simpsonla morqanatik nikah bağlamaq qərarına gəldi. Qəzetlərdə kral nəslinə mənsub şəxsin adi adamla evlənməsi barədə tarixdən müxtəlif faktlar gətirirdilər. Məsələn, XVI əsrdə kral VIII Henrinin altı arvadından dördünün "aşağı təbəqədən" olduğu yada salınırdı. Belə nikah, daha doğrusu, morqanatik nikahda qadın ərinin nə tituluna, nə gerbə, nə də var-dövlətinə sahib ola bilər. Onun uşaqları da vəliəhd olmaq hüququndan məhrum olurlar. Morqanatik nikah – latın ifadəsi olub, "səhər vaxtı verilən hədiyyə" mənasındadır. Həqiqətən də belə nikahda gəlinə cehiz həmin gün səhər verilərmiş. Bu nikahın başqa bir cəhəti də varmış. Qəbul olunmuş qaydada gəlin bəyin sağ tərəfində deyil, sol tərəfində durmalı imiş. Buna "sol əl nikahı" deyilir. Bütün bu alçaldıcı ənənə kralı fikrindən daşındırmaq üçün yazılmamış qanun kimi tələb olunarmış.

Kral VIII Eduard bu təhqiredici şərtə belə razı idi. Lakin Parlament və Nazirlər Kabineti krala ultimatum göndərdi. "Ya Valisdən imtina etməlisiniz, ya da taxt-tacdan".

Milyonlarla britaniyalı radionun qabağında əyləşib kralın qərarını gözləyirdi. 1936-cı il dekabrın 10-da kral VIII Eduard hər üç kiçik qardaşını yanına çağıraraq öz fikrinin qəti olduğunu bəyan etdi və onların iştirakı ilə mərasimdə taxt-tacdan imtina barədə sənədə imza atdı. Sənəddə deyilirdi:

– "Mən, VIII Eduard, Böyük Britaniya, İrlandiya və Britaniyanın dominionlarının kralı, Hindistanın imperatoru, bununla bəyan edirəm ki, taxt-tacdan imtina etmək barədə qərar qəbul etmişəm. Qərar qətidir. Arzum budur ki, qərar dərhal qüvvəyə minsin".

Kral VIII Eduard hakimiyyətdə 325 gün olmuşdu. Bundan sonra o, Vindzor hersoqu tituluna layiq görüldü, Valis Simpsonla evlənmək üçün könüllü mühacirətə getdi.

1936-cı il dekabrın 11-də onun kiçik qardaşı VI Georq kral elan edildi.

Nostradamusun VI Georqa mənfi münasibəti (bax: 4-cü sətir) təkcə ona görə deyildi ki, o, pəltək idi. VI Georq ölkənin siyasi həyatında heç bir rol oynamamışdı. O ki qaldı hersoq Eduarda, o, heç vaxt unudulmadı. Onun haqqında Ralf Martin "Onun sevdiyi qadın" adlı kitab yazmış, Eduard və Valisin həyatı barədə "Kralın əhvalatı" adlı bədii film çəkilmişdir. 1972-ci ilin may ayının 28-də hersoq Eduard özünün Parisdəki malikanəsində dünyasını dəyişdi. Cənazəni hərbi təyyarədə İngiltərəyə gətirdilər. Valis Simpton da həmin təyyarədə idi. Dəfn mərasimində kimsə dedi: "Bu gün məhəbbəti naminə çox şeydən keçən qeyri-adi bir insanla vidalaşırıq".

"San" qəzeti yazmışdı: "Böyük məhəbbət sona yetdi".

Həqiqətən də böyük görücünün bəyan etdikləri yerini aldı (bax: 10 k40).

### 10 k23

**Naşükür xalqa qarşı ehtiyat tədbirləri görüldü.**
**Elə bu vaxt həmin ordu Antibi tutacaq.**
**Monako keçidində ah-nalə səsləri eşidiləcək.**
**Freyüsdə sahillər o birinin əlinə keçəcək.**

Katren II Dünya müharibəsi zamanı Fransada baş verən hadisələrdən bəhs edir. Daha doğrusu, görücü bu katrendə "Draqun" əməliyyatından söz açır.

Antib Freyüs körfəzinin 20 milliyindədir (bir mil 1609 m-ə bərabərdir).

Yeddinci ABŞ ordusu burada quruya çıxarılmış, Almaniyanın 148 və 157-ci diviziyalarını sıxışdıraraq Antibdən çıxarmışdı. Onlar Monakodan keçərək Mentona çəkilmişdilər. Nostradamus özündən təqribən dörd əsr sonra baş verəcək hadisəni və onun harada yer alacağını da tam dəqiqliyi ilə görmüşdü.

## 10 k24

**Məlğub olmuş şahzadə Elbada əsir edilib.**
**O, Genuyadan keçib Marselə qədər dənizlə gedəcək.**
**Bal çəlləkləri onu gülləden xilas etdi.**
**Yadların böyük cəhdi ilə o məğlub oldu.**

Katren Napoleon Bonapartdan söz açır. 1814-cü ildə Vyanada qəbul olunmuş qərara görə Napoleon Aralıq dənizində İtaliyanın Elba adasına sürgün edilmişdi. 1815-ci il mart ayının 1-də o, Elba adasından qaçaraq Marselin yaxınlığında Kanna çıxdı və yol boyu ordu toplayaraq 20 martda Parisə gəldi. Kral XVIII Lüdovik ölkəni tərk etdi. Fransızlar Napoleonu, demək olar ki, başlarının üstündə Tyuliri sarayına gətirdilər. 3-cü sətirdə Napoleonun imperator mundirinin qolunda arılar həkk olunmuş emblemə və xalqın imperatora ehtiramına işarə edilir. Lakin 4-cü sətirdən göründüyü kimi, Rusiya, Avstriya, İngiltərə və başqa dövlətlər qorxuya düşərək birləşdilər və Napoleonu məğlub etdilər. İmperatorun bu dəfəki hakimiyyəti cəmisi yüz gün çəkdi. Bu, tarixə “yüz gün” və ya “yüzgünlük hakimiyyət” kimi daxil oldu.

## 10 k25

**Bezan keçidi Ebro tərəfindən açıldı.**
**Çox uzaqdan Taxo görünəcəkdir.**
**Orkestrdə oturan Böyük xanım tərəfindən**
**Peliqusda özbaşınalıqlar tüğyan edəcək.**

Katren XX əsrin 1-ci yarısında vətəndaş müharibəsi zamanı İspaniyada baş verən hadisələrdən bəhs edir. Ebro və Taxo çayları İspaniyadadır. 1939-cu ildə general Franko hakimiyyətə gələndə respublikaçılar hökuməti, baş nazir daxil olmaqla Ebro çayı sahillərindən keçərək Fransaya pənah aparmışdılar.

3-cü sətirdə işlənən orkestr qədim romalılarda böyük nüfuz sahiblərinin teatrda oturduqları mötəbər yer mənasındadır.

Nostradamusun zamanında isə orkestr səhnənin bir küncündə çalarmış, orkestrlə üzbəüz səhnədəcə çox mötəbər adamlar qoltuqlu kürsülərdə əyləşərlərmiş.

Görücü 3-cü sətirdə çox yüksək nüfuz sahibindən – bəlkə də kraliçadan söz açır.

## 10 k26

**Davamçı öz yaraşıqlı qardaşının intiqamını alacaqdır.**
**O, krallığı intiqam bəhanəsi ilə ələ keçirəcəkdir.**
**Maneə aradan qaldırıldı, günahlandıracaq kimsə qalmadı.**
**Britaniya uzun müddət Fransa ilə birgə olacaq.**

Qərb tədqiqatçıları bu katrenin Kennedi qardaşlarından bəhs etdiyini göstərməyə çalışsalar da, sətirlər arasında məntiqi əlaqə yaranmır. Məlumdur ki, Robert Kennedi ABŞ prezidenti seçiləcəyi təqdirdə qardaşı Con Kennedinin intiqamını alacağına söz vermişdi. Lakin 1968-ci il iyun ayının 5-də Los-Ancelesdə, "Ambassador" mehmanxanasında seçicilər qarşısında çıxış edəndən az sonra iranlı Şirxan Şirxan tərəfindən qətlə yetirilmişdi. Deməli, hakimiyyətə gələ bilməmişdi.

Bizə qalırsa, Nostradamus bu katrenin əvvəlki üç sətrində V.İ.Lenindən söz açır. Leninin böyük qardaşı Aleksandr çar III Aleksandra sui-qəsd hazırlanmasında təqsirli bilinərək 1887-ci ildə edam edilmişdi.

Lenin həqiqətən də hakimiyyətə intiqam bəhanəsi ilə gəlmişdi. 2-ci sətirdə Nostradamus buna işarə edir.

3-cü sətirdə isə Leninin göstərişi ilə çar II Nikolayın və ailəsinin 17 iyul 1918-ci ildə Yekaterinburqda məhv edilməsinə işarə edilir.

4-cü sətirdə Fransa ilə İngiltərənin Avropa Birliyində birgə fəaliyyətindən danışılır.

## 10 k27

**Beşinci və böyük Herkulesin sayəsində,**
**Onlar məbədi müharibə ilə açmağa gələcəklər.**
**Təkcə Kliment Jül və Askaniya qaytarılmışdır.**
**Qılınc, açar, qartal heç vaxt belə böyük münaqişədə olmamışlar.**

Əksər tədqiqatçılar bu qənaətdədirlər ki, katren Nostradamusdan 30 il sonra baş verən hadisələrdən bəhs edir. Görücü kral III Henrini ailədə 5-ci övlad olduğuna görə beşinci adlandırıb. Herkules III Henrinin qardaşı idi. Çox zalım və qəddar olduğuna görə "qanlı Herkules" ləqəbini almışdı. Qardaşı III Henriyə suiqəsd düzəltmişdi. Lakin gözlənilmədən 1584-cü ildə ölmüşdü. Kral III Henri isə 1589-cu ildə Jak Kleman tərəfindən qətlə yetirilmişdi. Hər iki qardaş öldükdən sonra, ailədə taxt-taca sahib olmağa kimsə qalmadığından hakimiyyətə bibiləri Marqotun əri Navarralı Henri gəlmişdi. O, dini müharibələrə, dini zəmin üzərində münaqişələrə Nant Fərmanı (1598) ilə birdəfəlik son qoymuşdu. Katolik dini ölkədə rəsmi dövlət dini elan edilmiş, hugenotlara isə etiqad azadlığı verilmişdi.

## 10 k28

**Gözəl musiqi yazan ikinci və üçüncü,**
**Kral tərəfindən böyük hörmətə layiq görüləcək.**
**Kök və arığın ucbatından əldən düşəcək.**
**Veneradan gələn yalan məlumat onu alçaldacaq.**

Bu katren barədə tədqiqatçılar ağlabatan bir söz deməmişlər. Doğrudur, tədqiqatçı Ned Halli katrenin ilk iki sətrində İohan Sebastian Baxın (1735-1772) çoxsaylı uşaqlarından (20-dən artıq) bəhs edildiyini güman edir.

## 10 k29

**Sən-Pol dö Mansol keçi mağarasından,**
**Onları saqqallarından tutub bayıra çıxaracaqlar.**
**Əsiri it kimi gətizdirdilər.**
**Biqurralılar onları Tarba yaxın apardılar.**

Bu katren barədə də diqqətiçəkən bir söz deyilməyib.

## 10 k30

**Qardaşoğlu və yaxınlarda müqəddəs məqamına yüksələnin qanı.**
**Familiyası ilə tağları və damları müdafiə edir.**
**Qovulacaqlar, lüt-üryan ölümə məhkum olunacaqlar.**
**Yaşılları qırmızı və qaraya çevriləcək.**

Katren Napoleon Bonapart və qardaşı oğlu Şarl Lüi Napoleondan bəhs edir. 1-ci sətirdə 15 avqustda – ad günündə, Napoleonun müqəddəs elan edilməsindən (1807) bəhs edilir. Napoleonun vaxtında 15 avqust Müqəddəs Napoleon günü kimi qeyd edilmişdi. Napoleon bütün ordunun rəmzi hesab olunurdu.

## 10 k31

**Müqəddəs imperiya Almaniyaya girəcək.**
**İsmaililər açıq yer axtaracaqlar.**
**Uzunqulaqlar Kirmaniyanı da istəyəcəklər.**
**Müdafiə edənlərin hamısı torpaqda basdırılacaqlar.**

Katrenin 1-ci sətrini çıxmaqla yerdə qalanlar İran və ABŞ-dan bəhs edir. İsmaililər orta əsrlərdə İran dövləti olub. Biz bu barədə artıq ətraflı danışmışıq (bax: 9 k43). 3-cü sətirdə ABŞ-a işarə edilir. Uzunqulaq ABŞ-ın Demokratlar partiyasının simvoludur. Kirmaniya Ormuz boğazının İran tərəfində qədim dövlət olub. Maraqlıdır ki, Kirmaniya yarısı İranda, yarısı Əfqanıstanda olmaqla iki yerə bölünmüşdü. İndi İranda ən böyük vilayətlərdən biri olub, İran körfəzinə yaxın ərazini əhatə edir. Mərkəzi şəhəri Kirmandır.

2006-cı ilin 1-ci yarısında baş verən hadisələr göstərir ki, Əfqanıstan və İraqı zəbt edən ABŞ, indi də İranı tutaraq onun neft mədənlərini ələ keçirmək istəyir.

4-cü sətirdən göründüyü kimi, İranda saysız-hesabsız insan tələfatı olacaq.

3-cü sətirdə Nostradamus ABŞ-ın İranı tutmaq arzusundan söz açır. Görücü adətən labüd baş verəcək hadisələrdən bəhs edir. Deməli, ABŞ İrana zərbə endirsə də, ölkəni tuta bilməyəcək.

## 10 k32

**Böyük imperiya hər il böyüklüyünü saxlamaq**
**məcburiyyətində qalacaq.**
**Birisi başqalarının başı üstündən hakimiyyəti ələ almağa gələcək.**
**Onun hakimiyyəti və ömrü çox çəkməyəcək.**
**Cəmisi iki il gəmidə olmaqla davam edəcək.**

Bu katrendə Nostradamus Faşist Almaniyasından və onun "memarı" Hitlerdən söz açır. 1943-cü ildə Hitler "Böyük İmperiya" yaratdığını elan etmişdi. Lakin elə bu vaxt tale ondan üz döndərdi. Stalinqrad və Kursk yaxınlığında ağır itkilər verdi. Rommel Afrikada məğlubiyyətə uğradı. Onun Afrika korpusu Tunisdə ingilislərə təslim oldu.

1944-cü ilin iyul ayında Hitler sui-qəsddən canını zorla qurtardı (2-ci sətir).

Hitlerin hakimiyyəti görücünün bəyan etdiyi kimi, 1943-cü ildən sonra cəmisi iki il davam etdi. Fürerin bunker həyatını görücü obrazlı şəkildə, gəmidə keçirilən həyata bənzədir.

Bu katrendə diqqəti cəlb edən ciddi bir məsələ də ondan ibarətdir ki, Nostradamus açıqca qeyd edir ki, Hitler 1945-ci ildə ölüb. Bunu ona görə xüsusi vurğulayırıq ki, bir çoxları bəyan edirlər ki, guya Hitler II Dünya müharibəsindən sonra Amerika qitəsində yaşayıb.

## 10 k33

**Uzunpaltarlı qəddar fraksiya,**
**Gəlib iti xəncərləri paltarlarının altında gizlədəcək.**
**Florensiya, hersoq və adı iki hecadan ibarət yeri tutmaq üçün,**
**Onun aşkarladığı qanunsuz və yaltaqların əlilə olacaq.**

Bu katren də hələlik şərh olunmamışdır.

## 10 k34

**Qalliyalılar imperiyanı müharibə ilə əldə saxlayacaqlar.**
**Ona kiçik yeznəsi xəyanət edəcək.**
**Bunu harın atı məharətlə səyirdən edəcək.**
**Yeznənin əməli uzun müddətli nifrətə səbəb olacaq.**

Katren Napoleonun süvari ordusunun komandiri İoaxim Müratdan (1767-1815) bəhs edir. Süvari orduya 1789-cu ildə daxil olan Mürat tezliklə ən mahir cəngavər kimi tanınmışdı. 1799-cu ildə Misir yürüşündə qazandığı qəhrəmanlığa görə general rütbəsi almış və 1800-cü ildə Napoleonun ən kiçik bacısı Karolina ilə evlənmişdi. 1806-cı ildə Napolen Neapol krallığını ona vermişdi. 1812-ci ildə Napoleon Moskvanı tərk edib Parisə qayıdanda orduya Mürat rəhbərlik edirdi. 1814-cü ildə Napoleon imperiyası süquta uğrayanda Mürat böyük səhvə yol verdi. Daha doğrusu, Napoleona xəyanət etdi. O, 1814-cü ildə Avstriya və Britaniya ilə sazişə girdi. Həmin sazişə görə Neapol krallığının toxunulmazlığı təmin edilməli idi (lakin Avstriyalılar sonralar sazişi pozdular – Q.P.). Napoleon hiddətlənərək yazmışdı: “Neapol kralının hərəkəti biabırçıdır. Kraliça Karolinanın hərəkətini isə təsvir etmək ümumiyyətlə, çətindir. Güman edirəm ki, ömür vəfa qılacaq və mən həm özümə, həm də Fransaya görə o nanəciblərdən qisas alacağam”.

1815-ci ilin mart ayında Napoleon Elba adasından qaçaraq “100 gün”lük hakimiyyətə gələndən sonra, ingilislərə qarşı Vaterloo kəndi yaxınlığında müharibəyə gedəndə, Mürat köməyə gəlmək istəsə də, Napoleon qürurunu sındırmamış, rədd cavabı vermişdi. Sonralar Napoleon Müqəddəs Yelena adasında sürgündə olarkən xatırlayardı ki, əgər o, Mürata qarşı qəzəbini uda bilsəydi, Mürat onunla çiyin-çiyinə vuruşsaydı, Vaterloo döyüşünü mütləq udardı. Nə edəsən ki, taledən qaçmaq olmur.

Mürat 1815-ci ilin oktyabrında öldürülmüşdü.

**10 k35**

**Kralın kiçik oğlu dəhşətli çılğındır.**
**Birinci əmisiqızından həzz almaq üçün**
**Mendən olan naməlumun əlilə ölümə gedən**
**Artemid məbədində qadın paltarı geyəcək.**

Bu katren barədə tədqiqatçılar müxtəlif fərziyyələr irəli sürsələr də, inandırıcı bir nəticəyə gələ bilməmişlər.

**10 k36**

**Kral hədəylə müharibələrdən söz açandan sonra,**
**Britaniya adalarında ona nifrət edəcəklər.**
**Xoş keçən bir neçə il ərzində o, çapıb talayacaq.**
**Onun tiranlığı nəticəsində adada qiymətlər dəyişdi.**

Katren Hitler və Britaniya adalarından bəhs edir. 1938-ci ildən başlamış Hitler hamını müharibə ilə hədələyirdi ki, ya Çexoslovakiya və Polşaya qarşı onun ərazi iddiaları təmin olunsun, ya da müharibə qaçılmaz olacaq. İngiltərə açıqca bildirmişdi ki, Hitler Polşanı zəbt etsə, ona qarşı müharibə elan olunacaq. Hitler bir neçə il ərzində çaldı-çapdı, taladı, hətta Almaniyanın sualtı qayıqları Britaniya adalarını blokadaya aldı. Məhz buna görə də Britaniyada qiymətlər bahalaşmışdı.

**10 k37**

**Borj gölünün yaxınlığında böyük toplantı.**
**Onlar Monmelyanın yaxınlığında birləşəcəklər.**
**Döyüş meydanında fikirləşərək plan cızacaqlar.**
**Şambri, Moren, müqəddəs Yuli günü, döyüş.**

Katrendə adı çəkilən bütün yerlər vaxtilə Savoy hersoqluğuna daxil imiş, Larmon 1925-ci ildə tarixi sənədlərlə sübut edib ki, dini müharibələrin (1589-1598) son illərində hersoq Savoyski

Monmelyanda ordu toplayaraq Fransaya girmək üçün hücuma keçib. Lakin Cenevrənin bir neçə km-də, müqəddəs Yuli günü (28 avqust) döyüşdə Fransa kralı IV Henrinin ordusu tərəfindən ağır məğlubiyyətə uğrayıb. IV Henri katrenin 4-cü sətrində göstərilən yerləri də tutmuşdu.

## 10 k38

**Azacıq istək, yaxını mühasirəyə gətirib çıxaracaq.**
**Barbarların müqəddəs qoşun hissələri içində olacaq.**
**Qrizonların ordusunun qorxusundan**
**Orsini və Hadri qalliyalıların toxunulmazlığına zəmanət verəcəklər.**

Katrendə Nostradamusun bəyan etdikləri XVI əsrin sonu, XVII əsrin əvvəllərində baş verib. Böyük tarixi əhəmiyyəti olmadığını nəzərə alaraq haqqında söz açmaqdan vaz keçdik.

## 10 k39

**Birinci oğul, dul qadın, uğursuz nikah,**
**Uşaqsız. İki ada arasında ixtilaf.**
**On səkkiz yaşından sonra iqtidarı qalmayacaq.**
**O birisi daha erkən yaşında adaxlanacaq.**

Bu katren Nostradamus görücülüyünün ən uğurlu səhifələrindən birini təşkil edir və görücüyə hələ sağlığında şöhrət gətirmişdi.

Katrenin 1-ci sətrində Fransa kralı II Fransiskin Şotlandiyanın kraliçası Mariya Stüart ilə uğursuz nikahından (aprel, 1558) və xəstəhal kralın tezliklə öləcəyindən, uşaqları olmayacağından bəhs edilir. Fransisk kral II Henrinin 7 övladından 1-cisi olduğuna görə Nostradamus onu “birinci oğul” adlandırmışdır. 1-ci sətirdə görücünün söz açdığı “dul qadın” Fransiskin anası kraliça Yekaterina Mediçidir.

Kral II Fransisk hələ 18 yaşı tamam olmamış dünyasını dəyişmişdi (bax: 1 k10). Uşağı olmayan kraliça Mariya Stüart Şotlandiyaya qayıtmalı olmuşdu. O, Şotlandiyaya döndükdən az sonra ərə getmişdi. Bu, İngiltərənin kraliçası I Yelizavetanı narahat edirdi. I Yelizaveta ərə getməmişdi. Odur ki, övladı yox idi. Gələcəkdə Mariya Stüartın İngiltərənin kraliçası olacağından çəkinirdi. Buna görə də aralarında ixtilaf başlamışdı.

Tale elə gətirmişdi ki, Mariyanın ərini öldürmüşdülər. Bu işdə onun əli olduğunu söyləyirdilər. Elə bu vaxt Şotlandiyada üsyan baş vermişdi. Mariya qorxusundan Londona pənah gətirmişdi. I Yelizaveta fürsətdən istifadə edərək onu bir daha Şotlandiyaya buraxmamışdı. Bir müddət sonra Mariya kraliça I Yelizavetaya qarşı sui-qəsddə təqsirli bilinərək məhkəmənin hökmü ilə 1587-ci ildə edam edilmişdi (bax: 10 k55).

Katrenin 4-cü sətrində Fransa taxt-tacının vəliəhdi, sonralar kral olmuş IX Karldan bəhs edilir. O, 11 yaşında olanda avstriyalı Yelizaveta ilə nişanlanmışdı. Nostradamus buna işarə edir.

### 10 k40

**Britaniya taxt-tacının cavan varisinə,**
**Atası ölərkən məsləhətlər verdi.**
**Ata öləndən sonra, London varislə mübahisəyə girişdi.**
**Və taxt-tacı ondan tələb etdi.**

İngilis taxt-tacından imtina edən kral VIII Eduarda Nostradamus iki katren həsr etmişdir. Biz artıq bu məsələ ilə bağlı bütün məqamlara toxunduğumuza görə burada təkrara lüzum görmədik. Maraqlı məlumat üçün bax: 10 k22.

### 10 k41

**Kosadla Şarlüs arasındakı sərhəddə,**
**Vadinin aşağı hissəsinin lap yaxınlığında,**
**Franş şəhərində ud səsi, ətrafdan**
**Simbal və başqa musiqi alətlərinin səsi eşidiləcək.**

Katrendə adı çəkilən bütün yer adları Nostradamusun ilk məhəbbətini tapdığı Ajen şəhərinin təqribən 70 km-dədir.

Bununla belə, katren barədə tədqiqatçılar bir söz deməkdən çəkinmişlər.

**10 k42**

**Anqlik nəslinin insanpərvər krallığı,**
**Onu sülh və birlikdə yaşadacaq.**
**Hərbi əsir onun hüdudları çərçivəsində yarıyolda.**
**Sülh uzun müddət onlar üçün saxlanacaq.**

Bəzi tədqiqatçılar bu katrendə görücünün bəyan etdiklərinin gələcəkdə baş verəcəyini qeyd edirlər. Bəziləri isə göstərirlər ki, Nostradamus katrendə XX əsrin ortalarında süquta uğramış Britaniya imperiyasından söz açır.

**10 k43**

**Çox gözəl günlər, kralın həddən artıq xeyirxahlığı,**
**Nəsə qurulub, nəsə dağıdılıb, tezliklə, qəfildən, səhlənkarlıqdan.**
**O, arvadı barədə deyilən yalanlara inanacaq**
**Xeyirxahlığı və inamı ucbatından ölümə məhkum olacaq.**

Bəzi tədqiqatçılar katrenin kral XVI Lüdovikdən bəhs etdiyini göstərirlər. Başqaları isə onu şərh etməkdən çəkinmişlər.

**10 k44**

**Nə vaxt ki, bir kral öz rəiyyətinə qarşı çıxacaq,**
**Blualı genualıları qul halına salacaq.**
**Mamol, Kordoba və Dalmasiya əhalisi,**
**Kralın yeddi törəməsi kölgəyə keçdi, yeni il pulları və vahimə.**

Katrenin 1-ci və 2-ci sətrində kral III Henridən bəhs edilir. O, öz düşməni Henri de Gizi öldürtdükdən sonra, ölkədə baş verən iğtişaşlar onu məcbur etmişdi ki, başqa bir düşməni, Navarralı Henriyə pənah aparsın. Lakin kralı orada xəncərlə Jak Klemen

öldürmüşdü. Bununla da Valua sülaləsinin hakimiyyətinə həmişəlik son qoyulmuşdu. Nostradamusun sonuncu sətirdə göstərdiyi kimi, kral II Henrinin və kraliça Yekaterina Mediçinin yeddi övladının hamısı ya öz əcəli ilə dünyasını dəyişmiş, ya da öldürülmüşdü. Ətraflı məlumat üçün bax: 1 k10.

**10 k45**

**Navarra krallığının kölgəsi əsl deyil.**
**Bu, bir nəfərin həyatını qeyri-qanuni edəcək.**
**Kambrda vəd edilmiş qətiyyətsiz and**
**Orlean kralı qanuni sərhədi bağışlayacaq.**

Katren XVI əsrin sonlarında Fransada baş verən məhəlli xarakterli hadisələrdən bəhs edir. Erika Çitəm isə katrenin birbaşa IV Henridən söz açdığını göstərir. O, 1562-ci ildən Navarra kralı elan edilmişdi. 1594-cü ildən dünyasını dəyişdiyi 1610-cu ilə qədər Fransa kralı olmuşdu.

Kral IV Henri Kambriyanın qubernatoru Balaqninin həyat yoldaşını özünə məşuqə etmişdi. Kral şəhərə aid xüsusi mülkiyyəti qubernatora bağışlamışdı. Görücü 4-cü sətirdə buna işarə edir.

**10 k46**

**Həyat, tale, qızıldan ötrü ölən, ləyaqətsiz küçə qadını,**
**O, Saksoniyanın yeni seçicisi olmayacaq.**
**Saxta, yolunu azmış, şirnikləndiricini xalqa qaytararaq,**
**Braunşveqdən məhəbbət nişanəsi kimi tanıtdıracaq.**

Tədqiqatçıların ümumi rəyinə görə katren XVII əsrin əvvəllərində gedən siyasi hadisələrdən bəhs edir. Oxucular üçün maraq doğurmayacağına əmin olduğumuza görə onları sadalamaqdan vaz keçdik.



*Dünya Ticarət Mərkəzinin partladılması (11.IX.2001)*



*Pentaqon partlayışdan sonra*

**10 k47**

**Burqos şəhərindən olanlar Girland xanıma,**
**Etdiyi xəyanətə görə ciddi cəza verəcəklər.**
**Leonun böyük prelatı Formond vasitəsi ilə**
**Yalançı zəvvarlar və oğrular məhv edildi.**

Katren İspaniyada baş verən vətəndaş müharibəsindən bəhs edir. 1936-cı ildə Frankonun hərbi xuntası Burqosda hakimiyyəti ələ aldı. Respublikaçılar isə Balear adalarına soxularaq İvis və Formonteri ələ keçirmişdilər. 1939-cu ildə ölkədə Franko hakimiyyəti bərqərar olduqdan sonra minlərlə respublikaçı dövlətə qarşı cinayətə görə zindana atılmışdı.

1-ci sətirdə yer alan Girland xanım İspaniyanın tacı, çələngi, şan-şöhrəti mənasında işlənib və ölkənin paytaxtı Madrid nəzərdə tutulub. Girland – çələng mənasını verir.

**10 k48**

**İspaniyanın lap dərinliyinə bayraq,**
**Avropanın lap ucqarından gələcək.**
**Esn çayı yaxınlığında bədbəxtlik baş verəcək.**
**Onun böyük ordusu məğlubiyyətə uğrayacaq.**

Katrendə XVI əsrin 2-ci yarısında (10 avqust 1557-ci il) İspaniya ilə Fransa orduları arasında baş verən döyüşdən söhbət gedir. İspaniya ordu hissələri Niderlanddan (Avropanın lap ucqarı) keçərək Sən-Kənten yaxınlığında fransız ordusu ilə üz-üzə dayanmışdı.

**10 k49**

**Dünyanın bağı təzə şəhərin yaxınlığındadır.**
**İçiboş dağlar yolun üstündə,**
**Tutulacaq və böyük çəlləyin içinə salınacaq.**
**Ona zorla kükürdlü su içirdiləcək.**

[1] Yuri Muxin. Amerikalıları 11 sentyabr 2001-ci ildə kim öldürmüşdü. Moskva, 2005.

XX əsr nostradamusşünasları bu katrenin Nyu-Yorkla bağlı olduğunu göstəriblər. Bunu onunla əsaslandırmışlar ki, Nyu-Cersi "Dünyanın bağı" adlanır və Nyu-York (təzə şəhər) Nyu-Cersinin lap yaxınlığındadır. Nostradamusun söhbət açdığı içiboş dağlar – Dünya Ticarət Mərkəzinin qoşa binasıdır.

Nostradamusun bu katrendə bəyan etdikləri yeni minilliyin və yeni yüzilliyin 1-ci ilində baş vermişdi.

2001-ci il sentyabrın 11-də terroristlər tərəfindən qaçırılmış 2 ədəd Boinq–757 sərnişin təyyarəsi Nyu-Yorkda Dünya Ticarət Mərkəzi adlanan və hər biri 110 mərtəbədən ibarət, 402 m hündürlüyündə qoşa qülləyə çırpılaraq binaları dağıtmışdı. İçində 92 sərnişin və ekipaj olan 1-ci təyyarə səhər saat $8^{45}$-də Şimal qülləsinə, 2-ci təyyarə isə az sonra saat $9^{06}$-da Cənub qülləsinə çırpılmış və bir saat yarım ərzində hər iki bina çökərək yerlə yeksan olmuşdu. Ölənlərin sayı 2.811 nəfər idi.

Səhər saat $9^{40}$-da isə oğurlanmış 3-cü sərnişin təyyarəsi Boinq–757 Vaşinqtonda ABŞ-ın Müdafiə Nazirliyi yerləşən Pentaqonun binasına çırpıldı. Nəticədə 189 nəfər öldü. Az sonra saat $10^{37}$ dəqiqədə Pensilvaniya Ştatında, Şənksvil yaxınlığında qaçırılmış təyyarə ABŞ hərbçiləri tərəfindən vuruldu. Təyyarədə olan 44 nəfər sərnişinin hamısı öldü. Təyyarənin vurulmasını onunla əsaslandırdılar ki, terroristlər Kəmp Devidə hücum edə bilərdilər. Lakin Prezident Buş həmin vaxt Kəmp Deviddə yox idi. Bu hadisələr zamanı təyyarələri oğurlayan 19 nəfər də daxil olmaqla cəmisi 3044 nəfər həlak olmuşdu. Bu ABŞ rəsmilərinin məlumatıdır.

Lakin hadisə ilə bağlı aparılan qeyri-rəsmi tədqiqatlarda göstərilir ki, bu iş ABŞ-ın xüsusi xidmət orqanları tərəfindən hazırlanmış və həyata keçirilmişdir. T. Meysan, M. Trayden, Y. Muxin və başqaları bu fikirdədirlər.[1] Onlar qeyd edirlər ki, 11 sentyabr hadisəsindən sonra ABŞ-da heç bir vəzifəli şəxs işdən çıxarılmamış, əksinə Mərkəzi Kəşfiyyat İdarəsinin büdcəsi 42 % artırılmışdır ki, bunun da xeyli hissəsi onların maaşlarına gedir.

Qədim romalılar deyib: "Anlayana işarə kifayət edər".

## 10 k50

**Mez çayı Lüksemburq torpağından gecə-gündüz axıb gedəcək.**
**O, Saturnu və üçünü Dolça bürcündə aşkar edəcək.**
**Dağ və düzənlik, şəhər, qəsəbə və kənd,**
**Lotaringiyada daşqın, Dolça bürcünün xəyanəti.**

II Dünya müharibəsi zamanı almanların Belçika və Fransaya hücumu zamanı Mez çayı onlara əsas maneə idi. Katrenin 1-ci sətrində görücü buna işarə edir. Katrenin başqa sətirləri müharibəyə və Lotaringiyada daşqına həsr edilib. Planetlərdən Merkuri, Venera və Yupiterin Saturn planetinə və Dolça bürcünə zahiri yaxınlaşması 2021-ci ilin 13-21 yanvarında baş verəcək.

## 10 k51

**Lotaringiya ölkəsinin aşağı hissəsinin bəzisi**
**Almanların aşağı torpaqları ilə birləşəcək.**
**Pikardlar, normandlar, Men taxt-tacından olanlar**
**Və onlar da kantonlarla yenidən birləşəcəklər.**

Tədqiqatçıların göstərdiyi kimi, Lotaringiya Almaniya ilə iki dəfə birləşdirilib. Birinci dəfə 1871-1919, ikinci dəfə 1940-1944-cü illərdə.

Göründüyü kimi, katren Almaniya ilə Fransa arasında gedən müharibələrdən bəhs edir.

Katrenin 3-cü sətrində adı çəkilən yerlər Prussiya ordusu tərəfindən zəbt edilmişdi. Bismark iki tələb irəli sürmüşdü: Lotaringiya Almaniyaya birləşdirilsin və Fransa 5 milyard qızıl frank ödəsin ki, alman ordusu Fransadan çıxarılsın. Fransanın göstərilən şərtlərə boyun əyməkdən başqa əlacı yox idi. 1873-cü ildə 5 milyard qızıl frank ödənildikdən sonra, Lotaringiyadan başqa yerdə qalan bütün torpaqlar azad edilmişdi.

## 10 k52

**Lis və Şelda çaylarının qovuşduğu yerdə,**
**Davamlı nikah məclisi olacaq.**
**Antverpdə – peyin aparılan yerdə,**
**Cavan qız bakirə olaraq qalacaq.**

Katrendə söhbət gedən coğrafi adlara Belçikada təsadüf edilir. Lis və Şelda çayları Gert şəhəri yaxınlığında qovuşur. Bu şəhərdə əsrlər boyu bir çox mühüm sazişlər imzalanmışdır. Antverp isə Belçikanın paytaxtı Brüssel və Gent şəhərlərindən sonra, ölkənin üçüncü böyük şəhəridir. Təəssüf ki, katren barədə bu məlumatdan əlavə bir şey demək iqtidarında deyilik.

## 10 k53

**Bu üç məşuqə uzun müddət bir-biri ilə didişəcək.**
**Ən böyüyü dinməyəcək, az qulaq asacaq.**
**Böyük bu işdə daha ona hami olmayacaq.**
**Məşuqə onu ağ yolun odlu sipəri adlandıracaq.**

Bəzi qərb tədqiqatçıları heç bir əsas olmadan bu katreni Süleyman Qanuni ilə əlaqələndirməyə çalışsalar da, ağlabatan bir fikir irəli sürə bilməyiblər. Bəziləri katrenin Fransa kralı II Henri və onun məşuqə kimi saxladığı üç qadından, xüsusən də onun çox istədiyi Diana Puatyedən bəhs etdiyini qeyd edirlər.

## 10 k54

**Bu dünyaya gizli məşuqədən doğulmuş,**
**İki qəmgin məlumatla yüksəyə qaldırılan,**
**Düşmənlər arasında o (qız), əsir ediləcək.**
**Və Malinə və Brüsselə gətiriləcək.**

---

[1] Damon Vilson. Peyğəmbərlik. London, 2003, səh.171.

Görücünün bu katreni də şərh olunmamış qalır. Malin (indi Meçelin) Belçikanın şimalında şəhərdir. Brüssel Belçikanın paytaxtı və Avropa Birliyinin Baş qərargahının yerləşdiyi şəhərdir.

## 10 k55

**Uğursuz nikah təntənə ilə qeyd olunacaq.**
**Hamı sevinəcək, lakin sonu acınacaqlı bitəcək.**
**Ər və ana Mariyaya laqeydlik göstərəcəklər.**
**Phybe öldü və gəlin ondan da bədbəxtdir.**

Bəzi tədqiqatçılar katrenin ingiltərənin kraliçası II Yelizaveta, oğlu Çarlz və gəlini şahzadə Dianadan bəhs etdiyini israrla sübuta yetirməyə çalışırlar. Katrenin 3-cü sətrində Mariya Stüartın adının çəkildiyinə belə məhəl qoymurlar. Onların fikirlərini alt-üst edən başqa bir dəlil odur ki, Çarlz sağ-salamatdır. Hətta Dianadan ayrılandan sonra köhnə məşuqəsi Kamilla ilə əvvəlki əlaqələri bərpa etmiş, Diana 1997-ci il avqust ayının 31-də Parisdə avtomobil qəzasına düşərək dünyasını dəyişəndən sonra, o, Kamilla ilə rəsmi nikaha girmişdir.

Əslində, bu katrendə söhbət çox gənc və çox da xəstəhal olan Fransa kralı II Fransisk və Şotlandiyanın kraliçası Mariya Stüartın nikahından gedir (1558). Fransisk evlənəndə hələ 16 yaşı tamam olmamışdı. Ömür yolu çox qısa olan Fransisk (1543-1560) 5 dekabr 1560-cı ildə dünyasını dəyişmişdi. Mariyanın Fransiskdən uşağı olmadığına görə Şotlandiyaya qayıtmalı olmuşdu. Burada yenidən ərə getmişdi. 1567-ci il iğtişaşları zamanı İngiltərəyə qaçmışdı. Onun Londona pənah gətirməsinin əsas səbəbi ərinin öldürülməsində suçlu bilinməsi olmuşdu. Sonralar kraliça I Yelizavetaya qarşı sui-qəsddə təqsirli bilinərək məhkəmənin hökmü ilə edam edilmişdi (bax: 10 k39).

Nostradamus katrenin son misrasında “gəlin ondan da bədbəxtdir” deməklə buna işarə etmişdir.

4-cü sətirdə işlənən “Phybe” də böyük maraq doğurur. Fransız və ingilis dillərində **ph** hərf birləşməsi **f** səsini verir. **Be** isə bettadır, yəni əlifbada ikinci hərf. Deməli, söhbət II Fransiskdən gedir.[1]

## 10 k56

**Kral prelatı o qədər əyilib təzim edəcək ki,**
**Ağzından şorultu ilə qan axacaq.**
**İngilis idarə-üsulu yenidən kralla nəfəs aldı.**
**Uzun müddət kötük kimi cansız olan, Tunisdə canlandı.**

Tarixçi nostradamusşünas R.Velş göstərir ki, katren XVII əsrin ortalarında İngiltərədə baş verən hadisələrdən bəhs edir. Məsələ burasındadır ki, kral I Çarlzın qərarına boyun əyməyən Kanterberinin baş yepiskopu Laudu ingilis Parlamenti 1645-ci ildə ölümə məhkum etmişdi. Prelat kral I Çarlz və Parlamentdən acizanə şəkildə xahiş etmişdi ki, onu dar ağacından asmasınlar, balta ilə boynunu vursunlar. Görücü 1-ci və 2-ci sətirdə buna işarə edir.

Yeri gəlmişkən onu da deyək ki, cəmisi 4 il sonra – 1649-cu ildə kral özü də edam edilmişdi.

4-cü sətirdə isə söhbət admiral Bleykdən gedir. 1653-cü ildə ağır yaralanaraq təqaüdə çıxan admiralı az sonra vəzifəyə qaytarmış, Tunisdə baş verən iğtişaşları yatırmaq və ölkəni müstəmləkəyə çevirmək üçün Şərqə göndərmişdilər. O, həqiqətən də Tunisi ram etmişdi.

## 10 k57

**Yuxarı qalxan öz hökmdarını yaxşı tanımayacaq.**
**Böyüklərin kiçik uşaqları rüsvay ediləcəklər.**
**Belə murdar və qəddar varlıq heç vaxt olmamışdır.**
**Arvadlarının ucbatından qara kral onları aradan götürəcək.**

Katren İraqdan bəhs edir. 1994-cü ilin payızında Səddam Hüseynin kürəkənləri: Hüseyn Kamal əl-Məcid (müdafiə naziri), qardaşı Səddam Kamal əl-Məcid (Prezidentin Müdafiə dəstəsinin

başçısı) arvadlarını və uşaqlarını götürərək İordaniyaya qaçmış, siyasi sığınacaq istəmişdilər. Səddam Hüseyn nümayəndələr göndərərək onların qayıtmasını və qayıdacaqları təqdirdə qızlarının və nəvələrinin xatirinə onları bağışlayacağını bildirmişdi. Altı aydan sonra, 1995-ci ilin fevralında arvadlarının təkidi və vətən həsrəti onları İraqa qayıtmağa məcbur etmişdi. Onlar elə güman edirdilər ki, ömür-gün yoldaşları heç olmazsa övladlarının xatirinə göz yaşı tökərək atalarından ərlərini bağışlamağı xahiş edəcəklər. Lakin onların Səddam Hüseynin qızları olduğunu unudurdular. Bağdada dönən kimi onlar ərlərindən boşanmaq barədə vəsatət qaldırdılar.

Tezliklə hər iki kürəkəni və valideynlərini, ümumiyyətlə onların nəsillərini yox etdilər.

1-ci sətirdə Kamal əl-Məcidin Səddam Hüseyni yaxşı tanımadığından, 2-ci sətirdə hər iki qardaşın övladlarının yetim qalmasından, 3-cü sətirdə Səddam Hüseyndən və 4-cü sətirdə onun qızlarının ərlərinin ölümünə səbəb olmasından danışılır.

### 10 k58

**Matəm vaxtı, qəzəbli makedoniyalı monarx,**
**Gəncin üstünə müharibə ilə gedəcək.**
**Qalliya tərəddüd edəcək, Papa təhlükədə olacaq.**
**Qərbin danışıqlarının acısını Marsel çəkəcək.**

Katren İspaniya ilə Fransa arasında gedən müharibədən bəhs edir. Kral XIII Lüdovik öləndə (1643) kral elan edilən XIV Lüdovikin cəmi 5 yaşı varmış. Bundan istifadə edən İspaniya kralı IV Filip Fransaya qarşı müharibəyə girişmişdi. 1-ci sətirdə Nostradamus buna işarə edir. Maraqlıdır ki, görücü İspaniya kralları Filipləri bütün katrenlərində adaş olduqlarına görə Makedoniyalı Filiplə müqayisə edir və makedoniyalı adlandırır.

Onu da qeyd etməyə dəyər ki, görücü 72 il Fransa kralı olmuş XIV Lüdovikə rəğbətlə bir neçə katren həsr etmişdir. XIV Lüdovikin dünya şöhrətli Versal başda olmaqla bir çox tarixi abidələrin

ucaldılmasında, Aralıq dənizi ilə Atlantik okeanını birləşdirən Midi kanalının tikilməsində misilsiz xidməti olmuşdur. Maraqlı məlumat üçün bax: 10 k79, 10 k89.

### 10 k59

**Lion ərazisində eyni niyyətlə iyirmi beş nəfər,**
**Beş vətəndaş, almanlar, bressanlar, qrisonca danışan ladınlar,**
**Ləyaqətli adamın adı ilə uzun qatarı gətirəcəklər.**
**İz axtaran itlərin hürməsi ilə gəlişləri aşkar oldu.**

Jober hələ 1656-cı ildə bəyan etmişdi ki, katrendə göstərilənlər 5 sentyabr 1572-ci ildə yerinə yetib. Ləyaqətli adam Kondedir. Hugenotlara qarşı sui-qəsddən – kütləvi qırğından sonra (Varfolomey gecəsi – 1572, 24 avqust) sağ qalmış Malini Kondenin adından çıxış edərək 4500 nəfərlə Lionu tutmaq istəyib. Lionlulardan 25 nəfər xəlvəti olaraq şəhər darvazalarını açmalı imiş. Lakin şəhər qarnizonu xəbər tutaraq onları məhv etmişdi. Nostradamus 4-cü sətirdə buna işarə edir.

### 10 k60

**Mən Nis, Monako, Piz, Genuya, Savona,**
**Siena, Kapuye, Moden, Malta üçün ağlayıram.**
**Bu yerlərin yeni il hədiyyələri qan və qılınc olacaq.**
**Od, su, yer titrəyəcək, arzuolunmaz bədbəxtliklər.**

Katren II Dünya müharibəsindən bəhs edir. Müharibə vaxtı görücünün sadaladığı yerlər döyüş meydanına çevrilmişdi. 1943-cü il yeni il ərəfəsində Hitler ordu hissələri Stalinqrad yaxınlığında mühasirəyə alınıb təslim olmuşdular. 1944-cü ilin yeni ili müttəfiq orduların İtaliyaya girməsi ilə yadda qaldı. 1945-ci ilin yeni ili Hitler ordusunun hər tərəfdən hücuma keçməsi, əvvəlcə müttəfiq ordularının faşistlərin hücumunun qarşısını alması və əks-hücuma keçməsi və az sonra onu darmadağın etməsi kimi tarixə düşdü.

## 10 k61

**Betta, Vyana, Emort, Şopron,**
**Pannonu varvarlara təslim etmək istəyəcəklər.**
**Nizə və odla görünməmiş güc.**
**Sui-qəsdçilər nüfuzlu qadın tərəfindən aşkar ediləcəklər.**

Bu katren 1683-1699-cu illərdə Osmanlı İmperiyası ilə Avstriya arasında gedən müharibələrdən bəhs edir. 1683-cü ildə Polşa və Venesiya ordularının köməyi ilə Vyana türklərin mühasirəsindən azad edilmiş, sonra isə ruslar da onlara qoşularaq türkləri Pannonun (Macarıstan) Şopron, Buda və başqa şəhərlərindən sıxışdırıb çıxarmışdılar.

3-cü sətirdə 1697-ci il döyüşləri təsvir edilir. Türklər yenidən Vyananı ələ keçirmək üzrə olublar. Lakin xristian orduları birləşərək onları məğlub ediblər. Bu məğlubiyyət türklərə baha başa gəlmişdi. 1699-cu il sazişinə görə türklər Macarıstan və Xorvatiyaya qarşı ərazi iddialarından imtina etmişdi.

Betta və Emort o vaxtlar Roma imperiyasının əyalətləri olub. İndi isə İspaniyanın cənub əyalətləridir.

## 10 k62

**Sorbin yaxınlığında Onqriyə (Macarıstan) həmlə etmək üçün**
**Brüdlü Herold gəlib onları xəbərdar edəcək.**
**Vizantiyanın başçısı, Slavoniyalı Sallon**
**Onları ərəb qanunlarına döndərmək üçün gələcək.**

Bu katren də 1683-1699-cu illər Avstriya – Osmanlı müharibəsindən bəhs edir. 1683-cü il iyulun 14-də 150.000-lik türk qoşun hissələri Vyananı mühasirəyə almışdı. Vyananı cəmisi 15.000 nəfərdən ibarət qarnizon müdafiə edirdi. Lakin Avstriyanın müttəfiqləri almanlar və kral Yan III Sodeskinin komandanlığı ilə polyakların güclü ordusu köməyə gəlmişdi. Həmin ilin sentyabr ayının 12-də müttəfiq orduları türkləri məğlub etdilər. Bundan sonra Türkiyə Mərkəzi Avropadan

tədricən çəkilməyə məcbur oldu. Katrenin 3-cü və 4-cü sətirlərində Nostradamus Sultan II Süleymanın Avropaya ayaq açmasının əsas məqsədini açıqlayır.

## 10 k63

**Kidoniya, Raqusa (Dubrovnik), Stridon şəhəri (Bosniya),**
**Loğman köməyi ilə yenidən yaşıllaşacaqlar.**
**Kralın oğlu iki qəhrəmanın ölümünə görə öldü.**
**Ərəbistan və Macarıstan eyni yolu seçəcəklər.**

Bu katrendə isə Osmanlı İmperiyasının yavaş-yavaş süquta üz tutmasından, tutduğu əraziləri itirməsindən bəhs edilir.

4-cü sətirdə Osmanlı İmperiyasının Macarıstan və Ərəbistanı da itirəcəyi göstərilir.

## 10 k64

**Ağla Milan, ağla Lukka və Florensiya,**
**Nə vaxt ki, böyük Duçe dördtəkərli arabaya minəcək.**
**O, Venesiyanın yaxınlığında taxt-tacı dəyişmək fikri ilə irəliləyəcək.**
**O vaxt Romada Kolonna dəyişdiriləcək.**

Bu katren də Nostradamusun görücülüyünün parlaq nümunəsi - dir. Katrendə Mussolininin hakimiyyətə gəlməsindən, onun hakimiyyəti dövründə italyan xalqının başına gələn bəlalardan, Britaniya ordusunun müharibənin son aylarında Venesiyanı azad etməsindən və elə bu vaxt Duçenin həyatına son qoyulmasından söhbət gedir.

Katrenin 4-cü sətrində Nostradamusun bəyan etdiyi hadisə 1944-cü ildə Romanın Kolonna meydanında baş vermişdi. Mussolini hökumətinin süqutu bu meydanda, 1944-cü ildə elan edilmişdi.

Katrenin 1-ci sətrində göstərilən hər üç şəhər müharibə vaxtı yerlə yeksan edilmişdi.

## 10 k65

**Oh, vüsətli Roma sənin fəlakətin yaxınlaşır.**
**Divarlarının yox, qanının və varlığının fəlakəti.**
**Sərt adam yazısında çox ciddi məsələlərə işarə edəcək.**
**İti polad hamının qolunu deşəcək.**

Tədqiqatçıların bir çoxu bu katrenin Roma katolik kilsəsində baş verən hadisələrdən bəhs etdiyini qeyd edirlər. David Yollop vaxtilə Vatikan bankında çirkli pulların yuyulması, mafiya ilə əlaqələr, narkobiznesin burada çiçəklənməsi və s. barədə qorxmadan kəskin qələmlə yazmışdı. Kilsə xadimlərindən spid xəstəliyinə tutulmuş Robert Aspin göstərmişdi ki, kilsə xadimlərinin 40%-dən çoxu homoseksualistdir.

## 10 k66

**Londonun başçısı Amerikanın idarəsilə,**
**Şotlandiya adasını soyuq şeylə çətinə salacaq.**
**Roy Reb antixristi o qədər yalançı olacaq ki,**
**İşləri qarışdıracaq və hamı münaqişəyə cəlb olunacaq.**

Katrenin 1-ci sətrindən göründüyü kimi, katren Amerika və İngiltərədən bəhs edir. XX əsrin 50-ci illərində ABŞ Britaniya adalarında raket bazası yaratmışdı. Burada Polaris sualtı qayıqları peyda olmuşdu. 80-ci illərdə isə ABŞ burada orta məsafəyə uçan "Perşinq–2" raketləri quraşdırmışdı. Katrenin 2-ci sətrində görücü buna işarə edir. N.V.Belov qeyd edir ki, bundan sonra İngiltərə pis vəziyyətə düşərək əslində ABŞ-ın ştatlarından birinə çevrilmişdi.

Amerikalı tədqiqatçı R.Velş katreni II Dünya müharibəsi ilə bağlayır. O göstərir ki, Londonun başçısı dedikdə anası amerikalı olan Vinston Görçil nəzərdə tutulur. Reb isə qiyamçı, üsyançı – Amerika deməkdir. R.Velş bəyan edir ki, Amerikada İngiltərəyə qarşı istiqlaliyyət müharibəsi (1775-1783) ərzində ABŞ dövləti yarandı (1776) və İngiltərənin hökmranlığına son qoyuldu. Demə -

li, Roy Reb – qiyamçı hökmranlıq deməkdir. Burada ABŞ-ın siyasətinin yalan üzərində qurulduğu da göstərilir.

4-cü sətirdə isə ABŞ-ın riyakar hərəkətləri nəticəsində dünyada baş verəcək münaqişələrə işarə edilir.

## 10 k67

**Saturn Oğlaq, Yupiter və Merkuri isə Buğa bürcünə yaxın olanda,**
**May ayında güclü zəlzələ olacaq.**
**Venera Xərçəng, Mars isə Qız bürcünə yaxınlaşanda,**
**Göydən yumurta yekəliyində dolu yağacaq.**

Bəzi tədqiqatçılar planetlərin bu katrendə göstərilən düzülüşünün çox nadir hallarda baş verdiyini və gələcəkdə yer alacağını göstərirlər. Başqaları isə qeyd edirlər ki, planetlərin belə düzülüşü 1901 və 1929-cu illərdə olmuşdur. Nostradamusun zəlzələ sözünü məcazi mənada işlətdiyini onlar ön plana çəkirlər. Həqiqətən də XX əsrin əvvəllərində dünyada çaxnaşmalar baş vermişdi. 1929-cu ildə isə iqtisadi tənəzzül dünyanı bürümüşdü.

Tədqiqatçı David Ovasan başqa bir katrendən çıxış edərək (9 k83) planetlərin belə düzülüşünün 2000-ci il may ayının 9-da da yer al - dığını göstərib. Doğrudan da, XXI əsrin əvvəli də dünyada baş verən çaxnaşmalarla yadda qaldı.

## 10 k68

**Dəniz ordusu şəhərin qarşısında dayanacaq.**
**Qısa manevrdən sonra oranı tərk edəcək.**
**Quruda çoxlu mülki adamlar tutulacaq.**
**Donanma böyük talan üçün yenidən qayıdacaq.**

Bu katren barədə tədqiqatçılar fikir söyləməkdən çəkinmişlər. Yalnız Dmitri və Nadejda Zimalar göstərmişlər ki, bəlkə də bu katren İraqdan bəhs edir.

Əslində, katren XX əsrin sonlarında İraq ətrafında baş verən hadisələrdən söz açır. Həqiqətən də, İraq Küveyti tutandan sonra

500 minlik NATO ordu hissələri Bəsrə yaxınlığında lövbər salmışdılar. Onlar ildırım sürəti ilə "Səhrada tufan" əməliyyatını keçirərək İraq ərazisini tərk etmişdilər. Lakin sonralar ABŞ və Britaniya hərbi donanması Nostradamusun doğru olaraq göstərdiyi "böyük talan üçün" yenidən qayıtdı və 2003-cü il mart ayının 21-də İraqı zəbt etdi.

### 10 k69

**Yenidən yüksəlmiş qocanın parlaq işi,**
**Onlar Cənub və Şimaldan çox böyük olacaqlar.**
**Onun öz bacısı böyük dəstəni ayağa qaldıracaq.**
**Ambelon kolluqlarında qaçarkən ölənlər olacaq.**

Katren II Dünya müharibəsi zamanı Fransada baş verən hadisələrdən bəhs edir. Katrenin 1-ci sətrində I Dünya müharibəsinin qəhrəmanı, qoca Petenin 1940-cı ildə Fransada hakimiyyətə gəlməsindən söz açılır. Almanlar Parisi tutandan sonra xalq ümidini Petenə bağlamışdı. Lakin 80 yaşlı Peten elə bir iş görə bilməmişdi.

Katrenin yerdə qalan sətirlərində partizan hərəkatından danışılır.

3-cü sətirdə İngiltərə nəzərdə tutulur.

4-cü sətirdə Versero yaylası uğrunda gedən döyüş (iyul 1944-cü il) təsvir edilir. 20.000-lik alman ordu hissəsi 950 nəfərdən ibarət dəstəni mühasirəyə almışdı. Döyüş zamanı 750 partizan öldürülmüşdü. Ambel yaxınlığında qaçıb kolluqlarda gizlənən partizanları isə almanlar taparaq xüsusi qəddarlıqla, süngü ilə öldürmüşdülər.

### 10 k70

**Göz əşya tərəfindən elə böyüdüləcək ki,**
**Elə çox və elə hərarətli ki, qar yağacaq.**
**Su basmış göllər sıradan çıxacaq.**

---

[1] R.Velş. Nostradamusun kometası (ingiliscə). ABŞ, Minnesota, 2000, səh. 291.

**Bu vaxt primat Rejə güzəştə gedəcək.**

Bu katren şərh olunmamışdır. Məlum olan 1-ci sətirdəki mətləbdir. Nostradamus bu sətirdə gözün müalicəsində istifadə olunan cihazlardan, xüsusən də həkimin gözün lap dərinliklərinə qədər görməsini təmin edən cihazdan söz açır.

## 10 k71

**Torpaq və hava Böyük suyu donduracaq.**
**Onda gəlib Cümə axşamına ehtiram göstərəcəklər.**
**Nə olacaqsa, heç vaxt bu qədər ədalətli olmamışdır.**
**Dörd tərəfdən gəlib onu mədh edəcəklər.**

Katren Amerika Birləşmiş Ştatlarından bəhs edir. Hər il noyabr ayının 4-cü həftəsinin Cümə axşamı ABŞ-da “Minnətdarlıq günü” kimi qeyd edilir. Biz bu maraqlı mərasim barədə artıq danışmışıq (bax: 1 k50).

1-ci sətirdə göstərildiyi kimi, noyabr ayında Böyük göllər həqiqətən də donur. Böyük Göllər Kanada ilə sərhəddədir. Buzlaq-tektonik mənşəli olan bu göllər bir-biri ilə çaylar vasitəsi ilə əlaqələnir. Məşhur Niaqara şəlaləsi də Göllər diyarındadır. Dərin qazılmış kanallar vasitəsi ilə okean gəmiləri Böyük Göllərə daxil ola bilir. Böyük Göllərə Böyük Su da deyirlər.[1]

## 10 k72

**1999-cu ildə, yeddinci ayda,**
**Səmadan böyük vahimə hökmdarı enəcək.**
**O, böyük monqol kralını qaytaracaq.**
**Ondan əvvəl və sonra Mars xoşbəxtliklə idarə edəcək.**

Bu katren barədə kitabımızın girişində geniş danışmışıq. Burada qısaca olaraq görücünün 2-ci sətirdə bəyan etdikləri ilə əlaqədar onu demək istərdik ki, bəzi tədqiqatçıların bu misradan çıxış edərək dünyanın sona yetəcəyi, Yer üzündə həyatın məhv olacağı barədə

söyləmiş olduqları fikirlər cəfəngiyatdan başqa bir şey deyildir. Əslində, Nostradamus 1999-cu ilin iyul (yeni təqvimlə avqust) ayında Günəşin tutulacağından (həqiqətən də həmin tarixdə Günəş 2 dəqiqə 23 saniyə tutulmuşdu – Q.P.) söhbət açmışdır. Tədqiqatlardan çıxış edərək demək olar ki, ta qədim zamanlardan insanlar Günəşi "Vahimə hökmdarı", "Dəhşət hökmdarı" kimi tanımışlar.

Bəzi tədqiqatçılar göstərirlər ki, 3-cü sətirdə bir vaxtlar dünyanı lərzəyə salan Çingizxandan bəhs edilir. Bunu onunla izah edirlər ki, 2000-ci ildə Çində Çingizxanın məqbərəsi tapılıb. Bəzi tədqiqatçılar isə yeni Çin imperiyasının yaranacağından söz açırlar. Biz isə belə düşünürük ki, 3-cü sətirdə söhbət ABŞ Prezidenti Corc Buşdan (oğul) gedir. Məsələ burasındadır ki, o, 1999-cu ildə öz namizədliyini irəli sürmüş, həmin ilin noyabr ayında ABŞ Prezidenti seçilmişdi.

Katrenin 4-cü sətrində Marsın 1999-cu ildən əvvəl və sonra dövr etməsindən danışılır. Marsın bir dövrəsinin 36 ilə bərabər olduğu məlumdur. Deməli, Mars 1999-cu ildə Günəşin tutulmasından əvvəl dövr etməyə 1963-cü ildə başlayıb. Bu vaxt soyuq müharibənin ən qızğın çağı idi. Belə çıxır ki, müharibə allahı hesab olunan Mars 2035-ci ilə qədər öz dövranını sürəcək, münaqişələrə, müharibələrə rəvac verəcək.

## 10 k73

**İngiki zaman keçmişlə birlikdə,**
**Yupiterin böyük adamı tərəfindən hökm veriləcək.**
**Dünya onun əlindən çox gec cana gələcək.**
**Və and içən ruhanilərə etibarsızdır.**

Bu katren barədə tədqiqatçılar qəti söz deməkdən çəkinmişlər.

## 10 k74

**Böyük yeddi rəqəminin yer aldığı ildə,**
**Qanlı qırğın oyunları baş verəcəkdir.**
**Böyük minilliyin yaxınlığında,**

**Ölülər qəbirlərindən çıxacaqlar.**

Tədqiqatçıların fikrincə "böyük yeddi rəqəm" yeddinci minillikdir. Böyük minillik deyəndə (3-cü sətir), heç şübhəsiz, Nostradamus 2-ci minilliyi nəzərdə tutur. Çünki görücü kral II Henriyə ünvanladığı Açıqlamada bəşəriyyətin bu nəslinə qismət olan zaman kəsiyinin 4-cü minillikdən, daha doğrusu, Nuh Peyğəmbərdən başladığını xüsusi vurğulayır və bununla bağlı apardığı hesablamaları dəlil-sübut kimi ortaya qoyur. Beləliklə, yeni eraya qədər yer alan 4 min ilin üstünə 2 min gələndə 6 min edir. İndi VII minillikdən altı il keçib (2006-cı ildir) və biz VII minillikdə yaşayırıq.

Bu katren barədə nostradamusşünaslar müxtəlif fərziyyələr irəli sürmüşlər. Dmitri və Nadejda Zimalar katrenin yalnız 2-ci sətri barədə söz açaraq, burada qədim yunanlarda Ay allahı Hekatanın şərəfinə kəsilən qurbanlardan bəhs edildiyini göstərmişlər. Bizə qalırsa, David Ovasonun fikri daha ağlabatandır. Tədqiqatçı katrenin 2-ci sətrində işlənən "Hekatombe – qırğın oyunu" sözünün etimologiyası ilə ciddi məşğul olmuş və sübut etmişdir ki, bu söz "yüz heyvanın kəsilməsi" mənasını verir. O, daha dərinə gedərək tapmışdır ki, qədim zamanlarda Yunanıstanda keçirilən Olimpiya oyunları zamanı Günəş allahı Apollonun şərəfinə 100 döngə və ya buğa kəsərlərmiş.

Yeni eranın II əsrində yaşamış Pausaniasın yazdığına görə, qurbankəsmə mərasimi Olimpiadanın adətən 1-ci və 5-ci günü yerinə yetirilirmiş. Olimpiada isə avqust ayının 6-sı, sentyabr ayının 5-i arası keçirilərmiş.

Nəzərə alsaq ki, Nostradamus 3-cü sətirdə VII minilliyin əvvəlindən söz açır, deməli, katren 2004-cü ilin avqust ayının 13-29-u arası Yunanıstanda keçirilən Olimpiadadan bəhs edir. Çox güman ki, görücü bu məsələni ona görə xüsusi vurğulayır ki, yarışlar iki minilliyin qovşağında Olimpiadanın vətəni Yunanıstanda keçiriləcəkmiş.

Katrenin 4-cü sətri həm maraq, həm də vahimə doğurur. Bəzi tədqiqatçılara görə guya görücü bu katrendə qiyamət günündən söz açır. Amerikalı tədqiqatçı Roberts göstərmişdir ki, katrendə bəyan olunanlar 2007-ci ildə baş verəcəkdir. Lakin o, bu qənaətə hansı hesablamalar əsasında gəldiyini açıqlamamışdır. Bəlkə də nostradamusşünas Roberts 2007-ci ildə III Dünya müharibəsinin baş verəcəyini və müharibə vaxtı nüvə silahından istifadə ediləcəyini təxmin etmişdir. Keçən əsrin 80-ci illərində dünyasını dəyişən tədqiqatçının fikrini dəqiqləşdirmək üçün bir vasitə olmasa da, hər halda 2007-ci ilə az qalıb. Yaşayarıq, görərik.

Əsrlərlə öncə Xopi bilicilərinin göstərdiyi və əfsanəyə dönmüş bir hadisə baş verdi. Xopilərə görə, "Qartal Aya enəndə" dünyada böyük dəyişikliklər olacaq. 1969-cu ildə ABŞ-ın kosmik gəmisi "Apollon" Ayın səthinə enəndə Nil Armstronq sevinclə qışqırmış - dı: "Qartal endi!"

Xopilərin 2012-ci ildə sona yetəcək qədim təqvimində isə göstərilib ki, bu vaxt hər şey dəyişəcək. Ola bilsin ki, 2012-ci ildə insanın klonlaşdırma yolu ilə yaradılması baş verəcək.

Nostradamusun qəribə və fərqli adlandırdığı XXI əsrdə bizi çox şeylər gözləyir. Eyni cinsdən olanların nikahı və bəzi dövlətlər tərəfindən onun rəsmi şəkildə tanınması, bu əsrin əcaib-qəraibliyinə dəlalət edən faktlardan biridir.

Bu və buna bənzər faktlarla qarşılaşdıqca Nostradamusun gələcək nəsillərə əmanət qoyub getdiyi Açıqlamadakı bir çox məqamlar aydınlaşır: "Əgər mən onların başına nələr gələcəyini açıb göstərsəydim, ...gələcəyin onlara çox cüzi oxşarlığını, davranış, əxlaq və sairdə tam dəyişikliklər baş verəcəyini görərək labüd olaraq baş verəcək, gələcək nəsillərin görə və anlaya biləcəyi hadisələri əsrlərlə öncə lənətləyərdilər. Bu isə gələcəyə zərbə olardı".

## 10 k75

**Bir bu qədər gözlənilən heç vaxt qayıtmayacaq.**
**O, Asiyada görünəcək, Avropada isə evdə olacaq.**

**Böyük Hermesin nəslindən olan bu şəxs,**
**Şərqin bütün hökmdarlarından yüksəyə qalxacaq.**

Tədqiqatçılar hesab edirlər ki, bu katren yeni dini təlimlərlə bağlıdır. Güman etmək olar ki, 1-ci sətirdə söhbət İsa Peyğəmbər və axırzaman İmam Rzadan gedir. Çünki dini kitablarda onların bir gün zühur edəcəyindən danışılır.

Katrenin 3-cü və 4-cü sətirlərində yeni təlim yaradacaq şəxsə işarə edilir.

Hermes qədim yunan mifologiyasında Olimp allahlarının müjdəçisi olub. Qədim Roma mifologiyasında isə Hermes allahları və insanları idarə edən Yupiterin şəxsi müjdəçisi və onun adından danışan kimi verilib. Deyilənləri nəzərə alaraq qeyd etməyə dəyər ki, Nostradamus Şərqdə–bəlkə də elə Yunanıstanda (bax: 3-cü sətir) və ya İtaliyada yeni müjdəçinin – peyğəmbərin meydana gələcəyindən söhbət açır.

Görücünün fikrincə yeni müjdəçiyə Avropada da etiqad göstərəcəklər.

## 10 k76

**Böyük Senat paradı fərqli görəcək.**
**Ondan ki, sonralar qovulacaq, məğlub ediləcək.**
**Onun tərəfdarları şeypur səsinə yaxın olacaq.**
**Onların əmlakları satılacaq, düşmən kimi sıxışdırılacaqlar.**

Bu katren II Dünya müharibəsinin lap sonunda Sovet İttifaqı ilə ABŞ arasında başlayan soyuq müharibədən və Sovet quruluşunun süqutundan bəhs edir. 1945-ci ilin may bayramı günü Moskvada hərbi parad vaxtı söylənən nitqlərdə, Sovet himnində ABŞ-ın Senatı soyuq müharibə əhvali-ruhiyyəsi duymuşdu. 1-ci sətirdə görücü buna işarə edir.

2-ci sətirdə Nostradamus Sovet İttifaqının dağılacağından söz açır.

Katrendə ən çox maraq doğuran 4-cü sətirdir. Sovet dövlət başçılarının əmlaklarının, orden və medallarının Qərbdə satılması və onlara düşmən gözü ilə baxılaraq sıxışdırılmaları (heykəllərinin götürülməsi, şərəflərinə qoyulmuş şəhər, rayon, küçə, mədəniyyət ocaqları, parklar, stadionlar, saraylar və s. adlarının dəyişdirilməsi, kitablarının yığışdırılması) bu sətrin məğzini təşkil edir.

**10 k77**

**Xalq ordusunun ardıcıllarından otuz nəfər,**
**Qovulmuşlar, var-dövlətlərini rəqiblərinə vermişlər.**
**Onların gördükləri bütün xeyirxah işlər cinayət kimi qələmə veriləcək.**
**Donanma dağıdılacaq, korsarlara veriləcək.**

Tədqiqatçılar bu katrenin də Sovet İttifaqından bəhs etdiyini qeyd edirlər. M.Qorbaçovun vaxtında müdafiə naziri başda olmaq - la, bir çox general və admirallar işdən çıxarılmışdı (bax: 1-ci sətir).

Bununla bərabər, Kommunist Partiyasının rəhbərləri işdən çıxarılmış, hələ bu az imiş kimi, Boris Yeltsin Kommunist Partiyasını qadağan etmişdi. Keçmiş dövlət başçıları və Sovet ordusunun rəhbər işçiləri düşmən, Nostradamusun doğru olaraq göstərdiyi kimi, gördükləri xeyirxah işlər isə cinayət kimi qələmə verilmişdi.

Qüdrətli Sovet ordusunun dağıdılması bizim gözlərimiz önündə baş vermişdi. Baltik dənizində Sovet donanması bütövlükdə satılmışdı.

4-cü sətirdə Nostradamus qeyd edir ki, hərbi sursat korsarlara – dəniz quldurlarına veriləcəkdir. Doğrudan da, sovet donanması dağıdılanda Afrika, Tunis, Əlcəzair və Liviya xeyli sualtı hərbi gəmilər almışdı. Nostradamusun vaxtında bu yerləri korsarların – dəniz quldurlarının torpağı kimi tanıyırdılar.

---

[1] Denis Mek Smit. Mussolini (ingiliscədən ruscaya tərcümə). Moskva, 1995, səh.372.

## 10 k78

**Romada bir-birini nəvazişlə bağrına basanda,**
**Gözlənilməz sevinc, qəfil qüssə ilə əvəz olunacaq.**
**Bədbəxtlik, qışqırıqlar, göz yaşları. Qan, əla əhvali-ruhiyyə.**
**Rəqiblər bu bağlılığa mat qalmışdılar.**

Tədqiqatçılar bu katren barədə fikir söyləməkdən çəkinmişlər.

Əslində katrenin hər bir sətrindən görünür ki, burada söhbət Mussolininin həyatının son anlarından gedir. 25 aprel 1945-ci ildə "İtaliya Azadlıq hərəkatı komitəsi" qərar çıxarmışdı ki, Mussolinini tutan kimi güllələsinlər. 28 aprel 1945-ci ildə Mussolini və məşuqəsi Klara Petaççi sərhədi keçib Avstriyaya qaçarkən partizanların əlinə keçmişdilər. Bu vaxt Mussolini və Klara bir-birini nəvazişlə bağrına basmışdılar. Partizanlar Klara Petaççiyə təklif etdilər ki, çıxıb getsin. Lakin o, razı olmadı. Mussolinini güllələyəndə göz yaşları tökərək özünü güllənin qabağına verdi. Qan töküldü. Partizanlar diktatoru öldürdüklərinə görə sevinclə qışqırırdılar. Onların əhvali-ruhiyyəsi əla idi. Bütün bunları Nostradamus hadisə baş verəndən təqribən 400 il əvvəl bəyan etmiş, Mussolininin müasirləri olan yazar və tarixçilər təsdiq etmişdilər.[1]

## 10 k79

**Köhnə yolların hamısı gözəlləşdiriləcəkdir.**
**Hamı oranı Menfisdə olduğu kimi keçib gedəcəkdir.**
**Herkulesin böyük Merkurisi zanbaq heraldikası**
**Yeri, dənizi və ölkəni titrədəcəkdir.**

Bəzi tədqiqatçıların fikrincə katrendə söhbət 72 il ölkəni əmin-amanlıqla idarə edən Fransa kralı XIV Lüdovikdən gedir. Versal onun vaxtında tikdirilmişdi. Memarlıq abidələri ilə dünya şöhrəti qazanmış Versal 1682-1789-cu illərdə Fransa krallarının baş iqamətgahı olmuşdu. Versalda kral XIV Lüdovikin atlı heykəli, yaraşıqlı xiyabanlar, fəvvarələr, heykəltəraşlıq əsərləri, sahəsi altı

min hektar olan park ansamblı vardır. Görücü Versalı Misirin qədim Paytaxtı Menfislə müqayisə edir.

Versalla bağlı bir faktı oxucuların nəzərinə çatdırmaq istərdim. Azərbaycan Sovet Ensiklopediyasında göstərilir ki, Versal 1632-ci ildə kral XIII Lüdovik tərəfindən satın alındığı vaxt kiçik bir kənd idi. Halallıqla görülən işdən, xalq arasında deyildiyi kimi, gül iyi gələr. Gələcək nəsillərə nümunə olar. Təəssüf ki, zəmanəmizdə bir çox dövlət başçılarının halallıq barədə təsəvvürləri belə yoxdur.

Kral XIV Lüdoviklə bağlı maraqlı məlumat üçün bax: 10 k89.

### 10 k80

**Böyük krallıqda, Böyük, hakimiyyəti idarə edir.**
**Qohum kral və hersoq birləşəcəklər.**
**Böyük mis darvazalar güc hesabına açılacaqlar.**
**Liman iflic olacaq, gəmi batacaq, hava sakitdir.**

Nostradamusun ilahi vergiyə malik olmasına dəlalət edən bu diqqətəşayan katreni açmaqda bir çox tədqiqatçılar çətinlik çəkmiş, məsələdən yan keçmiş, həqiqətin izinə düşə bilməmişlər. Bəziləri katrendə 1912-ci il aprelin 14-də İngiltərədən ABŞ-a üzən möhtəşəm "Titanik" gəmisinin Atlantik okeanda qəzaya uğramasından bəhs edildiyini görmüş, lakin sətirlərin şərhində səhvə yol vermişlər. Əslində, katrenin 1-ci sətrində 300 ildən artıq dəniz və okeanlarda hökmranlıq edən İngiltərədən söz açılır. Onun suda "ağalığı" II Dünya müharibəsinin sonunadək davam etmişdi.

2-ci sətirdə söhbət İngiltərə və ABŞ-dan gedir. Məlumdur ki, Birləşmiş Ştatlar İngiltərənin ən məşhur müstəmləkəsindən yaranıb. Bu, 1773-1783-cü illər İstiqlaliyyət müharibəsinin qızğın çağında – 1776-cı ildə baş verib. İngiltərənin Yeni Dünyadakı hökmranlığına son qoyulub. Nostradamus 2-ci sətirdə kral və hersoq qohumluğundan danışanda buna işarə edir. Danılmaz həqiqətdir ki, İngiltərə və ABŞ bir millət, iki dövlətdir.

Katrenin 3-cü və 4-cü sətirlərində “Titanik” gəmisinin okeana salınmasından, Nyufoundland yaxınlığında Qrand Bənks deyilən yerdə, limandan azca aralı aysberqlə toqquşaraq qəzaya uğramasından, gəmidə olan 2224 nəfər adamdan 1513 nəfərin həlak olmasından, parça-parça olan gəminin qalıqlarının limanı iflic hala salmasından danışılır. Şahidlərin ifadəsinə görə həmin gün hava sakit, səma aydın imiş. Göründüyü kimi, Nostradamus hətta bu kiçik təfsilatı belə tam dəqiqliyi ilə izləmiş və bəyan etmişdir.

Hadisə belə olmuşdu. Dünyanın ən böyük gəmisi “Titanik” İngiltərənin Saushəmton liman şəhərindən Nyu-Yorka üzürdü. Axşam saat $9^{40}$ radələrində qabaqda üzən Mesaba gəmisindən qarşıda çoxlu aysberqlərin olması barədə məlumat alındı. Zabit Con Filip buna o qədər də əhəmiyyət vermədi. Çünki gündüz aysberqlər barədə xeyli məlumat almışdı. Başqa bir tərəfdən də zəngin sərnişinlər onun başını çox qatmışdılar. Onlar Nyu-Yorka teleqram göndərirdilər.

Gecə saat $11^{30}$-da qarşıda aysberqin olduğunu gördülər. Lakin möhtəşəm gəminin istiqamətini dəyişmək barədə 1-ci zabit Mördokun əmrinə baxmayaraq bir şey çıxmadı. Aysberqlə toqquşan “Titanik” yavaş-yavaş batmağa başladı. Həyəcan siqnalı verildi. Əlli nəfər zabit uşaq və qadınları xilasetmə qayıqlarına doldurur və Atlantik okeanının soyuq suları ilə təkbətək buraxmaq məcburiyyətində qalırdılar. “Titanik” orkestrinin ifaçıları gözlərindən yaş axa-axa məşhur və həzin “Yazıq kəpənək” musiqisini çalırdılar. Güman ki, gözləri önünə yetim qalacaq övladları gəlirdi. Həyəcan siqnalını alan “Karpasiya” gəmisi özünü yetirəndə “Titanik”in qazanxanaları artıq partlamış, qəzanın qarşısını almağa çalışan 350 nəfərdən artıq adam həlak olmuşdu. “Karpasiya” 711 adamı xilas edə bilmişdi. Xilasetmə qayıqlarında özlərini okeanın ağuşuna atan sərnişinlərdən bir çoxu donmuşdu. Deyildiyi kimi, 1513 adam həlak olmuşdu. Onların arasında gəmini tərk etməyən qocaman kapitan Edvard Smit də vardı. Bu onun son səfəri idi.

Dönən baş təqaüdə çıxmalı imiş. Gəminin layihəsini verən İsmey isə qadınları itələmiş, özünü son qayığa atmış, xilas olmuş, ancaq ömrü boyu rüsvayçı qorxaq adını daşımışdı.

Titanik faciəsini yaşayanlardan biri, fransız Mişel Navratil XXI əsrə qədər ömür sürdü. Lakin 2001-ci ilin fevral ayının 6-da "Ekspres" qəzetində "Titanik" faciəsinin canlı şahidi ilə bağlı "Titanik"dən olan son kişi də öldü" başlıqlı yazı çap olunmuşdu:

"Fransanın cənubunda 92 yaşlı professor Mişel Navratil dünyasını dəyişib. O, Fransanın Monpelye şəhərində yaşayırdı. Həmin gecə, 14 aprel 1912-ci ildə 3 yaşlı Mişel və 2 yaşlı qardaşı atalarının köməyi ilə xilas olsalar da, ataları gəmidə batır. O, "Titanik" faciəsindən sonra sağ qalan yeganə kişi idi".

Lakin Mişel Navratil "Titanik"in sağ qalan sonuncu şahidi deyildi.

Titanik qəzasını xatırlayan sonuncu şahid Lilian Gertrud Aspland idi. Boston dəfn bürosunun məlumatına görə o, 7 aprel 2006-cı ildə, 99 yaşında vəfat edib. Asplandlar ailəsi – ata, ana, dörd qardaş və yeganə bacı Lilian tarixi vətənləri İsvecdən Amerikaya qayıdırlarmış. Qəza vaxtı Lilianın atası və üç böyük qardaşı həlak olmuşdu. Anası Selma, 3 yaşlı qardaşı Feliks və o vaxt 6 yaşı olan Lilian sağ qalmışdılar. Madam Selma yerli reportyorun sualına cavab verərkən demişdi: "Soyuq idi. Uşaqlar büzüşərək bir-birinə sıxılmışdılar. Ərim Çarlz təbəssümlə dedi ki, narahat olmayın, o biri qayıqların biri ilə arxanızca gələcəyik. Çarlz əl dəsmalını yelləyərək bizi yola salırdı". Bu ayrılıq əlaməti idi.

Müxbirin yazdığına görə bundan sonra qəhər və göz yaşları Madam Selmanı boğub və danışa bilməyib. "Vorkester" qəzetinin yazdığına görə Madam Selma əri və üç oğlundan ayrıldığına görə ömür boyu özünü bağışlaya bilməyib və dünyasını dəyişdiyi 1964-cü ilə qədər – qara paltar geyib. Lilian da ata və qardaşlarının yasını tutub və bu səbəbdən heç vaxt ailə həyatı qurmayıb.

Feliks Aspland 1983-cü ildə vəfat edib. Anasının yalvarışlarına görə Lilian heç vaxt "Titanik" barədə danışmayıb. Hətta ölümqabağı vəsiyyət edib ki, dəfn mərasimində "Titanik"i yada salmasınlar.

Onu da deyək ki, "Titanik" faciəsi zamanı xilas edilən və indi İngiltərədə yaşayan iki nəfər də vardır. Lakin onları şahid adlandırmaq olmaz. Çünki qəza vaxtı Barbara Coys on aylıq, Elizabet Qleyd isə iki aylıq olub.

### 10 k81

**Xəzinə qərb vətəndaşları tərəfindən məbəddə yerləşdirildi.**
**Oradan gizli bir yerə aparacaqlar.**
**Ac-yalavaclar məbədi açdılar. Geri alındı.**
**Biabır oldular, ortada dəhşətli qənimət aşkar edildi.**

Bu katren şərh olunmamış qalır. Tədqiqatçı Ned Halli düşünür ki, katrendə söhbət Qərbə olan inamın itməsindən gedir. Qərblilərin əməlləri ilə sözlərinin düz gəlməməsi, onların iç üzlərinin açılmasına və dünyada bədnam olmalarına gətirib çıxarmışdır.

### 10 k82

**Qışqırıqlar, ağlaşma, göz yaşları qılıncla gələcək.**
**Sanki qaçırlar, axırıncı zərbəni vuracaqlar.**
**Parkalar yüksəkdən seyr edəcəklər.**
**Şiddətlə düşmən dəf ediləcək və həmin an o, öldürüləcək.**

Tədqiqatçılar bu katrenin Fransa ilə Avstriya arasında gedən müharibədən (1800-cü il) bəhs etdiyini qeyd edirlər.

1-ci və 2-ci sətirdə Marenqo yaxınlığındakı döyüşdə fransızların əvvəlcə məğlub olmasından, Avstriya hərbi hissələrinin düşmənə axırıncı zərbəni endirmək niyyətindən danışılır.

3-cü sətirdə söhbət qədim Roma mifologiyasında tale, qismət, bəxt ilahələri olan Parkalardan (Yunanlarda – Moyrı) gedir. Onların qərarlarına ən güclü Allahlar belə təsir edə bilməzmiş.

Nostradamus işarə edir ki, Parkalar fransızların tərəfini saxlayıblar.

Katrenin 4-cü sətrində general Dezenin komandanlığı ilə özünü yetirən süvari qoşun hissəsinin avstriyalıları iki tərəfdən sıxaraq geri çəkilməyə məcbur etməsindən, qalib gəlməsindən və elə həmin an general Dezenin həlak olmasından söz açılır.

## 10 k83

**Döyüş üçün işarə verilməyəcəkdir.**
**Onlar parkdan çıxmağa məcbur olacaqlar.**
**Gentin ətrafında bayraq tanınacaqdır.**
**Bütün davamçılarını güdaza verən adamın.**

Bu katren barədə fərziyyələr irəli sürsələr də, tədqiqatçılar qəti söz deməmişlər. Güman ki, katren II Dünya müharibəsi zamanı (1944) almanların Gent yaxınlığında son döyüşündən və texnikanı qoyub qaçmalarından bəhs edir.

## 10 k84

**Əbədi kəbinsiz qıza ucalıq, ucalıq, enmək yox!**
**Geç qayıdış dərdliləri sakitləşməyə məcbur edəcək.**
**Ömürboyu bütün vaxtını qalmaqalda keçirən,**
**Yola gətirilən adam yenə mübarizəsiz dayanmır.**

Bəzi Qərb tədqiqatçıları bu katrenin kraliça I Yelizavetadan bəhs etdiyini qeyd edirlər. Doğrudan da, kraliça I Yelizaveta İngil - tərəni qüdrətli dövlətə çevirmişdi.

1-ci sətirdə I Yelizavetanın heç vaxt ərə getmədiyinə işarə edilir.

Katrendə I Yelizavetanın həyatını dövlət işinə həsr etdiyi göstərilir. Onu da demək lazımdır ki, atası, kral VII Henri özü Yelizave - tanın qeyri-qanuni doğulduğunu bəyan etmişdi. Lakin ölümündən əvvəl o, Yelizavetanın onun öz qızı olduğunu elan etmiş və vəsiyyət

etmişdi ki, uşağı olmayan qardaşı Eduarddan və böyük qızı Mariyadan sonra, taxt-taca o sahib olsun. Belə də olmuşdu (bax: 10 k19).

3-cü və 4-cü sətirdə söhbət Şotlandiyanın kraliçası Mariya Stüartdan gedir. Bir çox qalmaqalların iştirakçısı Mariya 2-ci ərinin ölümündə təqsirli bilinmişdi. Odur ki, Şotlandiyada iğtişaşlar zamanı qaçaraq I Yelizavetaya pənah gətirmişdi. Lakin Londonda da intriqalara qoşulan Mariya kraliça I Yelizavetaya qarşı suiqəsddə iştirakına görə məhkəmənin qərarı ilə edam edilmişdi.

## 10 k85

**Qoca natiq büdrəməyə hazırdır.**
**Ona təzyiq göstərəcəklər ki, əsirlər verilməsin.**
**Arzusuz, ürəksiz deyilmiş sözü,**
**Qanuni olaraq dostlara həvalə etməli.**

Bir çox tədqiqatçılar hesab edirlər ki, görücü bu katrendə II Dünya müharibəsi zamanı xalqın böyük ümid bəslədiyi, I Dünya müharibəsinin qəhrəmanı, 80 yaşlı baş nazir, Marşal Petendən bəhs edir. Qocalıb heydən düşmüş Peten hakimiyyətə 1940-cı ilin may ayında almanlar Parisi tutandan sonra gəlmişdi. Almanlar bir milyondan artıq fransızı əsir edərək qara fəhlə kimi işlədirdi. Peten danışıqlar aparırdı ki, əsir edilmiş fransızları ağır işdən və hətta əsirlikdən azad etsinlər (bax: 2-ci sətir).

Təbii ki, 80 yaşlı, əldən düşmüş qoca ağır işin öhdəsindən gələ bilməzdi. Odur ki, tezliklə könüllü olaraq vəzifəsindən azad oldu və baş nazir vəzifəsinə müavinini məsləhət gördü. Nostradamus 4-cü sətirdə buna işarə edir.

## 10 k86

**Şimallıların (şimal xalqının) müşayiəti ilə**
**Avropa hökmdarı qrifon kimi gələcəkdir.**
**Qırmızıları da, ağları da hərbi dəstələrdə birləşdirəcəklər.**
**Onlar Babil hökmdarına qarşı gedəcəklər.**

Katrendə böyük görücü 1991-ci ildə NATO-nun bayrağı altında İraqa hücum edən 33 Avropa dövlətinin ordu hissələrindən və ABŞ-dan söz açır. ABŞ şimal xalqlarından biridir. "Səhrada tufan" adlı bu əməliyyatda ABŞ-ın F-16, "Stells" hərbi təyyarələri, "Apaç" helikopterləri, ingilislərin "Tornada" və "Yaquar" kimi görəni vahiməyə salan güclü hərbi texnikası həlledici rol oynamışdır. Nostradamusun vaxtında dərk edilməsi, sözlə ifadə olunması çətin olan qorxunc hərbi texnikanı görücünün qrifona – qartal başlı, aslan bədənli, qanadlı əjdahaya bənzətməsi adamı heyrətə salır. Onun başı və qanadları ABŞ-ın emblemini, aslan bədəni isə Britaniyanın emblemidir.

### 10 k87

**Böyük kral Nis yaxınlığındakı limanı tutmağa gələcək.**
**Böyük imperiyanın süqutu yerinə yetəcək.**
**Antibdə o, düyə yerləşdirəcək.**
**Dənizdə quldurluq tamamilə yox olacaqdır.**

Katren II Dünya müharibəsinin son aylarında Fransada baş verən hadisələrdən bəhs edir. Nis şəhəri Frejyus limanının yaxınlığındadır. 1944-cü ildə müttəfiq orduları döyüşə-döyüşə buraya qoşun çıxarmışdılar. 2-ci sətirdə böyük görücü Hitler Almaniyası - nın süqutundan söz açır.

4-cü sətirdə də Hitler Almaniyasından bəhs edilir. Müharibə vaxtı almanların U-sualtı qayıqları böyük təhlükə yaradırdılar. Onların qorxusundan ərzaq və hərbi sursat daşıyan gəmilər limanlara yan almaqda çətinlik çəkirdilər.

### 10 k88

**Piyada və atlılar (süvarilər) ikinci limanda olacaq.**
**Onlar dənizdən zərbə ilə hər şeyi dağıdaraq giriş açacaqlar.**
**O, Marsel limanına girəcəkdir.**
**Göz yaşları, qışqırıq və qan, heç vaxt bu qədər amerikalı olmayıb.**

Tədqiqatçıların fikrincə 1944-cü ildə müttəfiq orduları Frejyus və Marsel liman şəhəri yaxınlığına qoşun hissələri çıxarandan sonra, fransızların piyada və atlı qoşun hissələri amerikan hərbi geyimi və silahı ilə Marseldə faşistlərlə döyüşə girişmiş və onları sıxışdıraraq şəhərdən çıxarmışdılar. Nostradamus katrendə II Dünya müharibəsi zamanı ABŞ-ın böyük rol oynadığını xüsusi qeyd edir.

### 10 k89

**Kərpic divarlar sökülərək mərmərdən tikiləcək.**
**Əlli yeddi il əmin-amanlıq olacaq.**
**İnsanlara xoşbəxtlik bəxş ediləcək, akveduk təzələnəcək.**
**Sağlamlıq, bol məhsul, şirin dövran gələcək.**

Katren kral XIV Lüdovikdən bəhs edir. O, 2-ci sətirdə göstərildiyi kimi, düz 72 il Fransa taxt-tacına sahib olmuş, 57 il heç bir müharibəyə cəlb olunmadan xalq əmin-amanlıq içində yaşamışdır. Onun dövründə müharibələr və daxili çəkişmələr, demək olar ki, baş verməmişdir. Kral qurub-yaratmaq eşqilə yanırdı. Onun vaxtında dünya şöhrətli Versal sarayı, akveduklar, Atlantik okeanını Aralıq dənizi ilə birləşdirən Midi kanalı tikilmiş, yollar çəkilmişdi. Ətraflı məlumat üçün bax: 10 k79.

Kral XIV Lüdovikin gördüyü işlərin vüsətini göz önünə gətirdikcə Roma imperatoru Avqustun sözləri yada düşür: “Mən Romanı tapanda o kərpicdən idi. Mən mərmər Roma qoyub gedirəm”. Tarixçilərin yazdığına görə, həqiqətən də onun dövründə Romada böyük tikinti işləri aparılmış, ədəbiyyat yüksək inkişafa çatmışdı.

Amerikalı tədqiqatçı David S.Montaigne bu katreni düzgün şərh etməmişdir. O, göstərir ki, katren II Dünya müharibəsindən sonra keçən 57 əmin-amanlıq illərindən və 2002-ci ildə III Dünya müharibəsinin başlayacağından söz açır. Guya 2002-ci ildə tarixdə görünməmiş müqəddəs müharibə olacaqmış.

## 10 k90

**Qəddar tiran yüz dəfə öləcək.**
**Xeyirxah müdrik onun taxt-tacına sahib olacaq.**
**Bütün senat onun əlində olacaq.**
**O, ziyankar yaramaza görə əsəbləşəcək.**

Katrenin 1-ci sətrində Napoleonun Elba adasından qaçaraq 20 mart 1815-ci ildə Parisə dönməsinə və “100 gün” çəkən hakimiyyətinə işarə edilir. 18 iyun 1815-ci ildə Vaterloo yaxınlığında ingilislərə məğlub olandan sonra, onu Müqəddəs Yelena adasına sürgün etmişdilər. Napoleondan sonra taxt-taca XVIII Lüdovik sahib olmuşdu. Fransa Senatı ona çox inanırdı. Lakin sonra hakimiyyətə qardaşı X Karl gəlmişdi. Respublikaçı fanatik onun oğlunu öldürdüyünə görə X Karl özünə yer tapmırdı. Oğlu Karl de Berri taxt-taca yeganə qanuni varis idi. Görücü 4-cü sətirdə buna işarə edir.

## 10 k91

**Roma ruhaniləri, 1609-cu ildə,**
**İlin başlanğıcında sizdə seçki olacaq.**
**Bir boz və ya qara paltarlı Kampaniyadan çıxış edəcək.**
**Onun kimi hiyləgər hələ dünyaya gəlməyib.**

Kampaniya İtaliyada əyalətdir. Ola bilsin ki, buradan Roma papalığına kardinallar konklavininə kimsə seçilib. Əgər o Fransis - kanlardan olubsa – boz əbada, Dominikanlardan olubsa – qara əbada üzə çıxıb.

Məlumdur ki, 1605-1621-ci illər arası Roma Papası V Pavel olub. V Pavel 1609-cu ildə ölümcül xəstə yatıb. Hətta onun dəyiş - dirilməsi barədə məhkəmələrə müraciətlər də olubmuş. Ola bilsin ki, Papa klinik ölüm keçirdiyindən görücü onu ölmüş bilib və buna görə də seçki olacağını göstərib.

Tədqiqatçı R.Velş göstərir ki, bir çox alimlər İsa Peyğəmbərin yeni eradan əvvəl 5 və ya 4-cü ildə anadan olduğunu təsdiqləyir

və odur ki, V Pavelin seçkisi, həmin tarix nəzərə alınsa 1605-ci ilə yox, Nostradamusun göstərdiyi kimi 1609-cu ilə təsadüf edir.

**10 k92**

**Atanın gözləri qarşısında uşağı öldürüləcək.**
**Sonra ata qamışlıqdakı yola çıxacaq.**
**Cenevrə camaatı dəridən-qabıqdan çıxacaq.**
**Onlar başı kəsilmiş başçının meyitini əhatəyə alacaqlar.**

Bu katren hələlik şərh olunmamışdır.

**10 k93**

**Yeni bark səfərə çıxacaq.**
**Orada və yaxınlıqda imperiyanı təslim edəcəklər.**
**Porfirdən düzəldilmiş iki sütunun yaxınlığında,**
**Bokor, Arl girovları saxlayacaqlar.**

Bu katren Nostradamusun əvvəllər bəyan etdiklərinin davamıdır. Yeni bark – böyük yelkənli gəmi dedikdə Nostradamus Nuhun gəmisini nəzərdə tutur. Artıq göstərdiyimiz kimi, görücü sunami nəticəsində Roma, eləcə də Vatikanın su altında qalacağını qeyd etmişdir. O, göstərir ki, Roma Papası II Pyotr Papalığı Fransanın cənubunda, Rona çayı sahillərində, Arl şəhərinin yaxınlığında, keçmişdə Papalığın iqamətgahı olan Avinyon şəhərinin 25 km-də yerləşən kiçik Bokor şəhərinə köçürəcəkdir. Həqiqətən də 1309-1409-cu illər arası (1377-1379-cu illər istisna olmaqla) İtaliyada müharibələr və daxili çəkişmələr zamanı Roma Papalığı Fransanın Avinyon şəhərinə köçürülmüşdü (Maraqlıdır ki, indinin özündə belə Avinyon Papalar şəhəri kimi məşhurdur – Q.P.).

Nostradamus başqa katrenlərində (2 k93, 3 k92) bəyan edir ki, Papalığın köçü hazırkı Roma Papası XVI Benediktdən sonra Papa seçiləcək II Pyotrun vaxtında baş verəcək. Onu da bilmək maraqlıdır ki, bu hadisələr barədə ilk olaraq 1138-ci ildə Vatikanı ziyarət edən irlandiyalı müqəddəs Malaxiya və ondan əsrlərlə sonra Nostradamus söz açmışdır. Müqəddəs Malaxiyanın əlyaz-

masının əsli Vatikanda Nostradamusun ölümündən 24 il sonra, 1590-cı ildə üzə çıxarılmışdı. Deməli, görücünün həmin məlumatı müqəddəs Malaxiyadan götürdüyü barədə bəzi tədqiqatçıların fikri əsassızdır.

**10 k94**
**Nimdən, Arldan və Vyanadan nifrət yağacaq.**
**Qərbin fərmanına heç kim tabe olmayacaq.**
**Əziyyət çəkən, böyüyü mühakimə etmək istəyəcək.**
**Altı nəfər müqəddəs libasında qaçacaq.**

Tədqiqatçılar bu katrendə görücünün II Dünya müharibəsinin sonlarına yaxın Fransada müttəfiq orduları ilə alman-faşist ordu hissələrinin döyüşündən söz açdığını qeyd edirlər.

3-cü sətirdə general fon Vidersheymin müttəfiq orduları quruya çıxarılarkən vaxtında hücum əmri almadığına görə (Hitler yatdığına görə ona vaxtında məlumat verilməmişdi) açıqca tənqid və mühakimədən çəkinməmişdi.

**10 k95**
**İspaniyaya çox qüdrətli kral girəcək.**
**Dənizdən və qurudan qızıl Cənubu özünə tabe edəcək.**
**Bu bəla Ayparanın nüfuzuna xələl gətirəcək.**
**Qanadlarını Cümə xalqının üstünə gərəcək.**

XIX əsrin əvvəllərində Napoleon İspaniya, İtaliya və eləcə də müstəqil Sardiniya və Siciliya krallıq və hersoqluğunu zəbt edən - dən sonra böyük ordu ilə Misirə yollanmışdı. 1798-ci ildə İskəndəriyyə və Qahirəni tutmuşdu.

3-cü sətirdə Osmanlı imperiyasından – türklərdən bəhs edilir. Misir o vaxtlar Osmanlı imperiyasının tərkibində idi. Ona görə də Türkiyə Fransaya müharibə elan etdi (1798-ci il, sentyabr). Rusiya və Böyük Britaniya ilə müttəfiqlik haqqında müqavilə imzaladı (1799, yanvar). Napoleonun Əbukir (1799, 25 iyul) və Geliopol (1800, 20 mart) ətrafındakı qələbələrinə baxmayaraq, Suriya səfə -

rindəki müvəffəqiyyətsizlik (1799, 21 may) və Aralıq dənizində rus eskadrasının əməliyyatları fransız ordusunun mövqeyini zəiflətdi. Və nəhayət 1801-ci ilin martında İskəndəriyyə yaxınlığında türklərə məğlub olduqdan sonra Fransa təslim haqqında saziş imzalamağa məcbur oldu. 1801-ci ilin sentyabrında fransız qoşunlarının qalıqları Misiri tərk etdi. Və beləliklə, görücünün 4-cü sətirdə bəyan etdikləri yerinə yetdi.

4-cü sətirdə yer alan "Cümə xalqı" – Cümə günü istirahət edən, hamılıqla Cümə namazına gedən müsəlmanlardır. Katrendə göstərilənlər də bunu təsdiqləyir.

**10 k96**

**Elan olunmuş din okeanları aşacaq.**
**Adalunkatifin oğlunun təriqətinə qarşı çıxacaq.**
**İnadcıl, yararsız təriqət qorxudulacaq.**
**Hər iki yaralanmış Əlif və Əlif tərəfindən.**




*Qustav Eyfel*



*ABŞ-ın azadlıq simvolu*

Bu katren barədə tədqiqatçılar fərziyyələr irəli sürərək onun ərəb terrorçularından bəhs etdiyini sübuta çalışmışlar. Əslində, görücü yeni dinin, yeni təriqətin meydana gələcəyindən söz açır. Lakin bu yararsız təriqət (3-cü sətir) Xristian və Müsəlman dinlərinə az-çox ziyan vursa da, onların qarşısında tab gətirə bilməyəcəkdir.

Nostradamusşünasları ən çox düşündürən katrenin 4-cü sətridir. "Əlif və Əlif" onları çaş-baş salmışdır. Hər şeydən əvvəl onu de -

yək ki, görücü çox aydın şəkildə qeyd edir ki, inadcıl və yararsız təriqət hər iki "Əlif" qarşısında qorxuya düşəcək. Bizə belə gəlir ki, Nostradamus 4-cü sətirdə Xristian dininin yaradıcısı yəhudilərə və İslamın yaradıcısı ərəblərə işarə edir. Hər iki xalqda əlifba "Əlif" hərfi ilə başlayır.

Ola bilsin ki, bu yeni müjdəçi 1999-cu il avqust ayının 11-də anadan olmuşdur. Nostradamus bir katrenində (10 k72) buna işarə edir.

## 10 k97

**Hərb gəmiləri hər yaşdan olan əsirlərlə dolu olacaq.**
**Vaxt yaxşıdan pisə, şirindən acıya işləyəcək.**
**Onlar barbarlara can atırlar, tezliklə gələcəklər.**
**Tüstü sütununu görmək üçün küləkdən qanad istəyəcəklər.**

Qərb tədqiqatçıları göstərirlər ki, bu katrendə söhbət həm müsəlmanların, həm də xristianların əsir edilərək hərbi gəmilərdə avarçəkən kimi istifadə edilməsindən gedir. Doğrudan da, yelkənli gəmilərdə qul kimi istifadə edilən belə adamları yalnız qarşı tərəfin hücumu xilas edə bilərdi. Biz əvvəldə (2 k79) 1571-ci ildə Don Xuan Avstriyskinin türk donanmasına qəfil hücum edərək 1500 xristian əsirini azad etdiyindən söz açmışdıq. Osmanlılar da dəfələrlə xristian gəmilərinə hücum edərək avarçəkən müsəlmanları azad etmişdi.

Katrendə qul halına salınmış adamların taleyindən bəhs edilir.

## 10 k98

**Dəbdəbəli zinətin parıltısı şən qız üçün**
**Daha parlamayacaq, çünki uzun müddət o, zövqsüz olacaq.**
**Alverçilərlə, avaralarla, murdar canavarlarla,**
**Hər şey bir-birinə qarışacaq, ümumdünya dəhşətinə çevriləcək.**

Le Pelletye bu katrendə söhbətin "şən qız", Fransız inqilabının simvolu olan, əxlaqsızlığına görə III Napoleonun rədd etdiyi Mariannadan

getdiyini xüsusi vurğulayırdı. Nyu-Yorkda qoyulan "Azadlıq heykəli" də azadlıq sevən Mariannanın surəti əsasında yaradılmışdır.

Demək lazımdır ki, katrendə söhbət hər şeyi öz nöqteyi-nəzəri, öz maraqları çərçivəsində ölcüb-biçən müasir ABŞ-dan gedir.

4-cü sətirdə Nostradamus ABŞ-ın öz siyasəti ilə planetimizi ümumdünya fəlakətinə sürüklədiyinə işarə edir.

"Azadlıq heykəli" ilə bağlı bir neçə katrendə söhbət açdığımızdan bu abidə haqqında məlumat verməyi lazım bildik. Heykəli fransız heykəltəraşı Frederik Oqyusta Bartold düzəltmişdir. Fransada hazırlanan heykəlin dəmir konstruksiyası 125 ton, heykələ işlənən bürünc isə 31 tondur. Heykəl 27 min ton sement işlənmiş özül üzərində qoyulub. Bu möhtəşəm bürünc heykəlin mühəndisi məsələləri sonralar məşhur Eyfel gülləsini yaradan Qustav Eyfelə həvalə olunmuşdu. Nyu-Yorkun Azadlıq adasında qoyulan heykəl "ABŞ-ın simvolu", "Azadlıq və demokratiyanın simvolu", "Azad qadın" kimi də tanınır. Heykəl ABŞ-ın İstiqlaliyyətinin 100 illiyinə – 1876-cı ilə hazır olmalı idi. Lakin maliyyə çətinlikləri maneə törətmişdi. Heykəlin açılışı 28 oktyabr 1886-cı ildə olmuşdu. Başı taclı Azadlıq ilahəsi sağ əlində məşəl, sol əlində isə lövhəcik tutur. Lövhəciyin üstündə ABŞ-da İstiqlaliyyət bəyan olunan tarix yazılmışdır: "July IV MDCCLXXVI" – 4 iyul 1776. Heykəlin hündürlüyü 93 metrdir. Onun başına çatmaq üçün 354 pillə qət etmək lazım gəlir. Hər gün yüzlərlə, minlərlə turist və ekskursiyaya gələnlər tacda qoyulmuş 25 pəncərədən Nyu-Yorka tamaşa edir.

Taledən gələn qismətdir ki, onların arasında oxucuya təqdim edilən bu kitabın redaktoru, akademik Bəkir Nəbiyev (1998) və kitabın müəllifi Qəzənfər Paşayev (1983) də olmuşlar.

### 10 k99

**Canavarın, Şirin, Öküzün, Uzunqulağın sonu çatacaqdır.**
**Qorxaq maral gözətçi itlərlə birgə olacaq.**
**Onlara bundan dadlı yemək olmayacaq.**
**İtlərə qarşı daha çox sayıqlıq və müdafiə tələb olunur.**

Canavar – İtaliyanın, şir və gözətçi it –İngiltərənin, buğa –İspaniyanın, uzunqulaq –ABŞ-ın Demokratlar partiyasının, maral – Polşanın, canavar – Almaniyanın rəmzidir (bax:5 k4). Tədqiqatçıların fikrincə katrendə görücünün bəyan etdikləri gələcəkdə baş verəcəkdir.

Bəlkə də katrendə dövlətlərin məhvinə deyil, gələcəkdə birləşəcəklərinə işarə edilir. "Avropa Birliyi" deyilənlərə dayaq olur. Əgər əvvəllər dövlətlər hərbi sahədə birləşirdilərsə, indi artıq onlar iqtisadi, siyasi, texniki, elmi, mədəni və eləcə də hərbi cəhətdən birləşirlər. Bu bəşəriyyət tarixində görünməmiş bir məsələdir.

Bununla belə, 1-ci sətirdə adı keçən dövlətlərin də tərəqqidən düşəcəklərinə işarə edilir. Tarix öyrədir ki, imperiyalar gücləndikcə, genişləndikcə, başqa xalqların qanını sorduqca zəli kimi şişir və bu minvalla onların süqutu yaxınlaşır.

### 10 k100

**İngiltərədə Böyük İmperiya yaranacaqdır.**
**Qüdrətli dövlət 300 il dənizdə hökmran olacaqdır.**
**Böyük qüvvələr sudan və qurudan keçəcəklər.**
**Luzitaniyalılar bundan narazı qalacaqlar.**

Böyük görücünün katrendə bəyan etdikləri həqiqətən də yerini alıb. İngiltərə XVII əsrin ortalarından XX əsrin 50-ci illərinədək 300 il dənizdə hökmranlıq etmişdir. Portuqaliya və İspaniya kimi əvvəllər dənizdə hegemon olan dövlətlər get-gedə ikinci plana keçmişdilər. 1588-ci ilin iyul ayında ingilis hərbi-dəniz donanması ispanları ağır məğlubiyyətə uğratdıqdan sonra, dənizdə İngiltərənin üstünlüyü qətiləşdi. Həmin döyüşdə ispanlar 10 min nəfərdən artıq döyüşçü və 67 gəmi itirmişdi.

Tədqiqatçıları İngiltərənin qüdrətli dövlətə çevrildiyi tarix həmişə düşündürmüşdür. Lakin elə bu katrenin davamı olan sonrakı katrenə ($10^{k}$ $100^{a}$) əməlli diqqət yetirsəydilər, görərdilər ki, 300

il dünyaya meydan oxuyan İmperiyanın təməl daşı 1607-ci ildə Verciniyada yaradılmış müstəmləkə ilə qoyulmağa başlamışdı. Bu vaxta qədər Amerikanı özününkü hesab edən, Mərkəzi və Cənubi Amerikada, Karib dənizi və Sakit okeanı hövzələrində çoxlu müstəmləkələri olan İspaniya və Portuqaliya narazı qalmış, təbii olaraq narahatlıq keçirməyə başlamışdılar. 4-cü sətirdə görücü buna işarə edir.

4-cü sətirdə açıqlanmasına ehtiyac duyulan Luzitaniya sözü vardır. Luzitaniyalılar ta qədim zamanlardan İberiya yarımadasında yaşayan iberiyalılardır. Nostradamus onları həm ispanlara, həm də portuqaliyalılara aid edir.

### 10 k100[a]

**Altı yarımbədən və altı açıq qayçı,**
**Haça budağa iki dayaq olanda,**
**Son dərəcə qüdrətli lord, qurbağanın varisi,**
**Bütün dünyanı özünə tabe edəcək.**

Tədqiqatçılar bu katreni şərh etməkdən çəkinmişlər. Əslində, bu, əvvəlki katrenin (10 k100) davamıdır. İki haça budaq – iki ada Britaniyadır. Böyük Britaniya (İngiltərə, Şotlandiya, Uels) və İrlandiya.

Katrenin 1-ci və 2-ci sətirlərini nostradamusşünaslar rum rəqəmlərinə arxalanaraq açmışlar. İki budaq – V, iki dayaq – M, altı yarımbədən – C (100), altı açıq qayçı–X rəqəmləri bərabər olur: MCCCCCCXXXXXX. Bu isə 1660 edir. Bununla belə, tədqiqatçılar katrenin İngiltərədən bəhs etdiyini dərk etməmişlər. Göründüyü kimi, İngiltərənin dənizdə hökmranlığı və ölkələri fəth etməsi 1660-cı ildən başlayıb. Əvvəlki katrendə görücü İngiltərənin dənizdə hökmranlığının 300 il çəkəcəyini göstərib (10 k100). Beləliklə, 1660 üstünə 300 gələndə 1960 edir.

II Dünya müharibəsindən sonra İngiltərə Hindistan, Pakistan (1947-ci il) və bir çox başqa müstəmləkələrini, Kanada, Avstraliya və s. kimi dominionlarını dalbadal itirdi. İngiltərənin son müstəm-

ləkəsi Kipr isə 1960-cı il avqust ayının 12-də müstəqil elan edildi və böyük görücünün bəyan etdikləri tam dəqiqliyi ilə yerini aldı.



Burada diqqəti çəkən bir məsələni də xüsusi vurğulamaq istərdik.

Tarixin və ya rəqəmlərin Rum rəqəmi ilə göstərilməsi bütün əsrlərdə və indinin özündə də tez-tez baş verir. ABŞ-da İstiqlaliyyət günü münasibəti ilə ucaldılmış “Azadlıq heykəli”nin sağ əlində məşəl, sol əlində lövhəcik vardır. Lövhəciyin üstündə həkk olunmuşdur: “July IV MDCCLXXVI” – 4 iyul 1776.

Nostradamusa həsr olunmuş kitabların bir çoxunda da eyni məsələni müşahidə edirik. Hətta Tereza Moreyin cəmisi 79 səhifəni əhatə edən “Nostradamus. Başlayanlar üçün bələdçi” (ingiliscə, Koventri, İngiltərə, 2000) kitabında da bütün katrenlər rum rəqəmi ilə göstərilmişdir. Məsələn: Senturiya II, katren XLVI-46 (s. 55), Senturiya X, katren LXVII-67 (s.52) və s.

Rusiya və Belorusiyada çıxan bəzi kitablarda da eyni halla üzləşirik – N.V.Belov. Böyük Nostradamusun görücülüyünün sirləri (rusca), Minsk, 1999, s.194-411; Y.Avadyayeva. Mişel Nostradamusun görücülüyünün şərhləri (rusca), Moskva, 1999, s.5-356.

Azərbaycan oxucusunun rum rəqəmlərinin oxunmasına adət etmədiyindən burada onluqların, eləcə də yüz, beş yüz və min rəqəmlərinin yazılışını verməyi lazım bildik.

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| X, | XX, | XXX, | XL, | L, | LX, | LXX, | LXXX, | XC, | C, | D, | M, |
| 10 | 20 | 30 | 40 | 50 | 60 | 70 | 80 | 90 | 100 | 500 | 1000. |

# XI SENTURİYA (XI YÜZLÜK)



***Mənim əvvəlcədən xəbər verdiklərim yerinə yetdikcə, insanlar bəyan etdiklərimin dəqiqliyinə əmin olacaqlar. Baxmayaraq ki, doğru sözlərim müəmmalı və dumanlı pərdə arxasında gizlədilmişdir, ağıllı və təbli adamlar onları başa düşəcəklər.***

T

## 11 k91

**Mesnye, Manti və gələcək üçüncü adam,**
**Taun və yeni təhqir, bağlı sahəni narahat edəcəkdir.**
**Eks və ətraf yerlərdə qeyzlənərək bir-birlərini didəcəklər.**
**Onda fokiyalılar onların qəzəbini ikiqat artırmağa gələcəklər.**

əzi tədqiqatçılar bu katrenin II Dünya müharibəsi zamanı Fransada baş verən döyüşlərdən bəhs etdiyini göstərirlər.

## 11 k97

**Vilfranşla Makonda qarışıqlıdır.**
**Əsgərlər tayaların içində gizlənəcəklər.**
**Baharda kral üçün vaxt dəyişəcək.**
**Şalon və Mulində hamını qılıncdan keçirəcəklər.**

Bu katrendə də II Dünya müharibəsindən bəhs edilir.

3-cü sətirdən aydın olur ki, burada söhbət 1945-ci ilin baharından gedir. Həmin vaxt Almaniyanın kansleri Adolf Hitler son günlərini yaşayırdı.

# XII SENTURİYA (XII YÜZLÜK)

***Mən indiki zamandan keçmişə və gələcəyə baş vuraraq katrenlərdə təsvir etdiyim, gələcəkdə bütün ölkələrdə baş verəcək hadisələrin vaxtını dəqiqliklə hesablamışam. Lakin həqiqəti taxt-tac sahibi olanlardan gizlətmişəm.***

## 12 k4

**Od, alov, aclıq, hiylə, vəhşilik, təşviş,**
**Labüd yer alacaq, zor gücü ilə əqidə saxtalaşdırılacaq.**
**İtaliyanın övladı, Dantenin oğlu üçün bütün Provans mənimsənildi.**
**Krallıqdan qovulmuş, qəzəbini udmuşdur.**

ədqiqatçılar bu katren barədə müxtəlif fərziyyələr irəli sürsələr də, qəti fikir söyləməkdən çəkinmişlər. Bəzi tədqiqatçılar hətta belə bir fərziyyə irəli sürmüşlər ki, görücünün oğlu Sezar və ya tələbəsi Şavinye katrendə dəyişikliklər ediblər. Leoni isə ümumiyyətlə katrenin Nostradamusun aylıq və ya illik almanaxından götürüldüyünü qeyd edir.

Məlum olan odur ki, katrenin 1-ci və 2-ci sətirləri italiyalı Dante Aliqerinin (1265-1321) İlahi komediyasının "Cəhənnəm" fəsli ilə səsləşir.

Tərəfimizdən onu da əlavə edək ki, bu katrenin 1-ci və 2-ci sətirlərindəki bütün sözlər həm fransız, həm də ingilis dillərində "f" hərfi ilə başlayır. Horoskopa oxşayan belə katrenə Nostradamusun başqa senturiyalarında təsadüf edilmir.

## 12 k24

**Qiyendən böyük kömək gələcək.**
**Puatyenin lap yaxınlığında dayanacaq.**
**Monlüyel və Vyana təslim edilmiş Lionu**
**Və hər yeri silahlı adamlar qarət edəcəklər.**

Katren 1944-cü ilin avqust ayında müttəfiq orduların Lionu 19-cu alman ordusundan azad etməsindən bəhs edir. 19-cu alman ordusu bu döyüş zamanı böyük itkilərə məruz qalmışdı. Onlar Lionu təslim edərək Monlüyel və Vyanaya tərəf geri çəkiləndə həlak olanlardan əlavə, almanların 20 mindən çox əsgər və zabiti əsir düşmüşdü.

## 12 k36

**Kiprə şiddətli hücum hazırlanır.**
**Gözüm yaşla dolur, çünki sənin də axırın çatır.**
**Vizantiya donanması və mavrlar böyük itki verəcək.**
**Hər iki tərəfdən itki, qayada (adada) böyük viranəlik.**

Katrendən çıxış edərək deməliyik ki, 1570-ci ildə sultan II Səlimin əmri ilə Osmanlı donanması mavritaniyalılarla birgə 60 min döyüşçü ilə Kiprə hücum etmişdi. O vaxta qədər Kipr Venesiyaya aid idi (1489-1571). Aralıq dənizinin ortasında qayalıqlarda yerləşən Kipri almaq asan deyildi. Lakin 45 günlük mühasirədən sonra Nikosiya təslim oldu. Az sonra Famaqusta şəhəri də təslim olmuşdu. Osmanlılar əvvəlcə adada ordu hissələri saxlayırdılar. Lakin sonralar buraya mülki əhali də köçürülmüşdü. Odur ki, indi Kiprdə yunanlar da, türklər də yaşayırlar.

Kipr 1914-cü ilin noyabrında Böyük Britaniyaya ilhaq edilmiş, 1925-ci ildə ona ingilis müstəmləkəsi statusu verilmiş, 1960-cı ilin avqust ayının 12-də azadlıq qazanmışdı.

Katrenin 4-cü sətri də XX əsrdən bəhs edir. 1974-cü ilin iyulunda irticaçı yunan zabitləri hökumətə qarşı qiyam qaldırdılar. Onlar hakimiyyəti ələ alaraq türk icmasına qarşı terrora başladılar.

Heç kimin gözləmədiyi halda, gecəykən türk ordu hissələri adaya çıxarıldı. 4-cü sətirdə görücünün bəyan etdikləri həqiqətə

[1] Con Houq. Nostradamus. Külliyyatı (ingiliscə). Uels, 2001, səh.846; Göstərilən əsər (rusca), Moskva, 1999, səh.758-759.

çevrildi. Türk ordusu ada ərazisinin 40%-ni tutdu və “Kipr Federativ türk dövləti”ni yaratdı. Sonralar Beynəlxalq təşkilatlar və Türkiyə adada Federativ yunan-türk dövlətinin yaradılması barədə məsələ qaldırsa da, adanın yunan icması referendum keçirərək bu təklifi qəbul etmədi (2005).

### 12 k52

**İki korpus, bir komandir, göllər ikiyə bölünüb.**
**Və sonra eşidilməmiş dörd nəfərə cavab vermək,**
**Kiçiklər böyüklər üçündür, onlar ədavəti yox etmək üçündür.**
**Eqü qülləsində ildırım, Essui üçün lap pis olacaq.**

Katrendə görücü yenə də II Dünya müharibəsinin sonlarında Fransada baş verən döyüşlərdən söz açır. Burada müttəfiq orduların 1944-cü ilin avqustunda “Draqun” əməliyyatı zamanı 1000 hərbi gəminin, 3000 hərbi təyyarə və ordunun 19-cu Alman ordusunun 85 və 62-ci korpuslarına qarşı apardığı qanlı döyüşlərdən bəhs edilir.

### 12 k55

**Acınacaqlı Sovetlər, xəyanətkar, hiyləgər,**
**Qərəzli məsləhət, Mor (Tomas Mor) qanununa xəyanət,**
**Xalq qəzəblənəcək, həyəcanlanacaq, çaxnaşma düşəcək.**
**Belə ki, kənddə də, şəhərdə də, dünyada sülhə nifrət edəcəklər.**

Katrendə Sovet İttifaqının süquta üz tutduğu son illərdən bəhs edilir.

Bu katren barədə görkəmli nostradamusşünas alim Con Houqun yazdıqlarını verməklə nəticə çıxarmağı oxucuların ixtiyarına buraxırıq. Tədqiqatçı yazır: “Katren Mixail Qorbaçovun Sovet İttifaqını dağıtmasının nəticələrini təsvir edir. Soyuq müharibənin bitməsi və Sovet İttifaqının süqut etməsi, sinifsiz cəmiyyət xülyasına son qoydu (2-ci sətirdə görücü buna işarə edir) və Rusiyada cəmiyyətin təbəqələşməsinə gətirib çıxartdı. Ola bilsin ki, gələ-

cəkdə Rusiyada azğın monarxist, bəlkə də ondan da pis diktator peyda oldu. I Dünya müharibəsindən sonra Hitler meydana gəldiyi kimi, Rusiyada da müharibə qızışdıran diktator siyasi meydana çıxa bilər...

Kommunist sistemini dağıtmaq barədə öz qərəzli məsləhətləri ilə Qorbaçovu şirnikləndirən ABŞ prezidentləri Ronald Reyqan və Corc Buş (ata) olmuşlar. Qorbaçovda rəhbərlik keyfiyyətinin olmaması Sovet sisteminin süqutuna gətirib çıxardı...

Qorbaçovun ucbatından nisbətən sakit keçən soyuq müharibə hərc-mərclik və faciə ilə əvəz olundu. İnanmıram ki, bu "xidmət - lərinə" görə ona təşəkkür etmək olar.[1]

### 12 k56

**Kral krala, hersoq şahzadəyə qarşı çıxacaq.**
**Bir-birinə nifrət, dəhşətli ədavət.**
**Qəzəb və hiddət hər vilayətdə baş verəcək.**
**Fransada böyük müharibə, dəhşətli dəyişikliklər.**

Katren Fransada katoliklərlə hugenotlar arasında baş verən və az qala yarım əsrədək davam edən yeddi dini müharibədən (1559-1598) söz açır.

Dini müharibələrə kral IV Henri son qoydu. Əvvəllər hugenot məzhəbinə qulluq edən Navarralı Henri Fransanın kralı olmaq naminə katolikliyi qəbul etdi və 1598-ci ildə Nant fərmanını imzala - yaraq dini müharibələrə son qoydu. Həmin fərmana görə katoli - sizm ölkədə hakim din elan edildi. Hugenotlara isə etiqad azadlığı verildi.

### 12 k59

**Razılıq və sülh tamamilə pozulacaq.**
**Dostluq murdar ikitiriliklə əvəz olunacaq.**
**Nifrət güclənmişdir, inam əxlaqsızlıqla əvəz olunub.**
**Və ümid yeri Marselin bunlara razı olmamasıdır.**

Tədqiqatçılar bu katrenin də Fransada dini müharibələrdən bəhs etdiyini qeyd edirlər.

### 12 k62

**Müharibələr, çəkişmələr, Bluada müharibə və çaxnaşmalar.**
**Müxtəlif gözətçilər, gözlənilməz etiraf.**
**Şato-Trompa daxil olmaq, təhqir.**
**Təqsirkarlar Şato-dü Ha-dakılar olacaq.**

Bu katren III Dini müharibədən (1568-1570) bəhs edir. Kral sarayında hugenotların başçıları şahzadə de Konde və admiral Kolinini oğurlamaq barədə plan hazırlanmışdı. Kral IX Karl qardaşı hersoq Anjuyskini – gələcəkdə kral olacaq III Henrini bu məqsədlə ordu ilə Bordoya göndərir. Hugenotlar ordunun qəfil gəlişindən çaşbaş qalırlar və Bordonun yaxınlığında – Jarnakda məğlub olurlar. Şahzadə de Konde döyüş zamanı həlak olur. Hersoq Anjuyski hugenotları təqib edərək tam qələbə çalmaq əvəzinə, qazandığı qələbəni eyş-işrətlə qeyd etməklə məşğul olub. Görücü 4-cü sətirdə buna işarə edir.

### 12 k65

**Qalanı əldə saxlamaq üçün o, qorxutmaqla məcbur edəcək,**
**Hamını lərzəyə salacaq. Lanqoq, dəhşətli varid olma,**
**Bir zərbəyə min zərbə ilə cavab verəcəklər.**
**Qirond, Qaronna heç vaxt belə təlatümlü olmamışdır.**

Bu katren də XVI əsrin 2-ci yarısında Fransada baş verən dini müharibələrdən bəhs edir.

### 12 k69

**Savoya yaxındadır – Cenevrə gölündən uzaqlaşmışdır.**
**Olduqca böyük hazırlıq, qayıdış, çaşbaşlıq.**
**Yaxın qohumlardan (əmioğlu, dayıoğlu, bibioğlu, xalaoğlu) uzaqda,**
**Supelmanın odu. Bütün onların ardıcılları.**

Bu katren barədə tədqiqatçılar müxtəlif fərziyyələr irəli sürsələr də, qəti söz deməkdən çəkinmişlər.

**12 k71**

**Çaylar qəzəb axınını azalda bilər.**

**Qəzəbin köhnə od-alovu hələ sönməmişdir.**

**Fransada şayiə kimi tez yayılacaq.**

**Evlər, malikanələr, saraylar məhv olmuş, təriqətlər götürülmüşdür.**

Nostradamusşünas Peter Lemesurier katrenin ölkəni xarabazara çevirən dini müharibələr və onların başa çatmasından bəhs etdiyini göstərir. 1598-ci ilin aprel ayında kral IV Henri Nant şəhərində Fransada dini müharibələrə son qoymaq barədə fərman imzaladı. Tarixdə Nant Fərmanı adı ilə məşhur olan fərmana görə ölkədə katolisizm hakim din elan edildi. Eyni zamanda hugenotlara etiqad azadlığı verildi. Lakin Roma kilsəsi hugenotlara bunu da çox gör - dü. 1685-ci ildə kral XIV Lüdovik Roma Papasının təzyiqi ilə Nant Fərmanını ləğv etdi.




***Nostradamusun bu portretini oğlu, görkəmli alim Sezar çəkmişdir***

# ƏLAVƏLƏR



***Ola bilsin ki, uzunmüddətli görücülüyümə kimsə ağız büzəcək, hiddətlənəcək. Ancaq Yaradanın insana verdiyi ömürdən çox-çox uzun bir ömür yaşasaydın, öz gözlərinlə görərdin ki, gələcəkdə baş verəcək hadisələr təkcə sənin vətənin Fransada deyil, bütün Yer kürəsində necə yerinə yetəcəkdir.***

**Oğlu Sezara məktubundan**

## SEZARA MƏKTUB
## Uzun ömür və səadət təmənnası ilə atası Nostradamusdan

Oğlum Sezar, sənin dünyaya belə gec gəlişin məni qələmə sarılmağa vadar etdi. Yuxusuz keçirdiyim uzun gecələrin ilhamlı anları ilə bağlı yazılı vəsiyyətnamə qoydum ki, həm atandan sənə xatirə qalsın, həm də insanlara gərəkli olsun. Mən İlahidən gələnləri kağız üzərinə köçürürəm. Bu həqiqət mənə planetlərin hərəkəti və ulduzların sayrışması ilə aşkar olub. Yaradanın mərhəməti böyükdür. Mənim bu yaşlı çağımda sən onun istəyi ilə dünyaya gəldin. Lakin sənin həyat yolun hələlik çox qısadır. Neçə-neçə illər üst-üstə gəlməyib. Buna görə də Kainatın mənə ahıl vaxtımda aşkarlanan sirlərini sənin hələ zəif olan ağlın kəsməz. Mən gizli olan şeyləri kağıza etibar etməkdən çəkinirdim. Mən əvvəlcə qardaş qırğınına səbəb olan müharibələr, dövlətlərin və partiyaların məhvi, xalqların tərki-vətən olması, zalım hökmdarların vəhşilikləri barədə yazılı iz qoymaq istəmirdim. Axı, baş verəcək hadisələr barədə xəbər onların özlərindən daha qorxulu görünə bilər. Bu yandan da fikirləşdim ki, təhlükə barədə gələcək nəsillərə məlumat verilməsə, nəticə daha ağır olar. Uzun sürən şübhə və tərəddüddən sonra görücülüyümü, oğlum, sənin və gələcək oxucularımın bu kitabda rast gələcəyi tərzdə

bəyan etməyə qərar verdim. Qədim romalılar deyiblər: "Anlayana işarə kifayət edər". Elə mən də bu fikirdəyəm. Əsrlərin arxasından başa düşən və savadlı adamlara müraciət edirəm. Onların ağlı-zəkası imkan verəcək ki, eyham və axıra qədər deyilməmiş fikirlərimi duysunlar və həqiqəti dərk edə-edə oxusunlar. Gələcəyimiz qeyri-müəyyən və dumanlıdır. Çünki o Yaradanın iradəsi ilə bağlı məsələdir. Bunu Yaradan bizə irəlicədən xəbərdarlıq və ya ruhi ehtirasla deyil, ulduzlar, səma cisimləri vasitəsilə çatdırır. Yalnız uca Tanrıdan ilhamlananlar gələcəyi görür və onlar ilahi vergiyə malik olurlar. İlahi vergi həyatımı çulğadı və mən Yaradanın iradəsi ilə cuşa gələrək hadisə baş verməmişdən çox-çox əvvəl nəyin və açıqca harada baş verəcəyini görmüşəm. Mən dünyanın müxtəlif guşələrində sonralar baş verəcək səadətli və acınacaqlı hadisələri əvvəlcədən xəbər vermişəm. Tanrının iradəsi ilə indi mənim nitqim tutulub. Ona görə də məcburam ki, zəmanəmizdə, eləcə də gələcəkdə baş verəcək daha çox hadisələri kağıza etibar edib köçürüm.

Dövlətlər, dinlər, respublikalar elə köklü dəyişikliklərə məruz qalacaqlar ki, bu, bəzən indiki dövrün tam əksinə olacaq. Əgər mən onların gələcəyini açıb göstərsəydim, müxtəlif məzhəblərə qulluq edən bu dövlətlərin ixtiyar sahibləri mənim əvvəlcədən xəbər verdiklərimi yalan və böhtan kimi pisləyər, vaxt keçdikcə yerinə yetən, insanların görüb inanacaqları hadisələri lənətləyərdilər. Buna görə də İsa peyğəmbərin dediyi: "Ziyarətgahları köpəklərə tapşırmayın. Onları acıqlandırmayın ki, müqəddəs yerləri tapdalayaraq dönüb sizi parçalasınlar" kəlamını rəhbər tutaraq qərara gəldim ki, baş verəcək hadisələri açıqca göstərməkdən vaz keçim və gizli sözləri kağıza etibar etməyim. İstəmədən ilk qərarımı dəyişmək məcburiyyətində qaldım. Yaxın və uzaq gələcəkdə baş verəcək hadisələri anlaşılmaz və müəmmalı ifadələrlə verməli oldum. İnsan qəlbi zəif və köməksiz olduğundan deyilənlər yerini aldıqda böyük sarsıntı keçirir. Onun sakitliyini gələcəkdə baş verəcək həyəcanlı mənzərələrlə pozmamaq üçün bütün yazdıqla-

rımı dumanlı və eyhamla vermişəm. Mən həqiqəti qüdrətli və taxt-tac sahibi olanlardan gizlətmişəm. Məni yalnız seçilmişlər və bəsirətli adamlar başa düşəcəklər.

İnsan görücülük qabiliyyətini əzəli və əbədi Tanrının mərhəməti, iradəsi və onun mələklərinin köməyi ilə əldə edir. Yalnız Yaradanın mərhəməti uzaq cisimləri və uzaq gələcəyi dərk etməyə imkan yaradır. Çünki Tanrının iradəsi xaricində heç nə baş vermir. Yaranmışların qəlbinə günah və rəzalətlər yol tapana qədər Tanrının öz bəndələrinə mərhəməti sonsuz olur. Ruhülqüds bəndələrinə iltifat göstərir və gələcəyi görmənin ziyası günəş şüası kimi bizi isidir, istər sadə, istərsə də mürəkkəb olsun, bütün maddi aləmi həyata sövq edir, oyadır. İnsan isə biliyi yalnız kitablardan əxz etdiyinə və fitri istedada əsaslandığına görə Yaradanın gizli sirlərini dərk etmək iqtidarında deyildir. Çünki müqəddəs kitablarda yazılmışdır: "Dövr, müddət və möhlətin sizə aidiyyəti yoxdur". Bununla belə, zəmanəmizdə seçilmişlər də vardır ki, İlahi onlara elə təxəyyül bəxş etmişdir ki, Yaradanın iradəsi ilə onlar gələcəyin bəzi sirlərini səma cisimlərinin köməyi ilə açmağa qadirdirlər. Əvvəllər olduğu kimi, necə ki, alov oddan törəyir, ilahi qüdrət də səma cisimlərindən törəyir və Tanrının iradəsi ilə ilahi və dünyəvi ilham meydana gəlir. Ümumiyyətlə, gözəl vəhylər İlahinin iradəsi ilə, bəşəri əməllər mələklərin iradəsi ilə, rəzil işlər isə şeytanların iradəsi ilə baş verir.

Oğlum, mənim sözlərim anlaşılmaz və ikimənalıdır. Buna baxmayaraq, vəhylə gələn görücülüyü insan sadə dillə izah edir, bəlağətli nitqi isə artıq yük kimi bir yana qoyur. Ona görə ki, Yaradanın sözləri anlayan üçün sadə və aydındır.

Oğlum, ola bilsin insanlar sənə deyəcəklər ki, mən Peyğəmbər olmuşam. Lakin bu yüksək ad həqiqətə uyğun deyil. **İndi Peyğəmbər adlandırılanlar əvvəllər görücü, münəccim, bilici, baxıcı adlanırdılar.** Peyğəmbər o şəxsdir ki, adi insan gözü görməyən məsələləri görür. Peyğəmbərə, şübhəsiz, Yaradanın iradəsi

və vəhyin nuru ilə ilahi və dünyəvi həqiqətlər məlum olur. Lakin bu, Peyğəmbərin yalnız öz zəmanəsinə aid olduğuna görə onun nitqi **tutulur[1].**

Oğlum, Yaradanın sirləri dərkedilməzdir. İnsanın zəkası zərrə qədər də onun mənasını dərk etmək iqtidarında deyildir. İnsan ağlının məhdud vaxt çərçivəsindən asılı olmayan Ali idrak bəzən Peyğəmbərə də anlaşılmaz **olur[2].** O, dərkedilmə və ya başqa məziyyətlərdən yan keçərək illər və əsrlər boyu sonsuz olaraq əbədi davam edir. Sonsuzluğun əbədiliyini yalnız Heraklın epileptik ehtirası vasitəsilə anladıqdan sonra Qadir Allahın qanunlarını dərk etmək **olur[3].** Mən o iddiada deyiləm ki, maddi aləmin mahiyyəti və gələcəyin lap uzaq mənzərələri insan tərəfindən dərk edilə bilməz. İnsan idrakı İlahi qüvvənin eyhamlarını açmağa qadirdir. Lakin gələcəyi görmək İlahidən gələn vəhysiz mümkün deyil. Ona görə ki, gələcəyi xəbər vermək Yaradandan gələn vəhylərdən, gələcəyi xəbər verənin taleyindən və eləcə də ona verilən verginin mahiyyətindən asılıdır. Odur ki, artıq baş vermiş, əsrlərin qaranlıq divarları arxasında qalmış, həyatda hələlik aşkarlanmamış hadisələri də görmək olur. Lakin fitri ağıl, bəsirət və kitablardan əxz olunan hikmət fövqəladə təbin şövq və coşqunluğunu əvəz edə bilməz. Yalnız yuxarıdan (səmadan) göndərilən daxili səs görücünün ürəyinə alovun dilinin işığına bənzər nur saçaraq zamanın sirlərini açır.

Sezar, oğlum, sənə and verirəm, heç vaxt ruhun gücünü və ağlını yanlış və mənasız məqsədə yönəltməyəsən. Bu, insanı üzür və zəif duyğular onu daim təlaş və iztirab içində saxlayır. Yaradanın

---

[1] Peyğəmbərin Yer üzündə başlıca məqsədi Yaradanın fikirlərini insanlara çatdırmaq və onları Qiyamət gününə hazırlamaqdır (Q.P.).

[2] Müqəddəs kitablarda bu barədə yazılıb ki, sənin (Peyğəmbərin – Q.P.) borcun mənim dediklərimi ümmətimə çatdırmaqdır. Onların açıqlanması mənim öhdəmdədir.

[3] Qədim Ellada qəhrəmanı Herakl ağır ruhi pozğunluğa mübtəla olubmuş. Huşunu itirdiyi vaxt idarəolunmaz, gözlənilməz hərəkətlərə yol verər və hətta adam öldürə bilərmiş. Lakin sonra etdiyi hərəkəti qətiyyən yadına sala bilməzmiş.

sənə bəxş etdiyi döyünən ürəyini məhv etmə. Müqəddəs kitablar və ilahi qayda-qanunlar tərəfindən pislənən sehrbazlığa meyil etmə. Yalnız astrologiya ilə şərh edilən məsələlərə xeyir-dua verilir. Planetlərin və uzaq ulduzların hərəkəti Yaradanın nəzarəti altındadır. Biz onun vəhylərini diqqətlə dinləyərək öz açıqlamalarımızı bəyan etmişik. Sənin şirnikərək yoldan çıxacağından və fövqəltəbii cadugərliyin təsiri altına düşəcəyindən ehtiyat edərək ululardan qalan və nəslimizin uzun əsrlər boyu gizli saxladığı qədim kitablarla bağlı amansız qərar qəbul etdim. Ecazkar mətnləri, gizli saxlanılan qədim cildləri tonqalda yandırdım. Alov köhnəlib çürümüş vərəqlərə çatanda qeyri-adi dərəcədə parlaq şölə meydana gəldi. Elə bil məşəl zülmət qaranlığı nura qərq etdi. Və sanki evdə yanğın baş verdi.

**Gələcəkdə sənin əlkimyanın yanlış yoluna düşməməyin, gümüşdən qızıl düzəltməyə, yerin təkində olan sirli maddə və metalları aşkar etməyə meyil göstərməməyin naminə mən həmin kitabları yandırıb külə döndərdim[1].**

Bu deyilənlər Allahın iradəsi ilə mənim təzəcə yazıb qurtardığım əsərimə aid deyil.

Sezar, oğlum, insanın təbiətinə xas olan əsassız mühakimələri və cəfəng fərziyyələri bir yana qoyaraq, sənə gələcəkdə baş verəcək hadisələri insanın necə dərk edə bildiyini açıb göstərmək istəyirəm.

Baş verəcək hadisələri səma cisimlərinin düzülüş qanununa əsasən bilmək olur. Bunlar insanın cəhdi, vəcdə gəlməsi və ən başlıcası Yaradanın iradəsi ilə bağlı məsələlərdir. Əbədiliyə qarışan axın bu iradə ilə idarə olunur. Keçmiş də, indi də, gələcək də axıb bir araya gəlir, qovuşur və aşkar olurlar.

---

[1] Heç şübhə yoxdur ki, Nostradamus oğlu Sezarın bu yola düşə biləcəyini gördüyündən bu addımı atmış, oğlunu bu yoldan döndərmiş və Sezar böyüyəndə elmlə, tədqiqatlarla məşğul olaraq görkəmli alim məqamına yüksəlmişdi.

Oğlum, yaşın az olsa da, ağlın hələlik tam kəsməsə də, deyilənlərdən nəticə çıxararaq başa düşə bilərsən ki, Yaradanın iradəsi və alın yazısı ilə bağlı hadisələri astrologiyanın və təbii nurun köməyi ilə təkcə İlahi vergisi olanlar qabaqcadan görə bilərlər. Mən özümə Peyğəmbər adı vermək təmənnasında deyiləm. Lakin mənə, göylərin mənasını dərk etməkdən uzaq olan Allah bəndəsinə gələcəyi görmək Yaradanın vəhyi ilə verilib. Bu, İlahi vergidir. Bu məsələdə mən səhv edə bilmərəm. Allah bilir ki, mənim günahlarım çoxdur və insana xas olan bütün zəifliklərə, çatışmazlıqlara giriftaram. Bununla belə, yuxusuz keçirdiyim gecələrdə mənə əyan olan hadisələrin müəmmalı mənasını dərk edərək astronomik hesablamalar aparmış və gələcəkdə baş verəcək hadisələrdən bəhs edən "Görücülük" kitabımı ortaya qoymuşam. Hər yüz katreni bir yerə yığaraq "Senturiya" adı altında kodlaşdırmışam. Bu aramsız görücülüyüm 3797-ci ilə qədər **davam edir[1]. Ola bilsin ki, belə uzun müddəti əhatə edən və Ay qübbəsi altında baş verəcək bütün əlamətdar hadisələrdən xəbər verən görücülüyümə kimsə ağız büzərək hiddətlənəcək. Ancaq Yaradanın insana verdiyi qısa ömürdən çox-çox uzun bir ömür yaşasaydın, öz gözlərinlə görərdin ki, gələcəkdə baş verəcək hadisələr təkcə sənin doğma vətənin Fransada deyil, bütün Yer kürəsində necə də yerinə yetəcəkdir.** Əlbəttə, ulu Tanrı ondan gələn nurun gücünü təkcə özü bilir. Amma açıq danışacağam. O, öz sonsuz və tükənməz mərhəmətini kimdən əsirgəməsə, kimi uzunmüddətli xəyali vəhyləri ilə yüksəltmək istəsə, göylərdən gələn İlahi vergini o adam alacaqdır. Yaradanın fikir və niyyətini görücü iki əsas yolla dərk edə bilər:

Birinci yol – ulduzlar və başqa fəza cisimlərinə uyğun olaraq gələcəyi xəbər verənin qəlbini xariqüladə ilahi ziya ilə nurlandırmış vergi imkan verir ki, ilahidən gələn əbədiliyə qovuşa bil-

---

[1] Əslində o, 2242-ci ilə qədər görmüşdür. Bu barədə yuxarıda danışmışıq.

sin. Bu səbəbdəndir ki, görücü Ruhülqüdsün göstərdikləri əsasında fikir söyləyir. İkinci yol Yeri-Göyü xəlq eyləyən Tanrının iradəsi və İlahi vergiyə layiq görücülərin öz arzusu ilə baş verir. Məhz buna görə də görücünün dedikləri o vaxt həqiqətə çevrilə bilər ki, onlar səma mənşəli olsunlar. Göylərdən gələn ziya və eləcə də adi işığın tamamilə həqiqi həyat mənşəyi vardır. İşıq, filosofların inamına zəmin yaradır ki, vahid başlanğıcın sirlərini və materiyanın əmələ gəlməsinin ilkin səbəbini dərk edərək idrakın ən gizli sahələrinə vaqif ola bilsinlər.

Oğlum, gəl sənin kamala çatmamış ağlını imtahana çəkməyək. Sənin üçün anlaşılmaz olan məsələlərə toxunmayaq.

**Mən bilirəm ki, yazdıqlarımı labüd olaraq şan və şöhrət gözləyir.** Ümumdünya devrilişindən əvvəl, Dünya yanğını baş verənə qədər saysız-hesabsız tufan və daşqınlar olacaq, demək olar ki, su basmayan ölkə qalmayacaq. Və bu o qədər uzun çəkəcək ki, şifahi təsvir və xəritələrdən başqa Yer kürəsinin əvvəlki görkəmindən əsər-əlamət qalmayacaq. Bütün canlılar məhv olacaq. Ona görə ki, tufandan əvvəl və sonra Səmadan tökülən odlu daş və metal kütləsi insanları və eləcə də bütün başqa canlıları məhv edəcəkdir. Bu, sonuncu ümumdünya devrilişindən bir az əvvəl baş verəcəkdir. Mars planeti öz dövrəsini başa vurana yaxın sakitlik olacaq. Lakin bu dövrün son əsrində qırğın yenidən başlayacaq. Bəziləri Dolça bürcü altında sığınacaq tapacaqlar. Daha ehtiyatlı olanlar isə Xərçəng bürcünün himayəsinə pənah aparacaqlar. İndi biz qadir Allahın kəraməti sayəsində Ayın təsiri altındayıq. Ayın gücü sona yetəndə onu Günəş əvəz edəcək. Sonra isə Saturn **gələcəkdir**[1] (Nostradamus bu məsələyə katren də həsr et-

[1] Söhbət Böyük zaman sikllərindən gedir. Hər zaman siklində Yer kürəsi bir planetin təsiri altında olur. Böyük zaman sikli 354 il 4 aydan ibarətdir. Girişdə göstərdiyimiz kimi, 1534-1889-cu illər arası Ayın təsiri özünü göstərib. 1989-2243-cü illər Günəşin, ondan sonra isə Saturnun təsiri özünü göstərəcək (Q.P.).

mişdir – 1 k48 – Q.P.). Səma cisimlərinin əlamətlərinə görə Saturn hökmranlığa mütləq dönəcəkdir. Bütün hesablamalarımızdan görürük ki, Kainat sikllər üzrə dövr edir və dünya get-gedə başlanğıc nöqtəsinə yaxınlaşır. Mən bu sətirləri yazdığım vaxtdan (1 mart 1555) 177 il, 3 ay, 11 gün keçənə qədər bəşəriyyət təkrar-təkrar taun, aclıq, müharibələr, daşqınlar kimi bəlalarla əlbəyaxa olacaqdır. İnsanlar məhv olacaqlar. Sağ qalanların sayı o qədər azalacaq ki, əkin-biçinlə məşğul olmağa adam tapılmayacaq. Əkin sahələrini alaq otları və cəngəlliklər bürüyəcək. Bütün bunlar Allahın iradəsi ilə olacaq. Müşahidələr göstərir ki, biz minilliyin 7-ci zaman kəsiyində yaşayır və 8-ci Böyük zaman kəsiyinə yaxınlaşırıq. Bu vaxt qadir Allah səma cisimlərinin və varlıqların dövrünü tam başa çatdıracaqdır. Və onlar yenidən hərəkətə gələcəklər. Bu, Yer üzünə nizam-intizamı qaytarmaq yolunda ən böyük nailiyyət olacaqdır. Yalnız Yaradan öz iradəsi ilə səma cisimlərinin yerini dəyişə bilər.

Elə olacaq ki, bu vaxt yalançı peyğəmbərlər meydana gələrək yalançı məzhəb, etiqad təbliğ **edəcəklər[1].** Möminlərin qəlbindən təbii olaraq mövcud olan həqiqi etiqadı çıxaracaqlar. İnsanlar həqiqi ilahi etiqad və şeytanın azdırması ilə əldə edilən günahla etiqad arasında tərəddüd edəcəklər. Buna görə də Tanrı bir neçə dəfə Müqəddəs kitablarda göstərilən nurlu əlamətlərlə mələklərini göndərəcək ki, insanların təşvişə salınmış ürəyinə əsl inam və etiqadın gələcək təntənəsini açıb göstərsin. Bu, Yaradanın iradəsi ilə vergi verilən, səmadan gələn ilahi nurun doğruluğunu qəbul edən görücü vasitəsilə bəyan olunacaq. Amma, əgər görücü ilahi nura əsaslanmırsa, yalnız ürəyinə damırsa, şəkil kimi gözünün qabağından keçirsə, zahir olanın ilahi dərketmə ilə əlaqəsi yoxdur. Bu, təsəvvürün və fitri ağlın məhsulu olur. İnsan gələcəyi yalnız

---

[1] Nostradamus yalançı peyğəmbərlərdən birinin V.İ.Lenin olacağını göstərmişdir (bax: 10 k26).

ilahi nurun və mələklərdən gələn vəhylərin köməyi ilə xəbər verə bilər. Vəhylər görücünün qəlbinə dolaraq onun gecələr gördüklərini parlaq şölə ilə nurlandırır. Və əgər gecə görünənlər gündüz vaxtı yorğun olmayanda, astronomik hesablamalarla möhkəmləndirilərsə, cəsarətlə demək olar ki, qabaqcadan xəbər verilənlər gerçəkləşəcəkdir.

Oğlum, ilahi qüvvədən ilham alaraq apardığımız hesablamalar göstərir ki, məhvedici qılınc artıq bizə yaxınlaşır və bəşəriyyət tarixində görünməmiş müharibələr, taun xəstəliyi və s. ilə cəzalandırmaqla hədələyir. Aclıq və qırğınlar ara verməyəcək. Çünki qabaqcadan xəbərdarlıq edilmişdi: "Yoldan çıxdığınıza görə dəmir əsa və şallaqla cəzalandıracağam".

Mən Yer kürəsində baş verəcək minlərlə daşqın və fəlakətdən başqa kitablarımda yer alan katrenlərdə söz açaraq onların yerini və vaxtını göstərmişəm. **Mənim əvvəlcədən xəbər verdiklərim yerinə yetdikcə insanlar bəyan etdiklərimin dəqiqliyinə əmin olacaqlar. Və baxmayaraq ki, mənim doğru sözlərim müəmmalı və dumanlı pərdə arxasında gizlədilmişdir, ağıllı və təbli adamlar onları başa düşəcəklər. Cəhalət öz yerini ümumi dirçəlişə verəcəkdir.**

Oğlum, bununla da yazıma son qoyuram. Bu əmanəti atan Mişel Nostradamusdan qəbul et. Arxayın ol ki, katrenlər vasitəsilə bəyan etdiklərimin hər birinin mənasını açmağa qadirəm. Ulu Tanrıdan sənə uzun ömür, səadət və xoşbəxtlik təmənna edirəm.

***01 mart 1555-ci il***
***Salon şəhəri***

# AÇIQLAMA
## Fransanın yenilməz və qüdrətli hökmdarı, xristianlığın layiqli təəssübkeşi II Henriyə yeni qələbələr və xoşbəxtliklər diləyən sadiq bəndəsi Mişel Nostradamusdan

***Mən bu Açıqlamada yaxın və uzaq gələcəkdə baş verəcək ən maraqlı, diqqətəlayiq hadisələri təsvir etmək bir yana, heç sadalayıb qurtara da bilməzdim. Ancaq burada məntiqi cəhətdən aydınlaşdırdığım, şər qüvvələr başının üstünü qara bulud kimi alan, alın yazısı ilə bağlı olan bəzi əlamətdar hadisələrin xülasəsini vermişəm.***

**Nostradamus**

Mənim etiqadlı və qalib hökmdarım!

Sizə şəxsən müraciət etməyə vadar olmuşam. Sizinlə görüşə cürət edənə qədər neçə illər idi üzüm gülmürdü. Hədsiz qüdrət sahibi olduğunuzu bildiyimdən, Sizinlə görüşün necə də fərəhli olacağını hiss edirdim.

Əlahəzrət, mən gecə-gündüz Allaha dua edərək Sizinlə görüşəcəyim xoşbəxt günü gözləyirdim. Sizin insanpərvərliyiniz və müqayisəyəgəlməz şəxsiyyət olduğunuz mənə məlumdur.

Mənim əvəzsiz hökmdarım, Sizinlə şəxsən görüşdə səmimiyyətlə ürəyimi açaraq yaradıcılığımla Sizi tanış edə bilərdim. Lakin mənə elə gəldi ki, bunu tam dəqiqliyi ilə və bariz şəkildə edə bilməyəcəyəm. Çünki, böyük hökmdarım, Sizin gülər üzünüzü görənə qədər xəyalım tutqun idi. Mən vəhylə gələn və kağız üzərinə köçürdüyüm son üç Senturiyanı (cəmisi isə min katren olacaq) kimə həsr edəcəyim barədə uzun müddət düşündüm və nəhayət çox götür-qoydan, tərəddüddən sonra cürət edərək, Əlahəzrət, onları Sizə həsr etməyə qərar verdim. Bu məni qorxutmadı. “Likurqun tərcümeyi-halı” kitabında dahi Plutarx qədim mənbələrdə

bütpərəstliklə bağlı allahların yolunda varlıların verdiyi ənam və sədəqənin bolluğuna heyrətlənmişdi. Buna görə də çoxları öz xırda hədiyyələri ilə bu məbəd və ziyarətgahlara getməyə cürət etməzmiş. Xalq kütləsi bundan çox mütəəssir olubmuş. Lakin mən aşkar görürəm ki, Sizdə hökmranlıq vüqarı ilə bərabər, heç kimlə müqayisə olunmayan mərhəmətlilik keyfiyyətləri də qədərincədir. Odur ki, mən xeyirxah və müdrik hökmdarıma müraciətlə deyirəm: "Siz İran şahı deyilsiniz ki, hətta yaxınlaşmaq belə qadağan oluna". Mən yuxusuz gecələrin və hesablamaların bəhrəsi olan katrenlərimi Sizə ithaf edirəm. Katrenləri yazarkən mən poeziyanın qəbul olunmuş qayda-qanunlarından daha çox fitri duyğu və ilhama üstünlük vermişəm. Görücülüyümün çox hissəsi gələcəkdə Avropa ölkələrində, şəhər və qəsəbələrdə baş verəcək hadisələrə və onların vaxtının həftələr, aylar və illər üzrə hesablanmasına həsr olunub.

Katrenlərin nisbətən az hissəsində isə Afrika və Asiyada baş verəcək mənəvi dəyişikliklərdən, islahatlardan söz açılır. Bilirəm ki, başqalarının işinə qarışmağı xoşlayan kimsələr katrenlərdə yer alan qafiyələrin bəsitliyinə, fikirlərin anlaşılmazlığına görə etiraz səslərini ucaldacaqlar. Buna görə də mənim mərhəmətli hökmdarım, ərz etmək istəyirəm ki, mənə əyan olan və gələcəkdə baş verəcək hadisələr hazırkı dövrdə insanın dərk edə bilməyəcəyi, insan idrakına sığmayan məsələlərdir. Onları hazırda aydınlaşdırmaq və şərh etmək üçün bir yol, vasitə yoxdur. Hər halda mən ümidimi itirməyərək şəhər və ölkələrdə gələcəkdə baş verəcək hadisələri, dövlət quruluşunu, bəzi hökmdarların talelərini və s. müəyyən etmişəm.

Bugünkü 14 mart 1557-ci il tarixdən götürsək 1585 və 1606-cı illər arası baş verəcək hadisələr xüsusilə diqqəti çəkir (Nostradamus elmin, xüsusən də astronomiya, riyaziyyat və fizika elminin inkişafını nəzərdə tutur. Fransua Viet, Cordano Bruno, Qaliley, Kepler və başqa dünya şöhrətli alimlər bu zaman kəsiyində böyük kəşflər etmişlər – Q.P.). Mən daha da qabağa gedərək xristian di-

ninin düşmənlərinin artdığı 7-ci minilliyin əvvəlinə qədər yer üzündə baş verəcək və mənə əyan olan hadisələrlə bağlı astronomiya və başqa elmlərə arxalanaraq vəhy günləri və saatları hesablamalar aparmışam. Hesablamalar qüdrətim çatan dəqiqliklə yerinə yetirilib. Bu, bütün zamanları əhatə edir. Bunları Minerva azad və mənə meyilli olan vaxt etmişəm (Yunanlarda Afina, romalılarda Minerva müdriklik və elm hamisi, insanlara müdriklik və ağıl-kamal bəxş edən ilahə – Q.P.).

**Mən indiki zamandan keçmişə və gələcəyə baş vuraraq katrenlərdə təsvir etdiyim, gələcəkdə bütün ölkələrdə baş verəcək hadisələrin vaxtını dəqiqliklə hesablamışam.** Mən həqiqətən də baş verəcək hadisələrə heç nə əlavə etməmişəm. Bununla belə, deyirlər: "Gələcəklə bağlı heç nəyi tam dəqiqliklə bilmək olmaz".

Əlahəzrət, bu bir həqiqətdir ki, mənim fitri istedadım ulu babalarımdan irsi keçmədir. Əgər anadangəlmə duyğularımı davamlı hesablama məharəti ilə birləşdirə bilsəm, mənə belə gəlir ki, çox-çox hadisələrdən xəbər verə bilərəm. Lakin bunun üçün möhkəm ruhi rahatlıq lazımdır. Elə bir rahatlıq ki, insanın fikri və qəlbi bütün qayğı və həyəcanlardan azad olsun. Gələcəkdə baş verəcək hadisələrin əksəriyyətini tunc ləyənə su tökərək görmüşəm. Buna baxmayaraq, bir çoxları mənə qara yaxırlar ki, guya mən sehr və cadu ünsürlərinə malikəm. Əslində belə bir şey nəinki məndə, heç kimdə yoxdur.

Yalnız insan qəlbinin dərinliklərinə sirayət edən ədalətli, mərhəmətli, əzəli və əbədi Tanrı həqiqətin kimin tərəfində olduğunu ayırd etməyə qadirdir. Yaradandan təmənna edirəm ki, məni insanları sorğu-suala tutmaq və təqib etmək xəstəliyinə tutulmuş nadan (yaramaz) və cahil adamların qəzəb və şərindən qorusun.

Hökmdarım, məgər Sizin nəcabətli ulu babalarınız – Fransanın kralları ruhi nasazlıq – "hökmdar qəzəbi" adlanan xəstəlikdən müalicə olunmurdularmı? Zəhərli həşərat və ilan vuran adamı təsirli üsullarla müalicə edənlər olmamışmı? Onlar indi də vardır. Görücülər də beləcə. Lakin onlar heç vaxt aldatmayan duyğularına

arxalanaraq baş verəcək hadisələri dəqiq göstərməklə kifayətlənmirlər. Onlar olmuşları görməklə bərabər, baş verəcək hadisələrin ən dəhşətlisini qabaqcadan hiss edirlər. Elə dəhşətli faciə ki, onun haqqında burada danışmamaq daha münasibdir (Görücü burada üstüörtülü şəkildə II Henrinin özünün ölümünə işarə edir – Q.P.).

Mən uzun illər boyu məni mənəviyyatca əzmək istəyənlərin arzusuna xilaf çıxaraq işimi davam etdirmişəm. Əminəm ki, sağlığımdan fərqli olaraq dünyamı dəyişəndən sonra əsərlərimə daha çox ehtiram və inamla yanaşacaqlar (Girişdə göstərdiyimiz kimi, görücünün zamanında ona qarşı neçə-neçə böhtan dolu yazılar, həcvlər, pamfletlər, kitablar yazılmışdı. Nostradamus bu məsələyə işarə edir – Q.P.).

Əlahəzrət, əgər gələcəkdə baş verəcək hadisələrin vaxtının hesablanmasında bir səhvim, qüsurum olsa və bu, arzuolunmaz təsir bağışlasa, lütfən hökmdar alicənablığı ilə məni bağışlayın. Allah qarşısında, onun zati-müqəddəsləri qarşısında şəhadət verirəm ki, heç bir yazımda və eləcə də Sizə ünvanladığım bu Açıqlamada katolik məzhəbinə qarşı heç bir qərəzli məqsədim olmayıb. Ona görə ki, mən biliklərimin nəticəsi olan hesablamalarımı apararkən astronomik hesablamalara əsaslanmışam. Əcdadlarımızın yaşadığı zaman kəsiyini ayırd edəndə nəsə bir qeyri-müəyyənliyə yol verə biləcəyimi dərk edirəm. Belə olsa, qoy başqa alimlər mənə kömək olsunlar, xətamı düzəltsinlər.

Ulu babamız Adəm Nuh Peyğəmbərdən 1242 il əvvəl yaşamışdır. Mən vaxtı hesablayanda Varrodan (Yeni eradan əvvəl 116-27-ci illərdə yaşamış Roma yazıçısı və alimi, 70 elmi əsərin müəllifi – Q.P.) fərqli olaraq bütpərəstlərin qədim soy (şəcərə) yazılarına arxalanmışam. Müqəddəs Əhdi-Ətiqi (Bibliyanın 1-ci hissəsi) əsas götürmüşəm. Burada mənim anlamıma görə bir uyğunluq vardır. Nuh əyyamından və tufan qoparaq dünyanı su basandan 1080 ilə yaxın vaxt keçəndə çoxlarının böyük astroloq kimi tanıdığı və xaldey yazısını kəşf edən İbrahim Peyğəmbərin zamanı gəldi

(Xaldeylər yeni eradan əvvəl 1-ci minilliyin 1-ci yarısında Mesopotamiyanın cənubunda – Babildə yaşamışlar. İbrahim Peyğəmbər də burada dünyaya gəlib. Bəzi kitablarda göstərilir ki, İbrahim Peyğəmbər ulduzlar və planetlərə əsasən Xaldey yazılarını oxuya bilmişdi – Q.P.).

Bundan təqribən 515-516 il keçəndə Musa Peyğəmbərin vaxtı gəldi. Musa ilə Davud Peyğəmbərin arasındakı zaman kəsiyi 570 ilə bərabərdir (Maraqlıdır ki, azərbaycanlı alim, axund Əbdüssalam Axundzadə də "Müqəddəs Peyğəmbərlər tarixi" kitabında (Bakı, 1993, səh. 60-da) bu zaman kəsiyini 570 il göstərmişdir – Q.P.). Davud Peyğəmbərlə xilaskarımız İsa Peyğəmbər arasındakı zaman kəsiyi bəzi xronoqraflara (yazılı abidə) görə 1350 il olmuşdur. Mənim hesablamalarım **Evseviyin**[1] hesablamalarından fərqləndiyinə görə kimlərsə mənə etiraz edə bilər. Lakin bu, məsələnin məğzini dəyişmir. Sonra günahların bağışlanması və yuyulması dövrü gəlir ki, bu da Saratsin **dininin**[2] meydana gəldiyi vaxta qədər olub ki, bu da təqribən 621 il **edir**[3]**.** Bunu əsas götürərək keçmiş dövrü hesablamaq çətin **olmaz**[4]**.**

[1] Evseviy Kesariyski (260 və ya 265-338 və ya 339) Roma kilsə salnaməçisi. Yeni eranın 324-cü ilinə qədər tarixi əhatə edən "Kilsə tarixi" kitabının müəllifi. Kesarinin (Fələstin dövləti) yepiskopu.

[2] Orta əsrlərdə qərblilərin Afrika müsəlmanlarına verdiyi ad.

[3] Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçdüyü il. Bu, Məhərrəm ayında olmuşdu. Buna "Sənətül İzin" – icazə ili deyilir. Ömərin xilafəti vaxtında həmin il əhli-islam üçün tarixin başlanğıcı götürüldü və "tarixi hicriyyə" adlandı. Bu, Nostradamusun doğru olaraq göstərdiyi kimi, miladi tarixinin 621-ci ilinə təsadüf edir.

[4] Nostradamusun göstərdiyi rəqəmləri topladıqda 4758 alınır. Bu rəqəmdən 621 çıxanda 4137 alınır ki, bəzi mənbələrdə bu rəqəmin doğru olduğu qeyd edilir. Nostradamus bu rəqəmi bəzən 4173 kimi göstərmişdir. Göründüyü kimi, görücü Nuh Peyğəmbərdən bu yana olan dövrü göstərmişdir. Yer üzündə ona qədər də həyat olmuşdu. Vaxtilə planetimizdə 160 min il bundan əvvəl yaşamış insanın nəşi tapılmışdı. Lakin 2005-ci ildə avstraliyalı alimlər yer üzündə 195 min il bundan əvvəl yaşamış insanın qalıqlarını aşkar etmişlər.

Mənim hesablamalarım səma cisimlərinin hərəkəti və vəcdə gəldiyim zaman keçirdiyim, ulu babalarımdan irsi keçən görücülük duyğularımla bağlı olduğundan bütün irq və millətlər üçün məqbul sayıla bilər.

Əlahəzrət, təhlükədən uzaq olmaq üçün baş verəcək, lakin hələ faş olmamış hadisələri gərəkdir ki, müəmmalı, anlaşılmaz şəkildə verəsən. Ayrı yol yoxdur. O da vacibdir ki, müəmmalı verilmiş fikir yalnız bir məfhum ifadə etsin, bir məna versin. Sintaktik birləşmələrdə yer alan ifadələrin başqa cür yozulmasına yol verilməsin. Lakin daha yaxşı olar ki, hər hansı dumanlı, qeyri-müəyyənlikdənsə, təbii daxili qanunauyğun **İolin**[1] hesablamalarına və finikiya salnaməsinə əsasən dünya yaranandan məlum olan min iki **görücülüyün**[2] birinin mahiyyətinə nəzər salasan ("Mənim ruhumdan hər hansı bir canlının üstünə töksəniz həm qızlarınız, həm də oğlanlarınız bilicilik əldə edəcəklər").

Səma cisimlərinin düzülüşü və hərəkətindən göründüyü kimi, heç nə nəhayətsiz və sonsuz gücə malik İlahinin qüdrətindən kənarda deyildir. Görücülük də Ruhülqüdsün kəlamından baş verir. Nahaq yerə bəziləri fikirləşirlər ki, görücülük (vergi) o adamlara verilir ki, onlar möhtəşəm və ölümsüz keyfiyyətlərə malikdirlər. Mənə gəlincə, Mən Yaradana xoş gəlməyən şeylərə qarşı etiraz səsimi ucaldır və onlara meydan oxuyuram. Mənim üçün həqiqət Tanrıdan gələndir. Mən buna görə Yaradana minnətdaram. Mən "Hər şey tale ilə bağlıdır. Lakin bunun özü də Yaradan və Təbiət vasitəsi ilə olur" – deyilən İlahi həqiqəti qəbul edir və bunu heç nə ilə qarışdırmıram. Bu baxımdan da, İlahidən gələn bir çox məsələləri səma cisimlərinin hərəkəti və istiqaməti ilə bağlayıram. Elə təsəvvür yaranır ki, sanki insan linzadan baxır və duman için-

---

[1] Əhdi-Ətiqdə yer alan peyğəmbərlərdən biri.

[2] Bəzi mənbələrdə bu, 1002 görücü və ya Peyğəmbərdən biri kimi göstərilib. Bax: Манфред Димде. Нострадамус. Предсказание. Новое прочтение (alman dilindən tərcümə). Москва, 1998, стр. 335.

də böyük və qüssəli faciələri, hadisələri seyr edir. Dünyanın müəmmalı, sirli keşməkeşləri adamı heyrətləndirir.

Xudavəndi-aləm, sənə əyandır ki, məbəd və ibadətgahları necə ağır günlər gözləyir. Onları yaradan və möhkəmləndirən insanların fikir və düşüncələri, batini dəyişəcəkdir. Görürəm ki, onda minlərlə başqa hadisələr də baş verəcəkdir. Bununla belə, sonsuz hesab olunan "Əzəmətli xanım" Yaradanın mərhəməti sayəsində gələcəkdə böyük rolu olan iki oğlan uşağı doğacaqdır. Onları həyatının təhlükə altında olmasına baxmayaraq, risk edərək 18 yaşı tamam olanda doğacaqdır. Necə olsa da o, 36 yaşından artıq yaşamayacaq. "Əzəmətli xanımın" üç oğlu, bir qızı olacaq. Oğlanlardan ikisi başqa kişidən olacaqdır. Üç qardaş arasında fərq olacaq. Əgər onlar birgə hərəkət barəsində razılığa gəlməsələr, Avropanın dörddə üç hissəsi lərzəyə düşəcəkdir. Kiçik qardaş xristian dinini yenidən möhkəmləndirəcək, dini məzhəblər güclənəcək. Lakin sonralar yenidən zəifləyəcək. Ərəblər yenidən doğma torpaqlarından geri çəkiləcəklər. Dövlətlər birləşməyə başlayacaq və yeni qanunlar meydana gələcəkdir.

O ki qaldı o biri oğlanlara, birinci qardaş başında tac olan qəzəbli şirlərin sahibi olacaqdır (Söhbət İngiltərədən gedir – Q.P.). Yırtıcı şirlərin pəncələri gerbin üstündə olacaqdır.

Ortancıl qardaş isə sədaqətli latınların (Roma mədəniyyəti və millətlərinə aid olan katoliklər – Q.P.) müşayiəti ilə düşmən düşərgələrinin dərinliyinə üz tutacaq. Orada qorxu və vahimə yaradacaq. Pireney dağlarına gedib çıxacaq. Qədim mütləqiyyət (monarxiya) tab gətirə bilməyəcək. Qan su yerinə axacaq. Mars uzun müddət nəfsini saxlamağı unudacaq. Pəhriz yaddan çıxacaq. Kilsəni qorumaq xətirinə yeganə qızı qurban verəcəklər. Daha doğrusu, hədiyyə edəcəklər. Onun yeni bütpərəstlik məzhəblərinin məhvinə çalışan şəxsdən katolik kilsəsinin himayəsi altında böyüyəcək iki oğlu olacaq. Onlardan biri kilsəyə sadiq olacaq, o biri isə yox. İkinci sonralar təəssüflə etiraf edəcək ki, katolik kilsəsini

yıxmağa və üç vilayəti, üç ərazini birləşdirmək naminə möhkəm əlaqə yaratmağa çalışırdı. Mən İtaliya, Almaniya və İspaniyanı nəzərdə tuturam. O, silah gücünə 50-ci dərəcədən 52-ci dərəcəyə qədər olan torpaqları zəbt edəcəkdir. Ancaq Şimalda – uzaq vilayətlərdə, en dairəsinin 48-ci dərəcəsinə yaxın torpaqlarda öz güclərinə əmin olaraq ruh yüksəkliyi göstərəcəklər. Onları heç bir hərbi qüvvə ilə sıxışdırmaq mümkün olmayacaqdır (Söhbət ABŞ-dan gedir). Şərq, Qərb və Cənubda dövlətlər onlardan çəkinəcəklər. Təbiət şimallıları bərabər yaradıb. Lakin dinləri fərqlidir.

Bundan sonra, o birindən daha güclü olan "Əzəmətli xanım" iki xalq tərəfindən tanınacaq və onunla hesablaşacaqlar. Birincisi başqalarından güclü olanlara qarşı duracaq. İkinci və üçüncü Şərqi Avropaya yürüşə başlayacaq. Lakin burada rəqibdən daha güclü olan hərbi qüvvələri onları dayandıracaq. Belə olan halda, ikincisi dəniz ekspedisiyaları təşkil edərək Trinakiya (Siciliya) və Adriatikaya (Aralıq dənizi sahilləri ölkələri) qədər gəlib çıxacaq. Almaniya məğlub **olacaq[1].** Yadellilər latın torpaqlarından qovulacaqlar. Onda Antixristin İmperiyası **dirçələcəkdir[2].** Yeni Atilla və saysız-hesabsız cahil və nadan kserklər peyda olacaqlar. Ruhülqüdsün iradəsi və xeyirxah köməyi ilə 48-ci en dairəsindən başlamış xalq ayağa qalxacaq və mənfur Antixristi **qovacaq[3].** O murdarı ki, hökmdarlara qarşı mübarizəyə qalxdı, İsa Peyğəmbərə, onun kilsəsinə qarşı çıxdı. Lakin bu baş verənə qədər gün tutulacaq.

---

[1] Söhbət I Dünya müharibəsinin nəticələrindən gedir.

[2] Burada söhbət Hitler Almaniyasından gedir. Nostradamus və eləcə də ondan 5 əsr sonra amerikalı görücü Edqar Keys Hitlerin hakimiyyətə gəlməsini və II Dünya müharibəsinin labüd olaraq baş verəcəyini I Dünya müharibəsindən sonra qaliblərin Almaniya və Avstriyaya qarşı ağır sanksiyalarında və Millətlər Təşkilatının laqeydliyində görürdülər. Hitler xalqın vətənpərvərlik hissləri ilə oynayaraq hakimiyyətə gəlmişdi.

[3] Burada söhbət ABŞ və başqa dünya ölkələrinin Hitler Almaniyasına qarşı mübarizəsindən gedir. ABŞ 48-ci en dairəsinə düşür.

Dünya yaranandan və İsa Peyğəmbərin ölümündən bu yana günün belə tutulması görünməyib. Və oktyabr ayında böyük inqilab olacaqdır. Çoxları deyəcəklər ki, bu, indiyə qədər baş vermiş inqilabların ən **dəhşətlisidir**[1]**.** Sanki həyat məhvərindən çıxacaq. Yer üzünü zülmət bürüyəcək. Yazda və bundan sonra böyük dəyişikliklər baş verəcək, krallıqlar məhv **olacaq**[2], zəlzələlər insanları vahiməyə salacaq. Və bütün bunlar Yeni Babilistanın meydana gəlməsinə, iyrənc pozğunluqlara, çox pis mənəvi düşkünlüyə gətirib **çıxaracaqdır**[3]. Bu, 73 il 7 ay davam **edəcəkdir**[4]**.**

Mən kilsələrin dirçəlişini və yeniləşməsini görürəm. Uzun müddət ayrı düşmüş və müxtəlif krallıqlarda yaşayan irqlərin yeni nəsillərinin əmin-amanlığını, birliyini və həmrəyliyini görürəm. Nahaq yerə bunu qurumuş budaq hesab edirlər. Qurumuş hesab edilən budaqlar göyərərək yarpaqlayacaq. Elə xoşbəxtlik, səadət, elə güngüzəran, əmin-amanlıq bərqərar olacaq ki, din fərqinə görə müharibə tərəfdarı olanlar belə, gözdən kənar gəzərək fürsət gözləyəcəklər ki, imkan düşən kimi aldatma yolu ilə qorxulu bir hakimiyyət yaratsınlar. Adını da qoysunlar ki, müdrikliklə hakimiyyətə gəliblər. Ölkələr, şəhərlər, qəsəbələr, vilayətlər daha yaxşı həyat naminə yollarından dönəcək, lakin tələyə düşərək kölə halına salınacaqlar. İtirdikləri azadlığa və inama rəğmən onları bu hala salanlara qarşı kin və hiddətlərini ürəklərində saxlayacaqlar. Bu vaxt solda böyük üsyan baş verəcək. Belə olanda əvvəlkindən daha artıq sağa

---

[1] Söhbət 1917-ci ildə Rusiyada baş vermiş Böyük Oktyabr Sosialist inqilabından gedir.

[2] Ölkələr müstəqilliyini itirdi və SSRİ yarandı.

[3] Mənəvi pozğunluq, əxlaqsızlıq, dinsizlik hökm sürən materialist dövlət – SSRİ.

[4] İnsan Nostradamusun görücülüyünə heyrət etməyə bilmir. Böyük Oktyabr Sosialist inqilabının baş vermə və sona yetmə vaxtını, mahiyyətini o, necə də dəqiq göstərmişdir. Şübhəsiz, buna görədir ki, Sovet İttifaqında onun kitabları qadağan olunmuş əsərlər sırasında xalqdan gizlədilmişdi.

tərəf dönüş olacaq və Böyük **köpəyin**[1] vaxtında təhqir və rüsvayçılığa məruz qalmış müqəddəs yerlər və dini təlimlər öz əvvəlki mövqeyinə qayıdacaqdır. Çox qəddar və azğın olan Böyük köpək quduzcasına əvvəllər yaradılmış nə varsa büsbütün məhv etmək xəstəliyinə tutulmuşdur. İndi kilsə, məscid və ibadətgahlar bərpa olunaraq yenicə ibadətə başlayanların babalarının gördüyü (zamanındakı) vəziyyətə salınacaqdır. Ruhanilik də əvvəlki kimi olacaqdır. Lakin əxlaqsızlıq, pozğunluq, cah-calal, israfçılıq və sayı-hesabı bilinməyən cinayətlər baş alıb gedəndə ibadət və məbədgahlar yenidən zəifləyəcək. Nə yazıq ki, bu firavanlıq daxili düşkünlüyə, mənəviyyatsızlığa üz tutanda yüksəklik və əzəmət pərdəsi altında dövlətlər və hərbçilər meydana gələrək bu firavanlığın əlindən hər iki qılıncı alacaq, ona yalnız qiymətli qını qoyacaqlar. Bundan sonra xalq baş alıb gedən yalan və hiyləyə dözməyərək vəziyyəti yaxşılaşdırmaq üçün əlindən gələni edəcəkdir. İnsanın xilqəti belədir: İstibdad və zorakılığa tamamilə baş əyməyə razı olmur.

Bu vaxt uzun müddət göyərməyən budaqlar yarpaqlayacaq və meydana gələn şəxs bütün dünyanı itaətkarlıq və könüllü köləlikdən qurtaracaqdır. Özünü Marsın himayəsinə verən bu Yupiteri əzəmət və ləyaqətdən məhrum edən başqa bir kiçik **Mesopotamiyada**[2] qayda-qanun naminə azad şəhər salınacaq və **abadlaşdırılacaqdır**[3]**.** İkinci Trazibulusun rəhbərliyi **altında**[4] düşünülərək hazırlanmış sui-qəsd və sui-qəsdlərdən şübhələnmədən şəhərin başçılarını mənəviyyatca sağlam adamlardan seçərək Günə-Aya qədər yüksəldəcəklər. Beləliklə, mənəvi murdarlıq və rüsvayçılığı abır-həya, ar-namus əvəz edəcək, zülmətə qərq olmuş bu ölkəni nur yenidən bürüyəcəkdir. Lakin dəyişikliyin sonuna yaxın bu

---

[1] Bəzi mənbələrdə bu ifadəni Leninə, bəzilərində isə Stalinə aid edirlər.

[2] Fransada kiçik bir yer adı.

[3] Feodal hakimiyyətindən çıxaraq müstəqil dövlət hüququ qazanmış orta əsr şəhəri.

[4] I Trazibulus IV-V əsrdə yaşamış yunan sərkərdəsi.

hökmranlığın çırağı yenidən sönəcək. Bir çox görkəmli kilsə xadimləri Allah sevgisinə, dinə dönük çıxacaqlar. Lüteran, katolik və islam dininin hər üçünə qulluq edənlər isə ibadətgahları xarabazarlığa çevirəcəklər. Birinci din Avropada yaranacaqdır. Mənəvi boşluq ucbatından Afrikanın əksər hissəsində islam dini birincini çökdürəcək, xalq ona qulluq edəcək. Lakin burada hamı cahcalal ehtirası ilə coşacaq, pozğunluq, əxlaqsızlıq və satqınlığa meyil göstərəcəkdir. Buna şirniklənən xalq ellikcə ayağa qalxaraq qanun və qanunvericiliyə sadiq qalanları qovacaq. Sanki insanların şərq səltənətində əxlaqının pozulması ucbatından Ulu Tanrı şeytanı zülmətdən azad edib. Buna görə də Qüdrətli köpək və **Doxan-Qoq-Maqoq**[1] dünyaya gələ biliblər. Kilsələrdə, məbədgahlarda elə oyunlar çıxaracaqlar ki, gözdən və əldən məhrum olmuş qırmızılar da, ağlar da bunun dəhşətli nəticələrini dərk edə bilməyəcəklər. Onlar ölkənin üçdə iki hissəsini məhv edəcəklər. Üçdə biri qalacaq. Onlar törətdikləri cinayətlərə görə cəzadan yaxa qurtara bilməyəcəklər və hakimiyyət əllərindən **alınacaqdır**[2]**.**

Tarixdə görünməmiş bir amansızlıqla kilsənin üstünə düşəcəklər. Cinayətkar qüvvələr dünyanın üçdə iki hissəsini məhv edəcəklər. Üçdə biri qalacaq. Lakin artıq heç kim tarla və evlərin həqiqi sahiblərindən neçə nəfərin sağ qalacağını təyin edə **bilməyəcəkdir**[3]**.**

Din xadimləri böyük təqibə məruz qalacaq və məhv olacaqlar. Böyük sərkərdə qəsbkarlıq edərək Günəş **şəhərindən**[4], Maltadan, Yerez **adalarından**[5] gətirilən nə varsa zəbt edəcək. Gəmilərin sər-

---

[1] Qoq-Maqoq – Yəcüc-Məcüc (bütün dillərdə qorxulu, dəhşətli adam və xalq).

[2] Şərhçilər bunları Böyük Oktyabr inqilabından sonrakı hadisələrlə bağlayırlar.

[3] Söhbət Sovet İttifaqından gedir.

[4] Paris nəzərdə tutulur.

[5] Fransanın cənubunda arxipelaq.

bəst hərəkəti üçün Dəniz Buğası adlanan **portdan**[1] böyük zəncir xətti götürüləcək. Dəniz sahillərindən yeni hücumlar gözlənilir. Bu hücumlar vaxtı **Kostul**[2] əməliyyat meydanını birinci islam qəsbkarlarının əlindən ala bilər. Hücum faydasız olacaq. Onlar İbrahim Peyğəmbər yaşamış yerlərə hücum edəcəklər. Əzəmətli şərq şəhəri **Ahem-Şehem**[3] hər tərəfdən mühasirəyə alınacaq. Şəhər ətrafında yaxşı silahlanmış ordu cəmləşəcək. Lakin onların hərbi dəniz qüvvələri qərblilər tərəfindən zəiflədiləcək. Bu səltənətdə böyük dağıntılar olacaq. Bir çox böyük şəhərlər boş qalacaqdır. O yerlərə gəlib çıxanlar Allahın qəzəbinə tuş gələcəklər. Çünki onlar İsa Peyğəmbərin uzun müddət hörmət və ehtiram göstərilən məqbərəsinə yer üzündə ən mənasız bir şey kimi baxaraq onu murdarlayacaqlar. Bu müqəddəs yeri iri və xırdabuynuzlu heyvanları saxlamaq üçün pəyəyə döndərəcəklər.

İlahi, bu vaxt əliuşaqlı qadınların həyatı necə də işgəncəyə çevriləcəkdir!

Başqalarından daha artıq Şimal və Qərbin daha dərinliklərinə qədər gedib çıxan Ali hökmdar başına çoxlu ordu toplayacaq. Lakin əsir edilərək öldürüləcək. Başqaları isə dəhşətli məğlubiyyətdən sonra qaçıb canlarını qurtaracaqlar. Hökmdarın çoxlu qadınlarından doğulmuş uşaqları zindana salınacaq. Bu vaxt hökmdarlar Peyğəmbərin qabaqcadan dediyi yerləri tutacaq (Bəli, gözünün qabağına məhbusun iniltisi gələcək. Biləklərinin gücünü ölən ana saxla!). Hökmdarlar və valilərin necə təzyiqə məruz qalacağını görürəm. Xüsusən də o ölkələrdə ki, şərqə və ya dənizə yaxındır. Onların dilləri başqa dillərə qarışacaqdır. Belə ki, latın dili ərəb dili və Şimali Afrika məkanının finikiya-karfagen dilləri ilə qarışacaqdır. Bütün şərq hökmdarları öz torpaqlarından qovulacaqlar.

[1] Marsel şəhəri.
[2] İspaniyanın cənubunda silsilə dağlar.
[3] İsraildə şəhər.



*Von Rubbentrop, Stalin və Molotov bir-birinə hücum etməmək barədə sazişi imzalayarkən (1939)*

Lakin bu heç nəyə gətirib çıxarmayacaqdır. Təkcə ona görə yox ki, şimallı hökmdarlar güclü olacaqlar və ya bu zaman kəsiyində böyük dəyişikliklər olacaq. Ona görə ki, bir çox ölümlərdə günahkar olanlar, məxfi sazişlər bağlayanlar, bir-birinə hücum **edəcəklər[1]. Triumviratın[2]** bərpası yeddi il çəkəcəkdir. Və yeni məzhəbin şöhrəti bütün dünyaya yayılacaqdır. Heç nə ilə ləkələnməmiş müqəddəsin qurbanı Göylər tərəfindən qəbul olunacaqdır. Və bu vaxt iki hökmdar meydana gələcəkdir. Onlar Şərq uğrunda mübarizədə şimallıların tərəfində olacaq və qalib gələcəklər. Şiddətli

[1] Söhbət 1939-cu ilin 24 avqustunda bir-birinə hücum etməmək barədə məxfi saziş bağlayan Almaniya və Sovet İttifaqından gedir.

[2] Qədim Romada dövlətin üç şəxs tərəfindən idarə olunması. Burada üç dövlətin: ABŞ, Sovetlər İttifaqı və İngiltərənin dünya siyasətində həlledici rol oynamalarına işarə edilir.

döyüşlərdə hələ qardaş olmayan bu iki şimallı qardaşın qorxusundan, səs-küy və gurultudan yer-göy lərzəyə **gələcək**[1].

Əlahəzrət, bilirəm ki, qabaqcadan görərək qələmə aldığım bir çox hadisələr barədə anlaşılmaz və dumanlı danışıram. Xüsusən də labüd olaraq baş verəcək hadisələrin vaxtı barədə söz açanda. Mən vaxtı astronomiya qanunları və müqəddəs kitablara arxalanaraq hesabladığıma görə səhvə yol verdiyimdən söhbət gedə bilməz. Mən katrenlərimdə xatırlanan və baş verəcəyi gözlənilən bütün hadisələrin vaxtını tam dəqiqliyi ilə göstərə bilərdim. Lakin vaxtı və olacaq hadisələri təfsilatı ilə araşdırsaydım, bu bir çoxlarının ürəyindən olmazdı.

Əlahəzrət, Siz də məni buna sövq etməyin. Bu, mənim iftiraçılarımın mənə qarşı pis niyyətlərini həyata keçirməkdə əllərində bəhanə olardı. Buna baxmayaraq, dünyanın yaranmasından Nuhun anadan olduğu vaxta qədər olan zaman kəsiyini hesablasaq görərik ki, bu 1506 il edir. Nuh əyyamından, onun gəmi düzəltdiyindən və dünyanı su basan vaxta qədər 600 il keçib. Biz bu illəri şəmsi, qəməri və qarışıq illər **adlandıracağıq**[2]. Müqəddəs kitablardan da göründüyü kimi, məncə, bunlar şəmsi illər olub.

---

[1] Söhbət ABŞ və Rusiyadan gedir.

[2] Qədimdən üç cür astronomik təqvim mövcud olmuşdur: Şəmsi (Günəş) təqvimlər, Qəməri (Ay) təqvimlər, Qarışıq (Ay-Günəş) təqvimlər. Şəmsi təqvimlərin təməl zaman vahidi ildir. Burada Günəşin ulduzlar arasında zahiri (görünən) illik hərəkəti əsas götürülür. Qəməri təqvimlərdə təməl zaman vahidi aydır. Burada Ayın Yer ətrafında hərəkəti əsas götürülür.

Qarışıq (Ay-Günəş) təqvimlərdə isə təməl zaman vahidi ay və ildir. Ayın Yer ətrafında, Yerin isə Günəş ətrafında hərəkəti əsas götürülür. Hazırda dünyada ən çox işlənən Şəmsi təqvimdir. Qəməri (Ay) təqvimindən bəzi islam ölkələrində, qarışıq təqvimlərdən isə yalnız Musəvilər tərəfindən dini amaclarla istifadə edilir.

Demək lazımdır ki, keçmiş zamanı hesablayanda qarşıya böyük çətinliklər çıxır. Çox vaxt hər hansı tarixi müəyyənləşdirmək asan olmur. Bəzən bilmək olmur ki, göstərilən məlum tarix hansı təqvimlə hesablanıb. Bu çətinliyi, göründüyü kimi, Nostradamus da etiraf edir.

Dünyanı su basması və Nuhun gəmidə qalması 1 il 2 ay çəkib. Bu vaxtdan İbrahimin anadan olduğu ilə qədər 295 il keçib. İbrahimin dünyaya gəldiyi vaxtdan İshaqın doğumuna qədər olan vaxt 100 il edir.

İshaqın anadan olmasından Yəqubun (bu ada Yakov və ya İakov kimi də rast gəlinir – Q.P.) dünyaya gəlməsinə qədər vaxt 60 ilə bərabərdir. Yəqubun Misirə gəlişi və ölkəni tərk etməsi 130 il **çəkib[1].** Yəqubun gələcək nəsillərinin Misirlə vidalaşması, Xürucu (Misiri tərk etməsi) və Süleymanın hökmranlığının 4-cü ilində Qüdsdə Məscidi-Əqsanın bina edildiyi zaman kəsiyi 480 il edir. Məbəd tikiləndən İsa Peyğəmbər anadan olana qədər xronoqrafların göstərdiyinə görə 490 il **keçib[2].** Beləliklə, mənim müqəddəs kitablardan (Əhdi-Ətiq və Əhdi Cədid) götürdüyüm hesablamalar göstərir ki, o vaxtdan cəmisi 4173 il 8 aya qədər vaxt **keçmişdir[3].** Lakin mən İsa Peyğəmbərin anadan olduğu vaxtla indiki zaman kəsiyi barədə bir şey demirəm. Mən məzhəblər və sektalar arasındakı müxtəlif fikir və ixtilaflardan vaz keçərək öz şəxsi hesablamalarımı aparmışam. Mən öz biliciliyimi astronomik qanunlara tabe olan, fəza boyu dövr edən, ardıcıl, məntiqə uyğun, həqiqi hadisələr silsiləsində nəzərdən keçirirəm. Məni gələcəyə aparan anadangəlmə instinkt – sövq-təbii və qeyri-iradi iş görmə qabiliyyətidir.

Bir məsələni də unutmaq olmaz ki, planetlərin dəqiq dövretmə müddəti vardır. Məsələn, Saturnun bir dəfə dövr etməsi 7 aprel – 25

---

[1] Axund Əbdüssalam Axundzadə "Müqəddəs Peyğəmbərlər tarixi" kitabında göstərir ki, Yəqub Peyğəmbər Misirə gələndə 130 yaşı vardı. 17 il Misirdə yaşadıqdan sonra dünyasını dəyişmişdi. Bakı, Azərnəşr, 1993, səh. 40-41.

[2] Bu səhvdir. Həzrət Süleyman e.ə. 965-928-ci illər arası hakimiyyətdə olmuş və Məscidi-Əqsanı hakimiyyətinin 4-cü ili inşaya başlamışdı. Bu təqribən 961-ci ildə olmuşdur. Deməli, son rəqəm 490 deyil, 961-dir. Belə olanda Nostradamusun göstərdiyi 4133 (1506+600+295+1+100+60+130+480+961=4133) rəqəminə yaxınlaşır.

[3] Yuxarıda 4137 rəqəmi göstərilmişdi. Burada isə 4133 rəqəmi alınır. Qoy bu, oxucuları təəccübləndirməsin. Bu, təqvimlərin fərqindən əmələ gələ bilər.

avqust arasında davam edir. Yupiterin bir dövrü: 14 iyun – 7 oktyabr, Marsın bir dövrü: 26 aprel – 22 iyun, Veneranın bir dövrü: 9 aprel – 22 may, Merkurinin bir dövrü: 3-24 fevral, sonra 1-24 iyun. Nəhayət 25 sentyabr – 26 oktyabr arası Saturn Oğlaq bürcündə, Yupiter Akvariusda, Mars Əqrəb bürcündə, Venera Balıq bürcündə və s. olacaq. Həmin il əmin-amanlıq, sakitlik olacaq. Doğrudur, ilin əvvəlində kilsəyə qarşı hətta Afrikada görünməmiş amansız təqiblər olacaq. Bu, 1792-ci ildə baş **verəcək**[1]**.** Bu illəri hər kəs yeni dövrün başlanğıcı hesab **edəcəkdir**[2]**.** Bundan sonra **Roman xalqı**[3] da özünə gələcək, cəhalətdən uzaqlaşacaq və əvvəlki ağ günləri qismən geri qaytaracaqdır. Lakin artıq böyük parçalanmalar və davamlı dəyişikliklər olmayacaq. Bundan sonra Venesiya elə yüksələcəkdir ki, onun qüdrətini və təsir dairəsini Qədim Romanın gücü və əzəməti ilə müqayisə edəcəklər. Eyni zamanda **Vizantiya**[4] gəmiləri italyanların və akvilonluların – şimallıların gücü və köməyi sayəsində düşmənlər üçün keçilməz maneəyə çevriləcək. Bu vaxt Kritdən olanlar öz etiqadlarından əl çəkəcəklər. Onlar dostluğu qədim hərbçi mütəxəssislərin düzəltdiyi gəmilərə oxşayan, dalğaları asanlıqla yarıb keçən gəmilərdə axtaracaqlar. Adriatikada böyük iğtişaşlar baş verəcək. Əldə olunmuş, yaradılmış nə varsa məhv olacaq. Böyük bir şəhərdən yalnız bir ev qalacaq. Bu 45-ci en dairəsində yerləşən Pampotana və Avropa torpaqlarına və eləcə də 41, 42 və 47-ci en dairələrində yerləşən ölkələrə

---

[1] Nostradamus Fransa inqilabının vaxtını dahiyanəliklə dəqiq göstərmişdir.

[2] Fransa Milli Məclisinin qərarı ilə 1792-ci il 20 sentyabr yeni dövr, yeni təqvim hesab olunmuş, dövlət sənədləri və s. yeni Respublika dövrünün tarixi ilə buraxılmışdır. Doğrudur, dəyişikliklər də olmuşdur. Mütləqiyyətə son qoyulmuş, dövlət torpaq islahatı keçirmişdi. Lakin 1804-cü ildə Napoleon bu qərarı ləğv etmiş və köhnə tarixə qayıtmışdır. Nostradamus buna işarə edir.

[3] İtalyanlar nəzərdə tutulur.

[4] Vizantiya dövləti Roma imperiyası dağılandan sonra meydana gəlmişdi. Paytaxtı Konstantinopol (İstanbul) olmuşdur. 1453-cü ildə Osmanlı İmperiyası paytaxtına çevrilmişdir.

aiddir. Bu ölkələrdə son dərəcə güclü qüvvələr dinə qarşı çıxacaqlar. İkinci Antixrist hakimiyyətə gələcək. Dinə və din xadimlərinə qarşı çıxacaq. Bu iradəcə güclü adamın dili, əlində cida olan dəlidən daha təhlükəli olacaq. Zəmanəsinin yetirməsi olan bu Antixristin hakimiyyəti çox **sürməyəcəkdir**[1]**.**

Plankus (Lion) şəhərindən olan başqa birisini Ferraridən, Modenadan (İtaliyanın şimalında şəhərlər), Fulseyadan olan seçmə qoşun hissələri müşayiət edəcəkdir. Adriatikalılar və **liquriyalılar**[2] ona kömək göstərəcəklər. Demək olar ki, gəlib lap böyük Trinakriyaya (Siciliyaya) yaxınlaşacaqlar. Bundan sonra qalliyalı (fransız) Oqmion Mont Javyerdən (Barselona) keçərək çox böyük ordu ilə irəliləyəcək. İmperiyanın sərhədlərindən uzaqda olsalar da, imperiyanın bütün qanunları onlara şamil ediləcəkdir. Müəyyən vaxtdan sonra günahsız adamların qanı töküləcək. Tökülmüş qan o qədər çox olacaqdır ki, az qala onu axıdanlar özləri onun içində boğulacaqlar. Sonra böyük daşqınlar bu fəlakət və bəlaları hafizələrdən siləcək. Yazılı abidələrdə də bu barədə bir şey tapmaq mümkün olmayacaq. Çünki bu dəhşətli hadisələr hətta salnaməçilərin nitqinin tutulmasına, barmaqlarının keyləşməsinə, abidələrin məhvinə gətirib çıxaracaqdır. Bu fəlakətlər eyni ilə şimallıların da başına gələcək. Lakin tezliklə Yaradanın iradəsi ilə fitnə-fəsad tərəfdarlarının əl-qolu bağlanacaq və dünyada əmin-amanlıq, asayiş bərqərar olacaqdır. Baxmayaraq ki, **filistinlilər**[3] öz şirnikləndirici əməlləri ilə günahlarını bala qatmağa cürət edəcəklər. Əgər müqəddəs İsanın məbədləri şimaldan gələn dinsizlər tərəfindən tapdalanmasa, kilsə təqiblərdən azad olacaq. Bu təqribən 7-ci minillikdə baş verəcəkdir. Dünya dağılmaq dərəcəsinə gəlib çata-

[1] Söhbət Hitlerdən gedir. Katrendə onun adı və 11 il hakimiyyətdə olacağı (1934-1945) da dəqiq göstərilmişdir (bax: 5 k29).

[2] Venesiyalılar.

[3] Fələstinlilər. Yeni eradan əvvəl XII əsrdən Aralıq dənizinin cənub-şərqində məskunlaşan xalq.

caqdır. Bununla belə, mənim hesablamalarım və görücülüyüm bundan çox-çox sonralardan xəbər verir.

Təqribən iki il bundan əvvəl oğlum Sezar Nostradamusa yazdığım məktubda açıqca göstərmişəm ki, elə şeylər var ki, sözün həqiqi mənasında Peyğəmbərlik adlandırmaq olmaz. **Bununla belə, mən gələcəkdə baş verəcək və bizdən sonra gələnlərə qismət olacaq çox böyük və ecazkar hadisələri bütün qəlbimlə hiss edir və görürəm.** Astrologiya və müqəddəs kitabların köməyi ilə apardığımız hesablamalara əsasən etiraf etməliyik ki, Şərq hökmdarı ilə birləşmiş Şimal hökmdarı din xadimlərini təqib edəcək. Bu təqiblər 11 ilə qədər, yəni şimallı hökmdarın hakimiyyətinin sona yetdiyi vaxta qədər davam **edəcəkdir[1].** Cənublu müttəfiq də qəddarlığı ilə **seçiləcəkdir[2].** Din xadimləri və dini ocaqlar üç il ərzində kilsədə hökmran olan antipapanın günahı nəticəsində amansızcasına təqib **olunacaqlar[3].** Müqəddəslər, Yaradanın göstərdiyi yolla gedən dindarlar təqiblərə məruz qalsalar da dözəcəklər. Lakin qanlar axacaq. Müdhiş hökmdardan birinin vaxtında tökülən qan qədər heç yerdə şərab hazırlanmayacaqdır. İnsan qanı küçələrdə və məbədgahlarda su yerinə axacaqdır. Yaxınlıqda axan çaylar qandan allaşacaq. Döyüş vaxtı dənizdə axan qandan dənizin suyu qırmızı rəngə çalacaq. Hökmdarlardan biri o birisinə deyəcək: "Dəniz suları kinovara (qırmızı rəngli mineral) bənzəyir". Elə həmin il və sonrakı illər taun xəstəliyi yayılacaqdır. Xris-

[1] Söhbət II Dünya müharibəsi ərəfəsində və müharibə vaxtı Almaniya ilə Yaponiyanın İttifaqından gedir. Doğrudan da Hitler 11 il (1934-1945) hakimiyyətdə olmuşdur.

[2] Söhbət Mussolinidən gedir.

[3] Antipapa. Katolik kilsəsi tərəfindən qəbul edilməyən Roma papası. Orta əsrlərdə müxtəlif kilsə və kübar dairələr tərəfindən irəli sürülmüş bir neçə nəfər eyni vaxtda Papa taxtına əyləşdirilərmiş. Sonralar onlardan yalnız biri Papa kimi tanınar, qalanları isə antipapa adlanarmış. Onlar, indiki anlayışla desək, Papaya müxalifətdə olarmışlar. Onların törətdikləri fitnə-fəsadla bərabər, demokratiyanın inkişafına təkan vermələri də diqqəti çəkir.

tianlığın meydana gəldiyi vaxtdan latın ölkələrinin görmədiyi talan və soyğunlar olacaq. Bu, ispan hökmdarına tabe olan bəzi yerlərdə öz izini qoyacaq. Bu zaman onun özünə ən yüksək rütbə verən hökmdardan xalqın narazı olduğunu eşidən üçüncü şimallı hökmdar sələflərinin və ulu babalarının görmədiyi güclü bir ordu yaradacaq. Bunun sayəsində həmin hökmdar və yaxın adamları ölkələrində hakim mövqeyi öz əllərində saxlayacaqlar. Baş Yepiskopu formal olaraq öz əvvəlki vəzifəsinə bərpa edəcəklər. Lakin o, müqəddəs yerlərə gələndə onların yeni büdpərəstlər tərəfindən bərbad və biabırçı hala salındığının şahidi olacaq. Dəhşətə gələrək düşkünləşəcək. Əhdi-Ətiq və Əhdi-Cədid lağa qoyularaq **yandırılacaq**[1]**.** Bundan sonra Antixrist Cəhənnəm şahzadəsinə çevriləcək. Bu, xristian dövlətinin və illərcə onlarla mübarizə aparan, Allaha inanmayan hökmdarın rəhbərlik etdiyi ölkələrin son dövrü olacaq. O zaman çoxlu acınacaqlı müharibə və döyüşlər baş verəcəkdir. Şəhərlər, qəsəbələr, qalalar və başqa tikililər yandırılacaq və dağıdılacaq. Bu vaxt xeyli əsgərin və eləcə də qızların qanı töküləcək. Südəmər uşaqlı qadınlar ümidsizliyə qapılaraq özlərini şəhər divarlarından atacaqlar. Beləliklə, Cəhənnəm şahzadəsi şeytandan çox bəlalar gələcək. Bütün dünya uzun müddət xarabalığa çevriləcək və ədavət məngənəsində boğulacaqdır. Lakin bu baş verməzdən əvvəl əcaib-qəraib görkəmi olan çoxlu quş havada qanad çalaraq qışqırtı salacaq: "Hey, hey! (İndi-indi!)". Quşlar gözdən itənə qədər bu tükürpədici səslər eşidiləcəkdir.[2]

Sonralar isə işgüzarlıq, din və bərəkət dövrü, Saturnun hökmranlığı və "qızıl əsr" dövrü başlayacaq. Bir gün Yeri-Göyü Yaradan deyəcək:

"Xəlq etdiyim bəndələrə üz verən müsibətlər, əzab-əziyyət bəsdir".

---

[1] Söhbət sovet rejimi vaxtı ruhanilərin başına gətirilən müsibətlərdən və müqəddəs kitabların yandırılmasından gedir.

[2] Mütləq bax: 2 k46.

Şeytan qandallanıb dibi görünməyən uçuruma atılacaq. Beləliklə, Yer üzündə Yaradanla bəndələri arasında iltifatlı, bəxtiyar bir dövr başlayacaq. Qadir Allah öz qüdrətini göstərəcək və şeytan min il müddətinə buxovlanacaqdır. Bundan sonra yenə canlanacaqdır.

Əlahəzrət, bir daha deyirəm ki, mənim bütün duyğu və fikirlərim Ruhülqüds və müqəddəs kitablardan gəlmədir. Demək olar ki, Saturn, Yupiter, Mars və başqa planetlər və ulduzlar bu ruhla birləşir. Bu barədə mənim katrenlərimdən çıxış edərək fikir söyləmək olar. Mən gələcəkdə baş verəcək hadisələrin vaxtını daha dərindən hesablayaraq başqa alimlərin hesablamaları ilə əlaqələndirə bilərdim.

Mənim bənzərsiz hökmdarım, məni təftiş etməyə hazır olanları gördüyümdən qələmi yerə qoyuram.

Əlahəzrət, dünyada hamının asılı olduğu o qədər şeylər, hadisələr vardır ki, mən bu Açıqlamada yaxın və uzaq gələcəkdə baş verəcək ən maraqlı, diqqətəlayiq hadisələri təsvir etmək bir yana, heç sadalayıb qurtara da bilmərəm. Ancaq burada yalnız məntiqi cəhətdən aydınlaşdırdığım, şər qüvvələr başının üstünü qara bulud (kabus) kimi alan, alın yazısı ilə bağlı olan bəzi əlamətdar hadisələrin xülasəsini vermişəm. Sizin vüsətiniz, insanpərvərliyiniz və Yaradana inamınız o qədər böyükdür ki, ən böyük rütbə yalnız Sizə layiqdir.

Mənim xristianlığa ləyaqətlə xidmət edən hökmdarım, inanmaq istəyirəm ki, Siz ən yüksək nüfuz sahibi və bütün dinlərdən gərəyincə məlumatlı ali şəxsiyyət kimi mənə qarşı mərhəmətli olacaqsınız.

Sizdən artıq dərəcədə təvəqqe edirəm, məni düz başa düşün. Mən Sizə ürəyimin hökmü ilə itaət edirəm.

Mənim misilsiz hökmdarım, Sizin hökmdar əzəmətinizi öz gözlərimlə görəndən bəri ona can atıram ki, mənim dediklərimin adi söz deyil, mənalı mətləblər olduğu qəbul edilsin.

***Sadiq bəndəniz Mişel Nostradamus***
***Provans vilayəti, Salon şəhəri.***
***Açıqlama 27 iyun 1557-ci il tarixdə göndərilib***



***Nostradamusun Salon şəhərində heykəli. Heykəltəraş Jozef Re (1866)***



***Görücünün ölümünün 400 illiyi münasibəti ilə metaldan düzəldilmiş abidə (1966). Heykəltəraş François Bouche. Sonralar yük maşını abidəni dağıdıb***



***Əvvəlki abidənin yerində ucaldılmış möhtəşəm beton abidə (1979). Heykəltəraş François Bouche***

# ŞÖHRƏTLİ ORANJA ŞƏHƏR BAŞ KİLSƏSİNİN MÜQƏDDƏSLƏRİNƏ

**Hörmətli cənablar!**

İtki və oğurluqla bağlı sorğunuza cavab olaraq tərtib etdiyim astronomik cizginin sayəsində görə bilərsiniz ki, müqəddəs əşyaların oğurlanması Sizin iki kilsə qardaşınızın buna şərait yaratması nəticəsində baş vermişdir. Onlar gümüş əşyaların oğurlanması barədə fikir söyləyən adamlardır. Yada salsanız görəcəksiniz ki, onlardan biri belə fərziyyə ilə çıxış edirdi ki, qiymətli əşyaları Aviniona ötürüblər. O birisi isə deyirdi ki, müqəddəs əşyalar məlum olmayan başqa bir yerə göndərilib. Onların hər ikisi hesab edirdi ki, gümüş qablar artıq satılıb, onların məqsədləri məhz bu idi.

Əldə olunmuş qəniməti indi özlərini əsgərə oxşadan kilsə xadimləri arasında bölüşdürmək nəzərdə tutulmuşdu.

Bu fikir mərhəmət və ya möminliklə deyil, tamahkarlıqla, acgözlüklə bağlı meydana gəlmişdi. Bəziləri bu fikirlə razılaşmamışdılar. Lakin əksəriyyət razı qalmışdı. Narazı olanlar da axırda razılaşdılar. Gümüş əşyalar Sizin adamların birinin evinə gətirilərək etibarlı yerdə gizlədiləndən sonra söz-söhbət kəsildi. Bu, bəzilərinin ürəyindən olmadı. Onların bir təklifi bu idi ki, gümüş əridilsin və dördyanlı kütlə metal (bruski) halına salınaraq bir evdə saxlanılsın. Sonra iki-üç nəfər bəyan etdi ki, bunu uzun müddət etmək olmaz, ona görə ki, Roma katolik kilsəsi müdhiş hadisələrə cəlb olunacaqdır. Beləliklə, gümüşü möhkəmcə bağlı yerdə gizlətdilər. Bununla belə, oğrulardan ikisi yenə də israr edirdi ki, onu əridib birinin evində saxlamaq və əl altından satmaq lazımdır.

Oğrular üç nəfər Sizin kilsə qardaşlarınız olub. Pulla mühafizəçini ələ alaraq hər şeyi oğurlamaq fikrində idilər. Ona görə ki, Siz qoyunu qurda etibar edibsiniz. Necə ki, İsus Xristos bir müddət dindarlar adı ilə kilsəni qarət edənlərə etibar etmişdi, eləcə də Siz krallar, hökmdarlar tərəfindən hədiyyə olunub ibadətgahı bəzəyən əşyaları qurda etibar edibsiniz.

Çox hörmətli cənablar, agah olun ki, əgər müqəddəs əşyaların oğurlanmasında əli olanlar, onları məbədgaha qaytarmasalar böyük bəlaya düçar olacaqlar. Əvvəllər bəzi adamların və ailələrinin başına gələn faciə onları da gözləyir. Hələ bu hamısı deyil. Şəhərinizdə taun baş verəcək. Məhz buna görə də qoy günahkarlar müqavimət göstərməsinlər.

Keşişlər də öz yoldaşlarına münasibətdə xeyirxah Allaha bənzəyirlər. Lakin görəcəklər ki, Tanrı onun ibadətgahını murdarlayanları, oğruları necə cəzalandıracaq.

Buna görə də mənim məktubumu öz adamlarınıza oxuyun (Lakin hamı yığışmamış bunu etməyin). Onda görəcəksiniz ki, oğurluqda əli olanlar utanaraq özlərini itirəcək və qızaracaqlar. Çünki onları şübhəyə salan hisslərini gizlədə bilməyəcəklər.

Mənim məktubumu həqiqətin nişanəsi kimi saxlayın (gələcək göstərəcək bu həqiqəti).

Hörmətli cənablar, Sizi inandırıram ki, hər hansı bir yolla oğurlanmış əşyalar qaytarılmasa, oğrular heç kimin başına gəlməmiş əzab-əziyyətlə öləcəklər.

Mən həddən artıq təəssüf hissi keçirirəm ki, quzu canavara tapşırılıb. Elə buna görə də bu məktubu yazdım.

Bu məktubda göstərilənlərin hamısı astronomik hesablamalara uyğun gəlir. Lakin kimisə təhqir etmək təbiətimə yad olduğundan bildirmək istəyirəm ki, mən də canlı insanam, səhv edə, aldana bilərəm. Bununla belə, əgər şəhərinizdə astronomiya elmindən xəbəri olan bir şəxs varsa, qoy mənim təqdim etdiyim cizgini diqqətlə nəzərdən keçirsin. Bu işdə səriştəsi olsa görəcək ki, mən əsl həqiqəti deyirəm.

Cənablar, şübhə etməyin, tezliklə oğurluq mal tapılacaq. Tapılmasa əmin olun ki, oğruların aqibəti çox pis olacaq.

İndilikdə bundan artıq bir şey deyə bilmərəm. Yaradan köməyiniz olsun və Sizi əvvəlki vəziyyətə gətirsin.

Özünü cinayətkarların arasında görmək istəməyən bəzi adamlar məktubumdan narazı qalacaqlar.

Qoy Allah Sizi şərdən, bəladan qorusun!

***Salon şəhəri, 4 fevral 1562-ci il***

# GÖRÜCÜNÜN GÖRÜCÜ BARƏDƏ DÜŞÜNCƏLƏRİ

"Pari – Matç" jurnalının müxbiri Mari – Terez de Bross Nostradamusun katrenlərinin şərhçisi, tanınmış görücü V.İoneskudan müsahibə almaq üçün məxsusi olaraq ABŞ-a gedib. Müsahibə o qədər maraqlı keçib ki, nəticədə onların "Nostradamusun son qələbələri" adlı, dialoq şəklində kitabı meydana gəlib.

Düşündürücü və maraqlı olduğuna şübhə etmədiyimiz həmin kitabdan götürülmüş bir parçanı oxuculara təqdim edirik.

*Bross:* *2000-ci ilin sonuna az qalıb. Yeni minillikdə bizi nələr gözləyir?*

İonesku: Təəssüflə deməliyəm ki, Nostradamusun bəyan etdikləri yaxın illərdə nikbinliyə əsas vermir. Ümidverici hadisələr – Sovet İttifaqının və onun tərəfdarları olan kiçik dövlətlərin iflası artıq tarixə keçmişdir. Yadınıza salım ki, bu barədə mən hələ 1976-cı ildə yazmışdım. Bu gün, faciə və fəlakətlərlə insanları qorxutmaq istəməzdim. Bu, Nostradamusun da qəsdi olmayıb. Lakin gələcək Avropaya yaxşı bir şey vəd etmir. Mənim təhlilim düz çıxsa, deməliyəm ki, Fransada yaxın illərdə parlament sistemi məhv olacaq, monarxiya bərpa olunacaq. Avropa Birliyi müvəffəqiyyətsizliyə uğrayacaq. İtaliyada inqilab olacaq. Kilsəyə qarşı kəskin hücumlar olacaq, Müqəddəs Papalığa son qoyulacaq, ölkədə Mussolininin diktaturasına bənzər diktatura hakimiyyəti yaranacaq. Dünyada qızğın silahlanma hökm sürəcək. İqtisadi böhran Amerikanın zəifləməsinə gətirib çıxaracaq. Fəqət ən ciddi hadisələr 20 ildən sonra, Avropaya islam – Asiya hücumları başlayanda baş verəcək. Və bu sülhməramlı işğal olmayacaq. Bu vaxt qan su yerinə axacaq.

*Bross:* *Nostradamusla bağlı sizin şərhiniz başqalarının şərhindən bəzən çox fərqlənir. 1999-cu ildə Vahiməli Böyük kralın gələcəyi barədə sizin şərhiniz həddən artıq gözlənilməz oldu. Çoxları həmin vaxtı qorxu ilə gözləyir. Yeni minillik ərəfəsində Avropanı vahimə bürüyüb. Yeri gəlmişkən, Nostradamus, kralın gəlişi tarixini dəqiq göstərib.*

İonesku: Mən də əvvəllər bəzi şərhçilər kimi fikirləşirdim ki, söhbət yeni Çingizxandan gedir. Nəhayət qərara gəldim ki, Nostradamus Fransada yeni hökmdarın meydana gəlməsindən söz açır. Gələcək hökmdar Günün tutulması vaxtı doğulacaq.

*Bross:* *Güman etmək olarmı ki, Respublika Fransasında yenidən monarxiya bərpa olunsun?*

İonesku: Bəli. Gələcək Monarxın damarlarında qədim kral nəslinin qanı axacaq. Ola bilsin ki, o Burbonlar sülaləsindən olacaq. Həddən artıq güclü adam olacaq. O, islam qəsbkarlarını ölkədən qovub çıxaracaq və katolikliyi müdafiə edəcək. Yeni Monarx 1999-cu ilin avqust ayının 11-də dünyaya gələcək. O, Böyük Papanın dönüşünü həyata keçirəcək.

*Bross:* *Sizin görücülüyünüzə görə Böyük adam tezliklə gələcək. Daha doğrusu, İohann II Paveli əvəz edən antipapanın yerinə gələcək? Bu çoxlarını təəccübləndirə bilər. Çünki belə bir hadisə XV əsrdə baş vermişdi. Mən Papa və antipapanın eyni vaxtda seçilməsini nəzərdə tuturam.*

İonesku: İohann II Paveldən sonra katolik kilsəsində böyük dəyişikliklər olacaq. İkitirəlik baş verəcək. Eyni vaxtda iki papa seçiləcək. Onlardan bir antipapa olacaq.

*Bross:* *Siz asiyalıların Avropaya basqınından söz açdınız…*

İonesku: İki hücumdan danışmaq olar. Biri Mərkəzi Asiyadan, digəri İran və ya regionun başqa bir dövlətindən.

Nostradamusun təbirincə desək, bu iki Antixrist Qərbə qarşı birləşəcək. Deməliyəm ki, Nostradamus Qərb dövlətlərinin birləşmiş ordusunun qalib gələcəyini göstərib. Görücü bu mübarizədə iki Şimal dövlətinin birləşəcəyini də bəyan edib.

*Bross:* *Görəsən Rusiya və Amerikanı nəzərdə tutur?*

İonesku: Ola bilsin bu birlik onların qüdrətli dövlət kimi qalmalarını təmin edərdi. Hər halda hərbi cəhətdən Amerika iki dünya müharibəsində olduğu kimi, mübahisəli məsələlərdə Avropa dövlətlərinin tərəfində olardı.

*Bross:* *Belə çıxır ki, yenə də bizi amerikalılar xilas edəcəklər. Görünür, Nostradamus amerikalılara açıq meyil göstərib.*

İonesku: Şübhə yoxdur ki, kommunizmin qatı düşməni olub, onu "xəstəlik" adlandıran Amerika Nostradamusun düşüncə tərzinə uyğun gəldiyinə görə danılmaz dəyər təşkil edir. Bununla belə, ABŞ-ın gələcəyi barədə görücünün fikirləri o qədər də ürəkaçan deyil. Rəhbər rol oynamaq məsələsində general Vaşinqton zamanında və Amerikanın əsası qoyulan dövrdəki ilə indiki Amerika arasında dərin fərq hiss olunur. Nostradamus hadisələrin cərəyan etməsini izlədikcə, onun da ölkəyə olan münasibəti dəyişmişdir. Bu böyük millətə xas olan "son dərəcə güclü kapitalizm", pula və maddi nemətlərə hədsiz ehtirasa görə görücü onu pisləyir. Bəli, Amerika şərəf, ehtiram və nüfuzunu itirə bilər.

*Bross:* *Siz "dünyanın yeni idarə üsulu"nun bostanına daş atırsınız. Lakin gəlin elə indicə söhbət açdığımız məsələlərə qayıdaq. Siz onların nə vaxt baş verə biləcəyini və ya heç olmazsa dövrü göstərə bilərsinizmi?*

İonesku: Qeyd edim ki, Nostradamus vaxtı ayırd edəndə tez-tez planetlərin düzülüşünə isnad edir. Təsdiq etmək olar ki, deyilənlər 2023 və ya 2024 -cü ildə baş verəcək.

*Bross:* *Nostradamusun bəyan etdiklərinin dəqiq vaxtını təyin etmək çətin məsələdir. Görücü 1999 və 3797-ci illərdən başqa dəqiq vaxt göstərməyib (Görünür, cənab Bross bu müsahibəni aparanda Nostradamusun katrenlərini axıra kimi oxumayıbmış. Əks təqdirdə Nostradamusun katrenlərində dəfələrlə dəqiq vaxtın göstərildiyinin şahidi olardı – Q.P.).*

İonesku: Unutmayın ki, planetlərin düzülüşü bizə imkan verir ki, həmin vaxtı astronomik hesablamalarla müəyyənləşdirək. Lakin şübhə yoxdur ki, görücünün katrenlərini düzgün şərh etməyi bacarmaq lazımdır. Çalışmaq lazımdır ki, göy cisimlərinin hansı vəzyyətdə olduqlarını göstərən astronomik cədvəldə planetlərin müvafiq düzülüşünü göstərən vaxtı müəyyən edə biləsən.

*Bross:* *Lakin belə bir çətin işi – şifri açma işini kim edə bilər?*

İonesku: Görücü dəqiq vaxtı göstərir. Şifri açmağa cəhd edənlərin çoxu ona görə müvəffəqiyyətsizliyə uğrayıb ki, sadəcə olaraq onların bilikləri çatmayıb və ya onların düz gələn yanaşma metodları olmayıb. Belə metodlar vardır.

*Bross:* *Belə bir uğur barədə bir misal göstərə bilərsinizmi?*

İonesku: Bəli. Nostradamusun sayəsində mən dəqiq göstərmişdim ki, Qorbaçovun siyasi karyerasına Yupiter Şir bürcündən keçəndə son qoyulacaq. Bu keçid 11 sentyabrda başa çatdığından mən onu hesablaya bilmişdim. 1991-ci ilin aprel ayında mən Yaponiyada olanda bunu bəyan etmişdim. O vaxt Qorbaçov da Yaponiyada idi. Mənim fikrim bəzilərini şok vəziyyətinə saldı. Bəziləri isə sözlərimi yaponlara xas olan təbəssümlə qarşıladılar. Qalmaqal düşdü! Qorbaçov siyasi səhnəni tərk edəndə mənim naşirlərimin nə qədər məktub aldığını təsəvvür etmək çətin deyil. Astrono-

mik rəqəmlər və hesablamalarım mənə imkan vermişdi ki, 40 il öncə Sovet İttifaqında kommunizmin süqutunu bəyan edim (Əslində, Sovet İttifaqının 73 il, yeddi aydan sonra dağılacağını Nostradamus Fransa kralı II Henriyə ünvanladığı Açıqlamada göstərmişdi – Q.P.).

*Bross:* *Nostradamusun görücülüyü ilə bağlı həqiqətə çevrilən şərhlərinizdən bir neçəsini saya bilərsinizmi? Danılmaz faktdır ki, Nostradamusun şərhçilərinin çoxu düzgün qənaətə gələ bilməyib.*

İonesku: Bəli, saya bilərəm. Məsələn, Niksonun 2-ci müddətə Prezident seçilməsi. Amerika ordularının Vyetnamdan çıxarılması. Nostradamusun katrenlərini analiz edərkən mən məşhur "Uoterqeyt" qalmaqalını üzə çıxara bilmişəm.

*Bross:* *Doğrudanmı, Siz "Uoterqeyt" qalmaqalının baş verə biləcəyini əvvəlcədən bilirdiniz?*

İonesku: Hələ 1973-cü ildə mən Prezident Niksona onu hansı qorxu gözlədiyi barədə məlumat vermişdim. Mən ona şərh olunmuş katrenin (7 k19) mətnini göndərdim və xəbərdar etdim ki, o, böyük bir qalmaqalla üzləşəcək və vəzifəsini itirəcək.

*Bross:* *Ağ evin sizə göndərdiyi sənədin surəti məndədir. Sizi ciddi qəbul etməmişdilər. Öz aramızda, əgər Nostradamus bəyan edibsə ki, səs-küylü qalmaqalın nəticəsində Nikson tutduğu vəzifəni itirəcək, siz hadisələrin gedişinə necə təsir edə bilərdiniz? Axı siz görücünün bəyan etdiklərini necə təkzib edə bilərdiniz?*

İonesku: Niksona göndərdiyim xəbərdarlıq əsasında lazımi tədbirlər görülsəydi, baş vermiş vəziyyətdən ləyaqətlə çıxmaq üçün ona kömək edə bilərdi. Lakin mən heç cür hesab etmirəm ki, görücünün bəyan etdiklərinin qarşısını ala bilərəm. Eyni zamanda mən katrenləri

şərh edərkən, heç vaxt Nostradamusun bəyan etdiklərini şübhə altına almamışam.

*Bross:* *Sizi dinlədikcə adam istər-istəməz o qənaətə gəlir ki, tarix təkrarən hərəkət edərək bizi arxaya – Şərqlə Qərbin, xristianlarla kafirlərin (başqa dindən olanlar – Q.P.) qarşıdurması dövrünə qaytarır. Qəribədir ki, XXI əsrə qədəm qoyduğumuz indiki zamanda da sözün həqiqi mənasında antixrist, barbar və s. sözlər işlədilməkdədir.*

İonesku: Tarix dövri xarakter daşıyır. Keçmişə dönüş müntəzəm olaraq baş verir.

*Bross:* *Mən sizə heyranlıqla qulaq asıram. Deməli, katolik kilsəsinin qüdrəti bərpa olunacaq. Bununla belə, biz hazırkı vəziyyətə göz yuma bilmərik. Kilsə get-gedə əhalinin ən vacib problemlərinin həllindən kənarda qalır. Zamanın qarşıya qoyduğu suallara cavab verməkdə zəiflik göstərir.*

İonesku: Sizcə, xristianlıq xalqların gələcək həyatından kənarda qalacaq. Təkrar edirəm ki, Nostradamus hesab edir ki, tarix və eləcə də din dövri xarakterdə inkişaf edir. Antixristian dalğaları vaxtaşırı geriyə doğru, özü də yeni həvəslə kilsəyə, inamın həqiqi mənbəyinə doğru dönüşlə baş verir. Xruşşovdan sonra Rusiyada inama və imana dönüş yarandı və bu dönüş 1991-ci ildə Yeltsinin qələbəsinin təmin olunmasında həlledici rol oynadı. Rusiyada və Avropanın azad olmuş ölkələrində pravoslav məzhəbinə dönüş şübhə doğurmur.

# VANQA İLƏ MÜSAHİBƏ

Vanqanın bacısı qızı Krasimira Stoyanova illər boyu görücünün yanında olub, müşahidələr aparıb, onunla söhbətlərini qeyd edib. Oxucular üçün maraqlı olacağını nəzərə alaraq onların söhbətlərinin bəzi məqamlarını burada verməyi lazım bildik.

*Sual:* *Xala, elə olurmu ki, insanın xarici görünüşü, müəyyən peyzajlar, hadisələr gözünün önündə canlansın?*
Cavab: Bəli, mən hər şeyi dəqiq görürəm.
*Sual:* *Onlar keçmişdə, indiki zamanda və ya gələcəkdə baş verir?*
Cavab: Fərq etmir.
*Sual:* *Gördüyün informasiya şəklində olur, yoxsa insan gözlərin önündə canlanır?*
Cavab: Hər ikisi eyni vaxtda baş verir.
*Sual:* *İnsanın xüsusi kodu olurmu ki, izləməklə onun taleyini axıra kimi görmək olsun?*
Vanqa bu sualı cavabsız qoyub.
*Sual:* *Bu və ya başqa şəxsin gələcəyi gözünün önündə necə canlanır? Ayrı-ayrı mühüm hadisələr, yoxsa bütün həyatı?*
Cavab: İnsanın həyatını kinolentdə olan kimi görürəm.
*Sual:* *İnsanın fikrini oxuya bilirsənmi?*
Cavab: Bəli.
*Sual:* *İnsanın fikrini hansı məsafədən oxuya bilirsən?*
Cavab: Fərq etmir. Məsafənin heç bir rolu yoxdur.
*Sual:* *Əcnəbilərin də fikrini oxuya bilirsənmi? İnformasiya hansı dildə olur?*
Cavab: Oxuyuram. Adətən səs eşidirəm. Məlumat bolqar dilində olur. Bu işdə dil problemi yoxdur.

*Sual:* *Yanına gələn adamın yaxın zamanda başına gələcək faciə və ya ölüm haqda İlahi qüdrətlə dəqiq məlumatın olduğu halda, onu bu bəla və ya ölümdən qurtara bilməzsənmi?*

Cavab: Xeyir. Nə mən, nə də başqası artıq heç nə edə bilməz.

*Sual:* *Əgər fəlakət bir nəfərin deyil, bir şəhərin, çoxlu adamın, hətta dövlətin başına gələcəksə necə? Təşəbbüs göstərib bir şey etmək mümkündürmü?*

Cavab: Yox. Belə bir cəhd mənasızdır. Taledən qaçmaq mümkün deyil.

*Sual:* *Yanına imdada gələnin əsas probleminin nədən ibarət olduğunu necə bilirsən?*

Cavab: Bir yandan həmin adam haqqında mənə səs" vasitəsi ilə məlumat verilir, başqa bir tərəfdən də onun obrazı gözümün önündə canlanır və onun mənə pənah gətirməyinin səbəbi aydın olur.

*Sual:* *Xala, necə bilirsən, görücülük qabiliyyətin haradandır?*

Cavab: Mənim görücülüyüm kosmosdan – Ali qüdrətdəndir.

*Sual:* *Xala, ölmüş adam gözlərin önündə necə canlanır?*

Cavab: Mən onun həm obrazını görürəm, həm də səsini eşidirəm.

*Sual:* *Ölmüş adamla kontakt zamanı o, yalnız suallara cavab verir?*

Cavab: Həm cavab verir, həm də özü suallar verir.

*Sual:* *Öləndən sonra şəxsiyyət qalırmı?*

Cavab: Bəli, qalır.

*Sual:* *Xala, sən ölümü necə qəbul edirsən?*

Cavab: Yalnız və yalnız fiziki cəhətdən sonluq kimi.

*Sual:* *Ölüm ayağında olan adamın vəziyyətini təsvir edə bilərsənmi?*

Cavab: Ölmək məqamında olan adam həyatı boyu gördüyü, lakin artıq dünyasını dəyişmiş adamların ruhları ilə görüşür. Ruhlar ona əbədi dünyaya hazırlaşmağa kömək edir. (Azərbaycanın Baş reanimatoloqu, prof. Abbas Axunbəyli ilə söhbətləşəndə o, Vanqanın sözlərini nəinki təsdiqlədi, hətta əlavə etdi ki, insan ölüm ayağında olanda çoxdan dünyasını dəyişmiş adamların adını çəkir, sanki onlarla danışır – Q.P.)

*Sual: Ölümdən sonra insan yenidən dünyaya gəlirmi?*

Vanqa sualı cavabsız qoyub.

*Sual: Ali İdrak haradan yaranır? Kosmosdan, qədim sivilizasiyadan və ya planetimizdən?*

Cavab: Ali İdrak kosmosdan başlayır. O əbədi və nəhayətsizdir. Hər şey ona tabedir. Ali İdrakla müqayisədə planetimizdəki sivilizasiyanın düşüncəsi uşaqlıq dərrakəsinə bənzəyir.

*Sual: Doğrudurmu ki, planetimizə başqa planetlərdən bizim sadəlövhlüklə uçan boşqablar (tarelkalar) adlandırdığımız kosmik gəmilər gəlirlər?*

Cavab: Bəli, gəlirlər.

*Sual: Onlar haradan gəlirlər?*

Cavab: Özlərinin "Vamfim"" adlandırdıqları planetdən.

*Sual: Bizim sivilizasiyaya qədər Yer üzündə sivilizasiyalar olubmu?*

Cavab: Bəli, olub.

*Sual: Başqa sivilizasiyaların nümayəndələri ilə görüşlər olacaqmı?*

Cavab: Bəli, olacaq.

*Sual: Sağlamlığı qorumaq üçün nə etmək lazımdır?*

Cavab: Buna xüsusi resept yoxdur. İnsan yaxşı bilir ki, nə yaxşıdır, nə pisdir. Ən əsası odur ki, qaydasınca yeyəsən. Qədərindən artıq yemək bədənin bütün üzv-

lərinə mənfi təsir edir. Bizə çox yemək lazım olsa idi, təbiət hər birimizə iki mədə bəxş edərdi. İnsan çox yeməkdən çəkinməli, çox hərəkətdə olmalı, çox işləməli, axşam tez yatıb, səhər erkən qalxmalıdır.

*Sual:* *Dünyanın sonu gələcəkmi?*

Cavab: Ağılsız söhbətdir.

*Sual:* *Xərçəng xəstəliyinin əlacı tapılacaqmı?*

Cavab: Gün gələcək xərçəng xəstəliyi dəmir zəncirlə buxovlanacaq. Yaxın gələcəkdə insanlar sağlamlıqlarını bərpa etmək üçün dərman icad edəcəklər. Bu dərman at, it və tısbağanın hormonlarından düzəldiləcək.

*Sual:* *Bəs niyə yalnız bu canlıların hormonlarından düzəldiləcək, bu dediyin dərman?*

Cavab: At güclüdür, it dözümlüdür, tısbağa uzunömürlüdür.

# DÖVLƏT BAŞÇILARI VƏ ASTROLOQLAR

Vaxtilə Avropanın kral saraylarında mütləq astroloqlar olardı. Bu, XV – XVIII əsrlərdə xüsusilə geniş yayılmışdı. Lakin onların həyatı həmişə qorxu altında olardı. Bəzən arzu olunmayan bir hadisəni irəlicədən xəbər verən astroloq edam edilirdi. Bəzən cəza bir az yüngül olurdu.

Yuxarıda göstərdiyimiz kimi, XIII Lüdovikin tezliklə öləcəyini xəbər verən astroloqu çoxavarlı gəmidə qul kimi avar çəkməyə göndərmişdilər.

Maraqlıdır ki, bizim zəmanəmizdə də dövlət başçıları astroloqların xidmətindən bəhrələnirlər. Məsələn, Fransa Prezidenti Fransua Mitteran astroloq Elizabet Tesyenin məsləhətlərinə qulaq asmış, 1989-1994-cü illər arası bu və ya digər qərarın çıxarılmasında onun qənaəti nəzərə alınmışdı.

ABŞ Prezidenti Ronald Reyqan 1989-cu ildə hakimiyyətə gələn kimi üç nəfər astroloqu rəsmi məsləhətçi təyin etmişdi və onlarla məsləhətləşmədən heç bir qərar qəbul etməzmiş. Hətta o, vitse-prezidenti də astroloqların hesablamalarına əsasən seçmişdi. Corc Buş da (ata) vitse-prezidentlikdən prezident kürsüsünə qalxanda müntəzəm olaraq astroloq Coan Kiqli ilə məsləhətləşərmiş.

Bill Klinton da ABŞ Prezidenti seçildikdən sonra nostradamuslar nəslinin nümayəndəsi Karl de Nostredeymin görücülüyündən bəhrələnmişdi. Almaniyada Buxela adlı qaraçı görücünün məsləhətləri nəzərə alınarmış.

“Moskovskiye novosti” qəzetinin məlumatına görə, Rusiyada həmişə astroloqların tövsiyəsinə diqqət yetirilib. Boris Yeltsinin astroloqu varmış. Keçmiş Milli Təhlükəsizlik orqanlarının əməkdaşı Georgi Roqozin onun şəxsi astroloqu imiş. İndi Rusiyada bu işi Kosmosu tədqiq edən xüsusi institut görür. Bu institutda astroloq A.S.Buzinovun şöbəsi Müdafiə Nazirliyinin sifarişlərini yerinə yetirir. Bu şöbənin varlığı yaxın zamanlara kimi məxfi saxlanmışdı. Yeri gəlmişkən, rus alimləri və astroloqları Nostradamus fenomenindən söhbət açarkən göstəriblər ki, Nostradamusun qənaətinə görə dünyanı meydana gələcək yeni din xilas edəcəkdir. Bu dini filosoflar sektası yaradacaq və onun daşıyıcıları ölüm, şan-şöhrət və var-dövlətə böyük laqeydliklə yanaşacaqlar. Bu din məhəbbət, ağıl, idrak dini olacaq.

# KATRENLƏRDƏ ADI ÇƏKİLƏN TARİXİ ŞƏXSİYYƏTLƏRİN GÖSTƏRİCİSİ

| | |
|---|---|
| Russo Voldekt (1 k7) | XIX əsrin sonlarında Fransada hakim |
| Henri (1 k8) | Fransa kralı IV Henri (1594-1610). |
| Paster (1 k25) | Lui Paster. Mikrobiologiyanın banisi, qarayara və quduzluq peyvəndlərini kəşf edən fransız alimi. |
| Hitler (2 k24, 5 k29) | Adolf Hitler. |
| Ney (2 k82) | Marşal Mişel Ney. Napoleon dövründə görkəmli sərkərdə. |
| Böyük Po (2 k94, 6 k79) | Napoleon Bonapart. |
| Antuan (4 k88) | Navarra kralı Antuan de Burbon (1555-1562). |
| Montye (5 k57) | 1782-ci ildə hava şarını icad edən Jozef və Mişel Montye qardaşları. |
| Sextus (5 k57) | Sekst. Roma Papası VI Piy. |
| Axill (7 k1) | Axill de Harli. Parisdə Parlamentin sədri (1617-ci il). |
| Markiz dü Pon (7 k24) | Lotaringlər sülaləsinin nümayəndəsi (XVIII əsrin əvvəlləri). |
| Giz (7 k29) | Henri de Giz. Fransa ordusunun baş komandanı (XVI əsrin 4-cü rübü). |
| Alba (7 k29) | Müqəddəs Roma İmperiyası ordusunun baş komandanı. 1582-ci ildə dünyasını dəyişib. |
| Piylər (8 k1) | Roma Papaları VI və VII Piylər. Napoleon VI Piyi zindana salmışdı. O, 1799-cu ildə zindanda öləndən sonra Papa seçilən VII Piy də Napoleonun əsiri kimi saxlanırdı. |
| Qorsan (8 k22) | Parlamentin deputatı Antuan Jozef Qorsan (1752-1793). Adlı-sanlı jurna- |

Qorsan (8 k22) -Parlamentin deputatı Antuan Jozef Qorsan (1752-1793). Adlı-sanlı jurnalist olan Qorsan “Courier de Paris a Versailles”in əsasını qoyub.

Narbonn (8 k22, 9 k34) -Nazir. Qraf Lui Mari Jak de Narbonn (1755-1813).

Pavel (8 k46) Roma Papası VI Pavel.

Franko (9 k16) Fransisko Franko.

Rivera (9 k16) -Primo de Rivera. İspaniyanın kralı. 1930-cu ildə dünyasını dəyişmişdir.

Monmoransi (9 k18) -Henri de Monmoransi. Fransanın konnetablı.

de Qoll (9 k33) Şarl de Qoll. Fransanın sabiq prezidenti.

Solse (9 k34) Varenn şəhərinin Bələdiyyə rəisi.

Ferdinand (9 k35) -Bolqarıstanın kralı (XIX əsrin sonu, XX əsrin 1-ci rübü).

Nikols və Luiza (9 k59) -Ana və qızı. Lotaringlər sülaləsinin nümayəndələri. Luiza Fransa kralı III Henriyə ərə getmişdi.

Amar Montelmarlı (9 k68) -Böyük Fransa inqilabı (1789-1794) dövründə Təhlükəsizlik Komissiyasının sədri.

Filipp (9 k89) -Lui Filipp. Fransa dövlətinin başçısı (1830-1848).

Duçe (9 k95) Rəhbər. Benito Mussolini.

Mariya (10 k55) -Mariya Stüart. Şotlandiyanın kraliçası.

## KATRENLƏRDƏ SÖZ AÇILAN DƏQİQ TARİX VƏ MÜDDƏTİN GÖSTƏRİCİSİ

1 k49, 2 k51, 3 k57, 3 k77, 3 k96, 4 k95, 4 k96, 5 k81, 6 k2, 6 k54, 6 k74, 7 k13, 8 k65, 8 k71, 8 k88, 9 k72, 9 k73, 9 k89, 10 k4, 10 k32,10 k89, 10 k 72, 10 k91, 10 k100, 10 k100[a]

## KATRENLƏRDƏ BƏHS EDİLƏN HƏRBİ TEXNİKANINADININ GÖSTƏRİCİSİ


| | |
|---|---|
| Trident (5 k62) | -Traydent. ABŞ-ın çox güclü sualtı qayığı. |
| Rauiere (9 k43) | -Paul Revere. ABŞ-ın hərbi-dəniz donanmasında ən güclü raketatan gəmi. |


## ÖLKƏLƏR, İBRƏTAMİZ HADİSƏLƏR VƏŞƏXSİYYƏTLƏRLƏ BAĞLI OXUCULARIN DAHA ÇOX DİQQƏT YETİRMƏSİNİ TÖVSİYƏ ETDİYİMİZKATRENLƏRİN GÖSTƏRİCİSİ


| | |
|---|---|
| Azərbaycan | -3 k31, 3 k77, 3 k90, 4 k87, 5 k6, 5 k91, 6 k8, 7 k2, k-54 sentyabr 1560-cı il üçün almanaxda. |
| ABŞ | -1 k15, 1 k50, 1 k91, 2 k22, 2 k60, 5 k69, 8 k28, 8 k74, 10 k71 |
| ABŞ – Əfqanıstan | 1 k87 |
| ABŞ – İngiltərə | 7 k80, 10 k66 |
| ABŞ – İran | 6 k82 |
| ABŞ – İraq | -6 k33, 6 k34, 6 k44, 6 k 90, 7 k18, 8 k70, 10 k68, 10 k86 |
| ABŞ – Sovet İttifaqı | 10 k76 |
| -ABŞ – Yaponiya | |
| | (Pirl Harbor münaqişəsi) 9 k100 |
| ABŞ və Yeddilər | 4 k 50, 8 k4[a] |
| -ABŞ (11 sentyabr 2001-ci il hadisələri) | 1 k87, 2 k30, 10 k49 |
| ABŞ və demokratiya. | |
| Azadlıq heykəli | 7 k18, 8 k14, 8 k70, 10 k98 |

| | |
|---|---|
| Adolf Hitler | -1 k74, 3 k33, 3 k35, 3 k58, 3 k84, 4 k40, 5 k18, 6 k65, 8 k47, 9 k90, 10 k32, 10 k36 |
| Astronavtlar, faciə | 1 k81 |
| Astronavtlar, sevinc | 9 k65 |
| Ayətullah Xomeyni | 1 k70, 2 k2, 5 k84, 6 k61 |
| Benito Mussolini | -2 k24, 5 k21, 5 k29, 6 k31, 7 k32, 8 k33, 9 k2, 9 k80, 9 k95, 10 k11, 10 k20, 10 k64, 10 k78 |
| Böyük Britaniya | -2 k51, 2 k53, 3 k70, 3 k71, 3 k80, 4 k89, 8 k64, 8 k76, 9 k11, 9 k66, 10 k56, 10 k66, 10 k100, 10 k100[a], 12 k36 |
| Boris Yeltsin | 8 k95 |
| Con Kennedi | -1 k26, 2 k57, 4 k6, 4 k14, 4 k49, 6 k37 |
| Corc Buş (oğul) | 5 k65, 6 k90, 8 k70, 10 k10 |
| -I Çarlz (İngiltərənin kralı) | 1 k88, 5 k93, 8 k37, 9 k11, 9 k49 |
| Çarlz və Diana | 3 k16, 7 k23 |
| Ərəb-İsrail münasibətləri | 2 k60, 3 k97 |
| Farforun kəşfi | 1 k21 |
| Fələstin | 1 k61, 2 k60 |
| Fransa | -3 k72, 3 k87, 3 k96, 4 k96, 5 k40,8 k65 |
| -Fransa – İngiltərə (xəyanət və nifrət) | 7 k33 |
| Fransisko Franko | -3 k54, 3 k68, 5 k18, 5 k33, 5 k59,6 k15, 6 k45, 9 k16, 10 k11 |
| Xirosima-Naqasaki | 2 k6, 2 k70 |
| İndira Qandi | 7 k16 |
| -İran və Şah MəhəmmədRza Pəhləvi | 1 k70, 4 k59, 6 k82, 10 k21, 10 k31 |
| İran – İraq müharibəsi | 5 k19, 5 k25 |

| | |
|---|---|
| İraq | -2 k35, 3 k61, 3 k81, 5 k19, 6 k33,6 k90, 8 k55, 9 k76 |
| Qriqori Rasputin | 6 k72 |
| Kral VIII Eduard və Vallis | 10 k22, 10 k40 |
| Lenin | 10 k26 |
| Leninqradın mühasirəsi | 4 k52, 9 k99 |
| XIV Lüdoviq | |
| (Fransa kralı) | 10 k58, 10 k 79, 10 k89 |
| XVI Lüdoviq | |
| (Fransa kralı) | -1 k57,1 k65, 3 k66, 4 k85, 6 k92, 7 k44, 8 k22, 8 k23, 8 k87, 9 k20, 9 k23, 9 k77 |
| Lui Paster | 1 k25 |
| Mariya Stüart | |
| (Şotlandiya kraliçası) | 1 k86, 10 k39, 10 k55, 10 k84 |
| Marksizm təlimi | 3 k67 |
| Marşal Peten | 8 k65, 10 k69, 10 k85 |
| Mixail Qorbaçov | 2 k5, 2 k89, 2 k98, 9 k51, 12 k55 |
| Millətlər Birliyi | 8 k64 |
| -Misir Ehramları: möcüzə və faciə | 9 k7 |
| Montqomeri Qabriyel | 1 k35, 3 k30 |
| Napoleon Bonapart | -1 k23, 1 k24,1 k32, 1 k37, 1 k38, 1 k60, 1 k76, 1 k98, 2 k66, 2 k82, 3 k37,4 k26, 4 k54, 5 k7, 6 k9, 6 k12, 6 k25, 6 k67, 6 k89, 7 k13, 8 k1, 8 k53, 8 k57, 8 k 59, 8 k61, 8 k85, 8 k92, 9 k26, 10 k30, 10 k34 |
| III Napoleon | 2 k92, 4 k45, 8 k41, 8 k43 |
| II Nikolay | -1 k68, 4 k53, 4 k71, 6 k50, 6 k72,8 k80, 9 k5 |
| Olimpiada: möcüzə | 10 k74 |
| Papa XVI Benedikt | 7 k22 |
| Papa I Pavel | -2 k15, 3 k65, 4 k11, 5 k92, 9 k4,10 k12 |

| | |
|---|---|
| Papa II Pavel | 1 k95, 2 k15, 2 k93, 5 k49 |
| Raciv Qandi | 7 k17 |
| Raketlər barədə | 1 k29, 2 k46, 6 k34 |
| Reyqan–Qorbaçov | 2 k5 |
| Səddam Hüseyn | 7 k18, 8 k55, 10 k57 |
| Şərq barədə həqiqətlər | 4 k50, 5 k96, 8 k4[a] |
| Slobodan Miloşeviç | 6 k97 |
| Sovet–Amerika olayları | 4 k95 |
| Sovet–Əfqan olayları | 2 k48, 7 k7 |
| Sovet İttifaqı | 6 k50, 6 k74, 8 k90, 10 k1, 10 k76 |
| Stalin | 8 k80 |
| -Türkiyə–Azərbaycan münaqişəsi | 5 k50 |
| Türkiyə | -1 k62, 2 k1, 3 k59, 3 k98, 4 k 38, 6 k75, 10 k61, 10 k62, 10 k95, 10 k97, 12 k36 |
| Varfolomey gecəsi | 3 k25 |
| Vatikan olayları | 2 k15, 3 k65, 4 k11, 8 k62 |
| Yeddilər və kiçik dövlətlər | 8 k4[a] |
| II Yekaterina | 8 k15 |
| I Yelizaveta | 3 k28, 10 k19, 10 k39, 10 k84 |
| Yeni din və təriqət | 10 k75, 10 k96 |

# MÜƏLLİFİN ŞƏXSİ KİTABXANASINDA OLAN VƏ BƏHRƏLƏNDİYİ ƏSAS KİTABLARIN SİYAHISI


## AZƏRBAYCANCA:

1. Azərbaycan Sovet Ensiklopediyası. X cilddə, Bakı, 1976-1987-ci illərdə çap olunub.
2. Bəkir Nəbiyev. Amerika görüşləri. Bakı, 1999, 32 səh.
3. Hitler Adolf. Mənim Savaşım. Türkcədən çevirən: Əvəz Zeynallı, Bakı, 2004, 526 səh.
4. Höte İ.V.Faust. Bakı, 1986.
5. İngiliscə-Azərbaycanca lüğət. Lüğət prof. Oruc Musayevin rəhbərliyi altında tərtib edilmişdir. Bakı, 2003, 1647 səh.
6. Quluzadə Cəfər. Klassik astronomiya. Bakı, 2004, 299 səh.
7. Məmmədli İmir. Allahın bəlası Nostradamus. Bakı, 1995, 63 səh.
8. Nostradamus. Peyğəmbərlik. Tərcümə, ön söz və şərhlərə əlavələr Valeh Məhərrəmlinindir. Bakı, 1995, 175 səh.
9. Plutarx. İsgəndər Zülqərneyn. Azərnəşr, 1993.
10. Y.V.Tarle. Napoleon – (ruscadan tərcümə edəni: İmran Xəlilov). Bakı, 1993, 464 səh.
11. Vasim Məmmədəliyev zirvəsi. 2002, 350 səh.

## ƏRƏBCƏ:

12. Nostradamusun görücülüyü (fransızcadan ərəbcəyə tərcümə: Cəmil Həmmadənindir). Bağdad, 1989.
13. Nostradamusun görücülüyü. Qahirə, 2003, 440 səh.

## FARSCA:

14. Nostradamusun görücülüyü (fransızcadan farscaya tərcümə və şərhlər Puran Farruxzada məxsusdur). Tehran, 1378 (hicri), 1071 səh.

## İNGİLİSCƏ:

15. Bardo Kidogo. Nostradamus. The key to his predictions. London, 1994, 270 pages.

16. Damon Wilson. The Mammoth book of Prophecies. London, 2003, 501 pages.

17. David Geddes. The prophesies of Nostradamus. London, 2000, 243 pages.

18. David Ovason. The Nostradamus Code. London, 1998, 640 pages.

19. David Ovason. Nostradamus. Prophecies for America. USA, New York, 2001, 179 pages.

20. David S. Montaigne. Nostradamus. World War III – 2003, 147 pages.

21. Edqar Leoni. Nostradamus and his Prophecies. USA, New York, 1961; 1982, 823 pages.

22. Erika Cheetham. The Prophecies of Nostradamus. England, Reading city, 1973, 478 pages.

23. Herbie Brennan. The little book of Nostradamus. London, 1999, 92 pages.

24. Ian Wilson. Nostradamus. The Evidence. London, 2002, 304 pages.

25. Jack Manuelian. Nostradamus: Predictions of World War III. USA, 1996, 160 pages.

26. John Hogue. Nostradamus. The Complete Prophecies. UK, 2001, 962 pages.

27. John Hogue. The New Millennium. London, 2002, 256 pages.

28. John Hogue. The Essential Nostradamus. London, 2002, 272 pages.

29. John Hogue. Nostradamus. A life and Myth. London, 2003, 444 pages.

30. Luciano Sampietro. Nostradamus. The final prophecies. London, 2002, 292 pages.

31. Millie Ridge. Nostradamus. An illustrated guide to his predictions. London, 1993, 80 pages.

32. Michael Æordan. Nostradamus and the new millennium. Dubai, 1998, 128 pages.

33. Ned Halley. The Complete Prophecies of Nostradamus. England, Kent, 1999,288 pages.

34. Ottavia Cesare Ramotti. Nostradamus. The lost Manuscript (İtalyan dilindən ingiliscəyə tərcümə). USA, 1998; 2002, 167 pages.
35. Peter Lemesurier. The Essential Nostradamus. London, 1999, 133 pages.
36. Peter Lemesurier. Nostradamus in the 21st Century. England, Reading, 2001, 326 pages.
37. Peter Lemesurier. Nostradamus. The Final reckoning. England, Kent, 2001, 202 pages.
38. Peter Lemesurier. Nostradamus. The illustrated prophecies. Winchester – UK; New York – USA, 2003, 422 pages.
39. Peter Lemesurier. The unknown Nostradamus. UK, 2003, 269 pages.
40. Peter Lorie. Nostradamus. The Millennium and beyond. New York, 1993, 224 pages.
41. Peter Lorie. Nostradamus. 2003-2025. A History of the Future. USA, New York, 2002, 234 pages.
42. Stefan Paulus. Nostradamus. USA, Minnesota, 1998, 282 pages.
43. Teresa Moorey. Nostradamus. A beginner's guide. London, 2000, 88 pages.
44. Welsh R.W. Comet of Nostradamus. USA, Minnesota, 2000, 318 pages.
45. Zolar. The Encyclopedia of ancient and forbidden knowledge. London, 1971, 472 pages.

## RUSCA:

46. Aleksey Penzenskiy. Nostradamus: Mif i realğnostğ. Moskva, 2003, 448 str.
47. Valentin Zorin. Amerika semidesətıx. Moskva, 1980, 244 str.
48. Velikaə Vanqa. Taynı əsnovideniə i predskazaniy. Minsk, 2002, 400 str.
49. Velikie proroçestva Mişelə Nostradamusa (Sostavitelğ: E.Avdəeva). Moskva, 384 str.
50. Vse o Nostradamuse (Avtor sostavitelğ: R.S.Belousov). Moskva, 2000, 400 str.

51. Denis Mgk Smit. Mussolini (ingiliscədən tərcümə). Moskva, 1995, 384 str.

52. Dæon Xouq. Nostradamus. Novıe otkrovenie (ingilis dilindən tərcümə). Moskva, 1997, 352 str.

53. Dæon Xouq. Nostradamus. Polnoe sobranie proroçestv (ingilis dilindən tərcümə). Moskva, 1999, 864 str.

54. Dmitriy Zima, Nadeæda Zima. Rasşifrovannıy Nostradamus. Moskva, 1998, 384 str.

55. Dgvid S. Montenğ. Nostradamus i III Mirovaə voyna (ingiliscədən tərcümə). Sankt-Peterburq, 2002, 160 str.

56. Æölğ Vern. S zemli na lunu. Moskva, 1954.

57. Zima D., Zima N. Rasşifrovannıy Nostradamus. Predskazaniə sbıvaötsə?!, Moskva, 2001, 384 str.

58. Kemal Aliev. Antiçnaə Kavkazskaə Albaniə. Baku, 1992, 237 str.

59. Krılov Q.A. Tak predskazal Nostradamus. Sankt-Peterburq, 2000, 202 str.

60. Kun N.A. Leqendı i mifı drevney Qreüii. Vladikavkaz, 1993, 432 str.

61. Maksim Qenin. Nostradamus: Prorok Evropeyskoy istorii. Xarğkov, 1991, 178 str.

62. Manfred Dimda. Nostradamus (almancadan tərcümə). Moskva, 1998, 430 str.

63. Mişelğ Zevako. Æiznğ i löbovğ Nostradamusa. 1909-cu ildə Fransız yazıçısının çap etdirdiyi bu roman rus dilinə H.Vasilkova tərəfindən tərcümə edilib. Moskva, 2000, 448 str.

64. Morok A., Razumovskaə K. Novaə Rasşifrovka predskazaniy Nostradamusa. Moskva, 2000, 320 str.

65. Orexov D. Nastupit li koneü sveta v 2000 qodu? Sankt-Peterburq, 1999, 187. str.

66. Snou Ç. Buduhee. Vaşa æiznğ posle 2000 qoda. Moskva, 1998.

67. Sonnik Nostradamusa (Sostavitelğ O.İvanov). Moskva, 1999, 240 str.

68. Taynı predskazaniy velikoqo Nostradamusa (Avtor-sostavitelğ P.N.Belov). Minsk, 1999, 415 str.

69. Farida Mamedova. Politiçeskaə istoriə i istoriçeskaə qeoqrafiə Kavkazskoy Albanii. Baku, 1986, 284 str.
70. Tak qovoril Nostradamus (Sostavitelğ: T.Ukrainskaə). Moskva, 2000, 544 str.
71. Çistəkov B.D. Rasskazı o matematikax. Minsk, 1966, 292 str.
72. Öriy Muxin. Kto ubival amerikanüev 11 sentəbrə 2001 qoda? – Moskva, 2005, 160 str.

## TÜRKCƏ:

73. Allan Hall. Nostradamus (Türkcəyə çevirən: Gül Çağalı Guven). İstanbul, 1998, 142 səh.
74. Brennan J.H.Nostradamus. Gelecekten kehanetler (Türkcəyə çevirən: Sevgi Değirmençi). İstanbul, 2001, 268 səh.
75. Brennan J.H.Nostradamus. Gelecegin Vizyonları (Türkcəyə çevirən: E.Tülin Batır). İstanbul, 256 səh.
76. Kurt Allgeier. Nostradamusdan gelecegin tarihi (almancadan tərcümə). İstanbul, 1999, 137 səh.
77. Paul Roland. Milenyum 2000 kehanetleri (Türkcəyə çevirən: Eda Aksan). İstanbul. 2000, 183 səh.
78. Peter Lemesurier. Nostradamus. Gelecek 50 yılın kehanetləri (Türkcəyə çevirən: Mehmet Harmancı). İstanbul, 1997, 294 səh.
79. Peter Lemesurier. Nostradamus: Son Hesablaşma (Türkcəyə çevirən: Kayhan Şentin). İstanbul. 1997, 191 səh.
80. Peter Lorie; V.J.Hewitt. Nostradamus.1992-den 2001-e kehanetler (Türkcəyə çevirən: Murat Kamançıoğlu). İstanbul. 1999, 200 səh.
81. Peter Lorie. Nostradamus. Bin yıl ötesi. 2016-ya kadar kehanetler (Türkcəyə çevirən: Belkis Çorakçı). İstanbul, 1995; 1999, 222 səh.
82. Peter Lemesuries. Nostradamus. 2003-2025. Gelecegin tarihi (Türkcəyə çevirən: Seda Çöl). İstanbul. 2004, 240 səh.78.
83. Serkan Tekin. Muhiddin Arabiden Nostradamusa. Kehanetin deşifresi, İstanbul, 2005, 176 səh.

## MÜNDƏRİCAT

Ömür kitabı……………………………………………………………5
İlahi vergi………………………………………………………………9
I Senturiya……………………………………………………………74
II Senturiya…………………………………………………………155
III Senturiya…………………………………………………………240
IV Senturiya…………………………………………………………306
V Senturiya…………………………………………………………359
VI Senturiya…………………………………………………………417
VII Senturiya…………………………………………………………475
VIII Senturiya …………………………………………………………508
IX Senturiya…………………………………………………………571
X Senturiya…………………………………………………………631
XI Senturiya…………………………………………………………696
XII Senturiya…………………………………………………………697

**ƏLAVƏLƏR**

Sezara məktub…………………………………………………………704
Açıqlama………………………………………………………………713
Şöhrətli Oranæa şəhər baş kilsəsinin müqəddəslərinə……………734
Görücünün görücü barədə düşüncələri………………………………736
Vanqa ilə müsahibə……………………………………………………742
Dövlət başçıları və astroloqlar…………………………………………746
Katrenlərdə adı çəkilən tarixi şəxsiyyətlərin göstəricisi……………747
Katrenlərdə söz açılan dəqiq tarix və müddətin göstəricisi…….748
Katrenlərdə bəhs edilən hərbi texnikanın adının göstəricisi……749
Ölkələr, ibrətamiz hadisələr və şəxsiyyətlərlə bağlı oxucuların daha çox diqqət yetirməsi tövsiyə olunan katrenlərin göstəricisi…….749
Müəllifin şəxsi kitabxanasında olan və bəhrələndiyi əsas kitabların siyahısı…………………………………………………………………753

Rəssam *Zaur Əliyev*
Nəşriyyat redaktorları ***Mustafa Çəmənli, Bahadır Eyvazov***
Bədii redaktor ***Abdulla Ələkbərov***
Kompyuterçi-dizaynerlər ***Səbinə Məmmədova, Römən Quliyev, Aqil Əmrahov***
Yığım və səhifələmə ***Səadət Quluzadə, Fatimə Kərimova*** Korrektorları ***Züljiyyə Rzayeva, Günay Məmmədova, Sevinc Hacıyeva***

Çapa imzalanmış 09.01.2007. Kağız formatı 70xl00V$_{16}$.
Fiziki çap vərəqi 47,5. Sifariş 8. Tirajı 3000.
Qiyməti müqavilə ilə.

«Təhsil» nəşriyyatının mətbəəsində çap olunub. Bakı, AZE 1141, Şəhriyar küç.

*Qəzənfər Məhəmməd oğlu Paşayev*

**«NOSTRADAMUSUN MÖCÜZƏLİ ALƏMİ»**

Bakı, «Təhsil», 2007